شرح

رياض الصالحين

من كلام سيد المرسلين

لفضيلة الشيخ العلامة


محمد بن صالح العثيمين

المجلد الرابع

قَالَ رَسُولُ اللَّهِ ﷺ:

﴿ أَلا إِنِّي أُوتِيتُ الْقُرْآنَ وَمِثْلَهُ مَعَهُ ﴾

Peyğəmbər ﷺ buyurmuşdur:
“Bilin ki, mənə Quran və onun bənzəri verilmişdir”.



Şərh

Riyadus-Salihin

İmam ən-Nəvəvi

Şərh edən:

Muhəmməd ibn Saleh əl-Useymin

Dördüncü cild

Redaksiya heyəti

Ə. Z. Musayev
M. N. Qarayev
A. X. Salehli
Əbu Muhəmməd
E. Q. Rüstəmov

Kompüter tərtibatı

M. N. Qarayev

Səksən birinci fəsil

Vəzifə istəməyin bəyənilməməsi, təyin olunmadıqda və ya ehtiyac duyulmadıqda, vəzifədən uzaq durmağı seçmək

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ تِلۡكَ ٱلدَّارُ ٱلۡأٓخِرَةُ نَجۡعَلُهَا لِلَّذِينَ لَا يُرِيدُونَ عُلُوّٗا فِي ٱلۡأَرۡضِ وَلَا فَسَادٗاۚ وَٱلۡعَٰقِبَةُ لِلۡمُتَّقِينَ ﴾

"Biz o Axirət yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. *Gözəl* aqibət müttəqilərindir".[1]

Şərh:

Müəllif ﵀, "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Vəzifə istəməyin bəyənilməməsi, təyin olunmadıqda və ya ehtiyac duyulmadıqda vəzifədən uzaq durmağı seçmək"** adını vermişdir.

Vəzifə dedikdə, insanlara rəhbərlik etmək, onların üzərində başçılıq etmək nəzərdə tutulur. Rəhbərlik böyük və kiçik olmaqla iki qisim olur:

Böyük rəhbərlik, bütün müsəlmanlar üzərində olan ümumi rəhbərlikdir. Peyğəmbərin ﷺ xəlifəsi olan Əbu Bəkrin ﵁ *bütün müsəlmanlar üzərində olan* rəhbərliyi, Ömər ibn əl-Xəttabın, Osman ibn Əffanın, Əli ibn Əbu Talibin ﵃ və digər xəlifələrin rəhbərlikləri bu qəbildəndir. Bu rəhbərlik ümumi rəhbərlik sayılır.

Kiçik rəhbərlik, *əsas rəhbərin idarəçiliyi altında olub* bir neçə bölgəyə, şəhərə və kəndə rəhbərlik etmək, yaxud bundan da kiçik olan, yəni sadəcə bir şəhərə və ya bir kəndə rəhbərlik etməkdir. İnsanın, bu rəhbərlərdən hər hansı birindən olmasına can atması qadağan edilmişdir. Bu barədə bir qədər sonra – Abdurrəhman ibn Səmuranın ﵁ hədisində danışılacaqdır.

Sonra müəllif ﵀ bu fəsli uca Allahın bu ayəsi ilə başlamışdır: **"Biz o Axirət yurdunu yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik. *Gözəl* aqibət müttəqilərindir".** Yəni, Cənnəti yer üzündə təkəbbürlük etmək və fitnə-fəsad törətmək istəməyənlərə nəsib edirik.

---

[1] "əl-Qəsəs" surəsi, 83.

Çox güman ki, rəhbər olmağa can atan adamın məqsədi, özünü insanlardan uca tutmaq, insanları hakimiyyəti altına alıb onlara *istədiyi şeyləri* əmr etmək və ya qadağan etmək olur. Belə bir məqsəd daşımaq günahdır. Odur ki, həmin adamın axirətdən payı olmaz. Allah qorusun! Elə bu səbəbdəndir ki, vəzifəyə can atmaq qadağan olunmuşdur.

Ayədəki **"fitnə-fəsad törətmək istəməyənlərə"** sözünün mənası, yol kəsmək, insanların mallarını oğurlamaq, onların namuslarına təcavüz etmək və başqa bu kimi əməllər vasitəsilə fəsad törətmək istəməyən kəslər deməkdir.

"*Gözəl* aqibət müttəqilərindir", yəni etdikləri əməllərin müqabilində müttəqilər üçün gözəl aqibət vardır. Bu gözəl aqibət ya bu dünyada olacaqdır, ya da axirətdə. İstər bu dünyada, istər axirətdə, istərsə də həm bu dünyada, həm də axirətdə olsun – gözəl aqibət məhz müttəqilərə məxsusdur.

Mövzu ilə əlaqəli hədislər:

٦٧٤ – وَعَنْ أَبِي سَعِيدٍ عَبْدِ الرَّحْمَنِ بْنِ سَمُرَةَ رضي الله عنه قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: « يَا عَبْدَ الرَّحْمَنِ بْنِ سَمُرَةَ: لَا تَسْأَلِ الإِمَارَةَ، فَإِنَّكَ إِنْ أُعْطِيتَهَا عَنْ غَيْرِ مَسْأَلَةٍ أُعِنْتَ عَلَيْهَا، وَإِنْ أُعْطِيتَهَا عَنْ مَسْأَلَةٍ وُكِلْتَ إِلَيْهَا، وَإِذَا حَلَفْتَ عَلَى يَمِينٍ، فَرَأَيْتَ غَيْرَهَا خَيْراً مِنْهَا، فَأْتِ الَّذِي هُوَ خَيْرٌ، وَكَفِّرْ عَنْ يَمِينِكَ » متفقٌ عليه.

674. Rəvayət edilir ki, Əbu Səid Abdurrəhman ibn Səmura رضي الله عنه demişdir: "Rəsulullah ﷺ mənə belə dedi: **"Ey Abdurrəhman ibn Səmura, heç vaxt vəzifə istəmə! Çünki vəzifə sənə sən istəmədən verilərsə, bu işdə sənə *Allah tərəfindən* yardım edilər. Yox, əgər vəzifə sənə sənin istəyinlə verilərsə, onda *bu işdə sənə Allah tərəfindən yardım edilməz və* onunla baş-başa buraxılarsan. Habelə, əgər sən and içdikdən sonra, başqa bir işin ondan daha xeyirli olduğunu görsən, daha xeyirli olanı yerinə yetir və andını pozduğuna görə də kəffarə ver".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[1] "Səhih əl-Buxari", 7146; "Səhih Muslim", 1652.

Şərh:

Müəllif ﵀ ayənin ardından Abdurrəhman ibn Səmuranın ﵁ hədisini nəql etmişdir. Hədisdə deyilir ki, Rəsulullah ﷺ ona belə dedi: **"Ey Abdurrəhman ibn Səmura!"** Deyəcəyi sözlərə diqqət yetirsin deyə, Peyğəmbər ﷺ ona həm onun adını, həm də atasının adını çəkərək: **"Ey Səmuranın oğlu Abdurrəhman!"** – deyə səslənmişdir. Çünki məsələ elə də asan məsələ deyildir. **"Heç vaxt vəzifə istəmə!",** yəni rəhbər olmağı tələb etmə. **"Əgər vəzifə sənə sənin istəyinlə verilərsə...",** yəni sənin tələbinə görə verilərsə, **"onda *bu işdə* onunla baş-başa buraxılarsan". "Yox, əgər vəzifə sənə sən istəmədən verilərsə, bu işdə sənə yardım edilər"**, yardım edən də Allah olar.

Əgər vəzifə sənə sənin istəyinlə verilərsə, o zaman Allah səni onunla birlikdə başlı-başına buraxar və səni tənha qoyar. Allah qorusun! Bundan sonra da həmin işdə uğursuzluğa məruz qalar və heç bir müvəffəqiyyət qazana bilməzsən. Yox, əgər vəzifə sənə sən istəmədən verilərsə, yəni insanlar öz istəkləri ilə səni seçər və sənin rəhbər olamağını tələb edərlərsə, o zaman bu işdə Allah sənə yardım edər. Yəni, belə olduqda həmin vəzifəni qəbul et və götür.

Bu məsələ mal məsələsinə bənzəyir. Çünki Peyğəmbər ﷺ Ömərə ﵁ belə demişdir: **"Əgər canfəşanlıq göstərmədən və istəmədiyin halda sənə bu maldan bir şey verilərsə, onu *mütləq* götür və *öz* malına qat. Sonra da, istərsən onu özün ye, istərsən də *başqalarına* sədəqə et. Verilmədikdə isə, onun dalına düşmə".**[1]

Bu səbəbdəndir ki, uğur qazanmaq istəyən insan heç bir vəzifə tələb etməməlidir. İstəmədiyi halda ona bir vəzifə verildikdə isə, həmin vəzifəni götürə bilər və bu onun üçün daha yaxşı olar. Vəzifə tələb etməyə və bu işdə israrlı olmağa gəlincə, qorxuram ki, bu məsələ Peyğəmbərin ﷺ bu hədisinin hökmü altına düşsün: **"Əgər canfəşanlıq göstərmədən və istəmədiyin halda sənə bu maldan bir şey verilərsə, onu *mütləq* götür və *öz* malına qat. Sonra da, istərsən onu özün ye, istərsən də *başqalarına* sədəqə et. Verilmədikdə isə, onun dalına düşmə".**

Bir insanın ona şöhrət və ya vəzifə qazandıran bir şeyi tələb etməməsi təqvalı və ehtiyatlı olmasındandır. Əgər sən istəmədən sənə vəzifə

[1] "Səhih əl-Buxari", 7164; "Səhih Muslim", 1045.

verilərsə, onu götür. Əgər verilməsə, onu tələb etməməyin təqva və ehtiyat baxımından daha yaxşıdır. Çünki dünya dəyərsiz bir şeydir. Əgər uca Allah, sənə yetəcək və fitnəsi olmayacaq qədər ruzi veribsə, bu, səni fitnəyə salacaq çox maldan daha xeyirlidir. Allahın bizi qorumasını istəyirəm.

"Heç vaxt vəzifə istəmə! Çünki vəzifə sənə sən istəmədən verilərsə, bu işdə sənə *Allah tərəfindən* yardım edilər. Yox, əgər vəzifə sənə sənin istəyinlə verilərsə, onda *bu işdə sənə Allah tərəfindən yardım edilməz və* onunla baş-başa buraxılarsan. Habelə, əgər sən and içdikdən sonra, başqa bir işin ondan daha xeyirli olduğunu görsən, daha xeyirli olanı yerinə yetir və andını pozduğuna görə də kəffarə ver". Yəni, bir işi görməyəcəyinə dair and içdikdən sonra sənə bəlli olsa ki, xeyir həmin işi görməkdədir, o zaman andının kəffarəsini ver və həmin işi gör. Yaxud bir işi görəcəyinə dair and içsən, sonra da sənə bəlli olsa ki, onu tərk etmək daha xeyirlidir, onda həmin işi tərk et və andının kəffarəsini ver.

Peyğəmbərin ﷺ *bu məqamda and barəsində* bu sözləri deməsinin səbəbi budur ki, rəhbər olmaq insana təkəbbürlük gətirir və bundan dolayı, insan rəhbər olduğu zaman bir şeyə dair and içdikdə, andından geri dönmək istəmir. Lakin adam rəhbər olsa belə, əgər bir işi görəcəyinə dair and içsə, sonra da onu tərk etməyin daha xeyirli olduğunu görsə, o zaman onu tərk etməlidir. Yaxud bir işi tərk edəcəyinə dair and içsə, sonra da o işi etməyin daha xeyirli olduğunu görsə, o zaman onu etməlidir. Bu hökm həm rəhbərə, həm də başqalarına aiddir.

Bir sözlə, bir işi etməyəcəyinə dair and içsən, sonra da görsən ki, xeyir onun əksini etməkdədir, o zaman andının kəffarəsini ver və xeyirli olanı et. Məsələn, bir adam, öz qohumu ilə arasında baş verən narazılıqdan dolayı onu ziyarət etməyəcəyinə dair: "Vallahi, mən filankəsi ziyarət etməyəcəm!"– deyə and içib. Bu, qohumluq əlaqələrini kəsməyə dair olan bir anddır. Halbuki qohumluq əlaqələrini birləşdirmək, onu kəsməkdən daha xeyirlidir. Belə bir durumda deyirik ki, sənin andını pozub kəffarə verməyin və o qohumunu ziyarət etməyin vacibdir. Çünki bu, qohumluq əlaqələrini birləşdirmək sayılır, qohumluq əlaqələrini birləşdirmək isə vacibdir.

Başqa bir nümunə göstərək. Məsələn, bir adam öz müsəlman qardaşı ilə danışmayacağına, yəni onu tərk edəcəyinə dair and içib. Bu zaman ona: "Etdiyin bu hərəkət xətadır. Andının kəffarəsini ver və qardaşını danışdır!"– deyirik.

Bütün andlar da elə bu cürdür. Yəni bir şeyə dair and içsən, sonra da xeyirin and içdiyin şeyin əksində olduğunu görsən, o zaman andının kəffarəsini ver və xeyirli olanı et. Bu qayda bütün növ andlar üçün keçərlidir. Lakin insan and içməkdə tələsməməlidir. Əksər insanlar and içməkdə və ya talaq, ya da buna bənzər digər məsələlərdə çox tələsir, lakin sonradan peşman olurlar. Odur ki, biz deyirik: "Bu cür məsələlərdə tələsmə. Əgər bir iş barəsində qərarlısansa, onda onu and içmədən yerinə yetir. Əgər çoxlu and içməyə vərdiş etmisənsə, o zaman andına "in şəə Allah" (əgər Allah istəsə) sözünü də əlavə et. Çünki and içən zaman "in şəə Allah" desən, bu andda sən azadsan. Hətta bu anda müxalif görünən bir işi etsən belə, onun sənə zərəri dəyməz. Məsələn, "Vallahi, in şəə Allah, bu işi görməyəcəm!" – deyə and içsən, sonra da həmin işi görsən, sənin üzərinə heç bir şey vacib olmur. Çünki and içən zaman "in şəə Allah" deyən kəsə andını pozduğunda, kəffarə vacib olmur. Müvəffəq edən Allahdır.

٦٧٥ – وَعَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: « يَا أَبَا ذَرٍّ إِنِّي أَرَاكَ ضَعِيفاً، وَإِنِّي أُحِبُّ لَكَ مَا أُحِبُّ لِنَفسِي، لَا تَأَمَّرَنَّ عَلَى اثْنَيْنِ وَلَا تَوَلَّيَنَّ مَالَ يَتِيمٍ » رواه مسلم.

675. Rəvayət edilir ki, Əbu Zərr ﷺ demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ mənə belə dedi: **"Ey Əbu Zərr! Həqiqətən, mən sənin zəif olduğunu görürəm və həqiqətən, özüm üçün istədiyimi sənin üçün də istəyirəm – *heç vaxt* iki nəfər üzərində *olsa belə*, rəhbər olma və *heç vaxt* yetimin malına idarəçiliyi öz üzərinə götürmə".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

٦٧٦ – وَعَنْهُ قَالَ: قُلْتُ: يَا رَسُولَ اللَّهِ، أَلَا تَسْتَعْمِلُنِي؟ فَضَرَبَ بِيَدِهِ عَلَى مَنْكِبِي ثُمَّ قَالَ: « يَا أَبَا ذَرٍّ إِنَّكَ ضَعِيفٌ، وَإِنَّهَا أَمَانَةٌ، وَإِنَّهَا يَوْمَ القِيَامَةِ خِزْيٌ وَنَدَامَةٌ، إِلاَّ مَنْ أَخَذَهَا بِحَقِّهَا، وَأَدَّى الَّذِي عَلَيهِ فِيهَا » رواه مسلم.

676. Yenə Əbu Zərdən ﷺ rəvayət edilir ki, o demişdir: «*Bir dəfə* mən: "Ya Rəsulullah, məni bir vəzifəyə təyin etməyəcəksənmi?"– dedim. Onda o ﷺ əli ilə çiynimə vurdu, sonra da belə dedi: **"Ey Əbu Zərr, həqiqətən sən zəif bir adamsan, bu *rəhbərlik işi* isə bir əmanətdir. Habelə, bu iş**

[1] "Səhih Muslim", 1826.

Qiyamət günündə də rüsvayçılıq və peşmançılıqdır. Yalnız bu işi haqqı ilə öz üzərinə götürən, *sonra da* bu xüsusda üzərinə düşənləri *layiqincə yerinə* yetirənlər istisnadır"».

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

٦٧٧ – وَعَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « إِنَّكُمْ سَتَحْرِصُونَ عَلَى الإِمَارَةِ، وَسَتَكُونُ نَدَامَةً يَوْمَ القِيَامَةِ » رواهُ البخاري.

677. Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Həqiqətən, siz vəzifəyə can atacaqsınız. *Halbuki vəzifə* Qiyamət günü *yalnız* peşmançılıq gətirəcək".**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

Şərh:

Hafiz ən-Nəvəvinin ﷺ "Salehlər bağçası" adlı kitabının **"Vəzifə istəməyin bəyənilməməsi, təyin olunmadıqda və ya ehtiyac duyulmadıqda, vəzifədən uzaq durmağı seçmək"** başlıqlı fəslində Əbu Zərə ﷺ istinadən rəvayət etdiyi hədisdə deyilir ki, *bir dəfə* Peyğəmbər ﷺ ona belə dedi: **"Ey Əbu Zərr, həqiqətən, mən sənin zəif olduğunu görürəm və həqiqətən, özüm üçün istədiyimi sənin üçün də istəyirəm. *Heç vaxt* iki nəfər üzərində *olsa belə*, rəhbər olma və *heç vaxt* yetimin malına idarəçiliyi öz üzərinə götürmə".**

Peyğəmbər ﷺ bu dörd kəlmə ilə Əbu Zərə ﷺ *hər şeyi* bəyan etdi:

1) Peyğəmbər ﷺ Əbu Zərə ﷺ: **"Həqiqətən, mən sənin zəif olduğunu görürəm"**– deyir. Şübhəsiz ki, belə sözlər insanın üzünə açıq-aşkar deyilərsə, bu onun nəfsinə ağır gələr. Ələlxüsus da, sənin barəndə bu sözü Peyğəmbər ﷺ dedikdə, yəni sənə: **"Həqiqətən, sən zəif bir adamsan"**– deyərsə, bu sənə çox *pis* təsir edə bilər. Lakin əmanət bunu tələb edir. Yəni *belə bir durumda* insana, onun sahib olduğu xasiyyət aşkar bəyan edilməlidir – güclüdürsə, güclü, zəifdirsə, zəif olduğu ona deyilməlidir. Həqiqi nəsihət də budur: **"Həqiqətən, sən zəif bir adamsan".** Bir adamın, nəsihət

[1] "Səhih Muslim", 1825.

[2] "Səhih əl-Buxari", 7148.

baxımından digər bir bir adama: "Sən filan və filan cür adamsan"– deməsində heç bir qəbahət yoxdur. Ancaq əgər bu sözlər ona təhqir və alçaltmaq niyyəti ilə deyilərsə, təbii ki, bu günah sayılar.

2) Sonra *Peyğəmbər ﷺ sözünə davam edib*: "**həqiqətən, özüm üçün istədiyimi sənin üçün də istəyirəm"**– deyir. Bu, Peyğəmbərin ﷺ ən gözəl əxlaq sahibi olmasından irəli gəlir. Birinci cümlədə qəlbi qıran sözlər olduğu üçün, ikinci cümlədə: "**həqiqətən, özüm üçün istədiyimi sənin üçün də istəyirəm"**– deyir. Yəni, özüm üçün istədiyimi sənin üçün də istədiyimə görə bu sözləri sənə demişəm.

3) "*Heç vaxt* iki nəfər üzərində *olsa belə*, rəhbər olma!" Yəni, iki nəfər olsa belə, onların üzərində rəhbərlik etmə. Ələlxüsus da, bu say ikidən çox olarsa.

Peyğəmbər ﷺ Əbu Zərə rəhbər olmağı qadağan edir. Çünki o, zəif idi. Rəhbərliyin isə güclü və etibarlı insanlara ehtiyacı var. Rəhbər güclü, hökmran, sözünün kəsəri olan və dediyini yerinə yetirən birisi olmalı, insanlar qarşısında zəif olmamalıdır. Çünki insanlar bir adamın zəif olduğunu görərsə, ona ehtiram göstərməzlər. Beləsinə qarşı qalxmağa hətta zatıqırıq və alçaq insanlar belə cürət edər. Bu zaman həmin rəhbərin heç bir dəyəri olmaz. Lakin əgər rəhbər güclü və sözünün kəsəri olan birisi olarsa, uca Allahın qoyduğu hüdudları aşmazsa, habelə Allahın ona verdiyi rəhbərlik vəzifəsini layiqincə yerinə yetirərsə, həqiqi rəhbər də elə o sayılar.

4) "*Heç vaxt* yetimin malına idarəçiliyi öz üzərinə götürmə". Yetim, həddi-büluğa çatmadan öncə atası vəfat edən kimsədir. Peyğəmbər ﷺ Əbu Zərə رضي الله عنه yetimin malı üzərində rəhbərlik etməyi qadağan etmişdir. Çünki yetimin malı üzərində rəhbərlik həm diqqət tələb edir, həm də nəzarət. Uca Allah buyurur: **"Şübhəsiz ki, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və *beləcə*, onlar alovlu atəşə girəcəklər".**[1] Əbu Zərr رضي الله عنه zəif olduğu üçün yetimin malını layiqincə idarə edə bilməzdi. Ona görə də Peyğəmbər ﷺ ona: **"*Heç vaxt* yetimin malına idarəçiliyi öz üzərinə götürmə"**– dedi. Yəni, yetimin malı üzərində nəzarətçi olma, o işi başqasına burax.

Bu hədis dəlildir ki, rəhbər olmaq üçün insanın güclü və etibarlı olması şərtdir. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Bu *rəhbərlik işi* isə**

[1] "ən-Nisa" surəsi, 10.

bir əmanətdir". Əgər bir adam güclü və etibarlı olarsa, o, bu sifətlərə malik olmasından dolayı, rəhbər olmağa layiqdir. Yox, əgər güclü birisi etibarsız olarsa, yaxud etibarlı birisi gücsüz olarsa, yaxud da birisi həm zəif, həm də etibarsız olarsa, bu üç qisim insandan heç biri rəhbər ola bilməz.

Ancaq onu da bilməliyik ki, bütün işlər ehtiyaca görə edilir. Əgər yalnız zəif rəhbər və ya yalnız etibarlı rəhbər tapa biliriksə, ortada da eyni zamanda hər iki vəsfə malik olan birisi yoxdursa, o zaman bu vəsflərə daha yaxın olan birisi rəhbər seçilir. Belə ki, xalq rəhbərsiz qalmamalıdır. Çünki insanların rəhbərə, hakimlərə və onların işlərini idarə edəcək birisinə ehtiyacı var. Əgər *rəhbər üçün lazım olan* bütün şərtləri özündə cəm edən birisini tapmaq mümkündürsə, o zaman onu rəhbər seçmək vacibdir. Əks halda, bu işə daha layiq olan seçilir. Çünki uca Allah belə buyurur: **"Allahdan bacardığınız qədər qorxun".**[1]

Əgər rəhbərliyə namizəd kimi qarşımızda biri zəif, lakin etibarlı, digəri isə güclü, ancaq etibarsız olan iki namizəd varsa, onlardan hansının rəhbər olacağı xüsusunda baxışlar müxtəlifdir. Çünki hər birinin bir eyibi vardır. Lakin etibarı zəif olsa belə, rəhbərlik məsələsində güclü olan daha üstün tutulur. Çünki güclü olanın tədricən etibar qazanma ehtimalı olur, ancaq təbiətcə zəif olan adamın təbiəti dəyişilmir.

Elə bu kriteriyaya əsasən də rəhbər olaraq güclü olanı seçirik. Çünki beləsi cəmiyyət üçün daha faydalıdır. Həm də insanların hökmranlığa və gücə ehtiyacları vardır. Əgər rəhbər güclü olmazsa, həm də dinində zəif olan birisi olarsa, o zaman hər şey alt-üst olar. Müvəffəq edən Allahdır.

[1] "ət-Təğabun" surəsi, 16.

Səksən ikinci fəsil

Dövlət başçısını, hakimi və digər rəhbər şəxsləri özlərinə saleh köməkçi seçməyə təşviq etmək, habelə onları *özlərinə* pis yoldaşlar *seçməkdən* və onların sözlərinə qulaq asmaqdan çəkindirmək

Mövzu ilə əlaqəli ayə:

Uca Allah belə buyurur:

﴿ ٱلۡأَخِلَّآءُ يَوۡمَئِذِۭ بَعۡضُهُمۡ لِبَعۡضٍ عَدُوٌّ إِلَّا ٱلۡمُتَّقِينَ ﴾

"O gün müttəqilərdən başqa *bütün* dostlar bir-birinə düşmən kəsiləcəklər".[1]

Şərh:

Müəllif ﵀, "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Dövlət başçısını, hakimi və digər rəhbər şəxsləri, özlərinə saleh bir köməkçi seçməyə təşviq etmək, habelə onları *özlərinə* pis yoldaşlar *seçməkdən* və onların sözlərinə qulaq asmaqdan çəkindirmək"** adını vermiş, sonra da uca Allahın bu ayəsini zikr etmişdir: **"O gün müttəqilərdən başqa *bütün* dostlar bir-birinə düşmən kəsiləcəklər".**

Ayənin ərəbcəsində keçən "əl-əxilləəu" kəlməsi "xəlil" sözünün cəmi olub, sevimli dost mənasını verir. O dost ki, sən də onu çox sevirsən, o da səni çox sevir və bu sevgi bütün bədəni bürüyür.

Əgər sevgi səmimi olub güclənərsə, o zaman sevginin ən uca mərtəbəsi olan dostluq yaranar. Bu səbəbdən uca Allah İbrahimi və Muhəmmədi ﷺ *Özünə* yaxın dost tutmuşdur. Uca Allahın yaratdıqları arasından bu ikisindən, yəni İbrahim ﵇ və Muhəmməddən ﷺ başqa kimlərisə Özünə yaxın dost tutduğunu bilmirik. Ona görə deyirik ki: "İbrahim xəlilullah[2], Musa kəlimullah[3], Muhəmməd isə həbibullahdır[4]"– deyən şəxs Muhəmmədin ﷺ

---

[1] "əz-Zuxruf" surəsi, 67.

[2] Xəlilullah – Allahın sevimli dostu.

[3] Kəlimullah – Allahın onunla *bilavasitə (vasitəsiz)* danışdığı qulu.

[4] Həbibullah – Allahın sevimlisi.

haqqını tapdalamış sayılar. Çünki bu adam ona sadəcə həbibullah deməklə, onun mərtəbəsini aşağı salır. Halbuki Rəsulullah ﷺ həbibullah mərtəbəsindən daha üst mərtəbədədir. Axı uca Allah eyni zamanda möminləri də, ədalətli olanları da, müttəqiləri də sevir. Allahın sevgisi çox əhatəlidir, ancaq xəlil, yəni sevimli dost olmaq hər adama nəsib olmur.

Bəzi avamlar: "Muhəmməd həbibullah, İbrahim isə xəlilullahdır"– deyirlər. Halbuki Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən, Allah İbrahimi *Özünə* sevimli dost seçdiyi kimi, məni də *Özünə* sevimli dost seçmişdir".**[1] Başqa bir hədisdə isə o ﷺ belə demişdir: **"Sizlərdən birinin sevimli dostum olmasından Allaha üz tuturam. Çünki Uca Allah İbrahimi *Özünə* sevimli dost seçdiyi kimi, məni də *Özünə* sevimli dost seçmişdir. Əgər ümmətimdən kimisə özümə sevimli dost seçməli olsaydım, mütləq Əbu Bəkri dost seçərdim...".**[2] Bununla belə, Peyğəmbərdən ﷺ: "Kişilər arasında sənə ən sevimli olan kimdir?"– deyə soruşulduqda, **"Əbu Bəkrdir"**– deyə cavab vermişdir. Demək, Peyğəmbər ﷺ xəlil (sevimli dost) ilə həbibi (sevimlini) bir-birindən fərqləndirmişdir. Ona görə də sevimli dost, *mərtəbə etibarilə* sevgidən daha böyükdür.

Demək, bu dünyada bir-birilərinə dost olanlar Axirətdə bir-birilərinə düşmən olacaqlar. Bu xüsusda uca Allah belə buyurur: **"O gün müttəqilərdən başqa *bütün* dostlar bir-birinə düşmən kəsiləcəklər".**

Çünki müttəqilər arasında olan dostluq Allah xatirinədir. Bir-birini Allah xatirinə sevən, bu sevgi üzərində birləşib, onun üzərində də ayrılan iki kişi, Allahın kölgəsindən başqa heç bir kölgənin olmayacağı bir gündə, Allahın Öz kölgəsi altında kölgələndirdiyi yeddi qisim insandan biridir. Allah bizi də onlardan etsin!

Qiyamət günü müttəqilərdən başqa bütün dostların bir-birilərinə düşmən kəsiləcəklərinə dəlalət edən başqa bir ayədə uca Allah belə buyurur: **"*Allah* deyəcək: "Sizdən əvvəl gəlib-getmiş *günahkar* cin və insan tayfaları ilə birlikdə Oda girin!" Hər bir ümmət *Oda* girdikcə, digərini lənətləyəcəkdir".**[3] Bir başqa ayədə isə Uca Allah belə buyurur: **"Tabe olunmuş**

---

[1] "Sunən İbn Macə", 141.

[2] "Səhih əl-Buxari", 466, 467; "Səhih Muslim", 532.

[3] "əl-Əraf" surəsi, 38.

başçılar **tabe olanlardan uzaqlaşacaqları zaman,** ***hamısı*** **əzabı görəcək və aralarındakı əlaqələr kəsiləcəkdir".**[1] İbn Abbas ﵄ *bu ayənin təfsirində* demişdir: "Aralarındakı sevgi bağları qırılacaqdır. Bu dünyada onların arasında sevgi vardı, axirətdə isə bu sevgi bağları qırılacaq və yox olacaqdır".

Bir də onu bilməliyik ki, uca Allah Öz qulunu *daim* sınağa çəkir. Bəzən ona, xeyirli işlərə çağıran, yaxşı işləri əmr edən, pis işlərdən çəkindirən və gücü çatmadığı işlərdə yardım edən yaxşı dostlar nəsib edir. Bəzən də sınaq olaraq, ona bunun əksini nəsib edir. Bu barədə olan hədislərin birində belə deyilir: **"Kişi, dostunun dini üzərindədir. Elə isə, kimi dost seçəcəyinizə diqqət edin!"**[2]

Peyğəmbər ﷺ, həmçinin demişdir: **"Yaxşı dostla pis dostun məsəli ətir satanla körük vuranın məsələinə bənzəyir. Ətir satana gəlincə, ya o sənə ətir hədiyyə edər, ya sən ondan ətir alarsan, ya da ondan gözəl iy gəldiyini duyarsan. Körük vurana gəldikdə isə, ya o sənin paltarını yandırar, ya da ondan pis iy gəldiyini duyarsan".**[3]

Mövzu ilə əlaqəli hədislər:

٦٧٨ – عَنْ أَبِي سَعِيدٍ وَأَبِي هُرَيْرَةَ ﵄ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « مَا بَعَثَ اللَّهُ مِنْ نَبِيٍّ، وَلَا اسْتَخْلَفَ مِنْ خَلِيفَةٍ إِلاَّ كَانَتْ لَهُ بِطَانَتَانِ: بِطَانَةٌ تَأْمُرُهُ بِالمَعْرُوفِ وَتَحُضُّهُ عَلَيْهِ، وَبِطَانَةٌ تَأْمُرُهُ بِالشَّرِّ وَتَحُضُّهُ عَلَيْهِ وَالمَعْصُومُ مَنْ عَصَمَ اللَّهُ » رواه البخاري.

678. Əbu Səid [əl-Xudri] və Əbu Hureyra ﵄ rəvayət edirlər ki, Rəsulullah ﷺ demişdir: **"Allahın göndərdiyi hər bir peyğəmbərin və təyin etdiyi hər bir rəhbərin iki sirdaşı olur: ona yaxşı işləri məsləhət görən və onu bu işə təşviq edən sirdaş, ona pis işləri görməyi məsləhət görən və onu bu işə təşviq edən sirdaş. Günahlardan uzaq olan isə Allahın qoruduğu kimsədir".**

Bu hədisi Buxari rəvayət etmişdir.[4]

---

[1] "əl-Bəqərə" surəsi, 166.

[2] "Sunən Əbu Davud", 4833; "Sunən ət-Tirmizi", 2378; "Səhih əl-Cami", 3545.

[3] "Səhih əl-Buxari", 5534; "Səhih Muslim", 2628.

[4] "Səhih əl-Buxari", 7198.

٦٧٩ – وَعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ : « إِذَا أَرَادَ اللَّهُ بِالأَمِيرِ خَيْراً، جَعَلَ لَهُ وَزِيرَ صِدْقٍ، إِنْ نَسِيَ ذَكَّرَهُ، وَإِنْ ذَكَرَ أَعَانَهُ، وَإِذَا أَرَادَ بِهِ غَيْرَ ذَلِكَ جَعَلَ لَهُ وَزِيرَ سُوْءٍ، إِنْ نَسِيَ لَمْ يُذَكِّرْهُ، وَإِنْ ذَكَرَ لَمْ يُعِنْهُ ». رواه أبو داود بإسناد جيدٍ على شرط مسلم.

679. Aişə ﵂ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Allah bir rəhbər üçün xeyir istəyərsə, ona yaxşı dost nəsib edər. Unutduqda, *bu dost* ona xatırladar, xatırladıqda isə, yardım edər. Onun üçün başqa bir şey (şər) istəyərsə, ona pis dost nəsib edər. Unutduqda, *bu dost* ona xatırlatmaz, xatırladıqda isə, ona yardım etməz".**

Bu hədisi Əbu Davud, Muslimin şərtlərinə uyğun, ceyyid bir isnadla rəvayət etmişdir.[1]

Şərh:

Müəllifin ﵀ Aişəyə ﵂ istinadən rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: **"Allah bir rəhbər üçün xeyir istəyərsə, ona yaxşı dost nəsib edər. Unutduqda, *bu dost* ona xatırladar, xatırladıqda isə, yardım edər. Onun üçün başqa bir şey (şər) istəyərsə, ona pis dost nəsib edər. Unutduqda, *bu dost* ona xatırlatmaz, xatırladıqda isə, ona yardım etməz".**

Digər bir hədisdə isə Peyğəmbər ﷺ xəbər vermişdir ki: **"Allahın göndərdiyi hər bir peyğəmbərin və təyin etdiyi hər bir rəhbərin iki sirdaşı olur: ona yaxşı işləri məsləhət görən və onu bu işə təşviq edən sirdaş, ona pis işləri görməyi məsləhət görən və onu bu işə təşviq edən sirdaş. Günahlardan uzaq olan isə Allahın qoruduğu kimsədir".**

Bu sözlərin doğruluğu göz önündədir. Məsələn, elə rəhbərlər var ki, özləri xeyirxahdırlar və xeyirli işlər görməyə hərisdirlər. Lakin Allah onlara pis yoldaşlar nəsib edir və bu yoldaşlar onları xeyir işlər görməkdən yayındırır, pis işləri də onlara gözəl göstərirlər. Elə rəhbərlər də var ki, özləri saleh olmasa da, onların xeyirli dostları vardır və bu dostlar onları xeyirli işlər görməyə yönəldir, habelə, xalqının onları sevməsinə səbəb olacaq işlər görməyə təşviq edirlər. Beləliklə də həmin rəhbərlər düzəlir və doğru yol üzərində olurlar. Demək, günahlardan uzaq olan kəs Allahın qoruduğu kimsədir.

[1] "Sunən Əbu Davud", 2932; "Səhih əl-Cami", 302.

Əgər bu deyilənlər rəhbərlərə aiddirsə, o zaman sənə də aiddir. Elə isə özünü yoxla. Əgər görsən ki, sənin dostların səni yaxşı işlər görməyə yönəldir, bu işlərdə sənə yardım edir, unutduğun şeyləri sənə xatırladır, bilmədiyin şeyləri sənə öyrədir, o zaman onların ətəyindən möhkəm yapış və onları heç vaxt tərk etmə. Yox, əgər görsən ki, sənin dostların sənə qarşı laqeyddirlər, sənin sıxıntıya düşməyinə əhəmiyyət vermirlər, əksinə, sənin məhvin üçün çalışırlar, o zaman onlardan ehtiyatlı ol. Çünki onlar sanki öldürücü zəhərdirlər. Allah qorusun! Onlara yaxın durma, əksinə, daim onlardan uzaqlaş. Şirdən qaçdığın kimi, onlardan da qaç.

Xeyrə müvəffəq olan insan daş kimi qalın qafalı deyildir, əksinə, şüşə kimi şəffaf, zəkalı və fərasətlidir. Ehtiram göstərməsi o qədər şəffafdır ki, özü üçün faydalı və zərərli olan şeyləri görür və bilir. Bunun sayəsində də özünə fayda verəcək işlərə can atır, zərər verəcək işlərdən də çəkinir. Allah həm bizə, həm də bütün müsəlmanlara belə bir müvəffəqiyyət nəsib etsin!

Səksən üçüncü fəsil

Dövlətə rəhbərlik, hakimlik və digər rəhbər vəzifələr tələb edən və ya bu vəzifələrə həris olan şəxsləri *bu vəzifələrə* təyin etməyin qadağan olması

Mövzu ilə əlaqəli hədis:

٦٨٠ – عَنْ أَبِي مُوسَى الأَشْعَرِيِّ ﷺ قَالَ: دَخَلْتُ عَلَى النَّبِيِّ ﷺ أَنَا وَرَجُلَانِ مِنْ بَنِي عَمِّي، فَقَالَ أَحَدُهُمَا: يَا رَسُولَ اللَّهِ أَمِّرنَا عَلَى بَعْضِ مَا وَلاَّكَ اللَّهُ عَزَّ وَجَلَّ، وَقَالَ الآخَرُ مِثْلَ ذَلِكَ، فَقَالَ: « إِنَّا وَاللَّهِ لَا نُوَلِّي هَذَا العَمَلَ أَحَداً سَأَلَهُ، أَوْ أَحَداً حَرَصَ عَلَيْهِ ». متفقٌ عليه.

670. Rəvayət edilir ki, Əbu Musa əl-Əşari ﷺ demişdir: "*Bir dəfə* mən və əmim oğullarından iki nəfər Peyğəmbərin ﷺ yanına daxil olduq. Bu zaman onlardan biri belə dedi: "Ey Allahın elçisi, izzətli və qüdrətli Allahın sənin ixtiyarına verdiyi vəzifələrdən birinə bizi rəhbər təyin et". *Sonra* digəri də eyni sözü dedi. Onda *Peyğəmbər* ﷺ *onlara* belə dedi: **"Vallahi, biz bu işə, onu tələb edən və ya ona can atan heç kəsi rəhbər qoymuruq".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ﷺ, bu fəslə **"Dövlətə rəhbərlik, hakimlik və digər rəhbər vəzifələr tələb edən və ya bu vəzifələrə həris olan şəxsləri *bu vəzifələrə* təyin etməyin qadağan olması"** adını vermişdir. Bu mövzu ilə bağlı daha öncə Abdurrəhman ibn Səmuranın ﷺ hədisi də keçmişdir. Həmin hədisdə Peyğəmbər ﷺ ona belə demişdir: **"Ey Abdurrəhman ibn Səmura, heç vaxt vəzifə istəmə! Çünki vəzifə sənə sən istəmədən verilərsə, bu işdə sənə *Allah tərəfindən* yardım edilər. Yox, əgər vəzifə sənə sənin istəyinlə verilərsə, onda *bu işdə sənə Allah tərəfindən yardım edilməz və* onunla başbaşa buraxılarsan".**

Eyni zamanda dövlət başçısı da, ondan bir bölgəyə və ya bir əraziyə, yaxud buna bənzər yerlərə rəhbər təyin olunmasını istəyən kimsəni ora rəhbər

[1] "Səhih əl-Buxari", 7149; "Səhih Muslim", 1733.

təyin etməməlidir. Hətta bu vəzifəni tələb edən şəxs ona layiq olsa belə, yenə də onu rəhbər təyin etməməlidir. Çünki müəllifin Əbu Musaya رضي الله عنه istinadən rəvayət etdiyi hədisdə deyilir ki, iki nəfər Peyğəmbərdən ﷺ vəzifə istədikdə, Peyğəmbər ﷺ onlara belə demişdir: **"Vallahi, biz bu işə, onu tələb edən və ya ona can atan heç kəsi rəhbər qoymuruq".** Yəni, rəhbər olmasını tələb edən və ya ona həris olan heç kəsi rəhbər təyin etmirik. Çünki əksər hallarda vəzifə istəyənlərin məqsədi xalqın vəziyyətini yaxşılaşdırmaq deyil, əksinə, özünü düşünərək hakimiyyətdə olmasını istəməkdir. Belə ittihamla qarşı-qarşıya gəlmə ehtimalı olduğu üçün, Peyğəmbər ﷺ vəzifə tələb edən şəxsə vəzifə verməyi qadağan etmiş və belə demişdir: **"Vallahi, biz bu işə, onu tələb edən və ya ona can atan heç kəsi rəhbər qoymuruq".**

Həmçinin, əgər bir adam hakim olmaq istəyərsə və bu səbəbdən də ədliyyə nazirinin yanına gedib: "Məni filan yerə hakim təyin et!"– deyərsə, onda o, hakim təyin olunmamalıdır. Lakin bir adam *vəzifədədirsə və sadəcə* iş yerinin bir yerdən başqa bir yerə dəyişdirilməsini istəyərsə, bu məsələ hədisin hökmü altına girmir. Çünki həmin adam artıq bu vəzifəyə öncədən təyin olunub, indi isə o, sadəcə iş yerinin dəyişdirilməsini istəyir. Lakin burada da bir hal istisna ola bilər. Əgər həmin adamın məqsədinin o yerin əhalisi üzərində hökmranlıq etmək olduğunu, *yaxud istəyinin arxasında başqa bu kimi pis niyyətlərin olduğunu* bilsək, onda onun istəyi yerinə yetirilmir. Çünki əməllər, yalnız niyyətlərə görədir.

Əgər bir adam: "Bəs Yusufun عليه السلام rəhbərdən vəzifə tələb etməsinə nə cavab verə bilərsiz?"– deyə soruşarsa, ona iki cür cavab verərik:

1) Əgər bizdən öncəki şəriətlərdə bizim şəriətə müxalif bir şey olarsa, o zaman əsas götürülən bizim şəriət olar. Bu, usul alimlərinin qoyduqları bu qaydaya əsaslanır: "Bizdən öncəkilərin şəriəti bizim şəriətimizə müxalif olmadıqca, bizim də şəriətimizdir". Amma *Yusufun* عليه السلام *etdiyi* bu hərəkət bizim şəriətimizə müxalifdir. Belə ki, biz, vəzifə tələb edən adamı vəzifəyə qoymuruq.

2) Yusuf عليه السلام, dövlətin malının it-bat olacağını, ona qarşı laqeyd yanaşıldığını və yaxşı idarə olunmadığını görüncə, ölkəni bu fəlakətdən qurtarmaq istədi. Belə bir durumda əsas niyyət, pisliyi, yəni pis idarəçiliyi və *dövlət malına qarşı* pis davranışı aradan qaldırmaq olmalıdır. Onda belə bir

tələbdə heç bir problem yoxdur. Məsələn, bir bölgənin rəhbərinin öz vəzifəsini yerinə yetirə bilmədiyini və xalqı iflasa sürüklədiyini görsən, *habelə həmin bölgəyə rəhbərlik etməyə səndən başqa heç kəsin layiq olmadığını bilsən,* o zaman orada olan fəsadı aradan qaldırmaq məqsədi ilə: "Məni bu bölgəyə rəhbər təyin et!"– deməkdə heç bir problem yoxdur. Bu cür tələb şəriət qaydalarına da uyğundur.

Bu məsələyə Osman ibn Əbu Asın ﵁ hədisi də dəlalət edir. *Bir dəfə* o, Peyğəmbərə ﷺ belə demişdir: "Məni qövmümün imamı təyin et" (yəni onlara namazları qıldırım). Peyğəmbər ﷺ də ona belə demişdir: **"Sən artıq onların imamısan".**[1] Demək, dövlət rəhbəri ilk öncə vəzifə tələb edən adamın niyyətinin arxasında nələrin durduğunu araşdırmalı, sonra isə ona uyğun qərar verməlidir. Müvəffəq edən Allahdır.

[1] "Sunən Əbu Davud", 531; "Səhih əl-Cami", 1480.

ƏDƏB KİTABI

Səksən dördüncü fəsil

Həya, onun fəziləti və həyalı olmağa təşviq

Mövzu ilə əlaqəli hədislər:

٦٨١ – عَنْ ابْنِ عُمَرَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ مَرَّ عَلَى رَجُلٍ مِنَ الأَنْصَارِ وَهُوَ يَعِظُ أَخَاهُ فِي الحَيَاءِ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: « دَعْهُ فَإِنَّ الحَيَاءَ مِنَ الإِيْمَانِ » متفقٌ عليه.

681. Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, *bir dəfə* Rəsulullah ﷺ ənsardan olan bir nəfərin yanından keçirdi. Bu əsnada o, öz qardaşına *həddən ziyadə* həyalı olmamasını nəsihət edirdi. Odur ki, Rəsulullah ﷺ *ona* belə dedi: **"Onunla işin olmasın, çünki həya imandandır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٦٨٢ – وَعَنْ عِمْرَانَ بْنِ حُصَيْنٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « الحَيَاءُ لَا يَأْتِي إِلاَّ بِخَيْرٍ » متفق عليه.

وفي رواية لمسلم: « الحَيَاءُ خَيْرٌ كُلُّهُ » أَوْ قَالَ: « الحَيَاءُ كُلُّهُ خَيْرٌ ».

682. İmran ibn Husayn ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Həya, *insana* xeyirdən başqa bir şey gətirməz".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Muslimin "Səhih"ində keçən digər rəvayətdə isə: **"Həya bütövlükdə xeyirdir",** yaxud: **"Həyanın hamısı xeyirdir"** deyilir.[3]

---

[1] "Səhih əl-Buxari", 24; "Səhih Muslim", 36.

[2] "Səhih əl-Buxari", 6117; "Səhih Muslim", 37.

[3] Bəziləri həyanın bütövlükdə xeyir olub, yalnız xeyir gətirdiyini inkar edirlər. Səbəbi də budur ki, həyalı adam bəzən haqqı deməyə utanır, insanlara yaxşı işlər görməyi buyurmur və ya onları pis işlərdən çəkindirmir. Amr ibn əs-Sələh bunu belə izah etmişdir: "Qeyd edilən bu naqis cəhətlər həya sayıla bilməz, əksinə, bu acizlik, zəlillik və alçalmaqdır. Sadəcə, zahirən həyaya bənzədiyindən, bəziləri ona həya demişlər. Əsil həya isə adamı pis iş tutmaqdan və haqsızlıq etməkdən çəkindirir".

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" kitabının bu bölümünü **"Ədəb kitabı"** adlandırmış, bu bölümün ilk fəslinə də **"Həya, onun fəziləti və həyalı olmağa təşviq"** adını vermişdir.

Ədəb, insanın sahib olduğu əxlaqi xislətlərdir. Bu xislətlərin bir çox növləri vardır: səxavətli olmaq, cəsurluq, geniş qəlblilik, gülərüz olmaq və sairə.

Ədəb, insanın tərifə və təqdirə layiq əxlaqi xislətidir. Həya da bu xislətlərdən biridir.

Həya, insanın canında olub, onu gözəl və xoş şeyləri yerinə yetirməyə, çirkin və utancverici şeylərdən də uzaq durmağa sövq edən bir xislətdir. Həyalı adam, mərdliyə yaraşmayan bir hərəkət etdiyi zaman insanlardan utanar. Haram bir iş gördükdə, izzətli və qüdrətli Allahdan utanar. Vacib bir əməli tərk etdikdə, yenə Allahdan utanar. Yerinə yetirilməsi gərək olan əməli də tərk etdikdə insanlardan utanar. Elə bu səbəbdən də həya imandandır. Ona görə də İbn Ömərin ﵄ hədisində zikr olunur ki, Peyğəmbər ﷺ, öz qardaşına həddən ziyadə həyalı olmamağı tövsiyə edən, ənsardan olan bir adamın yanından keçdikdə, ona belə demişdir: **"Onunla işin olmasın, çünki həya imandandır".**

Başqa bir hədisdə isə Peyğəmbər ﷺ belə demişdir: **"İman yetmiş və bir neçə şöbədən ibarətdir. Bunun ən üstünü "la ilahə illəllah" sözü, ən aşağı dərəcəsi isə əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqdır. Həya da imandan bir şöbədir".**[1]

Bir insanda həya olarsa, o, yerişində belə orta yol tutar – nə tələmtələsik, nə də ki, hədsiz ləng bir yerişlə yeriyər. Çünki hər iki yeriş növü məzəmmət olunan yerişdir. Danışığında da həmçinin o cür olar – yalnız xeyirli və gözəl sözlər danışar, danışdığı zaman bacardığı qədər gözəl əxlaq və yüksək bir üslubla danışar.

Yox, əgər bir insanda həya olmazsa, o zaman istədiyi hərəkəti edər. Bu xüsusda səhih bir hədisdə belə deyilir: «**İlk peyğəmbərlik kəlamından insanlara gəlib çatan söz *belədir*: "Utanmırsansa, istədiyini et!"».**[2]

---

[1] "Səhih əl-Buxari", 9; "Səhih Muslim", 35.

[2] "Səhih əl-Buxari", 6120.

"Peyğəmbər ﷺ hücrəsinə çəkilmiş bakirə qızdan daha həyalı idi".[1] Bakirə qız deyildikdə, hələ evlənməmiş qız başa düşülür. Adətən həmin qızlar utancaq olurlar. Peyğəmbər ﷺ də hücrəsinə çəkilmiş həmin bakirə qızdan daha həyalı idi. Lakin bununla yanaşı, o, heç vaxt haqqı deməkdən utanmazdı. Heç kimdən çəkinmədən daim haqqı deyər və ona riayət edərdi. Haqların tapdalanmayacağı məsələlərdə isə, Peyğəmbər ﷺ insanların ən həyalısı idi. Elə isə, əziz qardaşım, sən də həyalı və ədəbli olmağa çalış, habelə insanlar arasında tərifə layiq olan gözəl əxlaqa yiyələn. Müvəffəq edən Allahdır.

٦٨٣ – وَعَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « الإِيْمَانُ بِضْعٌ وَسَبْعُونَ، أَوْ بِضْعٌ وَسِتُّونَ شُعْبَةً، فَأَفْضَلُهَا قَوْلُ لَا إِلَهَ إِلاَّ اللَّهُ، وَأَدْنَاهَا إِمَاطَةُ الأَذَى عَنَ الطَّرِيقِ، وَالحَيَاءُ شُعْبَةٌ مِنَ الإِيْمَانِ » متفق عليه.

« البِضْعُ »: بكسر الباء. ويجوز فتحها، وَهُوَ مِن الثلاثةِ إلى الْعَشَرَةِ. « وَالشُّعْبَةُ »: الْقِطْعَةُ والحَضْلَةُ. « وَالإماطَةُ »: الإزَالَةُ، « وَالأَذَى »: مَا يُؤْذِي كَحجَرٍ وَشَوْكٍ وَطينٍ وَرَمَادٍ وَقَذَرٍ وَنحوِ ذلكَ.

683. Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"İman yetmiş və bir neçə – yaxud altmış və bir neçə – şöbədən ibarətdir. Bunun ən üstünü "la ilahə illəllah" sözü, ən aşağı dərəcəsi isə əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqdır. Həya da imandan bir şöbədir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Hədisin ərəbcəsində keçən "bid'un" kəlməsi üçdən ona qədər olan ədədlər, "şu'bətun" kəlməsi parça və xislət; "imatətun" kəlməsi kənarlaşdırmaq; "əl-əza" kəlməsi isə daş, tikan, palçıq, qum, zibil və bunlara bənzər əziyyət verən şeylər deməkdir.

Şərh:

Müəllifin رحمه الله "Salehlər bağçası" adlı kitabının **"Həya, onun fəziləti və həyalı olmağa təşviq"** adlı fəslində Əbu Hureyraya رضي الله عنه istinadən rəvayət etdiyi hədisdə Rəsulullah ﷺ demişdir: **"İman yetmiş və bir neçə – yaxud altmış və bir neçə – şöbədən ibarətdir".** Hədisin ravisi şübhə etmişdir ki,

[1] "Səhih əl-Buxari", 3562; "Səhih Muslim", 2320.

[2] "Səhih əl-Buxari", 9; "Səhih Muslim", 35.

görəsən Peyğəmbər ﷺ **"yetmiş və bir neçə"** demişdir, yoxsa **"altmış və bir neçə". "Bunun ən üstünü** [bir rəvayətdə də **"ən yüksəyi"**] **"la ilahə illəllah" sözü, ən aşağı dərəcəsi isə əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqdır. Həya da imandan bir şöbədir".** Bu hədisin fəslin mövzusuna aid olan hissəsi də elə burasıdır.

Bu hədisdə Peyğəmbər ﷺ imanın çoxlu sayda, yəni yetmiş və bir neçə, yaxud altmış və bir neçə şöbəsinin olduğunu bəyan etmişdir. Peyğəmbərin ﷺ bu şöbələri bir-bir bəyan etməməsinin səbəbi budur ki, insanların özləri çalışsınlar, Quran və Sünnəni araşdırıb bütün bu şöbələri bir yerə cəm edib onlara əməl etsinlər. Quran və Sünnədə bu cür məsələlər çoxdur. Yəni, Allah və Rəsulu ﷺ bəzi məsələləri örtülü saxlamışlar ki, insanları sınağa çəksinlər və onlardan hansının həris olduğu, hansının da həris olmadığı aşkara çıxsın.

Məsələn, qədr gecəsi ramazan ayının ya son on gecəsində, ya da son yeddi gecəsindədir. Lakin bunun hansı gecə olduğu dəqiq bilinmir. Qədr gecəsinin dəqiq bəlli olmamasının səbəbi odur ki, insanlar bu gecəyə nail olmaq üçün, *son on* gecələrin hər birində yaxşı işlər görməyə canfəşanlıq etsinlər. Əgər qədr gecəsinin hansı gecə olduğu dəqiq bəlli olsaydı, o zaman insanlar yalnız həmin gecədə canfəşanlıq edər, digər gecələrdə isə tənbəllik göstərərdilər.

Cümə günündə duaların qəbul olunduğu saat da bu qəbildəndir. Bu barədə Peyğəmbər ﷺ demişdir: **"Bu gündə elə bir saat var ki, müsəlman olan kimsə *həmin vaxt* namaz qılıb uca Allahdan bir şey istəsə, Allah ona istədiyini mütləq verər".**[1] Göründüyü kimi, bu saat da dəqiq bəlli deyildir. Səbəbi də odur ki, insanlar həmin vaxtı axtarmağa və o saatda yaxşı əməl etməyə həris olsunlar.

Həmçinin, hər gecə uca Allahın duaları mütləq qəbul edəcəyi bir saat vardır. Bu saata yetişib dua edən elə bir kəs yoxdur ki, uca Allah onun duasını qəbul etməsin.

Başqa bir misal. Peyğəmbər ﷺ: **"Allahın doxsan doqquz, – yüzdən bir əskik adı var. Kim onları sadalasa, Cənnətə daxil olar"**[2]– demiş, ancaq

[1] "Səhih əl-Buxari", 935; "Səhih Muslim", 757.

[2] "Səhih əl-Buxari", 9; "Səhih Muslim", 35.

həmin adları sadalamamışdır. Bu adların bir-bir sadalandığı hədis isə zəif hədisdir və dəlil olaraq yetərli deyildir.

Habelə Peyğəmbərin ﷺ iman barəsində dediyi sözlər də bu qəbildəndir. O ﷺ demişdir: **"İman yetmiş və bir neçə, – yaxud altmış və bir neçə şöbədən ibarətdir".** Peyğəmbərin ﷺ bu şöbələri bir-bir bəyan etməməsinin səbəbi bu idi ki, onları Quran və Sünnədən özümüz axtarıb tapaq, sonra onları bir yerə cəm edək, daha sonra da onlara əməl edək. Bu, izzətli və qüdrətli Allahın Peyğəmbərə ﷺ bəxş etdiyi bir hikmət idi.

Rəsulullah ﷺ bu şöbələr barəsində belə buyurur: **"Bunun ən üstünü, – ən yüksəyi "la ilahə illəllah" sözüdür".** Bu əzəmətli kəlmə ilə yeddi göy, yeddi yer və bütün məxluqat tərəzidə çəkilərsə, "la ilahə illəllah" kəlməsi onlardan ağır gələr. Çünki bu kəlmə ən əzəmətli kəlmədir. Bu həm də tövhid kəlməsidir. İnsan bu kəlməni dedikdə, müsəlman, təkəbbürlük göstərib demədikdə isə, kafir olur. Bu kəlmə imanla küfrü birbirindən ayırd edən meyardır. Məhz bu səbəbdən imanın ən yüksək və ən üstün şöbəsi **"la ilahə illəllah"** kəlməsi olmuşdur. Yəni, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur. Allahdan savayı bütün məbudlar batildirlər. Allah təkdir və Onun heç bir şəriki yoxdur. Bir sözlə, haqq Allahdır. Bu xüsusda uca Allah belə buyurur: **"Bu belədir. Çünki Allah Haqdır, *kafirlərin* Ondan başqa yalvardıqları isə batildir. Həqiqətən, Allah Ucadır, Böyükdür".**[1]

Bu böyük tövhidə iman gətirmək, Allahdan başqa ibadətə layiq olan məbudun olmadığına iman gətirməyi, həmçinin Allahdan başqa heç bir yaradıcının olmadığına, Allahdan başqa ruzi verənin olmadığına, Allahdan başqa məxluqatı idarə edən heç bir varlığın olmadığına, Allahdan başqa heç kimin fayda və ya zərər verməyə qadir olmadığına iman gətirməyi özündə ehtiva edir. Bu tövhid özündə həm də Allahın ad və sifətlərinə iman gətirməyi ehtiva edir. Belə ki, yalnız ibadətə layiq olduğu bilinən varlığa ibadət edilir. İzzətli və qüdrətli Yaradandan savayı ibadətə layiq olan başqa heç bir varlıq yoxdur. *Bu yaradanı isə yalnız Onun ad və sifətləri sayəsində tanımaq olar.* Elə buna görə də "la ilahə illəllah" kəlməsi imanın ən üstün və ən yüksək şöbəsi olmuşdur. Bu dünya həyatında kimin son sözü bu kəlmə olarsa, o, Cənnət əhlindən olar. Çünki Peyğəmbər ﷺ belə

[1] "əl-Həcc" surəsi, 62.

demişdir: **“Kimin bu dünyada son sözü “la ilahə illəllah” olarsa, Cənnətə daxil olar”.**[1] Allahdan diləyirəm ki, bizim həyatımıza bu kəlmə ilə xitam versin. Həqiqətən O, hər şeyə qadirdir.

“Bunun ən üstünü “la ilahə illəllah” sözü, ən aşağı (yəni, ən asan) **dərəcəsi isə, əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqdır”.** Əziyyət verən şey dedikdə, yoldan keçən adama əziyyət verə bilən tikan, çuxur, taxta, daş və başqa bu kimi şeylər nəzərdə tutulur. Bu cür əziyyət verən şeyləri yoldan kənarlaşdırmaq imanın şöbələrindəndir. Bu isə imanın genişliyinə və bütün yaxşı əməlləri özündə şamil etməsinə dəlalət edir.

“Həya da imandan bir şöbədir”. Həya, insanların gözündə dəyəri olmayan və ya onların yaxşı hesab etmədikləri işləri görərkən, qəlbdə baş qaldıran məyusluq və xəcalətdir. Həm Allahdan, həm də insanlardan həya etmək imandandır. Allahdan həya etmək, qulu Allaha layiqincə itaət etməyə və Onun qadağalarından çəkinməyə sövq edir. İnsanlardan həya etmək isə, qulu mərdlik nümayiş etdirməyə, insanların gözəl hesab etdikləri işləri görməyə, pis və çirkin hesab etdikləri şeylərdən də uzaq durmağa vadar edir. Dolayısıyla, həya imandandır.

Peyğəmbərdən ﷺ iman barəsində soruşulduqda, o, belə cavab verdi: **“*İman odur ki,* Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə və Axirət gününə iman gətirəsən, habelə qədərə – onun xeyrinə və şərinə iman gətirəsən”.**[2] Əgər bu hədislə hal-hazırda şərh etdiyimiz hədisi bir araya gətirsək, imanın həm əqidəyə, həm sözə, həm də əmələ şamil olunduğu sizə açıq-aydın bəlli olar. Bu həm də Sünnə və camaat əhlinin etiqadıdır. Yəni, iman həm qəlbin etiqadını, həm qəlbin əməlini, həm dilin əməlini (yəni sözü), həm də əzaların əməllərini özündə cəm edir. Bu dörd şey imana daxildir: **“La ilahə illəllah”** demək dilin əməli, **“əziyyət verən şeyləri yoldan kənarlaşdırmaq”** əzaların əməli, **“həya”** qəlbin əməli, **“Allaha, Onun mələklərinə, kitablarına... iman gətirmək”** isə qəlbin etiqadıdır.

Sünnə və camaat əhlinə görə, iman bu dörd şeyi özündə ehtiva edir: qəlbin etiqadı, qəlbin əməli, dilin sözü və əzaların əməli. Buna dair Quran və Sünnədə çoxlu sayda dəlillər vardır.

---

[1] “Sunən Əbu Davud”, 3116; “Səhih əl-Cami”, 6479.

[2] “Səhih Muslim”, 8.

Şərh etdiyimiz bu hədis isə insanı əziyyət verən şeyləri yoldan kənarlaşdırmağa təşviq edir. Madam ki, bu da imandan bir şöbədir, onda buna əməl et ki, imanın artsın və kamilləşsin. Məsələn, yolda əziyyət verən daş, şüşə, tikan və başqa bu kimi şeylər görsən, onları yoldan kənarlaşdır. Çünki bu, imandandır. Hətta miniyini yolun ortasında saxlayıb insanların yolunu daraltsan, insanlara əziyyət verən bir şeyi onların yoluna qoymuş sayılarsan. Ona görə də həmin miniyi yoldan kənarlaşdırmaq imandandır. Əgər əziyyət verən şeyi yoldan kənarlaşdırmaq imandandırsa, onda əziyyət verən şeyi yola qoymaq da əsil ziyandır və bu əməl imanın azalmasına səbəb olur. Odur ki, insan həyalı olmalı və insanların nə hiss edəcəklərini özündə hiss etməlidir.

Məsələn, bəzi insanlar avtomobillərini harada gəldi saxlayırlar. Bu zaman onlar yolun enli, ya dar olmasına məhəl qoymadan avtomobillərini gah eninə, gah da uzununa olmaqla yolun hansı hissəsində gəldi saxlayırlar. Bu, möminə yaraşan hal deyildir. Əksinə, mömin həyalı olur, insanları düşünür, özü üçün istədiyini insanlar üçün də istəyir. Axı necə ola bilər ki, avtomobilini yolda nataraz saxlayasan və insanların yolunu daraldıb-daraltmadığın barədə belə heç düşünməyəsən?!

Oxşar hallar bəzən də məscidlərdə baş verir. Məsələn, bir qrup şəxs məscidin qapısı önündə yığışaraq yolu kəsir, bu səbəbdən də cümə günü məsciddən çıxan adamlar üçün yol daralmış olur. Bu, böyük bir xətadır. Əziyyət verən bir şeyi yoldan kənarlaşdırmaq sədəqədir. Buna görə hər bir insan, əziyyət verən şeyləri yoldan kənarlaşdırmalıdır. Əgər yolun üzərində onun gücünün çatmadığı bir şey, məsələn, böyük bir daş parçası, yaxud qum təpəciyi, ya da bunlara bənzər şeylər varsa, o zaman bu işdə məsul şəxslərə müraciət etməlidir. Məsələn, qoy bu barədə bələdiyyə işçisinə xəbər versin, çünki bu işlərə bələdiyyə işçiləri nəzarət edir. Adam bu hal barədə onlara xəbər versə, xeyir işdə yardımlaşmış olar.

"Həya da imandan bir şöbədir". Əgər bir adam həyalı olar, insanlar qarşısında özünü rəzil edəcək söz söyləməz, yaxud buna bənzər bir hərəkət etməzsə, əksinə, özünü vüqarlı, təmkinli və ləyaqətli apararsa, bu, onda olan imanın əlamətidir. Müvəffəq edən Allahdır.

٦٨٤ – وَعَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ ﷺ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ أَشَدَّ حَيَاءَ مِنَ الْعَذْرَاءِ فِي خِدْرِهَا، فَإِذَا رَأَى شَيْئاً يَكْرَهُهُ عَرَفْنَاهُ فِي وَجْهِهِ. متفقٌ عليه.

قال العلماءُ: حَقِيقَةُ الحَياء خُلُقٌ يبْعثُ على تَرْكِ الْقَبِيحِ، ويمْنَعُ منَ التقْصير في حَقِّ ذِي الحَقِّ.

وَرَوَيْنَا عنْ أبي الْقَاسم الجُنيْدِ رَحمَهُ اللَّه قال: الحَيَاءُ رُؤيَةُ الآلاء – أي: النِّعمِ – ورؤْيةُ التَّقْصِيرِ. فَيَتوَلَّدُ بيْنَهُمَا حالة تُسَمَّى حياءً.

684. Rəvayət edilir ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "Peyğəmbər ﷺ hücrəsinə çəkilmiş bakirə qızdan daha həyalı idi. Xoşuna gəlməyən bir şey gördüyündə, bunu onun üzündən anlayardıq".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Alimlər *həya barəsində* belə demişlər: "Əsil həya, insanı çirkin əməlləri tərk etməyə və hər bir haqq sahibinin haqqını qüsursuz ödəməyə təşviq edən bir xislətdir".

Rəvayət edilir ki, Əbulqasim əl-Cundi ﷺ demişdir: "Həya, insanın sahib olduğu saysız-hesabsız nemətləri və bu nemətlər qarşısında nə qədər aciz olduğunu görməsi ilə nəticələnən bir haldır".

Şərh:

Hafiz ən-Nəvəvi ﷺ, **"Həya, onun fəziləti və həyalı olmağa təşviq"** adlı bu fəsildə Əbu Səid əl-Xudriyə ﷺ istinadla onun belə dediyini nəql edir: "Peyğəmbər ﷺ hücrəsinə çəkilmiş bakirə qızdan daha həyalı idi".

Bakirə qız deyildikdə, hələ evlənməmiş qız nəzərdə tutulur. Qadınlar arasında ən çox utancaq olan odur. Çünki hələ evlənməmiş və heç bir kişi ilə yaxınlıq etməmişdir. Bundan dolayı da öz hücrəsinə çəkilib utancaq olur. Rəsulullah ﷺ isə ondan daha həyalı idi. Xoşuna gəlməyən bir şey gördüyündə, bu onun üzündən bilinərdi. Yəni, üzünün rəngi dəyişərdi. Amma o ﷺ həm də utancaq idi.

Mömin də bu şəkildə həyalı olmalı, qeyri-ciddi olmamalı və onu utandıracaq və ya özünə söz gətirəcək hərəkətlər də etməməlidir. Lakin xoşuna

[1] "Səhih əl-Buxari", 2736; "Səhih Muslim", 2677.

gəlməyən bir söz eşitdikdə və ya bir hərəkət gördükdə, bundan təsirlənməlidir. Heç bir şeyə görə təsirlənməmək kişilikdən deyildir. Çünki heç bir şeyə görə təsirlənməyən yalnız bütün duyğuları yox olmuş axmaqlar olur. Lakin insan təsirlənməli və həyası onu xoşagəlməz hərəkətlər etməkdən və ya xoşagəlməz sözlər söyləməkdən çəkindirməlidir.

Buna rəğmən həya, insanı, dini barəsində sual verib vacib məsələləri öyrənməkdən çəkindirməməlidir. Çünki dində olan vacib məsələlər barədə sual verməyi tərk etmək həyadan deyildir. Əksinə, bu acizlikdir. Çünki uca Allah haqqı söyləməkdən utanmır.

Aişə ﵂ demişdir: **"Ənsar qadınları nə gözəl qadınlardır! Həyaları onlara dini öyrənməyə mane olmamışdır".**[1] Çünki o qadınlar Peyğəmbərin ﷺ yanına gəlib ondan, kişilərin belə dilə gətirməyə həya etdikləri məsələlər barəsində soruşardılar. Bir sözlə, insan öz dinini öyrənmək üçün suallar verməli və bu məsələdə utanmamalıdır.

Bundan dolayı, Maiz ibn Malik ﵁ Peyğəmbərin ﷺ yanına gəlib zina etdiyini etiraf edərək: "Mən zina etmişəm" dedikdə, Peyğəmbər ﷺ ondan üz çevirir. İkinci dəfə yenə gəlib zina etdiyini dedikdə, Peyğəmbər ﷺ yenə ondan üz çevirir. Üçüncü dəfə də gəlib zina etdiyini dedikdə, Peyğəmbər ﷺ bu dəfə də ondan üz çevirir. Çünki Peyğəmbər ﷺ istəyirdi ki, o, tövbə etsin və Allah da onun tövbəsini qəbul etsin. Adam dördüncü dəfə gəldikdə, Peyğəmbər ﷺ onu sorğu-sual etdi və ona belə dedi: **"Sən dəli olmusan?"** O, "Xeyr, ya Rəsulullah"– deyə cavab verdi. Peyğəmbər ﷺ ondan: **"Sən zinanın nə olduğunu bilirsənmi?"**– deyə soruşdu. O da: "Bəli. Zina, kişinin öz həyat yoldaşı ilə halal yolla yaxınlıq etdiyi kimi, *başqa* bir qadınla haram yolla yaxınlıq etməsidir"– deyə cavab verdi. Peyğəmbər ﷺ dedi: **"Sən onunla cinsi əlaqəyə girdinmi?"**[2] Peyğəmbər ﷺ bunu ondan üstüörtülü deyil, açıq-aşkar ifadə ilə soruşdu. Halbuki, *adi halda* adam bu ifadəni dilinə gətirməyə utanar. Lakin haqqı demək üçün həya edilmir. Ona görə də Peyğəmbər ﷺ ondan: **"Sən onunla cinsi əlaqəyə girdinmi?"**– deyə soruşdu, o da cavabında: "Bəli"– dedi. Peyğəmbər ﷺ yenə soruşdu: **"Sənin tənasül orqanın onun cinsi orqanına** daxil oldumu**?"** O da: "Bəli"– deyə cavab verdi. Peyğəmbər ﷺ bir də soruşdu: **"Milin**

[1] "Səhih Muslim", 332.

[2] "Səhih əl-Buxari", 6824.

sürmə qabının içinə, ipin də su quyusuna girdiyi kimi girmişdi?" O da: "Bəli"– deyə cavab verdi.[1] Adi hallarda birisi bu cür suallar verməyə utanar, ancaq haqqa gəldikdə, onu deməkdən həya edilmir.

Ummu Suleym رضي الله عنها də Rəsulullahın ﷺ yanına gəlib belə demişdi: "Ya Rəsulullah, Allah haqqı deməkdən həya etməz. Qadın ehtilam halına düşdükdə[2] qüsl etməlidirmi?" Peyğəmbər ﷺ buyurdu: **"Bəli, əgər su görübsə** (məni axıdıbsa), **etməlidir!"**[3]

Belə suallar verməyə hətta kişilər həya edər, ələlxüsus da camaat içində. Lakin Ummu Suleymin həyası dini öyrənməsinə mane olmadı. Elə buna görə də soruşulması vacib olan məsələlər barəsində sual verməyə mane olan həya, yaxşı həya deyildir. Əslində onu həya da adlandırmaq olmaz – bu, zəiflik və qorxaqlıqdır. Çünki bu, şeytan tərəfindəndir. Bu, sənin dinindir, onun barəsində soruş və bu məsələdə utanma.

Amma vacib əməllərlə heç bir əlaqəsi olmayan məsələlərdə həyalı olmaq, olmamaqdan daha xeyirlidir: «**İlk peyğəmbərlik kəlamından insanlara gəlib çatan söz *budur*: "Utanmırsansa, istədiyini et!"**».[4]

Həyaya sığmayan davranışlardan biri də dövrümüzdəki bəzi insanların küçə və bazarlarda söylədikləri tərbiyəsiz sözlər və etdikləri çirkin hərəkətlərdir. Halbuki, insan, öyrənilməsi vacib olan məsələlər istisna olmaqla, hər zaman həyalı olmalıdır. Müvəffəq edən Allahdır.

---

[1] "Sunən Əbu Davud", 4428. Şeyx Albani bu hədisin isnadının zəif olduğunu demişdir. Bax: "Mişkat əl-Məsabih", 3554.

[2] Ehtilam, ərəbcə اِحْتَلَمَ (ihtələmə) felindən əmələ gəlmiş məsdərdir, "yuxuda ikən sperma axıtmaq" deməkdir. Başqa sözlə buna "pollyusiya" da deyilir.

[3] "Səhih əl-Buxari", 6091; "Səhih Muslim", 313.

[4] "Səhih əl-Buxari", 6120.

Səksən beşinci fəsil

Sirri qorumaq

Mövzu ilə əlaqəli ayə:

Uca Allah belə buyurur:

﴿وَأَوۡفُواْ بِٱلۡعَهۡدِۖ إِنَّ ٱلۡعَهۡدَ كَانَ مَسۡـُٔولٗا﴾

"Əhdə vəfa edin, çünki *hər kəs* əhd barəsində sorğu-sual olunacaq".[1]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ bu fəslə **"Sirri qorumaq"** adını vermişdir. Burada sirr dedikdə, sənin**lə** həyat yoldaşın arasında olan gizli məqamlar nəzərdə tutulur. Bu sirri yaymaq və ya onu kiməsə açıb demək halal deyildir. Fərq etməz, istər həyat yoldaşın sənə: "Bunu heç kəsə bildirmə!"– desin, istərsə də onun hərəkətlərindən və ya halından hiss edirsən ki, o, *aranızda olan bu sirrin* kiminsə qulağına çatmasını istəmir.

Birinciyə misal, sözlə bildirməsidir. Məsələn, yoldaşın sənə bir şey danışır, sonra da: "Bunu heç kəsə bildirmə, bu sənə əmanətdir"– deyir.

İkinciyə misal, onun halıdır. Məsələn, yoldaşın sənin**lə** söhbət edir, lakin söhbət əsnasında sağa-sola baxır və ehtiyat edir ki, birdən bu söhbəti başqası eşidər. Demək, onun sağa-sola baxması o deməkdir ki, o, bu söhbətin başqasının qulağına çatmasını istəmir.

Üçüncüyə misal, sənə bildirdiyi və ya sənin**lə** danışdığı, ancaq zikr olunması utanc doğuran, yaxud zikr olunması ehtiyat edilən, ya da bunlara bənzər məsələdir. Bu zaman həmin sirri bəyan etmək və ya başqasına açıb demək sənə halal deyildir.

Sonra müəllif ﵀ uca Allahın bu ayəsini dəlil gətirir: **"Əhdə vəfa edin, çünki *hər kəs* əhd barəsində sorğu-sual olunacaq".** Yəni, hər hansı bir məsələ barəsində dil ilə və ya hal ilə əhd bağlasanız, bu əhdə sadiq qalmanız vacibdir. Əhdin bir növü də insanlar arasında baş verən alış-veriş, icarə, girov və başqa bu kimi məsələlərdə qoyulan şərtlərdir və heç şübhəsiz, bu şərtlər də əhdə aiddir.

---

[1] "əl-İsra" surəsi, 34.

Müsəlmanlarla kafirlər arasında bağlanan sazişlər də əhdə vəfa məsələsinə aiddir. Bu zaman müsəlmanların bu sazişlərə əməl etmələri və ona sadiq qalmaları vacibdir.

Uca Allah "ət-Tövbə" surəsində əhd bağlanılmış kafirlərin üç qismə bölündüyünü bəyan etmişdir:

1. Əhdlərinə sadiq qalmaqda davam edənlər. Bu zaman bizim də onlarla olan əhdə sadiq qalmağımız vacibdir.

2. Əhdi pozanlar. Bu zaman onlarla bizim aramızda artıq heç bir əhd yoxdur, çünki onlar əhdi pozmuşlar. Uca Allah belə buyurur: **"Məgər siz andlarını pozan, Peyğəmbəri *öz yurdundan* qovmaq fikrində olan, özləri də sizinlə *döyüşü* birinci başlayan bir camaatla vuruşmayacaqsınız?"**

3. Əhdlərini pozmayan, lakin bu əhdə sadiq qalmaqda davam edib-etməyəcəkləri də bəlli olmayanlar. Hətta onların xəyanət edib əhdlərini pozacaqlarından ehtiyat edilir. Onlar haqqında uca Allah belə buyurur: **"Əgər bir qövmün *əhdi pozacağı ilə* xəyanət etməsindən qorxsan, sən də onlara onu pozduğunu bildir".**[1] Yəni, onlara: "Artıq sizinlə bizim aramızda saziş yoxdur!"– de ki, məsələ aydın olsun.

Bir sözlə, insanların öz aralarında razılaşdıqları bütün şərtlər əhd sayılır. Vəzifəli şəxslərin və işçilərin öz öhdəliklərini layiqincə yerinə yetirmələri də bu qəbildəndir. Çünki onlar bu vəzifəyə gələn zaman hökumətin bu vəzifə üçün qoyduğu şərtləri qəbul etmişlər. Məsələn, işə vaxtında gəlmək, iş saatı bitmədən iş yerini tərk etməmək, işə can yandırmaq və başqa bu kimi şərtlər. Bu cür şərtlər idarə və müəssisələrdə qoyulan, hamının bildiyi məsələlərdir.

Bu əhdlərə sadiq qalmaq vacibdir. Əks halda bu vəzitəni tərk et və öz işində azad ol, çünki bu vəzifəni tutmağa səni heç kim məcbur etməyib. Sən özün öz istəyinlə bu vəzifəyə gəlmisən. Elə isə, bu vəzifənin tələb etdiyi bütün şərtləri yerinə yetirməyin vacibdir. Bunu edə bilməyəcəksənsə, o zaman bu vəzifəni tərk et və istədiyin işlə məşğul ol. O zaman Allahdan başqa heç kəs səni hesaba çəkməyəcəkdir.

[1] "əl-Ənfal" surəsi, 58.

Mövzu ilə əlaqəli hədislər:

٦٨٥ – وَعَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « إِنَّ مِنْ أَشَرِّ النَّاسِ عِنْدَ اللَّهِ مَنْزِلَةً يَوْمَ الْقِيَامَةِ الرَّجُلُ يُفْضِي إِلَى المَرْأَةِ وَتُفْضِي إِلَيْهِ ثُمَّ يَنْشُرُ سِرَّهَا» رواه مسلم.

685. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Şübhəsiz ki, Qiyamət günü Allah qatında ən pis məqamda olan insanlardan biri də həyat yoldaşı ilə yaxınlıq edib, sonra onun sirrini yayan kişidir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﷺ bu fəsildə Əbu Səid əl-Xudrinin ﷺ rəvayət etdiyi hədisi nəql etmişdir. Bu hədisdə Peyğəmbər ﷺ demişdir: **"Şübhəsiz ki, Qiyamət günü Allah qatında ən pis məqamda olan insanlardan biri də...".**

Bu hədisin ərəbcəsində Peyğəmbər ﷺ çox az hallarda istifadə olunan **"əşərru"** (ən pis) kəlməsindən istifadə edir. Əksər hallarda bu kəlmə həmzəsiz, yəni **"şərrun"** formasında istifadə olunur. Məsələn, xeyir işlərdə "xayrun", şər işlərdə isə "şərrun" deyilir. Çox az hallarda "əxyəru" və ya "əşərru" kəlmələri işlənir. Məsələn, uca Allah belə buyurur: **"Həmin gün Cənnət sakinlərinin qalacağı yer daha xeyirli və istirahət edəcəyi yer daha gözəl olacaq".**[2] Başqa bir ayədə isə belə buyurur: **"Nəhayət, özlərinə vəd olunan ya əzabı, ya da *Qiyamət* saatını gördükləri zaman onlar kimin məqamının daha pis, kimin ordusunun daha zəif olduğunu biləcəklər".**[3] Bu ayələrin ərəbcəsində "xayrun" və "şərrun" kəlmələri həmzəsiz olaraq keçir. Lakin bəzi hallarda, qaydaya əsasən, həmzə ilə də gəlir. Bizim hədisdə də məhz o formada keçir: **"Şübhəsiz ki, Qiyamət günü Allah qatında ən pis məqamda olan insanlardan biri də həyat yoldaşı ilə yaxınlıq edib, sonra onun sirrini yayan kişidir".**

Həmçinin, qadın da belə etməklə, kişinin sirrini yayır. Məsələn, kişi: "Dünən axşam arvadımla filan və filan şeyləri etdim"– deməklə, aralarında

[1] "Səhih Muslim", 1437.

[2] "əl-Furqan" surəsi, 24.

[3] "Məryəm" surəsi, 75.

baş verənləri yayır. O olanları elə vəsf edir ki, onu dinləyən adamda, sanki onlarla birlikdə eyni yataqda olduğu təsəvvürü yaranır. Allaha sığınırıq! Adam həyat yoldaşının sirrini bu cür yayır, halbuki, həyat yoldaşı bu sirlərin başqa birisinin bilməsini istəmir.

Qadın da həmçinin, başqa qadınlara: "Axşam kişi mənimlə filan və filan şeyləri etdi"– deməklə, aralarında olan sirri yayır. Bütün bunların hamısı haramdır. Bunu edən kimsə, Qiyamət günü Allah qatında ən pis məqamda olan insanlardan olacaqdır.

Odur ki, evin, yatağın və başqa bu kimi yerlərin sirlərini qorumaq vacibdir, yəni bu sirlər heç vaxt, heç kəsə deyilməməlidir. Kim öz qardaşının sirrini qoruyarsa, Allah da onun sirrini qoruyar. Verilən mükafat, əmələ uyğun olur. Müvəffəq edən Allahdır.

٦٨٦ – وَعَنْ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ رضي الله عنهما أَنَّ عُمَرَ رضي الله عنه حِينَ تَأَيَّمَتْ بِنْتُهُ حَفْصَةُ قَالَ: لَقَيْتُ عُثْمَانَ بْنَ عَفَّانَ رضي الله عنه فَعَرَضْتُ عَلَيْهِ حَفْصَةَ فَقُلْتُ: إِنْ شِئْتَ أَنْكَحْتُكَ حَفْصَةَ بِنْتَ عُمَرَ؟ قَالَ: سَأَنْظُرُ فِي أَمْرِي. فَلبِثْتُ لَيَالِيَ، ثُمَّ لَقِيَنِي، فَقَالَ: قَدْ بَدَا لِي أَنْ لَا أَتَزَوَّجَ يَوْمِي هَذَا، فَلَقِيتُ أَبَا بَكْرٍ الصِّدِّيقَ رضي الله عنه. فَقُلْتُ: إِنْ شِئْتَ أَنْكَحْتُكَ حَفْصَةَ بِنْتَ عُمَرَ، فَصَمَتَ أَبُو بَكْرٍ رضي الله عنه، فَلَمْ يَرْجِعْ إِلَيَّ شَيْئاً، فَكُنْتُ عَلَيْهِ أَوْجَدَ مِنِّي عَلَى عُثْمَانَ، فَلَبِثْتُ لَيَالِيَ، ثُمَّ خَطَبَهَا النَّبِيُّ ﷺ، فَأَنْكَحْتُهَا إِيَّاهُ، فَلَقِيَنِي أَبُو بَكْرٍ فَقَالَ: لَعَلَّكَ وَجَدْتَ عَلَيَّ حِيْنَ عَرَضْتَ عَلَيَّ حَفْصَةَ فَلَمْ أَرْجِعْ إِلَيْكَ شَيْئاً؟ فَقُلْتُ: نَعَمْ. قَالَ: فَإِنَّهُ لَمْ يَمْنَعْنِي أَنْ أَرْجِعَ إِلَيْكَ فِيمَا عَرَضْتَ عَلَيَّ إِلاَّ أَنِّي كُنْتُ عَلِمْتُ أَنَّ النَّبِيَّ ﷺ ذَكَرَهَا، فَلَمْ أَكُنْ لِأُفْشِيَ سِرَّ رَسُولَ اللَّهِ ﷺ، وَلَوْ تَرَكَهَا النَّبِيُّ ﷺ لَقَبِلْتُهَا، رواه البخاري.

686. Abdullah ibn Ömər رضي الله عنهما rəvayət edir ki, Ömər رضي الله عنه, qızı Hafsənın رضي الله عنها *əri ölüb* dul qaldığı zamandan söhbət edərkən, belə dedi: "Mən Osman ibn Əffana رضي الله عنه rast gəldim və Hafsə *ilə ailə qurmağı* ona təklif edib dedim: "İstəsən, Hafsə bint Öməri sənə ərə verərəm". *Osman*: "Bu barədə düşünərəm"– dedi. Mən bir neçə gün gözlədim, sonra onunla *təkrar* görüş-dükdə, o dedi: "Düşündüm ki, bugünkü gündə onunla evlənməyim". *Ömər dedi*: "Sonra mən Əbu Bəkrə رضي الله عنه rast gəldim və *ona da*: "İstəsən, Hafsə bint Öməri sənə ərə verərəm"– dedim. Əbu Bəkr susdu və mənə heç bir cavab

vermədi. Mənim Osmandan çox ona acığım tutdu. Mən bir neçə gün də gözlədim. Sonra Peyğəmbər ﷺ Hafsəyə elçi göndərdi və mən də qızımı ona ərə verdim. Bundan sonra Əbu Bəkr mənə rast gəldi və: "Deyəsən, Hafsəni mənə təklif etdiyin zaman sənə bir cavab vermədiyimə görə mənə acığın tutmuşdu"– dedi. Mən: "Bəli"– deyə cavab verdim. Əbu Bəkr dedi: "Sən onu təklif edərkən, sənə bir cavab verməyə mənə mane olan yalnız o idi ki, mən Peyğəmbərin ﷺ onun adını çəkdiyini *və onunla evlənmək istədiyini* bilirdim. Odur ki Peyğəmbərin ﷺ sirrini ifşa etmək istəmədim. Əgər o, *Hafsədən* imtina etsəydi, mən onu alardım".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

٦٨٧ – وَعَنْ عَائِشَةَ رضي الله عنها قَالَتْ: كُنَّ أَزْوَاجُ النَّبِيِّ ﷺ عِنْدَهُ، فَأَقْبَلَتْ فَاطِمَةُ رضي الله عنها تَمْشِي. مَا تُخْطِىءُ مِشْيَتُهَا مِنْ مِشْيَةِ رَسُولِ اللَّهِ ﷺ شَيْئاً، فَلَمَّا رَآهَا رَحَّبَ بِهَا وَقَالَ: «مَرْحَباً بِابْنَتِي » ثُمَّ أَجْلَسَهَا عَنْ يَمِينِهِ – أَوْ عَنْ شِمَالِهِ – ثُمَّ سَارَّهَا فَبَكَتْ بُكَاءً شَدِيداً، فَلَمَّا رَأَى جَزَعَهَا سَارَّهَا الثَّانِيَةَ، فَضَحِكَتْ، فَقُلْتُ لَهَا: خَصَّكِ رَسُولُ اللَّهِ ﷺ مِنْ بَيْنِ نِسَائِهِ بِالسِّرَارِ، ثُمَّ أَنْتِ تَبْكِينَ؟ فَلَمَّا قَامَ رَسُولُ اللَّهِ ﷺ سَأَلْتُهَا: مَا قَالَ لَكِ رَسُولُ اللَّهِ ﷺ ؟ قَالَتْ: مَا كُنْتُ لِأُفْشِيَ عَلَى رَسُولِ اللَّهِ ﷺ سِرَّهُ. فَلَمَّا تُوُفِّيَ رَسُولُ اللَّهِ ﷺ قُلْتُ: عَزَمْتُ عَلَيْكِ بِمَا لِي عَلَيْكِ مِنَ الحَقِّ، لَمَا حَدَّثْتِنِي مَا قَالَ لَكِ رَسُولُ اللَّهِ ﷺ ؟ فَقَالَتْ: أَمَّا الآنَ فَنَعَمْ، أَمَّا حِيْنَ سَارَّنِي فِي المَرَّةِ الأُولَى فَأَخْبَرَنِي « أَنَّ جِبْرِيلَ كَانَ يُعَارِضُهُ القُرْآنَ فِي كُلِّ سَنَةٍ مرَّةً أَوْ مَرَّتَيْنِ، وَأَنَّهُ عَارَضَهُ الآنَ مَرَّتَيْنِ، وَإِنِّي لَا أُرَى الأَجَلَ إِلاَّ قَدِ اقْتَرَبَ، فَاتَّقِيَ اللَّهَ وَاصْبِرِي، فَإِنَّهُ نِعْمَ السَّلَفُ أَنَا لَكِ » فَبَكَيْتُ بُكَائِيَ الَّذِي رَأَيْتِ، فَلَمَّا رَأَى جَزَعِي سَارَّنِي الثَّانِيَةَ، فَقَالَ: « يَا فَاطِمَةُ أَمَا تَرْضِينَ أَنْ تَكُونِي سَيِّدَةَ نِسَاءِ المُؤْمِنِينَ، أَوْ سَيِّدَةَ نِسَاءِ هَذِهِ الأُمَّةِ؟ » فَضَحِكْتُ ضَحِكِيَ الَّذِي رَأَيْتِ. متفقٌ عليه. وهذا لفظ مسلم.

687. Rəvayət edilir ki, Aişə رضي الله عنها demişdir: "*Bir dəfə* biz, *yəni* Peyğəmbərin ﷺ zövcələri onun yanında ikən, Fatimə رضي الله عنها yanımıza gəldi. Onun yerişi eynilə Rəsulullahın ﷺ yerişi kimi idi. Peyğəmbər ﷺ Fatiməni görən kimi salamladı və: **"Xoş gəlmisən, qızım!"**– deyərək onu sağ tərəfində, – və ya sol tərəfində otuzdurdu. Daha sonra *Fatimənin qulağına* gizlincə nə

[1] "Səhih əl-Buxari", 4005.

isə dedi və o, hönkür-hönkür ağlamağa başladı. *Peyğəmbər* ﷺ onun üzüldüyünü görüncə, ikinci dəfə *onun qulağına* gizlincə nə isə dedi. *Bu dəfə isə Fatimə* gülümsədi. Bu zaman mən Fatiməyə: "Zövcələri yanında ola-ola Rəsulullah ﷺ öz sirrini sadəcə sənə deyir, sən isə ağlayırsan?!"– dedim. Rəsulullah ﷺ çıxıb getdikdən sonra isə mən ondan: "Rəsulullah ﷺ sənə nə dedi?"– deyə soruşdum. O isə mənə: "Mən Rəsulullahın ﷺ sirrini heç kəsə açan deyiləm"– dedi.

Peyğəmbərin ﷺ vəfatından sonra Fatiməyə: "Sənin üzərində olan haqqıma görə Rəsulullahın ﷺ sənə dediyi sirri mənə də söyləməyini istəyirəm!"– dedim. Onda o, belə dedi: "Bəli, artıq onu deyə bilərəm. Birinci dəfə *Peyğəmbər* ﷺ mənə gizlincə xəbər verib bildirdi ki, **"Cəbrail hər il Quranı onunla birgə *yalnız* bir dəfə, yaxud iki dəfə təkrar edərdi, həmin il isə *artıq* iki dəfə təkrar etmişdir. Düşünürəm ki, bu mənim əcəlimin yaxınlaşması deməkdir. Elə isə, Allahdan qorx və səbir et! Həqiqətən sənin ən gözəl sələfin mənəm".** Onda mən, sənin də gördüyün kimi, *hönkür-hönkür* ağladım. *Peyğəmbər* ﷺ mənim üzüldüyümü görüncə, ikinci dəfə *qulağıma* gizlincə bunları dedi: **"Ey Fatimə, yoxsa mömin qadınların, – yaxud bu ümmətin qadınlarının ən hörmətlisi olmaq istəmirsən?!"** Onda mən, sənin də gördüyün kimi, gülümsədim".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1] Lakin bu, Muslimin ləfzidir.

٦٨٨ – وَعَنْ ثَابِتٍ عَنْ أَنَسٍ ﷺ قَالَ: أَتَى عَلَيَّ رَسُولُ اللَّهِ ﷺ وَأَنَا أَلْعَبُ مَعَ الْغِلْمَانِ، فَسَلَّمَ عَلَيْنَا، فَبَعَثَنِي فِي حَاجَةٍ، فَأَبْطَأْتُ عَلَى أُمِّي، فَلَمَّا جِئتُ قَالَتْ: مَا حَبَسَكَ؟ فَقُلْتُ: بَعَثَنِي رَسُولُ اللَّهِ ﷺ لِحَاجَةٍ، قَالَتْ: مَا حَاجَتُهُ؟ قُلْتُ: إِنَّهَا سِرٌّ. قَالَتْ: لَا تُخْبِرَنَّ بِسِرِّ رَسُولِ اللَّهِ ﷺ أَحَداً. قَالَ أَنَسٌ: وَاللَّهِ، لَوْ حَدَّثْتُ بِهِ أَحَداً لَحَدَّثْتُكَ بِهِ يَا ثَابِتُ. رواه مسلم. وروى البخاري بَعْضَهُ مُخْتصراً.

688. Sabit rəvayət edir ki, Ənəs ﷺ demişdir: "*Bir dəfə* mən uşaqlarla oynayarkən, Rəsulullah ﷺ yanıma gəldi və bizə salam verdi. Sonra da məni bir iş dalınca göndərdi. Bu səbəbdən mən anamın yanına gec qayıtdım. Evə gəldikdə, anam: "Nə üçün gecikdin?"– deyə *bunun səbəbini* soruşdu.

[1] "Səhih əl-Buxari", 3623; "Səhih Muslim", 2450.

Mən də ona: "Rəsulullah ﷺ məni bir iş dalınca göndərmişdi"– dedim. Anam: "Rəsulullahın ﷺ işi nə imiş?"– deyə soruşdu, mən də: "Bu, bir sirdir"– dedim. Onda anam mənə dedi: "Rəsulullahın ﷺ sirrini heç kəsə demə!"

Ənəs رضي الله عنه *bütün bunları danışdıqdan sonra Sabitə belə* dedi: "Ey Sabit, vallahi, bu sirri bir adama söyləyəcək olsaydım, mütləq sənə söyləyərdim".

Bu hədisi Muslim rəvayət etmişdir.[1] Hədisi başqa ləfz ilə müxtəsər olaraq Buxari də rəvayət etmişdir.[2]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi رحمه الله **"Sirri qorumaq"** adlı bu fəsildə Sabit əl-Bunaniyə istinadən Rəsulullahın ﷺ xidmətçisi Ənəs ibn Malikin رضي الله عنه belə dediyini nəql etmişdir: "*Bir dəfə* mən uşaqlarla oynayarkən, Rəsulullah ﷺ yanıma gəldi və bizə salam verdi". Yəni, uşaqlar oynayarkən onların hamısına salam verdi. Çünki Rəsulullah ﷺ insanlar arasında ən gözəl əxlaq sahibi idi. O, uşaqların yanından keçərkən onlara salam verərdi.

Sonra Peyğəmbər ﷺ Ənəs ibn Maliki رضي الله عنه yanına çağırdı və onu bir iş dalınca göndərdi. Bu səbəbdən də Ənəs رضي الله عنه anasının, yəni Əbu Talhənin həyat yoldaşı Ummu Suleymin رضي الله عنها yanına gec qayıtdı. O, evə qayıtdıqda, anası ondan: "Nə səbəbə gecikmisən?"– deyə *gecikməsinin səbəbini* soruşdu, Ənəs رضي الله عنه də: "Rəsulullah ﷺ məni bir iş dalınca göndərmişdi"– dedi. Anası: "O, nə iş idi?"– deyə soruşduqda, Ənəs رضي الله عنه: "Mən Rəsulullahın ﷺ sirrini heç kəsə demərəm"– deyə cavab verdi. Onda anası ona belə dedi: "Rəsulullahın ﷺ sirrini heç kəsə demə!"

Ənəs رضي الله عنه, tələbəsi Sabitə dedi: "Ey Sabit, vallahi, bu sirri bir adama söyləyəcək olsaydım, mütləq sənə söyləyərdim". Yəni, Peyğəmbərin ﷺ məni hansı işin dalınca göndərdiyini heç kəsə demərəm.

Bu hədisdə bir çox faydalar vardır:

1. Peyğəmbərin ﷺ gözəl əxlaq sahibi və təvazökar olması. Peyğəmbər ﷺ, Allah qatında ən yüksək şərəfə, məqama və hörmətə sahib olmasına rəğmən təvazökarlıq göstərər, hətta bazarda və ya küçədə oynayan uşaqlarla da salamlaşardı. Allahın dilədiyi şəxsdən başqa, hansı birimiz bunu edirik?

---

[1] "Səhih Muslim", 2482.

[2] "Səhih əl-Buxari", 6289.

2. İnsanın, yanlarından keçdiyi kimsələrə, uşaqlar olsa belə, salam verməsi sünnədir. Çünki salam, müsəlman qardaşın üçün etdiyin bir duadır. Onun verdiyi cavab da sənin üçün bir duadır. Həm də uşaqlara salam verdiyin zaman, onları *bu cür* gözəl tərbiyəyə alışdırırsan ki, onlar da bu tərbiyə üzərində böyüsünlər və sonra da bunu davam etdirsinlər. Onlar, səndən öyrəndikləri bu hərəkəti hər dəfə etdikdə, sənə də savab yazılacaq. Belə ki, insanların hər bir xeyir işdə sənə uymalarında, sənin də savabın vardır.

3. Uşağı bir iş dalınca göndərməyin icazəli olması. Lakin bir şərtlə ki, həmin uşaq o işi yerinə yetirmək xüsusunda etibarlı olsun. Əgər etibar olunası deyilsə, yəni məsələn, oynamağa həvəsli və özünə tapşırılan işə laqeyd yanaşan biridirsə, o zaman ona etimad olunmur.

4. Fiqh alimləri belə demişlər: "Əgər bir uşaq sənin yanına gəlib: "Bunu atam göndərib", "Bunu anam göndərib" və sairə buna bənzər sözlər deyərək sənə bir şey verərsə, – bu uşaq özlüyündə öz malından sədəqə verməyə malik olmasa belə, onun gətirdiyi şeyi ondan qəbul edə bilərsən". Məsələn, sənə xurma, qarpız, köynək və sairə gətirib: "Bunu atam göndərib"– deyərsə, onu götür və ağlına: "Uşaqdır, bəlkə onu haradansa oğurlayıb, bəlkə filan şeydir..." kimi fikirlər salma və *məsələnin* zahirinə baxaraq, onu götür.

5. Anaya və ailəyə diqqət yetirmək. İnsan bir iş dalınca getdiyi zaman ailəsinin yanına gec qayıdacağından ehtiyat edərsə, ehtiyac duyulduqda bu barədə onlara xəbər verməlidir. Yəni, evdən çıxarkən: "Mən filan yerə gedirəm"– deyərək ailənə xəbər verməlisən ki, qəlbləri rahat olsun və sən gecikən zaman ağıllarına min cür fikir gəlməsin. Çünki insan özü də bilmir, bəlkə getdiyi yerdə başına bir hadisə gəldi və ya xəstələndi. Əgər bundan ailənin xəbəri yoxdursa, narahat olarlar. Ona görə də adətin üzrə getmədiyin bir yerə getdiyində, həmin yeri ailənə bildirməlisən. Amma adətin üzrə məscidə, işə və başqa bu kimi yerlərə gedən zaman bu barədə ailənə xəbər verməməkdə heç bir problem yoxdur.

Lakin adətən getmədiyin bir yerə, məsələn qonşu bir ölkəyə getdiyin zaman ailənə de ki, bu gün mən filan yerə gedirəm. Yaxud gəzintiyə getmək istədiyin zaman: "Mən bu gün gəzintiyə gedirəm"– deyərək ailənə xəbər ver ki, narahat olmasınlar.

6. İnsan, bir şəxsə aid olan sirri başqasına, – anası və ya atası olsa belə, heç kəsə açmamalıdır. Məsələn, bir adam səni *gizli* bir iş dalınca göndərərsə və bundan sonra atan səndən: "O səni hansı iş üçün göndərmişdi?"– deyə soruşarsa, o zaman, atan olsa belə, bu iş barədə ona xəbər vermə. Yaxud anan: "O səni hansı işin dalınca göndərmişdi?" – deyə soruşarsa, yenə anan da olsa belə, bu iş barədə ona xəbər vermə. Çünki bu bir sirdir və onu başqa bir adama açıb demək caiz deyildir.

7. Ummu Suleymin رضي الله عنها, oğlu Ənəsə رضي الله عنه gözəl tərbiyə verməsi. Belə ki o, oğlu Ənəsə belə demişdi: "Rəsulullahın ﷺ sirrini heç kəsə demə!" Ummu Suleymin bu sözü deməsinin əsas səbəbi, Ənəsi ruhlandırmaq, mətin olmağa yönəltmək və onun üzrünü qəbul etdiyini bildirmək idi. Halbuki, Ənəs bu sirri nə ona, nə də ki başqasına bildirməmişdi. Həm də bu, Rəsulullahın ﷺ sirri idi. Ona görə də anası ona: "Rəsulullahın ﷺ sirrini heç kəsə demə!"– dedi. Sanki anası bununla demək istəyir ki, mən sənin fikrinlə razıyam, sirri saxlamaqda möhkəm ol.

8. Ənəsin رضي الله عنه Sabit əl-Bunaniyə olan sevgisini dilə gətirməsi. Sabit onun tələbəsi idi və bundan dolayı da onun Ənəsdən رضي الله عنه çoxlu sayda hədis rəvayət etdiyini görürük. Ona görə də Ənəs رضي الله عنه ona belə demişdir: "Ey Sabit, vallahi, bu sirri bir adama söyləyəcək olsaydım, mütləq sənə söyləyərdim". Bu da Ənəslə tələbəsi Sabit arasında olan məhəbbətə dəlalət edir.

Elə buna əsasən də tələbələrlə müəllimləri arasında qarşılıqlı məhəbbətin olması vacibdir. Çünki tələbə ilə müəllim arasında qarşılıqlı məhəbbət olmadıqda, tələbə, müəlliminin hər dediyini qəbul etmir, müəllim də öz növbəsində, tələbəsini öyrətməkdə fəal olmur, onun inkişafına səy göstərmir. Onlar arasında qarşılıqlı məhəbbət olduqda isə, bu, bir çox xeyir işlərə vəsilə olur. Müvəffəq edən Allahdır.

Səksən altıncı fəsil

Əhdə vəfa etmək və vədi yerinə yetirmək

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah belə buyurur:

﴿ وَأَوۡفُواْ بِٱلۡعَهۡدِۖ إِنَّ ٱلۡعَهۡدَ كَانَ مَسۡـُٔولٗا ﴾

"Əhdə vəfa edin, çünki *hər kəs* əhd barəsində sorğu-sual olunacaq".[1]

﴿ وَأَوۡفُواْ بِعَهۡدِ ٱللَّهِ إِذَا عَٰهَدتُّمۡ ﴾

"Allahla bağladığınız əhdə sadiq olun!"[2]

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ أَوۡفُواْ بِٱلۡعُقُودِ ﴾

"Ey iman gətirənlər, əhdlərinizi yerinə yetirin!"[3]

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لِمَ تَقُولُونَ مَا لَا تَفۡعَلُونَ * كَبُرَ مَقۡتًا عِندَ ٱللَّهِ أَن تَقُولُواْ مَا لَا تَفۡعَلُونَ ﴾

"Ey iman gətirənlər, nə üçün siz etmədiyiniz şeyləri danışırsınız?! Etmədiyiniz şeylərdən danışmağınız Allah yanında böyük nifrətlə qarşılanır".[4]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ bu fəslə **"Əhdə vəfa etmək və vədi yerinə yetirmək"** adını vermişdir.

Əhd, bir insanın başqa birisi ilə əhdləşməsidir. Bu, iki növ olur:

1. Allahla bağlanılan əhd. Uca Allah Öz kitabında belə buyurur: **"Bir zaman Rəbbin Adəm oğullarının bellərindən onların törəmələrini**

---

[1] "əl-İsra" surəsi, 34.

[2] "ən-Nəhl" surəsi, 91.

[3] "əl-Maidə" surəsi, 1.

[4] "əs-Saff" surəsi, 2-3.

çıxarmış və: "Mən sizin Rəbbiniz deyiləmmi?"– *deyə* onları özlərinin əleyhinə şahid tutmuşdu. Onlar: "Bəli, biz şahid olduq!"– demişdilər".[1] Uca Allah artıq bütün qullarından Allaha ibadət edəcəklərinə, Ona heç bir şeyi şərik qoşmayacaqlarına dair əhd almışdır. Çünki Allah onların Rəbbi və onları yaradandır.

2. Allahın qulları ilə bağlanılan əhd. İnsanlar arasında bağlanılan əhdlər müxtəlif olur. Məsələn, müsəlmanın öz müsəlman qardaşı ilə, yaxud müsəlmanın kafirlə və digər insanlarla bağladığı bəlli olan əhdlər. Uca Allah bu əhdlərə vəfa etməyi bizə əmr edərək belə buyurmuşdur: **"Əhdə vəfa edin, çünki *hər kəs* əhd barəsində sorğu-sual olunacaq".** Yəni Qiyamət günü insan, əhdinə vəfa edib-etməməsi barədə sorğu-sual olunacaq, ondan: "əhdinə vəfa etdinmi və ya etmədinmi"– deyə soruşacaqlar.

Başqa bir ayədə uca Allah belə buyurur: **"Allahla bağladığınız əhdə sadiq olun!"** Yəni, əhdinizə xilaf çıxmayın.

Bir başqa ayədə isə uca Allah belə buyurur: **"Ey iman gətirənlər, nə üçün siz etmədiyiniz şeyləri danışırsınız?! Etmədiyiniz şeylərdən danışmağınız Allah yanında böyük nifrətlə qarşılanır".** Bir insan əhd verib sonra ona xilaf çıxarsa, bu zaman etmədiyi şeyləri danışmış sayılar. Məsələn, bir adama: "Aramızda olan sirri heç kəsə deməyəcəyimə dair sənə söz verirəm!" və ya "Etdiyin filan və filan hərəkəti heç kəsə xəbər verməyəcəyimə dair sənə söz verirəm!"– desən, sonra da əhdini pozub, aranızda baş verəni başqasına çatdırsan, o zaman etməyəcəyin bir şey barəsində danışan olacaqsan.

"Etmədiyiniz şeylərdən danışmağınız Allah yanında böyük nifrətlə qarşılanır". Yəni, uca Allah etməyəcəyiniz şeylər barəsində danışmağınıza nifrət edir, əhd bağladıqları zaman əhdinə sadiq qalanları isə sevir.

Mövzu ilə əlaqəli hədislər:

٦٨٩ - عَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « آيَةُ الْمُنَافِقِ ثَلَاثٌ: إِذَا حَدَّثَ كَذَبَ، وَإِذَا وَعَدَ أَخْلَفَ، وَإِذَا اؤْتُمِنَ خَانَ » متفقٌ عليه.

زاد في روايةٍ لمسلم: « وَإِنْ صَامَ وَصَلَّى وَزَعَمَ أَنَّهُ مُسْلِمٌ ».

[1] "əl-Əraf" surəsi, 172.

689. Əbu Hureyra ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Münafiqin əlaməti üçdür: danışdığı zaman yalan danışar, vəd verdiyi zaman *vədinə* xilaf çıxar, ona əmanət verildiyi zaman xəyanət edər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Muslimin rəvayətində əlavə olaraq bu sözlər də keçir: **"Oruc tutsa, namaz qılsa və müsəlman olduğunu iddia etsə belə".**[2]

٦٩٠ - وَعَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ العَاصِ ﵄ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « أَرْبَعٌ مَنْ كُنَّ فِيْهِ كَانَ مُنَافِقاً خَالِصاً. وَمَنْ كَانَتْ فِيهِ خَصْلَةٌ مِنْهُنَّ كَانَتْ فِيهِ خَصْلَةٌ مِنَ النِّفَاقِ حَتَّى يَدَعَهَا: إِذَا اؤْتُمِنَ خَانَ، وَإِذَا حَدَّثَ كَذَبَ، وَإِذَا عَاهَدَ غَدَرَ، وَإِذَا خَاصَمَ فَجَرَ » متفقٌ عليه.

690. Abdullah ibn Amr ibn əl-As ﵄ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Dörd *xislət* vardır ki, bunlar kimdə olsa, əsil münafiq sayılar və hər kimdə bunlardan biri olsa belə, onu tərk edincəyə qədər özündə münafiqlik xisləti qalmış sayılar: ona əmanət verildiyi zaman xəyanət edər, danışdığı zaman yalan danışar, əhd bağladığı zaman *əhdini* pozar, mübahisə etdiyi zaman haqsızlıq edər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

٦٩١ - وَعَنْ جَابِرٍ ﵁ قَالَ: قَالَ لِي النَّبِيُّ ﷺ: « لَوْ قَدْ جَاءَ مَالُ الْبَحْرَيْنِ أَعْطَيْتُكَ هَكَذَا وَهَكَذَا وَهَكَذَا » فَلَمْ يَجِيءْ مَالُ الْبحْرَيْنِ حَتَّى قُبِضَ النَّبِيُّ ﷺ ، فَلَمَّا جَاءَ مَالُ الْبَحْرَيْنِ أَمَرَ أَبُو بَكْرٍ ﵁ فَنَادَى: مَنْ كَانَ لَهُ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ عِدَةٌ أَوْ دَيْنٌ فَلْيَأْتِنَا. فَأَتَيْتُهُ وَقُلْتُ لَهُ: إِنَّ النَّبِيّ ﷺ قَالَ لِي كَذَا وَكَذَا، فَحَثَى لِي حَثْيَةً، فَعَدَدْتُهَا، فَإِذَا هِيَ خَمْسُمِائَةٍ، فَقَالَ لِي: خُذْ مِثْلَيْهَا. متفقٌ عليه.

691. Rəvayət edilir ki, Cabir ibn Abdullah ﵄ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ mənə belə dedi: **"Bəhreyndən mallar gəlsə, sənə filan, filan və filan *qədər mal* verəcəm".** Peyğəmbər ﷺ vəfat edənədək Bəhreyndən mal gəlmədi. *Nəhayət,* Bəhreyndən mallar gəldiyi zaman Əbu Bəkr

[1] "Səhih əl-Buxari", 33; "Səhih Muslim", 59.

[2] "Səhih Muslim", 59.

[3] "Səhih əl-Buxari", 34; "Səhih Muslim", 58.

əmr etdi ki, belə elan edilsin: "Peyğəmbər ﷺ kimə vəd vermişdirsə, yaxud kimə borclu qalmışdırsa, qoy həmin adam bizim yanımıza gəlsin!" *Bunu eşidəndə* mən Əbu Bəkrin yanına gəlib dedim: "Peyğəmbər ﷺ mənə filan, filan *qədər mal* söz vermişdir". O, mənə bir ovuc dolusu qızıl verdi. Mən qızılları saydım və baxdım ki, onların sayı beş yüzdür. Onda Əbu Bəkr *mənə*: "İki o qədərini də götür!"– deyə buyurdu.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi رحمه الله "Salehlər bağçası" adlı kitabının **"Əhdə vəfa etmək və vədi yerinə yetirmək"** adlı fəslində Əbu Hureyraya رضي الله عنه istinadən Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: **"Münafiqin əlaməti üçdür: danışdığı zaman yalan danışar, vəd verdiyi zaman *vədinə* xilaf çıxar, ona əmanət verildiyi zaman xəyanət edər".** Yəni, bunlar münafiqlərin əlamətlərindəndir.

Bir adamın danışdığı zaman yalan danışdığını, vəd verdiyi zaman vədinə xilaf çıxdığını, ona əmanət verildiyində də xəyanət etdiyini görsəniz, bilin ki, onda münafiqlik əlaməti var. Bir sözlə, bunlar münafiqlərin əlamətlərindəndir. Çünki münafiqliyin kökü, gizlətmək və örtmək üzərində qurulmuşdur. Pisin üstünü örtür, yaxşını isə üzə çıxarır, küfrün üstünü örtür, imanı isə üzə çıxarır.

Yalançı da eynilə belədir – real olanın əksini deyir. Vəd verib vədinə xilaf çıxan da, əmanət verildiyi zaman ona xəyanət edən də həmçinin belədirlər. Bunlar münafiqliyin əlamətlərindəndir. Allaha sığınırıq.

Bu hədis, insanı yalan danışmaqdan çəkindirir və bunun münafiqlərin əlamətlərindən olduğunu açıqlayır. Odur ki, insanın yalan danışması icazəli deyildir. Lakin eyhamla[2] danışmaq məcburiyyətində qalarsa, bunda bir problem yoxdur. Məsələn, bir adam ondan, başqasının bilməsini istəmədiyi bir iş barəsində soruşarsa, o, reallığa əks olan bir şey barəsində danışaraq söhbəti başqa səmtə yönəldir. Belə etməkdə heç bir qəbahət yoxdur.

---

[1] "Səhih əl-Buxari", 2296; "Səhih Muslim", 2314.

[2] Eyham – ikimənalı, üstüörtülü söz və ya ifadə; işarə.

Vədə xilaf çıxmağa gəldikdə isə, o da haramdır. İstər pul verməyi, istər bir işdə yardım etməyi, istərsə də başqa bir şeyi vəd etdinsə, bu vədi yerinə yetirməyin vacibdir.

Buna əsasən də gərək hər bir insan verdiyi vədləri konkretləşdirməli və dəqiqləşdirməlidir. Məsələn, bir adama: "Filan yerdə görüşərik"– deyə söz verdikdə, görüş saatını da dəqiqləşdirmək lazımdır ki, vəd verilən adam gecikdiyi zaman vəd verən gedərsə, onun əlində həm üzrü olsun, həm də görüş təyin olunan yerdə uzun müddət gözləmək məcburiyyətində qalmasın.

Bəzi səfehlər arasında belə bir deyim yayılıb: "Mən sənə vəd versəm, vədimin üstündə duracam, çünki mənim vədim ingilis vədidir". Onlar elə güman edirlər ki, əhdlərinə vəfa edənlər ancaq ingilislərdir. Halbuki, əsil vəfa edilən vəd, möminin vədidir. Ona görə də bir adama vəd verdiyin zaman bu vədi qüvvətləndirmək istəyirsənsə, "bu mömin vədidir" de ki, ona xilaf çımayasan. Çünki vədə yalnız münafiq xilaf çıxır.

"Ona əmanət verildiyi zaman xəyanət edər". Yəni insanlar ona mallarını, sirlərini, övladlarını və başqa bu kimi şeylərini əmanət etdikdə, xəyanət edər. Allah qorusun! Bu xislət də həmçinin, münafiqin əlamətlərindəndir.

Abdullah ibn Amr ibn əl-Asın رضي الله عنهما rəvayət etdiyi hədisdə isə belə deyilir: **"Dörd *xislət* vardır ki, bunlar kimdə olsa, əsil münafiq sayılar və hər kimdə bunlardan biri olsa belə, onu tərk edincəyə qədər özündə münafiqlik xisləti qalmış sayılar...".** Yəni bu dörd xislət yalnız əsil münafiqdə cəm olar. Əgər bu xislətlərdən istənilən biri bir mömində olarsa, o, əsil münafiq sayılmaz, ancaq həmin xisləti tərk edənə qədər onda münafiq xisləti qalmış olar.

Bu dörd xislətlər aşağıdakılardır:

1) Ona əmanət verildiyi zaman xəyanət edər;

2) Danışdığı zaman yalan danışar. Bu iki xislət barəsində artıq danışmışıq.

3) Əhd bağladığı zaman *əhdini* pozar. Bu ifadə, **"vəd verdiyi zaman *vədinə* xilaf çıxar"** ifadəsinə yaxın bir məna daşıyır ki, onu da əvvəldə izah etmişik. Yəni, bir adamla əhd bağladığı zaman onu pozar və bağladığı əhdə sadiq qalmaz.

4. Mübahisə etdiyi zaman haqsızlıq edər. Mübahisə dedikdə, hakimin və ya başqa birisinin qarşısında edilən mübahisə başa düşülür. Mübahisə zamanı olunan haqsızlıq isə iki növ olur:

Birinci növ, ona məxsus olmayan bir şeyi iddia etməkdir.

İkinci növ, üzərində olan haqqı inkar etməkdir.

Birinci növə misal. Bir adam, qazının önündə başqa bir adama qarşı iddia qaldıraraq yalandan: "Mənim bu adamdan min manat alacağım var"– deyir. Sonra da iddiasında doğru olduğunu sübut etmək üçün and içir və yalançı şahid də gətirir. Beləliklə də, qazı onun lehinə qərar çıxarır. Artıq bu adam, *hədisdə də deyildiyi kimi,* mübahisə etdiyi zaman haqsızlıq etdi. Çünki o, özünə məxsus olmayan bir şeyin ona məxsus olduğunu iddia etmiş və buna dair *yalandan* and da içmişdir.

İkinci növə misal. Bir adamın başqa bir adamdan min manat alacağı var. Haqq sahibi olan adam borc verdiyi adamın yanına gəlib ondan öz haqqını tələb edir, o isə: "Mənim sənə heç bir verəcəyim yoxdur"– deyir. Mübahisəni həll etmək üçün onlar qazının yanına gedirlər. İddia edənin əlində heç bir sübutu olmadığından, borclu olduğunu inkar edən həmin yalançı yalandan and içərək: "Mənim ona heç bir verəcəyim yoxdur"– deyir. Bundan sonra da qazı yalançı adama bəraət qazandırır və sonda bu mübahisə haqsızlıqla nəticələnir. Allah qorusun! Peyğəmbər ﷺ bu haqda belə buyurmuşdur: **"Hər kim nəfsinə uyub bilə-bilə yalandan and içərək bir müsəlmanın malını mənimsəyərsə, Allahın qəzəbinə gəlmiş halda Onun hüzuruna yetişər".**[1]

Əgər bu dörd xislətin dördü də bir adamda cəm olarsa, əsil münafiq sayılar, çünki o, münafiqliyə aid olan bütün xislətlərə sahibdir. Allah qorusun! Əgər bir adamda bu dörd xislətdən biri olarsa, bu o deməkdir ki, onu tərk edincəyə qədər həmin adamda bir münafiqlik xisləti vardır.

Bu hədisdə, bu dörd xislətlə bağlı ən şiddətli şəkildə xəbərdarlıq vardır: əmanətə xəyanət, yalan danışmaq, əhdi pozmaq və mübahisə zamanı haqsızlıq etmək.

---

[1] "Səhih əl-Buxari", 6676; "Səhih Muslim", 2314.

Bu hədis həm də onu göstərir ki, bir adamda eyni zamanda həm iman, həm də münafiqlik xisləti cəm ola bilər. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Onda münafiqlik xisləti qalmış sayılar".** Bu, Sünnə və camaat əhlinin məzhəbidir. Yəni, bir insanda eyni zamanda həm münafiqlik, həm iman, həm fasiqlik, həm ədalət, həm düşmənçilik, həm də dostluq xislətləri ola bilər. Yəni, "bir insan mütləq olaraq ya əsil münafiq, ya da əsil mömin olmalıdır" deyilən bir şey yoxdur. Əksinə, bir insan mömin olduğu halda həm bəzi küfr xislətlərinə, həm də iman xislətlərinə sahib ola bilər.

Sonra müəllif رحمه الله Cabir ibn Abdullahın رضي الله عنهما hədisini zikr etmişdir. Bu hədisdə Cabir رضي الله عنه deyir: "*Bir dəfə* Peyğəmbər ﷺ mənə dedi: **"Bəhreyndən mallar gəlsə, sənə filan, filan və filan *qədər mal* verəcəm".**

Hədisdə Bəhreyndən gələn mallar deyildikdə, Əhsa və onun ətrafında olan ərazilərdən gələn mallar nəzərdə tutulur. Çünki o zaman bu ərazilərin hamısı Bəhreyn adlanırdı. Peyğəmbər ﷺ ovucunu göstərərək: **"Sənə filan, filan və filan *qədər mal* verəcəm"**– deyirdi. Bu isə onu göstərir ki, Peyğəmbər ﷺ Cabirə رضي الله عنه, Bəhreyndən gələcək maldan *üç ovuc qızıl* verəcəyinə dair vəd vermişdir.

Lakin Peyğəmbər ﷺ vəfat edənədək Bəhreyndən mal gəlmədi. Onun vəfatından sonra isə səhabələrin ümumi razılığına əsasən, Əbu Bəkr رضي الله عنه xəlifə seçildi və səhabələrin hamısı ona xəlifə olması üçün beyət etdilər.

Nəhayət, Əbu Bəkrin رضي الله عنه xilafəti dövründə Bəhreyndən mallar gəldikdə, o dedi: "Peyğəmbər ﷺ kimə vəd vermişdirsə, yaxud kimə borclu qalmışdırsa, qoy həmin adam bizim yanımıza gəlsin!" Çünki Peyğəmbər ﷺ, birindən bir şey satın almış və bundan dolayı da borca girmiş ola bilərdi. Yaxud birinə bir söz vermiş ola bilərdi. Doğrudan da, Peyğəmbər ﷺ Mədinədə ikən öz zirehini bir yəhudinin yanında girov qoymuş və bunun əvəzinə ondan ailəsi üçün otuz saa[1] arpa götürmüşdü.[2]

Peyğəmbər ﷺ mal, mülk sahibi deyildi və özü üçün mal tədarükü də görməzdi. Əlində olan mal da, sadəcə onu müsəlmanlara paylayacağı bir müddət ərzində onda qalardı.

---

[1] Saa, ölçü vahididir və dörd mudda bərabərdir. Bir mudd isə insanın iki ovucuna bərabərdir ki, bu da yeddi yüz qrama bərabərdir. ("Səmər əl-Müstətab", 1/28).

[2] "Səhih əl-Buxari", 6676; "Səhih Muslim", 2314.

Xülasə, Əbu Bəkr ﵁ elan etdi ki: "Peyğəmbər ﷺ kimə vəd vermişdirsə, yaxud kimə borclu qalmışdırsa, qoy həmin adam bizim yanımıza gəlsin!" *Bunu eşidəndə* Cabir ﵁ Əbu Bəkrin yanına gəldi və ona belə dedi: "Peyğəmbər ﷺ mənə belə demişdi: **"Bəhreyndən mallar gəlsə, sənə filan, filan və filan *qədər mal* verəcəm".** Əbu Bəkr ﵁ də ona: "Buyur, götür!"– dedi. Cabir əllərini uzadıb bir ovuc qızıl pul götürdü və saydıqda gördü ki, onların sayı beş yüzdür. Əbu Bəkr ona: "İki bu qədər də götür!"– dedi. Çünki Peyğəmbər ﷺ ovucunu üç dəfə göstərərək, **"Sənə filan, filan və filan *qədər mal* verəcəm"**– demişdi. Bu səbəbdən də Əbu Bəkr ﵁ ona, Rəsulullahın ﷺ vəd etdiyi qədər qızıl verdi.

Bu hədisdən çıxan faydalar:

1. Müsəlmanlardan bəzilərinə məxsusi olaraq xəzinədən bir şey verməyin caiz olması. Çünki Peyğəmbər ﷺ Cabiri xüsusiləşdirmişdi. Lakin bir şərtlə ki, bu insanın kefinə görə olmamalıdır. Əksinə, ümumi və ya xüsusi məsləhətə görə olmalıdır.

2. Bu hədis Rəsulullahın ﷺ nə qədər səxavətli olmasını göstərir. Belə ki, Peyğəmbər ﷺ malı saymadan, ovuc-ovuc paylayardı. Bu hədisdə də Cabirə ﵁ ovucunu göstərərək: **"Sənə filan, filan və filan *qədər mal* verəcəm"**– demişdi. Bu da onun səxavətli olmasına və dünya malının onun yanında heç bir dəyərinin olmamasına dəlalət edir. Mal-dövlət yığıb onu təkrar-təkrar sayanların etdikləri isə bunun tam əksinədir. Onlar mal-dövlət toplamağa o qədər aludə olurlar ki, iri pullar bir yana, xırda pulları belə təkrar-təkrar sayırlar.

3. Bu hədis Peyğəmbərin ﷺ qeybi bilməməsinə dəlalət edir. Çünki Peyğəmbər ﷺ Cabirə ﵁ vəd verir, ancaq vədinə əməl etmədən öncə vəfat edir. Vədinə əməl etməməsinin səbəbi də vəd verdiyi malın *vaxtında* gəlməməsi idi.

4. Bu hədis Əbu Bəkrin ﵁ fəzilətinə dəlalət edir. Çünki bütün səhabələr ona itaət (beyət) etmişdilər.

5. Bu hədis həm də onu göstərir ki, iddia edən şəxsin iddiasına qarşı çıxan olmadıqda, onun iddiası təmin olunmalıdır. Lakin bir şərtlə ki, həmin iddiaçı etibarlı adam olsun. Əgər həmin adama etiraz edən varsa, o halda iddia edən şəxs dəlil gətirməli, ittiham olunan, yəni inkar edən şəxs isə

and içməlidir. Bu qissədə də Cabirə ﵁ etiraz edən yox idi. Çünki xəzinəyə görə məsuliyyət daşıyan Əbu Bəkr ﵁ idi və: "Peyğəmbər ﷺ kimə vəd vermişdirsə, yaxud kimə borclu qalmışdırsa, qoy həmin adam bizim yanımıza gəlsin!"– sözünü insanlara elan edən də onun özü olmuşdu. Buna görə Cabir onun yanına gəldiyində, o, ondan: "Peyğəmbərin ﷺ sənə vəd verməsinə dair dəlilin varmı?"– deyə soruşmamış, yəni ondan heç bir dəlil dələb etməmişdir. Çünki həm Əbu Bəkr ﵁ Cabirə ﵁ inanırdı, həm də onun (Cabirin) iddiasına etiraz edən yox idi.

6. Bir şeyin bənzərinə etimad etmək olar. Yəni bir insan, bir qabla bir şeyi ölçsə və ölçdüyü şey yüz kilo gəlsə, ikinci dəfə o qabı doldurduqda, ölçmədən onu da yüz kilo qəbul edə bilər. Lakin bir şərtlə ki, ölçülən əşya həm yüngüllük, həm də ağırlıq baxımından eyni cins olsun. Çünki Əbu Bəkr ﵁ Cabirə bir ovuc vermiş və bu *bir ovucu saydıqdan sonra* beş yüz ədəd çıxdıqda, saymadan ikinci və üçüncü ovucları da eyni sayda qəbul etmişdi.

Yaxud, fərz edək ki, bir adamın beş yüz kiloqram verəcəyi bir şey var. Bu zaman o, bir qab götürür və onu *ağzına kimi* həmin şeylə doldurub ölçür. Ölçdükdən sonra da görür ki, bu qabın içindəki həmin şey on kiloqram gəldi. Bundan sonra həmin adam qalan ölçülərdə bu qaba etimad edib *onu ölçmədən* on kiloqram kimi qəbul edə bilər. Belə etməkdə qəbahət bir şey yoxdur. Çünki bir halda ki, qabın çəkisi hər dəfə eyni gəlir, onda həmin qaba etimad edərək onu çəkməmək olar. Çünki Əbu Bəkr ﵁ belə etmişdir. Müvəffəq edən Allahdır.

Səksən yeddinci fəsil

İnsanın, adət etdiyi xeyirli işlərdə davamlı olması

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah belə buyurur:

﴿ إِنَّ ٱللَّهَ لَا يُغَيِّرُ مَا بِقَوۡمٍ حَتَّىٰ يُغَيِّرُواْ مَا بِأَنفُسِهِمۡ ﴾

"Sözsüz ki, insanlar nəfslərində olanı dəyişmədikcə, Allah da onlarda olanı dəyişməz".[1]

﴿ وَلَا تَكُونُواْ كَٱلَّتِي نَقَضَتۡ غَزۡلَهَا مِنۢ بَعۡدِ قُوَّةٍ أَنكَٰثًا ﴾

"İpliyini möhkəm əyirdikdən sonra *onu* açıb sökən qadın kimi olmayın".[2]

Ayənin ərəbcəsində keçən "ənkəs" sozü "niks" sözünün cəmi olub, "möhkəm əyrilmiş ip" deməkdir.

﴿ وَلَا يَكُونُواْ كَٱلَّذِينَ أُوتُواْ ٱلۡكِتَٰبَ مِن قَبۡلُ فَطَالَ عَلَيۡهِمُ ٱلۡأَمَدُ فَقَسَتۡ قُلُوبُهُمۡ ﴾

"Daha öncə özlərinə Kitab verilmiş, uzun bir müddət keçdikdən sonra isə qəlbləri sərtləşmiş kimsələr kimi olmaması..."[3]

﴿ فَمَا رَعَوۡهَا حَقَّ رِعَايَتِهَا ﴾

"Lakin ona lazımınca riayət etmədilər"/[4]

Mövzu ilə bağlı hədislər:

٦٩٢ – وَعَنْ عَبْدِ اللَّهِ بْنِ عَمْرِو بْنِ العَاصِ رضي الله عنهما قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: يَا عَبْدَ اللَّهِ، لَا تَكُنْ مِثْلَ فُلَانٍ، كَانَ يَقُومُ اللَّيْلَ فَتَرَكَ قِيَامَ اللَّيْلِ! » متفقٌ عليه.

---

[1] "ər-Rəd" surəsi, 11.

[2] "ən-Nəhl" surəsi, 92.

[3] "əl-Hədid" surəsi, 16.

[4] "əl-Hədid" surəsi, 27.

692. Abdullah ibn Amr ibn əl-As رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ mənə belə demişdir: **"Ey Abdullah, sən filankəs kimi olma! O, gecələr namaza durardı, sonra isə gecə namazını tərk etdi".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi رحمه الله, "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"İnsanın, adət etdiyi xeyirli işlərdə davamlı olması"** adını vermişdir. Yəni, bir insan xeyirli bir iş görməyə adət etmişsə, gərək onu davamlı etsin. Məsələn, ratibə namazlarını, yəni beş vaxt fərz namazlarının sünnələrini tərk etməməyə adət etmişdirsə, buna davam etməlidir. Gecə namazlarına qalxırsa, bunu davamlı etməlidir. İki rükət duha namazı qılırsa, bunu davamlı etməlidir. Yəni, adət etdiyi xeyirli işlərin hamısında davamlı olması gərəkdir.

Gördüyü işlərdə davamlı olması Peyğəmbərin ﷺ adəti idi. Yəni, həmin işi davamlı edərdi. Bir iş gördükdə onu davamlı edər və heç vaxt tərk etməzdi. Çünki insan xeyirli bir iş görməyə adət etdikdən sonra onu tərk edərsə, bu, onun xeyirli işlərdən üz döndərməsinə səbəb ola bilər. Çünki irəli addım atdıqdan sonra geri addım atmaq, heç atmamaqdan pisdir. Yəni xeyiri bəri başdan etməmək, onu etdikdən sonra tərk etməkdən daha yüngüldür.

Sonra müəllif رحمه الله Qurandan bir neçə ayə zikr etmişdir. Bu ayələrin hamısı, insanın adət etdiyi xeyirli işləri davamlı etməsinin gərəkli olduğuna dəlalət edir. Bu ayələrdən birində uca Allah belə buyurur: **"İpliyini möhkəm əyirdikdən sonra *onu* açıb sökən qadın kimi olmayın".** Yəni ip əyirməyə başlayan, sonra bu işi mükəmməl şəkildə yerinə yetirən, bundan sonra da əyirdiyi ipi yenidən açıb sökən və parça-parça edən qadın kimi olmayın. Əksinə, gördüyünüz işlərdə davamlı olun.

Başqa bir ayədə isə uca Allah buyurur: **"Daha öncə özlərinə Kitab verilmiş, uzun bir müddət keçdikdən sonra isə qəlbləri sərtləşmiş kimsələr kimi olmayın".** Yəni, onlar vaxtı ilə saleh əməllər görərdilər, lakin uzun bir müddət keçdikdən sonra qəlbləri sərtləşdi və həmin əməlləri tərk etdilər. Siz də onlar kimi olmayın!

---

[1] "Səhih əl-Buxari", 1152; "Səhih Muslim", 1159.

Hədisə gəlincə, müəllifin ﷺ Abdullah ibn Amr ibn əl-Asa رضي الله عنهما istinadən rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ ona belə demişdir: **"Ey Abdullah, sən filankəs kimi olma! O, gecələr namaza durardı, sonra isə gecə namazını tərk etdi".**

Ərəb dilində "fulənun" (filankəs) kəlməsi kişilər üçün istifadə edilən ifadədir. Qadın üçün isə "fulənətun" kəlməsindən istifadə olunur. Ehtimal var ki, bu kəlmə, yəni "filankəs" kəlməsi Peyğəmbərin ﷺ sözüdür. Peyğəmbər ﷺ həmin adamın eyibini örtmək üçün onun adını Abdullah ibn Amra رضي الله عنهما deməmişdir. Çünki burada məqsəd adamı deyil, onun etdiyi hərəkəti anlatmaqdır. Bir ehtimal da var ki, Peyğəmbər ﷺ həmin adamın kim olduğunu demiş, lakin Abdullah ibn Amr onun adını gizli saxlamışdır. Hansı olursa-olsun, burada önəmli olan əməli bəyan etməkdir.

Hədisdə deyilir ki, həmin adam gecələr namaza durarmış, lakin sonra gecə namazını tərk etdi – onun üzərində sabit qalmadı, onu davamlı qıla bilmədi. Halbuki, gecə namazı sünnədir. Bunu qılmayan adam qınanılmır. Yəni bir adam gecə namazı qılmırsa, buna görə onu heç kəs qınamır, ona: "Nə üçün gecələr qalxıb namaz qılmırsan?"– demir. Çünki bu əməlin özü sünnədir. Lakin əvvəlcə qılıb, sonra tərk etməyə görə həmin adam qınanılır. Ona görə də Peyğəmbər ﷺ Abdullaha: **"Sən filankəs kimi olma! O, gecələr namaza durardı, sonra isə gecə namazını tərk etdi"**– demişdir.

Bunun bir bənzəri də, hətta deyərdim ki, daha önəmli və daha təhlükəli olanı da, bir insanın dini elmləri öyrənməyə başlaması, sonra da Allahın ona bu sahədə nailiyyətlər bəxş etdikdə elm öyrənməyi tərk etməsidir. Bu, Allahın ona verdiyi nemətə qarşı nankorluqdur. Elm öyrənməyə başladınsa, zəruri bir işin səni bundan yayındırması istisna olmaqla, buna davam et! Çünki elm tələb etmək fardu-kifayədir[1]. Dini elmləri öyrənən hər kəsə uca Allah fərz əməlin savabını verir. Fərz əməlin savabı isə nafilə əməlin savabından daha böyükdür. Səhih bir hədisdə rəvayət edilir ki, uca Allah belə demişdir: **"Qulumun Mənə sevimli olan və sayəsində Mənə yaxınlaşdığı ən gözəl əməl ona vacib buyurduğum əməllərdir"**.[2]

---

[1] Fardu-kifayə – müəyyən adamların yerinə yetirəcəyi təqdirdə, başqalarına vacib olmayan əməl.

[2] "Səhih əl-Buxari", 6502.

Dini elm öyrənmək fardu-kifayədir – insan bunu yerinə yetirdiyində, bütün ümmətin üzərinə fərz olan bir əməli yerinə yetirmiş olur. Hətta insan, özündə bir elmə ehtiyac duyduqda, həmin elm ona fardu-ayn da olur. Məsələn, namaz qılmaq istəyən adam namazın əhkamlarını, vardövləti olan adam zəkatın əhkamlarını, ticarətlə məşğul olan adam ticarətin əhkamlarını, həcc ziyarəti etmək istəyən adam da həccin əhkamlarını öyrənmək məcburiyyətindədir. Bunları öyrənmək həmin adamlara fərzdir, digər elmlər isə fardu-kifayədir.

Bir sözlə, insan elm öyrənməyə başlayarsa, geri addım atmamalı, əksinə, buna davam etməlidir. Yalnız onu elm almaqdan kənarlaşdıracaq zəruri səbəblər istisnadır. Ona görə də, başladığı əməli yarımçıq tərk etmək münafiqlərin xislətindəndir. Uhud döyüşündə Peyğəmbərlə ﷺ bərabər döyüşə min nəfər çıxmışdı. Bu adamların üçdə biri münafiqlər idi. Lakin onlar Mədinədən Uhuda gedərkən yolun yarısından geri qayıtdılar, çünki Allah üçün çıxmamışdılar. Onlar geri qayıtdılar və belə dedilər: **"Döyüş olacağını bilsəydik, sizin ardınızca gələrdik".** Uca Allah da onlar barəsində belə dedi: **"Onlar o gün imandan çox küfrə yaxın idilər".**[1]

Xülasə, Allah bir müsəlmana namaz kimi yalnız özünə aid olan ibadətləri yerinə yetirməyi və ya elm öyrənmək kimi həm özünə, həm də başqalarına fayda verəcək ibadətləri yerinə yetirməyi nəsib edərsə, o, bunlardan boyun qaçırmamalı, geri qalmamalı, əksinə, bunları yerinə yetirməyə davam etməlidir. Çünki bu, Peyğəmbərin ﷺ həm sünnəsi, həm də *müsəlmana olan* tövsiyyəsidir. O, belə tövsiyyə etmişdir: **"Ey Abdullah, sən filankəs kimi olma! O, gecələr namaza durardı, sonra isə gecə namazını tərk etdi".** Müvəffəq edən Allahdır.

[1] "Ali-İmran" surəsi, 167.

Səksən səkkizinci fəsil

Biri ilə qarşılaşdıqda gözəl söz söyləmək və gülərüz olmaq

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah belə buyurur:

﴿وَٱخۡفِضۡ جَنَاحَكَ لِلۡمُؤۡمِنِينَ﴾

"Möminləri *mərhəmət* qanadının altına al".[1]

﴿وَلَوۡ كُنتَ فَظًّا غَلِيظَ ٱلۡقَلۡبِ لَٱنفَضُّواْ مِنۡ حَوۡلِكَ﴾

"Əgər kobud və daş qəlbli olsaydın, heç şübhəsiz, onlar sənin ətrafından dağılıb gedərdilər".[2]

Mövzu ilə əlaqəli hədislər:

٦٩٣ – عَنْ عَدِيِّ بْنِ حَاتِمٍ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « اتَّقُوا النَّارَ وَلَوْ بِشِقِّ تَمْرَةٍ فَمَنْ لَمْ يَجِدْ فَبِكَلِمَةٍ طَيِّبَةٍ » متفقٌ عليه.

693. Adiy ibn Hatim رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Heç olmasa, yarım xurma *sədəqə* ilə özünüzü Oddan qoruyun. Kim də bunu tapmasa, qoy gözəl söz danışmaqla *özünü Oddan qorusun*".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

٦٩٤ – وَعَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه أَنَّ النَّبِيَّ ﷺ قَالَ: وَالكَلِمَةُ الطَّيِّبَةُ صَدَقَةٌ » متفقٌ عليه. وهو بعض حديث تقدم بطوله.

694. Əbu Hureyra رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: "**Gözəl söz sədəqədir".**

---

[1] "əl-Hicr" surəsi, 88.

[2] "Ali-İmran" surəsi, 159.

[3] "Səhih əl-Buxari", 6023; "Səhih Muslim", 1016.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Bu hədis, lap əvvəllərdə qeyd etdiyimiz uzun hədisin bir hissəsidir.

٦٩٥ – وَعَنْ أَبِي ذَرٍّ ﷺ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: « لَا تَحْقِرَنَّ مِنَ الْمَعْرُوفِ شَيْئاً، وَلَوْ أَنْ تَلْقَى أَخَاكَ بِوَجْهٍ طَلِيقٍ » رواه مسلم.

695. Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ mənə belə demişdir: **"Heç bir yaxşı işi dəyərsiz hesab etmə! Hətta qardaşını gülər üzlə qarşılamaq olsa belə".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ bu fəslə **"*Biri ilə* qarşılaşdıqda gözəl söz söyləmək və gülərüz olmaq"** adını vermişdir. Yəni bir insan, müsəlman qardaşı ilə qarşılaşdığı zaman ona gülər üz göstərməli və xoş söz söyləməlidir. Çünki bu, Peyğəmbərin ﷺ əxlaqıdır. Bu hərəkət, onu edən insan üçün alçalmaq sayılmır, əksinə, bu onun üçün həm ucalıq, həm Allah qatında savab qazandırıcı bir vasitə, həm də Peyğəmbərə ﷺ tabe olmaq sayılır. Çünki Peyğəmbər ﷺ daim gülərüzlü və təbəssümlü olardı.

O üzdən insan, müsəlman qardaşını gülər üzlə qarşılamlı və ona xoş sözlər söyləməlidir ki, bunun sayəsində həm savaba, həm məhəbbətə, həm də ülfətə nail olsun, həmçinin, təkəbbürlükdən və insanlarla münasibətdə özünü uca tutmaqdan uzaq dursun.

Sonra müəllif ﷺ bir neçə ayəni zikr etmişdir. Bu ayələrin birində uca Allah buyurur: **"Möminləri *mərhəmət* qanadının altına al".** Yəni, möminlərə qarşı təvazökar ol, onlarla yumşaq davran. Çünki möminlər buna layiqdirlər. Kafirlərə gəldikdə isə, uca Allah onlar haqqında belə buyurur: **"Ey Peyğəmbər, kafirlərlə və münafiqlərlə vuruş! Onlarla sərt davran. Onların gedəcəkləri yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir!"**[3] Demək, gülər üz göstərmək möminə aiddir. Kafirlərə gəlincə, bu məsələyə görə onlar iki qismə bölünürlər:

---

[1] "Səhih əl-Buxari", 2989; "Səhih Muslim", 1009.

[2] "Səhih Muslim", 2626.

[3] "ət-Tövbə" surəsi, 73.

1. Gülər üz göstəriləcəyi təqdirdə İslam dinini qəbul etmələri ehtimal olunanlar. Bu zaman biz onlara gülər üz göstərməliyik ki, bizim onlara qarşı olan bu davranışımız onlara fayda versin və onlar İslamı qəbul etsinlər.

2. Təvazökarlıq və gülər üz göstərildiyi zaman müsəlmanlara qarşı təkəbbürlüyü və dikbaşlığı artanlar. Belə olduqda, onlara gülər üz və təvazökarlıq göstərilmir.

Gülər üz göstərmək qarşı tərəfdə sevinc yaradır. Çünki insanlar, onları qaşqabaqlı qarşılayan kimsə ilə, gülərüz qarşılayan kimsəni eyni tutmurlar. Ona görə də Peyğəmbər ﷺ Əbu Zərə رضي الله عنه belə demişdir: **"Heç bir yaxşı işi dəyərsiz hesab etmə! Hətta qardaşını gülər üzlə qarşılamaq olsa belə".** Gülərüz olmaq da yaxşı əməllərdən hesab olunur. Çünki bu əməl müsəlman qardaşına sevinc bəxş edir və onun qəlbini açır.

Gülərüz qarşılamaqla yanaşı gözəl sözlər də söylənilərsə, bu zaman iki gözəl əməl bir araya gəlmiş olacaq: gülərüz olmaq və xoş söz söyləmək. Xoş söz söyləmək barəsində isə Peyğəmbər ﷺ belə demişdir: **"Heç olmasa, yarım xurma *sədəqə* ilə özünüzü Oddan qoruyun. Kim də bunu tapmasa, qoy gözəl söz danışmaqla *özünü Oddan qorusun*".** Yəni, yarım xurma da olsa belə, onu sədəqə verməklə özünüzlə Cəhənnəm odu arasında qoruyucu qalxan yerləşdirin. Çünki bu sədəqəni Allah qəbul edərsə, onun sayəsində sizi Cəhənnəm odundan qoruyacaq. Əgər sədəqə verməyə bir şey tapmasanız, onda bunu xoş söz söyləməklə edin. Məsələn, *müsəlman qardaşından*: "Necəsən, kefin, halın necədir? Qardaşların, ailən necədir?"– deyərək hal-əhval soruş. Çünki qarşı tərəfin qəlbinə sevinc bəxş edəcək bu sözlərin hamısı gözəl sözlər sayılır. Dediyin bütün gözəl sözlər də sənin üçün sədəqə sayılacaq və Allah qatında buna görə sənə mükafat və savab olacaq. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Yaxşılıq gözəl əxlaqdır".**[1] O ﷺ həmçinin demişdir: **"İmanı ən kamil olan möminlər, əxlaqı ən gözəl olanlardır".**[2] Müvəffəq edən Allahdır.

[1] "Səhih Muslim", 2553.

[2] "Sunən ət-Tirmizi", 1162; "Səhih ət-Tərğib vət-Tərhib", 1923.

Səksən doqquzuncu fəsil

Qarşı tərəflə aydın və anlaşılan şəkildə danışmaq, lazım gələrsə, başa düşülməsi üçün sözü təkrarlamaq

Mövzu ilə əlaqəli hədislər:

٦٩٦ – عَنْ أَنَسٍ ﵁ أَنَّ النَّبِيَّ ﷺ كَانَ إِذَا تَكَلَّمَ بِكَلِمَةٍ أَعَادَهَا ثَلَاثاً حَتَّى تُفْهَمَ عَنْهُ، وَإِذَا أَتَى عَلَى قَوْمٍ فَسَلَّمَ عَلَيْهِمْ سَلَّمَ عَلَيْهِمْ ثَلَاثاً. رواه البخاري.

696. Ənəs ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ bir söz söylədiyi zaman, *söylədikləri* başa düşülsün deyə, onu üç dəfə təkrar edərdi; bir qövmün yanına gəlib onları salamladıqda, üç kərə salam verərdi.

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

٦٩٧ – وَعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: كَانَ كَلَامُ رَسُولِ اللَّهِ ﷺ كَلَاماً فَصْلًا يفْهَمُهُ كُلُّ مَنْ يَسْمَعُهُ. رواه أبو داود.

697. Rəvayət edilir ki, Aişə ﵂ belə demişdir: "Rəsulullahın ﷺ danışığı açıq və başa düşülən idi – onu dinləyən hər kəs onun danışığını başa düşürdü".

Bu hədisi Əbu Davud rəvayət etmişdir.[2]

Şərh:

Müəllif ﵀, "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Qarşı tərəflə aydın və anlaşılan şəkildə danışmaq, lazım gələrsə, başa düşülməsi üçün sözü təkrarlamaq"** adını vermişdir. Yəni, bir insan başqaları ilə danışıb, onlara xitab edərkən açıq və anlaşılan dildə danışmalı, sözlərini tələm-tələsik deməyə çalışmamalı və bir-birinə də qarışdırmamalıdır. Əksinə, onun danışığı səlis və başa düşülən olmalıdır ki, onu dinləyənlər çətinlik çəkmədən, asanlıqla onu başa düşsünlər.

---

[1] "Səhih əl-Buxari", 94.

[2] "Sunən Əbu Davud", 1639; "Səhih əl-Cami", 4826.

Elə insanlar var ki, danışarkən tələm-tələsik danışır, sözləri də bir-birinə qarışdırır. Hətta elə olur ki, onu dinləyən adam, *onun danışığını başa düşmədiyi üçün* tez-tez ona: "Nə dedin? Necə dedin?"– deməli olur. Bu cür danışıq tərzi Sünnəyə müxalifdir. Sünnəyə görə, danışıq səlis və dinləyicinin başa düşəcəyi şəkildə olmalıdır. Danışığın ədəbi dildə olması heç də vacib deyil. Əgər insanlar ədəbi dildə danışmağa xor baxır və bu cür danışığı xırdaçılıq hesab edirlərsə, o zaman bu şəkildə danışmaq heç müstəhəb belə sayılmır.

İnsanlarla, onların başa düşəcəkləri dildə danışmaq lazımdır. Danışıq səlis, aydın və başa düşülən tərzdə olmalıdır. Bu xüsusda Ənəs ibn Malikin رضي الله عنه rəvayət etdiyi hədisdə belə deyilir: "Peyğəmbər ﷺ bir söz söylədiyi zaman, *söylədikləri* başa düşülsün deyə, onu üç dəfə təkrar edərdi".

"Başa düşülsün deyə" kəlməsi onu göstərir ki, əgər danışıq təkrarsız başa düşülərsə, o zaman sözü təkrar etməyə ehtiyac yoxdur. Reallıq da elə budur. Çünki Peyğəmbərdən ﷺ rəvayət edilən əksər hədislərdən görürük ki, o, öz xütbə və moizələrində danışdığı sözləri təkrar etmirdi.

Lakin əgər qarşı tərəf danışılan sözü başa düşmürsə, yəni sözün mənasına varmırsa, o zaman söhbətin başa düşülməsi üçün sözlər təkrar-təkrar deyilməlidir. Yaxud əgər qarşı tərəf ağır eşidirsə və ya həmin yerdə səs-küy varsa, o zaman yenə də, başa düşülsün deyə, sözləri təkrarlamaq müstəhəbdir.

"Peyğəmbər ﷺ bir qövmün yanına gəlib onları salamladıqda, üç kərə salam verərdi". Yəni, Peyğəmbər ﷺ salamı üç dəfədən artıq təkrarlamazdı. Bir dəfə salam verərdi, cavab verilmədikdə, ikinci dəfə salam verərdi, yenə cavab verilmədikdə, üçüncü dəfə salam verərdi. Bu dəfə də cavab verilmədikdə, təkrar salam verməzdi.

Eyni şəkildə, izin istədikdə də üç dəfə izin istərdi. Yəni, bir adamın evinə gəlib içəri girməsi üçün izin istədikdə, evin qapısını üç dəfə döyər, cavab gəlməsəydi, qayıdıb gedərdi. Bu, Peyğəmbərin ﷺ sünnəsidir. Yəni, Peyğəmbər ﷺ bir şeyi üç dəfə edər, sonra isə dayanardı.

Bəs görəsən telefonun zənginin üç dəfə çalınması buna aiddirmi? Ehtimal var ki, bu da həmin məsələyə aiddir. Yəni, bir insana zəng etdiyin zaman telefonun zəngi üç dəfə çağırdıqdan sonra qarşı tərəf zəngə cavab verməzsə, istəsən telefonun dəstəyini yerə qoya bilərsən.

Lakin ehtimal da var ki, telefon zənginin başqa bir hökmü olsun. Yəni, zəng etdiyin zaman, ev əhlinin cavab verməyəcəyindən əmin olana qədər telefonda gözləyə bilərsən. Ola bilsin, sən zəng etdiyin zaman ev əhli telefondan çox aralıdırlar, yaxud elə bir yerdədirlər ki, telefona yaxınlaşmaq üçün müəyyən məsafə qət etməlidirlər. Bu məsafə qət edilənə qədər isə telefonun zəngi kəsilə bilər. Çünki telefonun zəngləri ara vermədən tez-tez təkrarlanır. Elə buna görə də həm birinci, həm də ikinci ehtimalı söyləmək olar. Yəni, ehtimal var ki, üç zənglə kifayətlənməlisən, ehtimal da var ki, zəngə cavab verilməyəcəyinə əmin olana qədər gözləyib sonra telefonun dəstəyini yerinə qoymalısan. Yəni, bir adama zəng etdiyin zaman telefonun zəngi təkrar-təkrar çaldığı halda bu zəngə cavab verilməsə və sən də cavabsız qalacağına əmin olanda telefonu söndürürsən.

Sonra müəllif ﵀ möminlərin anası Aişənin ﵂ hədisini zikr etmişdir. Bu hədisdə Aişə ﵂ belə demişdir: "Rəsulullahın ﷺ danışığı açıq və başa düşülən idi". Yəni kəlmələri və hərfləri bir-birinə qatıb-qarışdırmazdı. Hətta bir adam onun kəlmələrini saymaq istəsəydi, yavaş danışdığı üçün onları rahatlıqla saya bilərdi.

İnsan danışdığı zaman bu cür danışmalı və sözləri bir-birinə qatıb-qarışdırmamalıdır ki, dinləyici onu rahatlıqla başa düşsün. Çünki danışmaqda əsas məqsəd qarşı tərəfin başa düşməsidir. Danışıq tərzi nə qədər yaxşı başa düşülərsə, bir o qədər üstün sayılar.

Bundan əlavə, bir insan öz danışığında bu üslubu seçərsə, yəni açıq və başa düşülən tərzdə danışarsa, habelə başa düşməyən olduğu halda sözləri üç dəfə təkrarlayarsa, bu əməli Peyğəmbərə ﷺ tabe olmaq niyyəti ilə də etməlidir ki, bunun sayəsində əlavə savab qazansın və müsəlman qardaşını anlatmış olsun.

Bütün sünnələrə də belə əməl edilməlidir. Onları yerinə yetirən zaman Peyğəmbərə ﷺ tabe olduğunu da niyyət et ki, bunun sayəsində Sünnəyə tabe olma savabını qazanasan. Müvəffəq edən Allahdır.

Doxsanıncı fəsil

Haram olmayan söhbətlərdə qarşı tərəfin söhbətini dinləmək, alimin və ya xətibin, məclisində iştirak edənlərdən susub, onu dinləmələrini tələb etməsi

Mövzu ilə əlaqəli hədis:

٦٩٨ – عَنْ جَرِيرِ بْنِ عَبْدِ اللَّهِ ﷺ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ فِي حَجَّةِ الْوَدَاعِ: «اسْتَنْصِتِ النَّاسَ » ثُمَّ قَالَ: « لَا تَرْجِعُوا بَعْدِي كُفَّاراً يَضْرِبُ بَعْضُكُمْ رِقَابَ بَعْضٍ » متفقٌ عليه.

698. Rəvayət edilir ki, Cərir ibn Abdullah ﷺ demişdir: "Allahın elçisi ﷺ Vida həccində mənə: **"Camaata, susub *məni* dinləməsini əmr et!"**– dedi. *Hamı susduqdan* sonra o, belə buyurdu: **"Məndən sonra bir-birinizin boynunu vuraraq kafir olmayın!"**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ən-Nəvəvi ﷺ "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Haram olmayan söhbətlərdə qarşı tərəfin söhbətini dinləmək, alimin və ya xətibin, məclisində iştirak edənlərdən susub, onu dinləmələrini tələb etməsi"** adını vermişdir.

Əvvəlki fəsildə Peyğəmbərin ﷺ salam verərkən üç kərə salam verməsi keçmişdi. Yəni, qarşı tərəfə bir dəfə salam verər, əgər cavab verilməsə, ikinci dəfə salam verər, yenə cavab verilməsə, üçüncü dəfə salam verər və sonra salam verməzdi. Əgər qarşı tərəf elə birinci dəfədən salamı alardısa, onda ikinci salamı verməzdi.

Bu fəsildə isə insanın, haram şeylər danışılmadığı müddətcə öz həmsöhbətini gözəl bir şəkildə dinləməsinin gərəkli olduğu qeyd olunur. Gözəl şəkildə dinləmək həm sözdə, həm də əməldə olur.

---

[1] "Səhih əl-Buxari", 121; "Səhih Muslim", 65.

Sözdə dinləmək, həmsöhbətinin danışdığı zaman sənin danışmamağındır, əks halda hay-küy olacaq. Əgər hər kəs öz yanındakı ilə söhbət etsə, ara qarışar. Odur ki, məclisdə olanlardan biri söhbət etməli, digərləri isə onu dinləməlidir ki, orada olanların hamısı onun söhbətindən faydalansın.

Əməldə dinləmək, bir insanın sənlə söhbət etdiyi zaman, üzünü ona tərəf çevirməyin və sağa-sola baxmamağındır. Çünki o, söhbət etdiyi zaman, sən üzünü sağa-sola çevirərsənsə, sənin təkəbbürlü olduğunu zənn edə bilər. Bu barədə isə uca Allah belə buyurmuşdur: **"İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma!"**[1]

Bu səbəbdən də söhbət edəni dinləyərkən üzünü ona rətəf çevirməlisən ki, adam, sənin gözəl şəkildə dinlədiyini və onun söhbətinə önəm verdiyini bilsin. Hərgah, haram olan bir şey danışarsa, məsələn, qeybət, lağlağı və bu kimi haram olan şeylərlə məşğuldursa, o zaman onu dinləməməli, əksinə, onu bu işə son qoymağa məcbur etməlisən. Əgər həmin adam sənin sözünə qulaq asmayıb, nəsihətini qəbul etməzsə və haram olan söhbətlər etməsinə davam edərsə, o zaman sənin üzərinə düşən vəzifə onun məclisini tərk edib oradan uzaqlaşmaqdır. Çünki uca Allah belə buyurur: **"*Allah* Kitabda sizə nazil etmişdir ki, Allahın ayələrinin inkar edildiyini, yaxud onlara istehza olunduğunu eşitdiyiniz zaman, *kafirlər* başqa bir söhbətə keçməyincə, onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah münafiqlərin və kafirlərin hamısını Cəhənnəmdə toplayacaqdır".**[2]

Sonra müəllif ﷺ bu fəsildə Cabir ibn Abdullahın رضي الله عنه hədisini zikr etmişdir. Cabir رضي الله عنه rəvayət edir ki, Allahın elçisi ﷺ Vida həccində mənə: **"Camaata, susub *məni* dinləməsini əmr et!"**– dedi. Yəni, Peyğəmbərin ﷺ dediklərini eşitsinlər deyə, camaatı sakitləşdir. *Hamı susduqdan* sonra isə Peyğəmbər ﷺ belə buyurdu: **"Məndən sonra bir-birinizin boynunu vuraraq kafir olmayın!"**

Hədisin ərəbcəsində keçən "yədribu" (vuraraq) kəlməsinin sonu damma *hərəkəsi* ilə bitmişdir. *Yəni, bu fel indiki zaman formasında işlənmişdir.* Bu fel qadağa bildirən cümlənin cavabı olduğu üçün, onu sükunla, *yəni əmr formasında* işlətmək düzgün deyildir. Bu fel, ismin halını bildirdiyi

[1] "Loğman" surəsi, 18.

[2] "ən-Nisa" surəsi, 140.

üçün damma ilə bitmişdir. Yəni, cümlənin mənası belədir: Məndən sonra bir-birinizin boynunu vura-vura kafirlərdən olmayın. Bu da ona dəlalət edir ki, möminlərin bir-biriləri ilə vuruşması küfrdür. Bu hədisi Peyğəmbərin ﷺ başqa bir hədisi də gücləndirir. Həmin hədisdə Peyğəmbər ﷺ belə demişdir: **"Müsəlmanı söymək fasiqlik, ona qarşı vuruşmaq isə küfrdür".**[1] Lakin bu, insanı dindən çıxarmayan bir küfrdür. Bu küfrün insanı dindən çıxarmayan küfr olmasına dəlil isə uca Allahın bu ayəsidir: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın..."** ayəsindən **"Möminlər, həqiqətən də qardaşdırlar. Elə isə qardaşlarınızın arasını düzəldin..."**[2] ayəsinə qədər. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 6044; "Səhih Muslim", 64.

[2] "əl-Hucurat" surəsi, 9-10.

Doxsan birinci fəsil

Öyüd-nəsihət vermək və bu xüsusda orta yol tutmaq

Mövzu ilə əlaqəli ayə:

Uca Allah belə buyurur:

﴿ ٱدۡعُ إِلَىٰ سَبِيلِ رَبِّكَ بِٱلۡحِكۡمَةِ وَٱلۡمَوۡعِظَةِ ٱلۡحَسَنَةِ ﴾

"*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et".[1]

Şərh:

Müəllif ﷺ, "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Öyüd-nəsihət vermək və bu xüsusda orta yol tutmaq"** adını vermişdir.

Moizə, şəriət əhkamlarını insanlarda ümid və ya qorxu oyatmaq məqsədilə, onlara bəyan etməkdir. Məsələn, bir insana: "Sənə, filan və filan işləri yerinə yetirmək vacibdir. Allahdan qorx və üzərində vacib olan əməli yerinə yetir"– deyirsən, yaxud da buna bənzər sözlərlə ona öyüd-nəsihət verirsən.

Ən böyük öyüd-nəsihət verən, izzətli və qüdrətli Allahın kitabıdır. Uca Allah bu xüsusda belə buyurur: **"Ey insanlar, Rəbbinizdən sizə bir öyüd-nəsihət, köksləredə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir".**[2] Demək, öyüd-nəsihət vermək üçün ən böyük vasitə izzətli və qüdrətli Allahın kitabıdır. Çünki onun içində həm ümid verən, həm də qorxu yaradan moizələr cəm olunmuşdur. Məsələn, Cənnətin və Cəhənnəmin xatırlanması, müttəqilərin və günahkarların aqibətinin zikr olunması. Bir sözlə, Qurani Kərim, öyüd-nəsihət vermək üçün ən möhtəşəm vasitədir.

Lakin bu Kitab, *dərk edəcək* qəlbə sahib olan və hazır durub *diqqətlə* dinləyən kimsə üçün öyüd-nəsihətdir. Bu xüsusda uca Allah belə byurur: **"Həqiqətən, bunda *dərk edən* qəlbi olan, hazır durub *diqqətlə* qulaq asan kimsə üçün xatırlatma var".**[3]

---

[1] "ən-Nəhl" surəsi, 125.

[2] "Yunus" surəsi, 57.

[3] "Qaf" surəsi, 37.

Qəlbləri sərtləşmiş insanlar barəsində isə uca Allah belə buyurmuşdur: **"Bir surə nazil edildiyi zaman onlardan *istehza ilə*: "Bu, hansınızın imanını artırdı?"– deyənlər də var. İman gətirənlərə gəldikdə isə, *o surə* onların imanını artırır və onlar bir-birilərini müjdələyirlər".**[1] Möminin halı budur: hər dəfə Allahın kitabından bir ayə oxuduqda, Allaha olan imanı artar və Allahın, bu möhtəşəm kitab vasitəsilə onun qəlbinə saldığı nurun müjdəsinə sevinər. **"Qəlbində xəstəlik olanlara gəlincə, *o surə* onların murdarlığı üstünə bir murdarlıq da artırır və onlar kafir olaraq ölürlər".**[2] Belə bir aqibətdən Allaha sığınırıq.

Bir sözlə, gərək hər bir insan Quran, Sünnə, alimlərin kəlamları və qəlbləri yumşaldıb uca Allaha tərəf yönəldən hər bir vasitə ilə insanlara öyüd-nəsihət versin.

Sonra müəllif ﷺ öyüd-nəsihət xüsusunda orta yol tutmağın gərəkli olduğunu da bildirmişdir. Yəni, insanlara tez-tez, aramsız öyüd-nəsihət verib onları bezdirməməlisən. Yoxsa onlarda Qurana, Sünnəyə və alimlərin ibrətamiz kəlamlarına qarşı nifrət oyatmış olarsan. Çünki insanın canı bir şeydən sıxıldığı zaman taqətdən düşər, yorular, təngə gələr və deyilənlər haqq olsa belə, onu xoşlamaz. Elə bu səbəbdən də insanlar arasında öyüd-nəsihət verənlərin ən hikmətlisi olan Muhəmməd ﷺ, insanlara moizəni ara-sıra verər və bezib haqdan üz çevirməsinlər deyə, bu moizələrin sayını çoxaltmazdı.

Sonra müəllif ﷺ bu fəsli uca Allahın bu ayəsi ilə başlayır: **"*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et".**

"Rəbbinin yoluna", yəni Rəbbinin dininə. Çünki Allahın yolu Onun dinidir. Belə ki, Allaha aparan yol dindir. Kim bu din yolunu tutub gedərsə, həmin yol onu uca Allaha çatdırar. Çünki bu dinin kökünü qoyan, onu insanlar üçün qanun edən elə izzətli və qüdrətli Allahın Özüdür. Ona görə də o, Allaha nisbət edilir və ona Allahın yolu deyilir.

"*İnsanları* Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et". Bu ayədə üç üslub zikr edilmişdir:

---

[1] "ət-Tovbə" surəsi, 124.

[2] "ət-Tovbə" surəsi, 125.

1. Hikmətlə. Yəni, hər bir işi öz yerinə qoymaqla, uyğun zamanında və uyğun sözlərlə yerinə yetirmək. Çünki elə yerlər olur ki, orada öyüd-nəsihət vermək münasib deyil. Habelə, elə zamanlar da olur ki, həmin vaxtda öyüd-nəsihət vermək düzgün deyil. Eləcə də bəzi adamlar var ki, onlara hər zaman öyüd-nəsihət vermək olmaz. Belə adamlara, öyüd-nəsihət qəbul etməyə hazır olduqları zaman moizə edirsən. Ona görə də uca Allah: **"hikmətlə"**– demişdir. Alimlər *hikmətin tərifi barəsində* belə demişlər: "Hikmət, hər bir şeyi öz yerinə qoymaqdır".

2. Gözəl öyüd-nəsihətlə. Yəni, dəvətinə gözəl öyüd-nəsihəti də əlavə et. Çünki öyüd-nəsihət qəlbi yumşaldır və dinləyəni Allaha tərəf yönəldir. Lakin bu öyüd-nəsihətin gözəl tərzdə olması şərtdir. Əgər təşviq uyğundursa, təşviq etməklə, qorxutmaq daha münasibdirsə, onda qorxutmaqla öyüd-nəsihət verilir.

Həmçinin, öyüd-nəsihət üslub baxımından da gözəl olmalı, eləcə də məqbul olunan və qane edici olmalıdır. Yəni, öyüd-nəsihətdə həm əqli, həm də şəri baxımdan qane edici dəlillər olmalıdır. Əsil möminlər kimi bəzi insanları şəri dəlillər qane edir. Onlar barədə Uca Allah belə buyurur: **"Allah və Onun Rəsulu bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər".**[1] Amma elə insanlar da var ki, onlara şəri dəlillər kifayət etmir. Belələrinə şəri dəlillərlə yanaşı əqli dəlillər də gətirmək lazımdır. Bu səbəbdən Uca Allah, Peyğəmbərinə ﷺ nazil etdiyi bir çox ayələrdə şəri dəlilləri bəyan etmək üçün əqli dəlillər də gətirir. Məsələn, ölümdən sonrakı yenidən dirilməyə nəzər salsaq, görərik ki, kafirlər yenidən dirilməni inkar edərək: "Çürümüş sümükləri kim dirildə bilər? İnsan öldükdən, sümükləri, əti və dərisi torpaqda çürüdükdən sonra necə dirilə bilər?"– demiş, Uca Allah da onların sualına belə cavab vermişdir: «**De: "Onları ilk dəfə yaradan *Allah* Özü dirildəcək"».**[2] Bu sümükləri ilk dəfə yaradan kimdir? Əlbəttə ki, Allahdır. O zaman məxluqatı təkrar yaratmaq onu yoxdan yaratmaqdan daha asandır. Uca Allah buyurur: **"Məxluqatı ilk dəfə *yoxdan* yaradan, sonra onu bir daha təkrarlayan Odur. Bu da Onun üçün çox asandır".**[3] O həmçinin buyurur: **"Göyləri və yeri xəlq edən Allah onlar kimisini xəlq**

[1] "əl-Əhzab" surəsi, 36.

[2] "Ya sin" surəsi, 79.

[3] "ər-Rum" surəsi, 27.

etməyə qadir deyilmi?! Əlbəttə, *qadirdir!*".[1] Bunların hamısı yenidən dirilmə ilə bağlı əqli dəlillərdir.

Eyni şəkildə uca Allah, yenidən dirilmənin mümkünlüyünə dəlil kimi yer üzünün (torpağın) öldükdən sonra necə dirildiyini misal gətirir. Uca Allah cansız, qupquru, heç bir bitkisi olmayan bir torpağa yağış endirir və bu yağıntı sayəsində həmin yer yamyaşıl olur. Bu bitkiləri Allahdan başqa dirildənmi var? Bu bitkilər quruyub öldükdən sonra onları yenidən dirildən, əlbəttə ki, ölüləri də diriltməyə qadirdir.

Başqa bir həyat mütləq olmalıdır. Yoxsa ki, bu məxluqatı yaratmağın, onlara bu qədər ruzi və nemətlər verməyin, habelə onlara kitablar endirib peyğəmbərlər göndərməyin, Allahın, düşmənlərinə qarşı döyüşməyi əmr etməsinin və bütün bunların sırf dünya həyatına görə edilməsinin heç bir mənası olmazdı. Bu, hikmətdən deyildir. Əksinə, əsil həyat olan ikinci bir həyatın olması labüddür. Bu xüsusda uca Allah buyurur: **"O: "Kaş *axirət* həyatım üçün əvvəlcədən hazırlıq görəydim!"– deyəcək".**[2]

Əsil həyat, axirət həyatıdır: **"Ey Rəbbimiz, bizə həm *bu* dünyada, həm də axirətdə gözəl nemətlər ver və bizi *Cəhənnəm* odunun əzabından qoru!"**[3]

3. Onlarla ən gözəl tərzdə mübahisə et. Yəni, gözəl şəkildə öyüd-nəsihət verdikdən sonra görsən ki, adam sənin dediklərini qəbul etmir və sənlə mübahisə edir, o zaman geri çəkilmə, əksinə, onunla gözəl tərzdə mübahisə et. Lakin mübahisə zamanı həm üslub, həm dəlili ortaya qoymaq, həm də qane edici dəlillər gətirmək baxımından onunla ən gözəl tərzdə mübahisə et. Sənin dediklərinə qarşı bir dəlil gətirsə, çalış onun dəlilinin batil olduğunu sübuta yetir. Əgər onun dəlilinin batil olduğunu sübuta yetirmək uzun çəkərsə, onda başqa bir dəlilə keç və həmin dəlil barədə uzun-uzadı mübahisə etmə. Əksinə, elə bir dəlilə keç ki, ona qarşı sənlə mübahisə edə bilməsin.

Siz bir İbrahimə عليه السلام nəzər salın! Bir adam onunla Allah barəsində höcətləşdikdə, o, bu metodu seçmişdi: **"Allahın verdiyi hakimiyyətə görə,**

---

[1] "Ya sin" surəsi, 81.

[2] "əl-Fəcr" surəsi, 24.

[3] "əl-Bəqərə" surəsi, 201.

İbrahim ilə Rəbbi barəsində höcətləşən kəsi görmədinmi? İbrahim: "Mənim Rəbbim həm dirildir, həm də öldürür"– dedikdə"[1], yəni ona: "Axı sən diriltməyi və öldürməyi bacarmırsan"– dedikdə, **"*Nəmrud*: "Mən də həm dirildir, həm də öldürürəm!"– demişdi".** Görəsən bu inadkar və höcətkar adam necə dirildir və necə öldürürdü? Belə ki, o, ölümə məhkum edilmiş adamı gətizdirib: "Bunu öldürməyin!"– deyir, sonra da ölümə məhkum olunmamış birisini gətizdirib: "Bunu öldürün!"– deyirdi. Bu minvalla da insanları aldatmağa çalışırdı. Onda İbrahim عليه السلام ona belə dedi: **"Allah Günəşi məşriqdən gətirir. Sən onu məğribdən gətir!"** İbrahim onunla diriltmək və öldürmək barəsində mübahisə etmədi. Mübahisə etmiş olsaydı, ona belə deyərdi: "Sən həqiqətdə nə dirildir, nə də öldürürsən. Sən sadəcə ölümə səbəb olan əməli, yəni qətli icra edirsən. Habelə, ölümə səbəb olan əməli, yəni qətl hökmünü aradan qaldırırsan". Demək, İbrahim عليه السلام bunları demədi, əksinə, onun mübahisə edə bilməyəcəyi başqa bir şeyi dəlil gətirdi. Yoxsa ki, mübahisə uzun-uzadı davam edərdi. Ona görə də İbrahim عليه السلام ona belə dedi: **"Allah Günəşi məşriqdən gətirir. Sən onu məğribdən gətir!"** Belə olduqda, həmin adam buna cavab verə bilmədi. Ona görə də uca Allah belə buyurur: **"O kafir çaşıb qaldı. Allah zalım qövmü doğru yola yönəltməz".**

Bir sözlə, uca Allah belə buyurur: **"Onlarla ən gözəl tərzdə mübahisə et".** Bu ayə onu göstərir ki, ən gözəl tərzdə mübahisə etməyi bacarmayan adam mübahisəyə girişməməlidir. Ola bilsin, imanında heç bir şübhəsi olmayan həqiqi mömin birisi, qatı bir mübahisəçi ilə mübahisə etsin və onunla söz güləşdirməkdə aciz qalsın. Belə bir halda mübahisə edilməməlidir. Çünki mübahisə etsən, bunu ən gözəl tərzdə edə bilməyəcəksən. Elə isə, mübahisəni başqa bir vaxta saxla və ya səndən daha güclü olan bir insana həvalə et. Daha doğrusunu isə Allah bilir.

Mövzu ilə əlaqəli hədislər:

٦٩٩ – وَعَنْ أَبِي وَائِلٍ شَقِيقِ بْنِ سَلَمَةَ قَالَ: كَانَ ابْنُ مَسْعُودٍ رضي الله عنه يُذَكِّرُنَا فِي كُلِّ خَمِيسٍ مَرَّةً، فَقَالَ لَهُ رَجُلٌ: يَا أَبَا عَبْدِ الرَّحْمَنِ، لَوَدِدْتُ أَنَّكَ ذَكَّرْتَنَا كُلَّ يَوْمٍ، فَقَالَ: أَمَا إِنَّهُ

[1] "əl-Bəqərə" surəsi, 258.

يَمْنَعُنِي مِنْ ذَلِكَ أَنِّي أَكْرَهُ أَنْ أُمِلَّكُمْ وَإِنِّي أَتَخَوَّلُكُمْ بِالمَوْعِظَةِ، كَمَا كَانَ رَسُولُ اللَّهِ ﷺ يَتَخَوَّلُنَا بِهَا مَخَافَةَ السَّآمَةِ عَلَيْنَا. متفقٌ عليه.

« يَتَخَوَّلُنَا » يَتَعهَّدُنا.

699. Rəvayət edilir ki, Əbu Vail Şəqiq ibn Sələmə demişdir: "İbn Məsud ﷺ bizə hər cümə axşamı günü moizə verərdi. *Bir dəfə* bir nəfər ona: "Ey Əbu Abdurrəhman, istəyirəm ki, bizə hər gün moizə verəsən"– dedikdə, İbn Məsud dedi: "Mənim bunu etməyimə mane olan yeganə səbəb sizi bezdirmək istəməməyimdir. Ona görə də sizə münasib günlərdə moizə verirəm. Peyğəmbər ﷺ də bizi bezdirəcəyindən qorxduğu üçün, münasib günlərdə moizə verərdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Hədisin ərəbcəsində keçən **"yətəxavvalunə"** kəlməsi "bəlli bir vaxt təyin etmək" deməkdir.

٧٠٠ – عَنْ أَبِي اليَقظَانِ عَمَّارِ بْنِ يَاسِرٍ ﷺ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « إِنَّ طُولَ صَلَاةِ الرَّجُلِ، وَقِصَرَ خُطْبَتِهِ، مَئِنَّةٌ مِنْ فِقْهِهِ. فَأَطِيلُوا الصَّلَاةَ، وَأَقْصِرُوا الخُطْبَةَ » رواه مسلم.

« مَئِنَّةٌ » بميم مفتوحة، ثم همزة مكسورة، ثم نون مشددة، أيْ: علامة دَالَّةٌ على فِقْهِهِ.

700. Rəvayət edilir ki, Əbul-Yəqəzan Ammar ibn Yasir ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Kişinin namazının uzun, xütbəsinin isə qısa olması, onun *dərin* düşüncə sahibi olmasının əlamətidir. Elə isə, namazı uzadın, xütbəni isə qısa edin".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Hədisin ərəbcəsində keçən **"məinnə"** kəlməsi, "*dərin* düşüncəyə dəlalət edən əlamət" mənasını verir.

[1] "Səhih əl-Buxari", 70; "Səhih Muslim", 2821.

[2] "Səhih Muslim", 869.

٧٠١ – عَنْ مُعَاوِيَةَ بْنِ الحَكَمِ السُّلَمِيِّ ﵁ قَالَ: « بَيْنَمَا أَنَا أُصَلِّي مَعَ رَسُولِ اللَّهِ ﷺ، إِذْ عَطَسَ رَجُلٌ مِنْ القَوْمِ فَقُلْتُ: يَرْحَمُكَ اللَّهُ، فَرَمَانِي القَوْمُ بِأَبْصَارِهِمْ، فَقُلْتُ: وا ثُكْلَ أُمَّيَاهُ! مَا شَأْنُكُمْ تَنْظُرُونَ إِلَيَّ؟ فَجَعَلُوا يَضْرِبُونَ بِأَيْدِيهِمْ عَلَى أَفْخَاذِهِمْ، فَلَمَّا رَأَيْتُهُمْ يُصَمِّتُونَنِي، لَكِنِّي سَكَتُّ، فَلَمَّا صَلَّى رَسُولُ اللَّهِ ﷺ، فَبِأَبِي هُوَ وَأُمِّي، مَا رَأَيْتُ مُعَلِّماً قَبْلَهُ وَلَا بَعْدَهُ أَحْسَنَ تَعْلِيماً مِنْهُ، فَوَاللَّهِ مَا كَهَرَنِي وَلَا ضَرَبَنِي وَلَا شَتَمَنِي، قَالَ: « إِنَّ هَذِهِ الصَّلَاةَ لَا يَصْلُحُ فِيهَا شَيْءٌ مِنْ كَلَامِ النَّاسِ، إِنَّمَا هِيَ التَّسْبِيحُ وَالتَّكْبِيرُ، وَقِرَاءَةُ الْقُرْآنِ » أَوْ كَمَا قَالَ رَسُولُ اللَّهِ ﷺ. قُلْتُ: يَا رَسُولَ اللَّهِ! إِنِّي حَدِيثُ عَهْدٍ بِجَاهِلِيَّةٍ، وَقَدْ جَاءَ اللَّهُ بِالإِسْلَامِ، وَإِنَّ مِنَّا رِجَالاً يَأْتُونَ الْكُهَّانَ؟! قَالَ: « فَلَا تَأْتِهِمْ » قُلْتُ: وَمِنَّا رِجَالٌ يَتَطَيَّرُونَ؟! قَالَ: «ذَاكَ شَيْءٌ يَجِدُونَهُ فِي صُدُورِهِمْ، فَلَا يَصُدَّنَّهُمْ » رواه مسلم.

« الثُّكْل » بضم الثاءِ المُثلثة: المُصِيبة وَالفَجيعة. « ما كَهَرني » أيْ ما نهرَني.

701. Rəvayət edilir ki, Müaviyə ibn Həkəm əs-Suləmi ﵁ demişdir: "Biz Rəsulullahla ﷺ birlikdə namaz qılarkən camaatdan bir nəfər asqırdı, mən də ona: "Yərhəmukəllah"– dedim. *Bu vaxt* adamlar mənə tərs-tərs baxmağa başladılar. Dedim: "Vay mənim halıma! Sizə nə olub mənə baxırsınız?" *Bu dəfə də* onlar əllərini budlarına vurmağa başladılar. Onların məni *bu yolla* susdurmaq istədiklərini başa düşdükdə, *qəzəbləndim*, lakin *əlacsız qalıb* susdum. Elə ki Rəsulullah ﷺ namazını bitirdi, – ah, atam-anam ona qurban! Mən nə ondan əvvəl, nə də ondan sonra onun kimi gözəl tərzdə başa salan bir müəllim görmədim, – vallahi ki, məni nə acıladı, nə vurdu, nə də söydü. Sadəcə belə buyurdu: **"Qıldığımız bu namaz ki var, bunda insan kəlamından heç bir şey danışmaq olmaz. Namaz təsbih, təkbir və Quran oxumaqdan ibarətdir".** Yaxud Rəsulullah ﷺ buna bənzər bir söz söylədi.

Dedim: "Ya Rəsulullah, mən cahiliyyətdən təzə çıxmış bir adamam. Artıq Allah İslam dinini bizə nazil etmişdir. *Amma* aramızda elələri var ki, *hələ də* kahinlərin yanına gedirlər". Buyurdu ki: **"Sən onların yanına getmə!"** Dedim: "Aramızda elələri də var ki, *hər hansı bir hadisəni* uğursuzluq əlaməti hesab edirlər". Buyurdu ki: **"Bu onların öz içlərindən gələn *yanlış* bir şeydir. Qoy *bəd əlamət* onları işlərindən eləməsin".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

[1] "Səhih Muslim", 537.

٧٠٢ – وَعَنْ العِرْبَاضِ بْنِ سَارِيَةَ ﵁ قَالَ: وَعَظَنَا رَسُولُ اللَّهِ ﷺ مَوْعِظَةً وَجِلَتْ مِنْهَا القُلُوبُ. وَذَرِفَتْ مِنْهَا العُيُونُ... وَذَكَرَ الحَدِيثَ،

وَقدْ سَبق بِكَمالِهِ في باب الأمر بالمُحافَظةِ على السُّنَّةِ، وذَكَرْنَا أَنَّ التِّرْمِذيَّ قال إنه حديث حسنٌ صحيحٌ.

702. Rəvayət edilir ki, Əbu Nəcih İrbad ibn Sariyə ﵁ demişdir: "Allahın elçisi ﷺ bizə elə bəlağətli bir moizə etdi ki, bundan qəlblər titrədi, gözlər də yaşla doldu...".

Bu hədis **"Sünnə və onun ədəb qaydalarını yerinə yetirməyi əmr etmə"** adlı fəsildə tam olaraq zikr olunmuşdur. Bu hədisi Tirmizinin rəvayət etdiyini və onun barəsində: "Bu, həsən-səhih hədisdir"– dediyini də orada qeyd etmişik.[1]

Şərh:

Müəllif ﵀ bu fəsilə aid bir neçə hədis zikr etmişdir ki, onlardan biri də Ammar ibn Yasirin ﵄ hədisidir. Ammar ibn Yasir ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Kişinin namazının uzun, xütbəsinin isə qısa olması, onun *dərin* düşüncə sahibi olmasının əlamətidir".** Burada söhbət cümə namazından gedir. Cümə namazından öncə iki xütbə olur. Ona görə də Peyğəmbər ﷺ bu barədə belə buyurur: **"Kişinin namazının uzun, xütbəsinin isə qısa olması, onun *dərin* düşüncə sahibi olmasının əlamətidir".** Bu hədis zahirən cümə xütbəsinə aid olsa da, bütün xütbələrə şamil edilir. Hətta qəfil verilən xütbələrdə belə, buna riayət etmək lazımdır. Xətib xütbəsini uzun-uzadı etməklə insanları yormamalıdır. Xütbə nə qədər qısa olarsa, iki səbəbə görə bir o qədər yaxşı olar:

1. İnsanların bezməməsi; 2. İnsanların deyilənləri qavraması.

Çünki söhbət uzun olduğu zaman mövzu bir-birinə qarışır, qısa, əhatəli və qavramlı olduqda isə, insanlar ondan faydalanırlar. Həm də bu söhbət onları bezdirmir.

Namazı uzun qılmağa gəldikdə isə, burada məqsəd onu Peyğəmbər ﷺ qıldığı kimi qılmaq, ancaq həddən ziyadə də uzatmaq deyildir. Çünki Peyğəmbər ﷺ Muazın ﵁ işa namazını uzun-uzadı qıldırmasına,

[1] Bax: 157-ci hədis.

yaxud başqa birisinin sübh namazını uzun-uzadı qıldırmasına irad tutmuş və belə demişdir: **"Ey insanlar, içərinizdə *dinə qarşı* nifrət oyadanlarınız vardır".**[1]

Burada namazı uzatmaq dedikdə, onu Peyğəmbərin ﷺ namazına müvafiq bir şəkildə qılmaq nəzərdə tutulur. Bu, insanın imam durduğu namazlara aiddir. Namazı tək qıldığında isə, onu istədiyi qədər uzada bilər və bu işdə heç kəs ona irad bildirə bilməz. Çünki etdiyi əməl yalnız özünə aiddir.

Sonra Peyğəmbər ﷺ belə demişdir: **"Elə isə namazı uzadın, xütbəni isə qısa edin".** Yəni, namazı hədislərdə varid olduğu şəkildə qılın, xütbəni də qısa edin. Lakin xütbə elə olmalıdır ki, qəlbləri duyğulandırsın, onun sayəsində insanlar öyüd-nəsihət və fayda əldə etsinlər.

Bundan sonra müəllif رحمه الله Müaviyə ibn Həkəmin رضي الله عنه hədisini zikr etmişdir. Hədisdə deyilir ki, bir dəfə o, Rəsulullahla ﷺ birlikdə namaz qılarkən, camaatdan bir nəfər asqıraraq "Əlhəmdulilləh"– dedi, Müaviyə də ona: "Yərhəmukəllah"– dedi. Çünki bir adamın asqırıb "Əlhəmdulilləh"– dediyini eşitsən, kitab oxusan və ya bir şey mütaliə etsən belə, ona "Yərhəmukəllah"– deməyin vacibdir.

Namaz əsnasında isə bunu etmək olmaz. Çünki namazda insan kəlamından heç bir şey danışmaq olmaz. Ona görə də adamlar Müaviyəyə رضي الله عنه tərs-tərs baxaraq öz baxışları ilə onun bu hərəkətinə etiraz etdilər. Bunu görən Müaviyə: "Vay mənim halıma! Sizə nə olub mənə baxırsınız?"– demişdir. *Bu dəfə də* onlar onu susdurmaq üçün əllərini budlarına vurmağa başladılar. Müaviyə də susmuş və namazını qılmağa davam etmişdir. Müaviyə رضي الله عنه belə deyir: "Namaz bitdikdən sonra Peyğəmbər ﷺ məni yanına çağırdı. Ah, atam-anam ona qurban! Mən nə ondan əvvəl, nə də ondan sonra onun kimi gözəl tərzdə başa salan bir müəllim görmədim. Vallahi ki, məni nə acıladı, nə vurdu, nə də söydü. Sadəcə mülayim bir şəkildə belə buyurdu: **"Qıldığımız bu namaz ki var, bunda insan kəlamından heç bir şey danışmaq olmaz. Namaz təsbih, təkbir və Quran oxumaqdan ibarətdir".** Yaxud Rəsulullah ﷺ buna bənzər bir söz söylədi".

Bu həm qısa, həm də faydalı bir nəsihətdir. Müaviyə bundan faydalanmış və onu özündən sonrakılara da çatdırmışdır.

---

[1] "Səhih əl-Buxari", 702; "Səhih Muslim", 466.

Bu hədisdən alınan faydalar:

1. Məsləhət olduqda və ya ehtiyac duyulduqda namaz qılan adamın sağa və ya sola baxmasında qəbahət bir iş yoxdur. Bu səbəblərdən heç biri olmadıqda isə, onun *yalnız* səcdə etdiyi yerə, təşəhhüdə oturduğu halında isə şəhadət barmağına baxması gərəkdir. Çünki insan, təşəhhüddə və ya iki səcdə arası oturuşda *sağ əlinin şəhadət* barmağını bir qədər qaldırır və dua əsnasında onunla işarə edir. Bu zaman o, işarə etdiyi yerə baxmalıdır. Qiyam və rüku halında isə səcdə etdiyi yerə baxmalıdır.

Bəzi alimlər isə namaz qılan adamın önünə baxmalı olduğunu deyirlər. Lakin namaz qılan bu məsələdə sərbəstdir – istər səcdə etdiyi yerə baxar, istərsə də qarşısına. Lakin ehtiyac duyulduqda, sağa və ya sola baxmasında qəbahət bir iş yoxdur.

2. Namaz əsnasında edilən xırda bir hərəkət namaza xələl gətirmir. Çünki səhabələr namazda ikən əllərini budlarına vurmağa başlamış, Peyğəmbər ﷺ də onların bu hərəkətlərinə irad tutmamışdı. Ancaq hədislərin birində o ﷺ belə demişdir: **"*Namazda* hər hansı bir səhvə yol verildiyi zaman kişilər "Sübhanallah" desin, qadınlar isə əllərini bir-birinə vursun".**[1]

3. Namazda danışmaq olmaz və bu, namazı batil edir. Yalnız insanın bilməməsi, unutması və ya çaşıb bunu etməsi istisnadır. Məsələn, namaz qıldığın zaman bir nəfər qapını döysə və ya sənə salam versə, sən də bu zaman unudub və ya çaşıb ona: "İçəri gir!" və ya "və aleykumussalam"– desən, sənin namazın səhihdir. Çünki uca Allah insanı bilməyərəkdən, unudaraq və çaşıb etdiyi əməllərə görə cəzalandırmaz: **"Allah sizi qərəzsiz içdiyiniz andlara görə cəzalandırmaz, lakin O, sizi qəlbinizin qərəzinə – *qəsdən içdiyiniz andlara* görə cəzalandıracaqdır".**[2]

4. Peyğəmbərin ﷺ təlim metodunun gözəlliyi. O, insanları mülayim və yumşaq şəkildə öyrədərdi. Peyğəmbərin ﷺ təlim metodu belə idi və o, bu məsələdə ümməti üçün ən gözəl örnəkdir. İnsan hər kəsə layiq olduğu dəyəri verməlidir – inadkar və təkəbbürlü insanla onun layiq olduğu üslubda, bilməyib öyrənmək istəyən insanla da onun layiq olduğu üslubda danışılır.

---

[1] "Səhih əl-Buxari", 7190; "Səhih Muslim", 421.

[2] "əl-Bəqərə" surəsi, 225.

5. Namazda insan kəlamından heç bir şey danışmaq olmaz. Yəni, namaz təsbih, təkbir və Quran oxumaqdan ibarətdir, yaxud Rəsulullah ﷺ buna bənzər bir söz söylədi. Bildiyimiz kimi, namazın içində Quran oxumaq, təkbir və təsbih gətirmək, dua etmək, təşəhhüdü demək və müsəlmanlara bəlli olan sair buna bənzər əməllər vardır.

6. Əgər xətibin moizəsi gözəl olarsa və orada sərtlik olmazsa, buna görə onu tərifləmək olar. Bu da öz növbəsində moizə verən adamı, bu cür üslub seçməyə həvəsləndirər.

Hədisin davamında Müaviyə رضي الله عنه belə deyir: "Ya Rəsulullah, mən cahiliyyətdən təzə çıxmış bir adamam. Artıq Allah İslam dinini bizə nazil etmişdir". Müaviyə bunu deməklə, özünün həm İslamdan qabaqkı, həm də sonrakı halını bəyan etmək və Allahın ona verdiyi neməti barədə söhbət etmək istəmişdir. Belə ki, onlar cahiliyyə dövründə yaxşını və pisi tanımırdılar. Sadəcə bəzi adətləri var idi ki, onları yerinə yetirirdilər.

Sonra uca Allah, nemət olaraq bizə açıq-aydın bir nur və böyük bir Furqan olan İslam dinini göndərdi. Bu din vasitəsilə də haqqı batildən, yaxşını pisdən, imanı küfrdən, tövhidi də şirkdən ayırd etdik. Uca Allah İslam ümmətinə bu kimi nemətlər bəxş etmişdir.

Daha sonra Müaviyənin رضي الله عنه: "*Amma* aramızda elələri var ki, *hələ də* kahinlərin yanına gedirlər"– deməsinə, Peyğəmbər ﷺ ona: **"Sən onların yanına getmə!"**– demişdir.

Kahinlər şeytanlarla əlaqəyə girən kimsələr idi. Bu şeytanlar göy əhlindən eşitdikləri xəbərləri onlara çatdırırdı. Kahinlər də öz növbəsində şeytanların onlara çatdırdıqları bu xəbərləri insanlara danışırdılar. Lakin onlar belə xəbərə bir çox uydurma şeylər də qatırdılar. Onların yüz xəbərindən biri doğru çıxardısa, insanlar onları özləri üçün hakim təyin edərdilər. Ona görə də aralarında bir mübahisə yarandıqda, mühakimə olunmaq üçün onların, yəni kahinlərin yanına gedərdilər.

Demək, kahin o kəsdir ki, şeytanla əlaqəyə girir və bu şeytan göydən eşitdiyi xəbəri ona çatdırır, o da bu xəbərə özündən bir çox uydurma şeylər əlavə edir. Bundan sonra insanlar onun yanına gəlib: "Başımıza nə gələcək? Gələcəyimiz necə olacaq?" kimi, gələcəkdə baş verəcək həm ümumi, həm də xüsusi məsələlər barəsində suallar verir, kahinlər də cavab olaraq onlara şeytanlardan eşitdikləri xəbərləri çatdırırlar.

Peyğəmbər ﷺ ona: **"Sən onların yanına getmə!"**– dedi. Yəni bircə kəlmə: "Sən kahinlərin yanına getmə!"– dedi. Yoxsa elə zənn edirsən ki, Peyğəmbər ﷺ Müaviyə və digər onun kimi səhabələrə: "Filan işi görməyin!"– dedikdən sonra onlar həmin işi görəcəklər? Xeyir, heç vaxt! Belə bir zənni ağlına belə gətirmə! Onlar günümüzdəki əksər insanlar kimi deyildilər. İndiki insanlara bir şeyin haram olduğunu dəfələrlə bəyan edirsən, ancaq yenə də həmin əmələ son qoymurlar. Yaxud bunu istədiyi kimi yozaraq: "Bu əmrdəki qadağa, o işin məkruh olduğunu, yaxud ədəbdən sayılmadığını, ya da üstün olana zidd olduğunu ifadə edir"– deyirlər.

Sonra onu da bilin ki, kahin, gələcəkdə baş verəcək qeybi məsələlər barəsində xəbər verdiyini iddia edən kimsədir. Onun yanına gedənlər üç sinifə bölünürlər:

1) Kahinin yanına gedib ondan *bir məsələ barəsində* soruşan, lakin dediklərini təsdiq etməyənlər. "Səhih Muslim"də keçən hədisə görə, belə bir adamın namazı qırx gün qəbul olunmur.[1]

2) Kahinin yanına gedib ondan *bir məsələ barəsində* soruşaraq onun dediklərini təsdiq edənlər. Bu adamlar kafir sayılırlar. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Kim bir kahinin yanına gedər və onun dediyini təsdiq edərsə, Muhəmmədə nazil olana küfr etmiş olar".**[2] Kafir olmasının səbəbi də budur ki, o, kahinin dediklərini təsdiq etməklə uca Allahın bu ayəsini təkzib etmiş olur: «**De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz"**».[3] Axı kahin də gələcəkdə baş verəcək qeyb məsələləri barəsində xəbər verdiyini deyir. Odur ki, onun dediyini təsdiq etsən, bu ayəni təkzib etmiş olacaqsan. Bu isə öz növbəsində küfrdür. Ona görə də hədisdə belə deyilir: **"Kim bir kahinin yanına gedər və onun dediyini təsdiq edərsə"**, yəni ondan bir məsələ barəsində soruşar və sonra da onun dediyinə inanarsa, **"Muhəmmədə nazil olana küfr etmiş olar".**

3) Kahinin yalançı olduğunu üzə çıxartmaq üçün *onun yanına gedib* ona sual verənlər. Belə etməkdə qəbahət bir iş yoxdur. Çünki Peyğəmbər ﷺ fikrində bir şey tutmuş, sonra da İbn Sayyaddan onun nə olduğunu

---

[1] "Səhih Muslim", 2230.

[2] "Sunən ət-Tirmizi", 135; "Səhih ət-Tərğib vət-Tərhib", 3048.

[3] "ən-Nəml" surəsi, 65.

soruşmuş, o da həmin şeyi düzgün tapa bilməyib onun "əd-Dux"[1] olduğunu söyləmişdi. Bu zaman Peyğəmbər ﷺ ona belə demişdi: **"İtil buradan, sən heç vaxt həddini aşa bilməyəcəksən!"**[2]

Demək, rüsvay etmək və yalanını ifşa etmək üçün kahinin yanına gedib ona suallar verməkdə heç bir problem yoxdur. Əksinə, batili üzə çıxardaraq onun batil olduğunu insanlara çatdırmaq üçün bəzi hallarda belə etmək, tələb olunan gözəl əməllərdən sayılır.

Sonra Müaviyə رضي الله عنه Peyğəmbərə ﷺ belə dedi: "Aramızda elələri də var ki, *hər hansı bir hadisəni* uğursuzluq əlaməti hesab edirlər". Onda Peyğəmbər ﷺ belə buyurdu: **"Bu onların öz içlərindən gələn *yanlış* bir şeydir. Qoy *bəd əlamət* onları işlərindən eləməsin".**

Uğursuzluq əlaməti: bu, bəzi şeyləri uğursuzluq əlaməti saymaqdır. Ərəblər bir çox şeyləri uğursuzluq əlaməti sayardılar. Onlar bir şeyin uğurlu olub-olmamasını təyin etmək üçün ən çox quşlardan istifadə edərdilər. Onlar quşu hürküdər və havaya qalxıb uçan quşun sağ tərəfə yönəlməsində bir əlamət, sol tərəfə yönəlməsində başqa bir əlamət, qabağa uçmasında bir əlamət, geriyə uçmasında isə başqa bir əlamət görərdilər. O vaxtkı ərəblər bu cür xürafatları qəbul edirdilər.

Dolayısıyla, ərəblər cahiliyyə dönəmində quşların hərəkətlərinə bel bağlayır, yəni onların uçma istiqamətinə görə qərar verirdilər. Məsələn, quş sola uçduqda: "Bu pis əlamətdir, mən səfərə çıxmıram"– deyər, sağa uçduqda isə: "Bu, bərəkətli bir səfər olacaq"– deyərdilər. Onlara görə sağ, xeyir və bərəkət anlamında idi. Onların bu cür xürafi etiqadları var idi.

Demək, ərəblər uğursuzluğu təyin etmək üçün ən çox quşlardan istifadə edərdilər. Bəzən də uğurun olub-olmayacağını günlər və ya aylarla əlaqələndirirdilər. Bəzən isə bunu eşitdikləri səslər və ya qarşılaşdıqları adamlarla əlaqələndirərdilər. Bu şeylər hətta günümüzdə də mövcuddur. Belə ki, bəziləri evdən çıxarkən ilk qarşısına çıxan adama diqqət yetirir. Əgər qarşısına çıxan ilk adam çirkin görünüşlü birisi olarsa: "Bu gün işlərim pis olacaq, işim tərs gətirəcək"– deyər. Qarşısına çıxan ilk insan xoş

---

[1] Peyğəmbər ﷺ 44-cü surənin 10-cu ayəsindəki "əd-Duxan" (tüstü) sözünü qəsd edirdi ki, bunu da İbn Sayyad düzgün təyin edə bilməyib "əd-Dux" demişdi. Bununla da Peyğəmbər ﷺ şeytanın ona qarmaqarışıq sözlər tələqin etdiyini sübuta yetirmişdi.

[2] "Səhih əl-Buxari", 1354, 1355; "Səhih Muslim", 2930.

sifətli birisi olduqda isə: "Bu gün çox uğurlu bir gün olacaq"– deyib, bunu uğurlu əlamət sayar.

Ona görə də Peyğəmbər ﷺ Müaviyəyə رضي الله عنه belə dedi: **"Bu onların öz içlərindən gələn *yanlış* bir şeydir. Qoy *bəd əlamət* onları işlərindən eləməsin".**

Bir insan qəlbini bu əlamətlərə bağlayarsa, həyatı zəhərə dönər və daima qəm-qüssə içində yaşayar.

Vaxtilə ərəblər şəvval ayında evlənməyi uğursuzluq əlaməti kimi qəbul edər və "Şəvval ayında evlənən xeyir tapmaz"– deyərdilər. *Lakin bu etiqadın səhv olduğunu bildirmək üçün* Aişə رضي الله عنها belə deyərdi: "Peyğəmbər ﷺ mənimlə şəvval ayında evlənmişdir. Kəbini şəvval ayında bağladı, zifaf gecəsi də şəvval ayında oldu. Onun yanında hansı biriniz məndən daha şanslıdır?"[1]

Şübhəsiz ki, Peyğəmbər ﷺ Aişə رضي الله عنها ilə evləndikdən sonra, zövcələri arasında ona ən sevimli olanı Aişə رضي الله عنها oldu. Halbuki, onunla kəbinini şəvval ayında bağlamış və zifaf gecəsini də bu ayda etmişdi. Ərəblər isə cahillikləri üzündən belə deyirdilər: "Şəvval ayında evlənən adam xeyir tapmaz". Halbuki, günümüzdə belə şəvval ayında evlənmiş neçə-neçə xoşbəxt ailələr vardır.

Bir sözlə, qəlbindən uğursuzluq əlamətlərini birdəfəlik çıxar və daim nikbin ol – dünyaya geniş pəncərədən bax, qarşındakı yolu hər zaman açıq gör. Çünki Rəsulullah ﷺ nikbin olmağı xoşlayar, bədbinliyi isə sevməzdi.[2]

Elə isə, daim nikbin ol. Allah nə istəmişsə, o da olacaqdır. Həmişə sevinc və fərəh içində ol. Çünki qarşındakı dünya geniş, yolun da açıqdır. Əsil xeyir də elə budur.

Bədbinlik, ruh düşkünlüyü və insanın hər pis fikri beyninə salması isə dünyanı ona dar edər.

İslam dininin gözəlliyindən biri də odur ki, bu din bədbinliyi aradan qaldırmış, nikbinliyi isə təsdiq etmişdir. Çünki nikbinlik xeyir, bədbinlik isə şərdir. Müvəffəq edən Allahdır.

---

[1] "Səhih Muslim", 1423.

[2] "Sunən İbn Macə", 3536; "Səhih əl-Cami", 4985.

Doxsan ikinci fəsil

Vüqarlı və təmkinli olmaq

Mövzu ilə əlaqəli ayə:

Uca Allah belə buyurur:

﴿ وَعِبَادُ ٱلرَّحۡمَٰنِ ٱلَّذِينَ يَمۡشُونَ عَلَى ٱلۡأَرۡضِ هَوۡنٗا وَإِذَا خَاطَبَهُمُ ٱلۡجَٰهِلُونَ قَالُواْ سَلَٰمٗا ﴾

"Mərhəmətli *Allahın* qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqda: "Salam!"– deyib keçərlər".[1]

Şərh:

Müəllif ﷺ bu fəslə **"Vüqarlı və təmkinli olmaq"** adını vermişdir.

Vüqar: Bu, insanın ağır təbiətli və ciddi olduğunu göstərən bir vəsfdir. Beləsini görən şəxs həmin adama ehtiram göstərir və onu uca tutur.

Təmkin: Bu isə yersiz hərəkət etməmək və yüngültəbiətli olmamaqdır. Yəni qəlbin, bədən üzvlərinin və dilin təmkinli olmasıdır.

Şübhə yoxdur ki bu iki xislət, yəni vüqarlı və təmkinli olmaq, uca Allahın Öz bəndəsinə bəxş etdiyi ən xeyirli xislətlərdəndir. Əgər uca Allah bir bəndəyə vüqarlı və təmkinli olmağı bəxş etmişdirsə, bunun sayəsində həmin bəndə iki gözəl əxlaqa sahib olmuş olur. Çünki bu xislətlərin əksi o deməkdir ki, həmin insanda təmkin, heybət və ciddilik yoxdur. Yəni, bu adam çox dəyərsiz, öz səviyyəsini qoruya bilməyən birisidir.

Təmkinli olmamağın göstəricisi odur ki, təmkini olmayan kəs çoxlu hərəkətlər edir, o yana-bu yana vurnuxur – onun nə qəlbində, nə sözündə, nə də hərəkətlərində sükunət görünmür.

Vüqarlı və təmkinli olmağın əksi, tələskən olmaqdır. İnsanın tələskən olması isə, onun özünü idarə edə bilməməsi, yüngül davranması və dedi-qodudan başqa bir iş sahibi olmaması deməkdir. Halbuki, Rəsulullah ﷺ dedi-qodu ilə məşğul olmağı, çoxlu suallar verməyi və malı israf etməyi qadağan etmişdir.[2]

---

[1] "əl-Furqan" surəsi, 63.

[2] "Səhih əl-Buxari", 1477; "Səhih Muslim", 1715.

Əgər bir insan yüngül davranışlı və işlərində qeyri-ciddi olarsa, çoxlu xətalara yol verər və bununla da insanlar ona etibar etməzlər. Eləcə də, o adam insanlar arasında sözündə heç bir fayda olmayan boşboğaz birisi kimi tanınar.

Sonra müəllif ﷺ fəslin mövzusuna aid uca Allahın bu ayəsini gətirmişdir: **"Mərhəmətli *Allahın* qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqda: "Salam!"– deyib keçərlər".**

"Mərhəmətli *Allahın* (ər-Rəhmanın) qulları". Onlar Allahın, özlərinə mərhəmət bəxş etdiyi və xeyirə müvəffəq etdiyi kimsələrdir. Yer üzündə təvazökarlıqla gəzən kimsələr də məhz onlardır. Yəni, onlardan birinə baxsan, yerişində və hərəkətlərində vüqarlı olduğunu, habelə məzəmmət olunan tələskənlikdən uzaq durduğunu görərsən.

"Cahillər onlara söz atdıqda: "Salam!"– deyib keçərlər". Yəni onların şərindən salamat qalmalarına səbəb olacaq sözlər soyləyərlər. Yoxsa ki, bu ayədəki: **"Salam!"– deyib keçərlər"** sözünün mənası, onlara lüzumsuz yerə salam vermələri demək deyildir. Əksinə, bu ayənin mənası odur ki, cahillər onlardan birinə söz atdığı zaman, *cavabında* onların şərindən qorunmağına səbəb olacaq bir söz söyləyər. Yəni, ya pisliyi yaxşılıqla dəf edərək, ya da susmağın daha xeyirli olduğunu gördüyü zaman susaraq.

Bir sözlə, cahilə elə bir söz deyər ki, bu sözün sayəsində onun şərindən qorunar. Çünki cahil problemli bir insandır. Sən onunla mübahisəyə girişsən və ya münaqişə etsən, ya sənin özünə, ya da dəvət etdiyin xeyirə qarşı nalayiq sözlər söyləyə bilər. Məsələn, dini söyər və ya buna bənzər hərəkətlər edə bilər. Allah qorusun!

Demək, ər-Rəhmanın qullarında olan müsbət xislətlərdən biri odur ki, cahillər onlara söz atdığı saman, onların şərindən qorunmalarına səbəb olan sözlər söyləyər, bu sözlərə görə də günah qazanmazlar. Həmçinin, onların malik olduqları müsbət xislətlərdən başqa birisi də ayənin davamında zikr olunmuşdur. Uca Allah buyurur: **"Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə, *oradan* ləyaqətlə ötüb keçərlər".**[1] Yəni, yalan sözə və günah əmələ şahidlik etməzlər. Nə xeyiri, nə də zərəri olmayan söz və hərəkətlərə rast gəldikləri zaman, oradan, onlara bulaşmadan ötüb keçərlər. Çünki söz və əməllər ya xeyirli, ya şər, ya da ki nə xeyiri, nə də şəri olmayan

[1] "əl-Furqan" surəsi, 72.

boş şeylər olur. Onlar şər işlərə şahidlik etməz, lağlağıya rast gəldikdə ona baş qoşmadan yanından ləyaqətlə ötüb keçər, xeyirli işlərdə isə qərar tutarlar.

Mövzu ilə əlaqəli hədis:

٧٠٣ – وَعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: مَا رَأَيْتُ رَسُولَ اللهِ ﷺ مُسْتَجْمِعاً قَطُّ ضَاحِكاً حَتَّى تُرَى مِنْهُ لَهَوَاتُهُ، إِنَّمَا كَانَ يَتَبَسَّمُ. متفقٌ عليه.

« اللَّهَوَات » جَمْع لَهَاةٍ: وهِي اللَّحُمة التي في أقْصى سَقْفِ الْفَمِ.

703. Rəvayət edilir ki, Aişə ﵂ demişdir: "Mən heç vaxt Rəsulullahın ﷺ dilçəyi görününcəyədək qəhqəhə ilə güldüyünü görməmişdim. O sadəcə gülümsəyərdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Hədisin ərəbcəsində keçən "ləhəvatun" kəlməsi "ləhatun" sözünün cəm formasıdır. "Ləhatun" isə damağın sonunda yerləşən ət parçası, yəni dilçəkdir.

Şərh:

Müəllif ﵀ bu fəsildə Aişənin ﵂ hədisini zikr etmişdir. Həmin hədisdə Aişə ﵂ belə demişdir: "Mən heç vaxt Rəsulullahın ﷺ dilçəyi görününcəyədək qəhqəhə ilə güldüyünü görməmişdim. O sadəcə gülümsəyərdi". Yəni, Peyğəmbər ﷺ dilçəyi görünəcək qədər ağzını açıb çirkin bir gülüşlə qəhqəhə çəkib gülməzdi. Əksinə, güldüyündə ya təbəssüm edər, ya da ki, azı dişləri və ya qabaq dişləri görünəcək bir şəkildə gülərdi. Amma dilçəyi görünəcək şəkildə qəhqəhə ilə deyil, adi təbəssümlə gülərdi. Bu da Peyğəmbərin ﷺ vüqarlı olmasından irəli gəlirdi.

Ona görə də həddən ziyadə çox gülən, güldükdə də ağzını açaraq qəhqəhə çəkən bir adamın, adətən insanlar yanında heç bir dəyərinin olmadığını və qeyri-ciddi olduğunu görürük. Lakin məqamında təbəssüm edən bir adamı gördükdə, insanın könlü açılır və rahatlıq tapır. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 6092; "Səhih Muslim", 899.

Doxsan üçüncü fəsil

Namaza, elm öyrənməyə və digər ibadətləri yerinə yetirməyə gedərkən, vüqarlı və təmkinli olmağın müstəhəb olması

Mövzu ilə əlaqəli ayə:

Uca Allah belə buyurur:

﴿وَمَن يُعَظِّمْ شَعَٰٓئِرَ ٱللَّهِ فَإِنَّهَا مِن تَقْوَى ٱلْقُلُوبِ﴾

"Hər kim Allahın ayinlərinə hörmət etsə, *bilsin ki,* bu, qəlblərin təqvasındandır".[1]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ bu fəslə **"Namaza, elm öyrənməyə və digər ibadətləri yerinə yetirməyə gedərkən, vüqarlı və təmkinli olmağın müstəhəb olması"** adını vermişdir.

Məlumdur ki, namaz, şəhadət kəlməsindən sonra İslamın təkid olunmuş ən önəmli rüknüdür. Habelə, namaz, uca Allahın *əmr etdiyi* ən böyük ayinidir. İnsan namaza durduğu zaman izzətli və qüdrətli Allahın hüzurunda durmuş sayılır.

O da məlumdur ki, bir insan, hörmət etdiyi bir şəxsin yanına gəldiyi zaman, onun yanına ədəblə, təmkinlə və vüqarla gələr. Elə isə, insan izzətli və qüdrətli Allahın hüzurunda durmaq üçün gəldikdə necə olmalıdır?! Bu səbəbdən də insan, namaza gedərkən Əbu Hureyranın ﵁ hədisində qeyd edildiyi kimi, təmkinlə getməlidir.

Sonra müəllif ﵀ fəslin mövzusuna dəlil olaraq bu ayəni gətirmişdir: **"Hər kim Allahın ayinlərinə hörmət etsə, *bilsin ki,* bu, qəlblərin təqvasındandır".**

Kim Allahın ayinlərinə hörmət göstərər, qəlbində onları uca tutar və bu hörmətdən irəli gələn əməlləri bədən əzaları ilə yerinə yetirərsə, *bilsin ki,* bu, qəlblərin təqvasındandır. Yəni bu, onun niyyətinin saf, qəlbinin də

[1] "əl-Həcc" surəsi, 32.

təqvalı olmasının əlamətidir. Qəlb təqvalı olarsa, əzalar da təqvalı olar. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Diqqət edin! Bədəndə bir ət parçası var. Əgər o islah edilərsə, bütün bədən islah olar, yox, əgər korlanarsa, bütün bədən korlanar. Bilin ki, bu *ət parçası* qəlbdir".**[1]

Elə isə, Allahın ayinlərinə hörmət bəslə. Çünki bu, sənin qəlbinin təqvalı olmasından irəli gəlir. Həmçinin, bu, Allah qatında sənin üçün daha xeyirli olar. Çünki uca Allah buyurur: **"Bax belə! Hər kim Allahın haram buyurduqlarına hörmət etsə, bu, Rəbbi yanında onun üçün xeyirli olar".**[2]

Mövzu ilə əlaqəli hədislər:

٧٠٤ – وَعَنْ أَبِي هُرَيْرَةَ رضي الله عنه قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « إِذَا أُقِيمَتِ الصَّلَاةُ، فَلَا تَأْتُوهَا وَأَنْتُمْ تَسْعَوْنَ، وَأْتُوهَا وَأَنْتُمْ تَمْشُونَ، وَعَلَيْكُمُ السَّكِينَةُ، فَمَا أَدْرَكْتُمْ فَصَلُّوا، وَمَا فَاتَكُمْ فَأَتِمُّوا » متفقٌ عليه.

زاد مسلم في رواية له: « فَإِنَّ أَحَدَكُمْ إِذَا كَانَ يَعْمِدُ إِلَى الصَّلَاةِ فَهُوَ فِي صَلَاةٍ ».

704. Rəvayət edilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Namaz üçün iqamə verildiyi zaman namaza qaça-qaça gəlməyin, yeriyərək, təmkinlə gəlin. Yetişdiyiniz rükətləri *imamla bərabər* qılın, buraxdıqlarınızı isə özünüz tamamlayın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

Muslimin rəvayətində isə əlavə olaraq bu ləfz də keçir: **"Çünki sizlərdən biri namazı qəsd edib getdiyi vaxt, sanki namazın içində sayılır".**

٧٠٥ – وَعَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما أَنَّهُ دَفَعَ مَعَ النَّبِيِّ ﷺ يَوْمَ عَرَفَةَ فَسَمِعَ النَّبِيُّ ﷺ وَرَاءَهُ زَجْراً شَدِيداً وَضَرْباً وَصُوْتاً لِلإِبِلِ، فَأَشَارَ بِسَوْطِهِ إِلَيْهِمْ وَقَالَ: « أَيُّهَا النَّاسُ عَلَيْكُمْ بِالسَّكِينَةِ فَإِنَّ الْبِرَّ لَيْسَ بِالإِيْضَاعِ » رواه البخاري، وروى مسلم بعضه.

« البِرُّ »: الطَّاعَةُ. « وَالإِيْضَاعُ » بِضاد معجمةٍ قلبها ياء وهمزة مكسورة، وَهُوَ: الإِسْرَاعُ.

[1] "Səhih əl-Buxari", 52, 2051; "Səhih Muslim", 1599.

[2] "əl-Həcc" surəsi, 30.

[3] "Səhih əl-Buxari", 908; "Səhih Muslim", 602.

705. Rəvayət edilir ki, Ərəfa günü ibn Abbas ﵄ Peyğəmbərlə ﷺ birlikdə Ərəfatdan *Müzdəlifəyə* gedərkən, arxadan uca səslər, zərbə səsi və dəvə nəriltisi eşitdi və qamçı ilə işarə edərək buyurdu: **"Ey insanlar, təmkinli olun! Çünki yaxşılıq, tələsməkdə deyildir".**

Bu hədisi Buxari rəvayət etmiş[1], Muslim isə onun başqa ləfzlərini[2] rəvayət etmişdir.

Hədisin ərəbcəsində keçən "əl-birr" (yaxşılıq) kəlməsi "itaət", "əl-iydaa" kəlməsi isə "tələsmək" mənasındadır.

Şərh:

Sonra müəllif ﵀ Əbu Hureyraya ﵁ istinadən Peyğəmbərin ﷺ belə dediyini nəql etmişdir: **"Namaz üçün iqamə verildiyi zaman, namaza qaça-qaça gəlməyin".** Yəni, məsciddən kənarda olarkən iqamənin verildiyini eşitsəniz, namaza qaça-qaça gəlməyin. Bu onu göstərir ki, iqamə məscidin çölündən də eşidilir. Bəli, bu, belə olmalıdır. Hədislərin birində deyilir ki, Bilal ﵁ Peyğəmbərə ﷺ: "Məndən öncə amin demə!"– demişdir. *Yəni, iqamə verdikdən sonra mən gəlib səfdə durana qədər namaza başlama.* Bu isə onu göstərir ki, Bilal iqaməni insanların eşidə biləcəyi bir yerdə verərdi.

Sonra Peyğəmbər ﷺ belə demişdir: **"Yeriyərək, təmkinlə gəlin"**, yəni, normal bir yerişlə gəlin və təmkinli olun.

"Yeriyərək" kəlməsi dəlildir ki, adam adət etdiyi *normal* yerişlə yeriməlidir. Hətta bəzi alimlər müstəhəb hesab etsələr belə, yenə addımlarını sıx etməməlidir. Çünki Peyğəmbərin ﷺ: **"*(Bir adam məscidə gedərkən)* atdığı hər bir addıma görə Allah onu bir dərəcə yüksəldər və onun bir günahını bağışlayar"**[3]– deməsi, addımların sıx olması anlamına gəlmir. Əksinə, bu, insanın adətən *normal* bir yerişlə və tələsmədən yeriməsinə dəlalət edir. Əgər bir adam məscidə bu şəkildə, normal yerişlə gələrsə, onda Peyğəmbər ﷺ ona belə buyurmuşdur: **"Yetişdiyiniz rükətləri *imamla bərabər* qılın, buraxdıqlarınızı isə özünüz tamamlayın".**

Lakin alimlər belə bir rəy də demişlər: "Namazın rükusuna yetişə bilməyəcəyindən ehtiyat edən adamın yeriş sürətini bir qədər artırmasında

[1] "Səhih əl-Buxari", 1671.

[2] "Səhih Muslim", 1282.

[3] "Səhih əl-Buxari", 665, 666.

qəbahət yoxdur. Ancaq o, yenə də təngnəfəsliyə səbəb olan sürətlə yeriməməlidir".

Hədisdən alınan faydalar:

1. Namaza verilən önəm. İnsan namaza gələrkən ədəb, xuşu, təmkin və vüqarla gəlməlidir (yeriməlidir).

2. İqamənin məscidin çölündə eşidilməsində qəbahət bir iş yoxdur. Demək, məscidin çölündə olan insanlar eşitsinlər deyə, müəzzinin səsgücləndirici vasitəsilə iqamə verməsində heç bir problem yoxdur.

Ancaq bəziləri buna etiraz edərək deyirlər ki, əgər iqamə məscidin çölündən eşidiləcəksə, onda insanlar namaza erkən gəlməyə tənbəllik edəcəklər. Yəni namaza, yalnız iqaməni eşitdikdən sonra gələcək və beləliklə də uzaqda və ya yaxında olmasından asılı olaraq, bir və ya bir neçə rükəti əldən qaçıracaqlar.

Lakin madam ki, belə bir şey, yəni iqamənin məscidin çölündən eşidilməsi Peyğəmbərin ﷺ zamanında var idi, onda nəyə görə bizim zamanımızda da belə olmasın. Ona görə də düşünürəm ki, səsgücləndirici vasitəsilə iqamənin səsini çölə çatdırmaqda heç bir problem yoxdur. Lakin bir şeyin günah ola biləcəyindən qorxuram ki, bu da bəzi insanların minarələrdəki səsgücləndiricilər vasitəsilə namazın səsini çölə çatdırmalarıdır. Çünki bu səs məscidin ətrafında olan insanların fikrini qarışdıra bilər. Ələlxüsus da bu, gecə namazlarında və səslə qılınan digər namazlarda baş verərsə. Bu yayım yaxınlıqda olan evlərin sakinlərini də narahat edə bilər. Bu səs, həmçinin yaxınlıqdakı digər məscidlərdə namaz qılan insanları çaşdıra bilər. Hətta elə olub ki, bəzi insanlar bir məsciddə namaz qılarkən, o biri məsciddəki imamın qiraətini izləyiblər. Bəziləri də digər məscidin imamını izlədiyi üçün, həmin məscidin imamı "Vələddallin" dedikdən sonra, çaşaraq "amin" deyiblər. Bu, qaçılmaz bir haldır. Çünki qəlb, bir şeylə məşğul olduğu zaman digər şeylərdən uzaq durar. Əgər namaz qılanlar yaxınlıqdakı qonşu məscidin qiraətini izləyərlərsə, üstəlik də imamın həm səsi, həm də qiraəti gözəl olarsa, o zaman qəlblərin bu imamın qiraətinə dalması və bununla da öz imamlarının qiraətini dinləməkdən yayınması qaçılmaz bir haldır.

İmam Malikin ﵀ "Muvatta" əsərində keçən hədislərin birində deyilir ki, bir gecə Peyğəmbər ﷺ evdən çıxdıqda görür ki, səhabələri məsciddə namaz qılır və uca səslə Quran oxuyurlar. Onda Peyğəmbər ﷺ onlara belə dedi: **"Həqiqətən, namaz qılan şəxs Rəbbi ilə gizli söhbətə girmiş sayılır. Elə isə, necə söhbət edəcəyinizə diqqət edin və bir-birinizin qiraətini pozacaq şəkildə Quranı bərkdən oxumayın".**[1]

Əbu Davudun ﵀ "Sunən" əsərində keçən rəvayətdə isə belə deyilir: **"Diqqət edin, hər biriniz Rəbbi ilə gizli söhbətdədir. Elə isə, bir-birinizə əziyyət verməyin – Quran oxuduqda səsinizi bir-birinizdən uca qaldırmayın".**[2]

Peyğəmbər ﷺ bu hədisdə bərkdən Quran oxumağı əziyyət vermək saymış və bunu qadağan etmişdir. Reallıq da bunu göstərir. Ona görə də belə edənlər, yəni namaz qılarkən səslərini minarələrdə olan səsgücləndiricilər vasitəsilə çölə çatdıranlar, bu hərəkətləri ilə ətrafdakı insanlara əziyyət verəcəklərsə, buna görə günah qazanacaqlar.

Əgər bir əməldə insanın günaha bulaşmaq ehtimalı varsa, o zaman həmin əməli tərk etmək daha məqsədəuyğundur. Həm də bunun bir faydası da yoxdur. Çünki imam məsciddən kənarda olan insanlara deyil, məscidin daxilindəki insanlara namaz qıldırır.

Digər tərəfdən, bu əməl tənbəl insan üçün bir qapı açacaq. Şeytan onu birinci, ya ikinci, ya da üçüncü rükətdən saxlayaraq ona: "sonuncu rükətdə qoşularsan" kimi vəsvəsə edəcək, bununla da həmin adam bir çox xeyirdən məhrum olacaqdır. Yəni, nə qədər ki, imamın qiraətini eşidir, bir o qədər də məscidə gec gələcəkdir. Çünki hər dəfə qalxıb məscidə gəlmək istədikdə, şeytan onu tutub saxlayacaqdır.

Ona görə də bütün müsəlman qardaşlarıma, xüsusən də məscid imamlarına tövsiyəm budur ki, namazın səsini çölə ötürməsinlər və bununla da həm günah qazanmaqdan, həm də müsəlman qardaşlarına əziyyət verməkdən qurtulmuş olsunlar. Bu, evlərdə qılınan namazlara da aiddir. Bəlkə adam var namazlarını qılıb yatmaq və ya istirahət etmək istəyir, yaxud birinin evində xəstəsi var və bütün gecəni yata bilməyib. Üstəlik bu səs də

[1] "əl-Muvatta", 1/80; "Silsilət əl-Əhadis əs-Səhihə", 1603.

[2] "Sunən Əbu Davud", 1332; "Səhih əl-Cami", 2639.

ona daha bir əziyyət verir. Ya da birinin evində körpə uşağı var və həmin səsgücləndiricinin səsi ona əziyyət edir.

Bir sözlə, bəzi insanlar bu məsələyə mübtəla olmuşlar. Onlar faydası olmayan bir şeyi etməklə yaxınlıqlarında məscidlərin əhlinə, habelə evlərin sakinlərinə əziyyət verirlər. Allah həm bizi, həm də onları əfv etsin!

"Yetişdiyiniz rükətləri *imamla bərabər* qılın, buraxdıqlarınızı isə özünüz tamamlayın". Yəni imam rükuda olarkən namaza yetişsən, ayaq üstə (dik vəziyyətdə) ehram təkbirini[1] gətir, sonra onunla birgə rüku et. Belə etsən, həmin rükətə yetişmiş sayılarsan. İmam rükudan qalxıb dik vəziyyətdə durarkən namaza yetişsən, yenə ehram təkbirini gətirib namaza qoşul, sonra da imam səcdə edəndə, onunla bərabər səcdə et. Lakin bu halda həmin rükət sənin üçün sayılmır. Çünki adam imamla birgə rüku etməyə yetişməzsə, həmin rükəti qaçırmış sayılar. İmam səcdədə olarkən namaza yetişsən, imamın səcdədən qalxmasını gözləmə, əksinə, yenə ayaq üstə ehram təkbirini gətir və dərhal səcdə et. İmamın təşəhhüd üçün istirahət oturuşu vəziyyətində namaza yetişsən, yenə ayaq üstə ehram təkbirini gətir, sonra da otur. Yəni, imamın hansı vəziyyətinə yetişsən, onun etdiyi hərəkəti et.

Əgər imam son təşəhhüddə ikən namaza yetişsən, onda ətrafına bax. Əgər camaat namazı qıla biləcəyin başqa adamlar görsən, namaza girmə. Çünki sən, son təşəhhüdə yetişməklə camaat namazına yetişmiş sayılmırsan. Gərək *ən azı* bir rükətə yetişəsən ki, o namaz sənin üçün də camaat namazı sayılsın. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Hər kim namazın bir rükətinə çatarsa, namaza çatmış sayılar".**[2]

Yox, əgər görsən ki, onunla camaat namazı qıla biləcəyin heç bir adam yoxdur və ya *yaxınlıqda olan* başqa bir məsciddə qılınan camaat namazına yetişməyin də mümkün deyil, onda imam təşəhhüddə olsa belə, ona qoşul, ancaq bu rükəti sayma. Çünki rükuya yetişə bilməmisən.

Peyğəmbərin ﷺ **"tamamlayın"** sözü dəlildir ki, namaza gecikən adam buraxdığı rükətləri tamamlayarkən namazının əvvəlini deyil, sonunu tamamlayır. Məsələn, zöhr namazının son iki rükətinə çatırsa, *onun imam*

[1] Namaza başlamaq üçün deyilən ilk təkbir.

[2] "Səhih əl-Buxari", 580; "Səhih Muslim", 607.

salam verdikdən sonra ayağa qalxıb tamamladığı iki rükət namazın son iki rükətidir. Ona görə də "əl-Fatihə" surəsindən sonra heç bir surə oxumur. Çünki Sünnəyə görə, son iki rükətdə "əl-Fatihə" surəsindən başqa heç bir surə oxunmur.

İbn Abbasın ﵄ hədisinə gəlincə, bu hədisdə deyilir ki, Peyğəmbər ﷺ *Ərəfa günü* Ərəfatdan *Müzdəlifəyə* gedərkən, arxadan uca səslər, zərbə səsi və dəvə nəriltisi eşitdi. Çünki cahiliyyə dövründə *müşriklər Ərəfa günü* Ərəfatdan Müzdəlifəyə gedərkən, bacardıqca sürətlə gedərdilər ki, qaranlıq düşmədən Müzdəlifəyə çatsınlar. Bundan dolayı da dəvələri sürətlə getsin deyə, onları *qamçı ilə* bərk-bərk vurardılar. Bu mənzərəni gördükdə, Peyğəmbər ﷺ qamçısı ilə onlara işarə etdi və: **"Ey insanlar, təmkinli olun! Çünki yaxşılıq, tələsməkdə deyildir"**– dedi. Yəni, sakin və arxayın olun. Çünki yaxşılıq və xeyirxahlıq, tələsməkdə deyildir. Hədisin ərəbcəsində keçən "əl-iydaa" kəlməsi, sürətlə yeriməyin bir növünü bildirir.

Bu hədis dəlildir ki, insan ibadət yerlərinə gedərkən sürətlə (tələsik) getməməlidir. Çünki Ərəfatdan enən həmin adamlar Müzdəlifəyə gedirdilər, Müzdəlifə isə ibadət yeridir.

Bir sözlə, müəllif ﵀ bu hədislə fəslə xitam verərək demək istəyir ki, namaza, elm məclislərinə və başqa bu kimi ibadətlərə gedərkən, təmkinlə və sükunət içində getmək lazımdır.

Elə isə, elm məclislərinə gedərkən təmkinli, vüqarlı və heybətli ol ki, insanların gözündə cılızlaşmayasan və bu məclisləri uca tutmaqla, izzətli və qüdrətli Allahı uca tutmuş sayılasan. Müvəffəq edən Allahdır.

Doxsan dördüncü fəsil

Qonağa ehtiram göstərmək

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah belə buyurur:

﴿ هَلۡ أَتَىٰكَ حَدِيثُ ضَيۡفِ إِبۡرَٰهِيمَ ٱلۡمُكۡرَمِينَ ﴿٢٤﴾ إِذۡ دَخَلُواْ عَلَيۡهِ فَقَالُواْ سَلَٰمٗاۖ قَالَ سَلَٰمٞ قَوۡمٞ مُّنكَرُونَ ﴿٢٥﴾ فَرَاغَ إِلَىٰٓ أَهۡلِهِۦ فَجَآءَ بِعِجۡلٖ سَمِينٖ ﴿٢٦﴾ فَقَرَّبَهُۥٓ إِلَيۡهِمۡ قَالَ أَلَا تَأۡكُلُونَ ﴾

"İbrahimin möhtərəm qonaqlarının əhvalatı sənə gəlib çatdımı? Onlar onun yanına daxil olub: "*Sənə* salam olsun!"– dedilər. *İbrahim:* "*Sizə də* salam olsun! *Siz* yad adamlarsınız!"– dedi. O, təşviş içində ailəsinin yanına getdi və kök bir buzov *qızardıb* gətirdi. Onu onların qabağına qoyub dedi: "Yemək yemirsinizmi?"[1]

﴿ وَجَآءَهُۥ قَوۡمُهُۥ يُهۡرَعُونَ إِلَيۡهِ وَمِن قَبۡلُ كَانُواْ يَعۡمَلُونَ ٱلسَّيِّـَٔاتِۚ قَالَ يَٰقَوۡمِ هَٰٓؤُلَآءِ بَنَاتِي هُنَّ أَطۡهَرُ لَكُمۡۖ فَٱتَّقُواْ ٱللَّهَ وَلَا تُخۡزُونِ فِي ضَيۡفِيٓۖ أَلَيۡسَ مِنكُمۡ رَجُلٞ رَّشِيدٞ ﴾

"Qövmü tələsik onun yanına gəldi. Onlar əvvəllər də yaramaz işlər görürdülər. *Lut* dedi: "Ey qövmüm, bunlar mənim qızlarımdır (onlarla nikaha girə bilərsiniz). Onlar sizin üçün daha təmizdirlər. Allahdan qorxun və qonaqlarımın yanında məni rüsvay etməyin! Məgər aranızda sizə *nəsihət edə biləcək* ağıllı bir adam yoxdur?"[2]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ bu fəslə **"Qonağa ehtiram göstərmək"** adını vermişdir.

Qonaq, sığınacaq, yemək-içmək və ehtiyac duyduğu başqa bu kimi şeylərin təmin olunması üçün qonaq qismində sənin evinə gələn kimsədir.

---

[1] "əz-Zariyat" surəsi, 24-27.

[2] "Hud" surəsi, 78.

Qonaqpərvərlik, İbrahim ﷺ peyğəmbərin zamanından indiyədək davam edən qədim və tərifəlayiq bir xislətdir.

Müəllif ﷺ bu fəsildə qonağa ehtiram göstərməyin Allaha və axirət gününə iman gətirməyə daxil olduğuna dair müxtəlif hədislər zikr edəcəkdir. Lakin o, adəti üzrə öncə ayələrdən başlamışdır. Çünki Qurani-Kərim Sünnədən bir pillə öndədir. Belə ki, Qurani-Kərim Allahın kəlamı, hədislər isə Peyğəmbərin ﷺ kəlamıdır. Buna baxmayaraq, onların hər ikisi də haqdır. Quran və Sünnədə gələn xəbərləri təsdiq etmək, əmrləri isə yerinə yetirmək vacibdir.

Müəllif ﷺ ilk olaraq uca Allahın bu ayəsini zikr etmişdir: **"İbrahimin möhtərəm qonaqlarının əhvalatı sənə gəlib çatdımı?"** Bu cümlənin sual formasında gəlməsi dinləyicinin diqqətini cəlb etmək üçündür. Bu sual cümləsi ya sadəcə Peyğəmbərə ﷺ, ya da həm Peyğəmbərə ﷺ, həm də onun ümmətinə ünvanlanmışdır. Yəni, xitabın hər iki sinfə ünvanlanması keçərlidir.

"İbrahimin möhtərəm qonaqlarının əhvalatı sənə gəlib çatdımı? Onlar onun yanına daxil olub: "*Sənə* salam olsun!"– dedilər". Bu qonaqlar mələklər idi. Uca Allah onları öncə İbrahimin ﷺ, sonra isə Lutun ﷺ yanına göndərmişdi.

Ayədə keçən **"möhtərəm"** kəlməsi onu göstərir ki, İbrahim ﷺ onlara ehtiram göstərmişdi.

"Onlar onun yanına daxil olub: "Salam olsun!"– dedilər. ***İbrahim:*** **"Salam olsun!.."– dedi".** Alimlər deyirlər ki, mələklərin **"Salam olsun!"** deməsi, "Səni salamlayırıq" demək, İbrahimin ﷺ **"Salam olsun!"** deməsi isə "Sizə də salam olsun!" deməkdir. İkinci salam birinci salamdan daha üstündür. Çünki şəriətə görə insana salam verildiyi zaman ya bu salamı ən gözəl şəkildə almalı, ya da onu olduğu kimi qaytarmalıdır. Çünki uca Allah belə buyurur: **"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya *verilən salamı olduğu kimi* qaytarın! Həqiqətən, Allah hər şeyin hesabını çəkəndir".**[1] Məhz buna görə də ikinci salam birincidən daha üstündür. Çünki ayənin ərəbcəsində keçən birinci salam, feli cümlə, ikinci salam isə, ismi cümlədir. Ərəb qramatikasına görə də ismi cümlə bir şeyin sarsılmaz və davamlı olmasına dəlalət edir.

[1] "Hud" surəsi, 78.

Sonra İbrahim ﷺ belə dedi: **"*Siz* yad adamlarsınız!"** Ayənin ərəbcəsində "Siz" kəlməsi keçmir. Çünki "Siz" sözü xitabın açıq-aydın kimə ünvanlandığını ifadə edir və bu da bəzi adamları narahat edə bilər. Ona görə də İbrahim ﷺ qonaqları ilə ən gözəl şəkildə davranaraq onlara "*Bunlar* yad adamlardır"– dedi. **"Yad"** sözü o deməkdir ki, İbrahim ﷺ onları tanımırdı və onlarla ilk dəfə qarşılaşırdı.

"O, təşviş içində ailəsinin yanına getdi". İbrahim ﷺ səxavətli və qonaqpərvər idi. **"Təşviş içində"**, yəni qorxa-qorxa, dərhal ailəsinin yanına, yəni evinə getdi. **"Və kök bir buzov *qızardıb* gətirdi".** Buzov, *hələ süddən ayrılmamış* inək balasıdır. Çünki onun əti yumşaq və dadlı olur. Bu buzovun kök olması isə onun ətinin daha da dadlı və gözəl olmasını göstərir. Başqa bir ayədə[1] də "həniz" (qızardılmış) kəlməsi keçir. **"Qızardılmış"**, yəni közdə qızardılıb. Bu da ətin dadının itməməsini bildirir. Bu hal isə ətin ən ləzzətli halıdır.

"Onu onların qabağına qoyub", yəni *yeməyi* uzağa qoyub: "Yeməyə buyurun!"– demədi, əksinə, onlar heç əziyyət çəkməsinlər deyə, yeməyi onların qabağına özü qoydu. Həm də əmr kimi olmasın deyə, onlara: "Yeyin!"– demədi. Əksinə, təklif olaraq: **"Yemək yemirsinizmi?"**– dedi. Bu da onun nə qədər qonaqpərvər və səxavətli olmasından irəli gəlirdi.

Bundan sonra mələklər sınaq olaraq gözəl və yaraşıqlı cavan oğlanlar surətində Lutun ﷺ yanına getdilər. Lut peyğəmbərin qövmü ən çirkin əməl olan homoseksualizmlə məşğul idi. Yəni kişilər kişilərlə yaxınlıq edirdi. Mələklər Lutun ﷺ yanına gəldikdə, onun qövmü bir-birilərinə xəbər çatdıraraq: "Lutun yanına çox yaraşıqlı və cavan oğlanlar gəlib"– dedilər və tələsik onun yanına gəldilər. Uca Allah buyurur: **"Qövmü tələsik onun yanına gəldi. Onlar əvvəllər də yaramaz işlər görürdülər".** Yəni, onun qövmü ən çirkin əməllə – homoseksualizmlə məşğul idi.

"*Lut* dedi: "Ey qövmüm, bunlar mənim qızlarımdır (onlarla nikaha girə bilərsiniz). Onlar sizin üçün daha təmizdirlər. Allahdan qorxun və qonaqlarımın yanında məni rüsvay etməyin!"

Lut: **"Bunlar mənim qızlarımdır"**– dedikdə, öz belindən gələn doğma qızlarını deyil, qövmünün qadınlarını nəzərdə tuturdu. Çünki peyğəmbər,

[1] "Hud" surəsi, 69.

öz qövmünə nisbətdə onların ataları yerində sayılır. Sanki Lut ﷺ onlara belə demişdir: "Sizin qadınlarınız var, gedin onlarla yaxınlıq edin". Həmin məna uca Allahın bu ayəsində də keçir: **"Doğrudanmı siz insanlar içində ancaq kişilərlə yaxınlıq edir və Rəbbinizin sizin üçün yaratdığı həyat yoldaşlarınızı tərk edirsiniz?"**[1] Yəni, qadınlarınızı tərk edirsiniz: **"Siz, həqiqətən də, həddi aşan adamlarsınız".**

Bir sözlə, Lut ﷺ onlara: **"Allahdan qorxun və qonaqlarımın yanında məni rüsvay etməyin!"** – dedi.

"Bunlar mənim qızlarımdır (onlarla nikaha girə bilərsiniz). Onlar sizin üçün daha təmizdirlər". Bu ayədə keçən **"daha təmizdirlər"** sözü, bir şeyi başqa bir şeydən nisbətən üstün tutmaq qəbilindən deyildir. Çünki kişilərlə yaxınlıq etməyin heç bir üstün və təmiz tərəfi yoxdur. Əksinə, bu əməl bütövlükdə ən çirkin və murdar əməldir. Bu xüsusda uca Allah belə buyurur: **"Lutu da *yada sal!* Biz ona hökmranlıq və elm bəxş etdik, onu çirkin işlər görən bir məmləkətdən xilas etdik".**[2]

"Onlar sizin üçün daha təmizdirlər". Çünki nikah bağlamaqla qadınlar halal olurlar.

"Allahdan qorxun və qonaqlarımın yanında məni rüsvay etməyin! Məgər aranızda sizə *nəsihət edə biləcək* ağıllı bir adam yoxdur?" Amma həqiqətən də, onların arasında ağlı başında olan bir adam yox idi.

"Onlar dedilər: "Bilirsən ki, sənin qızlarına heç bir ehtiyacımız yoxdur. Nə istədiyimizi də, yəqin ki, bilirsən".[3] Yəni, sən çox yaxşı bilirsən ki, biz sənin yanına gələn bu cavan oğlanları istəyirik.

"*Lut* dedi: "Kaş ki, sizə çatan bir qüvvəm olaydı, yaxud möhkəm bir dayağa söykənəydim!" *Mələklər* dedilər: "Ey Lut, biz sənin Rəbbinin elçiləriyik. Onlar əsla sənə zərər yetirə bilməzlər".[4] Sonra mələklər Luta ﷺ, gecənin bir aləmində ailəsi ilə birlikdə o məmləkətdən çıxmağı və qalan insanları isə orada tərk etməyi tövsiyə etdilər.

Uca Allah "əl-Qəmər" surəsində bu barədə belə buyurur: **"Lut qövmü də qorxudan peyğəmbərləri yalan saydı. Biz onların üstünə *qasırğa ilə***

---

[1] "əş-Şuəra" surəsi, 165, 166.

[2] "əl-Ənbiya" surəsi, 74.

[3] "Hud" surəsi, 79.

[4] "Hud" surəsi, 80, 81.

***birgə* daşlar göndərdik. Yalnız Lutun ailəsini sübh çağı xilas etdik – Özümüzdən bir mərhəmət olaraq! Biz şükür edənləri belə mükafatlandırırıq. *Lut* onları Bizim əzabımızla hədələdi, onlar isə bu xəbərdarlıqlara şübhə ilə yanaşdılar. Onlar *Lutdan* onun qonaqlarını tələb etdilər. Biz də onların gözlərini kor etdik *və dedik*: "Əzabımı və təhdidlərimi dadın!"**[1] Deyilənə görə, mələklər onların üzlərinə şillə vurmuş, onlar da kor olmuşlar. Bir rəvayətə görə də onların gözlərini elə həmin anda uca Allah kor etmişdir. Hər bir halda, **"Qonaqlarımın yanında məni rüsvay etməyin!"** sözü, ona dəlalət edir ki, bu qonaqlar İbrahimin ﷺ möhtərəm qonaqları olduğu kimi, Lutun ﷺ da möhtərəm qonaqları idi.

Dolayısıyla, evinə qonaq gəldiyi zaman onu bir gecə və bir gündüz saxlamağın vacibdir. Lakin bəzi avamların etdikləri kimi, özünü çətin vəziyyətə salıb təmtəraqlı yığıncaq keçirmə. Hətta eşitdiyimizə görə, bəzi insanlar evlərinə qonaq gələrkən, bu qonaq üçün bir heyvan kəsmək istədikdə, qonaq ona: "Ehtiyac yoxdur, heç nə kəsmə! Əgər kəsmiş olsan, həyat yoldaşımı boşamaq mənə vacib olsun"– deyir. O birisi də ona: "Əgər kəsməsəm, həyat yoldaşımı boşamaq mənə vacib olsun"– deyir. Halbuki, bu cür demək böyük bir xəta olmaqla yanaşı, həm də çirkin bir əməldir. And içməyə nə gərək var ki – ya kəs, ya da ki, kəsmə. Hətta and içmək məcburiyyətində qalsan belə, yenə də həyat yoldaşını boşayacağına dair and içməyinə lüzum yoxdur. Çünki boşamağa dair and içmək elə də bəsit bir məsələ deyildir. Dörd məzhəb alimlərinə, yəni Malik, Əbu Hənifə, Şafii və Əhmədə, habelə onların davamçılarına görə, hər kim həyat yoldaşını boşayacağına dair and içər və sonra da həmin andını pozarsa, bu, boşanma sayılır. Bu rəy cumhur alimlərinin və onların bu ümmətdən olan bütün ardıcıllarının rəyidir. Demək, bu məsələ çox təhlükəli bir məsələdir. Günümüzdə insanların bu məsələyə səhlənkar yanaşmaları böyük bir xətadır.

Elə insanlar var ki, bir şey olan kimi, dərhal: "Vallahi, filan şeyi etsəm, həyat yoldaşımı boşamaq mənə vacib olsun!" və ya "Vallahi, filan şeyi etməsəm, həyat yoldaşımı boşamaq mənə vacib olsun"– deyir. Halbuki, bu, böyük bir xətadır. Sən belə bir sözü necə dilinə gətirə bilərsən? Axı alimlərin əksəriyyətinin rəyinə görə, sən bu andını pozsan, həyat yoldaşın

[1] "əl-Qəmər" surəsi, 33-37.

boşanmış sayılır. Ona görə də insan gərək bu məsələyə səhlənkar yanaşmasın və həyat yoldaşını boşayacağına dair and içməsin. And içməyə ehtiyac duyduğu zaman, sadəcə Allaha and içsin. Əks halda isə and içməsin. Müvəffəq edən Allahdır.

Mövzu ilə əlaqəli hədislər:

٧٠٦ – وَعَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: « مَنْ كَانَ يُؤمِنُ بِاللَّهِ وَاليَوْمِ الآخِرِ فَلْيُكرِمْ ضَيْفَهُ، وَمَنْ كَانَ يُؤمِنُ بِاللَّهِ وَاليَوْمِ الآخِرِ فَلْيَصِلْ رَحِمَهُ، وَمَنْ كَانَ يُؤمِنُ بِاللَّهِ وَاليَوْمِ الآخِرِ فَلْيَقُلْ خَيْراً أَوْ لِيَصْمُتْ » متفقٌ عليه.

706. Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Kim Allaha və Axirət gününə iman gətirirsə, qonağına yaxşı baxsın. Kim Allaha və Axirət gününə iman gətirirsə, qohumları ilə əlaqə saxlasın. Kim Allaha və Axirət gününə iman gətirirsə, ya xeyir danışsın, ya da sussun".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٠٧ – وَعَنْ أَبِي شُرَيْحٍ خُوَيْلِدِ بْنِ عَمْرٍو الخُزَاعِيِّ ﷺ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « مَنْ كَانَ يُؤمِنُ بِاللَّهِ وَاليَوْمِ الآخِرِ فَلْيُكْرِمْ ضَيْفَهُ جَائِزَتَهُ » قَالُوا: وَمَا جَائِزَتُهُ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: « يَوْمُهُ وَلَيْلَتُهُ. وَالضِّيَافَةُ ثَلَاثَةُ أَيَّامٍ، فَمَا كَانَ وَرَاءَ ذَلِكَ فَهُوَ صَدَقَةٌ عَلَيْهِ» متفقٌ عليه.

وفي روايةٍ لمسلم: « لَا يحِلُّ لِمُسْلِمٍ أَنْ يُقِيمَ عِنْدَ أَخِيْهِ حَتَّى يُؤْثِمَهُ » قَالُوا: يَا رَسُولَ اللَّهِ، وَكَيْفَ يُؤْثِمُهُ؟ قَالَ: « يُقِيمُ عِنْدَهُ وَلَا شَيْءَ لَهُ يَقْرِيهِ بِهِ ».

707. Rəvayət edilir ki, Əbu Şureyh Xuveylid ibn Amr əl-Xuzai ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Kim Allaha və Axirət gününə iman gətirirsə, qonağının bəxşişini versin".** *Səhabələr* soruşdular: "Ya Rəsulullah, qonağın bəxşişi nədir?" O buyurdu: **"Bir gecə və bir gündüz. Qonaq saxlamağın müddəti üç gündür. Sonrakı günlər isə sədəqədir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih əl-Buxari", 6138; "Səhih Muslim", 47.

[2] "Səhih əl-Buxari", 6135; "Səhih Muslim", 48.

Muslimin rəvayətində isə belə deyilir: **"Heç bir müsəlmana, öz müsəlman qardaşının yanında ona günah qazandıracaq qədər qalması halal sayılmaz".** *Səhabələr* soruşdular: "Ya Rəsulullah, ona necə günah qazandıra bilər ki?" O dedi: **"*Ev sahibinin qonağa* verəcəyi bir şeyi olmadığı halda, onun yanında qalaraq".**

Şərh:

Müəllif ﵀ **"Qonağa ehtiram göstərmək"** fəslinə aid Allahın kitabından bir neçə ayə zikr etdikdən sonra, bu mövzu ilə bağlı hədislər də zikr etmişdir. Bu hədislərin birində Əbu Hureyra ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Kim Allaha və Axirət gününə iman gətirirsə, qonağına yaxşı baxsın".** Bu, qonağa ehtiram göstərməyə təşviq edən bir ifadədir. Yəni, qonağa ehtiram göstərmək, Allaha və axirət gününə olan imanın əlamətindəndir. Bu əməl Allaha və axirət gününə olan imanı tamamlayan ünsürlərdəndir.

Çünki kim qonağına ehtiram göstərərsə, buna görə uca Allah ona Qiyamət günü mükafat verəcəkdir. Bəlkə də, Qiyamət günü mükafat verməklə yanaşı, bu dünyada da verəcəkdir. Necə ki uca Allah belə buyurur: **"Biz axirət savabını istəyənin savabını artırarıq".**[1] Uca Allah bu dünyada ona *qonağı üçün* xərclədiyinin yerinə başqasını verər, axirətdə isə *onun yerinə* mükafat verər. Ona görə də Peyğəmbər ﷺ: **"Kim Allaha və Axirət gününə iman gətirirsə, qonağına yaxşı baxsın"**– deyə buyurmuşdur.

Qonağa ehtiram göstərmək, onun vəziyyətindən asılı olaraq dəyişir. Əgər qonaq adlı-sanlı və əsilzadə bir adamdırsa, bu zaman ona, layiq olduğu bir şəkildə ehtiram göstərilir. Əgər qonaq sıradan olan sadə bir adamdırsa, onda ona da layiq olduğu tərzdə ehtiram göstərilir.

Bir sözlə, Peyğəmbər ﷺ bu hədisdə "ehtiram göstərmək" sözünü mütləq olaraq demişdir. Bu da, hər növ ehtiramı özündə şamil edir. Məsələn, elə insanlar var ki, qonaq gedərkən qarşısına, üzərində bir-iki toyuq olan plov qoysan, bunu bəyənməz. Bu adam istəyir ki, onun qarşısına üzərində bütöv bir qoyun olan plov gətirəsən. Üstəlik, bu ziyafətdə sənin qonum-qonşularının iştirak etməsini də istəyər və bu hərəkəti özü üçün qonağa ehtiram kimi qəbul edər. Bəzi insanlar isə bundan daha azı ilə razı olur.

[1] "əş-Şura" surəsi, 20.

Dolayısıyla, Peyğəmbər ﷺ qonağa ehtiram göstərməyi istənilən bir şeylə xüsusiləşdirməmiş, əksinə, onu mütləq olaraq qeyd etmişdir. Bu da o deməkdir ki, qonağa ehtiram göstərmək insanların ürfünə görə təyin olunur.

"Kim Allaha və Axirət gününə iman gətirirsə, qohumları ilə əlaqə saxlasın". Digər rəvayətdə isə: **"qonşusuna ehtiram göstərsin"**– deyilir. Hədisin ərəbcəsində keçən "rəhm" kəlməsi qohumlar deməkdir. Qohum sənə nə qədər yaxın olarsa, haqqı da bir o qədər böyük olar. Adamın öz qohumları ilə əlaqə saxlaması ona vacibdir. Bu hədisdə Peyğəmbər ﷺ qohumla hansı şəkildə əlaqə saxlamağı bəyan etməmişdir. Demək, bu məsələ də yenə ürfə görə olur. Yəni, elə qohumlar var ki, onları ziyarət etməklə, mütəmadi olaraq onlara gedib-gəlməklə onlarla əlaqə saxlayırsan. Lakin elə qohumlar da var ki, pula ehtiyacları olduğu üçün, onlara pul yardımı etməklə onlarla əlaqə saxlayırsan. Bəzi qohumlarla da, onlara ərzaq, pal-paltar verməklə əlaqə saxlayırsan. Demək, hər bir qohumla, onun durumuna uyğun bir şəkildə əlaqə saxlayırsan. Əsas odur ki, qohumlara elə bir şəkildə ehtiram göstərəsən ki, onlar bunu ehtiram kimi qəbul etsinlər. Məsələn, qohumun varlı və səxavətlidirsə, bu zaman sənin ona bir qab yemək göndərməyin məqsədəuyğun deyildir. Əksinə, onu ziyarət etməyin, oturub onunla gözəl söhbətlər etməyin və sairə bu kimi vasitələrlə əlaqə saxlamağın daha məqsədəuyğun olar. Yox, əgər qohumun kasıbdırsa, o zaman ona bir qab yemək göndərməyin onun üçün digər şeylərdən daha sevimli olar. Qohumunun pula ehtiyacı olduqda isə, sənin ona pul verməyin daha üstün olardı. Demək, hər bir insana, onun durumuna uyğun şəkildə ehtiram göstərilir.

"Kim Allaha və Axirət gününə iman gətirirsə, ya xeyir danışsın, ya da sussun". Kaş ki, bütün həyatımızı bu əxlaqın üzərində qurardıq: **"Kim Allaha və Axirət gününə iman gətirirsə, ya xeyir danışsın, ya da sussun".** Bəzən, danışılan sözün özü xeyirli söz olur, bəzən də bu sözün arxasında duran məqsəd xeyirli olur. Məsələn, yaxşı işləri əmr edib pis işləri qadağan etməyi, habelə dini əhkamlarla bağlı məsələləri öyrətməyi buna misal göstərmək olar. Burada, danışılan sözün özü xeyirli sözdür.

Sözün özünün deyil, onu deməkdə güdülən məqsədin xeyirli olmasına gəlincə, həmsöhbətinə təsəlli vermək və onun qəlbini açmaq məqsədilə ona söylədiyin sözləri buna misal gətirmək olar. Bu cür danışıq da xeyirli danışmaq sayılır. Hərçənd, bu danışığın özü insanı Allaha yaxınlaşdıran

sözlərdən ibarət olmasa da, bununla belə həmin sözlər günah sözlər də deyildir. Belə ki, sən bu sözlər sayəsində həmsöhbətinin qəlbini açır, onun ürəyinə sevinc bəxş edir və ona təsəlli verirsən. Elə bunun özü də xeyirli bir şeydir.

Buradan da bəlli olur ki, xeyirli sözlər söyləməyən insanın Allaha və axirət gününə olan imanı naqisdir. Elə isə, görəsən pis sözlər söyləyən insanın halı necədir? İnsanların qeybətini etməklə onların ətlərini yeyənlərin, insanlar arasında söz gəzdirənlərin, yalan danışanların və kələkbazların halı necədir? Alimlərə ləkə yaxan, onları təhqir edib camaatı onlara qarşı qaldıranların halı necədir? Halbuki, həmin alimlər dorğu yoldadırlar və onların ittihamlarından çox-çox uzaqdırlar. Həqiqətən, alimlərə dil uzatmağın günahı daha böyükdür. Çünki alimlər haqqında danışmaq, hər hansı bir sıravi insan haqqında danışmaq kimi deyildir. Sıravi bir insan haqqında danışmaq, bəlkə də haqqında danışılan adamın sadəcə özünü ləkələyir. Lakin alimlər haqqında danışmaq həm onları, həm də daşıdıqları şəriət elmini ləkələyir. Çünki alimlər haqqında yersiz söz-zöhbətlər artarsa, insanlar onlara güvənməyəcəklər. Ona görə də söz-söhbətin çoxaldığı və insanların bir məsələ barəsində artıq-əskik danışdıqları zaman, adam dilini tutub saxlamalıdır. Hətta ondan *həmin məsələlər barəsində* bir şey soruşsalar belə, heç bir şey danışmamalı və "Allah bizə hidayət versin! Allah hamını doğru yola yönəltsin! Allah bu məsələnin axırını xeyirli etsin!" kimi sözlər deməlidir.

Demək, heç bir əsası olmayan məsələlər barəsində ağıza gələn artıq-əskik sözlər danışmaq, Allaha və axirət gününə imanın olmamasından irəli gəlir. Bu şeyə görə insan təkfir olunmur, lakin imanı naqis sayılır. Çünki Peyğəmbər ﷺ: **"Kim Allaha və Axirət gününə iman gətirirsə, ya xeyir danışsın, ya da sussun"**– demişdir. Buna oxşar deyimlər də vardır: "Danışmaq gümüşdürsə, susmaq qızıldır"; "Susmaq hikmətdir, lakin onu həyata keçirən azdır"; "Kim susarsa, nicat tapar, kim də danışarsa, özünü təhlükəyə atar".

Bir sözlə, susmağa üstünlük ver. Yox, əgər görsən ki, danışmaq xeyirli və məsləhətdir, onda yalnız o zaman danış. Müvəffəq edən Allahdır.

Doxsan beşinci fəsil

Xeyirli işlərlə müjdə verməyin və bundan dolayı təbrik etməyin müstəhəb olması

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah belə buyurur:

﴿فَبَشِّرۡ عِبَادِ * ٱلَّذِينَ يَسۡتَمِعُونَ ٱلۡقَوۡلَ فَيَتَّبِعُونَ أَحۡسَنَهُۥٓ﴾

"Qullarımı müjdələ! O kəslər ki, sözə qulaq asıb onun ən yaxşısına tabe olurlar".[1]

﴿يُبَشِّرُهُمۡ رَبُّهُم بِرَحۡمَةٖ مِّنۡهُ وَرِضۡوَٰنٖ وَجَنَّٰتٖ لَّهُمۡ فِيهَا نَعِيمٞ مُّقِيمٞ﴾

"Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan cənnətlərlə müjdələyir".[2]

﴿وَأَبۡشِرُواْ بِٱلۡجَنَّةِ ٱلَّتِي كُنتُمۡ تُوعَدُونَ﴾

"Sizə vəd olunan Cənnətlə sevinin!"[3]

﴿فَبَشَّرۡنَٰهُ بِغُلَٰمٍ حَلِيمٖ﴾

"Biz də onu həlim xasiyyətli bir oğlan uşağı ilə müjdələdik".[4]

﴿وَلَقَدۡ جَآءَتۡ رُسُلُنَآ إِبۡرَٰهِيمَ بِٱلۡبُشۡرَىٰ﴾

"Elçilərimiz İbrahimə *İshaqın doğulacağı barədə* müjdə gətirdilər".[5]

﴿وَٱمۡرَأَتُهُۥ قَآئِمَةٞ فَضَحِكَتۡ فَبَشَّرۡنَٰهَا بِإِسۡحَٰقَ وَمِن وَرَآءِ إِسۡحَٰقَ يَعۡقُوبَ﴾

---

[1] "əz-Zumər" surəsi, 17-18.

[2] "ət-Tovbə" surəsi, 21.

[3] "Fussilət" surəsi, 30.

[4] "əs-Saffat" surəsi, 101.

[5] "Hud" surəsi, 69.

"Onun arvadı *pərdə arxasında* durmuşdu. *Sara* güldü. Biz onu İshaqla, *İshaqın* ardınca da Yəqubla müjdələdik".[1]

﴿ فَنَادَتْهُ ٱلْمَلَٰٓئِكَةُ وَهُوَ قَآئِمٌ يُصَلِّي فِي ٱلْمِحْرَابِ أَنَّ ٱللَّهَ يُبَشِّرُكَ بِيَحْيَىٰ ﴾

"*Zəkəriyya* mehrabda durub namaz qılarkən mələklər ona belə xitab etdilər: "Allah səni Yəhya ilə müjdələyir".[2]

﴿ إِذْ قَالَتِ ٱلْمَلَٰٓئِكَةُ يَٰمَرْيَمُ إِنَّ ٱللَّهَ يُبَشِّرُكِ بِكَلِمَةٍ مِّنْهُ ٱسْمُهُ ٱلْمَسِيحُ عِيسَى ٱبْنُ مَرْيَمَ ﴾

"O zaman mələklər demişdilər: "Ey Məryəm, həqiqətən, Allah Öz tərəfindən bir kəlmə ilə səni müjdələyir. Onun adı Məryəm oğlu İsa Məsihdir".[3]

Bu fəslə aid çoxlu sayda bəlli ayələr vardır.

Şərh:

Müəllif ﷺ, "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Xeyirli işlərlə müjdə verməyin və bundan dolayı təbrik etməyin müstəhəb olması"** adını vermişdir.

Müjdə, insana sevinc bəxş edən sözlərdir. Ərəb dilində "buşra" (müjdə) sözü "bəşəratun" (dəri) sözü ilə eyni kökdən əmələ gəlmişdir. "Müjdə" kəlməsinin "dəri" kəlməsi ilə eyni kökdən əmələ gəlməsinin səbəbi odur ki, insana xoş bir müjdə verildiyi zaman bu müjdənin əlamətləri onun dərisində, yəni üz-gözündəki cizgilərdə hiss olunur. Lakin bəzən insana xoşagəlməyən, pis bir şeylə də müjdə verilə bilər. Məsələn, uca Allah belə buyurur: **"Elə isə, onları ağrılı-acılı bir əzabla müjdələ".**[4]

Sevindirici müjdələr axirətlə bağlı məsələlərdə olduğu kimi, dünya ilə bağlı məsələlərdə də olur. Fəqət, axirətlə bağlı sevindirici müjdələr daha çoxdur. Uca Allah Qurani-Kərimin bir çox yerlərində bu müjdələri zikr etmişdir. Məsələn, uca Allah buyurur:

---

[1] "Hud" surəsi, 71.

[2] "Ali-İmran" surəsi, 39.

[3] "Ali-İmran" surəsi, 45.

[4] "əl-İnşiqaq" surəsi, 24.

"İman gətirib saleh əməllər edənlərə müjdə ver ki, onlar üçün *ağacları və qəsrləri* altından çaylar axan cənnətlər vardır".[1]**;**

"Dünya həyatında da, axirətdə də onlara müjdə vardır".[2]**;**

"Rəbbi Öz tərəfindən onları bir mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan cənnətlərlə müjdələyir. Onlar orada əbədi qalacaqlar. Şübhəsiz ki, ən böyük mükafat Allah yanındadır".[3]**;**

"Sevdiyiniz başqa şey də vardır: Allah tərəfindən kömək və yaxın qələbə. Möminləri *bununla* müjdələ".[4]

Bu müjdələrin hamısı Axirətlə bağlıdır.

Axirətlə bağlı xeyirli müjdələr verən əlamətlərdən biri də gözəl yuxulardır. Adam ya özü barəsində gözəl yuxu görür, ya da ki, başqa birisi onun barəsində gözəl yuxu görür. Məsələn, bir insanın yuxusunda ona: "Filankəsə Cənnət əhlindən olması barədə müjdə ver!"– deyilir. Bu cür yuxu *həmin adam üçün* müjdə sayılır.

Eləcə də bir adam yuxuda özünün xeyirli və saleh əməllərə boyun əydiyini, bu əməlləri sevdiyini, onlara rəğbət bəslədiyini və şər əməllərə nifrət etdiyini görərsə, bu da həmçinin, onun üçün bir müjdədir. Çünki uca Allah belə buyurur: **"Kim *haqqını* verir və *Allahdan* qorxursa, və ən gözəl olan *"la ilahə illəllah" kəlməsini* təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik".**[5]

Dünya həyatı ilə bağlı müjdələrə gəlincə, buna uca Allahın İbrahim عليه السلام barəsində buyurduğu bu ayəni misal gətirmək olar: **"*Mələklər*: "Qorxma, biz, həqiqətən, səni bilikli bir oğulla müjdələyirik!"– dedilər".**[6] Başqa bir ayədə də uca Allah belə buyurur: **"Biz də onu həlim xasiyyətli bir oğlan uşağı ilə müjdələdik".**[7]

---

[1] "əl-Bəqərə" surəsi, 25.
[2] "Yunus" surəsi, 64.
[3] "ət-Tovbə" surəsi, 21-22.
[4] "əs-Saff" surəsi, 13.
[5] "əl-Leyl" surəsi, 5-7.
[6] "əl-Hicr" surəsi, 53.
[7] "əs-Saffat" surəsi, 101.

Birinci ayədə verilən müjdə ilə, ikinci ayədə verilən müjdə eyni deyildir. Birinci ayədə: **"Səni bilikli bir oğulla müjdələyirik!"**– deyildikdə İshaq ﷺ, ikinci ayədə: **"Onu həlim xasiyyətli bir oğlan uşağı ilə müjdələdik"**– deyildikdə isə İsmail ﷺ qəsd edilir.

İshaq ﷺ, İsrail oğullarının atasıdır. Çünki onun oğlu Yəqubdur ﷺ. Yəqub ﷺ da elə İsraildir. Musa və İsa ﷺ onun soyundandır. Qurani-Kərimdə zikr edilən peyğəmbərlərin əksəriyyəti də İsrailin, yəni Yəqubun zürriyyətindəndir.

"əs-Saffat" surəsində keçən **"Onu həlim xasiyyətli bir oğlan uşağı ilə müjdələdik"** ayəsində qəsd olunan isə ərəblərin atası sayılan İsmaildir ﷺ. Onun soyundan yalnız bir peyğəmbər gəlmiş, lakin bu peyğəmbərlə bütün peyğəmbərliyə möhür vurulmuş və o özündən sonra Qiyamətə qədər gələcək bütün insanlara göndərilmişdir. Digər peyğəmbərlər isə sadəcə öz qövmləri üçün göndərilmişlər. İsmailin ﷺ zürriyyətindən gələn bu peyğəmbər, Muhəmməddir ﷺ.

Uca Allah İbrahimin həyat yoldaşı haqqında da belə buyurmuşdur: **"Onun arvadı *pərdə arxasında* durmuşdu. *Sara* güldü. Biz onu İshaqla, *İshaqın* ardınca da Yəqubla müjdələdik".**[1] Bu da qadına verilən müjdə idi.

Bir sözlə, müjdə həm Axirətlə bağlı məsələlərdə, həm də dünya ilə bağlı məsələlərdə olur. Odur ki, insan hər zaman nikbin olmalı və məsələlərə xeyir prizmasından baxmalıdır. Dünyaya zülmət qaranlıq kimi baxıb taqətdən düşməməli və ümidini üzməməlidir.

Həmçinin, insan bir işdə müvəffəqiyyətə nail olarsa, o, buna görə təbrik edilməlidir. Əgər bu müvəffəqiyyət gələcəkdə baş tutacaqsa, onda buna görə müjdələnməlidir. Yəni, müvəffəqiyyət artıq baş veribsə, bu müvəffəqiyyətə görə həmin adam təbrik edilməli, yox, əgər gələcəkdə baş verəcəksə, onda buna görə müjdələnməlidir. Elə isə, *daim* qardaşına müjdə ver və onun qəlbinə sevinc bəxş et. Hətta sıxıntı içində olan, geniş dünyası ona dar gələn və işləri çətinliyə düşən insanı gördüyündə, onu da sıxıntıların tezliklə aradan qalxacağı ilə müjdələ. Çünki Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Bil ki, səbrin ardından qələbə, kədərin ardından sevinc,**

[1] "Hud" surəsi, 71.

çətinliyin ardından da asanlıq gəlir".[1] Bu, Rəsulullahın ﷺ sözüdür. O isə bu sözləri öz istəyi ilə danışmır.

Demək, qardaşının kədərli olduğunu görsən, ona: "Sevin, qurtuluş və sevinc yaxındadır!"– de. Onun çətin bir vəziyyətdə olduğunu gördükdə də: "Sevin, asanlıq yaxındadır!"– de. Çünki İbn Abbas رضي الله عنهما bu xüsusda belə demişdir: "Bir çətinlik iki asanlığa qalib gələ bilməz!" Çünki "əş-Şərh" surəsində uca Allah belə buyurur: **"Sözsüz ki, hər çətinliyin ardınca asanlıq gəlir. Əlbəttə ki, hər çətinliyin ardınca asanlıq gəlir".** Bu ayələrdə çətinlik də, asanlıq da *zahirən* iki dəfə zikr edilmişdir. Lakin həqiqətdə çətinlik sadəcə bir dəfə, asanlıq isə iki dəfədir. Bilirsiniz nə üçün? Alimlər bunu belə izah etmişlər: "Əgər bir kəlmə, müəyyənlik bildirən "الـ" söz önlüyü ilə iki dəfə təkrar gələrsə, bu, bir *eyni kəlmə* sayılır. Yox, əgər "الـ" söz önlüyü olmadan qeyri-müəyyən formada iki dəfə təkrar gələrsə, onda bu, iki *fərqli kəlmə* sayılır".

Bu ayələrdə çətinlik sözü iki dəfə zikr olunur, lakin hər ikisi də "الـ" söz önlüyü ilə gəlir. Bu da o deməkdir ki, ikinci çətinlik elə *həmin* birinci çətinlikdir. Asanlıq kəlməsi isə, "الـ" söz önlüyü olmadan, qeyri-müəyyən formada iki dəfə təkrar zikr olunur. Bu da o deməkdir ki, ikinci asanlıq *həmin* birinci asanlıq deyildir. Elə bu səbəbdən də İbn Abbas رضي الله عنهما: "Bir çətinlik iki asanlığa qalib gələ bilməz!"– demişdir. Elə isə, kədər içində olan qardaşının qəlbinə sevinc bəxş edərək, ona: "Sən qurtuluşu gözlə və bil ki, çətinlik nə qədər ağır olsa da, qurtuluşu gözləməlisən!"– de.

Deyilənə görə, bir nəfər Həccac ibn Yusuf əs-Səqafinin yanında söhbət zamanı Həccaca elə bir söz deyir ki, bu söz onun xoşuna gəlmir. Bilindiyi kimi, Həccac tarixə çox zalım və çoxlu günahları olan bir insan kimi düşmüşdür. Ancaq o, həm də ərəb dilini çox gözəl bilirdi. Qurani-Kərimi ilk dəfə hərəkələrlə yazdıran da elə o olmuşdur. Bu əməl onun yaxşı əməllərindən sayılır. Xülasə, Həccac həmin adama belə deyir: "Bu söz ərəb dilindən deyil. Ərəb dilində "fu'lə" vəzni yoxdur". Həmin adam da Həccaca: "Mən bədəvi ərəblərdən belə eşitmişəm"– deyir. Belə ki, o vaxtlar ərəb dilini bədəvi ərəblərdən götürürdülər. Çünki *danışıq dilinin təmizliyi baxımından* səhrada yaşayan bədəvi ərəblərlə şəhərdə yaşayan

[1] "Musnəd İmam Əhməd", 1/307; Təbərani, "əl-Mocəm əl-Kəbir", 11243; "Silsilə əl-Əhadis əs-Səhihə", 2382.

ərəblər eyni deyildi. Şəhərdə yaşayan ərəblərin dillərinə fars və rum sözləri qarışmış və dilləri *müəyyən qədər* dəyişmişdi. Bədəvilərin dili isə olduğu kimi qalmışdı. Ona görə də Həccac həmin adama deyir ki: "Bədəvi ərəblərin yanına get və "fu'lə" vəzninin ərəb dilindən olmasına dair onların danışığından mənə bir şahid gətir. Filan və filan vaxta qədər də sənə möhlət verirəm. Əgər bir şahid gətirə bilməsən, boynunu vuracam". Adam, Həccacın onun boynunu vuracağından qorxaraq, qəmgin halda yola düzəlir və söylədiyi sözə dair bədəvi ərəblərin sözlərindən şahid axtarmağa başlayır. Bu əsnada həmin adam bədəvi bir ərəbin belə şeir dediyini eşidir:

Bəzən nəfslər elə bir sıxıntıya düşər ki,
Bu sıxıntının furcəsi düyünü açmaq kimidir.

Bu şeir parçasındakı "furcə" (qurtuluş) kəlməsi "fu'lə" vəznindəndir. Odur ki, həmin adam bu şeiri eşidən kimi çox sevinir və *onu əzbərləyib* geri, Həccacın yanına qayıdır. Lakin yolda ona xəbər verirlər ki, Həccac artıq vəfat etmişdir. Bu xəbəri də eşidəndə adam belə deyir: "Allaha and olsun ki, hansına daha çox sevindiyimi bilmirəm – bədəvidən eşitdiyim şeir parçasınamı, yoxsa Həccacın ölümünəmi?"

Bir sözlə, insan öz qardaşlarının qəlbinə sevinc bəxş etməli və onları müjdələməlidir ki, onlar da bundan fərəh duysunlar, fəal olsunlar, ümidlə yaşasınlar və qurtuluşu gözləsinlər. Allahdan istəyim budur ki, həm bizi, həm də sizi dünya həyatında da, axirətdə də müjdə veriləcək insanlardan etsin.

Mövzu ilə əlaqəli hədislər:

٧٠٨ – عَنْ أَبِي إِبْرَاهِيمَ – وَيُقَالُ أَبُو مُحَمَّد، وَيُقَالُ أَبُو مُعَاوِيةَ – عَبْدِ اللَّهِ بْنِ أَبِي أَوْفَي رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ ﷺ بَشَّرَ خَدِيجَةَ رضي الله عنها بِبَيْتٍ فِي الجَنَّةِ مِنْ قَصَبٍ، لَاصَخَبَ فِيْهِ وَلَا نَصَبَ. متفقٌ عليه.

« الْقَصَبُ » هُنا: اللُّؤْلُؤ المُجَوَّفُ. « والصَّخَبُ » الصِّيَاحُ واللَّغَطُ. «وَالنَّصَبُ »: التَّعَبُ.

708. Əbu İbrahim [Əbu Muhəmməd və ya Əbu Müaviyə kimi də tanınır] Abdullah ibn Əbu Əufə رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ Xədicəni رضي الله عنها Cənnətdə, içində nə səs-küy, nə də yorğunluq olan, içiboş mirvaridən *hazırlanmış* bir ev ilə müjdələdi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٠٩ – وَعَنْ أَبِي مُوسَى الأَشْعَرِيِّ ﷺ أَنَّهُ تَوَضَّأَ فِي بَيْتِهِ، ثُمَّ خَرَجَ فَقَالَ: لَأُلْزَمَنَّ رَسُولَ اللَّهِ ﷺ، وَلَأَكُونَنَّ مَعَهُ يَوْمِي هَذَا، فَجَاءَ الْمَسْجِدَ، فَسَأَلَ عَنِ النَّبِيِّ ﷺ فَقَالُوا: وَجَّهَ هَاهُنَا، قَالَ: فَخَرَجْتُ عَلَى أَثَرِهِ أَسْأَلُ عَنْهُ، حَتَّى دَخَلَ بِئْرَ أَرِيسٍ، فَجَلَسْتُ عِنْدَ الْبَابِ حَتَّى قَضَى رَسُولُ اللَّهِ ﷺ حَاجَتَهُ وَتَوَضَّأَ، فَقُمْتُ إِلَيْهِ، فَإِذَا هُوَ قَدْ جَلَسَ عَلَى بِئْرِ أَرِيسٍ، وَتَوَسَّطَ قُفَّهَا، وَكَشَفَ عَنْ سَاقَيْهِ وَدَلَّاهُمَا فِي الْبِئْرِ، فَسَلَّمْتُ عَلَيْهِ ثُمَّ انْصَرَفْتُ، فَجَلَسْتُ عِنْدَ الْبَابِ فَقُلْتُ: لَأَكُونَنَّ بَوَّابَ رَسُولِ اللَّهِ ﷺ الْيَوْمَ. فَجَاءَ أَبُو بَكْرٍ ﷺ فَدَفَعَ الْبَابَ فَقُلْتُ: مَنْ هَذَا؟ فَقَالَ: أَبُو بَكْرٍ، فَقُلْتُ: عَلَى رِسْلِكَ، ثُمَّ ذَهَبْتُ فَقُلْتُ: يَا رَسُولَ اللَّهِ، هَذَا أَبُو بَكْرٍ يَسْتَأْذِنُ، فَقَالَ: « ائْذَنْ لَهُ وَبَشِّرْهُ بِالْجَنَّةِ »، فَأَقْبَلْتُ حَتَّى قُلْتُ لِأَبِي بَكْرٍ: ادْخُلْ وَرَسُولُ اللَّهِ يُبَشِّرُكَ بِالْجَنَّةِ، فَدَخَلَ أَبُو بَكْرٍ حَتَّى جَلَسَ عَنْ يَمِينِ النَّبِيِّ ﷺ مَعَهُ فِي الْقُفِّ، وَدَلَّى رِجْلَيْهِ فِي الْبِئْرِ كَمَا صَنَعَ رَسُولُ اللَّهِ ﷺ، وَكَشَفَ عَنْ سَاقَيْهِ، ثُمَّ رَجَعْتُ وَجَلَسْتُ، وَقَدْ تَرَكْتُ أَخِي يَتَوَضَّأُ وَيَلْحَقُنِي، فَقُلْتُ: إِنْ يُرِدِ اللَّهُ بِفُلَانٍ – يُرِيدُ أَخَاهُ – خَيْرًا يَأْتِ بِهِ. فَإِذَا إِنْسَانٌ يُحَرِّكُ الْبَابَ، فَقُلْتُ: مَنْ هَذَا؟ فَقَالَ: عُمَرُ بْنُ الْخَطَّابِ: فَقُلْتُ: عَلَى رِسْلِكَ، ثُمَّ جِئْتُ إِلَى رَسُولِ اللَّهِ ﷺ، فَسَلَّمْتُ عَلَيْهِ وَقُلْتُ: هَذَا عُمَرُ يَسْتَأْذِنُ؟ فَقَالَ: « ائْذَنْ لَهُ وَبَشِّرْهُ بِالْجَنَّةِ »، فَجِئْتُ عُمَرَ، فَقُلْتُ: أَذِنَ، أُدْخُلْ، وَيُبَشِّرُكَ رَسُولُ اللَّهِ ﷺ بِالْجَنَّةِ، فَدَخَلَ فَجَلَسَ مَعَ رَسُولِ اللَّهِ ﷺ فِي الْقُفِّ عَنْ يَسَارِهِ وَدَلَّى رِجْلَيْهِ فِي الْبِئْرِ، ثُمَّ رَجَعْتُ فَجَلَسْتُ فَقُلْتُ: إِنْ يُرِدِ اللَّهُ بِفُلَانٍ خَيْرًا – يَعْنِي أَخَاهُ – يَأْتِ بِهِ. فَجَاءَ إِنْسَانٌ فَحَرَّكَ الْبَابَ، فَقُلْتُ: مَنْ هَذَا؟ فَقَالَ: عُثْمَانُ بْنُ عَفَّانَ. فَقُلْتُ: عَلَى رِسْلِكَ، وَجِئْتُ النَّبِيَّ ﷺ، فَأَخْبَرْتُهُ فَقَالَ: « ائْذَنْ لَهُ وَبَشِّرْهُ بِالْجَنَّةِ مَعَ بَلْوَى تُصِيبُهُ » فَجِئْتُ فَقُلْتُ: ادْخُلْ وَيُبَشِّرُكَ رَسُولُ اللَّهِ ﷺ بِالْجَنَّةِ مَعَ بَلْوَى تُصِيبُكَ، فَدَخَلَ فَوَجَدَ الْقُفَّ قَدْ مُلِئَ، فَجَلَسَ وُجَاهَهُمْ مِنَ الشِّقِّ الآخِرِ. قَالَ سَعِيدُ بْنُ الْمُسَيَّبِ: فَأَوَّلْتُهَا قُبُورَهُمْ. متفقٌ عليه.

وزاد في روايةٍ: « وَأَمَرَنِي رَسُولُ اللَّهِ ﷺ بِحِفْظِ الْبَابِ. وَفِيهَا: أَنَّ عُثْمَانَ حِينَ بَشَّرَهُ حَمِدَ اللَّهَ تَعَالَى، ثُمَّ قَالَ: اللَّهُ الْمُسْتَعَانُ.

[1] “Səhih əl-Buxari”, 3819; “Səhih Muslim”, 2433.

قوله: « وجَّهَ » بفتحِ الواوِ وتشديدِ الجيمِ، أَيْ: توجَّهَ. وقوله: « بِئْر أريسٍ »: هو بفتحِ الهمزةِ وكسرِ الراءِ، وبعْدَها ياء مثَناةٌ مِن تحت ساكِنَةٌ، ثُمَّ سِينٌ مهملةٌ، وهو مصروفٌ، ومنهمْ منْ منَع صرْفَهُ. « والقُفُّ » بضم القاف وتشديدِ الفاء: هُوَ المبْنيُّ حوْلَ البِئْرِ. قوله: «عَلى رِسْلِك» بكسر الراءِ على المشهور، وقيل بفتحها، أَيْ: ارْفُقْ.

709. Rəvayət edilir ki, Əbu Musa əl-Əşari رضي الله عنه demişdir: "*Bir dəfə* mən dəstəmaz alıb evdən çıxdım və *öz-özümə* dedim: "Bu günümü Peyğəmbərlə ﷺ bərabər keçirəcəyəm və ondan heç ayrılmayacağam".

Sonra Əbu Musa məscidə gəlib Peyğəmbəri ﷺ soruşdu. *Oradakılar ona* dedilər: "Bu tərəfə doğru getdi".

Əbu Musa dedi: "Mən soruşa-soruşa onun dalınca getdim. O ﷺ Əris quyusu olan bağçaya girdi, mən də gəlib qapının yanında oturdum. Peyğəmbər ﷺ burada təbii ehtiyacını rəf etdikdən sonra dəstəmaz aldı. Bundan sonra mən onun yanına getdim və gördüm ki, o, quyunun başında oturub, ayaqlarını da baldıra qədər açaraq quyuya sallayıb. Mən ona salam verdim, sonra da gedib qapının yanında oturdum və *öz-özümə* dedim: "Bu gün mən Rəsulullahın ﷺ qapıçısı olaçağam". *Bu əsnada* Əbu Bəkr رضي الله عنه gəlib qapını döydü. Mən: "Kimdir o?"– deyə soruşdum. O: "Əbu Bəkrdir!"– deyə cavab verdi. Mən *ona*: "Yerində dur!"– dedim, sonra *Peyğəmbərin ﷺ yanına* gedib dedim: "Ya Rəsulullah, Əbu Bəkr içəri daxil olmaq üçün izin istəyir". *Peyğəmbər* ﷺ buyurdu: **"İzin ver gəlsin və onu Cənnətlə müjdələ!"** Mən qayıdıb Əbu Bəkrə dedim: "Gəl içəri! Rəsulullah ﷺ səni Cənnətlə müjdələyir!" Əbu Bəkr içəri daxil olub quyunun başında, Peyğəmbərin ﷺ sağ tərəfində oturdu və Rəsulullahın ﷺ etdiyi kimi, ayaqlarını baldıra qədər açıb quyuya salladı. Sonra mən *yerimə* qayıdıb *qapının yanında* oturdum. Mən evdən çıxarkən, qardaşım dəstəmaz alırdı və o da mənim ardımca gələcəkdi. *Odur ki, öz-özümə dedim:* "Allah filankəsə – yəni qardaşına – xeyir nəsib etmək istəsə, onu da bura gətirər". Elə bu vaxt bir adam qapını tərpətdi. Mən: "Kimdir o?"– deyə soruşdum. O: "Ömər ibn Xəttabdır!"– deyə cavab verdi. Mən *ona*: "Yerində dur!"– dedim, sonra Rəsulullahın ﷺ yanına gedib ona salam verdim və dedim: "Ömər ibn Xəttab *içəri girmək üçün* izin istəyir". *Peyğəmbər* ﷺ buyurdu: **"İzin ver gəlsin və onu Cənnətlə müjdələ!"** Mən qayıdıb *Ömərə* dedim:

"İzin verdi, gəl içəri! Rəsulullah ﷺ səni Cənnətlə müjdələdi!" Ömər içəri daxil olub quyunun başında, Rəsulullahın ﷺ sol tərəfində oturdu və ayaqlarını *açıb* quyuya salladı. Sonra mən qayıdıb *qapının yanında* oturdum və *öz-özümə dedim:* "Allah filankəsə – yəni qardaşına – xeyir nəsib etmək istəsə, onu da bura gətirər". Bu vaxt yenə bir nəfər gəlib qapını tərpətdi. Mən: "Kimdir o?"– deyə soruşdum. O: "Osman ibn Əffandır!"– deyə cavab verdi. Mən *ona*: "Yerində dur!"– dedim, sonra Peyğəmbərin ﷺ yanına gedib *Osmanın* رضي الله عنه *gəldiyini* ona xəbər verdim. *Peyğəmbər* ﷺ buyurdu: **"İzin ver gəlsin və ona müjdə ver ki, onun başına müsibət gəldikdən sonra Cənnətə girəcəkdir!"** Mən qayıdıb *Osmana* dedim: "Gəl içəri! Rəsulullah ﷺ sənə müjdə verir ki, sənin başına müsibət gəldikdən sonra sən Cənnətə girəcəksən". Osman içəri daxil oldu və onların yanında yer olmadığını görüb quyunun o biri tərəfinə keçdi və onların qarşılarında oturdu". Səid ibn Museyyib belə demişdir: "Mən onların bu oturuş şəklini onların qəbirlərinin yerləşməsinə yozuram".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Digər rəvayətdə əlavə olaraq belə deyilir: "Rəsulullah ﷺ mənə qapını qorumağı əmr etdi". Bu rəvayətdə həm də belə deyilir: "*Əbu Musa* رضي الله عنه Osmanı رضي الله عنه müjdələdikdə, o, uca Allaha həmd etdi və "Allah yardımçıdır!" – dedi".

Hədisin ərəbcəsində keçən "vəccəhə" kəlməsi "üz tutmaq", "quffun" kəlməsi "quyunun ətrafındakı tikili", "alə rislik" kəlməsi isə, "yerində qal" deməkdir.

Şərh:

Müəllif رحمه الله **"Xeyirli işlərlə müjdə verməyin və bundan dolayı təbrik etməyin müstəhəb olması"** adlı bu fəsildə bəzi ayələri zikr etmişdir ki, onlar barəsində də əvvəldə danışmışıq. Həmçinin, onu da bəyan etmişik ki, müjdə, dünya ilə bağlı məsələlərdə olduğu kimi, Axirətlə bağlı məsələlərdə də olur.

Sonra müəllif رحمه الله bu məsələ ilə bağlı iki hədis zikr etmişdir. Birinci hədisdə Əbu İbrahim Abdullah ibn Əbu Əufə رضي الله عنهما rəvayət edir ki, Allahın

[1] "Səhih əl-Buxari", 3674; "Səhih Muslim", 2403.

elçisi ﷺ Xədicəni رضي الله عنها Cənnətdə *onun üçün hazırlanmış* bir ev ilə müjdələdi. Əbu Musa əl-Əşarinin رضي الله عنه hədisi də eynilə *müjdə barəsindədir.* Bu barədə, in şəə Allah, bir qədər sonra danışacağıq.

Abdullah ibn Əbu Əufə رضي الله عنه deyir ki, *Rəsulullah* ﷺ *Xədicəni* رضي الله عنها Cənnətdə, içində nə səs-küy, nə də yorğunluq olan, içiboş mirvaridən *hazırlanmış* bir ev ilə müjdələdi.

Lakin Xədicə رضي الله عنها üçün Cənnətdə tikilən sarayın mirvarisi dünyadakı mirvarilər kimi deyildir. Adları eynidir, lakin mahiyyəti fərqlidir. Necə ki, Cənnətdə xurma, nar və digər meyvələr, habelə quş əti və başqa bu kimi nemətlər olacaq, *amma dünyadakılara bənzəməyəcəkdir*. Bunların adları eyni olsa da, mahiyyətləri tamamilə fərqlidir.

Bu, hər bir insanın diqqət yetirməsi vacib olan bir məsələdir. Həqiqətən, *sadəcə adları* bu dünyada olanlara bənzəyən qeybi məsələlər, həqiqətdə bu dünyadakılara bənzəmir. İzzətli və qüdrətli Allahın sifətləri də belədir. Məsələn, izzətli və qüdrətli Allahın əzəmət və kəramətlə vəsf edilmiş üzü vardır. Eyni zamanda bizim də üzümüz vardır. *Zahirən bu* adlarda heç bir fərq yoxdur, lakin uca Allah belə buyurur: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir".**[1] Allahın üzü Onun izzətinə və əzəmətinə layiq olan bir üzdür. Onu nə vəsf və təsəvvür baxımından zehində qavramaq, nə də dillə ifadə etmək mümkün deyildir. O, vəsflərin onu əhatə etməsindən daha uca və daha uludur. İzzətli və qüdrətli Allahın digər sifətləri də eynilə belədir. *Bu sifətlər* bizim sahib olduğumuz sifətlərin adları ilə eynidir, lakin həqiqəti başqadır.

Eynilə Cənnət də belədir. Cənnətdə bal, su, şərab, ət, qadınlar, meyvələr, nar və başqa bu kimi şeylər vardır. Lakin onlar dünyada olanlara heç bənzəməz. Çünki uca Allah Qurani Kərimdə belə buyurur: **"Etdikləri əməllərin mükafatı kimi, onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir".**[2] Əgər dünyada olanlar kimi olsaydı, onları bilmiş olardıq. Lakin onlar əsla dünyadakılar kimi deyildir, hətta onlara yaxın belə deyildir. Həmçinin, Peyğəmbər ﷺ Rəbbinin belə dediyini rəvayət edir: **"Mən əməlisaleh qullarım üçün heç bir gözün görmədiyi, heç**

[1] "əş-Şura" surəsi, 11.

[2] "əs-Səcdə" surəsi, 17.

bir qulağın eşitmədiyi və heç bir *insanın* qəlbindən keçirmədiyi nemətlər hazırlamışam".[1] Allahdan istəyirəm ki, həm bizi, həm də bütün müsəlmanları bu cür nemətlər hazırladığı şəxslərdən etsin.

Peyğəmbərin ﷺ Xədicəyə رضي الله عنها müjdə verməsinə gəlincə, bu müjdəni o, Cəbrailin عليه السلام vasitəsilə vermişdir. *Bir dəfə* Cəbrail عليه السلام Rəsulullahın ﷺ yanına gəlib demişdir: "Ey Allahın elçisi, bax, Xədicə əlində bir qab xörək şirəsi, *və ya yemək, yaxud içməyə bir şey bura* gəlir. Sənin yanına çatanda ona Rəbbindən və məndən salam söylə və onu Cənnətdə *onun üçün* içiboş mirvaridən *hazırlanmış*, içində də nə səs-küy, nə də yorğunluq olan bir ev ilə müjdələ!"[2] Fəqət, Cənnətdəki mirvari, dünyadakı mirvariyə əsla bənzəməz.

"İçində nə səs-küy, nə də yorğunluq olan...". Yəni, orada insana əziyyət verən və onu narahat edən səs-küy olmayacaqdır. Cənnətdə *insanı narahat edən* heç bir səs-küy olmayacaqdır. Cənnət əhlinin heç biri nə səs-küy, nə yorğunluq, nə də boş-boş sözlər görəcəkdir. Uca Allah buyurur: **"Bu *şərab* onları nə boşboğazlığa, nə də günaha təhrik edəcək".**[3]

"Onların orada qarşılaşarkən *bir-birinə* deyəcəkləri söz: "Salam!" olacaqdır".[4] Cənnət əhlinin danışığı yalnız gözəl sözlər olacaqdır. Çünki onlar ən gözəl olan Allahın qonşuluğunda olacaqlar. Onların həm özləri gözəl olacaq, həm də Ədn cənnətlərində olacaqlar. Gözəl olan Allahın qonşuluğunda, gözəl evlərdə olacaqlar. Cənnət əhlinin hamısı gözəl və təmiz olacaqdır. Çünki dünyada ikən onların həm qəlbləri, həm də əməlləri təmiz və gözəl olmuşdur. Axı uca Allah pakdır və yalnız pak və təmiz olanları qəbul edir. Onların əməlləri də məqbuldur. O üzdən onlar Cənnətdə də eyni hal üzərində olacaqlar.

Odur ki, Xədicənin رضي الله عنها də qəsrində nə bir səs-küy, nə yorğunluq, nə də məşəqqət olacaqdır. Qəsri süpürməyə və başqa işlərə ehtiyac olmayacaqdır. Çünki hər yer təmiz olacaqdır. Bu da möminlərin anası Xədicəyə رضي الله عنها verilmiş bir müjdədir.

Möminlərin anası Xədicə رضي الله عنها Peyğəmbərin ﷺ evləndiyi ilk qadındır. Peyğəmbər ﷺ onunla evləndiyində iyirmi beş, Xədicə رضي الله عنها isə qırx yaşında

---

[1] "Səhih əl-Buxari", 3244; "Səhih Muslim", 2824.

[2] "Səhih əl-Buxari", 3820.

[3] "ət-Tur" surəsi, 23.

[4] "İbrahim" surəsi, 23.

idi. Xədicə ﵂ Peyğəmbərdən ﷺ qabaq başqasında ərdə olub. Peyğəmbərin ﷺ Xədicədən ﵂ dörd qızı və üç – və ya iki – oğlu olmuşdur. Xədicə ﵂ vəfat edənə qədər Rəsulullah ﷺ başqa bir qadınla evlənməmişdir. Xədicə ﵂ çox ağıllı, zəkalı və hikmətlə davranan bir qadın olub. Tarix kitablarında onun tərcümeyi-halına nəzər salan hər kəs onun gözəl və tərifəlayiq xidmətlərindən xəbərdar olar. O, Aişə ﵂ ilə müqayisə olunardı. Yəni Xədicə və Aişə ﵂ Rəsulullahın ﷺ ən çox sevdiyi və ən fəzilətli olan həyat yoldaşlarından idi. Alimlər bu iki qadından hansı birinin daha fəzilətli olması barədə ixtilaf etmişlər. Bəziləri Aişənin ﵂, bəziləri isə Xədicənin ﵂ daha üstün olduğunu demişlər. Doğru olan isə budur ki, onların hər birinin, digərində olmayan özünəməxsus üstünlükləri vardır.

Məsələn Aişənin ﵂ həm Peyğəmbərin ﷺ həyatının son zamanlarında, həm də onun vəfatından sonra elmi, şəriəti və risaləti yayma kimi fəziləti vardır ki, bu Xədicədə ﵂ olmamışdır. Yaxud Xədicənin ﵂ İslamın gəlişinin əvvəlində Rəsulullaha ﷺ yardım etmə, ona dəstək olma kimi fəziləti vardır ki, bu da Aişədə ﵂ olmamışdır. Demək, hər birinin digərində olmayan xüsusiyyətləri vardır.

Ən böyük fəzilətə gəldikdə isə, onların hər ikisinin Peyğəmbərin ﷺ ən çox sevdiyi həyat yoldaşları olmaları, onlara fəxr olaraq kifayət edər. Digər fəzilətlərə gəlincə, onların hər birinin özünəməxsus fəziləti vardır. Həm Aişənin ﵂, həm də Xədicənin ﵂ məziyyətini bir az əvvəl qeyd etdik. Lakin fəzilətə gəlikdə, bu, Allah qatında olan bir şeydir. Bir az öncə dediyim kimi, onların hər ikisinin Peyğəmbərin ﷺ ən çox sevdiyi zövcələri olması fəzilət baxımından onlara kifayət edər.

Rafizilər Aişəyə ﵂ hədsiz dərəcədə nifrət edir, Xədicəyə ﵂ gəldikdə isə, onu şəriətə uyğun olmayan tərzdə həddən ziyadə şişirdirlər. Bir tərəfdən Aişəyə ﵂ olmazın nifrət edir, digər tərəfdən isə Xədicəni ﵂ olmazın şişirdirlər. Sünnə və camaat əhli isə onların hər ikisini sevir və hər ikisinin üstünlüyünü və fəzilətini qəbul edir.

Bir gün iki nəfər məşhur "ət-Təbsirə" kitabının müəllifi İbn əl-Cəuzinin yanına gəlib ona belə deyirlər: "Biz sənin bir məsələ barəsində hökm verməyini istəyirik. De görək Əli ﵁ üstündür, yoxsa Əbu Bəkr ﵁?" O da onlara belə cavab verir: "Kimin qızı ondadırsa, o üstündür".

Bu cavaba əsasən, görəsən hansı biri üstündür? Burada iki ehtimal var: əgər "kimin" dedikdə Əbu Bəkri ﵁, "ondadırsa" deməklə Peyğəmbəri ﷺ

qəsd edirsə, onda Əbu Bəkr ﵁ üstündür. Yox, əgər "kimin" dedikdə Peyğəmbəri ﷺ, "ondadırsa" dedikdə də Əlini ﵁ qəsd edirsə, onda Əli ﵁ üstündür. Bu cavabdan sonra o iki nəfərin hər biri özlüyündə elə güman etdi ki, İbn əl-Cəuzi onun lehinə hökm vermişdir. Çünki həmin cümlədə zikr olunan şəxs əvəzliyindən hər iki ehtimalı başa düşmək olar. Bu da həmin alimin zəkasından irəli gəlir.

Xülasə odur ki, Sünnə əhlinin yekdil rəyinə görə, Peyğəmbərdən ﷺ sonra bu ümmətin ən fəzilətlisi Əbu Bəkrdir ﵁. Hətta Əli ﵁ Kufədə minbərdən belə demişdir: "Peyğəmbərdən ﷺ sonra bu ümmətin ən xeyirlisi Əbu Bəkr ﵁, sonra isə Ömərdir ﵁". Əli ﵁ bunu öz xəlifəliyi dövründə elan etmişdi və o, heç kimdən qorxmurdu. Lakin rafizilər onun bu sözlərini təhrif edirlər. Hamıya məlumdur ki, İbn əl-Cəuzi Sünnə əhlinin alimi olmuşdur və ona görə Əbu Bəkr Əlidən üstündür. Lakin o, bu cür cavab verməklə həmin rafizinin şərindən qorunmaq istəmişdir. Daha doğrusunu isə Allah bilir.

Sonra müəllif ﵀ Əbu Musa əl-Əşarinin ﵁ hədisinə yer vermişdir. Hədisdə deyilir ki, bir gün Əbu Musa ﵁ öz evində dəstəmaz alır və sonra Peyğəmbəri ﷺ axtarmaq üçün evindən çıxır və öz-özünə deyir: "Bu günümü Peyğəmbərlə ﷺ bərabər keçirəcəyəm və ondan heç ayrılmayacağam". Yəni, Peyğəmbər ﷺ hara getsə, onunla birlikdə olacam.

Bu dəlildir ki, insan evindən çıxdığı zaman dəstəmazlı olmalıdır ki, namaza hazır vəziyyətdə olsun. Belə olduğu təqdirdə, həmin adam suyun olmadığı bir yerdə namaza yetişərsə, dəstəmazlı olduğu üçün dərhal namazını qıla bilər. Yaxud bir cənazə ilə rastlaşarsa, cənazə namazında iştirak edə bilər. Yəni, ən azından *gün ərzində* dəstəmazlı olar. Çünki insanın dəstəmazlı halda olması, onun dəstəmazsız halda olmasından daha əfzəldir. Həmçinin, ola bilər ki, həmin vaxt onu ölüm də yaxalasın. Belə olduqda, o, bu dünyadan dəstəmazlı halda köçmüş olar. Demək, insan mümkün qədər, ələlxüsus da evindən çıxdığı zaman dəstəmazlı olmalıdır.

Əbu Musa ﵁ da evindən çıxıb Peyğəmbəri ﷺ axtarmaq üçün məscidə gəldi. Çünki Peyğəmbər ﷺ ya məsciddə olar, ya da evində ailəsinin işləri ilə məşğul olardı. Yaxud da səhabələrinin problemlərini aradan qaldırmaqla məşğul olardı.

Əbu Musa ﵁ Peyğəmbəri ﷺ məsciddə görmədikdə, onun hara getdiyini soruşdu, *oradakılar da*: "Bu tərəfə doğru getdi"– deyib Quba yaxınlığındakı Əris su quyusu tərəfə işarə etdilər. Əbu Musa ﵁ da göstərilən tərəfə getdi. Su quyusuna çatdıqda Peyğəmbərin ﷺ orada olduğunu gördü və qapının yanında dayandı. Peyğəmbər ﷺ təbii ehtiyacını rəf etdi və dəstəmaz aldı. Sonra da quyunun başında, yəni ətrafında oturdu və ayaqlarını baldırına qədər çırmalayıb su quyusuna salladı. Zahirən onu demək olar ki, bu hadisə, havanın isti bir vaxtında baş vermişdir. Quyuda da su vardı və bu su quyunun ağzına kimi çatırdı. Həmçinin quyunun ətrafında ağaclar, xurma ağacları və kölgəliklər var idi. Adətən hər bir insan belə bir vəziyyətdə Peyğəmbərin ﷺ etdiyi hərəkətləri edərdi. Yəni, kölgədə oturub ayaqlarını baldırına qədər açıb quyuya sallayardı ki, quyudakı sərin su vasitəsilə ayaqlarını sərinlətsin.

Peyğəmbər ﷺ də quyunun ətrafında oturdu və ayaqlarını baldırına qədər çırmalayıb su quyusuna salladı. Əbu Musa ﵁ isə su quyusu olan bağın qapısının yanında gözətçilik etməyə başladı. Bu zaman Əbu Bəkr ﵁ *bağa daxil olmaq üçün* izin istədi. Lakin Əbu Musa ﵁ Peyğəmbərə ﷺ xəbər vermədən onun bağa girməsinə izin vermədi. O, Peyğəmbərin ﷺ *yanına gəlib* ona: "Bu, Əbu Bəkrdir, içəri girmək üçün izin istəyir"– dedi, Peyğəmbər ﷺ də ona: **"İzin ver gəlsin və onu Cənnətlə müjdələ!"**– dedi. Əbu Musa ﵁ Əbu Bəkrə ﵁ içəri girməyə izin verdi və ona: "Rəsulullah ﷺ səni Cənnətlə müjdələyir"– dedi. Bu nə gözəl müjdədir! Öncə onu Cənnətlə müjdələyir, sonra da Rəsulullahın ﷺ yanına gedib onunla birlikdə olmasına izin verir.

Əbu Bəkr ﵁ içəri girdikdə Peyğəmbərin ﷺ su quyusunun başında oturduğunu görür və onun sağında əyləşir. Çünki Peyğəmbər ﷺ hər bir işində sağdan başlamağı xoşlayardı. Ona görə də Əbu Bəkr ﵁ onun sağında oturdu və eynilə Peyğəmbərin ﷺ etdiyi kimi etdi – ayaqlarını baldırına qədər çırmalayıb su quyusuna salladı. Əbu Bəkr ﵁ oturuşunda belə Peyğəmbərə ﷺ müxalif olmaq istəmirdi. Yoxsa ki, quyunun başında oturarkən ayaqları baldıra qədər çırmalayıb quyuya sallamaq dindən deyildir. Lakin Əbu Bəkr ﵁ Peyğəmbərlə ﷺ birlikdə oturarkən onun oturuşundan fərqli bir oturuşla oturmaq istəmirdi.

Əbu Musa ﵁ evdən çıxarkən dəstəmaz alan qardaşının da onun ardınca gəlməsini ümid edərək öz-özünə belə dedi: "Allah ona xeyir nəsib etmək istəsə, onu da bura gətirər". Yəni, o bura gəlib içəri girmək üçün izin istəsəydi, Cənnətlə müjdələnmək ona da nəsib olardı. Lakin başqa bir adam içəri girmək üçün izin istədi. Əbu Musa ﵁ yenə Rəsulullahın ﷺ yanına gəldi və ona: "Bu, Ömərdir, *içəri girmək üçün* izin istəyir"– dedi, Peyğəmbər ﷺ də ona: **"İzin ver gəlsin və onu Cənnətlə müjdələ!"**– dedi. Əbu Musa ﵁ Ömərə ﵁ izin verdi və: "Rəsulullah ﷺ səni Cənnətlə müjdələyir!"– dedi.

Ömər ﵁ içəri keçdi və Rəsulullahla ﷺ Əbu Bəkrin ﵁ quyunun başında oturduqlarını görüb Rəsulullahın ﷺ sol tərəfində oturdu. Bu su quyusunun ağzı çox dar idi. Yəni, elə də geniş deyildi. Beləliklə, bu üç nəfər quyunun bir tərəfində *yan-yana* oturdular.

Bundan sonra Osman ﵁ gəldi və içəri girmək üçün izin istədi. Əbu Musa ﵁ eyni şəkildə onun üçün də Peyğəmbərdən ﷺ izin istədi, Peyğəmbər ﷺ də ona: **"İzin ver gəlsin və ona müjdə ver ki, onun başına müsibət gəldikdən sonra Cənnətə girəcəkdir"**– deyə buyurdu. O da Osmana ﵁ izin verib belə dedi: "Rəsulullah ﷺ sənə müjdə verir ki, sənin başına müsibət gəldikdən sonra sən Cənnətə girəcəksən". Bu sözlərlə Osmana həm nemət müjdəsi, həm də müsibət xəbəri verilmiş oldu. Osman isə cavabında belə dedi: "Allaha həmd olsun! Allah yardımçıdır!" Yəni, bu müsibətə qarşı Allahdan yardım diləyirəm, bu müjdəyə görə də Allaha həmd edirəm. Osman içəri daxil oldu və quyunun ağzında yer olmadığını görüb quyunun o biri tərəfinə keçdi və onların qarşısında oturdu. O da ayaqlarını baldırına qədər çırmalayıb quyuya salladı.

Böyük tabiinlərdən olan Səid ibn Museyyib onların bu cür oturuş şəklini qəbirlərinin duruşuna yozmuşdur. Çünki bu üç nəfərin, yəni Peyğəmbər ﷺ, Əbu Bəkr ﵁ və Ömərin ﵁ qəbirləri bir yerdədir. Onların üçü də bir otaqda dəfn olunmuşlar. Dünyada da daim bir yerdə olar, bərabər gedər və bərabər gələrdilər. Peyğəmbər ﷺ daim belə deyərdi: "Mən, Əbu Bəkr və Ömər filan yerə getdik. Mən, Əbu Bəkr və Ömər filan yerdən gəldik". Əbu Bəkr ﵁ və Ömər ﵁ Peyğəmbərin ﷺ ən yaxın və daim onunla bir yerdə olan səhabələri idi. Qiyamət günü də qəbirlərindən bir yerdə çıxacaqlar. Onlar bu dünyada bir yerdə olduqları kimi, Axirətdə də bir yerdə olacaqlar.

Beləliklə, Osman ﵁ onların qarşı tərəfində oturdu. Peyğəmbər ﷺ Osmanı ﵁ başına gələcək bir müsibətlə xəbərdar etdi. Bu müsibət onun xəlifəliyi zamanında bəzi insanların ona etiraz etmələri, ona qarşı çıxmaları və onu evində öldürmələri idi. Belə ki, həmin adamlar onun Mədinədəki evinə basqın edərək, qarşısında Allahın Kitabı olduğu halda, Quran oxuduğu yerdə onu şəhid etmişlər.

Bəzi tarixçilər Osmanın ﵁ qanının uca Allahın bu ayəsinin üzərinə düşdüyünü söyləmişlər: **"Onlardan *qorunmaq üçün* Allah sənə yetər. O, Eşidəndir, Biləndir!"**[1] Daha doğrusunu isə Allah bilir.

Amma hər bir halda Osman ﵁ çoxlu Quran oxumaq və gecə namazları qılmaqla tanınırdı. Həmin azğın və zalım toplum da onun evinə daxil olub onu öldürdülər. Beləliklə, Osman ﵁ bu dünyadan şəhid olaraq köçdü və Peyğəmbərin ﷺ onun barəsində dediyi sözü də gerçəyə çevrildi. Belə ki, bir dəfə Peyğəmbər ﷺ Əbu Bəkr, Ömər və Osmanla birlikdə Uhud dağının üzərində ikən dağ titrəyir. Bu, Allahın bir möcüzəsi idi. Bu titrəmə, ədavət və etiraz titrəməsi deyildi, əksinə, sevinc titrəməsi idi. Dağ titrədikdə, Peyğəmbər ﷺ dağa belə səsləndi: **"Sakit dur, ey Uhud! Həqiqətən, sənin üstündə bir peyğəmbər, bir siddiq və iki şəhid var".**[2] Peyğəmbər, Rəsulullah ﷺ; siddiq, Əbu Bəkr ﵁; iki şəhid isə Ömər və Osman ﵄ idi. Həqiqətən, Ömər ﵁ də, Osman ﵁ da bu dünyadan şəhid olaraq köçdülər. Ömər ﵁, müsəlmanlara sübh namazını qıldıqmaq üçün mehraba keçərkən öldürülür, Osman ﵁ isə evində təhəccüddə, gecə namazında *Quran oxuyarkən* öldürülür. Allah onların hər ikisindən razı olsun, həm bizi, həm də sizləri Nəim cənnətlərində onlara qovuşdursun!

Bu qissədə müjdə zikr olunur. Çünki Peyğəmbər ﷺ həm Əbu Bəkr, həm Ömər, həm də Osman ﵃ üçün **"İzin ver gəlsin və onu Cənnətlə müjdələ!"**– demişdir. Məhz bundan dolayı müəllif bu qissəni bu fəsildə zikr etmişdir. Uca Allah bizi də, sizi də Muhəmmədin ﷺ zümrəsində həşr olunanlardan etsin.

---

[1] "əl-Bəqərə" surəsi, 137.

[2] "Səhih əl-Buxari", 3675.

٧١٠ – وَعَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: كُنَّا قُعُوداً حَوْلَ رَسُولِ اللَّهِ ﷺ، وَمعَنَا أَبُو بَكْرٍ وَعُمَرُ ﷺ فِي نَفَرٍ، فَقَامَ رَسُولُ اللَّهِ ﷺ مِنْ بَيْنِ أَظْهُرِنَا فَأَبْطَأَ عَلَيْنَا وَخَشِينَا أَنْ يُقْتَطَعَ دُونَنَا، وَفَزِعْنَا فَقُمْنَا، فَكُنْتُ أَوَّلَ مَنْ فَزِعَ، فَخَرَجْتُ أَبْتَغِي رَسُولَ اللَّهِ ﷺ، حَتَّى أَتَيْتُ حَائِطاً لِلأَنْصَارِ لِبَنِي النَّجَّارِ، فَدُرْتُ بِهِ هَلْ أَجِدُ لَهُ بَاباً، فَلَمْ أَجِدْ، فَإِذَا رَبِيعٌ يَدْخُلُ فِي جَوْفِ حَائِطٍ مِنْ بِئْرٍ خَارِجَه – وَالرَّبِيعُ: الجَدْوَلُ الصَّغِيرُ – فَاحْتَفَزْتُ، فَدَخَلْتُ عَلَى رَسُولِ اللَّهِ ﷺ فَقَالَ: « أَبُو هُرَيْرَةَ؟ » فَقُلْتُ: نَعَمْ يَا رَسُولَ اللَّهِ، قَالَ: « مَا شَأْنُكَ؟ » قُلْتُ: كُنْتَ بَيْنَ أَظْهُرِنَا، فَقُمْتَ فَأَبْطَأْتَ عَلَيْنَا، فَخَشِينَا أَنْ تُقْتَطَعَ دُونَنَا، فَفَزِعْنَا، فَكُنْتُ أَوَّلَ مَنْ فَزِعَ، فَأَتَيْتُ هَذَا الحَائِطَ، فَاحْتَفَزْتُ كَمَا يَحْتَفِزُ الثَّعْلَبُ، وَهَؤُلَاءِ النَّاسُ وَرَائِي، فَقَالَ: « يَا أَبَا هُرَيْرَة » وَأَعْطَانِي نَعْلَيْهِ فَقَالَ: « اذْهَبْ بِنَعْلَيَّ هَاتَيْنِ، فَمَنْ لَقِيتَ مِنْ وَرَاءِ هَذَا الحَائِطِ يَشْهَدُ أَنْ لَا إِلَهَ إِلاَّ اللَّهُ مُسْتَيْقِناً بِهَا قَلْبُهُ، فَبَشِّرْهُ بِالجَنَّةِ » وذَكَرَ الحدِيثَ بطُولِهِ، رواه مسلم.

« الرَّبِيعُ » النَّهْرُ الصَّغِيرُ، وَهُوَ الجدْوَلُ – بفتح الجيم – كَمَا فَسَّرهُ في الحَدِيثِ. وقولُه: « احْتَفَزْت » رويَ بالرَّاءِ وبالزَّاي، ومعناهُ بالزاي: تَضَامَمْتُ وتصَاغَرْتُ حَتَّى أَمْكَنَنِي الدُّخُولُ.

710. Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: "*Bir dəfə* biz bir dəstə adamla Peyğəmbərin ﷺ ətrafında oturmuşduq. Əbu Bəkr və Ömər ﷺ də bizimlə idi. Bu vaxt Peyğəmbər ﷺ qalxıb aramızdan getdi və uzun müddət yanımıza qayıtmadı. Biz onun başına bir iş gələcəyindən qorxub təşvişə düşdük və *dərhal hamımız* ayağa qalxdıq. *Hamıdan* əvvəl mən narahat oldum və qalxıb Rəsulullahı ﷺ axtarmağa getdim. Nəhayət, ənsardan olan Nəccar oğullarının bostanına gəldim. Bostanın ətrafına hərləndim ki, bəlkə bir qapı tapıb *oraya girim*, amma tapa bilmədim. Bir də baxdım ki, çöldəki su quyusundan bostanın içinə bir arx gedir. Mən yerə yatıb *tülkü kimi* sürünərək Peyğəmbərin ﷺ yanına daxil oldum. Peyğəmbər ﷺ: **"Əbu Hureyradırmı?"**– deyə soruşdu. Dedim: "Bəli, ya Rəsulullah!" Soruşdu: **"Sənə nə olub?"** Dedim: "Sən qalxıb aramızdan getdin və uzun müddət yanımıza qayıtmadın deyə, başına bir iş gələcəyindən qorxub təşvişə düşdük. Hamıdan əvvəl mən narahat oldum. Qalxıb bu bostana gəldim və yerə yatıb tülkü kimi sürünərək bura daxil oldum. Oradakı camaat da arxamca gəlir". Peyğəmbər ﷺ: **"Ey Əbu Hureyra!"**– deyib ayaqqabılarını mənə verdi və dedi: **"Bu ayaqqabılarımı götür və geri dön! Bu bostanın**

çölündə, Allahdan başqa *haqq* məbudun olmadığına şahidlik gətirən və qəlbində buna yəqinliklə inanan kimi görsən, onu Cənnətlə müjdələ".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Hədisin ərəbcəsində keçən "ər-rabii" kəlməsi "kiçik arx", "ihtəfəztu" kəlməsi isə "içəri daxil olmaq üçün qıvrılıb kiçildim" deməkdir.

Şərh:

Müəllifin ﵀ "Salehlər bağçası" adlı kitabının **"Xeyirli işlərlə müjdə verməyin və bundan dolayı təbrik etməyin müstəhəb olması"** adlı fəslində Əbu Hureyraya ﵁ istinadən rəvayət etdiyi bu hədisdə deyilir ki, *bir dəfə* Peyğəmbər ﷺ bir dəstə səhabəsi ilə birlikdə oturmuşdu. Əbu Bəkr və Ömər ﵄ də onun yanında idi. Bu vaxt Peyğəmbər ﷺ qalxıb onların arasından getdi və uzun müddət onların yanına qayıtmadı. Səhabələr, insanların onun ﷺ başına bir iş gətirəcəyindən qorxub təşvişə düşdülər. Çünki həm münafiqlər, həm də İslam dininin digər düşmənləri ona bir xətər yetirmək üçün fürsət axtarırdılar.

Səhabələr təşviş içində ayağa qalxdılar. *Hamıdan* əvvəl narahat olan Əbu Hureyra ﵁ idi. O, ayağa qalxıb Rəsulullahı ﷺ axtarmağa başladı. Axtara-axtara ənsardan olan Nəccar oğullarının bostanına gəlib çatdı. O, bostanın ətrafına hərləndi ki, bəlkə bir qapı tapıb *oraya girsin*, amma tapa bilmədi. Ola bilsin ki, Əbu Hureyra ﵁ açıq qapı axtarırdı və onu da tapa bilmədi. Yoxsa ki, hər bir bostanın *içərisinə girmək üçün* mütləq qapılarının olması məlum məsələdir. Demək, Əbu Hureyra ﵁ açıq qapı axtarırdı və onu da tapa bilmədi. Amma o, bir suvacağa rast gəldi. Suvacaq, hasarın aşağı tərəfində olan oyuqdur və bu oyuqdan bağa sel suları daxil olur. Əbu Hureyra ﵁ da yerə yatıb bu oyuqdan içəri girdi və gördü ki, Peyğəmbər ﷺ oradadır. Peyğəmbər ﷺ: **"Əbu Hureyradırmı?"**– deyə soruşdu, o da: "Bəli"– deyə cavab verdi. Peyğəmbər ﷺ ayaqqabılarını ona verib dedi: **"Bu ayaqqabılarımı götür və geri dön. Bu bostanın çölündə Allahdan başqa *haqq* məbudun olmadığına şahidlik gətirən və qəlbində buna yəqinliklə inanan kimi görsən, onu Cənnətlə müjdələ".** Allahdan diləyirik ki, bizi də həm sağ olduğumuz müddətdə, həm də ölüm anında həmin insanlardan etsin.

[1] "Səhih Muslim", 31.

Əbu Hureyra ﵁ da Peyğəmbərin ﷺ ayaqqabılarını götürüb geri dondü. Peyğəmbərin ﷺ ayaqqabılarını Əbu Hureyraya ﵁ verməkdə məqsədi o idi ki, bu, onun doğru söylədiyinə bir əlamət olsun. Çünki bu, çox böyük bir müjdə idi. Yəni, hər kim Allahdan başqa *haqq* məbudun olmadığına şahidlik edər və qəlbində buna yəqinliklə inanarsa, Cənnətə daxil olar. Təbii ki, bu kəlməni deyən və qəlbində ona yəqinliklə inanan hər bir şəxs mütləq Allahın əmrlərini yerinə yetirəcək və qadağalarından çəkinəcəkdir. Çünki bu adam Allahdan başqa haqq məbudun olmadığına şahidlik edir. Əgər tövhid kəlməsinin mənası budursa, o zaman bu kəlməyə iman edən hər bir insan mütləq uca Allaha ibadət edəcəkdir.

Amma sadəcə diliylə deyib qəlbi ilə ona yəqinliklə inanmayan kimsəyə, bu kəlmə heç bir fayda verməyəcəkdir. Budur, münafiqlər də dilləri ilə Allahdan başqa *haqq* məbudun olmadığına şahidlik edirlər. Lakin onlar Allahı olduqca az zikr edirlər. Qalxıb namaz qılarlar, lakin namaz onlara ağır gələr – namazlarını könülsüz qılarlar. Onlara ən ağır gələn namaz isə işa və fəcr namazlarıdır. Onlar Peyğəmbərin ﷺ yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, həqiqətən sən Allahın Rəsulusan!"– deyirlər. Ancaq bütün bunlara rəğmən, uca Allah onlar barəsində belə buyurur: **"Allah da bilir ki, həqiqətən sən Onun Rəsulusan. Allah şahiddir ki, həqiqətən münafiqlər əsl yalançıdırlar".**[1] Çünki onlar Allahdan başqa haqq məbudun olmadığına və Muhəmmədin Allahın elçisi olduğuna qəlblərində yəqinliklə inanmamışlar. Ona görə bu kəlmə onlara fayda verməyəcəkdir. Qəlbində yəqinliklə inanan kimsəyə gəlincə, Peyğəmbərin ﷺ verdiyi bu müjdə məhz beləsinə aiddir.

Səmimi-qəlbdən Allahdan başqa haqq məbudun olmadığına və Muhəmmədin Allahın elçisi olduğuna şahidlik edən kimsənin fərz əməlləri tərk etməsi mümkün deyildir. Ona görə də bu hədis namazı tərk edənin kafir olmadığına dəlil deyildir. Xeyir, bu hədis ona dəlalət etmir. Belə ki, namazı tərk edən adam, hətta: "əşhədu ən la ilahə illəllah və ənnə Muhəmmədən rəsulullah"– desə belə, kafir sayılır. Çünki o, bu kəlməni qəlbində yəqinlik olmadan deyir. Axı necə ola bilər ki, adam bu kəlməni yəqinliklə iman gətirərək desin, sonra da namaz qılmasın və *ömrünün axırına qədər də* bu cür davam etsin? Bu, mümkün olan bir şey deyil.

[1] "əl-Munafiqun" surəsi, 1.

Lakin bəzən insanın qəlbinə şeytan tərəfindən uca Allah barəsində çox təhlükəli vəsvəsələr gələ bilər. Belə vəsvəsələr möminə heç bir zərər yetirə bilməz. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Bu xalis imandır".**[1] Təbii ki, bunun mənası "Vəsvəsələr xalis imandır" demək deyildir, əksinə, bunun mənası "Vəsvəsələr xalis imanın əlamətidir" deməkdir. Çünki şeytan, şəkk və şübhələrdən xali olan, ixlaslı qəlbə vəsvəsə verir ki, bəlkə ona şübhə sala bildi və ya onun imanını korlaya bildi. Şeytan bir adamın qəlbinə bu cür vəsvəsələr gətirdikdə, həmin adam bu vəsvəsələri dəf etməyə çalışar və: "Lənətlənmiş şeytandan Allaha sığınıram. Əvvəl də, Axır da, Zahir də, Batin də Allahdır. Allah təkdir. O, möhtac deyildir. O, nə doğub, nə də doğulub. Onun bənzəri yoxdur"– deyib bu vəsvəsələrdən üz döndərərsə, onlar ondan dərhal yox olub gedər. Əlbəttə ki, şeytan xarab və korlanmış qəlbə vəsvəsə verməklə məşğul olmaz. Çünki xarab qəlb zatən xarab və korlanmışdır.

Deyilənə görə, bir dəstə adam İbn Məsudun رضي الله عنه və ya İbn Abbasın رضي الله عنه yanına gəlib ona belə demişdir: "Yəhudilər deyirlər ki, namaz əsnasında onlara vəsvəsələr gəlmir". O da onlara belə cavab vermişdir: "Şeytanın xarab qəlblə nə işi ola bilər ki?" Yəni, onların qəlbləri artıq xarab olmuş və korlanmışdır. Şeytanın da korlanmış qəlblərlə heç bir işi yoxdur. Çünki həmin qəlblər zatən şeytanın istədiyi haldadır. Şeytan yalnız salamat və ixlaslı qəlbə vəsvəsə verməyə çalışar ki, ona şübhələr salsın.

Bir sözlə, bu vəsvəsə və şübhələri tərk et, Rəbbinə üz tut və: "Lənətlənmiş şeytandan Allaha sığınıram. Əvvəl də, Axır da, Zahir də, Batin də Allahdır. Allah təkdir. O, möhtac deyildir. O, nə doğub, nə də doğulub. Onun bənzəri yoxdur"– de. Belə etsən, Allahın izni ilə bütün şübhələr səndən uzaqlaşar.

Bu hədisdə də xeyirlə müjdələməyə dair dəlil vardır və həmin müjdə budur: Allahdan başqa *haqq* məbudun olmadığına şahidlik gətirən və qəlbində buna yəqinliklə inanan kimsə Cənnətlikdir.

---

[1] Əbu Hureyra رضي الله عنه demişdir: "*Bir dəfə* bir dəstə adam Peyğəmbərin ﷺ yanına gəlib ondan soruşdu: "Qəlbimizdən elə *pis* fikirlər keçir ki, *hər* birimiz onu dilinə gətirməyi böyük günah hesab edirik". Peyğəmbər ﷺ soruşdu: **"Doğrudanmı siz bunu günah sayırsınız?"** Onlar: "Bəli!"– deyə cavab verdikdə, Peyğəmbər ﷺ buyurdu: **"Bu, xalis imandır".** ("Səhih Muslim", 132).

٧١١ – وَعَنْ ابْنِ شُمَاسَةَ قَالَ: حَضَرْنَا عَمْرَو بْنَ العَاصِ ﷺ، وَهُوَ فِي سِيَاقَةِ المَوْتِ فَبَكَى طَوِيلاً، وَحَوَّلَ وَجْهَهُ إِلَى الجِدَارِ، فَجَعَلَ ابْنُهُ يَقُولُ: يَا أَبَتَاهُ، أَمَا بَشَّرَكَ رَسُولُ اللَّهِ ﷺ بِكَذَا؟ أَمَا بَشَّرَكَ رَسُولُ اللَّهِ ﷺ بِكَذَا؟ فَأَقْبَلَ بِوَجْهِهِ فَقَالَ: إِنَّ أَفْضَلَ مَا نُعِدُّ شَهَادَةُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللَّهُ، وَأَنَّ مُحَمَّداً رَسُولُ اللَّهِ، إِنِّي قَدْ كُنْتُ عَلَى أَطْبَاقٍ ثَلاَثٍ: لَقَدْ رَأَيْتُنِي وَمَا أَحَدٌ أَشَدَّ بُغْضاً لِرَسُولِ اللَّهِ ﷺ مِنِّي، وَلَا أَحَبَّ إِلَيَّ مِنْ أَنْ أَكُونَ قَدِ اسْتَمْكَنْتُ مِنْهُ فَقَتَلْتُهُ، فَلَوْ مُتُّ عَلَى تِلْكَ الحَالِ لَكُنْتُ مِنْ أَهْلِ النَّارِ. فَلَمَّا جَعَلَ اللَّهُ الإِسْلاَمَ فِي قَلْبِي أَتَيْتُ النَّبِيَّ ﷺ فَقُلْتُ: ابْسُطْ يَمِينَكَ فَلَأُبَايِعْكَ، فَبَسَطَ يَمِينَهُ فَقَبَضْتُ يَدِي، فَقَالَ: « مَالَكَ يَا عَمْرُو؟ » قُلْتُ: أَرَدْتُ أَنْ أَشْتَرِطَ، قَالَ: « تَشْتَرِطُ مَاذَا؟ » قُلْتُ أَنْ يُغْفَرَ لِي، قَالَ: أَمَا عَلِمْتَ أَنَّ الإِسْلاَمَ يَهْدِمُ مَا كَانَ قَبْلَهُ، وَأَنَّ الهِجْرَةَ تَهْدِمُ مَا كَانَ قَبْلَهَا، وَأَنَّ الحَجَّ يَهْدِمُ مَا كَانَ قَبْلَهُ؟ » وَمَا كَانَ أَحَدٌ أَحَبَّ إِلَيَّ مِنْ رَسُولِ اللَّهِ ﷺ، وَلَا أَجَلَّ فِي عَيْنِي مِنْهُ، وَمَا كُنْتُ أُطِيقُ أَنْ أَمْلَأَ عَيْنِي مِنْهُ إِجْلَالاً لَهُ، وَلَوْ سُئِلْتُ أَنْ أَصِفَهُ مَا أَطَقْتُ، لِأَنِّي لَمْ أَكُنْ أَمْلَأُ عَيْنِي مِنْهُ، وَلَوْ مُتُّ عَلَى تِلْكَ الحَالِ لَرَجَوْتُ أَن أَكُونَ مِنْ أَهْلِ الجَنَّةِ. ثُمَّ وُلِّينَا أَشْيَاءَ مَا أَدْرِي مَا حَالِي فِيهَا؟ فَإِذَا أَنَا مُتُّ فَلَا تَصْحَبَنِّي نَائِحَةٌ وَلَا نَارٌ، فَإِذَا دَفَنْتُمُونِي، فَشُنُّوا عَلَيَّ التُّرَابَ شَنًّا، ثُمَّ أَقِيمُوا حَوْلَ قَبْرِي قَدْرَ مَا تُنْحَرُ جَزُورٌ، وَيُقْسَمُ لَحْمُهَا، حَتَّى أَسْتَأْنِسُ بِكُمْ، وَأَنْظُرَ مَا أُرَاجِعُ بِهِ رُسُلَ رَبِّي. رواه مسلم.

قوله: « شُنُّوا » رُوِيَ بالشين المعجمة وبالمهملةِ، أي: صبُّوهُ قليلاً قَليلاً. والله سبحانه أعلم.

711. İbn Şumamə əl-Məhri demişdir: "Amr ibn əl-As ﷺ ölüm ayağında ikən biz ona baş çəkdik. O, bir xeyli ağladıqdan sonra üzünü divara tərəf çevirdi. Onda oğlu Abdullah dedi: "Atacan, Rəsulullah ﷺ səni filan şeylə müjdələməyibmi?! Rəsulullah ﷺ səni filan şeylə müjdələməyibmi?!" Amr üzünü *bizə* tərəf çevirib dedi: "Bizim *Axirət üçün* hazırladığımız ən fəzilətli əməl, Allahdan başqa məbud olmadığına və Muhəmmədin Onun elçisi olduğuna şəhadət gətirməyimizdir. Mən artıq üç mərhələdən keçmişəm. Vaxt var idi Allahın elçisinə ﷺ mənim qədər nifrət edən bir kimsə yox idi. Həmçinin, onu yaxalayıb öldürməyim qədər mənə sevimli olan bir istək də yox idi. Əgər bu halda ölsəydim, Cəhənnəm əhlindən olardım.

Elə ki, Allah qəlbimə İslamı yerləşdirdi, Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Uzat sağ əlini, sənə beyət edim!" O, sağ əlini *mənə tərəf* uzatdı, lakin mən əlimi geri çəkdim. Peyğəmbər ﷺ: **"Sənə nə olub, ey Amr?"**–

deyə soruşdu. Dedim: "Şərt kəsmək istəyirəm". Soruşdu: **"Nədir o şərt?"** Dedim: "Bağışlanmağımı *istəyirəm*". O buyurdu: **"Məgər bilmirsən ki, İslam özündən əvvəlki günahları yox edir, hicrət özündən əvvəlki günahları yox edir, həcc ziyarəti özündən əvvəlki günahları yox edir?!"**

Bundan sonra mənim üçün Rəsulullahdan ﷺ daha əziz və gözümdə ondan daha hörmətli bir kimsə qalmamışdı. Peyğəmbərə ﷺ bəslədiyim hörmətdən yana, ona baxmaqla gözlərimi doyura bilmirdim. Əgər məndən onu vəsf etmək tələb olunsaydı, mən onu vəsf edə bilməzdim. Çünki mən ona baxmaqla gözlərimi doyura bilmirdim. Əgər bu halda ölsəydim, Cənnət əhlindən olacağıma ümid edə bilərdim. Bundan sonra biz elə işlər gördük ki, mən bunlara görə aqibətimin necə olacağını bilmirəm. Mən öldükdən sonra cənazəmi nə vay-şivən salıb ağlayan qadın, nə də ki od müşayiət etsin. Məni dəfn edərkən torpağı üzərimə az-az tökün. Daha sonra qəbrimin yan-yörəsində bir dəvənin kəsilib, ətinin paylanılacağı vaxt qədər dayanın ki, sizin sayənizdə öz yerimə isinişim və Rəbbimin elçilərini necə qarşılayacağıma bir çarə qılım".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Hədisin ərəbcəsində keçən "şunnu" kəlməsi "az-az tökün" deməkdir. Daha doğrusunu isə uca Allah bilir.

Şərh:

Müəllifin رحمه الله **"Xeyirli işlərlə müjdə verməyin və bundan dolayı təbrik etməyin müstəhəb olması"** fəslində zikr etdiyi hədislər arasında Amr ibn əl-Asın رضي الله عنه hədisi də yer almışdır. Bu, çox möhtəşəm bir qissədir. Ölüm ayağında olarkən bəzi dostları ona baş çəkməyə gəlirlər. Bu zaman o, üzünü divara çevirib hönkür-hönkür ağlamağa başlayır. Halbuki, *bir azdan* öləcək və bu dünyanı *birdəfəlik* tərk edəcəkdir. Bu zaman oğlu *təsəlli vermək üçün* ona belə deyir: "*Atacan*, nəyə görə ağlayırsan? Axı Peyğəmbər ﷺ səni Cənnətlə müjdələmişdir". Onda Amr رضي الله عنه ona belə deyir: "Oğlum, mən artıq üç mərhələdən keçmişəm". Yəni, mən üç halda olmuşam. Uca Allahın: **"Siz mütləq haldan-hala keçib *dəyişəcəksiniz*"**[2] ayəsi də həmin mənanı ifadə edir. Yəni, bir haldan başqa bir hala keçəcəksiniz.

---

[1] "Səhih Muslim", 121.

[2] "əl-İnşiqaq" surəsi, 19.

Sonra Amr ibn əl-As ﷺ bu üç mərhələni zikr etməyə başlayır. İlk öncə, onun Peyğəmbərə ﷺ olan nifrəti çox şiddətli idi. Yer üzündə Peyğəmbərə ﷺ nifrət etdiyi qədər heç kimə nifrət etmirdi. Həm də onu yaxalayıb öldürmək niyyətində idi. Bu hal küfrün ən şiddətli və ən pik həddidir. Nəhayət, uca Allah onun qəlbinə İslamı yerləşdirdi və o, Peyğəmbərin ﷺ yanına gəlib ona belə dedi: "Ey Allahın elçisi, əlini uzat, İslamı yaşayacağıma dair sənə beyət edim". Rəsulullah ﷺ insanların ən əxlaqlısı idi. Odur ki, əlini ona tərəf uzatdı, lakin Amr ibn əl-As ﷺ əlini geri çəkdi. O, bunu təkəbbürlükdən dolayı etmədi, əksinə, beyət edəcəyi şeyi dəqiqləşdirmək istəyirdi. Onda Peyğəmbər ﷺ: **"Sənə nə olub, ey Amr?"**– deyə soruşdu, o da: "Ey Allahın elçisi, şərt kəsmək istəyirəm"– dedi. Yəni, İslamı qəbul edəcəyimin müqabilində şərt kəsmək istəyirəm. Peyğəmbər ﷺ soruşdu: **"Nədir o şərt?"** O dedi: "Bağışlanmağımı şərt qoyuram".

Amrın ﷺ ən böyük dərdi bu idi. O, Allahın onu bağışlamasını şərt qoyurdu. Keçmişdə etdiyi əməllərə görə Allahın onu bağışlamayacağını zənn edirdi. Onda Peyğəmbər ﷺ ona belə dedi: **"Məgər bilmirsən ki, İslam özündən əvvəlki günahları yox edir, hicrət özündən əvvəlki günahları yox edir, həcc ziyarəti özündən əvvəlki günahları yox edir?!"**

Burada Peyğəmbər ﷺ üç şeyi zikr edir:

1. İslama gəlincə onun, özündən əvvəlki günahları yox etməsi Quran ayəsi ilə sabit olmuşdur. Uca Allah belə buyurur: **"Kafir olanlara de ki, əgər *küfrə* son qoysalar, olub-keçənlər onlara bağışlanar. Yox, əgər *küfrə* qayıtsalar, əvvəlkilərin başına gələn aqibəti gözləsinlər".**[1]

2. Hicrət. Əgər bir insan yaşadığı küfr ölkəsindən hicrət edərsə, o zaman bu hicrət özündən əvvəlki günahları yox edir.

3. Həcc ziyarəti də özündən əvvəlki günahları yox edir. Bu xüsusda Peyğəmbər ﷺ ayrıca belə demişdir: **"Qəbul olunmuş həccin mükafatı yalnız Cənnətdir".**[2]

---

[1] "əl-Ənfal" surəsi, 38.

[2] "Səhih əl-Buxari", 1773; "Səhih Muslim", 1349.

Beləliklə, Amr ibn əl-As ﷺ Peyğəmbərə ﷺ beyət etdi. Bundan sonra o, Peyğəmbəri ﷺ hədsiz dərəcədə sevməyə başladı. O, Peyğəmbəri ﷺ hamıdan çox sevirdi. Hətta Peyğəmbərə ﷺ bəslədiyi hörmətdən yana, ona baxmaqla gözlərini doyura bilmirdi. Qəlbləri çevirən Allah pak və müqəddəsdir! Dünən kimi ona olmazın nifrət edirdi, hətta onu yaxalayıb öldürmək niyyətində idi, indi isə ona bəslədiyi sayğı və hörmətdən dolayı, başını qaldırıb ona baxa bilmir. Ona doyunca baxa bilmədiyi üçün onu vəsf edə bilmir. Çünki o, Peyğəmbərə ﷺ bəslədiyi sayğı və hörmətdən dolayı, ona yaxşı-yaxşı, *doyunca* baxa bilməmişdi.

Amr ﷺ deyir ki, "Əgər birinci halım üzərində ölsəydim, mütləq Cəhənnəm əhlindən olardım. Yox, əgər ikinci halım üzərində ölsəydim, Cənnət əhlindən olacağıma ümid edərdim". Burada Amrın ﷺ ehtiyat etdiyi bir incəliyə diqqət edin! O, birinci hal üzərində öləcəyi təqdirdə Cəhənnəm əhlindən olacağını qətiyyətlə qeyd edir. Amma ikinci hal üzərində öləcəyi təqdirdə Cənnət əhlindən olacağını, Allahdan qorxduğuna görə qətiyyətlə demir. Əksinə, ümid edərək: "Əgər bu hal üzərində ölsəydim, Cənnət əhlindən olacağıma ümid edərdim"– deyir. Çünki bir insanın, Cənnətlik olmasına dair şahidlik etməsi çox çətindir. Allahdan həm bizi, həm də sizi Cənnət əhlindən etməsini diləyirəm.

Sonralar Amr ﷺ ikinci mərhələnin ardından bir çox hadisələrlə rastlaşmışdır. Həmin dövrdə o həm Müaviyə ilə Əli ﷺ arasında baş verən döyüşün, həm də digər döyüşlərin şahidi olmuşdur. Amr ﷺ öz bacarığına və zəkasına görə ərəblər arasında yaxşı tanınırdı. Ona görə də o, ikinci mərhələdən sonra baş verən hadisələrdən qorxaraq, əməllərinin puç ola biləcəyindən ehtiyat edirdi.

Daha sonra Amr ﷺ, cənazəsində vay-şivən salan qadınların iştirak etməməsini vəsiyyət etdi. Həmçinin, onlardan dəfn zamanı qəbrinin yanında bir dəvənin kəsilib, ətinin paylanılacağı müddət qədər dayanmalarını da istədi – yəni, Rəbbinin elçilərinin suallarına cavab verənə qədər. Bu elçilər, cənazə dəfn edildikdən sonra onun yanına gələn mələklərdir. Belə ki, cənazə dəfn edildikdən sonra onun yanına iki mələk gəlir. Onlar onu qəbrində otuzdurur və ondan üç şey barədə soruşurlar: "Rəbbin kimdir?

Dinin nədir? Peyğəmbərin kimdir?" Allahın, dünya həyatında da, Axirətdə də möhkəm sözlə sabit saxladığı mömin bəndə belə deyər: "Rəbbim Allahdır, dinim İslamdır, Peyğəmbərim isə Muhəmməddir ﷺ". Uca Allah bu çətin və ağır məqamda onu sabit edər. Uca Allah bizi də, sizi də Öz lütfü sayəsində bu insanlardan etsin.

Münafiqlər, yaxud şəkk və şübhələr içində olanlar isə mızıldanaraq belə deyər: "Nə?.. Nə?.. Bilmirəm. İnsanların nə isə bir şey söylədiklərini eşitdim və mən də eynisini söylədim". Çünki iman onun qəlbinə girməmiş, onun qəlbində qərar tutmamışdı. Eşitdiyi sözü sadəcə təkrarlasa da, iman onun qəlbinə yerləşməmişdi. Odur ki, ona dəmirdən olan böyük bir çəkiclə elə bir zərbə vururlar ki, o, bağırmağa başlayır. Onun bu bağırtısını isə insanlardan başqa hər bir canlı eşidər.

Peyğəmbər ﷺ bu xüsusda belə demişdir: **"İnsanlar bunu eşitsəydi, ölərdi".**[1] Əgər insanlar qəbrində əzab verilənlərin səslərini eşitsəydilər, dərhal ölərdilər. Çünki həmin adam, dünyada heç bir bənzəri olmayan bir bağırtı ilə bağırır. Bu dünyadakı bağırtılar nə qədər bərk olursa-olsun, insanları öldürmür. Demək, qəbirdə olan bu bağırtının bu dünyada heç bir bənzəri yoxdur. Bu bağırtını insanlardan başqa hər bir canlı eşidir – əgər insanlar bu bağırtını eşitsəydilər, dərhal ölərdilər.

Bir sözlə, Amr رضي الله عنه öz yaxınlarından, dəfni zamanı qəbrinin yanında bir dəvənin kəsilib, ətinin paylanılacağı müddət qədər dayanmalarını istədi ki, bunun sayəsində öz yerinə isinişsin. Bu ona dəlalət edir ki, ölən adam öz yaxınlarının *onun yanında olmasını* hiss edir. Həm də Peyğəmbərdən ﷺ sabit olmuşdur ki, ölü dəfn edildikdən sonra onun yaxınları dönüb getdikdə, o, onların ayaqqabılarının səsini eşidir.[2] Diqqət edin! Ölü, onu dəfn etdikdən sonra geri qayıdan yaxınlarının yüngül ayaq səslərini eşidir.

Həsən isnadla sabit olmuş bir hədisdə deyilir ki, Peyğəmbər ﷺ cənazəni dəfn etdikdən sonra onun qəbrinin başında durar və belə deyərdi: **"Qardaşınız üçün bağışlanma diləyin və *Allahdan* onun sabit olmasını istəyin! Çünki o, indi sorğu-sual olunur".**[3]

---

[1] "Səhih əl-Buxari", 1380.

[2] "Səhih əl-Buxari", 1374; "Səhih Muslim", 2870.

[3] "Sunən Əbu Davud", 3221. Şeyx Albani bu hədisin "həsən" olduğunu demişdir.

Buna əsasən, cənazə dəfn olunduqdan sonra onun qəbrinin başında dayanıb: "Allahım, onu sabit et! Allahım, onu sabit et! Allahım, onu sabit et! Allahım, onu bağışla! Allahım, onu bağışla! Allahım, onu bağışla!"– deyə dua etmək müstəhəbdir. Çünki Peyğəmbər ﷺ həm salam verdikdə, həm də dua etdikdə onu üç dəfə təkrar edərdi.[1]

Allah həm bizi, həm də sizi bu dünyada da, Axirətdə də möhkəm sözlə – kəlmeyi-şəhadətlə sabit etsin.

Xülasə budur ki, Amr ibn əl-Asın رضي الله عنه oğlu ona: "Atacan, məgər Rəsulullah ﷺ səni Cənnətlə müjdələməyibmi?!"– demişdir ki, bu da öz növbəsində "Xeyirli işlərlə müjdə vermək və bundan dolayı təbrik etmək" fəslinə aiddir. Müvəffəq edən Allahdır.

[1] "Səhih Muslim", 1794.

Doxsan altıncı fəsil

Bir adamın, səfər və başqa bu kimi səbəblərdən dolayı öz yoldaşından ayrılarkən onunla vidalaşması, ona vəsiyyətini etməsi, onun üçün dua etməsi və ondan dua etməsini istəməsi

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah belə buyurur:

﴿ وَوَصَّىٰ بِهَآ إِبۡرَٰهِـۧمُ بَنِيهِ وَيَعۡقُوبُ يَٰبَنِيَّ إِنَّ ٱللَّهَ ٱصۡطَفَىٰ لَكُمُ ٱلدِّينَ فَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم مُّسۡلِمُونَ * أَمۡ كُنتُمۡ شُهَدَآءَ إِذۡ حَضَرَ يَعۡقُوبَ ٱلۡمَوۡتُ إِذۡ قَالَ لِبَنِيهِ مَا تَعۡبُدُونَ مِنۢ بَعۡدِي قَالُواْ نَعۡبُدُ إِلَٰهَكَ وَإِلَٰهَ ءَابَآئِكَ إِبۡرَٰهِـۧمَ وَإِسۡمَٰعِيلَ وَإِسۡحَٰقَ إِلَٰهٗا وَٰحِدٗا وَنَحۡنُ لَهُۥ مُسۡلِمُونَ ﴾

“İbrahim də, Yəqub da bunu oğullarına vəsiyyət etdilər: “Oğullarım, həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!” Yoxsa siz Yəquba ölüm gəldiyi zaman *onun* yanında idiniz? O zaman o, öz oğullarına demişdi: “Məndən sonra nəyə ibadət edəcəksiniz?” Onlar dedilər: “Sənin İlahına, ataların İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik. Biz yalnız Ona təslim olanlarıq!”[1]

Şərh:

Müəllif ﷺ, “Salehlər bağçası” adlı kitabındakı bu fəslə **“Bir adamın, səfər və başqa bu kimi səbəblərdən dolayı öz yoldaşından ayrılarkən onunla vidalaşması, ona vəsiyyətini etməsi, onun üçün dua etməsi və ondan dua etməsini istəməsi”** adını vermişdir.

Belə ki, bir insan səfərə çıxdığı zaman, onun qohumlarının və yaxın dostlarının onunla vidalaşmaları və ona Allahdan qorxmağı tövsiyə etmələri gərəkdir. Bu xüsusda uca Allah belə buyurur: **“Biz sizdən əvvəl Kitab verilənlərə də, sizə də: “Allahdan qorxun!”– deyə buyurduq”.**[2]

---

[1] “əl-Bəqərə” surəsi, 132-133.

[2] “ən-Nisa” surəsi, 131.

Peyğəmbər ﷺ *istənilən* bir ordu və ya döyüşçü dəstəsi hazırlayıb onların üzərində əmir təyin etdiyi zaman həmin əmirə belə deyərdi: **"Sənə Allahdan qorxmağı və tabeçiliyində olan müsəlmanlarla yaxşı davranmağı tövsiyə edirəm".**[1] Çünki insan *hər zaman*, ələlxüsus da səfərdə olduqda, Rəbbinə itaətdə ona kömək edəcək insanlara ehtiyac duyur. Ona görə ki, səfər zamanı insanın işləri çoxalır və bundan dolayı da *ibadətində* naqisliklər ola bilir. Xüsusən də keçmişdə *at, uzunqulaq və bu kimi* miniklərdə və ya piyada uzunmüddətli səfərlərə çıxarkən, insanlar vəsiyyət etməyə və köməyə ehtiyac duyardılar.

Sonra müəllif رحمه الله fəslin mövzusu barədə varid olan ayələri zikr etmişdir. Uca Allah buyurur: **"İbrahim də, Yəqub da bunu oğullarına vəsiyyət etdilər: "Oğullarım, həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!"** Bu vəsiyyət uca Allahın İbrahimə عليه السلام olan əmridir. Bu xüsusda uca Allah belə buyurur: **"Bir zaman Rəbbi ona: "Müsəlman ol!"– dedikdə, o: "Aləmlərin Rəbbinə təslim oldum!"– demişdi".**[2] İbrahim عليه السلام də dərhal, heç bir tərəddüd etmədən Allaha təslim olmuş və Ona itaət etmişdir. Sonra da İbrahim عليه السلام və Yəqub عليه السلام uca Allahın bu əmrini, yəni həm zahirən, həm də daxilən Allaha təslim olmağı öz oğlanlarına vəsiyyət etmişlər. Zahirən təslim olmaq dedikdə, bu, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq və həcc etməklə olur. Daxilən təslim olmaq dedikdə isə, Allaha, Onun mələklərinə, kitablarına və digər etiqad məsələlərinə iman gətirməklə olur.

"İbrahim də, Yəqub da bunu oğullarına vəsiyyət etdilər: "Oğullarım, həqiqətən, Allah bu dini sizin üçün seçmişdir...". Yəni, həm İbrahim عليه السلام, həm də Yəqub عليه السلام öz oğlanlarına vəsiyyət edərkən belə demişlər: **"Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir...".** Elə isə, **"Siz də ancaq müsəlman olaraq ölməlisiniz!"** Yəni, İslam dininə tabe olun və ölənə qədər onun üzərində sabit qalın, ondan üz döndərməyin.

"Yoxsa siz Yəquba ölüm gəldiyi zaman *onun* yanında idiniz? O zaman o, öz oğullarına demişdi: "Məndən sonra nəyə ibadət edəcəksiniz?" Onlar dedilər: "Sənin İlahına, ataların İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik". Bu, tövhidin pik nöqtəsidir.

---

[1] "Səhih Muslim", 1731.

[2] "əl-Bəqərə" surəsi, 131.

Bu həm də Yəqubun ﷺ öz oğlanlarına olan vəsiyyətidir. Belə ki, o, bu dünyadan ayrılmadan öncə övladlarının hallarını bilmək istəmiş və onlara belə demişdir: **"Məndən sonra nəyə ibadət edəcəksiniz?"** Onlar da cavabında belə demişlər: **"Sənin İlahına, ataların İbrahimin, İsmailin və İshaqın İlahı olan Tək İlaha ibadət edəcəyik".**

İbrahim ﷺ Yəqubun babası, İshaq atası, İsmail isə əmisidir. Uca Allahın bu ayədə **"ataların"** deməsi isə çoxluğa görədir. Çünki əmi, ata yerindədir. Belə ki, Peyğəmbər ﷺ Ömərə رضي الله عنه belə demişdir: ***"Ey Ömər,* məgər bilmirsənmi ki, kişinin əmisi onun atası yerindədir?!"**[1] Yəni, əmi əsildə və kökdə ataya şərikdir. Ərəb dilində "sınvun" kəlməsi, bir kökdən əmələ gələn iki xurma ağacına deyilir. El arasında buna "qərain" (oxşarlar) də deyirlər.

"...Tək İlaha ibadət edəcəyik". Bu, özündən əvvəlki sözün daha bir təsdiqidir. Sonra onlar belə dedilər: **"Biz yalnız Ona təslim olanlarıq!"**

Hər bir insanın səfərə çıxan adama bu tövsiyələri etməsi çox gərəklidir. Həmçinin, insan bu tövsiyələri davamlı şəkildə öz ailəsinə də etməlidir. Çünki hər bir şey bu təməlin üzərində qurulmuşdur. İxlas olmadan din ola bilməz, ixlas olmadan ibadət ola bilməz, ixlas olmadan Peyğəmbərə ﷺ itaət ola bilməz – hər bir şeyin təməli izzətli və qüdrətli Allaha olan ixlas üzərində qurulmuşdur.

Ey aləmlərin Rəbbi olan Allahım! Bizi, dini məhz Sənə məxsus edərək yalnız Sənə ibadət edənlərdən et!

Mövzu ilə bağlı hədislər:

٧١٢ – فَمِنْهَا حَدِيثُ زَيدِ بْنِ أَرْقَمَ رضي الله عنه - الذي سَبَقَ فِي بَابِ إِكْرَامِ أَهْلِ بَيْتِ رَسُولِ اللَّهِ ﷺ - قَالَ: قَامَ رَسُولُ اللَّهِ ﷺ فِينَا خَطِيباً، فَحَمِدَ اللَّهَ، وَأَثْنَى عَلَيهِ، وَوَعَظَ وَذَكَّرَ ثُمَّ قَالَ: « أَمَّا بَعْدُ، أَلَا أَيُّهَا النَّاسُ، إِنَّمَا أَنَا بَشَرٌ يُوشِكُ أَنْ يَأْتِيَ رَسُولُ رَبِّي فَأُجِيبَ، وَأَنَا تَارِكٌ فِيكُمْ ثَقَلَيْنِ: أَوَّلُهُمَا: كِتَابُ اللَّهِ، فِيهِ الهُدَى وَالنُّورُ، فَخُذُوا بِكِتَابِ اللَّهِ، وَاسْتَمْسِكُوا بِهِ » فَحَثَّ عَلَى كِتَابِ اللَّهِ، وَرَغَّبَ فِيهِ، ثُمَّ قَالَ: « وَأَهْلُ بَيْتِي، أُذَكِّرُكُمُ اللَّهَ فِي أَهْلِ بَيْتِي » رواه مسلم. وَقَدْ سَبَقَ بطُولِهِ .

[1] "Səhih Muslim", 983.

712. Bunlardan biri, Rəsulullahın ﷺ Əhli-beytinə hörmət etməklə bağlı fəsildə keçən Zeyd ibn Ərqamın رضي الله عنه hədisidir. O, belə demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ aramızda olarkən ayağa qalxıb bizə xütbə verdi. O, Allaha həmd-sənalar etdikdən sonra *bəzi* nəsihətlər edib *bizə bir çox şeyləri* xatırlatdı və belə buyurdu: **"Sonrasına gəlincə... Ey insanlar, mən də bir bəşərəm. Yaxında Rəbbimin elçisi mənim də yanıma gələcək və mən onun dəvətini qəbul edəcəm. Mən sizin üçün iki önəmli şeyi tərk edirəm. Birincisi Allahın kitabıdır. Onda hidayət və nur vardır. Elə isə, Allahın kitabını götürün və ondan möhkəm yapışın".** Sonra Rəsulullah ﷺ *bizi* Allahın kitabına tabe olmağa və ondan möhkəm yapışmağa həvəsləndirdi. Daha sonra isə belə buyurdu: **"Sizə bir də Əhli-beytimi tərk edirəm. Əhli-beytim xüsusunda Allahdan *qorxmağınızı* xatırladıram".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1] Bu hədis tam olaraq daha öncə zikr olunmuşdur.

٧١٣ – وَعَنْ أَبِي سُلَيْمَانَ مَالِكِ بْنِ الحُوَيْرِثِ رضي الله عنه قَالَ: أَتَيْنَا رَسُولَ اللَّهِ ﷺ وَنَحْنُ شَبَبَةٌ متقَارِبُونَ، فَأَقَمْنَا عِنْدَهُ عِشْرِينَ لَيْلَةً، وَكَانَ رَسُولُ اللَّهِ ﷺ رَحِيماً رَفِيقاً، فَظَنَّ أَنَّا قَدِ اشْتَقْنَا أَهْلَنَا. فَسَأَلَنَا عَمَّنْ تَرَكْنَا مِنْ أَهْلِنَا، فَأَخْبَرْنَاهُ، فَقَالَ: « ارْجِعُوا إِلَى أَهْلِيكُمْ فَأَقِيمُوا فِيهِمْ، وَعَلِّمُوهُمْ وَمُرُوهُمْ، وَصَلُّوا صَلَاةَ كَذَا فِي حِينِ كَذَا، وَصَلُّوا كَذَا فِي حِينِ كَذَا، فَإِذَا حَضَرَتِ الصَّلَاةُ فَلْيُؤَذِّنْ لَكُمْ أَحَدُكُمْ، وَلْيَؤُمَّكُمْ أَكْبَرُكُمَ » متفقٌ عليه.

زاد البخاري في رواية له: « وَصَلُّوا كَمَا رَأَيْتُمُونِي أُصَلِّي ».

قوله: « رَحِيماً رفيقاً » رويَ بفاءٍ وقافٍ، ورويَ بقافينِ.

713. Rəvayət edilir ki, Əbu Süleyman Malik ibn Huveyris رضي الله عنه demişdir: "Biz – bir dəstə həmyaşıd gənc, Rəsulullahın ﷺ yanına gəldik və iyirmi gecə onun yanında qaldıq. Rəsulullah ﷺ rəhmli və ürəyiyumşaq adam idi. O, ailəmiz üçün darıxdığımızı hiss etdikdə, bizdən ailəmizdən kimləri qoyub gəldiyimizi xəbər aldı. Biz də ona xəbər verdik. Onda o, belə buyurdu: **"Ailələrinizin yanına qayıdın və onların yanında qalın! Onlara *dinlərini* öyrədin və *yaxşı işlər görməyi* əmr edin. Filan vaxtda filan namazı, filan vaxtda da filan namazı qılın. Namaz vaxtı yetişdiyi**

[1] "Səhih Muslim", 2408.

zaman biriniz sizin üçün azan versin. Sonra ən yaşlınız sizə namaz qıldırsın".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Buxarinin rəvayətində isə əlavə olaraq belə də deyilir: **"Mənim necə namaz qıldığımı görürsünüzsə, siz də elə namaz qılın!"**

Hədisin ərəbcəsində keçən "rafiyqan" (ürəyiyumşaq) kəlməsi, *bəzi rəvayətlərdə* "raqiyqan" kimi də gəlmişdir.

Şərh:

Müəllifin ﵀ "Salehlər bağçası" adlı kitabının **"Bir adamın, səfər və başqa bu kimi səbəblərdən dolayı öz yoldaşından ayrılarkən onunla vidalaşması, ona vəsiyyətini etməsi, onun üçün dua etməsi və ondan dua etməsini istəməsi"** adlı fəslində zikr etdiyi bu hədisdə rəvayət edilir ki, Malik ibn Huveyris ﵁ demişdir: "Biz, bir dəstə həmyaşıd gənc, Rəsulullahın ﷺ yanına gəldik". Bu hadisə hicrətin doqquzuncu ilində – *ərəb qəbilələrindən olan* nümayəndələrin *dəstə-dəstə Peyğəmbərin ﷺ yanına gəldiyi* ildə baş vermişdir. Onların hamısı gənc idi və iyirmi gecə Peyğəmbərin ﷺ yanında qaldılar. Onlar *Peyğəmbərin ﷺ yanına* Allahın dinini öyrənmək üçün gəlmişdilər. Malik ibn Huveyris ﵁ deyir ki, *Rəsulullah ﷺ* bizim darıxdığımızı, yəni ailəmiz üçün darıxdığımızı hiss etdikdə, bizdən ailəmizdən kimləri qoyub gəldiyimizi xəbər aldı və *biz də ona bu barədə xəbər verdik.* Onda o, bizə belə dedi: **"Ailələrinizin yanına qayıdın və onların yanında qalın! Onlara *dinlərini* öyrədin və *yaxşı işlər görməyi* əmr edin. Filan vaxtda filan namazı, filan vaxtda da filan namazı qılın. Namaz vaxtı yetişdiyi zaman biriniz sizin üçün azan versin. Sonra ən yaşlınız sizə namaz qıldırsın".** Buxarinin rəvayətində isə əlavə olaraq belə deyilir: **"Mənim necə namaz qıldığımı görürsünüzsə, siz də elə namaz qılın!"**

Bu hədisdə bir çox faydalar vardır:

1. Peyğəmbər ﷺ rəhmli və ürəyiyumşaq olmağına görə məşhur idi. O, insanların ən mərhəmətlisi idi. Habelə, insanlara qarşı ən mülayim bir şəkildə davranan bir insan idi. Hətta elə olurdu ki, körpə bir qız uşağı

[1] "Səhih əl-Buxari", 631; "Səhih Muslim", 673.

Rəsulullahın ﷺ əlindən tutub onu istədiyi yerə aparırdı ki, ehtiyacını ödəməkdə Peyğəmbər ﷺ ona yardım etsin. Yaşlı qadınlar da həmçinin, bu cür edərdilər. Bu da onu göstərir ki, Peyğəmbər ﷺ insanlara qarşı ən rəhmli və onlarla ən yumşaq davranan bir şəxs idi.

2. İnsan başqalarının nə hiss etdiyini anlamağa çalışmalı və bu məsələdə diqqətcil olmalıdır – öz işləri qaydasına düşdükdən sonra başqalarını unudan eqoist və xudbin olmamalıdır. Rəsulullah ﷺ öz ailəsinin yanında idi. İşləri qaydasında, qəlbi də rahat idi. Lakin bu gənclər *öz ailələrini tərk edib* dinlərini öyrənməyə gəlmişdilər. İnsan fitrətinə və təbiətinə görə də adətən, belə bir halda adam öz ailəsi üçün darıxır. Peyğəmbər ﷺ də bu gənclərin, öz ailələri üçün darıxdıqlarını hiss etdikdə, onlardan ailələrindən kimləri qoyub gəldiklərini xəbər aldı. Onlar da bu barədə xəbər verdikdə, Peyğəmbər ﷺ onlara öz ailələrinin yanına qayıtmalarını əmr etdi.

Demək, sən də başqalarının nə hiss etdiyini anlamağa çalışmalı və özünü onların yerində hiss etməlisən ki, insanlarla, onların səninlə necə davranmalarını istədiyin bir davranışla davrana bilərsən.

3. İnsan, imkan daxilində ailəsinin yanında qalmalıdır. Onları *uzun müddətə təkbaşına qoyub* qürbətdə olmamalı və onlardan uzaqlaşmamalıdır. Hətta Rəsulullah ﷺ, işlərini qurtaran müsafirə dərhal ailəsinin yanına qayıtmağı əmr etmişdi. Çünki insanın öz ailəsinin yanında qalmasında bir çox faydalar vardır. Məsələn, bu, ülfət, sevgi və məhəbbətə səbəb olur. *Bu zaman insan* öz ailəsinin tərbiyəsi ilə *daha çox* məşğul olur və onların ehtiyaclarını qarşılaya bilir. Ona görə də insan, ehtiyac olmadıqca ailəsindən ayrılmamalı, ayrılacağı təqdirdə isə, işlərini bitirən kimi, dərhal ailəsinin yanına qayıtmalıdır.

4. İnsana, ailəsinə dini öyrətmək əmr olunmuşdur. Ona görə də Peyğəmbər ﷺ həmin gənclərə: **"Ailələrinizin yanına qayıdın və onlara *dinlərini* öyrədin..."** deyə buyurmuşdur. Onlar da Rəsulullahdan ﷺ öyrəndiklərini öz ailələrinə öyrədəcəkdilər. Demək, hər bir insan, ailəsinin ehtiyac duyduğu şeyləri onlara öyrətməlidir. Bunun üçün ya onlara xüsusi bir vaxt ayırmalı, ya da yemək və içmək əsnasında onları öyrətməlidir. Yaxud yataqda, yuxuya gedənə qədər, ya da başqa bu kimi məqamlarda da bunu edə bilər.

5. İnsan, sadəcə elm verməklə də kifayətlənməməlidir. Çünki Peyğəmbər ﷺ onlara belə buyurur: **"Onlara *dinlərini* öyrədin və *yaxşı işlər görməyi* əmr edin".** Demək, onlara həm *dini əhkamları* öyrətməli, həm də *bunları yerinə yetirməyi* əmr etməlidir. Əmr edəcəyi ən önəmli əməl isə namazdır. Çünki Peyğəmbər ﷺ namazı xüsusilə vurğulamış və belə buyurmuşdur: **"Övladlarınız yeddi yaşına çatdıqda, onlara namaz qılmağı əmr edin, on yaşına çatdıqda isə *namaz qılmadıqda*, buna görə onları *yüngülcə* vurun".**[1] Demək, ailəyə dini əhkamları öyrətmək, fərz əməlləri yerinə yetirməyi əmr etmək və daim onlara doğru yol göstərmək şərtdir.

6. Azan oxumaq fardu-kifayədir[2]. Çünki Peyğəmbər ﷺ belə buyurur: **"Namaz vaxtı yetişdiyi zaman, biriniz sizin üçün azan versin".**

7. Vaxtından əvvəl azan vermək səhih sayılmır. Əgər bir insan namazın vaxtı girmədən öncə, hətta bir dəfə "Allahu əkbər" deyib, azan verməyə başlayarsa, onun azanı keçərli sayılmır. Həmin adama namazın vaxtı girdikdən sonra yenidən azan vermək vacibdir. Çünki Peyğəmbər ﷺ: **"Namaz vaxtı yetişdiyi zaman..."**– deyə buyurmuşdur.

Beləliklə, *azan barəsində* bunu öyrənmiş oluruq: Rəsulullah ﷺ Bilala belə buyurmuşdur: **"Sübh namazının birinci azanını oxuduqda, "əs-salatu xayrun minən-nəum, əs-salatu xayrun minən-nəum"[3] de!"**[4] Burada namazın vaxtı girdikdən sonra verilən azan qəsd olunur. Çünki hədisdə: **"Sübh namazının birinci azanı"** deyilir.

Bəziləri bunun əksini başa düşmüş və bu azanın dan yeri sökülməmişdən öncə verilən azan olduğunu zənn etmişlər. Çünki dan yeri sökülməmişdən öncə verilən azan sübhün yaxınlaşdığını bildirir. Axı Peyğəmbər ﷺ dan yeri sökülməmişdən öncə verilən azanın yatmışı oyatmaq, namaz qılanı da dayandırmaq üçün olduğunu bildirərək belə demişdir: **"Sizdən heç birinizi Bilalın azanı səhurundan saxlamasın. Çünki Bilal, namaz qılanınıza namazı saxlamaq və yatanınızı da oyatmaq üçün azan verir. Elə isə, İbn Ummu Məktum azan verənə qədər yeyin-için. Çünki**

---

[1] "Sunən Əbu Davud", 495; "Sunən ət-Tirmizi", 407; "Səhih əl-Cami", 5868.

[2] Fardu-kifayə, müəyyən adamların yerinə yetirəcəyi təqdirdə, başqalarına vacib olmayan əməldir.

[3] Tərcüməsi: namaz yatmaqdan xeyirlidir.

[4] "Musnəd İmam Əhməd", 3/408.

o, dan yeri sökülmədən öncə azan verməz".[1] Beləliklə, Peyğəmbər ﷺ bu hədisdə, gecənin sonunda verilən və insanların ilk azan adlandırdığı azanın sübh namazının azanı olmadığını bəyan etmişdir. Çünki namaz üçün verilən azan yalnız həmin namazın vaxtı girdikdən sonra verilir. Axı Peyğəmbər ﷺ belə demişdir: **"Namaz vaxtı yetişdiyi zaman biriniz sizin üçün azan versin".** Eyni zamanda, Peyğəmbər ﷺ bu azanın sübh namazının azanı olmadığını bəyan etmiş və belə demişdir: **"Çünki Bilal, namaz qılanınıza namazı saxlamaq"**, yəni səhur yeməyi yemək üçün namazı dayandırmaq, **"yatanınızı da oyatmaq üçün azan verir"**, yəni oyanıb səhur etməsi üçün.

8. Camaatla namaz qılmaq vacibdir. Çünki Peyğəmbər ﷺ: **"Sonra ən yaşlınız sizə namaz qıldırsın"**– deyə buyurmuşdur. Bu hədisin ərəbcəsində keçən "liyəumməkum" felindəki "ləm" hərfi əmr formasını bildirir. Bu da camaat namazının vacib olduğuna dəlalət edir.

9. Camaat namazı yerli sakinlərə vacib olduğu kimi, müsafirlərə də vacibdir. Çünki bu gənclər nümayəndələr idi və ailələrinin yanına qayıdacaqdılar. Demək, onlar müsafir sayılırlar. Amma buna rəğmən Peyğəmbər ﷺ onlara camaatla namaz qılmağı əmr etmişdir. Buna əsasən də, əgər bir insan yad ölkədədirsə, yəni müsafirdirsə, ona məscidə gedib camaat namazında iştirak etmək vacibdir.

Bəzi avamlara: "Namazı camaatla qıl!"– dedikdə, "Mən müsafirəm. Müsafirə camaat namazı vacib deyil"– deyə cavab verir. Əksinə, müsafir olsan belə, məscidlərə gedib camaat namazlarına qoşulmağın vacibdir. Sən də, həmin ölkənin əhalisi də bu məsələdə eyni hökmdəsiniz. Çünki Peyğəmbər ﷺ bir səhabədən: **"Azanı eşidirsənmi?"**– deyə soruşmuş, o da: "Bəli!"– deyə cavab verdikdə, ona belə demişdir: **"Elə isə *azana* cavab ver!"**

10. İmam durmaq məsələsində yaşca böyük olan şəxs önə çəkilir. Çünki Peyğəmbər ﷺ: **"Sonra ən yaşlınız sizə namaz qıldırsın"**– deyə buyurmuşdur. Bu hədis, Peyğəmbərin ﷺ "**Bir qövmə, aralarında Allahın Kitabını ən yaxşı bilən kimsə imamlıq etməlidir"** hədisinə heç də zidd deyildir. Çünki bu gənclərin hamısı Rəsulullahın ﷺ yanına eyni zamanda gəlmişdilər. Görünən də odur ki, Quran oxumaq xüsusunda onlar arasında

[1] "Səhih əl-Buxari", 1919; "Səhih Muslim", 1093.

böyük bir fərq yox idi. Həm də onlar yaşca bir-birilərinə yaxın olub, *Quran oxumaq xüsusunda da* biri digərindən üstün deyildilər. Ona görə də Peyğəmbər ﷺ onlara belə buyurdu: **"Sonra ən yaşlınız sizə namaz qıldırsın".** Çünki onlar Quran oxumaq xüsusunda eyni səviyyədə idilər. Demək, insanlar həm Quran oxumaq, həm Sünnəni bilmək, həm də hicrət xüsusunda eyni səviyyədədirlərsə, o zaman imamlıq məsələsində yaşca ən böyük olana üstünlük verilir.

11. Böyüklərə üstünlük vermək. Lakin bir şərtlə ki, yaşca böyük olan həmin adamdan digər cəhətlərinə görə üstün olan başqa birisi olmasın.

12. İnsanlara yol göstərən rəhbər, hər bir məsələdə, hətta onların bildikləri məsələ olsa belə, onları həmin yola yönləndirməlidir. Ona görə də Peyğəmbər ﷺ onlara: **"Filan vaxtda filan namazı, filan vaxtda da filan namazı qılın"**– demişdir. Halbuki, onlar iyirmi gün Peyğəmbərlə ﷺ birlikdə namaz qılmışdılar və namazın qılınma qaydasını bilirdilər. Lakin bu, bir növ xatırlatma idi. Sanki Peyğəmbər ﷺ onlara belə demək istəmişdir: "Zöhr namazını filan vaxtda, əsr namazını filan vaxtda, məğrib namazını filan vaxtda, işa namazını filan vaxtda, sübh namazını da filan vaxtda qılın".

13. Rəsulullah ﷺ insanları həm sözlə, həm də hərəkətlə öyrədirdi. *Məsələn,* namazını tələm-tələsik qılan adamı sözlə öyrədərək, ona belə demişdir: **"Namaza durmaq istədikdə, kamil şəkildə dəstəmaz al, sonra qibləyə tərəf üz tut və təkbir gətir. Sonra Qurandan sənə asan gələni oxu, sonra rükuya get *və bunu* rahat-rahat yerinə yetir...".**[1]

Lakin bu gənclərə: **"Mənim necə namaz qıldığımı görürsünüzsə, siz də elə namaz qılın!"**– deyə buyurmuşdur. Peyğəmbər ﷺ üçün minbər düzəldiləndə də o, eynilə belə etmişdir: minbərin üzərinə qalxmış və insanlara namazı onun üzərində qıldırmışdır. O, minbərin üzərində ikən rüku edir, səcdə etmək istədikdə isə, üzünü qiblədən çevirmədən *dal-dala addım ataraq* minbərdən aşağı enir və səcdə edirdi. Salam verib *namazı bitirdikdən* sonra da belə demişdir: **"Mən belə etdim ki, siz də mənə baxıb mənim etdiklərimi edəsiniz və mənim necə namaz qıldığımı öyrənəsiniz".**[2]

---

[1] "Səhih əl-Buxari", 6667; "Səhih Muslim", 397.

[2] "Səhih əl-Buxari", 917; "Səhih Muslim", 544.

14. Hər bir insana, Peyğəmbərin ﷺ necə namaz qıldığını öyrənməsi fərzdir. Bunun üçün o, elminə güvənilən insanların yazdığı kitablardan Rəsulullahın ﷺ necə namaz qıldığını öyrənməlidir. Bununla o, Rəsulullahın: **"Mənim necə namaz qıldığımı görürsünüzsə, siz də elə namaz qılın!"** əmrini layiqincə yerinə yetirmiş olar. Müvəffəq edən Allahdır.

٧١٤ – وَعَنْ عُمَرَ بْنِ الخَطَّابِ رضي الله عنه قال: اسْتَأْذَنْتُ النَّبِيَّ ﷺ فِي الْعُمْرَةِ، فَأَذِنَ، وقَالَ: « لَا تَنْسَنَا يَا أُخَيَّ مِنْ دُعَائِكَ » فَقَالَ كَلِمَةً مَا يَسُرُّنِي أَنَّ لِي بِهَا الدُّنْيَا.

وفي رواية قَالَ: « أَشْرِكْنَا يَا أُخَيَّ فِي دُعَائِكَ » رواه أبو داود، والترمذي وقال: حديث حسن صحيح.

814. Rəvayət edilir ki, Ömər ibn əl-Xəttab رضي الله عنه belə demişdir: "*Bir dəfə mən* ümrə etmək üçün Peyğəmbərdən ﷺ icazə aldım. O, mənə icazə verdi və belə dedi: **"Ey qardaşım, dualarında bizi unutma!"** Bu, mənim üçün elə bir söz idi ki, onun yerinə dünya mənim olsaydı, bu qədər sevinməzdim".

Başqa bir rəvayətdə isə belə deyilir: **"Ey qardaşım, dualarına bizi də şərik et!"**

Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

٧١٥ – وَعَنْ سَالِمِ بْنِ عَبْدِ اللَّهِ بْنِ عُمَرَ أَنَّ عَبْدَ اللَّهِ بْنِ عُمَرَ رضي الله عنهما كَانَ يَقُولُ لِلرَّجُلِ إِذَا أَرَادَ سَفَراً: ادْنُ مِنِّي حَتَّى أُوَدِّعَكَ كَمَا كَانَ رَسُولُ اللَّهِ ﷺ يُوَدِّعُنَا. فَيَقُولُ: « أَسْتَوْدِعُ اللَّهَ دِينَكَ، وَأَمَانَتَكَ، وَخَوَاتِيمَ عَمَلِكَ ». رواه الترمذي، وقال: حديث حسن صحيح.

715. Salim ibn Abdullah ibn Ömər rəvayət edir ki, Abdullah ibn Ömər رضي الله عنهما səfərə çıxmaq istəyən adama belə deyərdi: "Mənə yaxın gəl ki, Rəsulullahın ﷺ bizimlə vidalaşdığı kimi, mən də sənlə vidalaşım. O, *bizimlə vidalaşdıqda* belə deyərdi: **"Səni dinin, əmanətin və əməllərinin sonu xüsusunda Allaha əmanət edirəm!"**[2]

---

[1] "Sunən Əbu Davud", 1498; "Sunən ət-Tirmizi", 3562; "Daif əl-Cami", 6278.

[2] Transkripsiyası: Əstəudiu-llahə dinəkə və əmanətəkə və xavatimə aməlikə.

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

٧١٦ – وَعَنْ عَبْدِ اللَّهِ بْنِ يَزِيدَ الخَطْمِيِّ الصَّحَابِيِّ رضي الله عنه قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذا أَرَادَ أَنْ يُوَدِّعَ الجَيْشَ قَالَ: « أَسْتَوْدِعُ اللَّهَ دِينَكُمْ، وَأَمَانَتَكُمْ، وَخَوَاتِيمَ أَعْمَالِكُمْ ».

حديث صحيح، رواه أبو داود وغيره بإسناد صحيح.

716. Rəvayət edilir ki, səhabə olan Abdullah ibn Yezid əl-Xatmi رضي الله عنه belə demişdir: "Rəsulullah ﷺ ordu ilə vidalaşmaq istədikdə, belə deyərdi: **"Sizi dininiz, əmanətiniz və əməllərinizin sonu xüsusunda Allaha əmanət edirəm!"**[2]

Hədis səhihdir. Bu hədisi Əbu Davud və başqaları səhih isnadla rəvayət etmişlər.[3]

٧١٧ – وَعَنْ أَنَسٍ رضي الله عنه قَالَ: جَاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ﷺ فَقَالَ: يَا رَسُولَ اللَّهِ، إِنِّي أُرِيدُ سَفَراً، فَزَوِّدْنِي، فَقَالَ: « زَوَّدَكَ اللَّهُ التَّقْوَى ». قال: زِدْنِي، قَالَ: « وَغَفَرَ ذَنْبَكَ » قَالَ: زِدْنِي، قَالَ: « وَيَسَّرَ لَكَ الخَيْرَ حَيْثُمَا كُنْتَ» رواه الترمذي وقال: حديث حسن.

717. Rəvayət edilir ki, Ənəs رضي الله عنه belə demişdir: "Bir nəfər Peyğəmbərin ﷺ yanına gəlib belə dedi: "Ey Allahın elçisi, mən səfərə çıxmaq istəyirəm. Mənə azuqə olaraq bir şey ver". *Peyğəmbər* ﷺ də ona: **"Azuqə olaraq Allah sənə təqva nəsib etsin!"**– dedi. Adam: "Bir az da artır"– dedi. *Peyğəmbər* ﷺ buyurdu: **"Günahını bağışlasın!"** Adam yenə: "Bir az da artır"– dedi, *Peyğəmbər də* ﷺ buyurdu: **"Harada olursan ol, xeyirli olanı sənin üçün asanlaşdırsın!"**[4]

Bu hədisi Tirmizi rəvayət etmiş və: "həsən hədisdir"– demişdir.[5]

---

[1] "Sunən ət-Tirmizi", 3443; "Silsilət əl-Əhadis əs-Səhihə", 14.

[2] Transkripsiyası: Əstəudiu-llahə dinəkum və əmanətəkum və xavatimə aməlikum.

[3] "Sunən Əbu Davud", 2601; "Səhih əl-Cami", 4657.

[4] Transkripsiyası: Zəvvadəkə-llahut-təqva, və ğafəra zənbəkə, və yəssəra ləkəl-xayra həysu mə kuntə

[5] "Sunən ət-Tirmizi", 3444; "Səhih əl-Cami", 3579.

Şərh:

Bu hədisləri müəllif ﵀ "Salehlər bağçası" adlı kitabının **"Bir adamın, səfər və başqa bu kimi səbəblərdən dolayı öz yoldaşından ayrılarkən onunla vidalaşması, ona vəsiyyətini etməsi, onun üçün dua etməsi və ondan dua etməsini istəməsi"** adlı fəslində zikr etmişdir.

Ömər ibn əl-Xəttabın ﵁ rəvayət etdiyi hədisdə deyilir ki, *bir dəfə* o, ümrə etmək istəyir və bunun üçün Peyğəmbərdən ﷺ izin istəyir. Peyğəmbər ﷺ də ona izin verir və belə deyir: **"Ey qardaşım, dualarında bizi unutma!"** Başqa bir rəvayətə görə isə ona: **"Ey qardaşım, dualarına bizi də şərik et!"**– deyir. Həmçinin, müəllif ﵀ bu hədisi Tirmizinin rəvayət etdiyini və onun *bu hədis barəsində* "həsən səhihdir" dediyini də zikr etmişdir. Lakin həqiqətə gəldikdə, bu hədis zəifdir və Peyğəmbərin ﷺ *belə bir şey etməsi* səhih olaraq varid olmamışdır.

Başqasından dua etməsini istəmək bir neçə qismə bölünür:

1. Başqasından, müsəlmanların ümumi xeyri üçün dua etməsini istəmək. Yəni, ümumi bir şey üçün. Bu cür dua istəməkdə qəbahət yoxdur. Çünki bir dəfə Peyğəmbər ﷺ cümə günü xütbə verərkən, bir adam içəri girmiş və belə demişdir: "Ya Rəsulullah, mal-qara məhv oldu, yollar bağlandı. Allaha dua et ki, bizə yağmur endirsin". Peyğəmbər ﷺ əllərini *göyə* qaldırıb dedi: **"Allahım, bizə yağmur endir! Allahım, bizə yağmur endir! Allahım, bizə yağmur endir!"** *Bu vaxt* dağın arxasından qalxanabənzər bir bulud göründü. O gəlib göyün ortasına çatdıqdan sonra *ətrafa* yayıldı və yağış yağmağa başladı. Peyğəmbər ﷺ hələ minbərdən yerə enməmiş, artıq onun saqqalından yağış damcıları süzülürdü. Bu minvalla, növbəti cümə-yədək yağış ara vermədən yağdı.

Növbəti cümə həmin adam və ya başqa birisi *ayağa* qalxıb dedi: "Ey Allahın elçisi, evlər dağıldı, mallar su altında qaldı. Allaha dua et ki, yağışı dayandırsın". Peyğəmbər ﷺ əllərini *göyə* qaldırıb: **"Allahım, *yağışı* üstümüzə deyil, ətrafımıza yağdır! Allahım, təpələrə, dağlara, bağlara, yamaclara, vadilərə və ağac bitən yerlərə *yağdır*![1]"**– dedi və bir yandan da əli ilə üzərimizə deyil, ətrafa işarə etməyə başladı. Beləcə Peyğəmbər ﷺ əli ilə

[1] Transkripsiyası: Allahummə həvaleynə və lə aleynə. Allahummə alәl-akəmi, vəl-cibali, vəl-acami, vəz-zırabi vəl-əvdiyəti və mənabitiş-şəcəri.

hara işarə etdisə, bulud topası o tərəfə dağıldı. Nəhayət, yağış kəsdi və insanlar günəşli havada *gəzişmək üçün* bayıra çıxdılar.[1]

Demək, duasının qəbul olunacağını umduğun əməlisaleh bir adamdan müsəlmanların ümumi xeyri üçün dua etməsini istəməkdə bir qəbahət yoxdur. Çünki sən bunu şəxsən özün üçün istəmirsən.

2. Əməlisaleh bir insandan, onun özü də öz duasından faydalansın deyə, dua etməsini istəmək. Burada ondan dua etməsini istəyən şəxsin özünün, o duadan faydalanması onun üçün elə də əhəmiyyət kəsb etmir. Lakin dua etməsi tələb olunan şəxsin bu halda Allaha üz tutması, Allahdan istəməsi, qəlbini Allaha bağlaması və Allahın duaları qəbul edəcəyini yəqin bilməsi vacibdir. Önəmli olan, dua istəyənin məqsədi, dua edənin həmin duadan fayda götürməsidir. Bu cür dua istəməkdə qəbahət yoxdur. Çünki sən, məhz öz xeyrin üçün ondan dua etməsini istəmirsən, onun özü də faydalansın deyə, dua istəyirsən. Dolayısıyla, sən bu əməlisaleh insanın Allaha dua edərək xeyrinin artırmasını, Allaha yaxınlaşmasını və bunun sayəsində də savab qazanmasını istəyirsən.

3. Başqasından, sırf öz xeyrin üçün dua etməsini istəmək. Bəzi alimlər buna icazə vermiş və: "Əməlisaleh insandan sənin üçün dua etməsini istəməkdə bir problem yoxdur"– demişlər. Lakin şeyxulislam İbn Teymiyyə ﵀ bu məsələdə belə buyurur: "Sadəcə öz xeyrini düşünürsənsə, o zaman belə bir dua istəmək insana yaraşmaz. Çünki bu, dua istəməyin bəyənilməyən qisminə girə bilər. Belə ki, Peyğəmbər ﷺ səhabələrindən "insanlardan heç bir şey istəməyəcəklərinə" dair beyət almışdır[2]".

Həm də ehtimal var ki, başqasından özü üçün dua istəyən həmin adam, dua istədiyi adamın duasına arxayın olub özü üçün dua etməyi unutsun. Habelə: "Mən əməlisaleh bir adamdan mənim üçün Allaha dua etməsini artıq istəmişəm. Əgər Allah onun duasını qəbul edərsə, bu mənə yetər"– deyərək başqasının duasına arxayınlaşsın.

Digər tərəfdən isə, dua istənilən adamın qəlbinə təkəbbür girər və o, özü barəsində: "Mən əməlisaleh bir adamam. İnsanlar mənim duama üz tuturlar"– deyə xülyalara dala bilər. Beləliklə də, bunun dua istənilən adama zərəri dəyər.

---

[1] "Səhih əl-Buxari", 1033; "Səhih Muslim", 897.

[2] "Səhih Muslim", 1043.

Hər bir halda, qeyd olunan bu üçüncü qisim barəsində ixtilaf vardır. Bəzi alimlər: "Əməlisaleh bir adama: "Ey filankəs, mənim üçün Allaha dua et!" deməkdə qəbahət bir şey yoxdur"– demiş, digər alimlər də: "Bu, yaxşı bir iş deyildir"– demişlər. Ən yaxşısı budur ki, belə bir dua istəməyəsən. Çünki dua istədiyin adam, bundan dolayı sənə minnət qoya bilər, sən də onun önündə kiçilmiş vəziyyətə düşə bilərsən. Bundan əlavə, məgər sənինlə Rəbbinin arasına girən var? Özün üçün Allaha sən özün dua et! Sənինlə Allahın arasına heç kəs girə bilməz. Axı nə üçün başqasının yanına gedib ona yalvararaq: "Mənə dua et!"– deyirsən? Halbuki, sənինlə Rəbbin arasında heç bir vasitəçi yoxdur. Axı uca Allah belə buyurur: «**Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizə cavab verim"».**[1] Müvəffəq edən Allahdır.

[1] "Ğafir" surəsi, 60.

Doxsan yeddinci fəsil

İstixarə və məşvərət

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah belə buyurur:

﴿وَشَاوِرْهُمْ فِي ٱلْأَمْرِ﴾

"*Görəcəyin* işlər barədə onlarla məsləhətləş".[1]

﴿وَأَمْرُهُمْ شُورَىٰ بَيْنَهُمْ﴾

"İşləri barədə öz aralarında məsləhətləşirlər".[2] Yəni, *görəcəkləri* işlər barədə məşvərət edirlər.

Mövzu ilə əlaqəli hədis:

٧١٨ – عَنْ جَابِرٍ رضي الله عنه قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يُعَلِّمُنَا الاسْتِخَارَةَ فِي الأُمُورِ كُلِّهَا كَالسُّورَةِ مِنَ القُرْآنِ، يَقُولُ إِذَا هَمَّ أَحَدُكُمْ بِالأَمْرِ، فَلْيَرْكَعْ رَكْعَتَيْنِ مِنْ غَيْرِ الفَرِيضَةِ، ثُمَّ لِيَقُلْ: اللَّهُمَّ إِنِّي أَسْتَخِيرُكَ بِعِلْمِكَ، وَأَسْتَقْدِرُكَ بِقُدْرَتِكَ، وَأَسْأَلُكَ مِنْ فَضْلِكَ العَظِيمِ، فَإِنَّكَ تَقْدِرُ وَلَا أَقْدِرُ، وَتَعْلَمُ وَلَا أَعْلَمُ، وَأَنْتَ عَلاَّمُ الغُيُوبِ. اللَّهُمَّ إِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الأَمْرَ خَيْرٌ لِي فِي دِينِي وَمَعَاشِي وَعَاقِبَةِ أَمْرِي » أَوْ قَالَ: « عَاجِلِ أَمْرِي وَآجِلِهِ، فَاقْدُرْهُ لِي وَيَسِّرْهُ لِي، ثُمَّ بَارِكْ لِي فِيهِ، وَإِنْ كُنْتَ تَعْلَمُ أَنَّ هَذَا الأَمْرَ شَرٌّ لِي فِي دِينِي وَمَعَاشِي وَعَاقِبَةِ أَمْرِي » أَوْ قَالَ: « عَاجِلِ أَمْرِي وَآجِلِهِ، فَاصْرِفْهُ عَنِّي، وَاصْرِفْنِي عَنْهُ، وَاقْدُرْ لِي الخَيْرَ حَيْثُ كَانَ، ثُمَّ أَرْضِنِي بِهِ » قال: ويسمّي حاجته. رواه البخاري.

718. Rəvayət edilir ki, Cabir ibn Abdullah رضي الله عنه demişdir: "Rəsulullah ﷺ Qurandakı surələri bizə öyrətdiyi kimi, hər bir işdə istixarə etməyi də öyrədib deyərdi: **"Sizdən biriniz bir işi görməyə qərar verdikdə, fərz namazlarından əlavə iki rükət namaz qılsın və desin: "Allahım, Səndən**

---

[1] "Ali-İmran" surəsi, 159.

[2] "əş-Şura" surəsi, 38.

Öz elminlə *haqqımda* xeyirli olanı istəyirəm, Öz qüdrətinlə mənə qüdrət verməni diləyirəm. Səndən, Sənin böyük lütfünü diləyirəm. Şübhəsiz ki, Sənin *hər şeyə* qüdrətin çatır, mənim isə qüdrətim çatmır. Sən *hər şeyi* bilirsən, mən isə bilmirəm. Qeybləri bilən Sənsən. Allahım, bu işin (işin adını çəkir) mənim dinim, yaşayışım və aqibətim üçün – yaxud deyir: dünyam və axirətim üçün – xeyirli olduğunu *məsləhət* bilirsənsə, onu mənə nəsib et, asanlaşdır, sonra da onu mənim üçün bərəkətli et. Bu işin mənim dinim, yaşayışım və aqibətim üçün – yaxud deyir: dünyam və axirətim üçün – zərərli olduğunu *məsləhət* bilirsənsə, onu məndən, məni də ondan uzaq et! Harada olursa-olsun, mənə xeyir nəsib et, sonra məni ondan razı sal!"[1]

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"İstixarə və məşvərət"** adını vermişdir.

İstixarə Allahla olur, məşvərət isə təcrübəli və əməlisaleh insanlarla. Çünki istənilən bir insanda mütləq ya bir qüsur, ya da bir nöqsan vardır. Belə ki, insan zəif yaradılmışdır. Bu səbəbdən də bəzən işlərində problemlərlə qarşılaşdıqda, *bu problemlərin həllində* tərəddüd içində qalır. Bəs bu durumda nə etməlidir? Fərz edək ki, bir adam səfərə çıxmaq istəyir və bu səfərin onun üçün xeyirli və ya şər olacağı xüsusunda tərəddüd edir. Yaxud avtomobil və ya ev almaq istəyir, ya da qızını birinə vermək istəyir. Lakin tərəddüd edir ki, görəsən bu durumdə nə etsin? Həmin adama belə deyirik: Sənin önündə iki yol var:

Birinci yol, keçmişdə, hal-hazırda və gələcəkdə baş verənlərin hamısını bilən, aləmlərin Rəbbi ilə istixarə etməkdir.

---

[1] Transkripsiyası: Allahummə inni əstəxirukə bi ilmikə, və əstəqdirukə bi qudratikə, və əs'əlukə min fadlikəl-azım, fəinnəkə təqdiru və lə əqdir, və tə'ləmu və lə a'ləm, və əntə alləmul-ğuyub. Allahummə in kuntə tə'ləmu ənnə həzəl-əmra xayrun li fi dini və məaşi və aqibəti əmri, acilihi və əcilihi – fəqdurhu li və yəssirhu li, summə bərik li fihi. Və in kuntə tə'ləmu ənnə həzəl-əmra şərrun li fi dini və məaşi və aqibəti əmri, acilihi və əcilihi – fasrifhu anni, vəsrifni anhu, vəqdur liyəl-xayra heysu kənə, summə ərdini.

[2] "Səhih əl-Buxari", 6382.

İkinci yol, təcrübəli, əməlisaleh və etibarlı adamlarla məşvərət etməkdir.

Müəllif ﷺ məşvərət etməyə dəlil olaraq uca Allahın kitabından iki ayəni zikr etmişdir. Birinci ayədə uca Allah belə buyurur: **"*Görəcəyin* işlər barədə onlarla məsləhətləş".** Bu xitab Peyğəmbərədir ﷺ. Uca Allah ona belə xitab etmişdir: **"Elə isə onları əfv et, onlar üçün *Allahdan* bağışlanma dilə və *görəcəyin* işlər barədə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et!"** Peyğəmbər ﷺ insanlar arasında ən doğru və ən isabətli rəyə sahib olmasına rəğmən, qarşılaşdığı bəzi problemli məsələlərdə səhabələri ilə məşvərət edərdi. Ondan sonra gələn xəlifələri də təcrübəli və əməlisaleh insanlarla məşvərət edərdilər.

Məşvərət etmək istədiyin adamda bu iki şərtin olması vacibdir:

1. Müdrik olmalı, *böyük* təcrübəyə sahib olmalı, səriştəli və tədbirli olmalı, tələskən olmamalıdır.

2. Din nöqteyi-nəzərdən əməlisaleh olmalıdır. Çünki dinində əməlisaleh olmayan insan etibarlı hesab edilmir. Hətta həmin adam zəkalı və işlərində *böyük* təcrübəyə sahib olan birisi olsa belə, yenə də onda xeyir yoxdur – beləsi məşvərət əhli olmağa layiq deyildir. Çünki əməlisaleh deyilsə, xəyanət edə bilər və zərərli olan görüşü təklif edə bilər. Bunun nəticəsində də adamın başına pis işlər gələ bilər. Allah qorusun!

Təsəvvür edək ki, bir adam fasiq, tərbiyəsiz və əxlaqsız birisidir. Bu zaman beləsi ilə məşvərət etmək olmaz. Çünki o, səni həlaka sürükləyə bilər. Eyni şəkildə təsəvvür edək ki, bir adam əməlisalehdir. Amma onun səriştəsi yoxdur, işlərdən bixəbərdir, tələskən və təcrübəsizdir. Belə birisi ilə də məşvərət etmək olmaz. Çünki səriştəsiz və işlərdən bixəbər olan adam məsələnin yalnız zahirinə baxıb qiymət verər və pərdə arxasındakı gerçəkləri bilə bilməz. Tələskən olanın durumu da eynidir. O, tələsik qərar verərək sənə xeyirli olmayan bir şeyi təklif edə bilər. Dolayısıyla, məşvərət edilən insan mütləq həm dində əməlisaleh olmalı, həm də məsləhət verəcəyi işdə təcrübəli və peşəkar olmalıdır.

Digər ayədə də uca Allah belə buyurur: **"İşləri barədə öz aralarında məsləhətləşirlər".** Yəni, hamıya aid olan müştərək işlər barədə bir-biriləri ilə məsləhətləşirlər. Məsələn, cihad məsələsində öz aralarında məşvərət edirlər. Yaxud dövlət rəhbəri cihad etmək və ya müsəlmanların ümumi məsləhəti üçün bir iş görmək istəsə, onlarla məsləhətləşir.

Bəs bu məşvərət necə olmalıdır?

Məşvərət, insanın başına bir iş gəldiyi zaman həmin iş barəsində tərəddüd içində olduqda edilir. Bu zaman o, həm dində əməlisaleh olan, həm də məsləhət verəcəyi işdə təcrübəli və peşəkar olan, məşvərət olunmağa layiq bildiyi insanları bir araya gətirməli və onlarla məsləhətləşməlidir.

İstixarəyə gəldikdə isə, bu, izzətli və qüdrətli Allahla olur. Adam bir iş görmək istədikdə, bu işin aqibətinin, sonunun necə olacağını bilmirsə, o zaman Rəbbi ilə istixarə etməli və aləmlərin Rəbbi olan Allahdan xeyirli olanı diləməlidir.

İstixarə, iki seçimdən xeyirli olanı tələb etmək deməkdir. Peyğəmbər ﷺ istixarəni bu şəkildə etməyi öyrətmişdir: İnsan, fərz namazından əlavə və qadağan olunmayan vaxtlarda iki rükət namaz qılsın. Əgər qadağan olunmuş vaxt qurtarana qədər həmin işi əldən çıxaracağına ehtiyat edərsə, o zaman qadağan olunmuş vaxtda belə istixarə namazı qılmaqda bir problem yoxdur. Lakin vaxt imkan verirsə, o halda qadağan olunmuş vaxtda istixarə namazı qılmaq caiz deyildir. Yəni, əsr namazından sonra istixarə namazı qılınmaz, sübh namazının vaxtı girdikdən sonra günəş bir nizə hündürlüyündə qalxana qədər istixarə namazı qılınmaz. Habelə, günəş zenitdə olduğu müddətdə istixarə namazı qılınmaz. Yalnız işi fövtə verəcəyi hal istisnadır.

Xülasə, fərz namazından əlavə iki rükət nafilə namazı qılınır və salam verilir. Bunun ardından bu cür dua edilir: "Allahım, Səndən Öz elminlə *haqqımda* xeyirli olanı istəyirəm, Öz qüdrətinlə mənə qüdrət verməni diləyirəm. Səndən, Sənin böyük lütfünü diləyirəm. Şübhəsiz ki, Sənin *hər şeyə* qüdrətin çatır, mənim isə qüdrətim çatmır. Sən *hər şeyi* bilirsən, mən isə bilmirəm. Qeybləri bilən Sənsən. Allahım, bu işin (burada işin adını çəkir. Məsələn, qızını birinə ərə vermək istəyir. Onda belə deyir: Allahım, qızımı bu adama verməyim...) mənim dinim, yaşayışım və aqibətim üçün – yaxud deyir: dünyam və axirətim üçün – xeyirli olduğunu *məsləhət* bilirsənsə, onu mənə nəsib et, asanlaşdır, sonra da onu mənim üçün bərəkətli et. Bu işin mənim dinim, yaşayışım və aqibətim üçün – yaxud deyir: dünyam və axirətim üçün – zərərli olduğunu *məsləhət* bilirsənsə, onu məndən, məni də ondan uzaq et! Harada olursa-olsun, mənə xeyir nəsib et, sonra məni ondan razı sal!"

Bundan sonra qəlbi, etmək və ya etməmək qarşısında qaldığı iki seçimdən hansı birinə meyl edərsə, demək istəyi budur. Yox, əgər qəlbi iki seçimdən heç birinə meyl etməzsə və yenə də tərəddüd içində qalarsa, o zaman yenidən ikinci və ya üçüncü dəfə istixarə edir.

Bundan sonra isə məşvərət etmək gəlir. Yəni, istixarə etdikdən sonra ona heç bir şey aydın olmazsa, o zaman əməlisaleh, təcrübəli və peşəkar insanlarla məşvərət edir. Sonra ona nə təklif olunarsa, demək, Allahın izni ilə, xeyirlisi odur. Çünki uca Allah, insan məşvərət etməyənə qədər, onun qəlbinə sadəcə istixarə vasitəsilə iki seçimdən birinə meyl salmaya bilər. Lakin məşvərət etdikdən sonra bu meyli onun qəlbinə salar.

Alimlər məşvərət və istixarədən hansı birinin birinci olacağı barədə ixtilaf etmişlər. Doğru olan, öncə istixarənin edilməsidir. Öncə istixarə et! Çünki Rəsulullah ﷺ belə demişdir: **"Sizdən biriniz bir işi görməyə qərar verdikdə, fərz namazlarından əlavə iki rükət namaz qılsın...".** Burada Peyğəmbər ﷺ birinci istixarəni qeyd edir. İstixarəni üç dəfə etdikdən sonra sənə heç bir şey aydın olmazsa, o zaman məşvərət et. Bu zaman hansı rəy təklif olunarsa, demək, uca Allah sənin üçün bunu qərar vermişdir. Elə isə, həmin təklifi qəbul et. "İstixarəni üç dəfə təkrar et!" deməyimizin səbəbi isə budur: Çünki duanı üç dəfə təkrarlamaq Peyğəmbərin ﷺ adəti idi. İstixarə də bir duadır. Ola bilər ki, iki seçimdən hansı birinin xeyirli olması insana birinci dəfədən aydın olmasın. Lakin ikinci və ya üçüncü dəfə istixarə etdikdən sonra bu iş ona aydın ola bilər. Əgər üçüncü dəfədən sonra da qəti bir qərara gələ bilməzsə, o zaman məşvərət etsin. Müvəffəq edən Allahdır.

Doxsan səkkizinci fəsil

İbadət yerlərini artırmaq məqsədilə bayram namazına, xəstə ziyarətinə, həccə, döyüşə, cənazəyə və başqa bu kimi yerlərə gedərkən bir yolla gedib, başqa bir yolla qayıtmağın müstəhəb olması

Mövzu ilə əlaqəli hədislər:

٧١٩ – عَنْ جَابِرٍ ﷺ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا كَانَ يَوْمُ عِيدٍ خَالَفَ الطَّرِيقَ. رواه البخاري.

قوله: « خَالَفَ الطَّرِيقَ » يعني: ذَهَبَ فِي طَرِيقٍ وَرَجَعَ فِي طَرِيقٍ آخَرَ.

719. Rəvayət edilir ki, Cabir ﷺ demişdir: "Peyğəmbər ﷺ bayram günlərində *bayram namazına* fərqli yollarla gedib-gələrdi".

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

"Fərqli yollarla gedib-gələrdi" sözü, "bir yolla gedib, başqa bir yolla qayıdardı" deməkdir.

٧٢٠ - وَعَنِ ابْنِ عُمَرَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَخْرُجُ مِنْ طَرِيقِ الشَّجَرَةِ وَيَدْخُلُ مِنْ طَرِيقِ الْمُعَرَّسِ، وَإِذَا دَخَلَ مَكَّةَ دَخَلَ مِنَ الثَّنِيَّةِ الْعُلْيَا وَيَخْرُجُ مِنَ الثَّنِيَّةِ السُّفْلَى. متفقٌ عليه.

720. Abdullah ibn Ömər ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ *Mədinədən çıxarkən* Şəcərə yolundan çıxar, *daxil olduqda isə* Müərrəs[2] yolundan daxil olardı. Məkkəyə daxil olduqda isə Səniyyətul-Ulyə[3] yolundan daxil olar, çıxdıqda da Səniyyətus-Suflə[4] yolundan çıxardı."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[5]

---

[1] "Səhih əl-Buxari", 986.

[2] Mədinənin altı kilometrliyində yerləşən yer.

[3] Yuxarı dağ keçidi.

[4] Aşağı dağ keçidi.

[5] "Səhih əl-Buxari", 1533; "Səhih Muslim", 1257.

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"İbadət yerlərini artırmaq məqsədilə bayram namazına, xəstə ziyarətinə, həccə, döyüşə, cənazəyə və başqa bu kimi yerlərə gedərkən bir yolla gedib, başqa bir yolla qayıtmağın müstəhəb olması"** adını vermişdir.

Başqa bir yolla qayıtmaq dedikdə, adamın ibadətə gedərkən bir yolla gedib başqa bir yolla qayıtması nəzərdə tutulur. Məsələn, yolun sağı ilə gedib, solu ilə qayıtmaq. Bu hərəkət Peyğəmbərdən ﷺ bayram namazlarına gedərkən sabit olmuşdur. Cabirin rəvayət etdiyi hədisdə deyilir ki, Peyğəmbər ﷺ bayram günlərində *bayram namazına* fərqli yollarla gedib-gələrdi. Yəni, gedəndə bir yolla gedər, qayıdanda isə başqa bir yolla qayıdardı.

Peyğəmbərin ﷺ nə üçün belə etməsi xüsusunda alimlər ixtilaf etmişlər:

1. Bəzi alimlər belə deyirlər: Peyğəmbər ﷺ belə etmişdir ki, hər iki yol Qiyamət günü ona şahidlik etsin. Çünki Qiyamət günü yer üzü, üzərində edilən hər bir xeyir və şər əmələ dair şahidlik edəcək. Bu xüsusda uca Allah belə buyurur: **"Həmin gün yer öz əhvalatlarını danışacaq. Çünki Rəbbin ona ilham yolu ilə belə buyuracaq".**[1] Yəni, Qiyamət günü yer belə deyəcəkdir: "Filankəs mənim üzərimdə filan, filan və filan işləri gördü". Demək, bir adam bayram namazına bir yolla gedib, digər yolla qayıdarsa, Qiyamət günü hər iki yol şahidlik edəcəkdir ki, filankəs bayram namazını qılmışdır.

2. Bəzi alimlər də belə deyirlər: Peyğəmbər ﷺ bu şüarı, yəni bayram namazı ibadətini bəyan etmək və göstərmək üçün belə etmişdir. Belə etmişdir ki, bütün küçələr insanlarla dolsun. Məlum məsələdir ki, insanların hamısı eyni yolla gedib-gəlmirlər. Görürsən ki, biri bir yolla, digəri başqa bir yolla, başqa birisi də tamamilə başqa bir yolla gedir. Əgər insanlar şəhərin bütün yollarına yayılarlarsa, bu ibadəti üzə çıxarmış və yaymış olarlar. Çünki bayram namazı İslamın şüarlarındandır. Buna dəlil isə, bayram namazını göstərmək və elan etmək üçün insanların şəhərdən çölə, açıq bir sahəyə çıxmalarının əmr olunmasıdır.

3. Digər alimlərin fikrincə, Peyğəmbərin ﷺ fərqli yollarla getməsinin səbəbi, hər bir küçədə olan kasıblarla rastlaşmaq olmuşdur. Çünki hər bir yolda fərqli-fərqli kasıblar ola bilər. Bununla da, hər bir yolda rast gəldiyi kasıba sədəqə vermək imkanı yarana bilər.

---

[1] "əz-Zəlzələ" surəsi, 5-6.

Lakin bu məsələdə doğruya ən yaxın olan rəy İslam şüarının, yəni bayram namazının izhar olunması və yayılmasıdır – şəhərin hər küçəsindən bayram namazına çıxmaqla İslamın bu şüarı hər tərəfə yayılmış və elan edilmiş olur.

Bundan başqa, alimlər cümə namazını bayram namazına qiyas edib-etməmək xüsusunda da ixtilaf etmişlər. Çünki cümə namazı da bir növ bayram namazıdır.

Bəzi alimlər cümə namazını bayram namazlarına qiyas etmiş və cümə namazına da fərqli yollarla gedib-gəlməyi buyurmuşlar.

Bir qrup alim bu məsələni bir qədər genişlədib beş vaxt namaz üçün də eyni fikri söyləmişlər. Məsələn, bir adam zöhr namazına gələrkən bir yolla gəlib, başqa bir yolla qayıtmalıdır. Eynilə, əsr namazına və başqa namazlara gəldikdə də bu cür etməlidir. Çünki bunların hamısı namaza gəlmək sayılır. Elə buna görə də bu namazların hamısı bayram namazına qiyas olunur.

Bəzi alimlər isə bu məsələni daha da genişlədib, istənilən bir ibadəti yerinə yetirməyə gedərkən fərqli yollarla gedib-gəlməyin şəriət hökmü olduğunu söyləmişlər. Yəni, istənilən bir ibadəti yerinə yetirmək üçün yol getmək lazım gələrsə, bir yolla gedib başqa bir yolla qayıtmalısan. Hətta bu xəstə ziyarəti olsa belə. Yəni, xəstəni ziyarət etdikdə də bir yolla gedib, başqa bir yolla qayıtmaq lazımdır. Həmçinin, cənazədə iştirak etdikdə də belə edirsən, bir yolla gedib, başqa bir yolla qayıdırsan.

Bu üç qiyasın üçü də zəifdir. Yəni nə cümə namazını, nə beş vaxt namazları, nə də başqa bu kimi ibadətlərə getməyi bayram namazına qiyas etmək düzgün deyildir. Çünki ibadətlərdə qiyas keçərli deyildir. Həm də bütün bu ibadətlərin hamısı, yəni cümə namazı, beş vaxt namaz, xəstə ziyarəti və cənazəni təqib etmək Peyğəmbərin ﷺ də dönəmində var idi. Amma buna rəğmən, onun bu kimi durumlarda bayram namazlarında olduğu kimi, fərqli yollarla gedib-gəldiyi sabit olmamışdır.

Əgər bir şey Peyğəmbərin ﷺ dönəmində olubsa və o da bu xüsusda Sünnə olaraq heç bir şey etməyibsə, o zaman Sünnə olan həmin şeyi tərk etməkdir.

Həcc mövsümündə isə Peyğəmbər ﷺ Məkkəyə girib-çıxarkən fərqli yollardan istifadə etmişdir. Məsələn, Məkkəyə girərkən Yuxarı dağ keçidindən

girmiş, çıxdıqda isə Aşağı dağ keçidindən çıxmışdır. O, eynisini Ərafata getdikdə də etmişdir – bir yolla gedib, başqa yolla qayıtmışdır.

Alimlər bu məsələdə də ixtilaf etmişlər: görəsən Peyğəmbər ﷺ bunu ibadət niyyəti ilə, yoxsa Məkkəyə giriş-çıxışın bu cür daha asan olduğu üçün belə etmişdir? Çünki giriş üçün ən asan yol yuxarıdan girmək, çıxış üçün isə ən asan yol aşağıdan çıxmaqdır.

Alimlərin bəziləri birinci görüşü, yəni bunların ibadət niyyəti ilə edildiyini tərcih etmiş və belə demişlər: "Məkkəyə yuxarısından girib aşağısından çıxmaq sünnədir. Eyni şəkildə Ərafata da bir yolla girib, başqa yolla çıxmaq sünnədir".

Bəzi alimlər isə bunun yolun asan olması üçün edildiyini demişlər. Yəni, fərq etmir, istər Məkkənin yuxarısı olsun, istərsə də aşağısı, hansı yol sənin üçün asandırsa, oradan gedirsən.

Hər bir halda, əgər sənin üçün Məkkənin yuxarı yolundan girib, aşağı yolundan çıxmaq asandırsa, onda belə etmək daha yaxşı olardı. Əgər bu bir ibadət olubsa, onun savabını qazanmış olacaqsan. Yox, əgər ibadət olmayıbsa, bunun sənə heç bir zərəri dəyməz. Əgər belə etmək sənin üçün çətinlik törədəcəksə – demək olar ki, günümüzün reallığı budur: gediş və gəliş üçün olan yollar bir istiqamətdədir və adam buna qarşı heç nə edə bilmir – o halda bu məsələdə azadsan. Müvəffəq edən Allahdır.

Doxsan doqquzuncu fəsil

Dəstəmaz, qüsl və təyəmmüm almaq, paltar, ayaqqabı, xuf və şalvar geyinmək, məscidə daxil olmaq, misvakdan istifadə etmək, sürmə çəkmək, dırnaqları tutmaq, bığı qısaltmaq, qoltuqaltı tükləri qoparmaq, başı qırxmaq, namazı qurtararkən salam vermək, yemək yemək, içmək, salamlaşmaq, qara daşa toxunmaq, ayaqyolundan çıxmaq, bir şey vermək və ya almaq kimi bunlara bənzər bütün yaxşı əməllərdə sağla başlamağın; bunların əksi olan burnu təmizləmək, sola tüpürmək, ayaqyoluna girmək, məsciddən çıxmaq, xufu, ayaqqabını, şalvarı və paltarı çıxartmaq, ayaqyolunda təmizlənmək və başqa bu kimi yaxşı sayılmayan işlərdə isə sola üstünlük verməyin müstəhəb olması

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah belə buyurur:

﴿ فَأَمَّا مَنْ أُوتِيَ كِتَٰبَهُۥ بِيَمِينِهِۦ فَيَقُولُ هَآؤُمُ ٱقْرَءُوا۟ كِتَٰبِيَهْ ﴾

«Kitabı sağ əlinə verilən kimsə deyəcək: "Budur, oxuyun kitabımı!"»[1]

﴿ فَأَصْحَٰبُ ٱلْمَيْمَنَةِ مَآ أَصْحَٰبُ ٱلْمَيْمَنَةِ * وَأَصْحَٰبُ ٱلْمَشْـَٔمَةِ مَآ أَصْحَٰبُ ٱلْمَشْـَٔمَةِ ﴾

"Sağ tərəf sahibləri. Nə xoşbəxtdir sağ tərəf sahibləri! Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri!"[2]

Şərh:

Müəllif ﷺ bu fəslə **"Yaxşı sayılan hər bir əməldə sağla başlamağın, bunun əksi olan pis əməllərdə isə solla başlamağın müstəhəb olması"** adını vermişdir.

Müəllif ﷺ dəstəmaz, qüsl və təyəmmüm almaq, paltar geyinmək və bunlara bənzər bir çox əməlləri sağla başlamağa aid zikr etmişdir.

---

[1] "əl-Haqqə" surəsi, 19.

[2] "əl-Vaqiə" surəsi, 8-9.

İnsan dəstəmaz alarkən hər bir əzada mütləq sağdan başlamalıdır. Məsələn, sol əldən öncə sağ əli, sol ayaqdan öncə sağ ayağı yumalıdır. Bu məsələ, əzaların ayrı-ayrı olması halında keçərlidir. Amma üz kimi bütöv bir əzaya gəldikdə, biz "üzünün sol tərəfindən öncə sağ tərəfini yu" deyə bilmərik. Əksinə, üz, Sünnədə varid olduğu kimi, bütöv yuyulur. Lakin fərz etsək ki, bir adam üzünü yalnız bir əli ilə yumaq məcburiyyətindədir, bu zaman o, sağ tərəfdən başlamalıdır. "Yumağa üzün sağ tərəfindən və ya yuxarı hissəsindən başlanmalıdır" da deyilə bilər.

Eyni sözlər qulaqların məsh edilməsinə də aiddir. Yəni, qulaqlara məsh edərkən birinci sağa, sonra isə sola məsh etməməli, əksinə, hər ikisinə eyni zamanda məsh etməlidir. Əgər bir insan qulaqların hər ikisinə eyni zamanda məsh edə bilmirsə, yalnız o halda öncə sağa, sonra sola məsh etməlidir.

Eynilə qüsl də belədir. İnsan cənabət halından qüsl alarkən, öncə namaz üçün dəstəmaz aldığı qaydada dəstəmaz alır, sonra *baş* islanana qədər başına üç dəfə su əndərir. Sonda isə bədəninin qalan hissəsini yuyur. Bu zaman da bədəninin sol tərəfindən öncə sağ tərəfindən başlayır. Çünki Peyğəmbər ﷺ qızını qüsl edən qadınlara belə buyurmuşdur: **"Öncə sağ tərəfindən və dəstəmaz yerlərindən başlayın".**[1]

Əgər bir adam duşun altındadırsa və duşdan başına *dayanmadan* su tökülürsə, o zaman başı islanana qədər yuduqdan sonra birinci sağ tərəfini, sonra isə sol tərəfini yumalıdır. Sünnəyə uyğun olan budur.

Təyəmmüm də eynilə belədir. Fəqət təyəmmüm məsələsində sünnə odur ki, insan, üzünə hər iki əli ilə birlikdə məsh edir, daha sonra əllərini bir-birinə sürtür. Təyəmmümdə sağdan başlamaq söhbəti yoxdur. Çünki təyəmmüm üz və əllər olmaqla, sadəcə iki əzaya edilir. Üzə bir dəfə məsh edilir, əllər isə bir-birinə sürtülür.

Paltar, ayaqqabı, xuf və şalvar geyinmək də eynilə belədir – bunların hamısında sağdan başlanılır. Məsələn, köynək geyinmək istədikdə, öncə sağ, sonra isə sol qolunu geyin. Şalvar geyinmək istədikdə, öncə sağ ayağını, sonra isə sol ayağını geyin. Ayaqqabı geyinmək istədikdə, öncə sağ ayağını, sonra isə sol ayağını geyin. Xuf və corabda da eynilə belə edirsən – öncə sağ ayağını, sonra isə sol ayağını geyin. Peyğəmbərdən ﷺ varid olan Sünnə məhz belədir.

---

[1] "Səhih əl-Buxari", 167; "Səhih Muslim", 939.

Məscidə daxil olmaq da eynilə belədir. Öncə sağ ayağını, sonra sol ayağını daxil edirsən. Odur ki, məscidə daxil olarkən diqqətli olmaq lazımdır ki, ilk olaraq məscidə daxil olan ayaq sağ ayaq olsun.

Misvakdan istifadə etmək də eynilə belədir. Bir insan misvakla dişlərini təmizləmək istəsə, öncə sağ tərəfindən başlayır, sonra isə sol tərəfinə keçir.

Sürmə çəkmək də eynilə belədir. Bir adam gözlərinə sürmə çəkmək istəsə, öncə sağ gözünə, sonra isə sol gözünə çəkməlidir.

Dırnaqları tutmaq da eynilə belədir. Öncə sağdan başlayır, sonra sola keçir. Məsələn, öncə sağ əlin çeçələ barmağının, sonra adsız barmağın, sonra orta barmağın, sonra şəhadət barmağının, sonra da baş barmağın dırnaqları kəsilir. Bunda sonra sol əlin baş barmağının, sonra şəhadət barmağının, sonra orta barmağın, sonra adsız barmağın, sonra da çeçələ barmağın dırnaqları kəsilir. Ayaq dırnaqları da bu cür olur. Öncə sağ, sonra isə sol ayağın dırnaqları kəsilir.

Bığları qısaltdıqda da eynilə – sol tərəfdən öncə sağ tərəfi qısalt.

Qoltuqaltı tükləri qoparmaq və başı qırxmaq da eynilə belədir. Qoltuqaltı tükləri qoparmaq sünnədir. Əgər qoltuqların altındakı tükləri qoparmaq istəyirsənsə, öncə sağ qoltuğunun, sonra isə sol qoltuğunun altındakı tükləri qopart. Başı qırxanda da öncə başın sağ tərəfini, sonra isə sol tərəfini qırx.

Namazı bitirdikdə verilən salam da eynilə bu cürdür – insan öncə sağ tərəfə dönüb salam verir, sonra isə sol tərəfə dönüb salam verir.

Yemək və içmək də eyni şəkildə olur. Bir insan bir şey yeyərkən və ya içərkən sağ əli ilə yeməli, sağ əli ilə də içməlidir. Sol əllə yemək və ya içmək caiz deyildir. Çünki Peyğəmbər ﷺ bunu qadağan edərək belə demişdir: **"Həqiqətən, şeytan sol əli ilə yeyir və sol əli ilə də içir".**[1]

Əgər biri sağ əli ilə, digəri isə sol əli ilə yeyib-içən iki nəfər görsən, bil ki, birincisi Peyğəmbərin ﷺ, ikincisi isə şeytanın yolundadır. Görəsən hansısa bir insan Peyğəmbərin ﷺ yolundan üz döndərib şeytanın yolunu tutub getməyə razı olarmı?! Əlbəttə ki, heç bir insan heç vaxt buna razı olmaz. Lakin şeytan, insanlara sol əllə yeməyi və sol əllə içməyi gözəl göstərir. Bəlkə də bəzi insanlar bunu müasirlik və mədənilik kimi qəbul

[1] "Səhih Muslim", 2020.

edirlər. Çünki qərb ölkələrinin kafirləri yemək-içmək məsələsində sol ələ üstünlük verirlər. Odur ki, zəruri hallar istisna olmaqla, hər bir müsəlman sağ əli ilə yeməli, sağ əli ilə də içməlidir. Övladlarımıza da körpə yaşlarından sağ əlləri ilə yeməyi, sağ əlləri ilə də içməyi öyrətməyimiz vacibdir.

Əl ilə salamlaşmaq məsələsi də eynilə belədir. İnsan sol əli ilə deyil, sağ əli ilə salamlaşmalıdır. Əgər bir adam salamlaşmaq üçün sol əlini sənə tərəf uzadarsa, onunla salamlaşma. Əksinə, onu tərk et. Çünki *onun etdiyi* bu əməl sünnəyə müxalifdir. Sağ əli iflic olub onu tərpədə bilməyən insan isə istisnadır. Bu, onun üçün üzr sayılır.

Kəbədə Qara daşa və Yəmən küncünə toxunmaq da sağ əllə olmalıdır. Qara daşa və Yəmən küncünə toxunmaq dedikdə, onlara əllə məsh etmək nəzərdə tutulur. Yəni, onlara əllə məsh etmək istədikdə, sağ əlinlə etməlisən. Lakin dövrümüzdə bəzi təvaf edən insanların sol əlləri ilə məsh etdiklərini görürük. Güman edirəm ki, onların çoxu bunu bilməməzlikdən edirlər. Əgər bir insanın qara daşa və ya Yəmən küncünə sol əli ilə məsh etdiyini görsən, ona de ki, bu, hörmətsizlik əlamətidir. Qara daşa və ya Yəmən küncünə sol əllə məsh etmək Allahın evinə hörmət əlaməti deyildir. Əksinə, onlara sağ əllə məsh etmək lazımdır.

Ayaqyolundan çıxmaq da eynilə belədir. Yəni böyük və ya kiçik ehtiyacını rəf etdikdən sonra ayaqyolundan çıxdıqda, sağ ayağınla çıx. Çünki ayaqyolunun çölü içindən daha çox hörmətə layiqdir. Odur ki, ayaqyolundan bayıra çıxdıqda, sağ ayaqla çıxılır.

Bir şey vermək və ya almaq da bu qəbildəndir. Yəni yoldaşına bir şey vermək istədikdə və ya ondan bir şey götürmək istədikdə, bunları sağ əlinlə etməlisən. Bu, İslam əxlaqıdır. Lakin bəzi insanlar hər hansı bir şeyi sol əllə verib, sol əllə almağı müasirlik hesab edirlər. Çünki kafirlər bir şey verdikdə/aldıqda sol əlləri ilə verib, sol əlləri ilə də alırlar. Sübhanallah! Sol tərəf sahibləri sol əllərini istifadə edirlər. Çünki kafirlər sol tərəf sahibidirlər. Möminlər isə sağ tərəf sahibidirlər. Məhz ona görə də kafirin daima sola üstünlük verdiyini görürsən. Çünki o, sol tərəf sahibidir. Kafir həm bu dünyada, həm də Axirətdə sol tərəf sahibidir. Allaha sığınırıq!

Elə isə, zikr etdiyimiz bu əməllərin hamısına, habelə hörmətə layiq olan hər bir əmələ sağla başla. Dolayısıyla, yaxşı işlərin hamısına sağla başlamaq lazımdır. Çünki sağ daha çox hörmətə layiq və daha üstündür. Sol isə bunun əksinədir.

Daha sonra müəllif ﵀ burun təmizləmək, tüpürmək və başqa bu kimi solla edilən əməlləri zikr etmişdir ki, indi bunları qeyd edəcəyik.

Fınxıraraq burun təmizləmək. Yəni, bir insan fınxıraraq burnunun içindəki çirki çıxartmaq istədikdə, bunu sol əli ilə etməlidir. Həmçinin burnundan axan fırtığı silmək istədikdə də bunu sol əli ilə etməlidir.

Ayaqyoluna daxil olmaq da eynilə belədir. Yəni, ayaqyoluna daxil olarkən sol ayaq birinci girməlidir. Çıxmağa gəldikdə isə, bu barədə əvvəldə qeyd etmişdik ki, sağ ayaqla çıxılır. Məsciddən çıxdıqda da eynilə sol ayaqla çıxılır.

Habelə ayaqqabını, xufu, paltarı, şalvarı və başqa bu kimi şeyləri çıxartdıqda da birinci sol ayaq çıxarılır. Dolayısıyla, bir şey geyindikdə sağdan, soyunduqda isə soldan başlanılır.

Ayaqyolunda təmizlənərkən də sol əl istifadə olunur. Peyğəmbər ﷺ, insanın ayaqyolunda sağ əli ilə təmizlənməsini qadağan etmişdir.[1] Çünki yaxşı işləri görməyə sağ əl layiqdir. Sağ əllə yeyilir, sağ əllə də içilir. Bir sözlə, sağ əli çirkli və pis hesab edilən işlərdən uzaq tutmaq lazımdır. Həmin çirkli və pis hesab edilən işlərdə isə sol əldən istifadə edilməlidir. Dolayısıyla, sağ əl yaxşı işlərdə, sol əl isə pis işlərdə istifadə edilir.

Qol saatları çıxdıqdan sonra insanlar onu sol əllərinə taxmağa başladılar. Səbəbi də o idi ki, sağ əlin hərəkəti zamanı insan əziyyət çəkməsin. Çünki sol ələ nisbətən sağ əl daha çox hərəkətdə olur. Yəni, insan sağ əllə hərəkət etməyə daha çox ehtiyac duyur. Bu səbəbdən də qol saatını sol ələ bağlayırdılar. Çünki bu onlar üçün daha asan idi. Həm də iş görərkən əksər hallarda sağ əldən istifadə olunduğu üçün, saatı sağ ələ taxdıqda, o daha çox zərər görə bilər. Ona görə də saatı sol ələ taxırdılar.

Bəziləri isə sağ əli önə çəkməyi düşünərək saatı sağ ələ taxmağın daha üstün olduğunu zənn edirlər. Lakin bu zənn heç də doğru deyildir. Çünki Peyğəmbərdən ﷺ sabit olan rəvayətlərə görə, o, üzüyünü hərdən sağ əlinə, hərdən də sol əlinə taxardı. Üzüyü sağ əllə soldan çıxartmaq daha asan olduğuna görə, bəlkə də əksər hallarda Peyğəmbər ﷺ onu sol əlinə taxmışdır. Belə bir durumda saatı üzüyə qiyas etmək daha münasibdir. Bir sözlə, saat məsələsində nə sağ əl sol ələ, nə də sol əl sağ ələ tərcih edilmir. Bu məsələdə seçim genişdir. İstəyirsən saatı sağ əlinə tax, istəyirsən də sol əlinə. Bunun istənilən birini etməkdə heç bir qəbahət yoxdur.

[1] "Səhih Muslim", 262.

Sonra müəllif ﷺ *fəslin mövzusuna aid* Allahın kitabından iki ayə zikr etmişdir. Birinci ayədə uca Allah belə buyurur: **"Kitabı sağ əlinə verilən kimsə deyəcək: "Budur, oxuyun kitabımı!"**

Bu, Qiyamət günü baş verəcəkdir. İnsanlara kitabları, yəni onların əməlləri yazılan əməl dəftərləri sağ və ya sol tərəflərindən veriləcəkdir. Əməl dəftəri sağ əlinə verilən kimsə – *Allah bizi də onlardan etsin!* – onu sevinc və fərəh içində götürəcək və belə deyəcəkdir: **"Budur, oxuyun kitabımı!"** Bu hala günümüzdə də rast gəlirik. İstənilən bir tələbə, imtahandan gözəl nəticə əldə etdiyi zaman sevinc və fərəh içində qiymət vərəqini öz dostlarına və yaxınlarına göstərməyə çalışır. Kitabı sol əlinə verilən şəxsin halı isə bunun tam əksi olacaqdır: kitabını kimsəsə göstərməsi bir yana, **"Kaş kitabım mənə verilməyəydi!"**[1] – deyə təmənna edəcəkdir.

Müəllifin zikr etdiyi ikinci ayədə isə uca Allah belə buyurur: **"Sağ tərəf sahibləri. Nə xoşbəxtdir sağ tərəf sahibləri! Sol tərəf sahibləri. Nə bədbəxtdir sol tərəf sahibləri!"**

Uca Allah Öz kitabında Qiyamət günü insanların üç qisim olacağını zikr etmişdir: sağ tərəf sahibləri, sol tərəf sahibləri, *dünyada xeyirli işlərdə* öndə gedənlər. Öndə gedənlər, Allaha yaxın olanlardır. Sağ tərəf sahibləri nicat tapanlar, sol tərəf sahibləri isə həlaka uğrayanlardır. Yəni, insanlar Qiyamət günü üç sinifə bölünəcəklər.

Həmçinin, ruhun bədəndən çıxması əsnasında da insanlar üç sinifə bölünürlər. Uca Allah "əl-Vaqiə" surəsinin əvvəlində insanların Qiyamət günü hansı halda olacağını zikr etmiş, surənin sonunda isə ölüm anındakı vəziyyətlərini zikr edərək belə buyurmuşdur: **"*Can* boğaza yetişdiyi zaman – həmin an siz *can verən adama* baxırsınız. Biz ona sizdən daha yaxın oluruq, siz isə *bunu* görmürsünüz. Madam ki, siz *iddianıza görə* haqq-hesab olunmayacaqsınız və doğru danışanlarsınız, onda, o canı geri qaytarın. Amma əgər o, *Allaha* yaxın olanlardandırsa, onda o, rahatlığa, gözəl ruziyə və Nəim bağına yetişər".**[2]

Allaha yaxın olanlara gəldikdə, onlar hər bir xeyir işdə hamıdan öndə gedənlərdir.

---

[1] "əl-Haqqə" surəsi, 25.

[2] "əl-Vaqiə" surəsi, 83-89.

"Əgər o, sağ tərəf sahiblərindəndirsə, *ona*: "Sağ tərəf sahiblərindən sənə salam olsun!"– *deyiləcək*".[1]

"Yox, əgər o, *haqqı* yalan sayanlardan və *doğru yoldan* azanlardandırsa, *onun* ziyafəti qaynar su olacaq, özü də Cəhənnəmdə yanacaq".[2] Bunlar sol tərəf sahibləridir. Yəni, sol tərəf sahibləri *haqqı* yalan sayanlar və *doğru yoldan* azanlardır. Allah bizi bu hala düşməkdən qorusun!

Müəllif ﵀, zikr etdiyi bu iki ayə vasitəsilə sağ tərəf sahiblərinin həm bu dünyada, həm də axirətdə daima xeyir və lütf içində olacaqlarına işarə etmişdir. Bu barədə daha geniş şəkildə irəlidə danışacağıq.

Mövzu ilə əlaqəli hədislər:

٧٢١ – وَعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يُعْجِبُهُ التَّيَمُّنُ فِي شَأْنِه كُلِّهِ: فِي طُهُورِهِ، وَتَرَجُّلِهِ، وَتَنَعُّلِهِ. متفقٌ عليه.

721. Rəvayət edilir ki, Aişə ﵂ demişdir: "Rəsulullah ﷺ yuyunduqda, saçını daradıqda, ayaqqabılarını geyindikdə və bütün işlərində sağdan başlamağı xoşlayardı".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

٧٢٢ – وَعَنْهَا قَالَتْ: كَانَتْ يَدُ رَسُولِ اللَّهِ ﷺ اليُمْنَى لِطَهُورِهِ وَطَعَامِهِ، وَكَانَتْ اليُسْرَى لِخَلَائِهِ وَمَا كَانَ مِنْ أَذًى. حديث صحيح، رواه أبو داود وغيره بإسناد صحيحٍ.

722. Yenə rəvayət edilir ki, Aişə ﵂ demişdir: "Rəsulullah ﷺ sağ əlini yuyunmaqda və yemək yeməkdə, sol əlini isə ayaqyolunda və digər çirkli işlərdə istifadə edərdi".

Hədis səhihdir. Onu Əbu Davud və başqaları səhih isnadla rəvayət etmişlər.[4]

---

[1] "əl-Vaqiə" surəsi, 90-91.

[2] "əl-Vaqiə" surəsi, 92-94.

[3] "Səhih əl-Buxari", 168; "Səhih Muslim", 268.

[4] "Sunən Əbu Davud", 33; "Səhih Sunən Əbu Davud", 26.

Şərh:

Hafiz ən-Nəvəvi ﵀ **"Yaxşı əməllərdə sağla başlamağın... müstəhəb olması"** adlı fəslində Aişəyə ﵂ istinad edərək onun belə dediyini nəql etmişdir: "Rəsulullah ﷺ bütün işlərində sağdan başlamağı xoşlayardı". Yəni hər bir işində sağdan başlamaq Peyğəmbərin ﷺ xoşuna gələrdi. Yəni yuyunduqda, ayaqqabılarını geyindikdə və saçını daradıqda sağdan başlamağı sevər və bu cür etməyi gözəl əməl hesab edərdi.

Yuyunduqda, yəni *qüsl, dəstəmaz və başqa bu kimi işlərdə* yuyunmağa başladıqda, sağdan başlayardı. Öncə sağ əlini, sonra isə sol əlini yuyardı. Eləcə də öncə sağ ayağını, sonra isə sol ayağını yuyardı. Qulaqlar isə başa aid olan əza kimi qəbul edildiyi üçün, onların hər ikisinə birlikdə məsh edərdi. Yalnız tək əllə məsh etmək məcburiyyətində qaldıqda, öncə sağ qulağa, sonra isə sol qulağa məsh edilir.

Saçını daradıqda, yəni saçını düzəltdikdə, daradıqda və ya yağladıqda. O dövrdəki insanların adətinə uyğun olaraq, Rəsulullah ﷺ saçlarını yalnız həcc və ya ümrə ziyarətləri zamanı qısaldar və ya qırxdırardı. Lakin adi vaxtlarda da bəzən saçlarını qısaldar, bəzən də onlara toxunmazdı. Ona görə də Peyğəmbərin ﷺ saçları hərdən qulağının mərcəyindən olar, hərdən də çiyninə qədər düşərdi. Odur ki, Peyğəmbər ﷺ mütəmadi olaraq saçlarına qulluq edər, onları darayar və yağlayardı ki, daima təmiz qalsın. Ona görə də onun saçları heç vaxt toz-torpaq və başqa bu kimi çirkli şeylərə bulaşmış olmazdı.

Ayaqqabılarını geyindikdə. Peyğəmbər ﷺ ayaqqabılarını geyindikdə də sağdan başlamağı xoşlayardı. Yəni, ayaqqabısını geyindikdə öncə sağı, sonra isə solu geyinər, soyunduqda isə öncə solu, sonra da sağı soyunardı. Paltar geyindikdə də eynisini edərdi – öncə sağ qolunu geyinər, sonra isə sola keçərdi. Həmçinin, şalvar geyinən zaman öncə sağ ayağını, sonra isə sol ayağını geyinərdi. Soyunduqda isə bunların əksini edərdi.

İkinci hədisdə isə Aişə ﵂, Peyğəmbərin ﷺ hansı işlərdə sağ əlini, hansı işlərdə də sol əlini işlətdiyini açıqlamışdır. Aişə ﵂ qeyd edir ki, Peyğəmbər ﷺ ayaqyolunda təmizlənərkən, burnuna su alıb çıxardarkən və başqa bu kimi çirkli işlərdə sol əlindən istifadə edərdi. Bir sözlə, bütün çirkli işlərdə Peyğəmbər ﷺ soldan başlayar, əks hallarda isə hörmət əlaməti olaraq, sağdan başlayardı. Çünki əvvəldə də qeyd etdiyimiz kimi, sağ soldan daha üstündür. Müvəffəq edən Allahdır.

٧٢٣ – وَعَنْ أُمِّ عَطِيَّةَ ﵂ أَنَّ النَّبِيَّ ﷺ قَالَ لَهُنَّ فِي غَسْلِ ابْنَتِهِ زَيْنَبَ ﵂ : «ابْدَأْنَ بِمَيَامِنِهَا وَمَوَاضِعِ الوُضُوءِ مِنْهَا » متفقٌ عليه.

723. Ummu Atiyyə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ, qızı Zeynəbi qüsl edən qadınlara belə buyurmuşdur: **"Öncə sağ tərəfindən və dəstəmaz yerlərindən başlayın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٢٤ – وَعَنْ أَبِي هُرَيْرَةَ ﵁ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « إِذَا انْتَعَلَ أَحَدُكُمْ فَلْيَبْدَأْ بِاليُمْنَى، وَإِذَا نَزَعَ فَلْيَبْدَأْ بِالشِّمَالِ. لِتَكُنِ اليُمْنَى أَوَّلَهُمَا تُنْعَلُ، وآخِرَهُمَا تُنْزَعُ » متفقٌ عليه.

724. Əbu Hureyra ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Sizdən biriniz ayaqqabılarını geyindikdə sağdan başlasın, çıxartdıqda isə soldan başlasın. Qoy birinci geyinilən və sonuncu çıxardılan sağ ayaq olsun".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

٧٢٥ – وَعَنْ حَفْصَةَ ﵂ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَجْعَلُ يَمِينَهُ لِطَعَامِهِ وَشَرَابِهِ وَثِيَابِهِ وَيَجْعَلُ يَسَارَهُ لِمَا سِوَى ذَلِكَ رواه أبو داود وغيره.

725. Hafsə ﵂ rəvayət edir ki, Rəsulullah ﷺ yemək, içmək və geyinmək kimi işlərdə sağını, digər işlərdə isə solunu istifadə edərdi.

Hədisi Əbu Davud və başqaları rəvayət etmişlər.[3]

٧٢٦ – وَعَنْ أَبِي هُرَيْرَةَ ﵁ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « إِذَا لَبِسْتُمْ، وَإِذَا تَوَضَّأْتُمْ، فَابْدَؤُوا بِأَيَامِنِكُمْ » حديث صحيح. رواه أبو داود والترمذي بإسناد صحيح.

726. Əbu Hureyra ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Geyindikdə və dəstəmaz aldıqda sağınızdan başlayın".**

Bu hədisi Əbu Davud və Tirmizi səhih isnadla rəvayət etmişlər.[4]

---

[1] "Səhih əl-Buxari", 167; "Səhih Muslim", 939.

[2] "Səhih əl-Buxari", 5856; "Səhih Muslim", 2097.

[3] "Sunən Əbu Davud", 32; "Səhih Sunən Əbu Davud", 25.

[4] "Sunən Əbu Davud", 4141; "Sunən ət-Tirmizi", 1766; "Səhih əl-Cami", 787.

٧٢٧ – وَعَنْ أَنَسٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أَتَى مِنًى: فَأَتَى الجَمْرَةَ فَرَمَاهَا، ثُمَّ أَتَى مَنْزِلَهُ بِمِنًى، وَنَحَرَ، ثُمَّ قَالَ لِلحَلَّاقِ « خُذْ » وَأَشَارَ إِلَى جَانِبِهِ الأَيْمَنِ، ثُمَّ الأَيْسَرِ ثُمَّ جَعَلَ يُعْطِيهِ النَّاسَ. متفقٌ عليه.

وفي روايةٍ: لَمَّا رَمَى الجَمْرَةَ، وَنَحَرَ نُسُكَهُ وَحَلَقَ: نَاوَلَ الحَلَّاقَ شِقَّهُ الأَيْمَنَ فَحَلَقَهُ، ثُمَّ دَعَا أَبَا طَلْحَةَ الأَنْصَارِيَّ ﷺ ، فَأَعْطَاهُ إِيَّاهُ، ثُمَّ نَاوَلَهُ الشِّقَّ الأَيْسَرَ فَقَالَ: «احْلِقْ » فَحَلَقَهُ فَأَعْطَاهُ أَبَا طَلْحَةَ فَقَالَ: « اقْسِمْهُ بَيْنَ النَّاسِ ».

727. Ənəs ﷺ rəvayət edir ki, "Rəsulullah ﷺ Minaya gəldi və *dərhal* Cəmərata[1] gedib daşlarını atdı. Sonra Minadakı mənzilinə qayıdıb qurbanını kəsdi. Daha sonra dəlləyə, saçının öncə sağ tərəfinə, sonra da sol tərəfinə işarə edərək: **"Kəs!"** dedi. Sonra da *saçını oradakı* insanlara payladı".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Digər rəvayətdə isə belə deyilir: "*Peyğəmbər* ﷺ Cəmərətda daşlarını atdıqdan və qurbanını kəsdikdən sonra saçlarını qırxdırdı. *Bu zaman* o, öncə sağ tərəfini dəlləyə tərəf çevirdi. Dəllək onun *saçının sağ tərəfini* qırxdıqdan sonra *Peyğəmbər* ﷺ Əbu Talhə əl-Ənsarini ﷺ çağırdı və saçlarını ona verdi. Sonra da sol tərəfini dəlləyə tərəf çevirib: **"Qırx!"** dedi. O da *saçın qalan hissəsini* qırxdı. Sonra *Peyğəmbər* ﷺ onları da Əbu Talhəyə verdi və ona: **"Bunları *isə* insanlar arasında payla"**– deyə buyurdu".

Şərh:

Bütün bu hədislər yaxşı işlərdə sağdan başlamağın, ayaqyolunda təmizlənmək və başqa bu kimi yaxşı sayılmayan (çirkin) işlərdə isə soldan başlamağın müstəhəb olmasını bəyan edir. Müəllif ﷺ öncə Ummu Atiyyənin ﷺ hədisini zikr edir. Ummu Atiyyə ənsar qadınlarından idi. Onun *bir çox* tərifəlayiq işləri olmuşdur. Onun belə işlərindən biri də ölən qadınları qüsl etməsi idi. Peyğəmbərin ﷺ qızı Zeynəb ﷺ vəfat etdiyi zaman qadınlar onu yumağa gəldikdə, Peyğəmbər ﷺ onlara: **"Öncə sağ tərəfindən və dəstəmaz yerlərindən başlayın"**– demişdir.

---

[1] Burada söhbət şeytanın rəmzi olaraq tikilmiş üç sütundan – kiçik, orta və böyük sütunlardan gedir. Bu sütunlara ərəbcə "cəmərat" deyilir.

[2] "Səhih əl-Buxari", 170; "Səhih Muslim", 1305.

Ölü yumağın qaydası belədir: övrət yeri örtüldükdən sonra ilk olaraq paltarı çıxardılır. Sonra ölünü yuyan şəxs əlinə keçirdiyi bez parçası ilə onun ön və arxa övrət yerlərini tərtəmiz yuyur. Bundan sonra əlindəki bezi çıxarıb, bir insanın adi halda dəstəmaz aldığı kimi, *əvvəlcə* ölünün əllərini yuyur. Sonra *dəstəmaz əməllərindən olan* ağız və burunu yumağın əvəzinə, əlinə yaş bir bez götürüb onunla ölünün dişlərini, ağzını və burun dəliklərini təmizləyir. Ölünün nə ağzına, nə də burnuna su alınmamalıdır. Çünki onun qarnına su gedərsə, qüsl əsnasında həmin su *onun ağzından bayıra çıxa və* ölünü yuyanları çətin vəziyyətə sala bilər. Bundan sonra ölünün üzü və dirsəklərinə qədər əlləri yuyulur. Başına məsh etdikdən sonra da ayaqları yuyulur və bu qaydada ölüyə tam bir dəstəmaz aldırılmış olur.

Sonra köpüklənmiş sidrli su ilə ölünün başı yuyulur. Onu da qeyd edək ki, ölünü yuyan adamın yanında içərisində üyüdülmüş sidr yarpaqları olan su olmalı və o, bu suyu köpüklənənə qədər əlləri ilə qarışdırmalıdır. Bir sözlə, köpüklənmiş bu su ilə öncə ölünün başı, sonra isə *sağdan başlayaraq* bədəninin qalan hissələri yuyulur.

Qadını yalnız qadınlar yumalıdır. Qadını nə onun atası, nə oğlu, nə də məhrəmlərindən heç biri yuya bilməz. Qadını yalnız qadınlar və ya onun əri yuya bilər.

Kişini də yalnız kişilər yumalıdır. Kişini nə onun anası, nə qızı, nə də başqa bir qadın yuya bilməz. Qadınlardan da kişini yalnız onun həyat yoldaşı yuya bilər. Kişi öz həyat yoldaşını, qadın da ərini yuya bilər. Bunun xarıcində isə nə qadını başqa bir kişi, nə də kişini başqa bir qadın yuya bilməz.

Qadınlar Peyğəmbərin ﷺ qızı Zeynəbi رضي الله عنها yumağa gəldikdə, Peyğəmbər ﷺ onlara: **"Öncə sağ tərəfindən başlayın"**– deyə buyurdu. Yəni, öncə soldan deyil, sağdan başlayın. Sol əldən öncə sağ əldən, sol ayaqdan öncə sağ ayaqdan və bədənin sol tərəfindən öncə sağ tərəfindən başlayın. Həmçinin, **"Dəstəmaz yerlərindən başlayın"**– deyə buyurdu. Qadınlar da onun dediyi kimi etdilər. Ayrıca, onun saçlarına biri sağ tərəfindən, biri sol tərəfindən, biri də ortadan olmaqla, üç hörük vurdular. Sonra həmin hörükləri onun arxasına atdılar. Bundan sonra Peyğəmbər ﷺ öz izarını onlara verdi və: **"Onu buna bürüyün!"**– deyə buyurdu. Yəni, bu izarı birbaşa onun bədəninə bürüyün ki, Peyğəmbərin ﷺ izarı onun üçün təbərrük[1] olsun. Qadınlar da onun dediyi kimi etdilər.

[1] Təbərrük etmək, bərəkət diləmək deməkdir.

Bu hədisin fəslin mövzusuna aid olan hissəsi Peyğəmbərin ﷺ: **"Öncə sağ tərəfindən başlayın"** sözüdür.

Daha sonra müəllif ﷺ əvvəldə açıqladığımız mənaları ifadə edən, Əbu Hureyranın ﷺ paltar və ayaqqabı geyinməklə əlaqəli olan hədisini zikr etmişdir. Habelə Hafsənin ﷺ və Əbu Hureyranın ﷺ ikinci hədisini də zikr etmişdir.

Bunun ardından müəllif ﷺ, Peyğəmbərin ﷺ vida həccində saçlarını kəsdirməsi ilə əlaqəli Ənəsin ﷺ hədisini zikr etmişdir. Peyğəmbər ﷺ vida həccində Müzdəlifədə gecələyərək sübh namazını *orada* qılmışdır. Sonra da oturub hava tam işıqlanana qədər dua etmiş, günəş doğmadan öncə isə Müzdəlifədən çıxmışdır. Peyğəmbər ﷺ Cəmərata çatdıqda, günəş artıq yüksəyə qalxmışdı və istisi də hiss olunurdu.

Peyğəmbər ﷺ bayram günü Cəmərata gedib daşlarını atdı. Sonra *Minadakı* mənzilinə qayıdıb dəllək çağırdı və saçlarını qırxdırdı. Bu zaman Peyğəmbər ﷺ dəlləyə başının sağ tərəfini işarə etdi və dəllək onun saçının sağ tərəfini qırxdı. Həmin vaxt Peyğəmbərin ﷺ saçları uzun idi. Bir sözlə, dəllək onun saçının sağ tərəfini qırxdıqdan sonra *Peyğəmbər* ﷺ Əbu Talhə əl-Ənsarini ﷺ çağırdı və başının sağ tərəfindən qırxılan saçlarını ona verdi. Bundan sonra dəllək onun saçının qalan yerlərini qırxdı. *Peyğəmbər* ﷺ yenə Əbu Talhəni ﷺ çağırdı və saçlarını ona verib: **"Bunları *isə* insanlar arasında payla"**– deyə buyurdu. Əbu Talhə də həmin saçları payladı. Bu zaman insanlardan eləsi oldu ki, saçdan bir telə, eləsi oldu iki telə, digəri də bir neçə telə nail oldu – hər kəs nəsibinə düşəni aldı. Bütün bunlar Peyğəmbərin ﷺ mübarək saçı ilə təbərrük etmək üçün idi.

Peyğəmbərin ﷺ, başının sağ tərəfindən qırxılan saçının hamısını məxsusi olaraq Əbu Talhəyə ﷺ verməsi, uca Allahın bəzi məsələlərdə müəyyən insanları xüsusiləşdirməsinə dəlalət edir. Halbuki, orada Əbu Talhədən daha fəzilətli səhabələr var idi – orada Əbu Bəkr, Ömər, Osman və Əli ﷺ kimi fəzilətli səhabələr var idi. Amma buna baxmayaraq, Allah Öz lütfünü istədiyi şəxsə verir.

Səhabələr Peyğəmbərin ﷺ saçı, paltarı və təri vasitəsilə təbərrük edərdilər. Ancaq Peyğəmbərdən ﷺ qeyrisinin nə saçı, nə paltarı, nə də təri ilə təbərrük edilməz.

Peyğəmbərin ﷺ zövcələrindən olan Ummu Sələmə رضي الله عنها özündə olan Peyğəmbərə ﷺ aid bir neçə tel saçı gümüşdən olan qabın içində saxlayırdı. O, Rəsulullahın ﷺ saçına hörmət əlaməti olaraq bu qabı gümüşdən düzəltdirmişdi. İnsanlardan biri xəstələndiyi zaman onun yanına gələr, o da bu saçın üzərinə su töküb onu qarışdırar, sonra da həmin suyu xəstəyə verərdi. Xəstə də Allahın izni ilə və Peyğəmbərin ﷺ saçının bərəkəti sayəsində şəfa tapardı.

Lakin bu, əvvəldə də dediyim kimi, yalnız Peyğəmbərə ﷺ xasdır. Belə ki, səhabələrdən heç biri Peyğəmbərdən ﷺ sonra bu ümmətin ən fəzilətlisi sayılan Əbu Bəkrin və ya Ömərin, yaxud başqa bir səhabənin saçı ilə təbərrük etməmişdir. Eləcə də, onlardan aşağı dərəcədə olan heç bir insanın nə saçı, nə təri, nə də paltarı ilə təbərrük edilmir. Təbərrük yalnız Rəsulullaha ﷺ xasdır.

Ənəsin رضي الله عنه rəvayət etdiyi hədisin fəslin mövzusu ilə əlaqəli olan hissəsi, Peyğəmbərin ﷺ dəlləyə saçının əvvəlcə sağ tərəfindən başlamasını işarə etməsidir. Sən də həcc ziyarəti edərkən saçını qırxdırmaq və ya qısaltmaq istədikdə, öncə sağ tərəfdən başla. Həmçinin, adi hallarda da saçını qırxdırmaq istədikdə, sağ tərəfdən başla. Müvəffəq edən Allahdır.

YEMƏK ƏDƏBİ KİTABI

Yüzüncü fəsil

Yeməyin əvvəlində “bismilləh” demək, sonunda isə həmd etmək

Mövzu ilə əlaqəli hədislər:

٧٢٨ – عَنْ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ ﵄ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: «سَمِّ اللَّهَ وَكُلْ بِيَمِينِكَ، وَكُلْ مِمَّا يَلِيكَ». متفقٌ عليه.

728. Rəvayət edilir ki, Ömər ibn Əbu Sələmə ﵄ demişdir: “*Bir dəfə* Rəsulullah ﷺ mənə belə buyurdu: **“*Balaca,* Allahın adını çək, özün də sağ əlinlə və öz qabağından ye!”**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٢٩ – وَعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذَا أَكَلَ أَحَدُكُمْ فَلْيَذْكُرِ اسْمَ اللَّهِ تَعَالَى، فَإِنْ نَسِيَ أَنْ يَذْكُرَ اسْمَ اللَّهِ تَعَالَى فِي أَوَّلِهِ، فَلْيَقُلْ: بِسْمِ اللَّهِ أَوَّلَهُ وَآخِرَهُ».

رواه أبو داود، والترمذي، وقال: حديث حسن صحيح.

729. Aişə ﵂ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **“Sizlərdən biri yeməyə başlayarkən uca Allahın adını çəksin[2]. Əgər yeməyin əvvəlində uca Allahın adını çəkməyi unudarsa, qoy onda belə desin: “Əvvəlində də, sonunda da Allahın adı ilə”.**[3]

Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: “Bu, “həsən-səhih” hədisdir”– demişdir.[4]

---

[1] “Səhih əl-Buxari”, 5376; “Səhih Muslim”, 2022.

[2] “Bismilləh” desin.

[3] Transkripsiyası: Bismilləhi əvvələhu və axirahu.

[4] “Sunən Əbu Davud”, 3767; “Sunən ət-Tirmizi”, 1858. Bu hədisi şeyx Albani “İrva əl-Ğalil” kitabında səhih hesab etmişdir. (1965).

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" adlı kitabındakı bu bölümə **"Yemək ədəbi kitabı"** başlığını qoymuşdur. Yemək dedikdə insanın yediyi, yaxud dadına baxdığı hər bir yeməli və içməli şey başa düşülür. İçməli şeylərin də yemək anlamında olmasına dəlil uca Allahın bu ayəsidir. Uca Allah buyurur: **"Kim ondan içsə, o məndən deyildir. Kim ondan dadmasa, dadsa da əli ilə bir ovuc götürüb *içsə* o məndəndir".**[1]

Daha sonra müəllif ﵀ **"Yeməyin əvvəlində "bismilləh" demək, sonunda isə həmd etmək"** başlıqlı bir fəsil açmış və orada Ömər ibn Əbu Sələmənin ﵄ hədisini zikr etmişdir. Ömər ibn Əbu Sələmə ﵄ Peyğəmbərin ﷺ ögey övladı, yəni zövcəsi Ummu Sələmənin ﵂ oğludur. Bir dəfə Peyğəmbərə ﷺ yemək gətirildikdə, o zaman hələ kiçik uşaq olan Ömər də yemək yeməyə başlayır və əlini qabın gah o tərəfinə, gah da bu tərəfinə uzadır. Bu zaman, hətta uşaqlar olsa belə, təlim və tərbiyə verməyə ehtiyac duyulduqda, dərhal insanları öyrədən Peyğəmbər ﷺ ona: **"*Balaca,* Allahın adını çək, özün də sağ əlinlə və öz qabağından ye!"** – buyurur.

Bunlar Peyğəmbərin ﷺ bu uşağa öyrətdiyi, yeməklə bağlı üç ədəbdir:

Birinci ədəb: Peyğəmbər ﷺ ona: **"Allahın adını çək!"** deyir. Yəni, "bismilləh" de. "bismilləh" kəlməsinə "ər-Rəhman ər-Rəhim" kəlmələrini də əlavə edib "bismilləhir-Rəhmanir-Rəhim" deməkdə heç bir problem yoxdur. Çünki uca Allah, Qurani-Kərimdə də keçdiyi kimi, "bismilləh"-dəki bu iki ad vasitəsilə Özünü tərifləmişdir. Dolayısıyla, bir adamın *yeməyə başlayarkən* "bismilləhir-Rəhmanir-Rəhim" deməsi qəbahət deyildir. Lakin qısa olaraq "bismilləh" desə də kifayət edər.

Yeməyə başladıqda "bismilləh" demək vacibdir. Əgər bir adam *bilərəkdən* onu tərk edərsə, günah qazanar və şeytan onun yeməyinə şərik olar. Əlbəttə ki, heç bir şəxs öz yeməyində düşmənininin ona şərik olmasını istəməz. Heç bir şəxs şeytanın onun yeməyinə şərik çıxmasına razı olmaz. Əgər yemək yeyərkən "bismilləh" deməsən, bil ki, şeytan sənin yeməyinə şərikdir.

Əgər yeməyin əvvəlində "bismilləh" deməyi unutsan və sonradan, yemək əsnasında bu sənin yadına düşsə, o zaman Aişənin ﵂ rəvayət etdiyi hədisdə keçdiyi kimi, "bismilləhi əvvələhu və axirahu" de!

---

[1] "əl-Bəqərə" surəsi, 249.

İkinci ədəb: Peyğəmbər ﷺ ona: **“özün də sağ əlinlə ye!”** deyir. Sağ əllə yemək vacibdir. Hər kim sol əli ilə yeyərsə, günah qazanar və Peyğəmbərə ﷺ asi olar. Peyğəmbərə ﷺ asi olan şəxs isə Allaha asi olmuş olar, Peyğəmbərə ﷺ itaət edən də Allaha itaət etmiş sayılar.

Üçüncü ədəb: Peyğəmbər ﷺ ona: **“öz qabağından ye!”** deyir. Yəni, sənlə birlikdə yeməyə qatılan varsa, o zaman həmin adama yaxın olan tərəfdən deyil, öz tərəfindən ye. Çünki başqasının qabağından yemək ədəbsizlikdir. Alimlər belə demişlər: “Əgər yeməklər müxtəlif növdürsə, yəni, məsələn, *süfrədə* balqabaq, badımcan, ət və başqa bu kimi müxtəlif çeşidli yeməklər varsa, o zaman fərqli çeşidlərdən yemək üçün əlini həmin yeməklərə uzatmaqda bir problem yoxdur. Çünki Peyğəmbər ﷺ də belə edərdi – qabdakı balqabağı yemək üçün əlini ona tərəf uzadardı”.

Həmçinin, yeməyi tək yediyin zaman da qabın istənilən tərəfindən yeyə bilərsən. Çünki bu zaman sən belə etməklə heç kimə əziyyət vermirsən. Lakin qabın ortasından yemə. Çünki bərəkət yeməyin ortasına nazil olur. Elə isə, yeməyi qabın kənarlarından ye!

Bu hədis dəlildir ki, hər birimiz uşaqlarımıza yemək və içmək ədəblərini mütləq öyrətməliyik. Həmçinin, yatmaq ədəbini də öyrətmək lazımdır. Namaz və buna bənzər əməlləri öyrətməyin vacib olmasını xatırlatmağa isə gərək yoxdur. Bu xüsusda Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Övladlarınız yeddi yaşına çatdıqda, onlara namazı əmr edin, on yaşına çatdıqda isə, buna görə onları vurun”.**[1] Müvəffəq edən Allahdır.

٧٣٠ – وَعَنْ جَابِرٍ رضي الله عنه قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ يَقُولُ: «إِذَا دَخَلَ الرَّجُلُ بَيْتَهُ، فَذَكَرَ اللَّهَ تَعَالَى عِنْدَ دُخُولِهِ وَعِنْدَ طَعَامِهِ، قَالَ الشَّيْطَانُ لِأَصْحَابِهِ: لَا مَبِيتَ لَكُمْ وَلَا عَشَاءَ، وَإِذَا دَخَلَ، فَلَمْ يَذْكُرِ اللَّهَ تَعَالَى عِنْدَ دُخُولِهِ، قَالَ الشَّيْطَانُ: أَدْرَكْتُمُ الْمَبِيتَ، وَإِذَا لَمْ يَذْكُرِ اللَّهَ تَعَالَى عِنْدَ طَعَامِهِ قَالَ: أَدْرَكْتُمُ الْمَبِيتَ وَالعَشَاءَ » رواه مسلم.

730. Rəvayət edilir ki, Cabir رضي الله عنه demişdir: “Mən Peyğəmbərin ﷺ belə dediyini eşitmişəm: **“Adam həm evinə daxil olarkən, həm də yeməyə başlayarkən uca Allahı zikr etsə, şeytan öz dostlarına deyər: “*Burada***

[1] “Sunən Əbu Davud”, 495; “Sunən ət-Tirmizi”, 407. Şeyx Albani bu hədisi “İrva əl-Ğalil” kitabında (298) səhih hesab etmişdir.

sizin üçün nə gecələyəcək yer var, nə də ki axşam yeməyi". Əgər *həmin adam* evə daxil olduğu zaman Allahı zikr etməzsə, şeytan: "Siz gecələməyə yer tapdınız"– deyər. Əgər yeməyə başladıqda da Allahı zikr etməzsə, şeytan: "Siz həm gecələməyə yer, həm də yemək tapdınız"– deyər."

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ bu hədisi **"Yemək ədəbi"** başlığı altında zikr etdiyi hədislərin arasında gətirmişdir. Cabir ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Adam həm evinə daxil olarkən, həm də yeməyə başlayarkən uca Allahı zikr etsə, şeytan öz dostlarına deyər: "*Burada* sizin üçün nə gecələyəcək yer var, nə də ki axşam yeməyi".** Çünki bu adam Allahın adını zikr etmişdir. Evə daxil olarkən uca Allahı zikr etmək, *yəni evə daxil olarkən deyilən dua* isə belə olur: **"Bismilləhi vələcnə və bismilləhi xaracnə və alə Rabbinə təvəkkəlnə. Allahummə inni əs'ələukə xayral-muləci və xayral-məxrəci".**[2] İstər gecə vaxtı, istərsə də gündüz vaxtı evə girərkən edilən dua budur.

Yemək vaxtı edilən zikr isə "Bismilləh" deməkdir.

Əgər bir adam həm evə girdikdə, həm də yemək yedikdə Allahın adını zikr edərsə və "Bismilləh" deyərsə, şeytan öz dostlarına belə deyər: "Burada sizin üçün nə gecələyəcək yer var, nə də ki axşam yeməyi". Çünki həm bu ev, həm də bu evin yeməyi Allahın zikri ilə qorunmuşdur. Uca Allah o evi şeytanlardan qoruyur.

Əgər *həmin adam* evə daxil olduğu zaman Allahı zikr etməzsə, şeytan: "Siz gecələməyə yer tapdınız"– deyər. Əgər yeməyə başladıqda da Allahı zikr etməzsə, şeytan: "Siz həm gecələməyə yer, həm də yemək tapdınız"– deyər.

---

[1] "Səhih Muslim", 2018.

[2] Ərəbcəsi:

((بِسْمِ اللهِ وَلَجْنَا، وَبِسْمِ اللهِ خَرَجْنَا، وَعَلَى رَبِّنَا تَوَكَّلْنَا. اللَّهُمَّ! إِنِّي أَسْأَلُكَ خَيْرَ الْمَولَجِ، وَخَيْرَ الْمَخْرَجِ))

Tərcüməsi: Allahın adı ilə girdik, Allahın adı ilə çıxdıq və Rəbbimizə təvəkkül etdik. Allahım, girişin və çıxışın xeyrini Səndən diləyirəm!

Bu hədis *hər bir* insanı evinə daxil olarkən, Allahın adını zikr etməyə təşviq edir. Bu xüsusda varid olan zikr isə belədir: [Bismilləhi vələcnə və bismilləhi xaracnə və alə Rabbinə təvəkkəlnə. Allahummə inni əs’əlukə xayral-muləci və xayral-məxrəci]. Adam evə daxil olduqdan sonra *ilk olaraq* dişlərini misvakla təmizləməlidir. Çünki Peyğəmbər ﷺ evinə daxil olarkən ilk olaraq dişlərini misvakla təmizləyər, sonra isə ev əhlinə salam verərdi.

İnsan yemək yedikdə də “Bismilləh” deməlidir. Əgər bir adam həm evinə girəndə, həm də yeməyə başlayanda Allahı zikr edərsə, bunun sayəsində həm evini, həm də yeməyini məl’un şeytandan qorumuş olar. Əgər evinə girdikdə Allahı zikr edər, yemək yedikdə zikr etməzsə, şeytan sadəcə onun yeməyinə şərik olar. Yox, əgər evinə girdikdə deyil, sadəcə yemək yedikdə Allahı zikr edərsə, bu dəfə şeytan onun evinə şərik olar. Hər iki vəziyyətdə, yəni həm evinə girdikdə, həm də yemək yedikdə Allahı zikr edərsə, şeytanın nə gecələyəcək yeri, nə də yeyəcək yeməyi olar. Müvəffəq edən Allahdır.

٧٣١ – وعَنْ حُذَيْفَةَ رضي الله عنه قَالَ: كُنَّا إِذَا حَضَرْنَا مَعَ رَسُولِ اللَّهِ ﷺ طَعَاماً، لَمْ نَضَعْ أَيْدِينَا حَتَّى يَبْدَأَ رَسُولُ اللَّهِ ﷺ فَيَضَعَ يَدَهُ. وَإِنَّا حَضَرْنَا مَعَهُ مَرَّةً طَعَاماً، فَجَاءَتْ جَارِيَةٌ كَأَنَّهَا تُدْفَعُ، فَذَهَبَتْ لِتَضَعَ يَدَهَا فِي الطَّعَامِ، فَأَخَذَ رَسُولُ اللَّهِ ﷺ بِيَدِهَا، ثُمَّ جَاءَ أَعْرَابِيٌّ كَأَنَّمَا يُدْفَعُ، فَأَخَذَ بِيَدِهِ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِنَّ الشَّيْطَانَ يَسْتَحِلُّ الطَّعَامَ أَنْ لَا يُذْكَرَ اسْمُ اللَّهِ تَعَالَى عَلَيْهِ. وَإِنَّهُ جَاءَ بِهَذِهِ الجَارِيَةِ لِيَسْتَحِلَّ بِهَا، فَأَخَذْتُ بِيَدِهَا، فَجَاءَ بِهَذَا الأَعْرَابِيِّ لِيسَتَحِلَّ بِهِ، فَأَخَذْتُ بِيَدِهِ، وَالَّذِي نَفْسِي بِيَدِهِ إِنَّ يَدَهُ فِي يَدِي مَعَ يَدَيْهِمَا» ثُمَّ ذَكَرَ اسْمَ اللَّهِ تَعَالَى وَأَكَلَ.

رواه مسلم.

731. Rəvayət edilir ki, Huzeyfə ibn Yəmən رضي الله عنه demişdir: “Biz Rəsulullahla ﷺ birlikdə süfrə başına oturduqda, o, əlini yeməyə uzatmadıqca, biz əlimizi yeməyə uzatmazdıq. Yenə bir gün biz onunla bərabər bir süfrədə yeməyə oturduq. Elə bu vaxt bir qız uşağı *bizim yanımıza* gəldi. Sanki *arxasından kimsə* onu itələyirdi. O gəlib əlini yeməyə uzatdıqda, Rəsulullah ﷺ onun əlindən tutub saxladı. Daha sonra bir bədəvi *süfrəyə* yaxınlaşdı. Onu da sanki *arxasından kimsə* itələyirdi. Rəsulullah ﷺ onun da əlindən tutub saxladı, sonra dedi: **“Şeytan istəyir ki, yeməyə başladıqda,**

Allahın adı zikr edilməsin və o yeməkdən yeyə bilsin. O, bu qız uşağını gətirmişdi ki, onun sayəsində bu yeməkdən yeyə bilsin. Lakin mən onun əlindən tutub saxladım. Sonra bu bədəvini gətirdi ki, onun sayəsində bu yeməkdən yeyə bilsin. Mən onun da əlindən tutub saxladım. Canım Əlində olan *Allaha* and olsun ki, onların əlləri ilə birlikdə şeytanın da əli mənim əlimin içindədir."

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Nəvəvi ﵀ "Salehlər bağçası" adlı kitabının **"Yemək ədəbi"** başlığı altında zikr etdiyi hədisdə Huzeyfə ibn Yəmənin ﵁ belə dediyini nəql etmişdir: "Biz Rəsulullahla ﷺ birlikdə süfrə başına oturduqda, o, əlini yeməyə uzatmadıqca, biz əlimizi yeməyə uzatmazdıq". Bu hərəkət onların Peyğəmbərə ﷺ göstərdikləri ən yüksək hörmətdən irəli gəlirdi – Peyğəmbər ﷺ əlini yeməyə uzatmadıqca, onlar əllərini yeməyə uzatmazdılar.

Huzeyfə ibn Yəmən ﵁ yenə bir gün Rəsulullahla ﷺ bərabər bir süfrədə yeməyə oturur. Onlar yeməyə başladıqları, yaxud qarşılarına yemək qoyulduğu zaman bir cariyə, yəni balaca qız uşağı onların yanına gəldi. Sanki *arxadan kimsə* onu qovurdu, yəni, sanki qaçırdı. O gəlib "bismilləh" demədən əlini yeməyə uzatdıqda, Rəsulullah ﷺ onun əlindən tutub saxladı. Daha sonra bir bədəvi *süfrəyə* yaxınlaşdı. Onu da sanki *arxasından kimsə* itələyirdi. O da "bismilləh" demədən əlini yeməyə uzatdıqda, Peyğəmbər ﷺ onun da əlindən tutub saxladı. Sonra Peyğəmbər ﷺ xəbər verdi ki, bu qız uşağını da, bədəvini də bura gətirən şeytan idi. O, onları gətirmişdi ki, "bismilləh" demədən yedikləri zaman onların sayəsində bu yeməkdən yeyə bilsin.

Ola bilsin ki, bu iki nəfər bilmədiklərinə görə üzürlü sayılsınlar. Çünki onlardan biri uşaq, digəri isə bədəvi ərəb idi. Lakin şeytan onları gətirmişdi ki, onlar "bismilləh" demədən yemək yesinlər, o da onlarla bərabər yesin.

Daha sonra Peyğəmbər ﷺ Allaha and içərək bildirir ki, *hal-hazırda* onların əlləri ilə birlikdə şeytanın da əli onun əlinin içindədir.

[1] "Səhih Muslim", 2017.

Bu hədisdən çıxan bəzi faydalar:

1. Səhabələrin Peyğəmbərə ﷺ olan böyük ehtiramları və onunla davranışda gözəl ədəb nümayiş etdirmələri.

2. Əgər süfrə başında yaşca böyük adam olarsa, o zaman heç kəs ondan öncə yeməyə başlamamalıdır – hamı onun yeməyə başlamağını gözləməlidir. Çünki yaşlılar olan yerdə önə keçmək həm məqsədəuyğun deyil, həm də ədəbsizlikdir.

3. Şeytan insana lazımsız işləri yerinə yetirməyi əmr edir, onu bu işləri görməyə həvəsləndirir və vadar edir. Bu xüsusda Qurani-Kərimdə belə deyilir: **"Şeytan sizi yoxsulluqla qorxudur və sizə yaramaz işlər görməyi əmr edir".**[1] Həmçinin uca Allah buyurur: **"Ey iman gətirənlər, şeytanın izi ilə getməyin! Kim şeytanın izi ilə getsə, *bilsin ki,* o *şeytan* iyrənc və yaramaz işlər görməyi əmr edir."**[2] Bu da onu göstərir ki, şeytanın Adəm oğulları üzərində müəyyən bir hakimiyyəti vardır. Günahdan qorunan kimsə isə yalnız Allahın qoruduğu kimsədir.

4. Əgər bir insan yeməyin ortasında süfrəyə yetişərsə, "məndən əvvəlkilər artıq bismilləh deyib" deməməli, əksinə, yeməyə başladıqda *özü üçün* "bismilləh" deməlidir. *Burada bir sual ortaya çıxır:*

– Əgər hamı bir yerdədirsə və yeməyə də hamı birlikdə başlayıbsa, o zaman bir nəfərin "Bismilləh" deməsi yetərlidirmi?

Cavab: Əgər həmin bir nəfər "bismilləh" kəlməsini səssiz demişsə, o zaman bu onlar üçün yetərli deyil. Çünki digərləri onu eşitməmişlər. Əgər həmin adam "bismilləh" kəlməsini hamının adından niyyət edib uca səslə demişdirsə, o zaman hamı üçün yetərlidir deyilə bilər. Lakin ən üstünü, hər kəsin özü üçün "bismilləh" deməsidir ki, ən doğru və ən gözəl olan da budur.

5. Şeytanın əli var. Çünki Rəsulullah ﷺ *uşaq və bədəvi ilə birlikdə* onun da əlini tutub saxlamışdı.

6. Bu hədis Peyğəmbərin ﷺ peyğəmbərliyinin əlamətlərindən birini üzə çıxarır. Çünki uca Allah Peyğəmbərə ﷺ bu hadisədə baş verənləri, yəni uşağı və bədəvini ora gətirənin şeytan olduğunu və onların üçünün də əlini öz kəramətli əli ilə tutub saxladığını bildirmişdir.

---

[1] "əl-Bəqərə" surəsi, 268.

[2] "ən-Nur" surəsi, 21.

7. Süfrəyə yeni gələn adamın yeməyə başladıqda "bismilləh" dediyini eşitməsən, əlini tutub saxla ki, "bismilləh" desin. Çünki Peyğəmbər ﷺ onların əllərini tutub saxlamış, amma onlara "Bismilləh deyin!" deməmişdir. Əksinə, sadəcə onların əlindən tutub saxlamışdır ki, bu hadisə onlar üçün bir ibrət və xatırlatma olsun. Bu hadisəni xatırladıqları zaman, gələcəkdə heç vaxt "bismilləh" deməyi unutmasınlar.

8. Yemək əsnasında "bismilləh" kəlməsinin deyilib-deyilmədiyindən əmin olmaq. Əslinə qalsa, yemək yeyərkən "bismilləh" demək vacibdir. Yemək yeyərkən "bismilləh" deməyən adam həm Allaha qarşı asilik etmiş olur, həm də ən qatı düşməni olan şeytanın onunla bərabər yemək yeməsinə öz razılığını bildirmiş olur. Elə bu səbəbdən də "bismilləh" demək vacibdir. Əgər yeməyin əvvəlində "bismilləh" deməyi unutsan və bunu yemək əsnasında xatırlasan, o zaman: "Bismilləhi əvvələhu və axirahu"– de. Müvəffəq edən Allahdır.

٧٣٢ – وَعَنْ أُمَيَّةَ بْنِ مَخْشِيٍّ الصَّحَابِيِّ رضي الله عنه قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ جَالِساً، وَرَجُلٌ يَأْكُلُ، فَلَمْ يُسَمِّ اللَّهَ حَتَّى لَمْ يَبْقَ مِنْ طَعَامِهِ لُقْمَةٌ، فَلَمَّا رَفَعَهَا إِلَى فِيهِ، قَالَ: بِسْمِ اللَّهِ أَوَّلَهُ وَآخِرَهُ، فَضَحِكَ النَّبِيُّ ﷺ، ثُمَّ قَالَ: «مَا زَالَ الشَّيْطَانُ يَأْكُلُ مَعَهُ، فَلَمَّا ذَكَرَ اسْمَ اللَّهِ اسْتَقَاءَ مَا فِي بَطْنِهِ». رواه أبو داود، والنسائي.

732. Rəvayət edilir ki, səhabə Umeyyə ibn Məxşi رضي الله عنه demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ oturmuşdu və bir nəfər də *onun yanında* yemək yeyirdi. Adam yeməyinin son loxması qalana qədər Allahın adını çəkmədi. Son loxmanı ağzına qoyduqda isə "Bismilləhi əvvələhu və axirahu" dedi. Bu zaman Peyğəmbər ﷺ gülümsədi və belə dedi: **"Şeytan *bütün yemək əsnasında* onunla birlikdə yemək yeyirdi. Elə ki adam Allahın adını çəkdi, *şeytan dərhal* qarnındakıları qusdu".**

Bu hədisi Əbu Davud və Nəsai rəvayət etmişlər.[1]

٧٣٣ – وَعَنْ عَائِشَةَ رضي الله عنها قَالَتْ: كَانَ رَسُولُ اللَّهِ ﷺ يَأْكُلُ طَعَاماً فِي سِتَّةٍ مِنْ أَصْحَابِهِ، فَجَاءَ أَعْرَابِيٌّ، فَأَكَلَهُ بِلُقْمَتَيْنِ فَقَالَ رَسُولُ اللهِ ﷺ: «أَمَا إِنَّهُ لَوْ سَمَّى لَكَفَاكُمْ». رواه الترمذي، وقال: حديثٌ حسنٌ صحيحٌ.

[1] "Sunən Əbu Davud", 3768; "Sunən ən-Nəsai", 1/26; "Daif ət-Tərğib vət-Tərhib", 1283.

733. Rəvayət edilir ki, Aişə ﵂ demişdir: “*Bir gün* Rəsulullah ﷺ altı səhabə ilə birlikdə yemək yeyirdi. Bu əsnada bir nəfər bədəvi ərəb gəldi və yeməyi iki loxmaya bitirdi. Onda Rəsulullah ﷺ dedi: **“Əgər o “bismilləh” desəydi, yemək hamınıza yetərdi”.**

Bu hədisi Tirmizi rəvayət etmiş və: “Bu, “həsən səhih” hədisdir”– demişdir.[1]

٧٣٤ – وَعَنْ أَبِي أُمَامَةَ ﵁ أَنَّ النَبِيَّ ﷺ كَانَ إِذَا رَفَعَ مَائِدَتَهُ قَالَ: «الحَمْدُ لِلَّهِ حَمْداً كَثِيراً طَيِّباً مُبَارَكاً فِيهِ، غَيْرَ مَكْفِيٍّ وَلَا مُوَدَّعٍ وَلَا مُسْتَغْنًي عَنْهُ رَبَّنَا» رواه البخاري.

735. Əbu Umamə ﵁ rəvayət edir ki, yemək süfrəsi yığışdırıldıqda Peyğəmbər ﷺ belə deyərdi: **“Əlhəmdulillahi həmdən kəsiran tayyibən mubarəkən fihi ğayra məkfiyyin və lə muvəddəin və lə mustəğnən anhu Rabbənə”.**[2]

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

٧٣٥ – وَعَنْ مُعَاذِ بْنِ أَنَسٍ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: مَنْ أَكَلَ طَعَاماً فَقَالَ: الحَمْدُ لِلَّهِ الَّذِي أَطْعَمَنِي هَذَا، وَرَزَقَنِيهِ مِنْ غيْرِ حَوْلٍ مِنِّي وَلَا قُوَّةٍ، غُفِرَ لَهُ مَا تَقَدَّمَ مِنْ ذَنْبِهِ» رواه أبو داود، والترمذي وقال: حدِيثٌ حسنٌ.

736. Muaz ibn Ənəs ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **“Hər kim yemək yedikdən sonra: “Əlhəmdu lilləhil-ləzi ət'aməni həzə və razəqanihi min ğayri həulin minni və lə quvvətin”[4]– deyərsə, onun keçmiş günahları bağışlanar”.**

Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: “Bu, “həsən” hədisdir”– demişdir.[5]

---

[1] “Sunən ət-Tirmizi”, 1858; “Səhih ət-Tərğib vət-Tərhib”, 2107.

[2] Tərcüməsi: Rəbbimiz Allaha həmd olsun, *özü də* çoxlu, xoş, mübarək, sonsuz, ardı-arası kəsilməyən, onsuz keçinmək mümkün olmayan bir həmd!

[3] “Səhih əl-Buxari”, 5458.

[4] Tərcüməsi: Bunu mənə yedirdən və özüm heç bir qüdrət və güc sərf etmədən onu mənə bəxş edən Allaha həmd olsun!

[5] “Sunən Əbu Davud”, 4023; “Sunən ət-Tirmizi”, 3458; “Səhih ət-Tərğib vət-Tərhib”, 2042.

Şərh:

Müəllif ﷺ bu hədisləri "Salehlər bağçası" adlı kitabının **"Yemək ədəbi"** başlığı altında zikr etmişdir. Həmin hədislər bir çox şeylərə dəlildir:

1. Adam yemək yedikdə "bismilləh" deməzsə, şeytan onunla birlikdə yemək yeyər. Umeyyə ibn Məxşinin ﷺ hədisi buna dəlalət edir. Hədisdə deyilir ki, *bir dəfə* bir nəfər *Peyğəmbərin* ﷺ *yanında* yemək yeyir və yeməyinin son loxması qalana qədər Allahın adını çəkməyi unudur. Lakin son loxmanı ağzına qoyduqda bunu xatırlayır və Allahın adını çəkir. Bu zaman Peyğəmbər ﷺ gülümsəyir və xəbər verir ki, **"Şeytan *bütün yemək əsnasında* onunla birlikdə yemək yeyirdi. Elə ki adam Allahın adını çəkdi, *şeytan dərhal* yediklərini qusdu".** Bu, Allahın bizə bəxş etdiyi bir nemətdir. Belə ki, yeməyin əvvəlində Allahın adını çəkdiyimizdə şeytan bizimlə yemək yeməkdən məhrum olur, yeməyin sonunda Allahın adını çəkib "Bismilləhi əvvələhu və axirahu" dedikdə isə, şeytan bütün yediklərini qusur və yeməkdən məhrum olur.

2. Bu hədis şeytanın yemək yeməsinə dəlildir. Çünki həmin yeməkdən şeytan da yeyirdi. Demək, şeytan həm yeyir, həm də içir. Əgər bir adam yemək yeyərkən və ya bir şey içərkən "bismilləh" deməzsə, şeytan onun həm yeməyinə, həm də içməyinə şərik olur.

3. Aişənin ﷺ hədisində deyilir ki, "*Bir gün* Rəsulullah ﷺ altı səhabə ilə birlikdə yemək yeyirdi. Bu əsnada bir nəfər bədəvi ərəb gəldi və *qalan* yeməyi iki loxmaya bitirdi". Ola bilsin ki, həmin bədəvi ac idi, amma daha doğrusunu Allah bilir. Onda Rəsulullah ﷺ belə dedi: **"Əgər o "Bismilləh" desəydi, yemək hamınıza yetərdi".** Fəqət, həmin adam "bismilləh" deməsinə görə, qalan yeməyin hamısını iki loxmaya bitirdi və bu, onun özünə belə bəs etmədi.

Bu hədis də ona dəlalət edir ki, bir adam yemək yedikdə "bismilləh" deməzsə, onun yeməyinin bərəkəti çəkilir. Çünki şeytan da onunla birlikdə yeyir. Odur ki, özünə yetəcəyini zənn etdiyi yemək ona yetmir. Çünki o yeməkdən bərəkət götürülmüşdür.

4. Qalan hədislər isə ona dəlildir ki, adam yeməyi bitirib uca Allaha həmd etmək istədikdə, belə deməlidir: "Əlhəmdu lilləhil-ləzi ət'aməni həzə və razəqanihi min ğayri həulin minni və lə quvvətin". Yəni, uca Allah sənə

bu yeməyi müyəssər etməsəydi, sən onu əldə edə bilməzdin. Bu xüsusda uca Allah belə buyurur: **“Əkdiyinizi gördünüzmü?! Onu siz bitirirsiniz, yoxsa Biz?! Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də heyrətə gələrdiniz *və deyərdiniz*: “Biz ziyana uğradıq. Xeyr, biz *ruzidən* məhrum olduq!”**[1]

Əgər uca Allah toxumun əkilməsini, sonra onun yetişməsini, sonra biçilməsini, sonra bir yerə yığılmasını, sonra üyüdülməsini, sonra ondan xəmir yoğurulmasını, sonra bişirilməsini, sonra da onun yeyilməsini bir adama müyəssər etməzsə, onun özü buna nail ola bilməz.

Ona görə də bəzi alimlər belə demişlər: “Bir yemək insana çatmamışdan və onun qarşısına qoyulmamışdan öncə, o yeməyin hasil olması üçün Allah tərəfindən ona yüzə yaxın nemətlər verilmişdir”. Lakin çox vaxt biz bundan qafil qalırıq. Allahdan diləyirik ki, bizlərə həm halal nemətlər, həm də Onun nemətinə şükür etməyi nəsib etsin. Həqiqətən, O, hər şeyə qadirdir!

“Ğayra məkfiyyin və lə muvəddəin və lə mustəğnən anhu Rabbənə”. Yəni, biz izzətli və qüdrətli Allahsız keçinə bilmərik və Ondan qeyrisi bizə yetməz. Uca Allah bizə yetər və bizim ruzi verənimiz yalnız və yalnız uca və qüdrətli Allahdır. Müvəffəq edən Allahdır.

[1] “əl-Vaqiə” surəsi, 63-67.

Yüz birinci fəsil

Yeməyi pisləməmək və onu tərifləməyin müstəhəb olması

Mövzu ilə əlaqəli hədislər:

٧٣٦ – عـن أبي هُريـرة رضي الله عنه قـال: «مـا عَـابَ رسُـولُ اللَّه ﷺ طَعَاماً قَـطُّ، إن اشْـتَهَاه أَكَلَهُ، وإنْ كَرِهَهُ تَرَكَهُ» متفقٌ عليه.

736. Rəvayət edilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: "Rəsulullah ﷺ heç vaxt bir yeməyi pisləməzdi. Xoşuna gəldikdə onu yeyər, xoşuna gəlmədikdə isə tərk edərdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٣٧ – وعن جابرٍ رضي الله عنه أَنَّ النبيَّ ﷺ سَأَلَ أَهْلَهُ الأُدُمَ فقالوا: ما عِنْدَنَا إلاَّ خَلٌّ، فَدَعَا بِهِ، فَجَعل يَأْكُلُ ويقول: «نِعْمَ الأُدُمُ الخلُّ نِعْمَ الأُدُمُ الخَلُّ» رواه مسلم.

737. Cabir رضي الله عنه rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ ailəsindən sous istədi. *Bu zaman ona*: "Evdə sirkədən başqa bir şey yoxdur"– dedilər. Onda *Peyğəmbər* ﷺ onu gətirmələrini istədi və: **"Sirkə nə gözəl sousdur, sirkə nə gözəl sousdur"**– deyərək onu yeməyə başladı.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Hafiz ən-Nəvəvi رحمه الله, "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Yeməyi pisləməmək və onu tərifləməyin müstəhəb olması"** adını vermişdir.

Yemək dedikdə, bura, yeyilən və içilən hər bir şey aiddir. İnsanın qabağına yemək qoyulduğu zaman o, Allahın ona bəxş etdiyi bu nemətinin qədrini bilməli, buna görə Ona şükür etməlidir və yeməyi pisləməməlidir. Əgər yemək onun xoşuna gələrsə və iştahı çəkərsə onu yesin, əks halda isə yeməsin. Amma *xoşuna gəlmədikdə,* bu yeməyi pisləməsin və ya onda eyib tutmasın.

---

[1] "Səhih əl-Buxari", 5409; "Səhih Muslim", 2064.

[2] "Səhih Muslim", 2052.

Buna dəlil Əbu Hureyranın رضي الله عنه rəvayət etdiyi hədisdir. Həmin hədisdə Əbu Hureyra رضي الله عنه rəvayət edir ki: “Rəsulullah ﷺ heç vaxt bir yeməyi pisləməzdi. Xoşuna gəldikdə onu yeyər, xoşuna gəlmədikdə isə tərk edərdi”. Yəni, Peyğəmbər ﷺ qarşısına qoyulan yeməyi heç bir zaman pisləməmişdir. İştahı çəkdikdə onu yemiş, əks halda isə onu tərk etmiş və o yeməyi pisləməmişdir.

Məsələn, bir nəfər başqa birisinin qarşısına xarab xurma qoyarsa, bu zaman o: “Bu, xarab xurmadır”– deyərək onu pisləməməlidir. Əksinə, iştahı çəksə onu yeməli, əks halda isə tərk etməlidir. Amma Allah ona bu cür nemət bəxş etdiyi halda, onun bu neməti pisləməsi düzgün deyildir.

Həmçinin, qarşına yemək qoyulduğu zaman bu yemək xoşuna gəlmədikdə, onu pisləmə. Əgər bu yemək xoşuna gələrsə, onu ye, əks halda isə tərk et. Lakin kişinin öz həyat yoldaşına: “Bu gün yeməyi çox duzlu etmisən” və ya “Yeməyi çox isti etmisən”, yaxud “Yemək çox istidir”, ya da buna bənzər sözlər deməsində bir problem yoxdur. Çünki bu sözlər yeməyi pisləmək sayılmır. Əksinə, bu, yemək bişirən adam üçün bir növ xəbərdarlıqdır ki, növbəti dəfə yemək bişirən zaman diqqətli olsun və onu lazımi qaydada bişirsin.

Müəllif رحمه الله, yeməyi tərifləmək barəsində isə Cabirin رضي الله عنه hədisini zikr etmişdir. Cabir رضي الله عنه rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ ailəsindən sous istədi. *Bu zaman ona*: “Evdə sirkədən başqa bir şey yoxdur”– dedilər. Bu sirkənin hazırlanma qaydası belə idi. Suyun içinə xurmalar tökülür və həmin su şirin hala gələnə qədər saxlanılır. *Peyğəmbərə* ﷺ həmin sirkədən gətirdilər və o, sirkənin içinə çörək doğrayıb: **“Sirkə nə gözəl sousdur, sirkə nə gözəl sousdur”**– deyərək onu yeməyə başladı.

Bu, yeməyi tərifləmək sayılır. Çünki sirkə hər nə qədər içki olsa da, əvvəldə qeyd etdiyimiz kimi, içkinin özü də yemək sayılır. Uca Allah belə buyurur: **“Kim ondan içsə, o məndən deyildir. Kim ondan dadmasa, dadsa da əli ilə bir ovuc götürüb *içsə* o məndəndir”.**[1] İçkinin dadı və tamı olduğu üçün o da təam, yəni yemək sayılır.

Bir sözlə, yemək xoşuna gəldikdə onu tərifləmək Peyğəmbərin ﷺ adəti idi. Eyni şəkildə sən də, çörəyi tərifləmək istədikdə, “Filankəsin bişirdiyi çörək çox gözəldir” və ya buna bənzər sözlər deyə biləsən. Belə etmək də Peyğəmbərin ﷺ sünnəsidir. Müvəffəq edən Allahdır.

[1] “əl-Bəqərə” surəsi, 249.

Yüz ikinci fəsil

Oruclu ikən yeməyə dəvət olunan kimsənin yemək yemədiyi təqdirdə deyəcəyi söz

Mövzu ilə əlaqəli hədis:

٧٣٨ – عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذَا دُعِيَ أَحَدُكُمْ، فَلْيُجِبْ، فَإِنْ كَانَ صَائِماً فَلْيُصَلِّ، وَإِنْ كَانَ مُفْطِراً فَلْيَطْعَمْ» رواه مسلم.

قال العُلَمَاءُ: مَعْنى. «فَلْيُصَلِّ» فلْيدْعُ ومعنى «فَلْيَطْعَمْ» فلْيَأْكُلْ.

738. Əbu Hureyra ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Sizdən biriniz dəvət edildiyi zaman onu qəbul etsin. Əgər oruclu olarsa, *dəvət edən üçün* dua etsin, oruclu olmadıqda isə yesin".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀, "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Oruclu ikən yemək yeməyə dəvət olunan kimsənin yemək yemədiyi təqdirdə deyəcəyi söz"** adını vermiş və bunun ardından da Əbu Hureyranın ﵁ hədisini zikr etmişdir. Hədisdə deyilir ki, Peyğəmbər ﷺ, oruclu ikən yeməyə dəvət olunan adam barəsində belə demişdir: **"Əgər oruclu olarsa, *dəvət edən üçün* dua etsin, oruclu olmadıqda isə yesin".**

Hədisdə keçən "فَلْيُصَلِّ" kəlməsi "dua etsin" mənasındadır. Çünki ərəb dilində keçən "salət" (namaz) sözü bu hədisdə dua mənasını bildirir. Həmçinin, bu kəlmənin ərəb dilində lüğəti mənası da elə həmin anlamdadır. Lakin şəri, yəni istilahi mənası hamının bildiyi ibadət olan namaz anlamındadır. "Salət" sözünün dua mənasını bildirdiyinə dair dəlil olarsa, bu kəlmə "dua" mənasındadır. Əks halda isə bu kəlmə namaz anlamında olur.

Əgər bir insan yeməyə dəvət olunarsa, onun sadəcə həmin dəvətə cavab verib o məclisdə iştirak etməsi kifayət etmir. Əksinə, iştirak etməklə

[1] "Səhih Muslim", 1431.

yanaşı, yeməyə də qatılmalıdır. Çünki səni dəvət edən adam hazırladığı yeməkləri başqa şey üçün deyil, məhz yeyilsin deyə hazırlamışdır. Adam əziyyət çəkib ailəsinə yetəcəyindən qat-qat artıq yeməklər hazırlamış və səni də həmin məclisə dəvət etmişdir. Əgər biz: "Eybi yoxdur, yemə!" və ya "Yemək yeməməkdə heç bir problem yoxdur" desək, dəvət edən adamın yeməyi yeyilməz və ortada qalar. Məsələn, bir adam məclisinə on nəfər dəvət etsə və on nəfərlik də yemək hazırlasa, biz ona: "Əsas yemək yemək deyil, məclisdə iştirak etməkdir" deyərək onun hazırladığı yeməkləri yeməsək, yaxud yemək süfrəyə gəldiyi zaman *ev sahibi:* "Buyurun, yeyin!" dedikdə biz yeməyə toxunmasaq, bu, həmin adamın malını zay etmək, korlamaq deməkdir. Bununla yanaşı, həmin adamın qəlbində iştirak edənlərə qarşı "Görəsən, mənim malımı nə üçün yemədilər?" deyə şübhə yaranacaq.

Odur ki, belə deyirik: Bir nəfər səni məclisinə dəvət etdiyi zaman onun dəvətini qəbul etmək sünnədir. Yalnız bir halda dəvəti qəbul etmək vacib sayılır. O da toyu olan şəxsin özünün səni öz toy məclisinə dəvət etməsidir. Belə bir halda onun dəvətinə cavab vermək vacibdir. Yəni, bu dəvətdən boyun qaçırmaq sənə halal sayılmaz. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Ən şər yemək varlıların dəvət edildiyi, kasıbların isə tərk edildiyi toy şənliyinin yeməyidir. Hər kim bu çağırışı rədd edərsə, Allaha və Onun elçisinə asi olmuş olar".**[1] Yəni, toy şənliyinə olan çağırışı. Ondan qeyri dəvətləri qəbul edib-etməmək xüsusunda isə sən ixtiyar sahibisən. Məsələn, bir adam səfərdən geri dönməsi münasibətilə və ya sadəcə dostlarını bir yerə yığmaq üçün, ya da buna bənzər başqa səbəbdən səni bir yeməyə dəvət edərsə, onun dəvətini qəbul etmək xüsusunda sən ixtiyar sahibisən. İstəyirsən dəvətini qəbul et, istəyirsən də qəbul etmə. Lakin ən üstünü həmin dəvəti qəbul etməyindir. Cumhur alimlər də məhz bu rəydədirlər.

Bəzi alimlər isə belə deyirlər: Şəriətin qəbul etdiyi bir üzrün olmadıqca, həm toy məclisinə, həm də başqa məclislərə olan dəvəti qəbul etməyin vacibdir.

Əgər məclisə gəlmisənsə və oruclu deyilsənsə, o zaman yemək ye. Oruclu olduqda isə səni dəvət edən üçün dua et və onun qəlbinə şübhə

[1] "Səhih əl-Buxari", 5177; "Səhih Muslim", 1432.

düşməsin deyə, oruclu olduğunu ona bildir. Yox, əgər görsən ki, orucunu pozub yemək yeməyin səni dəvət edən şəxsin qəlbini daha rahat edəcək, o zaman orucunu poz və yemək ye. Yalnız fərz orucunu tutduğun təqdirdə onu pozmursan.

Bununla da bu məsələnin üç halı olduğu bizə bəlli olur:

1. Dəvət edildiyin zaman oruclu olmasan, yemək ye.

2. Dəvət edildiyin zaman fərz orucu tutmusansa, orucunu pozma.

3. Dəvət edildiyin zaman nafilə orucu tutmusansa, ixtiyar sənin əlindədir. İstərsən orucunu pozub yemək yeyərsən, istərsən də yemək yeməyib oruclu olduğunu səni dəvət edən adama bildirərsən. Yəni, *vəziyyətdən asılı olaraq* nəyi məsləhət bilsən, onu da yerinə yetir. Əgər görsən ki, orucu pozub yemək yeməyin məsləhətdir, o zaman orucunu poz və yemək ye. Əks halda isə orucu tamamlamaq daha əfzəldir. Daha doğrusunu isə Allah bilir.

Dəvətnamələrə gəlincə, onlara cavab vermək heç də vacib deyildir. Əgər bilsən ki, dəvətnaməni göndərən adamın məqsədi həqiqətən də səni dəvət etməkdir, onda yalnız o halda onun dəvətini qəbul et. Çünki əksər hallarda dəvətnamələr sırf nəzakət xatirinə və ya adət olduğu üçün göndərilir və sənin həmin məclisdə iştirak edib-etməməyin onun üçün elə də önəmli deyildir. Lakin dəvətnamə göndərən şəxs sənin yaxın qohumun və ya dostun olsa və bilsən ki, sənin iştirak etməyin onun üçün önəmlidir, o halda onun dəvətini qəbul et. Müvəffəq edən Allahdır.

Yüz üçüncü fəsil

Yeməyə dəvət olunan şəxsə *yolda* başqa birisi də qoşularsa, *dəvət olunan* nə deməlidir

Mövzu ilə əlaqəli hədis:

٧٣٩ - عَنْ أَبِي مَسْعُودٍ البَدْرِيِّ رضي الله عنه قَالَ: دَعَا رَجُلٌ النَّبِيَّ ﷺ لِطعَامٍ صَنَعَهُ لَهُ خَامِسَ خَمْسَةٍ، فَتَبِعَهُمْ رَجُلٌ، فَلمَّا بَلَغَ البَابَ، قَالَ النَّبِيُّ ﷺ: «إِنَّ هَذَا تَبِعَنَا، فَإِنْ شِئْتَ أَنْ تَأْذَنَ لَهُ، وَإِنْ شِئْتَ رَجَعَ» قَالَ: بَلْ آذَنُ لَهُ يَا رَسُولَ اللَّهِ. متفقٌ عليه.

739. Rəvayət edilir ki, Əbu Məsud əl-Bədri رضي الله عنه demişdir: "Bir nəfər Peyğəmbəri ﷺ beş nəfərin beşincisi olaraq onun üçün hazırladığı yeməyə dəvət etdi. *Bu zaman yolda* onlara bir nəfər də qoşuldu. Peyğəmbər ﷺ *evin* qapısına çatdıqda *ev sahibinə* dedi: **"Bu adam *yolda* bizə qoşuldu. İstəyirsən, izn ver *o da bizimlə gəlsin*, istəyirsənsə, çıxıb getsin".** Kişi dedi: "Yox, ona izn verirəm, ey Allahın elçisi, *qoy gəlsin*".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Hafiz ən-Nəvəvi رحمه الله "Salehlər bağçası" adlı kitabındakı **"Yemək ədəbi"** başlığı altında zikr etdiyi bu fəslə **"Bir yeməyə dəvət olunan şəxsə *yolda* başqa birisi də qoşularsa, *dəvət olunan* nə deməlidir"** adını vermişdir. Bunun ardından da Əbu Məsud əl-Bədrinin رضي الله عنه hədisini zikr etmişdir. Hədisdə deyilir ki, bir nəfər Peyğəmbəri ﷺ beş nəfərin beşincisi olaraq onun üçün hazırladığı yeməyə dəvət etdi. Yəni, onların sayının beş nəfər olacağını təyin etdi. Lakin yolda bir nəfər də onlara qoşulur və onların sayı altı olur. Odur ki, Peyğəmbər ﷺ onları dəvət edən adamın evinə çatdıqda altıncı adam üçün izn istəyir və belə deyir: **"Bu adam *yolda* bizə qoşuldu. İstəyirsən, izn ver *o da bizimlə gəlsin*, istəyirsənsə, çıxıb getsin".**

---

[1] "Səhih əl-Buxari", 5434; "Səhih Muslim", 2036.

Bu hədisdə bəzi faydalar vardır:

1. İnsan, bir toplumu yeməyə dəvət etdiyi zaman onların sayını məhdudlaşdıra bilər və belə etməkdə qəbahət yoxdur. Bəziləri: "Əgər bir adam sayı məhdudlaşdırırsa, demək o, xəsisdir. Belə deyilsə, nə üçün sayı məhdudlaşdırsın ki?"– deyə bilər. Lakin bu belə deyildir. Bəlkə adamın imkanı ona çatır və ancaq çağırdığı adamlara yetə biləcək qədər yeməyi var. Dolayısıyla, çağırdığı adamların sayını məhdudlaşdırmaq və onlara görə yemək hazırlamaq məcburiyyətindədir. Ələlxüsus da, bu, sakinlərinin əksəriyyəti kasıblar olan məhəllədə elə olur. Varlılara gəlincə isə, Allaha həmd olsun, onlar sayı məhdudlaşdırmırlar.

2. Ac olub, qarnını doyurmaq istəyən şəxsin dəvət olunanlara qoşulmasının caiz olması. Çünki Peyğəmbər ﷺ bu adamın onlara qoşulmasına mane olmamış, sonra da onun üçün ev sahibindən özü izin istəmişdir. Həm də Əbu Hureyranın رضي الله عنه öz durumunu anlatdığı rəvayətlərdə deyilir ki, o da qarnını doyurmaq üçün Peyğəmbəri ﷺ təqib edərdi.

3. Dəvət olunan adamla bərabər dəvət olunmayan adam da gələrsə, *bu zaman ev sahibindən* onun üçün izin istənilməlidir. Ələlxüsus da, ev sahibinin səni şəxsi işi üçün dəvət etdiyini və bundan heç kəsin xəbər tutmasını istəmədiyini güman etsən, onda həmin şəxs üçün ondan mütləq izin istəməlisən.

4. Dəvət olunan adamın yanında dəvət olunmayan başqa birisi də gələrsə, ev sahibinin dəvət olunmayana izin verməməsində heç bir problem yoxdur. Çünki onun izin verməməsində bir problem olsaydı, Peyğəmbər ﷺ ondan izin istəməzdi. Əgər Peyğəmbər ﷺ ondan izin istəyibsə, bu ona dəlalət edir ki, həmin adam *bu məsələdə* ixtiyar sahibidir. İstəsə, ona izin verər, istəsə də, ona "Geri qayıt!" deyər. Belə ki, adam içəri girmək üçün ev sahibindən izin istəyərsə, ev sahibi ona izin verib-verməməkdə ixtiyar sahibidir. İstər, ona izin verər, istər də "Geri qayıt!" deyər. Bu xüsusda uca Allah belə buyurur: **"Sizə: "Qayıdın!"– deyilsə, qayıdın. Bu sizin üçün daha təmizdir".**[1]

Əgər bir adamdan izin istədiyin zaman sənə: "Geri dön, mən halhazırda məşğulam"– deyərsə, buna görə qəlbində bir narahatçılıq və ya bir

[1] ən-Nur, 28.

sıxıntı keçirmə. Bəzi insanlar isə bunun tam əksinə olurlar. Bir adamdan izin istədikdə, həmin adam ona: "Geri dön, mən hal-hazırda məşğulam"– deyərsə, qəlbində ona qarşı inciklik yaranır. Bu, xətadır. Çünki insanların hamısının öz evlərində şəxsi işləri olur. Bəzən də başqa insanlarla əlaqəli daha mühüm işləri ola bilir. Elə isə, bir adamdan evinə daxil olmaq üçün izin istədikdə, o sənə: "Mənim indi işim var"– deyərsə, o zaman heç bir sıxıntı keçirmədən, qəlbin rahat bir şəkildə geri dön. Çünki şəriət bunu tələb edir. Müvəffəq edən Allahdır.

Yüz dördüncü fəsil

Öz qabağından yemək, pis bir şəkildə yemək yeyənə nəsihət etmək və ona yemək ədəbini öyrətmək

Mövzu ilə əlaqəli hədislər:

٧٤٠ – عَنْ عُمَرَ بْنِ أَبِي سَلَمَةَ ﵄ قَالَ: كُنْتُ غُلَاماً فِي حِجْرِ رَسُولِ اللَّهِ ﷺ، وَكَانَتْ يَدِي تَطِيشُ فِي الصَّحْفَةِ، فَقَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: «يَا غُلَامُ سَمِّ اللَّهَ تَعَالَى، وَكُلْ بِيَمِينِكَ، وَكُلْ مِمَّا يَلِيكَ» متفقٌ عليه.

قوله: «تَطِيشُ» بكسر الطاءِ وبعدها ياء مثناة من تحت، معناه: تتحرّك وتمتدّ إِلى نواحي الصَّحْفَةِ.

740. Rəvayət edilir ki, Ömər ibn Əbu Sələmə ﵄ demişdir: "Mən Peyğəmbərin ﷺ himayəsi altında böyüyən bir uşaq idim. *Yemək yeyəndə* mən əlimi qabın hər tərəfinə uzadardım. *Bir dəfə* Rəsulullah ﷺ mənə belə buyurdu: **"Balaca, Allahın adını çək, özün də sağ əlinlə və öz qabağından ye!"**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Hədisin ərəbcəsində keçən "tətışu" kəlməsi "əlin hərəkətdə olması və qabın hər tərəfinə uzadılması" deməkdir.

٧٤١ – وَعَنْ سَلَمَةَ بْنِ الأَكْوَعِ ﵁ أَنَّ رَجُلاً أَكَلَ عِنْدَ رَسُولِ اللَّهِ ﷺ بِشِمَالِهِ فَقَالَ: «كُلْ بِيَمِينِكَ» قَالَ: لَا أَسْتَطِيعُ قَالَ: «لَا اسْتَطَعْتَ،» مَا مَنَعَهُ إِلاَّ الكِبْرُ، فَمَا رَفَعَهَا إِلَى فِيهِ. رواه مسلم.

741. Sələmə ibn əl-Əkvadan ﵁ rəvayət edilir ki, bir kişi Rəsulullahın ﷺ yanında sol əli ilə yedikdə, Rəsulullah ﷺ ona: **"Sağ əlinlə ye!"**– deyə buyurdu. Kişi: "Bacarmıram"– deyə cavab verdi. Rəsulullah ﷺ: **"Bacarmayasan!"**– deyə bəddua etdi. Ona *bu işi etməyə* sadəcə təkəbbürlüyü mane oldu. *Bundan sonra* o, bir daha sağ əlini ağzına apara bilmədi.

---

[1] "Səhih əl-Buxari", 5376; "Səhih Muslim", 2022.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Öz qabağından yemək, pis bir şəkildə yemək yeyənə nəsihət etmək və ona yemək ədəbini öyrətmək"** adını vermişdir.

Biz daha öncə sağ əllə yeməyin və sağ əllə içməyin vacib olduğu barədə danışmış və insanın sol əllə yeməsinin və sol əllə içməsinin haram olduğunu, sol əli ilə yeyib-içən adamın günahkar olduğunu, yəni Allaha və Onun elçisinə asi olub günah iş tutduğunu, özünü də şeytana və onun dostları olan kafirlərə oxşatdığını açıqlamışıq.

Elə isə, sağ əlin iflic olması və ya buna bənzər üzrlər istisna olmaqla, müsəlmana sağ əli ilə yemək və sağ əli ilə içmək vacibdir: **"Allahdan bacardığınız qədər qorxun."**[2]

Ona görə də müəllif ﵀ Sələmə ibn əl-Əkvanın ﵁ hədisini zikr etmişdir. Hədisdə deyilir ki, bir kişi Peyğəmbərin ﷺ yanında sol əli ilə yedikdə, Peyğəmbər ﷺ ona: **"Sağ əlinlə ye!"**– deyə buyurdu. Kişi: "Bacarmıram"– deyə cavab verdikdə, Rəsulullah ﷺ ona: **"Bacarmayasan!"**– dedi. Yəni, sağ əlini ağzına apara bilməməsi üçün bəddua etdi. Çünki ona bu işi etməyə sadəcə və sadəcə təkəbbürlüyü mane oldu. Allah qorusun! Ona görə də Peyğəmbər ﷺ onun üçün bəddua etdi və bundan sonra o, bir daha sağ əlini ağzına apara bilmədi.

"Ona, *bu işi etməyə* sadəcə təkəbbürlüyü mane oldu" ifadəsi iki mənanı daşıya bilər: birincisi, adamın Peyğəmbərin ﷺ əmri qarşısında təkəbbürlənməsi, ikincisi isə, adamın təkəbbüründən dolayı sağ əli ilə yeməyi rədd etməsi. Hər iki halda da Peyğəmbərin ﷺ ona bəddua etməsi və bu bəddua sayəsində də onun sağ əlinin iflic olub ağzına apara bilməməsi, sol əllə yeməyin haram olmasına dəlildir.

Həm də Peyğəmbər ﷺ şeytanın sol əllə yeyib, sol əllə içməsini xəbər vermişdir.[3] Odur ki, sənin də qarşında iki yol var: Peyğəmbərin ﷺ getdiyi

[1] "Səhih Muslim", 2021.

[2] "ət-Təğabun" surəsi, 16.

[3] "Səhih Muslim", 2020.

yol və bir də şeytanın yolu. Sən Peyğəmbərin ﷺ yolunu tutub gedərsən, yoxsa şeytanın yolunu?! Hər bir mömin: "Mən Peyğəmbərin ﷺ yolunu tutub gedəcəm"– deyər. Peyğəmbər ﷺ həm sağ əli ilə yemiş, həm də sağ əllə yeməyi əmr etmişdir. Habelə, sağ əli ilə içmiş və sağ əllə içməyi də əmr etmişdir. Şeytan isə həm sol əli ilə yeyir, həm də sol əli ilə içir. Elə isə, bu iki yoldan istədiyin birini seç!

Bundan dolayı, şeytanın dostları olan yəhudilər, nəsranilər və müşriklər sol əllə yemək və sol əllə içməkdən başqa bir şey bilməzlər. Çünki onlar şeytanın dostlarıdır. Şeytan onları özünə dost seçmiş və onlara üstün gəlmişdir. Allah qorusun! Nə badə onlar kimi olasan.

Bəzi adamlar yemək yediyi zaman bir şey içmək istədikdə, stəkanı sol əlinə alır və solla da içir. Bu, caiz deyildir. Çünki haramlar yalnız və yalnız zəruri hallarda mübah olur. Bu hal isə zərurət halı deyildir. Stəkanı sağ əlinlə alt hissəsindən də tuta bilərsən. Bundan başqa, günümüzdə istifadə edilən stəkanlar, yuyulmasına ehtiyac olmayan və istifadəsindən sonra da atılan birdəfəlik plastik (və ya kağız) stəkanlardır. Lakin fərz etsək ki, istifadə etdiyin stəkan şüşə və ya metaldandır, o halda çirklənməsin deyə, həmin stəkanın altından tuta bilərsən. Bir də ki, çirklənsə nə ola bilər ki? Axı həmin stəkan asan yuyulandır.

Dolayısıyla, insanın sol əllə yeməsi və sol əllə içməsi caiz deyildir. Əgər belə edərsə, Allaha və Onun elçisinə asi olmuş olar.

Allahın elçisinə asi olur, çünki bunu məhz Rəsulullah ﷺ qadağan etmişdir. **Allaha asi olur,** çünki Rəsulullaha ﷺ asi olmaq, Allaha asi olmaqdır. Bu xüsusda uca Allah buyurur: **"Kim Peyğəmbərə itaət edərsə, Allaha itaət etmiş olar".**[1] Həmçinin buyurur: **"Allaha və Onun Rəsuluna asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür".**[2] Həm də ki, Rəsulullah ﷺ öz istəyi ilə heç nə danışmır, əksinə, aləmlərin Rəbbi olan Allahın elçisi olaraq danışır.

Daha sonra müəllif رحمه الله Ömər ibn Əbu Sələmənin رضي الله عنهما hədisini zikr etmişdir. Ömər ibn Əbu Sələmə رضي الله عنهما Peyğəmbərin ﷺ ögey oğlu idi. Onun atası Əbu Sələmə, anası isə Ummu Sələmədir رضي الله عنها. Ummu Sələmənin

[1] "ən-Nisa" surəsi, 80.

[2] "əl-Əhzab" surəsi, 36.

həyat yoldaşı Əbu Sələmə ﵁ vəfat etdikdən sonra Peyğəmbər ﷺ onunla evlənmişdi.

Ummu Sələmə ﵂, onun eyni zamanda əmisi oğlu olan həyat yoldaşı Əbu Sələməni çox sevirdi. O vəfat edən zaman Peyğəmbər ﷺ onun yanına gəlir. Peyğəmbər ﷺ onun yanına daxil olanda artıq onun gözləri açıq və göyə dikilmiş vəziyyətdə idi. Odur ki, Peyğəmbər ﷺ belə buyurdu: **"Həqiqətən, ruh bədəndən çıxarkən göz onu təqib edər".**[1] Çünki ruh, bədəndən ayrılan zərif və incə bir varlıqdır. Odur ki, bizim onu görməyimiz mümkün deyildir. Onu yalnız ölən adam görə bilir. O da ki, sadəcə öz ruhunu və bədənindən necə çıxmasını görə bilir.

Peyğəmbər ﷺ: **"Həqiqətən, ruh bədəndən çıxarkən göz onu təqib edər"**– dedikdə, orada olan Əbu Sələmənin ﵁ yaxınları Peyğəmbərin ﷺ bu sözündən onun öldüyünü anlamış və camaatın adətinə uyğun olaraq fəryad qoparıb ağlamağa başlamışdılar. Çünki cahiliyyə dövründə bir adam vəfat etdiyi zaman vay-şivən qoparıb ağlayır və "Vay başıma gələnlərə! Kaş ki, *sənin yerinə* mən həlak olardım!" kimi sözlər deyirdilər. Ona görə də Peyğəmbər ﷺ onlara: **"Öz əleyhinizə dualar etməyin və yalnız xeyir sözlər söyləyin. Həqiqətən, mələklər sizin dediklərinizə amin deyirlər"**– deyə buyurdu.

Sonra Peyğəmbər ﷺ Əbu Sələmənin ﵁ gözləri açıq qalmasın deyə, onları öz əlləri ilə qapatdı. İnsan vəfat edən kimi, onun gözləri dərhal bu şəkildə qapadılmalıdır. Çünki cəsəd soyuduqdan sonra gözləri qapatmaq olmur. Odur ki, cəsəd isti olduğu müddətcə gözləri qapatmaq lazımdır.

Daha sonra Peyğəmbər ﷺ onun üçün: **"Allahım, Əbu Sələməni bağışla, doğru yolda olanlar arasında onun dərəcəsini yüksəlt, geridə qalanları arasında onu Sən əvəz et! Ey aləmlərin Rəbbi, bizi də, onu da bağışla! Onun qəbrini geniş et və oranı onun üçün nurlandır!"** – deyə dualar etməyə başladı. Nə gözəl dualardır! Peyğəmbərin ﷺ bu dualarını hamımız təmənna edirik.

"Allahım, Əbu Sələməni bağışla!" Yəni, onun günahlarını əfv et. **"Doğru yolda olanlar arasında onun dərəcəsini yüksəlt!"** Yəni, Nəim cənnətlərində onun dərəcəsini yüksəlt. Allah bizi də, sizi də Nəim cənnətlərinin sakinlərindən etsin!

---

[1] Səhih Muslim, 920.

“Onun qəbrini geniş et!” Yəni, qəbrini onun üçün genişləndir. **“Oranı onun üçün nurlandır!”** Çünki qəbir, Allahın, qəbrini nurlandırdığı insanlar istisna olmaqla, zülmət içində olur. Allah həm bizim, həm də sizin qəbrinizi nurlu etsin! **“Geridə qalanları arasında onu Sən əvəz et!”** Yəni, geridə qalanları arasında onun xələfi Sən ol, onlara Sən sahib çıx.

Ummu Sələmə ﵂ Peyğəmbərdən ﷺ onun belə dediyini eşitmişdi: **“İnsanın başına bir müsibət gəldiyi zaman: “Allahım, başıma gələn müsibət sayəsində məni mükafatlandır və əvəzinə ondan da xeyirlisini ver!”[1]– deyərsə, Allah bu müsibət sayəsində onu mükafatlandırar və əvəzinə ondan da xeyirlisini ona verər”.**[2] Ona görə də o, onun üçün ən əziz insan olan həyat yoldaşı və eyni zamanda əmisi oğlu Əbu Sələmə ﵁ vəfat etdikdə bu duanı etmiş və: “Allahım, başıma gələn müsibət sayəsində məni mükafatlandır və əvəzinə ondan da xeyirlisini ver!”– demişdi. Bundan sonra Ummu Sələmə ﵂ düşünərək öz-özünə belə deyərdi: “Əbu Sələmədən daha xeyirli kim ola bilər ki?” Lakin o, tam bir yəqinliklə inanırdı ki, uca Allah ona ondan daha xeyirlisini nəsib edəcək. Amma yenə də öz-özünə: “Əbu Sələmədən daha xeyirli kim ola bilər ki?”– deyirdi.

Budur, həyat yoldaşının vəfatından sonra Ummu Sələmənin ﵂ gözləmə müddəti bitdikdə, Peyğəmbər ﷺ ona elçi göndərdi və onunla evləndi. Şübhə yoxdur ki, Peyğəmbər ﷺ onun üçün Əbu Sələmədən daha xeyirli oldu.

Uca Allah Peyğəmbərin ﷺ Əbu Sələmə ﵁ üçün etdiyi: **“Geridə qalanları arasında onu Sən əvəz et!”**– duasını da qəbul etdi və Əbu Sələmədən ﵁ sonra Peyğəmbəri ﷺ onun həyat yoldaşı və övladları üçün ən gözəl xələf etdi.

Əbu Sələmənin ﵁ övladlarından biri də Ömər ﵁ idi. O vaxt Ömər ibn Əbu Sələmə ﵂ hələ uşaq idi. *Bir dəfə* o, Peyğəmbərlə ﷺ bir süfrədə oturub yemək yeyərkən, əlini qabın o tərəfinə, bu tərəfinə uzatmağa başladı. Çünki o, hələ uşaq idi, heç nə bilmirdi. Ona görə də əlini sağa və sola uzadır, gah qabın özünə yaxın olan hissəsindən, gah ortasından, gah da o

---

[1] Ərəbcəsi:

((اللَّهُمَّ أْجُرْنِي فِي مُصِيبَتِي وَأَخْلِفْ لِي خَيْراً مِنْهَا))

Transkripsiyası: Allahumma'curni fi musibəti və əxlif li xayran minhə.

[2] “Səhih Muslim”, 918.

biri tərəfindən götürüb yeyirdi. Bunu görən Peyğəmbər ﷺ ona belə dedi: **"*Balaca*, Allahın adını çək** *(yəni, yeməyə başladıqda "bismilləh" de)*, **özün də sağ əlinlə və öz qabağından ye!"**

Peyğəmbər ﷺ bu uşağa üç sünnə öyrətdi:

1. "Bismilləh" demək: yeməyə başladıqda "bismilləh" demək vacibdir.

2. Sağ əllə yemək: yeməyi sağ əllə yemək də vacibdir.

3. Öz qabağından yemək: bu, sənlə birlikdə yemək yeyən adama qarşı göstərilən ədəbdir. Çünki sənlə birlikdə yemək yeyənin qarşısından götürüb yemək ədəbsizlikdir. Elə isə, öz qabağından ye.

Xülasə, Peyğəmbər ﷺ bir yemək əsnasında ona üç sünnə öyrətdi. Bu da Peyğəmbərin ﷺ *əməlinin* bərəkətindəndir. Belə ki, uca Allah onun əməllərinə bərəkət vermişdi. Bunun sayəsində də o, fürsət düşən kimi, gərəkli olan şeyləri *səhabələrinə* öyrətmişdi.

Eləcə də, istər elm tələbəsi olsun, istər də başqa birisi, Sünnəni bilən hər kəs onu məqamında insanlara çatdırmalı, "mən alim deyiləm"– deyə sünnəni insanlara çatdırmaqdan boyun qaçırmamalıdır. Düzdür, sən alim deyilsən, amma sənin də mütləq bildiyin bir şeylər vardır. Peyğəmbər ﷺ demişdir: **"Mənim adımdan bir ayə də olsa belə, təbliğ edin!"**[1] Gərək belə məqamlarda insan fürsətdən istifadə edib Sünnəni yaysın. Sən də hər fürsət düşən kimi Sünnəni yay ki, o sünnənin savabı və Qiyamət gününə qədər ona əməl edənlərin savabı sənə yazılsın. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 3461.

Yüz beşinci fəsil

Toplum halında yemək yeyərkən, yanındakıların izin verməsi istisna olmaqla, xurma və ona bənzər yeməkləri iki-iki yeməyin qadağan olması

Mövzu ilə əlaqəli hədis:

٧٤٢ – عَنْ جَبَلَةَ بْنِ سُحَيْمٍ قَالَ: أَصَابَنَا عَامُ سَنَةٍ مَعَ ابْنِ الزُّبَيْرِ، فَرُزِقْنَا تَمْراً، وَكَانَ عَبْدُ اللَّهِ بْنُ عُمَرَ رضي الله عنهما يَمُرُّ بِنَا وَنَحْنُ نَأْكُلُ، فَيَقُولُ: لَا تُقَارِنُوا، فَإِنَّ النَّبِيَّ ﷺ نَهَى عَنِ الإِقْرَانِ، ثُمَّ يَقُولُ: «إِلاَّ أَنْ يَسْتَأْذِنَ الرَّجُلُ أَخَاهُ» متفقٌ عليه.

742. Rəvayət edilir ki, Cəbələ ibn Suheym demişdir: "Biz İbn Zubeyrlə birlikdə *vuruşduğumuz* il bizə qıtlıq üz verdi. *Bu arada* bizə ərzaq olaraq xurma paylanıldı. Biz xurma yeyərkən yanımızdan keçən Abdullah İbn Ömər رضي الله عنهما bizə belə dedi: "*Xurmanı* iki-iki yeməyin. Çünki Peyğəmbər ﷺ iki-iki yeməyi qadağan etdi, sonra da belə dedi: **"Ancaq *aranızdan* birinin öz qardaşından izin istəməsi istisnadır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllifin رحمه الله "Salehlər bağçası" kitabında zikr etdiyi bu fəsil, toplum halında yemək yeyərkən, yanındakıların izin verməsi istisna olmaqla, xurma və ona bənzər yeməklərin iki-iki yeyilməsinin qadağan olunması ilə bağlıdır. Yəni, xurma kimi adətən bir-bir yeyilən yeməkləri, camaatla birlikdə yedikdə iki-iki yemə. Çünki bu, sənin birlikdə yeyən qardaşlarının haqqını pozmaqdır. Elə isə, onlardan izin almadan çox yemə və: "İzin versəniz, xurmaları iki-iki yemək istəyirəm"– deyə onlardan izin al. Əgər izin versələr, onda iki-iki yeməkdə heç bir qəbahət yoxdur.

Eyni hökm, adətən bir-bir yeyilən digər yeməklər üçün də keçərlidir. Məsələn, insanların bir-bir götürüb yedikləri kiçik ölçülü meyvələr də buna aiddir. Adam bu cür meyvələri toplumla birlikdə yedikdə, toplumda

[1] "Səhih əl-Buxari", 5446; "Səhih Muslim", 2045.

olan yoldaşlarından daha çox yeməməsi üçün iki-iki yeməməlidir. Toplumdakı yoldaşlarının buna izin verməməsi isə müstəsna haldır.

Adam tək olarsa, o zaman xurmanı və ya bir-bir yeyilən digər yeməyi iki-iki yeyə bilər. Bu, qəbahət deyildir. Çünki o, bu hərəkəti ilə heç kimə zərər toxundurmur. Yalnız boğazında qalacağından və ya boğulacağından ehtiyat etdiyi təqdirdə bir-bir yeməlidir. Bu barədə belə bir deyim var: "Loxması böyük olanın yediyi boğazında qalar". Buna əsasən əgər bir adam xurmanı və ya bir-bir yeyilən digər meyvəni iki-iki yedikdə boğulacağından ehtiyat edərsə, onda elə etməməlidir. Çünki o, bu hərəkəti ilə özünə zərər toxundurur. Axı insanın canı ona əmanət olaraq verilmişdir. Odur ki, cana zərər və ya əziyyət verən istənilən bir şeyi etmək ona halal deyildir.

Bundan sonra müəllif رحمه الله İbn Ömərin رضي الله عنهما rəvayət etdiyi hədisi zikr etmişdir. Hədisdə deyilir ki, Peyğəmbər ﷺ iki-iki yeməyi qadağan etdi. Yəni, *camaatla birlikdə yeyərkən,* xurmanı iki-iki yeməyi qadağan etmişdir. Ancaq *aralarından* birinin yanındakılardan izin istəməsi istisnadır.

Yüz altıncı fəsil

Yemək yeyərkən doymayan şəxs nə deməli və nə etməlidir

Mövzu ilə əlaqəli hədis:

٧٤٣ – عَنْ وَحْشِيِّ بْنِ حَرْبٍ ﵁ أَنَّ أَصْحَابَ رَسُولِ اللَّهِ ﷺ قَالُوا: يَا رَسُولَ اللَّهِ، إِنَّا نَأْكُلُ وَلَا نَشْبَعُ؟ قَالَ: «فَلَعَلَّكُمْ تَفْتَرِقُونَ» قَالُوا: نَعَمْ. قَالَ: «فَاجْتَمِعُوا عَلَى طَعَامِكُمْ، وَاذْكُرُوا اسْمَ اللَّهِ، يُبَارَكْ لَكُمْ فِيهِ» رواه أبو داود

743. Vəhşi ibn Hərb ﵁ rəvayət edir ki, *bir dəfə* Rəsulullahın ﷺ səhabələri ona: "Ey Allahın elçisi, biz yemək yeyirik, amma doymuruq"– dedilər. Peyğəmbər ﷺ onlara: **"Ola bilsin, siz ayrı-ayrılıqda yeyirsiniz"**– dedikdə, onlar da: "Bəli"– dedilər. Onda *Peyğəmbər* ﷺ onlara belə dedi: **"Yeməyinizi birlikdə yeyin və Allahın adını zikr edin ki, yeməyiniz sizin üçün bərəkətli olsun".**

Bu hədisi Əbu Davud rəvayət etmişdir.[1]

Şərh:

Müəllifin ﵀ zikr etdiyi bu fəsil, yemək yeyərkən doymayan şəxs barəsindədir. Yemək yedikdə doymamağın bir neçə səbəbi vardır:

1. Yemək yeyərkən Allahın adını çəkməmək. Əgər bir adam yemək yeyərkən "bismilləh" deməzsə, şeytan onunla bərabər yeyər və həmin yeməkdən bərəkət qaldırılar.

2. Qabın ortasından yemək. Bu da həmçinin, yeməkdən bərəkətin qaldırılmasının bir başqa səbəbidir. Çünki Peyğəmbər ﷺ qabın ortasından yeməyi qadağan etmişdir. Belə ki, bərəkət yeməyin ortasına nazil olur. Ona görə də qabın yan tərəflərindən ye.

3. Yeməyi ayrı-ayrılıqda yemək. Bu da həmçinin, yeməkdən bərəkətin qaldırılmasının səbəblərindəndir. Çünki yeməyi ayrı-ayrı yemək, hər bir insanın ayrı qabdan yeməsinə gətirib çıxarır. Beləliklə də, yemək bölünür və bərəkəti qaldırılır. Hərgah, sən hər bir adam üçün ayrıca bir qabda yemək

[1] "Sunən Əbu Davud", 3764; "Silsilə əl-Əhadis əs-Səhihə", 664.

qoysan, əlbəttə ki, yemək bölünəcəkdir. Lakin yeməyin hamısını bir sinidə qoysan və adamların da hamısı o yeməyin ətrafına toplaşsa, o yemək az da olsa belə, onda bərəkət olacaqdır.

Bu ona dəlalət edir ki, eyni süfrədə yemək yeyənlərin yeməklərinin bir qabda olması gərəklidir. Əgər adamların sayı on nəfər olarsa, onda on nəfərə uyğun, beş nəfər olarsa, beş nəfərə uyğun bir qabda yemək qoyulmalıdır. Bu cür etmək bərəkətin nazil olması üçün bir səbəbdir. Ayrı-ayrılıqda yemək isə bərəkətin qaldırılmasına səbəb olur. Müvəffəq edən Allahdır.

Yüz yeddinci fəsil

Boşqabın kənarlarından yeməyin əmr olunması, ortasından yeməyin isə qadağan olunması

Mövzu ilə əlaqəli hədislər:

٧٤٤ – عَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الْبَرَكَةُ تَنْزِلُ وَسَطَ الطَّعَامِ فَكُلُوا مِنْ حَافَتَيْهِ وَلَا تَأْكُلُوا مِنْ وَسَطِهِ» رواه أبو داود، والترمذي، وقال: حديثٌ حسنٌ صحيحٌ.

744. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Bərəkət yeməyin ortasına nazil olur. Elə isə, onun kənarlarından yeyin, ortasından yeməyin".**

Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

٧٤٥ – وَعَنْ عَبْدِ اللَّهِ بْنِ بُسْرٍ رضي الله عنه قَالَ: كَانَ لِلنَّبِيِّ ﷺ قَصْعَةٌ يُقَالُ لَهَا: الْغَرَّاءُ، يحْمِلُهَا أَرْبَعَةُ رِجَالٍ، فَلَمَّا أَضْحَوْا وَسَجَدُوا الضُّحَى أُتِي بِتِلْكَ الْقَصْعَةِ، يَعْنِي وَقَدْ ثُرِدَ فِيهَا، فَالْتَفُّوا عَلَيْهَا، فَلَمَّا كَثُرُوا جَثَا رَسُولُ اللَّهِ ﷺ فَقَالَ أَعْرَابِيٌّ: مَا هَذِهِ الجِلْسَةُ؟ قَالَ رَسُولُ اللهِ ﷺ: إِنَّ اللَّهَ جَعَلَنِي عَبْداً كَرِيماً، وَلَمْ يَجْعَلْنِي جَبَّاراً عَنِيداً، ثُمَّ قَالَ رَسُولُ اللَّهِ ﷺ: «كُلُوا مِنْ حَوَالَيْهَا، وَدَعُوا ذِرْوَتَهَا يُبَارَكْ فِيهَا» رواه أبو داودٍ بإسناد جيد.

« ذِرْوَتَهَا » أَعْلاَهَا: بكسر الذال وضمها.

745. Rəvayət edilir ki, Abdullah ibn Busr رضي الله عنه demişdir: "Peyğəmbərin ﷺ Ğarra deyilən və dörd kişinin daşıya biləcəyi *böyük* bir sinisi var idi. Nəhayət, səhər açıldıqda duha namazını qıldıqdan sonra bu sinini içində yemək olduğu halda gətirdilər. Səhabələr *dərhal* yeməyin ətrafına toplandılar. Səhabələrin sayı çoxaldıqda Rəsulullah ﷺ dizi üstə *yeməyə* oturdu. Onda bədəvilərdən biri ondan: "Bu nə oturuşdur, *ya Rəsulullah*?"– deyə soruşdu. Rəsulullah ﷺ buyurdu: **"Allah məni inadkar və dikbaş deyil, ehtirama layiq bir qul etmişdir".** Sonra davam edib dedi: **"Yeməyin**

[1] "Sunən Əbu Davud", 3772; "Sunən ət-Tirmizi", 1805; "Səhih əl-Cami", 1591.

qırağından yeyin! Ortasını *axıra* saxlayın ki, bu yemək sizin üçün bərəkətli olsun".

Bu hədisi Əbu Davud "ceyyid" isnadla rəvayət etmişdir.[1]

Hədisin ərəbcəsində keçən "zirvətuhə" kəlməsi "qabın hündür yeri", yəni ortası deməkdir.

Şərh:

Müəllifin ﵀ "Yemək ədəbi" başlığı altında zikr etdiyi bu fəsil daha öncə açıqlamış olduğumuz məsələləri özündə əks etdirir. Bu da insana boşqabın ortasından deyil, qıraqlarından yeməli olduğunu göstərir.

Abdullah ibn Abbasın və Abdullah ibn Busrun ﵄ rəvayət etdiyi hədislər də buna dəlildir. Hər hansı bir insanın qarşısına yemək qoyulduğu zaman yeməyin ortasından deyil, kənarlarından yeməlidir. Əgər bu yeməyi toplumla birlikdə yeyirsə, o zaman həm də başqasının qabağından deyil, məhz öz qabağından yeməlidir.

Peyğəmbərin ﷺ **"Bərəkət yeməyin ortasına nazil olur"** sözü onu göstərir ki, insan yeməyin ortasından yediyi zaman yeməkdən bərəkət qaldırılar.

Lakin elm əhli: "Yeməyin çeşidli olması halı istisnadır"– demişlər. Deyək ki, yeməyin çeşidlərindən biri yeməyin ortasındadır və bir adamın əlini uzadıb ondan götürməsində heç bir problem yoxdur. Ətin qabın ortasına qoyulmasını buna misal gətirmək olar. Belə bir halda ət qabın ortasında olsa da, ondan götürüb yeməkdə heç bir qəbahət yoxdur. Çünki qabın kənarlarında ət yoxdur. Bir sözlə, belə bir halda qabın ortasından ət götürüb yeməkdə bir problem yoxdur. Necə ki, Peyğəmbər ﷺ balqabaq qabın harasında olardısa, oradan götürüb yeyərdi.

Abdullah ibn Busrun ﵁ rəvayət etdiyi hədisdə keçən "duha namazını qıldıqdan sonra" kəlməsi, iki rükət duha namazının müstəhəb olmasına dəlalət edir. Bəli, duha namazı sünnədir. Onun vaxtı günəşin üfüqdən bir nizə hündürlüyündə qalxmasından zenitə çatmasına bir az qalmışa qədərdir. Yəni, duha namazının vaxtı günəş çıxdıqdan təxminən on

[1] "Sunən Əbu Davud", 3773; "Silsilə əl-Əhadis əs-Səhihə", 393.

beş dəqiqə sonra başlayıb, zöhr namazının girməsinə on dəqiqə qalana qədər davam edir. Bütövlükdə bu vaxt duha namazının vaxtıdır.

Duha namazı sünnədir. Hər bir insan onu, yəni iki rükət duha namazını davamlı şəkildə qılmalıdır. Bu namaz hər səhər bədənin bütün əzalarının əvəzindən sədəqə verməyi əvəz edir. Bu xüsusda Peyğəmbər ﷺ belə demişdir: **"Səhər açıldıqda, sizlərdən hər birinin bədənindəki hər bir oynağa görə bir sədəqə düşür".**[1]

Lakin bu sədəqələr sadəcə mal ilə bağlı sədəqə deyil, əksinə, bu ümumi məna ifadə edir. "Sübhanallah" demək sədəqədir, "Allahu əkbər" demək sədəqədir, "la ilahə illəllah" demək sədəqədir, Quran oxumaq sədəqədir, yaxşı işlər görməyi əmr etmək sədəqədir, pis əməllərdən çəkindirmək sədəqədir, bir adama öz miniyinə minməkdə yardım etmək və ya onun əşyasını qaldırıb miniyinin üzərinə qoymaq sədəqədir, gözəl söz sədəqədir, kişinin öz həyat yoldaşı ilə yaxınlıq etməsi sədəqədir – *bir sözlə,* insanı Allaha yaxınlaşdıran hər bir söz və ya əməl sədəqədir. Duha çağında qılınan iki rükət namaz isə bunların hamısını əvəz edir. Bu da ona dəlalət edir ki, duha namazı gündəlik qılınan sünnə namazıdır.

Abdullah ibn Busrun رضي الله عنه rəvayət etdiyi hədis həm də onu göstərir ki, insan yemək yediyi zaman söykənmiş halda deyil, əksinə, diz üstə oturaraq yeməlidir ki, çox yeməkdən özünü qorumuş olsun. Çünki Peyğəmbər ﷺ çox yeməklə bağlı belə demişdir: **"İnsanın doldurduğu ən şər kisə onun qarnıdır. Halbuki, Adəm övladına belini dikəltmək üçün bir neçə loxma *yeməsi* kifayət edər. Əgər *bundan çox* yemək istəyərsə, onda *mədəsinin* üçdə birini yeməyə, üçdə birini içməyə, üçdə birini isə nəfəsinə ayırmalıdır".**[2] Doğru və faydalı olan yemək qaydası budur. Elə isə, acdığın zaman yemək ye və bil ki, qida qəbulu sadəcə bəlli saatlar üçün təyin edilməmişdir.

Əgər bir insan: "Mən mədəmin üçdə birini yeməyə, üçdə birini içməyə, üçdə birini də nəfəsə ayıranda, axşam yeməyinin vaxtı çatana qədər acıram"– deyirsə, ona belə cavab veririk: "Acdınsa, yemək ye. Lakin hədisdə deyildiyi qayda ilə yüngülvari yesən, bu həm həzmi yüngülləşdirər,

---

[1] "Səhih Muslim", 720.

[2] "Sunən ət-Tirmizi", 2380; "Səhih əl-Cami", 5674.

həm də mədə üçün yüngüllük olar. Yəni, mədə, yeməyi rahat bir şəkildə həzm edər. Elə isə, acdıqda yemək ye. Peyğəmbər ﷺ təbabəti budur.

Lakin hərdən doyana qədər yeməkdə qəbahət yoxdur. Çünki Peyğəmbər ﷺ Əbu Hureyraya رضي الله عنه içməyə süd verdikdə, ona: **"İç, *yenə* iç, *yenə* iç"**– deyərək, doyuncaya qədər içməsini istəmişdir. İş o yerə çatmışdı ki, Əbu Hureyra رضي الله عنه sonda: "Vallahi, içməyə yerim yoxdur"– demişdir. Peyğəmbər ﷺ isə onun doyunca içdiyini inkar etməmiş, əksinə, bunu təsdiqləmişdir.[1] Bir sözlə, ən çox yeyəcəyin yeməyin qədəri Peyğəmbərin ﷺ buyurduğu kimi olmalıdır. Yəni, mədənin üçdə biri yemək, üçdə biri içmək, üçdə biri də nəfəs üçün ayrılmalıdır. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 6452.

Yüz səkkizinci fəsil

Söykənmiş halda yemək yeməyin məkruh olması

Mövzu ilə əlaqəli hədislər:

٧٤٦ – عَنْ أَبِي جُحَيْفَةَ وَهْبِ بْنِ عَبْدِ اللَّهِ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لَا آكُلُ مُتَّكِئاً» رواه البخاري.

قال الخَطَّابيُّ: المُتَّكِيءُ هُنا: هو الجالِسُ مُعْتَمِداً على وِطاءٍ تحته، قال: وأَرَادَ أَنَّهُ لا يَقعُدُ عَلى الْوطَاءِ والْوسائِدِ كَفعْلِ مَنْ يُرِيدُ الإِكْثار مِنَ الطعامِ، بل يَقْعدُ مُسْتَوْفِزاً لا مُسْتوْطِناً، ويَأْكُلُ بُلْغَةً. هذا كلامُ الخطَّابي، وأَشَار غَيْرهُ إِلى أَنَّ المتكيءَ هو المائلُ عَلى جَنْبِه، واللَّه أعلم.

746. Əbu Cuheyfə Vəhb ibn Abdullah ﵁ rəvayət edir ki, Allahın elçisi ﷺ demişdir: **"Mən söykənmiş halda yemək yemirəm".**

Bu hədisi Buxari rəvayət etmişdir.[1]

Xəttabi demişdir: "Hədisdə keçən "muttəkiu" (söykənmiş) kəlməsi, "altındakı döşəkçəyə söykənərək oturan kimsə" anlamındadır. Peyğəmbər ﷺ bu sözü ilə demək istəmişdir ki, o, yeməyi çox yemək istəyənlərin hərəkəti kimi, döşəkçə və balınc üzərində oturmamışdır. Əksinə, diz üstə oturmuş və özünə yetəcək qədər yemişdir". Bu, Xəttabinin görüşüdür. Digər alimlər isə, "muttəkiu" (söykənmiş) kəlməsinin, "yan tərəfinə meyl edərək oturan kimsə" anlamında olduğunu demişlər. Daha doğrusunu isə Allah bilir.

٧٤٧ - وَعَنْ أَنَسٍ ﵁ قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ جَالِساً مُقْعِياً يَأْكُلُ تَمْراً، رواه مسلم.

«المُقْعِي» هو الذي يُلْصِقُ أليَتيهِ بالأرضِ، ويُنْصِبُ ساقَيْهِ.

747. Rəvayət edilir ki, Ənəs ﵁ demişdir: "Mən Rəsulullahın ﷺ, dizlərini qatlayıb *dabanı üzərində* oturmuş halda xurma yediyini gördüm".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 5398.

[2] "Səhih Muslim", 2044.

Hədisin ərəbcəsində keçən "əl-muqii" kəlməsi "dizlərini qatlayıb yanları üzərində oturan kimsə" anlamındadır.

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Söykənmiş halda yemək yeməyin məkruh olması"** adını vermişdir.

Oturuş baxımından yemək yemək iki növdür:

Birincisi, qadağan olunan növdür. Bu, Peyğəmbərin ﷺ tutduğu yola zidd olan, söykənmiş halda yeməkdir. Sağ ələ, yaxud sol ələ söykənərək yemək yemək də bura aiddir. Çünki söykənmək dikbaşlıq və təkəbbürlük əlamətidir. Bu isə mənəvi zərərdir. Habelə, insan söykənmiş vəziyyətdə yemək yeyərsə, özünə zərər vermiş olur. Belə ki, həmin zaman qida borusu özünün təbii vəziyyətində, yəni düz vəziyyətdə deyil, maili vəziyyətdə olur və beləliklə də, yemək borusu bundan zərər çəkə bilir. Ona görə də Əbu Cuheyfə Abdullah ibn Vəhb əs-Səvarinin ﵁ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ: **"Mən söykənmiş halda yemək yemirəm"**– demişdir. Yəni, söykənmiş halda yemək yemək mənim tutduğum yol deyildir. Bunun iki səbəbi var ki, onları bir az əvvəl zikr etmişik. Birincisi, nəfslə bağlı olan mənəvi səbəbdir. Yəni, bu, insana təkəbbürlük gətirir. İkincisi isə, bədənlə bağlı fizioloji səbəbdir. Bu da söykənmiş halda yemək yeyərkən bədənə dəyən zərərdir.

Daha sonra müəllif ﵀ Ənəsin ﵁ hədisini zikr etmişdir. Hədisdə deyilir ki, o, Rəsulullahın ﷺ, dizlərini qatlayıb *dabanı üzərində* oturmuş halda xurma yediyini görüb. Bu hədisdə keçən oturuş forması belədir: *Yerə çökərək* dizlər qatlanılır və dabanların üstündə oturulur. Peyğəmbərin ﷺ bu cür oturaraq yemək yeməsinin əsas səbəbi, belə oturuş zamanı özünü narahat hiss etməsi və bundan dolayı da yeməkdən çox yeyə bilməməsi olmuşdur. Çünki əksər hallarda insan bu cür oturduqda narahat olur və bu səbəbdən də çox yeyə bilmir. Bəlli məsələdir ki, insan rahat oturduqda çox, narahat oturduqda isə az yeyir. Lakin bəzən elə insanlar olur ki, narahat otursa belə, yenə çox yeyir. Yaxud əksinə, rahat otursa belə, yenə az yeyir. Bununla belə, insanın narahat oturuşu onun az yeməsinə səbəb ola bilər. Elə isə, yeməyə oturduğunuzda tam olaraq rahat şəkildə oturmayın.

Xülasə, qarşımızda iki növ oturuş forması vardır: birincisi, söykənərək oturmaqdır. Bu şəkildə oturaraq yemək yemək Peyğəmbərin ﷺ yolu deyildir. Geriyə qalan bütün oturuş formaları isə caizdir. Ancaq ən gözəli, *yemək yeyərkən* insanın narahat şəkildə oturmasıdır. Çünki bu oturuş insanın çox yeməsinə mane olur. Çox yemək isə məsləhət deyildir. Yemək məsələsində ən əfzəl seçim, mədənin üçdə birini yeməyə, üçdə birini içməyə, üçdə birini isə nəfəsə sərf etməkdir. Bunu günorta yeməyində tətbiq etmək daha yaxşı olardı. Əgər bunları edə bilsən, tələb olunanı yerinə yetirmiş olarsan. Lakin insanın vaxtaşırı doyunca yeməsində heç bir qəbahət yoxdur. Müvəffəq edən Allahdır.

Yüz doqquzuncu fəsil

Üç barmaqla yemək yeməyin və barmaqları yalamağın müstəhəb olması; barmaqları yalamadan öncə silməyin bəyənilməməsi; boşqabı yalamağın və yerə düşən loxmanı yerdən götürüb yeməyin müstəhəb olması; barmaqları yaladıqdan sonra onları biləklərə, ayaqlara və başqa yerlərə silməyin isə caiz olması

Mövzu ilə əlaqəli hədislər:

٧٤٨ – عَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «إِذَا أَكَلَ أَحَدُكُمْ طَعَاماً، فَلَا يَمْسَحْ أَصَابِعَهُ حَتَّى يَلْعَقَهَا أَوْ يُلْعِقَهَا» متفقٌ عليه.

748. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Biriniz yemək yedikdə əlini yalamayınca və ya *əhli-əyalına* yalatdırmayınca onu *heç nəyə* silməsin".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٤٩ – وَعَنْ كَعْبِ بْنِ مَالِكٍ رضي الله عنه قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ يَأْكُلُ بِثَلَاثِ أَصَابِعَ فَإِذَا فَرَغَ لَعِقَهَا. رواه مسلم.

749. Rəvayət edilir ki, Kəb ibn Malik رضي الله عنه demişdir: "Rəsulullahın ﷺ üç barmağı ilə yemək yediyini və yeməyi bitirdikdən sonra da onları yaladığını gördüm".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

٧٥٠ – وَعَنْ جَابِرٍ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ ﷺ أَمَرَ بِلَعْقِ الأَصَابِعِ وَالصَّحْفَةِ وَقَالَ: «إِنَّكُمْ لَا تَدْرُونَ فِي أَيِّ طَعَامِكُمْ الْبَرَكَةُ» رواه مسلم.

750. Cabir رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ *yeməkdən sonra* barmaqları yalamağı və boşqabı sıyırmağı əmr etdi və: **"Siz bərəkətin yeməyinizin harasında olduğunu bilmirsiniz"**– dedi.

---

[1] "Səhih əl-Buxari", 5456; "Səhih Muslim", 2031.

[2] "Səhih Muslim", 2032.

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

٧٥١ - وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِذَا وَقَعَتْ لُقمَةُ أَحَدِكُمْ، فَلْيَأْخُذْهَا فَلْيُمِطْ مَا كَانَ بِهَا مِنْ أَذًى وَلْيَأْكُلْهَا، وَلَا يَدَعْهَا لِلشَّيْطَانِ، وَلَا يَمْسَحْ يَدَهُ بِالمِنْدِيلِ حَتَّى يَلْعَقَ أَصَابِعَهُ، فَإِنَّهُ لَا يَدْرِي فِي أَيِّ طَعَامِهِ البَرَكَةُ» رواه مسلم.

751. Yenə Cabir رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ belə buyurmuşdur: **"Sizdən birinizin loxması yerə düşdükdə, onu götürüb üzərinə bulaşan şeyləri təmizləsin və yesin. Onu şeytana buraxmasın və barmaqlarını yalamamış əlini dəsmala silməsin. Çünki o, bərəkətin yeməyinin harasında olduğunu bilmir".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

٧٥٢ - وَعَنْهُ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «إِنَّ الشَّيْطَانَ يَحْضُرُ أَحَدَكُمْ عِنْدَ كُلِّ شَيْءٍ مِنْ شَأْنِهِ، حَتَّى يَحْضُرَهُ عِنْدَ طَعَامِهِ، فَإِذَا سَقَطَتْ لُقْمَةُ أَحَدِكُمْ فَلْيَأْخُذْهَا فَلْيُمِطْ مَا كَانَ بِهَا مِنْ أَذًى، ثُمَّ لِيَأْكُلْهَا وَلَا يَدَعْهَا لِلشَّيْطَانِ، فَإِذَا فَرَغَ فَلْيَلْعَقْ أَصَابِعَهُ فَإِنَّهُ لَا يَدْرِي فِي أَيِّ طَعَامِهِ البَرَكَةُ» رواه مسلم.

752. Yenə Cabir رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ belə demişdir: **"Şeytan sizlərdən hər kəsin hər bir işində yanında olur. Hətta yemək yeyəndə belə onun yanına gəlir. Odur ki, sizdən birinizin loxması yerə düşdükdə onu götürüb üzərinə bulaşan şeyləri təmizləsin və yesin. Onu şeytana buraxmasın. *Yeməyi* bitirdikdə isə barmaqlarını yalasın. Çünki o, bərəkətin yeməyinin harasında olduğunu bilmir."**

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

٧٥٣ - وَعَنْ أَنَسٍ رضي الله عنه قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا أَكَلَ طَعَاماً، لَعِقَ أَصَابِعَهُ الثَّلَاثَ، وَقَالَ: «إِذَا سَقَطَتْ لُقْمَةُ أَحَدِكُمْ فَلْيَأْخُذْهَا، وَلْيُمِطْ عَنْهَا الأَذَى، وَلْيَأْكُلْهَا، وَلَا يَدَعْهَا لِلشَّيْطَانِ» وَأَمَرَنَا أَنْ نَسْلُتَ القَصْعَةَ وَقَالَ: إِنَّكُمْ لَا تَدْرُونَ فِي أَيِّ طَعَامِكُمُ البَرَكَةُ» رواه مُسلمٌ.

---

[1] "Səhih Muslim", 2033.

[2] Əvvəlki mənbə.

[3] Əvvəlki mənbə.

753. Ənəs ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ yemək yedikdə üç barmağını yalayar və belə deyərdi: **"Sizdən birinizin loxması yerə düşərsə, qoy onu götürsün və üzərinə bulaşanları təmizləyib yesin. Onu şeytana buraxmasın".** Həmçinin, *Peyğəmbər* ﷺ bizə boşqabın sıyırılmasını əmr etmiş və demişdir: **"Siz bərəkətin yeməyinizin harasında olduğunu bilməzsiniz."**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

٧٥٤ - وَعَنْ سَعِيدِ بْنِ الحَارِثِ أَنَّهُ سَأَلَ جَابِراً ﵁ عَنِ الوُضُوءِ مِمَّا مَسَّتِ النَّارُ، فَقَالَ: لَا، قَدْ كُنَّا زَمَنَ النَّبِيِّ ﷺ لَا نَجِدُ مِثْلَ ذَلِكَ الطَّعَامِ إِلاَّ قَلِيلاً، فَإِذَا نَحْنُ وَجَدْنَاهُ، لَمْ يَكُنْ لَنَا مَنَادِيلُ إِلَّا أَكُفَّنَا وَسَوَاعِدَنَا وَأَقْدَامَنَا، ثُمَّ نُصَلِّي وَلَا نَتَوَضَّأُ. رواه البخاري.

754. Rəvayət edilir ki, *bir dəfə* Səid ibn Haris Cabirdən ﵁ odda bişmiş yeməyi yedikdən sonra dəstəmaz alıb-almamaq barədə soruşmuş, Cabir ﵁ də ona belə demişdir: "Xeyr, *dəstəmaz almırsan.* Biz Peyğəmbərin ﷺ zamanında *odda bişmiş* belə yeməklərdən çox az tapa bilirdik. Tapdığımız zaman da *belə yeməklər yedikdə,* dəsmalımız olmadığından *əllərimizi* biləklərimizə, qollarımıza və ayaqlarımıza silərdik. Sonra da qalxıb dəstəmaz almadan namaz qılardıq".

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

Şərh:

Müəllifin ﵀ yemək ədəbləri ilə bağlı zikr etdiyi bu hədislər bir neçə məsələni özündə əhatə edir:

Birinci məsələ, insanın üç barmağı ilə, yəni orta, şəhadət və baş barmaqları ilə yemək yeməsidir. Çünki bu, insanın təvazökar olması və acğözlükdən uzaq olması üçün daha münasibdir. Ancaq bu, üç barmaqla yeyilə biləcək yeməklərə aiddir. Üç barmağın kifayət etmədiyi plov kimi yeməkləri yedikdə isə daha çox barmaqdan istifadə etməkdə heç bir problem yoxdur. Ancaq o yeməklərə ki, üç barmaq kifayət edir, onları yedikdə bu üç barmaqdan istifadə etmək Peyğəmbərin ﷺ sünnəsidir.

---

[1] "Səhih Muslim", 2034.

[2] "Səhih əl-Buxari", 5457.

İkinci məsələ, insanın yeməyi bitirdikdən sonra əlini dəsmala silmədən öncə barmaqlarını yalamasıdır. Çünki bu, Peyğəmbərin ﷺ əmridir. Adam barmaqlarını ya özü yalamalı, ya da ki, *əhli-əyalından* birisinə yalatdırmalıdır. İnsanın özünün *barmağını* yalaması məsələsi aydındır və izahata ehtiyac yoxdur. Başqasına yalatdırmağa gəldikdə isə, bu da mümkün olan bir işdir. Ərlə arvad arasında məhəbbət güclü olduqda, bir-birilərinin barmaqlarını yalamaları onlar üçün adi və mümkün olan bir şeydir.

Bəzi adamlar: "Bu sözü Peyğəmbərin ﷺ deməsi mümkün deyildir!" deyirlər. Necə ola bilər ki, bir insan başqa birisinin barmağını yalasın?"– deyərək, buna öz etirazlarını bildirirlər. Bizim isə cavabımız belədir: "Peyğəmbər ﷺ haqdan başqa bir şey söyləməz. Habelə, onun mümkün olmayan bir şeyi söyləməsi də mümkün deyildir. Bu məsələ isə mümkün olan və baş verə biləcək bir işdir.

Həmçinin, körpə uşaqları da buna misal gətirmək olar. Bəzən insan onları çox sevdiyindən dolayı, onlar yemək yedikdən sonra onların barmaqlarını yalayır. Bu, mümkün olan bir şeydir. Sünnəyə görə barmaqlarını ya özün yalamalısan, ya da ki, başqasına yalatdırmalısan. Allaha həmd olsun ki, bu məsələdə seçim var. Həm də Rəsulullah ﷺ: "Qoy barmağını başqası yalasın!"– deməmişdir. Əgər belə desəydi, bu, insanları onlara ağır gələn bir şeyə məcbur etmək sayılardı. Lakin bu məsələdə seçim var: ya barmaqlarını özün yala, ya da ki, başqasına yalat.

Həm də ki, Peyğəmbər ﷺ: **"Siz bərəkətin yeməyinizin harasında olduğunu bilməzsiniz"**– demişdir. Ona görə də, ola bilər ki, yeməyin bərəkəti və o qədər çoxlu yemək içində onun faydalı qismi məhz barmaqlarını yaladığı hissəsində olsun.

Bəzi adamlar mənə çatdırıblar ki, bəzi həkimlərin dediyinə görə, yemək yeyərkən barmaqlar, Allahın izni ilə, yeməyin həzminə kömək edən bəzi maddələr ifraz edir. Əgər belədirsə, bu da bir hikmətdir. Amma biz bunu həmin hikmətə görə deyil, əksinə, Sünnə olaraq yerinə yetiririk. Əgər bu tibbi faydaya da nail olmuş olarıqsa, bu çox gözəl, əks halda, bizi bu maraqlandırmır. Bizi yalnız Peyğəmbərin ﷺ əmrinə boyun əymək maraqlandırır.

Üçüncü məsələ, insanın yemək yediyi boşqabı, qazanı və ya tavanı yaxşı-yaxşı sıyırmasıdır. Yeməyi bitirdikdən sonra Peyğəmbərin ﷺ əmr etdiyi kimi, boşqabını yaxşı-yaxşı sıyır və təmizlə. Çünki bərəkətin yeməyinin harasında olduğunu bilmirsən.

Təəssüflər olsun ki, insanların bu sünnəni yerinə yetirmədən yeməkdən qalxdıqlarını görürük. Görürsən ki, yemək boşqabın ətrafında olduğu kimi qalıb. Bunun səbəbi insanların Sünnədən bixəbər olmasıdır. Əgər elm tələbələri camaatla birlikdə yemək yeyərkən onları həm bu sünnəni, həm də yemək-içməklə bağlı digər sünnələri yerinə yetirməyə yönəltsələr, bu sünnələr yayılmış olar. Fəqət, Allahdan bizləri əfv etməsini diləyirəm. Çünki biz çox vaxt həddimizi aşır və bəzi işlərdə səhlənkarlıq göstəririk. Bu da haqqa dəvət metoduna ziddir.

Dördüncü məsələ, insanın əlindəki loxması düşdüyündə, onu o cür tərk etməməsidir. Əksinə, onu götürməli, üzərinə bulaşan şeyləri təmizləməli və yeməlidir. Yəni, loxmanın üzərinə bulaşan şeyləri yeməməlidir. Çünki insan, xoşuna gəlməyən şeyləri yemək məcburiyyətində deyildir. Odur ki, loxmaya bulaşan şeyləri təmizləsin. Məsələn, loxmanın üzərinə çör-çöp, torpaq və başqa bu kimi şeylər bulaşıbsa, öncə onu təmizlə, sonra ye. Bəs görəsən belə etməyin səbəbi nədir? Səbəbi Peyğəmbərin ﷺ: **"Onu şeytana buraxmasın"**– sözüdür. Çünki şeytan hər bir işində Adəm oğullarının yanında olur – insan yemək istədikdə, şeytan onun yanına gəlir, bir şey içmək istədikdə, onun yanına gəlir. Hətta həyat yoldaşı ilə yaxınlıq etmək istədikdə də onun yanına gəlir və bütün bu işlərin hamısında insana şərik olmaq istəyir. Bu xüsusda uca Allah belə buyurur: **"Mallarına və övladlarına şərik ol..."**. Beləliklə, şeytan qəflətdə olanlara şərik olur.

Əgər yemək yediyin zaman "bismilləh" desən, onu həmin yeməkdən məhrum edərsən. Şeytan heç vaxt sənin "bismilləh" deyərək yediyin yeməyinə şərik ola bilmir. Yox, əgər "bismilləh" deməsən, o zaman şeytan da sənin bərabər yemək yeyər. Əgər "bismilləh" deyərək yeməyə başlasan, onda şeytan sənin loxmanın yerə düşməsini gözləyər. Düşən loxmanı yerdən götürüb üzərinə bulaşanları təmizləyib yesən, o loxma sənindir. Əks halda, həmin loxmanı şeytan yeyər və beləliklə də sənin bütün yeməyinə şərik ola bilməsə də, yerə düşmüş loxmana şərik olar. Elə isə, ona bu fürsəti də vermə. Əgər *yemək yediyin zaman əlindəki* loxman, xurma və ya buna bənzər yeməklərin yerə düşərsə, onu yerdən götür, üzərindəki torpaq, çör-çöp və ya bənzər bulaşığı öncə təmizlə, sonra ye və onu əsla şeytana buraxma.

Beşinci məsələ, çörək, plov, yarma və başqa bu kimi odda bişən yeməkləri yedikdən sonra dəstəmaz almağın vacib olub-olmamasıdır. Görəsən insan odda bişən bu cür yeməkləri yedikdən sonra dəstəmaz almalıdır, ya yox? Bəzi alimlər odda bişən yeməkləri yedikdən sonra dəstəmaz

almağın vacib olduğunu deyirlər. Çünki Peyğəmbər ﷺ odda bişən yeməyi yedikdən sonra dəstəmaz almağı əmr etmişdir.[1] Lakin doğru rəy, dəstəmazın vacib olmamasıdır. Çünki Buxarinin "Səhih" əsərində Cabirdən رضي الله عنه rəvayət olunan hədisdə belə keçir. Bu hədisi müəllifin رحمه الله özü də bu fəsildə zikr etmişdir. Demək, doğru rəy dəstəmazın vacib deyil, sadəcə sünnə olmasıdır. Yəni, yaxşı olar ki, dəstəmazlı olsan belə, odda bişən yeməyi yedikdən sonra dəstəmaz alasan. Dolayısıyla, dəstəmaz almaq vacib deyil, əksinə sünnədir. Çünki Peyğəmbərdən ﷺ gələn ən son əmr, odda bişən yeməyi yedikdən sonra dəstəmaz almamaqdır.[2] Yəni, onu vacib görməməsi.

Başqa bir dəlil də Peyğəmbərdən ﷺ: "Dəvə əti yedikdən sonra dəstəmaz alaqmı?"– deyə soruşulduqda, onun: **"Bəli"** – deyə cavab verməsi, "Qoyun əti yedikdən sonra dəstəmaz alaqmı?"– deyə soruşulduqda isə, onun: **"İstəyirsən al, istəyirsən alma"**– deməsidir.[3] Çünki dəvə əti yeyən insanın onsuz da dəstəmazı pozulur. Ona görə də həmin adam dəstəmazlı olsa belə, yenidən dəstəmaz almalıdır. Ancaq həmin adamın övrət yerlərini yumasına lüzum yoxdur. Çünki o, təharətə çıxmamışdır. Elə isə, ona yalnız dəstəmaz almaq vacibdir. İstər dəvə əti çiy olsun, istər də bişmiş, yaxud istər dəvənin yumşaq ətini yesin, istər də ciyərini, ürəyini, qarnını, bağırsağını və başqa hissələrini yesin, yenə də həmin adama dəstəmaz almaq vacibdir. Çünki bunların hamısı dəstəmazı pozur. Lakin dəvədən başqa digər heyvanların odda bişirilmiş ətlərindən yedikdə, buna görə dəstəmaz almaq vacib olmur. Amma ən yaxşısı dəstəmaz almağındır.

Bütün bunların hamısı yemək ədəblərindəndir. Həqiqətən də bu kitab, yəni Nəvəvinin "Salehlər bağçası" adlı kitabı çox əhatəli və faydalı bir kitabdır. Bu kitaba verilən "Salehlər bağçası" adı da elə bunu təsdiqləyir. Onun içində çürbəcür gözəl fəsillər vardır. Başqa kitablarda tapa bilməyəcəyin bir çox elmi məsələləri və İslam ədəblərini bu kitabda tapa bilərsən. Allahdan diləyirik ki, öyrətdiyi şeylərdən faydalanmağı bizə nəsib etsin! Həqiqətən, O, hər şeyə qadirdir.

---

[1] "Səhih Muslim", 352.

[2] "Sunən Əbu Davud", 192; "Sunən ən-Nəsai", 185.

[3] "Səhih Muslim", 360.

Yüz onuncu fəsil

Toplu halında yemək yemək

Mövzu ilə əlaqəli hədislər:

٧٥٥ – عَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «طَعَامُ الإِثْنَيْنِ كَافِي الثَّلَاثَةِ، وَطَعَامُ الثَّلَاثَةِ كَافِي الأَرْبَعَةِ » متفقٌ عليه.

755. Əbu Hureyra ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"İki nəfərin yeməyi üç nəfərə bəs edər, üç nəfərin yeməyi də dörd nəfərə bəs edər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٥٦ – وَعَنْ جَابِرٍ ﵁ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ:« طَعَامُ الوَاحِدِ يَكْفِي الإِثْنَيْنِ، وَطَعَامُ الإِثْنَيْنِ يَكْفِي الأَرْبَعَةَ، وَطَعَامُ الأَرْبَعَةِ يَكْفِي الثَّمَانِيَةَ » رواه مسلم.

756. Rəvayət edilir ki, Cabir ﵁ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Bir nəfərin yeməyi iki nəfərə yetər, iki nəfərin yeməyi dörd nəfərə yetər, dörd nəfərin yeməyi də səkkiz nəfərə yetər".**

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 5392; "Səhih Muslim", 2058.

[2] "Səhih Muslim", 2059.

İÇMƏK ƏDƏBLƏRİ

Yüz on birinci fəsil

Bir şey içərkən qabın çölünə doğru üç dəfə nəfəs alıb-verməyin müstəhəb olması, qabın içinə nəfəs alıb-verməyin isə bəyənilməməsi, habelə, birinci adam içəndən sonra içkini onun sağ tərəfindəkilərə sıra ilə ötürməyin müstəhəb olması

Mövzu ilə əlaqəli hədislər:

٧٥٧ – عَنْ أَنَسٍ ﵁ أَنَّ رَسُولَ اللَّهِ ﷺ كَانَ يَتَنَفَّسُ فِي الشَّرَابِ ثَلَاثاً. متفقٌ عليه.

يعني: يَتَنَفَّسُ خَارِجَ الإِناءِ.

757. Ənəs ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ bir şey içərkən üç dəfə nəfəs alardı.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Yəni, qabın çölünə doğru nəfəs alıb-verərdi.

٧٥٨ – وَعَنْ ابْنِ عَبَّاسٍ ﵄ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لَا تَشْرَبُوا وَاحِداً كَشُرْبِ البَعِيرِ، وَلَكِنِ اشْرَبُوا مَثْنَى وَثُلَاثَ، وَسَمُّوا إِذَا أَنْتُمْ شَرِبْتُمْ، وَاحْمَدُوا إِذَا أَنْتُمْ رَفَعْتُمْ» رواه الترمذي وقال: حديث حسن.

758. İbn Abbas ﵄ rəvayət edir ki, Rəsulullah ﷺ belə demişdir: ***"Bir şey içərkən*** **dəvənin içdiyi kimi, bir nəfəsə içməyin, əksinə, iki və ya üç nəfəsə için. İçərkən "bismilləh" deyin, içdikdən sonra da Allaha həmd edin".**

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən" hədisdir"– demişdir.[2]

٧٥٩ – وَعَنْ أَبِي قَتَادَةَ ﵁ أَنَّ النَّبِيَّ ﷺ نَهَى أَنْ يُتَنَفَّسَ فِي الإِنَاءِ متفقٌ عليه.

يعني: يُتَنَفَّسُ فِي نَفْسِ الإِناءِ.

---

[1] "Səhih əl-Buxari", 5631; "Səhih Muslim", 2028.

[2] "Sunən ət-Tirmizi", 1885; "Daif əl-Cami", 6233.

759. Əbu Qətadə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ qabın içinə doğru nəfəs almağı qadağan etmişdir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Yəni, içdiyi qabın içinə nəfəs almağı.

٧٦٠ – وَعَنْ أَنَسٍ ﵁ أَنَّ رَسُولَ اللهِ ﷺ أُتِيَ بِلَبَنٍ قَدْ شِيبَ بِمَاءٍ، وَعَنْ يَمِينِهِ أَعْرَابِيٌّ، وَعَنْ يَسَارِهِ أَبُو بَكْرٍ ﵁ ، فَشَرِبَ، ثُمَّ أَعْطَى الأَعْرَابِيَّ وَقَالَ: «الأَيْمَنَ فَالأَيْمَنَ » متفقٌ عليه.

قوله: «شِيبَ» أي: خُلِط.

760. Ənəs ﵁ rəvayət edir ki, *bir dəfə* Rəsulullaha ﷺ su qatılmış süd gətirildi. Bu zaman onun sağında bədəvi ərəb, solunda isə Əbu Bəkr ﵁ durmuşdu. O, *süddən* içdikdən sonra onu bədəviyə verdi və: **"Sağdan ötürün"**– dedi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Hədisin ərəbcəsində keçən "şiybə" kəlməsi, "qatıldı" deməkdir.

٧٦١ – وَعَنْ سَهْلِ بْنِ سَعْدٍ ﵁ أَنَّ رَسُولَ اللَّهِ ﷺ أُتِيَ بِشَرَابٍ، فَشَرِبَ مِنْهُ، وَعَنْ يَمِينِهِ غُلَامٌ، وَعَنْ يَسَارِهِ أَشْيَاخٌ، فَقَالَ لِلغُلَامِ « أَتَأْذَنُ لِي أَنْ أُعْطِيَ هَؤُلَاءِ؟» فَقَالَ الغُلَامُ: لَا وَاللَّهِ، لَا أُوثِرُ بِنَصِيبِي مِنْكَ أَحَداً، فَتَلَّهُ رَسُولُ اللَّهِ ﷺ فِي يَدِهِ. متفقٌ عليه.

قوله: «تَلَّه» أَيْ: وَضَعَهُ، وهذا الغُلامُ هو ابْنُ عباس ﵄.

761. Səhl ibn Səd ﵁ rəvayət edir ki, *bir dəfə* Rəsulullaha ﷺ içməyə bir şey gətirdilər, o da ondan içdi. *Bu zaman* onun sağında yeniyetmə bir oğlan, solunda isə yaşlılar durmuşdu. Peyğəmbər ﷺ yeniyetməyə dedi: **"Mənə izin verirsənmi, bunu *birinci* onlara verim?"** Yeniyetmə isə *cavabında* belə dedi: "Vallahi ki, yox, *ya Rəsulullah*. *Artığını birinci içməklə* səndən qazanacağım nəsibimi heç kimə güzəştə gedən deyiləm". Rəsulullah ﷺ da *həmin qabı* onun əlinin içinə qoydu".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "Səhih əl-Buxari", 5630; "Səhih Muslim", 2030.

[2] "Səhih əl-Buxari", 5619; "Səhih Muslim", 2029.

[3] "Səhih əl-Buxari", 5620; "Səhih Muslim", 2030.

Hədisin ərəbcəsində keçən "təllə" kəlməsi, "qoydu" mənasındadır, orada olan yeniyetmə isə İbn Abbas رضي الله عنهما idi.

Şərh:

Hafiz ən-Nəvəvi رحمه الله "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"İçmək ədəbləri: Bir şey içərkən qabın çölünə doğru üç dəfə nəfəs alıb-verməyin müstəhəb olması, qabın içinə nəfəs alıb-verməyin isə bəyənilməməsi, habelə, birinci adam içəndən sonra içkini onun sağ tərəfindəkilərə sıra ilə ötürməyin müstəhəb olması"** adını vermişdir.

Müəllif رحمه الله bundan əvvəlki fəsillərdə yemək ədəbləri ilə bağlı məsələləri açıqlamış və bu xüsusda bir çox ədəbləri zikr etmişdir.

Uca Allah Öz bəndələrinə o qədər nemətlər bəxş edib ki, onları saymaqla qurtarmaq olmaz. Bu xüsusda uca Allah belə buyurur: **"Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz".**[1] Yemək və içmək də uca Allahın nemətlərindəndir. Bu nemətlərin qədrini yalnız ondan məhrum olanlar bilər. Allahdan istəyirik ki, bizi bu nemətlərdən məhrum etməsin. Kim bu nemətlərdən məhrum qalar, aclığın və susuzluğun acısını çəkərsə, o zaman Allahın yemək və içmək nemətinin qədrini bilər. Orucun hikmətlərindən biri də elə bundan ibarətdir. İnsan yemək və içməkdən imtina edir ki, Allahın ona bəxş etmiş olduğu yemək və içmək nemətinin nə qədər dəyərli olduğunu qavrasın.

Yeməyin ədəbləri olduğu kimi, içməyin də ədəbləri vardır:

1. Bu ədəblərdən biri, hər hansı bir şeyi içərkən izzətli və qüdrətli Allahın adını çəkmək, yəni "bismilləh" deməkdir.

2. Başqa bir ədəb, bir şey içərkən üç dəfə nəfəs alıb-verməkdir. Bu xüsusda Ənəs ibn Malik رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ bir şey içərkən üç dəfə nəfəs alardı. Bəs üç nəfəsi necə alır? Yəni bir az içir, sonra qabı ağzından kənarlaşdırır və nəfəs alır, sonra yenə bir az içir, sonra qabı ağzından kənarlaşdırır və nəfəs alır, sonra üçüncü dəfə içir və təkrar nəfəs alır. Amma *heç birində* qabın içinə nəfəs almır. Bu xüsusda Əbu Qətadə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ qabın içinə doğru nəfəs almağı qadağan etmişdir. Çünki bir adam qabın içinə doğru nəfəs almaqla, özündən sonra

[1] "İbrahim" surəsi, 34.

o qabdan içəcək insanlara mikroblar vasitəsilə zərər toxundura bilər. Deməli, ehtimal var ki, nəfəs alan zaman mədədə və ya qida borusunda, yaxud da ağız boşluğunda olan xəstəliklər həmin nəfəs vasitəsilə qabın divarlarına keçsin. Başqa bir ehtimal da odur ki, insan qabın içinə nəfəs alan zaman boğazında bir şey qalar və beləliklə boğulma baş verə bilər. Bundan dolayı Peyğəmbər ﷺ, bir şey içən zaman qabın içinə doğru nəfəs almağı qadağan etmişdir. Əksinə, adam bir şey içən zaman üç dəfə nəfəs almalı və hər dəfə nəfəs aldıqda da qabı ağzından kənarlaşdırmalıdır.

Peyğəmbər ﷺ bunun sağlamlıq üçün daha münasib olduğunu, susuzluğu aradan qaldırmaq üçün daha yaxşı olduğunu, xəstəliyə tutulmamaq üçün daha məqsədəuyğun olduğunu və nəhayət, mədəyə gedib çatması üçün daha asan olduğunu xəbər vermişdir. Sağlamlıq üçün daha münasibdir, çünki ara verilərək üç nəfəsə içilir. Habelə, üç nəfəsə içmək susuzluğu daha yaxşı yatırır və suyun mədəyə enməsini asanlaşdırır. Bu həm də xəstəliyə tutulmamaq üçün ən salamat yoldur. Belə ki, susuzluq, bədəndə suyun azlığı və ya başqa səbəbdən mədədə baş verən hərarətdir. Bəzən bunun səbəbi xəstəlik də ola bilər. Əgər belə bir durumda su mədəyə bir dəfəyə, yəni anidən çatarsa, ona zərər verə bilər. Əgər insan belə durumda suyu mədəsinə fasilələrlə verərsə, bu həm susuzluğu aradan qaldırmaq üçün, həm də xəstəlikdən qurtulmaq və suyu bir dəfəyə içən zaman baş verəcək zərərlərdən salamat qalmaq üçün ən gözəl metod olar.

3. İnsan su içən zaman onu bir udumda içməməlidir. Əksinə, yavaş-yavaş, udum-udum içməlidir. Böyük udumlarla deyil, kiçik udumlarla içməlidir ki, su mədəyə yavaş-yavaş çatsın. Birinci nəfəsdə bir az içir, sonra qabı ağzından kənarlaşdırır və nəfəs alır. İkinci nəfəsdə yenə bir az içir, sonra qabı ağzından kənarlaşdırır və nəfəs alır. Üçüncü nəfəsdə də suyun qalanını içir. Bu cür etmək sünnədir.

4. Adamlara içməyə bir şey vermək istəyən şəxs ilk olaraq kimdən başlamalıdır? Məsələn, əlində çay, kofe və ya başqa bir içki ilə içəri girən şəxs onu paylamaq istədikdə, ilk olaraq kimdən başlamalıdır? Onda belə deyirik: "Əgər bir adam: "Mənə su gətir!"– deyə içməyə bir şey istəmişsə, o zaman bu içki ilk olaraq ona verilir. Əgər heç kim içməyə bir şey istəməyibsə, o zaman ilk olaraq böyüyə verilir, sonra da böyük onu öz sağındakılara ötürür.

Əgər hər kəsin özünün stəkanı varsa, içkini paylayan şəxs yenə ilk olaraq böyükdən başlamalı, sonra isə onun solundakına keçməlidir. Çünki onun solunda duran adam içkini süzənin sağında durmuş sayılır. Sonrakı adamlara verən şəxs içkini süzən şəxsin özü olduğu üçün, o, öz sağından davam edir. Beləliklə, içkini süzənin sağında duran şəxs içənin solunda yer alır. Çünki süzən adam içən adamla üz-üzə durub. Dolayısıyla, içənin solunda yer alan şəxs, süzənin sağına düşür.

Daha anlaşılan olması üçün başqa bir misal çəkək. Tutaq ki, bir adam su istəyir və ona su gətirirlər. Bu adam suyu içdikdən sonra onu başqasına da vermək istəyir. Bu zaman suyu gətirən adam içənin bilavasitə yanında duraraq: "içib qurtardıqdan sonra qabı mənə ver"– deyərsə, onda içən adam qabı ona verməlidir. Yox, əgər suyu gətirən adam içənin yanında durmazsa, o zaman suyu içən adam içib qurtardıqdan sonra istər kiçik olsun, istər də böyük, istər varlı olsun, istər də kasıb, onu öz sağındakına verməlidir.

Buna dəlil isə Peyğəmbərin ﷺ hədisidir. Hədisdə deyilir ki, *bir dəfə* Rəsulullaha ﷺ su qatışdırılmış süd gətirildi. Bu zaman onun sağında bir bədəvi ərəb, solunda isə Əbu Bəkr və Ömər رضي الله عنهما durmuşdu. O, *süddən* içdikdən sonra onu bədəviyə verdi. Bu zaman Ömər رضي الله عنه bədəviyə: "Bu Əbu Bəkrdir"– demiş və südü Əbu Bəkrə verməsini, dolayısıyla onun: "Ey Əbu Bəkr, südü sən götür"– deməsini istəmişdir. Çünki Əbu Bəkr رضي الله عنه səhabələrin ən öndə gedəni, ən məşhuru, eyni zamanda onların arasında Peyğəmbərə ﷺ ən yaxın olanı idi. Lakin bədəvi ərəb südü götürüb özü içdi. Buradan görürük ki, Peyğəmbər ﷺ *içkini başqasına ötürmək xüsusunda* üstünlüyü ən fəzilətli səhabəyə deyil, ona haqqı olana verdi. Belə ki, Əbu Bəkr رضي الله عنه bədəvi ərəbdən daha fəzilətli idi. Ancaq buna baxmayaraq, Peyğəmbər ﷺ bu məsələdə bədəvini ondan üstün tutdu. Çünki bədəvi ərəb onun sağında idi. Sonra da: **"Sağdan ötürün"**– dedi.

İkinci dəlil isə başqa bir hadisədir. Rəvayət edilir ki, *bir dəfə* Rəsulullaha ﷺ içməyə bir şey gətirdilər, o da ondan içdi. *Bu zaman* onun sağında yeniyetmə bir oğlan, solunda isə yaşlılar durmuşdu. Peyğəmbər ﷺ içdikdən sonra sağında duran yeniyetməyə dedi: **"Mənə izin verirsənmi, bunu *birinci* onlara verim?"** Yəni, bunu birinci yaşlılara verim. Yeniyetmə isə *cavabında* belə dedi: "Vallahi ki, yox, *ya Rəsulullah*. *Artığını birinci içməklə*

səndən qazanacağım nəsibimi heç kimə güzəştə gedən deyiləm". Yəni, bu xüsusda onlara güzəşt edən deyiləm – sənin artığını ilk olaraq özüm içmək istəyirəm. Onda Rəsulullah ﷺ *həmin qabı* onun əlinin içinə qoydu, yəni qabı ona verdi.

Bu hədis, yaşca kiçik olsa belə, üstünlüyün sağda duran adama verilməsinə dəlildir. Əvvəlki hədis də dəlildir ki, sağdakı adam fəzilət baxımından soldakından aşağı dərəcədə olsa belə, yəni solda duran adam ən fəzilətli adam olsa belə, yenə də üstünlük sağda durana verilir. Çünki Peyğəmbər ﷺ: **"Sağdakılar, sağdakılar, sağdakılar. Diqqət edin, öncə sağdan başlayın, öncə sağdan başlayın, öncə sağdan başlayın!"**[1] – deyə buyurmuşdur. Hədis bu şəkildə gəlmişdir. Lakin bu məsələ, özü içdikdən sonra qabı başqalarına ötürmək istəyən şəxsə aiddir.

Günümüzdə *bəzi məclislərdə* insanlar əllərində içəcək dolu qabla içəri daxil olur və həmin içkini özləri paylayırlar. Belə olan halda onlar ilk olaraq böyükdən başlamalıdır. Çünki Peyğəmbər ﷺ öncə böyükdən başlayar və içkini ilk olaraq ona verərdi. Həmçinin, *İbn Ömər* رضي الله عنهما *rəvayət edir ki,* Peyğəmbər ﷺ demişdir: **"Yuxuda gördüm ki, misvakla dişlərimi təmizləyirəm. *Elə bu vaxt* mənim yanıma birisi digərindən yaşlı olan iki nəfər gəldi. Mən misvakı onlardan kiçik olanına uzatdım. Mənə: "Böyüyə ver!"– deyildi, mən də onu daha böyük olanına verdim".**[2] Bu barədə Peyğəmbərdən ﷺ başqa hədislər də rəvayət olunmuşdur. Bir sözlə, məclisə daxil olan zaman *paylaşmaq istədiyini* birinci sağdan deyil, böyük olandan başlamalısan. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 2571; "Səhih Muslim", 2029.

[2] "Səhih əl-Buxari", 246; "Səhih Muslim", 3003.

Yüz on ikinci fəsil

Tuluğun və ona bənzər qabların ağzından su içməyin haram deyil, məkruh olması

Mövzu ilə əlaqəli hədislər:

٧٦٢ – عَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ ﵁ قَالَ نَهَى رَسُولُ اللَّهِ ﷺ عَنِ اخْتِنَاثِ الأَسْقِيَةِ. يعنى: أَنْ تُكْسَرَ أَفْوَاهُهَا، وَيُشْرَبَ مِنْهَا. متفقٌ عليه.

762. Rəvayət edilir ki, Əbu Səid əl-Xudri ﵁ demişdir: "Rəsulullah ﷺ tuluğun ağzını aşağı çevirib *birbaşa onun ağzından* su içməyi qadağan etmişdir."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٦٣ – وَعَنْ أَبِي هُرَيْرَةَ ﵁ قَالَ: نَهَى رَسُولُ اللَّهِ ﷺ أَنْ يُشْرَبَ مِنْ فِي السِّقَاءِ أَوْ القِرْبَةِ. متفقٌ عليه.

763. Rəvayət edilir ki, Əbu Hureyra ﵁ demişdir: "Rəsulullah ﷺ tuluğun və ya cürdəyin ağzından bilavasitə su içməyi qadağan etmişdir".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

٧٦٤ – وَعَنْ أُمِّ ثَابِتٍ كَبْشَةَ بِنْتِ ثَابِتٍ أُخْتِ حَسَّانِ بْنِ ثَابِتٍ ﵄ قَالَتْ: دَخَلَ عَلَيَّ رَسُولُ اللَّهِ ﷺ، فَشَرِبَ مِنْ فِي قِرْبَةٍ مُعَلَّقَةٍ قَائِماً. فَقُمْتُ إِلَى فِيهَا فَقَطَعْتُهُ. رواه الترمذي. وقال: حديث حسن صحيح.

وَإِنَّمَا قَطَعَتْهَا: لِتَحْفَظَ مَوْضِعَ فَمِ رَسُولِ اللَّهِ ﷺ، وَتَتَبَرَّكَ بِهِ، وَتَصُونَهُ عَنِ الِابْتِذَالِ، وَهَذَا الحَدِيثُ مَحْمُولٌ عَلَى بَيَانِ الجَوَازِ، والحديثان السابقان لبيان الأفضل والأكمل والله أعلم.

764. Rəvayət edilir ki, Həssan ibn Sabitin bacısı Ummu Sabit Kəbşə bint Sabit ﵄ demişdir: "*Bir dəfə* Rəsulullah ﷺ evimə gəldi və *divardan*

---

[1] "Səhih əl-Buxari", 5625; "Səhih Muslim", 2023.

[2] "Səhih əl-Buxari", 5627. Hədisi Muslim rəvayət etməmişdir.

asılmış su tuluğunun ağzından ayaq üstə su içdi. Mən də qalxıb həmin tuluğun ağzını kəsib götürdüm".

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

Kəbşənin ﵂ tuluğun ağzını kəsməsinə səbəb Peyğəmbərin ﷺ ağzının dəydiyi yeri kəsib saxlamaq, onunla təbərrük etmək və eyni zamanda onu sayğısızlıqdan qorumaq üçün olmuşdur. Bu hədis tuluğun ağzından içməyin icazəli olduğunu göstərir. Əvvəlki iki hədis isə tuluğun ağzından içməməyin daha əfzəl və daha kamil olduğunu bəyan etmək üçündür. Daha doğrusunu isə Allah bilir.

Şərh:

İçmək ədəblərindən biri də insanın tuluğun və ya cürdəyin ağzından bilavasitə su içməməsidir. Çünki Peyğəmbər ﷺ bunu qadağan etmişdir. Bunun hikməti isə o dövrdəki suların günümüzdəki sular qədər təmiz olmaması idi. Üstəlik həmin sular tuluqda və ya cürdəkdə saxlandıqda, onların içində böcək, həşərat və başqa bu kimi insana əziyyət verəcək şeylərin olması ehtimalı da yaranırdı. Keçmişdə bu cür qablardan istifadə edənlər bunu yaxşı bilirlər. Bu səbəbdən də Peyğəmbər ﷺ tuluğun ağzını aşağı çevirib *birbaşa onun ağzından* su içməyi qadağan etmişdir.

Deyilənə görə, bir dəfə bir nəfər tuluqdan su içən zaman onun içindən ilan çıxmışdır. Şübhəsiz ki, bu, ciddi təhlükədir. Çünki ilan insanı ya sancacaq, ya da ona başqa bir şəkildə zərər verəcəkdir. Ona görə də tuluğun ağzından su içmək qadağan olunur. Lakin su kranlarından və ya su saxlanılan çənlərdən su içmək belə deyildir. Çünki bunların içindəki sular həm bəllidir, həm də təmizdir. Bunlardan su içmək, stəkandan su içmək kimidir. Lakin ehtiyac duyulduqda, tuluğun ağzından su içmək olar. Məsələn, bir insanın su içməyə böyük ehtiyacı var, ancaq yanında stəkan yoxdur. Belə olan halda həmin insan tuluğun ağzından su içə bilər. Buna əsasən də bu məsələdə zikr olunan qadağanın, müəllifin də zikr etdiyi kimi, haram mənasında deyil, məkruh mənasında olduğu ortaya çıxır.

[1] "Sunən ət-Tirmizi", 1892. Şeyx Albani bu hədisin səhih olduğunu söyləmişdir.

Sonuncu hədisdən alınan faydalardan biri də ehtiyac duyulduğu zaman insanın ayaq üstə içməsinin icazəli olmasıdır. Baxmayaraq ki, Peyğəmbər ﷺ ayaq üstə su içməyi qadağan etmişdir, amma ehtiyac duyulduqda, bunu etməkdə bir qəbahət yoxdur. Bu hədisdə zikr olunan halı buna misal gətirmək olar. Belə ki, tuluq asılı vəziyyətdə idi. Asılı olan bir şey isə oturan adamdan hündürdə durur. Həm də suyu *tuluqdan süzüb* içmək üçün ayrıca bir qab yox idi. Bu səbəbdən də Peyğəmbər ﷺ asılı vəziyyətdə olan su tuluğunun ağzından ayaq üstə su içdi.

Bu hədis həm də Peyğəmbərin ﷺ bilavasitə toxunduğu şeylərdən təbərrük[1] etməyin icazəli olmasına dəlalət edir. Həqiqətən bu belədir. Səhabələr Peyğəmbərin ﷺ təri, ağzının suyu, paltarı və saçı vasitəsilə təbərrük edərdilər. Lakin Peyğəmbərdən ﷺ qeyrisinin heç bir şeyi ilə təbərrük edilməz. Başqa bir insanın nə paltarı, nə saçı, nə dırnağı, nə də ona aid olan istənilən bir şeyi ilə təbərrük edilməz. Bu yalnız Peyğəmbərə ﷺ məxsusdur. Müvəffəq edən Allahdır.

[1] "Təbərrük etmək", bərəkət diləmək deməkdir.

Yüz on üçüncü fəsil

İçiləcək şeylərə üfürməyin bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

٧٦٥ – عَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ ﵁ أَنَّ النَّبِيَّ ﷺ نَهَى عَنِ النَّفْخِ فِي الشَّرَابِ، فَقَالَ رَجُلٌ: القَذَاةُ أَرَاهَا فِي الإِنَاءِ؟ فَقَالَ: « أَهْرِقْهَا » قَالَ: إِنِّي لَا أَرْوَى مِنْ نَفَسٍ وَاحِدٍ؟ قَالَ: «فَأَبِنِ القَدَحَ إِذاً عَنْ فِيكَ » رواه الترمذي وقال: حديث حسن صحيح.

765. Əbu Səid əl-Xudri ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ içiləcək şeylərə üfürməyi qadağan etdi. Bu zaman bir nəfər: "Qabın içində çör-çöp görsəm, onda nə edim?"– deyə soruşdu. *Peyğəmbər* ﷺ: **"Onları tök"**– deyə buyurdu. *Bu dəfə həmin adam*: "Mən bir nəfəsə içib qurtara bilmirəm"– dedi, *Peyğəmbər* ﷺ *də ona:* **"Elə isə, qabı ağzından kənarlaşdır"**– dedi.

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

٧٦٦ – وَعَنْ ابْنِ عَبَّاسٍ ﵄ أَنَّ النَّبِيَّ ﷺ نَهَى أَنْ يُتَنَفَّسَ فِي الإِنَاءِ، أَوْ يُنْفَخَ فِيهِ، رواه الترمذي وقال: حديث حسن صحيح.

766. İbn Abbas ﵄ rəvayət edir ki, Peyğəmbər ﷺ qabın içinə doğru nəfəs almağı və ya onun içinə üfürməyi qadağan etmişdir.

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[2]

Şərh:

Müəllif ﵀, "Salehlər bağçası" adlı kitabındakı yemək və içmək ədəblərinə aid olan bu fəslə **"İçiləcək şeylərə üfürməyin bəyənilməməsi"** adını vermiş, sonra da içiləcək şeyə üfürməyin qadağan olunmasına dair iki hədis zikr etmişdir. Belə ki, insan üfürdüyü zaman onun ağzından

---

[1] "Sunən ət-Tirmizi", 1887; "Səhih ət-Tərğib vət-Tərhib", 2115.

[2] "Sunən ət-Tirmizi", 1888; "Səhih əl-Cami", 6820.

çıxan hava ilə birlikdə xəstəlik və buna bənzər əziyyətverici və zərərli şeylər də çıxa bilər. Bu səbəbdən də Peyğəmbər ﷺ içiləcək şeyə üfürməyi qadağan etmişdir. Peyğəmbər ﷺ bunu qadağan edən zaman bir nəfər ondan: "Ya Rəsulullah, əgər qabın içində çör-çöp görsəm, onda nə edim?"– deyə soruşdu. Yəni, görsəm ki, qabın içində xırda çör-çöp var və bunları qabdan çıxarmaq üçün üfürməkdən başqa çarəm yoxsa, onda nə edim? *Peyğəmbər* ﷺ: **"Onları tök"**– deyə buyurdu. Yəni, üzərindəki çör-çöp gedənə qədər suyu yerə tök, amma onun içinə üfürmə.

Həmin adam: "Mən bir nəfəsə içib qurtara bilmirəm"– dedikdə, *Peyğəmbər* ﷺ *ona:* **"Elə isə, qabı ağzından kənarlaşdır"**– dedi. Yəni, bu adam su içən zaman nəfəs almağa ehtiyac duyur. Onda Peyğəmbər ﷺ ona qabı ağzından kənarlaşdırıb *kənarda* nəfəs almağı, sonra isə yenidən içməyi əmr etdi. Fəqət, bəzi alimlər üfürmək məsələsində ehtiyac duyulan bəzi halların istisna ola biləcəyini söyləmişlər. Məsələn, içiləcək şey qaynardırsa və adamın onun tez soyumasına ehtiyacı varsa, bəzi alimlər belə bir durumda üfürməyə rüxsət vermişlər. Lakin içiləcək şey hər nə qədər qaynar olsa da, yenə ən yaxşısı ona üfürməməkdir. İçiləcək şey qaynar olduqda, adamın yanında başqa bir qab varsa, bu zaman onu həmin qaba süzüb yenidən öz qabına qaytarmaqla soyuda bilər.

Bu, İslam şəriətinin hər cəhətdən kamil olduğuna dəlildir. Rəsulullah ﷺ bizə hər bir şeyi öyrətmişdir. Bu xüsusda Əbu Zərr رضي الله عنه belə demişdir: "Rəsulullah ﷺ bizlərə göy üzündə qanad çalan quşlara qədər hər elmdən bir şeylər öyrətmiş olduğu halda vəfat etdi".[1] Yəni, Allah və Rəsulu ﷺ bizlərə hətta göydə olan quşlara qədər hər bir şeydən xəbər vermişdir.

Bir dəfə müşriklərdən biri Salman əl-Farisidən رضي الله عنه: "Peyğəmbəriniz sizə hər şeyi, hətta ayaqyolunda oturmağın qaydasını belə öyrətmişdir?"– deyə soruşduqda, o: "Bəli"– deyə cavab verdi və Peyğəmbərin ﷺ öyrətmiş olduğu ayaqyolu ədəbləri barədə ona xəbər verərək belə dedi: "Bəli, Peyğəmbər ﷺ bizlərə təbii ehtiyacı rəf edərkən qibləyə yönəlməməyi, sağ əllə və üçdən az sayda daşla təmizlənməməyi, habelə təzək və ya sümüklə təmizlənməməyi buyurmuşdur".[2]

---

[1] "Musnəd İmam Əhməd", 5/153; Təbərani, "əl-Mocəm əl-Kəbir", 2/155, № 1647.

[2] "Səhih Muslim", 262.

Bir sözlə, bizim şəriət, Allaha həmd olsun ki, hər tərəfdən kamildir və hər hansı bir naqisliyi yoxdur. Habelə, kimsənin onu tamamlamasına ehtiyacı yoxdur. Bu: "İslam şəriəti sadəcə Allahla bəndə arasında olan ibadətləri tənzimləyir. İnsanların bir-biriləri ilə davranışlarına gəldikdə isə, İslam şəriəti buna önəm vermir"– deyən bəzi səfehlər üçün rəddiyyədir. Həmin adamlara isə belə deyilir: "Kül sizin başınıza, ağlınız boş qalsın! Allahın kitabında ən uzun ayə borc ədəbləri haqqındadır. Məgər insanlar arasında olan davranış qaydalarına bundan o yana önəm verilə bilərmi?!"

Qurani-Kərimdə mal və mülkü idarə etmək, onları qaydasına salmaq və bunlara bənzər məsələlər barəsində neçə-neçə ayələr vardır. Həmçinin Peyğəmbərin ﷺ sünnəsində də bu mövzulara toxunulmuşdur. Bir sözlə, İslam şəriəti, Allaha həmd olsun ki, hər yöndən kamildir və tamamlanmışdır. Uca Allahdan istəyirik ki, bizlərə həm zahirdə, həm də batində İslam dinindən möhkəm yapışmağı nəsib etsin.

Yüz on dördüncü fəsil

Ayaq üstə içməyin caiz, oturaraq içməyin isə daha kamil və daha üstün olması

Mövzu ilə əlaqəli hədislər:

Kəbşənin ﵂ rəvayət etdiyi və daha öncə keçən 764 nömrəli hədis də bu mövzuya aiddir.

٧٦٧ – وَعَنْ ابْنِ عَبَّاسٍ ﵄ قَالَ: سَقَيْتُ النَّبِيَّ ﷺ مِنْ زَمْزَمَ، فَشَرِبَ وَهُوَ قَائِمٌ. متفقٌ عليه.

767. Rəvayət edilir ki, İbn Abbas ﵄ demişdir: "Mən Peyğəmbərə ﷺ Zəm-zəm suyu verdim və o, *bu suyu* ayaq üstə içdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٦٨ – وَعَنْ النَّزَّالِ بْنِ سَبْرَةَ ﵁ قَالَ: أَتَى عَلِيٌّ ﵁ بَابَ الرَّحْبَةِ فَشَرِبَ قَائِماً، وَقَالَ: إِنِّي رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ فَعَلَ كَمَا رَأَيْتُمُونِي فَعَلْتُ، رواه البخارى.

768. Rəvayət edilir ki, Nəzzal ibn Səbra ﵁ demişdir: "*Bir dəfə* Əli *ibn Əbu Talib* ﵁ *Kufə məscidindəki* Rahbə qapısının yanına gəlib orada ayaq üstə su içdi və dedi: "Siz mənim necə etdiyimi gördünüzsə, mən də Rəsulullahın ﷺ elə etdiyini gördüm".

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

٧٦٩ – وَعَنْ ابْنِ عُمَرَ ﵄ قَالَ: كُنَّا نَأْكُلُ عَلَى عَهْدِ رَسُولِ اللَّهِ ﷺ وَنَحْنُ نَمْشِي، وَنَشْرَبُ وَنَحْنُ قِيَامٌ. رواهُ الترمذي، وقال: حديث حسن صحيح.

769. Rəvayət edilir ki, İbn Ömər ﵄ demişdir: "Biz Rəsulullahın ﷺ zamanında yeriyə-yeriyə yemək yeyər və ayaq üstə də su içərdik".

---

[1] "Səhih əl-Buxari", 5617; "Səhih Muslim", 2027.

[2] "Səhih əl-Buxari", 5615.

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

٧٧٠ – وَعَنْ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ ﷺ قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ يَشْرَبُ قَائِماً وَقَاعِداً. رواه الترمذي وقال: حديث حسن صحيح.

770. Amr ibn Şueyb atasından, o da öz atası *Amr ibn Asdan* ﷺ belə rəvayət etmişdir: "Mən Rəsulullahın ﷺ həm ayaq üstə, həm də oturulu halda su içdiyini görmüşəm".

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[2]

٧٧١ – وَعَنْ أَنَسٍ ﷺ عَنِ النَّبِيِّ ﷺ أَنَّهُ نَهَى أَنْ يَشْرَبَ الرَّجُلُ قَائِماً. قَالَ قَتَادَةُ: فَقُلْنَا لِأَنَسٍ: فَالأَكْلُ؟ قَالَ: ذَلِكَ أَشَرُّ – أَوْ أَخْبَثُ. رواهُ مسلم.

وَفِي رِوَايَةٍ لَهُ أَنَّ النَّبِيَّ ﷺ زَجَرَ عَنِ الشُّرْبِ قَائِماً.

771. Ənəs ﷺ rəvayət edir ki: "Peyğəmbər ﷺ adamın ayaq üstə bir şey içməsini qadağan etmişdir". *Hədisin ravisi* Qətadə deyir ki, biz Ənəsdən: "Bəs *ayaq üstə* yemək necə?"– deyə soruşduqda, Ənəs: "O daha betərdir – və ya daha pisdir"– deyə cavab verdi.

Bu hədisi Muslim rəvayət etmişdir.[3]

Muslimin digər rəvayətində isə deyilir: "Peyğəmbər ﷺ ayaq üstə bir şey içməyə mane olmuşdur".

٧٧٢ – وَعَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «لاَ يَشْرَبَنَّ أَحَدٌ مِنْكُمْ قَائِماً، فَمَنْ نَسِيَ فَلْيَسْتَقِيءْ» رواهُ مسلم.

772. Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ belə demişdir: **"Sizdən heç biriniz ayaq üstə içməsin. Kim də unudaraq içərsə, qoy *onu* qussun".**

Bu hədisi Muslim rəvayət etmişdir.[4]

---

[1] "Sunən ət-Tirmizi", 1880; "Sunən İbn Macə", 3301; "Silsilə əl-Əhadis əs-Səhihə", 3178.

[2] "Sunən ət-Tirmizi", 1883. Şeyx Albani bu hədisin həsən olduğunu söyləmişdir.

[3] "Səhih Muslim", 2024.

[4] "Səhih Muslim", 2026.

Şərh:

Müəllif ﷺ bu fəslə **"Ayaq üstə içməyin caiz, oturaraq içməyin isə daha kamil və daha üstün olması"** adını vermişdir.

Yemək və içməkdə ən üstün və ən doğru yol oturaraq yemək və oturaraq içməkdir. Çünki Peyğəmbərin ﷺ tutduğu yol budur. O, ayaq üstə nə yemək yeyər, nə də bir şey içərdi.

Ayaq üstə içməyə gəlincə, Peyğəmbərin ﷺ bunu qadağan etməsi səhih hədislərdə varid olmuşdur. Ayaq üstə yemək barəsində də Ənəs ibn Malikdən رضي الله عنه soruşulduqda, Ənəs: "O daha betərdir – və ya daha pisdir"– deyə cavab vermişdir. Yəni, Peyğəmbər ﷺ ayaq üstə içməyi qadağan etmişdirsə, ayaq üstə yemək yeməyin bu hökmə daxil olması daha məqsədəuyğundur.

Lakin Tirmizinin rəvayət etdiyi və səhih olduğunu da bildirdiyi İbn Ömərin رضي الله عنهما hədisində o, belə demişdir: "Biz Rəsulullahın ﷺ zamanında yeriyə-yeriyə yemək yeyər və ayaq üstə də su içərdik". Bu hədis ona dəlalət edir ki, bu məsələdəki qadağa haram anlamında deyil, *əksinə, bu əməli* tərk etməyin daha üstün olması anlamındadır. Yəni, ən yaxşı və ən kamil olan, insanın oturulu halda yeyib-içməsidir. Buna dəlil Abdullah ibn Abbasın رضي الله عنهما hədisidir. İbn Abbas رضي الله عنهما demişdir: "Mən Peyğəmbərə ﷺ Zəm-zəm suyu verdim və o, *bu suyu* ayaq üstə içdi".

Zəm-zəm Kəbənin ətrafında olan bulaqdır. Zəm-zəmin yaranma tarixi belədir: İbrahim عليه السلام, oğlu İsmaili və onun anası Həcəri heç kimsənin olmadığı bir yerdə – *indiki* Məkkədə tərk edib getmişdi. O zaman Məkkədə nə Kəbə, nə də yaşayış var idi. Ora hətta heç bir bitkisi olmayan bir vadi idi. İbrahim عليه السلام onların yanında bir az xurma və su qoymuşdu. Çünki ona İsmaili və anasını orada tərk etməyi uca Allah əmr etmişdi. İbrahim عليه السلام onları tərk edib aralandıqda Həcər ona yetişmiş və ondan: "Necə ola bilər ki, bizi burada tərk edib gedirsən? Bunu sənə Allahmı əmr etdi?"– deyə soruşmuş, İbrahim عليه السلام də ona: "Bəli"– deyə cavab vermişdi. Onda Həcər: "Əgər bunu sənə Allah əmr edibsə, onda O, bizi nəzarətsiz qoymaz"– demişdir. Bu söz Həcərin رضي الله عنها nə qədər kamil bir imana sahib olduğuna dəlalət edir.

Həcərin bu hekayəsi Musanın عليه السلام anasının hekayəsinə bənzəyir. Bir zaman Firon İsrail oğullarının üzərində hökmranlıq edirdi. O, İsrail oğullarını alçaltmaq üçün onların oğlan uşaqlarını öldürür, qadınlarını isə sağ buraxırdı. Deyilənə görə, münəccimlər Firona xəbər vermişdilər ki, İsrail oğullarından bir uşaq dünyaya gələcək və sən onun əli ilə öldürüləcəksən. Bundan sonra da o, İsrail oğullarının oğlan uşaqlarını öldürməyə başlamışdı. Elə bu səbəbdən Musanın anası Musadan ötrü qorxuya düşmüşdü. Lakin uca Allah Musanın anasına: "Musadan ötrü qorxduğun zaman onu taxta sandığa qoyub çaya burax"– deyə peyğəmbərlik yolu ilə deyil, ilham yolu ilə vəhy etdi. Heç şübhəsiz ki, bu, yəni ananın öz uşağını sandığa qoyub çaya buraxması onun nəfsinə çox ağır gələn bir hərəkətdir. Lakin Musanın anası izzətli və qüdrətli Allahın vədinə yəqinliklə iman gətirmişdi. Odur ki, Allahın əmrini yerinə yetirdi və onu sandığa qoyub çaya buraxdı. Fironun əsgərləri sandığı görüb onu götürdülər ki, içindəki uşağı öldürsünlər. Lakin Fironun həyat yoldaşı uşağı gördükdə uca Allah onun qəlbinə həmin uşağa qarşı məhəbbət saldı və o, *ayədə də zikr olunduğu kimi,* belə dedi: **"*Bu uşaq* həm mənim, həm də sənin üçün gözaydınlığıdır. Onu öldürməyin! Ola bilsin ki, o bizə bir fayda verər, yaxud da onu oğulluğa götürərik". Onlar *bu işin sonunu* bilmirdilər".**[1]

Musanın anası təlaş içində idi və ürəyi də boş qalmışdı. Yəni, övlad dərdindən başqa heç bir şey haqda düşünmürdü. Lakin izzətli və qüdrətli Allah Öz qüdrəti ilə elə etdi ki, həmin uşaq onu əmizdirməyə gələn hər bir qadını rədd etdi. Yəni, heç bir qadından süd əmmək istəmədi. Bu əsnada Musanın anası, oğlunun başına nələr gəldiyini bilmək üçün onun bacısını ora göndərmiş və o da insanların həmin uşaq üçün süd əmizdirən bir qadın axtardıqlarını görmüşdü. Odur ki, Musanın bacısı həmin adamlara belə dedi: **"Sizin üçün onun qayğısına qalacaq və ona qarşı xeyirxah olacaq bir ailəni sizə göstərimmi?"**[2] Beləliklə, uca Allah, uşağı heç bir qadından süd əmmədən öz anasına qaytardı. Həqiqətən, Allah böyükdür! Bu şeylərin hamısı Allahın qüdrəti sayəsində baş verdi. Yəni, uşaq öz anasından başqa heç bir qadından süd əmmədi. Halbuki, anası onu sandığa qoyub çaya buraxmışdı. Lakin sonda uca Allah onu anasına qaytardı.

---

[1] "əl-Qəsəs" surəsi, 9.

[2] "əl-Qəsəs" surəsi, 12.

İbrahim ﷺ Həcərə رضي الله عنها: "Bunu mənə Allah əmr etdi"– dedikdə, Həcər رضي الله عنها: "Elə isə, O, bizi nəzarətsiz qoymaz"– demiş və uşağı ilə birlikdə heç bir ins-cins olmayan həmin yerdə qalmışdı. Həcər رضي الله عنها yanında olan xurmadan yeyib sudan içmiş və bu yolla əmələ gələn südlə uşağını əmizdirmişdi. Nəhayət, xurma və su tükəndikdə ana ac qalmışdır. Bəlli məsələdir ki, ana ac qaldıqda onun südü olmur. Elə bu səbəbdən də uşaq ağlamağa başlamışdı.

Beləliklə, Həcər, Allahın ona verdiyi ilham vasitəsilə bir adam görmək və ya bir səs eşitmək ümidi ilə üzərinə qalxa biləcəyi ən yaxın dağı axtarmağa başlayır və özünə ən yaxın olan Səfa dağını görür. Kəbəyə ən yaxın dağın Səfa dağı olduğu günümüzdə də müşahidə olunur. O, Səfa dağına çıxıb ətrafa göz gəzdirmiş, ancaq heç bir kəsi tapa bilməmişdir. Sonra özözünə: "Bəlkə o biri tərəfə gedim?"– deyərək Səfa dağından enmiş və o biri tərəfdə özünə ən yaxın olan Mərva dağını görmüşdür. O, Mərvaya da qalxıb ətrafı dinləmiş, ancaq orada da heç bir kəsi tapa bilməmişdir. Səfa ilə Mərva arasında sel sularının axdığı bir vadi var idi. Bildiyimiz kimi, belə vadilər nisbətən çökəkdə olur. Ona görə də Həcər həmin vadiyə endikdə, oranı çox sürətlə qaçmağa başlayır. Belə edir ki, oranı tez keçib uşağının səsini eşidə bilsin və uşağı görmək üçün boylandıqda onu görə bilsin. Bu minvalla Həcər *Səfa və Mərva dağları arasında* yeddi dəfə gedib-gəlir.

Yeddincini tamamladıqda bir səs eşitmiş və: "Əgər yardım etməyə bir şeyin varsa, yardım et!"– demişdir. Onun eşitdiyi Cəbrail ﷺ idi. İzzətli və qüdrətli Rəbbi ona yerə enməyi və dabanı və ya qanadı ilə Zəm-zəmin çıxdığı yerə vurmağı əmr etmişdi. Cəbrail ﷺ həmin yerə bir dəfə vuran kimi oradan su qaynayıb çıxmağa başlamış, suyun torpağa dağılıb tükənəcəyindən qorxan Həcər isə *əli ilə* onun ətrafını yığıb toplamağa başlamışdı. O, həmin sudan içən zaman onun həm aclığı, həm də susuzluğu yatırdığını, yəni yeməyi və içməyi əvəz etdiyini hiss etdi. Beləcə, Həcər həmin sudan içib uşağını əmizdirməyə başlayır. Bununla İzzətli və qüdrətli Allah onun sıxıntısını aradan qaldırdı.

Həcərin olduğu yerin həndəvərində, ancaq çox-çox uzaqda bir ərəb qəbiləsi var idi. Bu qəbilənin adamları quşların uzaqdan Zəm-zəm olan tərəfə uçduqlarını gördükdə: "Orada su olmadığını bilirik, bəs görəsən quşlar nə üçün ora uçurlar?"– deyə düşündülər. Sonra da: "Quşlar heç vaxt su olmayan yerə uçmaz"– dedilər və quşları təqib etməyə başladılar.

Onlar həmin yerə yetişdikdə orada bulaq qaynadığını gördülər və Həcərin yanında məskunlaşdılar. Həcər onlarla ünsiyyət qurdu, İsmail عليه السلام də orada böyüyüb həmin qəbilədən birisi ilə evləndi.

Uzun müddət sonra İbrahim عليه السلام İsmailin və Həcərin yanına gəldi. O, İsmailin evinə daxil olub onun həyat yoldaşından hal-əhval tutdu. Lakin qadın vəziyyətdən gileyləndi və narazılığını bildirdi. Onda İbrahim عليه السلام ona: "Həyat yoldaşın evə gəldikdə ona evin astanasını dəyişdirməsini söylə"– dedi. İsmail qayıtdıqda evə adam gəldiyini hiss edib yoldaşından: "Evimizə gələn olubmu?"– deyə soruşdu. Qadın dedi: "Bəli, filan və filan əlamətləri olan qoca bir kişi gəlmişdi. O mənə buyurdu ki, onun salamını sənə çatdırım, həm də deyim ki, evinin astanasını dəyişəsən". Görəsən İbrahim عليه السلام bu sözü ilə nə demək istəyirdi? O, bu sözü ilə İsmailin öz həyat yoldaşını boşamasını istəmişdi. Çünki həmin qadın şikayətcil idi. O, həm öz həyat yoldaşından, həm də dolanışıqlarından şikayət etmişdi. İsmail dedi: "O gələn mənim atam idi, evin astanası isə sənsən. Odur ki, qayıt ata evinə".

İsmail onu boşadıqdan sonra başqa bir qızla evləndi. Bir müddət keçdikdən sonra İbrahim yenə oğluna baş çəkməyə gəldi, lakin onu evdə tapmadı. İbrahim evə daxil oldu və İsmailin zövcəsindən onların yaşayış tərzi və dolanışıqları barədə soruşdu. Qadın: "Vəziyyətimiz çox yaxşıdır, hər şeyimiz var"– deyib Allaha şükür etdi. İbrahim buyurdu: "Ərin evə gəldikdə mənim salamımı ona çatdır və de ki, evinin astanasını qorusun". İsmail evə qayıtdıqda zövcəsindən: "Bizə gələn olubmu?"– deyə soruşdu. Qadın dedi: "Bəli, filan əlamətləri olan ixtiyar bir qoca gəlmişdi. O mənə buyurdu ki, onun salamını sənə çatdırım, həm də deyim ki, evinin astanasını qoruyasan". İsmail dedi: "O gələn mənim atam idi, evimizin astanası isə sənsən. O mənə səndən möhkəm yapışmağı tövsiyə etdi".

Xülasə, Zəm-zəm suyu mübarək bir sudur: **"O, həqiqətən, *qarını* doyduran bir yemək və xəstəliklərə şəfadır".**[1]**;**

"Zəm-zəm suyu hansı niyyətlə içilərsə, onun üçündür".[2]

Susuzluğu yatırmaq üçün içsən, susuzluğunu aradan qaldırar, aclığını aradan qaldırmaq üçün içsən, qarnını doyurar. Hətta bəzi alimlər bu

[1] "Səhih Muslim", 2473.

[2] "Sunən İbn Macə", 3062; "Səhih ət-Tərğib vət-Tərhib", 1164.

hədisin ümumi mənasını götürərək: "Əgər xəstə birisi Zəm-zəmi şəfa niyyəti ilə içərsə, şəfa tapar. Unutqan birisi onu hafizəsinin güclənməsi niyyəti ilə içərsə, hafizəsi güclənər. Ümumiyyətlə, adam Zəm-zəmi hansı niyyətlə içərsə, həmin xüsusda Zəm-zəm ona fayda verər"– demişlər. Hər bir halda, Zəm-zəm suyu mübarək sudur.

Müəllif ﵀ ayaq üstə içməyin icazəli olmasına dair həm İbn Abbasın ﵄, həm də Əlinin ﵁ hədisini zikr etmişdir. Rəvayət edilir ki, vida həcci zamanı insanlara su paylamaq işinə Peyğəmbərin ﷺ əmisi Abbas ibn Abdulmuttalib ﵁ baxırdı. O zaman Qureyş qəbiləsi həcilərə xidmət etmək işlərini öz aralarında bölüşdürmüş və Abbasa ﵁ su paylamaq işi düşmüşdü. Ona görə də Peyğəmbər ﷺ su içmək üçün onun yanına gəldi. Bu zaman Abbas ﵁ oğlu Fadl ibn Abbasa: "Ananın yanına get və ona de ki, bizə özündə olan sudan versin"– dedi. Yəni, özündə olan Zəm-zəm suyundan versin. Peyğəmbər ﷺ: **"Nə üçün *məhz həmin sudan versin*?"**– deyə bunun səbəbini soruşduqda, Abbas ﵁ dedi: "Ya Rəsulullah, o, məxsusi olaraq sənindir. Burada olan sulara isə insanlar əllərini soxub". Yəni, sənə təmiz su vermək istəyirik. Onda Peyğəmbər ﷺ: **"Xeyr, *belə olmaz*, mən də insanların içdikləri sudan içmək istəyirəm"**– dedi və *bu suyu* ayaq üstə içdi. Bu hədis *suyu* ayaq üstə içməyin icazəli olmasına dəlalət edir.

Həmçinin, Əlinin ﵁ hədisi də buna dəlalət edir. Həmin hədisdə deyilir ki, *bir dəfə* Əli *ibn Əbu Talib ﵁ Kufə məscidindəki* Rahbə qapısının yanına gəlib orada ayaq üstə su içdi və dedi: "Siz mənim necə etdiyimi gördünüzsə, mən də Rəsulullahın ﷺ elə etdiyini gördüm". Bu da ayaq üstə içməyin qəbahət bir iş olmadığına dəlalət edir. Lakin ən yaxşısı və ən üstünü oturaraq içməkdir.

Bir məsələyə də toxunmaq istəyirəm. Əgər bir adam məscidə daxil olan zaman oradakı su qablarından su içmək istəsə, necə etməlidir? Suyu oturub içməlidir, yoxsa ayaq üstə? Çünki oturub içsə, Peyğəmbərin ﷺ: **"Sizdən biriniz məscidə daxil olduğu zaman iki rükət namaz qılmadan oturmasın"** hədisinə müxalif olmuş olacaq. Əgər ayaq üstə içsə, daha üstün olanı tərk etmiş olacaq. Biz: "Ən əfzəli ayaq üstə içməkdir"– deyirik. Çünki məscidə girdikdən sonra iki rükət namaz qılmadan oturmaq, bəzi alimlərə görə haramdır. Ayaq üstə su içmək isə daha yüngüldür. Buna əsasən, əvvəlcə suyu ayaq üstə içir, sonra gedib məscidə salam namazını qılır. Müvəffəq edən Allahdır.

Yüz on beşinci fəsil

Camaata içəcək paylayan şəxsin ən son içən olmasının müstəhəb olması

Mövzu ilə əlaqəli hədis:

٧٧٣ – عَنْ أَبِي قَتَادَةَ ﵁ عَنِ النَّبِيِّ ﷺ قَالَ: « سَاقِي القَوْمِ آخِرُهُمْ شُرْباً ». رواه الترمذي، وقال: حديث حسن صحيح.

773. Əbu Qətadə ﵁ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Camaata içəcək paylayan kimsə ən son içər".**

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Camaata içəcək paylayanın özünün ən sonuncu içən olmasının müstəhəb olması"** adını vermişdir. Yəni, camaata su, süd, çay və kofe kimi içəcəklər paylayan şəxsin özü sonuncu olaraq içməlidir. Bunun səbəbi isə başqalarını özündən üstün tutması və içəcək az olduğu halda içəcək çatmayan şəxsin onun özünün olmasıdır. Şübhəsiz ki, Peyğəmbərin ﷺ əmrinə boyun əymək və onun əxlaqına yiyələnmək üçün bu, ən gözəl əməldir. Lakin paylayan adamın iştahı çəkmirsə, onda hamıdan sonra içmək məcburiyyətində deyildir – istərsə içər, istərsə də içməz.

Əsas odur ki, paylayan adamın özü də içmək istəsə, onda sonuncu olaraq içməlidir. Belə etməklə o, başqalarını öündən üstün tutmuş və eyni zamanda Peyğəmbərin ﷺ əmrinə boyun əymiş olacaq. Bu onu göstərir ki, adam öz müsəlman qardaşlarına içəcək bir şeylər paylamaqla onların xidmətində durmalıdır. O, ev sahibi olduğu təqdirdə isə onlara yemək və içmək təqdim etməlidir. Eynilə İbrahim peyğəmbərin ﵇ etdiyi kimi: **"O,**

[1] "Sunən ət-Tirmizi", 1894; "Sunən İbn Macə", 3434; "Səhih əl-Cami", 2088.

təşviş içində ailəsinin yanına getdi və kök bir buzov *qızardıb* gətirdi. Onu onların qabağına qoyub dedi: "Yemək yemirsinizmi?"[1]

Ev sahibi qonaqlara yemək-içmək verməli və onlara ən son özü qatılmalıdır. Bu zaman belə bir məsələ ortaya çıxır: görəsən ev sahibinin istər səhər yeməyində olsun, istər günorta, istərsə də axşam yeməyində qonaqlarla birlikdə yeməyə qatılması üstündür, yoxsa qatılmaması? Bu məsələ insanların adətinə bağlıdır: əgər ev sahibinin yeməkdə iştirakı qonaqların əhvalına xoş gələcəksə və onlarla olan ünsiyyəti artıracaqsa, o zaman yeməkdə iştirak edir və onlarla birlikdə yemək yeyir. Yox, əgər bunun tam əksi olacaqsa, həmçinin adətə görə ev sahibi qonaqla yemək yeməməlidirsə, o zaman yeməkdə iştirak etməməlidir. Dediyimiz kimi, bu məsələ adətə bağlıdır. Əgər adətə görə ev sahibinin qonaqla yemək yeməməsi qonağa hörmət sayılırsa və eyni zamanda adətə görə, istədiyini yeməsi üçün qonağı sərbəst buraxmaq lazımdırsa, o zaman qonaqla birlikdə yemək yeyilməməlidir. Əgər məsələ bunun tam əksidirsə, onda qonaqla birlikdə yeməyə qoşulmaq lazımdır.

Peyğəmbər ﷺ buyurmuşdur: **"Kim Allaha və Axirət gününə iman gətirirsə, qonağına yaxşı baxsın...".**[2] Bu hədisdə Peyğəmbər ﷺ qonağa yaxşı baxmağın nə şəkildə olacağını açıqlamamışdır. Demək, bu məsələ insanların adətinə bağlıdır. Müvəffəq edən Allahdır.

[1] "əz-Zariyat" surəsi, 26-27.

[2] "Səhih əl-Buxari", 6138; "Səhih Muslim", 47.

Yüz on altıncı fəsil

Qızıl və gümüş qablardan başqa bütün pak qablarda içməyin icazəli olması; yemək, içmək, təharət və digər məsələlərdə qızıl və gümüş qablardan istifadə etməyin haram olması; axar sudan və başqa bu kimi yerlərdən *əl və qabdan istifadə etmədən* ağızla su içməyin isə caiz olması

Mövzu ilə əlaqəli hədislər:

٧٧٤ – عَنْ أَنَسٍ ﵁ قَالَ: حَضَرَتِ الصَّلَاةُ، فَقَامَ مَنْ كَانَ قَرِيبَ الدَّارِ إِلَى أَهْلِهِ، وَبَقِيَ قَوْمٌ فَأُتِيَ رَسُولُ اللَّهِ ﷺ بِمِخْضَبٍ مِنْ حِجَارَةٍ، فَصَغُرَ المِخْضَبُ أَنْ يَبْسُطَ فِيهِ كَفَّهُ، فَتَوَضَّأَ القَوْمُ كُلُّهُمْ. قَالُوا: كَمْ كُنْتُمْ؟ قَالَ: ثَمَانِينَ وَزِيَادَةً. متفقٌ عليه. هذه رواية البخاري.

وفي رواية له ولمسلم: أَنَّ النَّبِيَّ ﷺ دَعَا بِإِنَاءٍ مِنْ مَاءٍ، فَأُتِيَ بِقَدَحٍ رَحْرَاحٍ فِيهِ شَيْءٌ مِنْ مَاءٍ، فَوَضَعَ أَصَابِعَهُ فِيهِ. قَالَ أَنَسٌ: فَجَعَلْتُ أَنْظُرُ إِلَى المَاءِ يَنْبُعُ مِنْ بَيْنِ أَصَابِعِهِ، فَحَزَرْتُ مَنْ تَوَضَّأَ مَا بَيْنَ السَّبْعِينَ إِلَى الثَّمَانِينَ.

774. Ənəs ﵁ rəvayət edir ki, bir dəfə namazın vaxtı yetişdikdə evləri yaxın olanlar *dəstəmaz almaq üçün* əhli-əyalının yanına getdilər. Bir qrup *isə orada* qaldı. *Bu vaxt* Rəsulullaha ﷺ *içində su olan,* daşdan *qayrılmış* bir təknə gətirdilər. Təknə o qədər balaca idi ki, *Peyğəmbər* ﷺ əlini onun içinə sala bilmədi. *Buna baxmayaraq,* orada olanların hamısı *o su ilə* dəstəmaz aldı.

Orada olanlar *Ənəsdən* ﵁: "Siz neçə nəfər idiniz?"– deyə soruşduqda, Ənəs ﵁: "Səksən nəfərdən çox idik"– deyə cavab verdi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Muslimin rəvayətində isə belə deyilir: "Peyğəmbər ﷺ bir qab su istədi və ona içində bir qədər su olan geniş, lakin dərin olmayan bir qab gətirdilər. Peyğəmbər ﷺ də barmaqlarını *bu* qabın içinə saldı". Ənəs ﵁ deyir ki: "Mən *Peyğəmbərin* ﷺ barmaqları arasından qaynayıb çıxan suya

[1] "Səhih əl-Buxari", 195; "Səhih Muslim", 2279.

baxmağa başladım. Güman edirəm ki, *o sudan* yetmiş-səksən nəfər dəstəmaz aldı."[1]

٧٧٥ – وَعَنْ عَبْدِ اللَّهِ بْنِ زَيدٍ ﷺ قَالَ: أَتَانَا النَّبِيُّ ﷺ، فَأَخْرَجْنَا لَهُ مَاءً فِي تَوْرٍ مِنْ صُفْرٍ فَتَوَضَّأَ. رواه البخاري.

« الصُّفْر » بضم الصاد، ويجوز كسرها، وهو النحاس، « والتَّوْرُ » كالقدح، وهو بالتاءِ المثناة من فوق.

775. Rəvayət edilir ki, Abdullah ibn Zeyd ﷺ demişdir: "*Bir dəfə* Peyğəmbər ﷺ bizə gəldi. Biz onun üçün misdən olan bir qabda su gətirdik, o da *bu su ilə* dəstəmaz aldı".

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

Hədisin ərəbcəsində keçən "sufr" sözü "mis", "təur" sözü isə "qab" deməkdir.

٧٧٦ – وَعَنْ جَابِرٍ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ دَخَلَ عَلَى رَجُلٍ مِنَ الأَنْصَارِ، وَمَعَهُ صَاحِبٌ لَهُ، فَقَالَ رَسُولُ اللَّهِ ﷺ: « إِنْ كَانَ عِنْدَكَ مَاءٌ بَاتَ هَذِهِ اللَّيْلَةَ فِي شَنَّةٍ وَإِلاَّ كَرَعْنَا» رواه البخاري. « الشَّنُّ »: القِرْبة.

776. Cabir ﷺ rəvayət edir ki, *bir dəfə* Rəsulullah ﷺ bir səhabəsi ilə birlikdə ənsardan olan bir nəfərin evinə daxil oldu və ona: **"Əgər tuluqda gecədən qalmış su varsa, *gətir içək*, yoxdursa, *əyilib* birbaşa hovuzdan içək".**

Bu hədisi Buxari rəvayət etmişdir.[3]

Hədisin ərəbcəsində keçən "şənnə" kəlməsi "tuluq" mənasındadır.

٧٧٧ – وَعَنْ حُذَيْفَةَ ﷺ قَالَ: إِنَّ النَّبِيَّ ﷺ نَهَانَا عَنِ الحَرِيرِ وَالدِّيبَاجِ وَالشُّرْبِ فِي آنِيَةِ الذَّهَبِ وَالفِضَّةِ، وَقَالَ: « هِيَ لَهُمْ فِي الدُّنْيَا، وَهِيَ لَكُمْ فِي الآخِرَةِ » متَّفقٌ عليه.

---

[1] Səhih əl-Buxari, 200; Səhih Muslim, 2279.

[2] Səhih əl-Buxari, 197.

[3] Səhih əl-Buxari, 5621.

777. Rəvayət edilir ki, Huzeyfə ﵁ demişdir: "Peyğəmbər ﷺ bizə ipək və atlaz *geyinməyi*, qızıl və gümüş qablarda *yeyib*-içməyi qadağan etdi və belə dedi: **"Bunlar dünyada onların (kafirlərin), Axirətdə isə sizindir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٧٨ – وَعَنْ أُمِّ سَلَمَةَ ﵂ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « الَّذِي يَشْرَبُ فِي آنِيَةِ الفِضَّةِ إِنَّمَا يُجَرْجِرُ فِي بَطْنِهِ نَارَ جَهَنَّمَ » متفق عليه.

وفي رواية لمسلم: « إِنَّ الَّذِي يَأْكُلُ أَوْ يَشْرَبُ فِي آنِيَةِ الفِضَّةِ والذَّهَبِ ».

وفي رواية لَه: « مَنْ شَرِبَ فِي إِنَاءٍ مِنْ ذَهَبٍ أَوْ فِضَّةٍ فَإِنَّمَا يُجَرْجِرُ فِي بَطْنِهِ نَاراً مِنْ جَهَنَّمَ ».

778. Ummu Sələmə ﵂ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Gümüş qablarda bir şey içən kimsə, qarnına ancaq Cəhənnəm odu doldurmuş olar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Muslimin rəvayətində isə belə keçir: **"Gümüş və qızıl qablarda yeyən və ya içən kimsə...".**

Muslimin digər rəvayətində belə də deyilir: **"Hər kim qızıldan və ya gümüşdən olan qabdan içərsə, qarnına ancaq Cəhənnəmdən bir parça od doldurmuş olar".**

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" adlı kitabındakı içmək ədəbləri ilə bağlı mövzuya qablardan bəhs edən bu fəsil ilə son vermişdir. O, belə etməklə *şəriətdə olan* faydalı bir qayda barəsində xəbər vermişdir. Həmin qayda budur: Allahın yer üzündə yaratdığı hər bir şeyin əsli, onun haramlığına dair dəlil gəlməyincə, halaldır. Yəni, hər bir şeyin əsli halaldır. Buna dəlil uca Allahın bu ayəsidir: **"Yer üzündə olanların hamısını sizin üçün xəlq edən Odur".**[3] Yer üzündə olanların hamısı – heyvanlardan tutmuş, ağaclara və daşlara kimi hər bir şey bizim üçündür. Yəni, yer üzündə olan hər bir

[1] "Səhih əl-Buxari", 5633; "Səhih Muslim", 2067.

[2] "Səhih əl-Buxari", 5634; "Səhih Muslim", 2065.

[3] "əl-Bəqərə" surəsi, 29.

şeyin əsli halaldır. Haramlığına dair dəlil olan şeylər istisna olmaqla, yer üzündə olan hər bir şeyi uca Allah bizim üçün halal etmişdir.

Uca Allahın Öz kitabında açıqlamış olduğu bu möhtəşəm qaydaya əsasən, hər kim bir şeyin haram olduğunu iddia edərsə, buna dair mütləq bir dəlil gətirməlidir. Məsələn, bir adam: "Filan heyvan haramdır"– deyərsə, ona: "Elə isə, *onun haramlığına dair* dəlilini gətir"– deyirik. Əks halda, yəni dəlil gətirə bilməsə, əslə görə həmin heyvan halaldır. Yaxud: "Filan qablar haramdır"– deyərsə, ona da: "Dəlilini gətir"– deyirik. Əks halda, yəni dəlil gətirə bilməsə, əslə görə həmin qablar halaldır. Və ya: "Filan ağac haramdır"– deyərsə, ona: "Dəlilini gətir"– deyirik. Əks halda, yəni dəlil gətirməsə, əslə görə həmin ağac halal sayılır. Çünki: "Filan şey halaldır"– deyən adamın əlində bir əsil, yəni dəlil vardır ki, o da uca Allahın bu ayəsidir: **"Yer üzündə olanların hamısını sizin üçün xəlq edən Odur".** Uca Allah başqa bir ayədə də belə buyurmuşdur: **"Göylərdə və yerdə olanların hamısını sizin xidmətinizə verən də Odur".**[1] Əsil olan budur.

Məhz buna görə də müəllif ﵀: "**Qızıl və gümüş qablardan başqa bütün pak qablarda içməyin icazəli olması**"– demişdir. Yəni, qızıl və gümüşdən savayı – istər taxtadan, daşdan, istər də başqa şeylərdən olsun, fərq etməz – istənilən qablarda yemək və içmək icazəlidir. Qızıl və gümüş qablarda isə yeyib-içmək olmaz. Buna dəlil Huzeyfə ibn Yəmənin ﵁ və Ummu Sələmənin ﵂ rəvayət etdiyi hədislərdir. Huzeyfənin ﵁ hədisinə gəlincə, həmin hədisdə Huzeyfə ﵁ açıq-aydın bildirir ki, Peyğəmbər ﷺ qızıl və gümüş qablardan içməyi qadağan etmişdir. Həmçinin, Ummu Sələmənin ﵂ hədisi də *qızıl və gümüş qablarda yeyib-içməyin haram olmasına* dəlalət edir. *Hətta Huzeyfənin ﵁ hədisində* Peyğəmbər ﷺ bunun hikmətini də açıqlamış və: **"Bunlar dünyada onların (yəni kafirlərin), Axirətdə isə sizindir"**– demişdir.

Kafirlər Axirətdə Cəhənnəm oduna atılacaq və orada susuzluqdan dolayı kömək istəyəcəklər. Bu xüsusda uca Allah belə buyurur: **"Onlar kömək dilədikdə, *onlara* əridilmiş metal kimi üzlərini qarsayan su ilə kömək ediləcəkdir – nə pis içki, necə də pis məskəndir!"**[2]

---

[1] "əl-Casiyə" surəsi, 13.

[2] "əl-Kəhf" surəsi, 29.

Bəli, onlar kömək istədikdə, onlara qızardılmış yağa bənzəyən, əridilmiş metal kimi su veriləcəkdir. Allah qorusun! Onlar bu suyu içmək üçün ağızlarına yaxınlaşdırdıqda, *onun istisindən* üzləri yanıb qovrulacaqdır. Onlara **"bağırsaqlarını parça-parça edən qaynar su içirdiləcək".**[1] Allah qorusun!

Lakin Cənnət əhlinə **"möhürlü şərabdan içirdiləcək. Onun möhürü müşkdür".**[2] Allah həm bizi, həm də sizi onlardan etsin! Cənnət əhli həm də qızıl və gümüş qablardan yeyib-içəcəklər. Elə buna görə də Peyğəmbər ﷺ qızıl və gümüş qablardan yeyib-içməyi qadağan etmişdir. Çünki bunlar Cənnət qablarıdır.

Peyğəmbər ﷺ kişilərə ipək paltar geyinməyi də qadağan etmişdir. Çünki mömin kişilər ipəyi Cənnətdə geyinəcəklər. Bu dünyada ipək geyinmək mömin kişilərə yaraşmaz. Əgər uca Allah qadınlara ipək geyinməyə izin verməsəydi, onlara da ipək geyinmək yaraşmazdı. Lakin uca Allah həm qadınların, həm də onların ərlərinin məsləhəti üçün onlara ipək geyinməyə izin vermişdir. Bunun hikməti isə qadının öz əri üçün bəzənməsidir. Belə olduqda isə bunun sayəsində hər iki tərəf bundan zövq alır. Əgər bu *hikmət* olmasaydı, ipək kişilərə haram olduğu kimi, qadınlara da haram olardı. Çünki ipək Cənnət əhlinin geyimidir.

Dolayısıyla, qızıl və gümüş istisna olmaqla, şüşə, saxsı, ağac, daş və digər qabların hamısı, hətta bahalı metallardan olsa belə, əsas etibarilə halaldır. Bəzi fəqihlərin dediyinə görə, *qızıl və gümüş qablardan yeyib-içməyin haram olmasının* illəti (gizli həqiqəti), onların təkəbbürlüyə, kasıbların qəlblərinin qırılmasına və başqa bu kimi şeylərə səbəb olmasına görədir. Lakin illət heç də bu deyildir. Əgər əsil illət bu olsaydı, onda kasıbların qəlbini qıran bütün qablarda yeyib-içmək haram olardı. Lakin əsil illəti Peyğəmbər ﷺ belə açıqlamışdır: **"Bunlar dünyada onların (yəni kafirlərin), Axirətdə isə sizindir".** Bu hökm yalnız qızıl və gümüş qablara aiddir.

Əgər bir insan qızıl və gümüşdən daha bahalı bir metal qabda yeyib-içərsə, israf həddinə çatmadıqca, bu onun üçün haram sayılmaz. Lakin qızıl və gümüş qabda yeyib-içsə, bu, haram sayılacaq. Çünki Peyğəmbər ﷺ bunu qadağan etmiş və səbəbini də açıqlamışdır.

---

[1] "Muhəmməd" surəsi, 15.

[2] "əl-Mutaffifin" surəsi, 25-26.

Ummu Sələmənin ﵂ hədisinə gəlincə, bu rəvayət qızıl və gümüş qablarda yeyib-içməyin böyük günahlardan olmasına dəlalət edir. Çünki Peyğəmbər ﷺ bunu edən insanı belə hədələmişdir: **"Gümüş və qızıl qablarda yeyən və ya içən kimsə, qarnına ancaq Cəhənnəm odu doldurmuş olar".** Hədisdə keçən "cərcəra" kəlməsi insanın boğazından keçən yemək-içməyin səsidir. *Buna əsasən, hədisin bir mənası da belədir:* ***"Hər kim qızıldan və ya gümüşdən olan qabdan bir şey yeyər və ya içərsə, Qiyamət günü Cəhənnəm odu onun qarnında quruldayacaqdır".*** Əgər bir insan qızıl və ya gümüş qabdan bir şey yeyər və ya içərsə, Qiyamət günü həm də Cəhənnəm odu onun qarnında quruldayacaqdır. Bu da öz növbəsində bu əməlin böyük günahlardan olmasına dəlalət edir. Çünki bu kəlmədə təhdid var. Barəsində təhdid gələn hər bir günah isə böyük günahlardan sayılır.

Qızıl və gümüş suyuna batırılmış qablara gəlincə, alimlər onlar barəsində: "Bunlar da xalis qızıl və gümüş hökmündədir. Odur ki, bu qablarda da yemək və içmək olmaz"– demişlər. Müvəffəq edən Allahdır.

LİBAS KİTABI

Yüz on yeddinci fəsil

Ağ paltar geyinməyin müstəhəb, qırmızı, yaşıl, sarı və qara rənglərin, habelə ipək istisna olmaqla, pambıq, kətan, qıl, yun və digər paltarları geyinməyin caiz olması

Mövzu ilə əlaqəli ayələr:
Uca Allah buyurur:

﴿ يَٰبَنِيٓ ءَادَمَ قَدۡ أَنزَلۡنَا عَلَيۡكُمۡ لِبَاسٗا يُوَٰرِي سَوۡءَٰتِكُمۡ وَرِيشٗاۖ وَلِبَاسُ ٱلتَّقۡوَىٰ ذَٰلِكَ خَيۡرٞ ﴾

“Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək geyim və zinət libası nazil etdik. Təqva libası, *məhz* o, daha xeyirlidir”.[1]

﴿وَجَعَلَ لَكُمۡ سَرَٰبِيلَ تَقِيكُمُ ٱلۡحَرَّ وَسَرَٰبِيلَ تَقِيكُم بَأۡسَكُمۡ ﴾

“Sizin üçün sizi istidən qoruyacaq paltarlar və döyüşdə mühafizə edəcək zirehli geyimlər düzəltdi”.[2]

Şərh:

Müəllif ﵀ “Salehlər bağçası” adlı kitabındakı bu hissəyə **“Libas kitabı”** adını vermişdir. Bu, ən gözəl tərtib üslubudur. Çünki yemək və içmək batini libas, paltar isə zahiri libasdır. Uca Allah buyurur: **“Sən orada nə ac qalacaq, nə də çılpaq olacaqsan. Sən orada nə susayacaq, nə də bürküdən əziyyət çəkəcəksən”.**[3]

Uca Allah bu ayədə: **“Sən orada nə ac qalacaq, nə də çılpaq olacaqsan”**– deyə buyurur. Çünki aclıq batini çılpaqlıqdır. Qarnın boş olması, orada qidanın olmaması onun çılpaq qalması deməkdir. **“Nə də çılpaq olacaqsan”,** yəni əynində zahiri libas olacaq. Ayədəki **“Sən orada nə susayacaqsan”** sözü batinin istiliyinə, **“nə də bürküdən əziyyət çəkəcəksən”**

---

[1] “əl-Əraf” surəsi, 26.

[2] “ən-Nəhl” surəsi, 81.

[3] “Ta ha” surəsi, 118, 119.

sözü isə zahirin istiliyinə işarədir. Bu ayələr bəzi adamları düşünməyə vadar etmiş və onlar öz-özlərinə sual etmişlər ki, görəsən nə üçün uca Allah: **"Sən orada nə ac qalacaq, nə də susayacaqsan. Sən orada nə çılpaq olacaq, nə də bürküdən əziyyət çəkəcəksən"** demişdir? Lakin kim bizim izah etdiyimiz mənanı dərk edərsə, Quranın nə dərəcədə bəlağətli olduğu ona aydın olar. **"Sən orada nə ac qalacaqsan"** ifadəsi orada batinin çılpaq olmamasına, **"nə də çılpaq olacaqsan"** ifadəsi isə zahirin çılpaq olmamasına işarədir. Həmçinin, **"Sən orada nə susayacaqsan"** ifadəsi orada batinin istiliyinin olmamasına, **"nə də bürküdən əziyyət çəkəcəksən"** ifadəsi isə zahirin istiliyinin olmamasına, yəni günəşin istisinə məruz qalmamasına işarədir.

Eynilə müəllif ﷺ də öncə yemək ədəblərindən başlamış, sonra içmək ədəblərini zikr etmiş, sonra da zahiri örtük olan libas ədəblərinə keçmişdir. Bu bölümü isə uca Allahın: **"Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək geyim və zinət libası nazil etdik. Təqva libası, *məhz* o, daha xeyirlidir"** ayəsi ilə başlamışdır. Uca Allah bu ayələrdə iki növ libası zikr etmişdir: birincisi zahiri növ, ikincisi isə batini növdür. Yaxud, birincisi maddi növ, ikincisi isə mənəvi növdür. Eyni zamanda maddi növ libasın iki qismini zikr etmişdir: birincisi, övrət yerlərini örtən zəruri libas, ikincisi isə tamamlayıcı olan zinət libasıdır.

Uca Allahın hikmətindəndir ki, Adəm oğullarını övrət yerlərini örtəcək geyimə möhtac etmişdir. İnsan maddi, yəni bədəndəki övrətlərini örtməyə möhtac olduğu kimi, mənəvi övrətlərini də örtməyə möhtacdır. İnsanın mənəvi övrətləri isə günahlardır. Bu da uca Allahın bir hikmətidir.

Ona görə də insandan savayı əksər məxluqatın qıl, yun, tük və lələk kimi dərilərini örtəcək geyimləri vardır. Çünki onlar, insanlardan fərqli olaraq, mənəvi övrətlərini, yəni öz eyiblərini örtməyə ehtiyac duymurlar. İnsanlar isə mənəvi övrətlərini örtməyə möhtacdırlar. Mənəvi övrətlər isə *onun* günahlarıdır. Allah həm bizi, həm də sizi günahlardan qorusun.

"Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək geyim və zinət libası nazil etdik". Yəni, ayıb yerlərinizi örtən zəruri libasdan əlavə, gözəllik üçün zinət libası da nazil etdik. Ayədəki **"Təqva libası"** əvvəldə qeyd etdiyimiz mənəvi libasdır. Ayədə: **"Təqva libası, *məhz* o, daha xeyirlidir"**– deyilir. Yəni, təqva libası zahiri libasın hər iki növündən – həm övrəti örtən zəruri libasdan, həm də tamamlayıcı olan gözəllik libasından daha xeyirlidir.

Madam ki, təqva libası zahiri libasdan xeyirlidir, onda insanın yaxşı-yaxşı düşünməsi gərəkdir. Belə ki, biz zahiri libasın təmiz qalması üçün daha nələr etmirik: paltara balaca bir ləkə düşən kimi, onu min bir yolla – gah sabunla, gah da digər təmizləyici vasitələrlə təmizləməyə çalışırıq. Ancaq insanların əksəriyyəti təqva libasına önəm vermirlər: "O, təmizmi qaldı, yoxsa çirkləndimi?"– deyə heç düşünmürlər. Halbuki izzətli və qüdrətli Allah onun daha xeyirli olduğunu söyləyir. Bu da onu göstərir ki, bədəni örtən maddi, yəni zahiri libasdan daha çox təqva libasına diqqət yetirmək lazımdır. Çünki təqva libası daha önəmlidir. Uca Allah bu ayədə **"*məhz* o, daha xeyirlidir"**– deyir. Yəni, bu ayədə işarə əvəzliyi olan "zalikə" (o) kəlməsi keçir. Uca Allah şəxs əvəzliyi olan "huva" (o) kəlməsini deməmişdir. Dolayısıyla, ərəbcə "huva xayrun" deyil, "zalikə xayrun" demişdir. Çünki "zalikə" (o) işarə əvəzliyidir. *Uca Allah da,* təqva libasının daha üstün mərtəbədə olduğunu bildirmək üçün məhz uzaqlığı bildirən "zalikə" (o) kəlməsini gətirmişdir. *Çünki ərəb dilində uzaqlığı bildirən "zalikə" işarə əvəzliyi, daha üstün mərtəbəyə sahib olanı göstərmək üçün istifadə olunur.* Buna misal olaraq başqa bir ayəni göstərək. Uca Allah buyurur: **"Əlif. Ləm. Mim. O, içində heç bir şübhə olmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır".**[1] Uca Allah bu ayədə Qurani-Kərimin yüksək mövqeyə malik olduğunu göstərmək üçün "həzəl-kitabu" (bu kitab) deməmiş, əksinə, "zalikəl-kitabu" (o kitab) demişdir. Eyni şəkildə **"*məhz* o, daha xeyirlidir"** deyildikdə də təqva libasının daha üstün mövqeyə sahib olmasına işarə edilmişdir.

Bir sözlə, insan təqva libasına diqqət yetirməli, uca Allahdan layiqincə qorxmalı və hər zaman öz xətaları və günahları barəsində düşünməlidir. Xəta və günahların təmizlənməsi zahiri libas sayılan paltarın təmizlənməsindən daha asandır. Paltarı təmizləmək üçün çox əziyyət çəkilir – su və təmizləyici vasitələr gətirilir, hətta bunun üçün pul da xərclənir. Lakin mənəvi libası, yəni günahları təmizləmək bundan qat-qat asandır. Uca Allah buyurur: **"O kəslər ki, pis bir iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər".**[2] Demək, tövbə və istiğfarla keçmiş günahlar bağışlanır. Ayrıca bu xüsusda Peyğəmbər ﷺ

[1] "əl-Bəqərə" surəsi, 1-2.

[2] "Ali-İmran" surəsi, 135.

Amr ibn Asa رضي الله عنه belə demişdir: **"Məgər bilmirsən ki, İslam özündən əvvəlki günahları yox edir, hicrət özündən əvvəlki günahları yox edir, həcc ziyarəti özündən əvvəlki günahları yox edir?!"**[1] Uca Allahdan, Öz lütfü və kərəmi sayəsində günahlarımızı bağışlamasını diləyirik.

Müəllifin رحمه الله zikr etdiyi ikinci ayədə uca Allah belə buyurur: **"Sizin üçün sizi istidən qoruyacaq paltarlar və döyüşdə mühafizə edəcək zirehli geyimlər düzəltdi".** Ayədə keçən "sərabil" kəlməsi, *adi və dəmir* geyimlər mənasındadır. Yəni, bizim geyindiyimiz köynək, zireh və bunlara bənzər geyimlərə "sərabil" deyilir.

"Sizin üçün sizi istidən qoruyacaq paltarlar və döyüşdə mühafizə edəcək zirehli geyimlər düzəltdi". Bizi döyüşdə qoruyacaq geyimlər dəmirdən olan geyimlərdir, yəni zirehli paltarlardır. Əvvəllər döyüşlərdə bu cür paltarlar geyinərdilər. Çünki bu paltarlar insanı ona tərəf atılan oxdan qoruyurdu. Bu zirehlər dəmir sırğalardan toxunulmuş, *tor şəklində olan* geyimlər idi. Uca Allah Davud peyğəmbərə عليه السلام xitab edərək belə buyurmuşdur: **"Geniş zirehlər düzəlt və halqaları toxuduqda ölçüyə riayət et".**[2] Bu zirehlər onu geyinən insanı ox, nizə və ya qılınc kimi yaralayıcı silahlardan qoruyurdu. Yəni, gələn zərbələr həmin dəmir zirehə dəyər və insanı təhlükədən qoruyardı.

"Sizi istidən qoruyacaq paltarlar" dedikdə isə, insanı istidən qoruyan pambıq və ona bənzər paltarlar nəzərdə tutulur. "Görəsən nə üçün uca Allah "soyuqdan qoruyacaq" deməmiş, *əksinə, "istidən qoruyacaq" demişdir*" deyə belə bir sual verə bilərlər. Alimlər bu suala belə cavab vermişlər: "Ayədə soyuq sözünün özü hallanmasa da, mənası mövcuddur. Əslində isə məna belədir: "Sizi istidən və soyuqdan qoruyacaq paltarlar". Bu ayədə sadəcə isti zikr olunmuşdur. Bunun səbəbi isə ayənin Məkkədə nazil olmasıdır. Məkkə əhli isə soyuq görmür. Ona görə də uca Allah onlara olan nemətini bu şəkildə, yəni istidən qoruyan paltarlar olaraq ifadə etmişdir". Bəzi alimlər isə ayədə soyuq sozünün mənasının olmadığını demiş və belə bir açıqlama vermişlər: "Döyüşdə insanı təhlükədən qoruyan zirehlər, əslində onu ox, nizə və qılınc kimi silahların *mənəvi* istisindən qoruyur. Yüngül paltarlar isə insanı havanın istisindən qoruyur. Biri ox, nizə və

[1] "Səhih Muslim", 121.

[2] "Səba" surəsi, 11.

qılınc vasitəsilə gələn *mənəvi* istidən, digəri isə havanın istisindən qoruyur. Belə ki, isti havada insanın üzərində onu istidən qoruyan paltarı olmasa, isti onu yandırar, dərisini qaraldıb qupquru edər və bundan dolayı insan əziyyət çəkər". Lakin pak və uca Allahın nemətidir ki, insana onu istidən qoruyacaq paltarlar bəxş etmişdir.

Mövzu ilə əlaqəli hədislər:

٧٧٩ – وَعَنْ ابْنِ عَبَّاسٍ رضي الله عنهما أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: الْبَسُوا مِنْ ثِيَابِكُمُ البَيَاضَ، فَإِنَّهَا مِنْ خَيْرِ ثِيَابِكُمْ، وَكَفِّنُوا فِيهَا مَوْتَاكُمْ » رواهُ أبو داود، والترمذي وقال: حديث حسن صحيح.

779. İbn Abbas رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Paltarlarınızdan ağ olanları geyinin, çünki paltarlarınızın ən xeyirlisi ağ olanlarıdır. Ölülərinizi də ağ olanlarla kəfənləyin".**

Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

٧٨٠ – وَعَنْ سَمُرَةَ رضي الله عنه قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: «الْبَسُوا البَيَاضَ، فَإِنَّهَا أَطْهَرُ وَأَطَيَبُ، وَكَفِّنُوا فِيهَا مَوْتَاكُمْ » رواهُ النسائى، والحاكم وقال: حديث صحيح.

780. Səmura رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Ağ *paltar* geyinin, çünki o, daha təmiz və daha gözəldir. Ölülərinizi də ağ olanlarla kəfənləyin".**

Bu hədisi Nəsai və Hakim rəvayət etmiş, Hakim: "Bu, "səhih" hədisdir"– demişdir.[2]

٧٨١ - وَعَنِ البَرَاءِ رضي الله عنه قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ مَرْبُوعاً وَلَقَدْ رَأَيْتُهُ فِي حُلَّةٍ حَمْرَاءَ مَا رَأَيْتُ شَيْئاً قَطُّ أَحْسَنَ مِنْهُ. متَّفقٌ عليه.

[1] "Sunən Əbu Davud", 3878; "Sunən ət-Tirmizi", 994; "Səhih ət-Tərğib vət-Tərhib", 2026.

[2] "Sunən ət-Tirmizi", 2810; "Sunən ən-Nəsai", 5322; "Mustədrək əl-Hakim", 4/185; "Səhih ət-Tərğib vət-Tərhib", 2027.

781. Rəvayət edilir ki, Bəra رضي الله عنه demişdir: "Rəsulullah ﷺ ortaboy idi. Mən onu qırmızı libasda gördüm. Doğrusu, mən heç vaxt ondan yaraşıqlı insan görməmişəm".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif رحمه الله bu fəsildə İbn Abbasın رضي الله عنهما və Səmuranın رضي الله عنه hədislərini zikr etmişdir. Həmin hədislərdə Peyğəmbər ﷺ ağ paltar geyinməyə təşviq etmiş və **"Çünki paltarlarınızın ən xeyirlisi ağ olanlarıdır. Ölülərinizi də ağ olanlarla kəfənləyin"**– deyə buyurmuşdur. Peyğəmbər ﷺ doğru söyləmişdir. Həqiqətən də ağ paltar digərlərindən daha xeyirli və daha gözəldir. Çünki ağ paltar həm parlaq və nurlu olması baxımından, həm də xırda bir ləkəyə bulaşdıqda bilinməsi və insanın onu dərhal yumağa can atması baxımından *digər rənglərdən daha xeyirlidir.*

Digər rəngli paltarlar isə belə deyildir. Onlar çoxlu ləkələrə bulaşsa belə, adam onu hiss etmir deyə *vaxtında* yumur. Yuduqda da onun tam olaraq təmizlənib-təmizlənmədiyini bilmir. Ona görə də Peyğəmbər ﷺ: **"Çünki paltarlarınızın ən xeyirlisi ağ olanlarıdır. Ölülərinizi də ağ olanlarla kəfənləyin"**– demişdir.

Ağ paltar geyinmək dedikdə, bura köynək, əba və başqa bu kimi paltarlar daxildir. Bunların hamısının ağ olması daha yaxşı və daha əfzəldir. Lakin başqa rəngdə paltar geyinməkdə də bir problem yoxdur – bir şərtlə ki, bu paltarlar qadınlara məxsus paltarlar olmasın. Əgər bu paltarlar yalnız qadınlara məxsus paltarlardırsa, o zaman kişiyə həmin paltarı geyinmək icazəli deyildir. Çünki Peyğəmbər ﷺ özünü qadınlara bənzədən kişiləri lənətləmişdir. İkinci bir şərt də budur ki, bu paltarlar qırmızı rəngdə olmasın. Çünki Peyğəmbər ﷺ xalis qırmızı rəngi də qadağan etmişdir. Əgər paltarda qırmızı rənglə qarışıq ağ və ya başqa bir rəng də varsa, onda həmin paltarı geyinməkdə qəbahət yoxdur.

Buna əsasən də müəllifin رحمه الله zikr etdiyi üçüncü hədisdə, yəni Rəsulullahın ﷺ ortaboy olduğunu və əynində də qırmızı libas olduğunu göstərən hədisdə ehtimal olunan odur ki, bu libas xalis qırmızı rəngdə olmamışdır.

---

[1] "Səhih əl-Buxari", 5848; "Səhih Muslim", 2337.

Sadəcə onun üzərində qırmızı rəngdə çoxlu xətlər olmuşdur. Məsələn, [Səudiyyə Ərəbistanında kişilərin] baş örtüyü də belədir. O *da kənardan* qırmızı görünür, amma bütünlüklə qırmızı deyildir. Əksinə, onun çox hissəsi ağ rəngdədir. Amma onun üzərində olan nöqtələr və naxışlar qırmızı rəngdə olduğu üçün *kənardan qırmızı görünür.* Peyğəmbərin ﷺ geyindiyi qırmızı libas da eynilə belə olmuşdur. Yəni, onun da üzərində *çoxlu sayda* qırmızı rəng olmuşdur. Üzərində ağ *və başqa* rənglər olmayan xalis qırmızı paltar geyinməyə gəldikdə isə, Peyğəmbər ﷺ bunu kişilərə qadağan etmişdir. Müvəffəq edən Allahdır.

٧٨٢ – وَعَنْ أَبِي جُحَيْفَةَ وَهْبِ بْنِ عَبْدِ اللَّهِ رضي الله عنه قَالَ: رَأَيْتُ النَّبِيَّ ﷺ بِمَكَّةَ وَهُوَ بِالأَبْطَحِ فِي قُبَّةٍ لَهُ حَمْرَاءَ مِنْ أَدَمٍ، فَخَرَجَ بِلَالٌ بِوَضُوئِهِ، فَمِنْ نَاضِحٍ وَنَائِلٍ، فَخَرَجَ النَّبِيُّ ﷺ وَعَلَيْهِ حُلَّةٌ حَمْرَاءُ، كَأَنِّي أَنْظُرُ إِلَى بَيَاضِ سَاقَيْهِ، فَتَوَضَّأَ، وَأَذَّنَ بِلَالٌ، فَجَعَلْتُ أَتَتَبَّعُ فَاهُ هَهُنَا وَهَهُنَا، يَقُولُ يَمِيناً وَشِمَالاً: حَيَّ عَلَى الصَّلَاةِ، حَيَّ عَلَى الفَلَاحِ. ثُمَّ رُكِزَتْ لَهُ عَنَزَةٌ، فَتَقَدَّمَ فَصَلَّى، يَمُرُّ بَيْنَ يَدَيْهِ الكَلْبُ وَالحِمَارُ، لاَ يُمْنَعُ. متَّفقٌ عليه.

«العَنَزَةُ» بفتح النونِ نحْوُ العُكازَة.

782. Rəvayət edilir ki, Əbu Cuheyfə Vəhb ibn Abdullah رضي الله عنه demişdir: "Mən Peyğəmbəri ﷺ Məkkədə Əbtəh deyilən yerdə dəridən olan qırmızı çadırda gördüm. Bu vaxt Bilal Peyğəmbərin ﷺ dəstəmaz suyu ilə bayıra çıxdı. *Səhabələrdən* kimisi *bu sudan əldə etməyə* nail oldu, kimisi də *su əldə edə bilmədiyindən,* əllərini *yoldaşlarının yaş əllərinə vurmaqla* islatdılar. *Bundan sonra* Peyğəmbər ﷺ əynində qırmızı libas *çadırdan* çıxdı. Onun baldırlarının ağlığı hələ də gözümün önündədir. *Peyğəmbər* ﷺ dəstəmaz aldıqdan sonra Bilal azan verdi. Bilal o yana-bu yana – sağa və sola dönərək azan verir, "hayyə aləs-saləh, hayyə aləl-fələh" deyir, mən də onun ağzından çıxan sözləri təqib edirdim. Sonra Peyğəmbər ﷺ üçün yerə balaca bir nizə sancıldı və o, qabağa keçib namaz qıldırdı. Onun qarşısından[1] it və uzunqulaq keçər, heç kəs də bunun qarşısını almazdı".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] Yəni, sütrənin o tərəfindən.

[2] "Səhih əl-Buxari", 376; "Səhih Muslim", 503.

Hədisin ərəbcəsində keçən "anəzə" kəlməsi "nizə" mənasındadır.

٧٨٣ – وَعَنْ أَبِي رِمْثَةَ رِفَاعَةَ التَّيْمِيِّ رضي الله عنه قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ وَعَلَيْهِ ثَوْبَانِ أَخْضَرَانِ. رواهُ أَبو داود، والترمذي بإِسْنَادٍ صحيحٍ.

783. Rəvayət edilir ki, Əbu Rimsə Rifaə ət-Teymi رضي الله عنه demişdir: "Mən Rəsulullahı ﷺ, əynində iki yaşıl göynək olduğu halda gördüm".

Bu hədisi Əbu Davud və Tirmizi səhih isnadla rəvayət etmişlər.[1]

٧٨٤ – وَعَنْ جَابِرٍ رضي الله عنه أَنَّ رَسُولَ اللَّهِ ﷺ دَخَلَ يَوْمَ فَتْحِ مَكَّةَ وَعَلَيْهِ عِمَامَةٌ سَوْدَاءُ. رواهُ مسلم.

784. Cabir رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ Məkkənin fəthi günü *Məkkəyə* daxil olduqda, başında qara əmmamə var idi".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Müəllif رحمه الله bu hədisləri "Salehlər bağçası" adlı əsərinin "Libas" kitabında zikr etmişdir. Bu *fəsildə zikr olunan* hədislərlə bağlı bəzi məsələləri bir qədər əvvəldə qeyd etmişdik. Burada isə Əbu Cuheyfə Vəhb ibn Abdullah əs-Səvainin رضي الله عنه hədisi zikr olunmuşdur. Hədisdə deyilir ki, o, Peyğəmbəri ﷺ dəridən olan qırmızı bir çadırda görüb.

Bu, Vida həccində, Əbtəh deyilən yerdə baş vermişdir. Belə ki, Peyğəmbər ﷺ Vida həcci üçün hicrətin onuncu ili, Zilhiccə ayının dördü, bazar günü səhər-səhər Məkkəyə daxil olduqda, öncə Məscidülharama gedib təvaf və səyi yerinə yetirmiş, daha sonra Əbtəh deyilən yerə getmişdir. Zilhiccə ayının səkkizinə qədər də elə orada, onun üçün qurulmuş çadırda qalmışdır.

Vəhb ibn Abdullah رضي الله عنه deyir: "*Bundan sonra* Peyğəmbər ﷺ *çadırdan* çıxdı". Yəni, günəş batmağa meyl etdiyi vaxt *çadırdan* bayıra çıxdı.

---

[1] "Sunən Əbu Davud", 4065; "Sunən ət-Tirmizi", 2812.

[2] "Səhih Muslim", 1358.

"*Bundan sonra* Peyğəmbər ﷺ əynində qırmızı libas *çadırdan* çıxdı. Onun baldırlarının ağlığı hələ də gözümün önündədir". Bu qırmızı libas xalis qırmızı deyildi. Sadəcə olaraq, onun *çoxluq təşkil edən* əsas xətləri və naxışları qara və ya yaşıl deyil, məhz qırmızı rəngdə idi. Çünki sırf qırmızı geyinməyin Peyğəmbər ﷺ tərəfindən qadağan olunması sabit olmuşdur. Ona görə də bu hədisdə qırmızı libas deyildikdə, ana xətləri və naxışları qırmızı olan libas qəsd edilir.

Daha sonra Bilal رضي الله عنه Peyğəmbərin ﷺ dəstəmaz suyu ilə, yəni dəstəmaz aldıqdan sonra artıq qalmış suyu ilə bayıra çıxdı. *Səhabələrdən* kimisi *bu sudan əldə etməyə* nail oldu, kimisi də *su əldə edə bilmədiyindən* əllərini *yoldaşlarının yaş əllərinə vurmaqla* islatdılar. Yəni kimisi çox, kimisi də az suya nail oldu. Onların məqsədi isə Peyğəmbərin ﷺ dəstəmazdan artıq qalan suyu ilə təbərrük etmək idi. *Bundan sonra* Peyğəmbər ﷺ çadırdan çıxdı və *bu əsnada* Bilal azan verməyə başladı. Sonra Peyğəmbər ﷺ üçün yerə balaca bir nizə sancıldı. Nizə, bir ucuna şiş və iti dəmir parçası keçirilmiş uzun ağacdır. Peyğəmbər ﷺ səfərə çıxdıqda bu nizəni özü ilə götürərdi. Nizə yerə sancıldı ki, Peyğəmbər ﷺ namazı ona doğru qılsın. Çünki səfərdə olan insan *namaz qılmaq istədikdə, qabağından kimlərinsə keçə biləcəyini güman edərsə,* mütləq *qarşısına* torpağa sanca biləcəyi əsa və ya buna bənzər dik olan bir şey qoyub ona doğru namaz qılmalıdır.

Vəhb ibn Abdullah رضي الله عنه deyir: "Sonra Peyğəmbər ﷺ qabağa keçib zöhr namazını iki rükət qıldırdı. Daha sonra da əsr namazını iki rükət qıldırdı". Bu da müsafirin qərar tutduğu yer olsa belə, namazlarını cəm etməsinin caiz olmasına dəlalət edir. Lakin əfzəl olan odur ki, ehtiyac olmadıqca cəm etməsin. Məsələn, müsafir olan bir şəxs hələ yol gedir, yaxud artıq bir yerdə qərar tutub, lakin dincəlməyə ehtiyacı var. Belə olan halda o, namazlarını cəm təqdim[1] və ya cəm təxir[2] etməklə birləşdirib qıla bilər. Lakin bir yerdə qərarlaşan müsafirin namazları birləşdirməməsi daha əfzəldir.

---

[1] Yəni, əsr namazını qabağa çəkib zöhrün vaxtında, işa namazını da qabağa çəkib məğribin vaxtında qılmaq.

[2] Yəni, zöhr namazını təxirə salıb əsrin vaxtında, məğrib namazını da təxirə salıb işanın vaxtında qılmaq.

Bundan sonra Əbu Cuheyfə Vəhb ibn Abdullah ﵁ Bilalın ﵁ necə azan verdiyini zikr etmiş və belə demişdir: "Bilal o yana-bu yana – sağa və sola dönərək azan verir, "hayyə aləs-saləh, hayyə aləl-fələh" deyir, mən də onun ağzından çıxan sözləri təqib edirdim".

Alimlər bu məsələdə ixtilaf etmişlər: görəsən müəzzin sağa dönərək "hayyə aləs-saləh", sonra sola dönərək "hayyə aləs-saləh" deyir, sonra yenə sağa dönərək "hayyə aləl-fələh", sonra da sola dönərək "hayyə aləl-fələh" deyir, yoxsa "hayyə aləs-saləh" kəlməsinin hər ikisini sağa, "hayyə aləl-fələh" kəlməsinin də hər ikisini sola deyir? Bu məsələdə seçim geniş-dir – hansı şəkildə olursa-olsun, ikisi də doğru və yerindədir, habelə, heç birində qəbahət yoxdur.

Bu hədisin ardından müəllif ﵀ daha iki hədis zikr etmişdir. Birinci hədisdə Peyğəmbərin ﷺ əynində yaşıl köynəyin olduğu, ikinci hədisdə isə başında qara əmmamənin olduğu deyilir. Bu da yaşıl və qara paltar geyinməyin caiz olmasına dəlildir. Daha doğrusunu isə Allah bilir.

٧٨٥ – وَعَنْ أَبِي سَعِيدٍ عَمْرِو بْنِ حُرَيْثٍ ﵁ قَالَ: كَأَنِي أَنْظُرُ إِلَى رَسُولِ اللَّهِ ﷺ وَعَلَيْهِ عِمَامَةٌ سَوْدَاءُ قَدْ أَرْخَى طَرَفَيْهَا بَيْنَ كَتِفَيْهِ. رواه مسلم.

وفي روايةٍ له: أَنَّ رَسُولَ اللَّهِ ﷺ خَطَبَ النَّاسَ، وَعَلَيْهِ عِمَامَة سَوْدَاءُ.

785. Rəvayət edilir ki, Əbu Səid Amr ibn Hureys ﵁ demişdir: "Rəsulullahın ﷺ başına qara əmmamə geyinib uclarını da iki çiyni arasına atdığı halı hələ də gözümün önündədir".

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Muslimin digər rəvayətində isə belə deyilir: "Rəsulullah ﷺ camaata xütbə verərkən başında qara əmmamə vardı".

٧٨٦ – وَعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: كُفِّنَ رَسُولُ اللَّهِ ﷺ فِي ثَلَاثَةِ أَثْوَابٍ بِيْضٍ سَحُولِيَّةٍ مِنْ كُرْسُفٍ، لَيْسَ فِيْهَا قَمِيصٌ وَلَا عِمَامَةٌ. متفقٌ عليه.

« السَّحُولِيَّةُ » بفتحِ السين وضمها وضم الحاء المهملتين: ثيابٌ تُنْسَب إِلى سَحُولٍ: قَرْيَةٍ باليَمنِ « وَالكُرْسُف »: القُطْن.

[1] "Səhih Muslim", 1359.

786. Rəvayət edilir ki, Aişə ﵂ demişdir: "Rəsulullahı ﷺ pambıqdan hazırlanmış üç ədəd ağappaq Səhuliyyə bezi ilə kəfənlədilər. Bunların arasında nə köynək, nə də əmmamə var idi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Səhuliyyə, Yəmənin Səhul kəndində hazırlandığına görə ora nisbət edilən köynək növüdür. Hədisdə keçən "kursuf" kəlməsi isə, "pambıq" deməkdir.

٧٨٧ – وَعَنْهَا قَالَتْ: خَرَجَ رَسُولُ اللَّهِ ﷺ ذَاتَ غَدَاةٍ وَعَلَيْهِ مِرْطٌ مُرَحَّلٌ مِنْ شَعْرٍ أَسْوَدَ. رواه مسلم.

« المِرْط » بكسر الميم: وهو كساءَ. « والمُرَحَّل » بالْحاءِ المهملة: هو الذي فيه صورةُ رِحال الإبل، وَهِيَ الأَكْوَارُ.

787. Yenə rəvayət edilir ki, Aişə ﵂ demişdir: "Bir dəfə Rəsulullah ﷺ səhər-səhər üzərində dəvə yəhərinin rəsmləri olan, qara tükdən toxunmuş bir örtüklə bayıra çıxdı".

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

Hədisin ərəbcəsində keçən "mirtun" kəlməsi "örtük", "murahhəl" kəlməsi isə, üzərində dəvə yəhərinin, yəni kəcavəsinin şəkilləri olan *paltar* mənasındadır.

٧٨٨ – وَعَنْ الْمُغِيرَةِ بْنِ شُعْبَةَ ﵁ قَالَ: كُنْتُ مَعَ رَسُولِ اللَّهِ ﷺ ذَاتَ لَيْلَةٍ فِي مَسِيرٍ، فَقَالَ لِي: « أَمَعَكَ مَاءٌ؟ » قُلْتُ: نَعَمْ، فَنَزَلَ عَنْ رَاحِلَتِهِ فَمَشَى حَتَّى تَوَارَى فِي سَوَادِ اللَّيْلِ ثُمَّ جَاءَ فَأَفْرَغْتُ عَلَيْهِ مِنَ الإِدَاوَةِ، فَغَسَلَ وَجْهَهُ وَعَلَيْهِ جُبَّةٌ مِنْ صُوفٍ، فَلَمْ يَسْتَطِعْ أَنْ يُخْرِجَ ذِرَاعَيْهِ مِنْهَا حَتَّى أَخْرَجَهُمَا مِنْ أَسْفَلِ الجُبَّةِ، فَغَسَلَ ذِرَاعَيْهِ وَمَسَحَ بِرَأْسِهِ ثُمَّ أَهْوَيْتُ لِأَنْزِعَ خُفَّيْهِ فَقَالَ: « دَعْهُمَا فَإِنِّي أَدْخَلْتُهُمَا طَاهِرَتَيْنِ » وَمَسَحَ عَلَيْهِمَا. متفقٌ عليه.

وفي روايةٍ: وَعَلَيْهِ جُبَّةٌ شَامِيَّةٌ ضَيِّقَةُ الْكُمَّيْنِ.

وفي روايةٍ: أَنَّ هَذِهِ القِصَّةَ كَانَتْ فِي غَزْوَةِ تَبُوكَ.

---

[1] "Səhih əl-Buxari", 2464; "Səhih Muslim", 941.

[2] "Səhih Muslim", 2081.

788. Rəvayət edilir ki, Muğira ibn Şöbə ﷺ demişdir: "Bir gecə mən Rəsulullahla ﷺ birlikdə səfərdə olarkən məndən: **"Yanında su varmı?"**– deyə soruşdu. Mən də: "Bəli"– deyə cavab verdim. Onda *Peyğəmbər* ﷺ dəvəsindən endi və gecənin qaranlığında gözdən itənə qədər getdi. *Bir az* sonra o, geri qayıtdı və mən su qabından *onun əllərinə* su tökdüm. *Peyğəmbər* ﷺ üzünü yudu. Bu vaxt onun əynində yundan bir cübbə var idi. *Cübbənin qolları dar olduğundan* o, qollarını çırmalaya bilmədi. Bu səbəbdən də qollarını cübbənin aşağı tərəfindən çıxardıb yudu və başına məsh etdi. Bu vaxt mən əyilib onun məstlərini çıxarmaq istədikdə: **"Toxunma onlara, mən onları *ayaqlarım* pak olduğu halda geyindim"**– dedi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Digər rəvayətdə isə belə deyilir: "Onun əynində qolları dar olan Şam cübbəsi var idi".

Başqa bir rəvayətdə isə bu hadisənin Təbuk döyüşündə baş verdiyi bildirilir.

Şərh:

Nəvəvinin ﷺ "Libas" kitabında zikr etdiyi bütün bu hədislər, daha öncə də qeyd etdiyimiz kimi, insanın ağ, qara, yaşıl, sarı və xalis olmayan qırmızı kimi ürəyi istəyən hər rəng paltar geyinməsinin caiz olduğunu göstərir. Xalis qırmızı rəngli paltarı isə Peyğəmbər ﷺ qadağan etmişdir. Odur ki, başqa bir rənglə qarışığı olmadıqca, xalis qırmızı paltarı geyinmək olmaz.

Amr ibn Hureysin ﷺ rəvayət etdiyi hədisdə deyilir ki, o, Peyğəmbəri ﷺ başında qara əmmamə olduğu halda görmüşdür. Əvvəlki hədislərdə də keçmişdir ki, Peyğəmbər ﷺ Məkkəyə daxil olarkən başında qara əmmamə olmuşdur. Demək, bu hədis qara rəng əmmamə geyinməyin caiz olmasına dəlalət edir. Həmçinin, naxışları qara, yaşıl, yaxud qırmızı olan istənilən baş örtüyü qoymaq da icazəlidir.

Bu hədis həm də əmmamə qoyağın caiz olmasına dəlalət edir. Əmmamə qoyan zaman Peyğəmbərin ﷺ etdiyi kimi ona zülf düzəltmək, yəni onun sarığının uclarını bir az uzun saxlayıb arxa tərəfə atmaq daha əfzəldir.

---

[1] "Səhih əl-Buxari", 5799; "Səhih Muslim", 274.

Zülfü olmayan, yəni sarığı sallanmayan əmmaməyə "Kor əmmamə" deyilir. Çünki onun sallanan tərəfləri olmur. Lakin hər ikisini geyinmək caizdir. Həmçinin, daha doğru rəyə görə, hər ikisinin üzərinə məsh etmək də icazəlidir.

Aişənin ﵂ hədisinə gəlincə, həmin hədisdə deyilir ki, Rəsulullahı ﷺ pambıqdan hazırlanmış üç ədəd ağappaq Səhuliyyə bezi ilə kəfənlədilər. Bunların arasında nə köynək, nə də əmmamə var idi. Bu hədis dəlildir ki, ölüləri ağ parça ilə kəfənləmək daha fəzilətlidir. Əlbəttə ki, ağ kəfən tapmaq asan olarsa. Yox, əgər ağ kəfən tapmaq çətindirsə, o halda eynilə diri insanda olduğu kimi, xalis qırmızı istisna olmaqla, ölünü istənilən rəngdə parça ilə kəfənləmək olar.

Aişənin ﵂ bu hədisi həm də ona dəlalət edir ki, *ölünü kəfənləyən zaman* onun üzərində nə köynək, nə də əmmamə olmamalıdır. Sadəcə üst-üstə pambıq parçalar qoyulur, sonra ölü onun üzərinə qoyulub kəfənlənir. Ölü *növbə ilə* əvvəlcə üstdəki, sonra ortadakı, daha sonra da altdakı parçaya bükülür. Bundan sonra isə baş və ayaq tərəflərindən bükülüb bağlanır. Ölü qəbirə qoyulana qədər başına və ayaqlarına yaxın olan yerdən, yəni iki yerdən iplə bağlanır. Qəbirə qoyulduqda isə bütün iplər açılır. Çünki cəsəd bir müddət sonra şişməyə başlayır və bu zaman iplər bağlı olarsa, o, partlaya bilər. Bu səbəbdən də iplər açılır ki, ölü şişən zaman partlamasın. Uca Allah həm bizə, həm də sizə gözəl sonluq nəsib etsin.

Muğira ibn Şöbənin ﵁ rəvayət etdiyi hədisdə isə deyilir ki, Peyğəmbər ﷺ Təbuk döyüşü *üçün çıxdığı səfər əsnasında* dəvəsindən endi və su qabını götürüb gecənin qaranlığında itənə qədər uzaqlaşdı. Peyğəmbər ﷺ insanların ən həyalısı idi. Hətta övrət yerləri görünməsə belə, oturub təbii ehtiyacını rəf etdiyi yerdə bir kimsənin onu görməsini istəmirdi. Bu isə, yəni təbii ehtiyacını rəf etmək istədiyin zaman gözdən itənə qədər insanlardan uzaqlaşmaq əxlaqın ən yüksək mərtəbəsidir. Məsələ insanların sənin övrət yerini görüb-görməməsində deyil. Belə ki, övrət yerlərinin örtülməsi hər bir halda vacibdir və insanların önündə açılması caiz deyildir. Lakin bu məsələ bundan da üstün olan bir məsələdir. Yəni, ən əfzəl olan odur ki, təbii ehtiyacını rəf etdiyini belə heç kim görməsin. Peyğəmbərin ﷺ tutduğu yol budur. Çünki yolların ən mükəmməli onun tutduğu yoldur.

Bundan sonra Peyğəmbər ﷺ dəstəmaz almaq istədi. Bu zaman onun əynində qolları dar olan yun cübbə var idi. Peyğəmbər ﷺ yun cübbəni hava soyuq olduğu üçün geyinmişdi. Çünki Təbuk Şama yaxındır. Şam tərəflər isə soyuq olur. Ona görə də Peyğəmbərin ﷺ əynində cübbə var idi. Xülasə, Peyğəmbər ﷺ dəstəmaz almağa başlayır və üzünü yuyur. Sonra qollarını yumaq üçün cübbənin qollarını çırmalamaq istəyir. Lakin cübbə çox dar olduğundan bunu edə bilmir və əllərini cübbənin içinə tərəf çəkərək onun aşağısından çıxardıb yuyur.

Ayaqları yumağın növbəsi gəldikdə, Muğira ibn Şöbə رضي الله عنه əyilib Peyğəmbərin ﷺ məstlərini çıxarmaq istədi. O, gördü ki, cübbənin qolları nə qədər dar olsa da, Rəsulullah ﷺ qollarına məsh etmədi, əksinə, onları cübbənin aşağısından çıxarıb yudu. Ona görə də Muğira ibn Şöbə رضي الله عنه qiyas edərək elə düşündü ki, məstlər də onun kimidir – onları çıxarıb ayaqları mütləq yumaq lazımdır. Lakin Peyğəmbər ﷺ ona belə dedi: **"Toxunma onlara, mən onları *ayaqlarım* pak olduğu halda geyindim".** Yəni, mən onları dəstəmaz alıb ayaqlarımı yuduqdan sonra geyinmişəm. Bundan sonra Peyğəmbər ﷺ məstlərinə məsh çəkdi.

Bu hədisdə bir çox faydalar vardır:

1. Peyğəmbər ﷺ də digər insanlar kimi, bir bəşərdir. Bütün insanların məruz qaldıqları təbii təsirlərə o da məruz qalırdı – insanlar üşüdüyü kimi o da üşüyər, habelə, onlar istiləndiyi kimi, o da istilənərdi. Ona görə də bir dəfə Müaviyə رضي الله عنه Peyğəmbəri ﷺ köynəyinin düymələrini açmış bir halda gördükdə elə düşünmüşdür ki, belə etmək sünnədir. Halbuki, Peyğəmbər ﷺ köynəyinin düymələrini istiləndiyi üçün açmışdır. Daha doğrusunu isə Allah bilir. Deməli, bu, mütləq sünnələrdən deyildir. Lakin bədən rahatlıq tapacaqsa, o halda düymələri açmaq sünnəyə uyğundur. Çünki bədənə rahatlıq verən hər bir şey xeyirlidir.

Əgər bir insan istilənər və buna görə köynəyinin yuxarı düymələrini açmaq istəyərsə, bu eyb etməz, əksinə, belə etmək sünnəyə uyğun sayılar. Lakin səbəbsiz yerə açmaq sünnəyə uyğun deyildir. Çünki düymələri açmaq sünnə olsaydı, onda köynəyə düymələr qoymaq boş və faydasız bir şey sayılardı. İslam dinində isə boş və faydasız şeylər yoxdur.

2. İnsanın, isti və soyuq kimi, əziyyət verən amillərdən özünü qorumasında qəbahət yoxdur. Çünki Peyğəmbər ﷺ də belə etmişdir. Həm də insanın, əziyyət verən şeylərdən özünü qoruması daha əfzəldir. Çünki belə etmək, bədənə göstərilən qayğının ən yüksək mərtəbələrindən sayılır. Hətta İbn Teymiyyə ﷺ bu barədə belə demişdir: "Əgər yeyəcəyin bir şeyin sənə əziyyət verməsindən qorxsan, onda bu yemək sənə haram sayılar". Yəni, bədən üçün qida sayılan yeməyi həddən ziyadə yeməklə və ya tez-tez, ara vermədən yeməklə onun sənə əziyyət verəcəyindən qorxsan, onda bu yeməyi yemək sənə haram sayılar. Yəni, həmin yeməyi yesən günah qazanarsan. Çünki insanın öz bədəninə layiqincə qulluq etməsi vacibdir.

3. Xuflar və əmmamə istisna olmaqla, heç bir şeyin üzərinə məsh etmək caiz deyildir. Əgər bir insanın əynində qolları dar olan köynək varsa və *dəstəmaz alarkən bu köynəyin* qollarını çırmalamaq onun üçün çətindirsə, bu zaman həmin adamın: "Xuflara məsh etdiyim kimi, köynəyin qollarına da məsh edim" deməsi caiz deyildir. Bu adam mütləq qollarını köynəkdən çıxardıb yumalıdır. Hətta qollarını köynəkdən çıxartmaq üçün köynəyin qollarını kəsməkdən başqa bir çarəsi qalmasa belə, *yenə də* Allahın fərz buyurduğu əməli yerinə yetirmək üçün bu köynəyin qollarını mütləq kəsməli və qollarını yumalıdır. Çünki uca Allah qolları yumağı fərz etmişdir: **"Ey iman gətirənlər! Namaza qalxdığınız zaman üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun...".**[1]

3. Bu hədis bəzi avamların iddialarının xəta olduğunu açıqlayır. Belə ki, onlar elə güman edirlər ki, qadınların dırnaqlarına çəkdikləri laklar da xufların hökmündədir. Yəni, qadınlar dırnaqlarına lakı təharətli olduqları halda çəkərlərsə, onda bir sutka ərzində onunla dəstəmaz ala bilərlər. Bu doğru deyildir, yəni xətadır. Dəstəmaz alarkən dırnaqlarda olan laklar mütləq qaşınıb təmizlənməlidir ki, dəstəmaz suyu dırnaqlara və onun kənarlarına qədər çatsın.

4. Bu hədisdən çıxan faydalardan biri də azad olan (kölə olmayan) insanların xidmətçi kimi işlədilməsinin caiz olmasıdır. Çünki Muğira رضي الله عنه Peyğəmbərə ﷺ xidmət edirdi. Şübhə yoxdur ki, Rəsulullaha ﷺ xidmət etmək bir şərəfdir. Hər bir səhabə də Peyğəmbərin ﷺ xidmətində durması

[1] "əl-Maidə" surəsi, 6.

ilə fəxr edirdi. Həm də Peyğəmbərin ﷺ Abdullah ibn Məsud رضي الله عنه, Ənəs ibn Malik رضي الله عنه və başqa bu kimi azad insanlardan olan xidmətçiləri var idi.

5. Dəstəmaz almaq istəyən insana dəstəmaz almaqda kömək etməyin caiz olması. Yəni, onun əlinə su tökmək, su qabını onun yanına gətirmək və sairə bu kimi işlərdə ona kömək edirsən. Həmçinin, bir adam dəstəmaz əzalarını özü yuya bilmirsə, onları sən yu. Fərz edək ki, bir adamın əli şikəst olub, yaxud sınıb və ya buna bənzər bir şey baş verib, onda başqasının həmin adamın dəstəmaz əzalarını yumasında heç bir problem yoxdur.

6. Əgər bir insan xuflarını və ya corablarını təharətli halda geyinibsə, onların üzərinə məsh çəkir. Çünki məsh çəkmək yumaqdan daha fəzilətlidir. Yəni, bir adam dəstəmaz alıb ayaqlarını yuduqdan sonra təharətli halda xuflarını və ya corablarını ayaqlarına geyinibsə, onda *növbəti dəstəmaz zamanı* onları çıxarıb ayaqlarını yumaqdansa, üzərlərinə məsh çəkməsi daha fəzilətlidir. Çünki Rəsulullah ﷺ Muğiraya رضي الله عنه: **"Toxunma onlara, mən onları *ayaqlarım* pak olduğu halda geyindim"**– demiş, sonra da onların üzərinə məsh çəkmişdir.

8. Bəzi alimlərin rəyinə görə, məsh hər iki xufun üzərinə eyni anda olmaqla, bir dəfə çəkilir. Belə ki, Muğira رضي الله عنه Peyğəmbərin ﷺ öncə sağ, sonra sol ayağına məsh etdiyini zikr etməmişdir. Həmin alimlər də bundan nəticə çıxarmışlar ki, xufların üzərinə məsh etmək iki əllə olur və hər iki xufa eyni anda olmaqla, bir dəfə məsh çəkilir. Lakin bir adamın həm belə, həm də əvvəlcə sağ, sonra da sol ayağına məsh etməsində heç bir problem yoxdur. Çünki məsh yumağı əvəz edir. Ayaqları yuduqda isə əvvəlcə sağ, sonra da sol ayaq yuyulur. Əvəz edən də əvəz olunanın hökmündə olur. Demək, bir insanın həm elə, həm də belə etməsində qəbahət yoxdur. Bu məsələdə seçim genişdir.

9. Bu hədisdən çıxan digər fayda da odur ki, xufların və ya corabların üzərinə məsh etmək üçün onların *ayaqları yuduqdan sonra* təharətli halda geyinilməsi şərtdir. Əgər onlar təharətli halda geyinilməzsə, dəstəmaz alan zaman onları çıxarıb ayaqları yumaq vacibdir. Müvəffəq edən Allahdır.

Yüz on səkkizinci fəsil

Köynək geyinməyin müstəhəb olması

Mövzu ilə əlaqəli hədis:

٧٨٩ – عَنْ أُمِّ سَلَمَةَ ﵂ قَالَتْ: كَانَ أَحَبَّ الثِّيَابِ إِلَى رَسُولِ اللَّهِ ﷺ القَمِيصُ. رواه أبو داود، والترمذي وقال: حديث حسن.

789. Rəvayət edilir ki, Ummu Sələmə ﵂ demişdir: "Rəsulullahın ﷺ ən çox sevdiyi paltar köynək idi".

Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, "həsən" hədisdir"– demişdir.[1]

Şərh:

Nəvəvinin ﵀ "Salehlər bağçası" adlı əsərinin **"Libas kitabı"** bölümündə zikr etdiyi bu hədis onu göstərir ki, Peyğəmbərin ﷺ ən çox sevdiyi paltar köynək olub. Çünki izara və ridaya nisbətdə köynək bədəni daha yaxşı örtür. Peyğəmbərin ﷺ zamanında insanlar hərdən izar və rida, hərdən də *bu ikisini əvəz edən uzun* köynək geyinərdilər. Amma Peyğəmbər ﷺ köynək geyinməyi xoşlayardı. Çünki köynək həm bədəni tam olaraq örtür, həm də bütöv bir parçadan olduğu üçün, adam onu bir dəfəyə geyinir. Eyni zamanda, köynəyi geyinmək həm izarı, həm də ridanı geyinməkdən daha asandır.

Bununla belə, əgər yaşadığın ölkənin insanları izar və rida geyinirlərsə, onda sənin də onlar kimi geyinməyində heç bir qəbahət yoxdur. Əsas odur ki, yaşadığın ölkədəki insanların geyimlərinə müxalif olmaqla şöhrətlənməyəsən. Çünki Peyğəmbər ﷺ *insanın barmaqla göstərilməsinə səbəb olan hər növ* şöhrət libaslarını qadağan etmişdir.

---

[1] "Sunən Əbu Davud", 4025; "Sunən ət-Tirmizi", 1762; "Səhih ət-Tərğib vət-Tərhib", 2028.

Yüz on doqquzuncu fəsil

Köynəyin, onun qollarının, izarın və əmmamə sarığının uclarının uzunluğunun nə qədər olması, bunları təkəbbürlükdən dolayı topuqdan aşağı uzatmağın haram, başqa səbəbdən dolayı uzatmağın isə məkruh olması

Mövzu ilə əlaqəli hədislər:

٧٩٠ – عَنْ أَسْمَاءَ بِنْتِ يَزِيدَ الأَنْصَارِيَّةِ ﵂ قَالَتْ: كَانَ كُمُّ قَمِيصِ رَسُولِ اللَّهِ ﷺ إِلَى الرُّسُغِ. رواه أبو داود، والترمذي وقال: حديث حسن .

790. Əsma bint Yezid əl-Ənsari ﵂ demişdir: "Rəsulullahın ﷺ köynəyinin qolu bilək oynağına qədər idi".

Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, "həsən" hədisdir"– demişdir.[1]

٧٩١ – وَعَنْ ابْنِ عُمَرَ ﵄ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: « مَنْ جَرَّ ثَوْبَهُ خُيَلَاءَ لَمْ يَنْظُرِ اللَّهُ إِلَيْهِ يَوْمَ القِيَامَةِ » فَقَالَ أَبُو بَكْرٍ: يَارَسُولَ اللَّهِ إِنَّ إِزَارِي يَسْتَرْخِي إِلَّا أَنْ أَتَعَاهَدَهُ، فَقَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ: « إِنَّكَ لَسْتَ مِمَّنْ يَفْعَلُهُ خُيَلَاءَ ». رواه البخاري، وروى مسلم بعضه.

791. Abdullah ibn Ömər ﵄ rəvayət edir ki, *bir dəfə* Peyğəmbər ﷺ: **"Kim təkəbbürlüyündən paltarının ətəyini yerlə sürüyərsə, Qiyamət günü Allah onun üzünə baxmaz"**– deyə buyurdu. *Bunu eşidəndə* Əbu Bəkr ﵁ dedi: "Ey Allahın elçisi, mən fikir vermədikdə mənim də paltarımın ətəyi yerlə sürünür". Peyğəmbər ﷺ buyurdu: **"Axı sən bunu təkəbbürlüyündən dolayı edənlərdən deyilsən".**

Bu hədisi Buxari rəvayət etmişdir. Muslimdə isə bu hədisin bəzi yerləri rəvayət olunur.[2]

---

[1] "Sunən Əbu Davud", 4027; "Sunən ət-Tirmizi", 1765; "Daif əl-Cami", 4479.

[2] "Səhih əl-Buxari", 3665; "Səhih Muslim", 2085.

٧٩٢ – وَعَنْ أَبِي هُرَيْرَةَ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « لَا يَنْظُرُ اللَّهُ يَوْمَ القِيَامَةِ إِلَى مَنْ جَرَّ إِزَارَهُ بَطَراً » متفقٌ عليه.

792. Əbu Hureyra ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Allah, təkəbbürlükdən dolayı paltarının ətəyini yerlə sürüyən kimsənin üzünə Qiyamət günü baxmayacaqdır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٧٩٣ – وَعَنْهُ عَنِ النَّبِيِّ ﷺ قَالَ: « مَا أَسْفَلَ مِنَ الْكَعْبَيْنِ مِنَ الإِزَارِ فَفِي النَّارِ » رواه البخاري.

793. Yenə Əbu Hureyra ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Paltarın topuqdan aşağı düşən hissəsi Cəhənnəm odundadır".**

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

٧٩٤ – وَعَنْ أَبِي ذَرٍّ ﷺ عَنِ النَّبِيِّ ﷺ قَالَ: « ثَلَاثَةٌ لَا يُكَلِّمُهُمُ اللَّهُ يَوْمَ القِيَامَةِ، وَلَا يَنْظُرُ إِلَيْهِمْ، وَلَا يُزَكِّيهِمْ، وَلَهُمْ عَذَابٌ أَلِيمٌ » قَالَ: فَقَرَأَهَا رَسُولُ اللَّهِ ﷺ ثَلَاثَ مِرَارٍ. قَالَ أَبُو ذَرٍّ: خَابُوا وَخَسِرُوا مَنْ هُمْ يَا رَسُولَ اللَّهِ؟ قَالَ: « المُسْبِلُ، وَالمَنَّانُ وَالمُنْفِقُ سِلْعَتَهُ بِالحَلِفِ الكَاذِبِ » رواه مسلم.

وفي روايةٍ له: « المُسْبِلُ إِزَارَهُ ».

794. Əbu Zərr ﷺ rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Üç sinif insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Üstəlik, onları ağrılı-acılı bir əzab gözləyir".** Əbu Zərr ﷺ dedi: "Peyğəmbər ﷺ *buna dəlalət edən* ayəni[3] üç dəfə oxudu. Mən dedim: "Onların ümidləri boşa çıxdı,

---

[1] "Səhih əl-Buxari", 5788; "Səhih Muslim", 2087.

[2] "Səhih əl-Buxari", 5787.

[3] **"Allah ilə olan əhdlərini və andlarını ucuz qiymətə satan kimsələrə gəlincə, onlara Axirətdə heç bir pay yoxdur. Allah onları danışdırmayacaq, Qiyamət günü onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Onlar üçün ağrılı-acılı bir əzab vardır".** ("Ali-İmran", surəsi, 77).

özləri də ziyana uğradılar. Kimlərdir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: **"*Libasının* ətəyini topuqdan aşağı uzadan, *etdiyi yaxşılıqları* başa qaxan və yalandan and içməklə malını sırıyan kimsələr".**

Bu hədisi Muslim rəvayət etmişdir.[1]

Muslimin digər rəvayətində: **"İzarının ətəyini topuqdan aşağı uzadan"** deyilir.

٧٩٥ – وَعَنْ ابْنِ عُمَرَ رضي الله عنهما عَنِ النَّبِيِّ ﷺ قَالَ: «الإِسْبَالُ فِي الإِزَارِ، وَالقَمِيصِ، وَالعِمَامَةِ، مَنْ جَرَّ شَيْئًا خُيَلَاءَ لَمْ يَنْظُرِ اللَّهُ إِلَيْهِ يَوْمَ القِيَامَةِ» رواه أبو داود، والنسائى بإسنادٍ صحيح.

795. İbn Ömər رضي الله عنهما rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **"Uzatmaq həm izarda, həm köynəkdə, həm də əmmamədə olur. Hər kim bunlardan birini təkəbbürlükdən dolayı yerlə sürüyərsə, Qiyamət günü Allah onun üzünə baxmayacaqdır".**

Bu hədisi Əbu Davud və Nəsai səhih isnadla rəvayət etmişlər.[2]

Şərh:

İmam Nəvəvinin رحمه الله **"Libas kitabı"** bölümündə zikr etmiş olduğu bu hədislər, köynəyin qolunun bilək oynağına qədər olmasına dəlildir. Əsma bint Yezidin رضي الله عنها rəvayət etdiyi hədisin ərəbcəsində "rusğun" kəlməsi keçir. "Rusğun" bazuönü ilə mil sümüyünü əl tərəfdən birləşdirən oynaqdır. Yəni, bilək oynağıdır. Çünki insanda dirsək, bazuönü, mil və bilək oynağı kimi sümüklər var. Dirsək isə bazu ilə bazuönü arasında olan oynaqdır. Bəzi insanlar bunları qarışıq salır. Ona görə də el arasında sadəlövh insan barəsində məsəl çəkmək istədikdə: "Filankəs mil sümüyü ilə bazuönünü bir-birindən seçə bilmir"– deyirlər. Doğrudan da, bəzi insanlar elə güman edirlər ki, bilək, dəstəmaz alarkən qolların yuyulduğu son nöqtə olan dirsəkdir. Amma əslində belə deyildir. *İnsanın dirsək oynağı ilə biləyi arasında iki sümüyü olur.* Bazuönü, qolun dirsək oynağından çeçələ barmağa qədər olan hissəsi, mil sümüyü isə qolun dirsək oynağından baş barmağa qədər

[1] "Səhih Muslim", 106.

[2] "Sunən Əbu Davud", 4094; "Sunən ən-Nəsai", 5334.

olan hissəsidir. Onların arasında olan hissə isə bilək oynağı adlanır. Peyğəmbərin ﷺ köynəyinin qolu da məhz bilək oynağına qədər olardı.

Sonra müəllif ﷺ paltarın ətəyinin topuqdan aşağı salınmaması haqqında İbn Ömərin رضي الله عنهما və Əbu Hureyranın رضي الله عنه hədislərini zikr etmişdir.

Paltarın ətəyinin topuqdan aşağı olması iki şəkildə olur:

1) paltarın ətəyinin təkəbbürlükdən dolayı yerlə sürünməsi;

2) paltarın ətəyinin təkəbbürlükdən deyil, başqa səbəbdən topuqdan aşağı düşməsi.

Birinci, yəni paltarının ətəyini təkəbbürlükdən dolayı yerlə sürüyən barəsində Peyğəmbər ﷺ dörd cəza zikr etmişdir: Allah Qiyamət günü onu danışdırmayacaq, onun üzünə rəhmət nəzəri ilə baxmayacaq, onu təmizə çıxarmayacaq, üstəlik, onu ağrılı-acılı bir əzab gözləyir. Allahdan salamatlıq diləyirik. Əgər bir insanın paltarı təkəbbürlükdən dolayı yerlə sürünərsə, onu dörd cəza gözləyir.

Əbu Bəkr رضي الله عنه bu deyilənləri eşitdikdə belə dedi: "Ey Allahın elçisi, diqqət yetirmədikdə mənim də paltarımın bir tərəfi yerlə sürünür". Yəni, belə cəza mənə də veriləcəkmi? Peyğəmbər ﷺ buyurdu: **"Axı sən bunu təkəbbürlüyündən dolayı edənlərdən deyilsən".** Peyğəmbər ﷺ bu sözü ilə Əbu Bəkri رضي الله عنه təmizə çıxardı və bildirdi ki, o, bunu təkəbbürlükdən dolayı etmir. Cəza isə bunu təkəbbürlükdən dolayı edənlərə aiddir.

Bunu təkəbbürlükdən dolayı etməyənlərin cəzası isə nisbətən yüngüldür. Çünki Əbu Hureyranın رضي الله عنه hədisində Peyğəmbər ﷺ belə demişdir: **"Paltarın topuqdan aşağı düşən hissəsi Cəhənnəm odundadır".** Peyğəmbər ﷺ bu hədisdə yalnız bir cəza zikr etmişdir. Həm də bu cəza bütün bədən üçün deyil, sadəcə əmrə müxalif olan əza üçün gəlmişdir. Yəni, bu cəza sadəcə topuqdan aşağı hissə üçündür. Əgər bir insanın paltarının və ya paltosunun ətəyi, yaxud şalvarının ayaqları topuqdan aşağı düşərsə, bütün bədən deyil, yalnız topuqdan aşağı düşən hissə qədər Cəhənnəm odunda olacaqdır.

Bədənin sadəcə *şəriət əhkamlarına* müxalif olan bir hissəsinə əzab verilməsi sizə qəribə gəlməsin. Belə ki, Buxari və Muslimin "Səhih" əsərlərində keçən hədisdə deyilir ki, *bir dəfə* Peyğəmbər ﷺ səhabələrin dəstəmaz aldıqları zaman topuqlarını tam olaraq yumadıqlarını gördükdə, onlara uca

səslə səslənib: **"Atəşə girəcək dabanların vay halına!"**[1] – demişdir. Burada da Peyğəmbər ﷺ cəzanın yalnız dabanlar üçün olacağını demişdir. Yəni, cəza sadəcə topuqdan aşağı su dəyməyən hissə üçün olacaqdır. Demək, Cəhənnəm odu ilə veriləcək cəza həm ümumi ola bilər, yəni insanın bədəninin bütün hissəsi odda yana bilər, həm də bədənin sadəcə *şəriət əhkamlarına* müxalif olan bir hissəsi üçün ola bilər. Burada qəribə heç nə yoxdur.

Bununla da imam Nəvəvinin رحمه الله başlıq olaraq dediyi **"Paltarı təkəbbürlükdən dolayı topuqdan aşağı uzatmağın haram, başqa səbəbdən dolayı uzatmağın isə məkruh olması"** sözünün zəif olduğu ortaya çıxır. Səhih olan odur ki, istər təkəbbürlükdən olsun, istərsə də başqa bir səbəbdən, paltarı topuqdan aşağı uzatmaq haramdır. Daha doğrusu isə bu əməlin böyük günahlardan olmasıdır. Çünki uca Allahın, müqabilində xüsusi bir cəza təyin etdiyi bütün günahlar böyük günahlardır. Bu günah üçün də xüsusi bir cəza təyin edilmişdir. Əgər bir adam bunu təkəbbürlükdən dolayı etmirsə, onda cəza olaraq onun üçün Cəhənnəm odu zikr olunur. Təkəbbürlükdən dolayı edən üçün isə dörd cəza sadalanır: Allah Qiyamət günü onu danışdırmayacaq, onun üzünə baxmayacaq, onu təmizə çıxarmayacaq, üstəlik, onu ağrılı-acılı bir əzab gözləyir.

Müəllif رحمه الله ən sonda Əbu Zərin رضي الله عنه hədisini zikr etmişdir. Hədisdə deyilir ki, Peyğəmbər ﷺ demişdir: **"Üç sinif insan vardır ki, Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Üstəlik, onları ağrılı-acılı bir əzab gözləyir".** Əbu Zərr رضي الله عنه deyir ki: "Peyğəmbər ﷺ bunu üç dəfə təkrar etdi. Peyğəmbərin ﷺ belə etməsinin, *yəni bir sözü üç dəfə təkrarlamasının* əsas səbəbi insanların diqqətini cəlb etmək idi. Çünki bir məsələ, *heç bir açıqlama verilmədən* ümumi şəkildə, ələlxüsus da üç dəfə təkrar edilərək deyilərsə, insanların diqqətini daha tez cəlb edər. Yəni, insanlar: "*Görəsən* bu nədir?" deyə böyük bir həvəslə həmin məsələnin təfsilatını və açıqlanmasını tələb edərlər.

Elə bu səbəbdən də Əbu Zərr رضي الله عنه Peyğəmbərə ﷺ dedi: "Onların ümidləri boşa çıxdı, özləri də ziyana uğradılar. Kimlərdir onlar, ya Rəsulullah?" Peyğəmbər ﷺ buyurdu: **"*Libasının* ətəyini topuqdan aşağı uzadan, *etdiyi yaxşılıqları* başa qaxan və yalandan and içməklə malını sırıyan kimsələr".**

[1] "Səhih əl-Buxari", 163; "Səhih Muslim", 241.

Birincisi, *libasının* ətəyini topuqdan aşağı uzadan kimsə, yəni təkəbbürlükdən dolayı paltarının ətəyini yerlə sürüyən kimsə.

İkincisi, *etdiyi yaxşılıqları* başa qaxan kimsə, yəni verdiyi şeyi minnət edib başa qaxan şəxs. Məsələn, birinə bir yaxşılıq etdiyi zaman ona: "Mən sənin üçün filan, filan və filan şeyləri etmişəm"– deyərək bunu onun başına qaxar.

Başa qaxmaq böyük günahlardandır. Çünki bu əməl üçün yuxarıda keçən cəza və təhdid zikr edilmişdir. Eyni zamanda, minnət qoymaq əldə olunan savabları da puç edir. Bu xüsusda uca Allah belə buyurur: **"Ey iman gətirənlər, sədəqələrinizi minnət qoymaqla və əziyyət verməklə puç etməyin!"**[1]

Üçüncüsü, yalandan and içməklə malını sırıyan kimsə. Yəni, yalandan and içməklə malının qiymətini qaldırmağa çalışan şəxs. Məsələn, səkkiz manata aldığı bir şey üçün: "Allaha and olsun ki, bu malı on manata almışam"– deyər. Yaxud "Vallahi ki, bu mala on manat verdilər, vermədim"– deyər. Halbuki, həmin mala səkkiz manatdan çox pul verən olmamışdır. Beləliklə, malını satmaq üçün yalandan and içər. Bu adamlar hədisdə keçən dörd cəzaya layiq olan kimsələrdir. Qiyamət günü Allah onları danışdırmayacaq, onların üzünə baxmayacaq və onları təmizə çıxarmayacaqdır. Üstəlik, onları ağrılı-acılı bir əzab gözləyir. Allah bizləri qorusun. Müvəffəq edən Allahdır.

٧٩٦ – وَعَنْ أَبِي جُرَيٍّ جَابِرِ بْنِ سُلَيمٍ ﷺ قَالَ: رَأَيْتُ رَجُلاً يَصْدُرُ النَّاسُ عَنْ رَأْيِهِ، لاَ يَقُولُ شَيْئاً إِلاَّ صَدَرُوا عَنْهُ، قُلْتُ: مَنْ هَذَا؟ قَالُوا: رَسُولُ اللَّهِ ﷺ. قُلْتُ: عَلَيْكَ السَّلاَمُ يَا رَسُولَ اللَّهِ – مَرَّتَيْنِ – قَالَ: «لَا تَقُلْ عَلَيْكَ السَّلَامُ، عَلَيْكَ السَّلَامُ تَحِيَّةُ المَوْتَى، قُلْ: السَّلَامُ عَلَيْكَ.» قَالَ: قُلْتُ: أَنْتَ رَسُولُ اللَّهِ؟ قَالَ: «أَنَا رَسُولُ اللَّهِ الَّذِي إِذَا أَصَابَكَ ضُرٌّ فَدَعَوْتَهُ كَشَفَهُ عَنْكَ، وَإِذَا أَصَابَكَ عَامُ سَنَةٍ فَدَعَوْتَهُ أَنْبَتَهَا لَكَ، وَإِذَا كُنْتَ بِأَرْضٍ قَفْرٍ أَوْ فَلاَةٍ، فَضَلَّتْ رَاحِلَتُكَ، فَدَعَوْتَهُ رَدَّهَا عَلَيْكَ » قَالَ: قُلْتُ: اِعْهَدْ إِلَيَّ. قَالَ: « لَا تَسُبَّنَّ أَحَداً » قَالَ: فَمَا سَبَبْتُ بَعْدَهُ حُرًّا، وَلَا عَبْداً، وَلَا بَعِيراً، وَلَا شَاةً، « وَلَا تَحْقِرَنَّ مِنَ المَعْرُوفِ شَيْئاً، وَأَنْ تُكَلِّمَ أَخَاكَ وَأَنْتَ مُنْبَسِطٌ إِلَيْهِ وَجْهُكَ، إِنَّ ذَلِكَ مِنَ المَعْرُوفِ. وَارْفَعْ إِزَارَكَ إِلَى نِصْفِ السَّاقِ، فَإِنْ أَبَيْتَ

[1] "əl-Bəqərə" surəsi, 264.

فَـإِلَى الكَعْبَـيْنِ، وَإِيَّـاكَ وَإِسْـبَالَ الإِزَارِ، فَإِنَّهَـا مِـنَ المَخِيْلَـةِ، وَإِنَّ اللَّهَ لَا يُحِـبُّ المَخِيْلَـةَ، وَإِنِ امْـرُؤٌ شَـتَمَكَ وَعَيَّـرَكَ بِمَا يَعْلَمُ فِيْكَ فَلَا تُعَيِّرْهُ بِمَا تَعْلَمُ فِيْهِ، فَإِنَّمَا وَبَالُ ذَلِكَ عَلَيْهِ » رواه أبو داود والترمذي بإسنادٍ صحيحٍ، وقال الترمذي: حديثٌ حسن صحيح.

796. Rəvayət edilir ki, Əbu Curey Cabir ibn Suleym ﷺ demişdir: "Mən bir adam gördüm ki, insanlar onun sözü ilə oturub-dururlar, ağzından bir kəlmə çıxan kimi onu dərhal yerinə yetirirlər. Soruşdum ki: "Bu adam kimdir?" Mənə: "O, Allahın elçisidir ﷺ"– dedilər. Mən ona iki dəfə: "Aleykəssalam, ya Rəsulullah"– dedim. O isə mənə belə buyurdu: **"Aleykəssalam demə! Aleykəssalam ölülərə verilən salamdır. əs-Sələmu aleykə de!"** Mən ondan: "Sən Allahın elçisisənmi?"– deyə soruşdum. O da *cavabında* belə dedi: **"*Bəli*, mən, başına bir bəla gəldiyi zaman dua etdiyində, səndən həmin bəlanı dəf edən, sənə quraqlıq və qıtlıq ili üz verdiyi zaman *yenə* dua etdiyində, sənin üçün məhsullar bitirən, çöl-biyabanda və ya səhrada olduqda *yükün üzərində olan* dəvəni itirdiyin zaman *yenə* dua etdiyində, dəvəni sənə geri qaytaran Allahın elçisiyəm".** Mən ona: "*Elə isə,* mənə nəsihət et!"– dedim. O da mənə: **"Heç kimi söymə!"–** deyə buyurdu. Ondan sonra mən nə bir azad adamı, nə köləni, nə dəvəni, nə qoyunu – *heç bir varlığı* söymədim. Sonra o, belə buyurdu: **"Heç bir yaxşı işi dəyərsiz hesab etmə! Hətta qardaşınla gülərüzlə danışmaq olsa belə. Çünki bunun özü də yaxşılıqdır. İzarını baldırının ortasına qədər qaldır. Əgər belə etmək istəməsən, onda topuqlara qədər olsun. Paltarının ətəyini topuqdan aşağı salmaqdan çəkin. Çünki bu, təkəbbürlükdən sayılır. Allah isə təkəbbürlüyü sevmir. Əgər bir kəs səni söysə və səndə olduğunu bildiyi bir şeydən dolayı səni utandırsa, sən onda olduğunu bildiyin bir şeydən dolayı onu utandırma. Çünki onun bu davranışının günahı özünə aiddir".**

Bu hədisi Əbu Davud və Tirmizi səhih isnadla rəvayət etmiş, Tirmizi: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

Müəllif ﷺ "Salehlər bağçası" adlı əsərinin **"Libas kitabı"** bölümündə izar və ona oxşar geyimlərlə bağlı Cabir ibn Suleymin ﷺ hədisini zikr

[1] "Sunən Əbu Davud", 4084; "Sunən ət-Tirmizi", 2722; "Səhih ət-Tərğib vət-Tərhib", 2782.

etmişdir. Hədisdə deyilir ki, Cabir رضي الله عنه Mədinəyə gəldikdə elə bir adam görür ki, insanlar onun sözü ilə oturub-durur, ağzından bir kəlmə çıxan kimi, onu dərhal yerinə yetirirlər. Yəni, insanlar onun dediyi hər bir sözü qəbul edir, verdiyi hər bir göstərişi də yerinə yetirirdilər. Çünki o, Allahın elçisi idi ﷺ. Bunu görən Cabir onun kim olduğunu soruşdu. Çünki o, *o vaxta qədər* Peyğəmbəri ﷺ tanımırdı. Ona: "O, Allahın elçisidir"– dedilər. Onda Cabir رضي الله عنه Peyğəmbərin ﷺ yanına gəldi və ondan: "*Doğrudanmı* sən Allahın elçisisən?"– deyə soruşdu, o da: **"Bəli"**– deyə cavab verdi.

Amma Cabir ona "aleykəssalam" deyə salam verir. Yəni, cümlənin xəbəri olan "aleykə" kəlməsini önə çəkir. Peyğəmbər ﷺ də ona belə deyir: **"Aleykəssalam demə! Aleykəssalam ölülərə verilən salamdır. əs-Sələmu aleykə de!"** Peyğəmbərin ﷺ: **"Aleykəssalam ölülərə verilən salamdır"** sözünün mənası o deməkdir ki, cahiliyyə dövründə ərəblər ölüləri bu cür salamlayardılar. Bu barədə şair belə demişdir:

"Ey Qeys ibn Amir! Allahın salamı sənin üzərinə olsun!
Rəhməti də rəhmət etmək istədiyi qədər olsun!"

Ərəblər cahiliyyə dönəmində ölüləri salamladıqda "aleykəssalam" deyərdilər. Lakin İslam dini bu cür salam şəklini dəyişdirdi və onun yerinə "əs-Sələmu aleykə" kəlməsini gətirdi. Hətta Peyğəmbər ﷺ qəbiristanlığa gedib ölüləri salamlamaq istədikdə belə, onları bu şəkildə salamlayar və: **"əs-Sələmu aleykum dəra qaumin muminin"**[1] deyərdi. *Yəni, cahiliyyə dönəmindəki kimi*, "aleykəssalam" deməzdi.

Peyğəmbərin ﷺ: **"əs-Sələmu aleykə de!"** kəlməsi dəlildir ki, bir adam sadəcə bir nəfərə salam verdikdə, "əs-Sələmu aleykə" deyir. Namazını düzgün şəkildə əda etməyən adamın hekayəsində də belə keçir. Belə ki, həmin adam Peyğəmbərin ﷺ yanına gəlib ona salam verdikdə, *eynilə* "əs-Sələmu aleykə" deyə tək formada salam vermişdir. Demək, tək adama bu cür salam vermək daha əfzəldir.

Bəzi alimlər deyirlər ki, bir nəfərə salam verdiyin zaman cəm formasından istifadə edərək: "əs-Sələmu aleykum" (Sizə salam olsun!) deməklə həm həmin adamı, həm də onun yanında olan mələkləri qəsd edə bilərsən. Lakin Sünnədə varid olana əməl etmək daha yaxşı və daha üstündür. Yəni,

[1] Sizə salam olsun, ey mömin diyarın sakinləri!

bir nəfərə salam verdiyin zaman: "əs-Sələmu aleykə" deyirsən. Adamların sayı çox olduğu təqdirdə isə, onlara cəm şəklində salam verərək: "əs-Sələmu aleykum" deyirsən.

Daha sonra Peyğəmbər ﷺ Cabir ibn Suleymə başa salır ki, o, aləmlərin Rəbbi olan Allahın elçisidir. O Allah ki, *insanın* sıxıntılarını aradan qaldırır, ona nemətlər bəxş edir, dəvəsini səhrada itirən adam *əllərini qaldırıb* Ona dua etdiyində, dəvəsini ona qaytarır. Peyğəmbər ﷺ Cabirə رضي الله عنه belə deyir: **"Sənə quraqlıq və qıtlıq ili üz verdiyi zaman *yenə* dua etdiyində, sənin üçün məhsullar bitirən..."** Yəni, yerdə sənin üçün *müxtəlif* bitkilər bitirir. Həmçinin, başına bir bəla gəldiyi zaman *əlini açıb* Allaha dua etdiyində, o bəlanı aradan qaldırır. Bu xüsusda uca Allah belə buyurur: **"*Bütlər yaxşıdır*, yoxsa darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən *Allah?!* Heç Allahla yanaşı başqa bir məbudmu var?"**[1]

Peyğəmbər ﷺ Cabirə başa salır ki, izzətli və qüdrətli Allah Öz bəndələri üçün *həmişə* xeyir istəyir, qulu Ona dua etdikdə, onun duası boşa getmir. Eynilə, sənin də öz Rəbbinə etdiyin duaların heç bir şəkildə boşa getmir. Sənə istədiyin verilməsə belə, dua ibadət olduğu üçün, buna görə *ən azı* savab qazanırsan. Savablar isə on qatdan yeddi yüz qata qədər, hətta bundan da artıq şəkildə verilir. Bunlar belə sənə bəs edər.

Əgər sənin duanın qəbul olunmasına mane olacaq səbəblər yoxdursa, heş şübhəsiz, uca Allah dilədiyin şeyi sənə ya *bu dünyada* verəcək və bunu öz gözlərinlə görəcəksən, yəni Allaha bir şey üçün dua edəcəksən və o həyata keçəcək, yaxud bu duanın sayəsində başına gələ biləcək daha böyük bir bəlanı səndən dəf edəcək, ya da onun əvəzini Axirətə saxlayacaq. Demək, Allaha etdiyin dua heç vaxt boşa getmir.

Lakin heç vaxt duanın qəbul olunmasının gecikdiyini düşünərək: "Nə qədər dua etsəm də, duam qəbul olunmadı"– deməyin. Çünki şeytan sənin qəlbinə bu cür fikirlər salaraq: "Allaha o qədər dualar etdin, ancaq dualarının heç biri qəbul olmadı"– deyər və bununla da, Allah qorusun, Allahın rəhmətindən ümidini üzməyinə səbəb olar. Allahın rəhmətindən ümidi üzmək isə böyük günahlardan sayılır.

---

[1] "ən-Nəml" surəsi, 62.

Duanın qəbul olunması nə qədər geciksə belə, heç vaxt Allahın rəhmətindən ümidini üzmə. Çünki sən nəyin və hansı işin sənin üçün daha xeyirli olacağını bilmirsən. Uca Allah səndən Ona dua etməni istəmişsə, bunu yalnız sənin duanı qəbul etmək üçün istəmişdir. Bu xüsusda uca Allah belə buyurur: «**Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizə cavab verim"».**[1] Lakin insan çox tələskəndir. Elə isə, tələsmədən duanın qəbul olunacağını gözlə və dayanmadan Allaha dua et! Bəlkə də uca Allah sənin duanın cavabını ona görə gecikdirir ki, sən Ona çoxlu dua edəsən və bunun sayəsində həm sənin savabların artsın, həm də özünün nə qədər aciz olduğunu, habelə Allaha nə qədər möhtac olduğunu başa düşəsən. *Əslində, nəticə etibarilə* bu sənin üçün daha xeyirlidir.

Elə isə, tələskən olma və israrla Allaha dua et. Çünki uca Allah, dayanmadan və israrlı şəkildə Ona dua edənləri sevir. Həm də insan *başqasına deyil, əksinə, hər bir şeyin* son dönüşü olan və hər şeyin hökmü əlində olan izzətli və qüdrətli Allaha dua edir.

İstər namazda olsun, istərsə də tənha olduğun vaxtlarda Allaha istədiyin qədər dua et. Namaz qılarkən belə, Allaha istədiyin qədər dua et. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Səcdədə isə çoxlu-çoxlu dua edin".**[2] Həmçinin, təşəhhüdü öyrədərkən belə demişdir: **"Bundan sonra duadan dilədiyini seçsin".**[3] Çünki insanın Allahdan başqa *dua edəcəyi* heç kimi yoxdur. Elə isə, insan hər bir xırda və böyük işdə yalnız Allaha üz tutmalıdır. Hətta hədislərin birində belə deyilir: **"Sizdən birinizin nə ehtiyacı varsa, Rəbbindən istəsin. Hətta ayaqqabısının qaytanı qırılsa belə, onu da *Rəbbindən* istəsin".**[4] Ən xırda şey olan ayaqqabı qaytanı belə, Allahdan istənilir. Çünki istəməyin özü ibadətdir, izzətli və qüdrətli Allaha üz tutmaqdır, Ona tərəf yönəlməkdir, Ona bağlanmaqdır və nəhayət, qəlbin daim Allahla olmasıdır. Elə isə, çoxlu-çoxlu dua edin.

Sonra Peyğəmbər ﷺ Cabirə رضي الله عنه heç bir yaxşı işi dəyərsiz hesab etməməyi əmr etmişdir. İstər sözdə olsun, istər də hərəkətdə, istənilən hər bir yaxşı əməli yerinə yetir. Heç bir yaxşı işi dəyərsiz hesab etmə. Çünki yaxşı işlər ehsandandır və uca Allah yaxşılıq edənləri sevir.

---

[1] "Ğafir" surəsi, 60.

[2] "Səhih Muslim", 479.

[3] "Səhih əl-Buxari", 835; "Səhih Muslim", 402.

[4] "Sunən ət-Tirmizi", 3973; "Daif əl-Cami", 4946.

Əgər bir insana yüklərini avtomobilinə yükləməkdə kömək etsən, bu, yaxşılıq sayılır. Yaxud yaxınlaşdırılması lazım olan bir şeyi ona yaxınlaşdırsan, o da yaxşılıqdır. Yazı yazmaq üçün ona qələm versən, o da yaxşılıqdır. Habelə, əşyalarını saxlamaq üçün ona əl çantası versən, bu da başqa bir yaxşılıqdır. Elə isə, heç bir yaxşı işi dəyərsiz hesab etmə, əksinə, sən yaxşılığını et. Çünki uca Allah yaxşılıq edənləri sevir.

Elə bir qayda var ki, əgər bir insan daima onu yadında saxlasa, onun üçün yaxşılıq etmək daha xoş və daha asan olar. Bu qaydanı Peyğəmbər ﷺ qoymuşdur: **"Kim qardaşının ehtiyacını ödəyərsə, Allah da onun ehtiyacını ödəyər".**[1] Əgər sənin ehtiyacını Allah ödəyərsə, bu barədə nə düşünərsən? Sənin işlərin heç dolaşığa düşərmi? Bu sualın cavabı belədir: "Əlbəttə ki, yox. Əgər sənin ehtiyacını ödəyən Allahdırsa, O, mütləq sənə ehtiyacını ödəməkdə kömək edər və mütləq sənin işlərini asanlaşdırar". Demək, sən qardaşının ehtiyacını ödədikcə, Allah da sənin ehtiyacını ödəyəcək. Elə isə, yaxşılıqlarını çoxalt və heç bir yaxşı işi dəyərsiz hesab etmə. Hətta bu yaxşılıq xırda bir şey olsa belə. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Heç bir qadın öz qonşusuna qoç dırnağını *hədiyyə verməyi* belə ayıb hesab etməsin".**[2] Yəni, bu cür xırda bir şey olsa belə, yenə də onu dəyərsiz sanma.

Daha sonra Peyğəmbər ﷺ Cabirə رضي الله عنه belə deyir: **"Hətta qardaşınla gülər üzlə danışmaq olsa belə. Çünki bunun özü də yaxşılıqdır".** Peyğəmbər ﷺ öncə Cabirə رضي الله عنه: **"Heç bir yaxşı işi dəyərsiz hesab etmə!"**– deyə buyurur, sonra da müsəlman qardaşı ilə danışarkən qaşqabaqlı və qəmgin halda deyil, gülərüzlü olmağın yaxşılıqdan olduğunu açıqlayır. Çünki sənin bu əməlin müsəlman qardaşının qəlbinə sevinc bəxş edir. Müsəlman qardaşının qəlbinə sevinc salan və onu fərəhləndirən hər bir əməl yaxşılıq və ehsandır. Uca Allah isə yaxşılıq edənləri sevir. Şübhə yoxdur ki, bu sənin üçün də xeyirlidir. Lakin bəzi istisna hallar var ki, həmin hallarda qarşındakı insanla gülər üzlə danışmağın məsləhət deyil. Məsələn, qarşındakı adam xoşagəlməz bir hərəkət edərsə, onu tənbeh etmək üçün onunla qaşqabaqlı danışmalısan. Belə etməlisən ki, həmin adam özünü yığışdırsın və tərbiyəli davransın. Demək, hər məqamın özünə uyğun danışıq tərzi var.

---

[1] "Səhih əl-Buxari", 2442; "Səhih Muslim", 2580.

[2] "Səhih əl-Buxari", 2566; "Səhih Muslim", 1030.

Daha sonra Peyğəmbər ﷺ ona izarının (paltarının) ətəyini baldırının ortasına qədər qaldırmağı əmr edir. Bunu etmək istəmədiyi halda isə, *ən yaxşı halda* topuqlara qədər endirməyi buyurur. Bu da palturn ətəyini baldırın ortasına qədər qaldırmağın daha fəzilətli olmasına dəlildir. Lakin topuqlara qədər endirməkdə də bir problem yoxdur. Çünki bu, bir rüxsətdir, yəni paltarın ətəyini baldırın ortasına qədər qaldırmaq heç də vacib deyildir. İnsan bunun mütləq və dəyişməz bir göstəriş (əmr) olduğunu düşünməməlidir. Eyni zamanda, paltarının ətəyini baldırın yarısına qədər qaldırmayanın Sünnəyə müxalif olduğunu da düşünmək olmaz. Çünki Peyğəmbər ﷺ Cabirə: **"Əgər belə etmək istəməsən, onda topuqlara qədər olsun"**– deyə buyurmuşdur. Yəni: "Belə etmək istəməsən sənin üçün filan və filan cəzalar olacaqdır"– deməmişdir. Bu da onu göstərir ki, bu məsələdə seçim genişdir.

Daha öncə Əbu Bəkrin رضي الله عنه: "Ey Allahın elçisi, mən fikir vermədikdə mənim də paltarımın ətəyi yerlə sürünür"– dediyi söz barəsində də danışmışdıq. Demişdik ki, Əbu Bəkrin رضي الله عنه paltarının ətəyi topuğunun yarısından aşağı düşürdü və bu cür etməkdə qəbahət yoxdur. Odur ki, adam heç vaxt nə özünə, nə də başqalarına qarşı sərt davranmamalı, yəni şalvarının ayaqlarını, yaxud əbasının ətəyini baldırın ortasına qədər qaldırmağı nə özü üçün, nə də başqaları üçün vacib hesab etməməlidir. Çünki bu məsələdə seçim genişdir. Düzdür, baldırın ortasına qədər qaldırmaq sünnədir, amma bununla belə, bu məsələdə seçim vardır. *İstəyirsən sünnəyə uyğun olaraq baldırın yarısına qədər qaldır, istəyirsən də topuqlara qədər endir.* Allaha həmd olsun ki, Peyğəmbər ﷺ bizim üçün belə bir rüxsət vermişdir.

Bundan sonra peyğəmbər ﷺ Cabir ibn Suleymi رضي الله عنه təkəbbürlü olmaqdan çəkindirmişdir. Yəni, onu həm yerişində, həm köynəyində, həm əmmaməsində, həm əbasında, həm danışığında, ümumiyyətlə, etdiyi hər işdə təkəbbürlü davranmaqdan çəkindirmişdir. Çünki uca Allah təkəbbürlüyü sevmir. Bu xüsusda uca Allah belə buyurur: **"Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir".**[1] İnsan həm yerişində, həm geyimində, həm də xarici görünüşündə və ümumiyyətlə, hər bir halında təvazökar olmalıdır. Çünki Allah üçün təvazökar olan insanı Allah ucaldar.

[1] "Loğman" surəsi, 18.

Gərək *hər bir* insan Peyğəmbərin ﷺ öz ümmətinə öyrətdiyi bu ədəb qaydalarına riayət etsin. Bunlara riayət edən adam iki şey əldə etmiş olar:

1) Peyğəmbərin ﷺ əmrini yerinə yetirmiş sayılar. Bu barədə də uca Allah belə buyurur: **"Kim Allaha və Onun rəsuluna itaət edərsə, *Allah* onu *ağacları və qəsrləri* altından çaylar axan, içində əbədi qalacağı cənnətlərə daxil edər".**[1]

2) Bu cür yüksək ədəb qaydalarına riayət etmiş olar. Eləsi ki, heç bir bəşər heç vaxt ona bənzər ədəb qaydaları ortaya qoya bilməmişdir. Çünki şəriətin gətirdiyi ədəb qaydaları ən xeyirli ədəb qaydalarıdır.

Sonra Peyğəmbər ﷺ Cabirə رضي الله عنه: **"Əgər bir kəs səni söysə və səndə olduğunu bildiyi bir şeydən dolayı səni utandırsa, sən onda olduğunu bildiyin bir şeydən dolayı onu utandırma. Çünki onun bu davranışının günahı özünə aiddir"**– deyə buyurur. Gərək insan özü barədə eşitdiyi hər sözə görə insanlara cəza tətbiq etməməli, əksinə, bu şeylərə göz yummalı və insanları əfv edib bağışlamalıdır. Çünki uca Allah insanları əfv edənləri sevir və buna görə onları mükafatlandırır. Əgər sən də qarşındakını söysən və onda olduğunu bildiyin şeylə onu utandırsan, mübahisə uzanacaq. Bəlkə də bununla aranızda ədavət və kin yaranacaq. Əgər sən mübahisəyə son versən və heç nə deməsən, onda ara sakitləşər. Bu, təcrübədən keçmiş bir üslubdur. Yəni bir insan, onu söyən şəxsə söyüşlə cavab verərsə, onlar arasında olan söyüşmə uzanar və nəticədə aralarında təfriqə və *bir-birilərinə qarşı* nifrət yaranar. Belə bir vəziyyətdə insanın susması daha faydalıdır. Uca Allah ər-Rəhmanın qullarını vəsf edərkən belə buyurur: **"Cahillər onlara söz atdqda: "Salam!"– deyib keçərlər".**[2] Yəni, salamat qalmaları üçün gözəl sözlər, məsələn: "Allah səni xeyirlə mükafatlandırsın!", yaxud: "Buna son ver!", ya da: "Söhbəti qurtar!" kimi sözlər deyərlər.

Uca Allah buyurur: **"Sən bağışlama *yolunu* tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər".**[3]

"Bağışlanma *yolunu* tut", yəni insanların gözəl və asan hesab etdikləri əxlaqa yiyələn. Elə etmə ki, insanlar səndən daha əxlaqlı görünsünlər. Çünki insanlar sənin nəfsi istəklərinlə oturub-duran deyillər. Əksinə, sən

[1] "ən-Nisa" surəsi, 13.

[2] "əl-Furqan" surəsi, 63.

[3] "əl-Əraf" surəsi, 199.

onların gözəl və asan hesab etdikləri əxlaqı götür. Çətin olan və ya onlara çətin gələn şeylərdən də uzaq dur. Ona görə də uca Allah belə buyurmuşdur: **"Yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər".** Yəni, cahil bir adam səni söyərsə və ya sənə qarşı nalayiq sözlər deyərsə, ondan üz döndər və ona cavab vermə. Çünki bu cür davranış daha xeyirli, daha məsləhətli və nəticə etibarilə daha faydalıdır.

٧٩٧ – وَعَنْ أَبِي هُرَيْرَةَ ﷺ قَالَ: بَيْنَمَا رَجُلٌ يُصَلِّي مُسْبِلٌ إِزَارَهُ، قَالَ لَهُ رَسُولُ اللَّهِ ﷺ: « اِذْهَبْ فَتَوَضَّأْ » فَذَهَبَ فَتَوَضَّأَ، ثُمَّ جَاءَ، فَقَالَ: «اِذْهَبْ فَتَوَضَّأْ » فَقَالَ لَهُ رَجُلٌ: يَا رَسُولَ اللَّهِ. مَالَكَ أَمَرْتَهُ أَنْ يَتَوَضَّأَ ثُمَّ سَكَتَّ عَنْهُ؟ قَالَ: « إِنَّهُ كَانَ يُصَلِّي وَهُوَ مُسْبِلٌ إِزَارَهُ، وَإِنَّ اللَّهَ لَا يَقْبَلُ صَلَاةَ رَجُلٍ مُسْبِلٍ ». رواه أبو داود بإسنادٍ على شرط مسلم.

797. Rəvayət edilir ki, Əbu Hureyra ﷺ demişdir: "*Bir dəfə* bir nəfər paltarının ətəyi topuqdan aşağı olduğu halda namaz qılırdı. *Bu vaxt* Rəsulullah ﷺ ona: **"Get, dəstəmaz al!"**– dedi. O da gedib dəstəmaz alıb gəldi. Peyğəmbər ﷺ ona təkrar: **"Get, dəstəmaz al!"**– deyə buyurdu. Oradakılardan biri: "Ey Allahın elçisi, nə üçün sən ona dəstəmaz almasını əmr etdin, sonra da *bunun səbəbi barədə heç nə deməyib* susdun?" Peyğəmbər ﷺ dedi: **"O, paltarının ətəyi topuqdan aşağı olduğu halda namaz qılırdı. Allah isə paltarının ətəyi topuqdan aşağı olan adamın namazını qəbul etmir".**

Bu hədisi Əbu Davud Muslimin şərtlərinə uyğun isnadla rəvayət etmişdir.[1]

Əvvəlki hədislərdə Peyğəmbər ﷺ bizə bildirmişdir ki, kim təkəbbürlüyündən paltarının ətəyini yerlə sürüyərsə, Qiyamət günü Allah onu danışdırmayacaq, onun üzünə baxmayacaq və onu təmizə çıxarmayacaq. Üstəlik, onu ağrılı-acılı bir əzab gözləyir. Həmçinin, paltarın topuqdan aşağı düşən hissəsi Cəhənnəm odunda olacaq. Habelə, bildirmişdir ki, bu, böyük günahlardan sayılır. Eləcə də, insana topuqdan aşağı düşən *uzun* paltar geyinmək halal deyildir. Amma paltarın uzunluğu topuğa çatarsa, yəni topuğun son həddinə qədər olarsa, belə paltar geyinməkdə qəbahət yoxdur. Həmçinin, paltarın ətəyini baldırın yarısına qədər də qaldırmaq

[1] "Sunən Əbu Davud", 4086; "Daif ət-Tərğib vət-Tərhib", 1248.

olar. Xülasə, baldırın yarısından topuğa qədər olan hər bir *uzunluqda* palları geyinmək icazəlidir.

İnsan, istər izar olsun, istər də şalvar, əba və ya palto, bunların istənilən birini geyinərkən onların ətəklərini baldırın yarısı ilə topuğa qədər uzatmaqda ixtiyar sahibidir. Lakin topuqdan aşağı geyinmək hər bir halda haramdır. Hətta bu ən böyük günahlardan sayılır.

Bundan əlavə, alimlər paltarının ətəyi topuqdan aşağı olan adamın, yəni əbasını, şalvarını, izarını və ya paltosunu topuğundan aşağı salan insanın namazının qəbul olunub-olunmaması barədə ixtilaf etmişlər. Yəni, bir adam bu cür namaz qılarsa, onun namazı səhihdir, ya yox?

Bəzi alimlərin fikrincə, belə bir adamın qıldığı namaz qəbul olunmur. Çünki o, *namaz qılan zaman* haram paltar geyinmişdir. Uca Allah isə bizə yalnız halal paltarlar geyinməyi buyurmuşdur. Uca Allah buyurur: **"Ey Adəm oğulları, məscidlərə *gedərkən* gözəl geyimlərinizi geyinin!"**[1] Yəni, gözəl paltarlarınızı. Uca Allah gözəl paltarlar deməklə, bizdən halal və mübah buyurduğu paltarları geyinməyi istəmişdir. Yəni, bizə haram olan paltarları geyinməməyi əmr etmişdir – bu paltarları geyinmək bizə qadağan olunmuşdur.

"Paltarının ətəyi topuqdan aşağı olan adamın namazı qəbul olunmur"– deyən alimlərin dəlili müəllifin Əbu Hureyraya رضي الله عنه istinadən yuxarıda zikr etdiyi hədisdir. Bu hədisdə Əbu Hureyra رضي الله عنه belə demişdir: "*Bir dəfə* bir nəfər paltarının ətəyi topuqdan aşağı olduğu halda namaz qılırdı. *Bu vaxt* Rəsulullah ﷺ ona: **"Get, dəstəmaz al!"**– dedi. O da gedib dəstəmaz alıb gəldi. Peyğəmbər ﷺ ona təkrar: **"Get, dəstəmaz al!"**– deyə buyurdu. Oradakılardan biri: "Ey Allahın elçisi, nə üçün sən ona dəstəmaz almasını əmr etdin, sonra da *bunun səbəbi barədə heç nə deməyib* susdun?" Peyğəmbər ﷺ dedi: **"O, paltarının ətəyi topuqdan aşağı olduğu halda namaz qılırdı. Allah isə paltarının ətəyi topuqdan aşağı olan adamın namazını qəbul etmir".**

Bu hədis açıq-aydın dəlildir ki, uca Allah, paltarının ətəyini topuqdan aşağı salan adamın namazını qəbul etmir. Yəni, bu adamın namazı batildir və o, həmin namazı yenidən qılmalıdır.

---

[1] "əl-Əraf" surəsi, 31.

Müəllif qeyd edir ki, bu hədisi Əbu Davud Muslimin şərtlərinə uyğun səhih isnadla rəvayət etmişdir. Lakin bu, bir az şübhəlidir. Çünki bu hədis zəifdir və səhih isnadla Peyğəmbərdən ﷺ belə bir hədis varid olmamışdır.

Alimlərin rəyləri arasında ən doğru olanı odur ki, paltarının ətəyini topuqdan aşağı salan adamın namazı səhihdir. Lakin həmin adam bu hərəkətinə görə günah qazanır. Buna aid başqa bir misal çəkək. Tutaq ki, bir adam əyninə haram bir paltar geyinib və həmin paltarda namaz qılır. Məsələn, oğurladığı paltarda, yaxud üzərində heyvan rəsmləri və ya xaç şəkilləri olan paltarda namaz qılır. Əlbəttə ki, istər namazda olsun, istər də namazdan xaric olsun, fərqi yoxdur, bu cür paltarları geyinmək haramdır. Əgər bir adam bu cür paltarlarda namaz qılarsa, onun namazı səhihdir, lakin belə paltarlar geyindiyinə görə günah qazanır.

Bu məsələdə tərcih olunan rəy budur. Çünki buradakı qadağa məxsusi olaraq namaza aid deyildir. Əksinə, haram paltar geyinməyin qadağan olunması ümumi olaraq həm namaza, həm də adi hallara aiddir. Dolayısıyla, haram paltar geyinmək məxsusi olaraq namaza aid deyil və namazı da batil etmir. Cumhur alimlərin qəbul etdikləri qayda budur və bu, səhih qaydadır.

Əgər bu hədis səhih olsaydı, onda ixtilafa son qoyardı. Lakin hədis zəifdir. Bu hədisi zəif görən alimlər: "Paltarının ətəyini topuqdan aşağı salan adamın namazı səhihdir"– demişlər. Bunun əksi olaraq hədisi səhih görənlər isə: "Paltarının ətəyini topuqdan aşağı salan adamın namazı səhih deyildir"– demişlər. Hər bir halda insana vacib olan məsələ onun Allahdan qorxması və Allahın verdiyi nemətləri Onun qəzəbinə səbəb olacaq istiqamətlərə yönəltməməsidir. Əgər bir insana: "Topuqdan aşağı düşən paltarı geyinmək həm haramdır, həm də böyük günahlardandır"– deyilərsə və bu adam da deyilənləri vecinə almayıb yenə öz əməlinə davam edərsə, Allaha qarşı üsyan etmiş olar və Allahın nemətini Onun qəzəbinə səbəb olan şeylərə sərf etmiş sayılar. Belə bir duruma düşməkdən Allaha sığınırıq. Allahdan hamımız üçün afiyət diləyirik.

٧٩٨ – وَعَنْ قَيْسِ بْنِ بِشْرٍ التَّغْلِبِيِّ قَالَ: أَخْبَرَنِي أَبِي – وَكَانَ جَلِيساً لِأَبِي الدَّرْدَاءِ – قَالَ: كَانَ بِدِمَشْقَ رَجُلٌ مِنْ أَصْحَابِ النَّبِيِّ ﷺ يُقَالُ لَهُ سَهْلُ ابْنُ الحَنْظَلِيَّةِ، وَكَانَ رَجُلاً مُتَوَحِّداً

قَلَّمَا يُجَالِسُ النَّاسَ، إِنَّمَا هُوَ صَلَاةٌ، فَإِذَا فَرَغَ فَإِنَّمَا هُوَ تَسْبِيحٌ وَتَكْبِيرٌ حَتَّى يَأْتِيَ أَهْلَهُ، فَمَرَّ بِنَا وَنَحْنُ عِنْدَ أَبِي الدَّرْدَاءِ، فَقَالَ لَهُ أَبُو الدَّرْدَاءِ: كَلِمَةً تَنْفَعُنَا وَلَا تَضُرُّكَ. قَالَ: بَعَثَ رَسُولُ اللَّهِ ﷺ سَرِيَّةً فَقَدِمَتْ، فَجَاءَ رَجُلٌ مِنْهُمْ فَجَلَسَ فِي الْمَجْلِسِ الَّذِي يَجْلِسُ فِيهِ رَسُولُ اللَّهِ ﷺ، فَقَالَ لِرَجُلٍ إِلَى جَنْبِهِ: لَوْ رَأَيْتَنَا حِيْنَ الْتَقَيْنَا نَحْنُ وَالعَدُوُّ، فَحَمَلَ فُلَانٌ فَطَعَنَ، فَقَالَ: خُذْهَا مِنِّي. وَأَنَا الغُلَامُ الغِفَارِيُّ، كَيْفَ تَرَى فِي قَوْلِهِ؟ قَالَ: مَا أَرَاهُ إِلَّا قَدْ بَطَلَ أَجْرُهُ. فَسَمِعَ بِذَلِكَ آخَرُ فَقَالَ: مَا أَرَى بِذَلِكَ بَأْساً، فَتَنَازَعَا حَتَّى سَمِعَ رَسُولُ اللَّهِ ﷺ فَقَالَ: «سُبْحَانَ اللَّهِ؟ لَا بَأْسَ أَنْ يُؤْجَرَ وَيُحْمَدَ » فَرَأَيْتُ أَبَا الدَّرْدَاءِ سُرَّ بِذَلِكَ، وَجَعَلَ يَرْفَعُ رَأْسَهُ إِلَيْهِ وَيَقُولُ: أَأَنْتَ سَمِعْتَ ذَلِكَ مِنْ رَسُولِ اللَّهِ ﷺ!؟ فَيَقُولُ: نَعَمْ، فَمَا زَالَ يُعِيدُ عَلَيْهِ حَتَّى إِنِّي لَأَقُولُ لَيَبْرُكَنَّ عَلَى رُكْبَتَيْهِ.

قَالَ: فَمَرَّ بِنَا يَوْماً آخَرَ، فَقَالَ لَهُ أَبُو الدَّرْدَاءِ: كَلِمَةً تَنْفَعُنَا وَلَا تَضُرُّكَ، قَالَ: قَالَ لَنَا رَسُولُ اللَّهِ ﷺ: « المُنْفِقُ عَلَى الخَيْلِ كَالبَاسِطِ يَدَهُ بِالصَّدَقَةِ لَا يَقْبِضُهَا». ثُمَّ مَرَّ بِنَا يَوْماً آخَرَ، فَقَالَ لَهُ أَبُو الدَّرْدَاءِ: كَلِمَةً تَنْفَعُنَا وَلَا تَضُرُّكَ، قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « نِعْمَ الرَّجُلُ خُرَيْمٌ الأَسَدِيُّ، لَوْلَا طُولُ جُمَّتِهِ وَإِسْبَالُ إِزَارِهِ » فَبَلَغَ ذَلِكَ خُرَيماً، فَعَجَّلَ فَأَخَذَ شَفْرَةً فَقَطَعَ بِهَا جُمَّتَهُ إِلَى أُذُنَيْهِ، وَرَفَعَ إِزَارَهُ إِلَى أَنْصَافِ سَاقَيْهِ. ثَمَّ مَرَّ بِنَا يَوْماً آخَرَ فَقَالَ لَهُ أَبُو الدَّرْدَاءِ: كَلِمَةً تَنْفَعُنَا وَلَا تَضُرُّكَ، قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « إِنَّكُمْ قَادِمُونَ عَلَى إِخْوَانِكُمْ، فَأَصْلِحُوا رِحَالَكُمْ، وَأَصْلِحُوا لِبَاسَكُمْ حَتَّى تَكُونُوا كَأَنَّكُمْ شَامَةٌ فِي النَّاسِ، فَإِنَّ اللَّهَ لاَ يُحِبُّ الفُحْشَ وَلاَ التَّفَحُشَ ». رواهُ أَبو داود بإسنادٍ حسنٍ، إلاَّ قَيْسَ بن بشر، فاخْتَلَفُوا في توثيقِهِ وتَضْعفيه، وقد روى له مسلم .

798. Rəvayət edilir ki, Qeys ibn Bişr ət-Təğlibi demişdir: "Mənə Əbu Dərdanın dostu olan atam belə xəbər vermişdir: "Dəməşqdə Peyğəmbərin ﷺ səhabələrindən olan Səhl ibn əl-Hənzaliyyyə adlı bir nəfər var idi. Bu adam tənha yaşayar və çox az hallarda insanlarla oturub-durardı. O ancaq *camaat* namazında iştirak edər, namazı bitirdikdən sonra isə ailəsinin yanına qayıdana qədər təkbir və təsbih gətirərək *Allahı zikr edərdi*. *Bir dəfə* biz Əbu Dərdanın yanında ikən o bizim yanımızdan keçdikdə, Əbu Dərda ona belə dedi: "*Bizim üçün* bizə fayda verəcək, sənə isə zərəri toxunmayacaq kəlmələr söylə". İbn əl-Hənzaliyyyə dedi: "*Bir dəfə* Peyğəmbərin ﷺ göndərdiyi bir dəstə döyüşçü *tapşırıqlarını yerinə yetirdikdən sonra*

geri qayıtmışdı. *Bu zaman* onlardan bir nəfər Rəsulullahın ﷺ olduğu məclisə gəlib *bir yerdə* oturdu və yanındakı adama belə dedi: "Sən bizim düşmənlə qarşı-qarşıya gəldiyimiz anı bir görərdin! Filankəs *düşmənə* hücum edərək nizə atdı və: "Alın, gəldi, mən Ğifarlı bir igidəm!"– dedi. Sən onun bu sözü barəsində nə düşünürsən?" *Yanındakı* adam da ona belə dedi: "Mənim fikrimcə, onun *qazandığı* savab puç oldu". *Bu zaman onların söhbətini dinləyən* başqa birisi belə dedi: "Mən bu sözdə heç bir qəbahət görmürəm". Beləliklə, onlar mübahisə etməyə başladılar. *Bu zaman* Rəsulullah ﷺ onların mübahisəsini eşitdi və belə dedi: **"Sübhanallah! Bir adamın eyni zamanda həm savab qazanmasında, həm də tərifləmməsində heç bir qəbahət yoxdur".**

Mən Əbu Dərdanın buna sevindiyini gördüm. O, başını yuxarı qaldırıb həmin adama: "Sən bunu Rəsulullahın ﷺ özündənmi eşitdin?!"– dedi. *Səhl ibn əl-Hənzaliyyyə də*: "Bəli"– deyə cavab verdi. Əbu Dərda adamdan eyni şeyi təkrar-təkrar o qədər soruşdu ki, hətta mən öz-özümə: "İndi bu dəqiqə onun qarşısında diz çökəcək"– dedim.

Atam sözünə davam edib dedi: "Bu adam başqa bir gün yenə yanımızdan keçdikdə, Əbu Dərda yenə ona: "*Bizim üçün* bizə fayda verəcək, sənə isə zərəri toxunmayacaq kəlmələr söylə"– dedi. O da bunu söylədi: "Rəsulullah ﷺ bizə belə buyurmuşdur: **"*Cihada hazırladığı* atı üçün pul xərcləyən kimsə, əlini heç yummadan daim sədəqə verən kimsə kimidir".**

İbn əl-Hənzaliyyə başqa bir gün yenə yanımızdan keçdikdə, Əbu Dərda yenə ona: "*Bizim üçün* bizə fayda verəcək, sənə isə zərəri toxunmayacaq kəlmələr söylə"– dedi. O da bunları söylədi: "*Bir dəfə* Rəsulullah ﷺ belə dedi: **"Bu Xureym əl-Əsədi nə gözəl insandır. Kaş ki, saçının uzunluğu və izarının topuqdan aşağı düşməsi olmayaydı".** Bu xəbər Xureymə çatan kimi, dərhal *əlinə* ülgüc götürüb saçlarını qulaqlarına çatana qədər kəsdi və izarının ətəyini baldırının yarısına çatana qədər qaldırdı.

İbn əl-Hənzaliyyə bir başqa gün yenə yanımızdan keçdikdə, Əbu Dərda yenə ona: "*Bizim üçün* bizə fayda verəcək, sənə isə zərəri toxunmayacaq kəlmələr söylə"– dedi. O da bunları söylədi: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Siz qardaşlarınızın yanına gedirsiniz. Elə isə, miniklərinizə və geyimlərinizə düzən verin ki, insanlar arasında *bədəndəki***

xal kimi, *uzaqdan* seçiləsiniz. Çünki Allah, çirkin görünüşü və çirkin sözü sevməz".

Bu hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1] Ancaq *hədisin ravilərindən olan* Qeys ibn Bişrin etibarlı və ya zəif ravi olması barəsində alimlər ixtilaf etmişlər. *Amma* Muslim ondan hədis rəvayət etmişdir.

Şərh:

Müəllifin İbn əl-Hənzaliyyədən رحمه الله zikr etdiyi bu qissədə *bir çox* ibrətlər vardır. Belə ki, bu adam tənhalığı çox sevərdi. Yalnız camaat namazında iştirak edər, namazı bitirdikdən sonra isə zikrlərini edib ailəsinin işləri ilə məşğul olardı. Yəni o, vaxtını bihudə işlərə sərf etməyi, insanlarla oturub dedi-qodu ilə, boş və faydasız işlərlə məşğul olmağı xoşlamazdı. Adam namazlarını qılar, sonra zikrlərini edib ailəsinin içində olardı.

Bir gün Əbu Dərda dostları ilə birlikdə oturmuşdu. Bu vaxt İbn əl-Hənzaliyyə onların yanından keçdikdə, Əbu Dərda ona: "*Bizim üçün* bizə fayda verəcək, sənə isə zərəri toxunmayacaq kəlmələr söylə"– dedi. Yəni, bizə elə şeylər danış ki, o həm bizə fayda versin, həm də sənə zərər toxundurmasın. İbn əl-Hənzaliyyə də ona xəbər verib dedi ki: "*Bir dəfə* Peyğəmbərin ﷺ göndərdiyi bir dəstə döyüşçü *tapşırıqlarını yerinə yetirdikdən sonra* geri qayıtmışdı". *Hədisin ərəbcəsində keçən* "səriyyə", sayları dörd yüz nəfərdən az olan döyüşçü dəstə deməkdir. Onlar kafirlərin üzərinə gedər, *kafirlər* İslamı qəbul etmədikcə onlarla vuruşardılar. Bu dəstə *tapşırıqlarını yerinə yetirdikdən sonra* geriyə – Peyğəmbərin ﷺ yanına qayıdır. *Bu zaman* onlardan bir nəfər Rəsulullahın ﷺ olduğu məclisə gəlib *bir yerdə* oturur və yanındakılara həmin bu dəstənin etdikləri, yəni qəhrəmanlıqları haqqında danışmağa başlayır. O, nizə atan bir nəfəri xatırlayıb, onun *nizə atan zaman öyünnərək:* "Alın gəldi, mən Ğifarlı igidəm!"– dediyini bildirir.

İnsanın döyüş zamanı düşmən önündə iftixarla çıxış etməsində heç bir qəbahət yoxdur. Bu səbəbdən də insanın düşmən qarşısında təkəbbürlə yeriməsi, həmçinin, yerişində məğrur olması və əmmaməsinə *məğrurluq əlaməti olan* dəvəquşu lələyi kimi şeylər taxması icazəlidir. Çünki bu şeylər düşmənə psixoloji təsir göstərib onu ruhdan salır. Düşmənə psixoloji təsir

[1] "Sunən Əbu Davud", 4089. Şeyx Albani bu hədisin zəif olduğunu söyləmişdir.

göstərdiyin hər bir şeyə görə sənin üçün Allah qatında savab vardır. Hətta kafirləri qəzəbləndirən və onları alçaldan adi bir sözə görə də sənin üçün Allah qatında savab vardır.

Hədisdə keçdiyi kimi, Ğifar qəbiləsindən olan bu adam da fəxrlə: "Alın, gəldi!"– deyərək onlara ox və ya nizə atmış və özünü öyərək: "Mən Ğifarlı igidəm"– demişdir. Bu söhbəti dinləyən bəziləri: "Onun qazandığı savab puç oldu"– dedilər. Çünki bu adam özünü öymüşdü. Uca Allah da belə buyurur: **"Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir".**[1] Bəli, bu doğrudur. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir. Lakin döyüş istisnadır. *Elə buna görə də* məclisdə iştirak edən digərləri: "Bu sözdə heç bir qəbahət yoxdur"– dedilər.

Beləliklə, onların arasına mübahisə düşdü. Bundan sonra Peyğəmbər ﷺ onların yanına gəldi və: **"Sübhanallah!",** yəni "izzətli və qüdrətli Allah bütün eyib və nöqsanlardan uzaqdır**"**– dedi. Yəni, uca Allahın bütün sifətləri hər cəhətdən kamildir – Onun nə elmində, nə qüdrətində, nə hikmətində, nə də izzətində heç bir naqislik yoxdur. Onun bütün sifətləri hər cəhətdən tam və mükəmməldir.

Peyğəmbər ﷺ *onlara* etiraz edərək: **"Sübhanallah!"**– deyir, yəni: "Axı bu məsələdə necə mübahisə edə bilərsiz?"– demək istəyir. Sonra da: **"Bir adamın eyni zamanda həm savab qazanmasında, həm də tərifləmə-sində heç bir qəbahət yoxdur"**– deyir. Yəni, uca Allah onun üçün həm din, həm də dünya xeyirini bir araya gətirmişdir. Adam həm cəsur oxatan olduğuna görə tərifləni̇r, həm də eyni zamanda Allah qatında savab qazanır. Bunda qəbahət bir şey yoxdur.

Peyğəmbərin ﷺ dönəmində Amir ibn Əkva رضي الله عنه da düşmənlə qarşılaşdığı zaman *onları ox atəşinə tutaraq:* "Alın, gəldi! Əkvanın oğluyam mən, ölüm günüdür bu gün!"– demişdir. Bir sözlə, insanın döyüş əsnasında özü, gücü, qəbiləsi və ya bunlara bənzər şeylərlə qürurlanmasında qəbahət bir şey yoxdur.

İbn əl-Hənzaliyyə başqa bir gün yenə Əbu Dərdanın yanından keçdikdə, Əbu Dərda yenə ona: "*Bizim üçün* bizə fayda verəcək, sənə isə zərəri toxunmayacaq kəlmələr söylə"– dedi. Yəni, bizə elə sözlər öyrət ki,

[1] "Loğman" surəsi, 18.

o sözlər həm bizə fayda versin, həm də sənə zərər toxundurmasın. İbn əl-Hənzaliyyə də ona Peyğəmbərin ﷺ belə dediyini xəbər verdi: **"*Cihada hazırladığı* atı üçün pul xərcləyən kimsə, əlini heç yummadan daim sədəqə verən kimsə kimidir".** O dövrdə at, Allah yolunda cihadda istifadə edilən ən önəmli minik vasitəsi idi. Ona görə də *cihada hazırladığı* atı üçün pul xərcləyən kimsə, əlini heç yummadan daim sədəqə verən kimsə kimidir. Demək, həmin at üçün xərclənən hər bir şey sədəqə sayılır. Çünki bu at Allah yolunda cihadda istifadə olunacaqdır.

Bundan sonra İbn əl-Hənzaliyyə başqa bir gün yenə Əbu Dərdanın yanından keçdikdə, Əbu Dərda yenə ona: "*Bizim üçün* bizə fayda verəcək, sənə isə zərəri toxunmayacaq kəlmələr söylə"– dedi, o da Əbu Dərdaya xəbər verdi ki, *bir dəfə* Peyğəmbər ﷺ bir nəfəri tərifləmiş, ancaq sonra onun haqqında belə demişdir: **"Kaş ki, saçının uzunluğu və izarının topuqdan aşağı düşməsi olmayaydı".** Hədisin ərəbcəsində keçən "cummə" kəlməsi saç deməkdir. Yəni, bu adam öz saçını bir növ təkəbbürlükdən dolayı uzatmışdı.

Həm saçını, həm də paltarının ətəyini uzadan bu adam Peyğəmbərin ﷺ onun haqqında dediyi sözləri eşidər-eşitməz dərhal saçlarını çiyninə qədər qısaldır, paltarının da ətəyini *baldırının ortasına qədər* qaldırır.

Bu hədis dəlildir ki, kişinin saçını çox uzatması təkəbbürlük əlamətidir. Odur ki, kişilər saçlarını ya çiyinlərinə qədər, ya da qulaq mərcəyinə qədər uzada bilərlər. Çünki baş, yəni saçlar vasitəsilə bəzənib-düzənmək qadınlara aiddir. Bu da onu göstərir ki, kişilər nə saçda, nə də digər şeylərdə heç vaxt özlərini qadınlara bənzətməməlidirlər. Çünki Peyğəmbər ﷺ özlərini qadınlara bənzədən kişiləri və özlərini kişilərə bənzədən qadınları lənətləmişdir.[1]

Uca Allah kişiləri bir cins, qadınları da başqa bir cins olaraq yaratmış və onların hər birinə öz cinsinə uyğun olan şeyləri halal etmişdir. Odur ki, kişilərin qadınlara bənzəməsi və özlərini onlara bərabər tutması caiz deyildir. Mən müsəlmanların heç birindən istənilən məsələdə qadınları kişilərə tay tutduqlarını eşitməmişəm. Lakin kafirlər bunun əksini edirlər. Ona

[1] "Səhih əl-Buxari", 5885; "Sunən Əbu Davud", 4097; "Sunən ət-Tirmizi", 2784; "Sunən İbn Macə", 1904.

görə də uca Allah onların fitrətini və təbiətini elə dəyişdirmişdir ki, artıq onlar qadınları kişilərdən üstün tutur və: "Qadınlar kişilərə qarışmalıdır ki, aralarındakı fərq hiss olunmasın"– deyirlər. Şübhəsiz ki, bu həm uca Allahın bütün insanlara verdiyi fitrətə, həm də Peyğəmbərin ﷺ gətirdiyi şəriətə ziddir – axı qadınların öz özəllikləri, kişilərin də öz özəllikləri var.

Bir sözlə, həmin səhabə Peyğəmbərin ﷺ sözlərini eşidən kimi, dərhal saçlarını qısaldır. Bu da səhabələrin Peyğəmbərin ﷺ əmrlərinə nə qədər itaət etmələrinə, onun yönəltdiyi yola nə dərəcədə yönəlmələrinə bir dəlildir. Belə ki, onlar Peyğəmbərin ﷺ əmrlərini yerinə yetirmək üçün bir-birilərilə yarışardılar. Bu da öz növbəsində, imanın *nə qədər güclü olmasının* əlamətidir.

Allahın və Rəsulunun ﷺ əmrlərini yerinə yetirməkdə ləng tərpənən və ya buna tənbəllik göstərən kimsəyə gəlincə, həmin adam bir növ münafiqlərə bənzəyir. *Çünki uca Allah münafiqlər barəsində belə buyurur:* **"Onlar namaza durarkən tənbəlliklə qalxar".**[1] Məsələn, bu cür adamlara Allah və Rəsulunun ﷺ hər hansı bir məsələ barəsindəki hökmünü çatdırdıqda, onu yerinə yetirməkdə tənbəllik göstərir və bu məsələ ona ağır gəlir. Sanki belinə ağır qaya parçası qoyulmuş adama dönər və: "Bəlkə bir rüxsət və ya özümə uyğun bir fətva tapdım"– deyərək yanına getmədiyi alim qalmaz. Halbuki alimlər: "Rüxsətlərin dalınca qaçmaq fasiqlikdir"– demişlər. *Yəni,* rüxsətləri addım-addım təqib edən adam fasiqdir. Hətta bəzi alimlər: "Daim rüxsət dalınca qaçan adam, *bir gün gələr* zındıq olar"– demişlər. *Yəni, dinini tərk edər.*

İnsanın boynuna düşən əsas vəzifə, elminə və dininə güvəndiyi bir şəxsdən Allah və Rəsulunun ﷺ hər hansı bir əmrini eşitdikdə, tərəddüd etmədən həmin əmri yerinə yetirməsidir. Mən həm elminə, həm də dininə güvəndiyi insan deyirəm. Çünki elə insanlar var ki, dindar və təqvalıdır, lakin elmi yoxdur. Bir də görürsən ki, bu cür adamlar Peyğəmbərin ﷺ bir hədisini əzbərləyir, sonra da qalxıb sanki böyük imamlardan biri kimi, insanlar arasında *ağlına gələni* danışır. Bu cür insanlardan və onların fətvalarından çəkinmək lazımdır. Çünki elmi az olduğuna görə o, çoxlu sayda xətalara yol verir.

[1] "ən-Nisa" surəsi, 142.

Elə insanlar da var ki, böyük elmə sahibdirlər, lakin nəfsi istəklərinə uyaraq Allahı razı salan deyil, əksinə, insanları razı salan fətvalar verirlər. Bu cür insanlara toplum alimləri deyirlər.

Ümumiyyətlə, alimlər üç qismə bölünürlər: din alimi, saray alimi və toplum alimi.

Din alimi: bu alimlər İslam dinini yayan, elmə əsaslanaraq İslama uyğun fətvalar verən və insanların istəklərinə xoş gəlsə də, gəlməsə də, şəriətin buyurduğu şeyləri söyləyən kimsələrdir.

Saray alimi: bunlar dövlət rəhbəri nə istəyirsə, onun istəyinə baxıb ona uyğun fətvalar verən kimsələrdir. Hətta bu fətvalarda Allahın kitabı və Rəsulullahın ﷺ sünnəsi təhrif olunmuş olsa belə, *bu onları narahat etməz*.

Toplum alimi: bunlar da insanların nədən razı qalacaqlarına baxarlar. Əgər görsələr ki, insanlar filan işlərlə məşğuldurlar, dərhal *ona uyğun,* onları razı salacaq fətvalar verərlər. Sonra da insanların istəklərinə uyğun olan bu fətvalarının doğru olduğunu göstərmək üçün Allahın kitabında və Rəsulullahın ﷺ sünnəsində gələn dəlilləri təhrif etməyə çalışarlar.

Allahdan istəyirik ki, həm bizi, həm də sizi elmi ilə əməl edən din alimlərindən etsin.

Bir sözlə, insan ayıq olmalı və dini alətə çevirən insanlara aldanmamalıdır. Həm dininə, həm də elminə etibar edəcəyinə əmin olduğu şəxs tapmalı və dinini o adamdan öyrənməlidir. Bu xüsusda sələflərdən biri belə demişdir: "Həqiqətən, bu elm, dindir. Elə isə, baxın görün dininizi kimdən götürürsünüz".

Doğrudan da, bu elm həm dindir, həm də *insanı* Allaha aparan yoldur. Kafirlərə aldanmış və onları təqlid edən insanların geyim-keçimlərində də onları yamsıladıqlarını görürsən. Məsələn, yeni moda jurnalı çıxan kimi, dərhal onu əldə edib evlərinə aparır və: "Bir bu paltarların gözəlliyinə baxın!"– deyə həmin jurnalı onlara göstərirlər. Halbuki, jurnalın içi çılpaq qadın şəkilləri, habelə şəriətə müxalif olan paltar şəkilləri ilə doludur. Həm ağılda, həm də dində naqis olan qadınlar isə həmin jurnalda xoşlarına gələn bir şey görən kimi, nəfsləri onu çəkir və ərlərinə: "Mən də belə paltar istəyirəm"– deyirlər. Bununla da müsəlman toplum geyim-keçimdə kafir topluma bənzəməyə başlayır. Allah qorusun! Bu son

dərəcə təhlükəli bir haldır. Çünki Peyğəmbər ﷺ belə demişdir: **"Kim özünü bir qövmə bənzədərsə, o da onlardandır".**[1]

Dövrümüzdə qadınların saçlarını müxtəlif formalara salmaları da bu qəbildəndir. Son zamanlara qədər qadınlar saçlarının uzun olmasına sevinərdilər. Kişilər də bir qadınla evlənmək istədikdə, onun saçları barəsində "Saçları uzundur, yoxsa qısa?"– deyə soruşardılar. İndi isə tam əksinə olub – qadın saçını o qədər qısaldır ki, az qala kişi saçına oxşasın. Allahdan *qadınlarımız üçün* afiyət diləyirik.

Kafirləri yamsılamağa aid başqa bir misal da qadınların öz tellərini, yəni saçlarının önlərini çox qısa kəsmələri, yanlarını isə qısa və qabarıq hala salmalarıdır. Bütün bunların hamısı kişilərin qadınları boş buraxmasından, habelə qadınlara görə daşıdıqları məsuliyyətə laqeyd yanaşmalarından irəli gəlir.

Əgər görsən ki, ailən Allahın əmrlərini yerinə yetirməkdə səhlənkarlıq göstərir, onda onlara *bu əmrlərdən* vacib olunanları yerinə yetirməyi əmr et və onları buna məcbur et. Habelə, görsən ki, bəzi məsələlərdə şəriətə müxalif hərəkətlər edirlər, o zaman onları şəriətə tabe olmağa məcbur et. Çünki ailənə görə məsuliyyəti sən daşıyırsan. Bu məsuliyyəti və ailənin üzərindəki bu rəhbərliyi sənə verən Rəsulullahdır ﷺ: **"Kişi öz ailəsinin hamisidir və o, öz himayəsində olanlara cavabdehdir".**[2]

Deməli, kişi öz evinin hamisidir və o, himayəsində olanlara görə cavabdehdir. Peyğəmbər ﷺ sadəcə: **"Kişi öz evinin hamisidir"**– sözü ilə kifayətlənmədi. Əgər sadəcə bu cür desəydi, onda məsələ daha asan olardı. Lakin Peyğəmbər ﷺ: **"O, öz himayəsində olanlara cavabdehdir"**– də demişdir. Qiyamət günü Rəbbinin hüzurunda duracağın zaman bu məsuliyyətə görə nə cavab verəcəyini bir düşün! Qarşısına çıxan hər şeyi silib-süpürən selin bizləri də ağuşuna alıb aparmasından öncə bizim bu məsələlərə diqqət yetirməmiz lazımdır. Yoxsa, bir də görəcəyik ki, bütün adət-ənənələrimiz və halımız nəsranilərin, yəni xaçpərəstlərin halına bənzəyir.

Hədisin sonunda deyilir ki, Peyğəmbər ﷺ səhabələrinə çölə çıxan zaman gözəl görkəmdə çıxmalarını bildirmiş və: **"Siz qardaşlarınızın**

[1] "Sunən Əbu Davud", 4031; "Səhih əl-Cami", 6149.

[2] "Səhih əl-Buxari", 893; "Səhih Muslim", 1829.

yanına gedirsiniz”– demişdir. Yəni, görkəminizə və pal-paltarınıza düzən verin. Bilindiyi kimi, səfərdə olan adamın paltarı çirkli, saçları dağınıq və üst-başı toz-torpaq içində olur. Çünki o dövrdəki vəziyyət indiki kimi deyildi. İndiki dövrdə adamlar uzaq səfərə içərisi tər-təmiz və rahat olan təyyarələr vasitəsilə gedib-gəlirlər. Lakin əvvəllər bunun tam əksi idi. Ona görə də Peyğəmbər ﷺ onlara özlərini səhmana salmalarını əmr etdi. Yəni, dağınıq saçlarını daramağı və çirkli paltarlarını dəyişib təmizini geyinməyi əmr etdi ki, qarşılaşacaqları adamlar onlardan iyrənməsinlər.

Bu da onu göstərir ki, insan özünə diqqət yetirməli və bu məsələlərə laqeyd yanaşmamalıdır. Hətta paltarının gözəlliyinə belə fikir verməlidir. Çünki bir dəfə Peyğəmbər ﷺ: **“Qəlbində zərrə qədər təkəbbür olan kimsə Cənnətə girməz”**– dedikdə, səhabələr: “Ey Allahın elçisi, axı hamımız libasının və ayaqqabısının gözəl olmasını xoşlayır”– dedilər. Onda Peyğəmbər ﷺ belə buyurdu: **“Həqiqətən, Allah gözəldir və gözəlliyi sevər”.** Yəni, *insanın* bəzənməsini sevər. Elə isə, sənin də paltarın, ayaqqabın, bir sözlə, bütün görünüşün gözəl olmalıdır. Sonra Peyğəmbər ﷺ sözünə belə davam edir: **“Təkəbbürlük isə haqqı danmaq və insanlara xor baxmaqdır”.**[1] Haqqı danmaq dedikdə, onu qəbul etməmək, haqqa qarşı təkəbbürlük göstərmək və: “Haqq budur!”– deyildikdə, ondan üz döndərmək nəzərdə tutulur. İnsanlara xor baxmaq deyildikdə isə, onlara həqarətlə, saymazyana baxmaq, qiymət verməmək, onları dəyərsiz saymaq nəzərdə tutulur. Bir nəfər oğlundan: “Oğlum, insanları necə görürsən?”– deyə soruşduqda, o: “Mən onları sultanlar olaraq görürəm”– deyə cavab vermiş, atası da ona belə demişdi: “Elə isə, onlar da səni sultan olaraq görür”. Başqa bir adam da oğluna eyni sualı verdikdə, oğlu: “Mən onları dəyərsiz bir şey kimi görürəm”– deyə cavab vermiş, atası da ona: “Elə isə, onlar da səni eynilə o cür görürlər”– demişdir. Yəni, insanları necə görəcəksənsə, onlar da səni o cür görəcəklər. Sən onları padşah sansan, onlar da səni padşah sanacaqlar. Yox, əgər onları dəyərsiz bir şey hesab etsən, onda onlar da səni dəyərsiz bir şey hesab edəcəklər. Dolayısıyla, sən insanlara necə baxacaqsansa, onlar da sənə o cür baxacaqlar. Müvəffəq edən Allahdır.

[1] “Səhih Muslim”, 91.

٧٩٩ – وَعَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ « إِزْرَةُ المُسْلِمِ إِلَى نِصْفِ السَّاقِ، وَلاَ حَرَجَ – أَوْ لا جُنَاحَ – فِيمَا بَيْنَهُ وَبَيْنَ الكَعْبَيْنِ، فَمَا كَانَ أَسْفَلَ مِنَ الكَعْبَيْنِ فَهُوَ فِي النَّارِ، وَمَنْ جَرَّ إِزَارَهُ بَطَراً لَمْ يَنْظُرِ اللَّهُ إِلَيْهِ».

رواهُ أَبُو داود بإسنادٍ صحيح.

799. Əbu Səid əl-Xudri ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Müsəlmanın izarının ətəyi baldırının yarısına qədər olmalıdır. Baldırla topuqlar arasında olmasında da qəbahət – və ya günah – yoxdur. Topuqdan aşağı düşən hissə isə Cəhənnəm odundadır. Allah, təkəbbürlükdən dolayı izarının ətəyini yerlə sürüyən kimsənin üzünə baxmayacaqdır".**

Bu hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

٨٠٠ – وَعَنْ ابْنِ عُمَرَ ﷺ قَالَ: مَرَرْتُ عَلَى رَسُولِ اللَّهِ ﷺ وَفِي إِزَارِي اسْتِرْخَاءٌ. فَقَالَ: « يَا عَبْدَ اللَّهِ، ارْفَعْ إِزَارَكَ » فَرَفَعْتُهُ، ثُمَّ قَالَ: «زِدْ»، فَزِدْتُ، فَمَا زِلْتُ أَتَحَرَّاهَا بَعْدُ. فَقَالَ بَعْضُ القُوْمِ: إِلَى أَيْنَ؟ فَقَالَ: إِلَى أَنْصَافِ السَّاقَيْنِ». رواهُ مسلم.

800. Rəvayət edilir ki, İbn Ömər ﷺ demişdir: "Bir dəfə mən Rəsulullahın ﷺ yanından keçəndə izarım *topuğumdan* aşağı düşürdü. O mənə: **"Ey Abdullah, izarının ətəyini yuxarı qaldır!"**– dedi. Mən də dərhal yuxarı qaldırdım. *Rəsulullah ﷺ:* **"Bir az da qaldır!"**– dedi. Mən bir az da qaldırdım. Bundan sonra mən paltarımın ətəyinə nəzarət etməyə başladım". Bəzi adamlar: "*Paltarının ətəyini* haraya qədər qaldırmışdın?"– deyə soruşmuş, İbn Ömər ﷺ də: "Baldırlarımın yarısına qədər"– deyə cavab vermişdir.

Bu hədisi Muslim rəvayət etmişdir.[2]

٨٠١ - وَعَنْهُ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « مَنْ جَرَّ ثَوبَهُ خُيَلَاءَ لَمْ يَنْظُرِ اللَّهُ إِلَيْهِ يَوْمَ القِيَامِةِ » فَقَالَتْ أُمُّ سَلَمَةَ: فَكَيْفَ تَصْنَعُ النِّسَاءُ بِذُيُولِهِنَّ، قَالَ: « يُرْخِينَ شِبْراً». قَالَتْ: إِذاً تَنْكَشِفُ أَقْدَامُهُنَّ. قَالَ: « فَيُرْخِينَهُ ذِرَاعاً لاَ يَزِدْنَ ».

رواهُ أبو داود، والترمذي وقال: حديث حسن صحيح.

---

[1] "Sunən Əbu Davud", 4693; "Sunən İbn Macə", 3573. Şeyx Albani bu hədisin səhih olduğunu demişdir. Bax: "Mişkat əl-Məsabih", 4331.

[2] "Səhih Muslim", 2086.

801. Yenə İbn Ömər ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Kim təkəbbürlüyündən paltarının ətəyini yerlə sürüyərsə, Qiyamət günü Allah onun üzünə baxmaz".** *Bunu eşidən* Ummu Sələmə ﷺ: "Bəs qadınlar paltarlarının ətəklərini necə etsinlər?"– deyə soruşdu. Peyğəmbər ﷺ dedi: **"Bir qarış uzatsınlar".** Ummu Sələmə ﷺ: "Onda onların ayaqları açılacaqdır"– dedikdə, Peyğəmbər ﷺ: **"Elə isə, bir dirsək uzatsınlar, bundan artıq uzatmasınlar"**– deyə buyurdu.

Bu hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[1]

Şərh:

Bu üç hədisi Hafiz ən-Nəvəvi ﷺ "Salehlər bağçası" adlı əsərinin **"Libas kitabı"** bölümündə zikr etmişdir. Bu hədislərin birincisi Əbu Səid əl-Xudrinin ﷺ rəvayət etdiyi hədisdir. Hədisdə deyilir ki, Peyğəmbər ﷺ belə demişdir: **"Müsəlmanın izarının ətəyi baldırının yarısına qədər *olmalıdır. Baldırla topuqlar arasında olmasında da qəbahət – və ya günah* – yoxdur. Topuqdan aşağı düşən hissə isə Cəhənnəm odundadır. Allah, təkəbbürlükdən dolayı izarının ətəyini yerlə sürüyən kimsənin üzünə baxmayacaqdır".**

Peyğəmbər ﷺ paltarın ətəyini uzunluq baxımından dörd qismə bölmüşdür:

Birinci qisim – baldırın yarısına qədər sünnədir.

İkinci qisim – baldırın yarısından topuqlara qədər rüxsətdir.

Üçüncü qisim – təkəbbürlük niyyəti olmadan topuqdan aşağı düşməsi ən böyük günahlardandır.

Dördüncü qisim – təkəbbürlükdən dolayı paltarın ətəyini yerlə sürümək, günah etibarilə əvvəlkindən daha böyükdür.

Beləliklə, toplam olaraq dörd qisim olur: birinci qisim sünnədir; ikinci qisim caizdir; üçüncü qisim haram olub böyük günahlardan sayılsa da, günah etibarilə dördüncüdən daha yüngüldür; dördüncü qisim isə təkəbbürlükdən dolayı paltarın ətəyini yerlə sürüməkdir ki, uca Allah Qiyamət günü bu adamın heç üzünə belə baxmaz.

---

[1] "Sunən Əbu Davud", 4119; "Sunən ət-Tirmizi", 1731; "Silsilə əl-Əhadis əs-Səhihə", 1864.

Bu da dəlildir ki, izarının, əbasının, şalvarının və ya paltosunun ətəyini topuqdan aşağı salan adam istər bunu təkəbbürlüyündən etsin, istər də təkəbbürlüyündən dolayı etməsin, böyük günah sahibi sayılır. Çünki Peyğəmbər ﷺ məhz bu hədisdə bunu təkəbbürlüyündən edənlə təkəbbürlüyündən etməyənin arasında fərq qoymuşdur. Belə ki, uca Allah bunu təkəbbürlüklə edən kimsənin Qiyamət günü heç üzünə belə baxmayacaq.

Bu hədislə Əbu Zərin رضي الله عنه daha öncə qeyd etdiyimiz hədisini bir araya gətirsək, belə bir nəticəyə gələrik: Allah həmin adamın üzünə baxmayacaq, onu danışdırmayacaq, təmizə çıxarmayacaq və üstəlik, onu ağrılı-acılı bir əzab gözləyir. Topuqlardan aşağı uzadılan qismə isə sadəcə Cəhənnəm odu ilə əzab veriləcəkdir. Amma bu adam üçün *bir az əvvəl* zikr etdiyimiz dörd cəza olmayacaqdır. Yəni, Qiyamət günü Allahın onu danışdırmaması, üzünə baxmaması, onu təmizə çıxarmaması və onu ağrılı-acılı bir əzabın gözləməsi bu adama aid deyildir.

Daha sonra müəllif İbn Ömərin رضي الله عنهما hədisini zikr etmişdir. Hədisdə deyilir ki, Peyğəmbər ﷺ İbn Ömərə رضي الله عنهما izarının ətəyini yuxarı çəkməsini əmr edir, o da onu yuxarı qaldırır. Sonra Peyğəmbər ﷺ ona: **"Bi az da qaldır"**– deyir və o, yenə də qaldırır. Orada olanlardan biri: "Ya Rəsulullah, hara qədər qaldırsın?"– deyə soruşduqda, Peyğəmbər ﷺ: **"Baldırların yarısına qədər"**– deyir. Yəni, qaldırmaq maksimum baldırın yarısına qədər olmalıdır. Lakin baldırın yarısı ilə topuqlar arasında istənilən yerə qədər qaldırmaq caizdir. Baldırın yarısına çatana qədər nə qədər yuxarı qaldırılarsa, bir o qədər fəzilətli olar.

Ummu Sələmənin رضي الله عنها hədisində isə deyilir ki, Peyğəmbər ﷺ qadınlara paltarlarının ətəklərini daha bir qarış uzatmağa icazə verir. Bu zaman Ummu Sələmə رضي الله عنها: "Onda onların ayaqları açılacaqdır"– dedikdə, Peyğəmbər ﷺ: **"Elə isə, bir dirsək uzatsınlar, bundan artıq uzatmasınlar"**– deyə buyurdu. Çünki qadının ayaqları övrət sayılır. Əgər qadının ayaqları açıq olsa və insanlar onu görsələr, bu fitnəyə səbəb ola bilər. Qadın paltarının ətəyini uzun edərsə, yeridiyi zaman onun ayaqları görünməz.

Bu hədis qadının üzünün örtülməsinin də vacib olmasına dəlildir. Çünki ayaqların örtülməsi vacibdirsə, üzün örtülməsi daha vacibdir. Halbuki, ayaqların görünməsi nəticəsində yaranacaq fitnə üzün görünməsi zamanı yaranacaq fitnədən daha azdır. Hikmətli və hər şeydən xəbərdar olan

Allah tərəfindən nazil olan bu şəriətin qadınlara: "Ayaqlarınızı örtün!"– deyib üzlərini örtmələrini əmr etməməsi mümkün deyil. Çünki bu həm ziddiyyət təşkil edər, həm də bir şey barəsində hökm verib ondan daha önəmli olan başqa bir şeyin hökmünü gizlətmək sayılar. *Bütün bəşəriyyət üçün* meyar sayılan ədalətli İslam şəriətində belə bir şeyin olması isə təsəvvür olunmazdır. Dolayısıyla, ayaqları örtməyin vacib olmasını, üzü örtməyin isə vacib olmamasını söyləyən alimlər doğru hökmü söyləməkdən uzaqdırlar. Belə bir şeyin olması əsla mümkün deyildir. Bizə görə heç bir şübhə olmayan doğru rəy, əri və məhrəmləri istisna olmaqla, qadının heç bir kişinin yanında üzünü açmamasıdır. Müvəffəq edən Allahdır.

Yüz iyirminci fəsil

Təvazökarlıq göstərib dəbdəbəli geyimi tərk etməyin müstəhəb olması

Daha öncə keçən **"Aclığın, çətin yaşayışın, nəfsin xoşladığı yemək, içmək, geyim və digər şeylərdə azla kifayətlənməyin, habelə nəfsi istəkləri tərk etməyin fəziləti"** fəslində (56-cı fəsil) bu mövzu ilə bağlı bəzi hədislər zikr olunmuşdur.

Mövzu ilə əlaqəli hədis:

٨٠٢ – وَعَنْ مُعَاذِ بْنِ أَنَسٍ ﵁ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: «مَنْ تَرَكَ اللِّبَاسَ تَوَاضُعاً لِلَّهِ، وَهُوَ يَقْدِرُ عَلَيْهِ، دَعَاهُ اللَّهُ يَوْمَ القِيَامَةِ عَلَى رُؤُوسِ الخَلَائِقِ حَتَّى يُخيِّرَهُ مِنْ أَيِّ حُلَلِ الإِيْمَانِ شَاءَ يَلْبَسُهَا ». رواهُ الترمذي وقال: حديث حسن.

802. Muaz ibn Ənəs ﵁ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Hər kim dəbdəbəli geyinməyə gücü yetdiyi halda Allah üçün təvazökarlıq göstərib onu tərk edərsə, Qiyamət günü Allah onu bütün məxluqatın önündə çağırar və iman əhlinin geyinəcəyi paltarlardan istədiyini seçib geyinməsi üçün onu sərbəst buraxar".**

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən" hədisdir"– demişdir.[1]

Şərh:

Müəllif ﵀ **"Libas ədəbləri"** bölümündə zikr etdiyi bu fəslə **"Təvazökarlıq göstərib dəbdəbəli geyimi tərk etməyin müstəhəb olması"** adını vermiş və ardından da Muaz ibn Ənəsin ﵁ hədisini nəql etmişdir. Hədisdə deyilir ki, Peyğəmbər ﷺ belə demişdir: **"Hər kim dəbdəbəli geyinməyə gücü yetdiyi halda Allah üçün təvazökarlıq göstərib onu tərk edərsə, Qiyamət günü Allah onu bütün məxluqatın önündə çağırar və iman əhlinin geyinəcəyi paltarlardan istədiyi birini seçib geyinməsi üçün onu sərbəst buraxar".**

---

[1] "Sunən ət-Tirmizi", 2481; "Səhih əl-Cami", 6145.

Bu o deməkdir ki, insan dəbdəbəli paltarlar geyinmək imkanı olmayan orta təbəqə insanlarının arasında olarsa, təvazökarlıq göstərib onların geyindiyi paltarlar kimi paltar geyinməlidir ki, onların qəlbləri qırılmasın və özünü də onlardan uca tutmasın. Belə edərsə, həmin adam hədisdə deyilən o böyük savaba nail olar. Ancaq insan Allahın var-dövlət bəxş etdiyi varlı adamların arasında olarsa və bu adamlar haram olmayan bahalı paltarlar geyinərlərsə, onda onun da onlar kimi geyinməsi daha fəzilətlidir. Çünki uca Allah gözəldir və gözəlliyi də sevir.

Əgər bir insan gözəl və bahalı paltarlar geyinən zəngin adamların arasında yaşayırsa və *bu adamların geyindiyi paltarlardan geyinməyə* gücü yetdiyi halda onlardan aşağı dərəcədə geyinərsə, bu, *onlardan seçildiyinə görə* onun üçün şöhrət libası sayılar. Dolayısıyla, insan, vəziyyətə uyğun hərəkət etməlidir. Əgər adam bahalı paltarları Allah üçün təvazökarlıqdan və ətrafdakı insanlarla bərabər olmaqdan dolayı tərk edərsə, onda hədisdə deyilən böyük savaba nail olar. Amma bu adam Allahın var-dövlət bəxş etdiyi insanların arasında yaşayırsa və bu insanlar da bahalı paltarlar geyinırlərsə, onda o da onlar kimi geyinməlidir.

Yüz iyirmi birinci fəsil

Paltar geyinməkdə orta yol tutmağın müstəhəb olması və ehtiyac duyulmadığı, yaxud dini bir məqsəd olmadığı müddətcə dəyərsiz paltarlarla qane olmamaq

Mövzu ilə əlaqəli hədis:

٨٠٣ – عَنْ عَمْرِو بْنِ شُعَيْبٍ عَنْ أَبِيهِ عَنْ جَدِّهِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « إِنَّ اللَّهَ يُحِبُّ أَنْ يَرَى أَثَرَ نِعْمَتِهِ عَلَى عَبْدِهِ». رواهُ الترمذي وقال: حديثٌ حسن.

803. Amr ibn Şueyb atasından, o da atasından ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Həqiqətən, *uca* Allah quluna verdiyi nemətinin əlamətini onun üzərində görməyi sevir".**

Bu hədisi Tirmizi rəvayət etmiş və: "həsən hədisdir"– demişdir.[1]

Şərh:

Müəllif ﷺ bu fəsildə paltar geyinməkdə orta yol tutmağı zikr etmişdir. Belə ki, insan həm geyimində, həm yeməyində, həm içməyində, ümumiyyətlə hər bir halında orta yol tutmalı və Allahın verdiyi nemətlərə qarşı nankorluq etməməlidir. Çünki uca Allah qullarına verdiyi nemətlərinin əlamətini qullarının üzərində görmək istəyir. Əgər Allah quluna bir nemət verərsə, həmin nemətin əlamətlərini o qulun üzərində görməyi sevir.

Əgər quluna verdiyi bu nemət mal-dövlətdirsə, o zaman uca Allah bəxş etmiş olduğu bu mal-dövlətin izini Onun yolunda xərcləməklə, sədəqələr verməklə, xeyirxah işlərdə iştirak etməklə, gözəl paltarlar geyinmək və başqa bu kimi əməllərlə qulunun üzərində görmək istəyir.

Əgər Allahın quluna verdiyi nemət elmdirsə, o zaman uca Allah bu nemətin səmərəsi olan elmə əməl etməyi, ibadəti, gözəl davranışı, İslam dəvətinin yayılmasını, bu elmi başqalarına öyrətməyi və başqa bu kimi əməlləri qulunun üzərində görmək istəyir.

---

[1] "Sunən ət-Tirmizi", 2819.

Hər dəfə Allah sənə nemət verdikdə, bu nemətin izini, əlamətini və səmərəsini öz üzərində Allaha göstər. Çünki bu, sənə bəxş olunan nemətin şükrü sayılır.

Amma Allah adama nemət, var-dövlət bəxş etdikdə, o bu nemətin əlamətini öz üzərində göstərmirsə, məsələn, insanlar arasına sanki Allahın ən miskin qulu kimi cır-cındır paltarda çıxırsa, həqiqətdə bu adam Allahın nemətinə qarşı nankorluq etmiş saylır. Axı necə ola bilər ki, uca Allah sənə var-dövlət bəxş etsin, sən də bunun müqabilində insanlar arasına kasıbların geyindiyi paltarda və ya ondan da betər halda çıxasan? Yaxud uca Allah sənə var-dövlət verir, sən isə xəsislik edib bu var-dövləti nə Allahın sənə vacib buyurduğu yerlərə, nə də müstəhəb yerlərə xərcləyirsən? Allah sənə elm bəxş edir, amma bu elmin əlamətini sənin üzərində görmür. Belə ki, *bu elm sayəsində* sən nə ibadətini artırırsan, nə təqvanı, nə də gözəl davranışını. Habelə, nə insanlara elm öyrədirsən, nə də ki, elmi yayırsan. Bunların hamısı bir növ Allahın quluna bəxş etmiş olduğu nemətini gizlətmək, hətta inkar etmək sayılır.

Dolayısıyla, hər dəfə Allah insana nemət bəxş etdikcə həmin adam bu nemətin əlamətini mütləq üzə çıxarıb öz üzərində göstərməlidir ki, Allahın nemətini inkar etmiş sayılmasın. Müvəffəq edən Allahdır.

Yüz iyirmi ikinci fəsil

İpək paltar geyinməyin, habelə ipək bir şeyin üzərində oturmağın və ya ona söykənməyin kişilərə haram olması, qadınlara isə ipək paltar geyinməyin icazəli olması

Mövzu ilə əlaqəli hədislər:

٨٠٤ – عَنْ عُمَرَ بْنِ الخَطَّابِ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « لاَ تَلْبَسُوا الحَرِيرَ، فَإِنَّ مَنْ لَبِسَهُ فِي الدُّنْيَا لَمْ يَلْبَسْهُ فِي الآخِرَةِ. » متفقٌ عليه.

804. Ömər ibn əl-Xəttab ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"İpək *paltar* geyinməyin! Çünki bu dünyada ipək geyinən kimsə Axirətdə onu geyinməyəcəkdir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٨٠٥ - وَعَنْهُ قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ ﷺ يَقُولُ: « إِنَّمَا يَلْبَسُ الحَرِيرَ مَنْ لَا خَلَاقَ لَهُ» متفقٌ عليه.

وفي روايةٍ للبُخاريَ: « مَنْ لاَ خَلاَقَ لَهُ فِي الآخِرَةِ ».

قولُهُ: « مَنْ لَا خَلاَقَ لَهُ »، أَيْ: لاَ نَصيبَ لَهُ.

805. Yenə rəvayət edilir ki, Ömər ﷺ demişdir: "Mən Allahın elçisinin ﷺ belə dediyini eşitdim: **"İpəyi sadəcə *ondan* heç bir nəsibi olmayan kimsə geyinər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Buxarinin rəvayətində isə: **"Axirətdə heç bir nəsibi olmayan kimsə geyinər"**– deyilir.

"Heç bir nəsibi olmayan kimsə", yəni heç bir payı olmayan kimsə.

٨٠٦ – وَعَنْ أَنَسٍ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « مَنْ لَبِسَ الحَرِيرَ فِي الدُّنْيَا لَمْ يَلْبَسْهُ فِي الآخِرَةِ » متفقٌ عليه.

---

[1] "Səhih əl-Buxari", 5830; "Səhih Muslim", 2069.

[2] "Səhih əl-Buxari", 5835; "Səhih Muslim", 2068.

806. Ənəs ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Bu dünyada ipək geyinən kimsə Axirətdə onu geyinməyəcəkdir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٨٠٧ – وَعَنْ عَلِيٍّ ﷺ قَالَ: رَأَيْتُ رَسُولَ اللَّهِ ﷺ أَخَذَ حَرِيراً، فَجَعَلَهُ فِي يَمِينِهِ، وَذَهَباً فَجَعَلَهُ فِي شِمَالِهِ، ثُمَّ قَالَ: « إِنَّ هَذَيْنِ حَرَامٌ عَلَى ذُكُورِ أُمَّتِي ». رواهُ أبو داود بإسنادٍ حسن

807. Rəvayət edilir ki, Əli ﷺ demişdir: "*Bir dəfə* gördüm ki, Rəsulullah ﷺ sağ əlinə ipəyi, sol əlinə də qızılı götürdü və belə dedi: **"Həqiqətən, bu ikisi ümmətimin kişilərinə haramdır".**

Bu hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

٨٠٨ – وَعَنْ أَبِي مُوسَى الأَشْعَرِيِّ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ قَالَ: « حُرِّمَ لِبَاسُ الحَرِيرِ وَالذَّهَبِ عَلَى ذُكُورِ أُمَّتِي، وَأُحِلَّ لِإِنَاثِهِمْ ». رواهُ الترمذي وقال حديثٌ حسن صحيح.

808. Əbu Musa əl-Əşari ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"İpək paltar və qızıl ümmətimin kişilərinə haram, qadınlarına isə halal edildi".**

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən-səhih" hədisdir"– demişdir.[3]

٨٠٩ – وَعَنْ حُذَيْفَةَ ﷺ قَالَ: نَهَانَا النَّبِيُّ ﷺ أَنْ نَشْرَبَ فِي آنِيَةِ الذَّهَبِ وَالفِضَّةِ، وَأَنْ نَأْكُلَ فِيهَا، وَعَنْ لُبْسِ الحَرِيرِ وَالدِّيبَاجِ وَأَنْ نَجْلِسَ عَلَيْهِ. رواه البخاري.

809. Rəvayət edilir ki, Huzeyfə ﷺ demişdir: "Peyğəmbər ﷺ bizə qızıl və gümüş qablarda içməyi, habelə onlarda *yemək* yeməyi, ipək və zərxara geyinməyi, onların üstündə oturmağı qadağan etdi".

Bu hədisi Buxari rəvayət etmişdir.[4]

---

[1] "Səhih əl-Buxari", 5832; "Səhih Muslim", 2073.

[2] "Sunən Əbu Davud", 4057; "Səhih ət-Tərğib vət-Tərhib", 2049.

[3] "Sunən ət-Tirmizi", 1720; "Səhih əl-Cami", 3137.

[4] "Səhih əl-Buxari", 5837.

Şərh:

Nəvəvi ﵀ "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"İpək paltar geyinməyin, habelə ipək bir şeyin üzərində oturmağın və ya ona söykənməyin kişilərə haram olması, qadınlara isə ipək paltar geyinməyin icazəli olması"** adını vermişdir. Müəllif bu üç şeyin, yəni ipək paltar geyinməyin, onun üstündə oturmağın və ona söykənməyin məhz kişilər üçün haram olduğunu qətiyyətlə vurğulamışdır. Çünki Ömər ibn əl-Xəttabdan, Əli ibn Əbu Talibdən, Ənəs ibn Malikdən, Əbu Musa əl-Əşaridən və Huzeyfə ibn Yəməndən ﵃ rəvayət etdiyi hədislərin hamısı qızıl taxmağın və ipək geyinməyin kişilərə haram olduğuna dəlalət edir.

Ömər ibn əl-Xəttabın ﵁ rəvayət etdiyi hədisdə keçir ki, bu dünyada ipək geyinən kimsə Axirətdə onu geyinməyəcəkdir. Yəni, bir kişi bu dünyada ipək geyinərsə, Axirətdə onu geyinməyəcəkdir. Bu isə bir növ təhdid olub kişilərin ipək geyinməsinin böyük günahlardan olmasına dəlalət edir. Çünki Axirətdə ondan məhrum olacaqlarına dair açıq-aydın bir hədə vardır. Elm əhlinə görə, barəsində Axirət təhdidi olan hər bir günah böyük günah sayılır. İpək paltar dedikdə, buna köynək, şalvar, mayka, baş örtüyü, təkkə və başqa bu kimi geyimlərin hamısı aiddir. Bütün bu ipək paltarların hamısı kişilərə haramdır. İstər az miqdarda olsun, istərsə də çox, kişilərə ipəkdən olan paltarlar geyinmək haramdır.

Əli ibn Əbu Talibin ﵁ rəvayət etdiyi hədisdə isə deyilir ki: "*Bir dəfə* Rəsulullah ﷺ sağ əlinə ipəyi, sol əlinə də qızılı götürdü və belə dedi: **"Həqiqətən, bu ikisi ümmətimin kişilərinə haramdır".** Demək, bunlar qadınlara halaldır. Qadınlara halal olmasının hikməti də odur ki, onlar öz ərləri üçün bəzənməlidirlər. Ona görə də qızıl və ipək qadınlara hala buyurulmuşdur. Kişinin isə bu cür şeylərə ehtiyacı yoxdur. Bu səbəbdən də qızıl və ipək kişilərə haram buyurulmuşdur.

Ömər ibn əl-Xəttabın ﵁ rəvayət etdiyi digər hədisdə də keçir ki, ipəyi sadəcə *ondan* heç bir nəsibi olmayan kimsə geyinər. Yəni Axirətdən heç bir payı olmayan kimsə geyinər. Bu səbəbdən də bəzi alimlərin fikrinə görə, bu dünyada ipək geyinən kişi Cənnətə girməyəcəkdir. Allah qorusun!

Həmçinin Peyğəmbər ﷺ demişdir: **"Çünki bu dünyada ipək geyinən kimsə Axirətdə onu geyinməyəcəkdir".** Yəni bu o deməkdir ki, həmin adam Cənnətə girməyəcəkdir. Lakin bəzi alimlər belə demişlər: "Əksinə,

həmin adam Cənnətə daxil olacaq, lakin Cənnət əhlinin oradakı geyimləri ipək olsa da, bu adam o nemətdən məhrum olacaqdır. İpəyin əvəzinə isə başqa bir şey geyinəcək. Bu hal tövbə etməyən şəxsə aiddir. Əgər adam etdiyi günaha görə tövbə edərsə, şübhəsiz ki uca Allah tövbə edənin günahını bağışlayar. Bu xüsusda uca Allah belə buyrur: ***"Qullarıma mənim bu sözümü*** **de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım, Allahın rəhmətindən ümidinizi üzməyin! Şübhəsiz ki, Allah bütün günahları bağışlayır".**[1]

Bütün bunlar barama qurdunun əmələ gətirdiyi təbii ipəyə aiddir. Süni ipək isə haram deyildir. Lakin kişinin onu belə geyinməsi məsləhət deyil. Çünki bu cür paltar incə və zərif olduğu üçün, kişinin təbiətinə təsir edir və onu dəyişdirir. Halbuki, kişi sərt və heybətli olmalı, onu incə və zərif göstərəcək paltarlar deyil, əksinə, onu heybətli və kişi kimi göstərəcək paltarlar geyinməlidir.

"Süni ipək geyinmək haram deyildir" deməkdə məqsədimiz, geyinildiyi zaman kənardan seçilməyən təkkə və ya şalvar kimi geyimlərə aiddir. Süni ipəkdən olan belə paltarları geyinməkdə qəbahət yoxdur. Lakin halal olsa da, süni ipəkdən olan köynək və ona bənzər geyimləri geyinmək məsləhət deyil. Çünki bu geyimlər, bir az öncə də qeyd etdiyimiz kimi, kişini incə və zərif məxluq olan qadına bənzədəcək. Həm də kənardan bunu görən avam birisi elə güman edəcək ki, onun geyindiyi bu paltar təbii ipəkdir və kişilərə ipək geyinmək olar. Bəlkə də, həmin adam bundan sonra *təbii ipək geyinərək* onu təqlid etməyə başlayacaqdır. İnsanın şübhəli şeylərdən kənar durması onun üçün daha salamatdır.

İpək kimi, qızıl da kişilərə haram, qadınlara isə halaldır. Çünki qadınlar öz ərləri üçün bəzənməyə möhtacdırlar. Qızıldan olan nişan üzüyünün də kişilər üçün haram olmasında şübhə yoxdur. Lakin qadınlara gəldikdə, bunun hökmü onların etiqadlarından asılı olaraq dəyişir. Əgər qadın etiqad etsə ki, nişan üzüyü qadını öz ərinə bağlayır, o zaman bu haramdır. Yox, əgər etiqad etsə ki, bu üzük də adi üzüklərdən biridir, o halda icazəlidir. Daha doğrusunu isə Allah bilir.

[1] "əz-Zumər" surəsi, 53.

Yüz iyirmi üçüncü fəsil

Qaşınma xəstəliyi olan kimsəyə ipək paltar geyinməyin icazəli olması

Mövzu ilə əlaqəli hədis:

٨١٠ – عَنْ أَنَسٍ ﵁ قَالَ: رَخَّصَ رَسُولُ اللَّهِ ﷺ لِلزُّبَيْرِ وَعَبْدِ الرَّحْمنِ بْنِ عَوْفٍ ﵄ فِي لُبْسِ الحَرِيرِ لِحِكَّةٍ بِهِمَا. متفقٌ عليه.

810. Rəvayət edilir ki, Ənəs ﵁ demişdir: "Zubeyrin və Abdurrəhman ibn Aufun bədənində qaşınma xəstəliyi olduğuna görə Rəsulullah ﷺ onlara ipək geyinməyə rüxsət vermişdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" adlı kitabındakı bu fəslə **"Qaşınma xəstəliyi olan kimsəyə ipək paltar geyinməyin icazəli olması"** adını vermişdir.

Əvvəlki fəsillərdən bilirik ki, Peyğəmbər ﷺ kişilərə ipəyi qadağan etmiş və belə demişdir: **"İpəyi sadəcə *ondan* heç bir nəsibi olmayan kimsə geyinər".** Digər hədisdə isə belə demişdir: **"Bu dünyada ipək geyinən kimsə Axirətdə onu geyinməyəcəkdir".**

Lakin ehtiyac duyulduğu zaman ipək geyinmək icazəlidir. Məsələn, bir insanın bədənində qaşınma xəstəliyi, yəni allergiya olarsa və həmin adam ipək geyinməyə ehtiyac duyarsa, onda o, ipək geyinə bilər. Amma bir şərtlə ki, həmin paltar birbaşa boş bədənə geyinilsin, *yəni dəriyə təmas etsin.* Çünki ipək incə, yumşaq və sərin olduğu üçün qaşınma əleyhinə münasibdir və onun qarşısını alır. Elə bu səbəbdən də Peyğəmbər ﷺ Abdurrəhman ibn Aufa və Zubeyrə ﵄, bədənlərində qaşınma olduğu üçün ipək geyinməyə rüxsət vermişdir.

---

[1] "Səhih əl-Buxari", 5839; "Səhih Muslim", 2076.

Bundan əlavə, əgər ipək dörd barmaq qədər və ya ondan daha az bir miqdarda olarsa, yəni *paltarda olan* ipəyin eni dörd barmaq qədər və ya ondan az ölçüdədirsə, onda bu paltarı geynməkdə qəbahət yoxdur. Çünki Peyğəmbər ﷺ buna icazə vermişdir. Məsələn, bir adamın əbasının bir hissəsində ipək xətlər və ya naxışlar varsa və bunların eni dörd barmaqdan azdırsa, bunu geyinməkdə qəbahət yoxdur.

Yaxud əgər bir paltar ipəklə pambıq qarışığından və ya ipəklə yun qarışığından hazırlanıbsa və bu paltarda pambığın və ya yunun faizi ipəyə nisbətdə çoxluq təşkil edirsə, belə paltarı geyinməkdə də qəbahət yoxdur.

Dördüncü rüxsət isə döyüş zamanıdır. Yəni, müsəlman ordusu ilə kafirlərin ordusu üz-üzə gəldikdə, insanın ipək paltar geyinməsində heç bir qəbahət yoxdur. Çünki bu hərəkət kafirləri qəzəbləndirir və onlara psixoloji təsir göstərir. Kafiri qəzəbləndirib ona psixoloji təsir göstərən hər bir şey icazəlidir.

Xülasə budur ki, dörd növ paltar istisna olmaqla, kişilərə ipək paltar geyinmək haramdır:

1. Qaşınma, allergiya və sairə xəstəliklərdən dolayı ipək geyinməyə ehtiyac duyulduqda. Lakin bu zaman həmin paltar birbaşa boş bədənə geyinilməlidir, *yəni dəri ilə təmasda olmalıdır.* Bunun hikməti isə bəllidir;

2. Paltarda olan ipək dörd barmaq qədər və ya ondan daha az ölçüdə olduqda;

3. Paltarda ipək qarışığı varsa və bu ipəyin faizi o biri qarışıqlara nisbətdə azlıq təşkil etdikdə;

4. Döyüşdə kafirləri qəzəbləndirib onlara psixoloji təsir göstərmək üçün.

Bu dörd halda kişiyə ipək paltar geyinmək icazəlidir.

Yüz iyirmi dördüncü fəsil

Pələng dərisindən yorğan-döşək kimi istifadə etməyin, habelə *ondan düzələn yəhərin* üzərinə minməyin qadağan olması

Mövzu ilə əlaqəli hədislər:

٨١١ – عَنْ مُعَاوِيَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ:«لاَ تَرْكَبُوا الخَزَّ وَلاَ النِّمَارَ ».

حديث حسن، رواهُ أَبو داود وغيره بإسنادٍ حسنٍ.

811. Müaviyə ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"İpək və pələng *dərisindən düzədilmiş yəhərlərin* üzərinə minməyin".**

Bu, həsən hədisdir. Onu Əbu Davud və başqaları həsən isnadla rəvayət etmişdir.[1]

٨١٢ – وَعَنْ أَبِي المَلِيْحِ عَنْ أَبِيْهِ ﷺ أَنَّ رَسُولَ اللَّهِ ﷺ نَهَى عَنْ جُلُودِ السِّبَاعِ.

رواهُ أبو دَاود، والترمذي، والنسائي بأَسَانِيد صحاح.

وفي روايةِ الترمذي: نَهَى عَنْ جُلُودِ السِّبَاعِ أَنْ تُفْتَرَشَ.

812. Əbu Məlih atasından ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ yırtıcı heyvanların dərilərini istifadə etməyi qadağan etmişdir.

Bu hədisi Əbu Davud, Tirmizi və Nəsai səhih isnadlarla rəvayət etmişlər.[2]

Tirmizinin rəvayətində belə deyilir: "Yırtıcı heyvanların dərilərini yorğan-döşək kimi istifadə etməyi qadağan etmişdir".

Şərh:

Bu fəsil pələng dərisindən geyim kimi istifadə etməklə əlaqəlidir.

---

[1] "Sunən Əbu Davud", 4129; "Səhih əl-Cami", 7283.

[2] "Sunən Əbu Davud", 1639; "Sunən ət-Tirmizi", 681; "Sunən ən-Nəsai", 2600; "Sunən İbn Macə", 4228; "Səhih əl-Cami", 1947; "Səhih ət-Tərğib vət-Tərhib", 3306; "Silsilə əl-Əhadis əs-Səhihə", 341. Şeyx Albani bu hədisin isnadının "zəif" olduğunu demişdir. Bax: "Mişkat əl-Məsabih", 3554.

Pələng, hamının tanıdığı vəhşi heyvandır. İnsanın pələng dərisindən hazırlanmış xəz paltar geyməsi icazəli deyildir. Eynilə, yırtıcı heyvanların dərilərindən hazırlanmış xəz paltarları da geyinmək icazəli deyildir. Buna başqa bir hədis dəlalət edir. Çünki yırtıcı heyvanların dəriləri nəcis, yəni murdar sayılır. Bütün yırtıcı heyvanlar murdar sayılır. Bunların ən murdarı isə itdir. Çünki itin murdarlığı daha ağırdır. Belə ki, onu təmizləmək üçün həmin yer birincisi torpaqla olmaqla, yeddi dəfə yuyulmalıdır. Ondan qeyri yırtıcı heyvanlar da murdardırlar. Amma onların murdarlığı itin murdarlığı kimi ağır deyil.

Hər bir halda canavarın, pələngin və digər yırtıcı heyvanların dəriləri haramdır. Məsələn, şir dərisini geyinmək və onu yorğan-döşək kimi istifadə etmək haramdır. Çünki Peyğəmbər ﷺ bunu qadağan etmişdir. Məsələn, onlardan döşəkçə düzəldib üzərində oturmaq da haramdır.

Qoyun, keçi və kəsilməsi halal olan digər heyvanlara gəldikdə isə, onların dərilərindən yorğan-döşək və ya geyim kimi istifadə etmək icazəlidir. Çünki bu dərilər pakdır. Pak olan şeylərdən isə istifadə etmək olar.

Yüz iyirmi beşinci fəsil

Yeni paltar geyindikdə nə deyilir

Mövzu ilə əlaqəli hədis:

٨١٣ – عَنْ أَبِي سَعِيدٍ الخُدْرِيِّ ﷺ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا اسْتَجَدَّ ثَوْباً سَمَّاهُ بِاسْمِهِ – عِمَامَةً، أَوْ قَمِيصاً، أَوْ رِدَاءً – يَقُولُ: « اللَّهُمَّ لَكَ الحَمْدُ أَنْتَ كَسَوْتَنِيهِ، أَسْأَلُكَ خَيْرَهُ وَخَيْرَ مَا صُنِعَ لَهُ، وَأَعُوذُ بِكَ مِنْ شَرِّهِ وَشَرِّ مَا صُنِعَ لَهُ ». رواهُ أبو داود، والترمذي وقال: حديث حسن.

813. Rəvayət edilir ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "Rəsulullah ﷺ təzə libas geydikdə – əmmamə, yaxud köynək, yaxud rida, hər nə olarsa – onun adını çəkərək belə dua edərdi: **"Allahım, həmd Sənədir! Bunu mənə Sən geyindirdin. Onun *hər cür* xeyrini və onun istifadəsinin xeyrini Səndən diləyir, həmçinin onun *hər cür* şərindən və onun istifadəsinin şərindən Sənə sığınıram!"**[1]

Bu hədisi Tirmizi rəvayət etmiş və: "Bu, "həsən" hədisdir"– demişdir.[2]

Şərh:

Bu fəsil insanın yeni bir şey geyindiyi zaman nə deyəcəyi, yəni necə dua edəcəyi ilə bağlıdır. Şübhəsiz ki, insan Allahın istədiyindən başqa özünə nə bir fayda, nə də bir zərər yetirməyə qadirdir. Eləcə də bizim yediyimiz, içdiyimiz və geyindiyimiz hər nə varsa, izzətli və qüdrətli Allahın bizə verdiyi nemətidir. Bütün bunları bizim üçün yaradan Allahdır. Əgər uca Allah bütün bu şeyləri *əldə etməyi* bizim üçün asanlaşdırmasaydı, biz onları əldə edə bilməzdik. Əgər Allah istəsəydi, bütün bunları bizim əlimizdən alardı və biz də bundan sonra heç bir şey qazana bilməzdik. Yenə də Allah istəsəydi, bütün bu nemətləri mövcud etdiyi halda, *Onun izni olmadan* biz nə yeməyə, nə içməyə, nə də geyinməyə bir şey əldə edə bilməzdik.

---

[1] Transkripsiyası: Allahummə, ləkəl-həmdu əntə kəsəvtənihi, əs'ələukə xayrahu və xayra mə suniə ləh, və əuzu bikə min şərrihi və şərri mə suniə ləh.

[2] "Sunən Əbu Davud", 4020; "Sunən ət-Tirmizi", 1767; "Səhih əl-Cami", 4664.

Uca Allah buyurur: «**De: "Deyin görüm, əgər suyunuz *yerin dibinə* çöksə, *Allahdan başqa* kim sizə axar su gətirə bilər?"**»[1]

Əlimizdə olan hər bir nemət Allah tərəfindəndir. Geyim də bu nemətlərdən biridir. Əgər Allah Öz lütfü ilə sənə köynək, şalvar, baş örtüyü, əba, mayka və sairə kimi yeni paltar əta edərsə, onları geyindikdə adlarını çəkərək: "Allahım, həmd Sənədir! Bunu mənə Sən geyindirdin"– deyə dua et. Məsələn: "Allahım, həmd Sənədir! Bu köynəyi mənə Sən geyindirdin. Bu şalvarı mənə Sən geyindirdin. Bu baş örtüyünü mənə Sən geyindirdin. Bu təkkəni mənə Sən geyindirdin. Bu əbanı mənə Sən geyindirdin. Bu maykanı mənə Sən geyindirdin"– deyə dua et. Yəni geyindiyin hər bir yeni şey üçün Allaha həmd et və: "Allahım, həmd Sənədir! Bunu mənə Sən geyindirdin. Onun *hər cür* xeyrini və onun istifadəsinin xeyrini Səndən diləyir, həmçinin, onun *hər cür* şərindən və onun istifadəsinin şərindən Sənə sığınıram!"– deyə dua et.

Çünki yeni geyindiyin bu paltar sənin başına şər bir işin gəlməsinə səbəb ola bilər. Məsələn, paltarın bir ucu yanmağa başlayar və yana-yana səni də yandıra bilər. Və ya içində bilmədiyin zəhərli həşərat ola bilər və o sənə zərər toxundurar. Yaxud bu paltar səni təkəbbürlüyə, özünü insanlardan uca tutmağa sövq edə bilər, ya da sənin fitnəyə məruz qalmağına səbəb ola bilər. Ən pisi və ən şər olanı da elə budur. Buna özlərini qərbin kafir qadınlarına bənzətməyə çalışan qadınların istifadə etdikləri geyimləri misal gətirmək olar. Bir sözlə, yeni paltar geyindikdə: "Allahım, Onun *hər cür* şərindən və onun istifadəsinin şərindən Sənə sığınıram!"– deməlisən. Çünki bu paltar şər bir əməl üçün səbəb ola bilər. Odur ki, dörd cümlədən ibarət olan bu duanı mütləq deməlisən: "Allahım, həmd Sənədir! Bunu mənə Sən geyindirdin. Onun *hər cür* xeyrini və onun istifadəsinin xeyrini Səndən diləyir, həmçinin, onun *hər cür* şərindən və onun istifadəsinin şərindən Sənə sığınıram!" Müvəffəq edən Allahdır.

[1] "əl-Mulk" surəsi, 30.

Yüz iyirmi altıncı fəsil

Paltar geyinərkən sağdan başlamağın müstəhəb olması

Bu fəslin mövzusu barəsində daha öncə (99-cu fəsildə) danışmışıq və orada ona aid olan səhih hədisləri də zikr etmişik.

YATMAQ ƏDƏBLƏRİ KİTABI

Yüz iyirmi yeddinci fəsil

Yatmaq, söykənmək, oturmaq, məclis və məclis iştirakçılarına *qarşı davranış* ədəbləri və yuxu *ilə bağlı məsələlər*

Mövzu ilə əlaqəli hədislər:

٨١٤ – عَنِ الْبَرَاءِ بْنِ عَازِبٍ ﷺ قَالَ: كَانَ رَسُولُ اللَّهِ ﷺ إِذَا أَوَى إِلَى فِرَاشِهِ نَامَ عَلَى شِقِّهِ الأَيْمَنِ، ثُمَّ قَالَ: « اللَّهُمَّ أَسْلَمْتُ نَفْسِي إِلَيْكَ، وَوَجَّهْتُ وَجْهِي إِلَيْكَ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ، وَأَلجَأْتُ ظَهْرِي إِلَيْكَ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ، لَا مَلْجَأَ وَلَا مَنْجَى مِنْكَ إِلاَّ إِلَيْكَ، آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ ». رواه البخاري بهذا اللفظ في كتاب الأدب من صحيحه.

814. Rəvayət edilir ki Bəra ibn Azib ﷺ demişdir: "Rəsulullah ﷺ yatağına uzandıqda sağ tərəfi üstə yatar və belə dua edərdi: **"Allahım, canımı Sənə təslim etdim, üzümü Sənə çevirdim, işimi Sənə həvalə etdim, Sənə ümid edərək və Səndən qorxaraq kürəyimi Sənə etibar etdim. Sığınacaq və Səndən (əzabından) xilas olmaq üçün nicat yeri *yenə* yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin kitaba və göndərdiyin Peyğəmbərinə iman gətirdim".**[1]

Bu hədisi Buxari "Səhih" əsərinin "Əxlaq" kitabında bu ləfzlə rəvayət etmişdir.[2]

٨١٥ – وَعَنْهُ قَالَ: قَالَ لِي رَسُولُ اللَّهِ ﷺ: « إِذَا أَتَيْتَ مَضْجَعَكَ فَتَوَضَّأْ وُضُوءَكَ لِلصَّلَاةِ، ثُمَّ اضْطَجِعْ عَلَى شِقِّكَ الأَيْمَنِ، وَقُلْ.. » وَذَكَرَ نَحْوَهُ، وَفِيهِ: « وَاجْعَلْهُنَّ آخِرَ مَا تَقُولُ » متفقٌ عليه.

---

[1] Transkripsiyası: Allahummə, əsləmtu nəfsi ileykə və vaccəhtu vachi ileykə və fəvvədtu əmri ileykə və əlcətu zahri ileykə, rağbətən və rahmətən ileyk. Lə məlcə vələ məncəə minkə illə ileyk. Aməntu bikitabikəl-ləzi ənzəltə və binəbiyyikəl-ləzi ərsəlt.

[2] "Səhih əl-Buxari", 6315.

815. Yenə Bəra ibn Azibdən ﷺ rəvayət edilir ki, o demişdir: "Rəsulullah ﷺ mənə belə demişdir: **"Yatağına girəcəyin zaman namaz üçün dəstəmaz aldığın kimi dəstəmaz al, sonra sağ yanın üstə uzan və belə de: ..."** *Bunun ardından Rəsulullah ﷺ əvvəlki hədisdə keçən duanın* bənzərini zikr etmişdir. Bu rəvayətdə isə *əlavə olaraq* ***"Yatmazdan əvvəl*** **söyləyəcəyin ən son sözlər bunlar olsun!"** kəlməsi də keçir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ﷺ "Salehlər bağçası" kitabında insanın həyatı boyu ehtiyac duyduğu yatmaq, oturmaq, dostluq etmək və sairə bu kimi ədəbləri zikr etmişdir. Bu da "Salehlər bağçası" kitabının nə qədər geniş və əhatəli bir kitab olduğuna dəlalət edir. Hər bir müsəlman bu kitaba sahib olmalı, onu diqqətlə oxumalı və içində yazılanları dərk etməyə çalışmalıdır.

Müəllif ﷺ ilk öncə yuxu ədəblərini zikr edir. Şübhəsiz ki, yuxu izzətli və qüdrətli Allahın dəlillərindən biri olub Onun qüdrətinin, rəhmətinin və hikmətinin kamil olmasına dəlalət edir. Bu xüsusda uca Allah belə buyurur: **"Gecə və gündüz yatıb dincəlməyiniz, Onun lütfünü axtarmağınız da Onun dəlillərindəndir".**[2] Yuxu, Allahın qullarına bəxş etdiyi bir nemətdir. Çünki insan yorğunluqdan sonra yatıb dincini alır və görəcəyi növbəti iş üçün güc toplayır. Yəni, yatmaq həm keçmiş, həm də gələcək etibarilə insana fayda verir. Demək, yatmaq dünya həyatını kamil edən vasitələrdəndir. Çünki dünya həyatı naqisdir və o, istirahət vasitəsi olan yatmaqla tamamlanır.

Bununla belə, yuxu, *bütün yaradılanların* Qəyyumu olan izzətli və qüdrətli Allah üçün naqis bir sifət sayılır. Ona görə də uca Allah belə buyurmuşdur: **"Onu nə mürgü, nə də yuxu tutar".**[3] Allahın hər bir vəsfdə kamil olması üçün nə yuxuya, nə də başqa bir şeyə ehtiyacı yoxdur. Həqiqətən O, Zəngindir, Tərifəlayiqdir.

---

[1] "Səhih əl-Buxari", 6311; "Səhih Muslim", 2710.

[2] "ər-Rum" surəsi, 23.

[3] "əl-Bəqərə" surəsi, 255.

İnsana gəlincə, o, bu dünya həyatında naqis bir varlıqdır və o, bu naqisliklərini tamamlamağa möhtacdır. Yuxu da bu naqisliklərı tamamlayan bir vasitədir. Ümumiyyətlə, yuxu elə bir şeydir ki, həmin vaxt uca Allah insanın canını alır. Lakin yuxuda canın alınması ölüm anında ruhun tamamilə alınması kimi deyildir. Bu səbəbdən də insanın yuxuda olarkən heç bir şey hiss etməyən, ölü ilə diri arası bir durumda olduğunu görürsən. Bu zaman o, nə söz eşidir, nə görür, nə də iy duya bilir. Amma onun ruhu bədənindən tamamilə çıxmır.

Uca Allah buyurur: **"Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır".**[1] Ayənin əvvəlində zikr olunan **"Allah ölənlərin canını ölüm anında alır"** kəlməsi həqiqi ölümdür. **"Ölməyənlərin canını isə onlar yuxuda ikən alır",** yəni yuxuda ikən onları öldürüb canlarını alır ki, *bu da bir növ müvəqqəti ölümdür.* **"Ölümünə hökm verdiyi kəsin canını saxlayır"** – bu, ayədə zikr olunan birinci, yəni həqiqi ölümdür. **"Digərini isə müəyyən olunmuş vaxtadək buraxır"** – bu isə yuxuda olan insana aiddir. Yəni, yuxuda olarkən *ölümünə qərar verilməmiş insanın* ruhunu sonradan geri qaytarır. Çünki uca Allahın yanında hər şeyin müəyyən ölçüsü və bəlli bir əcəli vardır. Uca Allahın hər işi son dərəcə mükəmməl hikmətə bağlıdır.

Həqiqətən, yuxu izzətli və qüdrətli Allahın dəlillərindən biridir. Məsələn, otaqda, damda və ya başqa bir yerdə yatan bir toplum adamın yanına gəldikdə, onların ölü kimi olduğunu hiss edirsən. Sonra isə uca Allah onları dirildib həyata qaytarır. Bu xüsusda uca Allah belə buyurur: **"Gecələr sizi öldürən (yatızdıran), gündüzlər isə nələr etdiyinizi bilən Odur. Sonra O sizi səhərlər dirildir (oyadır) ki, müəyyən olunmuş əcəliniz gəlib çatsın. Sonra isə dönüşünüz Ona olacaq".**[2]

Yatmaq, başqa bir yöndən, insanların öldükdən sonra yenidən dirilməsinə də işarədir. Çünki oyanıb bu dünyadakı işlərini yerinə yetirsin deyə, insanın ruhunu ona qaytarmağa qadir olan Allah ölüləri qəbirlərindən qaldırmağa, başqa sözlə onları yenidən diriltməyə də qadirdir. Bir sözlə, Allah hər şeyə qadirdir.

---

[1] "əz-Zumər" surəsi, 42.

[2] "əl-Ənam" surəsi, 60.

Yatmaq ədəblərinə gəlincə, bunlardan biri insanın sağ tərəfi üzərində yatmasıdır. Çünki Peyğəmbər ﷺ həm özü belə yatmış, həm də bu cür yatmağı əmr etmişdir. Bəra ibn Azib رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ sağ tərəfi üzərində uzanardı. Həmçinin, Peyğəmbər ﷺ Bəra ibn Azibə رضي الله عنه sağ tərəfi üzərində yatmağı əmr etmişdir. *Yatarkən* qiblənin arxaya, önə, sağa və ya sola düşməsindən asılı olmayaraq, ən fəzilətli olan budur. Peyğəmbərin ﷺ əmrinə görə önəmli olan sağ tərəf üzərində yatmaqdır.

Bəzi adamlar sol tərəfi üzərində yatmağa adət etdiklərinə görə sağ tərəfi üzərində yatdıqda yuxuları gəlmir. Gərək bu adamlar özlərini sağ tərəf üzərində yatmağa alışdırsınlar. Çünki bu məsələ xırda və önəmsiz məsələlərdən deyil. Çünki Peyğəmbərdən ﷺ həm özünün belə etməsi, həm də belə etməyi əmr etməsi sabit olmuşdur. Elə isə, sağ tərəfinin üzərində yatarkən Peyğəmbərin ﷺ həm sünnəsinə, həm də əmrinə itaət etdiyini düşün. *Əgər sağ tərəfinin üzərində yatmağa öyrəşməmisənsə,* o zaman sağ tərəf üzərində yatmağı bacarana qədər bir gün və ya iki gün, alınmasa bir həftə boyunca özünü buna alışdırmağa çalış. Belə etsən, həm Peyğəmbərin ﷺ əmrini yerinə yetirmiş olacaqsan, həm də onun sünnəsinə tabe olacaqsan.

Sünnə sayılan bir xüsus da yatarkən sağ əlini sağ yanağının altına qoymaqdır. Çünki bu hərəkət Rəsulullahdan ﷺ sabit olmuşdur. Əgər belə edə bilsən, bu sənin üçün həm gözəl, həm də əfzəl olar. Yox, əgər bunu bacara bilməsən, bil ki, bu məsələ sağ tərəf üzərində yatmaq kimi yerinə yetirilməsi mühüm olan bir məsələ deyil.

Yatmaq ədəblərindən biri də Peyğəmbərin ﷺ dediyi və deyilməsini əmr etdiyi bu duadır: **"Allahım, canımı Sənə təslim etdim, üzümü Sənə çevirdim, işimi Sənə həvalə etdim, Sənə ümid edərək və Səndən qorxaraq kürəyimi Sənə etibar etdim. Sığınacaq və Səndən (əzabından) xilas olmaq üçün nicat yeri *yenə* yalnız Sənə yönəlməkdir. Sənin nazil etdiyin kitaba və göndərdiyin Peyğəmbərinə iman gətirdim".** *Yatmazdan əvvəl* söyləyəcəyin ən son sözlər bunlar olsun! Yəni, ən son zikrin bu olsun. Edəcəyin başqa zikrləri bu zikrdən əvvələ sal. Məsələn, birinci bu zikri de: **"Ey Rəbbim, Sənin adınla böyrümü yerə qoydum, Sənin sayəndə də onu qaldırıram. Ruhumu tutub saxlasan, onu bağışla və ona rəhm et, onu buraxsan, əməlisaleh qullarını qoruduğun kimi, onu da qoru!"**[1]

[1] Transkripsiyası: Bismikə rabbi vədə'tu cənbi və bikə ərfəuhu. İn əmsəktə nəfsi fəğfir ləhə vərhəmhə və in ərsəltəhə fəhfəzhə bimə təhfəzu bihi ibadəkəs-salihin.

Əsas odur ki, ən son dediyin zikr Peyğəmbərin ﷺ Bəra ibn Azibə رضي الله عنه öyrətdiyi zikr olsun.

Başqa bir rəvayətdə deyilir ki, Peyğəmbər ﷺ Bəra ibn Azibə رضي الله عنه əmr edir ki, bu duanı onun üçün təkrar desin. Bəra ibn Azib رضي الله عنه də onu təkrar edir, lakin **"göndərdiyin Peyğəmbərinə iman gətirdim"** kəlməsinin əvəzinə **"göndərdiyin Elçinə iman gətirdim"** deyir. Bu zaman Peyğəmbər ﷺ ona: «**Xeyr! "Göndərdiyin Peyğəmbərinə iman gətirdim" de, "Elçinə" demə"**» – deyə buyurur.

Alimlər bunu belə açıqlamışlar: Rəsul / elçi kəlməsi həm insandan, həm də mələkdən olan elçi, yəni Cəbrail üçün də istifadə olunur. Məsələn, uca Allah belə buyurur: **"Həqiqətən, bu, göndərdiyimiz *Quran* möhtərəm bir elçinin sözüdür. *O elçi ki*, qüvvətlidir, Ərşin sahibi yanında *böyük* hörmət sahibidir".**[1]

Peyğəmbər dedikdə isə, bu yalnız insana aid olur. Dolayısıyla, **"göndərdiyin Peyğəmbərinə iman gətirdim"** deməklə Peyğəmbərə ﷺ aid olan iki şəhadəti cəm etmiş olacaqsan. Yəni, onun həm peyğəmbər olmasına, həm də elçi olmasına şahidlik etmiş olacaqsan. Demək, **"göndərdiyin Peyğəmbərinə iman gətirdim"** ləfzi **"göndərdiyin Elçinə iman gətirdim"** ləfzindən daha üstündür. Çünki sən **"göndərdiyin Elçinə iman gətirdim"** desən, bura Cəbrail də aid ola bilər. Çünki Cəbrail də eliçidir. Uca Allah peyğəmbərlərə göndərdiyi vəhyi Cəbrail vasitəsilə göndərmişdir. Elə isə: **"göndərdiyin Peyğəmbərinə iman gətirdim"**– de.

Bir sözlə, bu zikri əzbərləməli və yatmaq üçün yatağınıza girdiyiniz zaman onu deməlisiniz. Həmçinin, Peyğəmbərin ﷺ sünnəsinə tabe olmaq və onun tutduğu yolla getmək üçün bu zikri ən sonda deməlisiniz. Bütün bunlar yatmaq ədəblərindəndir.

İzzətli və qüdrətli Allahın hikmətindən və rəhmətindəndir ki, az qala insanın yerinə yetirdiyi hər bir hərəkətə aid ona uyğun bir zikr vardır – paltar üçün bir zikr, yemək-içmək üçün ayrı bir zikr, yatmaq üçün də başqa bir zikr. Hətta kişinin öz həyat yoldaşı ilə yaxınlıq etməsindən əvvəl edəcəyi bəlli bir zikr də vardır. Demək olar ki, hər bir şey üçün ona uyğun *dua və ya* zikr varid olub. Bu ona görədir ki, insan heç vaxt Allahı zikr

[1] "ət-Təkvir" surəsi, 19-20.

etməkdən qafil qalmasın, qəlbi və dili daim Allahı zikr etməklə məşğul olsun. Bu da Allahın bizə olan nemətidir. Uca Allahdan istəyimiz budur ki, daim Ona şükr etməyi bizə nəsib etsin və bu işdə bizə yardım etsin.

٨١٦ – وَعَنْ عَائِشَةَ ﵂ قَالَتْ: كَانَ النَّبِيُّ ﷺ يُصَلِّي مِنَ اللَّيْلِ إِحْدَى عَشْرَةَ رَكْعَةً، فَإِذَا طَلَعَ الْفَجْرُ صَلَّى رَكْعَتَيْنِ خَفِيفَتَيْنِ، ثُمَّ اضْطَجَعَ عَلَى شِقِّهِ الأَيْمَنِ حَتَّى يَجِيءَ الْمُؤَذِّنُ فَيُؤذِنَهُ. متفق عليه.

816. Aişə ﵂ rəvayət edir ki, Peyğəmbər ﷺ gecələr on bir rükət namaz qılardı. Dan yeri söküldükdə də iki rükət qısa namaz qılar, sonra da müəzzin gəlib onu *namaza* çağıranadək sağ böyrü üstə uzanıb *dincələrdi*.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٨١٧ – وَعَنْ حُذَيْفَةَ ﵁ قَالَ: كَانَ النَّبِيُّ ﷺ إِذَا أَخَذَ مَضْجَعَهُ مِنَ اللَّيْلِ وَضَعَ يَدَهُ تَحْتَ خَدِّهِ، ثُمَّ يَقُولُ: « اللَّهُمَّ بِاسْمِكَ أَمُوتُ وَ أَحْيَا » وَإِذَا اسْتَيْقَظَ قَالَ: «الحَمْدُ لِلَّهِ اَلَّذِي أَحْيَانَا بَعْدَ مَا أَمَاتَنَا وَإِلَيْهِ النُّشُورُ ». رواه البخاري.

817. Huzeyfədən ﵁ rəvayət olunur ki, o demişdir: «Peyğəmbər ﷺ gecə vaxtı yerinə uzandıqda əlini yastığının altına qoyar və deyərdi: **"Allahım, Sənin adınla ölüb-dirilirəm"**. Oyandıqda isə deyərdi: **"Öldükdən sonra bizi dirildən Allaha həmd olsun, dönüş də Onadır"**».

Bu hədisi Buxari rəvayət etmişdir.[2]

Şərh:

Müəllif İmam Nəvəvinin ﵀ "Salehlər bağçası" əsərində qeyd etdiyi bu hədislər yuxunun ədəbləri barəsindədir. Daha öncə qeyd etmişdik ki, Peyğəmbər ﷺ Bəra ibn Azibə ﵁ əmr etmişdir ki, sağ tərəfi üstə uzansın və belə desin: **"Allahım, canımı Sənə təslim etdim, üzümü Sənə çevirdim, işimi Sənə həvalə etdim...".** Bəyan etmişdik ki, daha əfzəl və sünnə olan odur ki, sağ tərəf üzərində yatasan.

---

[1] "Səhih əl-Buxari", 6310; "Səhih Muslim", 736.

[2] "Səhih əl-Buxari", 6312.

Huzeyfədən رضي الله عنه nəql olunan hədisdə də deyilir ki, insan sağ tərəfi üzərində yatmalıdır. Sağ əlin yastığın altında olmasına gəlincə isə bu, vacib deyil, lakin daha əfzəldir. Bunu edə bilirsənsə et, edə bilməsən etmə. Allaha həmd olsun ki, məsələ genişdir.

Peyğəmbər ﷺ əlini yastığın altına qoyub deyərdi: **"Allahım, Sənin adınla ölüb-dirilirəm".** Yəni, biz izzət və cəlal sahibi olan Allahın iradəsi ilə ölüb-dirilirik. Burada ölüm deyildikdə, yuxu ölümü nəzərdə tutulur. Daha doğrusunu Allah bilir. Çünki yuxu da ölüm adlanır. Ola da bilsin ki, burada əsl ölüm, yəni ruhun bədəni tamamilə tərk etməsi nəzərdə tutulsun. Bu xüsusda uca Allah buyurur: «**De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür!"**»[1]

Peyğəmbər ﷺ oyanıb qalxdıqda isə deyərdi: **"Öldükdən sonra bizi dirildən Allaha həmd olsun, dönüş də Onadır".** Bu da dəlildir ki, ölüm sözündən məqsəd kiçik ölüm, yəni yuxudur: **"Allahım, Sənin adınla ölüb-dirilirəm"**.

Aişədən رضي الله عنها nəql olunan hədisdə o xəbər vermişdir ki, Peyğəmbər ﷺ gecə vaxtı on bir rükət namaz qılardı. Ən çox qıldığı belə olardı – ya on bir rükət, ya da on üç rükət. Bəzən də bundan az olurdu. Bu da Peyğəmbərin ﷺ halına görə dəyişirdi.

Daha sonra fəcr girdikdə iki rükət qısa fəcrin sünnəsini qılardı. Sünnəyə görə həmin iki rükət qısa qılınmalıdır. Birinci rükətdə **"De ki, ey kafirlər!"** surəsini *("əl-Kafirun" surəsi)* oxuyur, ikinci rükətdə isə **"De ki, Allah Təkdir!"** surəsini *("əl-İxlas" surəsi)* oxumalıdır. Yaxud, birinci rükətdə "əl-Bəqərə" surəsinin bu ayəsini oxuyur: «**Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun nəslinə nazil olanlara, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların heç birini digərindən fərqləndirmirik. Biz yalnız Ona təslim olanlarıq!"**»[2], ikinci rükətdə isə "Ali-İmran" surəsindəki bu ayəni oxuyur: «**De: "Ey Kitab əhli! Bizimlə sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allahdan başqasına ibadət etməyək, Ona**

[1] "əl-Ənam" surəsi, 162.

[2] "əl-Bəqərə" surəsi, 136.

heç bir şeyi şərik qoşmayaq və Allahı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar yenə üz çevirsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!"» [1]

Qısası, bu iki rükətin qiyamını, səcdəsini, rükusunu, oturuşunu qısa qılır, ancaq bir şərtlə ki, namazı rahat şəkildə qılır. Çünki namazını rahat şəkildə qılmazsa, namazı batil olar.

Sonra Peyğəmbər ﷺ iki rükəti qıldıqdan sonra müəzzin iqamə verənədək sağ tərəfi üzərində uzanardı. Yəni, iqamənin vaxtının çatdığı ona bildirilənədək uzanardı. Sonra çıxıb namaz qılardı.

Bu hədisdə bir sıra faydalar vardır:

1. İzzət və cəlal sahibi olan Allahın nemətlərindəndir ki, O, Peyğəmbərin ﷺ gecə vaxtı etdiklərini zövcələri vasitəsilə bizlərə çatdırmışdır. Peyğəmbərin ﷺ zövcələrinin çox olmasının hikmətlərindən biri də budur. Peyğəmbər ﷺ vəfat edərkən onun doqquz zövcəsi var idi. Fayda bundadır ki, hər bir zövcə başqasında olmayan bir sünnəni insanlara çatdırmışdır.

2. Peyğəmbər ﷺ gecə vaxtı on bir rükət namaz qılardı. O, qiyamı uzadardı. Gecənin ortasında, bəzən də daha sonra qalxardı. Gecənin ortasında qalxdıqda, Aişənin رضي الله عنها başqa bir hədisdə dediyi kimi, sonunda yatardı. Gec qalxdıqda isə sübhədək namaz qılardı. Sübhün vaxtı girdikdə iki rükət namaz qılardı. Daha sonra isə sağ tərəfi üstə uzanardı.

3. Başqa bir fayda bundan ibarətdir ki, Peyğəmbərin ﷺ etdiyi kimi, həmin sünnə namazını qısa qılmaq lazımdır. Bu həm də ona dəlildir ki, yaxşı olar ki, imam sünnət namazlarını isə evdə qılsın, məscidə isə iqamə verilən vaxt gəlsin. Peyğəmbər ﷺ də belə edərdi. Arxada namaz qılan isə tez gəlir. İmam isə gözlənildiyi üçün onun evdə gözləməsi sünnə hesab olunur. Nafiləni evdə qıldıqdan sonra məscidə gəlir.

Bu həm də sübhün sünnəsini qıldıqdan sonra sağ tərəf üzərində uzanmağın müstəhəb olmasına dəlildir. Bu da Peyğəmbərin ﷺ etdiyi kimi, nafiləni evində qılana aiddir.

Alimlər bu uzanma barəsində ixtilaf ettmişlər. Bəziləri demişlər ki, bu, hər bir halda sünnədir. Bir başqaları demişlər ki, bu, sünnə deyil. Yalnız

[1] "Ali-İmran" surəsi, 64.

gecə namazı qılan kəslər istisnadır – beləsi azacıq uzanır ki, bədəni dincəlsin. Digərləri daha aşırı mövqe tutaraq bunu sübh namazının şərtlərindən biri hesab etmiş və demişlər ki, sünnə namazından sonra uzanmayanın namazı yoxdur. Lakin bu şaz (səhih hədisə zidd) bir rəydir. Bunu ona görə qeyd etdik ki, bəzən alimlərin həqiqətdən uzaq olan şaz rəylər də gətirdiklərini biləsiniz.

Doğru olan rəy budur ki, gecə namazı qılan kəs yorulduqda müəzzin azan verənədək bunu edərsə, *yəni uzanarsa,* bu sünnə hesab olunur. Bu da imamla bağlıdır. Digər adamlara gəlincə, əgər beləsi uzanarsa, ola bilsin ki, özü də hiss etmədən bir şeyi tərk etmiş olsun. Əslində digərləri yox, imam gözlənilir – insanlar imamı gözləyir. Əgər o, evində fəcrin sünnəsini qıldıqdan sonra uzanarsa, bu sünnədir. Gec qalxan və ya qalxmayan adama gəlincə, onun sübhün sünnəsini qılıb uzanmasına ehtiyac yoxdur. Müvəffəq edən Allahdır.

٨١٨ – وعن يعِيشَ بنِ طخْفَةَ الغِفَارِيِّ ﷺ قال: قال أبي: « بينما أنَا مضْطَجِعٌ في الْمسَجِدِ عَلَى بَطْنِي إذَا رَجُلٌ يُحَرِّكُنِي بِرِجْلِهِ فقال: « إنَّ هذِهِ ضَجْعَةٌ يُبْغِضُهَا اللهُ » قال: فَنَظرْتُ، فإذَا رسول الله ﷺ ». رواه أبو داود بإسنادٍ صحيح.

818. Yəiş ibn Taxfə əl-Ğifari ﷺ deyir ki, atam dedi: "Mən məsciddə qarnım üzərində uzanmış vəziyyətdə ikən bir kişi ayağı ilə məni tərpətdi və dedi: **"Şübhəsiz ki, bu, Allahın xoşlamadığı bir uzanmaqdır"**. Dedi: "Baxıb gördüm ki, həmin adam Rəsulullahdır ﷺ".

Bu hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

٨١٩ – وعن أبي هريرة ﷺ عن رسول الله ﷺ قال: « مَنْ قَعَدَ مَقْعَداً لَمْ يَذْكُرِ الله تعالى فِيهِ كَانَتْ عَلَيهِ مِنَ الله تعالى تِرةٌ، وَمَنِ اضْطَجَعَ مُضْطَجَعاً لاَيَذْكُرُ الله تعالى فِيهِ كَانَتْ عَلَيْهِ مِن اللهِ تِرةٌ » رواه أبو داود بإسنادِ حسن. « التِّرةُ » بكسر التاء

819. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Uca Allahı zikr etmədən bir yerdə oturarsa, bu, onun üçün Allah yanında bir nöqsan olar. Kim də Uca Allahı zikr etmədən bir yerdə uzanarsa, bu da Allah yanında onun üçün bir nöqsan olar".**

[1] "Sunən Əbu Davud", 5040.

Bu hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

Hədisin ərəbcəsində keçən "ət-tiratu" kəlməsi "nöqsan", yaxud "tabe olan" deməkdir.

Şərh:

Bunlar yuxunun və uzanmağın ədəbləri babındakı digər hədislərdir. Müəllif burada Yəiş ibn Taxfə əl-Ğifarinin رضي الله عنه nəql etdiyi hədisi qeyd edir. O demişdir: «Atam dedi: "Mən məsciddə qarnım üzərində uzanmış vəziyyətdə ikən bir kişi ayağı ilə məni tərpətdi və dedi: **"Şübhəsiz ki, bu, Allahın xoşlamadığı bir uzanmaqdır".** Dedi: "Baxıb gördüm ki, həmin adam Rəsulullahdır ﷺ"».

Bu hədis dəlildir ki, insan istənilən yerdə, ələlxüsus da gecələdiyi yerlərdə üzü üstə uzanmamalıdır. Çünki insanların onu bu vəziyyətdə görməsi məqbul deyil. Əgər adamın qarnında ağrı varsa, o da məhz belə daha rahatdır deyə qarnı üzərində yatarsa, bunda bir qəbahət yoxdur. Çünki burada ehtiyac vardır.

Hədis bir adamı ayaqla tərpətməyin caizliyinə dəlildir, yəni ayağı ilə tərpətməyin. Çünki insanların ən təvazökarı olan Peyğəmbər ﷺ bunu etmişdir. Bu əməl təkəbbürlükdən hesab olunmur. Əgər adamın qəlbində təkəbbürlük olarsa, bu istisnadır. Lakin birisini sadəcə ayaqla tərpətmək təkəbbürlük sayılmır. Bununla belə, tərpətdiyin adamların halını nəzərə almaq da lazımdır. Əgər ehtiyat etsən ki, ayağınla tərpətdiyin adam sənin onu aşağıladığını düşünə bilər, o zaman belə etmə. Çünki mübah bir əməl harama aparacaqsa, qadağan olunur.

Müəllif daha sonra Əbu Hureyranın رضي الله عنه hədisini qeyd edir. Hədisdə deyilir ki: **"Kim Uca Allahı zikr etmədən bir yerdə oturarsa, bu, onun üçün Allah yanında bir nöqsan olar. Kim də Uca Allahı zikr etmədən bir yerdə uzanarsa, bu da Allah yanında onun üçün bir nöqsan olar"**.

"ət-tiratu", yəni xəsarət, nöqsan. Bir məclisdə oturub Allahı zikr etməmək xəsarətdir, çünki sən orada qazanc əldə etməmisən.

Bu həm də ona dəlildir ki, insan Allahı gərək çox zikr etsin – ayaq üstə olarkən, oturduğunda, uzandığı halında. İnsan Allahın adı zikr olunmayan hər hansı bir məclisdə oturduqda, nöqsanlı olur.

---

[1] "Sunən Əbu Davud", 4856.

Odur ki, hər zaman Allahı zikr et. Uca Allahın barələrində belə buyurduğu kəslər kimi ol: **"Həqiqətən, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıl sahibləri üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər** *və deyərlər:* **"Ey Rəbbimiz, Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!"**[1]

Belə et ki, Uca Allahın bu ayələrinə riayət etmiş olasan: **"Ey iman gətirənlər, Allahı çox zikr edin! Səhər-axşam Onun şəninə təriflər deyin!"**[2]

Allah bizləri və sizi Onu zikr etməyə, Ona şükür etməyə və Ona gözəl şəkildə ibadət etməyə yardım etsin.

[1] "Ali-İmran" surəsi, 190-191.

[2] "əl-Əhzab" surəsi, 41-42.

Yüz iyirmi səkkizinci fəsil

Beli üstə uzanmağın, övrət yerinin görünməyəcəyindən əmin olduğu halda bir ayağı digərinin üzərinə aşırmağın, bardaş qurmaq və dizlərini qucaqlayıb oturmağın caizliyi

Mövzu ilə əlaqəli hədislər:

٨٢٠ – عن عبدِ الله بن يزيد ﷺ أنه رأى رسول الله ﷺ مُستَلِقياً في المسَجْدِ وَاضعاً إحْدَى رِجْليْهِ عَلى الأُخْرىَ . متفق عليه.

820. Abdullah ibn Yəziddən ﷺ nəql olunur ki, o, Rəsulullahı ﷺ məsciddə uzanmış halda, bir ayağını da digərinin üzərinə aşırmış ikən görmüşdür.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٨٢١ – وعن جابر بن سمرة ﷺ قال: « كان النبي ﷺ إذَا صَلَّى الْفَجرَ تَرَبَّعَ في مَجْلِسِهِ حتَّى تَطْلُعَ الشَّمسُ حَسْنَاء » حدِيث صحيح، رواه أبو داود وغيره بأسانيد صحيحة.

821. Cabir ibn Səmuradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ sübh namazını qıldıqdan sonra oturduğu yerdə günəş tam çıxanadək bardaş qurub oturardı.

Bu hədis səhihdir, onu Əbu Davud və başqaları səhih isnadla rəvayət etmişlər.[2]

٨٢٢ – وعنِ ابن عمر ﷺ قال: رأيت رسول الله ﷺ بفناء الكَعْبةَ مُحْتَبياً بِيَدَيْهِ هكَذَا، وَوَصَفَ بِيَدِيه الاحْتِباء، و هُوَ القُرفُصَاء رواه البخاري.

822. Rəvayət olunur ki, İbn Ömər ﷺ demişdir: "Mən Rəsulullahı ﷺ Kəbənin ətrafında əlləri ilə dizlərini qucaqlamış vəziyyətdə oturduğunu görmüşəm". Sonra o əlləri ilə həmin oturuşu göstərdi. Belə oturuşa "əl-qurfusa" da deyilir.

---

[1] "Səhih əl-Buxari", 5969; "Səhih Muslim", 2100.

[2] "Sunən Əbu Davud", 4850.

Hədisi Buxari rəvayət etmişdir.[1]

٨٢٣ – وعن قَيْلَةَ بِنْت مَخْرمَةَ ﵂ قالت: رأيتُ النبي ﷺ وهو قَاعِدٌ الْقُرْفُصَاءَ فلما رأيتُ رسول الله ﷺ الْمُتَخَشِّعَ في الِجْلسةِ أُرْعِدتُ مِنَ الفَرَقِ. رواه أبو داود، والترمذي.

823. Qaylə bint Məxramədən ﵂ rəvayət olunur ki, o demişdir: "Mən Rəsulullahı ﷺ dizlərini qucaqlamış halda oturduğunu gördüm. Mən onun necə bir mütiliklə oturduğunu gördükdə, qorxub çəkindim".

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmişlər.[2]

٨٢٤ – وعنِ الشَّريد بن سُوَيْدٍ ﵁ قال: مر بي رسولُ الله ﷺ وَأنا جَالس هكذا، وَقَدْ وَضَعتُ يَديِ اليُسْرَى خَلْفَ ظَهْرِي وَاتَّكأْتُ عَلَى إليْة يَدِي فقال: أتقْعُدُ قِعْدةَ المَغضُوبِ عَلَيهِمْ، رواه أبو داود بإسناد صحيحٍ

824. Şərid ibn Suveyddən ﵁ rəvayət olunur ki, o demişdir: "Bir dəfə mən belə – sol əlimi arxaya qoyub arxaya tərəf söykənmiş halda oturmuşkən Rəsulullah ﷺ mənim yanımdan keçirdi. O dedi: **"Qəzəbə düçar olanların oturuşunumu otursan?"**

Bu hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[3]

Şərh:

Nəvəvinin ﵀ "Salehlər bağçası" əsərində qeyd etdiyi bu fəsil arxası üstə uzanmaqla bağlıdır. Daha öncə qeyd etmişdik ki, yatmaq istəyən kəs yaxşı olar ki, sağ böyrü üstə uzansın. Ehtiyac olmadıqca isə qarın üzərində yatmaq olmaz.

Arxası üstə uzanmağa gəlincə, bu olar. Adam arxası üzərində uzana bilər. Bir şərtlə ki, övrət yerinin görünməməsindən əmin olsun. Yox, əgər övrət yerinin görünməsindən, yəni ayaqlarından birini qaldırdıqda izarının qalxmasından ehtiyat edərsə, belə etməməlidir. Lakin əgər övrət yerinin açılmayacağından əmindirsə, belə uzana bilər.

---

[1] "Səhih əl-Buxari", 6272.

[2] "Sunən Əbu Davud", 4847; "Sunən ət-Tirmizi", 2814.

[3] "Sunən Əbu Davud", 4848.

O ki qaldı dördüncü məsələyə, bu, sol böyrü üstündə uzanmaqdır ki, bunda da bir qəbahət yoxdur. Arxası üstə uzanmaq olar, sol böyrü üstə uzanmaq olar, ancaq sağ tərəf üzərində uzanmaq daha əfzəldir. Üzü üstə uzanmağa isə ehtiyac olmadıqca, belə uzanmaq olmaz.

Oturuşa gəlincə, oturuşun hər forması icazəlidir – adam bardaş qurub otura bilər, dizlərini qucaqlayıb otura bilər, ayaqlarını uzadıb otura bilər. Əlləri ilə baldırlarını qucaqlamağında da bir qəbahət yoxdur. Çünki Peyğəmbər ﷺ belə oturmuşdur.

Oturuşlardan yalnız Peyğəmbərin ﷺ **"qəzəbə düçar olanların oturuşu"** adlandırdığı oturuş forması qadağandır ki, bu da əli arxa tərəfə qoyub ona söykənməkdir. Peyğəmbərin ﷺ də vəsf etdiyi kimi, bu, qəzəbə gəlmişlərin oturuşudur.

Yox, əgər hər iki əlini arxaya qoyub onlara söykənərsə, olar. Yaxud sağ əlini qoyub söykənsə də olar. Peyğəmbərin ﷺ **"qəzəbə düçar olanların oturuşu"** adlandırdığı oturuş sol əli arxaya qoyaraq ona söykənib oturmaqdır. Bu zaman əlin içi yerə dirənmiş olur. Belə oturuşu Peyğəmbər ﷺ **"qəzəbə düçar olanların oturuşu"** adlandırmışdır. Müvəffəq edən Allahdır.

Yüz iyirmi doqquzuncu fəsil

Məclisin və məclisdəkilərin ədəbləri

Mövzu ilə əlaqəli hədislər:

٨٢٥ – عن ابنِ عمر رضي الله عنهما قال: قال رسول الله ﷺ « لايُقِيمَنَّ أحَدُكُمْ رَجُلاً مِنْ مَجْلسِهِ ثم يَجْلسُ فِيه ولكِنْ تَوسَعُّوا وتَفَسَّحوا » وَكَان ابنُ عُمَرَ إذا قام ِلهُ رَجُلٌ مِنْ مجْلِسه لَمْ يَجِلسْ فِيه. متفق عليه.

825. Rəvayət olunur ki, İbn Ömər رضي الله عنهما demişdir: «Rəsulullah ﷺ dedi: **"Biriniz başqa birisini oturduğu yerdən qaldırıb onun yerində oturmasın. Siz sıxlaşın və bir-birinizə yer verin"**».

Məclisdə olanlardan birisi qalxıb İbn Ömərə رضي الله عنهما yer verərdisə, o həmin yerdə əyləşməzdi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٨٢٦ – وعن أبي هريرة رضي الله عنه أن رسول لله ﷺ قال: « إذا قاَم أحَدُكُمْ منْ مَجْلسٍ ثُمَّ رَجَعَ إلَيْهِ فَهُوَ أحَقُّ بِه » رواه مسلم.

826. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Biriniz oturduğu yerdən qalxıb yenidən həmin yerə qayıdarsa, *onun o* yerə daha çox haqqı çatır"**.

Hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Müəllif رحمه الله "Salehlər bağçası" əsərinin **"Məclisin və məclisdəkilərin ədəbləri"** başlıqlı fəslində insanın məclisdə özünə və məclisin digər iştirakçılarına qarşı olan ədəb normalarını bəyan etmək istəmişdir.

---

[1] "Səhih əl-Buxari", 6269, 6270; "Səhih Muslim", 2177.

[2] "Səhih Muslim", 2179.

Uca və nöqsansız Allah öz kitabında məclis ədəblərindən bəzilərini qeyd etmişdir. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Sizə: "Məclislərdə yer verin!"– deyildikdə, yer verin ki, Allah da sizə geniş yer versin".**[1]

İslam şəriəti insanların din və dünya cəhətdən bütün ehtiyaclarını ödəmək üçün əhatəli bir şəriətdir. Uca Allah buyurur: **"Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik".**[2]

Əbu Zərr ﵁ demişdir: "Rəsulullah ﷺ vəfat etdikdə, göydə qanad çalan quşlar belə bizlərə onu xatırladırdı".[3]

Buna görə də görürsən ki, şəriət dinin önəmli və böyük məsələlərini açıqlayır. Məsələn, tövhid və ona bağlı olan əqidə məsələlərini, namaz, zəkat, oruc, həcc, yaxud yatmaq, yemək, içmək və məclis ədəbləri kimi ikinci dərəcəli məsələləri.

Sonra müəllif ﵀ Abdullah ibn Ömərin ﵄ hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Biriniz başqa birisini oturduğu yerdən qaldırıb onun yerində oturmasın. Siz sıxlaşın və bir-birinizə yer verin".** Yəni məsələn, bir yerə daxil olub görsən ki, içəri doludur, kiməsə demə ki: "Ey filankəs, qalx, mən oturum". Əgər oturmaq istəyirsənsə, de ki: "Yer edin, sıxlaşın!". Uca Allah da onların məkanını genişləndirər: **"Ey iman gətirənlər! Sizə: "Məclislərdə yer verin!"– deyildikdə, yer verin ki, Allah da sizə geniş yer versin".**

Kimisə qaldırıb onun yerində oturmağın isə icazəli deyil. Hətta namaz üçün olsa belə, bunu etmək olmaz. Görsən ki, birisi birinci sırada oturub, gəlib ona: "Qalx, sənin yerində mən namaz qılım" deməyin halal deyil. Hətta həmin adam uşaq olsa belə, sənin onu qaldırıb yerində oturmağın halal deyil. Çünki hədis ümumidir. Uşaq isə gərək insanlarla namaz qılsın və olduğu yerdə qalsın.

Peyğəmbərin ﷺ: **"Mənim arxamda yetkinlər və böyüklər dayansın"** sözünə[4] gəlincə, o, həddi-büluğa çatmış ağıllı kəslərə əmr etmişdi ki, irəli

---

[1] "əl-Mücadələ" surəsi, 11.

[2] "ən-Nəhl" surəsi, 89.

[3] Təbərani, "Mocəm əl-kəbir", 2/155.

[4] "Səhih Muslim", 432.

çıxıb Rəsulullahın ﷺ arxasında namaz qılsınlar. Bu, uşaqların ona yaxın olmasını qadağan etmir. Əgər bunu demək istəsəydi, buyurardı ki: "Mənim arxamda yalnız həddi-büluğa çatmış gənclər dayansın". O isə sadəcə həddi-büluğa çatmış və ağıllı kəslərin ona tərəf yaxınlaşmasına, onun arxasında namaz qılmasına təşviq etmişdir ki, ona yaxın olub, şəriəti ondan öyrənsinlər və onu insanlara çatdırsınlar.

İbn Ömərin رضي الله عنهما də təqvasından idi ki, birisi onun üçün ayağa qalxıb "gəl, yerimdə otur" deyə yer verərdisə, həmin yerdə oturmazdı. Bu onun təqvalı olmasının göstəricisidir. Ehtiyat edirdi ki, birdən həmin adam İbn Ömərdən həya edərək ayağa qalxmış olar. Məlum məsələdir ki, birisi sənə həya edərək bir şey təqdim etdikdə, onu ondan qəbul etmirsən. Çünki bu, *könül xoşluğu ilə deyil,* məcburiyyətdən edilmiş kimi olur. Buna görə də alimlər demişlər ki, əgər birisi utanıb sənə hədiyyə verirsə, həmin hədiyyəni ondan qəbul etmək olmaz.

Həmçinin, məsələn, bir evin yanından keçərkən ev sahibi desə ki, buyur, sən də onun bunu sənə utanıb həya etdiyindən dediyini bilirsən, həmin evə daxil olma. Çünki həmin adam bunu məcburiyyətdən demiş olur. Bu səbəbdən də İbn Ömərin də təqvasından idi ki, birisi onun üçün ayağa qalxıb "gəl, yerimdə otur" deyərdisə, həmin yerdə oturmazdı. Qorxurdu ki, həmin adam birdən bunu utanaraq etmiş olar.

Bunlar Peyğəmbərin ﷺ öz ümmətinə buyurduğu məclis ədəblərindəndir ki, adam məclisdə birini qaldırıb onun yerində oturmasın. Müvəffəq edən Allahdır.

٨٢٧ – وعن جابر بنِ سَمُرَةَ رضي الله عنهما قال: « كُنَّا إذَا أَتَيْنَا النبي ﷺ جَلَسَ أَحَدُنَا حَيْثُ يَنْتَهِي ». رواه أبو داود. والترمذي وقال: حديث حسن.

827. Rəvayət olunur ki, Cabir ibn Səmura رضي الله عنه demişdir: "Birimiz Peyğəmbərin ﷺ yanına gəldikdə məclisin sonunda oturardıq".

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir"– demişdir.[1]

[1] "Sunən Əbu Davud", 4825; "Sunən ət-Tirmizi", 2725.

٨٢٨ – وعن أبي عبدِ الله سَلْمان الفارِسي رضي الله عنه قال: قال رسول الله ﷺ:« لاَ يَغْتَسِلُ رَجُلٌ يَوْمَ الجُمُعة وَيَتَطهّرُ ما اسْتَطاعَ منْ طُهر وَيدَّهنُ منْ دُهْنِهِ أوْ يَمسُّ مِنْ طيب بَيْته ثُمَّ يَخْرُجُ فَلاَ يُفَرّقُ بَيْنَ اثْنينْ ثُمَّ يُصَلّي ما كُتِبَ له، ثُمَّ يُنْصِتُ إذَا تَكَلَّمَ الإمامُ إلا غُفِرَ لهُ ما بَيْنَهُ وَبَيْنَ الجمُعَةِ الأُخْرَى » رواه البخاري.

828. Əbu Abdullah Salman əl-Farisi رضي الله عنه demişdir: "Rəsulullah ﷺ demişdir: **"Cümə günü qüsl alaraq bacardığı qədər təmizlənən, yağından [saçına, saqqalına] sürtən, evindəki ətirindən vuran, sonra [evindən] çıxıb [məsciddə] iki nəfəri bir-birindən ayırmadan fərz olan namazını qılan, sonra da imam danışan zaman susan adamın növbəti cümə gününədək olan günahları bağışlanar"**.

Hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

İmam Nəvəvi bu iki hədisi "Məclisin və məclisdəkilərin ədəbləri" fəslində qeyd etmişdir. Məclisin ədəblərindəndir ki, insan bir məclisə daxil olduqda məclisin sonunda oturmalıdır. Rəsulullah ﷺ və onun səhabələri belə edərdilər. Allah onlardan razı olsun! Yəni, kimsə ona yer vermədiyi təqdirdə məclisin başına doğru getmir. Əgər məclisin başında onun üçün yer saxlanıbsa, o zaman gedə bilər.

Məclisi yara-yara, sanki insanlara: "uzaqlaşın, qoyun mən məclisin başında oturum" deməsi Peyğəmbərin ﷺ və onun səhabələrinin yoluna müxalifdir. Bu da dəlildir ki, bu adamda təkəbbürlük və özünü bəyənmə vardır.

Əgər adam xeyir, zikr və elm əhlidirsə, onun olduğu yer məclisin başı hesab olunacaqdır. O danışmağa başladıqda, insanlar ona tərəf çevriləcək, yaxud suallarına cavab almaq istədikdə, ona müraciət edəcəklər. Buna görə də Rəsulullah ﷺ hər hansı bir məclisə daxil olduqda, məclisin sonunda oturar, sonra da Rəsulullahın ﷺ oturduğu yer məclisin başı hesab olunardı.

[1] "Səhih əl-Buxari", 883.

Əgər insan məclisə daxil olduqda görsə ki, adamlar artıq öz yerlərindədir, bu zaman məclisin sonunda oturmalıdır – əgər o, adi insandırsa, onun yeri elə budur. Yox, əgər xüsusi bir adamdırsa, insanlar ona tərəf yönələcək və onun olduğu yer məclisin başına çevriləcək.

Həmçinin, məclisin ədəblərindəndir ki, adam gərək iki nəfərin arasında təfriqə salmasın, yəni onları sıxışdırmasın. Peyğəmbər ﷺ qeyd edir ki, əgər adam cümə günü evində təmizlənər, əhlinin ətirindən vurarsa, sonra da cüməyə gəlib iki nəfərin arasına girməzsə, daha sonra imam gələnədək namazını qılarsa, həmin cümə ilə növbəti cüməyədək, üstəlik üç günün günahları bağışlanar.

Bu da dəlildir ki, insan cümə günü təmizlənməli, yəni qüsl almalıdır. Cümə günü qüsl almaq vacibdir. Zərurət olmadan qüsl almayan kəs günah qazanır, çünki cümə günü qüsl almaq vacibdir. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"Cümə günü qüsl almaq həddi-büluğa çatmış hər kəsə vacibdir".**[1] Yəni, həddi-büluğ yaşına çatmış hər kəsə. Cüməyə gələn hər bir həddi-büluğ yaşına çatmış kəsin qüsl alması vacibdir. Yalnız zərərdən qorxan və ya su tapmayan kəs istisnadır. Məsələn, birisi bir kənddə müsafirdir və kənd camaatı ilə birlikdə cümə namazı qılmaq istəyir, ancaq qüsl almağa yer tapmır. Bu zaman qüslün vacibliyi ondan düşür. Uca Allah buyurur: **"Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər".**[2]

Sünnə sayılan əməllərdən bəziləri də:

– insanın öz saçlarına yağ çəkib daramaqla onu səliqəli vəziyyətə gətirməkdir;

– gözəl libas geyinməkdir;

– misvakdan istifadə etməkdir. Cümə günü üçün adi deyil, xüsusi misvakdan istifadə etmək lazımdır. Adamın cümə günü ağız boşluğunun təmizlənməsi üçün olan diş fırçasından istifadə etməsi də gözəldir.

– məscidə tez getməkdir. Məscidə birinci saatda gedən kəs *sədəqə olaraq* bir dəvə kəsənin savabını qazanır, ikinci saatda gedən inək, üçüncü saatda gedən buynuzlu qoç, dördüncü saatda gedən toyuq kəsənin, beşinci

[1] "Səhih əl-Buxari", 879; "Səhih Muslim", 846.

[2] "əl-Bəqərə" surəsi, 286.

saatda gedən isə yumurta verənin savabını qazanmış olur. İmam minbərə qalxdıqdan sonra məscidə gələn kəs üçün artıq bu savablar yazılmır. Düzdür, o, cümənin savabını qazanır, ancaq tez gəlmənin əcrindən isə məhrum olur.

Görürsən ki, bir çoxlarının (Allah onlara hidayət versin) cümənin həmin vaxtında heç bir işi-gücü yoxdur, amma o, evində və ya bazarda bekar oturub. Şeytan onu yoldan çıxarıb ki, bu əzəmətli savaba nail olmasın. Odur ki, günəş çıxandan tələs, qüsl alıb təmizlən, ən gözəl libasını geyin, ətirlən, məscidə get və Allah dilədiyi qədər namaz qıl və ya imam gələnədək Quran oxu.

Cümənin ədəblərindən biri də odur ki, yanaşı oturan iki nəfəri ayırmayasan. Yəni, iki nəfərin arasında oturub onların yerini daraltmayasan. Yox, əgər onların arasında məsafə varsa, bu onları ayırmaq sayılmır, çünki onlar ikisi əvvəlcədən ayrılmış idi. Amma görsən ki, iki nəfər biri-digərinə yaxın oturub, aralarında da məsafə yoxdur, onların arasında otursan əziyyət vermiş olursan. Bir dəfə Peyğəmbər ﷺ xütbə verərkən görür ki, bir kişi insanların çiynindən-boynundan adlayaraq irəliləyir, ona deyir ki: **"Otur, əziyyət verirsən".**[1]

Bütün bu dediklərimiz cüməyə gəlməyin ədəblərindəndir. Müvəffəq edən Allahdır.

٨٢٩ – وعن عمرو بن شُعَيْب عن أبيه عن جده رضي الله عنه أن رسول الله ﷺ قال: « لايحَلُّ لِرَجُل أن يُفَرِّقَ بَيْنَ اثْنيْنِ إلا بإذْنِهِمَا » رواه أبو داود، والترمذي وقال: حديث حسن.

وفي رواية لأبي داود: « لايَجلِسُ بَيْنَ رَجُلَيْن إلا بإذْنِهِمَا ».

829. Amr ibn Şueyb atasından, o da babasından رضي الله عنه Rəsulullahın ﷺ belə dediyini rəvayət etmişdir: **"Birinin, iki nəfəri onların izni olmadan ayırması halal deyildir".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir"– demişdir.[2]

---

[1] "Sunən Əbu Davud", 1118; "Sunən ən-Nəsai", 1399.

[2] "Sunən Əbu Davud", 4845; "Sunən ət-Tirmizi", 2752.

Əbu Davudun rəvayətində deyilir: **"İki nəfərin arasında onların izni olmadan oturma".**

٨٣٠ – وعن حذيفة بن اليمان ﷺ أن رسول الله ﷺ لَعَنَ مَنْ جَلَسَ وَسَطَ الحَلْقَةَ. رواه أبو داود بإسناد حسن.

وروى الترمذي عن أبي مِجْلزٍ أن رَجُلاً قَعَدَ وَسَطَ حَلقْة فقال حُذَيْفَةُ: مُلْعُونٌ عُلَى لِسَانِ مُحَمَّدٍ ﷺ أوْ لَعَنَ الله عَلَى لِسَانِ محُمَدٍ ﷺ مَنْ جَلَسَ وَسَطَ الْحَلْقةِ. قال الترمذي: حديث حسن صحيح .

830. Huzeyfə ibn əl-Yəməndən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ halqanın ortasında oturan kəsi lənətləmişdir.

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

Tirmizi Əbu Miclizdən rəvayət edir ki, Huzeyfə ﷺ bir kişinin halqanın ortasında oturduğunu görüb dedi: "Halqanın ortasında oturan kəs Muhəmmədin ﷺ dili ilə, yaxud Muhəmmədin ﷺ dili ilə Allah tərəfindən lənətlənmişdir".

Tirmizi demişdir: "Bu, həsən-səhih hədisdir".[2]

٨٣١ – وعن أبي سعيد الخدريِّ ﷺ قال سمعت رسول الله ﷺ يقول « خَيْرُ الْمَجَالِسِ أوْسَعُهَا » رواه أبو داود بإسناد صحيح على شرطِ البخاري.

831. Əbu Səid əl-Xudridən ﷺ rəvayət olunur ki, o demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Ən xeyirli məclis ən geniş olanıdır"**».[3]

Hədisi Əbu Davud Buxarinin şərtinə əsasən səhih olaraq rəvayət etmişdir.

٨٣٢ – وعن أبي هريرة ﷺ قال: قال رسول الله ﷺ: « مَنْ جَلَسَ في مَجْلس فَكثُرَ فيهِ لَغطُهُ فقال قَبْلَ أنْ يَقُومَ منْ مجلْسه ذلك: سبْحانَك اللَّهُمّ وبحَمْدكَ أشْهدُ أنْ لا إله إلا

[1] "Sunən Əbu Davud", 4826.

[2] "Sunən ət-Tirmizi", 2753.

[3] "Sunən Əbu Davud", 4820.

أَنْت أَسْتغْفِرك وَأَتوبُ إليْك: إلا غُفِرَ لَهُ ماَ كان ِفي مجلسه ذلكَ » رواه الترمذي وقال: حديث حسن صحيح.

832. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim bir məclisdə oturarkən çoxlu səhvlərə yol verərsə, məclisdən qalxarkən: "Allahım, Sən nöqsansızsan, Sənə həmd olsun! Şəhadət verirəm ki, Səndən başqa ibadətə layiq məbud yoxdur, Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm"– desə, həmin məclisdə etdiyi səhvləri bağışlanar".**

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən-səhih hədisdir".[1]

Şərh:

Məclisin ədəblərindən biri müəllifin رحمه الله Amr ibn Şueybdən, onun da atasından, onun da babasından رضي الله عنه rəvayət etdiyi hədisdə qeyd olunur. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Birinin, iki nəfəri onların izni olmadan ayırması halal deyildir".**

Yəni, məclisə gəlib görsən ki, iki nəfər yanaşı oturub, onları bir-birindən ayırma. Yalnız özləri sənə icazə versələr, yəni söz ilə, məsələn, "gəl, burada otur" deməklə, ya da feil ilə, yəni özləri aralanıb yer verməklə aralarında oturmağa işarə edərlərsə, bunu edə bilərsən. Əks təqdirdə onları ayırmamalısan. Çünki onlara: "yer verin!" deməyin ədəbsizlik hesab olunur. Həmçinin, icazəsiz onların arasında oturub yerlərini dar etsən, onlara əziyyət vermiş olarsan.

Məclisin ədəblərindən biri də budur ki, *yeni gələn* adam məclisin sonunda otursun. İnsanın halqanın ortasında oturması caiz deyil. Yəni, görsən ki, bir toplum müəlliminin, yaxud onlarla danışan kəsin ətrafında halqa şəklində oturub, gəlib halqanın ortasında oturma. Çünki bu zaman sən onları qarşılarındakı adamdan ayırmış olacaqsan. Həmçinin, əksər hallarda heç kim razı olmaz ki, kimsə gəlib onlardan önə keçərək halqanın ortasında əyləşsin. Belə etməklə, həmin şəxs onlara qarşı hörmətsizlik etmiş və onların hüquqlarını pozmuş olur. Onların izin verməsi halı isə istisnadır. Məsələn, məkan dar olduğuna görə ayaq üstə dayandığın üçün sənə desələr ki, "buyur, burada əyləş", bunda bir qəbahət yoxdur.

[1] "Sunən ət-Tirmizi", 3433.

İzinsiz oturmağa gəlincə isə, Huzeyfə ibn əl-Yəməndən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ halqanın ortasında oturan kəsi lənətləmişdir.

Məclis ədəblərindən biri də budur ki, bir məclisdə oturarkən çoxlu səhvlər edən insanın məclisdən qalxmazdan öncə bu sözləri deməsi *etdiyi səhvləri üçün* kəffarədir: **"Allahım, Sən nöqsansızsan, Sənə həmd olsun! Şəhadət verirəm ki, Səndən başqa ibadətə layiq məbud yoxdur, Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm".** Əgər bu sözləri desə, etdiyi səhvləri silmiş olur. Yaxşı olar ki, səhvlərə yol verilən bütün məclislər bu dua ilə yekunlaşsın.

Həmçinin, məclislərin geniş olması lazımdır. Çünki geniş məclislər ən xeyirli məclislər hesab olunur. Peyğəmbər ﷺ demişdir: **"Ən xeyirli məclis ən geniş olanıdır".** Məclis geniş olarsa, orada daha çox insan iştirak edə bilər. Bu zaman qəlb də rahatlıq tapar. Bu da vəziyyətə görə dəyişir. Ola bilsin, bəzi adamların evlərinin otaqları dar olsun. Lakin genişləndirmək mümkündürsə, bunu etmək daha yaxşıdır. Çünki belə evə daha çox insan yığışa bilər, həm də bu zaman qəlb rahatlaşır. Müvəffəq edən Allahdır.

٨٣٣ – وعن أبي بَرْزَةَ ﷺ قال: كان رسول ﷺ يقولُ بآخرة إذَا أرَادَ أنْ يَقُومَ مِنَ الْمَجلِسِ « سُبْحَانَكَ اللَّهُمَّ وبَحَمْدِكَ أشْهدُ أنْ لا إلهَ إلا أنْتَ أسْتَغْفِرُكَ وأتُوبُ إلَيْكَ » فقال رَجُلٌ يارسول الله إنَّكَ لَتَقُولُ قَوْلاً مَاكُنْتَ تَقُولُهُ فِيَما مَضَى؟ قال: «ذلكَ كفَّارَةٌ لِمَا يَكُونُ في الْمَجْلِسِ » رواه أبو داود، ورواه الحاكم أبو عبد الله في المستدرك من رواية عائشة ﷺ وقال:صحيح الإسناد.

833. Rəvayət olunur ki, Əbu Bərzə ﷺ demişdir: «Rəsulullah ﷺ məclisi bitirib qalxmaq istədikdə belə deyərdi: **"Allahım, Sən nöqsansızsan, Sənə həmd olsun! Şəhadət verirəm ki, Səndən başqa ibadətə layiq məbud yoxdur, Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm"**. Bir kişi dedi: "Ey Allahın elçisi, sən elə bir söz deyirsən ki, əvvəllər bunu deməzdin". Dedi: **"Bu, məclisdə baş verənlərin kəffarəsidir"**».

Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

Bu hədisi əl-Hakim də "əl-Mustədrək" əsərində Aişədən ﷺ rəvayət etmiş və demişdir: "Bu hədisin isnadı səhihdir".

[1] "Sunən Əbu Davud", 4859.

Şərh:

Qeyd etdiyimiz kimi, Peyğəmbər ﷺ demişdir: **"Kim bir məclisdə oturarkən çoxlu səhvlərə yol verərsə, məclisdən qalxarkən: "Allahım, Sən nöqsansızsan, Sənə həmd olsun! Şəhadət verirəm ki, Səndən başqa ibadətə layiq məbud yoxdur, Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm"– desə, həmin məclisdə etdiyi səhvləri bağışlanar".**

Əbu Bərzənin رضي الله عنه və müəllifin daha sonra qeyd etdiyi bu hədis dəlildir ki, Peyğəmbər ﷺ bunu demiş və bəyan etmişdir ki, bu, məclisin kəffarəsidir. Nadir hallarda ola bilər ki, insan bir məclisdə otursun və səhvə yol verməsin, yaxud mənasız sözlər danışmasın və ya vaxt itirmiş olmasın. Odur ki, yaxşı olar ki, hər dəfə məclisdən qalxdıqda desin: **"Allahım, Sən nöqsansızsan, Sənə həmd olsun! Şəhadət verirəm ki, Səndən başqa ibadətə layiq məbud yoxdur, Səndən bağışlanma diləyir və Sənə tövbə edirəm"**. Bu, həmin məclis üçün kəffarə olar.

Müəllifin رحمه الله qeyd etdiyi digər hədis isə İbn Ömərdən رضي الله عنهما nəql olunmuşdur. Həmin hədisdə deyilir ki, Peyğəmbər ﷺ hər dəfə məclisdən qalxdıqda belə deyərdi: **"Allahım, Sənin qorxundan bizə pay ayır...".** Sonra da hədisi tam şəkildə qeyd edir. Bu barədə bir qədər sonra söhbət açılacaq.

Burada Rəsulullahın ﷺ bu duanı çox işlətməsi nəzərdə tutulur. Yaxşı, bəs bu bütün məclislərə, hətta moizə və ya zikr məclislərinə də aiddirmi? Bu xüsusda fikir ayrılığı vardır. Çünki İbn Ömər رضي الله عنهما Peyğəmbəri ﷺ bütün məclislərində təqib etməmişdir. Əgər kimsə desə ki, bu zikri məclisin əvvəlində etmək, yaxud ortasında və ya sonunda etmək olar, bununla da o, Peyğəmbərin ﷺ etdiyi həmin əməlin savabına nail olmuş olar. Müvəffəq edən Allahdır.

٨٣٤ – وعن ابن عمر رضي الله عنهما قال: قَلَّمَا كان رسول الله ﷺ يقوم من مَجْلس حتى يَدعُوَ بهؤلاَءِ الَّدعَوَاتِ « اَللَّهمَّ اقْسِم لَنَا مِنْ خَشْيَتِكَ ما تحُولُ بِه بَيْنَنَا وبَينَ مَعْصِيَتِك، ومن طَاعَتِكَ ماتُبَلِّغُنَا بِه جَنَّتَكَ، ومِنَ ٱليَقينِ ماتُهوِّنُ بِه عَلَيْنا مَصَائِبَ الدُّنيَا. اَللَّهُمَّ مَتِّعْنا بأسْمَاعِناَ، وأبْصَارناَ، وقُوّتِنا ما أحييْتَنَا، واجْعَلْهُ الوَارِثَ منَّا، واجعَل ثَأرَنَا عَلى مَنْ ظَلَمَنَا، وانْصُرْنا عَلى مَنْ عادَانَا، وَلا تَجْعلْ مُصِيَبتَنا في دينَنا، وَلا تَجْعلِ الدُّنْيَا أكبَرَ همِّنا ولا مبلغ عِلْمِنَا، وَلا تُسَلِّط عَلَيَنَا مَنْ لا يْرْحَمُناَ » رواه الترمذي وقال حديث حسن.

834. İbn Ömərdən ﵄ rəvayət olunur ki, o demişdir: "Peyğəmbər ﷺ çox vaxt məclisdən qalxdıqda belə deyərdi: **"Allahım, bizə Sənin qorxunu nəsib et ki, bizimlə günahlarımızı bir-birimizdən ayırsın; itaətindən də nəsib et ki, Cənnətinə nail olaq; yəqinlik də əta et ki, onunla dünyanın müsibətləri bizə asan gəlsin. Allahım, eşitməyimizi, görməyimizi və gücümüzü bizi sağ tutduğun müddətdə davamlı et, bunları bizdən sonrakılara miras et! Qəzəbimizi bizə haqsızlıq edənlərə qarşı et! Bizə düşmənçilik edənlərə qarşı bizə yardım et! Müsibətimizi dinimizdə etmə, dünyanı əsas istəyimizə və elmimizin amalına çevirmə, bizə rəhm etməyən kəsi bizə hökmran etmə!"**

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[1]

Şərh:

Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində "Məclisin və məclisdəkilərin ədəbləri" fəslində Abdullah ibn Ömərdən ﵄ Peyğəmbərin ﷺ məclislərindən qalxdıqda çox vaxt belə dediyini rəvayət etmişdir: **"Allahım, bizə Sənin qorxunu nəsib et ki...". Nəsib et,** yəni təqdir et. Qorxu, yəni elmlə birlikdə olan xof. Nöqsansız və uca Allah bu xüsusda belə buyurur: **"Həqiqətən də, Allahdan alimlər qorxar".**[2]

"...bizimlə günahlarımızı bir-birimizdən ayırsın". Çünki insan izzət və cəlal sahibi olan Allahdan qorxduqca, Allah qorxusu onun haram işlər etməsinə mane olur. Ona görə də Peyğəmbər ﷺ buyurur ki: **"...bizimlə günahlarımızı bir-birimizdən ayırsın..."**.

Daha sonra buyurur: **"itaətindən"**, yəni **"itaətindən də bizə nəsib et ki, Cənnətinə nail olaq".** Çünki Cənnətə gedən yol izzət və cəlal sahibi olan Allaha itaətdən keçir. Bəndə Allahdan qorxmağa müvəffəq olduqda, Onun haramlarından çəkindikdə, Allaha itaət etdikdə, qorxusu ilə Cəhənnəm odundan xilas olar, itaəti ilə də Cənnətə daxil olar.

"...yəqinlik də əta et ki, onunla dünyanın müsibətləri bizə asan gəlsin". Yəqinlik imanın ən üstün dərəcəsidir. Bu, şəkdən və tərəddüddən uzaq olan bir imandır. Bütün qeybi məsələlərə onları görürmüş kimi, tam

[1] "Sunən ət-Tirmizi", 3502.

[2] "Fatir" surəsi, 28.

yəqinliklə inanırsan. Əgər insanda Uca Allahın xəbər verdiyi qeyb məsələlərinə – izzət və cəlal sahibi Allahın ad və sifətlərinə, axirət gününə və başqa məsələlərə tam yəqinlik varsa, o Allahın xəbər verdiklərinə onları görürmüş kimi inanır. Bu da yəqinliyin kamilliyidir.

"...onunla dünyanın müsibətləri bizə asan gəlsin". Çünki insan dünyada davamlı müsibətlər yaşayır. Lakin insan bilməlidir ki, səbir edib bunun savabını Allahdan diləyərsə, həmin müsibətlər onun günahlarını təmizləyər, dərəcəsini qaldırar və bu müsibətlər ona asan gələr. Müsibətlər insanın istər cismi ilə, istər onun ev əhli ilə, istərsə də malı ilə bağlı olsun – nə qədər böyük olursa-olsun, əgər onun yəqinliyi varsa, həmin müsibətlər onun üçün asanlaşacaq.

"Allahım, eşitməyimizi, görməyimizi və gücümüzü bizi sağ tutduğun müddətdə davamlı et". Allahdan diləyirsən ki, bu üzvlərini salamat etsin: sağ olduğun müddətdə eşitməyini, görməyini, gücə qadir olmağını. Çünki insan bu nemətlərə sahib olarsa, bir çox xeyirlərə nail olar. Bu nemətlərdən məhrum olduqda isə bir çox xeyirlərdən məhrum olar. Lakin məhrum olan kəs buna görə qınanmaz.

"Bunları bizdən sonrakılara miras et". Yəni bu nemətləri – eşitməni, görməni və gücü bizlərdən sonrakılara da miras et. Burada, bu nemətlərin ölənədək davam etməsi nəzərdə tutulur.

"Qəzəbimizi bizə haqsızlıq edənlərə qarşı et". Yəni elə et ki, qəzəbləndiyimizdə qəzəbimiz bizlərə zülm edənlərə qarşı olsun. Bizim intiqamımızı onlardan al. İntiqam isə dünya və axirətdə onların başına gələcək müsibətlərlə olsun. İnsan ona zülm edən kəsə qarşı həmin zülmün miqdarında bəddua edə bilər. Zülmün miqdarında bəddua insafdan hesab olunur. Uca və nöqsansız Allah da məzlumun duasını qəbul edir.

Peyğəmbər ﷺ Müazı رضي الله عنه Yəmənə göndərdikdə, ona *oradakıları* nəyə dəvət edəcəyini buyuraraq demişdir: **"Əgər sənə cavab versələr** (yəni mallarından sədəqə vermələrinə razı olsalar)**, onların mallarının digər hissəsinə dəymə. Məzlumun duasından qorx. Şübhəsiz ki, onunla Allah arasında heç bir hicab yoxdur".**[1]

[1] "Səhih əl-Buxari", 1496; "Səhih Muslim", 19.

Uca Allah ədalətli hökmdardır. Məzlum olan kəs ona şikayət etdikdə zalımdan intiqam alır, məzlum Allaha şikayət etdikdə, zalımdan qisas alır. Lakin gərək həddi aşaraq məruz qaldığı zülmdən artıq bəddua etməsin. Çünki məruz qaldığı zülmdən artıq bəddua etsə, özü zalıma çevriləcək.

"Bizə düşmənçilik edənlərə qarşı bizə yardım et". Bizim ən böyük düşmənlərimiz qeyri-müsəlmanlardır. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın!"**[1]

Münafiqlər barədə isə Uca Allah belə buyurur: **"Onlar düşməndirlər. Sən onlardan çəkin! Allah onları məhv etsin, necə də *haqdan* üz çevirirlər!"**[2]

Uca Allahdan dilə ki, düşmənlər üzərində qələbə çalmaqda sənə yardım etsin – yəhudilər, xaçpərəstlər, müşriklər, bütpərəstlər və başqa hər növ kafirlərə qarşı sənə yardım etsin. Uca və nöqsansız Allah yardım edəndir: **"Halbuki, sizin himayəçiniz Allahdır. O, kömək edənlərin ən yaxşısıdır".**[3]

"Müsibətimizi dinimizdə etmə". Müsibət insanın malında ola bilər. Belə ki, malı yana, oğurlana, tələf ola bilər ki, bu da müsibət sayılır.

Müsibət həmçinin insanın əhlində ola bilər – insanın doğmaları xəstələnə və ya ölə bilər.

Müsibət həmçinin ağılda da ola bilər. Belə ki, insan ağılını itirərək dəli ola bilər. Allah qorusun!

Həmçinin hər bir şeydə insanın başına müsibət gələ bilər. Lakin müsibətlərin ən əzəmətlisi dində olan müsibətdir. Allahdan diləyirəm ki, bizləri və sizi haqq dini üzərində sabit etsin. Allah qorusun, insanın dinində müsibətə düşməsi ən böyük müsibətdir.

Dində olan müsibət bədəndəki müsibət kimidir. Bəzən bədəndə yüngül, məsələn başağrısı, soyuqdəymə və ya buna bənzər başqa narahatlıqlar baş verir. Dində də yüngül müsibətlər baş verir ki, bunlar da günahlardır.

---

[1] "əl-Mumtəhinə" surəsi, 1.

[2] "əl-Munafiqun" surəsi, 4.

[3] "Ali-İmran" surəsi, 150.

Dində həlakedici müsibətlər də olur – küfr, şirk, şəkk və başqa məsələlər buna aiddir. Bu müsibətlər bədənin ölməsi kimidir. Allahdan dilə ki, müsibətini dinində etməsin.

Dinlə bağlı olmayan müsibətlər isə asan məsələdir. Əsas müsibət savabdan məhrum olmaqdır. Allah qorusun!

"Dünyanı əsas istəyimizə və elmimizin amalına çevirmə". Dünyanı əsas məqsədimizə çevirmə – elə et ki, əsas məqsədimiz Axirət olsun. Lakin dünyadakı nəsibimizi də unutmamalıyıq. İnsanın dünyaya ehtiyacı var. Lakin dünya insanın əsas məqsədinə və elminin amalına çevrilməməlidir. Dua etməlidir ki, elminin məqsədi Axirət olsun. Dünya elmi və ona aid məsələlərə gəldikdə isə, bunlar müvəqqətidir. Yəni insan tibb, astronomiya, coğrafiya kimi elmlərdə, yaxud hər hansı bir dünyəvi elmdə alim olsa da bilməlidir ki, bütün bu elmlər müvəqqətidir və yox olacaqdır. Şəriət elmi, Axirət elminə gəlincə isə, bu mühümdür.

"Bizə rəhm etməyən kəsi bizə hökmran etmə". Bizə rəhm etməyən hər hansı bir məxluqu üzərimizə müsəllət etmə, həmçinin heç kimi bizə hökmran etmə. Sənə rəhm edən kəsdən sənə pislik gəlməz, sənə rəhm etməyən kəs isə sənə hökmranlıq etsə, sənə pislik edər. Allah bizlərə rəhm etməyən kəsi bizə hökmran etməsin.

Rəsulullah ﷺ bir məclisdə oturduqda hər zaman olmasa da, tez-tez bu zikri edərdi. Müvəffəq edən Allahdır.

٨٣٥ – وعن أبي هريرة رضي الله عنه قال: قال رسول ﷺ « مَا مِنْ قَوْمٍ يَقومونَ منْ مَجْلسٍ لا يَذكُرُون الله تعالى فيه إلا قَاموا عَنْ مِثلِ جيفَةِ حِمَارٍ وكانَ لَهُمْ حَسْرَةً » رواه أبو داود بإسناد صحيح.

835. Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Hər hansı bir camaat Uca Allahı zikr etmədən hər hansı bir məclisdən qalxarsa, uzunqulaq leşinin üzərindən qalxmış kimi olarlar. Onlar buna görə həsrət çəkərlər".**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[1]

[1] "Sunən Əbu Davud", 4855.

٨٣٦ – وعنه عن النبي ﷺ قال: « مَا جَلَسَ قَومٌ مَجْلِساً لم يَذْكرُوا الله تَعَالَى فيه ولَم يُصَلُّوا على نَبِيِّهم فيه إلاَّ كانَ عَلَيّهمْ تِرةٌ، فإِنْ شاءَ عَذَّبَهُم، وإِنْ شَاءَ غَفَرَ لَهُم » رواه الترمذي وقال حديث حسن.

836. Yenə ondan rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Hər hansı bir camaat Uca Allahı zikr etmədən, öz Peyğəmbərinə də salavat demədən hər hansı bir məclisdə otursa, bu onlar üçün bir peşmançılıq olar – Allah istəsə onlara əzab verər, istəsə də onları bağışlayar".**

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[1]

٨٣٧ – وعنه عن رسول الله ﷺ « مَنْ قعَدَ مَقْعَداً لم يَذْكُرِ الله تعالى فِيهِ كَانَت عليه مِنَ الله ترَة، وَمَن اضطجَعَ مُضْطَجَعاً لايَذْكرُ الله تعالى فيه كَانتْ عَليْه مِنَ الله تِرَةٌ» رواه أبو داود. وقد سبق قريبا، وشَرَحْنَا « التِّرَةَ » فِيهِ

837. Yenə ondan rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim Uca Allahı zikr etmədən hər hansı bir məclisdə otursa, bu onun üçün Allah tərəfindən bir nöqsana çevrilər. Kim də Uca Allahı zikr etmədən bir yerdə uzanarsa, bu onun üçün Allah tərəfindən bir peşmançılığa çevrilər".**

Hədisi Əbu Davud rəvayət etmişdir.

"ət-tira" sözünün mənasını daha öncə şərh etmişdik.

Şərh:

Bu üç hədis məclisin ədəbləri ilə bağlıdır. Bütün bu hədislər ona dəlalət edir ki, insan bir məclisdə oturduqda izzət və cəlal sahibi Allahı zikr etməli və Peyğəmbərə ﷺ salavat deməlidir. Bu həm də ona dəlildir ki, hər hansı bir qövm bir məclisdə oturub Allahı zikr etməzsə, Peyğəmbərə ﷺ də salavat deməzsə, bu onlar üçüb bir nöqsana çevrilər. Allah istəsə ona əzab verər, istərsə də onu bağışlayar.

İzzət və cəlal sahibi Allahı zikr etmək müxtəlif yollarla baş verir. Misal üçün kimsə bir məclisdə Uca Allahın ayələrindən biri barəsində

[1] "Sunən ət-Tirmizi", 3380.

danışarsa, bu Allahı zikr etmək hesab olunar. Məsələn, desə ki, bu günlər bizlər isti yerdəyik, elə bil bahardır. Bu da Allahın möcüzəsidir. Çünki indi qış fəslidir, qışda isə adətən soyuq olur. Ancaq biz sanki yaz fəslindəyik, bu da Allahın möcüzəsidir.

Məsələn, deyir ki, əgər bütün insanlar bir araya gəlib havanı adətən soyuq olan bu günlərdə qızdırmağa çalışsalar, bunu edə bilməzlər. Yaxud buna bənzər misallar. Yaxud Peyğəmbərin ﷺ bir xislətini qeyd edir və məsələn, deyir ki, Peyğəmbər ﷺ Allahdan ən çox qorxan və təqvalı olan birisi idi. Beləcə, Peyğəmbəri ﷺ zikr edib ona salavat deyir. Bu zaman ona qulaq asanlar da onun kimi əcr qazanmış olurlar.

İzzət və cəlal sahibi Allahı zikr etmək və Peyğəmbərə ﷺ salavat demək belədir. İstəsə Allahı zikr edər. Məsələn, oturduqda: "məə şəə Allah", "la quvvatə illa billah", "la ilahə illəllah" və buna bənzər başqa sözlər deyər.

Xülasə, aqil insan məclisdə Allahı necə zikr etməsini, Peyğəmbərə ﷺ necə salavat deyilməsini bilməlidir.

Həmçinin, bitmiş məclisdən qalxmaq istədikdə deyir: "Subhənəkəllahummə va bihəmdikə, əşhədu ən la ilahə illə ənt, əstəğfirukə va ətubu ileyk".

Bu üç hədis dəlildir ki, insan hər bir məclisdə Allahı zikr etməlidir ki, Uca Allahın aşağıdakı ayədə tərifləyiyi kəslərdən olsun: **"O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edər, göylərin və yerin yaradılışı haqqında düşünər** ***və deyərlər:*** **"Ey Rəbbimiz, Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!".**[1] Müvəffəq edən Allahdır.

[1] "Ali-İmran" surəsi, 191.

Yüz otuzuncu fəsil

Yuxu və ona aid məsələlər

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿ وَمِنۡ ءَايَٰتِهِۦ مَنَامُكُم بِٱلَّيۡلِ وَٱلنَّهَارِ وَٱبۡتِغَآؤُكُم مِّن فَضۡلِهِۦٓ ﴾

"Gecə və gündüz yatıb dincəlməyiniz, Onun lütfünü axtarmağınız da Onun dəlillərindəndir".[1]

Mövzu ilə əlaqəli hədislər:

٨٣٨ – وعن أبي هريرة رضي الله عنه قال: سمعت رسول الله ﷺ يقول: « لم يَبْقَ مِنَ النُبُوَّة إلا المُبَشِّراتُ » قالوا: وَمَا المُبشِّراتُ؟ قال: « الُرؤْيَا الصَّالِحةُ » رواه البخاري.

838. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Peyğəmbərlikdən yalnız müjdəçilər qalmışdır"**. Soruşdular: "Müjdəçilər nədir, *ey Allahın elçisi*?" Dedi: **"Yaxşı yuxu"**.

Hədisi Buxari rəvayət etmişdir.[2]

٨٣٩ – وعنه أن النبي ﷺ قال: « إذَا اقتَربَ الزَّمَانُ لَمْ تَكَدْ رُؤْيَا المُؤمن تَكذبُ، وَرُؤْيَا المُؤْمِنِ جُزْءٌ منْ ستَّةٍ وَأرْبَعِيَنَ جُزْءًا مِنَ النُبُوةِ » متفق عليه. وفي رواية:« أصْدَقُكُم رُؤْيَا: أصْدُقكُم حَديثاً ».

839. Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Zaman yaxınlaşdıqda möminlər doğru yuxular görəcəklər. Möminin yuxusu peyğəmbərliyin qırxaltıdabir hissəsidir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "ər-Rum" surəsi, 23.

[2] "Səhih əl-Buxari", 6990.

[3] "Səhih əl-Buxari", 7017; "Səhih Muslim", 2263.

Başqa bir rəvayətdə deyilir: **“Ən doğru yuxu görənləriniz ən doğru danışanlarınızdır”.**

٨٤٠ – وعنه قال: قال رسول الله ﷺ: « مَنْ رآني في المنَامِ فَسَيَرَاني في الَيَقَظَةِ أوْ كأنَّمَا رآني في اليَقَظَةِ لايَتَمثَّلُ الشَّيْطانُ بي ». متفق عليه.

840. Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Kim məni yuxuda görərsə, məni oyaq vaxtı da görəcəkdir,** və ya: **sanki məni oyaq halda görmüş kimidir – şeytan mənim qiyafəmə girə bilmir”.**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٨٤١ – وعن أبي سعيد الخدريّ رضي الله عنه أنه سمِع النبي ﷺ يقول: « إذا رَأى أَحدُكُم رُؤْيَا يُحِبُّهَا فَإنَّما هي من الله تعالى فَليَحْمَدِ الله عَلَيهَا وَلْيُحَدِّثْ بِها » وفي رواية: « فَلا يُحَدِّثْ بَها إلا مَنْ يُحِبُّ ، وَإذا رأى غَيَر ذَلك مما يَكرَهُ فإنَّما هي منَ الشَّيْطانِ فَليَسْتَعِذْ منْ شَرِّهَا وَلا يَذكُرها لأحد فإنها لا تضُرُّه » متفق عليه.

841. Əbu Səid əl-Xudridən رضي الله عنه rəvayət olunur ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: **“Kim yaxşı bir yuxu görərsə, həmin yuxu Uca Allahdandır. Allaha buna görə həmd etsin və yuxunu danışsın”** – [başqa bir rəvayətdə isə deyilir: **“Həmin yuxunu yalnız sevdiyi kəslərə danışsın”]. Sevmədiyi bir şeyi görməyi isə şeytandandır – yuxunun şərindən Allaha sığınsın və onu heç kimə danışmasın. Çünki ona zərər verə bilər”.**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllif رحمه الله “Salehlər bağçası” əsərindəki bu fəslə **“Yuxu və ona aid məsələlər”** başlığı vermişdir.

Yuxu, yatdıqda görüləndir. İnsan yatdıqda Uca Allah onun ruhunu yatırdır, ancaq bu, kiçik vəfatdır. Uca Allah buyurur: **“Gecələr sizi öldürən (yatızdıran), gündüzlər isə nələr etdiyinizi bilən Odur. Sonra O,**

[1] “Səhih əl-Buxari”, 6993; “Səhih Muslim”, 2266.

[2] “Səhih əl-Buxari”, 6985; “Səhih Muslim”, 2262.

sizi səhərlər oyadır ki, müəyyən olunmuş əcəliniz gəlib çatsın. Sonra isə dönüşünüz Ona olacaq. O, nə etdiklərinizi barədə sizə xəbər verəcəkdir".[1] Uca Allah həmçinin buyurur: **"Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır".**[2] Bu kiçik vəfat zamanı ruh istədiyi yerə gedir.

Ona görə də yatmaq zikrlərindən biri belədir: **"Allahım, Sənin sayəndə böyrümü yerə qoydum, Sənin sayəndə də onu qaldırıram. Əgər ruhumu saxlasan, onu bağışla, ona rəhm et. Əgər onu buraxsan, əməlisaleh qullarını qoruduğun kimi, onu da qoru".**[3]

Ruh da bu zaman yuxular görür.

Yuxular üç qisimdir: gözəl yuxu, pis yuxu, mənasız yuxular. Ola bilsin ki, bu yuxu şeytanın oyunu olsun. Ola bilsin də bu insanın düşüncələri ilə bağlı olsun. Bəzən də başqa səbəblərdən ola bilər.

Birinci qisim, gözəl yuxudur. Bu, insanın sevdiyi bir şeyi görməsidir. O, izzət və cəlal sahibi Allahdandır – Allahın insana bəxş etdiyi nemətindəndir ki, ona sevdiyi bir şeyi göstərir. Çünki insan sevdiyi bir şeyi gördükdə optimist olur, sevinir və bu onun üçün bir müjdə olur. Möminin erkən müjdələrindən biri gördüyü və ya ona göstərilən gözəl yuxudur. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Peyğəmbərlikdən yalnız müjdəçilər qalmışdır".** İnsanın gördüyü və ya ona göstərilən gözəl yuxular müjdə və xeyirdir, özü də izzət və cəlal sahibi Allahdandır.

İkinci qisim, pis yuxudur. Bu isə şeytandandır. Belə ki, şeytan insana yuxuda görünərək ona əziyyət verir. Lakin insan üçün bunun dərmanı şeytanın şərindən, yaxud gördüyünün şərindən Allaha sığınması, həmin yuxunu da heç kimə danışmamasıdır. Çünki bu zaman yuxunun ona zərəri ola bilər. Həmçinin yuxunu yozmağa çalışmamalıdır. Çünki bəzi insanlar pis yuxu gördükdə onu yozmağa və yozanların yanına getməyə tələsir, yaxud da kitablara baxır ki, bu pis yuxunun mənası nədir. Lakin onu yozduqda pislik baş verə bilər.

---

[1] "əl-Ənam" surəsi, 60.

[2] "əz-Zumər" surəsi, 42.

[3] "Səhih əl-Buxari", 6320; "Səhih Muslim", 2714.

İnsan onun yuxunun, şeytanın və gördüyünün şərindən Allaha sığınaraq həmin yuxunu heç kimə danışmasa, necə olursa-olsun, ona zərəri olmaz. Bu ən asan həll yoludur – insan səbir edib bunu gizlədir, şeytanın və həmin yuxunun şərindən Allaha sığınır ki, gördükləri baş verməsin.

Üçüncü qisim isə mənasız yuxudur. Bəzən bu yuxu insanın düşüncələrindən doğur – insanın qəlbi bir şeyə bağlı olduqda onun barəsində düşünür, fikri onunla məşğul olur, sonra da onu yuxusunda görür. Bəzən də yuxuda şeytan onunla oynayır, ona mənasız şeylər göstərir. Necə ki, bir kişi Peyğəmbərə ﷺ deyəndə ki: "Ey Allahın elçisi, yuxuda gördüm ki, başım yerindən qopub qaçır, mən də onun arxasınca qaçıram", Peyğəmbər ﷺ ona: **"Şeytanın sənin yuxuda oynamasını heç kimə danışma"**– dedi.[1] Bunun mənası və əsli yoxdur – insanın kəsilmiş başı qaçır, insan cismi də onun arxasınca qaçır – mənasız yuxudur.

Xülasə, bunlar yuxunun növləridir. İnsan öz ata-anasını, qardaşını, əmisini və ya başqa yaxınını gördükdə, bu reallığa çevrilə bilər. Ola da bilər ki, gördüyü şeytandan olsun – şeytan həmin adamın obrazına girsin və yatmış adama görünsün. Yalnız Peyğəmbər ﷺ obrazından başqa. Belə ki, insan Peyğəmbəri ﷺ hamıya məlum vəsflərlə görərsə, onu həqiqətən də görmüş olur. Çünki şeytan Peyğəmbərin ﷺ qiyafəsinə əsla girə bilməz, heç buna cürət də edə bilməz.

Əgər birisi yuxusunda bir adam görər və ona elə gələrsə ki, bu Peyğəmbərdir ﷺ, bu zaman onun vəsflərini araşdırmalı, sonra da Peyğəmbərin ﷺ vəsfləri ilə gördüyü adamın vəsflərini müqayisə etməlidir – görsün ki, həmin vəsflər Peyğəmbərin ﷺ vəsfləri ilə üst-üstə düşürmü? Əgər gördükləri ilə üst-üstə düşərsə, odur, düşməzsə, peyğəmbər deyil. Deməli, bunlar şeytanın vəsvəsəsidir – yatmış adama şübhə salır ki, gördüyü adam guya peyğəmbərdir. Əslində isə o, Rəsulullah ﷺ deyil.

Bəzən bəziləri gəlib deyir ki: "Mən Rəsulullahı gördüm, o, belə dedi, belə etdi". Sonra onu vəsf etdikdə bəlli olur ki, həmin vəsflər Peyğəmbərin ﷺ vəsflərinə uyğun gəlmir. Həmin kəs yuxusunda gördüyü adamın Peyğəmbər ﷺ olduğunu zənn etsə də, vəsflərini dedikdə gördüyünün Peyğəmbər ﷺ olmadığı məlum olur. Bu zaman qətiyyətlə bildiririk ki, həmin adam Peyğəmbər ﷺ deyil.

---

[1] "Səhih Muslim", 2268.

Yox, əgər yuxuda gördüyü adam bizə vəsf edildikdə, onun vəsfləri ilə Peyğəmbərin ﷺ vəsfləri uyğun gələrsə, deməli odur. Lakin bilmək lazımdır ki, Peyğəmbər ﷺ ona şəriətə müxalif olan bir şey deyə bilməz. Məsələn, biri deyə bilər ki, mən Peyğəmbəri ﷺ yuxuda gördüm və o mənə belə dedi, belə tövsiyə etdi. Əgər gördüyünün vəsfləri Peyğəmbərin ﷺ vəsflərinə uyğun gələrsə, *deməli* bu söylənilənlər onu deyənin yalanıdır. Müvəffəq edən Allahdır.

٨٤٢ – وعن أبي قتادة رضي الله عنه قال: قال النبي ﷺ: « الرّؤيا الصَّالَحِةُ وفي رواية الرُّؤيَا الحَسَنَةُ منَ الله، والحُلُم مِنَ الشَّيْطَان، فَمَن رَأى شَيْئاً يَكرَهُهُ فَلْيَنْفُثْ عَن شِمَاله ثَلاَثاً، ولْيَتَعَوَّذْ مِنَ الشَيْطان فَإنَّها لا تَضُرُّهُ » متفق عليه. « النَّفثُ » نَفخٌ لطيفٌ لاريقَ مَعَهُ.

842. Əbu Qətadə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ belə demişdir: **"Gözəl yuxu –** digər rəvayətdə isə **yaxşı yuxu – Allahdandır, pis yuxu isə şeytandandır. Kim xoşagəlməz bir şey görərsə, üç dəfə sol tərəfinə üfürsün və şeytandan Allaha sığınsın. Bu zaman [yuxusu, yaxud şeytan] ona zərər toxundura bilməz".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Burada "üfürmək" deyildikdə, "üngül üfürməklə birgə tüpürmək" nəzərdə tutulur.

٨٤٣ – وعن جابر رضي الله عنه عن رسول الله ﷺ قال: « إذَا رَأى أحَدُكُم الرُّؤيا يَكْرَهُها فلْيبصُقْ عَن يَسَارِهِ ثَلاَثاً، وْليَسْتَعِذْ بالله مِنَ الشَّيَطانِ ثَلاثاً، وليَتَحوَّل عَنْ جَنْبِهِ الذي كان عليه » رواه مسلم.

843. Cabirdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Biriniz xoşagəlməz bir yuxu gördükdə üç dəfə sol tərəfinə üfürsün və üç dəfə şeytanın şərindən Allaha sığınsın. Sonra da uzandığı istiqaməti dəyişsin".**

Hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 6984; "Səhih Muslim", 2261.

[2] "Səhih Muslim", 2262.

٨٤٤ – وعن أبي الأسقع واثلة بن الأسقع ﷺ قال: قال رسول الله ﷺ: « إنَّ من أعظَم الفَرى أن يَدَّعِي الرَّجُلُ إلى غَيْرِ أبِيه، أوْ يُري عَيْنهُ مَالم تَرَ، أوْ يقولَ على رسول الله ﷺ مَا لَمْ يَقُلْ » رواه البخاري.

844. Əbul-Əsqa Vasilə ibn əl-Əsqadan ﷺ rəvayət olunur ki, Allahın elçisi ﷺ demişdir: **"Şübhəsiz ki, ən böyük iftiralardan biri insanın özünü atasından başqasına mənsub etməsi, yaxud gözünün görmədiyi bir şeyi *gördüyünü* iddia etməsi, bir də Allahın elçisinin ﷺ adından onun demədiyini söyləməsidir".**

Hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Bütün bu hədislər yuxu ilə əlaqədardır. Bu barədə daha öncə söhbət açmış və bildirmişdik ki, yuxu üç qisimdir:

Birinci qismi yaxşı yuxudur və o, izzət və cəlal sahibi Allahdandır. Qeyd etdik ki, bu yuxu sevindirici olur və o, möminin erkən müjdəsidir.

İkinci qismi pis yuxudur və o, şeytandandır. Əksər hallarda bu yuxu insanın xoşuna gəlməyən olur. Yəni, şeytan insana bəzi şeylər göstərərək onu qorxuya və kədərə salır. İnsan bundan hətta xəstələnə də bilər. Çünki şeytan insanın düşmənidir – insana pislik etmək onun xoşuna gəlir. Uca Allah buyurur: **"Gizli söhbətlər iman gətirənləri kədərləndirməyə çalışan şeytandandır. Amma Allahın izni olmadıqca, o, onlara heç bir zərər yetirə bilməz. Qoy möminlər Allaha təvəkkül etsinlər".**[2]

Pis yuxu insanın xoşlamadığı şeyləri görməsidir. Lakin izzət və cəlal sahibi Allahın nemətlərindəndir ki, hər bir xəstəliyin çarəsi vardır. Pis yuxunun da çarəsi budur ki:

Birinci: insan sol tərəfinə üç dəfə üfürür və üç dəfə şeytanın və gördüyünün şərindən Allaha sığınaraq deyir: "Şeytanın və gördüklərimin şərindən Allaha sığınıram". Sonra da digər tərəfə çevrilir, yəni əgər sol böyrü üstə uzanmışdısa, sağ böyrü üstə çevrilir və ya əksinə, sağdan sola çevrilir.

---

[1] "Səhih əl-Buxari", 3509.

[2] "əl-Mücadələ" surəsi, 10.

İkinci: dəstəmaz alır. Bu da yardım etməsə, yəni digər tərəfə çevrildikdən sonra yenə pis yuxu görməyə davam edərsə, qalxıb namaz qılmalı, həmin yuxunu da heç kimə danışmamalıdır. Deməməlidir ki, belə-belə şeylər gördüm. Heç kimin yanına gedib həmin yuxunu açıqlamağa, yozmağa çalışmamalıdır. Bu zaman həmin yuxunun ona zərəri olmayacaq. Sanki heç belə bir şey olmayıbmış kimi rahatlıq tapar.

Bəziləri yuxu gördükdə onu insanlara danışır ki, həmin yuxunu onun üçün açıqlasınlar. Biz isə onlara deyirik ki, belə etməsinlər. Səhabələr də xoşagəlməz yuxular görərdilər. Peyğəmbərin ﷺ bu barədə onlarla danışması ilə rahatlıq tapdılar. Onlardan birisi pis yuxu gördükdə sol tərəfinə üç dəfə üfürər, şeytanın şərindən Allaha sığınar və həmin yuxunu heç kəsə danışmazdı. Bununla da həmin yuxunun ona zərəri dəyməzdi. Sanki heç belə bir şey olmayıb.

Üçüncü qisim yuxular isə insanın düşüncələridir. Bəzən insan bir şey barəsində çox düşünür və olur ki, həmin şeyi yuxusunda da görür. Ancaq bunun heç bir hökmü təsiri olmur.

İnsan sevindirici, yaxşı yuxu gördükdə gərək onu ağlına gələn xeyirə yozsun. Çünki yuxunu yozduqda, Allahın izni ilə baş verə bilər.

Bununla belə, bəzi kitablarda yazılan yozmalara da gərək inanmayasan. Məsələn, İbn Sirinin "Yuxu yozmaları" kitabına və ya ona bənzər başqa kitablara. Bu səhv yanaşmadır. Çünki yuxular insanlara, zamanlara, məkanlara və hallara görə fərqli olur. Yəni, ola bilsin ki, birisi bir yuxu görsün və həmin yuxunu ona bir cür açıqlayaq, başqa birisi də oxşar yuxu görsün, lakin ona həmin yuxunu başqa cür yozaq. Niyə? Çünki o, özünə layiq olanı görüb, o biri də özünə layiq olanı. Yaxud da ola bilsin ki, mövcud hal həmin yuxunun başqa cür təfsir edilməsinə səbəb olsun. Digər yuxular da belə olur.

Xülasə, gərək insan yuxu yozmaları ilə bağlı əsərlərə müraciət etməsin. Çünki yuxular fərqli olur.

Qeyd olunur ki. bir nəfər bir yuxu görür və həmin yuxunu onun üçün yozurlar. Sonra başqa birisi də *eyni* bir yuxu görür və ona həmin yuxunu başqa cür yozurlar. Bu zaman hər iki yuxunu yozandan bu barədə soruşanda, o deyir: "Çünki bu adam buna layiqdir, o biri isə ona. Hər bir insana yuxusu layiq olduğu formada yozulur".

Nəql edilir ki, Peyğəmbər ﷺ Uhud döyüşü əsnasında və ya döyüşdən öncə yuxusunda qılıncının üzərində bir dəlik, həmçinin kəsilməkdə olan inəklər görür. O bunu belə açıqlayır ki, əhlindən (yaxın qohumlarından) olan kimsə qətlə yetiriləcək və səhabələrindən bəziləri öldürüləcək. Demək, qılıncdakı dəliyi əhlindən kiminsə öldürülməsinə yozur. Çünki insan öz qəbiləsi və qılıncı ilə qorunur. Həmin qılıncda dəliyin olması da kiminsə qətlə yetirilməsinə işarədir.

Elə də oldu. Uhud döyüşündə Peyğəmbərin ﷺ əmisi Həmzə şəhid edildi. Kəsilən inəklərin yozumuna gəlincə isə, səhabələrdən həmin döyüşdə təxminən yetmiş nəfər şəhid oldu. Peyğəmbər ﷺ də yuxuda bu halı kəsilən inək şəklində görmüşdü. Belə ki, inəkdə çoxlu faydalar vardır, hətta ev heyvanları arasında ən faydalı olanlardandır. Ondan əkində və artımda istifadə edilir, həmçinin yağından və südündən də istifadə olunur. İnəkdə çoxlu faydalar vardır. Səhabələr də ən xeyirli insanlar idi və onlarda ümmət üçün böyük xeyirlər vardır. Təkcə elə Uca Allahın onların vasitəsilə Öz şəriətini insanlara çatdırmağa müvəffəq etməsi səhabələrin ən xeyirli insanlar olmasına kifayət edir. Belə ki, səhabələr olmadan bizlər Allahın şəriətinə çata bilmərik. Müvəffəq edən Allahdır.

SALAM KİTABI

Yüz otuz birinci fəsil

Salamın fəziləti və onu yaymağın əmr edilməsi

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَدۡخُلُواْ بُيُوتًا غَيۡرَ بُيُوتِكُمۡ حَتَّىٰ تَسۡتَأۡنِسُواْ وَتُسَلِّمُواْ عَلَىٰٓ أَهۡلِهَاۚ ذَٰلِكُمۡ خَيۡرٞ لَّكُمۡ لَعَلَّكُمۡ تَذَكَّرُونَ ﴾

“Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə salam vermədən girməyin. Bu sizin üçün daha yaxşıdır. Bəlkə, düşünüb ibrət alasınız”.[1]

﴿ لَّيۡسَ عَلَى ٱلۡأَعۡمَىٰ حَرَجٞ وَلَا عَلَى ٱلۡأَعۡرَجِ حَرَجٞ وَلَا عَلَى ٱلۡمَرِيضِ حَرَجٞ وَلَا عَلَىٰٓ أَنفُسِكُمۡ أَن تَأۡكُلُواْ مِنۢ بُيُوتِكُمۡ أَوۡ بُيُوتِ ءَابَآئِكُمۡ أَوۡ بُيُوتِ أُمَّهَٰتِكُمۡ أَوۡ بُيُوتِ إِخۡوَٰنِكُمۡ أَوۡ بُيُوتِ أَخَوَٰتِكُمۡ أَوۡ بُيُوتِ أَعۡمَٰمِكُمۡ أَوۡ بُيُوتِ عَمَّٰتِكُمۡ أَوۡ بُيُوتِ أَخۡوَٰلِكُمۡ أَوۡ بُيُوتِ خَٰلَٰتِكُمۡ أَوۡ مَا مَلَكۡتُم مَّفَاتِحَهُۥٓ أَوۡ صَدِيقِكُمۡۚ لَيۡسَ عَلَيۡكُمۡ جُنَاحٌ أَن تَأۡكُلُواْ جَمِيعًا أَوۡ أَشۡتَاتٗاۚ فَإِذَا دَخَلۡتُم بُيُوتٗا فَسَلِّمُواْ عَلَىٰٓ أَنفُسِكُمۡ تَحِيَّةٗ مِّنۡ عِندِ ٱللَّهِ مُبَٰرَكَةٗ طَيِّبَةٗۚ كَذَٰلِكَ يُبَيِّنُ ٱللَّهُ لَكُمُ ٱلۡأٓيَٰتِ لَعَلَّكُمۡ تَعۡقِلُونَ ﴾

“Kora, çolağa, bir də xəstəyə günah gəlməz. Sizin özünüzə də öz evlərinizdə, yaxud atalarınızın evlərində, yaxud analarınızın evlərində, yaxud qardaşlarınızın evlərində, yaxud bacılarınızın evlərində, yaxud əmilərinizin evlərində, yaxud bibilərinizin evlərində, yaxud dayılarınızın evlərində, yaxud xalalarınızın evlərində, yaxud açarları əllərinizdə olan evlərdə, yaxud dostlarınızın evlərində yemək yeməkdə heç bir günah

[1] “ən-Nur” surəsi, 27.

gəlməz. Bir yerdə, yaxud ayrı-ayrılıqda yemək yeməyinizdə də sizə heç bir günah gəlməz. Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın. Allah ayələrini sizə belə izah edir ki, başa düşəsiniz".[1]

﴿ وَإِذَا حُيِّيتُم بِتَحِيَّةٍ فَحَيُّوا۟ بِأَحْسَنَ مِنْهَآ أَوْ رُدُّوهَآ ﴾

"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya *verilən salamı olduğu kimi* qaytarın".[2]

﴿ هَلْ أَتَىٰكَ حَدِيثُ ضَيْفِ إِبْرَٰهِيمَ ٱلْمُكْرَمِينَ * إِذْ دَخَلُوا۟ عَلَيْهِ فَقَالُوا۟ سَلَٰمًا ۖ قَالَ سَلَٰمٌ قَوْمٌ مُّنكَرُونَ ﴾

"İbrahimin möhtərəm qonaqlarının əhvalatı sənə gəlib çatdımı? Onlar onun yanına daxil olub: "*Sənə* salam olsun!"– dedilər. *İbrahim:* "Sizə də salam olsun! Siz yad adamlara oxşayırsınız!"– dedi".[3]

Şərh:

Müəllif ﷺ "Salehlər bağçası" əsərində **"Salam kitabı"** başlıqlı bölmə açır. Salam deyildikdə, Peyğəmbərimizin ﷺ öz ümmətinə öyrətdiyi salamlaşma forması nəzərdə tutulur.

Salam, hər bir fəlakətdən salamatlıq duasıdır. Birisinə: "Sənə salam olsun!" desən, sanki Allahın onu hər cür bəladan qoruması üçün dua edirsən – dua edirsən ki, onu xəstəliklərdən, dəlilikdən qorusun, onu insanların şərindən qorusun, günahlardan və qəlb xəstəliklərindən qorusun, onu Cəhənnəmdən qorusun. Beləliklə, bu, ümumi bir sözdür. Mənası da salam verilənin bütün bəlalardan qorunması üçün dua etməkdir.

Səhabələr izzət və cəlal sahibi Allahı sevdikləri üçün namazlarında deyərdilər ki, "Allaha qullarından salam olsun!", "Cəbrailə salam olsun!", filankəsə və filankəsə salam olsun. Peyğəmbər ﷺ də onlara "Allaha qullarından salam olsun!" deməyi qadağan etdi və buyurdu ki, əs-Salam elə Allahın özüdür, yəni hər bir eyib və nöqsanlardan salamat olandır. Ona

[1] "ən-Nur" surəsi, 61.

[2] "ən-Nisa" surəsi, 86.

[3] "əz-Zariyat" surəsi, 24-25.

görə də Onun özünü tərifləməsi üçün dua etməyə gərək yoxdur. Sonra da onlara belə deməyi buyurdu: «**"Bizə və Allahın əməlisaleh bəndələrinə salam olsun!" Əgər sizlər bunu desəniz, göylərdə və yerdəki hər bir əməlisaleh bəndəyə salam vermiş olarsınız"».**[1]

Bilmirəm, bizlər namazda: "Bizə və Allahın əməlisaleh bəndələrinə salam olsun!" deyəndə, heç bu barədə düşünürükmü? Bilmirəm, biz namazda özümüzə salam verərək: "Bizə salam olsun!"– deyəndə, bu barədə düşünürükmü? Axı biz həm də səmada və yerdə olan hər bir əməlisaleh bəndəyə – peyğəmbərlərə, İsa əleyhissalamın həvarilərinə, Musanın seçdiyi yetmiş adama və başqalarına salam vermiş oluruq. Düşünürükmü ki, bizlər Cəbrailə, Mikayıla, İsrafilə, Cəhənnəmin gözətçisi Malikə, Cənnətin xəzinədarına və bütün digər mələklərə salam vermiş oluruq. Bilmirəm, heç bu barədə düşünürükmü? Əgər düşünmürüksə, düşünməliyik. Çünki Rəsulullah ﷺ demişdir: **"Əgər sizlər bunu desəniz, göylərdə və yerdəki hər bir əməlisaleh bəndəyə salam vermiş olarsınız".**

Salam vermək və onu yaymaq müsəlmanlar arasında buyurulmuş bir əməldir. Peyğəmbər ﷺ demişdir: **"Sizlər iman gətirmədikcə Cənnətə daxil olmayacaqsınız. Bir-birinizi sevmədikcə də iman gətirmiş olmayacaqsınız. Sizə elə bir şey öyrədimmi ki, onu etdikdə bir-birinizi sevəsiniz? – Aranızda salamı yayın".**[2] Yəni bunu izhar və elan edin.

Rəsulullah ﷺ doğru buyurmuşdur. Şübhəsiz ki, insanlar arasında salamın yayılması sevginin yaranmasının səbəblərindən biridir. Ona görə də birisi ilə görüşdüyündə o sənə salam verməzsə, ona nifrət edir, sənə salam verdiyində isə hətta onu tanımasan belə, onu sevirsən. Sənin İslamının gözəlliklərindən biri də salamı yaymağın, yəni tanıdığın və tanımadığın hər kəsə salam verməyindir.

Sonra müəllif ﷺ Allahın kitabından bəzi ayələri zikr etmişdir. Onlar aşağıdakılardır:

1) Şübhəsiz ki, salam elçilərin və mələklərin sünnələrindəndir. İbrahimin yanına gələn mələklər belə dedilər: **"Onlar onun yanına daxil olub: "*Sənə* salam olsun!"– dedilər. *İbrahim:* "Sizə də salam olsun! Siz yad**

[1] "Səhih əl-Buxari", 1202.

[2] "Səhih Muslim", 54.

adamlara oxşayırsınız!"– dedi".[1] Qrammatika alimləri qeyd etmişlər ki, İbrahimin cavabı mələklərin salamından daha kamildir. Çünki mələklər təsirlik halda "salam" demişdilər, yəni salam olsun. Bu cümlə feili cümlədir və davamlılıq mənasını daşımır. İbrahimin qeyd etdiyi salam sözü isə adlıq haldadır. Ona görə də cavab daha kamildir. İzzət və cəlal sahibi Allahın aşağıdakı ayədə buyurduğu kimi, İbrahimin cavabı daha kamildir: **"Sizə salam verildiyi zaman, onu daha gözəl şəkildə alın".**[2] Bundan da aydın olur ki, salam vermək həm əvvəlki elçilərin sünnələrindən, həm də Allaha yaxın olan mələklərin əməllərindəndir.

2) Sonra müəllif ﷺ buna dəlalət edən başqa ayələri də qeyd etmişdir: **"Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə salam vermədən girməyin. Bu sizin üçün daha yaxşıdır. Bəlkə, düşünüb ibrət alasınız".**[3]

Bir ev sənin deyilsə, salam verib icazə almayanadək ora daxil olma, yoxsa qəlbində qorxu olar. Çünki insan başqasının evinə icazəsiz daxil olduqda qorxuya düşür, icazə aldıqda isə rahat olur. Başqa bir qiraətdə "icazə alanadək" deyilir. Yeddi mötəbər qiraətə görə isə "rahatlanasınız" deyə buyurulur. Bu da daha ümumidir. Çünki "rahatlanasınız" sözü insanın ev sahibindən və ya daha öncə aldığı icazəyə əsaslanır.

Misal üçün, biri sənə desə ki, saat beşin yarısında bizə gələrsən, qapı açıq olacaq. Sən də beşin yarısında gəlsən və qapı da açıq olsa, icazə almağa lüzum yoxdur. Çünki bu zaman sən əvvəlcədən izin aldığın üçün rahat olursan. Ona görə də "rahatlanasınız" qiraəti daha səhihdir. Yəni bu, "icazə alanadək" qiraətindən daha əhatəlidir, özü də yeddi mötəbər qiraətdə də belədir.

"onların sakinlərinə salam vermədən", yəni ev əhlinə də salam verib deməlisən ki: "Sizə salam olsun, daxil ola bilərəmmi?" Öz evinə daxil olduqda isə icazə almağa ehtiyac yoxdur. Çünki o sənin evindir. Lakin evə daxil olduqda əhlinə salam ver. Salam verməmişdən öncə misvak istifadə et. Ailənlə görüşdükdə isə: "Əssəlamu aleykum" de. Rəsulullahdan ﷺ varid olmuş sünnə belədir.

---

[1] "əz-Zariyat" surəsi, 25.

[2] "ən-Nisa" surəsi, 86.

[3] "ən-Nur" surəsi, 27.

3) Uca Allah buyurur: **"İbrahimin möhtərəm qonaqlarının əhvalatı sənə gəlib çatdımı? Onlar onun yanına daxil olub: "*Sənə* salam olsun!"– dedilər. *İbrahim:* "Sizə də salam olsun! Siz yad adamlara oxşayırsınız!"– dedi".**[1]

"Sənə gəlib çatdımı?" Adətən bu növ ifadələr xitab olunan şəxsdə maraq oyatmaq məqsədi güdür. Məlum məsələdir ki, insan deyəcək ki, xeyr, gəlib çatmayıb. Çünki cümlə keçmiş zamanda işlənmişdir.

«**"Siz yad adamlara oxşayırsınız!"– dedi».** Yəni, onları tanımıram. Buradakı "münkər" sözü haram mənasında deyil. Burada bilinməyən (tanınmayan) "münkər" sözü ilə işlənir. Mənası da belədir ki, mən onları tanımıram.

4) **"Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın".**[2]

"Özünüzü salamlayın", yəni oradakıları. Oradakı şəxslər "özünüz" adlandırılmışdır. Çünki möminlərin misalı yanaşı olan binaların misalına bənzəyir ki, onlar bir-birilərini daha da möhkəmlədirlər.[3] Uca Allahın bu ayəsi də ona bənzəyir: **"Sizə özünüzdən elə bir elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir".**[4] Mənası budur ki, oradakılara salam verin, çünki sizlər onlarla eynisiniz.

"Nəfs" sözü ərəbcə bəzən "ayrı" mənasında da işlənir. Qeyd etdiyimiz kimi, Uca Allah buyurur: **"Sizə özünüzdən elə bir elçi gəldi"**. Uca Allah həmçinin buyurur: **"Bir-birinizə tənə vurmayın".**[5] Yəni özünüzə deyil, bir-birinizə tənə vurmayın. Burada insanın özünə tənə etməsi nəzərdə tutulmur.

Xülasə, sən bir evə daxil olduqda evdəkilərə: "Əssəlamu aleykum və rəhmətullahi və bərəkatuh" deyə salam ver. Onlara da vacibdir ki, salama cavab versinlər. Daha öncə də qeyd etmişdik ki, Sünnəyə görə evinə daxil olduqda ilk öncə misvakdan istifadə edir, sonra ev əhlinə salam verirsən.

---

[1] "əz-Zariyat" surəsi, 24-25.

[2] "ən-Nur" surəsi, 61.

[3] "Səhih əl-Buxari", 481; "Səhih Muslim", 2585.

[4] "ət-Tövbə" surəsi, 128.

[5] "əl-Hucurat" surəsi, 11.

Müəllifin zikr etdiyi başqa bir ayə budur: **"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya *verilən salamı olduğu kimi* qaytarın!"**[1]

Nöqsansız və uca Allah əmr edir ki, bizə salam verildikdə ondan daha gözəl tərzdə cavab verək, yaxud onu olduğu kimi qaytaraq. Misal üçün, birisi sənə: "əssəlamu aleykum" desə, sən də ona: "və aleykum əssəlam" de. Bundan qısa cavab vermə. Əgər adam sənə: "əssəlamu aleykum və rəhmətullahi və bərəkatuh" desə, cavabında: "və aleykum əssəlam və rəhmətullahi və bərəkatuh" de. Belə demək vacibdir, çünki uca Allah: **"və ya onu qaytarın"**– deyə buyurur**.**

Əgər sənə: "əssəlamu aleykum" desə, sən də ona cavabında: "və aleykum əssəlam və rəhmətullah" desən, bu birincidən daha yaxşı və daha fəzilətlidir. Lakin bu cavab deyil. Vacib olan odur ki, sənə verilən salam kimi ona cavab verəsən.

Nöqsansız Allahın: **"ondan daha yaxşı"** buyurması üç şeyi əhatə edir: növ, miqdar və keyfiyyəti. Misal üçün, birisi səni: "əssəlamu aleykə" deyə salamlasa, sən də cavabında: "xoş gördük səni, ey Əbu filankəs, buyur" desən, bu kifayət deyil. Hətta bunu min dəfə desən belə, kifayət etməz – əvəzində günah qazanmış olacaqsan. Çünki sən verilən salama nə daha yaxşısı ilə, nə də mislində belə cavab vermədin. Kimsə sənə: "əssəlamu aleykum" deyirsə, sənə salamla dua etmiş olur. Sənin ona "xoş gördük, mərhaba" deməyin isə yalnız görüşmədir və burada dua yoxdur. Sən növ və miqdar baxımından ondan daha yaxşı şəkildə salamı qaytarmalısan. Əgər sənə: "əssəlamu aleykum və rəhmətullah" desələr, sənin cavab olaraq: "və aleykum əssəlam" deməyin də icazəli deyil. Çünki sən nə daha yaxşısı ilə, nə də mislində cavab vermədin. Gərək ən azından onun dediyi kimi deyəsən.

Cavab həm də keyfiyyət baxımından da daha yaxşı olmalıdır. Əgər sənə aydın şəkildə, uca səslə salam versələr, sən ona mızıldanaraq cavab vermə.

---

[1] "ən-Nisa" surəsi, 86.

Yaxud əgər biri üzünü sənə çevirib salam verirsə, sən üzünü başqa tərəfə çevirib salama cavab verməməlisən. Bu, bir nöqsandır – belə etməklə nə mislində, nə də ondan daha yaxşı cavab vermiş olmazsan.

Bu ayənin zahiri mənası belədir ki, əgər kafirlərdən biri sənə aydın şəkildə salam verib: "əssəlamu aleykum" desə, sənin də cavab olaraq: "və aleykum əssəlam" deməyin problem deyil. Çünki sən milsində cavab vermiş olursan. Bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kitab əhli sizə salam versə, *cavabında:* "və aleykum"** deyin".[1] Yəni, "və aleykum əssəlam" deməyin. Həmin hədisdə bunun səbəbi də izah olunur. O ﷺ demişdir: **"Yəhudilər sizə salam verdikdə: "əs-səmu aleykum" deyirlər".**[2] "əs-səm" ölüm deməkdir. Onlar sənə ölüm bədduası edir, "sənə ölüm olsun" deyirlər. Rəsulullah ﷺ da deyir ki, **"Deyin ki: sizə də!"** Yəni, "sənə ölüm olsun!" deyildikdə, deyirsən ki: "sənə də!" Yəni, "sənə də ölüm olsun!".

Xülasə, deyilənlərdən aydın olur ki, qeyri-müsəlmanlar: "əssəlamu aleykum" desələr, sənin cavab olaraq: "və aleykum əssəlam" deməyində heç bir problem yoxdur. Çünki uca Allah belə buyurur: **"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya *verilən salamı olduğu kimi* qaytarın!".**[3] Müvəffəq edən Allahdır.

٨٤٥ – وعن عبد الله بن عمرو بن العاص رضي الله عنهما أن رجلا سأل رسول الله ﷺ أيُّ الإسلام خَيْرٌ؟ قال « تُطْعِم الطَّعَامَ، وَتَقْرأُ السَّلام عَلَىَ مَنْ عَرِفْتَ وَمَنْ لَمْ تَعْرِفْ ». متفق عليه.

845. Abdullah ibn Amr ibn əl-Asdan رضي الله عنه rəvayət olunur ki, bir kişi Rəsulullahdan ﷺ soruşdu ki, İslamın hansı [əməli] daha xeyirlidir? Dedi: **"Yemək yedirməyin, tanıdığın və tanımadığın hər kəsə salam verməyin".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[4]

---

[1] "Səhih əl-Buxari", 6258; "Səhih Muslim", 6163.

[2] "Səhih Muslim", 2164.

[3] "ən-Nisa" surəsi, 86.

[4] "Səhih əl-Buxari", 12; "Səhih Muslim", 39.

Şərh:

Müəllifin ﵀ "**Salamın fəziləti və onu yaymağın əmr edilməsi**" fəslində qeyd etdiyi ayələr barəsində bir qədər öncə söhbət açdıq. Sonra o, hədisləri qeyd edir. Həmin hədislərdən biri belədir:

Abdullah ibn Amr ibn əl-Asdan ﵄ rəvayət olunur ki, Rəsulullahdan ﷺ hansı İslamın daha xeyirli olduğunu soruşdular. Səhabələr ﵃ Rəsulullahdan ﷺ yalnız öyrənmək üçün deyil, həm də əməl etmək üçün soruşardılar. Əgər desəydi ki, İslamın ən xeyirli əməli bu, bu və budur, dərhal həmin əməli etməyə çalışar və bunun üçün yarışardılar. Sual verən hər kəs də belə olmalıdır – ürəyində niyyət etməlidir ki, alimə sual verdikdə onu xeyirli bir işə yönəldərsə, həmin əməli etsin. Əməlisaleh sələflər də belə edərdilər – sadəcə alimdən nəyisə öyrənməklə kifayətlənməzdilər. İstəyərdilər ki, onları xeyirli işlərə yönəltdikdə səhabələr etdiyi kimi, ona əməl etsinlər.

Peyğəmbər ﷺ buyurur: **"yemək yedirtmək"**. Yəni, buna ehtiyacı olanı. Yedirməli olduğun ilk adamlar sənin ailə üzvlərindir. Onları yedirmək daha uzaqları yedirməkdən daha əfzəldir. Çünki ailə üzvlərini yedirməyin vacibdir. Vacib əməl isə Uca Allaha müstəhəb əməldən daha sevimlidir. Qüdsi hədisdə deyildiyi kimi: **"Qulum Mənə fərz etdiyim əməllərdən başqası ilə daha çox yaxınlaşa bilməz"**.[1]

Bəzi insanlar öz ailəsinə pul xərcləyir, lakin bununla Allaha yaxınlaşdığını bilmir. Yanına kasıb birisi gəldikdə ona bir rial verməklə elə düşünür ki, bununla Allaha yaxınlaşmış olur. Ailə üzvlərinə isə verilən sədəqə vacibdir və bunun əcri daha çoxdur. Öz ailə üzvlərinə yemək yedirtsən, bil ki, bu, İslamın ən xeyirli əməllərindəndir.

"Salam vermək", birisinə "əssəlamu aleykum" demək deməkdir, əsas da budur. "Salam vermək" sözünün mənası budur. Buna salam oxumaq da deyilir.

"Tanıdığın və tanımadığın hər kəsə". Yəni, verdiyin salam yalnız tanıdığın kəslərə aid olmamalıdır. Qoy salamın şəfqət və ülfət salamı olsun. Çünki mömin kəs salam verdikdə salamı ilə yaxınlıq yaranır və buna görə savab qazanmış olur. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Sizlər iman**

[1] "Səhih əl-Buxari", 6502.

gətirmədikcə Cənnətə daxil olmayacaqsınız. Bir-birinizi sevmədikcə də iman gətirmiş olmayacaqsınız. Sizə elə bir şey öyrədimmi ki, onu etdikdə bir-birinizi sevəsiniz? – Aranızda salamı yayın".[1]

Yalnız tanıdığı adamlara salam verən kəs böyük bir xeyirdən məhrum olur. Çünki o, qarşılaşdığı onlarla insandan yalnız bir-ikisini tanıya bilər. Ülfət və birlik salamı verənlər isə tanıdıqları və tanımadıqları hər kəsə salam verirlər. Bu halda yalnız qarşındakı adamın kafir olması istisnadır – ona salam vermə. Çünki Peyğəmbər ﷺ demişdir: **"Yəhudi və xaçpərəstlərə birinci salam verməyin".**[2] Başqaları, yəni müşriklər, ateistlər və onlara bənzərlər isə onlardan (Kitab əhlindən) daha pisdirlər – onlara da salam vermə!

Aşkar günahlar edən fasiqə gəlincə isə, əgər ona salam verməmək məsləhətdirsə, yəni məsələn, salam vermirsən ki, günahından tövbə etsin və Allahın yoluna dönsün, bu zaman ona salam vermə. Yox, əgər məsləhət deyilsə, o zaman salam ver. Ola bilsin ki, ona salam vermədiyində qəlbində sənə qarşı ədavət yaransın, o öz batil əməlinə davam etsin, səndən də nəsihət qəbul etməsin. Bu zaman ona salam ver.

Beləliklə, *salam verib-verməyəcəyin* insanlar üç qisimdir:

1) Aşkar günah edən fasiq. Ona salam verirsən, yalnız verilməməsi məsləhət olduğu hal istisnadır.

2) Kafir. Ona salam vermirsən, lakin sənə salam versə, salamını alırsan.

3) Günahını bilmədiyin müsəlman. Çalış ki, sən ona birinci salam verəsən. Çünki Peyğəmbər ﷺ qarşısına çıxan hər kəsə salam verərdi. O ﷺ demişdir: **"Bir müsəlmanın digərini üç gecədən artıq tərk etməsi, qarşılaşdıqda bir-birilərindən üz çevirmələri halal deyildir. Belələri qarşılaşdıqda bir-birilərindən üz çevirirlər. Onlardan ən xeyirlisi salamı ilk verəndir".**[3] Haqqında söhbət açdığımız **"İslamın ən xeyirlisi tanıdığın və tanımadığın hər kəsə salam verməyin"** hədisi də belədir. Müvəffəq edən Allahdır.

---

[1] "Səhih Muslim", 54.

[2] "Səhih Muslim", 2167.

[3] "Səhih əl-Buxari", 6077; "Səhih Muslim", 2560.

٨٤٦ – وعن أبي هريرة رضي الله عنه عن النبي ﷺ قال « لما خَلَقَ الله آدم عليه السلام قال: اذْهَبْ فَسَلِّمْ عَلَى أُولئِكَ نَفَرٍ مِنَ الْمَلائكة جُلُوسٌ فاسْتمعْ ايُحَيُّونَكَ فَإِنَّها تَحيَّتُكَ وَتَحِيَّةُ ذُرِّيَّتِك. فقال: السَّلام عَلَيْكُمْ، فقالوا: السَّلام ٍعَلَيْكَ وَرَحْمةُ الله، فَزادُوهُ: وَرَحْمةُ الله » متفق عليه.

846. Əbu Hureyradan رضي الله عنه nəql olunan hədisdə Peyğəmbər ﷺ demişdir: «**Allah Adəmi عليه السلام yaratdıqda ona belə dedi: "Get, orada oturmuş mələklərə salam ver və qulaq as, gör onlar səni salamlayacaqlarmı. Əgər salamlasalar, bu həm sənə, həm də övladlarına verilən salamdır". Dedi: "Əssəlamu aleykum". Dedilər: "Əssəlamu aleykə və rəhmətullah". Beləcə onlar "və rəhmətullah" sözünü artırdılar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ən-Nəvəvi رحمه الله öz "Salehlər bağçası" əsərinin **"Salamın fəziləti və onun yayılmasının əmr edilməsi"** fəslində Əbu Hureyradan رضي الله عنه nəql olunmuş hədisi qeyd edir. Həmin hədisdə deyilir ki, **"Allah Adəmi yaratdıqda ona belə dedi: "Get, orada oturmuş mələklərə salam ver və qulaq as, gör onlar səni salamlayacaqlarmı. Əgər salamlasalar, bu həm sənə, həm də övladlarına verilən salamdır. Dedi: "Əssəlamu aleykum". Dedilər: "Əssəlamu aleykə və rəhmətullah". Beləcə onlar "və rəhmətullah" sözünü artırdılar".**

Bu hədisdə qeyd olunası bəzi faydalar vardır:

Birinci: İnsan övladı əvvəllər yox idi və o, yoxdan var edilmişdir. Əvvəllər onun heç adı belə zikr olunmazdı. Nöqsansız və uca Allah buyurur: **"Doğrudanmı insanın heç kimə məlum olmadığı bir dövr hələ də ötüb keçməmişdir?"**[2]

Bəşəriyyət bildiyimiz varlıq əvvəllər mövcud olmamışdır. Allah onu böyük bir hikmətlə yaradıb var etmişdir. Buna görə də izzət və cəlal sahibi Allah yer üzərində bir xəlifə yaratmaq istədiyini dedikdə mələklər belə

[1] "Səhih əl-Buxari", 6227; "Səhih Muslim", 841.

[2] "əl-İnsan" surəsi, 1.

demişdilər: **“Biz Səni həmd-səna ilə tərifləyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada fəsad törədib qan tökəcək kəsmi bərqərar edəcəksən?”– demişdilər. O buyurdu: “Şübhəsiz ki, Mən sizin bilmədiklərinizi bilirəm!”**[1] Daha sonra Allah bəşəriyyəti xəlq etmiş, onların arasından peyğəmbərlər, elçilər, siddiqlər, şəhidlər və əməlisaleh kəslər seçmişdir.

İkinci: Mələklər ruhlardan deyil, cisimlərdən ibarətdir. Çünki onlar *hədisdə də göstərildiyi kimi,* oturublar. Oturan bir şey isə cisimdir. Peyğəmbər ﷺ Cəbraili xəlq olunduğu surətində görmüşdür – onun altı yüz qanadı var idi və qanadları üfüqü bağlamışdı. Nöqsansız və uca Allah buyurur: **“Həmd, göyləri və yeri yaradan, mələkləri iki, üç və dördqanadlı elçilər edən Allaha məxsusdur”.**[2]

Deməli, mələklər canlı məxluqdurlar. Lakin izzət və cəlal sahibi Allah onları bizlərə göstərməmiş və onları qeyb aləminə aid etmişdir. Cinlər də cisimdirlər – onlar da qeyb aləminə aid edilib bizlərə görünmürlər. Bəzən mələklər insan qiyafəsində görünə bilərlər. Məsələn, bir dəfə Cəbrail عليه السلام Dihyə əl-Kəlbinin surətində Peyğəmbərin ﷺ yanına gəlmişdir. Başqa bir vaxtda isə qərib bir adamın surətində gəlmişdi. Bu zaman nə səhabələr onu tanıyırdı, nə də üzərində səfərdən əsər-əlamət var idi – nə əynindəki ağ paltar, nə də qara saçları toz-torpağa bulaşmamışdı. Gəlib Peyğəmbərin ﷺ yanında oturmuş və İslam, iman, ehsan, Qiyamət saatı və onun əlamətləri barədə suallar vermişdi.

Üçüncü: Sünnəyə görə salamı topluma verdikdə: “əssəlamu aleykum”, tək adama verdikdə isə: “əssəlamu aleykə” deyilir. Çünki tək adama tək formada, topluma isə cəm formasında xitab olunur.

Dördüncü: Salam, Allahın əmri ilə mələklər vasitəsilə öyrədilmişdir. Nöqsansız və uca Allah bu xüsusda buyurur ki: **“Bu sənin və sənin övladlarının salamıdır”.** Bəs sənin [sənə salam verənə] cavab olaraq: “əssəlamu aleykə və rəhmətullah” deməyində bir müşkül ola bilərmi? Məlum məsələdir ki, cavabda xəbər önə keçir. Bu zaman: “aleykəssəlam” deməlisən.

---

[1] “əl-Bəqərə” surəsi, 30.

[2] “Fatir” surəsi, 1.

Mələklərin salama cavab olaraq söylədikləri barədə isə deyilir ki, ya onlar ona ilkin salamlaşmanı öyrədirlər, ya da şəriət xəbəri önə çəkməklə bunun əksini söyləyir.

Beşinci: Salama cavab verərkən yaxşı olar ki, "və rəhmətullah" əlavəsini də deyəsən, çünki mələklər də artırmışdılar. Uca Allah: **"Ondan daha yaxşı tərzdə alın"** buyurmaqla ilk öncə daha yaxşını qeyd edir, sonra isə: **"yaxud olduğu kimi qaytarın"** deyə tamamlayır. Yəni, daha yaxşı şəkildə qaytarmalısınız. Müvəffəq edən Allahdır.

٨٤٧ – وعن أبي عُمارة البراء بن عازبٍ رضي الله عنهما قال: أمرنا رسولُ الله ﷺ بِسَبعٍ: «بِعِيَادَةِ المَرِيضِ. وَاتِّبَاعِ الجَنائز، وَتشْميت العَاطس، ونصرِ الضَّعِيف، وَعَوْن المظلوم، وإفْشاءِ السَّلام، وإبرارِ المقسم » متفق عليه، هذا لفظ إحدى روايات البخاري.

847. Əbu Umara əl-Bəra ibn Azibdən رضي الله عنه rəvayət olunur ki, o demişdir: "Rəsulullah ﷺ bizə yeddi şeyi əmr etdi: xəstəni ziyarət etməyi, cənazələri təqib etməyi, asqırana dua etməyi, zəifə yardım etməyi, məzluma arxa çıxmağı, salamı yaymağı, and içənə [onun andını yerinə yetirməsinə] yardım etməyi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Buradakı mətn Buxarinin ləfzidir.

٨٤٨ – وعن أبي هريرة رضي الله عنه قال: قال رسول الله ﷺ « لا تَدْخُلُوا الجَنَّةَ حَتَّى تُؤْمِنُوا وَلا تُؤمِنوا حَتى تحَابُّوا، أَوَلا أدُلُّكُمْ عَلَى شَيْءٍ إذا فَعَلْتُمُوهُ تَحابَبْتُم؟ أفْشُوا السَّلام بَيْنَكُم » رواه مسلم.

848. Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"İman gətirməyincə Cənnətə daxil olmayacaqsınız, bir-birinizi sevməyincə də iman gətirmiş olmayacaqsınız. Sizə elə bir şey öyrədimmi ki, onu etdiyiniz təqdirdə bir-birinizi sevəsiniz? – Salamı aranızda yayın".**

Hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 6235; "Səhih Muslim", 2066.

[2] "Səhih Muslim", 54.

٨٤٩ – وعن أبي يوسف عبد الله بن سلام ﷺ قال: سمعت رسول الله ﷺ يقول « يَا أَيُّهَا النّاسُ أفْشُوا السَّلام، وَأْطعِمُوا الطْعَامَ، وَصِلُوا الأْرحامَ، وَصَلُّوا والنَّاس نيامٌ، تَدْخُلوا الجُنَّة بسلام » رواه الترمذي وقال: حديث حسن صحيح.

849. Rəvayət olunur ki. Əbu Yusuf Abdullah ibn Salam ﷺ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Ey insanlar, salamı yayın, yemək yedirin, qohumlarla əlaqə yaradın, insanlar yatdığı zaman namaz qılın! – Cənnətə salamatlıqla daxil olun"**».

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən-səhih hədisdir".[1]

٨٥٠ – وعن الطفيل بن أبي بن كعب أنه كان يأتي عبد الله بن عمر فيغدو مَعَهُ إلى صاحب بيعَة وَلا مْسكين وَلا أحد إلا سَلّم عَليه، قال الطُّفيلُ: فَجِئْتُ عبد الله بنَ عُمرَ يَوْماً فاسْتَتْبْعني إلى السُّوقِ فقُلْت لَهُ: ماتَصْنعُ بالسوقٍ وأنْتَ لا تَقِفُ عَلى البَيْع وَلا تَسْألُ عَن السلع وَلا تَسُومُ بها وَلا تَجلسُ في مجالس السّوق؟ وأقولُ اجْلسْ بنا هٰهُنا نَتَحدَّث، فقال يا أبا بُطْن. وَكانَ الْطُّفَيلُ ذَا بَطْن إنَّما نَغْدو منْ أجْل السَّلام نُسَلِّمُ عَلَى مَنْ لَقِيناهُ، رواه مالك في المؤطَّإ بإسناد صحيح.

850. Tufeyl ibn Ubey ibn Kəbdən ﷺ rəvayət olunur ki, o, Abdullah ibn Ömərin ﷺ yanına gələr və onunla birlikdə gəzişərdi. İbn Ömər, çöldə gördüyü hər adama və miskinə salam verərdi. Tufeyl deyir ki, bir gün yenə Abdullah ibn Ömərin yanına gəldim və birlikdə bazara yol aldıq. Soruşdum ki, bazarda nə işin var, axı sən alış-veriş etmək istəmirsən? Həm də ki, nə orada bir iş sahibisən, nə də oradakı məclislərdə oturmursan. Gəl otur, burada söhbət edək. Dedi: "Ey Əbu Batn [Tufeyl kök birisi idi], gedirik ki, qarşımıza çıxan hər kəsə salam verək".

Hədisi Malik "əl-Muvatta" əsərində səhih isnadla nəql etmişdir.[2]

---

[1] "Səhih Muslim", 2485.

[2] Malik, "əl-Muvatta", 2/961.

Şərh:

Bəranın, Əbu Hureyra və Abdullah ibn Salamın رضي الله عنهم rəvayət etdikləri bu hədislər **"Salamın fəziləti və onu yaymağın əmr edilməsi"** fəslindədir və bu barədə daha öncə söhbət açmışıq deyə, təkrara ehtiyac yoxdur.

Tufeyl ibn Ubey ibn Kəbin hədisinə gəlincə isə, həmin hədisdə qeyd olunur ki, bir dəfə o, Abdullah ibn Ömərə bazarda yoldaşlıq etmiş və görmüşdür ki, o hər kəsə salam verir: dükan sahibinə, gəlib-keçən tanıdığı və tanımadığı adamlara. Yenə bir dəfə o, onun yanına gəldi və dedi ki, gəl birlikdə bazara gedək. Tufeyl soruşanda ki, sənin bazarda nə işin var? Onsuz da heç nə almırsan, orada da oturmursan. Gəl, elə burada oturub söhbət edək. İbn Ömər رضي الله عنه də cavabında dedi ki, mən bazara gedirəm ki, insanlara salam verim. Çünki insan salam verdikdə və salamı yaydıqda, bu əməl onun Cənnətə daxil olmasına səbəb olur. Əbu Hureyradan رضي الله عنه nəql olunmuş hədisdə deyildiyi kimi: **"İman gətirməyincə Cənnətə daxil olmayacaqsınız. Bir-birinizi sevməyincə də iman gətirmiş olmayacaqsınız. Sizə elə bir şey öyrədimmi ki, onu etdiyiniz təqdirdə bir-birinizi sevəsiniz? – Salamı aranızda yayın".** Çünki insan öz qardaşına salam verərək ona: "əssəlamu aleykum", yaxud tək birisinə: "əssəlamu aleykə" dedikdə, ona on savab yazılır, on nəfərə salam verdikdə isə, ona yüz savab yazılır. Bu isə alış-verişdən daha xeyirlidir. Abdullah ibn Ömər رضي الله عنهما bazara gedərdi ki, orada insanlara çoxlu salam versin. Bazarda olanların yanından keçərək onlara salam verərdi. Bu da dəlildir ki, insan çoxlu salam verməkdən usanmamalı, bezməməlidir. Məsələn, məscidə gedərkən yolda yüz adamla görüşsən, onlara salam ver, çünki yüz nəfərə salam verdikdə, min savab qazanmış olursan. Bu da böyük bir nemətdir.

Bu həm də sələflərin savab işlər görməyə necə həris olmalarına dəlildir. Onlar indiki dövr camaatından fərqli olaraq savabları itirməzdilər. İndi görürsən ki, insanlar savabları fövtə verirlər. İbn Ömər də yaxşı işlər görməkdə başqalarını qabaqlamağa çalışan kəslərdən idi. Bir dəfə Əbu Hureyra ona Peyğəmbərin ﷺ bu sözlərini danışdı: **"Kim cənazəyə qoşularaq ona *cənazə* namazı qılarsa, ona bir qirat savab yazılar, dəfn olunanadək onu müşayət edənə isə iki qirat savab yazılar".** Soruşdular ki: "İki qirat nə qədərdir, ey Allahın elçisi?" Buyurdu: **"Kiçiyi Uhud dağı boyda**

olan iki böyük dağ qədər".[1] Eşitdiklərindən təsirlənən İbn Ömər dedi: "Vallahi, gör biz nə qədər çox qiratlar itirmişik". Bundan sonra o, harada cənazə olduğunu eşitsəydi, onu müşayiət edərdi. Sələflər belə idilər – yaxşı və savab əməl gördükdə ona tələsər və ona həris olardılar. İbn Ömər də hər dəfə cənazə gördükdə onu izləyər, əvvəlki cənazələrə qoşulmadığına görə də peşmançılıqla deyərdi ki, bizlər neçə-neçə qiratlar itirmişik.

Mömin olan kəs xeyirli işlərə həris olmalı, hər dəfə xeyirli bir fürsət gördükdə, ona tələsməlidir. Uca Allahdan diləyirəm ki, bizləri xeyirli işlər görməkdə yarışanlardan etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

"Ey Əbu Batn" sözünə gəlincə isə, Tufeylin qarnı böyük idi. Bu söz də Tufeyli ayıblamaq məqsədilə deyil, ona zarafatla deyilən bir müraciət-dir. Lap Peyğəmbərin ﷺ Əbu Hureyraya: **"Ey Əbu Hirr"** (yəni "ey pişik atası") deməsi kimi.

[1] "Səhih əl-Buxari", 1324; "Səhih Muslim", 945.

Yüz otuz ikinci fəsil

Salamın necəliyi

Salama başlayan kəs gərək: "Əssəlamu aleykum və rəhmətullahi və bərəkatuh" desin. Yəni şəxs əvəzliyini cəm formasında desin. Salamı alan kəs də belə deyir: "və aleykum əssəlam və rəhmətullahi və bərəkatuh", yəni "aleykum" sözündən əvvəl "və" bağlayıcısını işlədir.

Mövzu ilə əlaqəli hədislər:

٨٥١ – عن عِمران بن حصين ﵄ قال: جاءَ رجُل إلى النبي ﷺ فقال: السَّلامُ عَلَيكُم، فَرَدَّ عَلَيْهِ ثم جَلَسَ، فقال النبي ﷺ: «عَشْرٌ» ثم جَاءَ آخَرُ فَقَالَ: السَّلامُ عَلَيكُم وَرَحْمَةُ الله، فَرَدَّ عليهِ فَجَلَسَ، فقال: «عِشْرون »، ثم جَاءَ آخَرُ فَقَالَ: السَّلامُ عَلَيكُم وَرَحْمَةُ الله وَبَرَكَاتُهّ، فَرَدَّ عليهِ فَجَلَسَ، فقال: « ثَلاَثُونَ ». رواه أبو داود والترمذي وقال: حديث حسن.

851. Rəvayət olunur ki, İmran ibn Husayn ﵁ demişdir: "Bir dəfə bir kişi Peyğəmbərin ﷺ yanına gəlib: "Əssəlamu aleykum" dedi, o da cavab verdi və adam oturdu. Peyğəmbər ﷺ dedi: **"On *savab"***. Sonra başqa birisi gəlib: "Əssəlamu aleykum və rəhmətullah" dedi, o da cavab verdi və adam oturdu. Peyğəmbər ﷺ dedi: **"İyirmi *savab"*.** Sonra başqa birisi gəlib: "Əssəlamu aleykum və rəhmətullahi və bərəkatuh" dedi, o da cavab verdi və adam oturdu. Peyğəmbər ﷺ dedi: **"Otuz *savab"*.**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Həsən hədisdir" demişdir.[1]

٨٥٢ – وعن عائشة ﵂ قالتْ: قال لي رسولُ الله ﷺ: « هذا جِبرِيلُ يَقرَأُ عَلَيْكِ السَّلَامَ » قالَتْ: قُلتُ: « وَعَلَيْه السَّلامُ ورحْمَةُ الله وَبَرَكَاتُهُ » متفقٌ عليه.

وهكذا وقع في بعض رواياتِ الصحيحين: « وَبَرَكَاتُهُ » وفي بعضها بحذفها، وزيادة الثقة مقبولة

[1] "Sunən Əbu Davud", 5195; "Sunən ət-Tirmizi", 2689.

852. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: «Rəsulullah ﷺ mənə dedi: **"Bu Cəbraildir, sənə salam deyir".** Mən dedim: "Ona da Allahın salamı, rəhməti və bərəkəti olsun"».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Buxari və Muslimdəki bəzi rəvayətlərdə: "və bərəkəti" sözü olsa da, bəzilərində bu əlavə yoxdur. Etibarlı şəxsin əlavəsi isə məqbul sayılır.

٨٥٣ – وعن أنسٍ ﵁ أن النبي ﷺ كان إذا تكلم بِكَلمة أعَادهَا ثَلاثاً حتَّى تُفَهَم عنه، وإذا أتى على قوْم فَسَلَّمَ عَلَيهم سَلَّم عَلَيهم ثَلاثاَ، رواه البخاري. وهذا محمُولٌ عَلَى ما إذا كان الجَمْعُ كثيراً.

853. Ənəsdən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ bir söz söylədikdə [başa düşülməsi üçün] onu üç dəfə təkrarlayar, bir toplumun yanına gəldikdə də onları üç dəfə salamlayardı.

Hədisi Buxari rəvayət etmişdir.[2]

O bunu toplum qarşısında belə edərdi.

Şərh:

Müəllif ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində **"Salamın necəliyi"** adlı fəsil qeyd edir. Yəni, salam nə cür verilir, salam dedikdə və ya salama cavab verdikdə nə deyilir və s. Müəllif qeyd edir ki, müstəhəbdir ki, salam verilən kəs tək adamdırsa, salamlayan belə desin: "Əssəlamu aleykum və rəhmətullah". Sonra da İmran ibn Husaynın hədisini buna dəlil gətirir. Həmin hədisdə o demişdir:

"Bir dəfə bir kişi Peyğəmbərin ﷺ yanına gəlib: "Əssəlamu aleykum" dedi, o da cavab verdi və adam oturdu. Peyğəmbər ﷺ dedi: **"On *savab*"**. Sonra başqa birisi gəlib: "Əssəlamu aleykum və rəhmətullah" dedi, o da cavab verdi və adam oturdu. Peyğəmbər ﷺ dedi: **"İyirmi *savab*".** Sonra başqa birisi gəlib: "Əssəlamu aleykum və rəhmətullahi və bərəkatuh" dedi, o da cavab verdi və adam oturdu. Peyğəmbər ﷺ dedi: **"Otuz *savab*".**

[1] "Səhih əl-Buxari", 3217; "Səhih Muslim", 2447.

[2] "Səhih əl-Buxari", 95.

Beləcə o ﷺ birinciyə "on", ikinciyə "iyirmi", üçüncüyə də "otuz" deməklə tədricən artırmış oldu.

Bu məsələ barəsində alimlər ixtilaf etmişlər ki, tək adama salam verdikdə "əssəlamu aleykə" deyilməlidir, yoxsa "əssəlamu aleykum"? Səhih olan budur ki, "əssəlamu aleykum" deməlidir – Peyğəmbərdən ﷺ sabit olan budur. Namazını natamam (tələm-tələsik) qılan kəsin hədisində də belə deyilir. Müəllifin dəlil gətirdiyi İmranın hədisində isə buna dəlil yoxdur. Çünki hədisə görə, bir kişi Peyğəmbərin ﷺ yanına gəlir və həmin vaxt onun yanında bir toplum var idi. O da cəm formasında salam verir. Deməli, camaat şəklində olanlara sən: "əssəlamu aleykum" deyirsən. "və rəhmətullah" əlavəsini də etsən yaxşı olar. "və bərəkatuh" əlavəsini etsən daha yaxşı olar. Çünki hər bir kəlmə on savaba bərabərdir. Ancaq "əssəlamu aleykum" deməklə kifayətlənmiş olsan, bu da yetərlidir.

Cavab verən isə belə deyir: "və aleykum əssəlam". Əgər salam verən kəs "əssəlamu aleykum" deməklə kifayətlənirsə, belə qısa cavab bəs edər. Əgər salam verən kəs: "əssəlamu aleykə və rəhmətullah" deyərsə, cavab verən də: "və aleykəssəlam və rəhmətullah" deməlidir. Belə ki, uca Allah buyurur: **"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya *verilən salamı olduğu kimi* qaytarın!".**[1] Yəni, salamı misli ilə qaytarın. "Və" əlavə edərək "və aleykum" demək isə müstəhəbdir. Bu yaxşıdır, çünki "və" bağlayıcısı işləndikdə aydın olur ki, cümlə salam verənin salamına bağlıdır. İşlətməsə də olar, çünki İbrahim mələklərin salamına cavab verərkən "vav" (və) işlətməmişdir: **"Onlar onun yanına daxil olub: "*Sənə* salam olsun!"– dedilər. *İbrahim:* "Sizə salam olsun!".**[2] Beləcə "vav" (və) işlətməmişdir. Cavabda "və" işlətməyi tərk etmək icazəli olsa da, işlətmək daha yaxşıdır.

Sonra Sünnədəndir ki, bir nəfərin salamını başqasına çatdıran kəsə salam verilən: "aleyhissəlam" desin. Əgər: "sənə və ona salam olsun", yaxud: "ona və sənə salam olsun" deyərsə, bu da yaxşı olar. Çünki salamı çatdıran kəs yaxşılıq etmişdir. Sən də ona dua etməklə onu mükafatlandırırsan. Biri başqasına desə ki, filankəsə salamımı de, o da salamı çatdıraraq desə ki, filankəs sənə salam deyir, bu zaman o cavabında: "aleyhi və

[1] "ən-Nisa" surəsi, 86.

[2] "əz-Zariyat" surəsi, 25.

aleykəssəlam", yaxud müxtəsər olaraq: "aleyhissəlam" deyir. Bir dəfə Peyğəmbər ﷺ Aişəyə رضي الله عنها deyəndə ki, Cəbrail sənə salam deyir, Aişə də cavabında: "aleyhissəlam" demişdi. Bu da dəlildir ki, kiminsə salamı sənə çatdırıldıqda: "aleyhissəlam" deyirsən. Bəs əgər kimsə sənə desə ki, filankəsə salamımı çatdır, bunu çatdırmaq sənə vacibdir, yoxsa yox?

Alimlər bu barədə təfsilata vararaq belə demişlər: "Əgər sən salamı çatdıracağına dair ona söz versən, çatdırmağın vacibdir. Belə ki, Uca Allah buyurur: **"Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir".**[1] Sən də bunu öz üzərinə götürmüş olursan. Yox, əgər desə ki, filankəsə salam de, sonra da sussa, yaxud: "yadına düşsə, filankəsə salam de" desə, bu zaman yadına düşərsə, sən həmin adama salam vermək öhdəliyi götürmüş olursan. Yadına düşdükdə salam verməyin vacibdir. Ancaq yaxşı olar ki, heç kim başqasına belə bir tapşırıq verməsin. Çünki ola bilsin, bunu etmək həmin adam üçün çətin olsun. Birisi deyə bilər ki, "məni soruşana məndən salam ver". Çünki əgər o: "məni soruşana salam de" deyibsə, başqa birisi də onun barəsində soruşsa ki, filankəs necədir, deyəcək ki, filankəs yaxşıdır, sənə də salamı var. Belə etsə yaxşıdır. Kiməsə bunu tapşırmaq isə lazım deyil. Çünki həmin adam ola bilsin ki, səndən həya edib: "yaxşı, çatdıraram" deyər, ancaq sonra unudar, yaxud aradan uzun bir müddət keçər.

Sonra müəllif رحمه الله Ənəs bin Malikdən رضي الله عنه nəql olunan hədisi qeyd edir. Həmin hədisdə deyilir ki, Peyğəmbər ﷺ bir sözü üç dəfə təkrar edər, həmçinin salam verdikdə də üç dəfə salam verərdi. Lakin o, sözü anlaşılmadıqda üç dəfə təkrar edərdi. Anlaşıldıqda isə bir dəfə ilə kifayətlənərdi. Xitab olunan adam ağır eşitdikdə, yaxud ətrafda izdiham olduqda, Peyğəmbər ﷺ iki dəfə təkrar edərdi. Kifayət etmədiyində isə üç dəfə də təkrar edə bilər. Üç dəfədən artıq təkrarlamağa isə lüzum yoxdur. Həmçinin bir evə getdikdə qapını üç dəfə döyürsən, açan olmasa çıxıb gedirsən. Burada da üç dəfə təkrar edirsən, anlamasa həmin adamı tərk edirsən. Həmçinin birinə salam verdikdə səni eşitməzsə, salamı iki və ya üç dəfə təkrar edirsən. Yaxud sən birisinə salam verdiyində sənə icazəli olmayan formada cavab verirsə, məsələn, sənin: "əssəlamu aleykə"

[1] "ən-Nisa" surəsi, 58.

deməyinə, “xoş gördük səni” deyirsə, bu zaman yenidən salam ver və: “əssəlamu aleykə” de. Sənə yenə: ”xoş gördük səni” deyərsə, yenidən salam ver və: “əssəlamu aleykə” de (üç dəfə). Əgər faydası olmasa, həmin adamı tərk et. Lakin onu tənbeh et ki, salama cavab verərkən “xoş gördük” demək kifayət etmir: “əssəlamu aleykə” deyildikdə “və aleykəssəlam” demək mütləqdir. Müvəffəq edən Allahdır.

٨٥٤ – وعن الْمِقْدَاد رضي الله عنه في حَدِيثه الطويل قال: كُنَّا نَرْفَعُ للنبي ﷺ نَصِيبهُ مِنَ اللَّبَن فَيَجِيئُ مِنَ اللَّيلِ فَيُسَلِّمُ تسليماً لايوقظُ نَائِماً وَيُسمِعُ اليَقظان فَجَاء النبي ﷺ فَسَلمَّ كما كان يُسَلمُ، رواه مسلم.

854. Miqdaddan رضي الله عنه rəvayət olunan uzun bir hədisdə o bunları deyir: “Biz Peyğəmbərə ﷺ onun süd payını verərdik... O gecə gəlib salam verəndə yatanı oyatmaz, [səsini] oyaq olana eşitdirərdi... Peyğəmbər ﷺ gəlib əvvəlki kimi salam verdi”.

Hədisi Muslim rəvayət etmişdir.[1]

٨٥٥ – عن أسماء بنتِ يزيد رضي الله عنها أن رسول الله ﷺ مَرَّ في المَسْجِد يوْماً وَعصْبةٌ مِنَ النِّساء قُعوُدٌ فألوْي بِيده بالتسليم.

رواه الترمذي وقال: حديث حسن. وهذا محمول على أنه ﷺ جَمَعَ بَين اللَّفظ والإشارة، ويُؤيِّدُهُ أن في رِواية أبي داود: « فَسَلَّم عَليْنا ».

855. Əsma bint Yəziddən رضي الله عنها rəvayət olunur ki, bir dəfə Rəsulullah ﷺ məscidə gəldi. Həmin vaxt bir qrup qadın məsciddə oturmuşdu. O əlini qaldırıb onlara salam verdi.

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: “Bu, həsən hədisdir”.[2]

Hədisin mənası budur ki, o həm söz, həm də əl ilə salam vermişdir. Əbu Davudun rəvayəti də bunu dəstəkləyir: “O, bizə salam verdi”.[3]

---

[1] “Səhih Muslim”, 2055.

[2] “Sunən ət-Tirmizi”, 2697.

[3] “Sunən Əbu Davud”, 5209.

٨٥٦ – وعن أبي جُرَيّ الهُجَيْمِيّ رضي الله عنه قال: أتيت رسول الله ﷺ فقلُت: عَلَيْك السَّلامُ يا رَسول الله. فقال: لاتَقُلْ عَلَيْكَ السَّلامُ، فإن عَلَيْكَ السّلامُ تَحيَّةُ الموتى » رواه أبو داود، والترمذي وقال: حديث حسن صحيح. وقد سبق بِطولِه.

856. Əbu Curey əl-Huceymidən رضي الله عنه rəvayət olunur ki, mən Rəsulullahın ﷺ yanına gəlib dedim: "Aleykəssəlam, ey Allahın rəsulu". Dedi: «**"Aleykəssəlam" demə! Şübhəsiz ki, "aleykəssəlam" ölülərə verilən salamdır"**».

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi demişdir: "Bu, həsən-səhih hədisdir".[1]

Hədisin tam mətni əvvəl qeyd olunmuşdur.

Şərh:

Hafiz ən-Nəvəvinin رحمه الله "Salehlər bağçası" əsərində zikr etdiyi bu hədislər salamın ədəbləri ilə bağlıdır. Miqdad ibn Əsvəddən رضي الله عنه rəvayət olunan hədisdə deyilir ki, Peyğəmbər ﷺ gecə evə daxil olub xəfif səslə salam verərdi – yatanı oyatmaz, oyaq olanı eşitdirərdi. Gərək müsəlman olan kəs də belə etsin. Hər hansı bir evə daxil olduqda elə salam versin ki, oyaq olan kəs onu eşidə bilsin, yatan adam isə oyanmasın. Çünki yatmış adam kiminsə onu oyatmasını istəmir. Ələlxüsus da bəziləri yuxudan oyandıqda, yenidən səhərə qədər yata bilmirlər. Bu da başqalarına əziyyət vermək anlamındadır. Əgər həm yatmış, həm də oyaq adamların olduğu bir məkana daxil olsan, oyaq olanların salam haqqını ver, yatanlara isə əziyyət vermə. Salamı elə yüksək səslə vermə ki, həm oyaq olan onu eşitsin, həm də yatmış adam oyanmasın.

Sonra müəllif رحمه الله Əsmadan رضي الله عنها nəql olunan hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbərin ﷺ qadınlar orada olduğu zaman məscidə gəldiyi deyilir. Müəllif buyurur ki, Peyğəmbər həm əl ilə, həm də dili ilə onlara salam verir. Yalnız əllə salam vermək qadağandır. Peyğəmbər ﷺ bunu qadağan etmişdir. Hər ikisini birdən etmək isə olar. Xüsusən də əgər onların arasındakı məsafə uzaqdırsa, salam verənin əlinə baxaraq salam

[1] "Sunən Əbu Davud", 5209; "Sunən ət-Tirmizi", 2722.

verdiyini anlaması üçün bunu etmək olar. Yaxud əgər salam verilən kəs kardırsa, belə etmək olar. Bu zaman həm əli ilə, həm də dili ilə salam vermək olar. Günümüzdə bəzi insanların sükan arxasında ikən siqnalı basmaqla salam verməyinə gəlincə isə, bu kifayət etmir. Bu həm də Sünnəyə müvafiq deyil. Lakin əvvəlcə diqqəti cəlb edib, daha sonra salam vermək isə, ümid edirəm ki, bunu etmək qəbahət deyil. Salamın əvəzinə belə etmək isə şəkk yoxdur ki, Sünnəyə müxalifdir. Sünnə, adamın dili ilə salam verməsidir. Əgər səs eşidilmirsə, salam verib əli ilə də işarə edə bilər ki, uzaqda olanın, yaxud ağır eşidən kəsin diqqətini özünə yönəltsin.

Əsma bint Yəzidin ﵂ hədisində deyilir ki, bir dəfə Peyğəmbər ﷺ məscidə gəlir. Həmin vaxt orada qadınlar toplaşmışdı. O da onlara əli ilə işarə edərək salam verdi. Nəvəvi demişdir: "Burada o həm əli ilə, həm də dili ilə salam vermişdir". Çünki yalnız əllə salam vermək qadağandır. Tək adama salam verildikdə, gərək ona: "əssəlamu aleykə" deyilsin. Lakin insanlar çox olduqda, uzaqda olduqda, yaxud ağır eşitdikdə həm əllə, həm də dillə salam verərək: "əssəlamu aleykum" demək olar.

Hədisdə qeyd olunur ki, Peyğəmbər ﷺ qadınlara salam vermişdir. Burada haramdan söhbət belə gedə bilməz. Ümumilikdə isə kişi məhrəm olmayan qadına salam verməməlidir. Çünki bu zaman fitnə baş verə bilər. Ələlxüsus da gənc oğlan gənc qıza, qız da oğlana salam verməməlidir. Yox, əgər kişi əməlisaleh biri kimi tanınırsa, özü də məsciddə və ya dərs verilən yerlərdə qadın toplumunun yanından keçərsə, onlara salam verə bilər. Burada haram yoxdur – məscidə hər kəs girib-çıxır. Küçədə və ya bazarda durub gənc qıza salam vermək isə fitnədir – bu zaman qadına (qıza) salam verilmir. Həmçinin evə gəlib görsə ki, onun ailəsinin yanına başqa qadınlar gəlib, bu zaman da salam verə bilər. Çünki burada haram bir iş yoxdur. Fitnə olacağından ehtiyat etdikdə isə salam vermir. Şəriət qaydası belədir ki: "Fəsadların dəf edilməsi, məsləhət olanların cəlb olunmasından daha önəmlidir".

Həmçinin qeyd olunduğu kimi, salam verməyin forması belədir: "əssəlamu aleykə və rəhmətullahi və bərəkatuh". Camaat olduqda deyirsən: "əssəlamu aleykum və rəhmətullahi və bərəkatuh". Yalnız "aleykəssəlam" deyə salam verməyi isə Peyğəmbər ﷺ qadağan etmiş və demişdir ki, **"Bu**

ölülərin salamıdır". Yəni, onlar cahiliyyə dövründə ölülərinə belə salam verərdilər. Şair bu xüsusda belə deyir:

Ey Qeys ibn Amir, salamı olsun Allahın sənə!

Onlar ölülərə elə xitab edərdilər ki, sanki onlar sağdırlar və yanlarındadırlar. Onlara: "aleykə səlamullah" deyərdilər. Peyğəmbər ﷺ də bunu qadağan etdi. Çünki ölülərə salam kimi salam vermək cahiliyyyə dövründəki cahillərə bənzəmək anlamındadır. Əksinə, "aleykəssəlam" demək əvəzinə: "əssəlamu aleykum" deyirsən – Sünnə budur! Daha doğrusunu Allah bilir.

Yüz otuz üçüncü fəsil

Salamın ədəbləri

Mövzu ilə əlaqəli hədislər:

٨٥٧ – وعن أبي أُمامة صُدَيِّ بن عجلان الباهِلِي ﷺ قال: قال رسول الله ﷺ: «إنَّ أَوْلَىَ النّاس بالله مَنْ بَدأهم بالسَّلاَم)).

رواه أبو داود بإسنادٍ جيدٍ، ورواه الترمذي عن أبي أُمامةَ ﷺ قِيلَ يارسولَ الله، الرَّجُلانِ يَلْتَقيان أَيُّهُمَا يَبْدأُ بالسَّلامِ، قال أَوْلاهُمَا بالله تعالى، قال الترمذي: حديث حسن.

857. Əbu Uməmə Sudey ibn Aclən əl-Bahilidən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allaha ən yaxın adam salamı birinci verəndir".**

Hədisi Əbu Davud yaxşı isnadla nəql etmişdir.[1]

Tirmizi də Əbu Uməmədən ﷺ rəvayət edir ki, dedilər: "Ey Allahın elçisi, iki kişi qarşılaşdıqda hansı birinci salam verməlidir?" Dedi: **"Uca Allaha daha yaxın olanı".** Tirmizi hədisin həsən olduğunu demişdir.[2]

٨٥٨ – وعن أبي هريرة ﷺ أن رسول الله ﷺ قال: « يُسَلِّمُ الرَّاكبُ عَلَى الْمَاشِي، وَالْماشي عَلَي القَاعِدِ، والقليلُ على الكَثِيرِ » متفق عليه. وفي رواية البخاري: والصغيرُ على الْكَبِيرِ ».

858. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Minikdə olan piyadaya salam verir, piyada – oturana, azlıq da çoxluğa".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

Buxarinin rəvayətində isə bu da var: **"… kiçik də böyüyə"**.

---

[1] "Sunən Əbu Davud", 5197.

[2] "Sunən ət-Tirmizi, 2694.

[3] "Səhih əl-Buxari", 6232; "Səhih Muslim", 2160.

Şərh:

Nəvəvinin ﵀ "Salehlər bağçası" əsərində qeyd etdiyi bu hədislər **"Salamın ədəbləri"** fəslində yer alır. Bunların bəzisi barədə artıq söhbət açmışıq. Onlardan biri daha öncə şərh etdiyimiz Əsmanın hədisidir.

Növbəti hədis Əbu Uməmənin ﵁ hədisidir. Həmin hədisdə deyilir ki, Rəsulullah ﷺ demişdir: **"Allaha ən yaxın adam salamı birinci verəndir".**

İnsanların ən xeyirlisi salamı birinci verəndir. Məxluqatın ən xeyirlisi olan Peyğəmbər ﷺ qarşılaşdığı hər kəsə salam verərdi. Çalış ki, qarşındakı adam səndən yaşca kiçik olsa belə, ona ilk əvvəl sən salam verəsən. Çünki insanların ən xeyirlisi salamı birinci verəndir. İnsanlardan Allaha daha yaxın olanı salamı birinci verənlərdir. Sən də Allah yanında önəmli insan olmaq istəyirsənmi? Əlbəttə, hər birimiz bunu istəyirik. Odur ki, insanlara salam verin.

Sonra müəllif Əbu Hureyranın ﵁ hədisini qeyd edir ki, kim birinci salam verməlidir. Rəsulullah ﷺ demişdir: **"Minikdə olan piyadaya salam verir, piyada – oturana, azlıq da çoxluğa".** Peyğəmbər ﷺ qeyd etmişdir ki, minik üzərində olan kəs piyadaya, piyada – oturana, azlıq çoxluğa, kiçik də böyüyə salam verməlidir. Çünki minik üzərində olan kəs yüksəkdə olur və piyada olana salam verməlidir. Piyada isə oturandan yüksəkdə olur və ona salam verir. Azlıq çoxluğa salam verir, çünki çoxluğun azlıq üzərində haqqı var. Kiçik də böyüyə salam verməlidir, çünki böyüyün onun üzərində haqqı vardır. Lakin əgər azlıq qəflətdə olarsa, diqqət yetirməzlərsə, çoxluq ona salam verir. Həmçinin, fərz edək ki, kiçik yaşlı olan qəflətdə olarsa, böyük olan ona salam verir. Beləcə, Sünnə tərk olunmur. Yəni, Peyğəmbərin ﷺ bu sözləri o mənanı vermir ki, böyüyün kiçiyə salam verməsi haramdır. Məna budur ki, yaxşı olar ki, *ilk olaraq* kiçik böyüyə salam versin. Salam verməsə, böyük ona salam verir. Hətta sən böyük ola-ola *kiçiyi* qabaqlayıb salam versən, bu daha əfzəldir. Beləliklə, Allaha ən yaxın olanlar salamı birinci verənlərdir. Müvəffəq edən Allahdır.

Yüz otuz dördüncü fəsil

Yenidən görüşdüyü adama, daxil olub çıxan, sonra yenidən daxil olan kəsə, araya ağac və ya başqa bir maneə girdikdə salamı təkrarlamağın müstəhəbliyi

Mövzu ilə əlaqəli hədislər:

٨٥٩ – عن أبي هريرة رضي الله عنه في حديث المسِيءِ صَلاتُه أنَّهُ جاء فَصَلَّى ثُمَّ جاء إلى النبي ﷺ فَسَلَّمَ عَلَيْهِ فَرَدَّ عَلَيْهِ السَّلام فقال: « ارجع فَصَلِّ فَإنَّكَ لم تُصَلِّ» فَرَجَعَ فَصَلَّى، ثُمَّ جاء فَسَلَّمَ عَلَى النبي ﷺ حَتّى فَعَل ذلكَ ثَلاثَ مَرَّاتٍ. متفق عليه.

859. Namazını natamam (tələm-tələsik) qılan adamın hədisində Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, "Birisi *məscidə girib* namaz qıldı, sonra Peyğəmbərin ﷺ yanına gəlib salam verdi. Peyğəmbər ﷺ də onun salamına cavab verdi və dedi: **"Geri dön və namaz qıl, sən namaz qılmamısan"**. O da qayıdıb namaz qıldı. Sonra yenə gəlib Peyğəmbərə ﷺ salam verdi… O, bunu üç dəfə təkrar etdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٨٦٠ – وعنه عن رسول الله ﷺ قال: « إذا لقيَ أَحَدَكُمْ أخاه فَلْيُسَلِّمْ عَلَيْهِ، فَإنْ حالَتْ بَيْنَهُمَا شَجَرَةٌ أو جِدَارٌ أوْ حَجَرٌ ثُمَّ لَقِيَهُ فَلْيُسَلِّمْ عَلَيْه » رواه أبو داود.

860. Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Sizlərdən biriniz qardaşı ilə qarşılaşdıqda, ona salam versin. Əgər onların arasını ağac, divar və ya daş ayırarsa, yenidən görüşdükdə yenə ona salam versin".**

Hədisi Əbu Davud rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 757; "Səhih Muslim", 397.

[2] "Sunən Əbu Davud", 5200.

Yüz otuz beşinci fəsil

Evinə daxil olan kəsin salam verməsinin müstəhəbliyi

Mövzu ilə əlaqəli ayə:

Uca Allah buyurur:

﴿ فَإِذَا دَخَلْتُم بُيُوتًا فَسَلِّمُوا عَلَىٰٓ أَنفُسِكُمْ تَحِيَّةً مِّنْ عِندِ ٱللَّهِ مُبَٰرَكَةً طَيِّبَةً ﴾

“Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın”.[1]

Mövzu ilə əlaqəli hədis:

٨٦١ – وعن أنس ﷺ قال: قال لي رسول الله ﷺ « يابُنَيَّ، إذا دَخَلْتَ عَلى أَهْلِكَ فَسَلِّمْ يَكُنْ بَركةً عَلَيْكَ وَعَلَى أهلِ بَيْتِكَ »

رواه الترمذي وقال: حديث حسن صحيح.

861. Rəvayət olunur ki, Ənəs ﷺ demişdir: «Rəsulullah ﷺ mənə belə dedi: **“Oğlum, ailənin yanına gəldikdə onlara salam ver. [Belə etsən,] sənin və ev əhlinin üzərinə bərəkət verilər”**».

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: “Bu, həsən-səhih hədisdir”.[2]

Şərh:

Salamın ədəbləri ilə bağlı bu iki fəsli Hafiz ən-Nəvəvi ﷺ özünün “Salehlər bağçası” əsərində qeyd etmişdir. O demişdir ki, insan öz qardaşına salam verdikdən sonra həmin yerdən gedər, sonra yenə həmin yerə dönərsə yaxşı olar ki, yenidən salam versin. Misal üçün, adamın evində qonaqları var. O onlara yemək və ya başqa şey gətirmək üçün otaqdan çıxıb yenidən daxil olduqda salam verir. Bu da Allahın nemətindəndir ki,

---

[1] “ən-Nur” surəsi, 61.

[2] “Sunən ət-Tirmizi”, 2698.

Onun elçisi ﷺ müsəlmana qardaşının yanına yenidən daxil olduqda təkrarən salam verməyi buyurmuşdur. Bu zaman müddətin çox və ya az olması əhəmiyyətli deyil.

Allah bizlərə əmr etmişdir ki, bir-birimizə salam verək. Çünki salam ibadət və əcrdir – onu nə qədər artırsaq, həm Allaha bir o qədər çox ibadət etmiş olarıq, həm də Allah yanında bizim savab və əcrimiz artmış olur. Əgər bunu bizə Allah buyurmasaydı, salamı bu formada təkrar etmək bidət sayılardı. Lakin Allahın nemətindəndir ki, qardaşının yanından getdikdən sonra geri döndükdə hətta yaxın olsa belə, ona salam verirsən. Həmçinin sənlə qardaşın arasında böyük bir ağac, daş, hasar və ya maşın olması səbəbindən bir-birinizi görməzsinizsə, yenidən görüşdükdə salam verirsən. Mühüm olan odur ki, ondan ayrılıb yenidən görüşüncə ona salam verirsən.

Sonra müəllif ﷺ Əbu Hureyradan nəql olunmuş hədisi dəlil gətirir. Həmin hədisdə bir kişi məscidə girərək tələm-tələsik namaz qılır, sonra gəlib Peyğəmbərə ﷺ salam verir. Peyğəmbər ﷺ də onun salamına cavab verir və deyir: **"Geri dön və yenidən namaz qıl, çünki sən namaz qılmamısan".** Adam da geri dönüb yenidən namaz qılır. Lakin onun bu namazı da əvvəlki kimi olur. Sonra gəlib yenə Peyğəmbərə ﷺ salam verir. Peyğəmbər ﷺ də onun salamına cavab verir və deyir: **"Geri dön və yenidən namaz qıl, çünki sən namaz qılmamısan".** Bu hal üç dəfə təkrarlanır. Adam isə cahil idi, başqa cür də namaz qıla bilmirdi. Gəlib deyir ki: "Səni haqq olaraq göndərənə and olsun ki, başqa cür bacarmıram, məni öyrət". Bu da Peyğəmbərin ﷺ hikmətindən idi ki, ona bir neçə dəfə eyni cür buyurmuşdu. *Anında düzəliş vermədən* bir neçə dəfə səhv formada namaz qıldırır ki, öyrənməyə həvəsi artsın, elm də birbaşa onun qəlbinə daxil olsun. Çünki qəlb *yeni bilgi üçün* açıq idi və elmə ehtiyacı var idi. Məlum məsələdir ki, bir şey ehtiyac anında gəldikdə, nəfs üçün daha məqbul olur. Əgər ehtiyacı olan bir kasıba on rial versən, buna görə çox sevinər və bu onun üçün çox dəyərli sayılar. Həmin pulu varlı bir birisinə versən, bu onun üçün elə də önəmli olmaz.

Xülasə, Peyğəmbər ﷺ bu adamı bir neçə dəfə geri qaytarır ki, elmə həvəslənsin. Sonra da ona deyir: **"Namaza durmaq üçün dəstəmazı tamamla. Sonra qübləyə tərəf yönəl, təkbir gətir və bacardığın qədər Quran oxu.** ["Fatihə" surəsini oxumağın isə vacibdir və buna aid başqa

dəlillər vardır.] **Sonra rüku et və rahatlananadək rükuda qal. Sonra qamətini dikəlt və rahatlananadək ayaq üstə dur. Sonra səcdə et və rahatlananadək səcdədə qal. Sonra dikəlib otur və rahatlananadək oturmuş halda qal. Sonra səcdə et və rahatlananadək səcdədə qal.** [Bu da tam bir rükət sayılır.] **Sonra bunu bütün namazında belə et".** Rəsulullah ﷺ onu öyrədir, o da öyrənib gedir.

Daha sonra müəllif ﷺ dəlil olaraq bu hədisi gətirmişdir ki, insan qardaşının yanından aralanarsa, hətta həmin məsafə az olsa belə, geri döndükdə ona salam verməlidir. Misal üçün, sən məsciddə zikr edirsən. Sonra kitabını gətirmək, yaxud dəstəmazını yeniləmək və ya buna bənzər bir iş görmək üçün qalxıb gedirsən. Qayıtdıqda salam ver, çünki bu xeyirli bir işdir – hər bir salam on savaba bərabərdir.

Sonra müəllif ﷺ qeyd edir ki, Sünnədəndir ki, insan öz evinə daxil olduqda salam verməlidir və buna dəlil olaraq Uca Allahın bu ayəsini qeyd edir: **"Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın".**[1]

Odur ki, evinə daxil olduqda salam ver. Ancaq evə daxil olduğunda ilk öncə misvakdan istifadə et, sonra ailənə salam ver. Peyğəmbər ﷺ öz xidmətçisi Ənəs ibn Malikə belə tövsiyə etmişdir: **"Oğlum, ailənin yanına gəldikdə onlara salam ver. [Belə etsən,] sənin və ev əhlinin üzərinə bərəkət verilər"**. Bu xüsusda Uca Allah buyurur: **"mübarək və çox xoş bir salamla salamlayın".**

Evə daxil olduqda oradakılara salam ver – istər bu ailən olsun, istər dostların, istərsə də başqaları olsun. Evə girdikdə salam ver, çünki bu Sünnədir. Müvəffəq edən Allahdır.

[1] "ən-Nur" surəsi, 61.

Yüz otuz altıncı fəsil

Uşaqlara salam vermək

Mövzu ilə əlaqəli hədis:

٨٦٢ – عن أنس رضي الله عنه أَنَّهُ مَرَّ عَلى صِبْيان فَسَلَّمَ عَلَيْهِمْ وقال: كانَ رسول لله ﷺ يَفْعلُهُ. متفق عليه.

862. Ənəsdən رضي الله عنه rəvayət olunur ki, bir dəfə o oğlan uşaqlarının yanına getdi, onlara salam verdi və dedi: "Rəsulullah ﷺ belə edərdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

[1] "Səhih əl-Buxari", 6247; "Səhih Muslim", 2168.

Yüz otuz yeddinci fəsil

Kişinin öz xanımına, məhrəmlərindən birinə və yalnız fitnə olmayacağından əmin olması şərtilə başqa qadına və ya qadınlara salam verməsi

Mövzu ilə əlaqəli hədislər:

٨٦٣ – عن سهل بن سعد رضي الله عنه قال: كانَتْ فينا امْرَأَةٌ وفي رواية: - كانَتْ لَنا عَجُوزٌ تأْخُذُ منْ أُصُولِ السِّلْقَ فتطْرَحُهُ في القِدْرِ وَتُكَرْكِرُ حَبَّاتٍ منْ شَعِيرٍ، فإذا صَلَّيْنا الجُمُعَةَ وانْصَرَفْنَا نُسَلِّمُ عَلَيْها فَتُقدِّمُهُ إلَيْنَا رواه البخاري. قوله « تُكَرْكِرُ » أي تَطحَنُ.

863. Səhl ibn Səddən رضي الله عنه rəvayət olunur ki, o demişdir: "Aramızda bir qadın var idi, – digər bir rəvayətdə isə: bizdə qoca bir qarı var idi. O bitki (əs-silq ağacının köklərindən) götürüb qazana atar, üzərinə də arpa dənlərini üyüdüb əlavə edərdi. Biz cümə namazını qıldıqdan sonra gedib ona salam verərdik, o da bizə yemək verərdi".

Hədisi Buxari rəvayət etmişdir.[1]

Hədisin ərəbcəsində keçən "tukərkiru" sözü "üyütmək" bildirir.

٨٦٤ – وعن أُم هانئ فاخِتَةَ بِنتِ أبي طَالب رضي الله عنها قَالت: أتيت النبي ﷺ يَوْمَ الفَتْح وَهُو يَغْتسِلُ وَفاطِمةُ تَسْتُرهُ بِثَوْبٍ فَسَلَّمْتُ.

وذَكَرَت الحديث. رواه مسلم.

864. Ummu Hani Faxitə bint Əbu Talibdən رضي الله عنها rəvayət olunur ki, o demişdir: "Fəth günü mən Rəsulullahın ﷺ yanına gəldim. Bu vaxt o qüsl alırdı, Fatimə də onu örtüklə örtürdü. Mən salam verdim…". Sonra da hədisin ardını danışdı.

Hədisi Muslim rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 6248.

[2] "Səhih əl-Buxari", 357; "Səhih Muslim", 336.

٨٦٥ – وعن أسماءَ بنتِ يزيد ﵂ قالت: مر علينا النبي ﷺ في نِسْوَةٍ فَسَلَّمَ عَلَيْنَا. رواه أبو داود، والترمذي وقال: حديث حسن، وهذا لفظ أبي داود، و لفظ الترمذي: أن رسول الله ﷺ مَرَّ في المَسْجِدِ يوْماً وعُصْبَةٌ من النِّسَاءِ قُعُود فألوى بِيَدِهِ بالتَّسليمِ.

865. Əsma bint Yeziddən ﵂ rəvayət olunur ki, o demişdir: "Bir gün bir qadın toplusu ilə birlikdə idim. Bu vaxt Peyğəmbər ﷺ bizim yanımızdan keçdi və bizə salam verdi".

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir. Buradakı mətn Əbu Davudun ləfzidir. Tirmizinin ləfzi isə belədir: "Bir dəfə Allahın elçisi ﷺ məscidə gəldi. Bu zaman orada bir qadın toplusu var idi. O, əli ilə işarə edərək onları salamladı".

Şərh:

Müəllif hafiz ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərinin "Salamın ədəbləri" mövzusunda **"Uşaqlara salam vermək"** fəslini qeyd edir.

Uşaq deyildikdə, təqribən on iki yaşdan az olan, həddi-büluğ yaşına çatmayanlar nəzərdə tutulur. Bir çoxları uşaqlara saymazyana yanaşaraq onlara salam vermir, buna görə hətta qınanırlar da. Lakin bu, Peyğəmbərin ﷺ doğru yoluna müxalifdir – Peyğəmbər ﷺ həm uşaqlara, həm də böyüklərə salam verərdi. Ənəs ibn Malik ﵁ də uşaqların yanından keçərkən onlara salam vermiş və demişdir ki: "Peyğəmbər ﷺ belə edərdi". Yəni, uşaqlara salam verərdi.

Uşaqlara salam verməyin faydaları:

Birincisi, bu, Peyğəmbərin ﷺ sünnəsinə tabe olmaqdır. Uca Allah buyurur: **"Allahın elçisi sizlərə – Allaha və Axirət gününə ümidinə bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir".**[1]

İkincisi, bu, təvazökarlıqdır. Bununla insan özünübəyənmədən, lovğalıq və təkəbbürlükdən uzaqlaşır, təvazökarlıq göstərərək uşaqlara salam verir. Peyğəmbər ﷺ demişdir: **"Allah kimi əfv edərsə, onun izzətini artırar. Kim də Allah üçün təvazökar olarsa, Allah onu ucaldar".**[2]

---

[1] "əl-Əhzab" surəsi, 21.

[2] "Səhih Muslim", 2588.

Üçüncüsu, bu, islamın gözəlliklərini uşaqlara aşılamaqdır. Çünki uşaqlar görəndə ki, böyüklər onların yanından keçərkən onları salamlayır, buna öyrəşər və bu mübarək sünnəyə vərdiş etmiş olarlar.

Dördüncüsu, bu, uşaqlara qarşı mərhəmətli olmağa səbəb olur. Yəni uşaq ona salam verən kəsi sevir və buna sevinir. Hətta ola bilsin ki, o əsla həmin adamı unutmasın. Çünki uşaq gördüklərini unutmur.

Bunlar uşaqlara salam verməyin faydalarıdır. Gəlin, biz də bazarda bir şey satan, yaxud küçədə oynayan, yaxud da başqa bir iş görən uşaqlarla rastlaşdıqda, məhz qeyd etdiyimiz bu faydalara görə onlara salam verək.

Qadınlara salam verməyə gəlincə... Xanımlara və məhrəmlərə salam vermək Sünnədir.

Məhrəm o kəslərdir ki, sənin onlarla evlənməyin halal deyildir və onlara salam verməyində bir qəbahət yoxdur. Həmçinin zövcələrinə, bacına, bibinə, qardaşının qızına, bacının qızına salam verirsən – bunu da etmək olar. Başqa qadınlara isə salam vermirsən. Yalnız özün üçün fitnənin olmayacağından əmin olduğun yaşlı qadınlar istisnadır. Fitnənin baş verə biləcəyindən ehtiyat etdikdə isə onlara da salam vermirsən. Buna görə də kişilərdə adətdir ki, onlar naməhrəm qadınları gördükdə onlara salam vermirlər. Doğru olan da budur. Lakin öz evinə daxil olub orada tanıdığın qadınları görsən, onlara salam vermək olar. Bir şərtlə ki, fitnənin baş verməyəcəyindən əmin olasan. Qadın da həmçinin, özü üçün fitnənin olmayacağına əmindirsə, kişiyə salam verə bilər.

Müəllif ﷺ "əs-silq" ağacının köklərini yığan qadının hədisini qeyd etmişdir. Onun kökü faydalıdır və onun dəmləməsini istifadə etmək olur – həmin köklər suda qaynadılır, sonra da üzərinə *üyüdülmüş* arpa dənləri əlavə edilir. Səhabələrdən bəziləri cümə namazından sonra gəlib zikr olunan yaşlı qadına salam verər və həmin sıyıqdan yeyərdilər. Çünki səhabələr, Allah onlara fəthlər nəsib edənədək zəngin deyildilər. Uca Allah buyurur: **"Üstəlik alacaqları çoxlu qənimətə də *müvəffəq etdi*".**[1] O həmçinin buyurur: **"Allah sizə götürəcəyiniz çoxlu qənimətlər vəd etdi. O, bunları sizə**

[1] "əl-Fəth" surəsi, 19.

tezliklə verdi və insanların əllərini sizdən çəkdi ki, bu, möminlərə bir ibrət olsun və sizi doğru yola yönəltsin".[1] Məhz fəthlərdən sonra mal-dövlət çoxaldı. Bundan əvvəl isə səhabələrin böyük əksəriyyəti kasıb idilər. Müvəffəq edən Allahdır.

Sual: Soruşula bilər ki, qadınlarla əl ilə görüşməyin hökmü nədir?

Cavab: Məhrəm qadınlarla əl verib görüşməkdə bir problem yoxdur. Naməhrəmlərlə isə əl ilə görüşmək olmaz. Bu zaman əl istər bilavasitə ələ dəysin, istərsə də arada *parça, dəri, əlcək kimi* maneə olsun, həm də fərq etməz – istər yaşlı qadın olsun, istərsə də gənc qız.

Daha doğrusunu Allah bilir.

[1] "əl-Fəth" surəsi, 20.

Yüz otuz səkkizinci fəsil

Kafirə birinci salam verməyin haramlığı, ona cavab verməyin necəliyi, içərisində həm müsəlmanlar, həm də kafirlər olan məclis əhlinə salam verməyin müstəhəbliyi

Mövzu ilə əlaqəli hədislər:

٨٦٦ – وعن أبي هريرة ﷺ أن رسول الله ﷺ قال: « لاتَبدَأوا اليَهُودَ ولا النَّصَارى بالسَّلام، فإذا لَقِيتُم أحَدَهُم في طَرِيق فَاضطَرُّوهُ إلى أضْيَقِهِ » رواه مسلم.

866. Əbu Hureyradan ﷺ nəql olunan hədisdə Rəsulullah ﷺ demişdir: **"Yəhudi və xaçpərəstlərə salamı birinci siz verməyin. Onlardan biri ilə qarşılaşdığınız zaman onları yolun dar hissəsinə sıxışdırın".**

Hədisi Muslim rəvayət etmişdir.[1]

٨٦٧ – وعن أنسٍ ﷺ قال: قال رسول الله ﷺ: « إذَا سَلَّمَ عَلَيكُم أهلُ الكتاب فَقُولُوا: وعَلَيْكُمْ » متفق عليه.

867. Ənəsdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kitab əhli sizə salam verdikdə: "və aleykum" deyin!"**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

٨٦٨- وعن أُسامه ﷺ أن النبي ﷺ مَرَّ عَلَى مَجْلسٍ فيه أخلاطٌ من المُسلِمِينَ والمُشرِكِين عَبَدةِ الأوثَانِ واليَهُودِ فَسَّلمَ عَلَيْهِمْ النبي ﷺ. متفق عليه.

868. Usamədən ﷺ rəvayət olunur ki, "Bir dəfə Peyğəmbər ﷺ həm müsəlmanların, həm də kafirlərin – bütpərəstlərin və yəhudilərin olduğu məclisə gəldi. Peyğəmbər ﷺ onlara salam verdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "Səhih Muslim", 2167.

[2] "Səhih əl-Buxari", 6258; "Səhih Muslim", 2163.

[3] "Səhih əl-Buxari", 6254; "Səhih Muslim", 1798.

Şərh:

Müəllifin ﵀ "Salehlər bağçası" əsərində qeyd etdiyi bu fəsil kafirlərə salam vermək, müsəlmanlarla birlikdə olan kafirlərə salam vermək barəsindədir. Salam barədə, daha doğrusu müsəlmanlara verilən salam barədə daha öncə söhbət açmışıq və bildirmişik ki, bu, təkid edilmiş sünnədir.

Kafirlərə salam verməyə gəlincə isə bizim onlara salam verməyimiz halal deyildir. Yəni bir müsəlmanın kafirlə qarşılaşarkən, yaxud onun yanına daxil olarkən ona: "əssəlamu aleykə" deməsi icazəli deyil. Çünki Əbu Hureyranın ﵁ hədisində qeyd olunduğu kimi, Peyğəmbər ﷺ bunu qadağan etmişdir – bizim onlara salam verməyimiz bir növ qarşılarında acizləşmək, yaxud onlara layiq olmadıqları hörməti göstərmək mənasındadır. Belə ki, salam vermək göstərilən hörmətin, verilən dəyərin bir növüdür. Kafirlər isə hörmət olunmağa layiq deyillər. Əksinə, kafirləri hirsləndirmək, alçaltmaq və dünyanı onlara dar etmək gərəkdir. Nöqsansız və uca Allah öz kitabında buyurur: **"Muhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər".**[1] Uca Allah bu ayədə: **"kafirlərə qarşı sərt"** buyurur, yəni iman gətirənlər kafirlərə qarşı güc və qüvvət nümayiş etdirərlər. **"Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu *əkin* cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran etmişdir.** ***Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir*** **ki, <u>kafirləri qəzəbləndirsin"</u>.**[2] Diqqət çəkiləsi məqam da elə burasıdır.

Başqa bir ayədə Uca Allah belə buyurur: **"Əgər kafir başçılar əhd bağladıqdan sonra andlarını pozub dininizə böhtan atsalar, onlarla vuruşun, çünki onlar anda əhəmiyyət verməzlər. Bəlkə, *küfrdən* əl çəkələr".**[3]

Kafirlərə birinci salam vermək onlara hörmət etmək və məqamlarını yüksəltmək deməkdir. Mömin isə kafirlərdən üstün olmalıdır. Uca Allah

[1] "əl-Fəth" surəsi, 29.

[2] "əl-Fəth" surəsi, 29

[3] "ət-Tövbə" surəsi, 12.

buyurur: **“Ey iman gətirənlər! Sizlərdən kim dinindən dönərsə, *bilsin ki*, Allah *onun əvəzinə* Özünün sevdiyi və Onu sevən, möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olan bir camaat gətirər”.**[1]

Möminlər kafirlərdən güclü olmalıdır, yəni möminlər özlərini kafirlərdən qüvvətli hiss etməlidir və elə düşünməlidirlər ki, güclü olan onlardır. Günümüzdə xristian işçilərin ölkələrimizdə artmasından dolayı qəlblərdəki qeyrət də yox olmuşdur. Elə bil xristian, yəhudi, bütpərəst və məcusilərin müsəlmanlara müxalifliyi sanki bizlərdə hənbəli olanların malikilərə və ya şafiilərə müxalifliyi kimidir. Hətta bəziləri elə düşünürlər ki, kafirlərlə bizim aramızdakı fərq İslamdakı dörd məzhəbin ixtilafı kimidir. Allah qorusun!

Bu da, heç şübhəsiz, qəlblərin ölməsindəndir. Odur ki, müsəlman olan gərək kafiri gücləndirməsin. Bizə buyurulan odur ki, onları qəzəbləndirək. Ancaq onlarla bağladığımız sazişlərə də əməl etməliyik. Məsələn, əgər əhd bağlayıb, xristian işçilər gətirmişiksə. Bu yerdə ilk öncə onu qeyd edək ki, Ərəbistan yarımadasına xristian işçilər gətirməməliyik. Çünki Rəsulullah ﷺ: **“Yəhudi və xaçpərəstləri Ərəbistan yarımadasından çıxaracağam”–** demişdir.[2] O ﷺ həm də: **“Yəhudi və xaçpərəstləri Ərəbistan yarımadasından çıxarın!”** deyə əmr etmişdir.[3] Ölüm yatağında isə belə buyurmuşdur: **“Müşrikləri Ərəbistan yarımadasından çıxarın!”**

Əgər müsəlman işçi gətirməyə imkanın varsa, o zaman kafir gətirmə. Qəlbi ölü olanlar və ya Allahın azdırdığı kəslər isə düşünürlər ki, “Mən *işlətmək üçün* kafirləri gətirəcəyəm, çünki onlar namaz qılmırlar – namaz qılsalar, az işləyərlər. Oruc tutmaq da iş saatını azaldır. Kafirlər isə oruc tutmurlar, ona görə daha çox işləyərlər. Onlar həccə və ya ümrəyə də getmirlər deyə, iş saatları da azalmır”. Allah qorusun! Belələri axirətini dünyaya dəyişənlərdir. Allahdan salamatlıq diləyirik.

Xülasə, gərək kafirlərə, o cümlədən yəhudi, xaçpərəst və bütpərəstlərə birinci salam verməyək, yəni İslamda olmayan heç kəsə birinci salam vermək olmaz.

---

[1] “əl-Maidə” surəsi, 54.

[2] “Səhih Muslim”, 1767.

[3] “Musnəd İmam Əhməd”, 1/195.

Peyğəmbər ﷺ davamında buyurur ki: **"Onlardan biri ilə qarşılaşdığınız zaman onları yolun dar hissəsinə sıxışdırın".** Yəni onlara geniş yer verməyin. Hətta müsəlman camaat kafir bir camaatla yolda qarşılaşarsa, kafirlərə yol verməməlidirlər. Hətta onlar yolda pərən-pərən olsalar belə, yol verilməməlidir. Çünki sən onlara yol verdikdə, bu onlara hörmət etmək sayılar. Hörmət sayıldığı üçün onlara bunu etmə: "**Onlardan biri ilə qarşılaşdığınız zaman onları yolun dar hissəsinə sıxışdırın**".

Bəs nə üçün onlarla belə davranmalıyıq? Çünki onlar hər şeydən öncə Allahın, sonra da bizim düşmənimizdirlər. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşmənlərinizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib *sirrinizi açıb deyirsiniz*".**[1]

Hər şeydən öncə onlar Allaha, sonra isə bizlərə düşməndirlər. Onların keçmişdə, günümüzdə etdikləri və gələcəkdə edəcəkləri onların müsəlmanlara qarşı nə qədər güclü düşmən olduqlarının göstəricisidir. Ona görə də onlara salam vermək olmaz. Yaxşı, bəs onlar bizə salam verdikdə nə deyək? Peyğəmbər ﷺ demişdir: **"Onlar sizə salam verdikdə: "və aleykum" deyin".** Yalnız bunu deyir və heç bir əlavə etmirsən. Sən də: "və aleykum" de! Nə üçün? Çünki onlar Peyğəmbərin ﷺ zamanında gəlib pis şəkildə salam verər və: "əssəmu aleykum" (sizə ölüm olsun!) deyərdilər. "Səm" sözünün mənası ölümdür. Onlar belə deyərdilər, eşidən isə onların salam verdiyini düşünərdi. Özləri isə ölüm diləyirdilər. Düşmənçiliyin həddini görürsünüzmü? – hətta salamlaşdıqda belə sözlərinə zəhər qatardılar. Buna görə də Peyğəmbər ﷺ: «**"va aleykum"– deyin!**» buyurmuşdur. Əgər onlar bizə salam desələr, onlara da salam olsun, əgər ölüm diləsələr, özlərinə ölüm olsun. Bu da ədalətdən sayılır. Çünki Uca Allah buyurur: **"Sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya *verilən salamı olduğu kimi* qaytarın".**[2] Bu ədalətlidir. Buna görə də bəzi alimlər demişlər ki, əgər kafir sənə: "əssəlamu aleykə" deyən zaman, ləm hərfini aydın şəkildə tələffüz edərsə, sən də: "və aleykəssəlam" de. Niyə? Çünki bu zaman Peyğəmbərin ﷺ: "və aleykum" deməsinə səbəb olan amil aradan qalxmış olur. Buxarinin İbn Ömərdən rəvayət etdiyi hədisdə

[1] "əl-Mumtəhinə" surəsi, 1.

[2] "ən-Nisa" surəsi, 86.

olduğu kimi: «**Onlar: "əssəmu aleykum" deyirlər. Odur ki, onlar salam verdikdə siz də: "və aleykum" deyin».** Bu da aydın bir səbəbdir – onlar: "əssəmu aleykum" deyirdilər. Yox, əgər onlar aydın şəkildə: "əssəlamu aleykum" desələr, bu zaman biz də: "və aleykum əssəlam" deyirik. Əgər desələr: "xoş gördük", biz də: "xoş gördük" deyirik. Əgər: "mərhaba" desələr, biz də: "mərhaba" deyirik. Onlar nə cür salam verirlərsə, biz də onun mislini qaytarırıq.

Lakin bəziləri soruşa bilər ki, günümüzdə biz bir qövm kafirlərin şirkət rəhbərləri işləməsi kimi amillərlə üzləşmişik. Belə ki, müsəlman bir işçi şirkətin yəhudi və ya xaçpərəst olan sahibinin ofisinə daxil olur. Bu zaman nə deməlidir? Deyirik: Salam deməklə kifayətlənir. Niyyət də edir ki, salam onun özünün, yəni müsəlmanın üzərinə olsun. Çünki "aleykə" sözü işlənmədikcə salamın kimə aid olduğu bəlli olmur. Bunu da həmin rəhbərin şərindən ehtiyat etdiyin zaman edirsən. Ola bilsin ki, o mənliyinə sığışdırmasın ki, necə ola bilər ki, mənim yanıma daxil olur, ancaq mənə salam vermir. Yox, əgər belə bir qorxu olmazsa, yəni həmin adam salam verilib-verilməməyinə əhəmiyyət vermirsə, onun yanına daxil olaraq işini gör. Məsələn, işinlə bağlı sualın varsa soruş ki, bu işi nə cür etməliyəm? Çünki Rəsulullah ﷺ demişdir: **"Yəhudi və xaçpərəstlərə salamı birinci siz verməyin".** Ona görə salamı birinci vermə, şərindən ehtiyat etdikdə isə yalnız: "salam" de.

Alimlər ixtilaf etmişlər ki, salamdan fərqli sözləri, məsələn, "xoş gördük, mərhaba" kimi sözləri onlara birinci vermək olarmı? Bəzi alimlər demişlər ki, bunu qəlbləri ələ almaq üçün etmək olar, ələlxüsus da onun şərindən ehtiyat edilirsə. Digər alimlər isə demişlər ki, xeyr, olmaz. Çünki bunu deməklə sən onu əzəmətləndirmiş (məqamını ucaltmış) olursan. İnsan bu halda, yəni "xoş gördük" və ya buna bənzər sözlər dedikdə, ehtiyaca və məsləhətə baxmalıdır.

Sonra müəllif həm müsəlmanların, həm də kafirlərin olduğu bir toplumun yanından keçərkən onlara salamın verilib-verilməməsinə toxunur – orada kafirlər olduğu üçün salam tərk olunmalıdır, yoxsa müsəlmanlara görə salam verilməlidir? Burada iki səbəb bir araya gəlmişdir: mübah ilə qadağa. Mübah müsəlmanlara, qadağa isə kafirlərədir. Burada hökmə nəzər salınmalıdır. Çünki belə bir şəriət qaydası vardır ki, əgər mübahla

qadağa bir araya gələrsə və onlardan birini seçmək müyəssər olmazsa, qadağa tərəfinə üstünlük verilməlidir. Burada isə bu iki hökmü bir-birindən ayırmaq mümkündür. Belə ki, salamı verərkən müsəlmanları qəsd edirsən. "Əssəlamu aleykum" deyir, qəlbində isə müsəlmanları qəsd edirsən. Çünki Peyğəmbər ﷺ bir dəfə müşriklərin və yəhudilərin də iştirak etdiyi bir məclisə gəlmiş və salam vermişdir.

"Xoş gördük, necəsən?" sözləri xüsusunda da ixtilaf vardır. Əgər *qarşılaşdığın adamın* şərindən ehtiyat edirsənsə, sadəcə "salam" de, niyyətin isə özün üçün olsun.

Müəllif ﷺ "Salamın ədəbləri" fəslini Əbu Hureyradan nəql edilmiş hədislə bitirir. Həmin hədis məclisə gəlmiş, sonra da qalxıb oradan gedən kəs barəsindədir. Məlum məsələdir ki, adam bir qövmün yanına gəldikdə onlara salam verir. Ümumiyyətlə, salamın hökmü təkid olunmuş sünnədir. Salama cavab vermək isə salam verilən üçün fərdu ayndır. Camaat halında olduqda, onlara fərdu kifayədir, yəni bəziləri salamı qaytarsa, başqaları üçün bu vaciblik aradan qalxmış olur. Lakin camaat halında olsalar və aşkar bilinsə ki, salam verən bunu kimə verir, bu zaman həmin adamın salamı alması vacibdir. Misal üçün, müəllim tələbələrin yanındadır. Bu zaman birisi daxil olub müəllimi qəsd edərək ona salam verir. Belə olduğu halda müəllimin salamı alması vacibdir. *Onun əvəzinə* tələbələrin salamı alması isə kifayət etmir. Yaxud, məsələn, əmir öz adamları ilə bir yerdə ikən birisi daxil olub salam verir. Məlum məsələdir ki, məqsəd ilk öncə əmirə salam verməkdir. Bu zaman *əmirin* salamı qaytarması vacibdir. Yox, əgər adi adamlardırsa və daxil olanın salam verməklə konkret kimi qəsd etdiyi bəlli olmazsa, bu zaman onlardan birinin salamı alması kifayət edir. Çünki salamı qaytarmaq fərdu kifayədir.

Yüz otuz doqquzuncu fəsil

Məclisdən qalxdıqda və məclis əhlini tərk etdikdə salam verməyin müstəhəbliyi

Mövzu ilə əlaqəli hədis:

٨٦٩ – وعن أبي هريرة رضي الله عنه قال: قال رسول الله ﷺ: « إِذَا انْتَهَى أَحَدُكُم إِلى المَجْلسِ فَلْيُسَلِّمْ، فَإِذَا أَرَادَ أَنْ يَقُومَ فَلْيُسَلِّمْ، فَليسْت الأُولى بأَحَقِّ من الآخِرَة » رواه أبو داود، والترمذي وقال: حديث حسن.

869. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Biriniz məclisə gəldikdə salam versin, məclisdən qalxmaq istədikdə də salam versin. *Bu zaman* birinci salam ikincidən üstün deyil".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir.[1]

Şərh:

Müəllifin رحمه الله qeyd etdiyi bu hədis adamın məclisə gələrkən salam verməsi ilə bağlıdır. O, getmək istədikdə, qalxıb məclisi tərk etmək istədikdə də salam verməlidir. Çünki bunu Peyğəmbər ﷺ əmr edib belə demişdir: **"Birinci salam ikincidən üstün deyil".** Yəni, daxil olduqda da salam ver, tərk etdikdə də salam ver. Buna görə də insan məscidə daxil olduqda Peyğəmbərə ﷺ salam deyir, çıxdıqda da ona salam deyir. Məkkəyə ümrə və ya həcc məqsədilə daxil olduqda, təvaf edir. Məkkədən çıxmaq istədikdə, yenə təvaf edir. Çünki təvaf həcc və ya ümrə məqsədilə Məkkəyə gələn adamın salamı və vidasıdır. Bu da şəriətin kamilliyindəndir ki, buna bənzər məsələlərdə başlanğıcla sonu eyni etmişdir.

Bildiyimiz kimi, şəriət elm və hikmət sahibi olan Allahdandır. Uca Allah buyurur: **"*Bu,* Müdrik, *hər şeydən* Xəbərdar *olan Allah* tərəfindən,**

[1] "Sunən Əbu Davud", 5208; "Sunən ət-Tirmizi", 2706.

ayələri mükəmməlləşdirilmiş, sonra da ətraflı izah edilmiş bir Kitabdır".[1] Görürük ki, bütün ayələr bir-birinə uyğundur, onların arasında hər hansı bir ziddiyyət və ya çaşqınlıq yaradan məqam yoxdur.

Peyğəmbər ﷺ hətta ayaqqabının bir tayı ilə gəzməyi, bunu digər tayı düzəltmək məqsədilə edilərsə belə, qadağan etmişdir. Nə üçün? Çünki sən ayaqqabını bir ayağına geyindikdə, bu, ədalətsizlik və zülm olur. Gördüyün kimi, İslam şəriəti bütün işlərdə ədalətli olmağı əmr edir: **"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara *haqqını* verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız".**[2] Müvəffəq edən Allahdır.

[1] "Hud" surəsi, 1.

[2] "ən-Nəhl" surəsi, 90.

Yüz qırxıncı fəsil

İzin alma və onun ədəbləri

Mövzu ilə əlaqəli ayələr:

Uca Allah buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُواْ لَا تَدۡخُلُواْ بُيُوتًا غَيۡرَ بُيُوتِكُمۡ حَتَّىٰ تَسۡتَأۡنِسُواْ وَتُسَلِّمُواْ عَلَىٰٓ أَهۡلِهَا ﴾

“Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə salam vermədən girməyin”.[1]

﴿ وَإِذَا بَلَغَ ٱلۡأَطۡفَٰلُ مِنكُمُ ٱلۡحُلُمَ فَلۡيَسۡتَـٔۡذِنُواْ كَمَا ٱسۡتَـٔۡذَنَ ٱلَّذِينَ مِن قَبۡلِهِمۡ ﴾

“**Sizin uşaqlar da həddi-büluğa çatanda, qoy özlərindən əvvəlkilər *yanımıza girmək üçün* izin istədikləri kimi, izin istəsinlər. Allah Öz ayələrini sizə belə izah edir”.**[2]

Mövzu ilə əlaqəli hədislər:

٨٧٠ – وعن أبي موسى الأشعري رضي الله عنه قال: قال رسول الله ﷺ: « الاستِئْذانُ ثَلاَثٌ، فَإِنْ أُذِنَ لَكَ وَ إلاَّ فَارْجِع، متفق عليه.

870. Əbu Musa əl-Əşaridən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Üç dəfə izin alınmalıdır: icazə verilməsə, geri dön”**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

٨٧١ – وعن سهلِ بنِ سعد رضي الله عنه قال: قال رسول الله ﷺ « إنَّمَا جُعِلَ الاستئذانُ منْ أَجْلِ البَصَر » متفق عليه.

---

[1] “ən-Nur” surəsi, 27.

[2] “ən-Nur” surəsi, 59.

[3] “Səhih əl-Buxari”, 6245; “Səhih Muslim”, 2153.

871. Səhl ibn Səddən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İcazə gözə görə verilir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٨٧٢ – وعن رِبْعِيّ بن حِرَاشٍ قال حدَّثنا رَجُلٌ من بَنِي عَامرٍ أَنَّهُ استأذَنَ على النبي ﷺ وهو في بيت فقال: أأَلِج؟ فقال رسول الله ﷺ لخادِمِهِ: «أُخْرُج إلى هذا فَعَلِّمْهُ الإستئذَانَ فَقُل لَهُ قُل: السَّلامُ عَلَيكُم، أأدْخُلُ؟ » فَسَمِعهُ الرَّجُلُ فقال: السَّلام عَلَيكم، أأدخُلُ؟ فَأذن له النبي ﷺ فَدَخَلَ. رواه أبو داود بإسناد صحيح.

872. Ribi bin Hiraşdan ﵁ rəvayət olunur ki, o demişdir: "Amir oğullarından bir kişi bizə danışmışdır ki, bir dəfə o, Peyğəmbər ﷺ öz evində ikən onun yanına daxil olmaq üçün izin istəyərkən demişdir: "Daxil ola bilərəmmi?" Rəsulullah ﷺ da öz xidmətçisinə dedi ki, onun yanına çıx və ona icazə almağı öyrət. O da ona dedi ki, belə desin: "Əssəlamu aleykum, daxil ola bilərəmmi?" Kişi bunu eşidib dedi: "Əssəlamu aleykum, daxil ola bilərəmmi?" Peyğəmbər ﷺ ona icazə verdi, o da daxil oldu".

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

٨٧٣ – عن كلدة بن الحنبل ﵁ قال: أتيت النبي ﷺ فَدَخَلْتُ عَلَيْه ولم أُسَلِّم فقال النبي ﷺ : « ارْجِعْ فَقُلْ السَّلامُ عَلَيكُم أَأَدْخلُ؟ » رواه أبو داود، والترمذي وقال: حديث حسن.

873. Kildə bin əl-Hənbəldən ﵁ rəvayət olunur ki, o demişdir: "Bir dəfə mən salam vermədən Peyğəmbərin ﷺ yanına daxil oldum. Peyğəmbər ﷺ dedi: **"Qayıt, "əssəlamu aleykum" de, sonra daxil ol".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi demişdir: "Bu, həsən hədisdir".[3]

---

[1] "Səhih əl-Buxari", 6241; "Səhih Muslim", 2156.

[2] "Sunən Əbu Davud", 5177.

[3] "Sunən Əbu Davud", 5177; "Sunən ət-Tirmizi", 2710.

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərində **"İzin alma və onun ədəbləri"** fəslini qeyd edir.

İzin almaq ev sahibindən daxil olmaq üçün alınan icazəyə deyilir. Əgər icazə versə, daxil olursan, icazə vermədikdə isə daxil olmursan. Hətta sənə açıq şəkildə: "geri dön!" deyilsə, geri dönməlisən. Uca Allah bu barədə buyurur: **"Sizə: "Qayıdın!"– deyilsə, qayıdın. Bu sizin üçün daha təmizdir".**[1] Sən də, ey ev sahibi, "geri dön!" deməkdən utanma. Sənə də, ey icazə alan, "qayıt!" deyildikdə, qəzəblənmə. Çünki ola bilsin ki, insan məşğul olsun və başqasını qəbul etməyə hazır olmasın. Buna görə də onu narahat etməyə gərək yoxdur. Əgər sənə "qayıt!" deyildikdən sonra geri qayıtsan, bu, uca Allahın: **"... qayıdın. Bu sizin üçün daha təmizdir"** buyurduğu kimi, daha təmizdir. Yəni, sizin qəlbiniz üçün daha təmizdir.

Sonra müəllif Allahın kitabından iki ayəni zikr edir:

Birinci ayə barəsində daha öncə söhbət açmışdıq. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Özgə evlərə icazə almadan və onların sakinlərinə salam vermədən girməyin".**[2] Demişdik ki, buradakı "əl-istinas" sözünün mənası icazə almaqdır, yaxud yəqinliklə bilməyinizdir ki, dostunuz sizin evə daxil olmağınıza hazırdır. Biri sənin lə vədələşib, misal üçün, desə ki, "Zöhr namazından sonra bizə gəl". Əgər gəldiyində qapını açıq görsən, bu artıq icazə sayılır – artıq *yenidən* izin almağa lüzum yoxdur, çünki ev sahibi sənə müəyyən vaxtda bizə gəl deyib. Əgər qapının açıq olduğunu görsən, bu artıq izin sayılır. Fərqi yoxdur, icazə əvvəldən verilmiş olsun, ya sonradan. Onsuz da bilirsən ki, adam qapısını açıq qoyub ki, sən daxil olasan, özünüz də müəyyən bir vaxt üçün vədələşmisiniz. Ancaq şəkk yoxdur ki, daxil olarkən salam verməyin yaxşıdır. Hətta bu zaman yalnız salamın əcr və savabını, qardaşının duasını qazanımış olsan belə, bu yetərlidir – o sənə: "və aleykum əssəlam" deyə dua edəcək.

İkinci ayə isə belədir: "**Sizin uşaqlar da həddi-büluğa çatanda, qoy özlərindən əvvəlkilər *yanımıza girmək üçün* izin istədikləri kimi, izin istəsinlər. Allah Öz ayələrini sizə belə izah edir".**[3]

---

[1] "ən-Nur" surəsi, 28.

[2] "ən-Nur" surəsi, 27.

[3] "ən-Nur" surəsi, 59.

Əgər həddi-büluğ yaşına çatsalar, yəni məni ifraz etsələr. Lakin bu ifadə burada yuxu ilə verilmişdir. Çünki çox vaxt insan həddi-büluğa çatdıqda, əvvəlcə yuxuda məni ifraz edir. Bəzi insanlar həddi-büluğa çatmasalar belə, əksər hallarda belə olur. Uşaq həddi-büluğ yaşına çatdıqda, evə yalnız icazə ilə daxil olur. Bundan öncə isə icazəsiz də daxil ola bilərdi. Lakin üç vaxt vardır ki, həmin vaxtlarda icazə almaq *hər bir kəs üçün* mütləqdir: **"Ey iman gətirənlər! Sahib olduğunuz kölələr və həddi-büluğa çatmayanlar *yanınıza girmək istədikdə*, qoy üç vaxtda sizdən izin istəsinlər: sübh namazından əvvəl, günorta paltarınızı çıxartdığınız zaman və gecə namazından sonra".**[1]

Birincisi, sübh namazından öncə;

İkincisi, günorta paltarınızı çıxardığınız zaman;

Üçüncüsü, işa namazından sonra.

Bu vaxtlarda mütləq icazə almaq lazımdır, hətta azyaşlılar belə icazə almalıdırlar. Çünki bu vaxtlar adam yatmağa hazırlaşır və əynində elə libas olur ki, kiminsə onu bu görkəmdə görməsini istəməz. Ona görə də bu üç vaxtda icazə almaq mütləqdir.

Uşağın qadına baxmasına gəlincə isə, bu, həddi-büluğla əlaqəli deyil. Bu, uşağın qadına şəhvət gözü ilə baxmasına görədir. Əgər hətta on yaşlı uşaq belə qadına şəhvət gözüylə baxarsa, qadının onun yanında hicab geyinməsi vacibdir. Çünki Uca Allah buyurur: **"Mömin qadınlara da de ki, *harama baxmayıb* gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini *zinadan* qorusunlar. Qoy onlar, görünənlər istisna olmaqla, zinətlərini *nəməhrəmə* göstərməsinlər; örtüklərini yaxalarının üstünə salsınlar; zinətlərini ərlərindən, yaxud atalarından, yaxud ərlərinin atalarından, yaxud öz oğullarından, yaxud ərlərinin oğullarından, yaxud qardaşlarından, yaxud qardaşlarının oğullarından, yaxud bacılarının oğullarından, yaxud öz *müsəlman* qadınlarından, yaxud sahib olduqları kölələrdən, yaxud ehtirasını itirmiş kişi xidmətçilərdən, yaxud qadınların çılpaqlığını hələ anlamayan uşaqlardan başqasına göstərməsinlər".**[2]

Alimlər demişlər: Qadınların övrətlərindən xəbəri olmayanlar, yəni qadınlar barədə maraqlanmayan, onlar barədə düşünməyən uşaqlar. Bəzi

[1] "ən-Nur" surəsi, 58.

[2] "ən-Nur" surəsi, 31.

oğlan uşaqları on yaşına çatdıqlarında onların qadınlara necə baxmaqlarından hiss edirsən ki, şəhvətlə baxırlar. Bu da fərqli səbəblərdən ola bilər. Ola bilsin, uşaq elə adamlarla oturub-durur ki, onlar qadınlar haqqında çox danışırlar. Beləsinin cinsi şəhvəti tez oyanır. Elə uşaqlar da vardır ki, yalnız dərs, Quran əzbərləmək kimi məsələlərdən danışan bir qövmün yanında olur və şəhvət hissi gec inkişaf edir. Hər bir halda görsək ki, uşaq qadınların övrətinə diqqət yetirir, qadınlardan danışır, onun nəzərləri şəhvət hissi ilədir, bu zaman uşağın hətta on yaşı olmasa belə, qadının onun yanında hicab geyinməsi vacibdir. Alimlər demişlər ki, on yaşı tamam olan kəsin övladı ola bilər. Əgər on bir yaşlı uşaq evlənib qadınla yaxınlıq etsə, övlad atası olsa, təəccüblənmə. Deyilənə görə, Amr ibn As ilə oğlu arasında cəmi on bir il fərq olub, yəni atası ondan təxminən on yaş böyük olub. Bu mümkündür. Şafii demişdir: "Mən iyirmi bir yaşlı nənə görmüşəm". Çünki qadın tez həddi-büluğa çata, doqquz yaşında heyz ola bilər. Fərz etsək ki, qız doqquz yaşında ərə gedir, on yaşında hamilə qalır və qız övladı dünyaya gətirir, sonra bu qızı da doqquz yaşına çatdıqda ərə gedir və on yaşında övladı olur, bu, iyirmi il edir. İyirmi bir yaşında övladı olur və birinci qadın nənə olur. Ona görə də İmam Şafiinin: "Mən iyirmi bir yaşlı nənə görmüşəm" sözündə həqiqət vardır.

Xülasə, uşaq həddi-büluğa çatmışsa, izinsiz evə daxil olmamalıdır. O qadınlar barədə danışırsa, onlara şəhvətlə baxırsa, on yaşı tamam olmasa belə, qadın artıq onun yanında hicab geyinməlidir. Müvəffəq edən Allahdır.

Yüz qırx birinci fəsil

Qapını döyən adama: "Sən kimsən?" deyildikdə, "filankəs" deyərək adını, tanındığı kunyə və ya ləqəbi deməsinin sünnə, "mənəm" deməyin isə məkruh olması

Mövzu ilə əlaqəli hədislər:

٨٧٤ – عن أنس ﷺ في حديثه المشهور في الإسراء قال: قال رسول الله ﷺ، « ثُمَّ صَعِدَ بي جِبْريلُ إلى السّماء الدُّنيا فاستفتح » فقيل: منْ هذا؟ قال: جبْريلُ، قِيلَ: وَمَنْ مَعَك؟ قال: مُحمَّدٌ. ثمَّ صَعِدَ إلى السَّماء الثّانية فاستفتح، قيل: مَنْ هذا؟ قال: جبريلُ، قيل: وَمَنْ مَعَكَ؟ قال: مُحَمَّدٌ » والثّالثة والرَّابعة وَسَائرهنَّ وَيُقالُ في باب كل سماء: مَنْ هذا؟ فَيقُولُ: جبريل متفق عليه.

874. Ənəsin ﷺ İsra hadisəsi ilə bağlı məşhur hədisində o deyir ki, Rəsulullah ﷺ demişdir: **"Sonra Cəbrail məni dünya səmasına qaldırdı və səma qapısının açılmasını istədi. Soruşdular: "Kimdir?" Dedi: "Cəbraildir". Soruşdular: "Səninlə birlikdə olan kimdir?" Dedi: "Muhəmməddir". Sonra ikinci səmaya qalxdıq və o, qapının açılmasını istədi. Soruşdular: "Kimdir?" Dedi: "Cəbraildir". Soruşdular: "Səninlə birlikdə olan kimdir?" Dedi: "Muhəmməddir". Sonra üçüncü, dördüncü və digər səmalara qalxdıq. Hər səmaya çatdıqda soruşurdular ki: "Kimdir?", o da cavabında deyirdi ki: "Cəbraildir"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٨٧٥ – وعن أبي ذرٍ ﷺ قال: خَرجَتُ لَيْلة من اللّيالي فإذا رسول الله ﷺ يمشي وحْدَهُ، فجَعلتُ أمشي في ظلِّ القمَر، فالتفت فرآني فقال: « مَنْ هذا؟ » فقلت: أبو ذَرٍ، متفق عليه

[1] "Səhih əl-Buxari", 3598; "Səhih Muslim", 164.

875. Rəvayət olunur ki, Əbu Zər ﷺ demişdir: «Bir gecə mən çölə çıxdım və Rəsulullahı ﷺ tək-tənha gəzişən gördüm. Mən də ay işığında gəzişməyə başladım. O geri çevrilib mənə doğru səslənib soruşdu: **"Kimdir?"** Mən dedim: "Əbu Zər"».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٨٧٦ – وعن أُمَّ هانئ ﷺ قالت: أتيت النبي ﷺ وهو يغتسل وفاطمةُ تسْتُرُهُ فقال: «مَنْ هذه؟» فقلت: أنا أُم هَانئ. متفق عليه.

876. Ummu Hani ﷺ demişdir: «Bir dəfə Peyğəmbərin ﷺ yanına getdim. Həmin vaxt o qüsl alırdı, Fatimə də onu örtürdü. O soruşdu: **"Kimdir o?"** Mən dedim: "Ummu Hani"».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

٨٧٧ – وعن جابر ﷺ قال: أَتَيتُ النبي ﷺ فَدَقَقْتُ الباب فقال: « من هذا؟ » فقلت، أنا، فقال: « أنا أنا » كأنهُ كَرِهَهَا، متفق عليه.

877. Rəvayət olunur ki, Cabir ﷺ demişdir: "Mən Rəsulullahın ﷺ yanına gedib qapını döydüm. O soruşdu: **"Kimdir?"** Mən dedim: "Mən". Dedi: **"Mən, mən"**. Sanki onun bu sözdən xoşu gəlmədi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

[1] "Səhih əl-Buxari", 5962; "Səhih Muslim", 94.
[2] "Səhih əl-Buxari", 271; "Səhih Muslim", 336.
[3] "Səhih əl-Buxari", 6250; "Səhih Muslim", 2155.

Yüz qırx ikinci fəsil

Asqıran adam uca Allaha həmd etdikdə ona cavab verməyin müstəhəb, asqırıb "əlhəmdulilləh" demədikdə isə ona cavab verməyin məkruh olması; asqırmağa cavabın, asqırmağın və əsnəməyin ədəbləri

Mövzu ilə əlaqəli hədislər:

٨٧٨ – عن أبي هريرة رضي الله عنه أن النبي ﷺ: « إن الله يُحِبُّ الْعطاسَ وَيَكْرَهُ التَّثَاؤبَ، فَإِذَا عَطَسَ أحَدكُم وحمد الله تعالى كانَ حقًّا على كل مسلم سمعهُ أن يقول له يرحمك الله وأما التّثاوب فإنما هو من الشيطان، فإذا تثاءب أحدكم فليردُّهُ ما استطاع، فإن أحدكم إذا تثاءب ضَحِكَ منه الشيطان » رواه البخاري.

878. Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən də Allah *qulun* asqırmağını sevir, əsnəməyini isə sevmir. Biriniz asqırdıqda Uca Allaha həmd edərsə, onu eşidən hər bir müsəlman üzərində haqqıdır ki, ona: "Allah sənə rəhm etsin!" desin. Əsnəmək isə şeytandandır. Biriniz əsnəmək istədikdə, bacardığı qədər onun qarşısını alsın, çünki siz əsnədikdə şeytan sizə gülür".**

Hədisi Buxari rəvayət etmişdir.[1]

٨٧٩ – وعنه عن النبي ﷺ: « إذا عطس أحدكم فليقل: الحمد لله، وليقل له أخوه أو صاحبه: يرحمك الله، فإذا قال له: يرحمك الله فليقل: يهديكم الله ويصلح بالكم » رواه البخاري.

879. Yenə ondan nəql olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Biriniz asqırdıqda: "əlhəmdulilləh" desin, qardaşı və ya dostu da ona: "yərhəmukəllah" desin. Ona: "yərhəmukəllah" deyildikdə, o da: "yəhdikumullahu və yuslihu bələkum[2]"– desin"**.

---

[1] "Səhih əl-Buxari", 6226.

[2] Tərcüməsi: Allah sizə hidayət versin və işlərinizi islah etsin.

Hədisi Buxari rəvayət etmişdir.[1]

٨٨٠ – وعن أبي موسى ﷺ قال: سمعت رسول الله ﷺ يقولُ « إذا عَطَس أحدُكُم فحمد الله فشمتوه، فإنْ لم يحمد الله فلا تُشمتوه » رواه مسلم.

880. Əbu Musadan ﷺ nəql olunur ki, o demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Biriniz asqırdıqda Allaha həmd edərsə, ona cavab verin. Allaha həmd etmədikdə isə cavab verməyin"**».

Hədisi Muslim rəvayət etmişdir.[2]

٨٨١ – وعن أنس ﷺ قال: عطس رجلان عند النبي ﷺ فشمت أحدهما ولم يشمت الآخر، فقال الذي لم يشمته: عطس فُلانٌ فَشَمَّتهُ وَعطستُ فَلَم تُشَمتني؟ فقال: « هذا حمد الله، وإنَك لم تحمد الله ». متفق عليه.

881. Rəvayət olunur ki, Ənəs ﷺ demişdir: "Bir dəfə iki kişi Peyğəmbərin ﷺ yanında asqırır. O onlardan birinə cavab verir, digərinə isə cavab vermir. Cavab almayan kəs də deyir ki, filankəs asqırdıqda ona cavab verdin, mən isə asqırdıqda cavab vermədin. Buyurdu: **"O, Allaha həmd etdi, sən isə Allaha həmd etmədin".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

Şərh:

Müəllif İmam ən-Nəvəvi ﷺ özünün "Salehlər bağçası" əsərində **"Asqıran adam Uca Allaha həmd etdikdə ona cavab verməyin müstəhəb, "əlhəmdulilləh" demədikdə isə ona cavab verməyin məkruh olması; asqırmağa cavabın, asqırmağın və əsnəməyin ədəbləri"** fəslini qeyd edir.

Asqırmaq izzət və cəlal sahibi Allahdandır və Allah bunu sevir. Əbu Hureyradan rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən də Allah qulun asqırmağını sevir"**. Çünki asqırmaq aktivliyə və fəallığa dəlalət edir. Görürsən ki, adam asqırdıqda, *anidən* fəallaşır. Nöqsansız və

[1] "Səhih əl-Buxari", 6224.

[2] "Səhih Muslim", 2992.

[3] "Səhih əl-Buxari", 6225; "Səhih Muslim", 2991.

uca Allah da fəal və ciddi adamları sevir. Səhih bir hədisdə Peyğəmbər ﷺ demişdir: **"Güclü mömin Allaha zəif mömindən daha sevimlidir. Onların hər birində xeyir vardır".**[1]

İmanı güclü və ya zəif olan möminin hər birində xeyir vardır, lakin güclü olan Allaha daha sevimlidir.

Asqırmaq *daxili* yüngülləşməyə və fəallığa səbəb olur. Buna görə də Allah bunu sevir və adama, asqıran zaman "əlhəmdulilləh" deməsi buyurulub. Çünki bu, ona verilmiş bir nemətdir. Buna görə də Allaha həmd edib: "əlhəmdulilləh" deyir. Bu zaman fərq etməz, istər namazda asqırmış olsun, istərsə də başqa bir yerdə. Ancaq alimlər demişlər ki, əgər adam ayaqyolunda asqırarsa, "əlhəmdulilləh" sözünü dili ilə deməməli, qəlbində Allaha şükür etməlidir. Çünki alimlər bildirmişlər ki, insan ayaq-yolunda olarkən, Allahı *səsli* zikr etməməlidir.

Adam asqırdıqdan sonra Allaha həmd edərsə, "**onu eşidən hər bir müsəlman üzərində haqqıdır ki, ona cavab verib: "Allah sənə rəhm etsin!" desin"**, yəni izzət və cəlal sahibi Allaha həmd etməsinin mükafatı olaraq onun üçün dua etsin – o, Allaha həmd etdiyinə görə, qardaşları da ona rəhmət duası edirlər.

"Onu eşidən hər bir müsəlman üzərində haqqıdır". Zahirən burada onu eşidən hər bir müsəlman nəzərdə tutulduğu anlaşılır. Digər bir hədis də bunu dəstəkləyir: **"Biriniz asqırdıqda Allaha həmd edərsə, ona cavab verin".**

Bəziləri isə qeyd etmişlər ki, asqırana cavab vermək fərdu kifayədir. Lakin eşidənlərdən birisi asqırıb Allaha həmd edən kəsə: "yərhəmukəllah" (Allah sənə rəhm etsin!) deyərsə, bu, kifayət edər. Lakin ehtiyat üçün hədisdə deyiləni etmək – hər kəsin ona cavab verməsi, yəni rəhmət duası etməsi daha yaxşıdır.

Əsnəməyə gəlincə isə, bu, şeytandandır, bu səbəbdən də Allahın xoşuna gəlmir. Niyə? Çünki əsnəmək tənbəlliyə işarədir. Ona görə də yatmaq istəyən kəs çox əsnəyir. Yatmaq istəyən kəs isə məlum məsələdir ki, tənbəl olur. Məhz tənbəlliyin göstəricisi olduğu üçün də Uca Allah

[1] "Səhih Muslim", 2664.

bunu sevmir. Lakin əsnəmək gəldikdə yaxşı olar ki, onu geri qaytarasan, özünü saxlayıb səbir edəsən. Alimlər demişlər ki, əsnəməyi geri qaytarmaq istəsən, alt dodağını yüngülcə dişlə. Bu zaman əsnəməyin dayanacaq. Sadəcə yüngülcə dişləyirsən ki, ağzın açılmasın. Əsas odur ki, buna qarşı bu və ya digər yollarla mübarizə aparasan. Əgər alınmasa bu zaman əlini ağzına tutursan. Bəzi alimlərin əlin üstü ilə ağızı tutmalı olduğunu demələrinin heç bir əsası yoxdur. Əksinə, əlin içərisi ilə ağzını tutursan. Səbəbi isə budur ki, insan əsnədikdə, şeytan ona gülür. Çünki şeytan bilir ki, bu onun tənbəlliyinə və yorğunluğuna dəlalət edir. Şeytan da daim müsəlmanın məhz tənbəl və yorğun olmasını istəyir. Allah bizi və sizi ondan qorusun. Hər zaman fəal, güclü və optimist olan müsəlmanı isə şeytan sevmir. Odur ki, əsnəməyin gəldikdə, bacardıqca onun qarşısını alırsan. Bu daha əfzəldir və sünnədir. Əgər bacarmasan, əlini ağzına tutursan.

Bəs *əsnəyən zaman:* "əuzu billəhi minəş-şeytanir-racim"[1] deyilirmi? Xeyr, əsnəyərkən məlun şeytanın şərindən Allaha sığınma! Çünki bu, Peyğəmbərdən varid olmamışdır. O ﷺ bizlərə əsnəyərkən nə etmək lazım olduğunu öyrətmiş, lakin deməmişdir ki, məlun şeytanın şərindən Allaha sığının. İnsanlar arasında geniş yayılmış bu halın, yəni əsnəyərkən: "əuzu billəhi minəş-şeytanir-racim" deməyin isə heç bir əsli yoxdur. İbadətlər isə istəklərə deyil, şəriətin buyurduğuna görə müəyyən olunur. Ola bilsin kimsə desin ki, "Axı Uca Allah: **"Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Çünki O, Eşidəndir, Biləndir"**[2] buyurur. Peyğəmbər ﷺ də xəbər vermişdir ki, əsnəmək şeytandandır. Məgər bu vəsvəsə deyilmi?" Biz isə deyirik: "Xeyr, sən ayəni səhv anlamısan. **"Əgər sənə şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Çünki O, Eşidəndir, Biləndir"** ayəsinin mənası budur ki, günahlar işləmək, vacibləri tərk etmək kimi fikirlər şeytanın vəsvəsəsidir. Uca Allahın bu xüsusda buyurduğu kimi: **"Şeytan insana vəsvəsələr verir"**. Onun vəsvəsəsi isə bunlardır: günahlara sövq etmək və vacibləri tərk etmək. Əgər bunu hiss etsən: "əuzu billəhi minəş-şeytanir-racim" de.

---

[1] Tərcüməsi: Daşla qovulmuş şeytandan Allaha sığınıram.

[2] "Fussilət" surəsi, 36.

Əsnəmək xüsusunda isə Sünnə olan yalnız bir feili etməkdir – bacardığın qədər onun qarşısını almağa çalışırsan, bacarmadıqda isə əlini ağzına tutursan.

Asqırmanın ədəblərindən biri də elm əhlinin dediyi kimi, insanın asqıran zaman *əlini, yaxud* paltarını üzünə tutmasıdır. Bunun da iki hikməti vardır:

Birinci hikmət: Ola bilsin ki, asqırıqla (hava axını ilə) birlikdə xəstəlik də (mikroblar da) çıxsın və ətrafdakılara zərər toxundursun.

İkinci hikmət: Ola bilsin ki, onun burnundan natəmiz bir şey çıxar, insanlar da bundan iyrənər. Üzünü əli ilə örtdükdə isə bunun qarşısını almış olur. Lakin bəziləri kimi etmə: onlar asqırarkən burunlarını tuturlar. Bu səhvdir, çünki bu zaman asqırarkən çıxmalı olan havanın qarşısı alınmış olur və ola bilsin ki, bunun sənə zərəri də olsun.

Müəllifin ﷺ zikr etdiyi bu hədislər dəlildir ki, birisi asqıran zaman: "əlhəmdulilləh" deməzsə, ona "yərhəmukəllah" deyilmir. Çünki Peyğəmbərin ﷺ yanında iki nəfər asqırdıqda, o onlardan birinə: "yərhəmukəllah" demiş, ikinciyə isə bunu deməmişdi. İkinci asqıran soruşanda ki, filankəs asqırdıqda ona cavab verdin, mən asqırdıqda isə mənə niyə belə cavab vermədin? Buyurdu ki: **"O, Allaha həmd etdi, sən isə Allaha həmd etmədin".**

Buna görə də birisi asqırdıqda "əlhəmdulilləh" deməzsə, ona "yərhəmukəllah" demə. Bəs biz onun yadına salmalıyıqmı ki, "əlhəmdulilləh" desin? Xeyr, hədis ona dəlalət edir ki, onun yadına salmırsan. Çünki Peyğəmbər ﷺ: "asqırıb "əlhəmdulilləh" demədikdə, ona bunu xatırladın"– deməyib, buyurub ki: «**"yərhəmukəllah" deməyin!**» Ona görə biz də ona: "Allaha həmd et!" demirik. Lakin sonradan ona xəbər verməliyik ki, insan asqırdıqda, Allaha həmd etməlidir. Bu da öyrətmək məqsədilə olur. Müvəffəq edən Allahdır.

Həmçinin "əl-həmdulilləh" sözünü ona eşitdirməliyik. Çünki asqıran adam "əlhəmdulilləh" sözünü eşidilən tərzdə deyirsə, kifayət edir. Həmçinin asqıran kəsə: "yərhəmukəllah" deyildikdə, o deyir: "yəhdikumullahu və yuslihu bələkum". Yəni Allah sizə hidayət versin və işlərinizi düzəltsin. Bəzi insanlar cavab verdikdə belə deyirlər: "Allah bizə də, sizə də hidayət versin". Bu isə əmr olunana müxalifdir. Çünki bizlərə

buyurulan budur ki, bəyan etdiyimiz kimi, yəni: "yəhdikumullahu va yuslihu bələkum" deyək. Müvəffəq edən Allahdır.

٨٨٢ – وعن أبي هريرة رضي الله عنه قال: كان رسول الله ﷺ إذَا عَطَسَ وَضَعَ يَدَهُ أوْ ثَوبَهُ عَلى فيهِ وَخَفَضَ أوْ غَضَّ بَها صَوْتَهُ.شك الراوي رواه أبو داود،والترمذي وقال حديث حسن صحيح.

882. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, o demişdir: "Rəsulullah ﷺ asqırdıqda əlini və ya paltarını ağzına tutar və onunla səsini azaltmağa və ya boğmağa çalışardı".

Ravi bu iki sözlə bağlı şübhə edib.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən-səhih hədisdir" demişdir.[1]

٨٨٣ – وعن أبي موسى رضي الله عنه قال: « كان الْيَهُودُ يَتَعَاطسُونَ عْندَ رسول الله ﷺ يَرْجُونَ أنْ يَقولَ لهُم يَرْحَمُكُم الله، فيقولُ: يَهْدِيكمُ الله ويُصلحُ بالكم » رواه أبو داود، والترمذي وقال حديث حسن صحيح.

883. Rəvayət olunur ki, Əbu Musa رضي الله عنه demişdir: "Yəhudilər Rəsulullahın ﷺ yanında asqırardılar ki, o onlara: "yərhəmukumullah" desin. O isə onlara: **"yəhdikumullahu və yuslihu bələkum"** deyirdi".

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən-səhih hədisdir" demişdir.[2]

٨٨٤ – وعن أبي سعيد الخدري رضي الله عنه قال: قال رسول الله ﷺ: إذَا تَثاءَبَ أحَدُكُمْ فَلْيُمسكْ بَيده على فيه فإنَّ الشيطان يدْخل» رواه مسلم.

884. Rəvayət olunur ki, Əbu Səid əl-Xudri رضي الله عنه demişdir: «Rəsulullah ﷺ belə buyurmuşdur: **"Biriniz əsnədikdə, əli ilə ağzını tutsun. Çünki şeytan daxil ola bilər"**».

Hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] "Sunən Əbu Davud", 5038; "Sunən ət-Tirmizi", 2739.

[2] "Sunən Əbu Davud", 5038; "Sunən ət-Tirmizi", 2739.

[3] "Səhih Muslim", 2995.

Şərh:

Bu hədislər asqırdıqda edilməsi müstəhəb olan əməllər barəsindədir. Bunların bəzisini daha öncə qeyd etmişdik. Onlardan birində Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Peyğəmbər ﷺ əlini və ya paltarını üzünə və ya ağzına tutardı ki, səsi bərk çıxmasın. Yəni, asqırdıqda paltarını və ya əlini ağızına tut ki, səsi sakit çıxsın.

Alimlər burundan natəmiz bir şey çıxmasın deyə, paltarı üzə tutmağı müstəhəb hesab etmişlər. Çox vaxt burundan nə isə çıxmış olur. Libasla ağzı tutduqda isə bu görünmür. Həmçinin ola bilsin ki, keçici xəstəlik burundan çıxaraq başqasını da yoluxdursun. Ona görə də gərək asqırdıqda paltarının və ya baş örtüyünün kənarı ilə üzünü tutasan ki, bu iki faydanı əldə etmiş olasan.

Sonra müəllif ﵀ Əbu Musadan ﵁ nəql olunan bu hədisi qeyd edir ki, yəhudilər Peyğəmbərin ﷺ yanında bilərəkdən asqırardılar ki, bəlkə Rəsulullah ﷺ onlara: "Allah sizə rəhm etsin" desin. Çünki onlar bilirdilər ki, o peyğəmbərdir və onun duaları məqbuldur. Asqırardılar ki, o onlara: "yərhəmukumullah" desin. Ancaq Rəsulullah ﷺ bu sözləri demirdi. Belə ki, kafirə rəhmət və ya bağışlanma duası etmək olmaz. Ona yalnız hidayət duası etmək olar. Ona görə də onlar asqırıb: "əlhəmdulilləh" dedikdə, o onlara: "yəhdikumullahu va yuslihu bələkum" deyirdi. Ona görə də kafir birisi sənin yanında asqırıb: "əlhəmdulilləh" deyərsə, ona: "yərhəmukəllah" demə, Peyğəmbərin ﷺ dediyi kimi, yəni: **"yəhdikumullahu va yuslihu bələkum"** de.

Daha sonra müəllif ﵀ Muslimin "Səhih" əsərində keçən hədisdə Peyğəmbərin ﷺ əsnəmə zamanı nə buyurduğunu qeyd edir. Daha öncə qeyd etmişdik ki, yaxşı olar ki, bacardığın qədər əsnəmənin qarşısını alasan. Əgər bacarmasan, əlini ağzına tut. Çünki sən əlini ağzına tutmadıqda, şeytan sənə gülür və sənin daxilinə nüfuz edə bilir. Ona görə də əsnəmə zamanı əl ilə ağızı tutmaq şeytanın sənin daxilinə nüfuz etməsindən bir sipərdir. Müvəffəq edən Allahdır.

Yüz qırx üçüncü fəsil

Görüşdükdə əllə görüşməyin, təbəssüm etməyin, əməlisaleh bir insanın əlini öpməyin, övlada rəhm edərək onu öpməyin, səfərdən gələni qucaqlamağın müstəhəbliyi, onun qarşısında əyilməyin məkruh olması

Mövzu ilə əlaqəli hədislər:

٨٨٥ – عن أبي الخطاب قتادة قال: قلُت لأنس: أكَانتِ المُصافَحةُ في أصْحابِ رسول الله ﷺ ؟ قال: نَعَمْ. رواه البخاري.

885. Əbul-Xəttab Qətadə ﷺ demişdir: «Mən Ənəsdən ﷺ soruşdum ki, Peyğəmbərin ﷺ səhabələri əllə görüşərdilərmi? Dedi: "Bəli"».

Hədisi Buxari rəvayət etmişdir.[1]

٨٨٦ – وعن أنس ﷺ قال: لَمَّا جَاءَ أهْلُ اليَمنِ قال رسول الله ﷺ: « قَدْ جَاءَكُمْ أهْلُ الْيَمَنِ، وَهُمْ أولُ مَنْ جَاءَ بالمُصَافَحَة » رواه أبو داود بإسناد صحيح.

886. Rəvayət olunur ki, Ənəs ﷺ demişdir: "Yəmən əhli gəldikdə Rəsulullah ﷺ dedi: **"Yəmən əhli sizin yanınıza gəlib, onlar əllə ilk görüşənlər olub"**.

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

٨٨٧ – وعن البراء ﷺ قال: قال رسول الله ﷺ: « ما مِنْ مُسْلِمَيْنِ يَلْتَقِيَانِ فَيَتَصافَحَانِ إلا غُفر لَهما قبل أن يفترقا » رواه أبو داود.

887. Rəvayət olunur ki, Bəra ﷺ demişdir: «Rəsulullah ﷺ belə buyurmuşdur: **"İki müsəlman bir-biri ilə əllə görüşərlərsə, ayrılana qədər onların günahları bağışlanar"**».

Hədisi Əbu Davud rəvayət etmişdir.[3]

---

[1] "Səhih əl-Buxari", 6326.

[2] "Sunən Əbu Davud", 5213.

[3] "Sunən Əbu Davud", 2727.

٨٨٨ – وعن أنس رضي الله عنه قال: قال رجل: يا رسول الله، الرَّجُلُ مِنَّا يَلْقَى أخَاه أوْ صَديقَهُ أينْحني لَهُ؟ قال: « لا » قال: أفَيَلتزمه ويقبله؟ قال: « لا » قال: فَيَأْخُذُ بِيَده وَيُصَافِحُهُ؟ قال: « نَعَمْ » رواه الترمذي وقال: حديث حسن.

888. Rəvayət olunur ki, Ənəs رضي الله عنه demişdir: «Bir kişi soruşdu: "Ey Allahın elçisi, birimiz qardaşını və ya dostunu gördükdə onun qarşısında əyilə bilərmi?" Dedi: "Xeyr". Kişi soruşdu: "Bəs qucaqlayıb öpə bilərmi?" Dedi: "Xeyr". Kişi yenə soruşdu: "Əl verib görüşə bilərmi?" Dedi: "Bəli"».

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[1]

Şərh:

Müəllif ən-Nəvəvinin رحمه الله "Salehlər bağçası" əsərində qeyd etdiyi bu fəsil salamın və icazənin ədəbləri bölümündədir. Əllə görüşmək də buna aiddir.

Kişi öz dostu ilə əllə görüşməlidirmi? Cavab: Bəli, bu, Sünnədir. Çünki bu, səhabələrin ədəblərindən idi. Əbu Qətadə Ənəs ibn Malikdən soruşur ki, Peyğəmbərin ﷺ səhabələri əllə görüşərdilərmi? O da: "Bəli" deyə cavab verir. Ona sağ əllə salam verir. Bu baş verdikdə, onlar aralanmamışdan öncə günahları bağışlanır. Bu da görüşərkən əl verib görüşmənin fəzilətinə dəlalət edir. Bu söhbət etmək və ya digər məqsədlər üçün görüşməyə aiddir. Ancaq məsələn, bazarda birisini gördükdə, əl verib görüşmək səhabələrin etdiyi əməl deyil. Bazarda gördüklərinə sadəcə salam verməyin kifayət edir. Kiminləsə bir yerdə durub söhbət etdikdə isə əllə görüşürsən.

Sonra da bildirmək istərdim ki, bəzi insanlar fərz namazında salam verdikdən sonra yanındakı qardaşlarına salam verərək ona: "Allah qəbul etsin", yaxud "qəbul olsun"– deyir. Bu bidətdir, səhabələr belə etməzdilər. Müsəlman olan kəs sağ və sol tərəfinə salamı verərək: "əssəlamu aleykum və rəhmətullah" deməklə kifayətlənməlidir.

Görüşərkən əyilmək, qucaqlaşmaq və öpmək barədə isə Peyğəmbərə ﷺ sual verilmişdi ki, əyilə bilərəmmi? Demişdi ki, xeyr. Soruşmuşdular ki, qucaqlayıb öpə bilərəmmi? Demişdi ki, xeyr.

[1] "Sunən ət-Tirmizi", 2728.

Onunla görüşdükdə qucaqlamır, qarşısında təzim etmir. Əyilmək isə daha pisdir. Çünki əyildikdə izzət və cəlal sahibi Allahdan qeyrisinə təzim etmiş olursan. Sanki rükuda Allahın qarşısında əyilmiş kimi olursan. Allahdan başqasının önündə əyilmək isə qadağandır. Sadəcə əl verib görüşmək kifayət edir. Əgər qucaqlayıb öpmək üçün səbəb olarsa, bunda bir qəbahət yoxdur. Məsələn, səfərdən gələn adamla belə görüşmək olar.

Birdən kimsə soruşsa ki, bəs Peyğəmbərin ﷺ **"əyilməsin"** əmri ilə Uca Allahın Yusufun qardaşları barəsindəki qissədə onların Yusufun yanına daxil olarkən ona və valideynlərinə təzim etmələrini necə başa düşək? Uca Allah buyurur**: "Onlar Yusufun hüzuruna daxil olduqda, o, ata-anasını bağrına basıb dedi: "Allahın istəyi ilə, əmin-amanlıq içində Misirə daxil olun!" O, ata-anasını taxtın üstündə əyləşdirdi. Onlar *hamısı hörmət əlaməti olaraq* onun qarşısında səcdə etdilər".**[1] Bunun cavabı belədir: "Bu daha öncəki şəriətdə belə olub. Bizim şəriətimiz isə həmin şəriəti hökmdən salmış və bunu qadağan etmişdir. Heç kim heç kimə səcdə edə bilməz. Hətta bununla həmin adam ibadəti ağlından keçirməsə belə, bu, olmaz. Hətta əyilmək də olmaz. Peyğəmbər ﷺ bunu da qadağan etmişdir. Birisi sənlə görüşdükdə bilməyərəkdən sənə təzim edərsə, ona nəsihət et ki, bundan çəkinsin. De ki, əyilmə, bu qadağandır, Allahdan başqa heç kimin önündə əyilmə!"

Görüşərkən kiminsə əlini öpməyə gəlincə isə, əgər o buna layiqdirsə, olar. Müvəffəq edən Allahdır.

٨٨٩ – وعن صَفْوان بن عَسَّال رضي الله عنه قال: قال يَهُودي لِصَاحبه اذْهب بنا إلى هذا النبي فأتيا رسول الله ﷺ فَسَألاه عن تسْع آيات بَينات فَذَكرَ الْحَديث إلى قَوْله: فقَبَّلا يَدَهُ وَرِجْلَهُ وقالا: نَشْهَدُ أَنَّكَ نبي. رواه الترمذي وغيره بأسانيد صحيحة.

889. Rəvayət olunur ki, Safvan ibn Assəl رضي الله عنه demişdir: "Bir dəfə bir yəhudi digərinə dedi ki, gəl birlikdə o peyğəmbərin yanına gedək. Onlar Rəsulullahın ﷺ yanına gəlib ondan doqquz aydın ayə barəsində soruşdular". Hədisin sonunda deyilir ki, «sonra onlar onun əlini və ayağını öpdülər və dedilər: "Biz şahidlik edirik ki, sən peyğəmbərsən"».

[1] "Yusuf" surəsi, 99-100.

Hədisi Tirmizi və başqaları səhih isnadlarla rəvayət etmişlər.[1]

٨٩٠ – وعن ابن عمر ﵄ قصة قال فيها: فَدَنَوْنا من النبي ﷺ فقَبلْنا يده. رواه أبو داود.

890. İbn Ömərdən ﵄ nəql olunan qissədə o demişdir: "Biz Peyğəmbərə ﷺ yaxınlaşıb onun əlini öpdük".

Hədisi Əbu Davud rəvayət etmişdir.[2]

٨٩١ – وعن عائشة ﵂ قالت: قَدم: زَيْدُ بْن حَارثة المدينة ورسول الله ﷺ في بَيْتي فأتَاهُ فَقَرَعَ الباب. فَقَام إليهْ النبي ﷺ يَجُرُّ ثوْبَهُ فاعتنقه وقبله » رواه الترمذي وقال: حديث حسن.

891. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: "Zeyd ibn əl-Harisə Mədinəyə gəldikdə Rəsulullah ﷺ mənim evimdə idi. O gəlib qapını döydü. Peyğəmbər ﷺ libasını dartaraq onu qarşılamağa qalxdı, onu qucaqlayıb öpdü".

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[3]

٨٩٢ – وعن أبي ذرٍّ ﵁ قال: قال لي رسول الله ﷺ « لاتَحقِرَنَّ مِنَ المعْرُوف شَيْئاً وَلَو أن تلقى أخاك بوجه طليق » رواه مسلم.

892. Rəvayət olunur ki, Əbu Zərr ﵁ demişdir: «Rəsulullah ﷺ mənə belə dedi: **"Yaxşı işlərin heç birini kiçik görmə, hətta qardaşınla gülər üzlə görüşməyini belə"**».

Hədisi Muslim rəvayət etmişdir.[4]

Şərh:

Hafiz ən-Nəvəvinin ﵀ "Salehlər bağçası" əsərində qeyd etdiyi bu hədislər əl verib görüşmək, qucaqlaşmaq və buna aid məsələlərlə bağlıdır.

---

[1] "Sunən ət-Tirmizi", 2733; "Sunən ən-Nəsai", 4078.

[2] "Sunən Əbu Davud", 5223.

[3] "Sunən ət-Tirmizi", 2732.

[4] "Səhih Muslim", 2626.

Həmin hədislərin birində Safvan ibn Assəldən rəvayət olunur ki, o, demişdir: «Bir dəfə bir yəhudi digərinə dedi ki, gəl birlikdə o peyğəmbərin yanına gedək. Onlar Rəsulullahın ﷺ yanına gəlib ondan doqquz aydın ayə barəsində soruşdular. Sonra onlar onun əlini və ayağını öpdülər və dedilər: "Biz şahidlik edirik ki, sən peyğəmbərsən"».

Həmin yəhudilər Mədinədə yaşayırdılar. Onların əsli Misirdən idi və onlar İsrail oğullarından idilər. Sonradan müqəddəs torpaqlara – Şama hicrət etmişdilər. Həmin yer barəsində peyğəmbərləri Musa belə demişdi: **"Ey qövmüm, Allahın sizin üçün müəyyən etdiyi müqəddəs torpağa daxil olun və geri dönməyin, yoxsa ziyana uğrayaraq geri dönərsiniz".**[1]

Onlar Tövratda oxumuşdular ki, axır zamanda bir peyğəmbər olacaq və o, Məkkədən çıxacaq, sonra da Mədinəyə hicrət edəcək. Onların da bir qismi Şamdan Mədinəyə hicrət edirlər ki, həmin peyğəmbər çıxdıqda ona tabe olsunlar. Çünki həmin peyğəmbərin fəziləti Tövratda və İncildə öz əksini tapmaqda idi. Uca Allah buyurur: **"O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin, ardınca gedərlər. O *peyğəmbər* onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun ardınca gedənlər isə nicat tapanlardır".**[2]

Hər dəfə də müşriklərlə aralarında bir mübahisə düşdükdə deyirdilər ki, peyğəmbər göndəriləcək, biz də ona tabe olacağıq. Bizə imkanlar açılacaq və biz sizə qalib gələcəyik. Uca Allah buyurur: **"Onlara Allah tərəfindən özlərində olanı təsdiqləyən bir Kitab gəldikdə *onu inkar etdilər*. Halbuki əvvəllər kafirlər üzərində qələbə diləyirdilər. Onlara tanıdıqları *peyğəmbər* gəldikdə isə onu inkar etdilər. Allahın lənəti olsun kafirlərə!"**[3]

Sonra onlar, yəni Mədinədəki yəhudilər üç qəbiləyə ayrıldılar: Qeynuqa oğulları, Nadir oğulları və Qureyza oğulları.

---

[1] "əl-Maidə" surəsi, 21.

[2] "əl-Əraf" surəsi, 157.

[3] "əl-Bəqərə" surəsi, 89.

Peyğəmbər ﷺ Mədinəyə gəldikdə onlarla saziş bağlayır, lakin onların hamısı bu sazişi pozurlar. Bu səbəbdən onlar Mədinədən qovulurlar. Onların sonuncusu Qureyza oğulları idi. Əhzab döyüşündə sazişi pozduqları üçün onlardan yetmiş nəfəri qətlə yetirilir. Sonra onlar Xeybərə sığındılar. Peyğəmbər ﷺ oranı da fəth edir, ancaq onları orada saxlayır. Çünki onlar əkin işlərini yaxşı bilirdilər. Səhabələr isə daha mühüm işlərlə məşğul idilər. Peyğəmbər ﷺ onlarla belə şərt kəsir ki: "Xeybərdəki yerinizdə qalırsınız, bir şərtlə ki, əldə etdiyiniz məhsulun yarısı sizin, yarısı isə müsəlmanların olacaq. Allah dilədiyi qədər buna imkan veririk".[1] Beləcə onlar Rəsulullahın ﷺ və Əbu Bəkrin رضي الله عنه zamanında Xeybərdə qaldılar.

Ömərin رضي الله عنه xəlifəliyi dövründə onlar yenə xəyanət etdilər. Yəhudilər xainlik və xəyanətlə məşhurdurlar. Hicrətin 16-cı ilində onlar yenə xəyanət etdikdə, Ömər onları Xeybərdən Şama – Əzriat deyilən yerə sürgün etdi. Ərəbistan yarımadasında yəhudilərin əsli belə olub. Onlar gözləyirdilər ki. peyğəmbər gələcək və onlar da ona tabe olacaqlar. Ancaq onlar, Allah qorusun, peyğəmbər göndərildikdən və onu gözləri ilə görüb əmin olduqdan sonra kafir oldular. Bəzi alimlər demişlər ki, ola bilsin, onlar elə güman edirdilər ki, həmin peyğəmbər İsrail oğullarından olacaq. Lakin bəlli olduqda ki, həmin peyğəmbər İsmailin nəslindəndir, İsmail oğullarına həsəd etdilər. Lakin bu rəy mənə aydın deyil. Çünki Uca Allah buyurur ki: **"Kitab verdiyimiz kəslər *Peyğəmbəri* öz oğullarını tanıdıqları kimi tanıyırlar...".**[2]

Onlar bilirdilər ki, peyğəmbər İsmail övladlarından, yəni ərəblərdən olacaq. Lakin, Allah qorusun, yəqinliyin elmi ilə yəqinliyi görmək arasında fərq vardır. Onlar elə düşünürdülər ki, peyğəmbər göndərildikdə ona həmən tabe olacaqlar. Lakin, Allah qorusun, ona həsəd etdilər.

Qısası, bu iki kişi Peyğəmbərin ﷺ əlini və ayağını öpdü, Peyğəmbər ﷺ də buna bir irad bildirmədi. Bu da elmli və şərəfli insanın əlini və ayağını öpməyin caizliyinə dəlalət edir. Həmçinin, atanın və ya ananın da əlini və ayağını öpmək olar, çünki onların haqqı vardır. Həm də bu təvazökarlıqdandır.

Həmçinin müəllif رحمه الله İbn Ömərin رضي الله عنهما belə dediyini rəvayət etmişdir: "Biz Peyğəmbərin ﷺ yanına gəlib onun əlini öpdük". Peyğəmbər ﷺ də buna etiraz etmədi.

---

[1] "Səhih əl-Buxari", 2338; "Sunən ən-Nəsai", 1551.

[2] "əl-Bəqərə" surəsi, 146.

Əli öpmək başı öpmək kimidir. Qəribədir ki, insanlar indi əl öpməyi baş öpməkdən daha çox inkar edirlər. Əslində isə onların arasında fərq yoxdur. Bəzi insanların tənqid etdiyi odur ki, bəziləri görüşdükdə əlini uzadıb sanki: "əlimi öp" deyir. Bunu inkar etmək lazımdır. Beləsinə demək lazımdır ki, belə etməsin. Yox, əgər kimsə hörmət əlaməti olaraq özü sənin əlini və ya başını öpərsə, bunda bir qəbahət yoxdur. Lakin bunu hər dəfə səninlə görüşdükdə etməməlidir. Çünki daha öncə də qeyd etmişdik ki, birisi Peyğəmbərdən soruşur ki, adam öz qardaşını gördükdə əyilə bilərmi? Dedi: "Xeyr". Yenə soruşur ki, bəs öpüb qucaqlaya bilərmi? Dedi: "Xeyr". Sonra yenə soruşur ki, bəs əllə görüşə bilərmi? Dedi: "Bəli".[1] Lakin buna (öpüb qucaqlamağa) səbəb olarsa, o zaman olar. Məsələn, itkin düşmüş bir kəs tapıldıqda və ya birisi səfərdən qayıtdıqda. Buna görə də müəllif ﵀ Aişənin ﵂ hədisini qeyd edir:

Zeyd ibn Harisə Mədinəyə gəldikdə Peyğəmbərin ﷺ yanına gələrək içəri daxil olmaq üçün izin istəyir. Peyğəmbər də libasını darta-darta onu qarşılamağa qalxır. Zeyd ibn Harisə Peyğəmbərin ﷺ azad etdiyi adam idi. Vaxtilə Xədicə ﵂ Zeydi ona kölə kimi hədiyyə etmiş, Peyğəmbər ﷺ isə onu azad etmişdi. Həm də Peyğəmbər ﷺ onu və oğlu Usaməni çox sevirdi. Ona görə də Usaməyə Peyğəmbərin sevimlisi deyilir.

Xülasə, Rəsulullah ﷺ paltarının ətəyini dartaraq qalxdı, onu qarşıladı və qucaqlayıb öpdü. Çünki Zeyd ibn Harisə səfərdən gəlmişdi. Səfərdən gələn adamı öpüb qucaqlamaq olar. Hər görüşdə öpməyi isə Peyğəmbər ﷺ qadağan etmişdir.

Həmçinin Peyğəmbər ﷺ tövsiyə etmişdir ki, insan yaxşı əməllərin heç birini əsla kiçik görməməlidir. Məsələn, demə ki, dəyəri on rial olan bu saat hədiyyə üçün azdır, bunu versəm az olar. Heç bir şeyi az görmə. Ola bilsin, bir müddət sonra həmin adam səni xatırlayıb desin ki, filankəs filan vaxt mənə filan hədiyyəni etdi. Odur ki, insanlar arasında sevgiyə səbəb ola biləcək heç bir əməli kiçik görmə. Rəsulullah ﷺ da bu xüsusda demişdir ki: **"Yaxşı işlərin heç birini kiçik görmə, hətta qardaşınla gülər üzlə görüşməyini belə"**.[2] Yəni, görüşdüyün zaman qaşqabaqlı olma.

---

[1] "Sunən ət-Tirmizi", 2652.

[2] "Sunən ət-Tirmizi", 1756.

Lakin bəzən bizlər buna diqqət yetirmirik. Olur ki, bəzilərimiz insanlarla görüşdükdə hər hansı bir səbəbdən qaşqabaqlı oluruq. Ola bilsin ki, burada gizli səbəb var, məsələn, hansısa səbəbdən həmin adamdan təsirlənmiş olasan. İnsanlar isə bunu bilmirlər. Bu zaman qardaşını gülər üzlə qarşılamış olmursan. Çalış hər zaman insanları gülər üzlə qarşılayasan. Çünki bu yaxşı əməldir və sevgiyə səbəb olan amillərdəndir. İslam dini də sevgi, vəfa və qardaşlıq dinidir. Uca Allah buyurur: **"Allahın sizə olan nemətini xatırlayın ki, siz *bir-birinizə* düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində *bir-birinizlə* qardaş oldunuz".**[1]

Allahdan diləyirik ki, bizi və sizi ən gözəl əxlaqa və əməllərə yönəltsin. Şübhəsiz ki, ən gözəl əxlaqa yönəldən yalnız Odur. Həmçinin pis əxlaqı bizdən uzaqlaşdırsın. Həqiqətən də bizdən pis əxlaqı uzaqlaşdıran yalnız Odur.

Qeyd: Bəzi ölkələrdə övladlar öz valideyinlərinin ayağını öpürlər. Biz onlara deyirik ki, onların ayağını öpməyə gərək yoxdur, ancaq öpsə də olar. Əgər valideyin ayaq üstədirsə, ayağını öpmək olmaz. Yox, əgər oturmuş və ya uzanmış haldadırsa, olar, lakin vacib deyil.

٨٩٣ – وعن أبي هريرة رضي الله عنه قال: قبَّل النبي ﷺ الحسن بن على رضي الله عنهما فقال الأقْرَعُ بن حَابس: إنَّ لي عَشَرَةً مِنَ الْوَلَد مَاقَبَّلتُ مِنهُمْ أحَداً. فقال رسول الله ﷺ: « مَنْ لاَيَرْحَمْ لا يُرْحَمْ » متفق عليه.

893. Rəvayət olunur ki, Əbu Hureyra رضي الله عنه demişdir: «Bir dəfə Peyğəmbər ﷺ Həsən ibn Əlini öpdükdə əl-Əqra bin Habis dedi: "Mənim on övladım var, bu vaxtadək onların heç birini öpməmişəm". Rəsulullah ﷺ dedi: **"Rəhm etməyənə rəhm olunmaz"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllif ən-Nəvəvi رحمه الله bu hədisi də qucaqlamaq və öpmək barədəki fəsildə zikr etmişdir. Yəni, azyaşlılara rəhm və mərhəmət göstərərək onları öpmək də bu mövzuya aiddir.

---

[1] "Ali-İmran" surəsi, 103.

[2] "Səhih əl-Buxari", 5538; "Səhih Muslim", 4283.

Peyğəmbər ﷺ Həsən ibn Əli ibn Əbu Talibi öpmüşdür. Həsən Peyğəmbərin qızı Fatimənin övladı idi, yəni Peyğəmbər onun ana babası idi. Peyğəmbər ﷺ Həsən və Hüseyni çox sevir və deyirdi: **"Onlar Cənnət cavanlarının ağasıdır".**[1] Lakin Həsən Hüseyndən daha əfzəldir. Ona görə də Peyğəmbər ﷺ onun barəsində demişdir: **"Mənim bu oğlum seyyiddir. Allah onun əli ilə iki böyük müsəlman ordusunun arasını düzəldəcək".** Buna görə də Əli ibn Əbu Talib رضي الله عنه xarici birisi tərəfindən şəhid edildikdə, ondan sonra xəlifə böyük və daha fəzilətli olan oğlu Həsən ibn Əli olmuşdur. Lakin Həsən gördükdə ki, xilafət üstündə Müaviyə ilə çəkişərsə çoxlu qan töküləcək və böyük zərər olacaq, xilafəti tam şəkildə Müaviyə ibn Əbu Sufyana təslim edir ki, fitnənin qarşısını alsın. Bu da onun böyük fəzilətlərindən biri hesab olunur. Belə ki, o, daha haqlı olmasına rəğmən xilafəti Müaviyəyə təhvil verir ki, fitnə olmasın. Bir dəfə o, Peyğəmbərin ﷺ yanında ikən Təmim oğulları qəbiləsinin başçılarından olan əl-Əqra ibn Habis də orada idi. Bu vaxt Peyğəmbər Həsəni öpdü. Həmin adam, yəni əl-Əqra çox soyuqqanlı birisi idi. Peyğəmbərin uşağı nə üçün öpdüyünə təəccüblənir və deyir: "Mənim on övladım var, bu vaxtadək onların heç birini öpməmişəm". Rəsulullah ﷺ dedi: **"Rəhm etməyənə rəhm olunmaz".** Yəni, insanlara rəhm etməyənə izzət və cəlal sahibi Allah da rəhm etmir, həm də onu rəhmə müvəffəq etmir. Allah qorusun!

Bu hədis dəlildir ki, istər sənin öz övladların olsun, istər oğlunun övladları, istər qızının övladları olsun, istərsə də başqa birisinin övladları, uşaqları öpmək olar. Çünki bu mərhəmətin yaranmasına səbəbdir – qəlbində uşaqlara qarşı rəhmət olur. İnsan Allahın qullarına qarşı nə qədər çox mərhəmətli olarsa, Allahın rəhmətinə də daha yaxın olar. Hətta izzət və cəlal sahibi Allah zinakar və pozğun bir qadını susadığından nəm torpağı yalayan bir itə su verdiyinə görə bağışlamışdır. "əs-səra" rütubətli yerə deyilir. İt susuzluqdan həmin yeri yalayırdı. Qadın ayaqqabısı ilə quyudan su götürüb itə vermiş, Allah da onu bağışlamışdı.[2] Baxmayaraq ki, o, sadəcə bir itə su vermişdi. Allah insanın qəlbində zəiflərə qarşı bir mərhəmət oyadırsa, bu onun izzət və cəlal sahibi Allah tərəfindən bağışlanacağına işarədir.

---

[1] "Sunən ət-Tirmizi", 3701; "Sunən İbn Macə", 115.

[2] "Səhih əl-Buxari", 1320; "Səhih Muslim", 4163.

Peyğəmbər ﷺ demişdir: **"Rəhm etməyənə rəhm olunmaz".** Bu da dəlildir ki, insan öz qəlbini mərhəmətli və şəfqətli etməlidir. Bəzi soyuq–qanlı insanlar isə belə etmirlər. O çayxanada olarkən uşaq onun yanına gələrsə, onun üstünə qışqırıb onu qovur. Bu da səhvdir. Uşaqlar yaxşı iş gördükdə onlarla gözə davranıldığı kimi, onlar pis iş gördükdə də onları qovmaq, acılamaq yox, öyrətmək lazımdır.

Siz məxluqatın ən xeyirlisi və ən əxlaqlısı olan Peyğəmbərimizə ﷺ bir baxın! Bir dəfə o, insanlara namaz qıldırarkən səcdədə ikən Həsən ibn Əli ibn Əbu Talib gəlib onun üzərinə çıxdı, o da səcdəni uzatdı. Səhabələr onun səcdəni uzatmasına təəccübləndilər. Sonra o dedi: **"Övladım mənim üzərimə çıxmışdı, mən də oyununu bitirənədək səcdədən qalxmaq istəmədim"**. Bu da bir mərhəmətdir.

Başqa bir gündə Rəsulullah ﷺ qızı Zeynəbin qızı Uməməni götürüb çıxmış və onu məscidə gətirmişdi. O, uşağı qucağında saxlayaraq insanlara namaz qıldırdı – səcdəyə getdikdə uşağı yerə qoyur, qalxdıqda isə götürürdü.[1] Bütün bunlar uşağa qarşı mərhəmət və şəfqət hissidir. Əslində o, zövcələrindən birinə deyə bilərdi ki, qızı saxlasın. Lakin mərhəmət göstərmişdi. Bununla uşaq ola bilsin ki, babasını sevmiş, o da onun xətrini xoş etmək istəmişdi. Qucağında tutaraq gəlib insanlara namaz qıldırmışdı.

Yenə günlərin birində Peyğəmbər ﷺ insanlara xütbə verərkən nəvələri Həsən və Hüseyn əyinlərində uzun yeni bir libas məsciddə oynayırdılar. Peyğəmbər ﷺ minbərdən enib uşaqları qucağına götürərək dedi: «**Allah doğru buyurur: "Həqiqətən, var-dövlətiniz və övladlarınız ancaq bir sınaqdır".**[2]» O görür ki, bu iki uşaq oynayır, ürəyi dözmür və gəlib onları qucağına götürür.

Qısası, bizlər özümüzü uşaqlara qarşı mərhəmətli olmağa öyrətməliyik. Mərhəmətə ehtiyacı olan hər kəsə, o cümlədən yetimlərə, kasıblara, acizlərə və başqalarına qarşı qəlbimizdə mərhəmət hissi olmalıdır ki, bu, Uca Allahın bizlərə rəhm etməsinə səbəb olsun. Çünki bizim də Allahın rəhmətinə ehtiyacımız var. Allahın qullarına rəhm etməyimiz, Allahın da bizə rəhm etməsinə səbəbdir. Uca Allahdan diləyirəm ki, bizlərə və sizə rəhm etsin.

---

[1] "Səhih əl-Buxari", 486; "Səhih Muslim", 844.

[2] "ət-Təğabun" surəsi, 15.

XƏSTƏNİ ZİYARƏT ETMƏK VƏ CƏNAZƏNİ MÜŞAYİƏT ETMƏK KİTABI

Yüz qırx dördüncü fəsil

Meyitə namaz qılmaq, onun dəfnində iştirak etmək, dəfndən sonra məzarının yanında oturmaq

Mövzu ilə əlaqəli hədislər:

٨٩٤ – عن البَراء بن عازب رضي الله عنهما قال: أمَرنَا رسول الله ﷺ بِعيَادةِ المَريض، واتِّباع الجنازة، وتشميت العاطس، وإبرار المقسم ونصر المظلوم، وإجابة الداعي، وإفشاء السلام. متفق عليه.

894. Rəvayət olunur ki, Bəra ibn Azib رضي الله عنه demişdir: "Rəsulullah ﷺ bizə xəstəni ziyarət etməyi, cənazəni müşayiət etməyi, asqırana cavab verməyi, and içənə bəraət qazandırmağı, məzluma yardım etməyi, dəvətə cavab verməyi və salamı yaymağı əmr etdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ən-Nəvəvinin رحمه الله "Salehlər bağçası" əsərində bir sıra faydalı bölümlər mövcuddur və onların hamısı dirilərlə bağlıdır. Əsərin bu yerində müəllif **"Xəstəni ziyarət etmək və cənazəni müşayiət etmək"** başlıqlı kitabda bunun hökmündən söhbət açmışdır.

Xəstəni ziyarət etmək. Bəzi alimlər bunun fərdu kifayə olduğunu bildirmişlər. Heç kim bunu etməsə, bunu eşidən kəsin xəstəni ziyarət etməsi vacibdir. Peyğəmbər ﷺ bunu müsəlmanın müsəlman üzərindəki haqlarından biri etmişdir. Müsəlmanlara yaraşmaz ki, qardaşları filan-kəsin xəstə olduğunu bildikdə, onu ziyarət etməsinlər. Çünki bu əlaqəni kəsmək hesab olunur.

---

[1] "Səhih əl-Buxari", 1164; "Səhih Muslim", 4022.

Daha doğru olan rəy budur ki, xəstələri ziyarət etməyin hökmü fərdu kifayədir. Məlum məsələdir ki, xəstələri adətən qohumları və dostları ziyarət edir, bu da kifayət edir. Lakin əgər bilsək ki, ölkədə əcnəbi, həm də tanınmayan müsəlman bir kəs xəstələnib, həm də bilirsən ki, onu heç kəs ziyarət etməyib, bu zaman onu ziyarət etməyin vacibdir. Çünki bu, müsəlmanın müsəlman üzərindəki haqlarından biridir.

Xəstəni ziyarət etdikdə müstəhəbdir ki, ondan halı, əməlləri haqda: "Necəsən? Necə dəstəmaz alırsan? Necə namaz qılırsan?" deyə soruşasan, həmçinin şəxsi məsələləri barədə: "İnsanların sənin üzərində haqqı varmı? Yaxud, sənin onlar üzərində haqqın varmı?" kimi suallar verəsən. Əgər desə ki, bəli, o zaman deyirsən ki, borclarını vəsiyyət et. Çünki Peyğəmbər ﷺ demişdir ki: **"Vəsiyyət etməyə bir şeyi olan *hər hansı* bir musəlmanın yazılı bir vəsiyyəti olmayınca *ardıcıl* iki gun kecirməyə haqqı yoxdur".**[1]

Ziyarət zamanı, xüsusən də o ağır xəstə olduqda, onu çox yorma, yanında da çox oturma, çünki bu zaman o, yorulub bezə bilər. Belə ki, xəstə olan kəsin halı sağlam adamdan fərqlənir. Xəstə xoşlayır ki, onun yanından tez çıxıb gedəsən və yaxınları onun yanına gəlsin. Lakin görsən ki, xəstə sənin gəlişindən məmnundur, daha çox qalmağını istəyir, bu zaman bir qədər çox qala bilərsən. Çünki ola bilsin ki, bununla o, tez şəfa tapar. Çünki şəfanın səbəblərindən biri xəstəni sevindirmək, xəstəliyin davam etmə səbəblərindən biri də xəstəni kədərləndirməkdir. Məsələn, gəlib xəstəyə deyirsən ki, bu gün sən dünənkindən daha yaxşısan. Hətta onun halı tibbi nöqteyi-nəzərdən yaxşı olmasa belə, ona belə deyirsən.

Deyirsən ki, dünəndən xeyli yaxşıdır, çünki xeyirli azuqə toplayıb – dünəndən bu günədək beş vaxt namaz qılıb, bağışlanma diləyib, "Allahu əkbər", "la ilahə illəllah" deyə zikr edib. Həmçinin o, xəstəliyinə görə də əcr qazanıb. Ona görə də deyirsən ki, "sən dünəndən daha yaxşısan", yəni dünəndən bu günədək çoxlu savab qazanmısan. Bunu deyirsən ki, onu sevindirəsən. Yox, əgər ona desən ki, "bu gün sənin üzün yorğun görünür, dünən bu gündən daha yaxşı idin", bu hətta doğru olsa belə, bunu demək səhvdir. Çünki bunun faydası yoxdur, ancaq zərəri var. Bacardığın qədər onu sevindirməyə çalış.

---

[1] "Səhih əl-Buxari", 3533; "Səhih Muslim", 3705.

Bəzi adamlar hekayələri, yəni uzun söhbətləri xoşlayır. Mən burada yalan olmayan, doğru söhbətləri nəzərdə tuturam. Görsən ki, bu cür söhbətlər onun könlünü açır, onunla söhbət edə bilərsən. Bu da gözəl bir işdir. Çünki xəstənin qəlbinə sevinc daxil etmək mühümdür. Qalxmaq istədikdə ondan icazə alıb: "icazə verirsənmi, gedim?" deyirsən. Bu da onu sevindirir. Çünki ola bilsin, sənin orada olmağına sevinir və sənə: "xeyr, qal" deyə cavab versin, yaxud sənə: "mənim evim sənin evindir" desin. Əgər sənə: "mənim evim sənin evindir" desə, sanki sənin qalmağına icazə verir, bəlkə də sənin qalmağını istəyir.

Daha sonra onu xəstəliyi əsnasında xeyirli işlər görməyə, xeyir danışmağa təşviq etməyə çalış. Qoy vaxtını zikrlə, dua etməklə, Quran oxumaq və buna bənzər işlərlə keçirsin. Ola bilsin ki, o bunu edər və sən də səbəbkar olduğun üçün savab qazanarsan. Uca Allahdan diləyirəm ki, bizləri hər yerdə mübarək etsin. Müvəffəq edən Allahdır.

٨٩٥ – وعن أبي هريرة ﷺ أن رسول الله ﷺ قال: « حَقُّ الْمُسلِمِ عَلَى الْمُسلِمِ خَمْسٌ، رَدُّ السَّلام. وَعِيادَةُ المَرِيض، وَاتباعُ الجنائز، وإجابة الدَّعوة. وتشميت العاطس» متفق عليه.

895. Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Müsəlmanın müsəlman üzərindəki haqqı beşdir: salamı qaytarmaq, xəstəni ziyarət etmək, cənazələri müşayət etmək, dəvəti qəbul etmək, asqırana cavab vermək"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərində **"Xəstəni ziyarət etmək və cənazəni müşayiət etmək"** kitabını açır.

"İyadə", "ziyarə" və "təşyi" sözləri ərəbcə yaxın mənaları ifadə edir. Səhih olan budur ki, Allah yolunda bir qardaşını evində və ya onun məkanında ziyarət etsən, buna xəstəni ziyarət etmək deyilir. Çünki insanın qardaşı xəstə olduğu müddətdə onu təkrar-təkrar ziyarət edir. Cənazəni müşayiət etmək, ona qoşulmaqdır.

[1] "Səhih əl-Buxari", 1164; "Səhih Muslim", 4022.

Sonra müəllif Bəra ibn Azibin رضي الله عنه hədisini qeyd edir. Hədisin mövzusunun çoxu barədə daha öncə söhbət açmışıq. Burada əsas məqam xəstəni ziyarət etməkdir.

Peyğəmbər ﷺ xəstəni ziyarət etməyi əmr etmişdir və bu fərdu kifayədir, yəni bəzi insanlar bunu edərsə, digərləri bunu etməsə də olar. Əgər *ziyarəti* heç kim etməzsə, qardaşının halı barədə xəbər tutan kəsin onu ziyarət etməsi vacib olur. Ziyarət olunacaq xəstə o kəsdir ki, o evdə qalır və çölə çıxmır. Yox, əgər xəstəliyi yüngüldürsə və xəstə çölə çıxıb insanlarla görüşə bilirsə, ziyarət olunmur. Sadəcə insan eşitdikdə, onun barəsində soruşmalıdır.

Xəstəni ziyarət etməyin bəzi ədəbləri bunlardır:

1 – İnsan Peyğəmbərin ﷺ əmrini yerinə yetirməyə niyyət etməlidir, çünki bunu əmr edən Peyğəmbərdir.

2 – Həmçinin qardaşını ziyarət etməklə ona yaxşılıq etməyi niyyət etməlidir. Çünki xəstəni qardaşı ziyarət etdikdə, bununla o, rahatlıq tapır və qəlbi genişlənir.

3 – Fürsətdən istifadə edərək xəstəni faydalı işlərə, o cümlədən tövbəyə, bağışlanma diləməyə, insanların haqlarını ödəməyə təşviq etməlidir.

4 – Ola bilsin ki, xəstənin təharət, namaz və ya buna bənzər başqa əməllərlə bağlı çətinlikləri olsun. Əgər ziyarət edən kəs elm tələbəsidirsə, xəstə ondan faydalanmış olar. Belə ki, düşdüyü vəziyyətdə təharət və namaz kimi əməlləri necə etməli olduğunu xəstəyə xəbər verməlidir. Bu yerdə xəstə də öz suallarını ona ünvanlaya bilər.

5 – İnsan xəstənin yanında uzun müddət qalmasının məsləhətli olub-olmamasına diqqət etməlidir. Səhih olan rəy budur. Bəzi alimlər demişlər ki, qısa müddət qalmalıdır ki, xəstənin işini çətinləşdirməsin. Lakin səhih olan budur ki, insan məsləhətli olana baxmalıdır. Əgər görsə ki, xəstə onun qalmasını istəyir və buna görə rahatdır, bu zaman qalaraq onu sevindirməyə çalışmalıdır. Yox, əgər görsə ki, insanların onun yanından tez qalxmasını, əhvalının yaxşılaşması üçün ailəsinin onun yanına gəlməsini istəyir, bu zaman yubanmadan tez qalxır.

6 – Həmçinin insan bu zaman Allahın ona bəxş etdiyi sağlamlıq nemətini xatırlamış olur. Çünki insan yalnız başqasının mübtəla olduğunu gördükdə, Allahın ona bəxş etdiyi neməti dərk etmiş olur. Necə deyərlər, əks təqdirdə, bir çox işlər bəlli olur. Beləliklə, nöqsansız və uca Allaha sağlamlıq nemətinə görə şükür edir və Onun bu neməti davamlı etməsini diləyirsən.

7 – Həmçinin bu zaman xəstə də onu ziyarət edən kəsə dua etmiş olur. Xəstənin duası isə tez qəbul olur. Çünki nöqsansız və uca Allah Ona görə qəlbi qırılmış kəslərin yanındadır. Xəstə olan kəs də nəfsi cəhətdən çox zəif olur. Ələlxüsus da əgər xəstəlik uzun müddət davam edərsə, yaxud ağır keçərsə, həmin xəstənin dualarının qəbul olunmasına ümid edilir.

Burada qeyd etmədiyimiz başqa faydalar da vardır. Buna görə də insan xəstələri onların evində ziyarət etməyə çalışmalıdır, çünki bunda böyük əcr və savab vardır.

Cənazələri müşayiət etməyə gəlincə isə, bu barədə in şəə Allah daha sonra söhbət açacağıq.

٨٩٦ – وعنه قال قال رسول الله ﷺ: إنَّ الله عزَّ وجل يَقُولُ يَوْمَ القيَامَة: « يَا ابْنَ آدَمَ مَرضْتُ فَلَم تَعُدْني، قال: ياربِّ كَيْفَ أعُودُكَ وأنْتَ رَبُّ العَالَمين؟ قال: أمَا عَلْمتَ أنَّ عَبْدي فُلاَناً مَرِضَ فَلَمْ تَعُدْهُ، أمَا عَلمتَ أنَّك لو عُدْته لوجدتني عنده؟ يا ابن آدم اطعمتك فلم تطعمني، قال: يا رب كيف أطعمك وأنت رب العالمين، قال: أما علمت أنه استطعمك عبدي فلان فلم تطعمه أما علمت أنك لو أطعمته لوجدت ذلك عندي؟ يا ابن آدم استسقيتك فلم تسقني، قال: يارب كيف اسقيك وأنت رب العالمين؟ قال: استسقاك عبدي فلان فلم تسقه، أما علمت أنك لو سقيته لو جدت ذلك عندي؟ » رواه مسلم.

896. Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: «**İzzət və cəlal sahibi Allah Qiyamət günü deyəcək: "Ey Adəm övladı, Mən xəstələndim, ancaq məni ziyarət etmədin". Deyəcək: "Ey Rəbbim, axı Sən aləmlərin Rəbbisən, mən Səni necə ziyarət edə bilərəm?" Buyuracaq: "Məgər eşitməmişdin ki, filan qulum xəstələnib? Sən isə onu ziyarət etmədin. Məgər bilmirdin ki, sən onu ziyarət etsəydin, Məni də onun yanında tapacaqdın? Ey Adəm oğlu, səndən yemək istədim, sən**

isə Məni yedirmədin". Adam deyəcək: "Ey Rəbbim, Sən aləmlərin Rəbbi ikən, mən Səni necə yedirə bilərəm?" Buyuracaq: "Məgər filan qulum səndən yemək istəmədimi? Sən isə onu yedirmədin. Məgər bilmirdin ki, sən onu yedirsəydin, onu Mənim yanımda tapacaqdın? Ey Adəm oğlu, səndən su istədim, sən isə Mənə su vermədin". Deyəcək: "Ey Rəbbim, Sən aləmlərin Rəbbi ikən, mən Sənə necə su içirə bilərəm?" Buyuracaq: "Filan qulum səndən su istədi, sən isə ona su vermədin. Məgər bilmirdin ki, ona su versəydin, verdiyini Mənim yanımda tapacaqdın?"

Hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Hafiz ən-Nəvəvi ﷺ bu hədisi özünün "Salehlər bağçası" əsərinin "Xəstəni ziyarət etmək və cənazəni müşayiət etmək" kitabında qeyd edir.

Əbu Hureyradan rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **«İzzət və cəlal sahibi Allah Qiyamət günü deyəcək: "Ey Adəm övladı, Mən xəstələndim, ancaq sən Məni ziyarət etmədin". Deyəcək: "Ey Rəbbim, axı Sən aləmlərin Rəbbisən, mən Səni necə ziyarət edə bilərəm?"»** Yəni, Sənin mənim ziyarətimə ehtiyacın yoxdur.

«Buyuracaq: "Məgər eşitməmişdin ki, filan qulum xəstələnib? Sən isə onu ziyarət etmədin. Məgər bilmirdin ki, sən onu ziyarət etsəydin, Məni də onun yanında tapacaqdın?"»

Bu hədisdəki **"Məni ziyarət etmədin"** ifadəsində müşkül yoxdur, çünki Uca Allahın xəstələnməsi qeyri-mümkündür. Belə ki, xəstəlik naqislik sifətidir. Nöqsansız və uca Allah isə hər bir naqis sifətdən uzaqdır. Uca Allah buyurur: **"Sənin pak və müqəddəs Rəbbin – qüdrət sahibi olan Rəbbin müşriklərin *Ona* aid etdikləri sifətlərdən uzaqdır".**[2] Hədisdə **"xəstələndim"** deməkdə məqsəd qullarından birinin xəstələnməsidir.

Nöqsansız və uca Allahın övliyaları Onun seçilmiş bəndələridir. Səhih bir qüdsi hədisdə deyilir ki: **"Kim Mənim övliyama düşmənçilik edərsə, ona qarşı hərb elan edərəm".**[3] Yəni, Allahın övliyalarına qarşı

[1] "Səhih Muslim", 4661.

[2] "əs-Saffat" surəsi, 180.

[3] "Səhih əl-Buxari", 6021.

düşmənçilik edən kəs izzət və cəlal sahibi Allaha qarşı müharibə etmiş olur. Beləsi Allahla düşmənçilik etmədiyini iddia etsə belə, Onun dostlarına qarşı düşmənçilik etdiyinə görə, Allaha qarşı müharibə aparmış olur.

Eləcə də Allahın əməlisaleh bəndələrindən biri xəstələndikdə, Nöqsansız və uca Allah onun yanında olur. Ona görə də: **"Məgər bilmirdin ki, sən onu ziyarət etsəydin, Məni də onun yanında tapacaqdın?"** buyuranda yedirmək barəsində deyildiyi kimi: **"onu Mənim yanımda tapacaqdın"** demədi, **"Məni onun yanında tapacaqdın"** buyurdu. Bu da xəstənin izzət və cəlal sahibi Allaha yaxınlığını göstərir. Bu səbəbdən alimlər deyir ki, xəstə olan kəs kiməsə dua və ya bəddua edirsə, onun duası qəbul olur. Bu da xəstəni ziyarət etməyin müstəhəbliyinə, həm də **"Məni onun yanında tapardın"** buyurmaqla nöqsansız və uca Allahın xəstənin və onu ziyarət edənin yanında olmasına dəlalət edir. Xəstənin necə ziyarət olunması, ziyarət əsnasında ziyarətçinin ona nə deməli olduğu barədə isə daha öncə söhbət açmışdıq.

"Ey Adəm övladı, səndən yemək istədim, sən isə Məni yedirmədin", yəni səndən təam istədim, sən isə onu Mənə vermədin. Məlum məsələdir ki, nöqsansız Allah yeməyi özü üçün istəmir. Uca Allah buyurur: ***"hamını* yedirdiyi halda, Özü yedirilməyən Allahdan başqasınımı dost tutacağam?"**[1] Onun nə yeməyə, nə də içməyə ehtiyacı var. Ancaq Allahın qullarından biri acmışdı, sən də bunu bilərək ona yemək verməmişdin. Uca Allah buyurur: **"Sən onu yedirsəydin, onu Mənim yanımda tapardın".** Yəni, bunun savabını Mənim yanımda sənin üçün saxlanmış tapardın. Bir yaxşı iş on savabdan yeddi yüz savaba qədər və ya ondan da qat-qat çox savaba bərabərdir. Bu da ac adamı yedirməyin müstəhəb olmasına dəlildir – insan ac olan birisini yedirdikdə, bunun əvəzini Allahın yanında tapacaq.

"Ey Adəm övladı, səndən su istədim, sən isə mənə su vermədin". Deyəcək: "Sən aləmlərin Rəbbi ikən, Sənə necə su içirə bilərəm?!" Yəni, Sənin axı nə yeməyə, nə də içməyə ehtiyacın yoxdur. «**Buyuracaq: "Filan qulum səndən su istədi, sən isə ona su vermədin. Məgər bilmirdin ki, ona su versəydin, verdiyini Mənim yanımda tapacaqdın?"**» Bu da səndən su istəyən kəsə su verməyin fəzilətinə dəlalət edir – sən onu Uca Allahın

[1] "əl-Ənam" surəsi, 14.

yanında tapacaqsan. Bir yaxşı iş on savabdan yeddi yüz savaba qədər və ya ondan da qat-qat çox savaba bərabərdir.

Bu hədisdə vurğulanası əsas məqam birinci ifadədir: **"Xəstələndim, sən isə Məni ziyarət etmədin".** Bu da xəstəni ziyarət etməyin müstəhəbliyinə dəlalət edir. Daha öncə də qeyd etdiyimiz kimi, unutmamalıyıq ki, xəstə ilə görüşdükdə onun halı və bəzi əməlləri barədə maraqlanaq ki, nə cür təharət alır, namazı necə qılır. Qoy ziyarətçi ona düşdüyü vəziyyətdə necə təmizlənməsini, namaz qılmasını öyrətsin. Həmçinin ona vaxtını zikr, bağışlanma diləmək və Quran oxumaqla keçirməsini xatırlatsın, vəsiyyət etmək istəyən xəstə üçün də vəsiyyətini yazsın. Müvəffəq edən Allahdır.

٨٩٧ – وعن أبي موسى رضي الله عنه قال: قالَ رسولُ اللهِ، ﷺ: « عُودُوا المَرِيضَ، وَأَطْعِمُوا الجَائِعَ، وفُكُّوا العَاني » رواه البخاري.

« العَاني »: الأَسِيرُ.

897. Əbu Musadan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Xəstəni ziyarət edin, ac olanı doyurun, əsiri azad edin"**.

Hədisi Buxari rəvayət etmişdir.[1]

Hədisin ərəbcəsində keçən "əl-ani" sözü "əsir" deməkdir.

٨٩٨ – وعن ثوبان رضي الله عنه عن النبي ﷺ قال: « إنَّ المسلم إذا عاد أخاه المسلم لم يزل في خُرْفَةِ الجنة حتى يرجع » قيل: يا رسول الله وما خُرْفَةُ الجنة؟ قال: « جَنَاها » رواه مسلم. « جَنَاها »: أي واجتني من الثمر.

898. Sövbandan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ dedi: **"Müsəlman öz müsəlman qardaşını ziyarət etdikdə, qayıdanadək Cənnət guşələrindən birində olar"**. Dedilər: "Ey Allahın elçisi, Cənnətin guşəsi nədir?" Dedi: **"Bağı"**.

Hədisi Muslim rəvayət etmişdir.[2]

Hədisin ərəbcəsində keçən "cənəhə" sözü "meyvə dərilən yer" deməkdir.

---

[1] "Səhih əl-Buxari", 4954.

[2] "Səhih Muslim", 4658.

Şərh:

Müəllif ﵀ bu hədisi "Salehlər bağçası" əsərinin **"Xəstəni ziyarət və cənazəni müşayiət etmək"** kitabında qeyd edir. Əbu Musa əl-Əşaridən rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Xəstəni ziyarət edin, ac olanı doyurun, əsiri azad edin"**. Peyğəmbər ﷺ bu üç əməli əmr etmişdir.

Birincisi, xəstəni ziyarət edin. Daha öncə qeyd etmişdik ki, xəstəni ziyarət etmək fərdu kifayədir. Müsəlmanlar xəstələrini ziyarət edən olmadığı təqdirdə, onları ziyarət etməlidirlər, çünki bu, müsəlmanın müsəlman üzərindəki haqlarından biridir.

İkincisi, acları doyurun. Ac bir insan tapdıqda, gərək onu doyuraq. Ac olanı yedirmək də fərdu kifayədir. Yəni bəziləri bunu etsə, digərlərinin boynundan bu vaciblik düşmüş olur. Həmçinin paltarı olmayan bir adamı geydirmək də belədir – paltarsız bir adam gördükdə, müsəlmanlara vacibdir ki, onu geyindirsinlər. Bunun da hökmü fərdu kifayədir – bəziləri bunu etsə, digərlərinin boynundan bu vaciblik düşmüş olur.

Üçüncüsü, əsiri azad edin. Yəni, kafirlərin əlində əsir olan *müsəlman* kəsləri azad edin. Kafirlər bir müsəlmanı əsir götürsələr, bizlərin onu azad etməmiz vacib olur. Həmçinin əgər müsəlmanlarla kafirlər arasındakı döyüşdə kimisə əsir almış olsalar, yenə də bizlərə onu azad etmək vacib olur. Onu əsirlikdən azad etmək fərdu kifayə hökmündədir – bəziləri bunu edərsə, digərlərinin üzərindən bu vaciblik götürülmüş olur. Əks təqdirdə, hər kəs günah qazanmış olur.

Sonra müəllif ﵀ Sövbanın ﵁ hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Müsəlman öz [xəstələnmiş] müsəlman qardaşını ziyarət edərsə, qayıdanadək Cənnət guşələrindən birində olar".** Dedilər: "Ey Allahın elçisi, Cənnətin guşəsi nədir?" Dedi: **"[Meyvə] bağı"**. Yəni o, xəstənin yanında oturduğu müddətdə Cənnətin meyvələrindən dadmış olur.

Daha öncə qeyd etmişdik ki, xəstənin yanında oturmaq vəziyyətə və ziyarətçinin kimliyinə görə dəyişir. Bəzən xəstənin yanında oturmaq tələb olunur, bəzən də tələb olunmur. Bilsək ki, xəstə həmin adamdan rahatlıq tapır və istəyir ki, onun yanında qalsın, bu zaman onun yanında yubanmaq daha əfzəldir. Bilsək ki, xəstə olan kəs ziyarətçi ilə uzun-uzadı qalmaq

istəmir, bu zaman onun yanında yubanmırsan. Beləcə, hər bir məqamın bir hökmü var. Sövbanın ﵁ bu hədisi də məhz xəstəni ziyarət etməyə dəlildir. Hər birimiz Cənnət meyvələrindən dadmaq istəyərik. Bu da onun səbəblərindəndir. Müvəffəq edən Allahdır.

٨٩٩- وعن علي ﵁ قال: سمعت رسول الله ﷺ يقول: ما من مسلم يعود مسلماً غدوة إلا صلى عليه سبعون ألف ملك حتى يمسي، وإن عاده عشيةً إلا صلى عليه سبعون ألف ملكٍ حتى يصبح، وكان له خريف في الجنة » رواه الترمِذِي وقال: حديث حسن.

« الخرِيفُ »: التَّمْرُ المَخرُوفُ، أي: المُجتَنَى.

899. Rəvayət olunur ki, Əli ﵁ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim bir müsəlmanı gündüz ziyarət edərsə, axşamadək yetmiş min mələk onun üçün bağışlanma diləyər. Əgər axşam ziyarət edərsə, səhərədək yetmiş min mələk onun üçün bağışlanma diləyər. Həm də *bura* onun üçün Cənnətdən meyvə yığılan yer olar"**».

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[1]

٩٠٠ – وعن أنسٍ، ﵁، قال: كانَ غُلامٌ يَهُودِيٌّ يَخْدُم النبي ﷺ، فمرِضَ فأَتَاهُ النَّبِيُّ ﷺ يعُودهُ، فَقَعَدَ عِنْدَ رَأْسِهِ فقالَ لَهُ: « أَسْلِمْ » فنَظَرَ إِلى أَبِيهِ وهُو عِنْدَهُ؟ فقال: أَطِعْ أَبا الْقاسِمِ، فَأَسْلَم، فَخَرَجَ النَّبِيُّ ﷺ، وَهُوَ يقولُ: « الحَمْدُ للَّهِ الَّذي أَنْقذهُ مِنَ النَّارِ ». رواه البخاري.

900. Rəvayət olunur ki, Ənəs ﵁ demişdir: "Bir dəfə Peyğəmbərə ﷺ xidmət edən yəhudi oğlan xəstələnir. Peyğəmbər ﷺ onu ziyarət etmək üçün gəlir və *yatağının* baş tərəfində oturub: **"İslamı qəbul et!"** deyir. Yəhudi yanında olan atasının üzünə baxır. Atası: "Əbul-Qasimə itaət et!" deyir, oğlan da İslamı qəbul edir. Peyğəmbər ﷺ: **"Onu Cəhənnəm odundan xilas edən Allaha həmd olsun"** deyə-deyə oradan çıxır".

Hədisi Buxari rəvayət etmişdir.[2]

---

[1] "Sunən ət-Tirmizi", 811.

[2] "Səhih əl-Buxari", 1268.

Şərh:

Nəvəvi ﵀ "Salehlər bağçası" əsərinin "Xəstəni ziyarət etmək, cənazəni isə müşayiət etmək" kitabında Əli ibn Əbu Talibdən nəql olunan bu hədisi qeyd edir ki: "O, Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: **"Kim bir müsəlmanı gündüz ziyarət edərsə, axşamadək yetmiş min mələk onun üçün bağışlanma diləyər. Əgər axşam ziyarət edərsə, səhərədək yetmiş min mələk onun üçün bağışlanma diləyər. Həm də *bura* onun üçün Cənnətdən meyvə yığılan yer olar".** Buna bənzər başqa bir hədisi daha öncə qeyd etmişdik ki, insan xəstəni ziyarət etdikdə, Cənnət meyvələrindən dərmiş olar. Allahın lütfü olduqca genişdir.

Mələklərin onun üçün bağışlanma diləməsinə gəlincə, bu məsələyə baxmaq lazımdır. Belə ki, alimlərə görə zəif hədisin qaydalarından biri budur ki, kiçik bir əmələ böyük savabın verilməsinə baxılır. Lakin deyirik ki, xəstəni ziyarət etmək dinimizdə sabit olduğu üçün, nə qədər ki hədis çox zəif deyil və insanı yaxşı işlərə həvəsləndirir, insan da bunun savabını əldə etməyə ümid edir, hədis *səhihliyində* sabit olmasa belə, adam bunu etməklə onun savabını əldə etmiş olur – sabit olmasa belə, hədis insanın ancaq xeyirli işlərə rəğbətini artırır. Hər bir halda, bu, xəstəni ziyarət etməyin fəzilətinə dəlalət edir. Əgər ziyarət səhər baş verərsə, bu savaba nail olur, axşam baş verərsə, yenə də bu savaba nail olur.

Ənəs bin Malikdən ﵁ rəvayət olunan hədisdə isə deyilir ki, Peyğəmbərə ﷺ xidmət edən yəhudi oğlan xəstələnir. Peyğəmbər ﷺ də onu ziyarət etmək üçün gəlir və *yatağının* baş tərəfində oturub: **"İslamı qəbul et!"** deyir. Yəhudi yanında olan atasına baxır, sanki ondan məsləhət istəyir. Atası da yəhudi olmasına baxmayaraq deyir ki, "Əbul-Qasimə itaət et!" Çünki yəhudilər bilirdilər ki, o, peyğəmbərdir. Bilirdilər ki, o, haqdır. Oğluna deyir ki, Əbul-Qasimə itaət etsin. Oğlan müsəlman olur, Peyğəmbər ﷺ də: **"Onu Cəhənnəm odundan xilas edən Allaha həmd olsun!"** deyə-deyə oradan çıxır.

Bu hədisdən çıxan faydalar aşağıdakılardır:

1 – Yəhudi işçi işlətməyin caizliyi. Yəni, müsəlman onları işlətmək üçün özünə xidmətçi edə bilər. Ancaq bu zaman onun hiyləsinə qurban olmayacağından əmin olmalıdır. Çünki yəhudilər hiylə və xəyanət əhlidirlər

– onlar əhdə vəfa etməz, əmanətə sahib çıxmazlar. Lakin bundan əmin olsaq, onları işlədə bilərik.

2 – Yəhudi bir xəstəni ziyarət etməyin icazəli olması. Çünki Peyğəmbər ﷺ bu oğlanı ziyarət etmişdi. Lakin ehtimal da var ki, peyğəmbər onu işlə bağlı ziyarət etmişdi. Bu da yaxşı işə görə bir mükafat hesab olunur. Bu səbəbdən də hökm bütün yəhudilərə şamil olunmur. Ola da bilsin ki, Peyğəmbər ﷺ onu İslama dəvət etmək məqsədilə ziyarət etmişdi.

İnsanın yəhudiləri və ya digər kafirləri İslama dəvət etmək, onları Cəhənnəm odundan xilas etmək məqsədilə ziyarət etməsi müstəhəb hesab olunur. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Allahın sənin vasitənlə bir adamı hidayət etməsi, sənin üçün qırmızı dəvələrdən daha xeyirlidir".**[1] Yəni, əgər Allah sənin vasitənlə bir adamı küfrdən çıxararsa, bu sənin üçün ərəblərdə ən qiymətli dəvə sayılan qırmızı dəvələrdən daha xeyirli olar.

3 – Bu dəlildir ki, xəstəni ziyarət edən kəs onu haqqa yönəltməli, haqqı bəyan edib ona rəğbətləndirməlidir. Məsələn, xəstə bilsə ki, günahkardır, ona deyir ki: "Ey filankəs, Allahdan bağışlanma dilə, Ona tövbə et". Beləcə, ona fayda verəcək işləri ona ərz etməli, onun yanında oturub gəlib-keçənlərin nağıllarını danışmaqla onu faydasız işlərlə məşğul etməməlidir. Ən gözəli, xəstəni dini məsələlərdə faydalandırmağındır. Hekayələrə isə başqa vaxt vardır. Sən fürsətdən istifadə et, de ki: "Ey filankəs, Allahdan bağışlanma dilə, Ona tövbə et. Kiminsə sənin üzərində haqqı varsa, onu sahibinə qaytar. Hər hansı bir vacibi yerinə yetirmirdinsə, onu tamamla" və sair.

4 – Bu dəlildir ki, ata özü etməsə belə, öz oğluna xeyirli yöndə təsir edə bilər. Yaşlı yəhudi özü İslamı qəbul etməsə belə, oğluna tövsiyə edir ki, Əbul-Qasimə itaət etsin və müsəlman olsun. Ola bilsin, ata özü, Allah qorusun, hər hansı bir nemətdən məhrum olmuş olsa da, oğlu üçün həmin neməti istəmiş olsun.

5 – Hədis Peyğəmbərin ﷺ haqq olmasına dəlildir. Buna dəlil yəhudinin öz oğluna: "Əbul-Qasimə itaət et!" deməsidir. Düşmənlərin şahidliyi haqdır. Məlum məsələdir ki, yəhudi və xaçpərəstlər Peyğəmbəri ﷺ öz övladlarını tanıdıqları kimi tanıyırdılar. Uca Allah buyurur: **"Kitab verdiyimiz kəslər *Peyğəmbəri* öz oğullarını tanıdıqları kimi tanıyırlar".**[2] –

---

[1] "Səhih əl-Buxari", 871; "Səhih Muslim", 4423.

[2] "əl-Bəqərə" surəsi, 146.

onlar onu öz övladlarını tanıdıqları kimi tanıyırdılar. Çünki Uca Allah buyurur: **"O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin – yazıb-oxumaq bilməyən peyğəmbərin ardınca gedərlər. O *peyğəmbər* onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun ardınca gedənlər isə nicat tapanlardır".**[1] Onlar hər şeyi bilsələr də, Allah qorusun, həsəd və təkəbbürlük üzündən Rəsulullaha iman gətirmədilər. **"Kitab əhlindən bir çoxu həqiqət özlərinə bəlli olduqdan sonra, içlərindəki həsəd üzündən sizi, imanınızdan sonra kafirliyə qaytarmaq istərlər".**[2] Allahdan salamatlıq diləyirik.

Bu hədisə əsasən deyirik ki, kafir birisi xəstələndikdə sən ziyarətdən xeyir umaraq onu ziyarət edə bilərsən. Misal üçün, bu zaman ona İslamı ərz edə bilərsən ki, bəlkə müsəlman olar.

Günümüzdə bizimlə bir yerdə işləyən çoxsaylı kafirləri də gərək belə *diqqətsiz* buraxmayaq. Biz onlarla heyvan kimi rəftar etməməliyik – bizim yanımızda işləsinlər, biz isə onları haqqa yönəltməyək. Onların bizim üzərimizdə vacib haqları vardır: onları İslama dəvət etməliyik, onlara haqqı bəyan etməliyik, haqqa rəğbətləndirməliyik ki, müsəlman olsunlar. Yoxsa yanımızda bu qədər kafir, xristyan, bütpərəst və başqaları olsun, sonra da onlardan tək-tük adamlar istisna olmaqla, heç biri İslamı qəbul etməsin – bu dəvətimizin zəif olmasının göstəricisidir. Bu hal göstərir ki, biz onları İslama dəvət etməyə çalışmamışıq. Bu isə, təbii ki, bizim təqsirimizdir.

Əgər adam gəlib işləməklə öz yaşam səviyyəsini qaldırmaq istəyirsə, onun *dəvət qəbul etməyən*, təkəbbürlü olması real deyil. Əgər biz onu mülayim tərzdə dəvət edib ona İslamı sevdirsək, sonradan bir çoxları onun əli ilə müsəlman ola bilər. Lakin bizlər haqqa dəvət etməkdən qəflətdəyik. Biz gərək bu kimi məsələlərdə belə fürsətləri fövtə verməyək. Müvəffəq edən Allahdır.

---

[1] "əl-Əraf" surəsi, 157.

[2] "əl-Bəqərə" surəsi, 109.

Yüz qırx beşinci fəsil

Xəstə üçün necə dua edilir

Mövzu ilə əlaqəli hədislər:

٩٠١- عن عائشة، رضي الله عنها، أَن النَّبِيَّ ﷺ كَانَ إِذا اشْتكى الإِنْسانُ الشَّيءَ مِنْهُ، أَوْ كَانَتْ بِهِ قَرْحةٌ أَوْ جُرْحٌ، قال النَّبِيُّ ﷺ، بأُصْبُعِهِ هكذا، ووضع سُفْيانُ بْنُ عُيينَة الرَّاوي سبابتَهُ بِالأَرْضِ ثُمَّ رَفَعَهَا وقال: بِسْمِ اللَّهِ، تُربَةُ أَرْضِنا، بِريقَةِ بَعْضنَا، يُشْفَى بِهِ سَقِيمُنَا، بِإِذْن رَبّنَا » متفقٌ عليه.

901. Aişədən رضي الله عنها rəvayət olunur ki, kimsə Peyğəmbərə ﷺ bir xəstəliyi, yaxud üzərində bir yara səbəbindən şikayət edərdisə, o, barmağını belə edər [– bunu deyərkən hədisin ravisi Sufyan ibn Uyeynə şəhadət barmağını torpağa vurub qaldırdı] və deyərdi: **"Bismilləh, yerimizin torpağı, bir-birimizin ağız suyu ilə xəstələrimiz şəfa tapar, Rəbbimizin izni ilə".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٩٠٢ – وعنها أَن النبيَّ ﷺ كَانَ يعُودُ بَعْضَ أَهْلِهِ يَمْسَحُ بيدِهِ اليُمْنى ويقولُ: « اللَّهُمَّ ربَّ النَّاسِ، أَذْهِب الْبَأسَ، واشْفِ، أَنْتَ الشَّافي لا شِفَاءَ إِلاَّ شِفَاؤُكَ، شِفاءً لا يُغَادِرُ سقَماً » متفقٌ عليه.

902. Yenə ondan rəvayət olunur ki, Peyğəmbər ﷺ öz ailəsindən *xəstə* birisini ziyarət edən zaman sağ əlini *ona* sürtərək deyərdi: **"Ey insanların Rəbbi Allahım, ağrını apar, şəfa ver! Sən şəfa verənsən, Sənin şəfandan başqası yoxdur – o elə bir şəfadır ki, xəstəliyi aradan qaldırar".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih əl-Buxari", 5304; "Səhih Muslim", 4061.

[2] "Səhih əl-Buxari", 5243; "Səhih Muslim", 1442.

٩٠٣ – وعن أَنسٍ ﷺ أَنه قال لِثابِتٍ رحمه اللَّه: أَلا أَرْقِيكَ بِرُقْيَةِ رسولِ اللَّه ﷺ؟ قال: بَلى. قال: اللَّهُمَّ رَبَّ النَّاسِ، مُذْهِبَ البَأسِ، اشْفِ أَنتَ الشَّافِي، لا شافِي إِلاَّ أَنْتَ، شِفاءً لا يُغادِر سَقَماً. رواه البخاري.

903. Rəvayət olunur ki, Ənəs ﷺ Sabitə ﷺ belə dedi: "Sənə Rəsulullahın ruqyəsi ilə ruqyə edimmi?" Dedi: "Bəli". Dedi: "Ey insanların Rəbbi Allahım, ağrını aparan, şəfa ver! Sən şəfa verənsən, Sənin şəfandan başqası yoxdur – o elə bir şəfadır ki, xəstəliyi aradan qaldırar".

Hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ən-Nəvəvi ﷺ "Salehlərin bağçası" əsərində xəstəni ziyarət etməyin müstəhəbliyinə dəlilləri, xəstəyə nə deyilməsi lazım olduğunu qeyd edərkən Aişədən ﷺ iki hədis gətirmişdir.

Birinci hədisdə deyilir ki: birisi xəstələndikdə və ya yarası olduqda Peyğəmbər ﷺ *ağzının suyu ilə* barmağını yaş edib yerə sürtər, sonra da yerdən torpağı barmağı ilə götürüb yaranın üzərinə sürtər və deyərdi: **"Bismilləh, yerimizin torpağı, bir-birimizin ağız suyu ilə xəstələrimiz şəfa tapar, Rəbbimizin izni ilə".** Bu da dəlildir ki, insan yaraya belə etməlidir – əlini yaş edib torpağa sürtməli və Peyğəmbərin ﷺ dediyi kimi deməlidir. Bu da onunla əsaslandırılır ki, torpaq pakdır. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"Torpaq bizlər üçün pak edilmişdir".**[2] Həmçinin möminin ağız suyu da pakdır. Bu iki pak şey izzət və cəlal sahibi Allaha güclü bir təvəkküllə, Ona inamla birləşir və xəstə şəfa tapır. Ancaq bu zaman iki şeyin olması vacibdir:

Birincisi, bu duanı edən tam bir yəqinliyə sahib olmalıdır ki, nöqsansız və uca Allah bu xəstəyə bu dua ilə şəfa verəcək.

İkincisi, xəstə də bu yəqinlikdə olmalı və bunun ona fayda verəcəyinə inanmalıdır.

[1] "Səhih əl-Buxari", 5243.

[2] "Səhih Muslim", 811.

Yox, əgər bunu sadəcə təcrübədən keçirərsə, o zaman bu ona fayda verməz. Çünki əmin olmaq lazımdır ki, Peyğəmbərin ﷺ etdiyi iş xeyirlidir. Həmçinin xəstə olan kəs də bunu qəbul etməlidir. Çünki qəlblərində xəstəlik olanlar xəstəliklərini artırmış olarlar. Allah qorusun!

İkinci hədisdə deyilir ki, Peyğəmbər ﷺ xəstə yaxınlarından kimisə ziyarət etdikdə sağ əlini onun üzərinə sürtər və bu duanı edərdi: **"Ey insanların Rəbbi Allahım, ağrını apar, şəfa ver! Sən şəfa verənsən, Sənin şəfandan başqası yoxdur – o elə bir şəfadır ki, xəstəlikdən heç nə qoymaz".** Beləcə o ﷺ nöqsansız və uca Allahın rübubiyyət sifətlərilə Ona təvəssül edərdi.

Şübhəsiz ki, Allah Yaradan, Malik olan, bütün işləri yoluna qoyandır. Ey xəstə olan kəs, sən də deməlisən ki, məni izzət və cəlal sahibi Allah yaradıb. Heç nə olmaz, Allahın təqdiri ilə xəstələndim, sağlamlıqdan sonra məni xəstələndirən Allah həmin xəstəlikdən sonra mənə şəfa verməyə də Qadirdir. Çünki insanların Rəbbi Odur və izzət və cəlal sahibi Allah istədiyini edir.

"Ağrını apar", yəni xəstənin mübtəla olduğu bu xəstəliyi.

"Şəfa ver! Sən şəfa verənsən". Şəfa, xəstəliyin aradan qalxmasına və xəstənin sağalmasına deyilir. Ərəbcə "əşfi" deyilmir, çünki bu sözün mənası "həlak et"dir. "İşfi" deyildikdə isə sən xəstəlikdən şəfa diləmiş olursan. Buna görə də: "Allahummə işfi fulənən və la tuşfih / Allahım, filankəsə şəfa ver, onu həlak etmə!" deyilir. Bəzi avamlar bunların mənasının eyni olduğunu düşünərək işlədirlər. Lakin onların arasında böyük fərq vardır: "Allahummə işfi", yəni "onu xəstəlikdən qurtar", "əşfi" isə "onu həlak et" deməkdir.

"əş-Şafi" izzət və cəlal sahibi Allahın adlarından biridir. Çünki xəstəliklərə şəfa verən Odur. Düzəldilən dava-dərmanlar, ruqyələr isə sadəcə səbəblərdir – faydası ola da bilər, olmaya da. Səbəbləri yaradan isə izzət və cəlal sahibi Allahdır. Ola bilsin ki, iki nəfər eyni xəstəliyə tutulsun, eyni reseptdən istifadə etsinlər, eyni dərmanla müalicə olunsunlar, ancaq biri ölsün, digəri isə sağ qalsın. Çünki bütün işlər izzət və cəlal sahibi Allahın əlindədir. Şəfa verən də Odur. Qəbul edilən dərmanlar və ruqyələr isə sadəcə səbəbdir. Bizlər də Peyğəmbərin ﷺ əmr etdiyi kimi, səbəblərdən istifadə etməyə əmr olunmuşuq: **"Dərman qəbul edin, ancaq haramla**

müalicə olunmayın".[1] O ﷺ həmçinin demişdir: **"Allah göndərdiyi hər bir xəstəliyə dərman da göndərmişdir".**[2]

"Sənin şəfandan başqa şəfa yoxdur". Peyğəmbər ﷺ doğru demişdir: Allahın şəfasından başqa şəfa yoxdur. Başqasının deyil, yalnız Allahın şəfası vardır. Müalicə prosedurları isə yalnız bir səbəbdir. Şəfa verən, izzət və cəlal sahibi Allahdır – nə səni müalicə edən həkim deyil, nə də ki, dərmanlar. Dərman və həkim səbəblərdir, şəfanı verən isə Allahdır.

"Elə bir şəfadır ki, xəstəlikdən heç nə qoymaz". Xəstəni ziyarət edən kəs gərək ona sağ əli ilə sığal çəksin və bu duanı desin: "Ey insanların Rəbbi Allahım, ağrını apar, şəfa ver! Sənin şəfandan başqası yoxdur – o elə bir şəfadır ki, xəstəlikdən heç nə qoymaz". Müvəffəq edən Allahdır.

٩٠٤ – وعن سعدِ بن أبي وَقَّاصٍ رضي الله عنه قال: عَادَني رسول الله ﷺ فقال: «اللَّهُمَّ اشْفِ سعْداً، اللَّهُمَّ اشْفِ سَعْداً، اللَّهُمْ اشْفِ سَعداً » رواه مسلم.

904. Rəvayət olunur ki, Səd ibn Əbu Vaqqas رضي الله عنه demişdir: "Rəsulullah ﷺ məni ziyarət edib dedi: **"Allahım, Sədə şəfa ver! Allahım, Sədə şəfa ver! Allahım, Sədə şəfa ver!"**

Hədisi Muslim rəvayət etmişdir.[3]

٩٠٥ – وعن أَبي عبد اللَّهِ عثمانَ بنِ العَاصِ، رضي الله عنه أنه شَكا إِلى رسول الله ﷺ وَجعاً يجِدُهُ في جَسدِهِ، فقال له رسول الله ﷺ: «ضَعْ يَدَكَ عَلى الذي يَأْلَمُ مِن جَسَدِكَ وَقلْ: بِسمِ اللَّهِ ثَلاثاً وَقُلْ سَبْعَ مَرَّاتٍ: أَعُوذُ بِعِزَّةِ اللَّهِ وَقُدْرَتِهِ مِن شَرِّ مَا أَجِدُ وَأُحاذِرُ » رواه مسلم.

905. Əbu Abdullah Osman ibn əl-Asdan رضي الله عنه rəvayət olunur ki, bir dəfə o, bədənindəki bir ağrıdan Rəsulullaha ﷺ şikayət etdi. Rəsulullah da ona dedi ki: «**"Əlini ağrıyan yerə qoy və üç dəfə: "bismilləh" de, sonra yeddi dəfə: "Hiss etdiyim ağrıdan Allahın izzətinə və qüdrətinə sığınıram" de».**

Hədisi Muslim rəvayət etmişdir.[4]

---

[1] "Sunən Əbu Davud", 3874.

[2] "Musnəd İmam Əhməd", 1/50; "Sunən İbn Macə", 3438.

[3] "Səhih Muslim", 1628.

[4] "Səhih Muslim", 2202.

٩٠٦ – وعن ابن عباسٍ، رضي الله عنهما، عن النبيِّ ﷺ قال: « مَنْ عَادَ مَرِيضاً لَمْ يَحْضُرْهُ أَجَلُهُ، فقالَ عِنْدَهُ سَبْعَ مَرَّات: أَسْأَلُ اللَّه الْعَظِيمَ رَبَّ الْعَرْشِ الْعَظِيمِ أَنْ يَشفِيَك: إِلاَّ عَافَاهُ اللَّه مِنْ ذلكَ المَرَضِ » رواه أبو داود والترمذي وقال: حديث حسن، وقال الحاكِم: حديث صحيح على شرطِ البخاري.

906. İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Hər kim əcəli çatmamış bir xəstəni ziyarət edərək yanında yeddi dəfə: "Əzəmətli Allahdan, əzəmətli ərşin Rəbbi Allahdan diləyirəm ki, sənə şəfa versin" deyərsə, Allah onu bu xəstəlikdən qurtarar".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi demişdir: "Bu, həsən hədisdir". Hakim demişdir: "Bu hədis Buxarinin şərtlərinə görə səhihdir".[1]

Şərh:

İmam Nəvəvinin رحمه الله "Salehlər bağçası" əsərində qeyd etdiyi bu hədislər insanın bir xəstəni ziyarət etdikdə, deməli olduğu dualar barəsindədir.

Səd ibn Əbu Vaqqasdan رضي الله عنه rəvayət olunur ki, o xəstələndiyi zaman Peyğəmbər ﷺ onu ziyarət etmiş və demişdir: **"Allahım, Sədə şəfa ver! Allahım, Sədə şəfa ver! Allahım, Sədə şəfa ver!"**

Bu hədis dəlildir ki, insan müsəlman qardaşını ziyarət etməlidir. Bu hədisdə Peyğəmbərin ﷺ gözəl əxlaqı və səhabələri ilə gözəl rəftarı da öz əksini tapmışdır. Belə ki, o, xəstələri ziyarət edər və onlar üçün dua edərdi. Hədisdə həmçinin bildirilir ki, bu duanı etmək müstəhəbdir: "Allahım, filankəsə [bu yerdə xəstənin adı çəkilir] şəfa ver! Allahım, filankəsə şəfa ver! Allahım, filankəsə şəfa ver!" – üç dəfə. Bu, xəstənin şəfa tapmasına səbəbdir. Bu həm də insanın bu duanı təkrarlamasına dəlildir. Rəsulullah ﷺ bu duanı üç dəfə təkrar edərdi. O, salam verdikdə də üç dəfə salam verərdi. Ona görə də duanı üç dəfə təkrar etmək şəriətimizdə buyurulmuşdur. Peyğəmbər ﷺ namazda dua edib deyərdi: **"Ey Rəbbim, məni bağışla! Ey Rəbbim, məni bağışla! Ey Rəbbim, məni bağışla!"**[2] Deməli, xəstə üçün edilən dua təkrar edilir.

---

[1] "Sunən Əbu Davud", 3106; "Sunən ət-Tirmizi", 2083; "Mustədrək əl-Hakim", 1268.

[2] "Musnəd İmam Əhməd", 1/315; "Sunən İbn Macə", 897.

Sonra müəllif ﵀ Osman ibn əl-Asın ﵁ hədisini qeyd edir. Həmin hədisdə Osman Peyğəmbərə ﷺ bədənindəki ağrıdan şikayətlənir. Peyğəmbər ﷺ də ona buyurur ki, belə etsin: "Bismilləh" (üç dəfə) desin, sonra əlini ağrıyan yerin üzərinə qoyub: "Hiss etdiyim ağrıdan Allahın izzətinə və qüdrətinə sığınıram" desin – bunu da yeddi dəfə deyir. Bu da şəfanın səbəblərindən biridir. Ona görə də insan ağrı hiss etdikdə gərək əlini həmin yerin üzərinə qoyub üç dəfə "bismilləh" sözünü, ardınca da yeddi dəfə "hiss etdiyim ağrıdan Allahın izzətinə və qüdrətinə sığınıram" sözlərini desin. Əgər bunu tam yəqinliklə, iman gətirərək deyərsə, bundan faydalanar və izzət və cəlal sahibi Allahın izni ilə həmin ağrı ondan gedər. Bu da hər növ dərman, içki və iynələrdən daha təsirli olur. Çünki sən göylərin və yerin mülkü Əlində olandan, bu xəstəliyi verəndən istəyirsən. O da səni həmin xəstəlikdən qurtarır.

İbn Abbasın ﵄ hədisində isə: "**Hər kim əcəli çatmamış bir xəstəni** (yəni ölüm yatağında olmayan kəsi) **ziyarət edərək yanında yeddi dəfə: "Əzəmətli Allahdan, əzəmətli ərşin rəbbi Allahdan diləyirəm ki, sənə şəfa versin" deyərsə, Allah onu bu xəstəlikdən qurtarar"** deyilir. Əgər adamın əcəli çatmayıbsa, şəfa tapır. Əcəli çatdıqda isə nə dərmanın xeyri olur, nə də duanın. Çünki Uca Allah buyurur: **"Hər ümmətin bir əcəli vardır. Onların əcəli gəldiyi zaman bircə saat belə nə yubanar, nə də qabağa keçə bilərlər".**[1] Müvəffəq edən Allahdır.

٩٠٧ – وعنه أَنَّ النبيَّ ﷺ دَخَل على أَعَرابيٍّ يَعُودُهُ، وَكانَ إذا دَخَلَ عَلى مَن يَعُودُهُ قال: « لا بَأْس، طَهُورٌ إِن شَاء اللَّه » رواه البخاري.

907. Yenə ondan rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ bir bədəvini ziyarət etmək üçün onun yanına daxil oldu. O, ziyarət etdiyi adamın yanına daxil olduqda belə deyərdi: **"Heç nə olmaz, təmizlənirsən, in şəə Allah".**

Hədisi Buxari rəvayət etmişdir.[2]

[1] "əl-Əraf" surəsi, 34.

[2] "Səhih əl-Buxari", 5662.

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" əsərinin bu yerində xəstə üçün oxunan dualardan bəhs edir.

İbn Abbasdan ﵄ rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ bir bədəvini ziyarət etmək üçün onun yanına daxil oldu. O, ziyarət etdiyi adamın yanına daxil olduqda belə deyərdi: **"Heç nə olmaz, təmizlənirsən in şəə Allah".**

"Heç nə olmaz", yəni əziyyət çəkməyəsən, **"təmizlənirsən"**, yəni bu sənin üçün bir təmizlikdir, in şəə Allah. Bu cümlə xəbər cümləsidir və dua cümləsi deyil. Çünki insan duanı qəti şəkildə etməlidir – bu halda "istəyirsənsə" demək olmaz. Buna görə də Peyğəmbər ﷺ bir kişiyə: "Allahım, istəyirsənsə məni bağışla, istəyirsənsə mənə rəhm et!"[1] deməsini qadağan etmişdir. Belə demə, çünki heç kim Allahı məcbur edə bilməz – əgər istəsə, səni bağışlayar və rəhm edər, istəsə də bağışlamaz. "İstəsən" sözü yalnız məcburiyyət qarşısında qalan kəslərə deyilə bilər. Nöqsansız və uca Allah üçün isə çətin bir iş yoxdur. Ona görə də Ondan bir şey istədikdə: "istəyirsənsə" demə!

Peyğəmbərin ﷺ: **"Heç nə olmaz, təmizlənirsən"** sözü isə xəbərdir – onda bir pisliyin olmamasını xəbər verir. Sonra da deyir ki, **"in şəə Allah"**. Çünki bütün işlər izzət və cəlal sahibi Allahın istəyinə bağlıdır.

Bu hədisdən anlaşılır ki, xəstəni ziyarət edən adam onun yanına daxil olduqda: "Heç nə olmaz, təmizlənirsən, in şəə Allah" deməlidir.

٩٠٨ – وعن أَبي سعيد الخُدْرِيِّ ﵁ أن جِبْرِيلَ أَتَى النَّبِيَّ ﷺ فقال: يَا مُحَمدُ اشْتَكَيْتَ؟ قال: « نَعَمْ » قال: بِسْمِ اللَّهِ أَرْقِيكَ، مِنْ كُلِّ شَيْءٍ يُؤْذِيكَ، مِنْ شَرِّ كُلِّ نَفْسٍ أَوْ عيْنِ حَاسِدٍ، اللَّهُ يشْفِيك، بِسْمِ اللَّهِ أَرْقِيكَ » رواه مسلم.

908. Əbu Səid əl-Xudridən ﵁ rəvayət olunur ki, Cəbrail ﵇ Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Muhəmməd, ağrıyan yerin varmı?" Dedi: "Bəli". Dedi: "Səni narahat edən hər bir şeydən, hər bir nəfsin şərindən, həsəd edənlərin gözündən Allahın adı ilə sənə ruqyə edirəm. Allah sənə şəfa versin! Allahın adı ilə sənə ruqyə edirəm".

[1] "Səhih Muslim", 2679.

Hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Sonra müəllif ﷺ Cəbrailin ﷺ Peyğəmbəri ﷺ ruqyə etməsi hədisini danışır. Həmin hədisdə Cəbrail ﷺ Peyğəmbərin ﷺ yanına gəlib dedi: "Ey Muhəmməd, şikayətin (yəni ağrıyan yerin) varmı?" Dedi: "Bəli". Dedi: "Səni narahat edən hər bir şeydən, hər bir nəfsin şərindən, həsəd edənlərin gözündən Allahın adı ilə sənə ruqyə edirəm. Allah sənə şəfa versin! Allahın adı ilə sənə ruqyə edirəm".

Bu, mələklərdən olan elçilərin ən şərəflisi Cəbrailin insanlardan olan elçilərin ən şərəflisi Rəsulullaha öyrətdiyi duadır. Cəbrail mələklər arasında ən şərəfli rəsuldur, Muhəmməd isə insanlar arasında. Ondan soruşur ki, hər hansı bir ağrıdan şikayətlənirsənmi? Buyurur ki: "Bəli". Bu da dəlildir ki, insandan soruşsalar ki, xəstələnmisənmi, o, bu barədə xəbər verə bilər və bu şikayətlənmək sayılmır. Şikayətlənmək, Allahdan insanlara şikayət etməkdir. Məsələn, "Allah mənə belə-belə xəstəliklər verdi" deməyin, yəni Rəbbindən insanlara şikayət etməyindir və bu, icazəli deyil. Buna görə də Yəqub demişdir: **"Mən dərd-qəmimi yalnız Allaha ərz edirəm və Allah-dan *nazil olan vəhy sayəsində* sizin bilmədiklərinizi bilirəm".**[2]

Ancaq xəstə olan kəs şikayətlənməyib sadəcə öz xəstəliyi barədə xəbər verərsə, bu, olar. Ona görə də bəziləri: "xəbər verirəm, şikayətlənmirəm, məndə belə bir xəstəlik var" deyirlər. Bu, caiz əməldir.

Hədis həm də ona dəlildir ki, xəstəyə bu duanı oxumaq lazımdır: "Allahın adı ilə sənə ruqyə edirəm", yəni sənə ruqyə oxuyuram.

"Səni narahat edən hər şeyə qarşı" – bu, ümumidir: xəstəlik, kədər, stres, qəm və başqa hər bir oxşar hal buna aiddir.

"Hər bir nəfsin şərindən, həsəd edənlərin gözündən. Allah sənə şəfa versin!"

"Hər bir nəfsdən". Burada həm insanların, həm də cinlərin və baş-qalarının nəfsi nəzərdə tutulur.

---

[1] "Səhih Muslim", 2186.

[2] "Yusuf" surəsi, 86.

"Həsəd edənlərin gözündən". İnsanlar buna gözdəymə də deyirlər. Çünki, Allah qorusun, həsəd edən kəs Allahın hər hansı bir bəndəsinə nemət bəxş etməsini istəmir. Onun nəfsi xəbis və şərlidir. Belə bir xəbis və şər nəfsdən insana göz dəyə bilər. Uca Allah bu xüsusda buyurur: **"və həsəd apardığı zaman paxılın şərindən".**[1] Beləcə, adama göz dəyir və bu səbəbdən də nemət əldən gedir. Peyğəmbər ﷺ də buyurur ki: **"həsədli gözdən Allah sənə şəfa versin",** yəni onu sağaltsın və aradan qaldırsın.

"Allahın adı ilə sənə ruqyə edirəm". Duanın əvvəlində də, sonunda da Allahın adını zikr edir. İnsan Sünnədə varid olanlarla dua etdikdə, xeyir tapır. Çünki Sünnədə varid olmuşlara riayət etmək daha əfzəldir. Əgər ruqyə edən bu duanı bilmirsə, münasib bildiyi duanı etsin, Allah da ona yardım etsin. Məsələn, "Allah sənə şəfa versin, Allah sənə afiyət versin, Allahdan sənə şəfa diləyirəm. Allahdan sənə sağlamlıq diləyirəm" desin, yaxud buna bənzər başqa dualar etsin.

Bu hədis dəlildir ki, Peyğəmbər ﷺ də başqa insanlar kimidir – o da xəstəliyə tutulardı. Həmçinin, hədisə əsasən, xəstəyə Quran oxumaq təvəkkülün kamilliyi ilə ziddiyyət təşkil etmir. İnsanlardan özünə dua oxunmasını istəyən kəs isə belə deyil. Çünki insanlardan özünə dua oxunmasını istəyən kəsin təvəkkülündə naqislik vardır. Axı o, bunu məxluqdan istəyir və onların duasına etimad edir. Yox, əgər birisi gəlib ona dua oxusa, o da buna mane olmasa, bunun ona zərəri olmaz, həm də bu, təvəkkülün naqisliyinə dəlalət etmir. Buna görə Peyğəmbər ﷺ də başqalarına dua oxumuş, başqaları da onun üçün dua oxumuşdular. Bu, sən özün bunu istəmədiyin müddətdə təvəkkülün kamilliyinə zidd deyil. Müvəffəq edən Allahdır.

٩٠٩ – وعن أبي سعيد الخُدْرِيِّ وأبي هريرة رضي الله عنهما ، أنهُما شَهِدَا على رسول الله ﷺ أنه قال: « مَنْ قال: لا إِلهَ إِلاَّ اللَّهُ واللَّهُ أَكْبَرُ، صدَّقَهُ رَبُّهُ، فقال: لا إله إِلاَّ أَنَا وأَنا أَكْبرُ. وَإِذَا قال: لا إِلهَ إِلاَّ اللَّهُ وحْدهُ لا شَرِيكَ لَهُ، قال: يقول: لا إله إِلا أَنَا وحْدِي لا شَرِيك لي. وإذا قال: لا إِلهَ إِلاَّ اللَّهُ لَهُ الْمُلْكُ وَلَهُ الحَمْدُ، قال: لا إِلهَ إِلاَّ أَنَا ليَ الْمُلْك وَلِيَ الحَمْدُ. وإذا قال: لا إله إِلاَّ اللَّهُ وَلا حَوْلَ ولا قَوَّةَ إِلاَّ بِاللَّهِ، قال لا إله إِلاَّ أَنَا وَلا حَوْلَ ولا قوَّةَ إِلاَّ بي » وَكانَ يقولُ: « مَنْ قالهَا في مَرَضِهِ ثُمَّ ماتَ لَمْ تَطْعَمْهُ النَّارُ » رواه الترمذي وقال: حديث حسن.

[1] "əl-Fələq" surəsi, 5.

909. Əbu Səid əl-Xudri ﷺ və Əbu Hureyradan ﷺ rəvayət olunur ki, onlar Peyğəmbərin ﷺ belə dediyinə şahid olmuşlar: «**Kim: "Allahdan başqa ibadətə layiq məbud yoxdur və Allah Böyükdür" deyərsə, Allah onu təsdiqləyib buyurar: "Məndən başqa ibadətə layiq məbud yoxdur, Mən hər şeydən böyükəm". Əgər desə ki: "Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, Təkdir, Onun şəriki yoxdur", buyurar ki: "Məndən başqa ibadətə layiq məbud yoxdur, Mənim şərikim də yoxdur". Əgər desə ki: "Allahdan başqa ibadətə layiq məbud yoxdur, mülk və həmd Ona məxsusdur", buyurar ki: "Məndən başqa ibadətə layiq məbud yoxdur, mülk və həmd Mənə məxsusdur". Əgər desə ki: "Allahdan başqa ibadətə layiq məbud yoxdur, Allahdan başqa güc, qüvvət sahibi yoxdur", buyurar ki: "Məndən başqa ibadətə layiq məbud yoxdur, Məndən başqa güc, qüvvət sahibi yoxdur".** Peyğəmbər ﷺ demişdir: **"Kim xəstələndikdə bunu deyər, sonra da ölərsə, Cəhənnəm odu ona toxunmaz".**

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[1]

Şərh:

Bu, İmam ən-Nəvəvinin ﷺ "Salehlər bağçası" əsərində **"Xəstə üçün edilən dualar"** fəslində qeyd etdiyi son hədisdir. Bundan əvvəl isə xəstəni ziyarət edənin xəstə üçün edəcəyi dualardan söhbət açmışdıq.

Bu isə xəstənin özü üçün etdiyi dualar haqqındadır. Bu hədisdə müəllif ﷺ Əbu Səid əl-Xudri və Əbu Hureyradan Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir ki, nöqsansız və uca Allah qulunun təkbir, təhlil ("la ilahə illəllah" demək) etməsini təsdiqləyir və buyurur: "Məndən başqa ibadətə layiq məbud yoxdur, Mən hər şeydən böyükəm". Əgər qul desə ki: "Allahdan başqa ibadətə layiq məbud yoxdur, Allahdan başqa güc, qüvvət sahibi yoxdur", buyurar ki: "Məndən başqa ibadətə layiq məbud yoxdur, Məndən başqa güc, qüvvət sahibi yoxdur".

Peyğəmbər ﷺ demişdir: **"Kim xəstələndikdə bunu deyər, sonra da ölərsə** (yəni, xəstəlik səbəbindən öz əcəli ilə ölərsə)**, Cəhənnəm odu ona toxunmaz".** Yəni, bu duanı demək insana Cəhənnəm odunun toxunmamasına səbəblərdən biridir. Gərək insan bu zikri əzbərləsin və xəstələndikdə ondan çoxlu istifadə etsin ki, Uca Allahın izni ilə gözəl sonluğa nail olsun. Müvəffəq edən Allahdır.

---

[1] "Sunən ət-Tirmizi", 3430.

Yüz qırx altıncı fəsil

Xəstənin yaxınlarından onun barəsində soruşmaq

Mövzu ilə əlaqəli hədis:

٩١٠ – عن ابن عباسٍ رضي الله عنهما ، أَنَّ عليَّ بنَ أَبي طالبٍ رضي الله عنه خرجَ مِنْ عِنْدِ رسولِ اللَّهِ ﷺ في وجَعِهِ الذِي تُوُفِيّ فِيهِ، فقال النَّاسُ: يا أَبَا الحسنِ، كَيفَ أَصْبَحَ رسولُ اللَّه ﷺ قال: أَصْبحَ بِحمْد اللَّهِ بَارِئاً. رواه البخاري.

910. İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, Rəsulullah ﷺ ölüm xəstəliyindən əziyyət çəkdiyi bir vaxtda insanlar Əli ibn Əbu Talibin رضي الله عنه onun yanından çıxdığını görüb soruşdular: "Ey Əbul-Həsən, Rəsulullah ﷺ necə sabahladı?" Dedi: "Allaha həmd olsun ki, yaxşı sabahladı".

Hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ən-Nəvəvi رحمه الله "Salehlər bağçası" əsərində xəstəni necə ziyarət etməyin bir çox ədəblərindən söhbət açmışdır. Bu fəsildə isə xəstənin yaxınlarından onun barəsində soruşmaqdan söhbət açır. Bildirir ki, bu da Sünnədə varid olmuş əməllərdəndir. Müəllif رحمه الله İbn Abbasdan rəvayət olunan hədisi qeyd edir ki, Rəsulullah ﷺ ölüm xəstəliyindən əziyyət çəkdiyi bir vaxtda Əli ibn Əbu Talib onun yanından çıxır.

Əli ibn Əbu Talib رضي الله عنه Peyğəmbərin ﷺ kürəkəni və əmisi oğlu idi. Əhli-beytin ən fəzilətli kişisi də odur. Bu ümmətin dördüncü xəlifəsi də məhz odur. Peyğəmbər ﷺ onu Təbuk döyüşünə aparmayıb ailəsinin yanında qalmağı buyurduqda Əli olduqca məyus olmuş, Peyğəmbər ﷺ ona belə demişdi: **"Məgər istəmirsən ki, Harun Musaya yaxın olduğu kimi, sən də mənə yaxın olasan?"**[2] Çünki Musa da Harunu öz ailəsinin yanında qoyub getmişdi. Uca Allah buyurur: «**Musa qardaşı Haruna dedi: "Xalqımın içərisində məni əvəz et, *onları* islah et və fəsad törədənlərin yoluna**

[1] "Səhih əl-Buxari", 6266.

[2] "Səhih əl-Buxari", 3706; "Səhih Muslim", 3404.

uyma!”»[1] Peyğəmbər ﷺ ona belə demiş, sonra da əlavə etmişdir: **“Ancaq məndən sonra peyğəmbər yoxdur”**.[2]

Bir dəfə o, Rəsulullah ﷺ ölüm xəstəliyindən əziyyət çəkərkən onun yanından çıxırdı. Peyğəmbər ﷺ xəstələndikdə Səudə bint Zəmadan رضي الله عنها başqa digər zövcələrinin yanında növbə ilə qalırdı – Səudə öz növbəsini Aişəyə رضي الله عنها vermişdi. Peyğəmbər ﷺ xəstəlik ağrıları şiddətləndikdə: “Görəsən, sabah mən harada olacağam, görəsən sabah mən harada olacağam?” deyər[3], Aişənin gününün nə zaman olduğunu soruşardı. Zövcələri də ona izn verirlər ki, Aişənin yanında müalicə alsın. Beləcə, Peyğəmbər ﷺ vəfat edənədək Aişənin رضي الله عنها yanında qaldı.

Belə bir vaxtda onun ﷺ yanından çıxan Əlidən soruşurlar ki, Peyğəmbər ﷺ necədir, deyir ki, yaxşıdır. Bu da dəlildir ki, əgər xəstəni ziyarət etmək müyəssər olmazsa, bu zaman onun haqqında onun yanında növbə çəkən qohumlarından və başqalarından xəbər alınır. Onun haqqında soruşursan ki, rahat olasan. Günümüzdə də, Allaha həmd olsun ki, qohumlarla və yaxınlarla telefonla əlaqə saxlamaq mümkündür. Əgər adam xəstənin yanına gedib onu ziyarət edə bilmirsə, bu zaman, Allaha həmd olsun ki, telefondan istifadə edə bilər. Buna görə də deyirik ki, əgər özün gedib xəstəni ziyarət edə bilmirsənsə, ona telefonla zəng et, halını soruş. Buna görə sən, in şəə Allah, əcr əldə etmiş olarsan. Müvəffəq edən Allahdır.

---

[1] “əl-Əraf” surəsi, 142.

[2] “Səhih əl-Buxari”, 4416; “Səhih Muslim”, 2404.

[3] “Səhih əl-Buxari”, 3774; “Səhih Muslim”, 2443.

Yüz qırx yeddinci fəsil

Həyatdan ümidini üzən kəs nə deməlidir

Mövzu ilə əlaqəli hədislər:

٩١١ – عن عائشة ﵂ قالت: سَمِعْتُ النبيَّ ﷺ وهُوَ مُسْتَنِدٌ إِلَيَّ يَقُولُ: «اللَّهُمَّ اغفِرْ لِي وَارْحَمْنِي، وَأَلحِقني بالرَّفِيقِ الأَعْلَى » متفق عليه.

911. Rəvayət olunur ki, Aişə ﵂ demişdir: «Peyğəmbər ﷺ mənə söykənmiş halda ikən onun belə dediyini eşitdim: **"Allahım məni bağışla, mənə rəhm et, məni uca dostlara qovuşdur"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٩١٢ – وعنها قالت: رأَيْتُ رسولَ اللَّه ﷺ وهُوَ بِالموتِ، عِندهُ قدحٌ فِيهِ مَاءٌ، وهُو يدخِلُ يدهُ في القَدَحِ، ثم يمسَحُ وجهَهُ بالماءِ، ثم يقول: « اللَّهُمَّ أَعِنِّي على غمرَاتِ المَوْتِ وَسَكَراتِ المَوْتِ » رواه الترمذي .

912. Yenə ondan rəvayət olunur ki, o demişdir: "Ölüm ayağında olan Rəsulullahı ﷺ gördüm – o, əlini yanındakı su olan qədəhə salır, sonra da yaş əlini üzünə çəkirdi. Sonra o belə dedi: **"Allahım, ölüm bihuşluğunda mənə yardım et!"**

Hədisi Tirmizi rəvayət etmişdir.[2]

Şərh:

İmam ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərinin bu yerində həyatdan ümidi üzən kəsin deməli olduğu dua haqqında söhbət açır.

Həyatdan ümidini üzmək yalnız ölüm öncəsi olur. Bundan öncə isə insan nə qədər ağır xəstə olsa belə, ümidini üzməməlidir. O qədər insan vardır ki, ailəsi onun öldüyünü zənn edib yuyub, kəfənləyib, ətirləyib,

---

[1] "Səhih əl-Buxari", 5674; "Səhih Muslim", 2444.

[2] "Sunən ət-Tirmizi", 978.

sonra da Allah ona şəfa verib sağladıb. Nə qədər insanlar vardır ki, susuz və yeməksiz qalmaqdan ölüm səviyyəsinə çatmış, sonra isə izzət və cəlal sahibi Allah onu xilas etmişdir. Peyğəmbər ﷺ demişdir: **"Allah birinizin tövbə etməsinə yeməyi, içməyi üzərində olan miniyini itirdikdən sonra ağacın dibində uzanıb ölümünü gözlədiyi zaman onu (miniyi) yenidən tapan kəsin sevinməsindən daha çox sevinir".**[1] Bir təsəvvür edin: adam ümidini üzüb və artıq ölümünü gözləyir. O, bu halda ikən birdən dəvəsinin ipini ağacdan asılmış görür – Allah onun miniyini özünə qaytarıb: dəvəsi gəlib ipini ağaca ilişdirib qalıb. Adam da onun ipindən tutub: "Allahım, Sən mənim qulum, mən isə sənin Rəbbinəm!" deyir. O demək istəyir ki, Sən mənim Rəbbimsən, mən isə sənin qulunam, ancaq sevincindən dili dolaşır və səhvə yol verir. Bu adam zahirən həyatdan ümidini üzmüşdü, çünki yeməyi və içməyi üzərində olan miniyini itirmişdi.

Ancaq əsil ümidsizlik insanın ölüm anında olur. Bu zaman onun dirilməyi artıq mümkün olmur. Uca Allah buyurur: **"*Can* boğaza yetişdiyi zaman... həmin an siz *can verən adama* baxırsınız".**[2] Ruh hülquma çatır: **"həmin an siz *can verən adama* baxırsınız. Biz ona sizdən daha yaxın oluruq, siz isə *bunu* görmürsünüz".**[3] Mələklər insanın ölüm anında ona hulqumundan daha yaxın olurlar: **"Madam ki, siz *iddianıza görə* haqq-hesab olunmayacaqsınız və doğru danışanlarsınız, onda o canı geri qaytarın".**[4] Mümkündür? Kiminsə ruhu hülqumuna çatdıqda onu geri qaytara bilərmi? – Əsla mümkün deyil.

İnsan həyatdan ümidini üzdükdə və ölümü hiss etdikdə nə etməlidir? Aişədən رضي الله عنها rəvayət olunur ki, Peyğəmbər ﷺ belə demişdir: **"Allahım, məni bağışla, mənə rəhm et, məni uca dostlara qovuşdur!"** Rəsulullah ﷺ ölümündən öncə belə deyir, halbuki Allah onun keçmiş və gələcək günahlarını artıq bağışlamışdır. Deyir ki, **"Allahım, məni bağışla, mənə rəhm et, məni uca dostlara qovuşdur!"**.

Yaxşı, bəs uca dostlar kimlərdir? – Peyğəmbərlər, siddiqlər, şəhidlər və əməlisaleh kəslər. Onlar necə də gözəl dostlardır. Peyğəmbər ﷺ ölü-

[1] "Səhih Muslim", 2744.
[2] "əl-Vaqiə" surəsi, 83-84.
[3] "əl-Vaqiə" surəsi, 84-85.
[4] "əl-Vaqiə" surəsi, 86-87.

mündən öncə bunları demişdi. Yanında da bir qab su var idi. O, hər kəsdən daha çox ölüm bihuşluğunu hiss edirdi. Baxmayaraq ki, o, peyğəmbər idi, onun xəstəliyi iki adamın xəstəliyinə bərabər idi. Xəstəlik ona daha ağır gəlmişdi. Nə üçün? Ona görə ki, səbrin ən yüksək məqamına yetişsin. Çünki səbrin bir şeyə ehtiyacı vardır ki, ondan istifadə olunsun. Sanki izzət və cəlal sahibi Allah istəmişdi ki, Peyğəmbərinin xəstəliyi, ağrısı ağır olsun ki, səbir edənlərin nail ola biləcəyi ən yüksək məqama çatsın. Peyğəmbər ﷺ əlini su olan qabın içərisinə qoyur, sonra onunla üzünü silib deyirdi: **"Allahım, ölüm bihuşluğunda mənə yardım et"**, yəni yardım et ki, ona səbir edim, dözüm, ağlımı itirməyim, danışdığımı bilim, son sözlərim "la ilahə illəllah, Muhəmmədən rəsulullah" olsun. Çünki bu, əzəmətli bir məqam idi.

Həmin vaxt olduqca ağrılı və acılı olur. Əgər uca Allah bu anda sənə yardım etməsə, səbir verməsə, sabit etməzsə, sən təhlükədə olacaqsan. Ona görə də deyirdi ki: **"Allahım, ölüm bihuşluğunda mənə yardım et"**. Başqa bir rəvayətdə isə demişdir: **"La ilahə illəllah, həqiqətən də ölümün bihuşluğu vardır"**.[1] Peyğəmbər ﷺ doğru buyurmuşdur. Uca Allah buyurur: **"Ölüm bihuşluğu həqiqətən gələcək. *Ey insan!* Bu, sənin uzaq qaçdığın şeydir".**[2]

Uca Allahdan diləyirəm ki, bizə və sizə ölüm bihuşluğu anında yardım etsin, hamımıza gözəl sonluq nəsib etsin. Bizi iman və tövhid üzərində öldürsün, bizdən razı olduğu halda canımızı alsın. Şübhəsiz ki, O, hər şeyə qadirdir.

[1] "Səhih əl-Buxari", 4449.

[2] "Qaf" surəsi, 19.

Yüz qırx səkkizinci fəsil

Xəstənin öz ailəsinə, ona gözəl şəkildə qulluq edən kəsə vəsiyyət qoymasının müstəhəbliyi, qarşılaşdığı çətinliklərə səbir etməsi, həmçinin ölüm səbəbi şəri cəza, qisas kimi səbəblərdən yaxın olan kəsin vəsiyyət etməsinin müstəhəbliyi

Mövzu ilə əlaqəli hədis:

٩١٣ – عن عِمران بن الحُصَين ﵄ أن امرأَةً مِنْ جُهَيْنَةَ أَتَتِ النبيَّ ﷺ وهِي حُبْلَى مِنَ الزِّنَا، فقالت: يا رسول اللَّهِ، أَصبتُ حدًّا فَأَقمْهُ علَيَّ، فَدعا رسولُ اللَّهِ ﷺ وليَّهَا، فقال: « أَحْسِنْ إِلَيْهَا، فَإِذا وضَعتْ فَأْتِني بِهَا » فَفعلَ فَأَمر بِها النبيُّ ﷺ فشُدَّتْ علَيها ثِيابُها، ثُمَّ أَمر بِها فَرُجِمتْ، ثُمَّ صَلَّى عليها. رواه مسلمٌ.

913. İmran ibn əl-Husayndan ﵁ rəvayət olunur ki, Cuheynə qəbiləsindən bir qadın hamilə halda Peyğəmbərin ﷺ yanına gəlib: "Ey Allahın elçisi, mən şəri cəzaya layiqəm, bunu icra et" deyir. Rəsulullah ﷺ da onun vəlisini çağırır və deyir: **"Ona yaxşı bax, uşağını dünyaya gətirdikdən sonra isə mənim yanıma gətir"**. Həmin adam elə də edir. Peyğəmbər ﷺ əmr edir və onun libasını möhkəm bağlayırlar. Sonra da əmr edir və qadın daşqalaq olunur. Sonra da Peyğəmbər ﷺ ona cənazə namazı qılır.

Hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində **"Xəstənin öz ailəsinə, ona gözəl şəkildə qulluq edən kəsə vəsiyyət qoymağın müstəhəbliyi, qarşılaşdığı çətinliklərə səbir etməsi, həmçinin ölüm səbəbi şəri cəza, qisas kimi səbəblərdən yaxın olan kəsə vəsiyyət etməsinin müstəhəbliyi"** başlıqlı fəsil qeyd edir.

[1] "Səhih Muslim", 1696.

Yəni, insan xəstə ilə gərək gözəl davransın, ondan ağır söz eşitdikdə səbir etsin. Çünki xəstə olan kəsin könlü qırılır, dünya ona dar gəlir. Ola bilsin, keçirdiyi haldan nalayiq söz işlətsin və ya şikayət etmiş olsun. İnsan bütün bunlara səbir etməli, bunun əcr və savabını nöqsansız və uca Allah-dan diləməlidir. Şübhəsiz ki, o, həm xəstəyə yaxşılıq etdiyi üçün, həm də xəstədən gördüyü əziyyət və məşəqqətə görə savab qazanır. Ələlxüsus da o kəs ki, ölümünün səbəbini özü bəlli etmişdir, – İmran ibn Husaynın hədisində deyildiyi kimi:

"Zinadan hamilə qalmış bir qadın Peyğəmbərin ﷺ yanına gəlib deyir ki: "Ey Allahın elçisi, mən şəri cəzaya layiqəm, bunu icra et". O istəyir ki, Rəsulullah ﷺ ona şəri cəza tətbiq edərək onu daşqalaq etsin. Çünki həmin qadın evli idi. Peyğəmbər ﷺ də onun vəlisini çağırıb deyir ki: **"Ona yaxşı bax, uşağını dünyaya gətirdikdən sonra isə mənim yanıma gətir"**. Qadın övladını dünyaya gətirdikdən sonra onu Rəsulullahın ﷺ yanına gətirirlər. Sonra Peyğəmbər ﷺ əmr edir ki, qadın övladını süddən kəsənədək gözlə-sin. Övladı süddən kəsildikdə, qadın yenə gəlir və ona şəri cəza tətbiq olunur. Əmr olunur ki, onun paltarını bərk-bərk bağlasınlar. Belə edirlər ki, daşqalaq zamanı onun üstü açılmasın və övrət yerləri görünməsin. Onun libası deyildiyi kimi bağlandıqdan sonra Peyğəmbər ﷺ əmr edir və onu daşqalaq edirlər. Sonra da Rəsulullah ﷺ ona cənazə namazı qılır.

Bu dəlildir ki, ölüm cəzası almış adama onun əhli-beyti və vəlisi yaxşı baxmalı, onunla mülayim davranmalıdır. Çünki bu, onun halına daha mü-nasibdir. Peyğəmbər ﷺ də belə etmişdir.

Bu həm də ona dəlildir ki, zinanı etiraf edənin bunu dörd dəfə təkrar etməsi şərt deyil. Zina etmiş kəs hətta bir dəfə etiraf etsə belə, özü də ağlı başında bir adamdırsa, halı bilinməyən deyilsə, onun zinanı etiraf etməsi qəbul olunur və ona şəri cəza tətbiq olunur.

Bu həm də ona dəlildir ki, şəri cəza tətbiq edilərkən zərər davamlı olmamalıdır. Çünki qadın elə həmin vaxt daşqalaq edilsəydi, bətnindəki uşaq da tələf olacaqdı. Uşağın isə günahı yoxdur. Ona görə də Peyğəm-bər ﷺ əmr edir ki, əvvəlcə uşağı dünyaya gətirənədək, sonra da uşağı süddən kəsənədək gözləsinlər.

Bu həm də ona dəlildir ki, qadın daşqalaq edilərkən qazılmış quyuya qoyulmur. Sadəcə paltarı bərk-bərk bağlanır, sonra daşqalaq olunur.

Ölənədək vurulur – bu zaman daşlar nə böyük olmur, nə də kiçik. Zina-kara belə bir cəza ona görə verilir ki, onun haram şəhvəti bütün bədənini əhatə etmişdi. Buna görə də bütün bədəni bu ağrını hiss etməlidir. Bu da izzət və cəlal sahibi Allahın hikmətindəndir.

Bu həm də ona dəlildir ki, şəri cəza tətbiq olunduqda onun sahibi günahdan azad olmuş, təmizlənmiş olur. Buna görə də Peyğəmbər ﷺ ona cənazə namazı qıldırır, insanlar da ona cənazə namazı qılırlar. Müvəffəq edən Allahdır.

Yüz qırx doqquzuncu fəsil

Xəstənin: ağrıyıram, çox ağrıyıram, xəstəyəm, vay başım və s. bu kimi sözlər deməsinin caizliyi, dedikləri narazılıq və ağrının izhar edilməsi məqsədilə deyilmirsə, bunun məkruh olmamasının bəyanı

Mövzu ilə əlaqəli hədislər:

٩١٤ – عن ابنِ مسعودٍ ﷺ قال: دَخَلتُ عَلى النَّبِيِّ ﷺ وهُو يُوعكُ، فَمسِسْتُه، فقلْتُ: إِنَّكَ لَتُوعَكُ وعْكاً شَديداً، فقال: « أَجَلْ إِنِّي أُوَعَكُ كما يُوعكُ رَجُلانِ مِنْكُمْ » متفق عليه.

914. Rəvayət olunur ki, İbn Məsud ﷺ demişdir: "Peyğəmbərin ﷺ ağrılarının artdığı) vaxt onun yanına daxil oldum. Mən ona toxunub dedim: "Bərkmi ağrıyırsan?". Dedi: **"Bəli, mən sizlərdən iki nəfərin ağrısını hiss edirəm"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٩١٥- وعن سعدِ بن أَبي وَقَّاص ﷺ قال: جَاءَني رسولُ اللَّه ﷺ يعودُني مِن وجعٍ اشْتدَّ بي، فَقُلْتُ: بلَغَ بي ما ترى، وأَنَا ذو مَالٍ، وَلا يرِثُني إِلاَّ ابنتي. وذكر الحديث، متفقٌ عليه.

915. Rəvayət olunur ki, Səd ibn Əbu Vaqqas ﷺ demişdir: «Ağrılarım şiddətləndikdə Rəsulullah ﷺ məni ziyarət etməyə gəldi. Mən dedim: "Halım gördüyün kimidir. Özüm mal-dövlət sahibiyəm, varisim isə yalnız qızımdır..."». Sonra da hədisin davamını qeyd etdi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

٩١٦ – وعن القاسم بن محمدٍ قال: قالَتْ عائشَةُ ﷺ: وارأْسَاهُ. فقال النَّبِيُّ ﷺ: «بلْ أَنَا وارأْسَاهُ ». وذكر الحديث... رواه البخاري.

---

[1] "Səhih əl-Buxari", 5647; "Səhih Muslim", 2571.

[2] "Səhih əl-Buxari", 1295; "Səhih Muslim", 1628.

916. Rəvayət olunur ki, Qasim ibn Muhəmməd demişdir: "Aişə ﵂: "Vay başım!" dedi, Peyğəmbər ﷺ isə: **"Əslində, mənim vay başım"** dedi". Sonra hədisin davamını qeyd etdi.

Hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Hafiz ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində xəstə ilə bağlı qeyd edir ki, o, xəstəliyi və ağrıları barədə xəbər verə bilər. Bir şərtlə ki, bunu xəbər versin, şikayətlənməsin. Yəni, bunu dedikdə xəstəliyi barədə xəbər verməyi qəsd etməli, şikayət, Allahın qəza və qədərinə narazılığı qəsd etməməlidir. Sonra o İbn Məsud, Səd ibn Əbu Vaqqas və Aişədən nəql olunan hədisləri dəlil gətirmişdir ki, xəstə adam xəstəliyi, yaxud bərk ağrıları və ya başqa halı barədə xəbər verə bilər.

İbn Məsudun ﵁ hədisində deyilir ki, bir dəfə o Peyğəmbər ﷺ bərk xəstələndiyi vaxt, yəni qızdırması olduqda və vəziyyətinin də ağır olduğu bir vaxtda onun yanına daxil olur, əlini ona sürtərək deyir: "Bərkmi ağrıyırsan, ey Allahın elçisi?" Peyğəmbər ﷺ də buyurur ki: **"Bəli, mən sizlərdən iki nəfərin ağrısını hiss edirəm".** Yəni, Allah onun xəstəliyini ağır edirdi ki, ən yüksək səbir məqamına yetişsin.

Səbrin bütün növləri onda sabit olmuşdur. O, Allahın əmrinə səbir etmiş, Allaha asi olmaqdan səbir etmiş, Allahın ağrıdıcı qədərlərinə səbir etmiş, Allahın risaləsini çatdırarkən məruz qaldığı şiddətli əziyyətlərə səbir etmişdi. Hətta Allahın evi Kəbənin yanında, Məscidul-Haramın ortasında belə ona əziyyət verilmişdi. O isə buna səbir edir, bunun savabını da Allahdan umurdu.

Bir dəfə o, Taif əhlini dəvət etmək üçün ora getmiş, onları uca Allahın yoluna dəvət etmişdi. Lakin onlar ona istehza etmiş, onu lağa qoymuşdular. Ona atdıqları daş-kəsəkdən hətta dabanı qanamışdı. Yalnız Qarnus-səalib adlanan yerdə huşu özünə gəlmişdi. Sonra dağlar mələyi onun yanına gəlmiş, iki dağı onların başına uçurması üçün ondan izin istəmişdi. Peyğəmbər ﷺ isə belə demişdi: **"Xeyr, mən ümid edirəm ki, onların belindən**

[1] "Səhih əl-Buxari", 7217.

Allaha ibadət edib Ona heç bir şeyi şərik qoşmayan insanlar çıxacaqdır".[1] Bu da Allahın əmrinə səbirdir.

Peyğəmbər ﷺ Allaha asi olmaqdan da səbir etmişdir. Allahdan ən çox qorxan və təqva sahibi olan adam idi. O, Allahın qədərinə səbir etmişdi. Allah yolunda cihad edərkən çoxsaylı əziyyətlərə məruz qalmışdı. Dəfələrlə xəstəliklərə mübtəla olmuş və buna səbir etmişdi ki, bununla səbir edənlərin dərəcəsini qazansın. O, bizlər üçün bir nümunədir. İnsan, Rəsulullah ﷺ səbir etdiyi kimi, Allahın ağrıdıcı qədərlərinə səbir etməlidir – səbir etməli və bunun savabını Allahdan ummalıdır. Bilməlidir ki, onun başına gələn hər bir şeyə görə, hətta ayağına batan bir tikana görə Allah onun günahlarını bağışlayır.[2] O bunun əcrini Allahdan umsa, buna səbir etməklə niyyət etsə ki, onun dərəcələri qalxacaq, bu zaman başına gələn müsibətə görə iki böyük dərəcəyə nail olacaq:

Birincisi, Allahın qəza və qədərinə səbir edənlərin mərtəbəsi;

İkincisi, savabını Allahdan ummaqla dərəcəsinin qalxması və bunun savabı.

Səd ibn Əbu Vaqqasın رضي الله عنه hədisinə gəlincə, o, Məkkədə xəstələnmişdi, özü də mühacirlərdən idi. Mühacirlərdən heç biri oradan hicrət etdiyi şəhərdə ölmək istəmirdi. Çünki o, həmin şəhəri Allah üçün tərk etmişdi, ona görə də orada ölmək istəmirdi. Peyğəmbərin ﷺ adətindən, gözəl rəhbərliyi və əxlaqından idi ki, səhabələrindən birisi xəstələndikdə onu ziyarət edərdi. Beləcə Sədi də ziyarət edir. Səd ona deyir: "Ey Allahın elçisi, mən ağrıyıram", yəni ağrılarım şiddətlidir, "varisim isə yalnız qızımdır", yəni zürriyyətimdən mənə varis çıxacaq kəs yalnız qızımdır. "Malımın üçdə ikisini sədəqə verə bilərəmmi?" Dedi: "Xeyr". Dedi: "Bəs yarısını?" Dedi: "Xeyr". Dedi: "Bəs üçdə birini?" Dedi: **"Üçdə birini olar, lakin o da çoxdur. Şübhəsiz ki, sənin öz varislərini zəngin buraxmağın onları yoxsul, insanlara möhtac buraxmağından daha xeyirlidir".**[3]

Təəccüblüdür ki, günümüzdə və daha əvvəllər insanlar mallarının üçdə birini vəsiyyət edirlər. Halbuki Peyğəmbər ﷺ: "Üçdə biri çoxdur" demişdir. Bu da ona dəlalət edir ki, o, insanların üçdəbir miqdarında vəsiyyət

[1] "Səhih əl-Buxari", 3231; "Səhih Muslim", 1795.

[2] "Səhih əl-Buxari", 5640; "Səhih Muslim", 2572.

[3] "Səhih əl-Buxari", 1295; "Səhih Muslim", 1628.

etməsinə razılıq versə də, onların bunu adət etmələrinin tərəfdarı deyildi. İnsanlar isə vəsiyyət edərkən mallarının üçdə birini vəsiyyət edirlər.

Buna görə də Peyğəmbərin ﷺ dua edərək onu dini baxımdan alim etməsini və ona təfsiri öyrətməsini dilədiyi, ümmətin alimi (ibn Abbas) demişdir: "İnsanlar üçdə biri dörddə birlə əvəz etsəydilər, daha yaxşı olardı. Çünki Peyğəmbər ﷺ: **"Üçdə birini olar, lakin o da çoxdur"** demişdir". İnsanlar isə günümüzdə deyirlər ki, mənə üçdə birini yaz, mənə üçdə birini ayır, yaxud da buna bənzər başqa sözlər deyirlər. Bu isə Peyğəmbərin ﷺ bəyəndiyi bir iş deyil.

Üçdə biri dörddə birlə, yaxud dörddə biri beşdə birlə əvəz etmək daha yaxşı olar. Çünki bu ümmətin ən böyük alimlərindən biri, Peyğəmbərdən ﷺ sonra ümmətin ilk xəlifəsi olan Əbu Bəkr رضي الله عنه beşdə birini vəsiyyət etmiş və demişdir: "Allahın razı olduğundan mən də razıyam".[1] Belə ki, Uca Allah buyurur: **"Əgər siz Allaha və *haqla batilin* ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün qulumuza nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun Elçisinə, onun əqrəbasına, yetimlərə, kasıblara və müsafirlərə məxsusdur. Allah hər şeyə qadirdir".[2]**

Bununla belə, yenə də görürük ki, üçdə biri vəsiyyət edənlər bunu şəriətə uyğun etmirlər. Bəzən fəzilətli olmayan şeylərlə və ya digər yollarla vəsiyyət edirlər. Halbuki bunu onların etdiklərindən fərqli olanla vəsiyyət etmək daha əfzəl olardı. Məsələn, bəzən vəsiyyətdə oğlanlara vəsiyyət edilir, qızlar isə qeyd olunmur. Yaxud elə bir şəkildə vəsiyyət edilir ki, bu, gələcəkdə vərəsələr arasında mübahisələrə səbəb olur. İnsanlar vəsiyyət etdikdə ümumi faydası olan şeyləri istəsəydilər, daha yaxşı olardı. Məsələn, məscid inşa etmək, məktəb tikdirmək, faydalı kitablar almaq və ya buna bənzər başqa məsələlər. Bunları dərhal həyata keçirmək mümkündür, savabı da davamlı olur. Bunu etməsi övladlarının arasında mübahisələrə səbəb ola biləcək şəkildə vəsiyyət etməsindən, yaxud zürriyyətinə bir günlük [zövq verəcək] nə isə vəsiyyət etməsindən daha yaxşıdır. Hətta olur ki, vəsiyyət edərkən qızlarını da unudur. Bunun kimi adətə çevrilmiş bir sıra məsələlər vardır. Adi insanlar da, əfsuslar olsun ki, kimsə vəsiyyət

[1] "əl-Muğni. Vəsiyyətlər kitabı", 6/57.

[2] "əl-Ənfal" surəsi, 41.

etmək istədikdə, kimisə çağırıb deyirlər ki, "Yaz! Malımın üçdə birini vəsiyyət edirəm...". Beləcə, insanların adət etdiklərini edir, ancaq onların yazdığı vəsiyyətin şəri qaydalara uyğun olub-olmamasını düşünmürlər.

Gərək vəsiyyət yazan elm əhli dində elmli olsun ki, insanları daha əfzəl olana istiqamətləndirsin. Çünki avam birisi gəlib sənə dedikdə ki, məsələn, "vəsiyyətimi yaz", sənə etibar etmiş olur. İnsanların razılığını qazanmaq xatirinə kortəbii şəkildə fəzilətli olmayan bir şeyi yazmaq isə səhvdir. İnsanları onlara həm dünyada, həm də axirətdə fayda verəcək şeylərə yönəldin. Hətta bu iş onların adətlərinə müxalif olsa da, belə edin. Bu yazıq avam da yalnız xeyirli iş görmək istəyib. Onlar sənin yanına gəlib deyirlər ki, "yaz ki, üçdə bir!" İnsanlar üçün onlara onların məzarlarında və dirildikdən sonra daha yaxşı və faydalı olanları yaz.

Üçüncü hədisdə isə rəvayət olunur ki, Aişə رضي الله عنها demişdir: "Ey Allahın elçisi, vay başım!" O, başının bərk ağrımasından şikayətlənirdi. Peyğəmbər ﷺ də dedi: **"Əslində, mənim vay başım!"** Burada iki sünnə cəm olunmuşdur: təsdiq və söz. Təsdiqə gəlincə, o, Aişənin: "Vay başım" deyərək başının ağrısından şikayətlənməsini təsdiqləmişdi. Sözə gəlincə isə, onun özü demişdir ki: **"Vay başım"**. Buna əsasən də insanın: "vay başım, vay əlim, vay ayağım, vay qarnım", yaxud buna bənzər başqa bir söz deməsində bir qəbahət yoxdur. Bir şərtlə ki, bu zaman məqsədi Xaliqdən məxluqa şikayət etmək olmasın, yaxud da Allahın ona yazdığı qədərdən şikayətlənməsin. Əgər bu, sadəcə xəbərdirsə, bunu etmək olar. Ələlxüsus da əgər bunu müaicə almaq istədiyi adamın yanında deyərsə, bu icazəlidir. Misal üçün, həkim soruşanda ki, "nədən şikayətlənirsən?", deyir ki: başımdan, qarnımdan, sinəmdən, belimdən və ya başqa bir yerimdən şikayətlənirəm. Bu, olar, çünki bu sadəcə xəbər verməkdir və nə etiraz, nə də ki, Allahın qədərindən şikayətlənmək deyil.

Uca Allahdan bizə və sizə hər bir dərddən şəfa diləyirəm. Bunu bizlər üçün Ona itaət etməyimizdə bir qüvvət etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

Yüz əllinci fəsil

Ölüm anında olan kəsə “la ilahə illəllah”ı təlqin etmək

Mövzu ilə əlaqəli hədislər:

٩١٧ – عن معاذٍ ﷺ قالَ: قال رسُولُ اللَّهِ ﷺ: « منْ كَانَ آخِرَ كلاَمِهِ لا إِلهَ إِلاَّ اللَّه دَخَلَ الجنَّةَ » رواه أبو داود والحاكم وقال: صحيح الإِسناد.

917. Rəvayət olunur ki, Müaz ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **“Kimin son sözü “la ilahə illəllah” olarsa, Cənnətə daxil olar”**».

Hədisi Əbu Davud və əl-Hakim rəvayət etmiş, əl-Hakim: “İsnadı səhihdir”– demişdir.[1]

٩١٨ – وعن أَبي سعيد الخُدْرِيِّ ﷺ قال: قال رسُولُ اللَّه ﷺ: « لَقِّنُوا موْتَاكُمْ لا إِله إِلاَّ اللَّهُ » رواه مسلم.

918. Rəvayət olunur ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: “Rəsulullah ﷺ demişdir: **“Ölüm ayağında olanlarınıza “la ilahə illəllah”ı təlqin edin”**.

Hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Müəllif ən-Nəvəvi ﷺ “Salehlər bağçası” əsərində **“Ölüm anında olan kəsə “la ilahə illəllah”ı təlqin etmək”** başlıqlı fəsil qeyd edir.

Ölüm anında olan kəs o kəsdir ki, mələklər onun ruhunu almaq üçün gəliblər. Nöqsansız və uca Allah insanı həyatda da, ölümdən sonra da qoruyan mələklər ayırmışdır. Uca Allah buyurur: **“İnsanı həm önündən, həm də arxasından daim təqib edən mələklər vardır. Onlar Allahın əmri ilə onu qoruyurlar”.**[3] O həmçinin buyurur: **“Nəhayət, sizlərdən birinə ölüm**

---

[1] “Musnəd İmam Əhməd”, 5/233; “Sunən Əbu Davud”, 3116; “Mustədrək əl-Hakim”, 1/503.

[2] “Səhih Muslim”, 916.

[3] “ər-Rad” surəsi, 11.

gəldiyi zaman elçilərimiz *mələklər* onun canını alır və *bu işə* etinasız yanaşmırlar”.[1]

İnsanın əcəli çatdıqda yanına iki mələk gəlir ki, onun ruhunu ölüm mələyinin əlindən təhvil alsınlar – ölüm mələyi onun ruhunu bədəndən alır. Mələklərin isə Cənnətdən olan kəfəni və ətiri olur. Əgər ölən adam möminlərdəndirsə, o onlara təhvil verilər. Allah bizləri və sizi onlardan etsin! Ölən kəs kafirlərdən olarsa, əzab mələkləri ona Cəhənnəmdən kəfən və pis qoxuyan ətir gətirər. Allaha sığınırıq!

İnsan ölüm anında olarkən, biz bilsək ki, o ölmək üzrədir, ona Əbu Səid əl-Xudrinin hədisində deyildiyi kimi, la ilahə illəllahı təlqin edirik. Ondan rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Ölülərinizə “la ilahə illəllah”ı təlqin edin”**.

Alimlər demişlər: Təlqin ona mülayim şəkildə edilir. Ona amiranə tərzdə: “la ilahə illəllah de!” deyilməməlidir. Çünki ona həmin anda, onun belə vəziyyətində, sinəsinin daraldığı bir vaxtda: “la ilahə illəllah de!” əmr olunarsa, ola bilsin ki, “yox!” desin. Çünki sən həmin halı yaşamayınca, onun sinəsinin nə cür daraldığını anlaya bilməzsən. – Allahdan diləyirəm ki, Onunla görüşdüyümüz an qəlblərimizi genişlətsin. – Ona sadəcə bunu xatırlatmaq üçün uca səslə “la ilahə illəllah” deyirsən. Əgər o, “la ilahə illəllah” deyər və bu onun son sözləri olarsa, Müazın hədisində deyildiyi kimi, Cənnətə daxil olar. Ondan rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **“Kimin [dünyadakı] son sözü “la ilahə illəllah” olarsa, Cənnətə daxil olar”**.

Elm əhli demişdir: “La ilahə illəllah” dedikdən sonra susmaq və ona başqa şey təlqin etməmək lazımdır. Əgər adam özü nə isə danışarsa, misal üçün, deyərsə ki, mənə su verin, su gətirin, yaxud başqa bir şey söyləyərsə, təlqini yeniləməlidir. Yenə “la ilahə illəllah” deyərək ona xatırladılmalıdır ki, onun dünyadakı son sözü bu olsun. Yox, əgər adam, Allah qorusun, kafir və ya mürtəddirsə, ona əmr edərək deyirik ki, “la ilahə illəllah” de. Çünki o, kafirdir. Əgər Allah ona lütf etsə və o, “la ilahə illəllah” deyərsə, tələb olunan elə budur. Əgər deməzsə, kafir kimi də qalar. Buna görə də Peyğəmbərin ﷺ əmisi Əbu Talib ölüm anında ikən belə edilmişdi.

---

[1] “əl-Ənam” surəsi, 61.

Ümumiyyətlə, Peyğəmbərin ﷺ risalətinə (missiyasına) şahid olmuş əmiləri dörddür: Həmzə, Abbas, Əbu Talib və Əbu Ləhəb. Onlardan iman üzərində ölmüş biri digərindən daha əfzəldir. Belə ki, Həmzə Abbasdan daha əfzəldir. Digər ikisi isə, Allah qorusun, küfr üzərində ölmüşdür. Onlardan da birinin küfrü digərindən daha betər olmuşdur. Onlar Əlinin atası Əbu Talib və Əbu Ləhəbdir. Əbu Ləhəb Rəsulullaha ﷺ ən çox əziyyət verən kəslərdən idi. Buna görə də Allah onunla bağlı tam bir surə nazil etmiş, insanlar da həmin surəni fərz və nafilə namazlarında oxuyurlar: **"Əbu Ləhəbin əlləri qurusun, qurudu da! Nə var-dövləti, nə də qazandıqları onu qurtara bilməyəcək. O, alovlanan oda atılacaq. Onun odun şələsi daşıyan arvadı da. Arvadının boynunda xurma liflərindən kəndir olacaq".**[1]

Peyğəmbərin ﷺ digər əmisi Əbu Talib isə kafir olmasına rəğmən Rəsulullahı sevir, onunla yaxşı davranır, onu tərifləyir və müdafiə edirdi. Ancaq, Allah qorusun, İslamı qəbul etməmişdi. Əbu Talib vəfat edərkən Peyğəmbər ﷺ də onun yanında idi. Bu zaman onun yanında qureyşdən iki nəfər də var idi. Rəsulullah ona: **"Əmican, la ilahə illəllah" de ki, Allah yanında sənə şəfaətçi olum"**.[2] Lakin yanındakı digər iki nəfər pis insan ona dedilər ki, Əbdül-Muttalibin millətindən üzmü çevirəcəksən? Sanki onlar, daha doğrusunu Allah bilir, onun "la ilahə illəllah" demək istədiyini hiss etdilər. Ona bir də dedilər ki, Əbdul-Muttalibin millətindən üzmü çevirəcəksən? Onlar bu sözləri dedikdə, qüruru onu günaha sövq etdi və o, Əbdül-Muttalibin milləti üzərində qaldığını dedi. Beləcə, onun son sözü şirk kəlməsi oldu, bu halda da öldü. Allah qorusun! Peyğəmbər ﷺ dedi: **"O (Peyğəmbər), Allah yanında ona şəfaətçi oldu və Allah onun əzabını yüngülləşdirdi. O, Cəhənnəmdə közlü bir yerdə idi, ayaqlarında oddan iki səndəl var idi – onunla beyni qaynayırdı".** Allah qorusun.

Beyin ayaqdan ən uzaqda olan orqandır. Su qazanda qaynadığı kimi, onun da beyni qaynayırdı. Elə isə, beyindən daha yaxında olan orqanların halı necə olacaq? – Daha şiddətli olacaq. Peyğəmbər ﷺ demişdir: **"Əgər mən *şəfaətçi* olmasaydım, o Cəhənnəmin ən alt təbəqəsində olardı"**.[3]

---

[1] "əl-Məsəd" surəsi.

[2] "Səhih əl-Buxari", 1360; "Səhih Muslim", 24.

[3] "Səhih əl-Buxari", 3883; "Səhih Muslim", 209.

Burada əsas məqam Peyğəmbərin ﷺ ona: **“Əmican, “la ilahə illəllah” de!”** deməsidir. Onun yanında Allahı zikr etməmiş, demişdi ki, “əmican, la ilahə illəllah” de. Bu da insan üçün ən böyük hədiyyə və ən əfzəl olan bir şeydir ki, insan öz qardaşına ölüm anında “la ilahə illəllah” sözlərini təlqin etsin. Bu, dünyalara dəyər. Əcəli çatmış birisinin yanına gəldikdə, ona “la ilahə illəllah”ı təlqin etməyə çalış. Bu həm Peyğəmbərin ﷺ əmrinə uyğundur, həm də həmin adama gözəl bir hədiyyə olar. Ola bilsin, nöqsansız və uca Allah buna görə sənə ölüm anında “la ilahə illəllah”ı təlqin etsin. Belə ki, Peyğəmbər ﷺ demişdir: **“İnsan öz qardaşına yardım etdiyi müddətdə Allah da ona yardımçı olar”.**[1] Allah bizlərə və sizə şəhidlik nəsib etsin.

[1] “Səhih Muslim”, 2699.

Yüz əlli birinci fəsil

Meyitin gözlərini bağladıqda nə deyilir

Mövzu ilə əlaqəli hədis:

٩١٩ – عن أُمِّ سَلمةَ ﵂ قالت: دَخَلَ رسُولُ اللَّهِ ﷺ على أَبي سلَمة وَقَدْ شَقَّ بصَرُهُ، فأَغْمضَهُ، ثُمَّ قَال: « إِنَّ الرُّوح إِذا قُبِضَ، تبِعَه الْبصَرُ » فَضَجَّ نَاسٌ مِنْ أَهْلِهِ فقال: « لا تَدْعُوا عَلى أَنْفُسِكُم إِلاَّ بِخَيْرٍ، فإِنَّ المَلائِكَةَ يُؤَمِّنُون عَلى ما تَقُولونَ » ثمَّ قالَ: « اللَّهُمَّ اغْفِر لأبي سَلَمَة، وَارْفَعْ درَجَتهُ في المَهْدِيِّينَ، وَاخْلُفْهُ في عَقِبِهِ في الْغَابِرِين، واغْفِرْ لَنَا ولَه يَاربَّ الْعَالَمِينَ، وَافْسحْ لَهُ في قَبْرِهِ، وَنَوِّرْ لَهُ فيه » رواه مسلم.

919. Rəvayət olunur ki, Ummu Sələmə ﵂ demişdir: "Əbu Sələmənin gözləri bərələ qalmış ikən Rəsulullah ﷺ onun yanına daxil oldu və onları qapadı, sonra dedi: **"Həqiqətən, ruh çıxdıqda gözlər onu təqib edir"**. Bu zaman onun ailəsi səs-küy saldı. Peyğəmbər ﷺ dedi: **"Özünüz üçün yalnız xeyir istəyin. Şübhəsiz ki, mələklər sizin dediklərinizə: "Amin" deyirlər".** Sonra dedi: **"Allahım, Əbu Sələməni bağışla, onun Cənnətdəki dərəcəsini yüksəlt, ondan sonra ailəsinə yardımçı ol! Ey aləmlərin Rəbbi, bizləri və onu bağışla, onun məzarını genişlət və oranı nurlandır!"**

Hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Hafiz ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində **"Meyitin gözlərini bağladıqda nə deyilir"** fəslini qeyd etmişdir. İnsan təzə ölmüş birisinin yanına gəldikdə adətən onu gözləri açıq görür. Gözlər ruhun çıxmasını görəcək dərəcədə açıq olur. Çünki ruh bədəndən çıxdıqda cism şəklində olur. Lakin həmin cismi insanlar görmür. Onu yalnız meyitin özü görə bilir. Həmçinin mələklər də onu görüb götürür.

[1] "Səhih Muslim", 920.

Peyğəmbər ﷺ Əbu Sələmənin yanına daxil olur. Xəstələri ziyarət etmək Peyğəmbərin ﷺ adəti idi. Daxil olub görür ki, Əbu Sələmənin gözləri bərələ qalıb. Yəni, geniş şəkildə açıq qalıb. Peyğəmbər ﷺ onun vəfat etdiyini anlayır və deyir: **"Həqiqətən, ruh çıxdıqda gözlər onu təqib edir".** Onun ev əhli Peyğəmbərin ﷺ bu sözlərini eşitdikdə təşvişə düşürlər. Yəni bilirlər ki, adam artıq ölüb və adi insanların etdiyi kimi, ağlayıb səs-küy salırlar.

Cahiliyyə dövründə buna bənzər hal baş verdikdə ölü yiyələri, Allah qorusun, özlərinə bəddua edər və: "vay mənim halıma, mən bitdim, belim qırıldı" və s. buna bənzər sözlər deyərdilər.

Peyğəmbər ﷺ də: **"Özünüz üçün yalnız xeyir istəyin. Şübhəsiz ki, mələklər sizin dediklərinizə: "Amin" deyirlər"–** buyurur**.** Bu halda insan özü üçün yalnız xeyirli şeylər dua etməli və Peyğəmbərin buyurduqlarını deməlidir: **"Allahım, bu müsibətimdə mənə əcr ver və ondan daha xeyirlisini mənə nəsib et".**[1] Bundan əvvəl isə deməlidir ki: "Biz Allahdanıq və dönüşümüz də Onadır". Çünki hər bir müsibət anında: "Biz Allahdanıq və dönüşümüz də Onadır" deməlisən. Ölüm müsibətində isə həm də belə deyirsən: "Allahım, bu müsibətimdə mənə əcr ver və ondan daha xeyirlisini mənə nəsib et". Bu zaman başqa dualar da edə bilərsən.

Bir zaman Peyğəmbər ﷺ bu sözləri dedikdə Əbu Sələmənin zövcəsi Ummu Sələmə də bunu eşitmişdi. Əri vəfat etdikdə o, bu duanı edir. Ummu Sələmə ərini çox sevirdi. Öz-özünə deyir ki, "Əbu Sələmədən daha yaxşı kim ola bilər?" Düşünür ki, Əbu Sələmədən daha xeyirli bir adam kim ola bilər ki. Çünki o, buna (Peyğəmbərin sözlərinin haqq olduğuna) inanırdı. Çox keçmir və onun gözləmə müddəti bitdikdə Rəsulullah ﷺ ona elçi düşür. O isə, təbii ki, Əbu Sələmədən daha xeyirli birisi idi.

Xülasə, Rəsulullah ﷺ onun, yəni Əbu Sələmənin açıq gözlərini qapadı, sonra onun üçün dua edib dedi: **"Allahım, Əbu Sələməni bağışla, onun Cənnətdəki dərəcəsini yüksəlt, məzarını genişləndir və nurlandır, ondan sonra ailəsinə yardımçı ol!"**. Bu beş dilək bütün dünyaya bərabərdir:

"Allahım, Əbu Sələməni bağışla", yəni onun günahlarını bağışla, onlara görə onu cəzalandırma, günahlarını əfv et.

[1] "Səhih Muslim", 918.

"Onun Cənnətdəki dərəcəsini yüksəlt". Çünki Cənnət əhli hidayətə yetişənlərdir, onların hamısı hidayət olunmuşlardır.

"Onun məzarını genişləndir", yəni məzarını böyüt. Çünki məzar, dünyadakı mənzillərlə müqayisədə dardır. Lakin mömin üçün onun məzarı gözün görə biləcəyi məsafəyə qədər genişləndirilir və Cənnət bağçalarından birinə çevrilir.

"Məzarını nurlandır". Məzar qaranlıq olur və orada hansısa bir işıq – nə günəş işığı, nə çılçıraq, nə də başqa bir növ işıq olmur.

"Ondan sonra ailəsinə yardımçı ol". Yəni, onun zürriyyətinə yardım et.

Bu beş istəkdən bəzi şeyləri bildik, bəzilərini də dilədik. Bildik ki, nöqsansız və uca Allah onun ailəsinə yardım etdi. Belə ki, onun zövcəsi Peyğəmbərə ﷺ ərə gedir, övladları da Peyğəmbərin evində, onun yanında tərbiyə alırlar. Digər dörd duaya gəlincə isə nöqsansız və uca Allahdan istəyirəm ki, bu əməlisaleh adamla bağlı onları qəbul etsin.

Bu hədisdən çıxan bəzi faydalar bunlardır:

Birinci fayda. İnsan, başına bir müsibət gəldikdə, özü üçün yalnız xeyirli dualar etməlidir.

İkinci fayda. Meyitin yanına gələn adam görsə ki, artıq adamın ruhu bədənindən çıxıb, gözləri isə açıqdır, bədəni soyumamış onun gözlərini qapamalıdır. Çünki onun bədəni soyuduqdan sonra gözləri bağlanmır. Ona görə də bədəni isti ikən gözlərini bağlayır. Alimlər demişlər ki, ruh çıxmış bədən tam soyumamış ölmüş adamın oynaqlarını da yumşaldıb düzəltmək lazımdır – dirsəkləri sinəyə doğru gətirib yerinə qaytarmalı və qolları düz uzatmalıdır. Həmçinin dizləri də qarına doğru qaldırıb, sonra uzatmaq və bunu bir neçə dəfə təkrar etmək lazımdır ki, yumşalsın. Bu zaman onun yuyulub-kəfənlənməsi də asan olur.

Üçüncü fayda. Hədisdən alınan başqa bir fayda budur ki, ruh bir cisimdir və onu görmək mümkündür. Lakin o, bizim gördüyümüz cisimlərə bənzəmir. Biz bildiyimiz cisimlərin təbiəti möhkəmdir. Ruh isə möhkəm cisim deyil, o, yumşaq, axıcı cisimdir – o, Adəm oğlunun bədənində qan kimi axır. Ruh palçıqdan yaranmayıb, onun yarandığı maddəni yalnız

Allah bilir. Uca Allah buyurur: «**"Səndən ruh haqqında soruşurlar. De: "Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir"**».[1]

Dördüncü fayda. Meyitin yanına gəlib onun gözlərini bağlayan kəs onun üçün dua etməlidir. Əgər Peyğəmbərin ﷺ Əbu Sələmə üçün etdiyi əzəmətli duaları edərsə, daha xeyirli olar. Əgər həmin duaları bilmirsə, bildiyini oxuyur.

Beşinci fayda. Mələklər bu halda meyit yiyələrinin dualarına: "Amin" deyirlər. Bu səbəbdən meyit yiyələri gərək xeyirli dualar etsinlər.

Müvəffəq edən Allahdır.

[1] "əl-İsra" surəsi, 85.

Yüz əlli ikinci fəsil

Meyitin yanında nə deyilir, həmçinin bir kimsəsi ölən adam nə deməlidir

Mövzu ilə əlaqəli hədislər:

٩٢٠ – عن أُمِّ سلَمَةَ ﵂ قالت: قالَ رسُولُ اللَّهِ ﷺ: « إذا حَضرْتُمُ المرِيضَ، أَوِ المَيِّتَ، فَقُولُوا خيْراً، فَإِنَّ الملائِكَةَ يُؤَمِّنونَ عَلى ما تقُولُونَ، قالت: فلمَّا مَاتَ أَبُو سَلَمَة، أَتَيْتُ النَّبِيَّ ﷺ فَقُلْتُ: يا رسُولَ اللَّه، إِنَّ أبا سلَمَة قَدْ مَاتَ، قالَ: «قُولِي: اللَّهُمَّ اغْفِرْ لي وَلَهُ، وَأَعْقِبْني مِنْهُ عُقبى حسنةً » فقلتُ: فأَعْقَبني اللَّهُ منْ هُوَ خَيْرٌ لي مِنْهُ: مُحمَّداً ﷺ. رواه مسلم هكذا: « إِذا حَضَرْتُمُ المَرِيضَ » أَو « المَيِّت »على الشَّكِّ، رواه أبو داود وغيره:« المَيِّت»بلا شَكٍّ.

920. Rəvayət olunur ki, Ummu Sələmə ﵂ demişdir: "Rəsulullah ﷺ demişdir: **"Xəstənin, yaxud meyitin yanına gəldikdə, xeyirli söz söyləyin. Şübhəsiz ki, mələklər sizin dediklərinizə: "Amin" deyirlər"**. Ummu Sələmə deyir ki, Əbu Sələmə vəfat etdikdə mən Peyğəmbərin ﷺ yanına gəlib dedim: "Ey Allahın elçisi, Əbu Sələmə vəfat etmişdir". O dedi: **"De ki, Allahım, onu bağışla, ondan sonra mənə gözəl aqibət nəsib et".** Mən dedim, Allah da mənə ondan sonra gözəl aqibət – Muhəmmədi verdi".

Hədis Muslimdə belə rəvayət olunub: "Xəstənin, yaxud meyitin yanına gəldiyinizdə" – burada hansının olmasında şəkk edilir.[1]

Əbu Davudun və başqalarının rəvayətində isə şəksizdir: "meyitin".[2]

٩٢١ – وعنها قالت: سمعتُ رسول اللَّهِ ﷺ يقول: « مَا مِنْ عبدٍ تُصِيبُهُ مُصِيبَةٌ، فيقولُ: إِنَّا للَّهِ وَإِنَّا إِليهِ رَاجِعُونَ: اللَّهمَّ أجرني في مُصِيبَتي، وَاخْلُف لي خَيْراً مِنْهَا، إِلاَّ أَجَرَهُ اللَّهُ تعَالى في مُصِيبتِهِ وَأَخْلَف له خَيْراً مِنْهَا. قالت: فَلَمَّا تُوُفِّيَ أَبُو سَلَمَة، قلتُ كما أَمَرني رسولُ اللَّهِ ﷺ فَأَخْلَفَ اللَّهُ لي خَيْراً منْهُ رسولَ اللَّهِ ﷺ. رواه مسلم.

---

[1] "Səhih Muslim", 919.

[2] "Musnəd İmam Əhməd", 6/291, 306; "Sunən Əbu Davud", 3115; "Sunən ət-Tirmizi", 977; "Sunən ən-Nəsai", 1825; "Sunən İbn Macə", 1447.

921. Yenə ondan rəvayət olunur ki, o demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Hər hansı bir möminə müsibət üz verdikdə: "Həqiqətən, biz Allahdanıq, dönüşümüz də Onadır. Allahım, bu müsibətimdə mənə səbir ver və ondan daha xeyirlisini mənə nəsib et!"– deyərsə, Uca Allah onun bu müsibətində ona əcr verər və ona daha xeyirlisini nəsib edər".** [Ummu Sələmə] deyir ki, Əbu Sələmə vəfat etdikdə, mən Rəsulullahın ﷺ mənə əmr etdiyi kimi dedim, Allah da mənə ondan daha xeyirlisini – Rəsulullahı ﷺ nəsib etdi".

Hədisi Muslim rəvayət etmişdir.[1]

٩٢٢ – وعن أَبي موسى رضي الله عنه أَنَّ رسولَ اللَّهِ ﷺ قال: « إِذا ماتَ وَلَدُ العبْدِ قال اللَّهُ تعالى لملائِكَتِهِ: قَبضْتُم وَلَدَ عَبْدِي؟ فيقولُونَ: نعَم، فيقولُ: قَبَضتُم ثمَرَةَ فُؤَادِهِ؟ فيقولونَ: نَعم. فَيَقُولُ: فَمَاذَا قال عبْدِي؟ فيقُولُونَ: حمِدكَ واسْتَرْجعَ، فيقولُ اللَّهُ تعالى: ابْنُوا لعبدِي بَيتاً في الجَنَّة، وَسَمُّوهُ بيتَ الحمدِ» رواه الترمذي وقال: حديث حسن.

922. Əbu Musadan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Qulun övladı öldükdə Uca Allah mələklərə deyər: "Qulumun övladının canını almısınız?" Deyirlər: "Bəli". Buyurur: "Onun ürəyinin meyvəsini dərmisiniz?" Deyirlər: "Bəli". Buyurur: "Bəs qulum nə dedi?" Deyirlər: "Sənə həmd etdi və istirca etdi". Onda uca Allah buyurur: "Cənnətdə qulum üçün bir ev tikin və onu həmd evi adandırın".**

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[2]

٩٢٣ – وعن أَبي هُريرةَ رضي الله عنه أَنَّ رسولَ اللَّهِ ﷺ قال: يقُولُ اللَّهُ تعالى: ما لعَبْدِي المؤْمِن عِنْدي جزَاءٌ إِذا قَبَضْتُ صَفيَّه مِنْ أَهْلِ الدُّنْيَا، ثُمَّ احْتَسَبهُ، إِلاَّ الجَنَّةَ » رواه البخاري.

923. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: «**Uca Allah buyurur: "Mömin bəndəmin dünyadakı əzizini əlindən alsam, o da buna səbir edib savabını məndən umsa, onu Cənnətlə mükafatlandıraram"**».

Hədisi Buxari rəvayət etmişdir.[3]

---

[1] "Səhih Muslim", 918.

[2] "Musnəd İmam Əhməd", 1/69, 4/415; "Sunən ət-Tirmizi", 1021.

[3] "Səhih əl-Buxari", 6424.

٩٢٤ – وعن أُسامةَ بنِ زيدٍ رضي الله عنهما قال: أَرْسَلَتْ إِحْدى بَناتِ النبي ﷺ إِلَيهِ تَدْعُوهُ وتُخْبِرُهُ أَنَّ صبيًّا لهَا أَوْ ابْناً في المَوتِ فقال للرَّسول: « ارْجِعْ إِلَيْهَا، فَأَخْبِرْهَا أَنَّ للهِ تعالى مَا أَخذَ ولَهُ ما أعطى، وَكُلُّ شَيْء عِنْدَهُ بِأَجَلٍ مُسَمًّى، فَمُرْهَا، فلْتَصْبِرْ ولْتَحْتَسِبْ » وذكر تمام الحديث، متفقٌ عليه.

924. Rəvayət olunur ki, Usamə bin Zeyd رضي الله عنهما demişdir: "Peyğəmbərin ﷺ qızlarından biri məni Peyğəmbərin ﷺ yanına göndərdi ki, onu çağırsın, ona xəbər versin ki, onun övladı və ya oğlu ölüm ayağındadır. Rəsulullah ﷺ mənə dedi: **"Onun yanına qayıt və ona xəbər ver ki, Uca Allah verdiyini verir, aldığını da alır. Onun yanında hər bir şeyin bir müddəti vardır. Ona əmr et ki, səbir etsin, əvəzini də Allahdan umsun"**. Sonra ravi hədisin tamamını qeyd edir.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ən-Nəvəvi رحمه الله qeyd olunan bu hədisləri "Salehlər bağçası" əsərinin **"Meyitin yanında nə deyilir, həmçinin bir kimsəsi ölən adam nə deməlidir"** başlıqlı fəsildə qeyd edir. Yəni, adamın bir kimsəsi öldükdə nə deməlidir.

Bu fəslin əvvəlində keçən iki hədisi qeyd edərkən dedik ki, onlar Ummu Sələmədən رضي الله عنها rəvayət olunur. Belə ki, onun əri öldükdə o: "Həqiqətən, biz Allahdanıq, dönüşümüz də Onadır. Allahım, bu müsibətimdə mənə səbir ver və ondan daha xeyirlisini mənə nəsib et!" dedi, Allah da ona Muhəmmədi nəsib etdi.

Digər üç hədisə gəlincə isə, onlar övladı ölən kəs barəsindədir. Kim bu vaxt Allaha həmd edib istirca edər və səbir edərsə, nöqsansız və uca Allah onun əvəzində ona Cənnət nəsib edir. Necə ki, bu, hədisdə keçir:

"Qulun övladı öldükdə Uca Allah mələklərə deyər: "Qulumun övladının canını almısınız?" Deyirlər: "Bəli". İzzət və cəlal sahibi Allah bilir ki, onlar onun övladının canını alıblar. Ancaq O belə deməklə həmin

[1] "Səhih əl-Buxari", 1284; "Səhih Muslim", 923.

qulun fəzilətini üzə çıxarır. Çünki o, Allaha həmd etmiş, bu böyük müsibətin qarşısında istirca etmişdir.

"[Allah] buyurur: "Onun ürəyinin meyvəsini dərmisiniz?" Deyirlər: "Bəli". O buyurur: "Bəs qulum nə dedi?" Deyirlər: "Sənə həmd etdi və istirca etdi". Yəni, "əlhəmdulilləh, innə lilləhi və innə ileyhi raciun" dedi.

Müsibət anında həmd etmək insanın Allahın qəza və qədəri qarşısında necə səbir etməsini göstərir. Göstərir ki, o, səbir edir, bu müsibətə görə belə Allaha sənа edir. Peyğəmbər ﷺ xoşlamadığı bir işlə üzləşdikdə deyərdi: **"Hər bir halda Allaha həmd olsun!".**[1] Xoşladığı bir şey baş verdikdə isə deyərdi: **"Neməti ilə saleh əməlləri tamamlayan Allaha həmd olsun"**.[2] Elə isə, sən də xoşuna gəlməyən bir iş baş verdikdə: "Hər bir halda Allaha həmd olsun!" de.

Yenə nöqsansız və uca Allah, peyğəmbərinin ﷺ xəbər verdiyi kimi, buyurur: **"Mömin bəndəmin dünyadakı əzizini əlindən alsam, o da buna səbir edib savabını məndən umsa, onu Cənnətlə mükafatlandıraram".**

Buxarinin ﷺ nəql etdiyi başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: **«Uca Allah buyurur: "Mömin bəndəmin sevimlisi öldükdə o, buna səbir edərək savabını Allahdan umarsa, bunun mükafatı yalnız Cənnət olar"».** "Sevimlisini", yəni sevdiyi övladı və ya həyat yoldaşını, yaxud başqasını Allah öldürərsə, o da buna səbir edərsə, buna görə Cənnəti qazanar.

Digər bir hekayə isə Peyğəmbərin ﷺ qızlarından biri haqqındadır. Onun övladı (və ya oğlu) ölüm ayağında ikən o, Peyğəmbərin ﷺ yanına adam göndərir ki, onu çağırsın. Peyğəmbər ﷺ də ona belə deyir: **"Onun yanına qayıt və ona xəbər ver ki, Uca Allah verdiyini verir, aldığını da alır. Onun yanında hər bir şeyin bir müddəti vardır. Ona əmr et ki, səbir etsin, əvəzini də Allahdan umsun".** Beləcə ona (xəstə yiyəsinə) əmr edir ki, səbir etsin, savabını da izzət və cəlal Sahibindən umsun.

Gərək insan [din, yaxud doğma] qardaşının yasında bunları söyləsin, çünki bu sözlər ən gözəl başsağlığıdır: **"Uca Allah verdiyini verir, aldığını da alır. Onun yanında hər bir şeyin bir müddəti vardır. Ona əmr et ki, səbir etsin, əvəzini də Allahdan umsun"**. Müvəffəq edən Allahdır.

---

[1] "Sunən İbn Macə", 3803.

[2] Öncəki hədisə bax.

Yüz əlli üçüncü fəsil

Ölüyə vay-şivən qoparmadan ağlamağın hökmü

Mövzu ilə əlaqəli hədislər:

٩٢٥ – عن ابنِ عُمرَ ﵄ أَنَّ رسُولَ اللَّه ﷺ عاد سَعْدَ بنَ عُبَادَةَ، وَمَعَهُ عبْدُ الرَّحمنِ بنُ عَوفٍ، وسعْدُ بْنُ أَبي وَقَّاصٍ، وعبْدُ اللَّهِ بن مَسْعُودٍ ﵃ ، فَبكى رسولُ اللَّهِ ﷺ ، فلمَّا رَأَى القوْمُ بُكاءَ رسولِ اللَّه ﷺ ، بَكَوْا، فقال: « أَلا تَسْمعُونَ؟ إِنَّ اللَّه لا يُعَذِّبُ بِدمْعِ العَيْنِ، وَلا بِحُزْنِ القَلْبِ، وَلكِنْ يُعَذّبُ بِهذا أَوْ يَرْحَمُ » وَأَشَارَ إِلى لِسَانِهِ.متفقٌ عليه.

925. İbn Ömərdən ﵄ rəvayət olunur ki, bir dəfə Rəsulullah ﷺ Abdurrəhman ibn Auf, Səd ibn Əbu Vaqqas və Abdullah ibn Məsudla birlikdə Səd ibn Ubadəni ﵁ ziyarət etdi. Ziyarət əsnasında Rəsulullah ﷺ ağladı. Rəsulullahın ﷺ ağlamasını gördükdə, adamlar da ağladılar. O dedi: **"Məgər eşitmirsiniz? Şübhəsiz ki, Allah ağlayan gözə, hüznlü qəlbə əzab verməz. O, sadəcə buna görə əzab verər və ya rəhm edər".** Bunu deyərkən o, dilinə işarə etdi."

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində belə bir fəsil açmışdır: **"Ölüyə vay-şivən qoparmadan ağlamağın hökmü"**.

Ölü üçün ağlamaq təbii haldır. Yəni insanın özündən asılı olmayaraq ağlamasında bir qəbahət və günah yoxdur. Əksinə, bu, hədisdə qeyd olunduğu kimi, Peyğəmbərin ﷺ əxlaqındandır. Hətta bu, insanın mərhəmətli və yumşaq qəlbli olmasının göstəricisidir ki, o, ölü üçün ağlayır. Ancaq bəzən ağlayan kəs vay-şivən qoparır. Buna görə o günah qazanır. Yaxşı olar ki, ağlayan kəs ölünün yaxşı əməllərini xatırlasın, desin ki, məsələn, "bu filankəs bizə filan şey gətirərdi, bizi müdafiə edərdi". Yaxud da buna

[1] "Səhih əl-Buxari", 6304; "Səhih Muslim", 924.

bənzər sözlər desin. Yaxud da desin ki, "can, ay ata" və ya buna bənzər sözlər.

Ah-nalə çəkmək isə göyərçinin səsi kimi ağlamağa deyilir. Bu haramdır. Peyğəmbər ﷺ ah-nalə çəkəni və şivən qoparanı lənətləmişdir.

İnsanın qeyri-ixtiyari ağlamasına gəlincə isə bu, təbiidir. Bu sadəcə hüzn və mərhəmətdir, bu olar. Müəllifin رحمه الله qeyd etdiyi hədisdə də deyilir ki, Peyğəmbər ﷺ Səd ibn Ubadəni o xəstə ikən ziyarət edir. Ziyarət vaxtı Peyğəmbər və onunla birlikdə olanlar – Səd ibn Əbu Vaqqas, Abdullah ibn Məsud ağlayırlar. O dedi: **"Eşitmirsinizmi?"**, yəni eşidin! (dinləyin!): **Şübhəsiz ki, Allah ağlayan gözə, hüznlü qəlbə əzab verməz. O, sadəcə buna görə əzab verər və ya rəhm edər".** Bunu deyərkən o, dilinə işarə etdi." Yəni insan haram söz söylədikdə, buna görə əzab oluna bilər. Bu da dəlildir ki, ölünün üzərində ağlamaq olar. Bir şərtlə ki, ağlayan kəs ah-nalə çəkməsin, şivən qoparmasın. Təbii halda ağlamaqda isə bir qəbahət yoxdur. Həmçinin bu, Peyğəmbərin ﷺ əxlaqındandır. Daha doğrusunu Allah bilir.

٩٢٦ – وعن أُسَامة بنِ زَيْدٍ رضي الله عنهما أَنَّ رسولَ اللَّهِ ﷺ رُفِعَ إِلَيهِ ابْنُ ابْنَتِهِ وَهُوَ في المَوْتِ، فَفَاضَتْ عَيْنا رسول اللَّه ﷺ ، فقال له سعدٌ: مَا هذا يا رسولَ اللَّهِ؟، قال: « هَذِهِ رحمةٌ جَعَلها اللَّهُ تَعالى في قلوبِ عبادِهِ، وَإِنما يَرْحَمُ اللَّهُ مِنْ عبَادِهِ الرُّحَمَاءَ » متفقٌ عليه.

926. Usamə ibn Zeyddən رضي الله عنه rəvayət olunur ki, Rəsulullahın ﷺ qızının oğlu ölüm ayağında ikən onun yanına gətirildi. [Onu halını görən] Rəsulullahın ﷺ gözləri nəmləndi. Səd ona dedi: "Bu nədir, ey Allahın elçisi?" Dedi: **"Bu, uca Allahın insanların qəlbinə yerləşdirdiyi mərhəmətdir. Şübhəsiz ki, Allah öz qullarından mərhəmətli olanlara rəhm edər"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٩٢٧ – وعن أنسٍ رضي الله عنه أَنَّ رسُولَ اللَّهِ ﷺ دَخَلَ عَلى ابْنه إِبَراهِيمَ رضي الله عنه وَهُوَ يَجودُ بَنفسِه فَجعلتْ عَيْنا رسولِ اللَّهِ ﷺ تَذْرِفَانِ. فقال له عبدُ الرَّحمن بنُ عوفٍ: وأَنت يا رسولَ

[1] "Səhih əl-Buxari", 6655; "Səhih Muslim", 2315.

اللَّه؟، فقال: « يا ابْنَ عوْفٍ إِنَّها رَحْمةٌ » ثُمَّ أَتْبَعَها بأُخْرَى، فقال: « إِنَّ الْعَيْنَ تَدْمَعُ والقَلْب يَحْزَنُ، وَلا نَقُولُ إِلا ما يُرضي رَبَّنا وَإِنَّا لفِرَاقِكَ يا إِبْرَاهيمُ لَمَحْزُونُونَ ».

رواه البخاري، وروى مُسلمٌ بعضَه.

والأَحاديث في الباب كثيرة في الصحيح مشهورة، واللَّه أعلم.

927. Ənəsdən ﷺ rəvayət olunur ki, Rəsulullahın ﷺ oğlu İbrahim canı ilə çəkişərkən onun yanına daxil oldu. Rəsulullahın ﷺ gözləri doldu. Abdurrəhman ibn Auf ona dedi: "Səndəmi, ey Allahın elçisi?" Dedi: **"Ey Aufun oğlu, bu bir rəhmətdir".** Sonra davam edib dedi: **"Həqiqətən, gözlər yaşarır, qəlb isə kədərlənir, biz isə ancaq Rəbbimizi razı salacaq sözlər deyirik. Ey İbrahim, biz səndən ayrıldığımıza görə kədərlənirik".**

Hədisi Buxari rəvayət etmişdir. Muslim isə hədisin bir hissəsini nəql edib.[1]

Bu fəsildə "Səhih"dən gətirilən məşhur hədislər çoxdur. Daha doğrusunu Allah bilir.

Şərh:

İmam Nəvəvinin ﷺ "Salehlər bağçası" əsərində **"Ölüyə vay-şivən qoparmadan ağlamağın caizliyi"** fəslində qeyd etdiyi üç hədisdən birincisi haqda artıq söhbət açmışıq. Sonra o, Rəsulullahdan ﷺ daha iki hədis qeyd edir. Hədislərdə deyilir ki, Rəsulullah ﷺ iki uşağının ölümünü gördükdə ağlamışdır.

Birincisi, onun qızının oğlu idi. Uşaq can verərkən onun yanına gətirilir və Rəsulullahın ﷺ gözləri bu uşağa mərhəmət hissindən yaşarır. Çünki o, uşağın can verdiyini görür. Buna görə də Rəsulullahın ﷺ ürəyi yumşalır. Səd ibn Ubadə bu vaxt ona deyir ki, "Bu nədir, ey Allahın elçisi?", Yəni nə üçün? ağlayırsan? Peyğəmbər ﷺ də buyurur ki: **"Bu, uca Allahın insanların qəlbinə yerləşdirdiyi mərhəmətdir. Şübhəsiz ki, Allah öz qullarından mərhəmətli olanlara rəhm edər".**

İnsan Allahın qullarına qarşı nə qədər çox mərhəmətli olarsa, Allahın mərhəmətinə daha yaxın olar. Ona görə də çalış uşaqlara, heyvanlara və

[1] "Səhih əl-Buxari", 1303; "Səhih Muslim", 2315.

mərhəmətə layiq olan digərlərinə qarşı mülayim olasan ki, izzət və cəlal sahibi Allahın mərhəmətini qazanasan. **"Şübhəsiz ki, Allah öz qullarından mərhəmətli olanlara rəhm edər".** Bunda ölünün üzərində ağlamağın icazəli olmasına dəlil var. Çünki Peyğəmbər ﷺ ağlamış və demiş ki: "Bu bir mərhəmətdir". Bu həm də insanın izzət və cəlal sahibi Allahın rəhmətinə bacardığı qədər can atmağa çalışmalı olmasına dəlildir: **"Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır".**[1]

Peyğəmbərin: **"Şübhəsiz ki, Allah öz qullarından mərhəmətli olanlara rəhm edər"** sözü dəlildir ki, cəza insanın əməlinə müvafiq olur. İnsan başqalarına qarşı mərhəmətli olarsa, Allah da ona qarşı rəhmli olar. Çünki insan başqasının ehtiyacını ödədikdə, uca Allah da onun ehtiyacını ödəyər: **"Kim qardaşının ehtiyacını ödəyərsə, Allah da onun ehtiyacını ödəyər".**[2]

İkinci hədis Ənəs ibn Malikdən رضي الله عنه rəvayət olunur. Həmin hədisdə Peyğəmbərin ﷺ yanına can verən oğlu İbrahimi gətirirlər. Onun bu övladı zövcəsi Xədicədən deyil, qibtilərin kralının hədiyyə etdiyi kənizi Mariyadan idi. Peyğəmbər ﷺ də cariyəsi olaraq onunla yaxınlıq etmiş, o da bu oğlanı dünyaya gətirmişdi. Uşaq on altı ay yaşadıqdan sonra Peyğəmbərin ﷺ vaxtında vəfat etmişdir.

Xülasə, canı ilə çəkişən İbrahimi Peyğəmbərin ﷺ yanına gətirirlər. Yəni o, ölüm anında idi. İnsanın ən böyük dövləti onun canıdır. Bu uşaq da sanki öz ruhunu mələklərə təslim edirdi. Peyğəmbər ﷺ gördüyündən təsirlənir və gözləri dolur. Ona deyirlər ki, bu nədir, ey Allahın elçisi? Peyğəmbər ﷺ də buyurur ki: **"Həqiqətən, gözlər yaşarır, qəlb isə kədərlənir, biz isə ancaq Rəbbimizi razı salacaq sözlər deyirik. Ey İbrahim, biz səndən ayrıldığımıza görə kədərlənirik"**. Uşaq yenə ona verilir və o, yenə də həmin sözləri təkrar edir: **"Həqiqətən, gözlər yaşarır, qəlb kədərlənir, biz isə ancaq Rəbbimizi razı salacaq sözlər deyirik. Ey İbrahim, biz səndən ayrıldığımıza görə kədərlənirik"**. Daha sonra on altı aylıq İbrahim vəfat edir.

---

[1] "əl-Əraf" surəsi, 56.

[2] "Səhih əl-Buxari", 2442; "Səhih Muslim", 2580.

Hədis dəlildir ki, insan mərhəmətdən, kədərdən dolayı və ya ayrılığa görə ağlaya bilər. Burada Rəsulullah ﷺ buyurur ki, o, övladından ayrıldığına görə kədərlənir.

Hədis həm də ona dəlildir ki, insan, yaşadığı hər hansı bir müsibətə görə kədərlənməsi barədə xəbər verə bilər, çünki Peyğəmbər ﷺ demişdir: **"Qəlb kədərlənir".**

Hədisin dəlillərindən biri də Peyğəmbərin ﷺ övladları öldükdə digər insanlar kimi ağrı çəkməsidir.

Onun ﷺ yeddi övladı olub: üç oğlan, dörd qız. Oğlanlarından ən məşhuru İbrahim, qızlarından ən fəzilətlisi isə Fatimə idi. Fatimə Əli ibn Əbu Talibin zövcəsi idi. Zeynəbin əri Əbul-As ibn ər-Rabi idi. Ummu Kulsum və Ruqayyə isə Osman ibn Əffanın zövcələri olub. Başqa heç kim Osman kimi, Peyğəmbərin ﷺ iki qızı ilə evlənməyib. Ona görə də Osman Peyğəmbərin iki qızı ilə evlənməsi ilə seçilir. Belə ki, onlardan biri vəfat etdikdə, Rəsulullah ﷺ ikinci qızını da ona ərə vermişdir.

Rəsulullahın ﷺ oğlanlarının adları Qasim, Abdullah və İbrahim idi. Ancaq daha məşhuru və daha çox yaşayanı İbrahim olub. Peyğəmbərin ﷺ İbrahimdən savayı bütün övladları Xədicədən olub. Yalnız İbrahimin anası Mariya əl-Qibtiyyə idi. Peyğəmbər ﷺ vəfat edən zaman onun övladlarından yalnız Fatimə sağ olub. Digər altı övladın hamısı hələ Peyğəmbərin ﷺ sağlığında vəfat etmişdilər. Bu da izzət və cəlal sahibi Allahın hikmətindəndir – O, göstərir ki, heç kim, hətta Allah yanında ən böyük hörmətə malik olan kəslər belə ölümün qarşısını ala bilməz. Əgər kimsə ölümün qarşısını ala bilsəydi, o zaman Peyğəmbər ﷺ də oğullarından və qızlarından ölümü dəf edərdi. Lakin hər şey izzət və cəlal sahibi Allahın əlindədir, hər şey Ona məxsusdur. Birisinin əcəli çatdıqda heç kim, hətta Peyğəmbər belə onu dəf edə bilməz. Daha doğrusunu Allah bilir.

Yüz əlli dördüncü fəsil

Meyitdə xoşagəlməz bir şey görən kəs onu gizlətməlidir

Mövzu ilə əlaqəli hədis:

٩٢٨ – عن أَبي رافعٍ أَسْلم مَوْلى رسول اللَّه ﷺ أَنَّ رسول اللَّه ﷺ قال: « مَنْ غَسَّل ميِّتاً فَكَتَمَ عَلَيْه، غَفَرَ اللَّهُ له أَرْبعِينَ مرَّةً » رواه الحاكم وقال: صحيح على شرط مسلم.

928. Rəsulullahın ﷺ mövlası Əbu Rafi Əsləmdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allah, ölünü yuyub onu (onda gördüyünü) gizlədəni qırx dəfə bağışlayar."**

Hədisi əl-Hakim rəvayət etmiş və: "Muslimin şərtinə görə səhihdir" demişdir.[1]

Şərh:

İmam Nəvəvi رحمه الله "Salehlər bağçası" əsərində **"Meyitdə xoşagəlməz bir şey görən kəs onu gizlətməlidir"** fəslini qeyd edir, sonra da Rəsulullahın ﷺ mövlasının (azadlısının, azad etdiyi köləsinin) cənazəni yumağın, cənazədə xoşagəlməz bir şey gördükdə onu gizlətməyin fəziləti ilə bağlı hədisini qeyd edir.

Meyitdə xoşagəlməz hal iki növdür:

Birinci növü onun halı ilə;

İkinci növü isə onun cəsədi ilə bağlıdır.

Birinci növ xoşagəlməz hal. Əgər [mürdəşir, ölü yuyan] görsə ki, meyitin siması dəyişib, qaralıb və çirkinləşib, bu, Allah qorusun, onun pis sonluğunun işarəsidir. Allah qorusun! Bu zaman onun insanlara: "Mən bu adamda bunu gördüm" deməsi halal deyil. Çünki bu, onun eyiblərinin açılmasıdır.

İnsan yalnız öz Rəbbinin hüzurunda dayandığı zaman ədalət və fəzilət baxımından layiq olduğunu alacaq. Əgər yaxşı işlər görübsə, Uca Allah

[1] "Mustədrək əl-Hakim", 1/505; "Sunən əl-Beyhəqi", 7/9.

hər savabını on mislində ona qaytaracaq. Yox, əgər belə olmazsa, onda: **"Pisliyin cəzası özü kimi pislikdir".**[1]

İkinci növ xoşagəlməz hal isə cəsəd ilə bağlıdır. Məsələn, o, ölünün cəsədində insanların adətən əxlaqca deyil, xilqətcə gizlətdiyi bir eyibi görsə, hansısa ağlıq və ya qaralıq müşahidə etsə, bunu da başqalarına bildirməməlidir. Deməməlidir ki, "onun qarnında, belində, qolunda və ya başqa bir yerində belə bir nöqsan gördüm".

Alimlər demişlər: "Ölünü yuyan kəs gördüyü xoşagəlməz şeyləri gizlətməlidir". Ancaq əgər o, meyitdə yaxşı bir hal, məsələn, üzünün nurlu olduğunu, yaxud təbəssüm etdiyini müşahidə edərsə, bu yaxşı hal barədə insanlara xəbər verə bilər. Çünki bu zaman insanlar onun barəsində xeyirli sözlər söyləyəcəklər. Bu, olar və bu, riyakarlıq və ya buna bəznər bir iş sayılmır. Əksinə, bu, möminin erkən müjdəsidir. Çünki möminin müjdələri ola bilər və bu məsələ də ona aiddir. Məsələn, həmin müjdələrdən biri, onun öldükdən sonra gözəl surətdə görünməsidir. Həmçinin möminin özü barəsində, yaxud da başqasının onun barəsində yaxşı bir yuxu görməsi də xeyirə yozulan müjdələrdən hesab olunur.

Yenə alimlər demişlər: "Ölünün qüsl edilməsi zamanı onu yuyan adamdan başqasının içəri daxil olması bəyənilmir". Ölünü yuduqda onun yanına yalnız onu yuyan, bir də ona yardım edən daxil olmalıdır. Başqaları isə, hətta yaxınları olsa belə, daxil olmamalıdır. Çünki ola bilsin, adam xoşlamadığı bir şey görər və bu da meyit haqqında pis söz-söhbətə səbəb ola bilər. Müvəffəq edən Allahdır.

[1] "əş-Şura" surəsi, 40.

Yüz əlli beşinci fəsil

Meyitə namaz qılmaq, onu müşayiət etmək, dəfnində iştirak etmək; qadınların cənazəni müşayiət etməsinin bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

٩٢٩ – عن أَبي هُرِيرةَ ﷺ قال: قال رسول اللَّهِ ﷺ: « مَنْ شَهِدَ الجنَازَةَ حَتَّى يُصَلَّي عَلَيها فَلَهُ قِيرَاطٌ، وَمَنْ شَهِدَهَا حَتَّى تُدْفَنَ فَلَهُ قِيراطَانِ » قيلَ وما القيراطَانِ؟ قال: « مِثْلُ الجَبلَيْنِ العَظِيمَيْنِ » متفقٌ عليه.

929. Rəvayət olunur ki, Əbu Hureyra ﷺ demişdir: "Rəsulullah ﷺ dedi: **"Kim cənazəni namazı qılınanadək müşayiət edərsə, ona bir qirat verilər. Onu dəfn olunanadək müşayiət edən kəs isə iki qirat əldə edər"**. Soruşdular ki, iki qirat nədir? Dedi: **"İki böyük dağ kimi"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٩٣٠ – وعنه أَنَّ رسول اللَّه ﷺ قال: « من اتَّبعَ جَنَازَةَ مُسْلِمٍ إيمَاناً واحْتِسَاباً، وَكَانَ مَعَهُ حَتَّى يُصَلَّي عَلَيها ويَفْرُغَ من دَفنِها، فَإِنَّهُ يَرْجعُ مِنَ الأَجرِ بقِيراطَين كُلُّ قيرَاط مِثلُ أُحُدٍ، ومَنْ صَلَّى عَلَيهَا، ثم رَجَعَ قبل أَن تُدْفَنَ، فَإِنَّهُ يرجعُ بقِيرَاط » رواه البخاري.

930. Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim imanla, hesabını Allahdan umaraq bir müsəlmanın cənazəsinə qoşular, onun namazını qılar və dəfnində iştirak edərsə, iki qirat savabla qayıdar. Hər qirat da Uhud dağı boyda olar. Kim də onun cənazə namazını qılıb, dəfnindən öncə geri dönərsə, bir qirat savabla qayıdar".**

Hədisi Buxari rəvayət etmişdir.[2]

٩٣١ – وعن أُمِّ عطِيَّةَ ﷺ قَالَتْ: نُهينَا عنِ اتِّبَاعِ الجَنائز، وَلم يُعزَمْ عَلَيْنَا » متفقٌ عليه.

---

[1] "Səhih əl-Buxari", 1325; "Səhih Muslim", 945.

[2] "Səhih əl-Buxari", 47.

« ومعناه » ولَمْ يُشدَّد في النَّهي كما يُشدَّدُ في المُحَرَّمَات.

931. Rəvayət olunur ki, Ummu Atiyyə ﵂ demişdir: "Bizlərə cənazələri müşayiət etmək qadağan olundu, ancaq o (qadağa) bizim üçün qabardılmadı".[1]

Yəni, bu qadağa digər haram əməllər kimi, təkidlə buyurulmamışdır.

Şərh:

İmam ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərinin bu yerində **"Meyitə qılınan namaz, onu müşayiət etmək, dəfnində iştirak etmək və qadınların cənazələri müşayiət etməsinin bəyənilməməsi"** fəslini qeyd edir.

Cənazə, meyitin qoyulduğu nəşin adına deyilir.

Müəllif əvvəlcə Əbu Hureyradan ﵁ nəql olunmuş birinci və ikinci hədisi, daha sonra Ummu Atiyyənin ﵂ hədisini qeyd edir.

Bilmək lazımdır ki, cənazədə iştirak etmək müsəlmanların öz qardaşları üzərindəki haqlarındandır. Onların haqqıdır ki, qardaşları onların cənazəsində iştirak etsinlər və cənazələri ilə birlikdə çıxsınlar. Alimlər demişlər: "Adam cənazə ilə çıxdıqda, gərək müti olsun və öz aqibəti barədə düşünsün". Düşünməlidir ki, o bu gün başqasının cənazəsində iştirak etdiyi kimi, bir gün insanlar onun da cənazəsində iştirak etməyə gələcəklər. Bu gün daşınan həmin adam kimi, bir gün o da daşınacaqdır:

Hər bir insan nə qədər yaşasa belə,
Bir gün tabut üzərində daşınacaqdır.

Beləcə, özü barədə düşünməlidir – düşünməlidir ki, bu dünyada nə qədər çox yaşasa belə, bu adam kimi daşınacaq və aparılacaq. Ona görə də demişlər ki, cənazədə iştirak edən kəs gərək dünya işləri barədə danışmasın. Sadəcə özü haqda düşünsün. Bir kimsə onu danışdırarsa, ona hər bir canlının sonu barədə xatırlatsın. Beləcə o, cənazədə iştirak etməklə, ibrət də almış olacaq. Yəni, həm müsəlmanın haqqını verəcək, həm də ibrət alacaq.

Bu yerdə ﵀ müəllif Əbu Hureyradan nəql olunan iki hədisi qeyd edir. Həmin hədislərdə deyilir ki, kim cənazə evdən çıxandan dəfn olunanadək onu təqib edərsə, iki qirat savab əldə edər. İki qiratın nə olduğu

[1] "Səhih əl-Buxari", 1278; "Səhih Muslim", 938.

soruşulanda, Peyğəmbər ﷺ: **"İki böyük dağ kimi"** deyir. Muslimin rəvayətində isə bu da var: **"Ən kiçiyi Uhud dağı boydadır".** İbn Ömər bu hədisi eşidərkən: "Nə qədər çox qiratlar itirmişik" demiş, o gündən sonra də gördüyü bütün cənazələrdə iştirak etmişdir.

Deməli, namazı qılınanadək cənazədə iştirak etsən bir qirat, dəfn olunanadək iştirak etsən iki qirat savab qazanmış olursan. Lakin Buxarinin rəvayətində bunun imanla, hesabını da Allahdan umaraq edilməli olduğu vurğulanır. Yəni, Allaha iman gətirərək, Onun vədini təsdiq edib savabını Ondan umaraq etmək lazımdır. Məqsəd ölənin yaxınları üçün xoş görünmək olmamalıdır. Çünki ölənin yaxınlarına yaxşı görünmək yalnız dünya üçün əldə edilən yaxşılıqdır. Ola bilsin, insan qardaşlarının yanında yaxşı görünməsinə görə də savab qazansın, lakin iki qirat savab əldə etmək üçün gərək bu əməli imanla, savabını Allahdan umaraq edəsən – Allaha iman gətirib, vədini təsdiq edib, savabını ummaqla edəsən.

Qadınlara gəlincə isə Ummu Atiyyə رضي الله عنها demişdir ki, "bizlərə cənazələri təqib etmək qadağan olundu, lakin bu qətiyyətlə bildirilmədi". Kişi və ya qadın bir səhabə dedikdə ki, "bizlərə qadağan olundu", bunun mənası odur ki, Peyğəmbər ﷺ həmin əməli qadağan edib. Çünki əmr və qadağaları qoyan Peyğəmbərdir ﷺ. Səhabə qadın və ya kişi: "bizə qadağan olundu" deyirsə, bu: "bizə Peyğəmbər ﷺ qadağan etdi" deməkdir.

"Bizlərə cənazələri təqib etmək qadağan olundu, lakin bu qətiyyətlə bildirilmədi". Bəzi alimlər bu hədisdən belə bir nəticə çıxarmışlar ki, qadınların cənazələri təqib etmələri bəyənilmir. Çünki qadın deyir ki: "Bizə qadağan olundu, lakin qətiyyətlə bildirilmədi". Bəzi alimlər isə demişlər ki, qadınların cənazələri təqib etmələri haramdır. Çünki bu nəhy olunub. Ummu Atiyyənin: "Bizə qətiyyətlə bildirilmədi" sözü onun öz anlayışıdır. Biz bilmirik ki, bunu Rəsulullah ﷺ qadağan edib və qətiyyətli olmadığını bildirib, yoxsa o özü elə başa düşüb ki, qadınların cənazələrə tabe olmaları onlara qətiyyətlə qadağan olunmayıb.

Səhih olan budur ki, qadının cənazəni təqib etməsi haramdır. Qadının cənazəyə qoşulması icazəli deyil. Çünki qadın cənazəyə qoşulduqda, – şübhəsiz ki, o zəifdir, – ola bilsin ki, qışqırar, səs-küy salar, üzünü vurar, saçını dartar və ya paltarını cırar. Qadın səbir edə bilmir. Həm də cənazəni müşayiət edərkən kişilərlə qadınlar bir-birinə qarışar və fitnə yaranar,

bununla da cənazəyə qoşulmaqdakı hikmət aradan qalxmış olar. Ola bilsin ki, xəbis kişilər qadınları izləyib, onlara baxmaqdan həzz alsınlar. Odur ki, qadınların cənazələrə qoşulmasını qadağan etmək lazımdır. Bu da, əlhəmdulilləh ki, bizim ölkəmizdə yoxdur. Lakin biz şəri hökmdən danışırıq. Doğru olan budur ki, qadınların cənazələri təqib etməsi haramdır və icazəli deyil. Həmçinin qadınların qəbirləri ziyarət etməsi də haramdır. Çünki Peyğəmbər ﷺ qəbirləri ziyarət edən və oranı məscidə çevirən, üzərində işıq qoyan qadınları lənətləmişdir. Müvəffəq edən Allahdır.

Sual oluna bilər ki, qadının Peyğəmbərin ﷺ məzarını ziyarət etməsi caizdirmi?

Cavabı budur ki, qadının Peyğəmbərin ﷺ məzarını ziyarət etməsi də icazəli deyil. Çünki o qəbirdir. Əgər ona salam verməkistəyirsə, onu harada olsa, hətta dünyanın ən uzaq yerində olsa belə, edə bilər. Qadın desə ki, "Ey Peyğəmbər, sənə salam olsun!", Allah mələklərə əmr edər və onlar həmin salamı Rəsulullaha ﷺ çatdırarlar. Daha doğrusunu Allah bilir.

Yüz əlli altıncı fəsil

Cənazə üzərində namaz qılanların çox olması və sıraların üç və daha çox olması

Mövzu ilə əlaqəli hədislər:

٩٣٢ – عَنْ عائشةَ ﵂ قَالَتْ: قال رسولُ اللَّهِ ﷺ: ما مِنْ ميِّتٍ يُصلِّي عليهِ أُمَّةٌ مِنَ المُسْلِمِينَ يبلُغُونَ مئَة كُلُّهُم يشْفَعُونَ له إلا شُفِّعُوا فيه » رواه مسلم.

932. Aişədən ﵂ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Hər hansı bir meyitin üzərində müsəlmanlardan yüz nəfəri namaz qılar və onun üçün şəfaət diləyərsə, həmin adam şəfaətə nail olar".**

Hədisi Muslim rəvayət etmişdir.[1]

٩٣٣ – وعن ابنِ عباسٍ ﵄ قال: سَمعْتُ رَسُول اللَّه ﷺ يَقُول: « مَا مِنْ رَجُلٍ مُسْلِمٍ يَمُوتُ، فَيقومُ عَلَى جَنَازتِهِ أَرْبَعونَ رَجُلا لا يُشركُونَ باللَّه شَيئاً إِلاَّ شَفَّعَهُمْ اللَّهُ فيهِ » رواه مسلم.

933. Rəvayət olunur ki, İbn Abbas ﵄ demişdir: "Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Ölmüş hər hansı bir müsəlmanın cənazəsində qırx nəfər Allaha şərik qoşmayan adam dayanarsa, Allah onları ona şəfaətçi edər".**

Hədisi Muslim rəvayət etmişdir.[2]

٩٣٤ – وعن مَرْثَدِ بن عبدِ اللَّه اليَزَنِيِّ قال: كانَ مالكُ بنُ هُبَيْرَةَ ﵁ إذا صلَّى عَلى الجنَازَةِ، فَتَقَالَّ النَّاسَ عَليها، جزَّأَهُمْ عَلَيْهَا ثَلاثَةَ أَجْزَاءٍ ثم قال: قالَ رَسُولُ اللَّه ﷺ: « مَنْ صَلَّى عليهِ ثَلاثَةُ صُفُوف، فَقَدْ أَوْجَبَ ».

رواه أبو داود، والترمذي وقال: حديث حسن.

---

[1] "Səhih Muslim", 947.

[2] "Səhih Muslim", 948.

934. Mərsəd ibn Abdullah əl-Yəznidən rəvayət olunur ki, o demişdir: «Malik ibn Hubeyra ﵁ bir cənazəyə namaz qılmaq üçün toplanmış insanları üç hissəyə bölər, sonra da deyərdi ki, Rəsulullah ﷺ belə demişdir: **"Kimin üzərində üç sıra adam namaz qılarsa, vacib olar"**».

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi demişdir: "Bu, həsən hədisdir".[1]

Şərh:

İmam ən-Nəvəvi ﵀ ölünün üzərində daha çox adamın namaz qılmasının müstəhəbliyi fəslini açır, sonra Aişə, İbn Abbas və Malik ibn Hubeyradan ﵃ üç hədis qeyd edir. Hər üç hədis ona dəlalət edir ki, ölmüş müsəlmanın üzərində nə qədər çox adam namaz qılarsa, bu, şəfaət üçün daha yaxşıdır.

Aişənin ﵂ hədisində deyilir ki, meyitin üzərində yüz nəfər namaz qılar və onun üçün şəfaət diləyərsə, həmin adam şəfaətə nail olar. Məlum məsələdir ki, cənazə namazı qılanlar izzət və cəlal sahibi Allahdan ölmüş üçün şəfaət diləyir, ona Allahdan rəhmət və məğfirət istəyirlər.

Cənazə namazında ölü üçün dua etmək vaciblərdəndir. Hətta bu, namazın rüknlərindəndir və o olmadan cənazə namazı səhih olmur – yalnız namaza gec qoşulmuş kəs istisnadır.

İbn Abbasın ﵄ hədisində isə deyilir ki, **"Ölmüş hər hansı bir müsəlmanın cənazəsində qırx nəfər Allaha şərik qoşmayan adam dayanarsa, Allah onları ona şəfaətçi edər"**. Yəni, onların şəfaətini qəbul edər. Bu, mömin üçün bir müjdədir – insanın cənazəsində nə qədər çox adam iştirak edərsə, onlar Uca Allahın yanında ona şəfaətçi olarlar.

Malik ibn Hubeyranın ﵁ hədisində isə Rəsulullah ﷺ belə demişdir: **"Kimin üzərində üç sıra adam namaz qılarsa, vacib olar".** Yəni, Cənnət ona vacib olar.

Bütün bu hədislər ona dəlildir ki, cənazədə nə qədər çox adam iştirak edərsə, bir o qədər yaxşı olar. Ona görə də görürük ki, bəziləri məsciddə cənazə namazı qıldıqda qonşu məscidin də camaatını çağırırlar ki, gəlsinlər, adam sayı çox olsun. Əgər imam görsə ki, qonşu məsciddən cənazə

[1] "Sunən Əbu Davud", 3166; "Sunən ət-Tirmizi", 1028; "Sunən İbn Macə", 1490.

namazını qılmaq üçün gələnlər var, ancaq [bu məsciddə] fərz namazı hələ qılınmayıb, bu zaman o, cənazə namazını qılmaq üçün tələsməməlidir. Qoy adamlar əvvəlcə fərz namazını tamamlasınlar, sonra da [gələnlər] camaatla birlikdə cənazə namazına qoşulsunlar. Bu zaman cənazədə daha çox adam iştirak etmiş olacaq. Bilmək olmaz, ola bilsin, fərz namazının qəzasını qılanlardan birinin bu vaxt duası qəbul olsun. Bəzən görürsən ki, bəziləri namazını bitirən kimi, qalxıb cənazə namazına başlayırlar. Halbuki, bu zaman onların arxasında hələ də namaza davam edən bir cərgə və ya daha çox adam vardır. Bu (cənazə namazını tezləşdirmək), caiz olsa da, insanların namazlarını tamamlayaraq cənazə namazına qoşulmalarını gözləmək daha əfzəldir. Onsuz da bu zaman böyük bir şey itirilmir – sadəcə bir-neçə dəqiqə gözləmək lazımdır. Müvəffəq edən Allahdır.

Yüz əlli yeddinci fəsil

Cənazə namazında oxunanlar

Mövzu ilə əlaqəli hədislər:

٩٣٥ – عن أبي عبدِ الرحمنِ عوفِ بن مالكٍ ﷺ قال: صلَّى رسول الله ﷺ عَلى جَنَازَةٍ، فَحَفِظْتُ مِنْ دُعائِهِ وَهُو يَقُولُ: « اللَّهُمَّ اغْفِرْ لَهُ، وارْحمْهُ، وعافِهِ، واعْفُ عنْهُ، وَأَكرِمْ نزُلَهُ، وَوسِّعْ مُدْخَلَهُ واغْسِلْهُ بِالماءِ والثَّلْجِ والْبرَدِ، ونَقِّه منَ الخَطَايَا، كما نَقَّيْتَ الثَّوب الأبْيَضَ منَ الدَّنَس، وَأَبْدِلْهُ دارا خيراً مِنْ دَارِه، وَأَهْلاً خَيّراً منْ أهْلِهِ، وزَوْجاً خَيْراً منْ زَوْجِهِ، وأدْخِلْه الجنَّةَ، وَأَعِذْه منْ عَذَابِ القَبْرِ، وَمِنْ عَذَابِ النَّار » حَتَّى تَمَنَّيْتُ أَنْ أَكُونَ أنَا ذلكَ المَيِّتَ. رواه مسلم.

935. Əbu AbdurRəhman Auf ibn Malikdən ﷺ rəvayət olunur ki, o demişdir: "Bir dəfə Rəsulullah ﷺ cənazə namazı qıldı, mən də onun dediyi bu duanı öyrəndim: **"Allahım, onu bağışla, ona rəhm et, ona salamatlıq ver, onu əfv et, onu gözəl tərzdə qarşıla, onun yerini geniş et! Onu su, qar və dolu ilə yu, ağ paltarı kirdən təmizlədiyin kimi, onu da günahlardan təmizlə! Ona evinin əvəzinə daha xeyirli ev, ailəsinin əvəzinə daha xeyirli ailə, zövcəsinin əvəzinə daha xeyirli zövcə ver! Onu Cənnətə daxil et! Onu qəbir əzabından və Cəhənnəm əzabından qoru!"**

Hətta həmin meyitin yerində olmağı təmənna etdim".

Hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh

Müəllif ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərində **"Cənazə namazında oxunanlar"** fəslini qeyd edir.

Cənazə namazına "əl-Fatihə" surəsini oxumaq, Peyğəmbərə ﷺ salavat gətirmək, sonra da dualar etmək daxildir. Bu namaz da "əl-Fatihə"

[1] "Səhih Muslim", 963.

surəsi ilə başlayır, çünki bu, izzət və cəlal sahibi Allaha tərifdir. Sonra Peyğəmbərə ﷺ salavat deyilir, çünki Peyğəmbər ﷺ insanın özündən üstün tutmalı olduğu ən haqlı şəxsiyyətdir. Daha sonra isə əvvəlcə: "Allahım, dirimizi və ölümüzü bağışla!"– ilə başlayan ümumi dua, sonra da ölüyə xas: "Allahım, onu bağışla, ona rəhm et!.." duası oxunur. Bu tərtib təşəhhüddəki tərtibə bənzəyir. Belə ki, təşəhhüddə də əvvəlcə: "Allaha salam olsun!" deyilir ki, bu, Allaha tərifdir. Sonra Peyğəmbərə ﷺ salam deyilir, sonra insanın özünə və əməlisaleh bəndələrə salam deyilir. Meyit üçün dua edildiyi zaman isə bir qədər fərqli tərtibə riayət olunur: əvvəlcə ümumi, sonra xüsusi dua edilməlidir. Təşəhhüddə isə əksinədir: əvvəlcə xüsusi, sonra isə ümumi dua edilir, çünki təşəhhüddə insan özü üçün dua edir, – insanın özü isə başqasından əvvəl gəlir. Yalnız Peyğəmbər ﷺ istisnadır.

Xülasə, cənazə namazını qılan kəs ilk olaraq təkbir gətirir və: "əuzu billahi minəş-şeytanir-rəcim" ("Məlun şeytanın şərindən Allaha sığınıram") deyir. Sonra "əl-Fatihə" surəsini tam oxuyur. Sonra ikinci dəfə təkbir gətirir və ardınca Peyğəmbərə ﷺ salavat deyir. Ən gözəl salavatı da Peyğəmbər ﷺ özü öyrətmişdir: "Allahummə salli alə Muhəmmədin va alə Ali Muhəmməd, kəmə salleytə alə İbrahimə va alə Ali İbrahim, innəkə həmidun məcid. Allahummə barik alə Muhəmmədin va alə Ali Muhəmməd, kəmə barəktə alə İbrahimə va alə Ali İbrahim, innəkə həmidun məcid".[1]

Sonra üçüncü təkbiri gətirir və deyir: "Allahım, dirimizə və ölümüzə, şahidimizə və qaibimizə (burada iştirak etməyənimizə), kiçiyimizə və böyüyümüzə rəhm et".

Onlardan biri də Auf ibn Malikdən nəql olunan hədisdir. Həmin hədisdə o deyir ki, Peyğəmbər bir dəfə bir cənazəyə namaz qıldırırdı və mən ondan bu duanı öyrəndim: **"Allahım, onu bağışla, ona rəhm et, ona salamatlıq ver, onu əfv et, onu gözəl tərzdə qarşıla",** yəni ziyafətini ver. Çünki ölən adam izzət və cəlal sahibi Allahın qonağı olur. Bu dünyadan ayrılıb məzara endikdə həmin məzarda ya əzab görür, ya da nemətlər. Duada da deyilir ki: **"onu gözəl tərzdə qarşıla, onun yerini geniş et!**". Yəni, onun qəbrini genişləndir, çünki oraya daxil olur.

[1] "Musnəd İmam Əhməd", 2/306; "Sunən Əbu Davud", 3201; "Sunən ət-Tirmizi", 1024; "Sunən ən-Nəsai", 1986; "Sunən İbn Macə", 1498.

“Onu su, qar və dolu ilə yu”. Yu, yəni onu günahlarından pak et. Qar ilə dolu soyuq olduğu üçün onlar zikr edilir. O həmçinin suyu da qeyd edir, çünki onunla təmizlənmək olur. Allah bizi və sizi günahların isti cəzasından qorusun. Ona görə də su ilə bərabər qar və dolunun da zikr olunması münasib olmuşdur – su ilə təmizlik baş verir, qar və dolu ilə isə soyutmaq olur.

“**Ağ paltarı kirdən təmizlədiyin kimi, onu da günahlardan təmizlə**”. Yəni, onu kamil bir şəkildə, çirkli ağ paltar kirdən təmizləndiyi kimi, xətalardan təmizlə. Ağ rəngi ona görə qeyd etmişdir ki, ən kiçik kir belə onun üzərində görünür. Əgər ağ libas təmizdirsə, demək onun üzərində mütləq şəkildə kir yoxdur. Qara, qırmızı və yaşıl libaslar isə belə deyil. Onlar kiri ağ rəng kimi aydın şəkildə büruzə vermirlər.

“Ona evinin əvəzinə daha xeyirli ev” ver. Hər kəs dünya evindən bərzəx evinə köçür. Dünya evi isə bildiyimiz kimi, imtahan, əziyyət və kədər evidir. “Onun evinin əvəzinə daha xeyirli ev ver” buyurmaqla deyir ki, adama məzarında nemətlər bəxş olunsun.

“Ailəsinin əvəzinə daha xeyirli ailə” ver. Yəni, anası, xalası, qızları, atası, oğlu və başqaları kimi yaxınlarından.

“**Zövcəsinin əvəzinə daha xeyirli zövcə ver!**”. Yəni, daha xeyirli olan huriləri nəsib et. Həmçinin dünyadakı zövcəsi ilə birlikdə et. Çünki insan dünyada qadınla evlənirsə və həmin qadın iman üzərində ölürsə, həmin qadın axirətdə onun zövcəsi olur. Birdən kimsə soruşsa ki, necə ola bilər ki, mənim zövcəm tək olduğu halda ondan daha xeyirli olsun?! Deyirik: “Ondan gözəlliyi və digər xüsusiyyətlərində üstün olmağı ilə”.

”Onu Cənnətə daxil et! Onu qəbir əzabından və Cəhənnəm əzabından qoru!”

Bütün bu duaları insan ölü üçün edir və gərək bu duaları edərkən ixlaslı olmalıdır. Ölən adam qadın olduqda isə belə deyilir: “Allahummə-ğfir ləhə, və afihə va’fu anhə...”. Yəni, dua ərəbcə deyildikdə, qadın cinsinin əvəzliyindən istifadə olunur.

Əgər dua edən kəs ölünün kişi və ya qadın olduğunu bilməzsə, seçim edib kişi cinsində də dua edə bilər – “şəxs” sözü kişi cinsində olduğu üçün hər ikisinə şamil olunacaq. Yaxud qadın cinsində də dua edə bilər. Belə ki, “cənazə” sözü qadın cinsindədir və hər iki cinsə şamil olunur. Cənazənin

kişi olduğunu öyrəndikdə, əvəzliyi kişi cinsində, qadın olduğunu öyrənərsə, qadın cinsində işlədir. Əgər bilməzsə, həm kişi, həm də qadın cinsində işlədə bilər. Əgər kişi cinsində "iğfir ləhu" deyirsə, buradakı əvəzlik "bizim önümüzdəki bu şəxs" mənasını verir. Qadın cinsində "iğfir ləhə" dedikdə isə "cənazə" sözünə işarə olunur, çünki "cənazə" sözü həm kişiyə, həm də qadına aid edilir. Müvəffəq edən Allahdır.

٩٣٦ – وعن أبي هُريرة وأبي قَتَادَةَ، وأبي إبْرَاهيمَ الأشْهَليَّ عنْ أبيه، وأبوه صَحَابيٌّ، عَنِ النبيِّ ﷺ أنَّه صلَّى عَلى جَنَازَة فقال: « اللَّهم اغفر لِحَيِّنَا وَميِّتِنا، وَصَغيرنا وَكَبيرِنَا، وذَكَرِنَا وَأُنْثَانَا، وشَاهِدِنا وَغائِبنَا. اللَّهُمَّ منْ أَحْيَيْتَه منَّا فأَحْيِه على الإسْلامِ، وَمَنْ توَفَّيْتَه منَّا فَتَوَفَّهُ عَلى الإيمانِ، اللَّهُمَّ لا تَحْرِمْنا أَجْرَهُ، وَلا تَفْتِنَّا بَعْدَهُ » رواه الترمذي من رواية أبي هُرَيْرةَ والأشهَليِّ، ورواه أبو داود من رواية أبي هريرة وأبي قَتَادَةَ. قال الحاكم: حديث أبي هريرة صَحيحٌ على شَرْطِ البُخاريِّ ومُسْلِمٍ، قال الترْمِذي قال البخاريُّ: أَصحُّ رواياتِ هذا الحديث روايةُ الأَشْهَليِّ. قال البخاري: وَأَصَحُّ شيء في هذا الباب حديث عوْفِ بن مالكٍ.

936. Əbu Hureyra, Əbu Qətadə və Əbu İbrahim əl-Əşhəli öz səhabə atasından ﷺ rəvayət edirlər ki, bir dəfə Peyğəmbər ﷺ bir cənazəyə namaz qılıb dedi: **"Allahım, dirimizi və ölümüzü, kiçiyimizi və böyüyümüzü, erkəyimizi və dişimizi, şahid olanımızı və qaibimizi (burada iştirak etməyənimizi) bağışla! Allahım, bizlərdən diri saxladıqlarını İslam üzərində yaşat, vəfat etdirdiklərini də iman üzərində vəfat etdir! Allahım, bizi onun əcrindən məhrum etmə və bizi ondan sonra fitnəyə məruz qoyma!"**

Bu hədisi Tirmizi Əbu Hureyra və əl-Əşhəlidən, Əbu Davud isə Əbu Hureyra və Əbu Qətadədən rəvayət etmişlər.[1]

əl-Hakim demişdir: "Əbu Hureyranın hədisi Buxari və Muslimin şərtinə görə səhihdir".

Tirmizi demişdir: "Buxari demişdir ki, bu hədisin ən səhih rəvayəti əl-Əşhəlinin rəvayətidir".

Buxari demişdir: "Bu fəsildə ən səhih hədis Auf ibn Malikin hədisidir".

[1] "Musnəd İmam Əhməd", 2/306; "Sunən Əbu Davud", 3201; "Sunən ət-Tirmizi", 1024; "Sunən İbn Macə", 1498.

٩٣٧ – وعن أبي هُرَيْرَةَ ﷺ قال: سمعتُ رَسُول اللَّهِ ﷺ يقول: « إذ صَلَّيْتُم عَلى المَيِّت، فأَخْلِصُوا لهُ الدُّعاءَ » رواه أبوداود.

937. Rəvayət olunur ki, Əbu Hureyra ﷺ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Namazını qıldığınız meyit üçün ixlasla dua edin"**».[1]

Hədisi Əbu Davud rəvayət etmişdir.

Şərh:

Bu hədis namazda meyit üçün edilən duanın keyfiyyəti haqqındadır. Bir qədər öncə isə meyitə xas dua barəsində Auf ibn Malikin ﷺ hədisini qeyd etmişdik.

Müəllifin ﷺ gətirdiyi bu dua ümumi bir duadır. Meyit namazı qılan kəs dua edib bunları deyir: "Allahım, dirimizi və ölümüzü, kiçiyimizi və böyüyümüzü, erkəyimizi və dişimizi, şahid olanımızı və qaibimizi (burada iştirak etməyənimizi) bağışla". Əslində, bütün bu cümlələri bir cümlə ilə də əvəz etmək olar. Əgər adam: "Allahım, dirilərimizi və ölülərimizi bağışla!" deyərsə, bu hər kəsə şamil olunacaqdır. Lakin dua məqamında təfsilata varmaq gərəkdir. Çünki duanın hər bir cümləsi izzət və cəlal sahibi Allaha ibadətdir. Onları təkrar etdikdə savabın da artmış olacaq.

"Dirimizə və ölümüzə" sözü indi sağ olanlara və keçmişdə ölmüşlərə və indiki zamanda ölənlərə şamil olunur. Həmçinin **"kiçiyimizi və böyüyümüzü"** sözü də kiçikli-böyüklü bütün ölülərə və dirilərə şamil olunur. Azyaşlı insanların günahı olmasa belə, onlar tabeçilik baxımından qeyd edilir. Əslində isə azyaşlı insanın günahı olmur ki, onun üçün də bağışlanma dilənsin.

"Erkəyimizə və dişimizə" sözü də ümumidir.

"Şahidimizə və qaibimizə" – hazırda burada olanlara və müsafirlərə (səfərdə olanlarımıza, bizimlə burada olmayan dirilərimizə) şamil olunur.

"**Allahım, bizlərdən diri saxladıqlarını İslam üzərində yaşat, vəfat etdirdiklərini də iman üzərində vəfat etdir!**" Burada "dirilik" sözü İslamla birlikdə qeyd olunur, çünki İslam zahirdə təslim olmağa deyilir. "Ölüm"

[1] "Sunən Əbu Davud", 3199; "Sunən İbn Macə", 1497.

sözü isə imanla birlikdə qeyd olunur. Çünki iman daha üstündür və onun məkanı qəlbdir – əvvəlcə ölüm anında, daha sonra isə Qiyamət günündə qəlbdə olana baxılır.

"**Allahım, bizi onun əcrindən məhrum etmə**", yəni onun namazını qılmaqla. Çünki insan, artıq qeyd etdiyimiz kimi, meyitə namaz qılmaqla əcr qazanır. Kim cənazə namazında iştirak edərsə, ona bir qirat savab, cənazə dəfn olunanadək iştirak edərsə, ona iki qirat savab yazılar – bunun savabı budur. Bu zaman yaxını ölən kəs də buna görə əcr qazanır. Belə ki, o, bu müsibətə səbir etdiyi üçün əcr qazanmış olur.

"**bizi ondan sonra fitnəyə məruz qoyma!**", yəni ondan sonra bizi dinimizdən sapdırma. Çünki dirinin fitnəyə düşməyəcəyindən əmin olmaq olmaz. İnsanın ruhu bədənindən çıxmayana qədər dinində fitnələrə məruz qala bilər. Allaha sığınırıq! Ona görə də buyurulur ki: "Bizi ondan sonra fitnəyə məruz qoyma!"

İnsan gərək Rəsulullaha ﷺ tabe olaraq bu duanı etsin.

Əbu Hureyranın رضي الله عنه hədisində isə Peyğəmbər ﷺ demişdir: **"Namazını qıldığınız meyit üçün ixlasla dua edin".** Yəni, sən ölmüş qardaşın üçün dua etdikdə qəlbin də iştirak etməlidir. Çünki onun sənin ixlaslı duana ehtiyacı var. Müvəffəq edən Allahdır.

٩٣٨ – وعَنْهُ عَنِ النَّبِيِّ ﷺ في الصَّلاةِ عَلى الجَنَازَة: « اللَّهُمَّ أَنْت رَبُّهَا، وَأَنْتَ خَلَقْتَهَا، وأَنْتَ هَدَيْتَهَا للإسلامِ، وَأَنْتَ قَبَضْتَ رُوحَهَا، وَأَنْتَ أَعْلمُ بِسِرِّها وَعَلانيتِها، جئْنَاكَ شُفعاءَ لَهُ فاغفِرْ لهُ ». رواه أبو داود.

938. Yenə Əbu Hureyradan rəvayət olunur ki, Peyğəmbər ﷺ cənazə namazında belə demişdir: **"Allahım, onun Rəbbi Sənsən, onu Sən yaratmısan, onu İslama yönəldən Sənsən, onun ruhunu alan da Sənsən, onun gizlinini və aşkarını bilən də Sənsən. Biz gəldik ki, Səndən onun üçün şəfaət diləyək, – onu bağışla!"**

Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

[1] "Sunən Əbu Davud", 3200.

٩٣٩ – وعن واثِلة بنِ الأسقعِ ﷺ قال: صَلَّى بِنَا رسولُ اللَّهِ ﷺ عَلى رجُلٍ مِنَ المُسْلِمينَ، فسمعته يقولُ: « اللَّهُمَّ إنَّ فُلانَ ابْنَ فُلان في ذِمَّتِكَ وحَلَّ بجوارك، فَقِهِ فِتْنَةَ القَبْر، وَعَذَابَ النَّارِ، وَأَنْتَ أَهْلُ الوَفاءِ والحَمْدِ، اللَّهُمَّ فاغفِرْ لهُ وَارْحَمْهُ، إنكَ أَنْتَ الغَفُور الرَّحِيمُ » رواه أبو داود.

939. Vasilə ibn əl-Əsqadan ﷺ rəvayət olunur ki, bir dəfə Peyğəmbər ﷺ müsəlmanlardan bir kişinin cənazə namazını qıldı, mən də onun belə dediyini eşitdim: **"Allahım, filankəsin oğlu filankəs Sənin zimmətindədir, Sənin yanındadır, Sənin yanına gəlib. Onu qəbir fitnəsindən və Cəhənnəm odundan qoru! – Sən vəfa və həmd əhlisən. Allahım, onu bağışla, ona rəhm et! Şübhəsiz ki, Sən Bağışlayansan, Rəhmlisən".**

Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

٩٤٠ – وعن عبد اللَّه بنِ أبي أوْفى ﷺ أَنَّهُ كبَّر على جَنَازَةِ ابْنَةٍ لَهُ أَرْبَعَ تَكْبِيراتٍ، فَقَامَ بَعْدَ الرَّابِعَةِ كَقَدْرِ مَا بَيْنَ التَّكْبيرتيْن يَسْتَغفِرُ لهَا وَيَدْعُو، ثُمَّ قال: كَانَ رسُولُ اللَّهِ ﷺ يَصْنَعُ هكذَا وفي رواية: « كَبَّرَ أَرْبعاً فمكث سَاعةً حتَّى ظَنَنْتُ أَنَّهُ سيُكَبِّرُ خَمْساً، ثُمَّ سلَّمَ عنْ يمِينهِ وَعَنْ شِمالِهِ، فَلَمَّا انْصَرَف قُلْنا لَهُ: مَا هذا؟ فقال: إنِّي لا أزيدُكُمْ عَلى مَا رَأَيْتُ رسُولُ اللَّهِ ﷺ يَصْنَعُ، أوْ: هكذا صَنعَ رسولُ اللَّهِ ﷺ. رواه الحاكم وقال: حديث صحيح.

940. Abdullah ibn Əbu Əufədən ﷺ rəvayət olunur ki, bir dəfə o, öz qızı üçün dörd dəfə təkbir gətirməklə cənazə namazı qıldı. Dördüncü təkbirdən sonra da iki təkbir arasında dayandığı qədər dayanaraq onun üçün bağışlanma dilədi və dua etdi. Sonra dedi: "Rəsulullah ﷺ belə edərdi".

Başqa bir rəvayət isə belədir: "Dörd təkbir etdi, sonra uzun-uzadı dayandı. Hətta elə güman etdim ki, beşinci dəfə təkbir deyəcək. Sonra sağına və soluna salam verdi. O çıxıb gedərkən biz ona dedik: "Bu nədir?" Dedi: "Mən Rəsulullahdan ﷺ gördüyümə sizin üçün heç nə artırmadım", yaxud: "Rəsulullah ﷺ belə edərdi".

Hədisi Hakim rəvayət etmiş və demişdir: "Bu, səhih hədisdir".[2]

---

[1] "Sunən Əbu Davud", 3202.

[2] "Mustədrək əl-Hakim", 1/360.

Yüz əlli səkkizinci fəsil

Cənazədə tələsmək

Mövzu ilə əlaqəli hədislər:

٩٤١ – عن أبي هُرَيْرَةَ ﷺ عَن النَّبيِّ ﷺ قال: « أَسْرِعُوا بِالجَنَازَةِ، فَإِنْ تَكُ صَالِحَةً، فَخَيْرٌ تُقَدِّمُونها إِلَيْهِ، وَإِنْ تَك سِوَى ذلِكَ، فَشَرٌّ تَضَعُونَهُ عَنْ رِقَابِكُمْ » متفقٌ عليه.

وفي روايةٍ لِمُسْلِمٍ: « فَخَيْرٌ تُقَدِّمُونَهَا عَلَيْه ».

941. Əbu Hureyra ﷺ Peyğəmbərin ﷺ belə dediyini rəvayət etmişdir: **"Cənazəyə tələsin. Əgər əməlisaleh olarsa, ona daha xeyirli olanı təqdim etmiş olarsınız. Əgər belə olmazsa, boynunuzdan pis bir şeyi götürmüş olarsınız"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

Muslimin rəvayətində isə: **"Onu xeyirli olanın üzərində qoyarsınız"**– deyilir.[1]

٩٤٢ – وعن أبي سعيدٍ الخُدْرِيِّ ﷺ قَالَ. كَانَ النَّبيُّ ﷺ يَقُولُ: « إذا وُضِعَتِ الجِنَازَةُ، فَاحْتَملَهَا الرِّجَالُ عَلى أَعنَاقِهِمْ، فَإِنْ كَانتْ صَالحةً، قالتْ: قَدِّمُوني، وَإِنْ كَانَتْ غَيْرَ صَالِحَةٍ، قَالَتْ لأَهْلِهَا: يَاوَيْلَهَا أَيْنَ تَذْهَبُونَ بِهَا، يَسْمَعُ صَوْتَهَا كُلُّ شَيْءٍ إلاَّ الإنسانَ، وَلَوْ سَمِعَ الإنْسَانُ، لَصَعِقَ » رواه البخاري.

942. Rəvayət olunur ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "Peyğəmbər ﷺ belə deyərdi: **"Kişilər hazır cənazəni çiyinlərinə alıb daşıdıqda əməlisaleh olan deyər ki: "Aparın məni". Aparılan əməlisaleh deyilsə, öz əhlinə deyər ki: "Vay halıma, məni hara aparırsınız?" Onun səsini insandan başqa hər kəs eşidər. İnsan onun səsini eşitsəydi, dəhşətə gələrdi".**

Hədisi Buxari rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 1315; "Səhih Muslim", 944.

[2] "Səhih əl-Buxari", 1316.

Şərh:

Müəllif ﷺ "Salehlər bağçası" əsərində **"Cənazəyə tələsmək"** fəsli açır.

"Cənazəyə tələsmək" deyildikdə, onu hazırlamaq və tez dəfn etmək nəzərdə tutulur. Belə ki, ölən adam ya əməlisaleh olur, ya da bunun əksi. Əgər əməlisaleh olarsa, gecikdirmə onunla Allahın ona qəbrində hazırladığı nemətlər arasında bir fasilə olar. Axı o, bu dünyadan daha xeyirli və əfzəl olan yerə köçür. Belə ki, ölüm anında ona müjdə verilir və onun ruhuna belə deyilir: "Allahın rəhməti və razılığı barədə müjdələr olsun". Adam da bu müjdə üçün darıxmış olur. O özü də tələsir və istəyir ki, onu tələsdirsinlər. Meyiti saxladıqda isə ona qarşı bir cinayət edilmiş olur və onunla Allahın onun üçün hazırladığı nemətlər arasında bir fasilə yaranır.

Yox, əgər ölən kəs əməlisaleh deyilsə, – Allaha sığınırıq! – o adam bizim aramızda olmamalıdır. Ondan qurtulmaq üçün gərək tələsək. Buna görə də Peyğəmbər ﷺ demişdir: **"Cənazəni tələsdirin!"**. Yəni onu hazırlamaqda, namazının qılınmasında və dəfnində tələsin və əsla gecikdirməyin.

"Əgər əməlisaleh olarsa, ona daha xeyirli olanı təqdim etmiş olarsınız".

"Daha xeyirli", yəni köçdüyü yerdən daha xeyirli bir yer.

"Təqdim etmiş olarsınız", çünki o, Allahın rəhmətinə, nemətlərinə, sevinc və nura doğru gedir. Allahdan diləyirəm ki, bizləri və sizi onlardan etsin. Beləcə, ona xeyir təqdim etmiş olarsınız.

"Əgər belə olmazsa", yəni əməlisaleh deyilsə, **"boynunuzdan pis bir şeyi götürmüş olarsınız"**, yəni ondan canınızı qurtararsınız. Çünki xeyirli olmayan bir şeyin qalmasında da xeyir yoxdur.

Beləliklə, bu hədisdən belə bir fayda götürülür ki, cənazəni tezləşdirmək Sünnədir və gərək cənazə gecikdirilməsin. Günümüzdə bəzi insanlar birisi öldükdə deyirlər ki, gözləyin, qoy onun yaxınları da yaxından-uzaqdan gəlsinlər. Ola bilsin ki, ailəsinin bəzi üzvləri Avropada və ya Amerikada olsun. Deyirlər ki, bir-iki gün gözləyin, qoy onlar da gəlsinlər. Bu da ölüyə qarşı bir cinayət, Rəsulullahın ﷺ: **"Cənazəni tələsdirin!"** əmrinə qarşı üsyandır. Cənazə, ailəsi gəlmədən öncə dəfn olunubsa, sonradan gələnlər onun namazını məzarının başında qıla bilərlər – Allaha həmd olsun ki, məsələ genişdir. Ailəsi gələnədək cənazə saxlanırsa, ona bunun nə faydası olacaq? Ona yalnız dua və cənazə namazının faydası vardır.

Cənazə artıq qəbirdə olduqda belə, namazı qılındıqda həmin fayda əldə oluna bilər. Ona görə də meyiti həbs etməyin heç bir adı yoxdur. Birdən kimsə desə ki, məgər Peyğəmbər ﷺ həftənin bazar ertəsi günü vəfat etdiyi halda çərşənbə günü dəfn olunmadımı? Deyirik ki, bəli, ancaq səhabələr Peyğəmbəri ﷺ dəfn etməmişdən öncə insanlara bir xəlifə təyin etmək istədilər ki, izzət və cəlal sahibi yer üzü xəlifəsiz qalmasın. Ona görə də Əbu Bəkrə رضي الله عنه beyət olunan kimi Peyğəmbər ﷺ də dəfn olundu. Bu da aydın və zahirdə olan bir səbəbdir.

Peyğəmbərin ﷺ: **"Əgər əməlisaleh olarsa, ona ən xeyirli olanı təqdim etmiş olarsınız. Əgər belə olmazsa, boynunuzdan pis bir şeyi götürmüş olarsınız"** hədisindən belə bir fayda alınır ki, pis sözlərin yerinə onu əvəz edən və mənasını verən sözlərdən istifadə olunmalıdır. Belə ki, əməlisalehin əksi xarabdır. Lakin Peyğəmbər ﷺ: "əgər xarab bir adam olarsa" demir, buyurur ki: **"bunun əksi olarsa"**. Bu da tələffüz zamanı ədəbli olmaq fəslindəndir. Hər ikisinin də mənası eynidir.

Danışıq zamanı ədəbli olmağın qəribə bir özəlliyi vardır. Uca Allahın cinlər barəsindəki ayəsinə bir baxın: **"Biz bilmirik, *bununla* yerdəkilərə pislik etmək qəsd edilmişdir, yoxsa Rəbbi onları doğru yola yönəltmək istəmişdir?"**[1] Onlar xeyir istədikdə, bunu Allaha nisbət etmişdilər: **"yoxsa Rəbbi onları doğru yola yönəltmək istəmişdir?"** Pislik barəsində isə: **"*bununla* yerdəkilərə pislik etmək qəsd edilmişdir"** dedilər, ancaq "Allahın istədiyi bir pislikdir" demədilər. Baxmayaraq ki, yaxşılığa da, pisliyə də icazə verən Allahdır, ancaq Allahın istədiyi pis bir şey Onun feilində deyil, yaratdıqlarındadır.

İzzət və cəlal sahibi Allahın feili şəkk yoxdur ki, xeyirlidir. Lakin izzət və cəlal sahibi Allahın bildiyi bir hikmətə görə şəri xeyirə təqdir edir.

Xülasə, gərək insan sözləri seçərkən mənaya xələl gətirmədən ədəbli olsun. Deyilənə görə, bir padşah yuxuda görür ki, dişləri tökülüb. O da bunun fikrini çəkir. Bütün yuxu yozanları bir yerə toplayır. Onlardan biri deyir ki, sənin ətrafındakılar öləcək. Yəni, həmin adam dişlərin tökülməsini ətrafındakı insanların və ailə üzvlərinin ölümü kimi yozur. Belə açıqlama padşahın xoşuna gəlmir. Əmr edir ki, həmin adamı şallaqlasınlar. Sonra başqa bir yuxu yozanı çağırır və ondan gördüyü yuxunun

[1] "əl-Cinn" surəsi, 10.

mənasını soruşur. Həmin adam da cavab verir ki, bunun mənası budur ki, padşah ətrafındakılardan daha uzunömürlü olacaq. Bu açıqlama padşahın xoşuna gəlir və o, həmin adamı mükafatlandırır.

Baxmayaraq ki, nəticə etibarilə hər iki açıqlamanın mənası eyni idi, niyə padşah cavablardan birinə qane oldu? Çünki sözlərin insana təsiri vardır. Buna görə də Peyğəmbər ﷺ buyurur ki: **"Əgər belə olmazsa, boynunuzdan pis bir şeyi götürmüş olarsınız".** Gərək insan pisliyi daşımasın və ya pisliyi yanında saxlamasın.

Daha sonra müəllif رحمه الله Əbu Səid əl-Xudrinin رضي الله عنه hədisini zikr edir ki, cənazəsi hazırlanan və daşınan əməlisaleh olarsa, deyər ki: "aparın məni, aparın məni". O bu sözləri uca səslə deyər və insanlardan başqa hər kəs onun səsini eşidər. İnsanın bunu eşitməməsi izzət və cəlal sahibi Allahın bir nemətidir. Çünki biz ölülərin nəş üzərində nələr dediyini eşitmiş olsaydıq, narahat olardıq. Lakin uca Allah bunu bizdən gizlədib. Əməlisaleh deyir: "Aparın məni, aparın məni". Bəs hara aparsınlar? – Ölüm anında müjdəsini aldığı, Allahın onun üçün hazırladığı nemətlərə doğru.

Daşınan cənazə əməlisaleh olmadıqda isə öz əhlinə deyər ki: "Vay halıma, məni hara aparırsınız?" Allah qorusun, "vay halıma" deyir. Çünki o, Allah qorusun, qəbir əzabına doğru aparılır. Məzarı o qədər sıxılır ki, qabırğaları bir-birinə girir, Cəhənnəmdən də ona bir qapı açılır. Allaha sığınırıq! Diri olanlardan da heç kim bunu görmür, bizlər bunu hiss etmirik. Nöqsansız və uca Allahın nemətlərindəndir ki, onları bizdən gizlədib – biz bunu görüb-hiss etsəydik, heç dəfn olunmazdıq.

Bu hədis dəlildir ki, Allahın ona bəxş etdiyi nemətlərə qovuşması üçün tələsməyimiz meyitin haqqıdır. Buna görə də elm əhli demişdir ki, meyiti tez hazırlayb dəfn etmək Sünnədir. Yalnız qəfil ölən kəs istisnadır – beləsinin ölüb-ölməməsi dəqiqləşənə qədər gözləmək lazımdır. Çünki ola bilsin, o yalnız huşunu itirib və hələ də diridir. Onun ölüb-ölmədiyi dəqiqləşənədək gözləmək lazımdır. Əgər məlum olsa ki, o artıq keçinmişdir, bundan sonra tələsmək lazımdır. Müvəffəq edən Allahdır.

Yüz əlli doqquzuncu fəsil

Ölünün borcunu ödəməyə və onu hazırlamağa tələsmək. Yalnız qəfil ölən kəs istisnadır – beləsinin ölüb-ölmədiyi dəqiqləşənə qədər gözləmək lazımdır

Mövzu ilə əlaqəli hədislər:

٩٤٣ – عن أَبي هريرة ﷺ، عن النبي ﷺ قال: « نَفْسُ الْمُؤْمِنِ مُعَلَّقَةٌ بِدَيْنِهِ حَتَّى يُقْضَى عَنْهُ ». رواه الترمذي وقال: حديث حسنٌ.

943. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Möminin nəfsi onun borcu ödənənədək ona (borcuna) pərçimlənmiş qalar"**.

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[1]

٩٤٤ – وعن حُصَيْنِ بن وحْوَحٍ ﷺ أَنْ طَلْحَةَ بنَ الْبَرَاءِ بن عازب ﷺ مَرِض، فَأَتَاهُ النَّبِيُّ ﷺ يَعُودُهُ فَقَالَ: إِنّي لا أُرَى طَلْحةَ إلاَّ قدْ حَدَثَ فِيهِ المَوْتُ فَآذِنُوني بِهِ وَعَجِّلُوا بِهِ، فَإِنَّهُ لا يَنْبَغِي لجِيفَةِ مُسْلِمٍ أنْ تُحْبَسَ بَيْنَ ظَهْرَانَيْ أَهْلِهِ ». رواه أبو داود

944. Husayn ibn Vahvah ﷺ deyir ki, bir dəfə Talhə ibn əl-Bəra ibn Azib ﷺ xəstələnir. Bu zaman Peyğəmbər ﷺ onu ziyarət etməyə gəlir və deyir: **"Mən görürəm ki, artıq Talhə ölmək üzrədir, mənə onunla bağlı icazə verin və onu tələsdirin. Gərək möminin cəsədi əhlinin yanında həbs olunmuş vəziyyətdə qalmasın"**.

Hədisi Əbu Davud rəvayət etmişdir.[2]

Şərh:

Müəllif ﷺ "Salehlər bağçası" əsərində **"Ölünün borcunu ödəməyə və onu hazırlamağa tələsmək. Yalnız qəfil ölən kəs istisnadır – beləsinin ölüb-ölmədiyi dəqiqləşənə qədər gözləmək lazımdır"** fəslini açmışdır.

---

[1] "Sunən ət-Tirmizi", 1087; "Sunən İbn Macə", 2413.

[2] "Sunən Əbu Davud", 3159.

Müəllifin "Ölünün borcunu ödəməyə tələsmək" sözü o deməkdir ki, əgər ölən insanın borcu varsa, yaxınları onun borcunu ödəməyə tələsməlidir. Bunu gecikdirmələri icazəli deyil, çünki ondan miras olaraq aldıqları mal onun malıdır. Onun borcu tam ödənmədən onların həmin mal üzərində haqqı yoxdur. Yəni, varislər onun borcunu ödəmədən mirasdan bir dirhəmə belə haqları çatmır. Uca Allah mirasla bağlı ayələrdə bu haqda belə buyurur: **"Onların vəsiyyəti yerinə yetirildikdən və borcu ödənildikdən sonra zərər yetirməmək şərtilə ...".**[1] Ona görə də ölən şəxsin borcunu ödəmədən öncə varislərin onun mirasından nə isə götürməyə haqları yoxdur. Gərək onlar borcu qaytarmağa tələssinlər. Yalnız borcun müddəti çatmadığı hal istisnadır – bu zaman borc verəndən gözləməsi xahiş olunur. Əgər borc yiyəsi razı olmasa, o zaman borcu tez ödəmək lazımdır. Əgər gözləməyə razı olsa, o zaman varislərdən girov və ya zamin qoyulması tələb edilə bilər.

Adətən insanlar ölülərin borcunu ödəmək məsələsinə səhlənkar yanaşırlar. Görürsən ki, bəzən borclu birisi ölür, ancaq varislər mirasla oynayıb borcu ödəməyi gecikdirirlər. Məsələn mərhumun bir neçə yüz min borcu qalıb, ancaq özü də bir-neçə daşınmaz əmlak qoyub gedib. Varislər də başlayırlar ki, mülkləri satmırıq, gözləyirik ki, qiyməti qalxsın, sonra sataq. Bu haramdır. Onlar mülkü hətta yarı qiymətinə satsalar belə, onu satmağa tələsməlidirlər. Çünki mal onların deyil, mal ölüyə məxsusdur.

Yaxud başqa bir misal. Olur ki, insan mülki inkişaf fondundan borca pul götürüb, ancaq borcun bir hissəsini qaytarmadan dünyasını dəyişir. Görürsən ki, varislər mülklə oynayır və fondun pulunu qaytarmırlar. Bu zaman hətta ola bilsin, şeytan onlara vəsvəsə versin və onlar hökumətdən borcun silinməsi barədə tələb də irəli sürsünlər, sonra da desinlər ki, gözləyirik cavab gəlsin. Ancaq bilinmir: ola bilsin, cavab mənfi olsun, ola da bilsin, borc silinsin. Varislərin belə etməsi onlara icazəli deyil. Gərək onlar ölmüş şəxsin borcunu ödəməyə tələssinlər.

Yox, əgər ölmüş şəxs sağlığında ikən boynuna düşən borcu ödəyibsə, evi isə hələ də fondda girov olaraq qalırsa, ölmüş adam bununla da azad olmur, ancaq üzərinə də heç bir şey düşmür. Bəzi təqvalı insanlar vaxtilə

[1] "ən-Nisa" surəsi, 12.

inkişaf fondundan borc götürüb, sonra da həmin borcu tamamilə ödəyən birisinin ölməsindən sonra da bu borca bağlı olduğunu düşünürlər. Əslində isə belə deyil. Əgər ortada girov varsa, bu zaman ölmüş adamın boynuna bir şey düşmür. Buna dəlil Peyğəmbərin ﷺ vəfat etdiyində bir yəhudiyə borcunun olması hədisidir. Rəsulullah ﷺ bu borc müqabilində həmin yəhudiyə öz zirehini girov qoymuşdu. İndi deyə bilərikmi ki, Peyğəmbər ﷺ borclu qaldı?! Xeyr, çünki Peyğəmbər ﷺ borc əvəzində ona elə bir girov qoymuşdu ki, bu onun borcunu əhatə edirdi.

Sonra müəllif رحمه الله Əbu Hureyranın رضي الله عنه hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Möminin nəfsi onun borcu ödənənədək ona (borcuna) pərçimlənmiş qalar".** Yəni, onun nəfsi qəbirdə olarkən belə, borca bağlı olur. Bu halın necəliyini yalnız Allah bilir: borcu gecikdirildiyinə görə nəfsi ağrı çəkir, nemətlərə görə sevinmir və onlardan həzz ala bilmir – çünki hələ də borc yükü var. Ona görə də deyirik ki, varislər borcu ödəməyə tələsməlidirlər.

İkinci hədisə gəlincə isə bu barədə söhbət açanda dedik ki, cənazəni hazırlayıb yola salmaqda tələsmək vacibdir və ya Sünnədir. Ona görə də Peyğəmbər ﷺ buyurur ki: **"Gərək möminin cəsədi əhlinin yanında həbs olunmuş vəziyyətdə qalmasın".** Lakin insanların toplanması üçün cənazənin yola salınmasını bir-iki saat müddətinə gecikdirməkdə, in şəə Allah, bir qəbahət yoxdur. Misal üçün, cümə günü səhər vaxtı adam vəfat edir, yaxınları da deyir ki, gözləyək, cənazəyə çox insan yığışsın. Aydındır ki, belə gecikdirmənin cənazəyə zərəri yoxdur. Müvəffəq edən Allahdır.

Yüz altmışıncı fəsil

Məzarın yanında moizə demək

Mövzu ilə əlaqəli hədis:

٩٤٥ – عن عليٍّ ﵁ قال: كُنَّا في جنَازَةٍ في بَقِيع الْغَرْقَد فَأَتَانَا رَسُولُ اللَّه ﷺ، فقَعَدَ، وقعدْنَا حَوْلَهُ وَمَعَهُ مِخْصَرَةٌ فَنَكَسَ وَجَعَلَ يَنْكُتُ بِمِخْصَرتِهِ، ثم قال: ما مِنكُمْ مِنْ أَحَدٍ إلاَّ وَقَدْ كُتِبَ مقْعَدُهُ مِنَ النَّارِ ومَقْعَدُهُ مِنَ الجنَّة » فقالوا: يا رَسُولَ اللَّهِ أَفَلاَ نَتَّكِلُ على كتابنَا؟ فقال: « اعْمَلُوا، فَكُلٌّ مُيَسَّرٌ لِمَا خُلِقَ لَهُ » وذكَر تمامَ الحديث، متفقٌ عليه.

945. Rəvayət olunur ki, Əli ﵁ demişdir: "Baqiul-Ğarqad məzarlığında bir cənazənin dəfnində idik. Bu vaxt Rəsulullah ﷺ gəlib oturdu, biz də onun ətrafında oturduq. Onun əlində bir çubuq var idi. O, çubuğunu yelləyərək dedi: **"Elə bir kəs yoxdur ki, Cəhənnəmdən və Cənnətdən olan yeri ona yazılmış olmasın".** Dedilər: "Ey Allahın elçisi, elə isə bizə yazılana arxayın olaqmı?" Dedi: **"Çalışın! Hər kəsə layiq olduğu asanlaşdırılıb"**. Sonra hədisin davamını zikr etdi.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" əsərində **"Məzarın yanında moizə demək"** fəslini qeyd etmişdir.

Moizə, insanların qəlbini yumşaldacaq sözlərlə onlara edilən xatırlatmadır – ya onları xeyirli işlərə rəğbətləndirməklə, ya da şərdən çəkindirmək üçün qorxutmaqla olur. Qəlbi islah edəcək ən əzəmətli, ən üstün moizə isə Qurani-Kərimdir. Uca Allah bu xüsusda buyurur: **"Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir".**[2]

Quran, qəlbi olan, şahid kimi dinləyən kəs üçün ən əzəmətli vaizdir. Lakin bir çoxlarının, daha doğrusu əksər insanların qəlbi Qurandan moizə

---

[1] "Səhih əl-Buxari", 7551; "Səhih Muslim", 2647.

[2] "Yunus" surəsi, 57.

götürmür. Çünki orada (onların qəlbində) sərtləşmə vardır. Uca Allah özlərinə ayələr oxunduğu zaman bəzilərinin: **"Bu əvvəlkilərin əfsanələridir"**[1] – dediyini buyurur. Allaha sığınırıq! Yəni, onlar buna hekayə kimi baxırlar. Xeyr, bu əvvəlkilərin əfsanələri deyil! Uca Allah buyurur: **"Xeyr! Onların qəlbini qazandıqları *günahlar* bürümüşdür".**[2] Yəni pis işlər gördükləri üçün Allah onların qəlbini möhürləmişdir ki, Quranı Allahın nemət bəxş etdiyi müttəqilərin anladıqları kimi anlamasınlar. Allah həm bizi, həm də sizləri həmin müttəqilərdən etsin. Lakin buna baxmayaraq, ola da bilər ki, Allahın elm, bəyan və fəsahət bəxş etdiyi bir bəndəsi insanlara moizə etsin, onlara xatırlatsın, insanlardan da bəzilərinin qəlbi özlərinə Quran oxunduğu zaman yumşalsın, bəzilərininki isə yumşalmasın. Bu da təcrübədə görünmüş bir haldır.

Sonra müəllif ﵀ Əli ibn Əbu Talibdən ﵁ nəql olunan hədisi qeyd edir. Hədisdə deyilir ki: "Baqiul-Ğarqad məzarlığında bir cənazənin dəfnində idik".

Ğarqadlı Bəqi deyildikdə, Mədinə şəhərində indi də mövcud olan məlum Bəqi məzarlığı nəzərdə tutulur. Ğarqad isə məlum ağac növüdür. Bəqi məzarlığının belə adlanmasının səbəbi həmin məzarlıqda bu ağacın çox olması ilə bağlıdır. Bura hələ Peyğəmbərin ﷺ dövründə Mədinə əhlinin məzarlığı idi. Peyğəmbər ﷺ: **"Allahım, ğarqadlı Bəqi məzarlığının əhlini bağışla!"**[3] demiş və bu sözləri üç dəfə təkrar etmişdir.

Beləliklə, onlar cənazədə ikən Peyğəmbər ﷺ gəlib oturdu, insanlar da onun ətrafında oturdular. Çünki hər kəs Peyğəmbərlə ﷺ birlikdə oturmağı sevirdi. Həmin vaxt onun əlində bir çubuq var idi. Peyğəmbər ﷺ sanki kədərli birisi kimi, həmin çubuğun başını yelləyib dedi: **"Elə bir kəs yoxdur ki, Cəhənnəmdən və Cənnətdən olan yeri ona yazılmış olmasın".** Hər bir Adəm övladının Cənnət əhlindən olacağı təqdirdə oradakı məqamı, habelə Cəhənnəm əhlindən olacağı təqdirdə oradakı yeri yazılmışdır. Bu hər bir insan üçün göylərin və yerin yaradılışından əlli min il öncə yazılmışdır. Allahdan diləyirik ki, bizləri və sizi xoşbəxtlərdən etsin.

---

[1] "əl-Mutaffifin" surəsi, 13.

[2] "əl-Mutaffifin" surəsi, 14.

[3] "Səhih Muslim", 974.

Bu sözləri eşidən insanlar soruşdular: "Ey Allahın elçisi, elə isə bizə yazılana arxayın olaqmı?" Yəni, əgər Cəhənnəm əhlindən olmağımız yazılıbsa Cəhənnəmlik, yaxud Cənnət əhlindən olmağımız yazılıbsa Cənnətlik olacağıqsa, o halda əmələ nə ehtiyac var? O isə buyurdu ki, əməli tərk etməyin – Cənnət əməlsiz olmur, Cəhənnəm də əməl sayəsində olur. Cəhənnəmə oranın əhlinin əməllərini edənlər daxil olacaq. Cənnətə də oranın əhlinin əməllərini edənlər daxil olacaqlar. Sonra dedi: **"Çalışın! Hər kəsə layiq olduğu asanlaşdırılıb"**. Səadət əhli xoşbəxt insanların əməllərinə müvəffəq olurlar, bədbəxt kimsələr isə bədbəxtlərin əməllərinə. Sonra o, Uca Allahın bu ayələrini oxudu: **"Kim *haqqını* verir və *Allahdan* qorxursa, və ən gözəl olan *"la ilahə illəllah" kəlməsini* təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik. Kim də xəsislik edərək *Rəbbinə* ehtiyacı olmadığını güman edirsə və ən gözəl olan *"la ilahə illəllah" kəlməsini* yalan hesab edirsə, Biz onun üstünə ən çətin olanı yükləyəcəyik".**[1]

Buyurdu ki: **"Çalışın! Hər kəsə layiq olduğu asanlaşdırılıb"**. Yəni, çalışın, ancaq yazılana da arxayın olmayın. Çünki yazılan məchuldur və heç kim onun üçün nəyin yazıldığını bilmir. Lakin kim yaxşı iş görürsə, bu onun xeyirli insanlardan olmasına bir müjdədir. Kim də başqa işlər görərsə, bu da onun üçün bir xəbərdarlıqdır.

Ey qardaşım, əgər Allah sənə səadət əhlinin əməllərini etməyi asanlaşdırıbsa, bu sənin xoşbəxt insanlardan olmağına bir müjdədir. Görsən ki, namaz qılırsan, zəkat verirsən, yaxşı işlər görürsən, izzət və cəlal sahibi Allahdan qorxursan, bil və bu sənin müjdən olsun ki, sən səadət əhlindənsən. Belə ki, Uca Allah buyurur: **"Kim *haqqını* verir və *Allahdan* qorxursa, və ən gözəl olan *"la ilahə illəllah" kəlməsini* təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik".**[2]

Yox, əgər özündə bunun əksini görsən, yəni görsən ki, Allah qorusun, pis işlərlə məşğulsan, yaxşı işlər gördükdə sıxılırsan, o zaman özünü xilas et. İzzət və cəlal sahibi Allaha tövbə et ki, bunu sənin üçün asanlaşdırsın. Bil ki, sən nə zaman Allaha tərəf yönəlsən, hətta günahlar etsən belə, Allah da sənə tərəf yönələcək – nə qədər günah etsən belə, Allaha tərəf yönəlsən,

[1] "əl-Leyl" surəsi, 5-10.

[2] "əl-Leyl" surəsi, 5-7.

Allah da sənə tərəf yönələcək. Uca Allah buyurur: «***Qullarıma mənim bu sözümü*** **de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır"».**[1]

Buna əsasən də məzarlığa gələn insanın ətrafında oturan insanlara onlar üçün münasib olan şəkildə moizə etməsi yaxşı olardı. Qoy həm bu hədisdə, həm də Abdurrəhman ibn Səmuranın hədisində deyildiyi kimi etsin. Həmin hədisdə deyilir ki, bir dəfə Peyğəmbər ﷺ ənsardan olan bir kişinin cənazəsinə gəlir. Görür ki, insanlar onun üçün qəbir qazır, lakin hələ qazıb qurtarmayıblar. Gəlib oturur və insanlar da onun ətrafında otururlar. Onların başında sanki quş oturmuşdu. Başında quş oturan kəs isə tərpənmir ki, birdən quş uçar. Onlar Rəsulullaha ﷺ hörmət və həmin məclisə ehtiram olaraq belə edirdilər. O da onlara danışır ki, insanın ölüm vaxtı yetişdikdə onun yanına rəhmət və əzab mələkləri nazil olur. Beləcə onlara uzun bir hədis danışaraq onlara moizə verir.[2]

Qəbirin yanında belə moizə verilir. İnsan gəlib oturduqda və insanlar da onun ətrafında toplandıqda fürsətdən istifadə edərək xatırlatma etməlidir. İnsanların arasından qalxıb sanki xütbə verirmiş kimi, həm də uca səslə danışmaq isə Peyğəmbərin ﷺ yolu, hidayəti deyil. Bu, sünnə deyil. Sünnə Rəsulullahın ﷺ etdiyi kimi etməyindir. Əgər insanlar oturubsa və meyit hələ dəfn olunmayıbsa, sən də otur və dəfnin bitməsinə kimi xatırlatma et, məclislərdəki kimi söhbət et. Bu da adi bir söhbətdir. Bu söhbət xütbə kimi olmur. Lakin bəzi insanlar Nəvəvinin, bundan da əvvəl Buxarinin "qəbirin yanında moizə" sözünü əsas götürüb insanlara xütbə verirlər – səslərini yüksəldərək xütbə edir və xütbədə deyilən "Ey insanlar!" və ya buna bənzər sözlər deyirlər. Bu isə xətadır. Qəbirin yanında moizə vermək də Sünnəyə uyğun olmalıdır. Belə edilməlidir ki, qəbiristanlıq cümə xütbəsi kimi, xütbə verilmə məkanına çevrilməsin. Orada sadəcə oturmuş vəziyyətdə sakit söhbət edilməli və insan bu vaxt hüzn, düşüncə və s. içərisində olmalıdır. Orduya xitab edən və: "Səhər və ya axşam üstümüzə düşmən gəlir" deyən şəxs kimi müraciət etməməlidir.

---

[1] "əz-Zumər" surəsi, 53.

[2] "Sunən ən-Nəsai", 1833.

Bu sadəcə Allahın lütfüdür və O, öz lütfünü istədiyinə verir. Bəzi insanlar aydın dəlilləri doğru şəkildə anlamırlar. Allah dilədiyi kəsi doğru yola yönəldər.

Bəzən də bəzi insanların cənazənin dəfnini gözləyərkən qrup halında toplaşaraq məclis söhbətləri etdiklərini görürsən. Bu vaxt bəzilərinin hətta qəhqəhəsi də eşidilir. Bu da səhvdir. Bunun yeri deyil. Ona görə də deyirlər ki, cənazəni təqib edən kəs gərək vüqarlı olsun, öz aqibəti barədə düşünsün. Düşünməlidir ki, indi bu cənazənin dəfn olunmağını gözlədiyi kimi, sabah insanlar onun da dəfn olunmağını gözləyəcəklər – indi o başqasını dəfn etdiyi kimi, bir gün onu da dəfn edəcəklər. Lap Kəb ibn Zuheyrin dediyi kimi:

Hər bir insan nə qədər sağ olsa da,
Gün gələr, tabut üzərində daşınar.

Uca Allahdan diləyirik ki, bizim və sizin aqibətinizi gözəl etsin.

Yüz altmış birinci fəsil

Meyiti dəfn etdikdən sonra onun üçün dua etmək, bağışlanma diləmək, məzarının yanında bir saat oturmaq və qəbri başında qiraət etmək

Mövzu ilə əlaqəli hədislər:

٩٤٦ – عن أبي عَمْرو وقيل: أبو عبد الله، وقيل: أبو لَيْلى عُثْمَانُ بن عَفَّانَ ﷺ قال: كانَ النَّبيُّ ﷺ إذا فرَغَ من دفن المَيِّتِ وقَفَ علَيهِ، وقال: «استغفِرُوا لأخِيكُم وسَلُوا لَهُ التَّثبيتَ فإنَّهُ الآن يُسأَلُ». رواه أبو داود.

946. Əbu Amr və ya Əbu Abdullah, ya da Əbu Leyla Osman ibn Əffandan ﷺ rəvayət olunur ki, o demişdir: "Peyğəmbər ﷺ meyiti dəfn etdikdən sonra onun yanında durar və deyərdi: **"Qardaşınız üçün bağışlanma diləyin, onun üçün sabitlik diləyin. O, indi sorğu-sual olunur".**

Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

٩٤٧ – وعن عمرو بن العاص ﷺ قال: إذا دفنتمُوني، فأقيموا حَوْل قَبرِي قَدْرَ ما تُنحَرُ جَزُورٌ، ويُقَسَّمُ لحْمُها حَتى أَسْتَأنِسَ بِكم، وأَعْلم ماذا أُرَاجِعُ بِهِ رُسُلَ ربِّي. رواه مسلم. وقد سبق بطوله.

قال الشَّافِعِيُّ رَحِمهُ اللَّه: ويُسْتَحَبُّ أن يُقرَأَ عِنْدَهُ شيءٌ مِنَ القُرآنِ، وَإن خَتَمُوا القُرآن عِنْدهُ كانَ حَسناً .

947. Rəvayət olunur ki, Amr ibn əl-As ﷺ demişdir: "Məni dəfn etdikdə məzarımın ətrafında dəvənin kəsildiyi, ətinin də paylandığı vaxt qədər durun ki, sizinlə rahatlıq tapım, Rəbbimin elçilərinə nə cavab verəcəyimi bilim".

Hədisi Muslim rəvayət etmişdir.[2] Hədisin tam mətni daha öncə qeyd olunmuşdur.

---

[1] "Sunən Əbu Davud", 3221.

[2] "Səhih Muslim", 121.

Şafii demişdir: "Müstəhəbdir ki, onun yanında bir az Quran oxunsun. Əgər onun yanında Quran xətm olunarsa, daha yaxşı olar".

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" əsərində "**Meyiti dəfn etdikdən sonra onun üçün dua etmək, bağışlanma diləmək, məzarının yanında bir saat oturmaq və qəbri başında qiraət etmək"** başlıqlı fəsil açmışdır.

İnsan öldükdə onun yanına iki mələk gəlir və ondan Rəbbi, dini və peyğəmbəri haqqında soruşur. Peyğəmbər ﷺ dəfn etdiyi kimsənin məzarının yanında durub deyərdi: **"Qardaşınız üçün bağışlanma diləyin, onun üçün sabitlik diləyin. O, indi sorğu-sual olunur"**.

Dəfn olunan kimsənin məzarının yanında dayanıb üç dəfə: "Allahım, onu bağışla!"[1], "Allahım, onu sabit et!" demək Sünnədir. Çünki Peyğəmbər ﷺ əksər hallarda dua etdikdə onu üç dəfə təkrar edərdi. Bundan sonra isə zikr, qiraət və ya istiğfar üçün oturulmur. Sünnədə varid olan budur. Müəllifin ﵀ Amr ibn əl-Asdan, onun öz yaxınlarına bir dəvə kəsilənədək gözləməyi əmr etməsini zikr etdiyinə gəlincə isə, o belə demişdir: "sizinlə rahatlıq tapım, Rəbbimin elçilərinə nə cavab verəcəyimi bilim". Yəni, mələklərə. Bu onun ictihadı idi. Lakin biz bu ictihadda ona müvafiq olmuruq. Çünki Peyğəmbərin ﷺ hidayəti başqalarının göstərdiyi yoldan daha kamildir. Peyğəmbər ﷺ hər hansı bir məzarın yanında dəfndən sonra dəvənin kəsilib ətinin paylandığı müddət qədər oturmazdı. Səhabələrinə də bunu əmr etməyib. Onun əmr etdiyi məzarın yanında durub oradakı insan üçün bağışlanma və sabitlik diləmək olmuşdur. Sonra isə insanlar çıxıb getməldir.

Məzarın yanında Quran oxumağa gəlincə isə, daha səhih olan budur ki, bu, bəyənilmir. Bir kimsənin gedib qəbir yanında oturaraq Quran oxuması ən azından məkruhdur. Çünki bu bidətlərdəndir. Peyğəmbər ﷺ isə: **"Hər bir bidət zəlalətdir"**– deyə buyurmuşdur. Müvəffəq edən Allahdır.

[1] "Səhih Muslim", 963.

Yüz altmış ikinci fəsil

Meyitin əvəzinə sədəqə vermək və onun üçün dua etmək

Mövzu ilə əlaqəli ayə:
Uca Allah buyurur:

﴿وَٱلَّذِينَ جَآءُو مِنۢ بَعۡدِهِمۡ يَقُولُونَ رَبَّنَا ٱغۡفِرۡ لَنَا وَلِإِخۡوَٰنِنَا ٱلَّذِينَ سَبَقُونَا بِٱلۡإِيمَٰنِ﴾

"*Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz, bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla!.." [1]

Mövzu ilə əlaqəli hədislər:

٩٤٨ – وعَنْ عائِشَةَ رضي الله عنها أَنَّ رَجُلاً قال للنَّبيِّ ﷺ إنَّ أُمِّي افتُلتَتْ نَفْسُهَا وَأُرَاهَا لو تَكَلَّمَتْ، تَصَدَّقَتْ، فَهَل لهَا من أَجْرٌ إن تصَدَّقْتُ عَنْهَا؟ قال: « نَعَمْ ». متفقٌ عليه.

948. Aişədən رضي الله عنها rəvayət olunur ki, bir kişi Peyğəmbərə ﷺ dedi: "Anam canını tapşırdı. Düşünürəm ki, əgər danışa bilsəydi, sədəqə vermək istəyərdi. Əgər mən onun yerinə sədəqə versəm, o, savab qazanarmı?" Dedi: **"Bəli"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

٩٤٩ – وعن أبي هُرَيْرَةَ رضي الله عنه أنَّ رسُول اللَّهِ ﷺ قال: « إذا مَاتَ الإنسَانُ انقطَعَ عمَلُهُ إلاَّ مِنْ ثَلاثٍ: صَدقَةٍ جاريَةٍ، أوْ عِلم يُنْتَفَعُ بِهِ، أَوْ وَلَدٍ صَالِحٍ يَدعُو له » رواه مسلم.

949. Əbu Hureyradan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"İnsan öldükdə üç şey istisna olmaqla, onun əməlləri kəsilir: davamlı sədəqə, faydalı elm və əməlisaleh övladının onun üçün dua etməsi"**.

Hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] "əl-Həşr" surəsi, 10.

[2] "Səhih əl-Buxari", 1388; "Səhih Muslim", 1004.

[3] "Səhih Muslim", 1631.

Şərh:

Müəllif ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərində **"Ölünün yerinə sədəqə vermək və onun üçün dua etmək"** fəslini qeyd edir, sonra da Uca Allahın bu ayəsini zikr edir: **"*Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz, bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla, bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə! Ey Rəbbimiz, həqiqətən, Sən olduqca şəfqətlisən, rəhmlisən!"**[1]

"*Səhabələrdən* sonra gələnlər", yəni bundan öncə qeyd edilmiş iki sinif insan – onlardan öncə iman gətirmiş mühacirlər və ənsarlar. Belə ki. bu ümmət üç qismə bölünür: mühacirlər, ənsarlar, onlardan sonra gələnlər. Uca Allah bunu Quranın iki ayəsində cəm etmişdir. Onlardan biri uca Allahın bu ayəsidir: **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da *Allahdan* razıdırlar"**.[2] Beləcə, bu üç sinif insan qeyd olunur.

Həmçinin "əl-Həşr" surəsində Uca Allah buyurur: **"*Qənimət həmçinin* yurdlarından qovulmuş və mallarından məhrum olunmuş yoxsul mühacirlərə məxsusdur. Onlar Allahın mərhəmətini və razılığını qazanmağa can atır, Allaha və Onun rəsuluna kömək edirlər. Doğru olanlar da məhz onlardır. *Mühacirlərdən* əvvəl *Mədinədə* yurd salmış, *sonra da* iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. *Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz, bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla, bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə! Ey Rəbbimiz, həqiqətən, Sən olduqca şəfqətlisən, rəhmlisən!"**[3]

Görsən ki, bir adam səhabələrə rəhmət oxuyur, onlar üçün bağışlanma diləyir, onları sevir, bil ki, həmin adam onlardandır. Yox, əgər görsən ki, birisi səhabələri söyür, onlara rəhmət oxumur, onlar üçün bağışlanma dilə-mir, o adam onlardan uzaqdır, onlar da ondan. Həmin adamın bu ümmətdən

---

[1] "əl-Həşr" surəsi, 10.

[2] "ət-Tövbə" surəsi, 100.

[3] "əl-Həşr" surəsi, 8-10.

payı yoxdur. Çünki səhabələr bizimlə Rəsulullah ﷺ arasındakı bir vasitə dirlər – Allahın şəriətini Rəsulullahdan ﷺ bizə onlar nəql etmişlər.

Rəsulullah ﷺ isə bizimlə Rəbbimiz arasındakı vasitəçidir. Səhabələr də Rəbbimizin kəlamını ondan bizlərə çatdırıblar. İndi kimsə gəlib bizimlə Rəsulullahın ﷺ arasındakı vasitəyə tənə vurarsa, bu, bütün şəriətə tənə vurmaq deməkdir. Əgər şəriəti bizə nəql edənlər günahkar, fasiq və ya başqa pis xislətli kəslər olubsa, o zaman bu şəriətin heç bir dəyəri yoxdur. Ələlxüsus da bu, Əbu Bəkri və Öməri söyənlərə aiddir – qəlbində zərrə qədər iman olan kəs əsla onları söyməz. Çünki onlar Rəsulullaha ﷺ tabe olanların ən əfzəlidir. Nuha, İbrahimə, Musaya, İsaya və Muhəmmədə tabe olanlar arasında Əbu Bəkr və Ömərdən daha fəzilətlisi olmayıb. Onlara tənə edənin, Allah qorusun, qəlbində imandan əsər-əlamət yoxdur – o adam imansızın biridir.

Səhabələri söyən, onlara tənə edənlər həm də izzət və cəlal sahibi Allahın dininə tənə etmiş olurlar. Uca Allah bu xüsusda buyurur: **"*Səhabələrdən* sonra gələnlər deyirlər: "Ey Rəbbimiz, bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla, bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə!"**.[1]

Sonra müəllif رحمه الله Aişənin رضي الله عنها nəql etdiyi hədisdə bir kişinin belə dediyini deyir: "Ey Allahın elçisi, anam canını tapşırdı", yəni qəfildən öldü. "Əgər indi danışmış olsaydı, sədəqə vermək istəyərdi. Mən onun yerinə sədəqə verə bilərəmmi?" Buyurdu ki: **"Bəli"**. Bu da ölmüş bir adamın yerinə sədəq verməyin icazəli olmasına dəlalət edir. Niyyətin də o olur ki, ananın, atanın, qardaşının, bacının və ya ölmüş hər hansı bir müsəlmanın yerinə sədəqə verəsən. Sədəqə versən, bu ona fayda verər.

Ölü üçün dua etməyə gəlincə isə, Əbu Hureyranın hədisində deyilir ki, insan öldükdə əməlləri kəsilir. Belə ki, əməl diyarı bu dünyadır – insanın ölməsi ilə əməlləri də bitir. Öldükdən sonra əməl olmur.

"İnsan öldükdə üç şey istisna olmaqla, onun əməlləri kəsilir: davamlı sədəqə", yəni, məsələn, onun özü vəqf, əmlak və ya başqa bir şey qoyub gedir və vəsiyyət edir ki, bu, kasıblar üçün davamlı sədəqədir.

"Yaxud faydalı elm", yəni özündən sonra qoyub getdiyi faydalı elm.

---

[1] "əl-Həşr" surəsi, 10.

"**və əməlisaleh övladının onun üçün dua etməsi**". Çünki əməlisaleh olmayan övlad nə valideyinlərinə yaxşılıq edir, nə də ki, onlar üçün dua edir. Əməlisaleh övlad isə valideyinləri öldükdən sonra onlar üçün dualar edəndir. Buna görə də bizlər övladlarımızın əməlisaleh olmasına çox həris olmalıyıq. Çünki onların əməlisaleh olması həm onlar üçün yaxşıdır, həm də bizim üçün. Belə ki, biz öldükdən sonra da onlar bizlər üçün dualar edəcəklər.

Sadalanan bu üç əməldən ən fəzilətlisi isə faydalı elmdir. Buna misal olaraq göstərə bilərik ki, Əbu Hureyra ﵁ Rəsulullahın ﷺ vaxtında ən fəqih səhabələrdən biri idi. [Maddi durumu isə o qədər acınacaqlı idi ki,] bəzən acından yerə yıxılardı. Bununla belə, əksər müsəlmanlar yalnız onun rəvayətlərindən faydalanır. O, Peyğəmbərdən ﷺ ən çox hədis nəql edən səhabədir – davamlı sədəqə də elə budur.

Mənə Əbu Hureyranın ﵁ vaxtında malından ən çox sədəqə verən bir zənginin adını deyə bilərsinizmi? Onun sədəqələrindən günümüzə bir şey qalıbmı? Cavab: Xeyr. Əsrlərdir İmam Əhməd və Şeyxulislam İbn Teymiyyə məzarlarında olmalarına baxmayaraq, bu gün də bizlərə dərs keçirlər. Çünki onların kitabları bizim əlimizdədir. Əgər İbn Teymiyyənin vaxtındakı ən böyük xəlifənin və ya tacirin işlərinə baxsaq, onların etdiyi xeyirdən bizə bu gün nə isə gəlib çatdığını görərikmi? Təbii ki, xeyr.

Deməli, elm bu üç şeydən ən faydalı olanıdır. Sədəqədən xeyirlidir, çünki ola bilsin, davamlı sədəqə nə vaxtsa bitsin. Nə qədər davamlı sədəqələr olub ki, zamanla silinib və tələf olub. Elm əməlisaleh övladdan da üstündür. Çünki əməlisaleh övlad iyirmi, otuz və ya qırx il sonra vəfat edəcək, ancaq müsəlmanların faydalandığı elm isə Allah dilədiyi qədər davam edəcəkdir. Məsələn, İmam Əhməd və İbn Teymiyyə nə vaxt vəfat ediblər? – İnsanlar isə indiyədək onların elmindən faydalanırlar. Odur ki, müsəlman qardaş, elmə həris ol. Elmin əvəzi yoxdur. İmam Əhmədin dediyi kimi: "Niyyəti düzgün olan üçün". Odur ki, şəriət elmlərinə, onlara yardımçı olan elmlərə həris ol. Ərəb dilinin qaydaları kimi elmlər də buna aiddir. Çünki bu da şəriət elmlərinə yardımçı elmdir. Bunlara həris ol ki, Allah sənə onunla fayda versin, səndən də insanlar faydalansın. Müvəffəq edən Allahdır.

Yüz altmış üçüncü fəsil

Ölmüş adamı tərifləmək

Mövzu ilə əlaqəli hədislər:

٩٥٠ – عن أَنسٍ ﷺ قال: مرُّوا بجَنَازَةٍ، فَأَثنَوا عَلَيْهَا خَيراً فقال النبيُّ ﷺ: « وَجَبَتْ »، ثم مرُّوا بِأُخْرَى، فَأَثنَوْا عليها شَرّاً، فَقَال النَّبِيُّ ﷺ: « وَجبَتْ » فَقَال عُمرُ ابنُ الخَطَّاب ﷺ: ما وجبَتْ؟ قَالَ: « هذا أَثنَيتُمْ علَيْهِ خَيراً، فَوَجبتْ لَهُ الجنَّةُ، وهذا أَثنَيتُم عليه شرّاً، فَوَجبتْ لَهُ النَّارُ، أنتُم شُهَداءُ اللَّهِ في الأرضِ». متفقٌ عليه.

950. Rəvayət olunur ki, Ənəs ﷺ demişdir: "Adamlar bir cənazənin yanından keçərkən onu tərifladilər. Peyğəmbər ﷺ dedi: **"Vacib oldu"**. Sonra başqa bir cənazənin yanından keçərkən onu pislədilər. Peyğəmbər ﷺ yenə dedi: **"Vacib oldu"**. Bu vaxt Ömər ibn əl-Xəttab soruşdu ki, nə vacib oldu? Dedi: **"O adamı tərifladiniz, Cənnət də ona vacib oldu. O birini isə pislədiniz və Cəhənnəm odu ona vacib oldu. Siz Allahın yer üzərindəki şahidlərisiniz".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٩٥١ – وعن أبي الأسود قال: قَدِمْتُ المدِينَةَ، فَجَلَسْتُ إلى عُمْرَ بن الخَطَّابِ ﷺ فَمرَّتْ بِهِمْ جنَازَةٌ، فأُثنىَ على صَاحِبِها خَيْراً فقال عُمَرُ: وجبت، ثم مُرَّ بأُخْرى، فَأثنِيَ على صَاحِبِها خَيراً، فَقَالَ عُمرُ: وجبَت، ثم مُرَّ بِالثَّالِثَةِ، فَأُثنِيَ على صاحبها شَرًّا، فَقَال عُمرُ: وجبتْ: قَالَ أَبُو الأسْودِ: فَقُلْتُ: وما وجبَت يا أميرَ المؤمنين؟ قال: قُلتُ كما قال النَّبيُّ ﷺ: « أَيُّمَا مُسلِم شَهِدَ لهُ أَربعةٌ بِخَير، أَدخَلَهُ اللَّه الجنَّةَ » فَقُلنَا: وثَلاثَةٌ؟ قال: « وثَلاثَةٌ » فقلنا: واثنانِ؟ قال: « واثنانِ » ثُمَّ لم نَسأَلْهُ عَن الواحِدِ. رواه البخاري.

951. Rəvayət olunur ki, Əbul-Əsvəd demişdir: "Bir dəfə Mədinəyə gəldim və gedib Ömər ibn əl-Xəttabın ﷺ yanında oturdum. Bu vaxt onların yanından bir cənazə keçirdi. İnsanlar cənazə sahibini tərifladilər.

[1] "Səhih əl-Buxari", 1367; "Səhih Muslim", 949.

Ömər dedi: "Vacib oldu". Sonra daha bir cənazə keçərkən insanlar onu da tərifladilər. Ömər yenə dedi: "Vacib oldu". Sonra üçüncü bir cənazə keçərkən onu pislədilər. Ömər yenə dedi: "Vacib oldu".

Əbul-Əsvəd deyir ki, mən soruşdum: "Nə vacib oldu, ey möminlərin əmiri?" Dedi: "Mən Peyğəmbərin ﷺ dediyi kimi söylədim: **"Hər hansı bir müsəlmanın yaxşı insan olmasına dörd nəfər şahidlik edərsə, Allah onu Cənnətə daxil edər"**. Biz dedik: "Bəs üç nəfər necə?" Dedi: **"Üç nəfər də"**. Dedik: "Bəs iki nəfər necə?" Dedi: **"İki nəfər də"**. Biz ondan bir nəfər barədə soruşmadıq".

Hədisi Buxari rəvayət etmişdir.[1]

Şərh:

Müəllif رحمه الله "Salehlər bağçası" əsərində açdığı bu fəsli **"Ölmüş adamı tərifləmək fəsli"** adlandırmışdır. İnsanların ölünü tərifləməsi, onu xeyirli və ya pis sözlərlə vəsf etməsidir. Birisi öldükdə, insanlar onun halına görə ya onu tərifləyər, ya da onu pisləyər.

Sonra müəllif Ənəs ibn Malikin və Əbul-Əsvədin Ömər ibn əl-Xəttab barədəki hədisini qeyd edir. Ənəsin hədisində deyilir ki, bir dəfə Peyğəmbərin ﷺ yanından bir cənazə keçərkən insanlar onu tərifladilər, Peyğəmbər ﷺ də: **"Vacib oldu"** dedi. Sonra başqa bir cənazənin yanından keçəndə insanlar onu pislədilər. Peyğəmbər ﷺ yenə: **"Vacib oldu"** dedi. Bu vaxt Ömər ibn əl-Xəttab soruşdu ki, nə vacib oldu, ey Allahın elçisi? Dedi: **"O adamı tərifladiniz, Cənnət də ona vacib oldu. O birini isə pislədiniz və Cəhənnəm odu ona vacib oldu. Siz Allahın yer üzərindəki şahidlərisiniz".**

İkinci adam, daha doğrusunu Allah bilir, münafiqlərdən idi. Peyğəmbərin ﷺ zamanında Mədinədə çoxlu münafiq var idi. Onlar İslamı izhar edir, küfrlərini isə gizlədirdilər. Allaha sığınırıq! Münafiqlər tövbə etmədikləri halda ölərlərsə, Cəhənnəmin ən alt təbəqəsində olacaqlar.

Bu da dəlildir ki, müsəlmanlar ölmüş bir adamı tərifləyərsə, bu həmin adamın Cənnət əhlindən olmasına dəlalət edər. Cənnət ona vacib olar. Əgər müsəlmanlar bir adamı pisləyərsə, bu həmin adamın Cəhənnəm əhlindən olmasına dəlalət edər – Cəhənnəm ona vacib olar. Həmin şahidliyin Peyğəmbərin ﷺ zamanında olması ilə ondan sonra olması arasında heç bir

[1] "Səhih əl-Buxari", 1368.

fərq yoxdur. Çünki Əbul-Əsvədin Ömər ibn əl-Xəttabla bu barədə olan söhbəti Peyğəmbərdən ﷺ sonra baş vermişdir.

Peyğəmbər ﷺ hətta iki nəfərin belə dünyasını dəyişmiş birini tərifləmədikdə həmin adamın Cənnətlik olmasını demişdir. Sünnə və camaat əhlinin əqidəsinə görə biz heç kimin Cənnətlik və ya Cəhənnəmlik olmasına şahidlik edə bilmərik. Yalnız Peyğəmbərin ﷺ şahidlik etdiyi kəslər istisnadır. Rəsulullah ﷺ kimə şahidlik edibsə, biz də ona şahidlik edirik. Məsələn, Cənnətlik olmasını şahidlik etdiyi kəslərdən dörd xəlifə – Əbu Bəkr, Ömər, Osman, Əli, habelə müjdələnmiş on nəfərdən digərləri. Belə ki, Peyğəmbər ﷺ demişdir: **"Əbu Bəkr Cənnətlikdir, Ömər Cənnətlikdir, Osman Cənnətlikdir, Əli Cənnətlikdir, Səd ibn Əbu Vaqqas Cənnətlikdir, Səid ibn Zeyd Cənnətlikdir, Abdurrəhman ibn Auf Cənnətlikdir, Əbu Ubeydə ibn əl-Cərrah Cənnətlikdir, Talhə ibn Ubeydullah Cənnətlikdir və Zubeyr ibn əl-Əvvam Cənnətlikdir"**.[1] Bu on nəfəri Peyğəmbər Cənnətlə müjdələmişdir.

Ukkaşə ibn əl-Mihsan da sağlığında Cənnətlə müjdələnmişlərdəndir. Peyğəmbər ﷺ: **"Bu ümmətdən yetmiş min nəfər hesabsız və əzabsız Cənnətə daxil olacaqdır"**– deyə buyurduqda, Ukkaşə ayağa qalxıb belə dedi: "Ey Allahın elçisi, Allaha dua et ki, məni onlardan etsin". Dedi: **"Sən onlardansan"**. Sonra başqa birisi qalxıb dedi: "Ey Allahın elçisi, Allaha dua et ki, məni də onlardan etsin". Peyğəmbər ﷺ dedi: **"Bu məsələdə Ukkaşə səni qabaqladı"**.[2]

Yaxud Sabit ibn Qeysi xatırlayaq. Uca Allahın: **"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən yüksəyə qaldırmayın və bir-birinizə müraciət etdiyiniz kimi, ona da uca səslə müraciət etməyin. Yoxsa, özünüz də hiss etmədən əməlləriniz hədər gedər"**[3] ayəsi nazil olduqda, o qorxudan özünü evində həbs edərək qalır. Qorxur ki, əməlləri batil olar, çünki o, uca səsli, səsi gur birisi idi. Bir gün Peyğəmbər ﷺ onu soruşur və yanına adam göndərir, o da olanlar barədə ona xəbər verir. Peyğəmbər ﷺ də buyurur ki: **"Həqiqətən, sən Cəhənnəm əhlindən deyil, Cənnət əhlindənsən"**.[4]

---

[1] "Sunən Əbu Davud", 4649; "Sunən ət-Tirmizi", 3748; "Sunən İbn Macə", 133.

[2] "Səhih əl-Buxari", 5705; "Səhih Muslim", 216.

[3] "əl-Hucurat" surəsi, 2.

[4] "Səhih əl-Buxari", 4846; "Səhih Muslim", 119.

Peyğəmbər ﷺ kimin Cənnətlik olmasına şahidlik edirsə, biz də ona şahidlik edirik, kimin də Cəhənnəmlik olmasına şahidlik edirsə, biz də ona şahidlik edirik.

Peyğəmbər ﷺ bəzi adamların da Cəhənnəmlik olmasına şahidlik etmişdir. Qurani-Kərimdə uca Allah Peyğəmbərin əmisi Əbu Ləhəb barədə buyurur: **"O, alovlanan oda atılacaq. Onun odun şələsi daşıyan arvadı da. Arvadının boynunda xurma liflərindən kəndir olacaq".**[1]

Peyğəmbər ﷺ həmçinin xəbər vermişdir ki, onun əmisi Əbu Talib Cəhənnəm odunun ən yüngül təbəqəsində olacaq. Orada onun ayaqlarında çəkmə olacaq və onun istisindən beyni qaynayacaq.[2] Allah qorusun! Yenə bir dəfə bir kişi Rəsulullahın ﷺ yanına gəlib soruşur ki, atam haradadır? Deyir ki: **"Atan Cəhənnəmdədir".**[3] Yenə bir hədisdə Peyğəmbər ﷺ demişdir ki: **"Amr ibn Luhey əl-Xuzəi Cəhənnəmdə ətəyini dartacaq"**.[4]

Demək, Peyğəmbər ﷺ kimin Cəhənnəmlik olmasına şahidlik edibsə, biz də buna şahidlik edirik.

Şeyxulislam İbn Teymiyyə demişdir: "Həmçinin ümmət kimisə tərifləyibsə, biz də onun Cənnət əhlindən olmasına şahidlik edirik. Misal üçün Əhməd, Şafii, Əbu Hənifə, Malik, Sufyan əs-Səuri, Sufyan ibn Uyeynə və başqa alimləri. Allah onlara rəhmət eləsin. Bütün ümmət yekdilliklə onları tərifləyib, biz də onların Cənnət əhlindən olmasına şahidlik edirik".

Elə şeyxulislam İbn Teymiyyəni də bəziləri istisna olmaqla, bütün insanlar tərifləyiblər. Kim camaatdan ayrılarsa, Cəhənnəmə doğru ayrılar. Bu rəyə görə onun da Cənnət əhlindən olmasına şahidlik ediblər. Şeyxulislamın bu rəyini Ömər ibn əl-Xəttabın hədisi də dəstəkləyir. Buxarinin nəql etdiyi həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kimə dörd, üç və ya iki nəfər şahidlik edərsə...".** Bu zaman ondan ﷺ, şahidlik edən bir nəfər barəsində soruşmadılar.

Uca Allahdan diləyirəm ki, bizləri və sizi Cənnət əhlindən və Cəhənnəmə daxil olmaları haram olacaq kəslərdən etsin.

---

[1] "əl-Məsəd" surəsi, 3-5.

[2] "Səhih Muslim", 212.

[3] "Sunən Əbu Davud", 4718.

[4] "Səhih əl-Buxari", 3521; "Səhih Muslim", 2856.

Yüz altmış dördüncü fəsil

Kiçik övladları ölən kəsin fəziləti

Mövzu ilə əlaqəli hədislər:

٩٥٢ – عن أنس ﷺ قال: قَال رَسولُ اللَّهِ ﷺ: « مَا مِنْ مُسلِمٍ يَمُوتُ له ثلاثَةٌ لم يَبلُغُوا الحِنْثَ إلا أدخلَهُ اللَّه الجنَّةَ بِفَضْل رحْمَتِهِ إيَّاهُمْ ». متفقٌ عليه.

952. Ənəsdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Hər hansı bir müsəlmanın üç həddi-büluğa çatmamış övladı ölərsə, Allah onu onlara olan mərhəməti sayəsində Cənnətə daxil edər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٩٥٣ – وعن أَبي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « لا يَمُوتُ لِأَحَدٍ مِنَ الْمُسْلِمِينَ ثَلاثةٌ مِنَ الوَلَدِ لا تمَسُّهُ النَّارُ إِلاَّ تَحِلَّةَ القَسَم » متفقٌ عليه.

« وَتَحِلَّةُ القَسَم » قولُ اللَّهِ تعالى: { وَإِنْ مِنْكُمْ إِلاَّ وَارِدُهَا } والوُرُودُ: هُوَ العُبُورُ عَلى الصِّرَاطِ، وَهُوَ جسْرٌ مَنْصُوبٌ عَلَى ظهْرِ جَهَنَّمَ. عَافَانَا اللَّهُ مِنْهَا.

953. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Müsəlmanlardan birinin üç övladı ölərsə, Cəhənnəm odu ona toxunmaz – yalnız vəd olunan qədər istisnadır"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

"Yalnız vəd olunan qədər istisnadır". Bu xüsusda Uca Allah buyurur: **"İçinizdən hər kəs oraya varid olacaqdır".**[3] **"Varid olmaq"** deyildikdə, körpünün üzərindən keçmək nəzərdə tutulur. Həmin körpü Cəhənnəmin üzərindədir. Allah bizləri əfv etsin.

٩٥٤ – وعن أَبي سعيدٍ الخُدْرِيّ ﷺ قَالَ: جَاءَتِ امرأَةٌ إِلى رَسُولِ اللَّهِ ﷺ فَقَالَتْ: يا رَسُولَ اللَّهِ ذَهَبَ الرِّجالُ بحَديثِكَ، فاجْعَلْ لَنَا مِنْ نَفْسِكَ يَوْماً نَأْتيكَ فيهِ تُعَلِّمُنَا مِمَّا عَلَّمَكَ

---

[1] "Səhih əl-Buxari", 1248; "Səhih Muslim", 2634.

[2] "Səhih əl-Buxari", 6656; "Səhih Muslim", 2632.

[3] "Məryəm" surəsi, 71.

اللَّه، قَالَ: « اجْتَمِعْنَ يَوْمَ كَذَا وَكَذَا » فَاجْتَمَعْنَ، فَأَتَاهُنَّ النبي ﷺ فَعَلَّمَهنَّ مِمَّا علَّمهُ اللَّه، ثُمَّ قَالَ: « ما مِنْكُنَّ مِن امْرَأَةٍ تُقَدِّمُ ثَلاثةً منَ الوَلَدِ إِلاَّ كانُوا لهَا حِجَاباً منَ النَّار » فَقالتِ امْرَأَةٌ: وَاثنينِ؟ فَقَالَ رَسُولُ اللَّه ﷺ « وَاثْنَيْن » متفقٌ عليه.

954. Rəvayət olunur ki, Əbu Səid əl-Xudri رضي الله عنه demişdir: «Bir dəfə bir qadın Rəsulullahın ﷺ yanına gəlib dedi: "Ey Allahın elçisi, kişilər [istədikləri vaxt] sənin söhbətlərini dinləyib gedirlər. Bizim üçün də bir gün ayır, gələk, bizə də Allahın sənə öyrətdiklərindən öyrət". Dedi: **"Filan gün toplaşarsınız"**. Onlar toplanıb Peyğəmbərin ﷺ yanına gəldilər, o da Allahın ona öyrətdiklərindən onlara öyrətdi. Sonra dedi: **"Sizlərdən hər hansı bir qadın üç uşaq dünyaya gətirərsə, onlar onun üçün Cəhənnəmə qarşı bir sipər olar".** Qadınlardan biri soruşdu: "Bəs iki uşaq necə?" Rəsulullah ﷺ dedi: **"İkisini də"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ən-Nəvəvi رحمه الله "Salehlər bağçası" əsərindəki bu fəsli **"Kiçik övladları ölən kəsin fəziləti"** adlandırmışdır. Yəni, kiçik yaşlı övladlarını itirən kəsin fəziləti. Təbii ki, bu zaman həmin adam izzət və cəlal sahibi Allahdan savabını diləyərək səbir edərsə.

Sonra müəllif رحمه الله Ənəs, Əbu Hureyra və Əbu Səidin رضي الله عنهم hədislərini qeyd edir. Bütün bu hədislər bunun fəzilətinə dəlalət edir ki, insanın həddibüluğa çatmamış övladları ölərsə, həmin övladlar Allahın mərhəməti sayəsində onun üçün Cəhənnəmə qarşı bir sipər olar. Çünki həmin kiçik uşaqlara mərhəmət olunur. Uşaqlar böyüdükdə isə müstəqil olurlar. Valideynləri də onlara azyaşlı olduqları halda mərhəmət göstərdikləri kimi, onlara qarşı mərhəmətli olmurlar. Ona görə onların üç azyaşlı övladı vəfat edərsə, o da bunun savabını Allahdan diləyərsə, onlar Cəhənnəm oduna qarşı onun üçün bir örtüyə çevrilər. Cəhənnəm, vəd olunan qədər istisna olmaqla, onlara toxunmaz. **"Vəd olunan qədər"** dedikdə, Uca Allahın bu ayələrdə dediyi qəsd edir: **"İçinizdən hər kəs oraya varid olacaqdır. *Bu,***

[1] "Səhih əl-Buxari", 102; "Səhih Muslim", 2634.

Rəbbinin *əzəldən* müəyyən etdiyi qəti bir qərardır. Sonra Biz müttəqiləri *oddan* xilas edəcək, zalımları isə orada diz üstə çökmüş halda tərk edəcəyik".[1]

Əbu Səid əl-Xudridən ﵁ nəql olunmuş və qadınların toplaşması barədə olan hədisdə deyilir ki, Peyğəmbər ﷺ onların yanına gəlib Allahın ona öyrətdiklərindən onlara da öyrədir və buyurur ki: **"Sizlərdən hər hansı bir qadın üç uşaq dünyaya gətirərsə, onlar onun üçün Cəhənnəmə qarşı bir sipər olar"**. Yalnız andın miqdarı istisnadır. Qadınlardan biri soruşdu: "Bəs iki uşaq necə?" Rəsulullah ﷺ dedi: **"İkisini də"**. Bu da Allahın bir lütfüdür. Oğlan və ya qız olmasından asılı olmayaraq, adamın iki övladı ölərsə, o da buna səbir edərək savabını Allahdan diləyərsə, həmin övladlar onun üçün Cəhənnəmə qarşı bir sipər olar. Müvəffəq edən Allahdır.

[1] "Məryəm" surəsi, 71-72.

Yüz altmış beşinci fəsil

Zalımların məzarının yanından keçərkən qorxub ağlamaq, Uca Allaha möhtac olmağı izhar etmək və bundan qəflətdə olmaqdan həzər etmək

Mövzu ilə əlaqəli hədis:

٩٥٥ – عَن ابْنِ عُمَر ﵄ أَنَّ رسُولَ اللَّهِ ﷺ قَالَ لأَصْحَابِهِ يَعْني لَمَّا وَصلُوا الحِجْرَ: دِيَارَ ثمُودَ: « لا تَدْخُلُوا عَلى هَؤُلاءِ المُعَذَّبِينَ إِلاَّ أَنْ تَكُونُوا بَاكِينَ، فَإِنْ لمْ تَكُونُوا باكِين، فَلا تَدْخُلُوا عَلَيْهِمْ، لا يُصِيبُكُمْ مَا أَصَابَهُمْ » متفقٌ عليه.

وفي رواية قال: لَمَّا مَرَّ رَسُولُ اللَّهِ ﷺ بِالحِجْرِ قال: « لا تَدْخُلُوا مَسَاكِنَ الَّذِينَ ظَلَمُوا أَنْفُسَهُمْ أَنْ يُصِيبكُمْ مَا أَصَابَهُمْ إِلاَّ أَنْ تَكُونُوا بَاكِينَ » ثُمَّ قَنَّع رَسُولُ اللَّهِ ﷺ، رَأْسَهُ وَأَسْرَعَ السَّيْرَ حَتى أَجَازَ الوَادي.

955. İbn Ömərdən ﵄ rəvayət olunur ki, Rəsulullah ﷺ Səmud qövmünün diyarı olan Hicrə çatdıqda öz səhabələrinə demişdir: **"Əzab çəkmiş bu qövmün yanına yalnız ağlayaraq daxil olun! Əgər ağlamırsınızsa, onların yanına daxil olmayın ki, onların başına gələnlər sizin də başınıza gəlməsin".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Başqa bir rəvayətdə isə belə deyilir: "Rəsulullah ﷺ Hicr deyilən yerdən keçərkən dedi: **"Özlərinə zülm edənlərin diyarına ağlamadan daxil olmayın ki, onların başına gələnlər sizin də başınıza gəlməsin".** Sonra Rəsulullah ﷺ başını əyib həmin vadidən uzaqlaşanadək sürətlə yeridi".

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" əsərində **"Zalımların məzarının yanından keçərkən qorxub ağlamaq, Uca Allaha möhtac olmağı izhar etmək və bundan qəflətdə olmaqdan həzər etmək"** fəslini qeyd edir və ibn Ömərin hədisini qeyd edir.

---

[1] "Səhih əl-Buxari", 433; "Səhih Muslim", 2980.

Həmin hədisdə deyilir ki, bir dəfə Peyğəmbər ﷺ Səmud qövmünün diyarı olan Hicrdən keçirdi. Səmud, Saleh peyğəmbərin qövmüdür. Allah həmin qövmə Salehi göndərmiş, o da onlara Allahı xatırlatmışdı. Ancaq onlar onu inkar etmişdilər. O demişdi: "Öz evinizdə üç gün kef çəkin". Sonra onları tükürpədici bir səs və külək məhv etmiş, onlar da evlərində üzüqoylu düşüb qalmışdılar. Vaxtilə uca Allah onlara qüdrət və qüvvət vermişdi ki, dağları çapsınlar. Onlar dağlarda saraylar tikmiş və güclü bir qövmə çevrilmişdilər. Lakin günahları səbəbindən uca Allah onları tükürpədici səs və küləklə cəzalandırmış, onlar da məhv olub getmişlər. Bir dəfə Peyğəmbər ﷺ Təbuka gedərkən həmin yerdən keçir və belə deyir: **"Əzab çəkmiş bu qövmün yanına yalnız ağlayaraq daxil olun! Əgər ağlamırsınızsa, onların yanına daxil olmayın ki, onların başına gələnlər sizin də başınıza gəlməsin".**

Ona görə də deyirik ki, kiminsə səyahət məqsədilə məhv olmuş bir qövmün yerinə gedib onlara baxması icazəli deyil. Çünki bu zaman o, Rəsulullaha ﷺ asi olmuş olacaq. Yalnız ibrət almaq məqsədilə gedən kəs istisnadır. O da ağlar halda ora getməlidir. Əgər ağlamırsa, ora daxil olması caiz deyil. Çünki ola bilsin, onların başına gələn onun da başına gəlsin. Peyğəmbər ﷺ onların məskənindən keçərkən başını aşağı əymiş və sürətli yerişlə oradan uzaqlaşmışdı. Buna görə də Səmud qövmünün məskəninə səyahət və gəzinti məqsədilə gedən və bir neçə gün həmin yerdə qalaraq oradakı qalıntılara baxan cahillərin səhvlərini anlamış oluruq. Bu, Rəsulullaha ﷺ asilik, onun yoluna və Sünnəsinə müxalif olmaqdır. O, bu diyardan keçərkən başını əyərək tez keçmişdir.

O həm də kiminsə özlərinə zülm etmiş bu qövmün, habelə Allahın həlak etdiyi digər qövmlərin məskənlərində yaşamağı qadağan etmişdir. Ehtiyat edilir ki, onların başına gələn Allahın əzabı onun da başına gələr və ya başına nə isə pis iş gələr, ya da [gördüklərindən təsirlənib] küfr edər. Uca Allah qullarını görəndir. Müvəffəq edən Allahdır.

SƏFƏR ƏDƏBLƏRİ KİTABI

Yüz altmış altıncı fəsil

Səfərə cümə axşamı günü və səhər vaxtı çıxmağın müstəhəbliyi

Mövzu ilə əlaqəli hədislər:

ﷺ ﷺ

956. Kəb ibn Malikdən ﷺ rəvayət olunur ki, "Peyğəmbər ﷺ Təbuk döyüşünə çıxarkən cümə axşamı günü idi. O, cümə axşamı günü səfərə çıxmağı xoşlayardı".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Buxari və Muslimin başqa bir rəvayəti isə belədir: "Rəsulullah ﷺ cümə axşamı günü istisna olmaqla, az hallarda səfərə çıxardı".[2]

ﷺ ﷺ

957. Saxr ibn Vədaat əl-Ğamididən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Allahım, ümmətimin erkən vaxtlarına bərəkət ver".** O, hər hansı bir yerə dəstə və ya ordu göndərdikdə, onları səhərin erkən vaxtı göndərərdi. Saxr tacir idi. O da öz ticarətini səhərin erkən vaxtında edərdi. Beləcə o varlandı və malı çoxaldı.

---

[1] "Səhih əl-Buxari", 2950.

[2] "Səhih əl-Buxari", 2949.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir"– demişdir.[1]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində **"Səfər ədəbləri kitabı"** adlı yeni bölüm açır.

Səfər, vətəni tərk etməkdir. İnsanın öz vətənindən çıxıb başqa bir ölkəyə getməsi də səfər adlanır. Səfər sözü "isfar", yəni çıxmaq, zühur etmək sözündən götürülmüşdür. Ərəbcə deyirlər ki, "əsfəras-subhu", yəni sübh bariz oldu, göründü. Bəziləri demişlər ki, səfər ona görə səfər adlanır ki, o, insanların əxlaqını və halını zahirə çıxarır. Nə qədər insan vardır ki, onları və yaşayışlarını yalnız səfərdə tanıyırsan – səfərə çıxdıqda onların əxlaqını, həyatını, fədakarlığını və başqa mənfi/müsbət xüsusiyyətlərini tanımış olursan. Hətta möminlərin əmiri Ömərin ﵁ yanında birisi başqasını tərifləndikdə ondan soruşardı ki, onunla bir iş görmüsənmi? Əgər "bəli" deyərdisə, onun tərifini qəbul edər, əgər "yox" deyərdisə, deyərdi ki, sən onu tanımırsan.

İnsan səfərə gərək daha asan və müvafiq vaxtlarda çıxmağa cəhd etsin. Səfərin də ən münasib vaxtı həftənin sonudur. Peyğəmbər ﷺ də əksər səfərlərinə cümə axşamı günü çıxardı. Nadir hallarda da olsa, başqa gündə çıxmağı da olub. Belə ki, o, son səfərinə – Vida həccinə şənbə günü çıxmışdır. Döyüşə çıxdıqda adətən cümə axşamı günü çıxardı. Bunun da hikməti, daha doğrusunu Allah bilir, budur ki, həmin gün əməllər izzət və cəlal sahibi Allaha ərz olunur. O da əməllərinin həmin gün Allaha ərz olunmasını sevərdi.

O həm də səhər vaxtı səfərə çıxmağı sevərdi. Çünki bu zaman o, gündüzü qarşılamış olurdu. Ola bilsin, gecə vaxtı səfər edən insan bəzi şeylərlə qarşılaşsın. Ola bilsin ki, yaxın bir yola hazırlanasan, lakin ondan yaxa qurtara bilməyəsən. Bütün bunlar Rəsulullahın ﷺ zamanında miniklə və piyada olan səfərlərə aiddir. Bu gün isə, gördüyünüz kimi, insanlar gündüz və ya gecə səfərə çıxmaqda çətinlik çəkmirlər. Çünki axşam səfərləri adətən təyyarələrin qrafikinə bağlıdır. Hər bir halda, adam səfərə cümə axşamı günü, həm də səhər vaxtı çıxsa daha yaxşı olar. Əgər buna nail ola bilməsə, seçim, Allaha həmd olsun, genişdir.

---

[1] "Sunən Əbu Davud", 2606; "Sunən ət-Tirmizi", 1212; "Sunən İbn Macə", 2236.

Sonra müəllif ﷺ Saxrın hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Allahım, ümmətimin erkən vaxtlarına bərəkət ver!"**, yəni, səhərlərinə.

Peyğəmbər ﷺ öz ümmətinin səhər vaxtlarına bərəkət verilməsi üçün dua etmişdir. Çünki səhər əməl vaxtıdır. Uca Allahın da buyurduğu kimi, gündüz yaşam, aktivlik üçündür: **"Gecəni örtük etdik, gündüzü isə ruzi qazanmaq vaxtı".**[1] İnsan onu gündüzün əvvəlində qarşıladıqda, bunda bərəkət olur. Bu da müşahidə olunan bir şeydir. İnsan səhər vaxtı işlədikdə, işində bərəkət tapır. Lakin əfsuslar olsun ki, bu gün çoxumuz səhər vaxtını yatır və yalnız quşluq vaxtında oyanırıq. Bununla da bərəkətli olan səhər vaxtını itirmiş oluruq. Belə bir ifadə var: "Gündüzün başçısı onun əvvəlidir". Yəni iş səhər vaxtı diqqət tələb edir.

Saxr رضي الله عنه da tacir idi. O öz ticarətini səhər vaxtı edərdi. Beləcə, Peyğəmbərin ﷺ öz ümmətinin erkən vaxtları üçün etdiyi dua sayəsində onun da malı çoxaldı və o varlandı. Müvəffəq edən Allahdır.

[1] "ən-Nəbə" surəsi, 10-11.

Yüz altmış yeddinci fəsil

Dost götürməyin müstəhəbliyi, onların özlərinə bir nəfəri əmir seçərək ona itaət etmələri

Mövzu ilə əlaqəli hədislər:

ﷺ رضي الله عنهما

958. Rəvayət olunur ki, İbn Ömər رضي الله عنهما demişdir: "Rəsulullah ﷺ demişdir: **"İnsanlar təklik barədə mənim bildiklərimi bilsəydilər, heç bir atlı gecə vaxtı təkbaşına səfərə çıxmazdı"**.

Hədisi Buxari rəvayət etmişdir.[1]

ﷺ رضي الله عنه

959. Amr ibn Şueyb atasından, o da babasından رضي الله عنه rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Təkbaşına səfərə çıxan kimsə bir şeytandır, səfərə çıxan iki nəfər iki şeytandır. Üç nəfər isə səfərə çıxanlardır".**

Hədisi Əbu Davud, Tirmizi və Nəsai səhih isnadlarla rəvayət etmişlər. Tirmizi demişdir: "Bu, həsən hədisdir".[2]

ﷺ

960. Əbu Səid [əl-Xudridən] və Əbu Hureyradan رضي الله عنهما rəvayət olunur ki, onlar Rəsulullahın ﷺ belə dediyini demişlər: **"Üç nəfər [bir yerdə] səfərə çıxarsa, özlərindən birini əmir seçməlidirlər"**.

---

[1] "Səhih əl-Buxari", 2998.

[2] "Musnəd İmam Əhməd", 2/186; "Sunən Əbu Davud", 2607; "Sunən ət-Tirmizi", 1674.

Həsən hədisdir, Əbu Davud onu həsən isnadla rəvayət etmişdir.[1]

ﷺ رضي الله عنهما

961. İbn Abbasdan رضي الله عنهما rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Ən xeyirli səhabələr dörddür, göndərilən ən xeyirli döyüşçü dəstəsi dördyüz nəfərlikdir, ən xeyirli ordu dörd minlikdir, on iki minlik ordu isə əsla sayın azlığı səbəbindən məğlub olmaz".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi demişdir: "Bu, həsən hədisdir".[2]

Şərh:

Müəllif ən-Nəvəvi رحمه الله "Salehlər bağçası" əsərində "**Dost götürməyin müstəhəbliyi, onların özlərinə bir nəfəri əmir seçərək ona itaət etmələri"** fəslini qeyd edir. Bu fəsil özündə iki məsələni cəm edir:

Birinci məsələ: Səfərə çıxan insan gərək tək olmasın və onun yanında səfər yoldaşları da olsun. Buna görə də Peyğəmbər ﷺ demişdir: **"İnsanlar təklik barədə mənim bildiklərimi bilsəydilər, heç bir atlı gecə vaxtı təkbaşına səfərə çıxmazdı".** Yəni, bunun mənası odur ki, gərək insan təkbaşına səfərə çıxmasın. Çünki ola bilər ki, o xəstələnsin, huşunu itirsin, kimsə ona hücum etsin, yaxud da başqa xoş olmayan hadisə ilə üzləşsin. Bu zaman nə onu müdafiə edən, nə də onun barəsində xəbər verən bir yoldaşı olmayacaq. Bu o səfərlərə aiddir ki, orada tamamilə tək olursan. Ancaq hər dəqiqə avtomobillərin hərəkət etdiyi xətlərdə yol getmək isə buna aid deyil, yəni, bu təkbaşına səfər etmək sayılmır. Çünki bu gün yollar sanki şəhərin ortası kimidir. Buna görə də həmin qadağaya aid olmur.

---

[1] "Sunən Əbu Davud", 2608.

[2] "Musnəd İmam Əhməd", 1/294; "Sunən Əbu Davud", 2611; "Sunən ət-Tirmizi", 1555.

Sonra müəllif ﷺ Amr ibn Şueybin hədisində Peyğəmbərin ﷺ belə dediyini qeyd edir ki, **"Təkbaşına səfərə çıxan kimsə bir şeytandır, səfərə çıxan iki nəfər iki şeytandır. Üç nəfər isə səfərə çıxanlardır".** Yəni, kim təkbaşına səfərə çıxırsa, şeytandır – o kəs ki, müstəqil şəkildə təkbaşına səfər edir. Bu hədis də təkbaşına səfərə çıxmağı qadağan edir. İki nəfərin birlikdə səfərə çıxması da belədir. Üç nəfər isə toplum olaraq səfərə çıxa bilər. Bu da dediyimiz kimi, gediş-gəliş olmayan məkanlara edilən səfərlərə aiddir.

Sonra Əbu Səid əl-Xudri və Əbu Hureyranın ortaq hədisi zikr olunur. Bu hədisdə deyilir ki, Rəsulullah ﷺ əmr etdi ki, müsafirlər səfərə çıxdıqda öz aralarından birisini əmir seçməlidirlər ki, ortaq işlərini idarə etsin. Məsələn, bir rəhbər kimi deyir ki, bu təpəni enək, bu yolla gedək, dəstəmaz alaq, nahar edək və ya şam yeməyi yeyək və buna bənzər işlər. Çünki insanlar özlərinə bir nəfəri əmir seçmədikdə, işləri pərakəndə olur. Buna görə də deyirlər ki, insanlar özbaşına qalanda işləri düzəlmir – gərək bir başçıları olsun ki, onların işlərini düzəltsin. Hədisin zahiri də buna dəlalət edir ki, gərək müsafirlər ondan razı qaldıqları bir əmiri seçsinlər, sonra da onun səfərlə bağlı əmrlərinə itaət etsinlər. Ona asi olmaq olmaz, çünki o, əmirdir. Səfərlə bağlı olmayan məsələlərə gəlincə isə ona itaət etmək vacib deyil. İnsanın özünə xas məsələlər də buna aiddir. Lakin bu o demək deyil ki, həmin əmir bildiyini etməlidir. Əmir uca Allahın buyurduğu kimi olmalıdır: **"Elə isə onları əfv et, onlar üçün *Allahdan* bağışlanma dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş".**[1] Bu o deməkdir ki, gərək əmir də qəti bilmədiyi məsələlərdə yanındakılarla məsləhətləşsin. Yaxud yaxşı və ya pis olduğunu dəqiq bilmədiyi məsələlərdə öz rəyini birbaşa yeritməsin, qoy hələ bir əvvəlcə məsləhətləşsin. Aydın məsələlərə gəlincə isə, onlarla bağlı məsləhətləşməyə ehtiyac yoxdur. Müvəffəq edən Allahdır.

[1] "Ali-İmran" surəsi, 159.

Yüz altmış səkkizinci fəsil

Səfərdə getmək, enmək, gecələmək və yatmaq kimi məsələlərin ədəbləri. Piyada getməyin, heyvanlarla nəzakətli davranmağın və onların qayğısına qalmağın müstəhəbliyi

Mövzu ilə əlaqəli hədislər:

٩٦٢ – عن أَبي هُرَيْرَة ﷺ قال: قال رَسُولُ اللَّهِ ﷺ: « إذا سافَرْتُم في الخِصْبِ فَأعْطُوا الإبِلَ حظَّهَا مِنَ الأَرْضِ، وإذا سافَرْتُمْ في الجَدْبِ، فَأَسْرِعُوا عَلَيْهَا السَّيْرَ وَبادروا بِهَا نِقْيَهَا، وَإذا عرَّسْتُم، فَاجتَنِبُوا الطَّريقَ، فَإِنَّهَا طرُقُ الدَّوابِّ، وَمأْوى الهَوامِّ باللَّيْلِ » رواه مسلم.

معنى « اعطُوا الإبِلَ حَظها مِنَ الأرْضِ » أَيْ: ارْفقُوا بِهَا في السَّيرِ لترْعَى في حالِ سيرِهَا ، وقوله: « نِقْيَهَا » هو بكسر النون، وإسكان القاف، وبالياءِ المثناة من تحت وهو: المُخُّ، معناه: أَسْرِعُوا بِهَا حتى تَصِلُوا المَقِصد قَبلَ أَنْ يَذهَبَ مُخُّها مِن ضَنكِ السَّيْرِ. وَ«التَّعْرِيسُ »: النزُولُ في الليْل.

962. Rəvayət olunur ki, Əbu Hureyra ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **“Bitkili yerə çatdıqda, dəvənin yerdəki haqqını verin. Səhralıqda olduqda isə onunla sürətlə gedin, onun beynini rahatlamağa tələsin. Gecələdikdə isə yoldan uzaq olun, çünki ora vəhşi heyvanların yolu, gecə canlılarının sığınacağıdır”**».

Hədisi Muslim rəvayət etmişdir.[1]

“Dəvənin yerdəki haqqını verin”, yəni imkan verin həmin yerdə otlasın.

Hədisin ərəbcəsində keçən “nəqy” beyin deməkdir, yəni tələsin ki, yolun uzunluğundan bezməsin.

“ət-təaris” isə “gecələnən yer” mənasındadır.

٩٦٣ – وعن أَبي قَتَادةَ ﷺ قَالَ: كانَ رَسولُ اللَّهِ ﷺ إذا كانَ في سفَرٍ، فَعَرَّسَ بلَيْلٍ اضْطَجَعَ عَلى يَمينِهِ، وَإذا عَرَّس قُبيْلَ الصُّبْحِ نَصَبَ ذِرَاعَهُ وَوَضَعَ رَأْسَهُ عَلى كَفِّه. رواه مسلم.

[1] “Səhih Muslim”, 1926.

963. Rəvayət olunur ki, Əbu Qətadə ﵁ demişdir: "Rəsulullah ﷺ səfər zamanı gecələyərkən sağ tərəfi üstə uzanardı. Sübhdən əvvəl yatdıqda isə dirsəyini yığar, başını da əlinin üzərinə qoyardı".

Hədisi Muslim rəvayət etmişdir.[1]

Alimlər demişlər: "Dirsəyini ona görə yığardı ki, dərindən yatmasın və sübh namazının vaxtını keçirməsin".

Şərh:

Müəllif ﵀ bu fəsildə səfər və yolçuluqla bağlı bir çox ədəbləri qeyd etmişdir. Belə ki, müsafir öz miniyi – dəvə, uzunqulaq, qatır və ya at üzərində səfər edirsə, gərək heyvanın da halını nəzərə alsın. Çünki onun məsuliyyəti ondadır. Misal üçün, Peyğəmbər ﷺ Vida həccində dəvəsinin üzərində idi, onun ovsarını bərk tutmuşdu. O, dağlıq yerə, yəni hər hansı bir yüksəkliyə çatdıqda, ovsarı azacıq boş buraxardı ki, qalxa bilsin.

Ədəblərdəndir ki, adam səfər zamanı otlaqlar olan yerlərdən keçdiyində dəvənin də haqqını versin. Belə ki, miniklə yavaş-yavaş gəzdikdə dəvə bitkilərdən yeyə bilir. Odur ki, dəvə ilə yaşıllıq ərazidən keçdikdə tələsmə, imkan ver, dəvə də sağa-sola gedib istədiyi qədər otlasın. Bunun əksi olduqda, yəni quraqlıq ərazidən keçdiyində isə miniklə tələsik keçməlisən ki, dəvə [yorucu] yolun uzunluğundan bezməsin. Çünki sən quraq yerdə ona yem verməsən, səfərin də uzun çəksə, halı dəyişər. Tələsik getdikdə isə otələf olan yerə tez çatmış olarsan. Bu da Peyğəmbərin ﷺ hikmətindəndir ki, uca Allah həm Adəm övladlarının, həm də heyvanların işlərini ona həvalə etmişdir. Belə ki, o, müsafirlərə məsləhət vermişdir ki, otlaq yerlərdən yavaş, quraqlıq yerlərdən isə tez keçib getsinlər.

Peyğəmbər ﷺ həm də əmr etmişdir ki, bizlər gecələdikdə və yatıb dincəlmək istədikdə yolda yatmayaq. Çünki ora həm heyvanların hərəkət etdiyi yoldur, həm də insanlar bu yollardan istifadə edirlər. Ola bilsin ki, kimsə bilmədən gəlib yolda yatmış bu adamların üstünə çıxar. Bu yollara həm də müxtəlif ziyanvericilər gəlirlər ki, insanlardan nə isə düşdükdə onları yesinlər. Ona görə də bu yollarda ziyanvericilər çox olur. Bu səbəblərdən Peyğəmbər ﷺ yollarda yatmağı qadağan etmişdir ki, qoy daha

[1] "Səhih Muslim", 683.

yüksək yerdə qalsınlar ki, həm yoldan keçənlərə maneçilik törətməsinlər, həm də ziyanvericilərin əziyyətinə məruz qalmasınlar.

Buna daha aydın misal avtomobildir. İnsan dayanmaq istədikdə gərək yoldan kənara çıxsın. Çünki ola bilsin, sürücü bir anlıq yuxulayar və yolun kənarında yatmaq üçün dayanmış maşınları vurar, bununla da faciə baş verər. Ona görə də gecələmək üçün bu sürətli yollardan uzaq ol və onların kənarında yatma ki, təhlükə ilə üzləşməyəsən. Bu da Peyğəmbərin ﷺ tövsiyəsidir.

Həmçinin onun əməllərindəndir ki, o gecənin əvvəlində yatdıqda sağ tərəfi üstə uzanardı. Peyğəmbər ﷺ təkcə səfərdə deyil, evində olduqda da sağ tərəfi üstə yatardı. O, bunu hətta əmr də etmişdir ki, insan yatdıqda sağ tərəfi üstə yatsın.

Sübhdən öncə yatdıqda isə əlinin üzərinə uzanar, dirsəyini büküb üzərinə başını qoyardı. Gecənin əvvəli olduqda sağ tərəfi üstə uzanardı ki, bədəni rahatlansın. Sübhdən öncə yatdıqda isə qolunu büküb başını onun üzərinə qoyardı ki, möhkəm yatmayıb sübh namazını keçirtməsin. Bu da işarədir ki, gərək insan öz nəfsinin rahatlıq haqqını versin, eyni zamanda Rəbbinə ibadət etməyi də unutmasın. Gecənin əvvəlində yataraq sübhə qədər dincələ bilər, gecənin sonunda isə tam rahat yatmamalıdır ki, sübh namazına yatıb qalmasın. Bu da dəlildir ki, gərək insan yatdıqda zəngli saatdan istifadə etsin ki, namaza yatıb qalmasın. Peyğəmbər ﷺ də qolunu qatlayıb yatırdı ki, dərin yuxuya dalmasın, ayıq qalsın. Həmçinin gərək insanın namaz üçün zəngli saatı olsun.

Bunlar bəşəriyyətin ən xeyirlisinin buyurduğu səfərlə bağlı bəzi ədəb normalarıdır. Müvəffəq edən Allahdır.

٩٦٤ – وعنْ أَنسٍ رضي الله عنه قَالَ: قال رسولُ الله ﷺ: « عَلَيْكُمْ بِالدُّلْجَةِ، فَإِنَّ الأَرْضَ تُطْوَى بِاللَّيلِ » رواه أبو داود بإسناد حسن. « الدُّلجَة » السَّيْرُ في اللَّيْلِ.

964. Rəvayət olunur ki, Ənəs رضي الله عنه demişdir: «Rəsulullah ﷺ demişdir: **“Gecə vaxtı səfər edin. Şübhəsiz ki, yer gecə vaxtı qısalır”**».

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

Hədisin ərəbcəsində keçən “dulcə” sözünün mənası gecə vaxtıdır.

[1] “Musnəd İmam Əhməd”, 3/381; “Sunən Əbu Davud”, 2571.

٩٦٥ – وعنْ أَبي ثَعْلَبةَ الخُشَنِي ﷺ قال: كانَ النَّاسُ إذا نَزَلُوا مَنْزِلاً تَفَرَّقُوا في الشِّعابِ والأَوْدِيةِ. فقالَ رسول اللَّه ﷺ: « إن تَفَرُّقَكُمْ في هَذِهِ الشِّعابِ وَالأَوْدِية إِنَّما ذلكُمْ منَ الشَّيْطَان »، فَلَمْ ينْزِلُوا بعْدَ ذلك منْزِلاً إِلاَّ انْضَمَّ بَعضُهُمْ إلى بعْضٍ. رواه أبو داود بإسناد حسن.

965. Əbu Sələbə əl-Xuşənidən ﷺ rəvayət olunur ki, o demişdir: "İnsanlar bir yerə getdikdə çöllükdə və vadilərdə bir-birilərindən ayrı qalardılar. Rəsulullah ﷺ dedi: **"Sizin çöllüklərdə və vadilərdəki belə ayrılmanız şeytandandır"**. Bundan sonra onlar bir yerə getdikdə bir-birilərindən ayrılmazdılar".

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

٩٦٦ – وعَنْ سَهْلِ بنِ عمرو وَقيلَ سَهْلِ بن الرَّبيعِ بنِ عَمرو الأنْصَاريّ المَعروفِ بابنِ الحنْظَلِيَّةِ، وهُو منْ أهْل بَيْعةِ الرِّضَوان، ﷺ قالَ: مرَّ رسول اللَّهِ ﷺ ببعِيرٍ قَدْ لَحِقَ ظَهْرُهُ ببطْنِهِ فقال: « اتَّقُوا اللَّه في هذه البهَائمِ المُعْجمةِ فَارْكبُوها صَالِحَةً، وكُلُوها صالحَة » رواه أبو داود بإسناد صحيح.

966. Ridvan beyətinin iştirakçısı və İbn əl-Hənzaliyyə və ya Səhl ibn Amr kimi də tanınan Səhl ibn ər-Rabi ibn Amr əl-Ənsaridən ﷺ rəvayət olunur ki, o demişdir: "Bir dəfə Rəsulullah ﷺ qarnı belinə yapışmış bir qatırın yanından keçərkən belə dedi: **"Bu heyvanlarla bağlı Allahdan qorxun, onlara doğru minin, yeyəndə də düzgün yeyin".**

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

٩٦٧ – وعَن أبي جعفرٍ عبدِ اللَّهِ بنِ جعفرٍ، ﷺ قال: أَرْدفني رسول اللَّه ﷺ، ذات يَوْم خَلْفَه، وَأسَرَّ إِليَّ حدِيثاً لا أُحَدِّث بِهِ أحَداً مِنَ النَّاسِ، وكانَ أحبَّ مَا اسْتَتَر بِهِ رسول اللَّه ﷺ لِحاجَتِهِ هَدَفٌ أَوْ حَائشُ نَخل. يَعْني: حَائِطَ نَخْل: رواه مسلم هكذا مختصراً.

وزاد فِيهِ البَرْقانيُّ بإِسناد مسلم: هذا بعد قوله: حائشُ نَخْلٍ: فَدَخَلَ حَائطاً لِرَجُلٍ منَ الأَنْصارِ، فإذا فِيهِ جَمَلٌ، فَلَمَّا رَأى رسولَ اللَّه ﷺ جرْجرَ وذَرفَتْ عَيْنَاه، فأَتَاهُ النبيُّ ﷺ فَمَسَحَ سَرَاتَهُ أي: سنامَهُ وَذِفْرَاهُ فَسكَنَ، فقال: «مَنْ رَبُّ هذا الجَمَلِ، لِمَنْ هَذا الجَمَلُ؟ »

[1] "Sunən Əbu Davud", 2628.

[2] "Sunən Əbu Davud", 2548.

فَجاءَ فَتى مِنَ الأَنصَارِ فقالَ: هذا لي يا رسولَ اللَّه. فقالَ: « أَفَلا تَتَّقِي اللَّه في هذِهِ البَهِيمَةِ التي مَلَّكَكَ اللَّهُ إياهَا؟ فإنَّهُ يَشْكُو إِلَيَّ أَنَّكَ تُجِيعُهُ وَتُدْئِبُهُ ».

ورواه أبو داود كروايةِ البَرْقاني.

قوله: « ذِفْرَاه » هو بكسر الذال المعجمة وإسكان الفاءِ، وهو لفظٌ مفردٌ مؤنثٌ.قال أَهْلُ اللُّغَة: الذِّفْرَى: المَوْضِعُ الذي يَعْرَقُ مِنَ البَعِيرِ خلْف الأذنِ، وقوله: « تُدْئِبُهُ » أَيْ: تُتْعِبُهُ.

967. Əbu Cəfər Abdullah ibn Cəfərdən رضي الله عنهما rəvayət olunur ki, "Bir dəfə Rəsulullah ﷺ minikdə ikən məni də öz tərkinə aldı. Mənə gizli bir söhbət etdi və mən onu insanlara danışmamışam. Peyğəmbərin ﷺ ehtiyacını ödəməsi üçün ən sevdiyi örtülü yer xurma ağacının gövdəsi idi".

Hədisi Muslim beləcə müxtəsər rəvayət etmişdir.[1]

əl-Bərqani Muslimin isnadı ilə nəql edib demişdir: "Bir dəfə o ənsardan olan bir kişinin bağına daxil olub orada bir dəvə gördü. Dəvə Rəsulullahı ﷺ görüncə tərpəndi və gözləri doldu. O Peyğəmbərin ﷺ yanına gəldi, o da onun güvənini və qulağının ardını sığalladı. Sonra soruşdu: **"Bu dəvənin sahibi kimdir? Bu dəvə kimindir?"** Bu vaxt ənsarlardan olan bir gənc gəlib dedi: "Bu mənimdir, ey Allahın elçisi". O dedi: **"Allahın sənin mülkünə verdiyi bu heyvanla bağlı Allahdan qorxmursanmı? O mənə şikayət edir ki, sən onu ac saxlayır və çox yorursan".**

Hədisi Əbu Davud əl-Bərqaninin rəvayəti kimi nəql etmişdir.[2]

٩٦٨ – وعن أنسٍ رضي الله عنه ، قال: كُنَّا إذا نَزَلْنَا مَنْزِلاً، لا نسَبِّحُ حَتَّى نَحُلَّ الرِّحَالَ. رواه أبو داود بإسناد على شرط مسلم.

وقوله: « لا نُسَبِّحُ » أَيْ لا نُصلِّي النَّافلَةَ، ومعناه: أَنَّا مَعَ حِرْصِنا على الصَّلاةِ لا نُقَدِّمُها عَلى حطِّ الرِّحال وإرَاحةِ الدَّوابِّ.

968. Rəvayət olunur ki, Ənəs رضي الله عنه demişdir: "Bizlər mənzil başına çatdıqda minikləri açıb buraxmayınca nafilə namaz qılmazdıq".

Hədisi Əbu Davud Muslimin şərtinə əsasən nəql etmişdir.[3]

---

[1] "Səhih Muslim", 342.

[2] "Musnəd İmam Əhməd", 1/205; "Sunən Əbu Davud", 2549.

[3] "Sunən Əbu Davud", 2551.

Yəni, namaz qılmağa həris olmağımıza rəğmən, heyvanları buraxmayınca bunu etməzdik.

Şərh:

Nəvəvinin ﵀ "Salehlər bağçası" əsərində qeyd etdiyi bu hədislər səfər ədəbləri barəsindədir. Həmin hədislərin birində Peyğəmbər ﷺ öz ümmətinə [səfər etdiyində] gecə vaxtı hərəkət etməyi tövsiyə etmiş və belə xəbər vermişdir ki, bu zaman yerdəki məsafə qısalır. Yəni müsafir gecə vaxtı səfər etdikdə yolu qısalır. Gecə vaxtı gedilən yol gündüz vaxtı gediləndən çox olur. Çünki gecənin sərinliyində miniklər daha sürətli və aktiv olurlar. Ona görə də Peyğəmbər ﷺ buyurmuşdur ki, insan gecə səfər etdikdə yolu qısa olur.

Səfər ədəblərindən biri də budur ki, gərək camaat bir yerə getdikdə bir-birilərindən uzaqlaşmasınlar. Əvvəllər səhabələr bir yerə getdikdə vadilərdə və çöllərdə ayrılardılar. Peyğəmbər ﷺ onlara dedi ki, sizin belə ayrılmağınız şeytandandır. Bundan sonra onlar harasa getsələr bir-birilərindən ayrılmazdılar. Çünki bu zaman onlar daha güclü olur və daha yaxşı qorunmuş olurlar. Əgər düşmən həmin vaxt onlara hücum edərsə, birlikdə özlərini müdafiə edə bilərlər. Pərən-pərən olduqda isə məğlub olarlar.

Ədəblərdən biri də budur ki, Peyğəmbər ﷺ heyvanlara qarşı mülayim davranmağı buyurmuşdur. Buyurmuşdur ki, insan heyvanlarla yaxşı davranmalı, bacarmadığını ona yükləməməli, yeməyini və içməyini də vaxtlı-vaxtında verməlidir.

Ədəblərdən biri də odur ki, insan heyvanı həm tək minə bilər, həm də özü ilə birlikdə başqasını da tərkinə ala bilər. Lakin bir şərtlə ki, heyvanın ikinci adamı daşımağa taqəti olsun. Əgər arıqlıq və ya başqa bir səbəbdən heyvan ikinci adamı daşıya bilməzsə, o zaman onu gücü çatmadığı bir şeylə yükləmək halal deyil. Çünki heyvanlar da insanlar kimi yorulur. İnsan nədən ibarətdirsə, heyvan da ondan ibarətdir, yəni ətdən və sümükdən. İnsan gücü çatmadığı və ya onu yoran bir şey daşıdıqda yorulduğu kimi, heyvanlar da yorulur. Ona görə də Peyğəmbər ﷺ əmr etmişdir ki, bizlər izzət və cəlal sahibi Allahdan qorxaq və heyvanların haqlarında qüsur etməyək.

Daha sonra müəllif ﵀ İbn əl-Hənzaliyyənin ﵁ hədisini qeyd edir. Həmin hədisdə deyilir ki, Peyğəmbər ﷺ təbii ehtiyacını həmişə bir hədəfə

və ya maneəyə doğru qaldırardı. Məsələn, taxta parçasının arxasına keçər, onun arxasında təbii ehtiyacını ödəyərdi.

Bir dəfə o, ənsarlardan olan bir nəfərin bağına daxil olur və orada bir dəvə görür. Dəvə Peyğəmbəri gördükdə gözləri yaşarır və ona yaxınlaşıb başını yuxarı-aşağı hərəkət etdirir. Beləcə, o öz sahibindən Peyğəmbərə ﷺ şikayət edir. Peyğəmbər ﷺ soruşur ki: **"Bu dəvənin sahibi kimdir?"** Bu vaxt ənsarlardan olan bir kişi deyir ki: "Bu mənimdir, ey Allahın elçisi". Peyğəmbər ﷺ də ona xəbər verir ki, heyvan gəlib səndən şikayət edir ki, onu ac saxlayır və onu taqəti çatmayan şeylərlə yükləyirsən. Sonra ona əmr edir ki, Uca Allahdan qorxsun.

Bu da Peyğəmbərin ﷺ möcüzələrindəndir ki, heyvanlar onu gördükdə yaxınlaşıb ona şikayətlənirdilər. Bu, uca Allahın öz elçisini dəstəkləmək məqsədilə verdiyi möcüzələrdən biri idi. Uca Allah göndərdiyi hər bir peyğəmbərə onun peyğəmbərliyini təsdiq etmək üçün möcüzələr bəxş etmişdir ki, insanlar onu yalançı saymasınlar. Çünki möcüzəsi olmayan birisi iddia etsə ki, mən Allahın elçisiyəm, heç kim ona inanmaz. Lakin uca Allah onlara onların doğruluğunu sübut edən möcüzələr vermişdir.

Peyğəmbərlərdən ən əzəmətli möcüzələrin bəxş olunduğu kəs peyğəmbərimiz Muhəmməd ﷺ olmuşdur. İbn Kəsir "əl-Bidayə vən-nihayə" əsərində və başqa əsərlərdə demişdir ki, bütün peyğəmbərlərdə olan möcüzələrin misli və ya daha əzəmətlisi Rəsulullaha ﷺ verilmişdir. Bu ya ona şəxsən bəxş edilmişdir, ya da ona tabe olanlara. Sonra da buna bir çox dəlillər gətirir.

Ancaq peyğəmbərlərdən heç birinə Peyğəmbərimizə ﷺ verilmiş bu vəhy, yəni Quranın misli verilməyib. Peyğəmbər ﷺ demişdir: **"Mənə verilən Allahın vəhyidir. Ümid edirəm ki, Qiyamət günü ən çox ardıcılı olan kəs mən olaram".**[1]

Bu vəhy günümüzədək qalmışdır. İnsanlar hər dəfə onu oxuduqda Allaha və Onun elçisinə imanları daha da artır. Axı onun içərisində Rəsulullahın haqq peyğəmbər olmasına dəlalət edən əzəmətli ayələr vardır. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 4981; "Səhih Muslim", 152.

Yüz altmış doqquzuncu fəsil

Yoldaşa yardım etmək

Mövzu ilə əlaqəli hədislər:

٩٦٩ – وعن أبي سعيدٍ الخُدْريّ ﷺ قال: بينما نَحْنُ في سَفَرٍ إذ جَاءَ رَجُلٌ على رَاحِلةٍ لهُ، فَجعَلَ يَصْرِفُ بَصَرَهُ يَمِيناً وَشِمَالاً، فقال رسول الله ﷺ: «مَنْ كَانَ مَعَهُ فَضْلُ ظَهرٍ، فَلْيعُدْ بِهِ على منْ لا ظَهر له، ومَنْ كانَ له فَضلُ زَادٍ، فَلْيَعُدْ بِهِ عَلى مَنْ لا زَادَ له » فَذَكَرَ مِنْ أَصْنافِ المال ما ذَكَرَهُ، حَتى رَأَينَا أَنَّهُ لا حقَّ لأحَدٍ منا في فضْلٍ. رواه مسلم.

969. Rəvayət olunur ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "Bir dəfə biz səfərdə ikən bir kişi öz miniyinin üstündə gəldi və sağa-sola baxmağa başladı. Rəsulullah ﷺ dedi: **"Kimin miniyi varsa, miniyi olmayana yardım etsin, kimin də artıq azuqəsi varsa, azuqəsi olmayana əl tutsun".** Sonra o mal-dövlət çeşidlərindən bəzisini elə zikr etdi ki, özümüzdə olandan daha artığına haqqımızın olmadığını düşündük".

Hədisi Muslim rəvayət etmişdir.[1]

٩٧٠ – وعنْ جابرٍ ﷺ، عَنْ رسول اللَّهِ ﷺ أَنَّه أَرادَ أَنْ يَغْزُوَ فقال: يا معْشَرَ المُهَاجِرِينَ والأنصارِ، إنَّ مِنْ إخوَنِكُم قَوْماً، ليْس لهمْ مَالٌ، وَلا عشِيرَةٌ، فَلْيَصُمَّ أَحَدكم إلَيْهِ الرَجُلَيْنِ أَوِ الثَّلاثَةَ، فما لأحدِنَا منْ ظهرٍ يحْمِلُهُ إلا عُقبَةٌ يعْني كَعُقْبَةٍ أَحَدهمْ، قال: فَضَمَمْتُ إلَيَّ اثْنَيْنِ أَو ثَلاثَةً ما لي إلا عُقبةٌ كعقبَةِ أَحَدِهمْ مِنْ جَملي. رواه أبو داود.

970. Cabirdən ﷺ rəvayət olunur ki, "Rəsulullah ﷺ döyüşə getmək istəyərkən belə səsləndi: **"Ey mühacirlər və ənsarlar! Sizin qardaşlarınızdan bəzilərinin nə pulu, nə də yaxınları yoxdur. Qoy hər kəs özünə iki-üç nəfəri qoşsun. Kimin miniyi varsa, onlarla növbələşsin"**. [Cabir] deyir ki, mən də iki-üç nəfəri özümə qoşdum və dəvəmi növbə ilə mindik".

Hədisi Əbu Davud rəvayət etmişdir.[2]

---

[1] "Səhih Muslim", 1728.

[2] "Sunən Əbu Davud", 2534.

٩٧١ – وعنه قال: كانَ رسول اللَّهِ ﷺ يَتَخلَّف في المسِيرِ فَيُزْجِي الضَّعيف ويُرْدفُ ويدْعُو له. رواه أبو داود بإسناد حسن.

971. Yenə ondan rəvayət olunur ki, Rəsulullah ﷺ gedənlərin arxasınca gedər, zəifə yardım edər, onu öz tərkinə mindirər və onun üçün dua edərdi.

Hədisi Əbu Davud həsən isnadla rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﷺ **"Səfərdə yoldaşa yardım etmək"** fəslini qeyd edir.

Səfərin ədəblərindəndir ki, adam öz yoldaşına yardım etsin, ona qarşı mərhəmətli olsun.

Sonra müəllif üç hədis qeyd edir. Onlardan birində deyilir ki, Peyğəmbər ﷺ səfərdə ikən bir kişi onlara yaxınlaşıb sağa-sola baxmağa başlayır. Sanki o insanlara ehtiyacının olduğunu göstərirdi. Rəsulullah ﷺ dedi: **"Kimin miniyi varsa, miniyi olmayana yardım etsin, kimin də artıq azuqəsi varsa, azuqəsi olmayana əl tutsun".** Sonra da bir neçə mal-dövlət növünü qeyd etdi. İnsanlardan hər kəs öz [ehtiyaclı] yoldaşına diqqət yetirməyə, onu öz miniyinə mindirməyə, azuqəsinə şərik etməyə başladı.

Qeyd edilən ikinci hədisdə də Peyğəmbər ﷺ əmr edir ki, insanlar iki-üç nəfər olmaqla, minikdə növbələşsinlər ki, hamısı eyni olsun.

Üçüncü hədisdə deyilir ki, Peyğəmbər ﷺ səfərdə olarkən qövmün arxasınca gələr, zəifə yardım edər, onun üçün dua edərdi. Yenə Muslimin "Səhih" əsərində Cabir ibn Abdullahdan nəql edilir ki, Peyğəmbər ﷺ yolda gəlib ona çatdı. Həmin vaxt Cabirin üzərində olduğu dəvəsi çox ləng yeriyirdi. Peyğəmbər ﷺ dəvəni vurub ona dua etdi.[2] Dəvə də o birilər kimi yeyin yeriməyə başladı, hətta onları ötüb keçdi də.

Xülasə, gərək insan səfərdə yoldaşlarına yaxşılıq etsin, onların ehtiyaclarını ödəsin. Bu, Peyğəmbərin ﷺ buyurduğu sünnələrdəndir. Daha doğrusunu Allah bilir.

---

[1] "Sunən Əbu Davud", 2639.

[2] "Səhih Muslim", 715.

Yüz yetmişinci fəsil

Səfər üçün miniyə mindikdə deyilənlər

Mövzu ilə əlaqəli ayə:

Uca Allah buyurur:

﴿وَجَعَلَ لَكُم مِّنَ ٱلۡفُلۡكِ وَٱلۡأَنۡعَٰمِ مَا تَرۡكَبُونَ * لِتَسۡتَوُۥاْ عَلَىٰ ظُهُورِهِۦ ثُمَّ تَذۡكُرُواْ نِعۡمَةَ رَبِّكُمۡ إِذَا ٱسۡتَوَيۡتُمۡ عَلَيۡهِ وَتَقُولُواْ سُبۡحَٰنَ ٱلَّذِي سَخَّرَ لَنَا هَٰذَا وَمَا كُنَّا لَهُۥ مُقۡرِنِينَ * وَإِنَّآ إِلَىٰ رَبِّنَا لَمُنقَلِبُونَ﴾

"Mindiyiniz gəmiləri və heyvanları yaratdı ki, onların belinə, *yaxud göyərtəsinə* qalxıb yerləşdiyiniz zaman Rəbbinizin nemətini yada salıb deyəsiniz: "Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. *Yoxsa* bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq".[1]

Mövzu ilə əlaqəli hədis:

٩٧٢ – وعن ابنِ عمر ﷺ، أَنَّ رسولَ الله ﷺ كانَ إذا اسْتَوَى عَلَى بعِيرِهِ خَارجاً إِلي سفَرٍ، كَبَّرَ ثلاثاً، ثُمَّ قالَ: «سبْحانَ الذي سخَّرَ لَنَا هذا وما كنَّا له مُقرنينَ، وَإِنَّا إِلى ربِّنَا لَمُنقَلِبُونَ. اللَّهُمَّ إِنَّا نَسْأَلُكَ في سَفرِنَا هذا البرَّ والتَّقوى، ومِنَ العَمَلِ ما تَرْضى. اللَّهُمَّ هَوِّنْ علَيْنا سفَرَنَا هذا وَاطْوِ عنَّا بُعْدَهُ، اللَّهُمَّ أنتَ الصَّاحِبُ في السَّفَرِ، وَالخَلِيفَةُ في الأهْلِ. اللَّهُمَّ إِنِّي أَعُوذُ بِكَ مِنْ وعْثَاءِ السَّفَرِ، وكآبةِ المنظَرِ، وَسُوءِ المنْقلَبِ في المالِ والأهلِ وَالوَلَدِ » وإذا رجَعَ قَالهُنَّ وزاد فِيهِنَّ: « آيِبونَ تَائِبونَ عَابِدُون لِرَبِّنَا حَامِدُونَ » رواه مسلم .

معنى « مُقرِنِينَ »: مُطِيقِينَ.« والوَعْثاءُ » بفتحِ الواوِ وإسكان العين المهملة وبالثاءِ المثلثة وبالمد، وَهي: الشِّدَّة. و « الكآبة » بِالمدِّ، وهي: تَغَيُّرُ النَّفس مِنْ حُزنٍ ونحوه. « وَالمنقَلَبُ »: المرْجِعُ.

972. İbn Ömərdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ səfər məqsədilə miniyinə mindikdə üç dəfə təkbir edər, sonra deyərdi: **"Bunu bizə ram edən Allah pak və müqəddəsdir. *Yoxsa* bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq. Allahım, bu səfərimizdə Səndən**

[1] "əz-Zuxruf" surəsi, 12-14.

yaxşılıq, Allah qorxusu və razı qalacağın əməl diləyirik. Allahım, bu səfərimizi bizim üçün rahat et və onun uzaqlığını bizə yaxın et. Allahım, səfərdə dost və ailəmiz üçün hami Sənsən. Allahım, səfərin ağırlığından, məyus edən mənzərədən, malda və ailədə xoşagəlməz dəyişiklikdən Sənə sığınıram". Səfərdən qayıdanda isə həmin duanı oxuyub bu sözləri də əlavə edərdi: **"Biz geri dönənlər tövbə edənlər, ibadət edənlər, Rəbbimizə həmd edənlərik".**

Hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ﵀ "Səfər ədəbləri" bölməsinin **"Səfər üçün miniyə mindikdə deyilənlər"** fəslini qeyd edir.

Müəllif hökmü belə qeyd etmişdir ki, miniyə mindikdə nə deyilir? Ayənin zahiri, hökmün ümumi olmasına dəlalət edir. İnsan heyvana, avtomobilə və ya gəmiyə mindikdə izzət və cəlal sahibi Allahın buyurduğunu deyir. Sonra o İbn Ömərin hədisini qeyd edir ki, Peyğəmbər ﷺ səfər məqsədilə miniyinə mindikdə bunları deyərdi. Bundan öncə müəllif Uca Allahın bu sözlərini qeyd etmişdir: **"Mindiyiniz gəmiləri və heyvanları yaratdı ki, onların belinə, *yaxud göyərtəsinə* qalxıb yerləşdiyiniz zaman Rəbbinizin nemətini yada salıb deyəsiniz: "Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. *Yoxsa* bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq".[2]**

"Gəmiləri sizə yaratdı". Gəmilər üç növdür: dəniz gəmiləri, quru gəmiləri, hava gəmiləri. Dəniz gəmiləri Nuhun zamanından, yəni qədim zamanlardan məlumdur. Uca Allah ona belə vəhy etmişdir: **"Gözlərimiz önündə və vəhyimizlə gəmini düzəlt".[3]** Sonra başqa bir ayədə buyurur: **"Biz *həmin hadisəni nəsillərə* ibrət üçün saxladıq. Amma heç bir yada salan varmı?"[4]**

---

[1] "Səhih Muslim", 1342.

[2] "əz-Zuxruf" surəsi, 12-14.

[3] "əl-Muminun" surəsi, 27.

[4] "əl-Qəmər" surəsi, 15.

Quru gəmiləri, yəni avtomobillər sonradan çıxıb. Hava gəmiləri də bundan sonra çıxıb ki, bu da təyyarələrdir. Bütün bunlar Uca Allahın bu ayəsinə daxildir: **"Mindiyiniz gəmiləri və heyvanları yaratdı".** Bütün bunlar gəmilərdir, çünki o bir çox məxluqatı özündə cəm edir.

"Heyvanları" dedikdə dəvə, qatır, uzunqulaq, at və digər heyvanlar nəzərdə tutulur. Adətən minilməyən heyvanları minməyin icazəli olub-olmaması barədə alimlər ixtilaf etmişlər. Məsələn, inəyə minmək kimi. Bəziləri, əgər bu, heyvana əziyyət olmazsa, bunun caizliyini bildirmişlər. Digər alimlər isə bunun caiz olmadığını bildirmişlər. Doğru olan isə bunun icazəli olmasıdır. Adətən minilməyən heyvanlara bir şərtlə minmək olar ki, bu heyvana çətinlik yaratmasın. Əgər çətinlik yaradarsa, bu qadağandır.

Uca Allahın **"onların belinə, *yaxud göyərtəsinə* qalxıb yerləşdiyiniz zaman"** ayəsinin ərəbcəsindəki ləm hərfi ya açıqlama, ya da aqibət mənasındadır. Yəni, O bizim üçün bu minikləri yaratmışdır ki, onların belinə minib rahatlanaq. O onların belini insan mindikdə narahat olacaq şəkildə yaratmamışdır – insan onun belində rahat olur. Bu hal özünü avtomobil, təyyarə, gəmi və dəvədə də özünü göstərməkdədir.

Uca Allah buyurur: **"Rəbbinizin sizə olan nemətini xatırlayasınız".** Mindikdən sonra Allahın nemətini xatırlayasınız ki, sizlər üçün bu heyvanları yaradıb ki, üzərinə minməyi öyrənəsiniz.

Deyəsiniz ki: **"Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. *Yoxsa* bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq".** Gərək insan belə deyəydi ki, bunu bizə ram edən Allaha həmd olsun. Lakin əmr etdi ki, belə desin: **"Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir".** Nə üçün? Çünki [ayənin ərəbcəsində keçən] "sübhan" sözü nöqsansızlığa dəlalət edir, yəni izzət və cəlal sahibi Allahı hər bir naqislikdən uzaqlaşdırmaqdır. Sanki insan gəmiyə və bu heyvanlara mindikdə Allaha möhtac olduğunu anlayır və izzət və cəlal sahibi Allahın pak, müqəddəs olduğunu deyir. O Allah ki, məxluqatına möhtac deyildir. Bu məqamda "sübhanallah" demək daha münasibdir. Baxmayaraq ki, Sünnədə onun Allaha həmd etdiyi qeyd olunur. Lakin biz hazırda bu ayə barəsində danışırıq: **"Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir".**

Allah onları bizə ram etməsəydi, buna taqətimiz çatmazdı. Uca Allah bir ayədə belə buyurur: "**Bu mal-qaranı onların ixtiyarına verdik. Onların bəzisini minir, bəzisini də yeyirlər".**[1]

İndi təsəvvür edin, əgər bu böyük bədənli qatır bizlərə ram edilməsəydi, bizim ona gücümüz çatardımı?!

Cavab: Xeyr. Çünki ondan daha kiçik olan bir çox vəhşi heyvanlar var ki, bizim onlara gücümüz çatmır. Lakin Allah bizə mindiyimiz bu heyvanları ram etmişdir. Hətta azyaşlı uşaq belə dəvənin yüyənindən tutub onu istədiyi yerə apara bilir. Bu da Uca Allahın onları bizim ixtiyarımıza verməsindəndir.

"**Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir".** Yəni, buna taqətimiz çatmazdı.

"Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq". Bu əzəmətli bir cümlədir. Hər bir düşüncəsi olan insan gəmiyə və ya bu heyvanlara mindikdə dünyadan köçəcəyi son səfərini xatırlayır. Bu da insanın öldükdə izzət və cəlal sahibi Allaha doğru olan səfəridir. Həmin vaxt insanlar onu çiyinləri üzərində daşıyırlar.

Uca Allah öz dəyərli kitabında buyurur: **"Ey insan, sən həqiqətən də, səy göstərib Rəbbinə tərəf can atırsan. Sən Onunla qarşılaşacaqsan!"**[2] O: **"Rəbbinə tərəf can atırsan"** deyə buyurur. "Rəbbinə can atırsan" demir, Ona tərəf deyir. Yəni sənin məqsədin və amalın izzət və cəlal sahibi Allaha tərəf olacaqdır.

"Rəbbinə tərəf can atırsan". Gec-tez hər birimiz Allahla görüşəcəyik. Lakin izzət və cəlal sahibi Allahla nə ilə görüşəcəyik? – Əsas olan da budur: nə ilə, nə üzərində Allaha tərəf gedəcəksən?

Yəni, insan harada və nə vaxt öləcəyini bilmir. Ola bilsin o, Allahın onun ömrünü uzatmasını, Musanın da seçdiyi kimi, müqəddəs bir yerdə ölməsini istəyir. Ancaq əsas olan onun hansı əməl üzərində ölməsidir. Allah bizləri və sizi iman və tövhid üzərində öldürsün! – Mühüm olan da budur.

---

[1] "Yasin" surəsi, 72.

[2] "əl-İnşiqaq" surəsi, 6.

Ey insan, sənin öz diyarında, yaxud başqa bir yerdə ölməyinin, müqəddəs və ya qeyri-müqəddəs məkanda ölməyinin, yaxud müəyyən ayın müəyyən günündə ölməyinin fərqi yoxdur. Sənin gecə və ya gündüz ölməyinin də fərqi yoxdur. Əsas odur ki, xeyir üzərində öləsən: **"Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq".**

İnsan maşınına və ya təyyarəyə mindikdə gərək İbn Ömərdən varid olmuş hədisdəki zikri desin: **"Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir.** ***Yoxsa*** **bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq".** Sonra da İbn Ömərin qeyd etdiyi duanın qalanını desin.

Bu hədisdə Allahın hər şeyi əhatə etməsinə dəlalət edən: **"Allahım, səfərdə dost və ailəmiz üçün hami Sənsən"** kəlməsinə də diqqət et! Yəni, səfərdə mənə dostluq edir, onu mənim üçün asanlaşdırırsan. Ailəmiz üçün də məndən sonra hamisən – onları əhatə edir, onlara yardım göstərirsən. Beləcə, Uca Allah insanın səfərdə dostu, onun ailəsinin isə hamisidir. O, hər şeyi əhatə edəndir. Müvəffəq edən Allahdır.

٩٧٣ – وعن عبد اللَّه بن سرْجِس ﷺ قال: كان رسول اللَّهِ ﷺ إذا سافر يَتَعوَّذ مِن وعْثاءِ السفرِ، وكآبةِ المُنْقَلَبِ، والحوْرِ بعْد الكَوْنِ، ودعْوةِ المظْلُومِ. وسوءِ المنْظَر في الأهْلِ والمَال. رواه مسلم.

هكذا هو في صحيح مسلم: الحوْرِ بعْدَ الكوْنِ، بالنون، وكذا رواه الترمذي، والنسائي، قال الترمذي: ويروي « الكوْرُ » بِالراءِ، وكِلاهُما لهُ وجْهٌ. قال العلماءُ: ومعناه بالنونِ والراءِ جميعاً: الرُّجُوعُ مِن الاسْتقامَةِ أَوِ الزِّيادة إِلى النَّقْصِ. قالوا: وروايةُ الرَّاءِ مأْخُوذَةٌ مِنْ تكْوِير العِمامةِ، وهُوَ لَفُّهَا وجمْعُها، وروايةُ النون مِنَ الكَوْن، مصْدَرُ «كانَ يكُونُ كَوناً » إذا وُجد واسْتَقرَّ.

973. Rəvayət olunur ki, Abdullah ibn Sərcəs ﷺ demişdir: "Peyğəmbər ﷺ səfərə çıxdıqda onun çətinliklərindən, pis aqibətdən, doğru yoldan azmaqdan, məzlumun duasından və ailəsində və malındakı pis mənzərədən Allaha sığınardı".

Hədisi Muslim rəvayət etmişdir.[1]

[1] "Səhih Muslim", 1343.

Tirmizi və Nəsainin mətnlərində də Muslimdə deyildiyi kimidir: "doğru yoldan azmaqdan". Alimlərin çoxluğu bunun mənasının "artımdan azalmaya doğru" olduğunu demişlər.

٩٧٤ – وعن عليِّ بن ربيعة قال: شَهِدْتُ عليَّ بن أبي طالب ﷺ أُتِيَ بِدابَّةٍ لِيَرْكَبَهَا، فلما وضَع رِجْلَهُ في الرِّكابِ قال: بِسْم اللَّهِ، فلَمَّا اسْتَوَى على ظَهْرِها قال: الحَمْدُ للَّهِ الذي سَخَّرَ لَنَا هذا، وما كُنَّا لَهُ مُقْرنينَ، وإنَّا إلى ربِّنَا لَمُنْقلِبُونَ، ثُمَّ قال: الحمْدُ للَّهِ ثَلاثَ مرَّاتٍ، ثُمَّ قال: اللَّه أَكْبرُ ثَلاثَ مرَّاتٍ، ثُمَّ قال: سُبْحانَكَ إِنِّي ظَلَمْتُ نَفْسِي فَاغْفِرْ لي إِنَّه لا يغْفِرُ الذُّنُوب إِلاَّ أَنْتَ، ثُمَّ ضحِك، فَقِيل: يا أَمِير المُؤْمِنينَ، مِنْ أَيِّ شَيءٍ ضَحِكْتَ؟ قال: رأَيتُ النبيَّ ﷺ فَعل كَما فعلْتُ، ثُمَّ ضَحِكَ فقلتُ: يا رسول اللَّهِ مِنْ أَيِّ شَيء ضحكْتَ؟ قال: « إِنَّ رَبَّك سُبْحانَهُ يَعْجب مِنْ عَبْده إذا قال: اغْفِرِ لي ذنُوبي، يَعْلَمُ أَنَّهُ لا يغْفِرُ الذَّنُوبَ غَيْرِي ». رواه أبو داود، والترمذي وقال: حديثٌ حسنٌ، وفي بعض النسخ: حسنٌ صحيحٌ. وهذا لفظ أَبي داود.

974. Rəvayət olunur ki, Əli ibn Rabiə demişdir: "Bir dəfə Əli ibn Əbu Talibin ﷺ onu minməsi üçün bir heyvan gətirdiyini gördüm. Ayağını üzəngiyə qoyduqda: "Bismilləh", onun belinə qalxdıqda isə: "Əlhəmdulilləh" dedi. Sonra da: **"Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. *Yoxsa* bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq"** dedi. Sonra üç dəfə: "Əlhəmdulilləh", sonra da üç dəfə: "Allahu Əkbər" dedi. Daha sonra: "Sən Nöqsansızsan, mən özümə zülm etmişəm, məni bağışla! – Şübhəsiz ki, günahları yalnız sən bağışlayırsan" dedi və güldü. Dedilər: "Nə üçün güldün, ey möminlərin əmiri?" Dedi: "Mən Peyğəmbərin ﷺ eynən mənim kimi etdiyini, sonra da güldüyünü gördüm və soruşdum: "Nə üçün güldün, ey Allahın elçisi?" O da buyurdu: **"Nöqsansız Rəbbin, qulun: "Mənim günahlarımı bağışla!" deməsinə təəccüb edir. Çünki qulu bilir ki, Ondan başqa günahları bağışlayan yoxdur".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir. Bəzi nüsxələrdə: "Hədis həsən səhihdir" deyilir. Buradakı ləfz Əbu Davudundur.[1]

[1] "Sunən Əbu Davud", 2602; "Sunən ət-Tirmizi", 3446.

Şərh:

Bu iki hədis insanın öz miniyini minib səfərə çıxdıqda dediyi zikr və dualarla bağlıdır.

Uca Allahın: «**Sonra ona mindikdən sonra Rəbbinizin sizə olan nemətini xatırlayasınız və deyəsiniz ki, "Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. *Yoxsa* bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq"**» ayələrinin[1] şərhi barədə daha öncə söhbət açmışdıq.

İnsan səfəröncəsi etdiyi duada səfərin məşəqqətindən, pis aqibətdən, habelə ailəsində və malında görə biləcəyi pis mənzərədən Allaha sığınır. O məzlumun duasından da Allaha sığınır, sonra isə Allahdan rəhm və bağışlanma diləyir, üç dəfə Allaha həmd edir, üç dəfə "Allahu Əkbər" deyir.

Bütün bunlar Peyğəmbərdən ﷺ varid olanlardandır. Onları olduğu kimi, sözbəsöz desən daha yaxşıdır. Bilməsən, istədiyin şəkildə de. Əsas olanı Uca Allahın Quranda zikr etdiyidir: **"Bunu bizə ram edən Allah pakdır, müqəddəsdir. *Yoxsa* bizim ona gücümüz çatmazdı. Şübhəsiz ki, biz Rəbbimizə qayıdacağıq."**

Əli ibn Əbu Talibin رضي الله عنه hədisində Allahın məğfirətinin və rəhminin genişliyindən bəhs olunur. Belə ki, izzət və cəlal sahibi Allah, bəndəsinin bağışlanma diləməsinə və tövbə etməsinə sevinir. Peyğəmbərin ﷺ belə dediyi sabit olmuşdur ki: **"Biriniz itirdiyi miniyi tapdıqda nə cür sevinirsə, Allah öz qulunun tövbəsinə ondan da çox sevinir"**.

Həmin hədisdə qeyd edilir ki, səfərdə olan birisi öz miniyini itirir. Miniyin üzərində də onun yeyəcəyi və içəcəyi var. Onu çox axtarsa da, tapa bilmir. Beləcə o, heyvanı tapmaqdan və həyatdan ümidini üzür və bir ağacın altında uzanaraq ölümünü gözləyir. Həmin vəziyyətdə ikən bir də görür ki, miniyinin ipi ağaca ilişib. Tez onun ipindən tutur və deyir ki: "Allahım, Sən mənim qulumsan, mən də Sənin rəbbinəm!".[2] O: "Allahım, mən Sənin qulunam, Sən də mənim rəbbimsən!" demək istəyir, ancaq çox sevindiyindən səhv edir.

---

[1] "əz-Zuxruf" surəsi, 13-14.

[2] "Səhih Muslim", 2747.

İzzət və cəlal sahibi Allah öz bəndəsinin tövbəsinə hər an sevinir. Sən də, ey müsəlman qardaş, gərək Allaha tövbə edib [səhv yoldan] geri qayıdasan, günahlarını sayıb Ondan bağışlanma diləyəsən. Bil ki, sən Allahdan nə zaman sidq-ürəklə və səmimi şəkildə bağışlanma diləsən, Allah səni bağışlayacaq: **"Kim pis bir iş görər və ya özü özünə zülm edər, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın bağışlayan, rəhmli olduğunu görər".**[1]

Allahdan diləyirik ki, bizləri və sizi bağışlasın və rəhm etsin. Şübhəsiz ki, O, hər şeyə Qadirdir.

[1] "ən-Nisa" surəsi, 110.

Yüz yetmiş birinci fəsil

Müsafirin yüksək yerə çıxdıqda təkbir gətirməsi, çökəkliyə endikdə isə "sübhanallah" deməsi, təkbiri çox yüksək səslə deməyin qadağan olunması

Mövzu ilə əlaqəli hədislər:

٩٧٥ – عن جابرٍ رضي الله عنه قال: كُنَّا إذا صعِدْنَا كَبَّرْنَا، وإذا نَزَلْنَا سبَّحْنا. رواه البخاري.

975. Rəvayət olunur ki, Cabir رضي الله عنه demişdir: "Bizlər yüksəkliyə qalxdıqda təkbir edər, hündürlükdən endikdə isə "Sübhanallah" deyərdik".

Hədisi Buxari rəvayət etmişdir.[1]

٩٧٦ – وعن ابن عُمر رضي الله عنهما قال: كانَ النبيُّ ﷺ وجيُوشُهُ إذا علَوُا الثَّنَايَا كَبَّرُوا، وَإذا هَبطُوا سَبَّحوا. رواه أبو داود بإسناد صحيح.

976. Rəvayət olunur ki, İbn Ömər رضي الله عنهما demişdir: "Peyğəmbər ﷺ və onun orduları yüksək yerə qalxdıqda təkbir edər, hündürlükdən endikdə isə "Sübhanallah" deyərdi".

Hədisi Əbu Davud səhih isnadla rəvayət etmişdir.[2]

Şərh:

Müəllif ən-Nəvəvinin رحمه الله "Salehlər bağçası" əsərində qeyd etdiyi bu fəsil səfər ədəbləri və səfərdə deyilənlərlə bağlıdır.

Həmin ədəblərdən biri də budur ki, insan dağ kimi yüksəkliyə qalxdıqda təkbir etsin ("Allahu Əkbər" desin). Həmçinin içində olduğu təyyarə də qalxdıqda təkbir edib bir, iki və ya üç dəfə: "Allahu Əkbər" desin. Özü yüksəklikdən endikdə, yaxud olduğu təyyarə eniş etdikdə də bir, iki və ya üç dəfə: "Sübhanallah" desin.

---

[1] "Səhih əl-Buxari", 2993.

[2] "Sunən Əbu Davud", 2599.

İnsan yüksəkliyə qalxdıqca özünü yüksəlmiş hesab edir və ola bilsin ki, lovğalanmış olsun. Ona görə də "Allahu Əkbər" deməklə özünü izzət və cəlal sahibi Allahın böyüklüyü qarşısında kiçildir. Yəni, ey nəfs, sən məni yüksəltsən belə, izzət və cəlal sahibi Allah səndən də, hər şeydən də yüksəkdədir.

Aşağı enmək isə kiçilməkdir, alçalmaqdır. Bu an o: "Sübhanallah" deyir. Yəni, nöqsansız və uca Allah alçalmaqdan münəzzəhdir. Rəsulullahın ﷺ: **"Allah hər gecənin son üçdə birində yerin səmasına enir"** deməsinin varid olmasına baxmayaraq, bu enmək izzət və cəlal sahibi Allaha layiq bir enişdir[1] və bu eniş alçalmaq mənasını vermir. Çünki Uca Allahın bənzəri, tayı-bərabəri yoxdur.

Xülasə, Rəsulullahın ﷺ və səhabələrinin doğru yolunun müstəhəb ədəblərindən biri budur ki, yüksəkliyə qalxdıqda: "Allahu Əkbər" deyəsən, hər hansı bir vadiyə endikdə isə: "Sübhanallah" deyəsən. Həmçinin göyərtəsində olduğun təyyarə göyə qalxdıqda da təkbir edirsən. Təyyarə hava limanına eniş etdikdə isə "Sübhanallah" deyirsən. Çünki səmada qalxıb-enməklə quruda (yerdə) qalxıb-enmək arasında fərq yoxdur. Müvəffəq edən Allahdır.

٩٧٧ – وعنهُ قال: كانَ النَّبِيُّ ﷺ إذا قَفَل مِنَ الحجِّ أو العُمْرَةِ كُلَّما أَوْفى عَلى ثَنِيَّةٍ أَوْ فَدْفَد كَبَّر ثَلاثاً، ثُمَّ قال: « لا إله إلاَّ اللَّه وَحْدَهُ لا شَرِيكَ لَهُ، لَهُ المُلْك ولَهُ الحمْدُ، وَهُو على كلِّ شَيءٍ قَدِيرٌ. آيِبُونَ تَائِبُونَ عابِدُونَ ساجِدُونَ لِرَبِّنَا حَامِدُونَ. صدقَ اللَّه وَعْدهُ، وَنَصر عبْده، وَهَزَمَ الأَحزَابَ وحْدَه » متفقٌ عليه.

وفي روايةٍ لمسلم: إذا قَفَل مِنَ الجيُوشِ أو السَّرَايا أَو الحجِّ أو العُمْرةِ.

قوْلهُ: « أَوْفَى » أَي: ارْتَفَعَ، وقولهُ: « فَدْفَد » هو بفتح الفاءَين بينهما دالٌ مهملةٌ ساكِنَةٌ، وآخِرُهُ دال أُخرى وهو: « الغَليظُ المُرْتَفِع مِنَ الأَرْض ».

977. İbn Ömərdən رضي الله عنهما rəvayət olunur ki, Peyğəmbər ﷺ həccə və ya ümrəyə getdiyi zaman yol boyu hər dəfə hündürlüyə qalxdıqda üç dəfə təkbir edər və deyərdi: **"Allahdan başqa ibadətə layiq məbud yoxdur, O,**

[1] "Səhih əl-Buxari", 1145; "Səhih Muslim", 758.

Təkdir və Onun şəriki yoxdur. Mülk və həmd Ona məxsusdur. O, hər şeyə Qadirdir. Tövbə edərək, ibadət edərək, səcdə edərək, Rəbbimizə həmd edərək qayıtdıq. Allah vədinə sadiq çıxdı, quluna yardım etdi, dəstələri tək məğlub etdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Muslimin rəvayətində belə deyilir: "Həcc və ya ümrə üçün, yaxud da hazırlanmış dəstə və ordularla getdikdə".

٩٧٨ – وعن أَبي هُريرةَ ﷺ أَنَّ رجلاً قال: يا رسول اللَّه، إني أُرِيدُ أَن أُسافِر فَأَوْصِنِي، قال: « عَلَيْكَ بِتقوى اللَّهِ، وَالتَّكبير عَلى كلِّ شَرفٍ فَلَمَّا ولَّى الرجُلُ قال: «اللَّهمَّ اطْوِ لهُ البُعْدَ، وَهَوِّنْ عَليهِ السَّفر » رواه الترمذي وقال: حديث حسن.

978. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, bir kişi dedi: "Ey Allahın elçisi, mən səfər etmək istəyirəm, mənə tövsiyə et". Dedi: **"Allahdan qorx, hər bir yüksəklikdə təkbir et".** Kişi çıxıb getdikdə dedi: **"Allahım, uzağı ona yaxın et, səfəri onun üçün asanlaşdır"**.

Hədisi Tirmizi rəvayət etmiş və: "Bu, həsən hədisdir" demişdir.[2]

٩٧٩ – وعن أَبي موسى الأَشعَريِّ ﷺ قال: كنَّا مَع النبي ﷺ في سَفَرٍ، فكنَّا إذا أَشرَفْنَا على وادٍ هَلَّلنَا وكَبَّرْنَا وَارْتَفَعتْ أَصوَاتنا فقالَ النبي ﷺ: « يا أَيُّهَا الناس ارْبَعُوا عَلى أَنْفُسِكم فَإِنَّكم لا تَدعونَ أَصَمَّ وَلا غَائِباً. إِنَّهُ مَعكُمْ، إِنَّهُ سَمِيعٌ قَريبٌ » متفقٌ عليه.

« ارْبعُوا » بفتحِ الباءِ الموحدةِ أَيْ: ارْفقوا بأَنْفُسِكم.

979. Rəvayət olunur ki, Əbu Musa əl-Əşari ﷺ demişdir: "Bir dəfə biz Peyğəmbərlə ﷺ birlikdə səfərdə idik. Bizlər hər hansı vadiyə endikdə uca səslə: "la ilahə illəllah" deyərdik. Peyğəmbər ﷺ dedi: **"Ey insanlar, səsinizi azaldın, siz kar və ya uzaqda olanı çağırmırsınız. O, sizinlədir. O, Eşidəndir, Yaxındır"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[3]

---

[1] "Səhih əl-Buxari", 1797; "Səhih Muslim", 1344.

[2] "Sunən ət-Tirmizi", 3445.

[3] "Səhih əl-Buxari", 2992; "Səhih Muslim", 2704.

Şərh:

Daha öncə də qeyd etmişdik ki, səfərdə olan yüksək yerə qalxdıqda təkbir etməli, aşağı endikdə isə "Sübhanallah" deməlidir. Biz bunun hikmətini də izah etdik. Lakin insan bunu etdikdə, yəni yüksələrkən təkbir etdikdə və ya enərkən "Sübhanallah" dedikdə özünə əziyyət verməməli, səsini yüksəyə qaldırmamalıdır.

Əbu Musa əl-Əşarinin ﵁ hədisində qeyd olunur ki, bir dəfə o, Peyğəmbərlə ﷺ birlikdə səfərdə ikən insanlar yüksək səslə "la ilahə illəllah", "Allahu Əkbər" deyirdilər. Bu zaman Peyğəmbər ﷺ dedi: **"Ey insanlar, səsinizi azaldın"**, yəni özünüzə əziyyət verməyin.

"Siz kar və ya uzaqda olanı çağırmırsınız. O, sizinlədir – O, Eşidəndir, Yaxındır". İzzət və cəlal sahibi Allahın sizin "Sübhanallah, əlhəmdulilləh, Allahu Əkbər" dediyinizdə səsinizi ucaltmaqla özünüzə əziyyət vermənizə ehtiyacı yoxdur. Çünki Uca Allah Eşidəndir, Görəndir, Yaxındır. İzzət və cəlal sahibi Allah səmaların üzərində olsa belə, hər şeyi əhatə edir. İbn Abbas ﵄ demişdir: "Yeddi səma və yeddi qat yer ər-Rəhmanın ovcunda birinizin əlində xardal dənəciyinin olduğu kimidir".[1]

Bütün səmalar və yer izzət və cəlal sahibi Allaha nisbət olunmaz. O, hər şeyi əhatə edəndir, hər şeyin fövqündədir. Bu da dəlildir ki, gərək insan ibadətlərdə və onların davamlılığında özünə əziyyət verməsin. Peyğəmbərə ﷺ eşitdi ki, Abdullah ibn Amr ibn əl-As yaxşı işlər görməyə güclü rəğbət bəslədiyi üçün belə demişdir: "Sağ olduğum müddətdə gecələri oyaq olacağam, yaşadığım müddətdə gündüzləri oruc tutacağam". Yəni o, bütün gecələri qiyamda, bütün gündüzləri də orucla keçirmək istəyir. Peyğəmbər ﷺ onu çağırıb dedi: **"Sənin buna gücün çatmaz"**. Sonra ona əmr etdi ki, hər ayın üç gününü oruc tutsun, gecənin də bir hissəsini oyanıb, bir hissəsini yatsın. O da deyir ki, mən bundan daha artığını edə bilərəm. Peyğəmbər ﷺ ona deyir ki: **"Bir gündən bir oruc tut"**. O yenə deyir ki, mən bundan da artığını edə bilərəm. Peyğəmbər ﷺ də ona deyir ki: **"Bundan daha xeyirlisi yoxdur. Bu, Davudun orucudur – o, bir gündən bir oruc tutardı"**. Belə etməlidir ki, bir gün yesin, növbəti gün üçün güclənsin. O, yaşlandıqda bir gündən bir oruc tutmaq ona ağır gəldi

[1] Əbu Nueym, "Tarix əl-İsbahan", 2/205.

və dedi: "Kaş ki, mən Rəsulullahın ﷺ rüxsətini qəbul edəydim". Sonra o, ardıcıl on beş gün oruc tutub, on beş gün də tutmadı. Çünki artıq bir gündən bir oruc tuta bilmirdi. Peyğəmbər ﷺ qiyamla (gecə namazı ilə) bağlı isə ona dedi ki, ən yüksəkdə olanı gecənin yarısını yatıb, üçdə birini oyaq qalıb, altıda birini yatmaqdır. Yəni, onu üç qismə böldü: yarısını yatmaq, üçdəbirini oyaq olmaq, sonra da altıdabirini yatmaq. Sonra da dedi: **"Bundan daha əfzəli yoxdur".**[1]

Xülasə, insan gərək ibadətdə özünə əziyyət verməsin, nə zaman asan olsa, Allaha həmd etsin. Bəzi insanların qış vaxtı isti suyu olsa da, soyuq su ilə dəstəmaz alır və isti suyu tərk edir, bununla da özünə əziyyət verir. İzzət və cəlal sahibi Allah buyurur: **"Şükür etsəniz və iman gətirsəniz, Allah sizə nə üçün əzab versin!"**[2]

Bəli, yalnız soyuq suyun varsa və sən də ondan çətinliklə istifadə edərsənsə, buna görə əcr qazanmış olarsan. Yox, əgər savab qazanmaq ümidi ilə asanı qoyub əziyyətli olana qaçarsansa, bu doğru deyil. Nə asandırsa, onu et. Həmçinin, məsələn, bəzi insanlar desələr ki, mən həccə piyada getmək istəyirəm, çünki bu, maşınla getməkdən daha çətindir, onlara deyirik ki, bu səhvdir. Allah hansı ibadəti sənin üçün asanlaşdırıbsa, onu et. Yaxud kimsə desə ki, istəyirəm zəif işıqda oxuyum, işıqlı olan yerdə oxumayım. Çünki zəif işıq olan yerdə oxumaq daha çətindir. Deyirik ki, bu səhvdir, ibadət necə asandırsa, elə də et ki, qüsura yol verməyəsən. Yalnız çətinliyə düşdüyündə bu artıq Allahın əmridir – bu zaman ibadət edərkən əziyyət çəksən, savab qazanmış olarsan. Müvəffəq edən Allahdır.

[1] "Səhih Muslim", 1159.

[2] "ən-Nisa" surəsi, 147.

Yüz yetmiş ikinci fəsil

Səfərdə dua etməyin müstəhəbliyi

Mövzu ilə əlaqəli hədis:

٩٨٠ – عن أَبي هُرَيْرَةَ ﷺ قالَ: قالَ: رسولُ الله ﷺ:« ثَلاثُ دَعَوَاتٍ مُسْتجَابَاتٌ لا شَكَّ فِيهِنَّ: دَعْوَةُ المَظلومِ، وَدَعْوَةُ المسَافِرِ، وَدَعْوَةُ الوَالِدِ عَلى وَلدِهِ » رواه أبو داود والترمذي وقال: حديث حسن. وليس في رواية أَبي داود: « على ولِدِه ».

980. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Üç duanın müstəcəb olmasına şübhə yoxdur: məzlumun duası, müsafirin duası, atanın öz övladına etdiyi dua"**.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir. Əbu Davudun rəvayətində: "öz övladına" sözü keçmir.[1]

Şərh:

Müəllif ﷺ "Salehlər bağçası" əsərində **"Səfərdə dua etməyin müstəhəbliyi"** fəslini qeyd edir.

Müsafir, öz vətənini tərk edənə, səfərdə olana deyilir. Vətəninə qayıdanadək o, müsafir sayılır. Çox vaxt müsafirin duası möhtac olan bir bəndənin duası olur. İnsanın ehtiyacı olduqda və dua etdikdə çox vaxt duası qəbul olur. Çünki nöqsansız və uca Allah zərurət anında edilən duanı qəbul edir, ehtiyac anında edilən duanı başqa vaxt edilən duadan daha tez qəbul edir.

Müəllif ﷺ bu yerdə üç duanın qəbul olunmasında heç bir şübhənin olmaması hədisini qeyd edir: məzlumun duası, müsafirin duası və atanın duası.

Birincisi, məzlumun duası. Bunun mənası odur ki, kimsə sənə zülm etsə, yəni malını haqsız yerə alıb verməsə, sənə təcavüz etsə, səni vursa,

---

[1] "Musnəd İmam Əhməd", 2/258; "Sunən Əbu Davud", 1536; "Sunən ət-Tirmizi", 1905; "Sunən İbn Macə", 3862.

qeybətini etsə, məclislərdə və başqa yerlərdə səni təhqir etsə, bu zülmdür. Əgər ona bəddua etsən, Allah sənin duanı qəbul edər. Hətta məzlum kafir olsa belə, sən ona zülm etsən, o da sənin əleyhinə bəddua etsə, Allah onun duasını qəbul edər. Yəni, məsələn, sənin kafir bir işçin var, sən ona zülm etsən, o da sənə qarşı bəddua etsə, Allah onun da duasını qəbul edər. Ona görə yox ki, O kafiri sevir, bu ona görədir ki, O ədaləti sevir. Çünki Uca Allah ədalətli hökmdardır – gərək məzlumla zalımın arasında ədalətlə hökm versin. Buna görə də Peyğəmbər ﷺ Müazı Yəmənə göndərdikdə ona belə demişdir: **"Məzlumun duasından qorx, çünki onunla Allah arasında heç bir hicab yoxdur".**[1]

Zülmə uğrayan adam zalıma bəddua etdikdə, onun duası [gördüyü] zülm miqdarında və ya ondan daha az qəbul olur. Əgər [o duada] həddi aşarsa, artıq o, təcavüz etmiş olur və duası qəbul olunmur.

İkincisi, müsafirin duası. Əgər o, izzət və cəlal sahibi Allaha dua etsə ki, onun səfərini asanlaşdırsın, səfər zamanı ona yardım etsin və ya başqa dualar edərsə, Uca Allah onun duasını qəbul edər. Buna görə də insan səfərdə olarkən dua etmək fürsətindən istifadə etməldir. Əgər səfər itaət səfəridirsə, məsələn, ümrə və ya həcc ziyarətidirsə, bununla o, duanın qəbul olunmasında güclü səbəb əldə etmiş olur.

Üçüncüsu, atanın duası. Bəzi mətnlərdə "öz övladına" sözü ilə keçir. Bəzi rəvayətlərdə isə mütləq şəkildə belə qeyd olunur ki, həm övladının lehinə xeyirli dua, yaxud da əleyhinə bəddua edərsə, qəbul olunur. Bu daha səhih olanıdır – atanın öz övladına dua və ya bəddua etməsi qəbul olunur. Övladına dua etdikdə, onu mərhəmətli şəkildə edər. İzzət və cəlal sahibi Allah rəhmli olanlara rəhm edir. Bədduanı isə ata yalnız övlad buna layiq olduqda edir – əgər övlad buna layiqdirsə, ata da ona bəddua edərsə, onun duası qəbul olar.

Xülasə, bu üç dua qəbul olunur: məzlumun duası, müsafirin duası bir də valideyinlərdən birinin duası.

[1] "Səhih əl-Buxari", 2448.

Yüz yetmiş üçüncü fəsil

İnsanlardan və ya başqalarından qorxduqda necə dua edilir?

Mövzu ilə əlaqəli hədis:

٩٨١ – عن أَبي موسى الأشعرِيّ ﷺ أَنَّ رسول اللَّهِ ﷺ كانَ إذا خَافَ قَوماً قال: « اللَّهُمَّ إِنَّا نجعلُكَ في نحورِهِمْ، ونعُوذُ بِك مِنْ شرُورِهِمْ » رواه أبو داود، والنسائي بإسناد صحيح.

981. Əbu Musa əl-Əşaridən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ bir qövmün şərindən ehtiyat etdikdə deyərdi: **"Allahım, biz Səni onların qarşısına qoyur, onların şərindən Sənə sığınırıq".**

Hədisi Əbu Davud və Nəsai səhih isnadla rəvayət etmişlər.[1]

Şərh

Sonra müəllif ﷺ insanın bir qövmdən və ya kimdənsə qorxduqda deməli olduqları barədə hədisi qeyd edir. Məsələn, pisliyindən qorxduğun adamlarla üzləşdikdə, bunları de: "Allahım, biz Səni onların önünə qoyur, onların şərindən Sənə sığınırıq". Əgər bu sözləri səmimi-qəlbdən desən, Allah səni onların şərindən qoruyar.

"Allahım, biz Səni onların önünə qoyuruq", yəni qarşısına qoyuram ki, onu dəf edəsən.

"onların şərindən Sənə sığınırıq". Bu zaman Allah onlara qarşı sənə kifayət edər və səni onların şərindən qoruyar.

"Allahım biz Səni onların önünə qoyur, onların şərindən Sənə sığınırıq" – bu iki asan cümləni insan tam səmimiyyətlə deyərsə, uca Allah həmin pisliyi dəf edər. Müvəffəq edən Allahdır.

---

[1] "Sunən Əbu Davud", 1537.

Yüz yetmiş dördüncü fəsil

Bir yerə çatdıqda nə deyilir?

Mövzu ilə əlaqəli hədislər:

٩٨٢ – عن خَولَة بنتِ حكيمٍ ﵂ قالتْ: سمعْتُ رسول اللَّه ﷺ يقولُ: «مَنْ نَزلَ مَنزِلاً ثُمَّ قال: أَعُوذُ بِكَلِمات اللَّهِ التَّامَّاتِ مِنْ شَرِّ مَا خَلَقَ، لَمْ يضرَّه شَيْءٌ حتَّى يرْتَحِل مِنْ منزِلِهِ ذلكَ » رواه مسلم.

982. Xaulə bint Həkimdən ﵂ rəvayət olunur ki, o demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **“Kim bir yerə çatdıqda: “Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram” desə, həmin yerdən ayrılana qədər heç bir şey ona zərər verməz”**».

Hədisi Muslim rəvayət etmişdir.[1]

٩٨٣ – وعن ابن عمرو ﵄ قال: كانَ رسولُ اللَّهِ ﷺ إذا سَافَرَ فَأَقبَلَ اللَّيْلُ قال: يَا أَرْضُ ربِّي وَربُّكِ اللَّه، أَعُوذُ بِاللَّهِ مِنْ شرِّكِ وشَرِّ ما فِيكِ، وشر ماخُلقَ فيكِ، وشَرِّ ما يدِبُّ عليكِ، وأَعوذ باللَّهِ مِنْ شَرِّ أَسدٍ وَأَسْودٍ، ومِنَ الحيَّةِ والعقربِ، وَمِنْ سَاكِنِ البلَدِ، ومِنْ والِدٍ وما وَلَد » رواه أبو داود.

« والأَسودُ » الشَّخص، قال الخَطَّابي: « وسَاكِن البلدِ »: هُمُ الجنُّ الَّذِينَ همْ سُكَّان الأَرْضِ. قال: والبلد مِنَ الأَرْضِ مَا كان مأْوى الحَيوَانِ وإِنْ لَمْ يَكنْ فِيهِ بِنَاء وَمَنازلُ قال: ويحتَمِلُ أَنَّ المراد « بِالوالِدِ »: إِبلِيسُ « وما ولد »: الشَّيَاطِينُ.

983. Rəvayət olunur ki, İbn Ömər ﵄ demişdir: “Peyğəmbər ﷺ səfərdə ikən gecə düşdükdə deyərdi: **“Ey yer, mənim də, sənin də rəbbin Allahdır. Mən səndən və səndə olanların, səndə yaradılmışların, sənin üzərində gəzənlərin şərindən Allaha sığınıram. Hər bir şirdən və şəxsdən, ilan və əqrəbdən, bu yerin sakinlərindən, valideyindən və övladından Allaha sığınıram”.**

[1] “Səhih Muslim”, 2708.

Hədisi Əbu Davud rəvayət etmişdir.[1]

Hədisin ərəbcəsində keçən "əl-əsvəd" sözü şəxs deməkdir. əl-Xəttabi demişdir: **"Həmin məkanda yaşayanlar"**, yəni yer üzərində yaşayan cinlər. Diyarlar da yerin bir hissəsidir, hətta orada binalar və evlər olmasa belə, heyvanların sığınacağı olan yerlərə də aid edilir. Ehtimal olunur ki, burada **"valideyin"** deyildikdə İblis, **"övladları"** deyildikdə isə şeytanlar nəzərdə tutulur.

Şərh:

Bu fəsildə keçən iki hədis səfərdə olan insanın bir yerə çatdıqda deməli olduğu sözlər haqqındadır.

Xəulə bint Həkimdən rəvayət olunur ki, o demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Kim bir yerə çatdıqda: "Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram" desə, həmin yerdən ayrılana qədər heç bir şey ona zərər verməz"**».

"bir yerə çatdıqda", yəni səfər zamanı insanın istirahət, nahar, şam yeməyi və digər məqsədlərlə istirahət üçün yetişdiyi yerə deyilir. Belə bir yerə çatdıqda: "Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram" deyir.

"Sığınıram", yəni Allahın tam kəlmələrinə pənah aparıram. Burada həm şəri, həm də kainatla bağlı kəlmələr nəzərdə tutulur. İzzət və cəlal sahibi Allah bu xüsusda buyurur: "**Bir şeyi *yaratmaq* istədikdə ona təkcə: "Ol!" deyər, o da olar".**[2]

Uca Allah kainatla bağlı kəlmələri ilə səni qoruyur, sənə zərər verə biləcək şeylərdən səni müdafiə edir: "Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram". Allahın şəri kəlmələri olan vəhy də buna aiddir.

Bu dua hər bir pislikdən qoruyur, hətta hər bir pislik baş verməmişdən öncə ondan qoruyur. Pislik baş vermədən öncə ondan nə ilə qorunmağa dair Peyğəmbərin ﷺ belə dediyi nəql olunur ki, kim "Kürsü" ayəsini (ayətul-kursi) gecə oxuyarsa, səhərə qədər şeytan ona yaxınlaşmaz və Allah onu qoruyan bir *mələk* nazil edər.[3]

---

[1] "Sunən Əbu Davud", 2603; "Sunən ət-Tirmizi", 3451.

[2] "Yasin" surəsi, 82.

[3] "Səhih əl-Buxari", 5010.

Şərin nazil olmasına, yəni insana toxunmuş bir pisliyə gəlincə isə Peyğəmbərin ﷺ belə dediyi sabitdir ki, "əl-Fatihə" surəsi xəstəyə və ya sancılmış bir kəsə oxunarsa, həmin adam bundan faydalanar. Hətta səhabələrdən biri əqrəb sancmış qəbilə başçısına "əl-Fatihə" surəsini oxuduqda, o bununla sağalmış kimi yataqdan qalxmışdı,[1] yəni tamamilə sağalmışdı. Çünki Quran şəfadır: **"Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir".**[2]

Odur ki, ey müsəlman qardaşım, quruda və ya dənizdə bir yerə çatdıqda, dilədiyin evə və ya başqa bir yerə məskunlaşdıqda çalış bu duanı deyəsən: "Yaratdıqlarının şərindən Allahın tam kəlmələrinə sığınıram". Bu zaman həmin yerdən ayrılanadək sənə heç bir şey zərər toxundurmaz. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 2276.

[2] "Yunus" surəsi, 57.

Yüz yetmiş beşinci fəsil

Səfərdə olanın öz işlərini bitirdikdən sonra ailəsinin yanına qayıtmağının müstəhəbliyi

Mövzu ilə əlaqəli hədis:

٩٨٤ – عن أَبي هُرَيْرَةَ ﵁ أَنَّ رسول اللَّهِ ﷺ قال: « السَّفَرُ قِطْعةٌ مِن العذَابِ، يمْنَعُ أَحدَكم طَعامَهُ، وشَرَابَهُ وَنَوْمَهُ، فإذا قَضَى أَحَدُكُمْ نَهْمَتَهُ مِنْ سَفَرِهِ، فَلْيُعَجِّل إلى أَهْلِهِ » متفقٌ عليه.

« نَهْمَتهُ »: مَقْصُودهُ.

984. Əbu Hureyradan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Səfər əzabın bir parçasıdır – [hər] birinizin yeməyinə, içməyinə, yuxusuna mane olur. [Elə isə] səfərdə işini bitirən kəs ailəsinin yanına tələssin".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllif ﵀ "Salehlər bağçası" əsərində "**Səfərdə olanın öz işlərini bitirdikdən sonra ailəsinin yanına qayıtmağının müstəhəbliyi**" fəslini qeyd edir.

Səfərə çıxan insan öz evini, ailəsini tərk edir. Ola bilsin ki, ailəsinin tərbiyə, təhsil və digər məsələlərlə bağlı ona ehtiyacları olsun. Ola bilsin ki, elə məsələlər olsun ki, onun mövcudluğu vacib olsun. Müəllifin ﵀ də qeyd etdiyi hədisdə deyildiyi kimi, insan səfərdəki işlərini yekunlaşdırdıqdan dərhal sonra ailəsinin yanına tələsməlidir.

Bu hədisdə Peyğəmbər ﷺ demişdir ki: **"Səfər əzabın bir hissəsidir"**. Yəni, səfər zamanı insan həm cismani, həm də mənəvi cəhətdən əzab çəkir. Ələlxüsus da əvvəlki zamanlarda edilən səfərlərdə. Belə ki, onlar dəvə və s. miniklə səfərə çıxardılar və bu zaman onların səfərləri olduqca

[1] "Səhih əl-Buxari", 1804; "Səhih Muslim", 1927.

məşəqqətli olurdu – qorxu, qışın soyuğu, yayın istisi və s. Ona görə də Peyğəmbər ﷺ demişdir: **"Səfər əzabın bir parçasıdır – [hər] birinizin yeməyinə, içməyinə, yuxusuna mane olur".**

Səfərə çıxan adam daim məşğul olduğundan adi günlərdəki kimi rahat yeyib-içə və ya yata bilmir. Ona görə də səfərdə olan kəs işini bitirən kimi ailəsinin yanına qayıtmalıdır ki, öz ailəsinin qayğısına qalsın, onların tərbiyəsində olsun. Bu da dəlildir ki, insanın zərurət olmadıqca öz ailəsinin yanında olmağı səfərdə olmağından daha əfzəldir. Çünki ailəsinin ona ehtiyacı vardır. Ona görə də Malik ibn əl-Huveyris رضي الله عنه qövmündən olan iyirmi gənclə birlikdə Peyğəmbərin ﷺ yanına gəlib iyirmi gecə onun yanında qaldılar. Peyğəmbər ﷺ onların öz ailələri üçün darıxdıqlarını görüb deyir: **"Ailənizin yanına qayıdın, onların yanında qalın, onlara tərbiyə verin, onları öyrədin".** Bu da dəlildir ki, insan ehtiyac olmadıqca gərək öz ailəsinin yanından ayrılmasın, ehtiyacı bitdikdə isə dərhal geri qayıtsın. Bu daha əfzəldir. Müvəffəq edən Allahdır.

Yüz yetmiş altıncı fəsil

Ailəsinin yanına gündüz gəlməyin müstəhəbliyi, gecə gəlməyin isə zərurət olmadan bəyənilməməsi

Mövzu ilə əlaqəli hədislər:

٩٨٥ – عن جابرٍ رضي الله عنه أَنَّ رسولَ اللَّهِ ﷺ قال: « إذا أَطالَ أَحدُكمْ الغَيْبةَ فَلا يطْرُقَنَّ أَهْلَهُ لَيْلاً ».

وفي روايةٍ أَنَّ رسول اللَّه ﷺ نَهى أَنْ يطْرُقَ الرَّجُلُ أَهْلَهُ لَيْلاً. متفقٌ عليه.

985. Cabirdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Biriniz uzun müddət səfərdə olduqda evinə gecə vaxtı qayıtmasın".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Başqa bir rəvayətdə isə deyilir: "Peyğəmbər ﷺ kişinin gecə vaxtı səfərdən evinə qayıtmasını qadağan etmişdir".

٩٨٦ – وعن أنسٍ رضي الله عنه قال: كانَ رسولُ اللَّه ﷺ وسلَّمَ لا يطرُقُ أَهْلَهُ لَيْلاً، وكان يَأْتِيهِمْ غُدْوةً أَوْ عشِيَّةً. متفقٌ عليه.

« الطُّرُوقُ »: المَجِيءُ في اللَّيْلِ.

986. Rəvayət olunur ki, Ənəs رضي الله عنه demişdir: "Rəsulullah ﷺ gecə vaxtı ailəsinin yanına qayıtmazdı – ya səhər, ya da axşam gedərdi".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

---

[1] "Səhih əl-Buxari", 5244; "Səhih Muslim", 715.

[2] "Səhih əl-Buxari", 1800; "Səhih Muslim", 1928.

Yüz yetmiş yeddinci fəsil

Səfərdən qayıdan kəs öz şəhərini gördükdə nə deməlidir

Bu fəsildə bundan bir qədər öncə qeyd olunan və **"Səfərdə olanın hündürlüyə qalxdıqda təkbir gətirməsi"** fəslindəki hədis də vardır.

Mövzu ilə əlaqəli hədis:

٩٨٧ – وعن أنسٍ ﷺ قال: أَقْبَلْنَا مَعَ النَّبِيِّ ﷺ، حَتَّى إذا كُنَّا بِظَهْرِ المَدِينَةِ قال: « آيِبُونَ، تَائِبُونَ، عَابِدونَ، لِرَبِّنَا حَامِدُونَ » فلمْ يزلْ يقولُ ذلك حتَّى قَدِمْنَا المدينةَ » رواه مسلم.

987. Rəvayət olunur ki, Ənəs ﷺ demişdir: "Biz Peyğəmbərlə ﷺ birlikdə qayıdırdıq. Mədinənin kənarına çatdıqda o belə dedi: **"Tövbə edərək, ibadət edərək, Rəbbimizə həmd edərək qayıdırıq".** O, bu sözləri Mədinəyə çatanadək dedi.

Hədisi Muslim rəvayət etmişdir.[1]

[1] "Səhih əl-Buxari", 6185; "Səhih Muslim", 1345.

Yüz yetmiş səkkizinci fəsil

Səfərdən gələnin ilk öncə yaxınlıqdakı məsciddən başlamasının və orada iki rükət namaz qılmasının müstəhəbliyi

Mövzu ilə əlaqəli hədis:

٩٨٨ – عن كعب بنِ مالكٍ رضي الله عنه أن رسولَ اللَّهِ ﷺ كانَ إذا قَدِمَ مِنْ سَفرٍ بَدأَ بالمَسْجِدِ فَركع فِيهِ رَكْعتَيْنِ. متفقٌ عليه.

988. Kəb ibn Malikdən رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ səfərdən döndükdə [əvvəlcə] məscidə gedər və orada iki rükət namaz qılardı.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Bu iki məsələ səfərin ədəbləri ilə bağlıdır.

Birinci məsələ insanın uzun müddət səfərdə olduqdan sonra ailəsinin yanına gecə gəlməməsidir. Yəni, onların yanına zərurət olduqda və bunu əvvəlcədən xəbər verdikdə gecə gəlməlidir. Misal üçün, səhərə qədər gözləməyində çətinliyi var. Bu zərurət sayılır və onun gecə gəlməsi mümkündür. Yaxud gəlməmişdən öncə ailəsinə filan gecə gələcəyini xəbər veribsə, bu zaman gecə gəlməsində bir qəbahət yoxdur. Yox, əgər uzun müddət səfərdə olubsa, o zaman xəbər etmədən ailəsinin yanına gecə gəlməməlidir. Peyğəmbər ﷺ bunu açıqlayaraq demişdir ki: **"Belə etsin ki, qadın daransın və təmizlənsin".**[2] Yəni, ərinin gəlməsindən xəbəri olan qadın əri üçün bəzənib-düzənsin, süslənsin. Kişi gəlib onu süslənməmiş, yaxud övrət yeri təmizlənməmiş halda görməsin. Ona görə də [qadının bu halını] səfərin uzun olması ilə əlaqələndirmişdir.

Səfər uzun olmadıqda, məsələn, bir-iki günlük olduqda isə ailəsinin yanına istədiyi vaxt gələ bilər. Xülasə, səfər uzun olduqda gecə vaxtı ailənin yanına zərurət olmadan və ya onlara əvvəlcədən xəbər verilmədən

---

[1] "Səhih əl-Buxari", 4418; "Səhih Muslim", 2769.

[2] "Səhih əl-Buxari", 5079; "Səhih Muslim", 715.

gedilmir. Əgər əvvəlcədən xəbər etsə ki, mən filan gecə filan vaxtda gələcəyəm, bu zaman olar.

İkinci hədisdə isə deyilir ki, adam səfərdən döndükdə ailəsinin yanına getməzdən əvvəl məscidə getməlidir – ilk olaraq məscidə gedib orada iki rükət namaz qılmalıdır. Çünki Peyğəmbər ﷺ həm sözü, həm də əməli ilə bunu öz ümmətinə buyurmuşdur. Peyğəmbər ﷺ səfərdən döndükdə ilk öncə məscidə gedib orada iki rükət namaz qılardı. Cabir ona satdığı dəvənin pulunu götürmək üçün onun yanına gəldikdə, Peyğəmbər ondan soruşur: **"Məscidə daxil olub iki rükət namaz qıldınmı?"** Dedi ki, xeyr. O dedi: **"Məscidə get, iki rükət namaz qıl".**[1]

Bu sünnəni bir çoxları bilmir. Yaxud da ya cahillikdən, ya da səhlənkarlıqdan bunu etmir. İnsan gərək bu sünnəni yaşatsın – bir şəhərə çatdıqda ilk işi yaxınlıqdakı məscidə gedib iki rükət namaz qılmaq olsun. Bundan sonra ailəsinin yanına getsin. Müvəffəq edən Allahdır.

[1] "Səhih əl-Buxari", 3078.

Yüz yetmiş doqquzuncu fəsil

Qadının təkbaşına səfərə çıxmasının haram olması

Mövzu ilə əlaqəli hədislər:

٩٨٩ – عن أَبي هُرَيرَةَ ﷺ قَالَ: قَالَ رَسُولُ اللَّهِ ﷺ: « لا يَحِلُّ لامْرَأَة تُؤْمِنُ باللَّهِ وَاليَومِ الآخِرِ تُسَافِرُ مَسِيرَةَ يَوْمٍ وَلَيْلَةٍ إلاَّ مَعَ ذِي محْرمٍ عليْهَا » متفقٌ عليه.

989. Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: **"Allaha və axirət gününə iman gətirən bir qadının bir gün və bir gecəlik yolu məhrəmsiz getməsi halal deyildir".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

٩٩٠- وعن ابنِ عباسٍ ﷺ أنه سمع النبي ﷺ يقولُ:« لا يخلُونَّ رَجُلٌ بامْرأةٍ إلا ومَعَهَا ذُو محْرمٍ، ولا تُسَافِرُ المرْأَةُ إلاَّ معَ ذِي محْرمٍ » فقال لَهُ رَجُلٌ: يا رسولَ اللَّهِ إنَّ امْرأتي خَرجتْ حاجَّةً، وإنِّي اكْتُتِبْتُ في غَزْوةِ كَذَا وكَذَا؟ قال: «انْطلِقْ فَحُجَّ مع امْرأَتِكَ » متفقٌ عليه.

990. İbn Abbasdan ﷺ rəvayət olunur ki, o, Peyğəmbərin ﷺ belə dediyini eşidib: **"Məhrəm olmadan heç bir qadın kişi ilə xəlvətdə olmasın, məhrəm olmadan heç bir qadın səfərə çıxmasın".** Bir kişi ona dedi: "Ey Allahın elçisi, mənim xanımım həcc səfərinə çıxıb, özüm də filan-filan döyüşlərdə iştirak etmişəm". Dedi: **"Get və xanımınla həcc et"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllif ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərində **"Qadının təkbaşına səfərə çıxmasının haram olması"** fəslini qeyd edir. Yəni məhrəmsiz səfər etməsini. Çünki qadının dini və ağlı naqisdir, tez aldanandır. Hər bir kəs onu aldada bilər, hər bir kəs da onunla zəlil ola bilər.

---

[1] "Səhih əl-Buxari", 1088; "Səhih Muslim", 1338.

[2] "Səhih əl-Buxari", 3006; "Səhih Muslim", 1341.

Qadın kişi üçün bir fitnədir. Bu xüsusda Peyğəmbər ﷺ demişdir: **"İsrail oğullarının fitnəsi qadınlar olmuşdur"**.[1] Yenə o buyurmuşdur: **"Kişilər üçün qadınlardan daha zərərli bir fitnə tərk etmədim"**.[2] Ona görə də qadının məhrəmsiz səfərə çıxması qadağan olunur.

Səfər qısa olduqda qadınların səfər edib-etməmələri xüsusunda alimlər ixtilaf etmişlər. Bəziləri demişlər ki, hətta qısa səfərlər də qadağan olunmalıdır. Bəziləri isə yalnız uzun səfərlərin qadağan olduğunu bildirmişlər. Səhih olan odur ki, insanların səfər adlandırdığı qadağan olunur. Səfər adlanan hər hansı bir yerə qadının məhrəmsiz getməsi qadağandır. Çünki bu zaman fitnə, şər və bəlanın baş verməsindən həzər edilir.

Sonra müəllif ﷺ Əbu Hureyranın və İbn Abbasın ﷺ hədislərini gətirir. Bunlar da qadının məhrəmsiz səfərə çıxmasının qadağan olmasını göstərir. Hədisin zahirinə əsasən burada gənc qızla yaşlı qadın, yaxud gözəl ilə çirkin qadın arasında, yaxud qadınlarla birlikdə olanla tək qadın arasında fərq yoxdur. Həmçinin əmin-amanlıqda olanla olmayan arasında da fərq yoxdur. Hədis ümumidir. Əgər hər hansı bir səfərin təhlükəsiz olması yəqinliklə bilinsə belə, bu bütün səfərlərə aid deyil. Məsələ təhlükəli olduğu üçün qadının məhrəmsiz səfərə çıxması qəti şəkildə qadağan olunmuşdur.

Bəziləri məhrəmsiz səfərə çıxmaq məsələsində, xüsusən də təyyarə və ya ictimai nəqliyyatla səfərə çıxmaqla [bu qadağaya] səhlənkar yanaşırlar. Bu da səhvdir. Bu Allaha və Onun elçisinə ﷺ itaətdə səhlənkarlıqdır. Qadının məhrəmsiz təyyarə ilə səfər etməsi, hətta məhrəmi onu təyyarəyə qədər ötürsə, digər məhrəmi də onu getdiyi yerdə qarşılasa belə, halal deyildir. Bu icazəli deyil. Biz təhlükəsizliyi nə qədər təxmin etsək belə, o qadının yanında kimin oturacağı haqlı sual doğurur. Axı indi təyyarələrdə qadın və kişi sərnişinlər arasında fərq qoyulmur. Görürsən ki, qadın istəməyərəkdən belə, kişinin yanında oturur. Ona görə də deyirik ki, qadının məhrəmsiz təyyarə, maşın, dəvə, uzunqulaqla və ya piyada səfərə çıxması halal deyildir. Bütün bunlar haramdır.

---

[1] "Səhih Muslim", 2742.

[2] "Səhih əl-Buxari", 5096; "Səhih Muslim", 2741.

Məhrəm o kəsə deyilir ki, o birbaşa qohumluq və ya süd qohumluğu səbəbindən bir-birinə əbədi olaraq haramdır. Uca Allah bunu bəzi ayələrdə zikr etmişdir. Misal üçün, O buyurur: **"Sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş qızları, bacı qızları, sizi əmizdirən süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları, yaxınlıq etdiyiniz qadınlarınızdan olan himayənizdəki ögey qızlarınız, – yox əgər o qadınlarla yaxınlıq etməmişsinizsə, onda *onların qızları ilə evlənməyiniz* sizə günah deyildir, – öz belinizdən gələn oğullarınızın arvadları *ilə evlənmək* və iki bacını birlikdə almaq haram edildi. Olub-keçənlər isə artıq keçmişdir. Həqiqətən, Allah bağışlayandır, rəhmlidir".**[1]

Bu hökm ayədə sadalanmayan digər süd qohumlarına da aiddir – süd bibisi, süd xalası – bunlar da məhrəmlərdir. Peyğəmbər ﷺ bu barədə belə demişdir: **"Qohumluqdan kim məhrəmdirsə, süddən də həmin adamlar məhrəm hesab olunur".**[2]

Qohumlara gəlincə isə, ərin ata və ya ana tərəfdən atası, babası qadın üçün məhrəmdir. Həmçinin ərin oğlu, qızın oğlu və nəvələri də buna aiddir. Qadının məhrəmlərindən, məsələn, ərin babası oğlunun yoldaşı ilə səfər edərsə, bunda bir qəbahət yoxdur, çünki o məhrəmdir. Ərin oğlu atasının zövcəsi ilə də səfərə gedə bilər, çünki o məhrəm sayılır.

Bəzi avamlar elə düşünürlər ki, adam bir qadını ölümdən xilas edibsə, ona məhrəm olur. Yəni bəziləri deyirlər ki, suda boğulan qadını biri xilas edərsə, yaxud yanan evdə köməksiz qalmış qadını kimsə gəlib xilas edərsə, bəzi avamlara görə həmin [xilaskarlar] qadın üçün həmin andan artıq məhrəm olurlar. Bu doğru deyil və bunun heç bir [şəriət] əsası yoxdur – qohumluqla məhrəmlər yeddidir, sonradan olan qohumluqla isə dörddür. Ərə gəlincə isə, məlum məsələdir ki, o, məhrəmdir, çünki o ərdir. Müvəffəq edən Allahdır.

---

[1] "ən-Nisa" surəsi, 23.

[2] "Səhih əl-Buxari", 2645.

FƏZİLƏTLƏR KİTABI

Yüz səksəninci fəsil

Quran oxumağın fəziləti

Müəllif Hafiz ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərinin bu yerində **"Fəzilətlər kitabı"** bölməsini açır.

Fəzilətlər, "fəzilət" sözünün cəmidir.

Müəllif ﵀ ilk olaraq izzət və cəlal sahibi Allahın kitabının fəzilətləri haqqında sözə başlayır və: **"Quran oxumağın fəziləti"** adlı fəsil açır.

Əlimizdə olan Quran izzət və cəlal sahibi Allahın kitabıdır. Nöqsansız və uca Allah orada olanları həqiqətən demiş, Cəbrail ﵇ də onu eşitmişdir. Sonra da Cəbrail ﵇ onu Peyğəmbərə ﷺ eşitdiyi kimi oxumuşdur. Uca Allah buyurur: **"Şübhəsiz ki, bu, aləmlərin Rəbbindən nazil edilmişdir. Onu sadiq ruh *Cəbrail* endirdi – sənin qəlbinə ki, xəbərdar edənlərdən olasan".**[1] Uca Allah "sənin qəlbinə endirdi" buyurur, çünki qəlb, insanın dərk etdiyi yerdir. Uca Allah belə etmişdir ki, xəbərdar edənlərdən olasan

Peyğəmbər ﷺ Qurana o qədər həris idi ki, Cəbrail ona Quranı oxuduğunda o da tələsik onu təqib edərək oxuyurdu. Uca Allah da buyurdu ki: **"*Cəbrail sənə Quranı nazil etdikdə* onu tələm-tələsik yadda saxlamaq üçün dilini tərpətmə!"** [2], yəni sus ki, Cəbrail sənə oxusun.

"Şübhəsiz ki, *sənin qəlbində* onun qərar tutması və *dilinlə* onun oxunması Bizə aiddir".[3] Yəni, Quranı Muhəmmədə aləmlərin Rəbbi olan Allahın elçisi Cəbrail oxumuşdur.

"Biz onu oxuduğumuz zaman sən onun oxunuşunu izlə".[4] Yəni, onun ardınca oxu.

"Sonra onu bəyan etmək də, sözsüz ki, Bizə aiddir".[5] Yəni, Cəbrail oxuduğunda onun sözünü kəsmə.

---

[1] "əş-Şuəra" surəsi, 192-194.

[2] "əl-Qiyamət" surəsi, 16.

[3] "əl-Qiyamət" surəsi, 17.

[4] "əl-Qiyamət" surəsi, 18.

[5] "əl-Qiyamət" surəsi, 19.

Bu Quran uca Allahın kəlamıdır. Nazil etmək istədikdə də uca Allah Quranla danışır. Uca Allah buyurur: **"Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi".**[1]

Bu cümlə keçmiş zamandadır, yəni "eşitdi" keçmiş zaman feilidir. Bu da dəlildir ki, Uca Allahın kəlamı nazil olmamışdan öncə, O, qadını eşitmişdir: **"Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin söhbətinizi eşidir. Həqiqətən, Allah Eşidəndir, Görəndir".**

Başqa bir ayədə uca Allah belə buyurur: **"Bir zaman sən *Uhuddakı* döyüşdən ötrü möminləri mövqelərə yerləşdirmək üçün səhər tezdən ailəndən ayrılıb getmişdin".**[2] Bu, Uhudda baş vermişdi. Sən **"ailəndən ayrılıb getmişdin"**, yəni bu ayə nazil olmamışdan öncə getmişdin. Uca Allah istədiyi vaxt, istədiyi şəkildə danışır.

"Uca Allah bizim kimi danışır" deməyimiz halal deyildir. Yəni, bizim səsimiz kimi. Xeyr. Allah bizim danışdığımız hərflərlə danışır. Əlimizdə olan bu Quran bizim danışdığımız hərflərdən ibarətdir. O, izzət və cəlal sahibi Allahın kəlamıdır – məna və ləfz olaraq hamısı Allahın kəlamıdır. Quran haqqında Sünnə, sələfin icması və Sünnə əhli alimlərinin dedikləri budur ki, "Quran Allahın kəlamıdır, Onun tərəfindən nazil edilib. Allah onu haqq olaraq danışıb. Allah onu həqiqətən də danışmış, Cəbrail onu Ondan qəbul etmiş, sonra da onu Muhəmmədin ﷺ qəlbinə nazil etmişdir". Uca Allah bu xüsusda buyurur: **"Həqiqətən, bu, göndərdiyimiz *Quran* möhtərəm bir elçinin sözüdür. *O elçi ki*, qüvvətlidir, Ərşin sahibi yanında *böyük* hörmət sahibidir, orada itaət ediləndir, etibarlıdır".**[3]

Cəbrail عليه السلام böyük etibar sahibidir. Bəşəriyyətin ən etibarlı şəxsiyyətinə Quranı o çatdırmışdır. Cəbrail mələklərin ən etibarlısı, Muhəmməd ﷺ də insanların ən etibarlısı idi. Onların hər ikisi izzət və cəlal sahibi Allahın vəhyi üçün etibarlı şəxslər idi.

Bu Quranın əzəmətli fəzilətləri vardır. Həm ümumi fəzilətləri var, həm də xüsusi – surə və ayələrin öz fəzilətləri vardır. Məsələn, "əl-Fatihə" surəsi həm "yeddi tərif surəsi" adlanır, həm də "Kitabın anası" adlanır.

---

[1] "əl-Mücadələ" surəsi, 1.

[2] "Ali-İmran" surəsi, 121.

[3] "ət-Təkvir" surəsi, 19-21.

"Kürsü" ayəsi (ayətul-kursi) isə Allahın kitabındakı ən əzəmətli ayədir. Beləcə, bəzi surə və ayələrin xüsusi fəzilətləri vardır, Quranın da ümumi fəzilətləri vardır.

Bu da bizə onu vacib edir ki, izzət və cəlal sahibi Allahın kitabına gecə-gündüz həris olaq. Çünki insan Allahın kitabını oxuduqda hər hərfinə görə on savab qazanır, yəni, məsələn, "قُل" / "qul" (de!) sözündə iki hərf var və bu sözü oxumaqla iyirmi savab əldə olunur. Çünki o söz iki hərfdən – qaf və ləm hərflərindən ibarətdir. Və ya "əuzu" sözündə qırx savab vardır. Yəni bu əzəmətli bir savabdır. İnsan bu əzəmətli kitabı oxuduqda nə qədər savab qazandığını təsəvvürünə belə gətirə bilməz: **"Batil ona nə önündən, nə də arxasından girişə bilər. O, müdrik, tərifəlayiq *Allah* tərəfindən nazil edilmişdir".**[1]

İnsan Quran oxuduqda onu gərək aramla oxusun və tələsməsin, tələsərək bəzi hərfləri düşürməsin. Bəziləri elə tələm-tələsik oxuyurlar ki, bəzi hərfləri düşürürlər. Quranı nazil olduğu kimi oxuyan kəs hərflərini aydın ifadə etməlidir. Təcvidlə oxumaq isə vacib deyil, lakin o, kamillik və səsin gözəlləşdirilməsi üçündür. Vacib olan budur ki, heç bir hərfi və ya şəddəni düşürməyəsən. Təcvid qaydaları isə gözəlləşdirmə və kamilləşdirmə üçündür və vacib sayılmır. Ona görə də təcvidin vacib olması və təcvidlə oxumayanın günah qazanması rəyi zəif hesab olunur, həm də olduqca zəif rəydir. Onsuz da Quran, Allaha həmd olsun ki, açıq və aydındır və onun heç bir hərfi ləğv olunmur. Təcviq qaydalarına riayət etmək isə heç də vacib deyil və bu sadəcə Quranın oxunuşunu yaxşılaşdırmaq üçündür.

Bil ki, Quran nazil olduqda bir deyil, yeddi fərqli qiraətdə nazil olmuşdur. Çünki Quranın özlərinə nazil olduğu ərəblər müxtəlif qəbilələrdən idi və onların ləhcələri də fərqli idi. Məlum məsələdir ki, bir adam başqasının ləhcəsində asanlıqla danışa bilmirdi. İzzət və cəlal sahibi Allah isə Öz qullarına çətinlik istəmir və Quranı yeddi qiraətdə nazil edir. Bu Peyğəmbərin ﷺ, Əbu Bəkrin və Ömərin zamanında belə də qalır. Osmanın zamanında isə xilafətin mərkəzindən uzaq yaşayan insanların ləhcələrlə oxuması avam camaat arasında ixtilafa səbəb olur.

[1] "Fussilət" surəsi, 42.

O zaman Qureyş ləhcəsi digər ləhcələri üstələyirdi. Həmin vaxt artıq dil inkişaf etmiş, dövlətin bütün başçıları da qureyşlilər idi. Beləcə Qureyş ləhcəsi yayılır. Möminlərin əmiri Osman ﷺ insanların Allah kəlamının oxunuşu barəsində ixtilaf etməsindən və bu ixtilafın parçalanmaya və qarşıdurmaya səbəb olacağından ehtiyat edib əmr edir ki, Quran bir oxunuşda – Qureyş ləhcəsində cəm olunsun. Beləcə Quran bir ləhcədə, yəni Qureyş ləhcəsində toplanır və bizlər bu gün həmin formada (oxunuşda) oxuyuruq. Sonra əmr edir və Qureyş ləhcəsindən fərqli bütün digər müshəflər yandırılır. Belə edir ki, qalan fərqli müshəflər insanların yenidən fitnəyə düşməsinə səbəb olmasın. Bu da möminlərin əmiri Osmanın ﷺ ümmətin parçalanmayıb bir olması işində böyük fayda və unudulmaz fəzilətlərindən biridir. Uca Allahdan diləyirik ki, onu xeyirlə mükafatlandırsın.

Özümü və sizləri Allahın kitabını oxumağa təşviq edirəm – Quran oxumağı tərk etməyin! Ay ərzində bir dəfə olsa belə, onun hamısını oxuyun. Yaxud ayda iki dəfə, yaxud dörd dəfə və ya ayda on dəfə – bu da ən kamilidir. Hər üç gündə bir dəfə Quranı xətm etmək ən əfzəl olanıdır. Əgər oxuya bilməsən, həftədə bir dəfə, yaxud on gündə bir dəfə və ya iki həftədə bir dəfə, üç həftədə bir dəfə, ya da heç olmasa ayda bir dəfə onu oxuyub bitirin. Xülasə, gərək Quranı tərk etməyəsən. Çünki o, izzət və cəlal sahibi Allahın kəlamıdır. O sənin qəlbindəki nuru və elminin fəzilətini artıracaqdır. Müvəffəq edən Allahdır.

Mövzu ilə əlaqəli hədislər:

٩٩١ – عن أَبي أُمامَةَ ﷺ قال: سمِعتُ رسولَ اللَّهِ ﷺ يقولُ: « اقْرَؤُا الْقُرْآنَ فإِنَّهُ يَأْتي يَوْم القيامةِ شَفِيعاً لأَصْحابِهِ » رواه مسلم.

991. Rəvayət olunur ki, Əbu Uməmə ﷺ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **"Quran oxuyun! Heç şübhəsiz, o, Qiyamət günü onu oxuyanların şəfaətçisi kimi gələcək"».**

Hədisi Muslim rəvayət etmişdir.[1]

[1] "Səhih Muslim", 804.

٩٩٢ – وعَن النَّوَّاسِ بنِ سَمعانَ ﵁ قال: سمِعتُ رسول اللَّهِ ﷺ يقولُ: «يُؤْتى يوْمَ القِيامةِ بالْقُرْآنِ وَأَهْلِهِ الذِين كانُوا يعْمَلُونَ بِهِ في الدُّنيَا تَقدُمهُ سورة البقَرَةِ وَآل عِمرَانَ، تحَاجَّانِ عَنْ صاحِبِهِمَا » رواه مسلم.

992. Rəvayət olunur ki, Nəvvas ibn Səman ﵁ demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitdim: **“Qiyamət günü Quran və [Quran] əhli – dünyada onu oxuyub onunla əməl edənlər gətirilər. “əl-Bəqərə” və “Ali-İmran” surələri irəli çıxıb sahibinin lehinə hüccət olacaq”».**

Hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif ən-Nəvəvi ﵀ “Quran oxumağın fəziləti” fəslində ilk olaraq Əbu Uməmənin ﵁ hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ buyurur ki, **“Quran oxuyun!”.**

Peyğəmbər ﷺ mütləq şəkildə əmr edir ki, Quran oxuyaq. Quran oxumaq hər bir halda və zamanda müstəhəbdir. Yalnız təbii ehtiyaclarını rəf edərkən Quran oxumaq olmaz, çünki Quran möhtərəm və əzəmətlidir. Ona görə bu halda oxunmaz. İnsan öz qadını ilə cinsi yaxınlıq edərkən də Quran oxumur. Əvəzində isə yaxınlıqdan öncə: “Allahın adı ilə! Allahım, şeytanı bizdən və bizə verəcəyindən uzaqlaşdır!”[2]– deyir.

Peyğəmbər ﷺ demişdir: **“Quran oxuyun! Heç şübhəsiz, o, Qiyamət günü onu oxuyanların şəfaətçisi kimi gələcək”**. Qiyamət günü izzət və cəlal sahibi Allah bu Quranın savabını elə edəcək ki, o gəlib onu oxuyanlara nöqsansız və uca Allahın yanında şəfaətçilik edəcək. Həmçinin, insan Quranı Allah yanında savab əldə etmək məqsədilə oxuyarsa, hər bir hərfə görə on savab əldə etmiş olur.

Nəvvas ibn Səmandan ﵁ nəql olunan hədis də belədir. Həmin hədisdə Peyğəmbər ﷺ buyurur ki, insan Quran oxuyub ona əməl edərsə, Qiyamət günü “əl-Bəqərə” və “Ali-İmran” surələri önə çıxaraq onu oxuyanlara hüccət olacaq. Ancaq Rəsulullah ﷺ burada Quranı oxuyub ona əməl etməyi şərt qoyur. Çünki Quran oxuyanlar iki qisimdir: birinci qisim

[1] “Səhih Muslim”, 805.

[2] “Səhih əl-Buxari”, 141.

Qurana əməl etmir, onun xəbərlərinə inanmır, onun əhkamlarına riayət etmirlər. Quran belələrinə qarşı (onların əleyhinə) şahidlik edəcək.

İkinci qisim isə Quranın xəbərlərinə inanır, onu təsdiq edir və əhkamlarına da riayət edirlər. Qiyamət günü Quran belələrinin lehinə şahidlik edəcək. Peyğəmbər ﷺ demişdir: **"Quran ya sənin lehinə, ya da əleyhinə hüccətdir".**[1] Bu da dəlildir ki, Quranda ən önəmli şey ona əməl etməkdir. Uca Allahın bu ayəsi də buna dəlildir: **"*Bu* mübarək Kitabı sənə nazil etdik ki, *insanlar* onun ayələrini düşünüb anlasınlar və ağıl sahibləri də ondan ibrət götürsünlər".**[2]

"*İnsanlar* onun ayələrini düşünüb anlasınlar", yəni mənalarını başa düşsünlər;

"ağıl sahibləri də ondan ibrət götürsünlər", yəni ona əməl etsinlər.

Uca Allah bu ayədə əməli düşünməkdən sonra qeyd etmişdir. Çünki anlamadan doğru əməl etmək olmur. Elm olduqda düşünmək də olur. Əməl isə düşünməyin davamıdır.

Xülasə, Quranın nazil edilməsinin qayəsi budur ki, o, davamlı oxunsun, onun xəbərlərinə iman gətirilsin, əhkamlarına əməl olunsun, ona tabe olunsun, qadağalarından çəkinilsin. Yalnız belə olduğu halda Qiyamət günü Quran öz sahibinin lehinə şahidlik edəcəkdir.

Bu həm də ona dəlildir ki, əlimizdə olan Quranda "əl-Bəqərə", "Ali-İmran", "ən-Nisa" və sair surələrin ardıcıllığı vəhylə nazil olduğu kimidir.

Bu barədə Huzeyfə ibn əl-Yəməndən nəql edilən hədisdə deyilir ki, "Bir dəfə o, Peyğəmbərlə ﷺ birlikdə namaz qıldı və o, "əl-Bəqərə", "ən-Nisa" və "Ali-İmranı" oxudu". Ancaq sonradan bu hədis Quranın son oxunuşu ilə nəsx olunmuş və "Ali-İmran" surəsi "ən-Nisa"dan önə keçirilmişdir. Yəni, "Ali-İmran" surəsi "əl-Bəqərə" ilə "ən-Nisa" surələri arasındadır. Müvəffəq edən Allahdır.

٩٩٣ – وعن عثمانَ بن عفانَ رضي الله عنه قال: قالَ رسولُ اللَّهِ ﷺ: « خَيرُكُم مَنْ تَعَلَّمَ الْقُرْآنَ وَعلَّمهُ » رواه البخاري.

[1] "Səhih Muslim", 223.

[2] "Sad" surəsi, 29.

993. Osman ibn Əffandan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Ən xeyirliniz Quranı öyrənən və öyrədəninizdir"**.

Hədisi Buxari rəvayət etmişdir.[1]

٩٩٤ – وعن عائشة ﷺ قالتْ: قال رسولُ اللَّهِ ﷺ: « الَّذِي يَقرَأُ القُرْآنَ وَهُو ماهِرٌ بِهِ معَ السَّفَرةِ الكرَامِ البررَةِ، والذي يقرَأُ القُرْآنَ ويتَتَعْتَعُ فِيهِ وَهُو عليهِ شَاقٌّ له أجْران » متفقٌ عليه.

994. Rəvayət olunur ki, Aişə ﷺ demişdir: "Rəsulullah ﷺ demişdir: **"Kim Quranı məharətlə oxuyarsa, hörmətli və itaətkar mələklərlə bir səviyyədə olar. Kim də Quranı kəkələyərək, çətinlik çəkə-çəkə oxuyarsa, o, ikiqat əcr qazanır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Şərh:

Müəllif ﷺ "Salehlər bağçası" əsərinin **"Quran oxumağın fəziləti"** fəslində Osman ibn Əffandan rəvayət olunan hədisdə Rəsulullahın ﷺ belə dediyini demişdir: **"Ən xeyirliniz Quranı öyrənən və öyrədəninizdir".**

Xitab bütün ümmətədir və insanların ən xeyirlisi bu iki vəsfi özündə birləşdirənlərdir: Quranı öyrənənlər və onu öyrədənlər – Quranı başqasından öyrənənlər və başqalarına onu öyrədənlər.

Öyrənmək və təlim həm ləfzi, həm də mənəvi cəhətdən anlaşılır.

Birinci növə, yəni ləfzi təlimə gəlincə, kim Quranı əzbərləyib insanlara onu oxumağı öyrədər və onlara Quranı əzbərlədərsə, bu ləfzi təlimə aiddir. Həmçinin Quranı bu qaydada öyrənən kəslər də buna aiddir. Bununla da bir çox ölkələrdə mövcud olan Quran halqalarının fəzilətini anlamış oluruq. Allaha həmd olsun! Məscidlərdə Quran halqaları olur və uşaqlar orada izzət və cəlal sahibi Allahın kəlamını öyrənirlər. Kim buna yardım edərsə, əcr qazanmış olar. Kim yardım edib öyrədərsə, əcr qazanmış olar. Bütün bunlar Peyğəmbərin ﷺ: **"Ən xeyirliniz Quranı öyrənən və öyrədəninizdir"** hədisinə daxildir.

---

[1] "Səhih əl-Buxari", 5027.

[2] "Səhih əl-Buxari", 4937; "Səhih Muslim", 798.

İkinci növ, mənəvi təlimdir. Buna təfsir təlimi də deyilir, yəni adam başqalarına izzət və cəlal sahibi Allahın kəlamını necə açıqlamaq lazım olduğunu öyrədir.

Məlum olduğu kimi, Quran mütəşabehdir. Bəzən görürsən ki, bəzi ayələrdə bəzi sözlər təkrarlanır. Məsələn, uca Allah buyurur: **"Ey Peyğəmbər, kafirlərə və münafiqlərə qarşı vuruş, onlarla sərt davran! Onların gedəcəkləri yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir".**[1] Bu ayə eyni ləfzlə iki surədə – "ət-Tövbə" və "ət-Təhrim" surələrində təkrarlanır. Kitabın ayrı-ayrı surələrində təkrarlanan başqa bir çox ayələr də vardır. Yəni, Quran mütəşabehdir.

Əgər insan başqalarına Quranın nə cür təfsir olunduğunu öyrədirsə, ona təfsir elminin qaydalarını başa salırsa, bu da Quran öyrətməkdən hesab olunur. Bilmək lazımdır ki, Quran təfsir baxımından başqa kitablara bənzəmir. Yəni, insan ateistlər və mənaları dəyişənlər (təhrif edənlər) kimi Quranı öz istəklərinə görə təfsir edə, ayələri istədiyi kimi açıqlaya bilməz. Onlar ayələri başqa-başqa mənalara yozurlar. Məsələn, uca Allahın: **"Sənin Rəbbin və səf-səf *düzülmüş* mələklər gələcək"**[2] sözü barəsində: "yəni, Allahın əmri gələcək" deyirlər. Bu haramdır, icazəli deyil. Çünki Quranı təfsir edən kəs Allahın bunu nəzərdə tutduğuna şahidlik edir. Bu isə asan məsələ deyil, olduqca çətin məsələdir. Əgər sən alimlərdən birinin sözünü öz istəyinə uyğun açıqlasaydın, bu cinayət sayılardı. Gör indi aləmlərin Rəbbinin sözünü öz istəyinə uyğun açıqlamağın necə günahdır! Buna görə də hədisdə deyilir ki: **"Kim Quran barəsində öz rəyi ilə açıqlama verərsə, Cəhənnəmdəki yerini hazır bilsin".**[3] Odur ki, bilmədən: "Bu ayənin mənası belədir, belədir" deməkdən çəkinmək lazımdır. Əgər bunu deyən elm tələbəsidirsə və bunu daha elmli kəsin yanında deyirsə ki, səhv etdiyi təqdirdə onun səhvlərinə düzəliş versinlər, bu caizdir. İmtahanlarda: "bu ayəni təfsir et" kimi tapşırıqlar da buna aiddir.

Yaxşı, bəs həmin vaxt dərsi yaxşı bilməyən tələbə yadında qalanı deməklə təfsir edə bilərmi? Deyirik ki, bəli. Çünki bu adam imtahandadır – əgər səhv edəcəksə, onun səhvlərini düzəldəcəklər. Bundan fərqli şəkildə

---

[1] "ət-Təhrim" surəsi, 9.

[2] "əl-Fəcr" surəsi, 22.

[3] "Sunən ət-Tirmizi", 2951.

elmsiz təfsir etməyə gəlincə isə, bu icazəli deyil, çünki izzət və cəlal sahibi Allahın kəlamı başqaları kimi deyil.

Aişənin ﵂ hədisinə gəlincə isə, orada deyilir ki, Peyğəmbər ﷺ demişdir: **"Kim Quranı məharətlə oxuyarsa, hörmətli və itaətkar mələklərlə bir səviyyədə olar"**.

"Məharətlə oxuyan" Quranı mükəmməl şəkildə oxuyan kəslərə deyilir. Bu, hörmətli və gözəl olanlar mələklərdir. Uca Allah buyurur: ***"Bu Quran* kəramətli səhifələrdə yüksək və pak *səhifələrdədir. Bu səhifələr* elçilərin əllərində – möhtərəm və müti olan *mələklərin əllərindədir*".**[1]

Demək, Quranı mahir şəkildə oxuyanlar hörmətli mələklərlə birlikdə olacaqlar. Quranı kəkələyərək, çətinliklə oxumağa gəlincə isə, onun əcri ikiqatdır. Birinci əcr oxuduğuna görə, ikinci əcr isə çətinlik çəkdiyinə görədir. Buna görə də Peyğəmbər ﷺ Aişəyə ﵂ belə demişdir ki: **"Məşəqqətinə görə də əcrin olar".**[2] Yəni, çətinliyinə görə.

Beləliklə, Quranı çətinliklə oxuyan kəs ikiqat savab qazanmış olur: tilavətin savabı və əziyyətlə oxumağın savabı. Lakin birinci (məharətlə oxuyan) ondan daha əfzəldir, çünki birincinin mərtəbəsi yüksəkdir. Yüksək mərtəbəyə malik adamla həmin mərtəbədə olmayan, lakin əcr qazanan adam arasında fərq vardır. Əslində savabın bənzəri olmasa da, buna misal olaraq göstərə bilərik ki, bəzən şərəf, yüksək məqam və hörmət sahibi, ancaq maddi cəhətdən kasıb olan adam olur. Başqasının isə qibtə ediləcək qədər mal-dövləti olsa da, insanlar arasında alçaq və qiymətsiz birisi kimi tanınır. Mövqe baxımından bunlardan birincisi daha fəzilətlidir.

Xülasə, Quranı məharətlə oxuyan kəs möhtərəm və müti mələklərlə birlikdə olacaqdır. Quranı kəkələyərək, çətinliklə oxuyan kəs isə ikiqat savab qazanır. Demək, Quranı oxuyan kəs heç bir halda uduzmur və hər iki halda udur. Müvəffəq edən Allahdır.

٩٩٥ – وعن أبي موسى الأشْعريّ ﵁ قال: قال رسولُ اللَّهِ ﷺ: « مثَلُ المؤمنِ الَّذِي يقْرَأُ القرآنَ مثلُ الأُتْرُجَّةِ: ريحهَا طَيّبٌ وطَعمُهَا حلْوٌ، ومثَلُ المؤمنِ الَّذي لا يَقْرَأُ القُرْآنَ كَمثَلِ التَّمرةِ: لا رِيح لهَا وطعْمُهَا حلْوٌ، ومثَلُ المُنَافِق الذي يَقْرَأُ القرْآنَ كَمثَلِ الرّيحانَةِ: رِيحها طَيّبٌ

[1] "Əbəsə" surəsi, 13-16.

[2] "Səhih Muslim", 1211.

وطَعْمُهَا مرٌّ، ومَثَلُ المُنَافِقِ الذي لا يَقْرَأُ القرآنَ كَمَثلِ الحَنْظَلَةِ: لَيْسَ لَها رِيحٌ وَطَعمُهَا مُرٌّ » متفقٌ عليه.

995. Əbu Musa əl-Əşaridən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Quran oxuyan möminin məsəli portağala bənzəyir – onun həm qoxusu gözəldir, həm də dadı. Quran oxumayan möminin isə məsəli xurmaya bənzəyir – qoxusu olmasa da, dadı gözəldir. Quran oxuyan münafiqin məsəli reyhana bənzəyir – qoxusu gözəl olsa da, dadı acıdır. Quran oxumayan münafiqin isə məsəli tikana bənzəyir – onun qoxusu da yoxdur, dadı da acıdır".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Müəllifin ﷺ "Salehlər bağçası" əsərində gətirdiyi bu hədis Quran münasibətinə görə insanların qisimləri barədədir. Belə ki, Peyğəmbər ﷺ mömin ilə münafiqə misallar çəkir. Mömin ya Quran oxuyan olur, ya da oxumayan. Əgər Quran oxuyursa, onun misalı həm dadı, həm də qoxusu gözəl olan meyvəyə bənzəyir. Quran oxuyan möminin halı belədir – onun nəfsi də gözəldir, qəlbi də. Onunla oturan adam da xeyir tapar. Peyğəmbər ﷺ bu xüsusda buyurur ki: **"Yaxşı dostun misalı ətir satanın misalına bənzəyir. Ya sən ondan ətir almış olarsan, ya da yanında durmaqla onun gözəl qoxusunu duymuş olarsan..."**[2] Quran oxuyan möminin misalı da hər bir halda həm özü, həm də başqası üçün xeyirlidir. Bunlar gözəl meyvəyə bənzəyir – qoxuları da gözəl olur, dadları da.

Quran oxumayan möminin isə məsəli xurmaya bənzədilir. Xurmanın dadı şirin olur, lakin portağal kimi gözəl qoxusu olmur. Peyğəmbər ﷺ onun qoxusunun olmamasını demişdir. Hər bir şeyin öz qoxusunun olmasına rəğmən, onun qoxusu yoxdur. Quran oxumayan möminin misalı belədir. Demək, Quran oxuyan mömin Quran oxumayan mömindən daha əfzəldir. Quran oxumayan deyildikdə, onu bilməyən və öyrənməyən nəzərdə tutulur.

---

[1] "Səhih əl-Buxari", 5020; "Səhih Muslim", 797.

[2] "Səhih əl-Buxari", 2101; "Səhih Muslim", 2628.

Quran oxuyan münafiqin misalı reyhana bənzəyir. Onun qoxusu gözəldir, dadı isə acıdır. Çünki münafiqin özü xəbisdir, onda xeyir yoxdur. Münafiq o adama deyilir ki, o, özünü müsəlman kimi göstərir, qəlbində isə kafirdir. Allah qorusun! Uca Allah onlar barəsində buyurur: **"İnsanlardan elələri də vardır ki, mömin olmadıqları halda: "Allaha və Axirət gününə inanırıq"– deyirlər. Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. *Halbuki,* yalnız özlərini aldadır və *bunu* hiss etmirlər. Onların qəlblərində xəstəlik vardır, *üstəlik,* Allah onların xəstəliyini artırar. Yalan danışdıqlarına görə onlar üçün ağrılı-acılı bir əzab vardır".**[1]

Elə münafiqlər vardır ki, Quranı təcvidlə, gözəl şəkildə oxuyurlar. Lakin, Allah qorusun, onlar münafiqlərdir. Məsələn, Peyğəmbər ﷺ xəvariclər barəsində demişdir: **"Onlar Quran oxuyacaq, lakin oxuduqları boğazlarını keçməyəcək".**[2] Beləliklə, barəsində isə Peyğəmbər ﷺ reyhan bitkisini misal çəkir – Quran oxuduqlarına görə onların qoxusu gözəl, yolları səhv və niyyətləri xarab olduğu üçün isə dadları pisdir.

Peyğəmbər ﷺ Quran oxumayan münafiqə isə tikanı misal çəkir – onun dadı da pis olur, qoxusu da. Quran oxumayan münafiqdə xeyir yoxdur. Onun dadı acıdır, özü də Quran oxumur ki, insanlar ondan faydalansın.

İzzət və cəlal sahibi Allahın kitabına görə insanların qisimləri bunlardır. Odur ki, müsəlman qardaş, çalış [davamlı] Quran oxuyan, onu layiqli şəkildə tilavət edən möminlərdən olasan ki, portağal misalında olasan – onun dadı da gözəl olur, qoxusu da. Müvəffəq edən Allahdır.

٩٩٦ – وعن عمرَ بن الخطابِ رضي الله عنه أَنَّ النَّبِيَّ ﷺ قال: « إِنَّ اللَّه يرفَعُ بِهذَا الكتاب أَقواماً ويضَعُ بِهِ آخَرين » رواه مسلم.

996. Ömər ibn əl-Xəttabdan رضي الله عنه rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Həqiqətən, Allah bu kitabla bir qism insanları ucaldır, digərlərini isə alçaldır".**

Hədisi Muslim rəvayət etmişdir.[3]

---

[1] "əl-Bəqərə" surəsi, 8-10.

[2] "Səhih əl-Buxari", 3344; "Səhih Muslim", 1063.

[3] "Səhih Muslim", 817.

Şərh:

Müəllif ﷺ "Salehlər bağçası" əsərində **"Quran oxumağın fəziləti"** fəslində möminlərin əmiri Ömər ibn əl-Xəttabdan ﷺ nəql olunan hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Həqiqətən, Allah bu kitabla bir qism insanları ucaldır, digərlərini isə alçaldır".**

Bu sözlərin mənası budur ki, Quranı oxuyan insanlardan bəzilərini Uca Allah bu dünyada da, axirətdə də ucaldır, bəzilərini isə bu dünyada da, axirətdə də alçaldır. Yaxşı, bəs bunlar kimdir, o birilər kimdir? – Kim bu Quranın əmrlərini həyata keçirər, qadağalarından çəkinərsə, göstərdiyi doğru yola tabe olar və əxlaqi keyfiyyətlərinə yiyələnərsə, Uca Allah onu həm bu dünyada, həm də axirətdə ucaldar. Çünki Quran elmin əsası, mənbəyi və elmin özüdür. Uca Allah buyurur: **"... Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah nə etdiklərinizdən xəbərdardır".**[1]

Uca Allah Axirətdə bəzi insanları Quranla Nəim cənnətlərinə yüksəldəcək. Quran oxuyana: **"Oxu və yüksəl!"**[2] deyiləcək, o da oxuyaraq Cənnətə yüksələcək, in şəə Allah.

Quranın alçaltdığı kimsələr isə onu xoşagələn tərzdə oxusa da təkəbbürlüklə ondan üz çevirənlər, onun xəbərlərinə inanmayanlar, əhkamlarına riayət etməyənlər, xəbərlərinə qarşı çıxanlardır. Quranda keçmiş peyğəmbərlər və ya başqaları barəsində bir qissə gəldikdə, yaxud Axirət günü və ya başqa bir məsələ ilə bağlı xəbər verildikdə, buna şübhə edir və iman gətirmirlər: **"Onların qəlbində xəstəlik vardır"**[3] – şübhə içərisindədirlər. Allah qorusun! Hətta iş o yerə çata bilər ki, onlar haqqa qarşı ola bilərlər, – baxmayaraq ki, hələ Quran oxuyurlar.

Hökmlərə gəldikdə isə, onlardan təkəbbürlüklə üz çevirirlər – onun əmrlərinə tabe olmur, qadağalarından çəkinmirlər. Uca Allah belələrini, həm bu dünyada, həm də axirətdə alçaldır. Onların məğlub olması labüddür – bu dünya onlar üçün bəzədilib süslənsə belə, onların sonu məğlubiyyətdir. Allah qorusun! Ola bilsin, onlara möhlət də verilsin, dünyadan payları artmış da olsun. Ancaq hər dəfə onlara dünyadan bir gül bəxş

---

[1] "əl-Mücadələ" surəsi, 11.

[2] "Musnəd İmam Əhməd", 2/192; "Sunən Əbu Davud", 1464; "Sunən ət-Tirmizi", 2914.

[3] "əl-Bəqərə" surəsi, 10.

edildiyində, məğlub sonluqlarına daha da yaxınlaşırlar. Allah qorusun! **«Kafirlər Odun qarşısına gətiriləcəkləri gün *onlara deyiləcək:* "Siz dünya həyatınızda pak nemətlərinizi sərf edib qurtardınız və onlardan zövq aldınız. Bu gün isə siz yer üzündə haqsız olaraq təkəbbür göstərdiyinizə və asi olduğunuza görə alçaldıcı əzabla cəzalandırılacaqsınız!"»**[1] Yəni, ola bilsin, nöqsansız və uca Allah təkəbbürlük edib haqqa qarşı çıxan kafirə möhlət versin və dünyanı onların qarşısına sərsin, lakin bu onun Axirətdə günahlarının və ziyanının daha çox olmasına səbəb olacaqdır.

İkinci qisimdən (Quranın alçaltdığı kəslərdən) olmaqdan həzər edin. Allah qorusun! – Uca Allah onları Quranla alçaldar. Uca Allahın Quranla yüksəltdiyi kəslərdən olmağa çalışın. Allah bizləri və sizi onlardan etsin!

٩٩٧ – وعنِ ابن عمر ﷺ عن النَّبِيِّ ﷺ قال: « لا حَسَدَ إلاَّ في اثنَتَيْن: رجُلٌ آتَاهُ اللَّه القُرآنَ، فهوَ يقومُ بِهِ آناءَ اللَّيلِ وآنَاءَ النَّهَارِ، وَرجُلٌ آتَاهُ اللَّه مالا، فهُو يُنْفِقهُ آنَاءَ اللَّيْلِ وَآنَاءَ النهارِ » متفقٌ عليه.

« والآناءُ »: السَّاعاتُ.

997. İbn Ömərdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Yalnız iki şeyə görə insana həsəd aparılar: o kəsə ki, Allah ona Quran bəxş edib, o da gecə və gündüz saatlarını onunla qalxar, bir də o kəsə ki, Allah ona mal-dövlət bəxş edib, o da onu gecə-gündüz".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Hədisin ərəbcəsində keçən "əna" sözü "saatlar" mənasındadır.

Şərh:

Müəllif ən-Nəvəvi ﷺ özünün "Salehlər bağçası" əsərinin "Quranın fəziləti" fəslində İbn Ömərdən ﷺ nəql etdiyi hədisi qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ buyurur ki: "**Yalnız iki şeyə görə insana həsəd aparılar**".

[1] "əl-Əhqaf" surəsi, 20.

[2] "Səhih əl-Buxari", 5025; "Səhih Muslim", 815.

Alimlər buradakı həsəd sözünün mənasının qibtə olduğunu demişlər. Yəni, yalnız iki şeydə kiməsə qibtə etmək olar. Çünki insanlar dünya və Axirət işlərində [daim] bir-birilərinə qibtə edirlər. Məsələn, görürsən ki, Allah kiməsə var-dövlət, övlad, ailə, mülklər, avtomobillər və başqa nemətlər bəxş etdikdə, ona qibtə edirlər. Beləsi üçün deyirlər ki, buna qibtə olunur, yaxud da buna bənzər başqa sözlər deyilir.

"Həsəd aparılar", yəni bəzi insanlar kiməsə sağlamlıq və digər nemətlərin bəxş olunmasına qibtə edirlər. Qibtə edirlər ki, kiminsə öz qövmündə adı-sanı var, sözü deyildikdə eşidilir, əmr etdikdə ona tabe olunur. Beləsi üçün deyirlər ki, buna qibtə olunmalıdır.

Peyğəmbər ﷺ isə buyurur ki, yalnız iki kişiyə qibtə olunar:

Birinci, **"o kəsə ki, Allah ona Quran bəxş edib, o da gecə və gündüz saatlarını onunla qalxar"**. Quran bəxş edilib – Quranı əzbərləyib, Quranı anlayıb, gecə və gündüz Qurana əməl edir. Düşünür ki, izzət və cəlal sahibi Allah namaz barəsində: **"Namaz qılın!"** buyurub, o da namaz qılır. Yaxud düşünür ki, uca Allah: **"Zəkat verin!"** buyurub, o da zəkat verir.

Düşünür ki, yaxşı, bəs uca Allah valideyinlər barəsində nə buyurur? Görəndə ki, uca Allah: **"Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə yaxşılıq edin!"**[1] buyurub, o da bu əmrdən dolayı valideyinləri ilə gözəl münasibət saxlamağa çalışır**.**

Qohumlarla necə əlaqə saxlamaq barəsində Uca Allahın: **"O kəslər ki, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri birləşdirir (qohumluq və qardaşlıq əlaqələrini möhkəmlədir)"**[2] buyurduğunu əsas götürüb qohumlarla əlaqə saxlayır.

O uca Allahın qonşular barəsində də nə buyurduğunu düşünər və: **"yaxın və uzaq qonum-qonşuya yaxşılıq edin!"**[3] əmrinə də, həmçinin başqa əmrlərinə də riayət edər. Beləcə, o, gecə-gündüz Qurana riayət edər. Qibtə beləsinə edilir, çünki qənimət və uğur budur, qalıcı olan da budur.

İkinci, **"o kəs ki, Allah ona mal-dövlət bəxş edib"**, yəni onu zəngin edib, "**o da onu gecə-gündüz paylayır**". Yəni malını Allah yolunda, izzət

[1] "ən-Nisa" surəsi, 36.

[2] "ər-Rəd" surəsi, 21.

[3] "ən-Nisa" surəsi, 36.

və cəlal sahibi Allahın razı qaldığı işlərə sərf edir. Allahı razı salan hər bir işə – məscid inşasına, kasıblara sədəqəyə, mücahidlərə yardıma, darda olan insanlara köməyə və başqa işlərə sərf edir. Xülasə, malını gecə-gündüz Allaha yaxınlaşdıracaq hər bir işə xərcləyir. Bu işdə nə simiclik edir, nə də israf. Simiclik edib paxıllardan da olmur, israf edib dağıdanlardan da olmur. Əksinə, malını Allah üçün, Allah yolunda, Ondan yardım diləyərək, şəriətinə tabe olaraq xərcləyir. Məhz beləsinə qibtə olunur.

Əlində dünya malı olub, heyvanın yemləndiyi kimi ondan istifadə edən isə ancaq bununla kifayətlənər. Beləsinə qibtə olunmaz. Çünki onun malı onu tələf tələf edir. Əksinə, malını Allah yolunda xərcləyənə qibtə olunar.

Bu hədis dəlildir ki, insan Quranı gərək gecə-gündüz oxusun, ona əməl etsin, bütün əməllərini də Qurana əsaslandırsın. Həmçinin Allahın mal-dövlət bəxş etdiyi kəs də onun haqqını verməli, tələblərinə riayət etməli, onu Allah yolunda xeyirli işlərə xərcləməlidir. Müvəffəq edən Allahdır.

٩٩٨ – وعنِ البُراء بنِ عَازِبٍ ﷺ قال: كَانَ رَجلٌ يَقْرَأُ سورةَ الكَهْفِ، وَعِنْدَه فَرسٌ مَربوطٌ بِشَطَنَيْنِ فَتَغَشَّته سَحَابَةٌ فَجَعَلَت تَدنو، وجعلَ فَرسُه ينْفِر مِنها. فَلَمَّا أَصبح أَتَى النَّبِيَّ ﷺ. فَذَكَرَ له ذلكَ فقال: « تِلكَ السَّكِينَةُ تَنَزَّلتْ للقُرآنِ » متفقٌ عليه.

« الشَّطَنُ » بفتحِ الشينِ المعجمةِ والطاء المهملة: الْحَبْلُ.

998. Rəvayət olunur ki, Bəra ibn Azib ﷺ demişdir: "Bir kişi "əl-Kəhf" surəsini səsli oxuyurdu, iki iplə bağlanmış atı da yanında idi. Bu zaman bir bulud gəlib onun başı üzərində dayandı. At isə bundan ürküb oradan uzaqlaşmağa başladı. Səhər açıldıqda həmin adam Peyğəmbərin ﷺ yanına gəlib olanları ona danışdı. Peyğəmbər ﷺ dedi: **"Bu sükunət Quran oxunuşuna nazil olmuşdur"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Hədisin ərəbcəsində keçən "şətan" sözü "ip" deməkdir.

[1] "Səhih əl-Buxari", 5011; "Səhih Muslim", 975.

Şərh:

Müəllif ən-Nəvəvi رحمه الله "Salehlər bağçası" əsərinin "Quran oxumağın fəziləti" fəslində daha öncə qeyd etdiyi və edəcəyi bir sıra hədisləri zikr edir. Həmin hədislərdən biri də Bəra ibn Azibdən رضي الله عنه nəql olunur.

Hədisdə deyilir ki, bir kişi "əl-Kəhf" surəsini [səsli] oxuyurdu. Bu surə "əl-İsra" və "Məryəm" surələrinin arasında yer alır. Həmin surənin fəzilətlərindən biri də odur ki, bu surə cümə günü onu oxuyan kəs üçün növbəti cüməyədək bir nur olar. Həmin surədə izzət və cəlal sahibi Allahın öz elçisinə vəhy etdiyi ibrətamiz qissələr vardır. Deməli, bu adam Qurandan bu surəni oxuyarkən onun üzərini bulud örtür, o kəs də oxuduqca bulud yavaş-yavaş enir. Həmin vaxt iki iplə bağlanmış atı da bunu gördüyünə görə ürkür, geri çəkilir, oradan qaçmağa çalışır. Adam bu haqda Peyğəmbərə ﷺ xəbər verdikdə, o belə buyurdu: **"Bu sükunət Quran oxunuşuna nazil olmuşdur".** Çünki Quran oxunduqda sükunət nazil olur. İnsan Quranı aramla, düşünərək oxuyarsa, nazil olan sükunət onun qəlbinə nüfuz edər, yəni Allah onun qəlbinə sükunət nazil edir.

Bu hekayə övliyaların kəramətlərinə bir misaldır. Övliyaların kəramətləri olur, ancaq hər övliyanın kəraməti olmur. Nöqsansız və uca Allah bəzi övliyalarına kəramət bəxş edir ki, onu sabit etsin, üzərində olduğu haqqı təsdiq etsin.

Kəramət, adətən baş verməyən fövqəladə hadisəyə deyilir. Yəni, adi vaxtlarda belə hadisələr baş vermir. İzzət və cəlal sahibi Allah öz övliyalarının əli ilə həmin hadisələri həyata keçirir ki, onları sabitqədəm etsin, üzərində olduğu haqqı da təsdiqləsin.

Alimlər qeyd etmişlər ki, qeyri-adi hadisələr üç qismə bölünür:

Birinci qisim, peyğəmbərlərin möcüzələridir. İkinci qisim, övliyaların kəramətidir. Üçüncü qisim isə şeytanların həyata keçirdiyi əməllərdir. Allah qorusun, bunlar şeytanların əli ilə baş verir.

Baş verən qeyri-adi hadisələrin ən sadə açıqlaması belə qeyri-adi hadisələrin kimin əli ilə baş verməsindən asılıdır – o, ya peyğəmbərdir, ya Allahın övliyasıdır, ya da şeytanın dostudur.

Məlum məsələdir ki, Peyğəmbərin ﷺ vəfatından sonra kiminsə əli ilə möcüzənin baş verməsi qeyri-mümkündür. Yerdə qalır kəramət, bir də şeytan əməlləri olan fal, sehr və başqa buna bənzər əməllər.

Kəramətin meyarı budur ki, izzət və cəlal sahibi Allah onu övliyanın – əməlisaleh Allah dostunun əli ilə həyata keçirir. Allahın dostları isə ancaq təqvalı möminlərdir. Uca Allah bu xüsusda buyurur: **"Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməzlər. O kəslər ki, iman gətirmiş və *Allahdan* qorxmuşlar".**[1] Deməli, əgər qeyri-adi hadisələr əməlisaleh, təqvalı möminin əli ilə baş verərsə, bunun kəramət olduğu deyilir.

Üçüncü qisim isə sehr və sair şeytan əməlləridir ki, bu da şeytanın dostlarının – tağutların əli ilə baş verir. Onlar da özlərinə övliya deyərək səfeh və avam adamların ağlını qarışdırırlar. Bəzən görürsən ki, birinin başında böyük əmmaməsi, əynində yerlə sürünən paltarı, uzun da saqqalı var. Özü də alnını səylə yerə sürtür ki, alnında səcdə nişanəsi olsun. O buna bənzər manipulyasiyalarla avam insanların ağlını çaşdırır, sonra da şeytanlardan şəxsi mənafeyi üçün istifadə edir. Şeytanlara qulluq etdiyinə görə onlar uzaqları ona yaxın edirlər. Olur ki, onu havaya da qaldırsınlar və o uça bilsin. Hətta deyilənə görə bəzilərini Ərəfa gününün əvvəlində öz evində görsələr də, sonradan şeytanlar onu Ərəfaya aparıblar ki, insanlarla birlikdə olsun. Beləcə, bu yollarla şeytanlar insanların ağlını qarışdırır. Belələri bu əməlləri etsələr belə, bu kəramət sayılmır.

Kəramət barədə alimlər bir sıra əsərlər yazmışlar. Həmin kitablardan ən tutarlı olanlardan biri Şeyxulislam İbn Teymiyyənin "ər-Rəhmanın dostları ilə şeytanın dostları arasındakı fərq" əsəridir. Bu əsərdə o bir sıra övliyaların kəramətlərini qeyd etmişdir.

Məsələn, məlumdur ki, ər-Riyad yaxınlığındakı Yəməmədə çıxan Müseyləmə əl-Kəzzəb peyğəmbərlik iddia etmişdi. Bəziləri onun yanına gəlib deyirlər ki, bizim quyumuzun suyu çəkilir və indi çox az suyu qalıb. Ondan tələb edirlər ki, o həmin yerə gəlsin ki, o yerin suyu artsın. Bir vaxtlar suyun azlığından Rəsulullaha ﷺ şikayət edildiyi zaman Allah onun barmaqlarının arasından suyu axıtmaqla artırdığı kimi, bu adamlar da yalançı Müseyləmənin yanına gəlib deyirlər ki, mağaradakı quyunun suyu azalıb. Deyilənə görə, onlar quyunun yanına gedirlər, o əlini suya

[1] "Yunus" surəsi, 62-63.

salır və quyudakı su artmağa başlayır. İzzət və cəlal sahibi Allah onlara elə göstərir ki, sanki quyudakı su artır, dolub-daşır. Bu həmin adamın yalanlanması üçündür. Şəkk yoxdur ki, bu, adətən baş verməyən bir hadisə idi. Yəni, adi halda kiminsə suyu az bir quyuya su tökməsindən sonra quyudakı suyun artması baş vermir. Bu, təbiət qanunlara ziddir. Lakin Allah onu kəramət olaraq həyata keçirmişdir.

Xülasə, əgər kiminsə adətə müxalif bir hərəkət etdiyini görsən, həmin adam da təqvalı mömin, əməlisaleh və düzgün birisi kimi tanınırsa, bu övliyaların kəramətindəndir. Əgər belə olmasa, bu, ya şeytanın hallarından biridir, ya da insanların gözünə edilmiş bir sehrdir. Çünki bəzən insanın gözü sehrlə sehrlənir və o, hərəkətdə olan bir şeyi dayanmış görür, ya da dayanmış bir şeyi hərəkət edən kimi görür. Fironun sehrbazları da belə etmişdilər. Onlar adi kəndirləri və əsaları yerə atmış, sonra da insanların gözünü sehrləmişdilər. İnsanlar da onları ilanlar kimi görmüş, hətta Musanın belə ürəyinə qorxu düşmüşdü. Uca Allah da ona əmr edir ki, əsasını yerə atsın: **"*Musa* əsasını *yerə* atınca, o dərhal dönüb açıq-aşkar bir ilana çevrildi".**[1] Əsa böyük bir ilana çevrilir və həmin iplərin və əsaların üzərində hərəkət edərək onları udur. Orada olanlar da onun doğru olduğunu anlayırlar. Çünki o, bütün sehrləri məhv etmişdi: **"Sonra Musa əsasını atdı və *əsa* onların düzəltdikləri şeyləri uddu".**[2]

Xülasə, "əl-Kəhf" surəsini oxuyan bu adamın da üzərində buludun dayanması onun kəraməti idi. Bu da izzət və cəlal sahibi Allahdan bir şahidlikdir ki, bu Quran haqdır və onu oxuyana sükunət nazil olur.

Uca Allahdan diləyirik ki, onunla bizlərə və sizə fayda versin, onu bizlərə Nəim cənnətlərində rəhbər və hüccət etsin.

٩٩٩ – وعن ابن مسعودٍ رضي الله عنه قالَ: قال رسولُ اللَّهِ ﷺ: منْ قرأَ حرْفاً مِنْ كتاب اللَّهِ فلَهُ حسنَةٌ، والحسنَةُ بِعشرِ أَمثَالِهَا لا أَقول: الم حَرفٌ، وَلكِن: أَلِفٌ حرْفٌ، ولامٌ حرْفٌ، ومِيَمٌ حرْفٌ » رواه الترمذي وقال: حديث حسن صحيح.

[1] "əş-Şuəra" surəsi, 32.

[2] "əş-Şuəra" surəsi, 45.

999. Rəvayət olunur ki, İbn Məsud ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"Kim Allahın kitabından bir hərf oxuyarsa, bir savab qazanar, həmin savab da on qat artırılar. Mən demirəm ki, "əlif ləm mim" bir hərfdir, deyirəm ki, "əlif" bir hərfdir, "ləm" bir hərfdir, "mim" də bir hərfdir"**».

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən səhih hədisdir".[1]

١٠٠٠ – وعنِ ابنِ عباسٍ ﷺ قال: قال رسولُ اللَّهِ ﷺ: «إنَّ الَّذي لَيس في جَوْفِهِ شَيْءٌ مِنَ القُرآنِ كالبيتِ الخَرِبِ» رواه الترمذي وقال: حديث حسن صحيح .

1000. Rəvayət olunur ki, İbn Abbas ﷺ demişdir: «Rəsulullah ﷺ demişdir: **"İçərisində Qurandan bir şey olmayan kəs xaraba ev kimidir"**».

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən səhih hədisdir".[2]

Şərh:

Bu iki hədis Quran oxumağın fəziləti və savabı barəsindədir.

Birinci hədisdə İbn Məsud ﷺ demişdir: "Rəsulullah ﷺ demişdir: **"Kim Allahın kitabından bir hərf oxuyarsa, bir savab qazanar, həmin savab da on qat artırılar"**. Sonra da bunu açıqlayaraq buyurur ki: **"Mən demirəm ki, "əlif ləm mim" bir hərfdir, deyirəm ki, "əlif" bir hərfdir, "ləm" bir hərfdir, "mim" də bir hərfdir"**. Bu üç hərfin otuz savabı olur.

Digər sözlər də belədir – insan əzəmətli Quranı oxuduqda hər bir hərfə görə on savab qazanmış olur. Bu böyük bir nemət və çoxlu savab anlamındadır. Ona görə də insan izzət və cəlal sahibi Allahın kitabını bacardığı qədər çox tilavət etməlidir. Şərt deyil ki, Quranın hamısını əzbər biləsən. Onu bacardığın qədər oxu – sənin bildiklərin sadəcə "əl-Fatihə" surəsi, "Ammə" və ya "Təbarəkə" cüzləri, yaxud da başqa bir hissə olsa belə. Quranın hamısı xeyirlidir. Hətta Rəsulullah ﷺ xəbər vermişdir: **"De: "O Allah Təkdir!"** surəsini[3] oxuyan, sanki Quranın üçdə birini oxumuş kimidir.

---

[1] "Sunən ət-Tirmizi", 2910.

[2] "Musnəd İmam Əhməd", 1/223; "Sunən ət-Tirmizi", 2913.

[3] "əl-İxlas" surəsi.

Sonrakı hədisdə də Rəsulullah ﷺ bəyan etmişdir ki, **"İçərisində Qurandan bir şey olmayan kəs xaraba ev kimidir"**. Yəni, Quran qəlbi təmir edir, onu Qüvvətli Kitabın nuru və elmi ilə nurlandırır. İnsanın qəlbindən Quran yox olarsa, onun bədəni xaraba ev kimi [boş] olur. Allah qorusun, beləsində xeyir olmur! Bu da Quran oxumamaqdan bir çəkindirmədir. Qurana həris olmaq lazımdır. Allahdan diləyirəm ki, bizləri və sizi Quranı layiqincə tilavət edənlərdən etsin.

١٠٠١ – وعن عبدِ اللَّهِ بنِ عَمْرو بن العاصِ رضي الله عنهما عنِ النبيِّ ﷺ قال: « يُقَالُ لِصاحبِ الْقُرآنِ: اقْرأْ وَارْتَقِ وَرَتِّلْ كَما كُنْتَ تُرَتِّلُ في الدُّنْيَا، فَإنَّ منْزِلَتَكَ عِنْد آخِرِ آيةٍ تَقْرَؤُهَا » رواه أبو داود، والترْمذي وقال: حديث حسن صحيح.

1001. Abdullah ibn Amr ibn əl-Asdan رضي الله عنه rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Quran sahibinə deyiləcək: – Dünyada oxuduğun kimi *gözəl avazla* oxu *və yüksəl*, çünki sənin mənzilin *oxuya bildiyin* ən son ayədə olacaq".**

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən səhih hədisdir" demişdir.[1]

[1] "Sunən Əbu Davud", 1464; "Sunən ət-Tirmizi", 2914.

Yüz səksən birinci fəsil

Quranı təkrarlamağa əmr və onu unutmaqdan çəkindirmə

Mövzu ilə əlaqəli hədislər:

١٠٠٢ – عَنْ أَبي مُوسَى ﷺ عن النَّبِيِّ ﷺ قال: « تَعاهَدُوا هذا الْقُرآنَ فَوَالَّذي نَفْسُ مُحمَّدٍ بِيدِهِ لَهُو أَشَدُّ تَفَلُّتاً مِنَ الإِبِلِ في عُقُلِها » متفق عليه.

1002. Əbu Musadan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Bu Quranı çox oxuyun! Muhəmmədin canı Əlində olan Allaha and olsun ki, Quran yüyəni açılmış dəvədən daha tez itirilir".**[1]

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.

١٠٠٣- وعنِ ابْنِ عُمَرَ ﷺ أَنَّ رسولَ اللَّه ﷺ قال: « إِنَّمَا مَثَلُ صاحِبِ الْقُرْآنِ كَمَثَلِ الإِبِلِ الْمُعقَّلَةِ، إِنْ عَاهَد عَلَيْها أَمْسَكَهَا، وإِنْ أَطْلَقَهَا، ذَهَبَتْ » متفقٌ عليه.

1003. İbn Ömərdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Quran sahibinin misalı yüyəni açılmış dəvəyə bənzəyir – onu bərk tutsa, saxlayar, boş buraxsa, çıxıb gedər".**

Hədisi Buxari və Muslim rəvayət etmişlər.[2]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərində **"Quranı təkrarlamağa əmr və onu unutmaqdan çəkindirmə"** fəslini qeyd edir.

Yəni, izzət və cəlal sahibi Allah sənə Quranı öyrənməyi nəsib etmişsə, onu təkrarlamalısan. Çünki Peyğəmbər ﷺ Qurani-Kərimi yüyənli dəvəyə bənzədir – dəvəni bağlasan, onu itirməzsən, açıb boş buraxsan, [özbaşına] gedər, itər. Peyğəmbər ﷺ Əbu Musa əl-Əşarinin hədisində də deyildiyi kimi, and içərək buyurur ki: **"Bu Quranı çox oxuyun! Muhəmmədin canı Əlində olan Allaha and olsun ki, Quran yüyəni açılmış dəvədən daha tez itirilir".**

---

[1] "Səhih əl-Buxari", 5033; "Səhih Muslim", 791.

[2] "Səhih əl-Buxari", 5031; "Səhih Muslim", 789.

Qardaşım, gərək sən də hər gün bir qədər vaxt ayırıb müəyyən qədər Quran oxuyasan. Məsələn, özün üçün hər gün bir cüz oxuyacağam deyə qərarlaşdırsan, bir aya Quranın hamısını təkrarlamış olarsan. Yaxud iki cüz oxusan, on beş günə tamamlayarsan. Günə üç cüz oxusan, on günə bitirərsən. Yaxud günə yeddi cüz oxumaqla Quranı üç günə də bitirə bilərsən. Əsası Quranı çox oxu ki, unutmayasan.

Quran oxumağı buraxıb onu unudan kəslərin əməli barədə hədislər vardır. Təbii səbəblərdən onu unudana isə bunun zərəri olmaz. Ancaq kim Quranı əzbərlədikdən sonra ondan uzaqlaşıb qafil olar və onu unudarsa, cəzaya məhkum ola bilər.

Əziz qardaşım, əgər Allah səni Quranı əzbərləməyə müvəffəq edibsə, onu təkrar-təkrar çoxlu oxu. Çalış həm də ona əməl edəsən, çünki bir şeyə əməl etdikdə, o, daha yaxşı yadda qalır. Bəzi alimlər bu xüsusda demişlər ki: elmini əməllə əlaqələndir. Çünki bu zaman o, sənin qəlbində və əməllərində özünü göstərəcək. Belə olduqda o sənin yadından qalacaq və sən onu unutmayacaqsan. Bildiklərinə laqeyd yanaşıb təkrarlamadıqda isə itib gedəcək.

Quranı oxuyan kəs onu aramla, tələsmədən oxumalıdır. Oxuyan zaman onun bəzi hərflərini düşürəcək qədər sürətlə oxunması halal deyil. Çünki bəzi hərflər düşürüldükdə Allahın kəlamının mənası dəyişə bilər. Hərfləri düşürməyəcək bir sürətdə becid oxumaq isə olar. Müvəffəq edən Allahdır.

Yüz səksən ikinci fəsil

Quran oxuyarkən səsi gözəlləşdirmək, gözəl səsi olandan Quran oxumağı istəmək və onu dinləmək

Mövzu ilə əlaqəli hədislər:

١٠٠٤ – عَنْ أبي هُرَيْرَةَ ﵁ قال: سمِعتُ رسولَ اللهِ ﷺ يقول: « مَا أَذِنَ اللهُ لِشَيْءٍ مَا أَذِنَ لِنَبِيٍّ حَسَنِ الصَّوْتِ يَتَغَنَّى بِالْقُرْآنِ يَجْهَرُ بِهِ » متفقٌ عليه.

معنى « أَذِنَ اللهُ »: أي اسْتَمَعَ، وَهُوَ إِشَارَةٌ إِلى الرِّضَى وَالقُبُولِ .

1004. Əbu Hureyradan ﵁ rəvayət olunur ki, o demişdir: «Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **"Allahın öz Peyğəmbərinə gözəl səsdən izin verdiyi şey uca və gözəl səslə Quranı oxumaqdır"**».

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

"izin verdiyi", yəni razı qaldığı və qəbul etdiyi.

١٠٠٥ – وعن أبي موسى الأشْعَرِيِّ ﵁ أنَّ رسولَ اللهِ ﷺ قالَ لهُ: « لَقَدْ أُوتِيتُ مِزْمَاراً مِنْ مَزَامِيرِ آلِ دَاوُد » متفقٌ عليه.

وفي روايةٍ لمسلمٍ: أنَّ رسولَ اللهِ ﷺ قالَ لهُ: « لَوْ رَأَيْتَنِي وَأَنَا أَسْتَمِعُ لِقِرَاءَتِكَ البارحَةَ ».

1005. Əbu Musadan ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ ona belə demişdir: **"Sənə Davud ailəsinin səsi kimi bir səs verilib"**.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Muslimin rəvayətində isə «Rəsulullah ﷺ ona belə demişdir: **"Dünən sənin qiraətinə qulaq asmağımı bir görəydin)"**» sözü keçir.

Şərh:

Müəllif ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində qiraət ədəblərindən bəhs edərkən "**Quran oxuyarkən səsi gözəlləşdirmək, gözəl səsi olandan Quran oxumağı istəmək və onu dinləmək"** fəslini qeyd edir.

---

[1] "Səhih əl-Buxari", 7544; "Səhih Muslim", 792.

[2] "Səhih əl-Buxari", 5048; "Səhih Muslim", 793.

Burada iki məsələ vardır. Birinci məsələ, Quran oxuyarkən səsi gözəlləşdirməkdir. Quran oxuyarkən səsi gözəlləşdirmək özü də iki növdür:

Birinci, aydın şəkildə oxumaq, yəni hərfləri və məxrəcləri açıq-aydın şəkildə tələffüz etməkdir. Oxuyan idğam edərək hərflərin bəzisini gizlətməməlidir ki, Allahın öz elçisinə ﷺ nazil etdiyindən nəyisə azaltmasın.

İkinci, avazla oxumaqdır. Bunların hər ikisi lazımdır. Lakin bu vaxt həddi aşmaq olmaz, yəni avazı və idğamı həddindən artıq etmək olmaz. Bəzi qarilər özlərinə elə əziyyət verirlər ki, üzləri belə qızarır. Bu, hərfləri həddindən ziyadə oxumağa səy etməkdəndir. Ancaq qiraət gərək təbii olsun, orada hərflər və hərəkələr aydın deyilsin – tələb olunan da elə budur. Həddi aşmaq isə tələb olunmur. Bununla da bilirik ki, təcvid vacib deyildir. Çünki bu zaman həddi aşmadan səsin gözəlləşdirilməsi baş verir. Bu müstəhəb əməllərdəndir ki, bununla da insan vacibə deyil, müstəhəb olana çatmış olur.

İkinci qism avazla oxumaqdır. Ola bilsin, kimsə desin ki, səsi gözəlləşdirmək insanın istəyinə bağlı deyil. Çünki uca Allah istədiyi adama geniş boğaz və gözəl səs bəxş edir. Deyirik ki, bəli, elədir. Lakin insan öyrənərək səsini gözəlləşdirə bilər, çünki insan öz üstündə çalışaraq buna nail ola bilər.

Sonra müəllif Əbu Hureyranın hədisini qeyd edir. Həmin hədisdə Peyğəmbər ﷺ demişdir: **"Allahın öz Peyğəmbərinə gözəl səsdən izin verdiyi şey uca və gözəl səslə Quranı oxumaqdır".** Alimlər buradakı "izin verdiyi" sözünün mənasının "dinləmək" olduğunu demişlər. Yəni, uca Allah gözəl və yüksək səslə tilavət edilən Quranı dinləyər.

Peyğəmbərlər عليهم السلام də məxluqatın ən xeyirlisidir. Quranı gözəl avazla oxuyan, onu yüksək (yəni, ucadan) və gözəl səslə oxuyandır. Uca Allah buna izin verir, yəni onu dinləyir. Belə ki, O, yüksək və gözəl səslə oxunan Quranı sevir.

Sonra müəllif رحمه الله Əbu Musa əl-Əşarinin hədisini qeyd edir. Onun adı Abdullah ibn Qeysdir. Özü də Peyğəmbərin ﷺ xütbə verənlərindən biri idi. Bir gecə Peyğəmbər ﷺ onun qiraətini dinləyir və bu onun xoşuna gəlir. Sonra o ﷺ Əbu Musaya deyir ki: "**Sənə Davud ailəsinin səsi kimi bir səs verilib**".

“Davud ailəsi” deyildikdə, Davud peyğəmbərin ﷺ özü qəsd edilir. Davudun gözəl və uca səsi var idi. Uca Allah buyurur: **“Ey dağlar və quşlar, onunla birlikdə *Allahın şəninə* təriflər deyin!”**[1]

Davud gözəl səslə Zəbur oxuyanda cansız daşlardan ibarət dağlar belə onun səsinə səs verər, quşlar da onunla birlikdə oxuyardılar. Sübhanallah! Onun qiraətini eşidən quşlar göydə toplaşır və onunla birlikdə qayıdırdı: **“Ey dağlar və quşlar, onunla birlikdə *Allahın şəninə* təriflər deyin!”** Yəni, quşlara da belə bir əmr verdik. Quşlar və dağlar Davudun Zəbur qiraətini eşitdikdə, onunla birlikdə dönürdülər. Buna görə də Peyğəmbər ﷺ Əbu Musaya: **“Sənə Davud ailəsinin səsi kimi bir səs verilib”** demişdir. Yəni, sənə Davudun səsi kimi gözəl səs verilib.

Rəsulullah ﷺ Əbu Musaya: **“Dünən sənin qiraətinə qulaq asmağımı bir görəydin”** dedikdə, o dedi: “Əgər bilsəydim, səsimi daha da gözəlləşdirərdim”. Buna əsasən alimlər: “Bu dəlildir ki, insanlar səsdən zövq alsınlar deyə, Quran oxuyarkən səsi gözəlləşdirmək olar” demişlər. Bu, riyakarlıq sayılmır, yəni: “Kiminsə, insanlar onun səsindən zövq alsınlar deyə, gözəl səslə Quran oxuması riyadır” demək olmaz. Əksinə, bu, izzət və cəlal sahibi Allahın kitabını dinləməyə bir dəvətdir ki, insanların xoşuna gəlsin. Elə buna görədir ki, bir çoxları ruhən sıxıldıqda başqalarının gözəl səsli qiraətini dinləyir. Günümüzdə kasetlərdə və ya digər səs daşıyıcılarında həddini aşmadan gözəl səslə Quran oxuyanları dinləmək mümkündür. Onların tilavəti da gözəldir, səsləri də. İnsan onları dinləməkdən doymur, çünki Allah kəlamının müsbət təsiri vardır. Gözəl səsli birisi Quran oxuduqda onu dinləyən bundan bezmir.

Bu iki hədisdən anlaşılır ki, insan Quranı bacardığı qədər kamil şəkildə oxumalıdır. Uca Allahdan diləyirəm ki, bizləri və sizi onun əmrlərini layiqincə həyata keçirənlərdən etsin ki, Quran bizim əleyhimizə deyil, lehimizə olsun. Müvəffəq edən Allahdır.

١٠٠٦ – وعَنِ الْبَرَاءِ بنِ عَازِبٍ رضي الله عنهما قالَ: سَمِعْتُ النَّبِيَّ ﷺ قَرَأَ في العِشَاءِ بِالتِينِ والزَّيْتُونِ، فَمَا سَمِعْتُ أَحَداً أَحْسَنَ صَوْتاً مِنْهُ. متفقٌ عليه.

[1] “Səba” surəsi, 10.

1006. Bəra ibn Azibdən ﷺ rəvayət olunur ki, o demişdir: "Mən Rəsulullahın ﷺ işa namazında **"And olsun əncirə və zeytuna"**[1] oxuduğunu eşitdim. Mən ondan daha gözəl səslisini eşitmədim".

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

١٠٠٧ – وَعَنْ أَبِي لُبَابَة بَشِير بنِ عَبْدِ الْمُنْذِرِ ﷺ أَنَّ النَّبِيَّ ﷺ قَالَ: « مَنْ لَمْ يَتَغَنَّ بِالْقُرْآنِ فَلَيْسَ مِنَّا » رواهُ أبو داود بإسنادٍ جيد.

وَمَعْنَى « يَتَغَنَّى »: يُحْسِنُ صَوْتَهُ بِالْقُرْآنِ.

1007. Əbu Lubəbə Bəşir ibn Əbdül-Munzirdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Kim Quranı avazla oxumazsa, bizdən deyil".**

Hədisi Əbu Davud yaxşı isnadla rəvayət etmişdir.[3]

"Avazla oxumaq" dedikdə, Quranın tilavətini səslə gözəlləşdirmək nəzərdə tutulur.

١٠٠٨ – وَعَنْ ابْنِ مَسْعُودٍ ﷺ قالَ: قَالَ لِي النَّبِيُّ ﷺ: « اقْرَأْ عَلَيَّ الْقُرْآنَ »، فَقُلْتُ: يَا رَسُولَ اللهِ، أَقْرَأُ عَلَيْكَ وَعَلَيْكَ أُنْزِلَ؟! قَالَ: « إِنِّي أُحِبُّ أَنْ أَسْمَعَهُ مِنْ غَيْرِي »" فَقَرَأْتُ عَلَيْهِ سُورَةَ النِّسَاءِ حَتَّى جِئْتُ إلى هذهِ الآيَة: ﴿ فَكَيْفَ إِذَا جِئْنَا مِنْ كُلِّ أُمَّةٍ بِشَهِيدٍ وَجِئْنَا بِكَ عَلَى هؤُلاءِ شَهِيداً ﴾ قالَ: « حَسْبُكَ الآنَ » فالْتَفَتُّ إِلَيْهِ، فَإِذَا عَيْنَاهُ تَذْرِفَان. متفقٌ عليه.

1008. Rəvayət olunur ki, İbn Məsud ﷺ demişdir: "Peyğəmbər ﷺ mənə dedi: **"Mənə Quran oxu"**. Mən soruşdum: "Ey Allahın elçisi, Quran sənə nazil olduğu halda onu sənə mənmi oxuyum? Dedi: **"Mən onu başqasından dinləməyi xoşlayıram"**. Mən onun üçün "ən-Nisa" surəsini oxuya-oxuya: **"Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman *onların halı* necə olacaq?"**[4] ayəsinə çatanda o: **"İndi kifayətdir"** dedi**.** Dönüb ona baxdığımda onun gözlərindən yaş axdığını gördüm".

---

[1] "ət-Tin" surəsi.

[2] "Səhih əl-Buxari", 767; "Səhih Muslim", 464.

[3] "Sunən Əbu Davud", 1469.

[4] "ən-Nisa", 41.

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[1]

Şərh:

Bu hədislər Qurani-Kərimi oxuyarkən səsi gözəlləşdirməyin müstəhəbliyi haqqındadır.

Bəra ibn Azibdən رضي الله عنه nəql olunan hədisdə deyilir ki, Peyğəmbər ﷺ bizimlə işa namazını qılıb: **"And olsun əncirə və zeytuna"** surəsini oxudu. Bəra deyir ki, mən ondan daha gözəl qiraət və ya səs eşitməmişdim. Hər ikisi səhihdir. Peyğəmbər ﷺ Quran oxuyan ən gözəl səsli insan idi. O həm də sonrakı hədisdə qeyd olunan əməli etməyə ən layiqli şəxs idi. Həmin hədisdə deyilir ki: **"Allahın öz Peyğəmbərinə gözəl səsdən izin verdiyi şey uca və gözəl səslə Quranı oxumaqdır".** Rəsulullah ﷺ insanlardan Quranı ən gözəl tərzdə oxuyan, ən gözəl səslə oxuyanı idi. Çünki Quran ona nazil olmuşdur. Peyğəmbərin ﷺ əxlaqı da Quran idi.

Bu hədis dəlildir ki, işa namazında qısa surələri oxumaq olar. Belə ki, "ət-Tin" surəsi qısa surələrdəndir. Əksər hallarda isə Peyğəmbər ﷺ həmin namazda orta həcmli surələr oxuyardı. Məsələn, Muaz ibn Cəbələ əmr etmişdi ki, işa namazında: **"Ən Uca Rəbbinin adına təriflər de!", "*Aləmi* Bürüyənin xəbəri sənə gəlib çatdımı?", "And olsun *yer üzünü zülmətə* bürüməkdə olan gecəyə!", "And olsun günəşə və onun saçdığı şəfəqə!"**[2] kimi surələr oxusun. Lakin "ət-Tin", "əz-Zəlzələ" və s. kimi kiçik surələri də oxumaq olar. Peyğəmbər ﷺ həm də Quranı avazla oxumağa da təşviq edərək buyurmuşdur: **"Kim Quranı avazla oxumazsa, bizdən deyil".** Alimlər demişlər ki, bu kəlmənin iki mənası vardır:

Birinci məna: Yəni kim üz çevirib başqa bir şeydən hidayət umarsa, bizdən deyil. Şəkk yoxdur ki, kim Qurandan başqa bir şeydən hidayət umarsa, Allah onu zəlalətə düçar edər. Allah qorusun!

İkinci məna: Kim avazla oxumazsa, yəni Quranı səsini gözəlləşdirərək oxumazsa. Bu da dəlildir ki, gərək insan öz səsi ilə Quranı gözəlləşdirsin və onu avazla oxumaqla başqalarından (başqa oxunanlardan) fərqləndirsin.

---

[1] "Səhih əl-Buxari", 5050; "Səhih Muslim", 800.

[2] "Səhih əl-Buxari", 705; "Səhih Muslim", 465.

Şərh etmək istədiyimiz üçüncü hədisdə rəvayət olunur ki, İbn Məsud demişdir: "Peyğəmbər ﷺ mənə dedi: **"Mənə Quran oxu"**. Mən soruşdum: "Ey Allahın elçisi, Quran sənə nazil olduğu halda onu sənə mənmi oxuyum? Dedi: **"Mən onu başqasından dinləməyi xoşlayıram"**. Çünki Quranı dinləyən kəs onu oxuyandan daha çox təsirlənə bilər. Oxuyan adam adətən qiraətdə xətaya yol verməməyə fikrini cəm etmiş olur, dinləyən isə düşünür və dinləyir. Ona görə deyiblər ki: "Oxuyan sağıcıdır, dinləyən isə onu içən". Yəni, oxuyan kəs sanki dəvəni və ya qoyunu sağır, dinləyən isə südü içərək faydalanır.

Qısası, Peyğəmbər ﷺ Abdullah ibn Məsuddan رضي الله عنه onun üçün Quran oxumasını istəyir. İbn Məsud deyir ki, "Mən soruşdum: "Ey Allahın elçisi, Quran sənə nazil olduğu halda onu sənə mənmi oxuyum? Dedi: **"Mən onu başqasından dinləməyi xoşlayıram"**. Mən onun üçün "ən-Nisa" surəsini oxuya-oxuya bu ayəyə çatdım: **"Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman *onların halı* necə olacaq?"** – yəni, vəziyyət necə olacaq? "Bu vaxt Peyğəmbər ﷺ: **"İndi kifayətdir"**– dedi. Mən dönüb ona baxdığımda onun gözlərindən yaş axdığını gördüm".

Peyğəmbəri ﷺ Qiyamət günü öz ümmətinə şahidlik gətirəcəyi ağlatmışdı. Qiyamət günü hər bir ümmətdən bir şahid gətiriləcək. Peyğəmbərlər və alimlər şahidlik edəcəklər. Belə ki, alimlər insanlarla elçilər arasında bir vasitədirlər – onlar peyğəmbərlərin şəriətini insanlara çatdırırlar. Ona görə də şahid olacaqlar. Alim iki şeyə şahidlik edəcək:

Yüksək işə və aşağı olan işə. Yüksək iş, bunun Allahın hökmü olmasına şahidlik etməkdir. Bundan aşağıda olan iş isə onun (kimin?) insanlara təbliğ etməsinə şahidlik etməkdir. Çünki alim təbliğ edərkən, məsələn, ayə, hədis oxuyur, sonra da insanlara deyir ki, bunun mənası budur və budur – bunlara əməl edin. Beləcə, onlara şahidlik edəcək. O, iki yöndən şahidlik edəcək: yüksək tərəfdən, bir də aşağıdakı tərəfdən.

Yüksək tərəf: bu, Allahın hökmüdür və onu insanlara təbliğ etmişdir.

Aşağıdakı tərəf: şahidlik edir ki, onu insanlara təbliğ edib və onlara hüccət çatıb.

Beləliklə, Qiyamət günü hər bir ümmətdən bir şahid gələcək. İlk belə şahidlik edənlər elçilər (rəsullar) olacaq: "şahidlik edirik ki, Rəbbimizin risaləsini insanlara çatdırdıq". Bizim ümmətdən də Muhəmməd şahidlik edəcək. Şahidlik edəcək ki, həqiqətən də o, haqqı insanlara çatdırmışdır. Baxmayaraq ki, artıq o, bir zaman müsəlmanların ən böyük toplantısında – Ərəfa günü insanları özünə şahid tutmuşdur. O zaman ki, o, insanlara bəlağətli, uzun və əzəmətli xütbə verərək soruşmuşdu: **"Çatdırdımmı?"** İnsanlar: "Bəli"– dedilər, o da: **"Allahım, şahid ol!"**– dedi.[1] Yenə soruşdu: **"Çatdırdımmı?"** Dedilər: "Bəli". Dedi: **"Allahım, şahid ol!".** Bir daha soruşdu: **"Çatdırdımmı?"** Dedilər: "Bəli". Dedi: **"Allahım, şahid ol!"**

İbn Məsudun ona oxuduğu bu ayəyə çatdıqda, o, həmin mənzərəni təsəvvüründə canlandıraraq ağlayır. Bu, böyük bir hadisədir: bütün ümmətlər gələcək, hər ümmət də öz kitabına çağırılacaq. Hər bir ümmət vəziyyətin çətinliyinə görə başını itirəcək. Hər bir ümmət öz kitabına çağırılacaq: "**Sən *o gün* hər ümməti diz çökmüş görəcəksən. Hər ümmət öz əməl kitabına tərəf çağırılacaq: – Bu gün sizə etdiyiniz əməllərin əvəzi veriləcək!"**.[2]

Ona görə də Abdullah ibn Məsudun dayandığı ayə barəsində deyilir ki: **"Küfr edib Peyğəmbərə asi olanlar o gün yerlə bir olmalarını təmənna edər və heç bir sözü Allahdan gizlədə bilməzlər".**[3] Yəni, onlar yenidən dirilmələrini, xəlq olunmalarını arzulayar, və ancaq ölmələrini istəməzlər: **"Hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman *onların halı* necə olacaq? Küfr edib Peyğəmbərə asi olanlar o gün yerlə bir olmalarını təmənna edər və heç bir sözü Allahdan gizlədə bilməzlər".** Onlar ya yer üzərində qalmaq, ya da torpaq olmaq istəyərlər, lakin bunun onlara faydası olmaz. Ona görə də demişdir: **"Onlar Allahdan heç bir söhbəti gizli saxlaya bilməzlər".**

Qısası, adam Quranı gözəl oxuyan birisindən, qari (oxuyan) ondan daha az elmə malik olsa belə, Quran oxumasını istəyə bilər. Çünki bəzi insanlara uca Allah az elmi olsa belə, gözəl səs və avaz verir. Ona görə də

[1] "Səhih əl-Buxari", 1741; "Səhih Muslim", 1679.

[2] "əl-Casiyə" surəsi, 28.

[3] "ən-Nisa" surəsi, 42.

deyə bilərsən ki, “ey filankəs, Allah səni xeyirlə mükafatlandırsın, mənim üçün Quran oxu”. Ona Qurandan ya xüsusi bir yeri müəyyən edirsən, ya da onun özü bildiyini oxuyur, sən də dinləyirsən.

Bu hədis Quranın bərəkətli olmasına dəlildir. Qari də, dinləyici də bundan faydalanırlar. Şəkk yoxdur ki, Quran bərəkət baxımından ən əzəmətli, ən faydalı, qəlb üçün ən yaxşı kitabdır. Rəbbimizi də ən çox razı salan kitab odur. Allah bizləri və sizi Quranın həm zahirinə, həm də batininə əməl edən, onun üzərində ölən, onun üzərində dirilən əhlindən etsin.

İnsan, söhbətə ehtiyac olduqda radionu və ya maqnitofonu açmamalıdır. Boş vaxtı olduqda isə onu dinləməsi gözəldir.

İnsan danışdıqda və ya Quranla məşğul olduqda onu açmamalıdır. Çünki Quran oxunarkən danışılması doğru deyil – ya insanlarla danış, ya Qurana qulaq as, ya da radionu söndür. Məsələ, Allaha həmd olsun ki, genişdir.

Yüz səksən üçüncü fəsil

Xüsusi surə və ayələrə təşviq

Mövzu ilə əlaqəli hədislər:

١٠٠٩ – عن أَبي سعيدٍ رافعِ بنِ المُعلَّى ﵁ قال: قال لي رسولُ الله ﷺ: « أَلا أُعَلِّمُكَ أَعْظَم سُورةٍ في الْقُرْآنِ قَبْلَ أَنْ تخْرُج مِنَ المَسْجِدَ؟ فأَخَذَ بيدِي، فَلَمَّا أَرَدْنَا أَنْ نَخْرُج قُلْتُ: يا رسُولَ اللَّهِ إِنَّكَ قُلْتَ لأُعَلِّمنَّكَ أَعْظَمَ سُورَةٍ في الْقُرْآنِ؟ قال: «الحَمْدُ للَّهِ رَبِّ العَالمِينَ هِي السَّبْعُ المَثَاني، وَالْقُرْآنُ الْعَظِيمُ الَّذي أُوتِيتُهُ » رواه البخاري.

1009. Əbu Səid Rafi əl-Muəllədən ﵁ rəvayət olunur ki, o demişdir: "Rəsulullah ﷺ mənə: **"Məsciddən çıxmamışdan öncə sənə Qurandakı ən əzəmətli surəni öyrədimmi?"**– dedi və əlimdən tutdu. Biz çıxmaq istədikdə mən dedim: "Ey Allahın elçisi, sən dedin ki, sənə Qurandakı ən əzəmətli surəni öyrədəcəksən?" Dedi: **[Bu,] "Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur" [surəsidir][1] – o, yeddi tərifl ənən və mənə verilən əzəmətli Qurandır".**

Hədisi Buxari rəvayət etmişdir.[2]

Şərh:

Müəllif ən-Nəvəvi ﵀ "Salehlər bağçası" əsərində **"Xüsusi surə və ayələrə təşviq"** fəslini qeyd edir. O daha öncə ümumən Qurana təşviqi qeyd etmişdir. Bu fəsildə isə xüsusi surə və ayələr qeyd olunmuş, onlara xas fəzilətləri zikr edilmişdir.

Xüsusi fəziləti olan surələrdən biri Allahın kitabında ən əzəmətli surə olan "əl-Fatihə" surəsidir. Ona "Quranın anası" da deyilir. Ana, hər bir şeyin əsasıdır. Quranın mənası da "əl-Fatihə" surəsinə qayıdır. Ona görə də uca Allah onun qiraətini hər namazın hər rükətində vacib etmişdir. Bu

[1] "əl-Fatihə" surəsi.

[2] "Səhih əl-Buxari", 4703.

xüsusda Peyğəmbər ﷺ demişdir: «**"Quranın anası" və ya "Kitabı açan" surənin oxunmadığı namaz sayılmır".**[1]

Bu surənin öz özəlliyi vardır ki, onlardan da bəziləri aşağıdakılardır:

İnsan bu surəni xəstəyə oxuyarsa, Allahın izni ilə xəstə şəfa tapar. Ancaq o şərtlə ki, mömin onu imanla, yəni bunun fayda verəcək bir ruqyə olmasına iman gətirərək oxusun.

Digər bir şərt də odur ki, ruqyə gərək elə adama oxunsun ki, həmin adam da bunun faydasına iman gətirmiş olsun. Buna dəlil aşağıdakı hadisədir:

Bir dəfə Peyğəmbər ﷺ bir ordu göndərir. Onlar gecələmək üçün bir qövmün yanına getdilər, ancaq həmin qövm onları xoş qarşılamayıb acsusuz qoyur. Allah da elə edir ki, həmin qövmün başçısını əqrəb sancır və onun halı pisləşir. Sakinlər bir-birilərinə deyirlər ki, gedək bu gələnlərdən soruşaq, bəlkə onların arasında dua oxuyan bir kimsə oldu. Onlar ordunun yanına gəlib deyirlər ki, rəhbərimizi əqrəb sancıb, aranızda dua oxuyan bir kimsə varmı? Dedilər: "Bəli, ancaq bizlərə mükafat olaraq qoyun verməsəniz, dua oxumayacağıq". Onlar da bununla razılaşır. Səhabələrdən biri əqrəb sancmış adama "əl-Fatihə" surəsini oxuyur. Həmin vaxt qəbilə başçısı əqrəb sancmasından şiddətli ağrı çəkirdi. Ona dua oxundu və adam sanki heç bir şey olmayıbmış kimi, sağalıb ayağa qalxdı. Orduda olanlar vəd olunan qoyunu aldılar, sonra da bir-birilərinə dedilər ki, qorxuruq ki, aldığımız qoyun bizə haram olar. Qərara gəldilər ki, Peyğəmbərin ﷺ hüzuruna yetişənədək bu ətdən yeməsinlər. Mədinəyə çatdıqda Peyğəmbərə ﷺ bu barədə xəbər verirlər, o da: **"Onu götürün, mənə də bir pay ayırın"** deyir.[2] Yəni, mənə də bir hissəsini verin. O ﷺ, bunu onların könlünü xoş etmək üçün belə dedi, əslində isə sadəcə onun halal olmasını deyə də bilərdi. Sonra da dua oxuyan səhabəsindən soruşdu ki: **"Nə bildin ki, bu ruqyədir?"**

Deməli, bir kimsə onu ("əl-Fatihə"ni) bir xəstəyə oxuyarsa, hər ikisi də onun faydalı olacağına inanarsa, o, uca Allahın izni ilə xəstəyə fayda verər. Bu da "əl-Fatihə" surəsinin fəzilətlərindəndir və hədisdə də

[1] "Səhih əl-Buxari", 756; "Səhih Muslim", 394.

[2] "Səhih əl-Buxari", 5736; "Səhih Muslim", 2201.

deyildiyi kimi, o, Allahın Kitabındakı ən əzəmətli surədir. Müvəffəq edən Allahdır.

١٠١٠ – وعن أَبي سعيدٍ الخُدْرِيِّ ﵁ أَنَّ رسولَ اللَّهِ ﷺ قالَ في: قُلْ هُوَ اللَّه أَحَدٌ: « والَّذِي نَفْسي بِيدِهِ، إِنَّهَا لَتَعْدِلُ ثُلُثَ القُرْآنِ ».

وفي روايةٍ: أَنَّ رسولَ اللَّهِ ﷺ قالَ لأَصْحابِهِ: « أَيَعْجِزُ أَحَدُكُم أَنْ يقْرَأَ بِثُلُثِ الْقُرْآنِ في لَيْلَةٍ » فَشَقَّ ذلكَ علَيْهِمْ، وقالُوا: أَيُّنَا يُطِيقُ ذلكَ يا رسولَ اللَّه؟ فقال: «قُلْ هُو اللَّه أَحَدٌ، اللَّهُ الصَّمَدُ: ثُلُثُ الْقُرْآنِ » رواه البخاري.

1010. Əbu Səid əl-Xudridən ﵁ rəvayət olunur ki, Rəsulullah ﷺ **"De ki, O Allah təkdir!"** barəsində demişdir: **"Canım əlində olan Allaha and olsun ki, o, Quranın üçdə birinə bərabərdir".**

Başqa bir rəvayətdə isə Rəsulullah ﷺ öz səhabələrinə demişdir: **"Sizlərdən biriniz Quranın üçdə birini bir gecədə oxumağa acizdirmi?"** Bu onlara çətin gəldi. Dedilər: "Hansı birimizin buna taqəti çatar, ey Allahın elçisi?" Dedi: **"De ki, O Allah Təkdir! Allah möhtac deyildir" surəsi Quranın üçdə birinə bərabərdir".**

Hədisi Buxari rəvayət etmişdir.[1]

١٠١١- وعنْهُ أَنَّ رَجُلاً سمِع رَجُلاً يَقْرَأُ: « قَلْ هُوَ اللَّه أَحدٌ » يُرَدِّدُها فَلَمَّا أَصْبَحَ جاءَ إِلى رسولِ اللَّهِ ﷺ، فَذَكَرَ ذلكَ لَهُ وكَانَ الرَّجُلُ يتَقَالهُا فَقَالَ رسولُ اللَّهِ ﷺ: « والَّذي نَفْسِي بِيَدِهِ، إِنَّها لَتَعْدِلُ ثُلُثَ الْقُرْآنِ » رواه البخاري.

1011. Yenə Əbu Səid əl-Xudridən ﵁ rəvayət olunur ki, o, bir kişinin **"De ki, O Allah Təkdir!"** surəsini təkrar-təkrar oxuduğunu eşitdi. Səhər açıldıqda o, Rəsulullahın ﷺ yanına gəldi və bunu ona dedi. Rəsulullah ﷺ da buyurdu: **"Canım əlində olana and olsun ki, o, Quranın üçdə birinə bərabərdir"**

Hədisi Buxari rəvayət etmişdir.[2]

---

[1] "Səhih əl-Buxari", 5014, 5015.

[2] "Səhih əl-Buxari", 6643.

Şərh:

Hafiz ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərinin "Quranın fəzilətləri" bölməsində Allahın kitabındakı müəyyən surələrlə bağlı nəql olunmuş hədisləri qeyd edir.

﴿قُلْ هُوَ ٱللَّهُ أَحَدٌ ۝١ ٱللَّهُ ٱلصَّمَدُ ۝٢ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ ۝٣
وَلَمْ يَكُن لَّهُۥ كُفُوًا أَحَدٌۢ ۝٤﴾

"1. De ki, O Allah Təkdir! 2. Allah Möhtac deyildir. 3. O, nə doğub, nə də doğulub. 4. Onun bənzəri də yoxdur".

Bu, "əl-İxlas" surəsidir. Nöqsansız və uca Allah bu surəni özünə həsr etmiş və orada yalnız özünə aid ad və sifətləri qeyd etmişdir. Kim ona iman gətirərək, onun dəlalət etdiklərinə etiqad edərək onu oxuyarsa, izzət və cəlal sahibi Allaha qarşı ixlaslı, şirkdən isə uzaq sayılar. Bu surə əvvəldən sona Allahın ad və sifətlərindən bəhs edir:

"De ki, O Allah Təkdir!". Deyilənə görə, müşriklər Peyğəmbərə ﷺ deyirlər ki, Rəbbinin nəsəbini bizə de. Sanki, Allah qorusun, soruşurlar ki, Onun oğlu kimdir? O, nədən yaranıb? – qızıldan, gümüşdən, yoxsa başqa bir şeydən. Uca Allah da bu surəni nazil etdi: "**De ki, O Allah Təkdir!"** – Təkdir, yəni bütün məxluqatından ayrı Birdir, [say baxımından] məxluqatından heç bir şey Ona bənzəmir. "Əhəd" ("Tək") adı yalnız Nöqsansız və uca Allaha məxsusdur – başqasına bu ad verilməz.

"Allah möhtac deyildir". Təfsir alimləri ərəb dilindəki "saməd" sözünün mənası barədə müxtəlif fikirlər irəli sürmüşlər. Lakin ümumi mənası "məxluqatlara möhtac olmayan kamil [varlıq]" deməkdir. Allah öz elmi, qüdrəti, rəhməti, helmi ilə ehtiyacsızdır. Bütün məxluqatlar ehtiyac anında Ona üz tuturlar. Hətta müşriklər belə dənizdə fırtınaya düşdükdə yüksək dalğalar üzərində yalnız Tək olan Allahı çağırırlar. Bütün məxluqatın tək dönüş yeri məhz Odur. Beləliklə, "saməd" sözünün mənası "məxluqatlara möhtac olmayan Kamil"dir.

"O, nə doğub, nə də doğulub. Onun bənzəri də yoxdur". Doğmayıb, yəni Onun övladı yoxdur. O, heç kəsə möhtac deyil. Uca Allah buyurur: **"Onun zövcəsi olmadığı halda övladı necə ola bilər?".**[1]

[1] "əl-Ənam" surəsi, 101.

Bu ayələr yəhudi, xaçpərəst və müşriklərin hər növ iddialarına rədd cavabıdır. Məsələn, yəhudilər deyirdilər ki, Uzeyr, Allahın oğludur, yəni: "Allah doğur və Onun oğlu Uzeyrdir" deyirdilər. Nəsranilər (xaçpərəstlər) isə: "Məsih, Allahın oğludur" dedilər. Müşriklər isə deyirdilər ki, mələklər Allahın qızlarıdır. Allah bütün bu deyilənləri batil edərək buyurur ki: **"O, nə doğub, nə də doğulub".** Belə ki, uca Allah Əvvəlincidir və Ondan öncə heç bir şey olmayıb – Ondan sonra olanlar ancaq yaradılmışlardır. Rəbbimiz isə Əzəli və Əbədidir.

"Onun bənzəri də yoxdur". Heç bir şey nə elmində, nə qüdrətində, nə də başqa bir xüsusda ona tay ola bilməz. Bir zamanlar Ad qövmü də öz güc-qüvvəsi ilə fəxr etmişdi: **"Ad *qövmünə* gəlincə, onlar yer üzündə haqsızcasına təkəbbür göstərib dedilər: "Bizdən daha qüvvətli kim ola bilər?!" Məgər onlar görmürdülər ki, onları yaradan Allah onlardan daha qüvvətlidir?! Onlar ayələrimizi inkar edirdilər. Biz onlara dünya həyatında rüsvayçılıq əzabını daddırmaq üçün uğursuz günlərdə üstlərinə vıyıltılı külək göndərdik. Axirət əzabı isə daha rüsvayedicidir. Onlara kömək də edilməz".**[1]

Külək yaradılış təbiətilə Allahın ən mülayim varlıqlarındandır, ancaq buna rəğmən, O, onunla həmin qövmü məhv etmişdir.

İzzət və cəlal sahibi Allahın bənzəri yoxdur. Ayənin ərəbcəsində işlənən "kufuvan" sözünün adətən üç oxunuşuna rast gəlirik:

"kufuvan", yəni fə (ف) və vav (و) hərflərinin üzərində dammə (ـُـ) var. Belə olduğunu görə-görə "kufna" demək doğru deyil.

Burada iki başqa qiraət də vardır: "kufən" və "kufuən". Vav-la olduqda isə sukunlu (ـْـ) olur. Bəzən qarilərdən onları sukun və vav-la oxuduğunu eşidirik. Belə də doğru deyil. Sən bunu vav-la oxuduqda, fə-nin üzərində dammə qoy, yəni (فُ).

Bu surə barədə Peyğəmbər ﷺ buyurmuşdur ki, o, Quranın üçdə birinə bərabərdir. Yaxud səhabələrindən soruşanda ki: "Sizlərdən biriniz Quranın üçdə birini bir gecədə oxumağa acizdirmi?", bu onlara çətin gəlmiş, o da onlara: «**"De ki, O Allah Təkdir! Allah möhtac deyildir" Quranın üçdə birinə bərabərdir**» demişdir.

[1] "Fussilət" surəsi, 15-16.

Yəni, bu surə savab baxımından Quranın üçdə birinə bərabərdir, ancaq bütün Qurana bərabər deyil. Kimsə "İxlas" surəsini "Fatihə"nin yerinə üç dəfə oxusa, olmaz, çünki savabla əvəzetmə arasında fərq vardır. Ola bilsin, bir şeyin savabı müəyyən qədər olsun, lakin onu əvəz etməsin. Misal üçün, hər kim on dəfə: "la ilahə illəllahu vahdəhu la şərikə ləh, ləhul mulku va ləhul həmdu, va huva alə kulli şeyin qadir" deyərsə, İsmayıl övladlarından dörd köləni azad etmiş kimi savab qazanır.[1] Ancaq bu, həqiqətdə dörd kölə azad etməyi əvəz etmir. Yəni, əgər kiminsə boynunda kəffarə olaraq dörd kölə azad etmək varsa və o, deyildiyi qədər bu zikri edərsə, etdiyi həmin zikr onun borcunu ödəmir, yəni, o, bu kəffarədən azad olmur. Ona görə də savab almaqla əvəz etmək arasındakı fərqi anlamalıyıq. Bu surə də məhz savab baxımından Quranın üçdə birini əvəz edir, ancaq onun özünü oxumağı əvəz etmir. Ona görə də birisi onu namazda üç dəfə oxuyarsa, bu onun "əl-Fatihə"ni oxumasını əvəz etməz. Müvəffəq edən Allahdır.

١٠١٢ – وعن أَبي هريرة ﷺ أَنَّ رسول اللَّهِ ﷺ قال في: قُلْ هُوَ اللَّه أَحَدٌ: « إِنَّهَا تَعْدِلُ ثُلُثَ القُرْآنِ » رواه مسلم.

1012. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ **"De ki, O Allah Təkdir"** surəsi barədə demişdir: **"O, Quranın üçdə birinə bərabərdir".**

Hədisi Muslim rəvayət etmişdir.[2]

١٠١٣ – وعنْ أَنسٍ ﷺ أَنَّ رجُلا قال: يا رسول اللَّهِ إِني أُحِبُّ هذِهِ السُّورَةَ: قُلْ هُوَ اللَّه أَحدٌ، قال: « إِنَّ حُبَّهَا أَدْخَلَكَ الجنَّةَ » رواه الترمذي وقال: حديثٌ حسن. رواه البخاري في صحيحه تعليقًا.

1013. Ənəsdən ﷺ rəvayət olunur ki, bir kişi dedi: "Ey Allahın elçisi, mən **"De ki, O Allah Təkdir!"** surəsini sevirəm. Dedi: **"Sənin onu sevməyin səni Cənnətə daxil edəcək".**

[1] "Səhih Muslim", 2693.

[2] "Səhih Muslim", 812.

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir". Buxari isə onu öz "Səhih"ində qeyd kimi gətirmişdir.[1]

١٠١٤ – وعن عُقْبةَ بنِ عامِرٍ ﷺ أَنَّ رسولَ اللَّهِ ﷺ قال: «أَلَمْ تَر آيَاتٍ أُنْزِلَتْ هَذِهِ اللَّيْلَةَ لَمْ يُرَ مِثلُهُن قَطُّ؟ قُلْ أَعُوذُ برَبِّ الفَلَقِ، وَقُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ » رواه مسلم.

1014. Uqba ibn Amirdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: «**Bu gecə bənzəri olmayan ayələrin nazil olmasını bilirsənmi? – "De ki, sığınıram sübhün Rəbbinə!", "De ki, sığınıram insanların Rəbbinə!"**».

Hədisi Muslim rəvayət etmişdir.[2]

١٠١٥ – وعن أَبي سعيدٍ الخُدْرِيِّ ﷺ قال: كانَ رسولُ اللَّهِ ﷺ يَتَعَوَّذُ مِنَ الجانِّ، وَعَيْنِ الإِنْسَانِ، حتَّى نَزَلَتِ المُعَوذَتان، فَلَمَّا نَزَلَتَا، أَخَذَ بِهِما وتَركَ ما سِواهُما. رواه الترمذي وقال حديث حسن.

1015. Rəvayət olunur ki, Əbu Səid əl-Xudri ﷺ demişdir: "Rəsulullah ﷺ "əl-Fələq" və "ən-Nas" surələri nazil olanadək dua ilə cinlərdən və insanların gözündən Allaha sığınardı. O iki surə nazil olduqda onlara sarıldı, başqalarını isə tərk etdi".

Hədisi Tirmizi rəvayət etmiş və demişdir: "Bu, həsən hədisdir".[3]

١٠١٦ – وعن أَبي هريرةَ ﷺ أَنَّ رسولَ اللَّهِ ﷺ قالَ: « مِنَ القُرْآنِ سُورَةٌ ثَلاثُونَ آيَةً شَفعتْ لِرَجُلٍ حَتَّى غُفِرَ لَهُ، وهِيَ: تبارَكَ الذِي بِيَدِهِ المُلْكُ ».

رواه أبو داود والترمذي وقال: حديث حسن.

وفي رواية أبي داود: « تَشْفَعُ ».

1016. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Quranda otuz ayədən ibarət elə bir surə var ki, kişi (onu oxuyan) bağışlananadək ona şəfaət edər. O, "Mülk Əlində Olan *Allah ən Əzəmətli*, xeyiri və bərəkəti bol olandır" surəsidir".**

---

[1] "Sunən ət-Tirmizi", 2901; "Səhih əl-Buxari".

[2] "Səhih Muslim", 814.

[3] "Sunən ət-Tirmizi", 2058.

Hədisi Əbu Davud və Tirmizi rəvayət etmiş, Tirmizi: "Bu, həsən hədisdir" demişdir.

Əbu Davudun rəvayətində isə: "şəfaət edir" deyilir.[1]

١٠١٧ – وعن أَبي مسعودٍ البدْرِيّ ﷺ عن النبيّ ﷺ قال: «منْ قَرَأَ بالآيتَيْنِ مِنْ آخِرِ سُورةِ البقَرةِ فِي لَيْلَةٍ كَفَتَاهُ» متفقٌ عليه.

قيل: كَفَتَاهُ المَكْرُوهَ تِلْكَ اللَّيْلَةَ، وَقِيلَ: كَفَتَاهُ مِنْ قِيَامِ اللَّيْلِ.

1017. Əbu Məsud əl-Bədridən ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ demişdir: **"Kim "əl-Bəqərə" surəsinin sonundakı iki ayəni gecə oxuyarsa, bu ona kifayət edər".**

Bu hədisin səhih olmasında Buxari və Muslim ittifaq etmişlər.[2]

Müxtəlif rəylərə görə, ya həmin gecənin xoşagəlməz hadisələrindən, ya da gecə namazına durmağı kifayət edər.

Şərh:

Müəllifin ﷺ Qurandan **"Xüsusi surə və ayələrə təşviq"** fəslində qeyd etdiyi "əl-Fatihə" və "əl-İxlas" surələri barədə artıq söhbət açmışıq.

Digər iki surə isə **"De ki, sığınıram sübhün Rəbbinə!"** və **"De ki, sığınıram insanların Rəbbinə!"** ayələri ilə başlayan "əl-Fələq" və "ən-Nas" surələridir. Kim imanla və səmimi-qəlbdən bunlarla Allaha sığınarsa, izzət və cəlal sahibi Allah onu qoruyar.

"əl-Fələq" surəsinə gəlincə, Uca Allah buyurur: **"De ki, sığınıram sübhün Rəbbinə!".**[3] Yəni, ey insan, Allahdan yardım diləyərək de: "sübhün Rəbbinə sığınıram".

"Fələq", yəni sübh çağı, digər mənası: "toxumu çatladır". Uca Allah buyurur: **"Dan yerini də O sökür".**[4] Həmçinin buyurur: **"Şübhəsiz ki, toxumu da, çəyirdəyi də Allah çatladır".**[5]

---

[1] "Sunən Əbu Davud", 1400; "Sunən ət-Tirmizi", 2891; "Sunən İbn Macə", 3786.

[2] "Səhih əl-Buxari", 5010; "Səhih Muslim", 807.

[3] "əl-Fələq" surəsi, 1.

[4] "əl-Ənam" surəsi, 96.

[5] "əl-Ənam" surəsi, 95.

İzzət və cəlal sahibi Allah sübhün Rəbbidir və zikr etdiklərinin şərindən yalnız O özü kimisə qoruya bilər: **"Xəlq etdiklərinin şərindən".**[1] Səhih bir hədisdə deyildiyi kimi: **"Nəfsimizin və pis əməllərimizin şərindən Allaha sığınırıq".**[2] Nəfs insanı pis işlərə sövq edir. Ona görə də həm ondan, həm də bütün digər yaratdıqlarının, o cümlədən insanların və cinlərin və başqalarının şərindən Allaha sığınırıq.

"Çökən zülmətin şərindən". Çökən gecədir, belə ki, gecə vaxtı həşəratlar və vəhşi heyvanlar çox olur, şər qarışır. Ona görə də gecənin şərindən Allaha sığınırsan: **"çökən zülmətin şərindən"**, yəni daxil olan.

"düyünlərə üfürən *cadugər* qadınların şərindən". Yəni, insanlara sehr etmək üçün düyünlərə üfürən sehrbaz qadınların şərindən. Uca Allah burada qadınları qeyd edir, baxmayaraq ki, sehri həm qadınlar, həm də kişilər edir. Çünki bunu onlar daha çox edir. Ola bilsin, "üfürənlər" sözünün mənası "üfürən nəfslər" olsun və beləcə bu söz həm kişilərə şamil olunsun, həm də qadınlara.

"həsəd apardığı zaman paxılın şərindən!" Başqasına xeyir istəməyən göz sahib, başqasına bir nemət, mal-dövlət, ad-san, elm, övlad, zövcə və ya başqa bir şey nəsib etdikdə ox öz yayından çıxdığı kimi, öz xəbis nəfsindən çıxır və qarşısındakı adama batır. Bu oxun onun özünə heç bir faydası olmur, lakin, Allah qorusun, onun pis nəfsi heç başqasına da xeyir istəmir. Peyğəmbər ﷺ demişdir: **"Əgər qədəri aşan qabaqlayan bir şey olsaydı, göz olardı".**[3]

Gözdəymə haqdır. Hətta bəzi alimlər demişlər ki, Uca Allahın bu ayəsində də göz nəzərdə tutulur: **"Həqiqətən, kafirlər *bu* Zikri eşitdikləri zaman öz baxışları ilə az qala səni gözə gətirələr. Onlar *çarəsizlikdən*: "O, dəlidir!"– deyirlər".**[4]

Sonra dedi: "Yəni, ola bilsin, həsədkar birisi həsəd etməsin, göz də hər adama dəyməyə bilər. Lakin həsəd etdikdə isə, Allah qorusun, onun şəri başqasına keçər. Ola da bilsin ki, ayədə nəzərdə tutulan göz həsədkar olan və olmayandır. Çünki bəzi insanlar, Allaha sığınırıq, həsədkar olur – başqalarına xeyir istəmədikləri üçün həsəd edirlər.

---

[1] "əl-Fələq" surəsi, 2.

[2] "Sunən ət-Tirmizi", 1105; "Sunən ən-Nəsai", 1404; "Sunən İbn Macə", 1892.

[3] "Musnəd İmam Əhməd", 6/438; "Sunən ət-Tirmizi", 2059.

[4] "əl-Qələm" surəsi, 51.

Həsəd, Allahın başqasına bəxş etdiyi nemətə nifrət etməkdir. Hətta həmin nemətin ondan getməsini istəməsən belə, bu, həsəd sayılır. Əgər bunu da arzulasan, daha şiddətli sayılar. Allah qorusun! Həsəd edənlər, Allahdan afiyət diləyirik, yalnız özlərini yandırırlar. Allah bir kimsəyə bir nemət bəxş etdikdə həsədkarın qəlbi yanar: niyə o bu nemətə çatır, niyə belə olur? Həsəd edənin halı budur. Allah qorusun! Bəzən həsəd üzündən o, başqalarına təcavüz edir və onlara pislik edir. Beləcə həsəd onun qəlbində sönməyən közə çevrilir.

Fərz edək ki, Allah bir insana mal-dövlət bəxş edir, o da onu Allah yolunda xərcləyir. Həsədkar adamın, Allah qorusun, qəlbi bundan odlanır. Görürsən ki, məclislərdə hər dəfə bu adam tərifləndikcə, [həsədkar] deyir ki, Allah ona hidayət versin. Əslində isə o, riyakarlıq edir və bunu Allahın Üzü və Axirəti qazanmaq naminə etmir. Həmçinin, Allah insana bir elm bəxş etdikdə və insanlar da onu qəbul etdikdə, həsədkar həsəd edir və Allahın həmin insana bəxş etdiyi neməti gizlətməyə çalışır və s. Allah qorusun!

Həsəd, böyük günahlardandır. Allah yəhudiləri məzəmmət edərək buyurur ki: **"Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar?!"**[1]

Fəzilət heç kəsə deyil, yalnız Allaha məxsusdur – onu dilədiyinə verir. Sən insanlara həsəd edəndə Allahın kiməsə verdiyi nemətlərə görə ağlını qaçırırsan. Beləcə, sən dəli olub izzət və cəlal sahibi Allahın haqqına təcavüz edirsən. Sanki deyirsən ki, niyə bu adam layiq olmadığı bu nemətləri əldə edir?

Xülasə, insan bu iki surə ilə Allaha sığınmalıdır. Tirmizi qeyd edir ki, "Rəsulullah ﷺ "əl-Fələq" və "ən-Nas" surələri nazil olanadək dua ilə cinlərdən və insanların gözündən Allaha sığınardı. O iki surə nazil olduqda onlara sarıldı, başqalarını isə tərk etdi". Müvəffəq edən Allahdır.

١٠١٨ – وعن أَبي هريرةَ رضي الله عنه أَنَّ رسولَ اللَّهِ ﷺ قال: « لا تَجْعَلُوا بُيُوتَكُمْ مَقَابِر، إِنَّ الشَّيْطَانَ يَنْفِرُ مِن الْبيْتِ الَّذي تُقْرأُ فِيهِ سُورةُ الْبقَرةِ » رواه مسلم.

[1] "ən-Nisa" surəsi, 54.

1018. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Evlərinizi məzarlığa çevirməyin. Şübhəsiz ki, şeytan əl-Bəqərə surəsi oxunan evdən qaçar".**

Hədisi Muslim rəvayət etmişdir.[1]

١٠١٩ – وعن أُبَيّ بنِ كَعْبٍ ﷺ قَالَ: قال رسولُ اللَّهِ ﷺ: «يا أَبا المُنذِرِ أَتَدْرِي أَيُّ آيةٍ مِن كتاب اللَّهِ معكَ أَعْظَمُ؟ قُلْتُ: اللَّه لا إِلهَ إِلاَّ هُو الحَيُّ الْقَيُّومُ، فَضَرَبَ في صَدْري وَقَال: « لِيَهْنكَ الْعِلْمُ أَبَا المُنذِرِ » رواه مسلم.

1019. Ubey ibn Kəbdən ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ məndən soruşdu: **"Ey Əbu Munzir, Allahın Kitabından öyrəndiklərindən ən əzəmətli ayənin hansı olduğunu bilirsənmi?"** Mən dedim: **"Allah Özündən başqa *haqq* məbud olmayandır..."**. O, mənim sinəmə vurub dedi: **"Allah elmi sənin üçün asanlaşdırsın, ey Əbu Munzir".**

Hədisi Muslim rəvayət etmişdir.[2]

Şərh:

Bu hədislər Qurani-Kərimdəki bəzi surə və ayələrin fəziləti barəsindədir. Həmin surələrdən biri də "əl-Bəqərə" surəsidir.

Müəllif ﷺ "əl-Bəqərə" surəsi barəsində nəql edərkən, Əbu Hureyradan ﷺ rəvayət edir ki, Rəsulullah ﷺ demişdir: **"Evlərinizi məzarlığa çevirməyin".** Alimlər demişlər: Yəni, oranı namazsız buraxmayın, bəzən evinizdə də namaz qılın. O, namaz qılınmayan evləri ona görə məzarlıq adlandırmışdır ki, məzarlıqda qılınan namaz səhih deyil. Bu xüsusda olan hədislərin birində Peyğəmbər ﷺ demişdir: **"Məzarlıq və hamam istisna olmaqla, yer üzünün hər yeri məsciddir".**[3] Yenə Peyğəmbər ﷺ demişdir: **"Qəbirə tərəf namaz qılmayın və onların üzərində oturmayın".**[4]

Məzarlıqda nə fərz, nə də nafilə namazı qılmaq, tilavət və ya şükür səcdəsi etmək doğru deyildir. Cənazə namazından savayı orada başqa heç

[1] "Səhih Muslim", 780.

[2] "Səhih Muslim", 810.

[3] "Sunən ət-Tirmizi", 317; "Sunən İbn Macə", 745.

[4] "Səhih Muslim", 972.

bir namazı qılmaq olmaz. Dəfndən öncə və ya sonra olmasından asılı olmayaraq, məzarlıqda cənazə namazı qılmaq olar. Lakin qadağan olunmuş vaxtlarda dəfndən sonrakı cənazə namazı da qılınmaz. Yəni, məsələn, əsr namazından sonra dəfn üçün gəlib görsən ki, artıq dəfn bitib, bu zaman cənazə namazı qılma. Çünki bu namazı başqa bir vaxtda da, məsələn, duha vaxtında da qıla bilərsən. Yox, əgər gəlib görsən ki, dəfn hələ bitməyib, cənazə dəfn məqsədilə yerə qoyulub, bu zaman əsr namazından sonra olsa belə, ona cənazə namazı qıla bilərsən. Çünki bu zaman namazın səbəbi olur. Səbəbi olan namazlar isə qadağan olunmuş vaxtlarda da qılına bilər.

Sonra Peyğəmbər ﷺ xəbər verir ki, "**Şeytan əl-Bəqərə surəsi oxunan evdən qaçar"**. Yəni, əgər evində "əl-Bəqərə" surəsi oxunarsa, şeytan həmin evdən qaçır və oraya yaxınlaşmır. Səbəb də budur ki, "əl-Bəqərə" surəsində "Kürsü" ayəsi (Ayətul-kursi) vardır.

Müəllifin ﷺ bundan sonra qeyd etdiyi hədis də buna dəlildir. Ubey ibn Kəbdən rəvayət olunur ki, "Rəsulullah ﷺ məndən soruşdu: **"Ey Əbu Munzir, Allahın Kitabından öyrəndiklərindən ən əzəmətli ayənin hansı olduğunu bilirsənmi?"** Mən dedim: **"Allah Özündən başqa *haqq* məbud olmayandır...".** O, mənim sinəmə vurub dedi: **"Allah elmi sənin üçün asanlaşdırsın, ey Əbu Munzir"**.

Yəni, ən əzəmətli ayənin hansı olduğunu bildiyi üçün onu təbrik edir. Belə ki, bu ayədə[1] izzət və cəlal sahibi Allahın on sifəti zikr olunur. Uca Allah buyurur:

"Allah Özündən başqa *haqq* məbud olmayandır". Burada ixlasla Allaha tövhid mövcuddur. **"Özündən başqa *haqq* məbud olmayan",** yəni Allahdan başqa ibadətə malik məbud yoxdur. Yəni, Allahdan başqa bütün ibadət olunanlar ilah adlansalar belə, haqsız olaraq ibadət olunanlardır. Onlar Allahın nazil etmədiyi adlardır ki, onlara veriblər.

***"əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur".** Yəni, qəyyumluğunda kamil həyat Sahibidir. O, Əzəli və Əbədidir. O, Əvvəlincidir, və Ondan öncə bir şey yoxdur. İzzət və cəlal sahibi Allah buyurur: **"*Yer* üzündə olan hər kəs ölməyə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir".[2]**

---

[1] "əl-Bəqərə" surəsi, 255.

[2] "ər-Rəhman" surəsi, 26-27.

Bəzi sələflər demişlər ki, bu ayələri oxuyan kəs: **"*Yer* üzündə olan hər kəs ölməyə məhkumdur"** deyib bu məqamda dayanmamalı, əksinə ayələrə ara vermədən: **"*Yer* üzündə olan hər kəs ölməyə məhkumdur. Ancaq Rəbbinin əzəmətli və kəramətli Üzü əbədidir"** oxumalıdır**.** Bununla da məxluqatın naqis, Xaliqin isə kamil olduğu bəlli olur.

Nöqsansız və uca Allah kamil həyat Sahibidir. Həmçinin onun varlığı naqisliklərdən uzaqdır. Başqalarının həyatı isə naqisliklərdən ibarətdir. Ey insan, öz həyatına bax: eşitməyə gəlincə, eşitməyin naqisdir – hər səsi eşidə bilmirsən. Görməyin də, sağlamlığın da həmçinin. İnsan nə qədər xəstəliklərə mübtəla olur. İnsan həyatının digər göstəriciləri də elədir. İzzət və cəlal sahibi Rəbbimiz isə kamil həyat Sahibidir.

"*bütün yaratdıqlarının* Qəyyumudur". Bunun mənası "həm Özünün, həm də başqalarının Qəyyumudur" deməkdir. "Öz Qəyyumu", yəni heç kimə ehtiyacı yoxdur: "**Kim küfr edərsə, *bilsin ki,* Allahın aləmlərə ehtiyacı yoxdur".**[1]**; "Küfr etsəniz, *bilin ki,* Allah sizə möhtac deyil. O, qullarının kafirlik etməsinə razı olmaz. Əgər şükür etsəniz, buna görə sizdən razı qalar".**[2]

O, Zəngindir. Qüdsi bir hədisdə Uca Allah buyurur: **"Ey qullarım, siz Mənə zərər vermək üçün yetməzsiniz, Mənə fayda verməyə də yetməzsiniz"**.[3]

O, Özünün Qəyyumudur – heç kimə ehtiyacı yoxdur. O, həm də başqalarının da Qəyyumudur. Bütün məxluqatın Qəyyumu izzət və cəlal sahibi Allahdır. Uca Allah buyurur: "**Hər kəsin qazandığına nəzarət edən *Allah, buna qadir olmayan bütlər kimidirmi?!*"**[4] Yəni, ən Uca olan Allah heç bir şeyə malik olmayan kəslə eyni ola bilərmi? Deməli, "əl-Qəyyum" sözünün iki mənası vardır: Özünün Qəyyumu, yəni heç kimə möhtac olmayan. Bir də başqalarının Qəyyumu, yəni hər bir şey izzət və cəlal sahibi Allaha möhtacdır.

---

[1] "Ali-İmran" surəsi, 97.

[2] "əz-Zumər" surəsi, 7.

[3] "Səhih Muslim", 2577.

[4] "ər-Rəd" surəsi, 33.

“Onu nə mürgü, nə də yuxu tutar”.[1] Mürgü yuxudan qabaq qabaqkı haldır, yuxu da ki, bəllidir. İzzət və cəlal sahibi Allahı nə yuxu tutar, nə də mürgü. İnsanı isə istəsə də, istəməsə də mürgü də tutur, yuxu da. Bəzən o, namaz qıla-qıla yatır, yaxud birisi ilə danışa-danışa mürgüləyir – özü ilə bacarmır. Çünki yalnız nöqsansız və uca Allah kamil həyat Sahibidir və yaratdıqlarının kamil Qəyyumudur. Səhih bir hədisdə Peyğəmbər ﷺ demişdir: **“Şübhəsiz ki, Allah yatmır, yatmağa ehtiyacı da yoxdur”.**[2] Yəni, izzət və cəlal sahibi Allahın yatması qeyri-mümkündür. Əgər Xaliq (Yaradan) yatmış olsa, məxluqatın işlərinə kim nəzarət edər? Heç kim! Beləliklə, Uca Allahı nə mürgü, nə də yuxu tutar. Daha doğrusunu Allah bilir.

١٠٢٠ – وعن أبي هريرة رضي الله عنه قال: وكَّلَني رسولُ اللَّهِ ﷺ بحِفْظِ زَكاةِ رمضانَ، فَأَتَاني آتٍ، فَجعل يحْثُو مِنَ الطَّعام، فَأَخَذْتُهُ فقُلتُ: لأَرْفَعَنَّك إِلى رسُول الله ﷺ، قال: إِنِّي مُحتَاجٌ، وعليَّ عَيالٌ، وبي حاجةٌ شديدَةٌ. فَخَلَّيْتُ عنْهُ، فَأَصْبحْتُ، فَقَال رسُولُ اللَّهِ ﷺ: « يا أَبا هُريرة، ما فَعلَ أَسِيرُكَ الْبارِحةَ؟ » قُلْتُ: يا رسُول اللَّهِ شَكَا حَاجَةً وعِيَالاً، فَرحِمْتُهُ، فَخَلَّيْتُ سبِيلَهُ. فقال: « أَما إِنَّهُ قَدْ كَذَبك وسيعُودُ » فَعرفْتُ أَنَّهُ سيعُودُ لِقَوْلِ رسُولِ اللَّهِ ﷺ فَرصدْتُهُ. فَجَاءَ يحثُو مِنَ الطَّعامِ، فَقُلْتُ: لأَرْفَعنَّكَ إِلى رسولُ اللَّهِ ﷺ، قالَ: دعْني فَإِنِّي مُحْتاجٌ، وعلَيَّ عِيالٌ لا أَعُودُ، فرحِمْتُهُ وَخَلَّيتُ سبِيلَهُ، فَأَصبحتُ فَقَال لي رسُولُ اللَّهِ ﷺ: « يَا أَبا هُرَيْرةَ، ما فَعل أَسِيرُكَ الْبارِحةَ؟ » قُلْتُ: يا رسُول اللَّهِ شَكَا حاجةً وَعِيالاً فَرحِمْتُهُ، وَخَلَّيتُ سبِيلَهُ، فَقَال: « إِنَّهُ قَدْ كَذَبكَ وسيَعُودُ ». فرصدْتُهُ الثَّالِثَةَ. فَجاءَ يحْثُو مِنَ الطَّعام، فَأَخَذْتهُ، فقلتُ: لأَرْفَعنَّك إِلى رسولِ اللَّهِ ﷺ وهذا آخِرُ ثَلاثِ مرات أَنَّكَ لا تَزْعُمُ أَنَّكَ تَعُودُ، ثُمَّ تَعُودُ، فقال: دعْني فَإِنِّي أُعلِّمُكَ كَلِماتٍ ينْفَعُكَ اللَّه بهَا، قلتُ: ما هُنَّ؟ قال: إِذا أَويْتَ إِلى فِراشِكَ فَاقْرأْ آيةَ الْكُرسِيِّ، فَإِنَّهُ لَن يزَالَ عليْكَ مِنَ اللَّهِ حافِظٌ، ولا يقْربُكَ شيْطَانٌ حتَّى تُصْبِحِ، فَخَلَّيْتُ سبِيلَهُ فَأَصْبحْتُ، فقَالَ لي رسُولُ اللَّهِ ﷺ: « ما فَعلَ أَسِيرُكَ الْبارِحةَ؟ » فقُلتُ: يا رَسُول اللَّهِ زَعم أَنَّهُ يُعلِّمُني كَلِماتٍ ينْفَعُني اللَّه بهَا، فَخَلَّيْتُ سبِيلَه. قال: « مَا هِيَ؟ » قلت: قال لي: إِذا أَويْتَ

[1] “əl-Bəqərə” surəsi, 255.

[2] “Səhih Muslim”, 179.

إِلى فِراشِكَ فَاقرَأْ ايةَ الْكُرْسيِّ مِنْ أَوَّلها حَتَّى تَخْتِمَ الآيةَ: { اللَّه لا إِلهَ إِلاَّ هُو الحيُّ الْقَيُّومُ } وقال لي: لا يَزَال علَيْكَ مِنَ اللَّهِ حَافِظٌ، وَلَنْ يقْربَكَ شَيْطَانٌ حَتَّى تُصْبِحَ. فقال النَّبِيُّ ﷺ: « أَمَا إِنَّه قَدْ صَدقكَ وَهُو كَذوبٌ، تَعْلَم مَنْ تُخَاطِبُ مُنْذ ثَلاثٍ يا أَبا هُرَيْرَة؟ » قلت: لا، قال: «ذَاكَ شَيْطَانٌ » رواه البخاري.

1020. Rəvayət edilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: "[Bir dəfə] Peyğəmbər ﷺ Ramazan ayında yığılmış zəkatın mühafizəsini mənə tapşırdı. Bu əsnada birisi yanıma gəldi və ərzaqdan ovuclayıb [qabına] yığmağa başladı. Mən onu yaxalayıb dedim: "Vallahi, mən səni mütləq Peyğəmbərin ﷺ yanına aparacağam". O yalvararaq: "Mən buna möhtacam, mənim külfətim var, özümün də [bu yeməyə] olduqca ehtiyacım var"– dedi, mən də onu buraxdım. Ertəsi gün Peyğəmbər ﷺ məndən soruşdu: **"Ey Əbu Hureyra, tutduğun əsir nə etdi?"** Mən dedim: "Ya Rəsulallah, o [mənə] həm ehtiyaclı, həm də külfət sahibi olduğundan gileyləndi, mənim də ona yazığım gəldi və mən onu buraxdım". Peyğəmbər ﷺ dedi: **"O sənə yalan söyləyib və o yenə qayıdacaq".** Mən əmin idim ki, o qayıdacaq, çünki Peyğəmbər ﷺ: **"...o yenə qayıdacaq"**– deyə xəbər vermişdi. Odur ki, pusquda durub onu gözlədim. O, yenə gəlib ərzaqdan ovuclayaraq [qabına] yığmağa başladı. Mən onu yaxalayıb dedim: "Səni hökmən Peyğəmbərin ﷺ yanına aparacağam". O yenə yalvarıb dedi: "Burax məni! Mən doğrudan da buna möhtacam və mənim külfətim var. [Söz verirəm ki,] bir daha [bura] qayıtmayacağam". Mənim ona yazığım gəldi və mən yenə onu buraxdım. Ertəsi gün Peyğəmbər ﷺ məndən yenə soruşdu: **"Ey Əbu Hureyra, dünən tutduğun əsir nə etdi?"** Mən dedim: "Ya Rəsulallah, o [mənə] həm ehtiyaclı, həm də külfət sahibi olduğundan giley-güzar elədi, mənim də ona yazığım gəldi və mən onu buraxdım". Peyğəmbər ﷺ dedi: **"O sənə yalan söyləyib və o yenə qayıdacaq".** Mən üçüncü dəfə pusquda durub onu gözlədim. O, yenə gəlib ərzaqdan ovuclayaraq [qabına] yığmağa başlayanda mən onu yaxalayıb dedim: "Mən səni hökmən Peyğəmbərin ﷺ yanına aparacağam. Artıq üçüncü dəfədir ki, sən qayıtmayacağına söz verir, ancaq yenə qayıdırsan". O yalvarıb dedi: "Məni buraxsan sənə elə sözlər öyrədərəm ki, Allah onların vasitəsilə sənə fayda verər". Mən: "O nə sözdür elə?"– deyə soruşdum, o da dedi: "Yatağına uzananda **"Allah,**

Ondan başqa ilah yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur...” [sözləri ilə başlayan] Kürsü ayəsini[1] axıra qədər oxu. Əgər belə etsən, səhərədək sənin yanında Allahın təyin etdiyi gözətçi [bir mələk] durar və şeytan sənə yaxınlaşmaz”. Mən yenə onu buraxdım. Səhər Peyğəmbər ﷺ məndən yenə soruşdu: **“Dünən tutduğun əsir nə etdi?”** Mən dedim: “Ya Rəsulallah, o, Allahın izni ilə mənə faydası olacaq sözlər öyrədəcəyini söylədi və mən də onu buraxdım”. Peyğəmbər ﷺ: **“Nə sözdür o?”**– deyə soruşdu, mən də: “O mənə söylədi ki, yatağına uzananda **“Allah, Ondan başqa ilah yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur...”** [sözləri ilə başlayan] Kürsü ayəsini[2] axıra qədər oxu. Əgər belə etsən, səhərədək sənin yanında Allahın təyin etdiyi gözətçi [bir mələk] durar və şeytan sənə yaxınlaşmaz”– dedim.

Peyğəmbər ﷺ dedi: **“Özü qatı yalançı olsa da, sənə doğru söylədi. Üç gecədir kiminlə söhbət etdiyini bilirsənmi, ey Əbu Hureyra?”** Mən: “Xeyr!”– deyə cavab verdikdə, Peyğəmbər ﷺ dedi: **“O, şeytan idi!”**[3]

Şərh:

Bu, olduqca əzəmətli bir qissədir.

Peyğəmbər ﷺ Əbu Hureyraya رضي الله عنه Ramazan ayında sədəqələri, yəni fitrə zəkatını yığmağı tapşırmışdı. Onlar fitrə zəkatını bayramdan bir və ya iki gün öncə yığardılar. Əbu Hureyra da bu işin müvəkkili idi. Gecələrin birində bir kişi gəlib yeməkdən götürəndə Əbu Hureyra onu tutub dedi: “Səni Rəsulullahın yanına aparacağam”. O da qorxdu və dedi ki, ehtiyaclıdır, külfət sahibidir. Əbu Hureyranın ona yazığı gəlir və onu buraxır. Səhər Rəsulullahın ﷺ yanına gəldikdə o soruşur ki: **“Dünən tutduğun əsir nə etdi?”** Bu da Allahın möcüzələrindən idi, çünki o zaman Peyğəmbər ﷺ onun yanında deyildi. Lakin vəhy vasitəsilə bundan agah olmuşdu. Əbu Hureyra da deyir ki: “Ey Allahın elçisi, mənə ehtiyaclı, külfət sahibi olduğunu dedi, mənim də ona yazığım gəldi, onu buraxdım”. Peyğəmbər ﷺ dedi: “O səni aldadıb”. Yəni, sənə yalan söyləyib – onun nə

[1] “əl-Bəqərə” surəsi, 255.

[2] “əl-Bəqərə” surəsi, 255.

[3] “Səhih əl-Buxari”, 2311.

külfəti var, nə də ehtiyacı. O yenə qayıdacaq. Mən də Peyğəmbərin ﷺ: "qayıdacaq" sözündən bildim ki, o yenə qayıdacaq.

Səhabələr Peyğəmbərin ﷺ bütün xəbərlərinə öz gözləri ilə görürmüş kimi iman gətirirdilər.

Əbu Hureyra deyir ki, mən də pusquda durub onu gözlədim. O yenə gəlib ərzaqdan ovuclayıb yığmağa başlayanda mən onu yaxalayıb dedim: "Səni Rəsulullahın yanına aparacağam". Onun yenidən ehtiyaclı, külfət sahibi olduğunu deyib yalvarmasına səhabənin ona yazığı gəlir və onu yenidən buraxır. Baxmayaraq ki, Peyğəmbər ﷺ ona bildirmişdi ki, o səni aldadır. Çünki Əbu Hureyra Peyğəmbərin ﷺ nə cür genişqəlbli olduğunu bilirdi. O ﷺ bilirdi ki, səhabə onu tutmayacaq. Elə də olur – o onu yenə buraxır. Səhər açıldıqda Peyğəmbərin ﷺ yanına gəlib baş verənləri ona danışır. Peyğəmbər ﷺ deyir ki, o səni aldadıb, yenə qayıdacaq. Əbu Hureyra üçüncü dəfə yenə pusquda durur. Yenə həmin adam gəlib ərzaqdan ovuclayıb götürəndə onu yaxalayıb deyir ki: "Bu dəfə hökmən səni Peyğəmbərin yanına aparacağam. Çünki sən üç dəfədir vəd verirsən ki, qayıtmayacaqsan, ancaq yenə qayıdırsan". Əsir deyir ki, məni buraxsan sənə elə bir söz öyrədəcəyəm ki, Allah onunla sənə fayda verəcək. Səhabə deyir ki, mən: "O nə sözdür elə?"– deyə soruşdum, o da dedi: "Yatağına uzananda **"Allah, Ondan başqa ilah yoxdur, *əbədi* Yaşayandır, *bütün yaratdıqlarının* Qəyyumudur..."** [sözləri ilə başlayan] Kürsü ayəsini[1] axıra qədər oxu. Əgər belə etsən, səhərədək sənin yanında Allahın təyin etdiyi gözətçi [bir mələk] durar və şeytan sənə yaxınlaşmaz".

Azacıq kəlmələr səni qoruyacaq! Ətrafına nə qədər cangüdən qoysan da, onlar səni şeytandan qoruya bilməzlər. Lakin belə kəlmələr vasitəsilə Allah səni qoruyur.

Səhərisi gün o yenə baş verənləri xəbər verəndə, Peyğəmbər ﷺ ona deyir ki, **"Özü yalançı olsa da, sənə doğru xəbər verib"**. Yəni, necə qatı yalançı olsa belə, bu dəfə sənə doğru deyib. Sonra da soruşdu ki: **"Üç gecədir kiminlə danışdığını bilirsənmi?"** Dedim ki: "Bilmirəm, ey Allahın elçisi". Dedi: **"O, Adəm oğlunun surətinə girmiş şeytandır. Onun övladları da var"**.

[1] "əl-Bəqərə" surəsi, 255.

Bu hədisdə çoxlu faydalar var və onlardan bəziləri bunlardır:

Birinci fayda: İnsanların öz sədəqələrini əmr sahibinə, yəni rəhbərə və ya onun təyin etdiyi adamlara verməsi caizdir. Misal üçün, insanlardan zəkatın yığılması üçün bir komitə yaradılmış olarsa, insanlar da zəkatlarını onlara verərsə, canlarını qurtarmış olarlar.

İkinci fayda: Vəkil ona etibar edilmiş əmlakdan müvəkkilin razılığı olduğu təqdirdə (razı qaldığı kimi) istifadə edə bilər. Çünki Əbu Hureyra belə etmiş, həmin kişiyə ərzaq vermişdi. Bu arada ona görə "kişi" deyirəm ki, cinlərə də kişi deyilir. Uca Allah buyurur: **"Həqiqətən, insanlardan bəzi kişilər cinlərdən bəzi kişilərə sığınırdılar. *Bu isə* onların azğınlığını artırırdı".**[1] Peyğəmbərin: **"O, yalançıdır, yenidən qayıdacaq"** deməsinə baxmayaraq, Əbu Hureyra ikinci gecə də ona ərzaq verir.

Üçüncü fayda: Şeytan bəzən insan qiyafəsinə girə bilər. Olur ki, şeytanlar Adəm övladının surətini alır və o formada görünürlər. Həmçinin it surətində də olurlar (görünürlər). Bəzi alimlər Peyğəmbərin ﷺ **"Qara it şeytandır"**[2] hədisi barəsində demişlər ki, şeytanlar qara itlərin surətini alırlar. Lakin səhih olan budur ki, hədisdə deyilən qara itin şeytan olması itlərin şeytanı – onların ən pisi, ən zərərlisi və ən üsyankarı olmasıdır. Şeytanlar digər heyvanların qiyafəsinə də girə bilirlər. Bəzən pişik, bəzən də ilan surətinə girə bilirlər.

Səhih bir hədisdə deyilir ki, ənsarlardan olan bir gənc oğlan yeni evlənmişdi. Bir gün evinə döndükdə, zövcəsini qapının önündə görür və səbəbini soruşur. Zövcəsi ona içəri daxil olmasını deyir. Oğlan evə daxil olduqda görür ki, yatağının üzərində ilan var. Nizəsi ilə vurub ilanı öldürür. Ancaq ilan ölən kimi, oğlan da ölür. Hətta hansının – ilanınmı, yoxsa oğlanınmı daha öncə öldüyü bilinmir. Ona görə də Peyğəmbər ﷺ ilanı evdə öldürməyi qadağan etmişdir.

Adamın öz evində gördüyü ilanı həmən öldürməsi caiz deyil. Üç gün ərzində onu utandır. Ona de ki, sən mənim üçün müşkül yaradırsan, evimdə oturma. Üç gündən sonra yenə gələrsə, o zaman onu öldür. Çünki əgər cinayətkardırsa, çıxıb gedəcək və gəlməyəcək. Elə olmazsa, yəni bəzi

[1] "əl-Cinn" surəsi, 6.

[2] "Səhih Muslim", 510.

heyvanlar kimi olduqda isə, o bilməz. Üç gündən sonra yenə gəlsə, onda öldürülər.

Peyğəmbər ﷺ yalnız iki növ ilanı istisna etmişdir ki, onları evdə də öldürmək olar: əbtər, yəni qısa quyruqlu ilan, bir də belində iki xətti olan ilan. Onları evdə də öldürmək olar, çünki onlar olduqca təhlükəlidirlər. Peyğəmbərin ﷺ də dediyi kimi: **"insanı kor edir".**[1] Hətta hamilə qadınların uşağı düşürmələrinə də səbəb olurlar. Ona görə də Peyğəmbər ﷺ bu iki növü, hətta evdə olsalar belə, öldürməyə icazə vermişdir.

Bu deyilənlərin əsası budur ki, şeytanlar və cinlər fərqli surətlərə girə bilirlər.

Dördüncü fayda: Əmr sahibinə təqdim edilən fitrə zəkatı bayramdan iki gün və ya bir qədər öncədən də verilə bilər. Əmr sahibi isə onu yalnız vaxtında paylamalıdır.

Beşinci fayda: Bu, Peyğəmbərin ﷺ möcüzələrindəndir. Belə ki, şahidi olmadığı bir hadisənin necə baş verdiyindən xəbərdar olmuşdu. İzzət və cəlal sahibi Allahdan ona bu haqda vəhy gəlmişdi.

Altıncı fayda: Hər dəfə yatmaq üçün yerinə girdikdə "Kürsü" ayəsi (ayətul-kursi) əvvəlindən sonunadək oxunmalıdır. Uca Allahın: **"Dində məcburiyyət yoxdur"** ayəsi[2] bura daxil deyil. Bu ayə "Kürsü" ayəsindən ayrıdır. "Kürsü" ayəsi **"O, Ucadır, Əzəmətlidir"** sözü ilə bitir. Hər gecə yatağına girdikdə bu ayəni oxu ki, şeytan səhərə qədər sənə yaxınlaşmasın. Bununla Allah səni qorumuş olar. Belə ki, Peyğəmbər ﷺ: **"Allah səni qoruyar"** demişdir. Etibarlı birisi mənə danışır ki, "hər gecə bu ayəni oxuyurdum. Ancaq bir gecə onu oxumağı unutdum və məni əqrəb sancdı". Ayəni oxumadığı gündə onun qoruyanı olmadı və əqrəb onu sancdı. Odur ki, çalış "Kürsü" ayəsini hər gecə, xüsusən yatağına girdikdə oxuyasan.

Yeddinci fayda: Haqqı hər kəsdən qəbul etmək lazımdır. Hətta şeytandan, müşrikdən, yaxud yəhudi və ya xaçpərəstdən belə haqq qəbul olunur. Uca Allah haqqı müşriklərdən qəbul etmişdi, Peyğəmbər ﷺ isə yəhudidən haqqı qəbul etmişdi. Şeytandan da dediyi haqqı, hədisdə deyildiyi kimi, təsdiq etmişdi.

---

[1] "Səhih Muslim", 2232.

[2] "əl-Bəqərə" surəsi, 256.

Allahın haqqı müşriklərdən qəbul etməsinə gəlincə, uca Allah buyurur: **"Onlar yaramaz əməl etdikləri zaman: "Atalarımızı belə gördük. Allah da bizə bunu əmr etmişdir"– deyirlər".**[1] Burada onlar iki bəhanə gətirmişlər: birincisi, atalarını belə gördüklərini, ikincisi isə, bunu onlara Allahın əmr etdiyini. Uca Allah buyurur: **«De: "Allah yaramaz əməlləri əmr etməz. Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?"».**[2] Uca Allah onların **"Atalarımızı belə gördük"** demələri barədə isə susur. Çünki onların bu sözü haqdır və doğrudur. Onların atalarının da bu iyrənc əməli etdiklərini görmüşdülər. Lakin Allah onlara bunu əmr etməmişdir: **«De: "Allah yaramaz əməlləri əmr etməz"».**

Peyğəmbərin ﷺ yəhudidən haqqı qəbul etməsinə gəlincə, bir dəfə yəhudi alimlərindən biri onun yanına gəlib deyir: "Biz eşitmişik ki, Allah səmaları bir barmağında, yerləri bir barmağında, ağacları bir barmağında edəcək...". Sonra da hədisi sonunadək dedi. Bu zaman Peyğəmbər ﷺ bu yəhudinin dediklərini təsdiq edərək arxa dişləri görünənədək güldü və sonra bu ayəni oxudu: "**Onlar Allahı layiqincə dəyərləndirmədilər. Halbuki, Qiyamət günü yer bütünlüklə Onun ovcunda olacaq, göylər isə Onun sağ əli ilə büküləcəkdir. O, pakdır, müqəddəsdir və onların *Ona* qoşduqları şəriklərdən ucadır".**[3]

O ﷺ şeytanın dediyi haqqı da hədisdə deyildiyi kimi, təsdiq etmişdi. Sən də, ey müsəlman, gərək haqqı hər kəsdən qəbul edəsən. Batili də hər kəsdən dəf edəsən. Kim batil söz söyləyirsə, dediyi rədd olunur. Kim də haqqı deyirsə, söylədiyi qəbul olunur. Ona görə də alimlər deyərdilər ki, kişilər haqqa görə tanınır, haqq kişilərə görə tanınmır. Yəni, haqqı qəbul etməyini insanlara bağlama. Doğrudur, ola bilsin, bir alimə başqalarından daha çox etibar edəsən və onun dediklərini [qeyd-şərtsiz] qəbul edəsən. Lakin alimin hər dediyi söz qəbul olunmur. Ola bilsin, doğru da deyə bilər, səhv də. Lakin alim, şəkk yoxdur ki, doğruya daha yaxındır. Ona görə də deyirlər ki, kişilər haqqa görə tanınır, haqq kişilərə görə tanınmır. Çünki insan səhv də edə bilər. Müvəffəq edən Allahdır.

İndi də "Kürsü" ayəsinin şərhində qaldığımız yerə qayıdaq.

---

[1] "əl-Əraf" surəsi, 28.

[2] "əl-Əraf" surəsi, 28.

[3] "əz-Zumər" surəsi, 67.

Uca Allahın **"Onu nə mürgü, nə də yuxu tutar"** ayəsinin ərəbcəsində işlənən "əs-sinə" sözü mürgü deməkdir.

"Göylərdə və yerdə nə varsa, Ona məxsusdur". Bu ayə izzət və cəlal sahibi Allahın ümumi mülkünə dəlalət edir. Nöqsansız və uca Allah mülkünün Tək sahibidir: **"Göylərdə və yerdə nə varsa, Ona məxsusdur".**

Hər şeyin bütünlüklə Onun mülkünə aid olmasının dəlili ərəb dilindəki "mə" (مَا) sözünün birləşdirici məna verməsidir. Adətən birləşdirici ədat ümumiliyi bildirir.

Allahın öz mülkündə tək olmasına dəlil isə **"Göylərdə və yerdə nə varsa, Ona məxsusdur"** ayəsində xəbərin öndə gəlməsidir. Belə ki, xəbərin öndə gəlməsi məxsusluğa dəlalət edir. Yəni, səmalarda və yerdə Allahdan başqa heç kim mülk sahibi deyil. İnsanın malik olduğu geyim və daşınmaz əmlak kimi şeylər şərti mülkdür. İnsan onlarla istədiyi kimi davranmaq ixtiyarında deyil, məsələn, öz paltarını yandırmaq ixtiyarı yoxdur. Demək "mənim mülküm" dediyi şeylərdə də insan tam azad deyil. O, öz mülkü ilə yalnız şəriətin buyurduğu şəkildə davrana bilər. Ona görə də biz öz pulumuzdan sələm ala bilmərik. Düzdür, sələmi verən kəs ola bilsin, buna razı olsun, ancaq bu icazəli deyil, çünki biz öz malımızda azad deyilik. Biz şərti olaraq onlara sahibik. Mütləq mülk sahibi isə öz milkündə istədiyini edəndir. Bu da izzət və cəlal sahibi Allahdır: **"Göylərdə və yerdə nə varsa, Ona məxsusdur".**

"*Allahın* izni olmadan Onun yanında kim şəfaət edə bilər?" Ayədə olan (مَنْ) "mən" sözü sual ədatıdır və inkarı bildirir. Yəni, Allahın izni olmadan heç kim Onun yanında şəfaət edə bilməz. Şəfaətin nə olduğu isə bəllidir.

Şəfaət, xeyir əldə etmək və ya şəri dəf etmək məqsədilə vasitəçiliyə deyilir. Məlum məsələdir ki, dünyadakı hökmdarlar nə qədər böyük mülkə sahib olsalar belə, bəzən birisi gəlir və icazəsiz onların yanında vasitəçilik edir. Lakin izzət və cəlal sahibi Allahın yanında Onun izni olmadan heç kim şəfaətçilik edə bilməz. Bu da Onun kamil Rəbb olduğuna dəlildir.

Onun kamil Rəbb olmasındandır ki, heç kim Onun qarşısında Onun izni olmadan danışa bilmir, xeyirli olan kəs şəfaət edə bilmir. Allah

yanında insanların ən hörmətlisi kimdir? – Muhəmməd ﷺ. Ancaq o belə Qiyamət günü Allahdan izin almadan şəfaət edə bilməz. Allahın önündə uzun (davamlı) bir səcdə edəcək, Allah da ona əvvəllər verdiyi şükürəlayiq nemətlər bəxş edəcək və sonra o, şəfaət edəcək. Muhəmməddən başqalarına gəlincə isə, Allahın izni olmadan ümumən şəfaət edə bilməyəcəklər. Nə üçün? Çünki izzət və cəlal sahibi Allah öz mülkündə və səltənətində kamildir.

"O, *qullarının* gələcəyini və keçmişini bilir". İzzət və cəlal sahibi Allah öz qullarının keçmişini də bilir, gələcəyini də. Gələcəklə bağlı hər şeydən agahdır. Həmçinin keçmişdə olmuş hər şeyi də bilir. Bu da izzət və cəlal sahibi Allahın kamil elmə sahib olduğuna, hər şeyi əhatə etdiyinə dəlildir. Keçmişi də bilir, indini də, gələcəyi də. Sənin önündə bu an olanı da, bir an sonra olacağı da, bir an öncə baş verəni də bilir. Misal üçün, bu gün əsr namazından sonra danışdıqlarımız keçmişdir, yoxsa gələcək? Keçmişdir. Mənim indi söylədiklərim indidir. İndidən sonra deyəcəklərim isə gələcəkdir. İndi olan indiki zamandır, keçmişdə olan isə keçmiş zamandır. İzzət və cəlal sahibi Allah keçmişdə və gələcəkdə olanları bilir. Bu onun kamil elminə dəlalət edir. Ondan başqa hamının elmi isə naqisdir. Ona görə ki:

Birincisi, bir çox şeyləri bilmirik, bizim üçün elm sonradan yenilənir.

İkincisi, hətta bir şeyi bilsək belə, onu unuda bilərik.

İzzət və cəlal sahibi Allahın elmində isə unutmaq və cahillik (bilməmək) yoxdur. Necə ki, Musa əleyhissalam Fironun dediyinə cavab olaraq demişdi: **"*Firon* dedi: "Bəs əvvəlki nəsillərin halı necə olacaq?" *Musa* dedi: "Onlar haqqındakı bilgi Rəbbimin yanında olan bir Kitabdadır. Rəbbim nə xəta edir, nə də unudur!".**[1]

O, zəlalətə düşmür, yəni xəta etmir, həm də keçmişdə olanları unutmur. Bizim elmimiz xəta və unutqanlığa məruz qala bilər. İzzət və cəlal sahibi Allahın elmi isə bütün bu naqisliklərdən uzaqdır.

"Onlar *Allahın* elmindən Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər". Yəni, məxluqat Onun elmindən Onun istədiklərindən əlavə bir şey qavraya bilməz. Burada elm dedikdə, məlum olan nəzərdə

[1] "Ta ha" surəsi, 51-52.

tutulur. Yəni, biz izzət və cəlal sahibi Allahın bildiyindən yalnız Onun istədiyini (bilməyimizə razı olduğunu) bilirik. Uca Allah buyurur: **"O, qeybi biləndir və Öz qeybini heç kəsə açmaz; razı qaldığı elçidən başqa. Həqiqətən, *Allah* onların önündə və arxasında gözətçilər qoyur".**[1]

Həmçinin bizlər Onun elmindən heç bir şey qavraya bilmərik. Biz yalnız Allahın istədiyi qədər Onun zat və sifətləri barəsində elmə malikik. Biz Allahın zatı, ad və sifətləri barəsində Onun istədiyindən artıq bir şey bilmirik. Buna görə də alimlər demişlər ki, "ad və sifətlər məsələsi şəriətlə əlaqəlidir". Yəni, şəriətin isbat etdiyini biz də isbat edirik, inkar etdiyini də biz də inkar edirik. Çünki bizlər Allahın sifətlərindən yalnız bizə öyrətdiklərini, adlarından da ancaq bizə bildirdiklərini bilirik. Onun zatı barədə də yalnız bizlərə öyrətdiyi qədər bilirik. Bu cümlə insanın Allahın elminə necə möhtac olduğunu göstərir. İnsan gərək uca Allahdan diləsin ki, onun dini və dünyası barədə bilmədiklərini ona öyrətsin.

"Onun Kürsüsü göyləri və yeri əhatə edir". Kürsü barədə İbn Abbas ﷺ demişdir: "O, izzət və cəlal sahibi Allahın ayağını qoyduğu yerdir və o, Ərşin altındadır". Ərş ondan daha böyükdür. Hədisdə Peyğəmbər ﷺ demişdir: **"Yeddi səma Kürsü ilə müqayisədə səhraya atılmış bir halqa kimidir. Ərş də Kürsü ilə müqayisədə halqanın atıldığı səhra kimidir".**[2]

Əgər zirehin kiçik bir halqasını bir səhraya, yəni sərhədsiz geniş bir əraziyə atsan, miqyasına görə heç nə sayılar. Yeddi səma və yeddi qat yer də Kürsü ilə müqayisədə səhraya atılmış halqa misalındadır. Ərş isə Kürsü ilə müqayisədə halqanın atıldığı səhra kimidir. Ərş Kürsüdən çox-çox əzəmətlidir. Ərşi yaradan Allah isə əzəmətlilərin ən Əzəmətlisidir. Əgər Kürsü göyləri və yeri əhatə edirsə, Ərş ondan da əzəmətlidir. Rəbbimiz isə hər şeydən ən əzəmətli, ən böyükdür.

"**Bunları qoruyub saxlamaq Ona ağır gəlmir".** Yəni, izzət və cəlal sahibi Allaha səmaları, yeri və onlardakı məxluqları, onlar nə qədər böyük olsalar belə, onları qoruması çətin deyil. İzzət və cəlal sahibi Allah hər bir məxluqatın fövqündədir. Səmaları və yeri qorumaq Onun üçün çətin deyil: **"İnsanı həm önündən, həm də arxasından daim təqib edən mələklər**

[1] "əl-Cinn" surəsi, 26-27.

[2] "Səhih İbn Hibban", 361.

vardır. Onlar Allahın əmri ilə onu qoruyurlar”.[1]**; “Allah ən yaxşı qoruyandır və O, rəhmlilərin ən rəhmlisidir”.**[2]

İzzət və cəlal sahibi Allah hər şeyin fövqündə olmaqla səmaları və yeri qoruması Ona çətin gəlmir.

“O, Ucadır, Əzəmətlidir”. Allah hər şeydən ucadır, hər şeyin fövqündədir. Hər şeydən də əzəmətlidir. Bəzi elm əhli demişlər: “Ucalıq iki növdür: izzət və cəlal sahibi Allahın zatı ucalığı, bir də sifətlərinin ucalığı”.

Allahın sifətləri hər şeydən ucadır. “Əzəmətli” sözünün mənası əzəmət, izzət, təkəbbürlük, cəlal sahibi olmaq deməkdir. Elə bu əzəmətli mənaları özündə birləşdirən ayə də Allahın kitabındakı ən əzəmətli ayədir. Müvəffəq edən Allahdır.

١٠٢١ – وعن أَبي الدَّرْدِاءِ ﷺ أَنَّ رسُول اللَّهِ ﷺ قال: «منْ حفِظَ عشْر آيَاتٍ مِنْ أَوَّلِ سُورةِ الْكَهْف، عُصِمَ منَ الدَّجَّالِ ». وفي رواية: « مِنْ آخِرِ سُورةِ الكهْف» رواه مسلم.

1021. Əbu Dərdadan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **“Kim “əl-Kəhf” surəsinin əvvəlindən on ayə əzbərləyərsə, Dəccaldan qorunmuş olar”**.

Başqa bir rəvayətdə: **“Kim “əl-Kəhf” surəsinin axırından...”** deyilir.

Hədisi Muslim rəvayət etmişdir.[3]

١٠٢٢– وعَنِ ابْنِ عبَّاسٍ ﷺ قَالَ: بيْنَما جِبْرِيلُ عليهِ السَّلام قاعِدٌ عِندَ النَّبِيِّ ﷺ سَمِعَ نَقِيضًا مِنْ فَوْقِهِ، فَرَفَعَ رَأْسَه فَقَالَ: هذا باب مِنَ السَّمَاءِ فُتِحَ اليَوْمَ ولَمْ يُفْتَح قَطُّ إِلاَّ اليَوْمَ، فَنَزَلَ مِنه مَلكٌ فقالَ: هذا مَلَكٌ نَزَلَ إِلى الأَرْضِ لم يَنْزِلْ قَطُّ إِلاَّ اليَوْمَ فَسَلَّمَ وقال: أَبشِرْ بِنورَينِ أُوتِيتَهُمَا، لَمْ يُؤْتَهُمَا نَبِيٌّ قَبلَكَ: فَاتحةِ الكتاب، وخَواتِيم سُورَةِ البَقَرةِ، لَن تَقرأَ بحرْفٍ منها إِلاَّ أُعْطِيتَه » رواه مسلم.

« النَّقِيض » الصَّوت.

1022. Rəvayət olunur ki, İbn Abbas ﷺ demişdir: “Bir dəfə Cəbrail Peyğəmbərin ﷺ yanında oturmuş ikən yuxarıdan səs eşidildi. *Cəbrail*

[1] “ər-Rəd” surəsi, 11.

[2] “Yusuf” surəsi, 64.

[3] “Səhih Muslim”, 809.

başını qaldırıb dedi: "Bu, səmadan yalnız bu gün açılan, bundan sonra bir daha açılmayacaq bir qapıdır. Oradan bir mələk yerə endi, həmin mələk yalnız bu gün enib, bundan sonra bir daha enməyəcək. O *mələk* salam verib dedi ki: "Ona verilmiş elə iki nurla onu müjdələ ki, onlar səndən öncə heç bir peyğəmbərə verilməyib: – Kitabı açan surə, bir də "əl-Bəqərə" surəsinin sonu. Onlardan bir hərf belə oxusan, sənə verilər".

Hədisi Muslim rəvayət etmişdir.[1]

Hədisin ərəbcəsində keçən "nəqid" sözünün mənası səsdir.

Şərh:

Müəllif ﵀ **"Xüsusi surə və ayələrə təşviq"** fəslində qeyd etdiyi hədislər sırasında "əl-Kəhf" və "əl-Fatihə" surələri, həmçinin "əl-Bəqərə" surəsinin sonu barəsindəki hədisləri zikr edir.

Onlardan birində Peyğəmbər ﷺ xəbər verir ki, **"Kim "əl-Kəhf" surəsinin əvvəlindən [və ya sonundan] on ayə əzbərləyərsə, Dəccaldan qorunmuş olar"**.

Dəccal, kafir bir kişidir – axır zamanda göndəriləcək və peyğəmbərlik iddia edəcək. Ancaq bu o demək deyil ki, o peyğəmbərdir. O həm də, Allah qorusun, ilahlıq da iddia edəcək. Onun fitnəsi Adəm yaranandan Qiyamətədək baş vermiş ən böyük fitnə olacaq. Peyğəmbər ﷺ bu barədə xəbər verərək demişdir: **"Əgər mən sizin aranızda ikən o üzə çıxarsa, mən sizin yardımınız olmadan onunla mübarizə apararam. Mən olmadığım vaxt üzə çıxarsa, hər kəs özü mübarizə aparmalıdır. Hər bir müsəlmanı Allaha həvalə edirəm".**[2]

Peyğəmbər ﷺ ümmətini onun fitnəsindən çəkindirmiş və demişdir ki, elə bir peyğəmbər olmadı ki, öz qövmünü onun bu əzəmətli fitnəsindən çəkindirmiş olmasın. Onlara onsuz da məlum idi ki, o, axır zamanda gələcəkdir. Onlar sadəcə onun fitnəsinin nə qədər əzəmətli olmasını bildirmək üçün ondan çəkindirmişlər.

Yalnız izzət və cəlal sahibi Allahın xilas etdiyi kəslər ondan xilas olacaqlar. Dəccal insanları çaşdırmaq üçün qeyri-adi əməllər edə biləcək. Məsələn, səmaya əmr edəcək ki, yağış yağsın, yağacaq. Yerə əmr edəcək

[1] "Səhih Muslim", 806.

[2] "Səhih Muslim", 2937.

və yer bitkilərini çıxacaq. Ev heyvanları arıq olan səhralıq (quraqlıq) bir yerə gəlib onlar üçün dua edəcək, onlar da kökəlib südlənəcəklər. Yaxud başqa bir yerin adamlarının yanına gəlib dua edəcək və oranın bitkiləri yox olacaq. Onun etdiyi bu əməlləri görən insanlar da ona tabe olacaqlar. Bundan daha əzəmətli bir fitnə ola bilərmi?!

Ələlxüsus da çöllükdə çoxlu adamlar var ikən ona tabe olanları öz cənnətinə daxil edəcək, inkar edənləri isə öz cəhənnəminə giriftar edəcək. Ancaq əslində insanlara cənnət kimi göstərilən cəhənnəm, Allah qorusun, Cəhənnəm kimi görünən isə Cənnət və saf sulardır. İnsanlar həmişə ancaq zahirə baxırlar. Nöqsansız və uca Allah isə bizlərə onun yalançı olduğunu bəyan etmişdir.

Peyğəmbər ﷺ bizə demişdir ki, Dəccalın alnının ortasında "kəf", "fə", "ra" hərfləri, yəni "kafir" sözü yazılmış olacaq. Bütün möminlər, hətta oxumağı bacarmayanlar belə o sözü oxuyacaqlar. Münafiqlər isə onu, yəni onun iki gözünün arasındakı bu yazını görməyəcəklər. Çünki o, zəlalət əhlindəndir. Allaha sığınırıq! Necə ki, məzarda olan insan mömin olduqda verilən suallara cavab verərək deyəcək ki, Rəbbim Allahdır, dinim İslamdır, peyğəmbərim Muhəmməddir, münafiq olan kəs isə bu suallara cavab verə bilməyəcək.

Peyğəmbərimiz ﷺ bizə onun başqa bir aşkar əlamətini də bildirmişdir ki, o da Dəccalın təkgöz olmasıdır – onun yalnız bir gözü olacaq, başqa ayıbı və ya nöqsanı olmayacaq. Kimə müvəffəq olarsa, onun fitnəsindən salamat qalacaq və xilas olacaq.

Bu xəbis Dəccal yer üzərində qırx gün qalacaq. Həmin günlərdən biri bir il qədər uzun olacaq, yəni on iki aya bərabər olacaq. Bax, sübhanallah, indi yer 24 saat ərzində günəş ətrafında dövr edir. İkinci günü isə bir aya, yəni otuz günə bərabər olacaq. Üçüncü günü bir həftəyə, yəni yeddi günə bərabər olacaq. Qalan günlər isə bizim günlərimiz kimi olacaq. Sonra İsa ibn Məryəm nazil olacaq və bu müddətin sonunda Dəccalı öldürəcək. Doğru danışan pak peyğəmbər Məsih, xəbis məsih Dəccalı ölürəcək.

Dəccal fitnəsinin böyüklüyünə görə Rəsulullah ﷺ bizlərə əmr edib ki, hər namazda ondan Allaha sığınaq. Peyğəmbər ﷺ demişdir: **"Təşəhhüd etdiyi zaman dörd şeydən Allaha sığınaraq desin ki: "Allahım, Cəhənnəm**

əzabından, qəbir əzabından, dirilərin və ölülərin fitnəsindən, bir də Məsih Dəccalın fitnəsindən Allaha sığınıram".[1]

Bu ona görədir ki, onun fitnəsi çox böyükdür. Gərək biz səmimi-qəlbdən Məsih Dəccalın fitnəsindən izzət və cəlal sahibi Allaha sığınaq.

Onun fitnəsindən qorunmağın digər bir yolu isə "əl-Kəhf" surəsinin əvvəlindən [və ya sonundan] on ayə əzbərləmək və onu oxumaqdır. Kim bunu edərsə, onun fitnəsindən qorunar.

Təşviq olunan xüsusi surə və ayələrdən bəziləri də "əl-Fatihə" surəsi və "əl-Bəqərə" surəsinin son iki ayəsidir. Bu ümmətdən hər hansı bir mömin onu yəqinliklə oxuyarsa, Allah onun istəyini ona verər.

"əl-Fatihə" surəsində Uca Allah buyurur: **"Bizi doğru yola yönəlt – nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların *yoluna* yox!"**[2] İnsan bunu namazda oxuduqda, uca Allah öz qulu barədə buyurur ki, bu, qulumundur, qulum nə istəsə ona verərəm.

"əl-Bəqərə" surəsinin son ayələrinə gəlincə, bu ayələrdə uca Allah buyurur: **"Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı *xeyir yalnız* onun özünə, qazandığı *şər də, yalnız* öz əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yüklə yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə daşıtdırma! Bizi əfv et, bizi bağışla, bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafir qövmə *qalib gəlməkdə* bizə yardım et!"**[3]

Bunlar yeddi dua cümləsidir. Hər hansı bir mömin yəqinliklə bu duaları oxuyarsa, Allah onun dualarına cavab verər. Bu da böyük bir xüsusiyyət və fəzilətdir.

Uca Allahdan diləyirəm ki, bizi və sizi bağışlasın, bizlərə kafir qövm üzərində qələbə çalmaqda yardım etsin.

---

[1] "Səhih Muslim", 588.

[2] "əl-Fatihə" surəsi, 6-7.

[3] "əl-Bəqərə" surəsi, 285-286.

Yüz səksən dördüncü fəsil

Qiraət üçün bir yerə toplanmağın müstəhəbliyi

Mövzu ilə əlaqəli hədis:

١٠٢٣ – عَنْ أَبي هُرَيْرَةَ ﷺ قَالَ: قَالَ رَسُول اللَّهِ ﷺ: «ومَا اجْتَمَعَ قَوْمٌ في بَيْتٍ من بُيوتِ اللَّهِ يَتْلُونَ كتاب اللَّهِ، ويتَدَارسُونَه بيْنَهُم، إِلاَّ نَزَلَتْ علَيهِم السَّكِينَة، وغَشِيَتْهُمْ الرَّحْمَة، وَحَفَّتْهُم الملائِكَةُ، وذَكَرهُمْ اللَّه فيِمنْ عِنده » رواه مسلم.

1023. Əbu Hureyradan ﷺ rəvayət olunur ki, Rəsulullah ﷺ demişdir: **"Hər hansı bir camaat Allahın evlərindən birində toplaşıb Allahın kitabını oxuyar, onu öz aralarında öyrənərsə, onların üzərinə sükunət nazil olar, onları rəhmət bürüyər, mələklər onları əhatəyə alar və uca Allah onları yanındakılara xatırladar".**

Hədisi Muslim rəvayət etmişdir.[1]

Şərh:

Müəllif Hafiz ən-Nəvəvi ﷺ "Salehlər bağçası" əsərində **"Qiraət üçün bir yerə toplanmağın müstəhəbliyi"** fəslini açır. Bununla o demək istəyir ki, insanların bir yerə toplanıb Quran oxuması, onu bir-birlərinə öyrətməsi Peyğəmbərin ﷺ müstəhəb buyurduğu əməllərdəndir.

Əbu Hureyradan ﷺ rəvayət olunur ki: **"Hər hansı bir camaat Allahın evlərindən birində toplaşıb Allahın kitabını oxuyar, onu öz aralarında öyrənərsə, onların üzərinə sükunət nazil olar, onları rəhmət bürüyər, mələklər onları əhatəyə alar və Allah onları yanındakılara xatırladar".** Toplanmaya görə bu dörd şey baş verər.

Peyğəmbər ﷺ deyir ki: **"Hər hansı bir camaat Allahın evlərindən birində toplaşarsa"**. Allahın yerdəki evləri məscidlərdir. Uca Allah buyurur: **"*Bu nur* Allahın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izin verdiyi evlərdədir. *Mömin kişilər* orada səhər-axşam Ona**

[1] "Səhih Muslim", 2699.

təriflər deyirlər. O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar".[1]

Allah bu məkanlara şərəf və yüksək məqam vermək üçün onları özünə nisbət etmişdir. Çünki orada O zikr olunur, Kəlamı oxunur, namazla ona yaxınlaşılır. Əslində nöqsansız və uca Allah Ərşinin və səmaların üzərindədir və məxluqatının yanında deyildir. Lakin bu izafət şərəfləndirmək üçündür. Alimlər demişlər ki, Allaha nisbət olunan şeylər iki növdür:

Birinci növü, məkanla olan sifətlərdir. Bu da izzət və cəlal sahibi Allahın sifətləridir. Məsələn, Allahın izzəti, Allahın qüdrəti, Allahın kəlamı, Allahın eşitməyi, Allahın görməyi. Bu sifət vəsf olunanla birlikdə olur. Bu da izzət və cəlal sahibi Allahın sifətləridir.

İkinci növü, izzət və cəlal sahibi Allahdan fərqli olan məxluqlardır. Bunlar Allahın sifətləri deyil, sadəcə şərəf və hörmət əlaməti olaraq Allaha nisbət olunanlardır. Məsələn, Allahın məscidləri, Allahın evləri, Allahın dəvəsi. Uca Allah Adəm barəsində buyurur ki: **"Ona öz ruhumdan üfürdüm".**[2] Bunu O, İsa barəsində də belə buyurur. Ruh izzət və cəlal sahibi Allahdan ayrı bir şeydir, Onun məxluqlarından biridir. Lakin o da şərəf və hörmət əlaməti olaraq Allaha nisbət olunur.

Daha sonra Peyğəmbər ﷺ buyurur: **"Allahın kitabını oxuyur"**. İzzət və cəlal sahibi Allahın kitabını oxumaq üç növdür:

1 – Ləfzi tilavət;

2 – Məna tilavəti;

3 – Əməl tilavəti.

Ləfzi tilavətə gəlincə, necə oxunması bəllidir. Bu da iki növdür:

Birinci növ. Qari bir və ya iki səhifə Quran oxuyur, sonra başqaları da onun oxuduğunu yenidən oxuyurlar. Bu çox vaxt təlim zamanı olur.

İkinci növ. Qari bir-iki səhifə oxuyur, sonra ikinci adam onun ardınca bir-iki səhifə başqa bir yerdən oxuyur və beləcə davam edir.

---

[1] "ən-Nur" surəsi, 36-37.

[2] "əl-Hicr" surəsi, 29.

Birdən kimsə desə ki, ikinci növ qiraətdə oxuyanlar bir-birilərinin savabını itirmiş olurlar, çünki birinin oxuduğunu o biri oxumur. Deyirik: Heç nə itirilmir, çünki dinləyən də qari kimi savab qazanır. Buna da dəlil Uca Allahın Musanın "Yunus" surəsindəki qissəsində Firon ailəsinə dua etməsidir: **"Ey Rəbbimiz, onların mal-dövlətini məhv et, qəlblərini də sərtləşdir ki, ağrılı-acılı əzabı görməyincə iman gətirməsinlər!".**[1] Bunu deyən, deyildiyi kimi, Musadır: «**Musa dedi: "Ey Rəbbimiz, Sən Firona və onun əyanlarına dünya həyatında zinət və mal-dövlət bəxş etdin. Ey Rəbbimiz, onlar *insanları* Sənin yolundan sapdırırlar. Ey Rəbbimiz, onların mal-dövlətini məhv et, qəlblərini də sərtləşdir ki, ağrılı-acılı əzabı görməyincə iman gətirməsinlər!"**» Uca Allah davamında buyurur: «***Allah* dedi: "Hər ikinizin duası qəbul olundu. *Dəvətinizdə* möhkəm olun və nadanların yoluna uymayın!"»**[2] Burada **"ikiniz"** deyilsə də, dua edən eyni adamdır. Lakin alimlər demişlər ki, Harun dualarını dinləyib "Amin!" deyirdi.

Məna tilavəti odur ki, insanlar izzət və cəlal sahibi Allahın Kitabını öyrənirlər ki, mənasını anlasınlar. Məsələn, sələflər on ayə öyrənər, onu anlayar, oradakı elmi mənimsəyər, sonra digərinə keçər və deyərdilər ki, biz Quranı, elmi və əməli birlikdə öyrəndik.

Əməli tilavət isə Qurani-Kərimin ən əzəmətli məqsədidir. Uca Allah buyurur: **"*Bu* mübarək Kitabı sənə nazil etdik ki, *insanlar* onun ayələrini düşünüb anlasınlar və ağıl sahibləri də ondan ibrət götürsünlər".**[3]

Quranda olanlara əməl etmək, Allahın xəbər verdiklərini təsdiqləmək, əmrlərinə riayət edib, qadağalarından çəkinmək Allahın Kitabına əməli tilavət hesab olunur.

Peyğəmbər ﷺ demişdir: **"Onların üzərinə sükunət nazil olar".**

Sükunəti izzət və cəlal sahibi Allah insanın qəlbinə nazil edir, o da bundan rahatlıq tapır, əmin olur, kədərlənmir, şəkk-şübhədən uzaqlaşır. Bir sözlə, sakit və rahat olur. Bu da Allahın bəndəyə bəxş etdiyi ən böyük nemətdir – qulunun qəlbinə sükunət nazil edir, qul onunla rahatlanır,

[1] "Yunus" surəsi, 88.

[2] "Yunus" surəsi, 89.

[3] "Sad" surəsi, 29.

kədərlənmir, şübhə içərisində olmur, Allahın qəza və qədərinə razı qalır, Allahın qəza və qədərində izzət və cəlal sahibi Allahla birlikdə olur. Başına bir müsibət gəldikdə səbir edir, Allahın yardımını gözləyir. Başına yaxşı bir iş gəldikdə isə buna görə Allaha şükür edər, rahat və sakit olar. Bu sükunət böyük bir nemətdir. Allahdan diləyirik ki, bizim və sizin qəlbinizə sükunət nazil etsin.

Uca Allah buyurur: **"Möminlərin imanı üstünə iman artırmaq üçün onların qəlbinə rahatlıq göndərən Odur".**[1] Bu da imanı artıran amillərdəndir.

"Onları rəhmət bürüyər". Yəni, örtər. Hədisin ərəbcəsindəki "əl-ğaşəyən" sözü "örtmək" mənasındadır. Uca Allah buyurur: **"And olsun *yer üzünü zülmətə* bürüməkdə olan gecəyə!".**[2] Yəni, yeri öz zülməti ilə örtər.

"Onları rəhmət bürüyər", yəni izzət və cəlal sahibi Allahın rəhməti.

"Mələklər onları əhatə edər". Yəni, onları əhatə edərək zikr edər, onlara şahidlik edərlər.

"Allah onları yanındakılara xatırladar". Yəni, Uca Allah onları uca məqamda zikr edər. Bu xüsusda qüdsi bir hədisdə deyilir: **"Kim Məni bir toplumun yanında zikr edərsə, Mən onları daha xeyirli bir toplumun yanında zikr edərəm".**[3]

Xülasə, bu hədis insanların izzət və cəlal sahibi Allahı zikr etmək üçün bir yerə toplanmasının fəzilətinə dəlildir. Müvəffəq edən Allahdır.

---

[1] "əl-Fəth" surəsi, 4.

[2] "əl-Leyl" surəsi, 1.

[3] "Səhih əl-Buxari", 4705; "Səhih Muslim", 2675.

Mündəricat

Səksən birinci fəsil: Vəzifə istəməyin bəyənilməməsi, təyin olunmadıqda və ya ehtiyac duyulmadıqda, vəzifədən uzaq durmağı seçmək 5
674-cü hədis 6
675-ci hədis 9
676-cı hədis 9
677-ci hədis 10
Səksən ikinci fəsil: Dövlət başçısını, hakimi və digər rəhbər şəxsləri özlərinə saleh köməkçi seçməyə təşviq etmək, habelə onları *özlərinə* pis yoldaşlar *seçməkdən* və onların sözlərinə qulaq asmaqdan çəkindirmək 13
678-ci hədis 15
679-cu hədis 16
Səksən üçüncü fəsil: Dövlətə rəhbərlik, hakimlik və digər rəhbər vəzifələr tələb edən və ya bu vəzifələrə həris olan şəxsləri *bu vəzifələrə* təyin etməyin qadağan olması 18
680-ci hədis 18

ƏDƏB KİTABI

Səksən dördüncü fəsil: Həya, onun fəziləti və həyalı olmağa təşviq 21
681-ci hədis 21
682-ci hədis 21
683-cü hədis 23
684-cü hədis 28
Səksən beşinci fəsil: Sirri qorumaq 31
685-ci hədis 33
686-cı hədis 34
687-ci hədis 35
688-ci hədis 36
Səksən altıncı fəsil: Əhdə vəfa etmək və vədi yerinə yetirmək 40
689-cu hədis 41
690-cı hədis 42
691-ci hədis 42

Səksən yeddinci fəsil: İnsanın, adət etdiyi xeyirli işlərdə davamlı olması 49
692-ci hədis 49
Səksən səkkizinci fəsil: *Biri ilə* qarşılaşdıqda gözəl söz söyləmək və gülərüz olmaq 53
693-cü hədis 53
694-cü hədis 53
695-ci hədis 54
Səksən doqquzuncu fəsil: Qarşı tərəflə aydın və anlaşılan şəkildə danışmaq, lazım gələrsə, başa düşülməsi üçün sözü təkrarlamaq 56
696-cı hədis 56
697-ci hədis 56
Doxsanıncı fəsil: Haram olmayan söhbətlərdə qarşı tərəfin söhbətini dinləmək, alimin və ya xətibin, məclisində iştirak edənlərdən susub, onu dinləmələrini tələb etməsi 59
698-ci hədis 59
Doxsan birinci fəsil: Öyüd-nəsihət vermək və bu xüsusda orta yol tutmaq 62
699-cu hədis 66
700-cü hədis 67
701-ci hədis 69
702-ci hədis 69
Doxsan ikinci fəsil: Vüqarlı və təmkinli olmaq 76
703-cü hədis 78
Doxsan üçüncü fəsil: Namaza, elm öyrənməyə və digər ibadətləri yerinə yetirməyə gedərkən, vüqarlı və təmkinli olmağın müstəhəb olması 79
704-cü hədis 80
705-ci hədis 80
Doxsan dördüncü fəsil: Qonağa ehtiram göstərmək 86
706-cı hədis 91
707-ci hədis 91
Doxsan beşinci fəsil: Xeyirli işlərlə müjdə verməyin və bundan dolayı təbrik etməyin müstəhəb olması 95
708-ci hədis 100

709-cu hədis 101
710-cu hədis 111
711-ci hədis 115
Doxsan altıncı fəsil: Bir adamın, səfər və başqa bu kimi səbəblərdən dolayı öz yoldaşından ayrılarkən onunla vidalaşması, ona vəsiyyətini etməsi, onun üçün dua etməsi və ondan dua etməsini istəməsi 121
712-ci hədis 123
713-cü hədis 124
714-cü hədis 130
715-ci hədis 130
716-cı hədis 131
717-ci hədis 131
Doxsan yeddinci fəsil: İstixarə və məşvərət 135
718-ci hədis 135
Doxsan səkkizinci fəsil: İbadət yerlərini artırmaq məqsədilə bayram namazına, xəstə ziyarətinə, həccə, döyüşə, cənazəyə və başqa bu kimi yerlərə gedərkən bir yolla gedib, başqa bir yolla qayıtmağın müstəhəb olması 140
719-cu hədis 140
720-ci hədis 140
Doxsan doqquzuncu fəsil: Dəstəmaz, qüsl və təyəmmüm almaq, paltar, ayaqqabı, xuf və şalvar geyinmək, məscidə daxil olmaq, misvakdan istifadə etmək, sürmə çəkmək, dırnaqları tutmaq, bığı qısaltmaq, qoltuqaltı tükləri qoparmaq, başı qırxmaq, namazı bitirdikdə salam vermək, yemək yemək, içmək, salamlaşmaq, qara daşa toxunmaq, ayaqyolundan çıxmaq, bir şey vermək və ya almaq kimi bunlara bənzər bütün yaxşı əməllərdə sağla başlamağın; bunların əksi olan burnu təmizləmək, sola tüpürmək, ayaqyoluna girmək, məsciddən çıxmaq, xufu, ayaqqabını, şalvarı və paltarı çıxartmaq, ayaqyolunda təmizlənmək və başqa bu kimi yaxşı sayılmayan işlərdə isə sola üstünlük verməyin müstəhəb olması 144
721-ci hədis 150
722-ci hədis 150

723-cü hədis 152
724-cü hədis 152
725-ci hədis 152
726-cı hədis 152
727-ci hədis 153

YEMƏK ƏDƏBİ KİTABI

Yüzüncü fəsil: Yeməyin əvvəlində "bismilləh" demək, sonunda isə həmd etmək 157
728-ci hədis 157
729-cu hədis 157
730-cu hədis 159
731-ci hədis 161
732-ci hədis 164
733-cü hədis 164
734-cü hədis 165
735-ci hədis 165
Yüz birinci fəsil: Yeməyi pisləməmək və onu tərifləməyin müstəhəb olması 168
736-cı hədis 168
737-ci hədis 168
Yüz ikinci fəsil: Oruclu ikən yeməyə dəvət olunan kimsənin yemək yemədiyi təqdirdə deyəcəyi söz 170
738-ci hədis 170
Yüz üçüncü fəsil: Yeməyə dəvət olunan şəxsə *yolda* başqa birisi də qoşularsa, *dəvət olunan* nə deməlidir 173
739-cu hədis 173
Yüz dördüncü fəsil: Öz qabağından yemək, pis bir şəkildə yemək yeyənə nəsihət etmək və ona yemək ədəbini öyrətmək 176
740-cı hədis 176
741-ci hədis 176
Yüz beşinci fəsil: Toplum halında yemək yeyərkən, yanındakıların izin verməsi istisna olmaqla, xurma və ona bənzər yeməkləri iki-iki yeməyin qadağan olması 182
742-ci hədis 182

Yüz altıncı fəsil: Yemək yeyərkən doymayan şəxs nə deməli və nə etməlidir 184
743-cü hədis 184
Yüz yeddinci fəsil: Boşqabın kənarlarından yeməyin əmr olunması, ortasından yeməyin isə qadağan olunması 186
744-cü hədis 186
745-ci hədis 186
Yüz səkkizinci fəsil: Söykənmiş halda yemək yeməyin məkruh olması .. 190
746-cı hədis 190
747-ci hədis 190
Yüz doqquzuncu fəsil: Üç barmaqla yemək yeməyin və barmaqları yalamağın müstəhəb olması; barmaqları yalamadan öncə silməyin bəyənilməməsi; boşqabı yalamağın və yerə düşən loxmanı yerdən götürüb yeməyin müstəhəb olması; barmaqları yaladıqdan sonra onları biləklərə, ayaqlara və başqa yerlərə silməyin isə caiz olması 193
748-ci hədis 193
749-cu hədis 193
750-ci hədis 193
751-ci hədis 194
752-ci hədis 194
753-cü hədis 194
754-cü hədis 195
Yüz onuncu fəsil: Toplu halında yemək yemək 199
755-ci hədis 199
756-cı hədis 199

İÇMƏK ƏDƏBLƏRİ

Yüz on birinci fəsil: Bir şey içərkən qabın çölünə doğru üç dəfə nəfəs alıb-verməyin müstəhəb olması, qabın içinə nəfəs alıb-verməyin isə bəyənilməməsi, habelə, birinci adam içəndən sonra içkini onun sağ tərəfindəkilərə sıra ilə ötürməyin müstəhəb olması 200
757-ci hədis 200
758-ci hədis 200

759-cu hədis 200
760-cı hədis 201
761-ci hədis 201
Yüz on ikinci fəsil: Tuluğun və ona bənzər qabların ağzından su içməyin haram deyil, məkruh olması 206
762-ci hədis 206
763-cü hədis 206
764-cü hədis 206
Yüz on üçüncü fəsil: İçiləcək şeylərə üfürməyin bəyənilməməsi..... 209
765-ci hədis 209
766-cı hədis 209
Yüz on dördüncü fəsil: Ayaq üstə içməyin caiz, oturaraq içməyin isə daha kamil və daha üstün olması 212
767-ci hədis 212
768-ci hədis 212
769-cu hədis 212
770-ci hədis 213
771-ci hədis 213
772-ci hədis 213
Yüz on beşinci fəsil: Camaata içəcək paylayan şəxsin ən son içən olmasının müstəhəb olması 219
773-cü hədis 219
Yüz on altıncı fəsil: Qızıl və gümüş qablardan başqa bütün pak qablarda içməyin icazəli olması; yemək, içmək, təharət və digər məsələlərdə qızıl və gümüş qablardan istifadə etməyin haram olması; axar sudan və başqa bu kimi yerlərdən *əl və qabdan istifadə etmədən* ağızla su içməyin isə caiz olması 221
774-cü hədis 221
775-ci hədis 222
776-cı hədis 222
777-ci hədis 222
778-ci hədis 223

LİBAS KİTABI

Yüz on yeddinci fəsil: Ağ paltar geyinməyin müstəhəb, qırmızı, yaşıl, sarı və qara rənglərin, habelə ipək istisna olmaqla, pambıq, kətan, qıl, yun və digər paltarları geyinməyin caiz olması .. 227

779-cu hədis 231

780-ci hədis 231

781-ci hədis 231

782-ci hədis 233

783-cü hədis 234

784-cü hədis 234

785-ci hədis 236

786-cı hədis 236

787-ci hədis 237

788-ci hədis 237

Yüz on səkkizinci fəsil: Köynək geyinməyin müstəhəb olması 243

789-cu hədis 243

Yüz on doqquzuncu fəsil: Köynəyin, onun qollarının, izarın və əmmamə sarığının uclarının uzunluğunun nə qədər olması, bunları təkəbbürlükdən dolayı topuqdan aşağı uzatmağın haram, başqa səbəbdən dolayı uzatmağın isə məkruh olması 244

790-cı hədis 244

791-ci hədis 244

792-ci hədis 245

793-cü hədis 245

794-cü hədis 245

795-ci hədis 246

796-cı hədis 249

797-ci hədis 257

798-ci hədis 259

799-cu hədis 269

800-cü hədis 269
801-ci hədis 269
Yüz iyirminci fəsil: Təvazökarlıq göstərib dəbdəbəli geyimi tərk etməyin müstəhəb olması 273
802-ci hədis 273
Yüz iyirmi birinci fəsil: Paltar geyinməkdə orta yol tutmağın müstəhəb olması və ehtiyac duyulmadığı, yaxud dini bir məqsəd olmadığı müddətcə dəyərsiz paltarlarla qane olmamaq 275
803-cü hədis 275
Yüz iyirmi ikinci fəsil: İpək paltar geyinməyin, habelə ipək bir şeyin üzərində oturmağın və ya ona söykənməyin kişilərə haram olması, qadınlara isə ipək paltar geyinməyin icazəli olması 277
804-cü hədis 277
805-ci hədis 277
806-cı hədis 277
807-ci hədis 278
808-ci hədis 278
809-cu hədis 278
Yüz iyirmi üçüncü fəsil: Qaşınma xəstəliyi olan kimsəyə ipək paltar geyinməyin icazəli olması 281
810-cu hədis 281
Yüz iyirmi dördüncü fəsil: Pələng dərisindən yorğan-döşək kimi istifadə etməyin, habelə *ondan düzələn yəhərin* üzərinə minməyin qadağan olması 283
811-ci hədis 283
812-ci hədis 283
Yüz iyirmi beşinci fəsil: Yeni paltar geyindikdə nə deyilir 285
813-cü hədis 285
Yüz iyirmi altıncı fəsil: Paltar geyinərkən sağdan başlamağın müstəhəb olması 287

YATMAQ ƏDƏBLƏRİ KİTABI

Yüz iyirmi yeddinci fəsil: Yatmaq, söykənmək, oturmaq, məclis və məclis iştirakçılarına *qarşı davranış* ədəbləri və yuxu *ilə bağlı məsələlər* 288

814-cü hədis 288

815-ci hədis 288

816-cı hədis 293

817-ci hədis 293

818-ci hədis 296

819-cu hədis 296

Yüz iyirmi səkkizinci fəsil: Boyun üstə uzanmağın, övrət yerinin görünməyəcəyindən əmin olduğu halda bir ayağı digərinin üzərinə aşırmağın, bardaş qurmaq və dizlərini qucaqlayıb oturmağın caizliyi 299

820-ci hədis 299

821-ci hədis 299

822-ci hədis 299

823-cü hədis 300

824-cü hədis 300

Yüz iyirmi doqquzuncu fəsil: Məclisin və məclisdəkilərin ədəbləri... 302

825-ci hədis 302

826-cı hədis 302

827-ci hədis 304

828-ci hədis 305

829-cu hədis 307

830-cu hədis 308

831-ci hədis 308

832-ci hədis 308

833-cü hədis 310

834-cü hədis 311

835-ci hədis 315
836-cı hədis 316
837-ci hədis 316
Yüz otuzuncu fəsil: Yuxu və ona aid məsələlər 318
838-ci hədis 318
839-cu hədis 318
840-cı hədis 319
841-ci hədis 319
842-ci hədis 322
843-cü hədis 322
844-cü hədis 323

SALAM KİTABI

Yüz otuz birinci fəsil: Salamın fəziləti və onu yaymağın əmr edilməsi .. 326
845-ci hədis 332
846-cı hədis 335
847-ci hədis 337
848-ci hədis 337
849-cu hədis 338
850-ci hədis 338
Yüz otuz ikinci fəsil: Salamın necəliyi 341
851-ci hədis 341
852-ci hədis 341
853-cü hədis 342
854-cü hədis 345
855-ci hədis 345
856-cı hədis 346
Yüz otuz üçüncü fəsil: Salamın ədəbləri 349
857-ci hədis 349
858-ci hədis 349

Yüz otuz dördüncü fəsil: Yenidən görüşdüyü adama, daxil olub çıxan, sonra yenidən daxil olan kəsə, araya ağac və ya başqa bir maneə girdikdə salamı təkrarlamağın müstəhəbliyi 351
859-cu hədis 351
860-cı hədis 351
Yüz otuz beşinci fəsil: Evinə daxil olan kəsin salam verməsinin müstəhəbliyi 352
861-ci hədis 352
Yüz otuz altıncı fəsil: Uşaqlara salam vermək 355
862-ci hədis 355
Yüz otuz yeddinci fəsil: Kişinin öz xanımına, məhrəmlərindən birinə və yalnız fitnə olmayacağından əmin olması şərtilə başqa qadına və ya qadınlara salam verməsi 356
863-cü hədis 356
864-cü hədis 356
865-ci hədis 357
Yüz otuz səkkizinci fəsil: Kafirə birinci salam verməyin haramlığı, ona cavab verməyin necəliyi, içərisində həm müsəlmanlar, həm də kafirlər olan məclis əhlinə salam verməyin müstəhəbliyi 360
866-cı hədis 360
867-ci hədis 360
868-ci hədis 360
Yüz otuz doqquzuncu fəsil: Məclisdən qalxdıqda və məclis əhlini tərk etdikdə salam verməyin müstəhəbliyi 366
869-cu hədis 366
Yüz qırxıncı fəsil: İzin alma və onun ədəbləri 368
870-ci hədis 368
871-ci hədis 368
872-ci hədis 369
873-cü hədis 369

Yüz qırx birinci fəsil: Qapını döyən adama: "Sən kimsən?" deyildikdə "filankəs" deyərək adını, tanındığı kunyə və ya ləqəbi deməsinin Sünnə, "mənəm" deməyin isə məkruh olması 373
874-cü hədis 373
875-ci hədis 373
876-cı hədis 374
877-ci hədis 374
Yüz qırx ikinci fəsil: Asqıran adam uca Allaha həmd etdikdə ona cavab verməyin müstəhəb, "əlhəmdulilləh" demədikdə isə ona cavab verməyin məkruh olması; asqırmağa cavabın, asqırmağın və əsnəməyin ədəbləri 375
878-ci hədis 375
879-cu hədis 375
880-ci hədis 376
881-ci hədis 376
882-ci hədis 380
883-cü hədis 380
884-cü hədis 380
Yüz qırx üçüncü fəsil: Görüşdükdə əllə görüşməyin, təbəssüm etməyin, əməlisaleh bir insanın əlini öpməyin, övlada rəhm edərək onu öpməyin, səfərdən gələni qucaqlamağın müstəhəbliyi, onun qarşısında əyilməyin məkruh olması 382
885-ci hədis 382
886-cı hədis 382
887-ci hədis 382
888-ci hədis 383
889-cu hədis 384
890-cı hədis 385
891-ci hədis 385
892-ci hədis 385
893-cü hədis 389

XƏSTƏNİ ZİYARƏT ETMƏK VƏ CƏNAZƏNİ MÜŞAYİƏT ETMƏK KİTABI

Yüz qırx dördüncü fəsil: Meyitə namaz qılmaq, onun dəfnində iştirak etmək, dəfndən sonra məzarının yanında oturmaq 392
894-cü hədis 392
895-ci hədis 394
896-cı hədis 396
897-ci hədis 399
898-ci hədis 399
899-cu hədis 401
900-cü hədis 401
Yüz qırx beşinci fəsil: Xəstə üçün necə dua edilir 405
901-ci hədis 405
902-ci hədis 405
903-cü hədis 406
904-cü hədis 408
905-ci hədis 408
906-cı hədis 409
907-ci hədis 410
908-ci hədis 411
909-cu hədis 413
Yüz qırx altıncı fəsil: Xəstə yaxınlarından onun barəsində soruşmaq. 415
910-cu hədis 415
Yüz qırx yeddinci fəsil: Həyatdan ümidini üzən kəs nə deməlidir..... 417
911-ci hədis 417
912-ci hədis 417
Yüz qırx səkkizinci fəsil: Xəstənin öz ailəsinə, ona gözəl şəkildə qulluq edən kəsə vəsiyyət qoymasının müstəhəbliyi, qarşılaşdığı çətinliklərə səbir etməsi, həmçinin ölüm səbəbi şəri cəza, qisas kimi səbəblərdən yaxın olan kəsin vəsiyyət etməsinin müstəhəbliyi..... 420
913-cü hədis 420

Yüz qırx doqquzuncu fəsil: Xəstənin: ağrıyıram, çox ağrıyıram, xəstəyəm, vay başım və s. bu kimi sözlər deməsinin caizliyi, dedikləri narazılıq və ağrının izhar edilməsi məqsədilə deyilmirsə, bunun məkruh olmamasının bəyanı 423
914-cü hədis 423
915-ci hədis 423
916-cı hədis 423
Yüz əllinci fəsil: Ölüm anında olan kəsə "la ilahə illəllah"ı təlqin etmək 428
917-ci hədis 428
918-ci hədis 428
Yüz əlli birinci fəsil: Meyitin gözlərini bağladıqda nə deyilir 432
919-cu hədis 432
Yüz əlli ikinci fəsil: Meyitin yanında nə deyilir, həmçinin bir kimsəsi ölən adam nə deməlidir 436
920-ci hədis 436
921-ci hədis 436
922-ci hədis 437
923-cü hədis 437
924-cü hədis 438
Yüz əlli üçüncü fəsil: Ölüyə vay-şivən qoparmadan ağlamağın hökmü . 440
925-ci hədis 440
926-cı hədis 441
927-ci hədis 442
Yüz əlli dördüncü fəsil: Meyitdə xoşagəlməz bir şey görən kəs onu gizlətməlidir 445
928-ci hədis 445
Yüz əlli beşinci fəsil: Meyitə namaz qılmaq, onu müşayiət etmək, dəfnində iştirak etmək; qadınların cənazəni müşayiət etməsinin bəyənilməməsi 447
929-cu hədis 447
930-cu hədis 447
931-ci hədis 447

Yüz əlli altıncı fəsil: Cənazə üzərində namaz qılanların çox olması və sıraların üç və daha çox olması 451
932-ci hədis 451
933-cü hədis 451
934-cü hədis 451
Yüz əlli yeddinci fəsil: Cənazə namazında oxunanlar 454
935-ci hədis 454
936-cı hədis 457
937-ci hədis 458
938-ci hədis 459
939-cu hədis 460
940-cı hədis 460
Yüz əlli səkkizinci fəsil: Cənazədə tələsmək 461
941-ci hədis 461
942-ci hədis 461
Yüz əlli doqquzuncu fəsil: Ölünün borcunu ödəməyə və onu hazırlamağa tələsmək. Yalnız qəfil ölən kəs istisnadır – beləsinin ölüb-ölmədiyi dəqiqləşənə qədər gözləmək lazımdır 465
943-cü hədis 465
944-cü hədis 465
Yüz altmışıncı fəsil: Məzarın yanında moizə demək 468
945-ci hədis 468
Yüz altmış birinci fəsil: Meyiti dəfn etdikdən sonra onun üçün dua etmək, bağışlanma diləmək, məzarının yanında bir saat oturmaq və qəbri başında qiraət etmək 473
946-cı hədis 473
947-ci hədis 473
Yüz altmış ikinci fəsil: Meyitin əvəzinə sədəqə vermək və onun üçün dua etmək 475
948-ci hədis 475
949-cu hədis 475

Yüz altmış üçüncü fəsil: Ölmüş adamı tərifləmək 479
950-ci hədis 479
951-ci hədis 479
Yüz altmış dördüncü fəsil: Kiçik övladları ölən kəsin fəziləti 483
952-ci hədis 483
953-cü hədis 483
954-cü hədis 483
Yüz altmış beşinci fəsil: Zalımların məzarının yanından keçərkən qorxub ağlamaq, Uca Allaha möhtac olmağı izhar etmək və bundan qəflətdə olmaqdan həzər etmək 486
955-ci hədis 486

SƏFƏR ƏDƏBLƏRİ KİTABI

Yüz altmış altıncı fəsil: Səfərə cümə axşamı günü və səhər vaxtı çıxmağın müstəhəbliyi 488
956-cı hədis 488
957-ci hədis 488
Yüz altmış yeddinci fəsil: Dost götürməyin müstəhəbliyi, onların özlərinə bir nəfəri əmir seçərək ona itaət etmələri 491
958-ci hədis 491
959-cu hədis 491
960-cı hədis 491
961-ci hədis 492
Yüz altmış səkkizinci fəsil: Səfərdə getmək, enmək, gecələmək və yatmaq kimi məsələlərin ədəbləri. Piyada getməyin, heyvanlarla nəzakətli davranmağın və onların qayğısına qalmağın müstəhəbliyi 494
962-ci hədis 494
963-cü hədis 494
964-cü hədis 496
965-ci hədis 497

966-cı hədis 497
967-ci hədis 497
968-ci hədis 498
Yüz altmış doqquzuncu fəsil: Yoldaşa yardım etmək 501
969-cu hədis 501
970-ci hədis 501
971-ci hədis 502
Yüz yetmişinci fəsil: Səfər üçün miniyə mindikdə deyilənlər 503
972-ci hədis 503
973-cü hədis 507
974-cü hədis 508
Yüz yetmiş birinci fəsil: Müsafirin yüksək yerə çıxdıqda təkbir gətirməsi, çökəkliyə endikdə isə sübhanallah deməsi, təkbiri çox yüksək səslə deməyin qadağan olunması 511
975-ci hədis 511
976-cı hədis 511
977-ci hədis 512
978-ci hədis 513
979-cu hədis 513
Yüz yetmiş ikinci fəsil: Səfərdə dua etməyin müstəhəbliyi 516
980-ci hədis 516
Yüz yetmiş üçüncü fəsil: İnsanlardan və ya başqalarından qorxduqda necə dua edilir? 518
981-ci hədis 518
Yüz yetmiş dördüncü fəsil: Bir yerə çatdıqda nə deyilir? 519
982-ci hədis 519
983-cü hədis 519
Yüz yetmiş beşinci fəsil: Səfərdə olanın öz işlərini bitirdikdən sonra ailəsinin yanına qayıtmağının müstəhəbliyi 522
984-cü hədis 522

Yüz yetmiş altıncı fəsil: Ailəsinin yanına gündüz gəlməyin müstəhəbliyi, gecə gəlməyin isə zərurət olmadan bəyənilməməsi 524
985-ci hədis 524
986-cı hədis 524
Yüz yetmiş yeddinci fəsil: Səfərdən qayıdan kəs öz şəhərini gördükdə nə deməlidir 525
987-ci hədis 525
Yüz yetmiş səkkizinci fəsil: Səfərdən gələnin ilk öncə yaxınlıqdakı məsciddən başlamasının və orada iki rükət namaz qılmasının müstəhəbliyi 526
988-ci hədis 526
Yüz yetmiş doqquzuncu fəsil: Qadının təkbaşına səfərə çıxmasının haram olması 528
989-cu hədis 528
990-cı hədis 528

FƏZİLƏTLƏR KİTABI

Yüz səksəninci fəsil: Quran oxumağın fəziləti 531
991-ci hədis 534
992-ci hədis 535
993-cü hədis 536
994-cü hədis 537
995-ci hədis 539
996-cı hədis 541
997-ci hədis 543
998-ci hədis 545
999-cu hədis 549
1000-ci hədis 549
1001-ci hədis 550
Yüz səksən birinci fəsil: Quranı təkrarlamağa əmr və onu unutmaqdan çəkindirmə 551
1002-ci hədis 551
1003-cü hədis 551

Yüz səksən ikinci fəsil: Quran oxuyarkən səsi gözəlləşdirmək, gözəl səsi olandan Quran oxumağı istəmək və onu dinləmək 553
1004-cü hədis 553
1005-ci hədis 553
1006-cı hədis 555
1007-ci hədis 556
1008-ci hədis 556
Yüz səksən üçüncü fəsil: Xüsusi surə və ayələrə təşviq 561
1009-cu hədis 561
1010-cu hədis 563
1011-ci hədis 563
1012-ci hədis 566
1013-cü hədis 566
1014-cü hədis 567
1015-ci hədis 567
1016-cı hədis 567
1017-ci hədis 568
1018-ci hədis 570
1019-cu hədis 571
1020-ci hədis 574
1021-ci hədis 584
1022-ci hədis 584
Yüz səksən dördüncü fəsil: Qiraət üçün bir yerə toplanmağın müstəhəbliyi 588
1023-cü hədis 588